

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ

***(Mərsiyə-Rekviyem, hekayələr, pyeslər, tele-radio pyeslər)***

*On iki cilddə*

# IX *cild*

Bakı - 2009
"ELM" nəşriyyatı

*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

**Bəxtiyar Vahabzadə. Əsərləri. On** iki clddə. IX cild *(Mərsiyə-Rekviyem, hekayələr, pyeslər, tele-radio pyeslər)* - Bakı,"Elm" nəşriyyatı, 2009. - 814 s.

İSBN 5-86874-037-8

V $\frac{4702060000}{055\ (09) - 2009}$ *Qrifli nəşr*

© B.Vahabzadə - 2009

# B.VAHABZADƏ DRAMATURGİYASINDA ÖZGƏLƏŞƏNLƏR VƏ DOĞMALAŞANLAR

*Azərbaycan şeirini fəlsəfi zirvəyə qaldırandan, epik-lirik poemaları ilə azadlıq carçısına çevriləndən, elmi əsərləri ilə söz sənətinin sirlərini açıqlayandan, publisistik yazıları ilə acı gerçəkliklərə güzgü tutandan sonra Bəxtiyar Vahabzadənin dramaturgiyaya gəlişinə səbəb nə idi? Onun yetmiş səkkizi haqlayan ömür yoluna ötəri nəzər salanda bir məsələni sezməmək mümkün deyil. Böyük şairin həyatı dramatik hadisələrlə zəngindir. O, anadan doğulanda yer üzünə içərisində dövrün olaylarına qarşı üsyankarlıq, barışmazlıq da gətirmişdi. Səməd Vurğunun xeyir-duasını alıb söz sənətində özünü təsdiqlədən kimi daxilindəki narahatlıq üzə çıxır. İlk olaraq etirazı xalqının müstəmləkə halına salınmasına və «mədəni» şəkildə köləliyə sövq edilməsinə yönəlir. İmperiya ilə barışmazlığını yaradıcılığının başlanğıcında büruzə verdiyindən üsyankarlığına görə qələm dostlarından fərqlənməyə başlayır. Heç nə onun xarakterini dəyişdirə, yolundan sapındıra bilmir. Keçən əsrin 50-ci illərinin sonunda qəfil «Gülüstan» harayı qoparmaqla hamını silkələyib yuxudan oyadır. O, həmişə dilimizin qorunmasına çalışır. Bəxtiyar Vahabzadə elə dramatik hadisələrin mərkəzində durur ki, taleyi barədə düşünməyə macal tapmır, cəzalanacağını hər an gözləsə də, amalı Dədə Qorqudun, Nəsiminin, Xətayinin, Füzulinin, Vaqifin, Mirzə Fətəlinin, Sabirin, Cəlil Məmmədquluzadənin dilini gələcək nəsillərə daha da inkişaf etmiş səviyyədə çatdırmaq olur, millətinin süni yolla rustlaşdırılmasının qabağına misraları və çıxışları ilə sipər çəkir. Və inandkarlığı elə həddə çatır ki, ən yüksək dairələrdə onunla hesablaşmaq məcburiyyətində qalırlar. Təsadüfi deyil ki, 1986-cı ildə Moskvanın Azərbaycanın, eləcə də digər milli respublikaların ali təhsil ocaqlarını rus dilinə keçirmək niyyətləri Bakıda məhz şairin işə qoşulması ilə boşa çıxır. Bəxtiyar Vahabzadənin keçməkeşli həyatının kulminasiya nöqtəsi isə 1990-cı ilin qanlı yanvar faciəsinə düşür. Şair qırğının səhəri günü Azərbaycan Teleradio komitəsinin binasında azğın rus generalının üzünə tüpürməklə elin qəsbkarlara nifrətini ifadə edir. Az qalır ki, güllələnsin. Həmfikirləri ilə birlikdə çətinliklə də olsa, Ali Sovetin Fövqaladə Sesiyasını çağırır. İclası aparacaq şəxs vəzifəsini icra etməkdən boyun qaçıranda şair rəyasət heyətinə qalxıb Azərbaycanın müstəqilliyi haq-*

*qında tarixi qərar qəbul etdirir... Belə dramatik həyat yaşayan yaradıcı və mübariz insanın dramaturgiyaya gəlişi öz daxili tələbatını ödəməklə bağlı idi. Əslində şairin ömür yolunun ayrı-ayrı səhifələri yaxşı bir dram əsərinin mövzusudur. Və şübhə yoxdur ki, onun barəsində çoxlu səhnə əsərləri yaranacaqdır.*

*Bəxtiyar Vahabzadənin daramaturgiyaya gəlməkdə əsas məqsədi aşılamaq istədiyi ideyaları əyani şəkildə xalqa göstərmək idi. Diqqət yetirsək, görərik ki, o, ilk pyeslərində insanlardakı buz bağlamış «Vicdan»ların (dırnaqda verilənlər Bəxtiyar Vahabzadənin pyeslərinin adlarıdır) donunu açmaq istəyirdi. Çünki yatmış ruhlarda milli qeyrət itib-batdığından əksər soydaşlarına xalqın keçmişini, kökünü anlatmağın əhəmiyyəti yox idi. «Vicdan»ı oyanandan sonra insan artıq meydana gələn «İkinci səs»lə, yəni vicdanının səsi ilə danışmaq imkanı əldə edir. Öz içərisindən gələn ikinci səsə səs vermək ya «Yağışdan sonra»kı yağmurla nəticələnə, ya da göbələktək artıb çoxala bilər. Lakin şair «Yollara iz düşür»müş, xalqın kökünə doğru uzanan cığırları ot-alaqdan təmizləmiş, insanları özünü tanımağa sövq etmişdi. Artıq gediləsi yerləri müəyyənləşdirmək mümkün idi. «Fəryad» qoparmaq zamanı gəlib çatdığından haqqa tapınmağı dərisi soyulmuş Nəsimidən öyrənmək lazım idi. Ancaq çox şeylər itirilmişdi. Zamanla ayaqlaşmaq günü-gündən çətinləşirdi. Hər yanı hərislik bürüyür, pula, vəzifəyə uyanlar böyüyün üzünə ağ olurdular. Növbəti səhnə əsərində şair belə bir sorğuya cavab axtarırdı: axı «Hara gedir bu dünya»? Faciələrimizin əsas səbəbi o idi ki, «Özümüzü kəsən qılınc»lar vətənimizi içəridən tarix boyu didib parçalamışdı. Bu, Göy türk imperiyası çağlarında da belə olmuş, indi də belədir. «Cəzasız günahlar»ın daşıyıcıları isə hər yerdə «Dar ağacı» qururdular. Şairi bəlkə ən çox düşündürən məsələlərdən biri doğmaların bir-birinə qarşı bir mənzildə yadlaşması, «özgələşməsi» idi. «Atamın kitabı» pyesində dünyasını vaxtsız dəyişmiş represiya qurbanı atanın dörd oğlu ana laylasını unudub yad havalara oynayır. Biri ingilisin, biri osmanlı türkünün, biri rusun, biri də farsın quyruğunda dolaşır. Bəs onları yadlaşdırıb özgə dillərdə danışmağa vadar edən nə idi? Əlbəttə, ilk olaraq millətin başının üstündə qılınc tutan imperiyaların Dədə Qorqud tək ulu ərənlərimizin tövsiyyələrini unutdurması, kökümüzdən ayırması, tariximizi əlimizdən alması... Bir istilaçı məsləhət görürdü ki, kölə etmək üçün xalqın tarixini yaddaşlardan silmək kifayətdir... Bəxtiyar Vahabzadə bu həqiqəti dərk etdiyindən ən çox pyesləri vasitəsi ilə çalışır ki, millətinə kimliyini tanıtdırsın, daha doğrusu, dram əsərlərinin səhnə həyatı ilə əyani şəkildə göstərsin ki, biz Dədə Qorqudlar, Koroğlu-*

*lar, Babəklər, Nəsimilər, Mirzə Cəlillər yetişdirən ulu bir elin övladlarıyıq. Xalqının həqiqi tarixinin bərpasına çalışan ziyalılar nəslinin yetişməsində məhz onun lirik şeirləri və poemaları ilə bir sırada dramları da mühüm rol oynamışdır. Onu düşündürən ikinci məsələ budur ki, görəsən zamanın bir-birinə qarşı tamam yadlaşdırdığı övladlar – qardaşlar təzədən doğmalaşa bilərlərmi? «Dar ağacı» dramında Akşin ərəb xilafətinə nökərçilik edib içində boya-başa çatdığı soyunu qul halına gətirir, dədə-babalarının əqidəsini qılınc gücünə dəyişdirir və qan qardaşı Babaki dar ağacından asdırır. Doğmalarının müstəqilliklərini itirməsi hesabına hakimiyyəti ələ keçirir. O, dar ağacları qurmaqla ölkəni uzun müddət idarə etməyin mümkünsüzlüyünü onda anlayır ki, yadlar millətinə mütərəqqi dini əqidə gətirmək pərdəsi altında maddi və mənəvi sərvətləri çapıb-talamağa başlayırlar. Dini inanc, haqqa tapınma əqidəsizlərin, şərəfini itirmişlərin əlində oyuncağa çevrilir. Onda səhvini anlayıb söydaşları ilə «doğmalaşmaq» istəyir. Bu, onun öz faciəsinə çevrilir. Çünki kökünə xəyanət edən taxt-taca yiyələnib vəzifə pillələri ilə yüksəklərə qalxsa da, xoşbəxtlikdən məhrum olur. Ona görə ki, işlətdiyi günah dağlardan da böyük idi, içdiyi müqəddəs ana südünü qana bulaşdırmaqla ruhları incitmişdi.*

*Azərbaycan xalqının əski bir inamında deyilir ki, «Elə etmə ki, torpaq səni qarğasın». Sual doğur: torpağın qarğışı nə ola bilər? İki şey. Birincisi, torpaq deyə bilər: «Sənə nə sağlığında, nə də öləndə sinəm üstə yer tapılmasın!» İkincisi, «Dolaşdığın yerlərdə bin-bərəkət kəsilsin!». Akşinin dünyanı satın almağa pulu, varı vardı, amma bir qarış torpaq tapmır ki, orada rahatlıq tapsın... Yadlaşanların faciəsi məhz bunda idi. Bəxtiyar Vahabzadə soydaşlarına bir həqiqəti açıqlayır ki, «ikinci səs»ə səs verməyə gecikmək də böyük bəladır. Özlərinə «ayaq yeri saxlamayanların» doğmalaşmaq təşəbbüsləri puça çıxacaq.*

* * *

## YADLAŞANLARIN TƏZƏDƏN DOĞMALAŞMASI MÜMKÜNDÜDÜR?..

**Haqqa doğru gedən yolda dar ağacları lazımdırmı?** *Zülmlə insanı sındırıb xristian, müsəlman, bütpərəst etmək mümkündür. Bəs haqsızlıqla haqqa çatan varmı? Allah zor vasitəsiylə deyil, könül xoşluğuyla dərk edilir. Başı qapazlı saxlamaqla böyük kütləni qul kimi işlətmək də olar. Zindanla-*

*rın qapısını açıq qoyub bir xalqı istədiyi havaya oynadan iqtidarlarla da tarixdə çox rastlaşırıq. Lakin qorxu ilə ürəklərə yol tapan yoxdur. Və dəmiri döyməklə qılınca, oxa, nizəyə çevirirlər. Turşu çox tündləşəndə öz qabını sındırır. Sitəm həddini aşanda isə qələm tutan əllər də düyünlənib yumruqlaşır. İnsan əyilə-əyilə, döyülə-döyülə, əzilə-əzilə qullaşmaqla yanaşı öz içində dağıdıcı qüvvə bəsləyir və qəfil zəlzələ kimi birdən meydana çıxardıb hər şeyi alt-üst edir.*

*Doğmalarına arxa çevirib yadların dəyirmanına su tökənlər, milətini özgə dəyənəyinə döydürənlər unudurlar ki, bir gün sığındıqları yağının qoltuğu bədənlərinə dar gələcək. Çünki o qoltuğun altına girənlərin sayı-hesabı tükənəcək. Başqalarının xəyanəti, yaltaqlığı onlarınkını üstələyəcək. Ancaq onda anlayacaqlar ki, bir vaxtlar doğmalarını göndərdikləri dar ağacının ipini çoxdan – elə özününkülərə qarşı yadlaşdıqları andan boğazlarına keçiriblər. B.Vahabzadənin «Dar ağacı» dramının əsas qayəsi nədən ibarətdir? - sualına cavab axtararkən məhz «el keçən körpüləri» qırıb-sökən öz baltalarımızın aqibətini yada salıb bu nəticələrə gəlmək olar. Lakin şairi ikinci minilliyin sonunda «dar ağacı qurmağa» vadar edən təkcə həmin məsələlər deyildi.*

*Pulla hər şey satın alınır. İnsanlıqdan başqa. Əgər dünyada kişiliyin, ərliyin, mərdliyin nə zaman bitdiyi ilə maraqlansalar, görərlər ki, iqtidar taxt-tacları adamların başının üstündən yüksəkdə yerləşdiriləndən, düzlüyün mizan-tərəzisi pozulandan, yalanın kisəsinin ağzı açılandan, şərə meydan sulamağa imkan veriləndən, and içmək dağ saqqızına dönəndən, alqı-satqı yaranandan itməyə başlayıb, başa özgə papaqları qoyulanda isə sona çatıb. Doğmaların yadlaşması məhz bundan sonrakı çağların yetirdiyi şərxislətdir. Və əqidə mübarizəsi sərvət toplamağa yönələndən haqqın, ədalətin də yolunu kol-kos basmağa başlamış, hər şey yalanlar üzərində bərqərar olmuşdur. Düzlüyün mənzili sözdən uzaqda itəndə Babəkin zamanı bitir, Aqşinin zamanı başlanır. Yaşıl bayrağını al-qırmızı qana boyamaqla, ocaqların odunu söndürməklə, qardaşı qardaşa qırdırmaqla İslamı yayanlar Allahı sevdikləri üçün deyil, Allah adına sığınıb gen dünyanı daraltmaq, cəhənnəmi gerçək aləmin içində icad edib, yaradıcının ilk kəşfi kimi o dünyanın ən dərin qatlarında yerləşdirmək niyyətinə düşdükləri üçün çalışırlar. Əslində bu, insanları haqqa çatdırmaq deyil, haqqı danmaqdır.*

**Bəşər övladı daim azadlıq uğrunda vuruşur. Lakin hələ ona çatıb nə olduğunu bilən yoxdur.** *Zaman Babəki azadlığın simvolu kimi meydana gətirmişdi. Babək mütləq müstəqilliyin dadını, ləzzətini Azərbaycana dad-*

*dırdı. Boyunduruqsuz, ağalarsız, ancaq eşqlə, xeyir işlər görməklə, ürəkləri isitməklə yaşamağın nə olduğunu göstərdi. Və Babək iyirminci yüzilliyin əvvəllərində C.Cabbarlının qələmiylə Elxanlaşıb ömür payı müddətində yadların qılıncını qınında paslatdı. Onun qaladığı azadlıq ocağını öz soyundan olanlar söndürdülər. Və özgə papaqlarını xalqın başına taxtılar. B.Vahabzadənin «Dar ağacı»ndakı hadisələr elə o andan - «Od gəlini»ndə Elxanın e'damı tamamlanıb nöqtə qoyulduğu yerdən başlanır.*

*Şair Babəksiz (Elxansız) qalan dünyanı məhşər ayağına çəkir. Babəkin «ata ocağının istisinə qızına-qızına ac-yalavac qalsan da, azad yaşa» ideyasını özgələrin gözü götürmür. Çünki dünyanın haqqa qayıtmaq yolunu Babək ocaq başında, atəşdə görmüşdü. Ona görə də ərəbin qılıncla gətirdiyi əqidəyə qılıncla da cavab verməyi bacarmışdı. Babəkin qılıncının qabağında düşmən orduları pərən-pərən düşmüşdü. O çağa kimi ki, doğması, onunla eyni ananın döşlərindən süd əmən namus qaçağı Aqşin düşmən cəbhəsinə keçib üstünə yeriməmişdi. Elində, obasında öyrəndiyi döyüş fəndlərini yad əsgərlərinə ötürüb ata-babasının qızındığı ocaqları söndürməmişdi.*

*Babəkin tikdiyi azad qalanı öz içindən yeyib dağıtmışdılar. Babəkin qəzəbi nə qədər artıq olsa da, doğmasının qanını tökməyə əlləri gəlməmişdi. Babək ürəklərin soyuqluğu qarşısında, doğmalarının xəyanəti nəticəsində əsir alınmışdı. Elin vuran əlinin biri zatı qırıq çıxdığından hər yerdə dar ağacları qurulmuşdu.*

*Qardaş qardaşa, oğul ataya Allah yolunda qənim kəsilmişdi. Bəlkə də «tanrısına təpik atılmanın» da bünövrəsi o çağlarda qoyulub. Aqşin elə bilirdi ki, İslam bayrağını Azərbaycana gətirməklə, yurdunun ocaqlarını söndürməklə haqqı, ədaləti bərpa edir. Xəlifədən quru padşahlıq titulunu alanda da o, din pərdəsi altında ərəbin boyunduruğunu xalqının boynuna keçirdiyini ağlına yerləşdirmirdi.*

*Dünyanın qılıncla idarə olunduğunu zənn edib ağlın meydanını daraltmışdılar. Namusu, arı tapdalayanların obada daşqalaq edilməsi hələ ədalət məhkəməsində «müqəddəs şeylərə toxunmaq ölümə bərabərdi» qərarının hökm sürdüyündən xəbər verirdi. Gənclik xətalarını ona bağışlamayan xalqının qəzəbindən salamat qurtara bilməyəcəyini başa düşüb Aqşin doğmalarından uzaq qaçmışdı. Səhvlərini e'tiraf etsəydi də, el namusunu murdarladığı üçün odda yanmalıydı. Atəşin rəmzi sayılan qızı aldatdığına görə artıq onun doğmaları arasında yeri yox idi. Müqəddəs ocaq yalançılığı bağışlamağa qadir deyildi. Yalançılıq etmiş insanın e'tirafı da yalan, xəyanət sayılırdı. Vəd və andı pozanlar Əhrimanın şərindən törəyənələr idi. Bəlkə*

*də Babək Aqşinin günahından keçsəydi, qardaş qardaşın qanını tökməzdi. Ancaq ilk baxışda belə təsəvvür yaranır. Əslində isə ocaqların söndürülüb yerində məscidlərin tikilməsi labüd idi. Çünki ədalət, haqq Allahın bəşər övladına verdiyi sifətlərdən biridir. Haqqı ocağın ixtiyarına buraxmaq insanın düz yola qayıtmaq imkanını əlindən alırdı. İslamın qarşısında tövbə edib alqı-satqı dünyasında əvvəlki əməllərinə görə vicdan əzabı çəkmədən yaşaya bilərsən. Ərəbin din pərdəsi altında Azərbaycana gətirdiyi yeni qanun - «keçmiş əməllərdən yaxa qurtarma, tövbəetmə» Aqşin kimilərini tam tə'min edirdi.*

*Zaman Babəkin cismini dar ağacında cansızlaşdırsa da, ruhunu öldürə bilməmiş, azadlıq ocağının istisinə qızınanların ümid çıraqlarını söndürməyə gücü çatmamışdı. Babəkin ruhu boğazı kəndirli, qolları zəncirli halda daim öz elinə satqın çıxanları tə'qib edir.*

*Faciənin ekspozisiyasında qalib ərəb ordusunun qoltuğunda Azərbaycana girən Aqşin İbn Süheylin və İbn Zeydin çaldığı havalara hamını oynatmağa hazırdır. Başsız qalmış xalq qarşısında çıxış edən ərəblərin sərkərdəsi və xəlifənin səlahiyyətli nümayəndəsi namus qaçağını padşah e'lan edirlər. Eləcə də əsirlikdə atasının azadlıq ocağından üz döndərib haqqı İslamda tapan Sabutaya və ağlı, hiyləni gücdən, tülkülüyü mərdlikdən üstün tutan yerli İbn Tahirə xəlifənin şəxsi hədiyyəsini – qılınclar bağışlayırlar. Ərəb mə'murları anlayırlar ki, silahla ancaq insanları var-yoxdan çıxartmaq, hər şeyini – torpağını əlindən almaq mümkündür. Lakin qılıncla əqidə birliyini tə'min etmək və yeni dini beyinlərə yeritmək olmaz. Xalqın inamını qazanmaq üçün İbn Tahirlərin şirin dili işə salınmalıdır. Bağışlanan qılınclar isə burada rəmzi mə'na daşıyır. Hər an başlarının üstündə hiss edib insanlar geriyə yolun olmadığını anlasınlar.*

**Sabutayın tərəddüdləri.** *Aqşin və Babəkin oğlu Sabutay (teatrda bu rolu xalq artisti Nurəddin Mehdixanlı ifa edib) ilk baxışda doğru yolda olan tə'siri bağışlayırlar. Təfəkkürdə oyanış yaradan, yaradıcının Vahidliyini təsdiqləyən yeni, daha mütərəqqi dünyagörüşünün sürətlə bütün Şərqi özünə ram etməsi onlarda da belə qənaət oyatmışdı ki, gec-tez dünyanın bütün sakinləri həmin əqidənin ardınca düşəcək. Köhnə adətlərdən, oda sitayişdən əl çəkib haqqın yolunu düzgün göstərən müsəlmanlığı qəbul etməyi ilk-əvvəl Aqşin, sonra da Sabutay anlamışdı. Əsirlikdən atası Babəkə məktub yazıb İslama çağıran oğul bu işin qurbansız keçməyəcəyini də başa düşürdü. Lakin onlar ərəb xilafətinin qəsbkarlıq niyyətinin insanları Allah sevgisi ilə birliyə çağırmaqdan güclü olduğunu, haqqa dönüşün də «siyasət bazarında» satışa*

*qoyulduğunu görüb uduzduqlarını çox gec dərk edirlər. İlk olaraq Sabutayda tərəddüblər baş qaldırır, əmisinin və xilafət nümayəndələrinin sözü ilə əməlləri üst-üstə düşmür, şübhələr onu içəridən didib-parçalamağa baaşlayır. Damarlarından axan Babək qanı coşub Sabutayı özünə, kökünə döndərmək istəyir. O, elə zənn edirdi ki, atasının irəli sürdüyü azadlıq da, müstəqillik də haqqdan keçir və Babəkə qarşı qurulan dar ağacı, tökülən qanlar belə haqq üçün edilir. Qurbanların çəkisi dünyadan ağır olsa da, labüdlüyünə inanırdı. İnanırdı ki, xalq ancaq Allahı dərk etməklə xoşbəxtliyə çatacaq. Ona görə də atasının qılıncından imtina edib əmisi Aqşinin silahından yapışmışdı. Tərəddüdləri onda biruzə verir ki, xilafətin siyasətində milli ayrı-seçkiliyi görür. Öz tayfasının qız-gəlinlərinin barmaqlarından nişan üzükləri zorla çıxarıldığı halda, Azərbaycanda yerləşdirilən ərəblərdən vergi alınmamasına fərman verilməsi Sabutayı çaşdırır. Bu, haqqa çatmaq deyil, milləti millətə qarşı qoymaq idi. İslam ideyalarında hamının bərabərliyindən, Allahı tanıyan hər kəsin soy kökündən, milli mənsubiyyətindən asılı olmayaraq qardaşlığından söhbət açılırdı. Ərəb xəlifəsinin əməllərində isə Məhəmməd peyğənbərin qoyduğu Allahdan hasil olan əksər prinsiplər pozulur, imtiyaz sahiblərinə qulluq göstərənlər mükafatlandırılır və İslam bayrağı yalnız ərəbin haqqını qoruyanların əlindəki silaha çevirlər. Sabutay atası kimi üsyankar olmasa da, yenidən öz eli ilə doğmalaşmağa can atır. Ancaq o, tanrıdan üz döndərmir, odun müqəddəsliyinə qayıtmır. Bircə Babək nəslinin sağlam qanadını – Çılğını azad edib o yerlərdən uzaq düşmək istəyir. Sufilər kimi tərki-dünyalığa üstünlük verir. Haqqın cəmiyyət içində tapdandığını görüb dərvişlər tək axtarışa çıxmaq istəyir. Sabutay Babəkləşə bilmir. Doğrudur, o, atasına layiq övlad kimi dünyadan köçür. Əlində qılınc təkbaşına yadlarla və yadlaşanlarla vuruşur. Onun doğmaları arasına qayıdışı baş tutmur. Və Sabutay «üsyankarlığı» Babəkliyin davamı deyil, öz nəsli qarşısında günahlarını yumaq idi.*

**Haqqa yalanlarla çatmaq olarmı? A***qşinin (xalq artisti Kamal Xudaverdiyev) faciəsi daha dəhşətli və acınacaqlıdır. O, bir tərəfdən elini haqq yoluna çağırmaqla, tamam qılıncdan keçirilməsinin qarşısını almaqla fədakar sərkərdə, uzaqgörən siyasətçi təsiri bağışlayır. Digər tərəfdən gəncləyində buraxdığı səhvlərə görə məzəmmət edilməsini təkəbbüründən unutmur. İslamı qəbul etmiş el ağsaqqalının hüzuruna gəlişi ilə hər şey öz yerinə qoyula, yadlara qarşı xalqın birliyi yarana bilərdi. Lakin Aqşinin ağsaqqala arxa çevirməsi göstərir ki, qəlbindəki şeytanı qovmaq əvəzinə, yadların əqidəsiylə daim bəsləmiş və öz boğazını da onun caynaqlarına keçirmişdi. Deməli, Aq-*

*şin yaxşılıq üçün doğulmamışdı, ona görə də doğma yurduna yad qılıncıyla dönüb bəlaya çevrilmişdi. Dilində Allahın adını tutsa da, ağaları kimi haqsızlığında əl götürmür, həqiqətdən qaçır, düzlüklə deyil, yalanla özününkülərə yardım əlini uzadır. O, əvvəl qılıncla müsəlmanlığı beyinlərə yeridəcəyinə əmin idi. Ancaq bunda da şəxsi mənfəət güdür, xəlifədən daha yüksək mənsəb və səlahiyyətlər almaq istəyirdi. Anlamırdı ki, köpəyin vəzifəsi gəlib-gedənin üstünə hürməklə qorxutmaqdır. Köpək sahibinə quyruq buladıqca yaxşı yemlənir. Elə ki, qudurub sür-sümük verəninə diş qıcırdır, olan-qalanını itirir. Lakin Aqşin tamamilə şərləşmiş insan deyil. O, anası ilə qarşılaşanda gücsüzləşir, şahlıq qürurunun sındırılmasına belə dözüb qadının üzünə qayıtmır. Doğrudur, Aqşinin tərəddüdləri çox-çox sonralar baş qaldırır. Qardaşını «uf» demədən edam edən şəxs ancaq qızı Çılğının qarşısında təslim bayrağını qaldırır. Onda başa düşür ki, padşahlığı tükdən asılıdır. Əslində heç bir hökmü yoxdur. Bir məhbusu belə azadlığa buraxmaqda acizdi. Döyüş meydanlarında şir kimi vuruşan sərkərdə başına tac qoyulduğu andan cəsarətsizləşib. Yalan üzərində qurulan taxtına güvənmədiyi üçün o, doğmasını xilas etmək yolunu hiyləyə əl atmaqda tapır.*

**Ana haqqı - tanrı haqqıdırmı?** *Dünyanın bütün dərdlərini çiyinlərinə götürən, döşlərindən süd verdiyinə görə doğmalarının da, yadlaşanların da əməllərinə cavabdehliyini anlayan ana (xalq artisti Zenfira Ağakişiyeva) bər-bəzəkli saraya gətirilsə də, kimsəsiz divarlar arasında sıxılır, daim el içinə can atır. Ocaqsız evlər ona soyuq məzar kimi gəlir. Novruz sevinclərindən, ilaxır tonqallarından uzaqda, yurdun hər tinində dar ağacları quranların dəvətsiz-filansız başa keçdiyi yerdə nə ürək qızdırmaq mümkündür, nə haqqa sığınmaq, nə də ədalətə, ixtiyar sahiblərinin ədalətinə inanmaq. Dönük övladın içərisindən gələn səsin tə'siriylə «ana haqqını tanrı haqqı kimi» qəbul etməsi yadelliləri bərk qorxudur və ataşlərin təzədən alovlanıb topladıqları sərvətlərin mənzil başına aparması üçün təhlükə yaratması onları bərk təşvişə salır. Əski inamın da, İslam əqidasinin də ali prinsipini ən alçaq vasitələrə əl atmaqla belə – ataya öz doğma qızını öldürtdürməklə aradan qaldırmaq zərurəti ortaya çıxır. Qardaşının Babəki dar ağacına aparmasını öz qələbələri sanıb başı gicəllənən, harınlaşmış ərəb mə'murlarından ötrü dünyada müqəddəs heç nə yox idi. Onlar üçün hər şeyin – insanın da, ananın da, atanın da, dinin də dəyəri yüklü dəvələrlə, qızıl kisələriylə ölçülürdü. Və Babək anasını ev dustağına çevirib xalqın son ümid çırağını söndürmək istəyirlər. Ana qucağını haqqa doğru uzanan yolun başlanğıcı, səxavətliliyi, xeyirxahlığı, ehtiyaclılara əl tutmağı müsəlmanlığın əsas şərti*

*sayan Məhəmməd peyğənbərin tövsiyələrini də unudub ancaq öz sandıqlarını dolduranlar, talançılıqla var-dövlətini artıranlar oğlun əllərini ananın və balanın al qanına boyamağa hazırdılar. Təki ərəbin sözü işləyən yerlərə burun soxan olmasın.*

*Ana Aqşinin şahlığına güvənib qalan ömrünü ehtiyacsız, dünyanın naznemətini dada-dada keçirməyi Babəkin azadlıq ideyalarının ölməməsinə qurban verir, ocaqların söndürülməsini elin müsibəti kimi qəbul edib atəşpərəst oğlunun qaldırdığı bayrağın endirilməməsinə çalışır. Nəvəsinin həbsi ilə anlayır ki, Babəksizlik böyük bir eli kölə, dilsiz-ağızsız qul halına salıb. O, özünü məş'ələ döndərib həyətlərdə qurulan tonqalları yandırmaq eşqiylə yaşasa da, «əsirlik»dən çıxa, xalqı birləşdirə bilmir. Lakin əsil Ana həmişə anadır. Onun üçün övladın «acısı da bal dadır». Təsadüfi deyil ki, Babək anası son anda dönük övladının faciəsi qarşısında sarsılır. Boğazına ərəbin kəndiri keçiriləndə oğlunun halına yanır, körpəliyində olduğu kimi boynunu qucaqlayıb əzizləmək, oxşamaq, layla çalmaq istəyir.*

**Məhəbbətdən doğulan oğulun dönüklüyünə qarşı m\krd\n dünyaya göz açan qızın dəyanəti və faciəsi.** *Aqşinin gəncliyində aldatdığı qız xəyanətə dözməyib özünü qayadan atır. Bəxtiyar Vahabzadənin şe'r və poemalarında da həyatdan üz döndərən qız və gəlinlərimizin müsibətlərinə rast gəlirik. «Dar ağacı»nda isə nakam qızdan geniş bəhs olunsa da, özü səhnədə görünmür. Ömrünün cavanlıq çağında atdığı yanlış addım Aqşini bütün həyatı boyu izləməsə də, onun hökmdarlıq həyatında dönüş yaradıb e'damına səbəb olan əsas vasitəyə çevrilir. Gül kimi qoxlanıb tullanmış qadının dünyaya gətirdiyi övlad – Çılğın (xalq artisti Məleykə Əsədova) göz açandan doğmalarını itirib kimsəsizləşir, ancaq el arasında ehtiyacın nə olduğunu bilmədən boya-başa çatır, Babək ocağının istisində qızına-qızına mətinləşir.*

*Çılğın obrazı əsərin ana xəttinin daşıyıcısıdır. Onsuz faciə yoxdur. Doğrudur, öz xalqına dar ağacı qurduran Aqşin və Sabutay da böyük fəlakətlə üzləşirlər. Lakin onların törətdikləri, eləcə də öz başlarına gələnlər zamanın içindən süzülüb qəflətən doğan bəla kimi göstərilir. Əslində bu faciə deyil, faciəvilikdir. Çünki Aqşinin əməlləri təbiətin zəlzələsini xatırladır. İnsanlar zəlzələlərdə nə qədər böyük təlafat versələr də, doğmalarını, yaxınlarını itirsələr də allahın onların özlərinin ömür paylarına qıymadığı ilə təsəlli tapır, dağıntılarla, uçqunlarla, ölümlərlə, itirdikləriylə asanlıqla «barışırlar». Çılğının faciəsi isə elə bir xroniki yaraya çevrilir ki, onu illərlə sağaltmaq mümkün olmur.*

*Çılğın ölkədə dar ağacları qurulanda arxasız - Babaksiz qalır, məhz onda yetimliyini hiss edir və gələcəyi təhlükə altına alınır. O, yadların qılıncından çox öz doğmalarının xəyanətinə sarsılır. Ömür-gününü atasız, anasız keçirən bu qız Babəkin azadlıq ocağının ətrafında soyuqluğun, kədərin nə olduğunu bilmir və el şənliklərinin nəğməkarı kimi şöhrət tapır. Uşaqlıq dəcəlliyinə görə Çılğın adını alsa da, onun çılğınlığı Babəkin qurban getdiyi gündən başlanır. Ürəyini isidən tonqalları söndürənlərə qarşı amansız mübarizəyə qoşulur. Əlinə imkan düşəndə ərəb elçisinin çadırını yandırır. O, Babəkin yolunu davam etdirmək imkanına malik yeganə qüvvə tək meydana atılır. Və tale uşaqlıqda itirdiklərini təzədən qaytarmaqla Çılğını iki dəfə bərk sevindirir. Bu sevinclər ani olmaqla yanaşı onun faciəsinin bünövrəsini qoyur. Əmisi oğlu Sabutayla – pərəstişkarı Babəkin yadigarıyla və doğma atası Aqşinlə üz-üzə durur. Əslində insan üçün bundan böyük xoşbəxtlik yoxdur. Lakin Çılğının faciəsi onda idi ki, Sabutay doğma elinə yadların elçisi sifəti ilə gəlsə də, arxasında əli qılınclı, nizəli baş kəsənlər gətirmişdi. Aqşin isə özgələrin boyunduruğunu xalqının boynuna keçirmişdi.*

*Babək nəslində dünyanın bütün təzadları özünü əks etdirir. Bir qardaş od olanda, o biri soyuq dağ selinə dönüb onu söndürür. Babəkin məhəbbətdən – iki atəşdən doğulan oğlu Sabutay babalarının ruhunu incidib özgə əqidənin quluna dönür, Aqşinin məkrdən – buzdan və oddan yaranıb dünyaya göz açan qızı Çılğın isə əksinə, ataların yoluna çıraq tutur. Ailəni ayıran yollar axırda bir mənzildə hamını qarşılaşdırıb üz-üzə qoyur. Lakin hər biri əks sahillərdə dayanıb boylanır, ilk-əvvəl bir-birinin qanını töküb parçalamağa hazır olurlar. Onların yenidən bağlanmaq təşəbbüsləri o qədər çox və ağır təzadlardan keçir ki, qovuşacaqlarına, arzulanan birliyin baş tutacağına ümid qalmır.*

*Çılğının həmişə yuxusunda gördüyü atası ən azı Babək xislətli olmalıydı. Amma əksinə çıxmışdı. Bu mə'sum qız fələyin başına açdığı həmin oyunla da barışmağa hazır idi. Əgər atası və əmisi oğlu xilası üçün düzlüyü danıb yalan danışmağı ondan tələb etməsəydilər. Həyat Babək nəslini elə böyük imtahana çəkir ki, döyüş meydanlarında ölümlə dəfələrlə üz-üzə gəlib qorxusuz, alnı açıq çıxan Aqşin belə aciz, çıxılmaz hala düşür. O, üzdə qızını danmağa da, topladığı bütün sərvətləri yadların ayaqları altına səpməyə də, taxt-tacından əl çəkməyə də hazır idi, təki onun doğmasının - yeganə qızının canına qıymasınlar, həyatda qazandığı son istiliyi şaxta, don vurmasın, Çılğını ölümün pəncəsindən ala bilsin. Atəşdən, oddan törədiyini zənn edən qız isə atasının qayıdışına o halda sevinərdi ki, Aqşin hamının önündə təzədən ocağa sığınıb ona «qızım» desin. Yalnız bundan sonra dar ağacından asılmaq da Çılğına*

*qorxulu gəlməzdi. Ancaq Aqşin son ana kimi qızını yalanla, pulla, alqı-satqı ilə xilas etməyə ümid bəsləyir. Ata ürəyini başa düşmək mümkündür. Hər bir kəs həmin vəziyyətdə bütün vasitələrə əl atardı ki, balasının dar ağacına gedən yolunun qarşısını kəssin. Axı, Aqşin başında padşahlıq tacı gəzdirirdi, fərman sahibiydi, əlində möhürü vardı. O, hər kəs deyildi. Xilafət qarşısında göstərdiyi xidmətlərə görə bir qızın günahlarını ona bağışlamaq böyük itki sayılmamalıydı. Ağaları ən ülvi hisslərini də əlindən almaqla Aqşini paslı silah sayıb zir-zibil içinə tullamağa hazırlaşırdı. Və yadların onu dəhşətli üsulla sınağa çəkməsi (ərəblər şərt qoyurlar ki, ya elçinin çadırını yandıranın doğma qızı olduğunu boynuna alıb xəlifəyə düşmən kəsildiyini e'tiraf etsin, ya da günahkar qızın e'dam fərmanını imzalasın) göstərir ki, haqqa haqqı tapdalamaqla çatmaq olmaz.*

*Həyatda düzlüklə yaşamağı Babəkdən öyrənən Çılğın isə mə'nəvi ucalığın zirvəsinə qaldırılır. O, görür ki, atasının başının üstünü qara buludlar alıb. Aqşin həqiqət yolunu tutsa da, yalana əl atsa da ərəbin qarşısında alçalmalıdı. Onu diz köçdürmək niyyətindədirlər. Çılğın atasının düşmən qarşısında e'tirafının, sınmasının qarşısını almaq üçün zindanda özünü öldürür. Özü də doğmasının xəncəriylə. Qız Aqşinin düşmənə tuşlanan xəncərini yerdən götürüb gizlətmişdi və məhkəmə zamanı həmin əyri xəncəri öz əlləri ilə ürəyinə sancmaqla elə zənn etmişdi ki, ata qolları boynuna dolanır. Çılğın təkcə yadlara deyil, öz soyundan olan yadlaşanlara da ibrət dərsi verir. Haqqa dönüş yolunun ancaq doğruluqdan keçdiyini göstərir. «Dar ağacı»nı dram janrının bir forması kimi faciəyə çevirən hadisələr məhz Çılğının ölümüylə təzahür edib Aqşinin e'damıyla tamamlanır.*

**Anadan yad doğulanlar.** *Bə'zilərini mühit, düşdüyü şərait, özgələrin əqidəsinin gur işığı kor edib yadlaşdırır. Onların təzədən doğmalaşmasına, həqiqətə dönüşünə, kökə qayıdışına az da olsa ümid var. Ancaq elələri də var ki, anadan yad doğulur. Ana südü yerinə kimlərinsə şirin çayda isladılan çörəyini yeyir və özgələrin qoltuğunda bəslənir. Onların dini, məhzəbi bilinmir. Belələrinin təsəvvüründə «özününkü» məfhumu yoxdur. Dünyada hər şey bir boyda və eyni rəngdədir. Və hər şey şəxsi mənfəətdən keçir. «Dar ağacı»na doğru uzanan yolları təmizləyən İbn Tahir (xalq artisti Rafiq Əzimova) körpəliyində ana laylasını deyil, hiyləni, alıb-aldatmağı, şeytana papış tikməyi qulaqlarında sırğa eləmişdi. Yeri gələndə ərəbləri xürrəmilərə, xürrəmiləri isə ərəblərə çox ucuz satan bu cılız məxluq qılıncın işi tamamlanan andan bicliyi ilə siyasət səhnəsinə atılır. Aqşinin qanadının altında*

*hörmət-izzət sahibi olmasına baxmayaraq, öz dövrünün yetişdiyini görüb fürsəti əldən vermir. Ağlın köməyinə arxalanıb bütün maneələri adlayır. İlk olaraq sarayda qarşısını kəsən Sabutayı və Aqşini ləkələyib sıradan çıxardır. Sonra ərəblərin özü arasında nifaq toxumu səpməklə mövqeyini daha da möhkəmlədir. Çünki zaman İbn tahirlərin meydan sulaması ilə yerində sayırdı. Gah müsəlman cildinə girən, gah da xürrəmi kimi ocağın oduna qızınan İbn Tahir xəlifənin bağışladığı qılıncın əldən çıxmasını belə o qədər də böyük itgi saymır. Çünki o, qılıncın görə bilmədiyi işləri fırıldaqla, aldatmaqla, satqınlıqla, məkrlə çox asan yerinə yetirirdi. Ona görə ki, artıq qılıncın dövranı bitmişdi.*

*İbn Tahir elin ən gözəl qızlarını lüt-üryan İbn süheyllərin ağuşuna atmaqla mənsəb mərtəbələrini ələ keçirib iki əqidənin – atəşpərəstliyin və islamın ölüm-dirim savaşından faydalanır, Azərbaycanın hökmdarlıq taxtında əyləşdirilir. Millətin əsil faciəli günləri bundan sonra başlanır. İbn Tahir hiylələrinin üstü açılanda da tülkülüyündən əl çəkmir. Çünki yaltaqlana-yaltaqlana imtiyaz sahiblərinin bütün nöqsanlarını öyrənmiş, gizli sirlərini açmışdı. Quyruğu basılan andaca bildiklərini ortaya atıb güzəşt tələb edirdi. Ən böyük məqsədi isə birbaşa xəlifəyə yarınmaq idi. Siyasətdə ikiüzlülük bəlkə də İbn tahirlərlə özünü təsdiqləyib və bu gün də dünya ölkələrinin yaxasını buraxmır. Şair bildirmək istəyir ki, anadan yad doğulanları cəmiyyətdən vaxtında kənarlaşdırmasalar, elə bəlaya çevrilərlər ki, haqqla nahaqqın yeri səhv düşər. Ədalətin mizan tərəzisi itər. İbn Tahirin mə'nəvi boşluğu qarşısında Aqşinin, Sabutayın dar ağacları belə əhəmiyyətini itirir.*

**Doğmaların yad qılıncına ehtiyacı varmı?** *İnsanları öz arxasınca aparan sərkərdəni aradan götürməklə bir milləti o vaxt sındırmaq, diz çökdürmək olar ki, el-obada əqidə birliyi, inam yeri yoxdur, hər tayfanın bir istinad nöqtəsi var. Babəksiz Azərbaycanın tarix səhnəsindən silinmək təhlükəsi dar ağaclarının çoxluğunda deyildi, eləcə də söndürülən ocaqların acı tüstüsünü üfürməklə təzədən alovlandırmaq mümkün idi. O vaxt hər şeyin sonu yetişərdi ki, yerə düşən bayrağı başqası qaldırıb dalğalandırmayaydı. Bəxtiyar Vahabzadə tamaşaçıda böyük ümidlər oyadır. Babəkin yoxluğunu xalq ürək ağrısı ilə qarşılasa da, mübarizə əzmini itirmir. Altay (Kazım Həsənəliyev), Ağsaqqal (əməkdar artist Məcnun Hacıbəyov) obrazları göstərir ki, hələ savaş davam edir, yadlaşanların qılınclarını qınlarında pasladan başqa babəklər yetişəcək. Çünki el İbn tahirlərin tülkülüyünə yaxşı bələddi. Hiylə ilə camaatı yolundan döndərmək o qədər də asan olmayacaq.*

**Yadlaşanların çaldığı havalar.** *Azərbaycanı ərəblərə təslim edən Aqşin bilmirdi ki, haqqa tapınan inancın, əqidənin deyil, xalqının üzərinə qaldırdığı qılıncıyla bir ovuc ərəb qəsbkarlarının xidmətində durur. Və o vaxt ayılır ki, meydanın ortasında tək-tənha qalır. Doğmalarına arxa çevirdiyindən onlar ondan əllərini üzüb həmişəlik üz döndərimişdilər. Xidmətində duran yaltaqlar isə onu üstələmək niyyətinə düşmüşdülər. Aqşinin məğlubiyyətinin səbəbi onda idi ki, xəlifənin adamlarının dövlətə xəyanətinə göz yummuşdu. Taxt-tacını aldatmaqla və satın almaqla qorumaq istəmişdi. Yeni dinin əsiri olub millətinə qənim kəsilmişdi. Əslində özünü sərkədəlikdən vergi toplayana, soyğunçuya çevirmişdi. Hər şeyi dərk edəndən sonra geriyə yol tapmadıqda onun yadların çaldığı havalara oynamaqdan başqa əlacı qalmır.*

*İbn Zeyd (xalq artisti Valeh Kərimov) xəlifənin göndərdiyi fərman və bəxşişlərlə ərəb dövlətinin ucqarlarda mövqeyini möhkəmlətmək əvəzinə eldən toplanan malların bir hissəsini ələ keçirir. Cinayətinin üstü açılmasın deyə yerli yadlar arasında nifaq toxumu səpir. Lakin Aqşini qurduğu tələyə salmaqla yanaşı, özü də dərin bir quyuya düşür. Apardığı ikibaşlı oyunlarda acgözlüyünün qurbanı olub əsir alınır.*

*İbn Süheyl (əməkdar artist Elxan Ağahüseynoğlu) ondan da miskin, qəddar və sərvət düşgünüdür. Başçılıq etdiyi əyalətlərdə casuslar saxlayıb topladığı məlumatları öz xeyrinə həll edir, böyük bir xalqın taleyini sifəti hər dəqiqə dəyişən vicdansız adamlara tapşırır. Qarətlərdən, insan qətllərindən xüsusi ləzzət alaraq Azərbaycanda daşı daş üstə qalayır. İnsanların fəlakətinə, axıdılan qanlara qəhqəhələrlə yanaşan əyyaş İbn Süheylin bir amalı var. O da qardaşı qardaşa, atanı balaya qarşı qoymaqdır. Onun məqsədi odur ki, yer üzündə haqqın, ədalətin izi-tozu qalmasın, təki ərəbin istədiyi yerinə yetsin, yerdə qalanlar allahın dilsiz-ağızsız qullarıdı. Azərbaycan əhalisi də xilafətə boyun əymədiyi üçün tamam qırılmalıdı. Çünki iyirmi beş il ərəbin şimala və qərbə uzanan əllərini kəsib. Öz millətinə yadlaşanlar cızığından çıxanda İbn Süheyl daha qəddar görünür, heç bir güzəştə getmir. Bilir ki, doğmalarının başının üzərinə qaldırılan qılınc yerə düşən kimi onu cəld başqası qapacaq. Necə ki, Sabutayın ayaqlar altına atdığı xəlifə hədiyyəsini Yarqıtay yerdən qaldırıb öpür və öz doğmalarının başını kəsməyə hazır olduğunu nümayiş etdirir.*

**Tarixilik və müasirlik.** *Tarixi mövzuya müraciət edən hər bir sənətkar, mə'lum məsələdir ki, keçmişin hadisələrinə bu günün pəncərəsindən boylanır, üz tutduğu dövrlə bağlı nə qədər dərin və tutarlı məlumata malik olsa da,*

*istər-istəməz canlandırdığı obrazları müasirlərinin timsalında yaradır, başqa sözlə, uzaq keçmişi təsəvvürə gətirmək imkanı olmadığından o dövrdəki insanların bir-birinə münasibətini, davranışını, əxlaqını, həyata baxışını, ilk növbədə, tanıdığı, bildiyi, gözüylə gördüyü adamlarla müqayisədə meydana gətirir. Bu mə'nada bizim günlərdə yazılan hər bir tarixi mövzulu əsərdə keçmiş, daha doğrusu, tarix üzdə görünən tərəfdir, geyimlərin, məkan və zaman ardıcıllığının, hadisələrin xronoloji davamının, yer və şəxs adlarının qədim dövrlə səsləşməsi, görüş və ayrılıqların, e'dam və xilasolmaların, döyüş və məğlubiyyətlərin üst-üstə düşməsi hələ həmin çağların tam mənzərəsinin yaradılması deyil. Əsas odur ki, o çağların modelini – insanların düşüncə tərzini, dünyanı dərketmə səviyyəsini, baş verənlərə reaksiyasını, əxlaq və etik normaları (bu, mifologiyada «mifik dünya modeli» adlanır) düzgün verəsən. Əlbətdə, bunları tam dəqiqliyi ilə müəyyənləşdirib canlandırmaq, açmaq mümkünsüzdür. Çünki beyinlə, təfəkkürlə, şüurla bağlanan həmin əlamətlər öz cüz'i izlərini təkcə yazı və rəsm vasitəsilə bizə çatdırmışdır. Əldə olan mə'lumatlar bəsit və çox hallarda birtərəfli olduğundan (məsələn, ərəb yazılı mənbələrində Babəklə bağlı qeydlər ancaq İslam tərəfdarlarının, yaxud xilafətin mövqeyini ifadə edir) dövrün fikir axarını əks etdirmir. Deməli, deyilənlər barədə yalnız həmin zamanların yazılı abidələri vasitəsiylə müəyyən təsəvvür yaratmaq olar. Yazıçılar keçmişə üz tutanda əslində tarix pərdəsi altında öz yaşadıqları dövrün modelini verirlər. Tarix əksər hallarda qələm ustalarına ibrət üçün lazım gəlir. Bəxtiyar Vahabzadənin də son dövrlər Azərbaycan və türk tarixinin müxtəlif çağlarına üz tutmasının səbəbi məhz bu günümüzü keçmişin aynasında göstərməkdir.*

*Cəmiyyət yaranandan hökmdarlar da olub, yaltaqlar, yadlar, yadlaşanlar da. Öz «çanağını bəyənməyən»lər bu gün də özgələşməkdə davam edirlər. Və mənsəbdən ötrü hakimiyyətin baş kürsüsündə oturan iqtidarlara yarınanlar Aqşinin aqibətinə baxanda sözsüz sabahları barədə düşünməlidirlər. Çünki onlar da əl-ayağa dolaşanda yerlərini başqa yaltaqlar tutacaq və bir gün gərəksiz adam kimi cəzalanacaqlar. Lakin şairin məqsədi müasirliklə tarixi hadisələri əlaqələndirməkdə təkcə iqtidarlara yaltaqlananları sabahını düşünməyə çağırmaqla məhdudlaşmır. O, xalqa başa salmaq istəyir ki, yadlaşanların çoxalması gələcək dəhşətlərdən xəbər verir. Qardaş qardaşa, oğul ataya, arvad ərə qarşı çıxarsa, ürəklər buz bağlayar, düşməni kənarda yox, sıralarımızda görərik.*

*Dar ağaclarının iş görə bilmədiyi, tükəndiyi yerdə tülkülük başlayır.*

*Aqşinin gücü qılıncdadır, İbn Tahirinki isə hiylə və ağlında. Maraqlıdır ki, xilafət millətin vurub-kəsən qolunu və hiyləyə-məkrə köklənən beynini əlindən alıb öz xeyrinə birləşdirməyə can atır. Nəticədə ağıl gücə üstün gəlir. Doğrudur, xəlifənin bağışladığı qılıncı Aqşini əvəz edən İbn-Tahirin əlindən alırlar. O hakimiyyəti qılıncsız ələ keçirir. Onun hiyləsi, məkri nə qədər çox və güclü olsa da, qılıncsızlaşır. Və sözlə baş kəsmək məcburiyyətində qalır. Faciə belə bir sorğuya cavab axtarışıyla tamamlanır: görəsən yadlaşanların əlindən aldıqları düşmən qılıncıyla altaylar, domrullar tülkülüyün kökünü kəsə biləcəklərmi?*

## ÖZLƏRİNİ DOĞMALAR ARASINDA YADLAŞDIRANLAR

**Əsrin əvvəllərində** *inqilab dalğalarının təsirindən fikir oyanışı baş verir. Bir çox əraziləri tətillər, üsyanlar bürüyür. Dünya demokratiyanın yollarını arayır və Yer kürrəsinin Azərbaycan adlı diyarı üç böyük monarxiyanın (çarizm, sultanlıq və şahlıq) arasında qalıb boğulduğundan ikisinin - Rusiya ilə İranın caynaqlarından qurtulmaq uğrundan mübarizə aparır. Bakı üsyanların, üsyançıların beşiyinə çevrilir. Burada çarizmin qəbirqazanlarının xeyir-duası verilir. Təbrizdə isə Səttarxanın başladığı milli-azadlıq hərakatı İran şahlığının sütunlarını möhkəm laxladır. Şərqin türklə bünövrəsi qoyulub tarix səhnəsinə çıxarılan, türkün qılıncıyla ölkələr fəth edib gündoğandan günbatanadək uzanan son şahlığı ötən yüzilliklərdəki kimi davranır. Çoxmillətli monarxiyada təkcə türk müsəlman adının içində əridilir. Dövlətdən ancaq İslamın bölünmüş bayrağının bir qanadına sığınmış fars bəhrələnir. Şahlıq bölünmüş İslam bayrağının digər qanadının təmsilçisi Osmanlı sultanlığının taxt-tacının alt-üst olunduğuna baxıb "yumşalır" və hiyləylə ömrünü uzatmağı bacarır. Birinci Dünya müharibəsinin zəiflədib xarabalığa çevirdiyi Rus çarizmi də devrilir. Müstəmləkə zəncirləri qırılır. Qarmaqarışıqlıqdan sonra az da olsa, azadlığın havasını dadan Azərbaycan 18-ci ildə Şimalda demokratik cümhuriyyət qurur. Cənubda isə şah rejimi üsyançıları ələ almaq yollarını tapır, başçılara sərdar rütbəsi verir. Millətin bir övladının gözləri şimalda, birininki şərqdə, başqa birinirki cənubda, nəhayət, axırıncınınkı qərbdə qalır. Milləti içindən də, çölündən də parçalayırlar. Qərbi Azərbaycan torpaqlarını erməniləşdirən Rusiya, və "daşnaq" quldurlarına havadarlıq edən xrisitan dünyası qulağı kəsik andronikləri Qa-*

*rabağa, Şamaxıya, Bakıya "cihat"a göndərir. Azərbaycan türkünün düşməni bir idi, olur yüz. Yenicə doğulan cümhuriyyət bələkdəcə boğulur. Belə bir vaxtda Mirzə Cəlil xalqının öz içindən yeyilməsinin səbəblərini göstərən "Anamın kitabı" (1920) pyesini qələmə alır...*

**Əsrin sonlarına yaxın** *Sovetlər birliyinin çürüyüb can verdiyini görürlər və yenidən erməni kartını ortaya atırlar. Bakıda Azadlıq meydanı xalqın əlinə keçir. Bir zamanlar Türkmənçay və Gülüstan "sülh" müqavilələri ilə Azərbaycanı ikiyə bölənlərə meydan oxuyan şairi gənclər tribunaya çiyinlərində aparırlar. Öz yurdunda insanların kiçik də olsa, azad torpağı olur. 70 il Sovet imperiyasının yerli nökərlərinin qabağında xalqın köləlikdə qaldığını nümayiş etdirən meydanı ələ keçirmək baha başa gəlir. Topxanada millətin ruhunu incidirlər. Zəngəzuru, Qafanı, Göyçəni türksüzləşdirirlər. Şuşanı şüşəyə döndərib çilik-çilik eləyirlər. Qacar bunu bacarmamışdı. Qarabağı Azərbaycandan ayırırlar. Xocalıda südəmər körpələri, qadınları qışın soyuğunda düzlərə salıb güllələyirlər, tankların altında əzirlər. Fəryadımızı dünyada eşitmirlər. Müstəqil respublika yaradıb imperiya buxovlarından ikinci dəfə tam qurtarmaq üçün neçə-neçə şəhidlər verilir. Anaların cəbhələrə dikilən gözlərində yaş qurumur. Azərbaycan adlı dövləti nə qonşuların, nə yaxınların, nə uzaqların gözü götürür. Çölündən beş yerə bölünən ulu torpağı içindən də doğramağa çalışırlar. Klanlara, tayfalara, bölgələrə ayrıla-ayrıla xırdalanırıq. Birliyini pozmaqla hələ ilk addımını atmamış, uzun müddətli keçid çağlarını başa çatdırmamış, yerində sayan dövlətini millətin əlindən almaq istəyirlər. Və belə günlərdə əsrin əvvəllərini yada salıb "Allah sənə rəhmət eləsin Mirzə Cəlil!" deyən xalq şairi Bəxtiyar Vahabzadə "Atamın kitabı" (1999) pyesini yazır. Minilliyin son ilində əsər Gənclər Teatrında tamaşaya qoyulur...*

*Mirzə Cəlil də, Bəxtiyar Vahabzadə də bir ailənin timsalında cəmiyyətin bəlalarını göstərir. Biri əsrin əvvəllərində Azərbaycanda baş alıb gedən "yad dilli" yerli siyasətbazlardan, söz pəhləvanlarından, digəri yaşadığımız çağlarda Bakıda "partiya" xəstəliyinə tutulub kürsüdən - yağlı vəzifədən ötrü anasını belə qurban verənlərdən bəhs açır. Mövzu və məqsəd eynidir. Obraz adalarında da ciddi fərq nəzərə çarpmır. Lakin zaman və məqsədə doğru gedən yollar başqadır.*

*Doğmalar arasında yadlaşma, öz içində özgələşmə, bir ansamblda iştirak edib ayrı havalar çalma motivi müasir fəlsəfi şeirimizin pioneri, dramaturgiyamızın lirik-psixoloji qanadının öncüllərindən biri Bəxtiyar Vahabzadəni çoxdan düşündürürdü. O, publisistik və elmi məqalələrində*

*dəfələrlə həmin mövzuya toxunmuşdu. Hətta "Anamın kitab"na həsr etdiyi yazılarında müzakirə obyektinə çevrilməli məsələlər də qaldırmışdı. Və Mirzə Cəlilin əsərindəki "bəyaz kitab"ın açılışı haqqında qənaəti, gətirdiyi dəlillər göstərir ki, şair doğmaları yadlaşdıran amilləri arayıb tapmışdır.*

*İnsan doğmalar arasında özünü yadlaşdıranda ən müqəddəs şeyləri - ananı, milləti, Vətəni belə unudur. Bunlar onun üçün əsiri olduğu əqidənin prinsiplərini həyata keçirmək vasitəsinə çevrilir. Əslində hər bir siyasi əqidə müxtəlif yollarla addımlasa da, bir amala qulluq etməlidir. Və xalqın birliyini, bütövlüyünü rəmzləşdirən məsələlərdə - dövlətin, torpağın və dilin qorunmasında fikir ayrılıqları, haçalaşma olmamalıdır. İqtidar-müxalifət münasibətində də qarşıdurmalar ancaq bu üçlüyün işığında baş verməli, işığın sönməsinə deyil, daha da gurlaşmasına xidmət etməlidir. Vətən yad kəlamlarla çalınan laylalara elə mışıl-mışıl yatar ki, oyananda hər ətəyini bir özgənin əlində görərsən. Bəxtiyar Vahabzadənin həyəcan siqnalının arxasında məhz bu qorxulu təhlükənin baş verməsi durur. "Anamın kitabı"nın "Atamın kitabı"na çevrilməsinin də əsas səbəbi budur ki, bütövlüyünə çatan millət əqidə birliyinə nail olmalı və eyni istinad, dayaq nöqtəsi tapmalıdır. "Qurani-Kərim" bir xalqın deyil, bəşəriyyətin haqqa dönmək yoluna çıraq tutan müqəddəs kitabdır. "Qurani-Kərim"i bir elin ümid, pənah yeri kimi göstərib kiçiltmək günahdır. Və onu "Anamın kitabı"nda olduğu tək ayaqlar altına atmaq da mümkün deyil. Hər xalqın birliyinin təminatçısı kimi götürdüyü başqa, ancaq həmin xalqın ruhundan yoğrulan özünəməxsus kitabı var. Şair əmindir ki, Azərbaycan türkləri üçün bu funksiyanı yerinə yetirən kitab "Dədə Qorqud"dur. Axı, "Kitabi-Dədə Qorqud" yeganə əsərdir ki, millətin əlindən zorla alınıb, "həbs edilib". Onu dilinə alanlar da türmələrdə çürüdülüb.*

*Ədəbiyyata Mirzə Cəlilin gətirdiyi Zəhrabəyim ananın üç oğlu, bir qızı, qardaşlarınca hərəsinin özlərinə oxşar bir dostu var. Böyük oğul Rüstəm bəy Peterburqda təhsil alıb, dilinə kəlməbaşı rus sözləri qatır. Sənəti lüğət tərtib etməkdir. Rusiyapərəstdir. Diqqət yetirin, onun curu mal həkimi Aslan bəydir. Və ana dilini rus dili ilə qarışıq salan adamın düzətdiyi sözlüyün millətə xeyiri olarmı? Ortancıl oğul Mirzə Məhəmmədəli Nəcəfül-Əşrəfdə oxuyub, qatı islamçıdır, fars ibarələri ilə danışmağı sevir. İran tərbiyəsi tərəfdarıdır. Elmi-ilahiyyatdan dərs deyir, Mirzə Baxşəliylə həmkardır. Onun nəzərində mənəviyyatın aynası sayılan din də farsın və İranın qanadının altındadır. Kiçik oğul Səməd Vahid biliklərə İstambulda yiyələnib. Filoloqdur. Osmanlı ləhcəsini yetkinləşmənin əsas amili sayır. Türk dili müəllimi (osmanlı türkcəsi*

*nəzərdə tutulur) Hüseyn Şahidlə oturub-durur. Qardaşların hər biri ayrılıqda digərinin bəyəndiyi ölkəyə və dilə nəinki maraq göstərmir, heç hörmət bəsləmir, millətinin, daha-doğrusu, öz həmfikirlərinin düşməni sayır. Onların məsləyi bilik aldıqları dövlətlərin siyasi məqsədləri ilə üst-üstə düşür. Vətənə doğru uzanan yolların da ancaq həmin yad diyarlardan keçib gəldiyini qəbul edirlər.*

*Bəxtiyar Vahabzadə ana obrazı ilə bir sırada atanı və onun "Kitabi-Dədə Qorqud" dastanı haqqında yazdığı kitabını səhnəyə çıxardır. İxtiyarla qardaşları dördləşdirir. Oğulların anaya yadlığına qarşı isə özgə övladını - Gülbaharın nişanlısı Azəri "doğma"laşdırır. Bunlar ilk baxışda nəzərə çarpan zahiri oxşarlıq və fərqlərdir. O da bir həqiqətdir ki, Mirzə Cəlildə qardaşlar dördləşə bilməzdi. Çünki əsrin əvvəllərində Amerikanın Azərbaycanla nəinki əlaqəsi yox idi, belə bir diyarın mövcudluğundan xəbərsizdi. Bəlkə də Rusiyanın mədəniyyətdən uzaq ucqar bir nöqtəsi kimi neft Bakısı haqqında nağılvari mə'lumatlar ora da çatırdı. Onda Amerikanın siyasi mənafelərinin dairəsi daha çox öz qitəsini və Afrikanın cənub ətəklərini əhatə edirdi. ABŞ hələ iperialist dövlət kimi inkişafının startını götürürdü.*

*İlk baxışda sual meydana çıxır. Mirzə Cəlilin səksən il əvvəl ürək yanğısı ilə qələmə aldığı mövzuya qayıtmağa ehtiyac vardımı? Əgər zamanın olayları bizim çağlarda daha kəskin şəkildə təkrarlanırsa, bəli. Yetmiş ildə şablon "xalqlar dostluğu" ideyası ilə beynimizi doldurub Mirzə Cəlilin həyəcan siqnalını qulaqardına vurmuşuqsa, bəli. İndi onun əsərinin təbliği ilə az adamı təlatümə gətirmək, ruhunu oynadıb başqalaşdırmaq mümkündür. Ona görə ki, bugünkü rüstəmbəylər, Mirzə məhəmmədlər, Səməd vahidlər elə maskalanıblar ki, "Anamın kitabı" ancaq ötəri təəssüf hissi yarada bilər. Güzgüdə öz eyiblərinin daha acınacaqlı olduğunu görmədikləri halda əsrin əvvəllərindəki faciələrə yalnız tamaşa zamanı acıyanlar tapılar. Bu səbəbdən də yeni kitabı - "Atamın kitabı"nı meydana gətirmək hava, su kimi gərəkli idi. Ədəbiyyatımızın ötən yüzillikdə qalan iki əsərinin zahiri oxşarlığı çoxdur. Lakin bu o demək deyil ki, "Atamın kitabı" əsrin sonunda "Anamın kitabı"nın Bəxtiyar Vahabzadə qələmi ilə işlənmiş yeni variantıdır. Əksinə, "Atamın kitabı" öz dövrünün hadisələrindən mayalanaraq Mirzə Cəlil ideyalarının işığını millətin üstünə daha gur salan spesifik poetik strukturlu orijinal səhnə əsəridir.*

*Bədii yaradıcılıqda bir sənətkarın qələmindən çıxan mövzunun başqa qüdrətli yazarlar tərəfindən təkrar-təkrar işlənməsi ənənəsinin tarixi çox qədimdir. Böyük Nizaminin "Xəmsə"sinədəki bütün mövzulara ayrı-ayrı*

*çağlarda təzədən çıraq tutan yüzdən çox şairin yaşayıb-yaratdığını yada salaq. Kim deyə bilər ki, Füzulinin "Leyli və Məcnun"u Nizaminin əsərinin variantıdır, yaxud ədəbiyyatşünaslıq terminləri ilə desək, ona nəzirədir. Hamı təsdiqləyər ki, Füzuli öz yaşadığı dövrün sufi Məcnunu yaratmışdır. Lakin B.Vahabzadənin "Atamın kitabı" pyesinin "Anamın kitabı"yla əlaqəsini "Xəmsə" silsilələrinin bir-biri arasındakı ən'ənəvi bağlılıq kimi də müqayisə etmək yerinə düşmür. Və yaxud "Romoe və Culyetta" Şekspirdən, "Don Kixot" Servantesdən, "Faust" Götedən qabaq da yazıçıların qələmində işlənmişdir. Lakin yalnız Şekspirin, Servantesin və Götenin ruhundan keçəndən sonra əbədiyyət qazanmışdır. Ədəbiyyatda "doğmalar arasında yadlaşma" motivinin müasir mərhələdə aktuallığını duyan Bəxtiyar Vahabzadə "insanın ölümdən qabaq öldüyünü" görən mə'nəvi müəlliminə - dahi Mirzə Cəlilə üz tutması heç də nə "Anamın kitabı"nın, nə də "Atamın kitabı"nın dəyərinə, əhəmiyyətinə xələl gətirir. Əksinə, biri digərini tamamlayır.*

*Pyesdə dramatik qarşılaşma proloqda baş verir. Saf, millətini ürəkdən sevən insanların məngənəyə salınıb sıxıldığı aydınlaşır. Zamanın təzadlarından doğan ziddiyyətlər ərlə arvadın münasibətində, söhbətində özünü biruzə versə də, bu, ailə-məişət münaqişəsi deyil, cəmiyyətin, insanlığın bəlalarıdı, "mənfur rejim"də haqqın, ədalətin tapdanmasıdı. Konfliktin düyünlənməsinə doğru uzanan yolların da kökü, başlanğıcı məhz Ata ilə Ananın proloqdakı söhbətində qoyulur. Məlum olur ki, ər körpə uşaqlarını boya-başa çatdırmaq, yurduna gərəkli adamlar kimi yetişdirmək imkanından məhrum edilib. Gələcəyə şübhə ilə yanaşır, qorxur ki, onun ömür yolunu hər an qıra bilərlər. Bir şeyə narahatdır, mənfur rejim çox uzanar, uşaqları da haqqdan dönərlər. Dövrün şərlərini görən Ata vəsiyyətini qabaqcadan söyləyir: "...Övladlarım harda olur olsun, hansı sənəti seçir seçsin, onların ruhu, inamı, əqidələri Vətən timsalı olan bu ana kitabın ətrafında dolansın". 37-ci illərin ab-həvasından zəhərlənib boğulan Ata övladlarını mövcud rejimdən qorumaq istəyir. Pyesdəki əsas hadisələr isə məhz həmin mənfur rejimin süqutundan sonrakı illərdə - bizim günlərimizdə baş verir. Və ananın bütün sə'ylərinə baxmayaraq köhnə quruluş öz tərbiyəsini qardaşların qanına yeridir. Atanın ən böyük arzusunun həyata keçməsinə - Azərbaycanın müstəqillik qazanmasına baxmayaraq yadların, özgələrin barmaqları millətin üstündən götürülmür. Əslində, təkcə "mənfur rejim"dəki mənsəb sahibləri müstəqilləşir. O vaxtkı rüşvətxorların əl-qolları açılır. Onlar topladıqları sərvəti - xalq malını sağa-sola xərcləməkdə sərbəstləşirlər. İmtiyazları da müxtəlif vasitələrlə (vəzifələri satın almaqla) ələ keçirirlər. Qara*

*camaat onda kölə idi, səsi alınmış kölə. İndi isə sözlü, qəzetlidi, azaddı. Ancaq maddi cəhətdən tam asılı, cibiboş, süfrəsi bağlı, arzuların nə olduğunu belə unudan, sabaha ümidi üzülən canlıdı. Yurdunda yurdsuz, evində evsizdi. Quru müstəqilliyini, seçib seçilmək səsini belə bir qarın çörəyə dəyişməyə hazırdı. Şair bir sorğu üzərində ciddi düşünür: bəs özünü həqiqət və ədalət naminə qurban verən Atanın övladları 200 ilə yaxın imperiya boyunduruğunda yaşayan Vətənin azadlığından sonra hansı hala düşüblər? Köhnə rejimdə yuxarıdan aşağıya hər şey şablon şüarlarla idarə olunurdu. Kütlələrin yerinə başda oturanlar düşünüb qərarlar çıxarırdılar. Onlar deyirdi, dost kimdir, düşmən kim, camaat tanısa da, tanımasa da ya nifrətini, ya da məhəbbətini nümayiş etdirirdi. Ataların ancaq "ura" qışqırmaq vəzifəsi vardı. Bəs azadlığın dadını görməyə başlayan oğulların buxovlarsız davranışları necədir? İndi onlar hərəsi əlinə bir yad xalta alıb tərəf-müqabillərinin, özü də doğmalarının boynuna keçirmək üçün dəridən-qabıqdan çıxırlar. Adamı yandıran da odur ki, əvvəllər qolumuzu qandallayan, dilimizə dağ vuran özgələr idi, indi özümüzdən olan yaxınlarımız bir tərəfdə durub üstümüzə boyunduruq atır. Həm də yadların boyunduruğunu.*

*Əsərin əsas səhnəsi maraqlı epizodla başlayır. Dünyanın əksər ölkəsində keçirilən bir oyun var. Bizdə "Kürsü oyunu" adlanır. Boş kürsülər dairəvi şəkildə düzülür. Ətrafında dolanırlar. Aparıcının işarəsi ilə kürsülərdən birində otururlar. Kimə yer çatmayıb ayaq üstə qalsa, uduzur və kürsüdə oturanların əmrlərini yerinə yetirir. Desələr ki, it kimi hür, hürməlidi; eşşək kimi aqır, anqırmalıdı. Oyunun şərtinə görə, kürsü qazananların tapşırıqları "məğlub"lar tərəfindən sözsüz yerinə yetirilməlidir. Əks halda onları yerə uzadıb qayışla döyürdülər də... Tamaşanın bu oyunu xatırladan səhnə ilə başlaması həyatın özünün oyuna, əyləncəyə çevrildiyini göstərir. Ortada bir kreslo qoyulub. Qardaşlar bir-bir səhnəyə daxil olub kresloya yayılır, bir an da olsa, dünyanı cibində zənn edib qalxır. Sonra oyundakı kimi kreslonun ətrafında dolanırlar. İxtiyar daha cəlb tərpənib kreslonu zəbt edir. Bu səhnədə tamaşanın bütün qayəsi əks olunub. Nəzərə çarpan dörd qapı və qapıüstü simvollar da bir ailə timsalında cəmiyyətin parçalanmasını nəzərə çatdırır.*

*Doğrudur, tamaşadan fərqli olaraq pyesdə salonun təsviri verilir. Hər küncdə bir masa var, ortada isə bir vəzifə kreslosu. Hər masadan həmin kresloya bir dorojka gəlir. Bu, hakimiyyətə, iqtidarlığa doğru uzanan yoldur. Maraqlıdır, şair abstrak detallardan qaçır. Hamının asan başa düşəcəyi təsvirlərə üz tutur: birinci masanın üstündə "Yeni Azərbaycan" və "Xalq"*

*qəzetləri, ikinci masanın üstündə "Azadlıq", "Yeni Müsavat", üçüncü masanın üstünda "Komsomolskaya pravda", dördüncü masanın üstündə isə ərəb hərfləri ilə qəzetlər düzülüb. Şairin sivil mübarizə forması kimi mətbuatı göstərməsi ilk baxışda əsil əqidə savaşından xəbər verir. Lakin tamaşa boyu ölkədə qəzetlərin dedi-qodu yuvası kimi iqtidarın və müxalifətin əllərində silaha çevrildiyinin şahidi oluruq. Sovet imperiyasından miras qalan təfəkkür tərzini isə qara köynəkdə tar və atanın şəkli asılmış əsas divardan aralı dörd divardakı şəkillərlə təqdim edir. Bu da onu göstərir ki, şair bugünümüzün eybəcərliklərini hamının üzünə deməkdən çəkinmir. Dörd qardaşın timsalında dörd siyasi partiya kəllə-kəlləyə durub. Onlardan üçü müxtəlif zamanlarda hakimiyyət kreslosunun dadını alıb, yalnız biri hər üçünün ətəyində gəzib. Böyük qardaş Rüstəm kommunistdir, "bəlkə də qaytardılar" xülyasıyla yaşayır və xilas yolunu Rusiyada axtarır. İxtiyar hakim partiyadandır. Xəyalı Amerikada gəzib-dolaşır. Səməd Vahid xalq hərəkatı dalğasıyla hakimiyyətə gətirilib bir ildən sonra fəaliyyətini dondurmaq məcburiyyətində qalan müxalifət partiyasındandır. Hələ də vəzifə kreslosunun ləzəti damağından silinməyib.*

*Millətin sinəsinə çəkilən dağlar unudulmamış, vurulan yaralar sağalmamış, 60-dan çox partiya yaradılıb. Yağışdan sonrakı göbələklər kimi. Axı, göbələklərin çoxunun zəhərli olması ehtimalı da var. Partiya xəstəliyinə tutulanlar söz güləşdirməklə, yadların siyasətini, əqidəsini, adət-ən'ənələrini yaymaqla kökdən uzaqlaşır, ancaq qarşısındakını qara rəngdə göstərməklə gözdən salıb sıradan çıxartmaq və yerini tutmaq istəyirlər. Onlar yaxşı anlayırlar ki, xalq arasında dəstəklənmirlər, ona görə də biri Azərbaycanı təzədən Rusiyanın, o biri İranın, üçüncüsü Türkiyənin qoltuğuna soxmağa çalışır. Kreslonun sahibi isə hakimiyyəti əldə saxlamaq üçün xalqın e'timadını qazanmaq əvəzinə, okeanın o tayından yardım diləyir. Aralarında Məmmədəli kimi bütün iqtidarlara quyruq bulayanlar da var. Keflərindən də qalmırlar, mersedesləri sağdan sola sürüb, imarətlər ucaldıb "nata"larla təzə millət yaradırlar.*

*Onlara nə ad vermək olar. Şair əsərdə bir neçə yerdə elə özlərinin diliylə bu adları göstərir: "iznli qəhrəmanlar", "evin sirrini çölə tökənlər", "ağac başındakı ac qarğalar". Və müxalifət-iqtidar qarşıdurmasının mənzərəsi elə kerçək təsvir edilir ki, adam özünü tamaşada deyil, real həyatda hiss edir.*

*İXTİYAR: -Ey müxaliflər, iqtidara gəldiniz, gücünüzü gördük. Sizin vaxtınızda it yiyəsini tanımırdı.*

*MƏMMƏDƏLİ: -Bunu düz deyir. Amma indi də yiyəsi iti tanımır...*

*Bu deyişmə yerinə düşən söz oyunu deyil. Siyasət aləminin iki qütbünün -ixtiyar sahiblərinin və müxalifətin camaata verdiyi qiymətdir. Yaxud onların söhbətlərinin başqa yerində atılan hər təpiyin ancaq özümüzə dəydiyi də elə ustalıqla verilir ki, insanın siyasətbazlara nifrəti birə on qat artır.*

*İXTİYAR: -İndi bizə bu milləti birləşdirməyə qadir dəmir yumruq lazımdır.*

*MƏMMƏDƏLİ: -Siz də o yumruğu endirirsiniz bizim təpəmizə.*

*İXTİYAR: -İnsafla danış. Axı, siz 10 il əvvəl, yə'ni sovet dövründə hökumətin əleyhinə belə danışsaydınız, dilinizi ənsənizdən çıxarardılar.*

*RÜSTƏM: -Elə indi də polojeniya ondan çox da fərqli deyil...*

*Qardaşlar özləri bir-birinin paxırını açıb ortaya qoyurlar.*

*Ac-yalavac xalqın olan-qalan malını da talayıb sərvət üstə sərvət gətirənlərin alqı-satqı zamanında xəstə analarına lazımlı dərmanı tapmağa qarınları ağrıyır. Qaçqınların dilənçi payına göz dikib əlindən qapan mənsəb sahibləri isə itirilmiş torpaqların qaytarılması barədə düşünmürlər də. Aralarında gözdən pərdə asmaq üçün rüşvətlə toplanan pulla məscid tiktirənlər də mövcuddur. Lakin haqqı bərpa etməklə göyün də, yerin də alqışını qazanmaq istəyənlər yoxdur.*

*Yeni cəmiyyətin simvolu kimi verilən ailədə Ana vətəndir. Ana - Vətən xəstədir, ürəyi ağrıyır: Azərbaycan içindən də, çölündə də yeyildiyinə görə can üstədir. Ana vətənin əsas sərvətindən qidalanıb ərsəyə gələnlər onun yaralarına məlhəm qoymurlar. Lakin bu hələ son deyil. Şərin meydan sulamasına baxmayaraq ailənin qeyrət damarında - Gülbaharda kökə bağlılıq qalır. Çünki o, tərbiyəni öz yurdunda alıb, özgələrin opiumunu ruhuna yeritməyib. Və Gülbaharın saflığı olmasaydı, Azərin göydə tapdığı yeni ulduz qorqudlaşmazdı. Anaya qan verən tapılmazdı.*

*Ataların tövsiyələrini qulaqlarında sırğa etməyənlər qırxında dinə-imana gələ bilərmi? Əlbəttə, şair möcüzə baş verməsini istəyir və əsərin finalında hamının ulduzlarını barışdırır. Doğrudur, Ata kitabının saralmış varaqlarından oxunan cümlələrlə həqiqətlərin açılması özgə dilli qardaşları sarsıdır. Çünki fələyin mənganəsi Dədə qorqudları rüstəmləşdirmiş, Bamsı beyrəkləri Səməd vahidlərə çevirmiş, bayandırları ixtiyarlaşdırmış, Salur qazanları məmmədəliləşdirmişdi. Təkcə Banu çiçəklər gülləşib - bahar gülü tək ətirli, təravətli qalmışdı. Və bu halda ondan başqa qardaşların heç birinin iqtidar kürsüsündə əyləşməyə haqqı yoxdur. Ana - Vətənin gəldiyi bu son qərar bəlkə XXI yüzillikdə reallığa çevrildi...*

*Ata bir vaxtlar təbiətin qanunlarına əsasən inanırdı ki, kökdən ayrılanlar*

*gec-tez geri dönəcəklər. Ona görə ki, "Yer, göy, ay və ulduzlar göylərdə seyr edib gəzə-gəzə əvvəl-axır günəşin başına dolanırlar. Çünki ay və ulduzlar hamısı çox-çox əvvəllər Günəşdən qopub ayrılan parçalardır". Ata e'tiqad edir ki, balaları dünyada hər yeri gəzib-dolansalar da, yenə əvvəl-axır anaları Zəhrabəyimin ətrafında dolanmalıdırlar. Axı, "ay və ulduzlar günəşin parçaları olduqları kimi, onun balaları da analarının ay və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin bu əzəli qanununu pozmaq istəyə!"*

*Lakin təbiətin əzəli qanunu çoxdan pozulmuşdur. İndi onu yenidən bərpa edib öz axarına qaytarmaq müşkül işdir.*

*Son səhnə Bəxtiyar sənətinin uğurlu tapıntısıdır. Ancaq gerçəkləşməsi mümkündürmü? Vətən övladlarının hamısını bu vasitəylə qəflət yuxusundan oyadıb ana qoynuna qaytarmaq, dillərinin altında gizlətdikləri bizlərdən, əllərində hazır tutduqları baltalardan, öz doğmasına tuşladıqları oxlardan xilas etmək elə Azərbaycanı fəlakətdən qurtarmaq, doğmaların yadlığının, içimizdən yeyilmənin qarşısının alınması deməkdir.*

*Və B.Vahabzadə pyesinin mayasında duran əsas qayə ondan ibarətdir ki, hakimiyyət öz xalqına qarşı yadlaşların, kənarlardan, yad pəcərələrdən boylananların əllərində olduqca, irəliləyiş mümkün deyil, torpaqlar da geri qaytarılmayacaq, millət dilənçiliyin daşını atmayacaq, ancaq dünyada çadır şəhərciyi sahəsində birinciliyimizlə, qaçqın-köçkün payına göz dikməyimizlə "öyünəcəyik". Şair onu narahat edən bir çox taleyüklü problemin həlli yollarını arayır: müstəqil respublikanın gələcəyini təhlükə altına alan amillər hansılardır? Ayağı Azərbaycanda ürəyi yad ölkələrdə olanlar ölkəni idarə etməyə qadirdilərmi? Zülmətdən qurtulmaq üçün bir şam da olsa, yandırıb işığını yola salanlar tapılacaqmı? Millət özünü millət kimi təstiqləyən addımlar atacaqmı?.. Bu suallara cavab axatararkən B.Vahabzadə ilk növbədə kökə qayıdışı, xalqın tarixini öyrənməyi, özünü tanımağı əsas götürür və bunsuz yerində saymaqdan yaxa qurtarmayacaq, ağzı "soskalı" halda iməkləyə-iməkləyə qalacağıq - qənaətini irəli sürür. "Dədə Qorqud" qəhrəmanlarının adları ilə dünyaya gəlib mənfur sovet quruluşunun e'malatxanasında rüstəmləşən, məmmədəliləşən, ixtiyarlaşan, vahidləşən, "alik"ləşən və "oviçləşənlər" atalarının verdiyi adalara layiq olub onu təzədən öz üzərlərinə götürə bilərlərmi? Daha doğrusu, özlərini bilə-bilə yadlaşdıranaların təzədən doğmalaşması mümkündürmü? B.Vahabzadə başqa əsərində bu sorğuya daha dolğun cavab verir. Milli Dram Teatrında tamaşaya qoyulan "Dar ağacı" faciəsinin süjetində "yadlaşanların doğmalaşmaq cəhdləri" - özünə qayıdışının nəticələri durur. Bu barədə ayrıca söhbət açacağıq.*

*"Atamın kitabı"nda insanları ayıq-sayıqlığa çağırış çox güclüdür. Xalq elə etməlidir ki, dövlət - iqtidar kürsülərində ancaq damarlarından saf qan axanlar, milli ruhda tərbiyələnlər otursunlar. Qanında qarışıqlıq olmayanlarda hansı səbəbdənsə yolazma, yadlaşma baş veribsə, kökə qayıdışa ümid var. Anaların işə qarışması lazım gəlir, gec-tez onlar kimliklərini dərk edib cızığından çıxdıqlarını anlayacaq. Və qurtuluş özünə qayıdışdadır. Millət o zaman bir yumruq kimi birləşəcək ki, onun iqtidarı da, müxalifəti də eyni ruhda tərbiyələncək, tərbiyəni pul gücünə almayacaqlar, beynini zəhərləyən amillərdən uzaq qaçacaq, bir dildə - ana dilində düşünüb-danışıcaq, sözü ilə əməli üst-üstə düşəcək. Onda ayrı-seçgilik də aradan qalxacaq, qardaşın qardaşa dirsək göstərmiyənə də son qoyulacaq.*

## LƏYAQƏTLİ OLMAĞIN FACİƏSİ VƏ ÜLVİLİYİ

***Yeni minilliyin ilk illərində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Şəhidlər xiyabanında Akademik Milli Dram Teatrının bədii rəhbəri və direktoru, xalq artisti, Dövlət mükafatı laureatı Əliabbas Qədirovdan soruşmuşdu:***

***-«Nə üçün müasir mövzuda tamaşalar hazırlamırsınız?»***

***-«Çətin olduğu üçün dramaturqlarımız qələmə almırlar. Daha doğrusu, kiminsə heysiyyatına toxunacaqlarından ehtiyat edirlər» - deyə Əliabbas müəllim cavab vermişdi.***

***Ölkə Prezidenti təmkinini pozmadan demişdi:***

***-«Qorxmasınlar, uğurlarımızı və çatışmazlıqları cəsarətlə qələmə alsınlar. Arxalarında mən dayanmışam. Getdiyimiz yol doğru yoldur…»***

*Xalq şairi B. Vahabzadənin yeni, iki hissəli «Rəqabət» lirik dramının səhnə həyatı başlandı. 2003-cü ilin noyabr ayının 27-də Akademik Milli Dram Teatrında əsərə içtimai baxış keçirildi. Tamaşanın quruluşçu rejissoru, xalq artisti Ağakişi Kazımov, quruluşçu rəssamı, əməkdar rəssam İsmayıl Məmmədov, musiqisi və musiqi tərtibatçısı bəstəkar, əməkdar incəsənət xadimi Cavanşir Quliyev idi. Əsas rollarda respublikanın xalq artistləri Nurəddin Mehdixanlı, Lalazar Mustafayeva, Rafiq Əzimov, Elxan Ağahüseynoğlu, Ramiz Novruzov, əməkdar artistlər İlham Əsgərov, Elxan Quliyev, Sevinc Əliyeva, artistlər Şəhla Əliqızı, Kazım Həsənquliyev, Əlvida Səfərov, Anar Heybətov və b. iştirak edirdilər. Baxışdan sonra tamaşanın geniş müzakirəsi aparıldı. Teatrın bədii*

*rəhbəri və direktoru, xalq artisti Əliabbas Qədirovun sədrlik etdiyi yığıncaqda teatrın bədii şurasının üzvləri, Mədəniyyət Nazirliyinin nümayəndəsi rəy və təkliflərini bildirdilər. Baxışda respublikanın elm, ədəbiyyat və ictimai xadimləri də iştirak etmişdilər. Onlardan bir qrupu müzakirəyə qoşulmuşudu. ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, professor Himalay Qasımov, Folklor və qədim ədəbiyyat tarixi kafedrasının dosenti Ramazan Qafarlı, keçmiş Xarici İşlər naziri Həsən Həsənov söz alaraq tamaşanın aktual mövzuya həsr olunmasından, həyatımızın gerçəkliklərini realiscəsinə əks etdirməsindən danışdılar. Çıxışlarda aktyorların yüksək professionallıq və ustalıq göstərmələri xüsusi vurğulandı...*

*«Rəqabət» lirik dramının premreyası noyabr ayının 30-da oldu. Akademik Milli Dram Teatrının zalı tapaşaçılarla dolu idi. İctimai baxışın müzakirəsi zamanı ortaya atılan təkliflər müəllif və rejissor tərəfindən nəzərə alınmış, bəzi səhnələr biçimlənmiş, hadisələrin axarını ləngidən əlamətlər aradan qaldırılmışdı.*

**Yeni dövrün ilk dramı.** *«Rəqabət» pyesi şairin əvvəllər irəli sürdüyü ideyaların məntiqi davamı, demək olar ki, yekunudur. Əgər «Atamın kitabı»nda keçid dövrünün gündəmə gətirdiyi qarşıdurmaları bütün çalarları ilə göstərirdisə, son əsərində yeni quruluşun – kapitalizmin ziddiyyətlərini ön plana çəkir. Sosializm cəmiyyətində hamı «bərabərləşdirildiyindən», sahibkarlaq inkar edildiyindən azad rəqabət süni yarışlar şəklində bayağılaşdırılmış və durğunluqla nəticələnmişdi. Partiya funksionerləri «gizli istehsalla», rüşvətxorluqla varlansalar da, pullarını iqtisadiyyatın inkişafına qoya, mənfətə çevirə, ürəkləri istədikləri şəkildə, açıq-aşkar xərcləyə bilmirdilər. Elin sərvəti bir ovuc imtiyaz sahibinin əlində cəmləşib dondurulurdu. Keçid dövründə kütlə onlarla qarşı-qarşıya durduğundan daha kəskin hal aldı. Bəziləri «donmuş kapitalı» işə salmaqdan çəkinib xaricə ötürdü. Müstəqilliyə doğru inamlı addımlar atıldıqca respublikamızda sahibkarlığa meydan açıldı. Kapital (həm xarici, həm də daxili) qoyuluşuna münbit şərait yaradıldı. Ölkə prezidenti cənab Heydər Əliyev sahibkarların yığıncağında sağlam rəqabətin iqtisadiyyatı sürətlə inkişaf etdirəcəyini vurğuladı. Kapitalın ləyaqətli insanların əlində cəmləşməsi əslində Azərbaycanın işıqlı gələcəyinə təminat verirdi. Amma pul, sərvət elə bir hərislik yaradan qüvvədir ki, onu çox hallarda çirkaba batmadan qazanmaq mümkün deyil. Və ağıl, bilik və bacarıqla istehsalat qurub məhsuldarlığı çoxaltmaq, bazarın alıcılıq qabiliyyətini qiymətləri aşağı salmaqla artırmaq istəyənlərin qarşısını milli hisslərdən, insanlıqdan, mərdlikdən məhrum sərmayə sahibləri iyrəng vasitələrlə alma-*

*ğa can atır, birliyimiz pozulur, bəzən sağlam ruhlu biznesmenlər xəyanətin qurbanına çevrilirdilər. Günümüzün acı reallıqlarını hamıdan öncə Bəxtiyar Vahabzadə bədii ədəbiyyata gətirdi. Quruluşun dəyişməsi sovet dövrünün bir çox tananmış yazıçılarında tam sərbəstlik yaratsa da, onlar uğurlu əsərlər ortaya çıxarmaqda çətinlik çəkdilər. Artıq hər şeydən yazmağın mümkün olduğunu anlasalar da, hərəkətə gəlmədilər. Sanki mövzu qəhətə çıxmışdı, ya da həyatımızda vacib problemlər yox idi. On ildən çox zaman keçməsinə baxmayaraq, bəzi qələm sahibləri ötmüş axarıyla addımlamağı bacarmır. Lakin Bəxtiyar Vahabzadədə əvvəl tarixə üz tutdu, keçmişin olaylarına bu günün prizmasından yanaşdı. Sonra Mirzə Cəlilin ideyasını günəş işığına çevirib ötən əsrin son illərinin hadisələrinin üstünə saldı. Nəhayət, müstəqil kapitalist Azərbaycanının ictimai mühitində baş verən olaylara səhnə həyatı verdi.*

**Sahibkarlıqda rəqabət.** *«Rəqabət» pyesinin süjet xəttində duran əsas həyat epizodları ona görə ədəbiyyatımız üçün yeni və orijinaldır ki, orada hamını düşündürən, narahat edən aktual problemlərə toxunulur. Taleyimiz kimlərin əlindədir? Sabahımızı müəyyənləşdirənlər hansı əqidəyə malikdirlər? Pulun ağalıq etdiyi çağlarımızda sərvət sahiblərinin mənəviyyatı çürük deyil ki?.. XIX yüzilliyin sonunda rəqabət ailələr, nəsillər arasında qan düşmənçiliyinə çevrilmişdi. Sovet dövründə qabaqcıl istehsalatlara Keçici bayraqlar verilməklə karikaturalaşdırılmışdı. Bəxtiyar Vahabzadə rəqabəti kapitalizmin ən vacib amili kimi göstərir. Rəqabətsiz kapitalizmdə inkişaf yoxdur. Lakin dramın qəhrəmanları rəqabətin sahibkarlar arasında düşmənçilik toxumu səpməsinin əleyhinə çıxır, insanları barışa səsləyən, bir-birinə bağlayan, birləşdirən vasitəyə çevrilməsini istəyirlər. Sağlam rəqabəti inkişafın təməl daşı bilən Şahin özünə elə bir bir iş ortağı seçir ki, dürüstlüyü və sədaqəti var-dövlətdən üstün tutsun. Taxılçılıqda aparılan islahatlar, yerli istehsalın genişləndirilməsi, kənardan gətirilən məhsulun az məsrəflə əldə edilməsi qiymətlərinin aşağı düşməsinə şərait yaradır. Millətin çörəyini qan bahasına satan iki sahibkarın bazarda duruş gətirə bilməməsi əslində zərurət idi. Şahin «bir cibin dolması naminə minlərlə cibin boşalması»nın əleyhinədir. Ancaq öz sahəsindən uzaqlaşdırdığı naşı biznesmenlərin də ziyan çəkməsini istəmir, bacardıqları işin qulpundan yapışdıqları halda onlara hər cür köməkliyini əsirgəmədiyini nümayiş etdirir. Şahin elə sahibkarlardandır ki, verdiyi söz icrasına bərabərdir. İnsanın həyatda ən böyük qazancı ləyaqətidir. Biləndə ki, imkansız tələbə mənlikli adamdır, ona əl tutmağı özünə borc sayır. Onun çətinliyi başqalarının hesabına deyil, öz halal zəhməti ilə aradan qaldırmaq istədiyini görəndə isə qürurlanır, qızına tövsiyə edir ki,*

*gələcək ömür-gün sirdaşını ancaq ləyaqətinə görə seçsin.*

**Şahin rolu sanki Nurəddin** *Mehtixanlı üçün biçimlənmişdir. Aktyorun ifasında elə bir mizan, jest, hərəkət yoxdur ki, onun gerçəkliyinə inanmayasan. Qarşılaşdığı adamların xasiyyətini davranışlarından oxuyur, onların hər birinə qarşı nəinki rəftarında, səsinin tonunda da dəyişkənlik hiss etdirir. Bir pərdədə iş ortağı Nadir, istəklisi Məlahət xanım (telefonla), mühasibi Səlim, rəqibi Səttar, sürücüsü Əkbər və qızı Səbinə ilə onun görüşləri bəzən eyni məqamda, bəzən də ardıcıllıqla verilir. Burada aktyor elə məharətlə oynayır ki, adamların hər birinə qarşı fərqli münasibət nəzərə çarpır.*

*Əsərdə bir neçə xətlə rastlaşırıq: sahibkarlıqda sağlam rəqabət, keçmiş məhəbbətin baş qaldırması, dostluqda sədaqət və vəfa, gənclərin valideynləri qarşısında borcu və bir-birinə sevgiləri, tərəddüd və ləyaqətə qayıdış tamaşaçını gələcəyə ümidlə baxmağa sövq edir. Haqqı tapdamaq, yaxşılığa yamanlıq etmək, sağlam rəqabəti düşmənçiliyə yönəltmək, sevgiyə əxlaqsızlıq donu geydirmək, pulu bütün mənəvi dəyərlərdən üstün tutmaq isə ilk baxışda ümidsizlik oyatsa da, finalda ədalətin qalib gəlməsi nikbinlik yaradır.*

**Dostluğun dəyəri.** *Azərbaycan xalqının gözəl keyfiyyətlərindən biri də əqidəcə bir-birinə yaxın adamların doğmalaşmasıdır. Duz-çörək kəsməklə insanların qardaşcasına bağlanmaları Şahin-Nadir xəttində ustalıqla verilir. Şahinin biznesdəki uğurlarının əsas səbəblərindən biri həyatda özünə Nadir (rolun ifaçısı İlham Əsgərov) kimi sirdaş, həmfikir, arxa qazanmasıdır. Bir çox düyünlərin açılmasında ona yardım edən iş ortağı təmkinli olduğu qədər etibarlı və tədbirlidir. Dost sözündən tez inciyib hissə qapılan deyil. Onların arasında uçurum yaratmağa çalışan rəqib tərəf Şahini bir anlığa da olsa, yanlış fikrə salmağı bacarır, daha doğrusu, onu Nadirin xəyanətinə inandırırlar. Həmişə fakt və dəlillərlə iş görən Şahin elə stüasiyaya düşür ki, ağı qaradan seçməkdə çətinlik çəkir. Nadir isə həqiqəti onun özündən öyrənə bilməyən dostunun təhqirinə məruz qalsa da, sayıqlığını itirmir. Tamaşada oynanılması çətin məqamlardan biri Şahinin Nadiri işdən qovması və bu anda onu sancan kəlmələri dilinə gətirməsidir. «Sənin övladın olsaydı...» ifadələri ağzından çıxar-çıxmaz Şahinin yadına düşür ki, dostunun oğlu-qızı yoxdur, qəbahətinin böyüklüyü onun inam və şübhələrini üstələyir, bir neçə dəqiqə əvvəl işdən qovmaq əmri verməsinin fərqinə varmadan Nadirdən üzr istəyir. Və hər şey dəyişir. Aktyorların hər ikisi bu məqamı tamaşaçıya məharətlə çatdırır. Əslində belə halda geriyə yol qalmır və insan şübhələnib özünə düşmən saydığı adamla üzülüşmə qərarını bildiriəndən sonra dediyi sözlərə əhəmiyyət vermir. Bu epizodda Şahinin ləyaqətli insan olması və Na-*

*dirin dostluqda sədaqəti qabarıq nəzərə çatdırılır. İlk baxışda adi görünsə də, düyünü bir qədər də dərinləşdirən məqamlardan biridir. Sonra məhz bu qarşıdurmaya görə Nadir cinayət törədən şəxs kimi həbs edilir.*

**Ata-oğul qarşıdurmasının yeni tipi.** *Tamaşada əzəli motivlərdən biri sayılan ata-oğul və ana-qız qarşıdurmasının yeni yozumu da maraq doğurur. Tarixi aspekdə yanaşsaq, görərik ki, əsası mifik görüşlərdə Kronos-Zevs, Saturn-Yupiterlə qoyulmuş, yazılı ədəbiyyata keçərkən Rüstəm-Söhrab xətti ilə övladın qətli şəklinə düşmüşdür. Maraqlıdır ki, türk təfəkküründə ata və ana müqəddəsləşdirildiyindən onların övladları ilə qarşıdurması ictimai məzmun daşımış, etik normalardan kənara çıxarılmamışdır. «Dədə Qorqud» eposunda Buğacla Dirsə xan arasında uçurum yaransa da, Qazan bəylə Uruzun fikri bir-birinə çəp gəlsə də, anaların işə qarışması və oğulun atasının üzünə ağ olmaması ziddiyyəti dərinləşdirmir. Doğrudur, Dirsə xan namərd nökərlərinin fitvasına uyub Buğacı oxlayır, lakin tanrı elçisi Xızırın və ananın yardımıyla ölümün qarşısı alınır, haqq zəfər çalır. Qazan bəy isə oğlunun meydandan qaçmadığını, təkbaşına çoxsaylı düşmənlə döyüşə girib əsir düşməsini biləndə yanıldığını anlayır. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində ata-oğul qarşıdurması göhnəliklə yeniliyin mübarizəsi şəklində ədəbiyyatda geniş işlənir. «Rəqabət» dramında Şahin-Ceyhun və Məlahət-Kəmalə qarşıdurması Qazan-Uruz variantına oxşasa da, orijinaldır. Valideynlərlə ovladlar arasındakı ziddiyyətin səbəbi əslində onların bir-birinə qarşı əksliyindən irəli gəlmir. Şahinlə Məlahət itirdikləri sevgilərini tapdıqlarını zənn edirlər. Lakin tale elə gətirir ki, onların övladları da bir-birinə bağlanırlar. Uçurumum yaranmasında günah böyüklərin bir zamanlar öz valideynlərini qırmaması, daha doğrusu, ata üzünə ağ olmamaq üçün sevgini qurban verməsidir. Lakin onlar biləndə ki, bu dəfəki qurban çox böyükdür, öz duyğularını buxovlamaqdan başqa əlacları qalmır.*

*Bu qarşıdurmada heç bir tərəf o birini günahlandırmır. Əksinə övladlar xaricə qaçmaqla hamının gözündən uzaq düşürlər ki, böyüklərin xoşbəxtliyinə mane olmasınlar.*

**Kapital və mənəviyyat.** *Rəqabət əslində mübarizənin bir formasıdır. Hər bir mübarizənin sonunda qalib və məğlub tərəf olur. Fərdi və kütləvi idman yarışları da udan və uduzanı meydana çıxarmaqla yekunlaşır. Hər iki halda birincilər qazanır, ikincilər itirir. Rəqabətdə qazanılanla itirilən eyni şeydir – pul və gəlir. Azərbaycan xalqı pulu əl çirki saymış, heç vaxt kişiliyi, mərdliyi, şan-şöhrəti onunla dəyərləndirməmişdir. Kapital mənəvi amilləri arxa plana keçirsə də, inkişafa təkan verən vasitələrdən biridir. Tamaşada*

*iki mühit mövcuddur və onların hər birinin pula, qazanca, mənfəətə öz baxışı var. Şahinlə Nadirin qurmaq istədiyi cəmiyyətdə sərvət ağlın və bacarığın hesabına qazanılmalı, iqtisadiyyatın yüksəlişinə, əhalinin rifahının yaxşılaşdırılmasına sərf edilməlidir. Onların amalı və əqidəsi düzlük, ləyaqət və işgüzarlıq üzərində formalaşmışdır. Atalarımızın müdrik kəlamlarını tez-tez dillərinə gətirmələrindən, xalqın bayatılarını, musiqisini dinləyərkən duyğulanmalarından hiss olunur ki, sərvət belələrinin əllərində cəmləşsə mənəviyyatın çürüməsinin qarşısı alınacaq. Səttarların Səlim tək nankorları sürüklədiyi mühitdə ləyaqət hissi itirildiyindən hər şey alınıb-satılır və görülən işlərin dəyəri Gülağa kimi mafiozların mizan-tərəzisi ilə ölçülür. Elxan Ağahüsenoğlunun oynadığı bu obraz ümumilikdə ədəbiyyatımız və teatrımız üçün yenidir, səhnədə şərəf hissini itirmiş, qəddar olduğu qədər hiyləgər və tədbirli cani ilə rastlaşırıq. Aktyor cinayət aləminin ab-havasını, jarqon və rəftarını dəqiqliklə göstərir. Şair həyatı çirkaba batıranların nümayəndəsinin rəzilliyini səhnədə göründüyü anda öz dili ilə nəzərə çarpdırır. Qadın hər bir azərbaycanlının namusu və qeyrətidir. Lakin Gülağa üçün qızlar insanı alçaldan vasitədir. O, müqəddəs hisslərə əyləncə kimi baxır, hər şeydən öz xeyrinə faydalanmağı bacarır, dələduz, millətin cibinə girən, azad rəqabətlə ayaqlaşa bilməyib «bankrot» vəziyyətinə düşən xəbis adamları başına toplayır. Onlar elə bir cəmiyyət yaratmaq arzusuyla yaşayırlar ki, orada ruhla bağlanan amillər - musiqi, mahnı, rəqs də şərəfsizliyin xidmətində dursun. Əsərdə yeni quruluşun ən eybəcər tərəfləri inandırıcı şəkildə canlandırılır: qanunu «kölə» etməyi bacarmaq, cinayətdən küllü miqdarda pul verib yaxa qurtarmaq, qızını oğurlayıb sahibkardan qanunsuzluğa sərf olunan rüşvətin əvəzini tələb etmək acınacaqlı olsa da, kapitalizmin gerçəklikləridir. Elə hallara qarşı ədəbiyyat və teatr xadimlərinin etiraz səsini ucaltması vacibdir.*

**Məhəbbətin ölməzliyi.** *Tamaşada bir-birini tamamlayan iki nəslin sevgisi əvvəldən axıradək sahibkarlıqda rəqabət xətti ilə paralel aparılır və dramatik qarşıdurmaları lirik-psixoloji əhval-ruhiyyə ilə əvəzləyir. Kasıb ailədən çıxan Şahinin gəncliyində sevgisi tora salınır. Atası maddi durumuna görə Məlahəti ondan ayırır, öz varlı qohumuna ərə verir. İyirmi səkkiz ildən sonra hər ikisi təklənir və təzədən görüşürlər. Köhnə duyğular çılğınlıqla baş qaldırır. Bu hal məhəbbətə əbədi heykəl qoyan Nizaminin «Leyli və Məcnun» poemasını yada salır. İbn-Salamın ölümü nakam gənclərin qovuşmasına şərait yaradır. Lakin Məcnun hicranlı çağlarında bütün enerjisini eşqin təbliğinə sərf edir, dünya nemətlərindən üz döndərir. Bir qocanın yardımı ilə sevgilisinin yanına çağrılanda Leylinin çadırından yüz metr*

*aralıda dayanır. Ona görə yaxınlaşmır ki, ərli qadının üstünə ləkə sala bilər. Bu, Məcnun ləyaqəti idi. Deyirdilər ki, Məcnun çılğınlığı ilə Leylini dilə-dişə salmışdı. Amma o heç vaxt cəmiyyətin üzünə ağ olmamış, Leylini ruhunda, qəlbində yaşatmaqla «günaha batmışdı». Şahin elə bir dövrdə yaşayır ki, artıq məhəbbətin qarşısına valideynlərin sipər çəkməsi mümkün deyil. O, oğlu Ceyhunu vərəsəlikdən məhrum etməklə belə Kamilədən ayıra bilmir. Nəticədə ata və ana övladlarının xoşbəxtliyi naminə ömürlərini Məcnun eşqi ilə başa vurmaq qərarına gəlirlər.*

**Ləyaqətli olmağın faciəsi və ülvülüyü.** *Tamaşada rəqabəti keyfiyyət dəyişikliyi, inkişafın özülü, parçalanmağımızı deyil, birliyimizi təmin edən ictimai hərəkət kimi götürən Şahinin yanında ləyaqətli insanlara həmişə yer tapılır. Vəkil Aslan hüquqi dövlətdə qanunu şah sayır, hətta mənafeyini məhkəmədə müdafiə etdiyi şəxsin düzgün olmadığını yəqinləşdirəndə saxtakarlıqlarının üstünü ört-basdır etmir, yurdundan-yuvasından qovulmuş imkansız adamların tərəfinə keçir. Lakin şərəfsizlərin əlləri elə uzundur ki, bəzən cəmiyyətdə ləyaqətli olmaq insanın başına faciə açır. Tamaşanın son səhnəsində Şahinin qətli ləyaqətliliyin, dürüstlüyün, dostluğun və saf məhəbbətin üstünə kölgə salmağa yönəlsə də, tərəddüd içində yaşayan insanların haqqa qayıdışı ilə düyün açılır. Finalda naqq öz yerini tapsa da, Məlahət xanım rəqabətin dəhşət gətirməsindən narahatlıq keçirdiyini ifadə edir, Şahinin zaldan səhnəyə doğru istiqamətlənən xəyalı isə əksinə, onun düzgün aparılmasınını uğurlarımızın, barışın, ədalətin təminatçısı sayır.*

***Ramazan Qafarlı***



# İNSAN
# VƏ
# ZAMAN





*«Gəlmişəm!» - səsləndi ölüm bir anda,*
*Gözəl bir insana necə qıydı O?*
*Sən bir ağrıya bax!*
*Böyük bir xalqa*
*Arxa olan kəsin arxasıydı O.*

B. Vahabzadə

***Zərifə xanım haqqında jurnalistlər, şair və yazıçılar onlarca müxtəlif səpkili yazılar qələmə alıblar. Bu da hər birinin ürək səsindən, duyğularından irəli gələn istək və nümunələrdir. O, bütün fəsilləri sevirdi. Xüsusilə baharı. Elə doğumu da, həyatla vidalaşması da bu fəslin qismətinə düşdü. 1985-ci il aprelin 15-də dünyasını dəyişdi. Bu elə bir vaxt idi ki, Moskvada SSRİ miqyasında məsul vəzifələrdən birini tutan Heydər Əliyev ona və Azərbaycana qarşı çevrilən güclü qaraguruha qarşı da mübarizə aparırdı. Həmin hüznlü vaxtlarda - dost, ağsaqqal təsəllisinə ehtiyac duyduğu anlarda şairimiz Bəxtiyar Vahabzadə də sarsılmış halda yanında dayanmışdı. Tezliklə duyğuları "Mərsiyə - Rekviyem" adlı əsərdə göz yaşları ilə süzülüb gələn misralara çevrildi. Bu şeir Heydər Əliyevin sağlığında Zərifə xanıma həsr olunmuş albomda işıq üzü görüb. Sonra onu şair "Qafqaz" yurnalında yenidən nəşr etdirib.*** (Redakdordan)



## MƏRSİYƏ-REKVİYEM*

*Zərifə xanım Əliyevanın xatirəsinə*

«Gəlmişəm!» - səsləndi ölüm bir anda,
Gözəl bir insana necə qıydı o?
Sən bir ağrıya bax!
Böyük bir xalqa
Arxa olan kəsin arxasıydı o.

Hökmünü verməkdə ölüm zirəkdi,
Həyatın üstünə qəhqəhə çəkdi.
Bu boyda dünyanı elə bil, bu dəm
İynənin gözündən keçirəcəkdi...

Ölüm kəmfürsətdi, vaxtı itirməz,
Bir anlıq əcələ macal da verməz.
Gəldisə, yaxşıya, yamana baxmaz,
Uşağa, qocaya, cavana baxmaz.

Hər kəsin alnına basar möhrünü,
Zamanı saxladar zaman içində.

---

*"Qafqaz" jurnalında (12-ci buraxılış 03(12) 2008 , səh. 12-15.) çap olunub.*

Qayğıyla bəslənən yüz illik ömrü
Alar əlimizdən bir an içində.

Nə qədər dünyada yaşayırıq biz
Ölüm - sanırıq ki, bizdən uzaqdır.
Elə bilirik ki, bizim ömrümüz
Ömürdən o yana uzanacaqdır.

Belə düşünürük... ötür fəsillər.
Ölüm?..
Bir səs deyir: - Yox, hələ tezdir.
Onu da bilirik, axışan illər
Ölümə uzanan əllərimizdir.

Daddıqca həyatın şirinliyini,
O - son hədd imiş.
Duyduqca həyatın dərinliyini,
Bilirik:
Bilməmək səadət imiş.

Bu necə dünyadır, anlamıram mən,
Cilvəsi cürbəcür, rəngi cürbəcür.
Dünən nəfəsilə səni isidən
Bu gün buza dönür, torpağa dönür.

**2**

«Gəlmişəm!» - bağırdı ölüm bir anda,
Gözəl bir insana necə qıydı o?
Sən bir ağrıya bax!

Böyük bir xalqa
Arxa olan kəsin arxasıydı O.

Əgər arxadırsa qadının sənə,
Meydan oxuyarsan min-min düşmənə.
Qadının düşmənsə, eynin açılmaz,
Min dost köməyindən bir xeyir olmaz.

İşdən qanı qara evə dönəndə,
Dünya gözlərinə tor görünəndə,
Könül sirdaşının bir xoş baxışı,
Bir xoş təbəssümü sənə can verər,
Dünyanı gözündə gözəlləşdirər.

Eşitdim, beləymiş könül sirdaşın,
Elə bununçün də sənin göz yaşın
Axdı bulaq kimi...
Anlayıram mən.
Sındı Zərifə də zərifliyindən.

İşıqsız gözlərə nur verən insan,
Gözlərə verdiyi nurdan, işıqdan
Qəlbinə don biçib ilk bahar kimi,
Zərif olmalıydı gözdə nur kimi.

Sənin arzun ilə üz-üzə durmuş.
Kişilər -
Anası öləndə deyil,
Qadını öləndə yetim olurmuş...
Səni sevdiyindən o, istərdi ki,
Sən yola salasan dünyadan onu.

Bəlkə o, bilmədi, bax, bu itkinin
Sevimli əriyçün nə olduğunu.

O, qıymazdı sənin göz yaşlarına,
Qıymazdı o solğun baxışlarına.
Qıymazdı, başını əyəsən bu gün.
Qıymazdı sinəndə ağlasın ürək.
Sən onun ruhunu incitməməkçün
Onun dərdinə də dözəsən gərək.

Budur yaranmışın ilki və sonu,
Qardaşım, mən yaxşı bilirəm bunu:
Bu ağır dərdi də bölüşmək üçün,
Yenə Zərifəni axtarır gözün.

Yol - qəmdən sevincə,
                                        Sevincdən - qəmə!
Bu yol - ta əzəldən belə qoyulmuş.
Sən indi kədərlə: «O, yoxdur» - demə,
Ona təşəkkürlə de ki: «O, olmuş!»

3

Axır qəbiristana el, axın-axın,
Başlarda çətirlər yaşıl, qırmızı.
Qəbrin nurla dolsun!
                                        Mənim xalqımın
Novo-Deviçyedə* yatan tək qızı!

Aslan tək yaşadan aslan yanında,
Mərdliyin səbəbi mərddən sorulmaz.

Aslan da aslana arxalananda,
Aslanın erkəyi, dişisi olmaz.

Sən hörmət qazandın ləyaqətinlə,
Hörmət qazanılmaz qəzəblə, kinlə.
Hər şeyi dərk edir; insan büt deyil.
İçində yatdığın o tabut deyil,
Ləyaqət taxtıdır,
                    Ləyaqət taxtı!
Başlardan yuxarı səni ucaltdı.

Bu bahar günündə yağmurlu göy də,
Bu gün için-için qan ağlayırdı.
Sənin matəminə Üzeyir bəy də,
«Sənsiz»in dililə yas saxlayırdı.

Bayaqdan süzürəm mən izdihamı,
Yağışın altında dayanıb hamı,
Onu son mənzilə
                    Ötürür belə.

Qardaşım, bu böyük izdiham, bu gün
Qoy olsun azacıq təskinlik sənə.
Sonsuz kədərini azaltmaq üçün,
El-oban yığılıb sənin dövrənə.

Qəmə şərik varsa, qəmi adla keç.
Gör, necə dikilib üzünə gözlər.
Sevinci böləndə çoxalar sevinc,
Kədəri böləndə, azalar kədər.

Şər ilə qardaşdır, dünyanın toyu.
Vaxt ötür bu sonsuz axarla, qardaş.
Ancaq ömrün boyu, həyatın boyu,
Sən ki, yaşamısan vüqarla, qardaş!

Bu vüqar önündə biz də baş əydik.
Kaş, səni bu halda biz görməyəydik.
Əgər, sən əyilsən,
Sınmış bil bizi.
Əvvəlki vüqarla yaşa, yaşat sən,
Səninlə fəxr edən ellərimizi!

*17-18 aprel 1985, Moskva*

# HEKAYƏLƏR





Ömrüm boyu qəlbimdə baş qaldırıb məni həyəcana gətirən duyğuları rənglərin sehrli dili ilə deməyə adət eləmişəm. İndi qəlbimdəkiləri sözlə demək mənə çətin gəlir. Doğrudanmı, belədir? Yox, "çətin" sözü yerinə düşmədi. Demək istəyirəm ki, rəng vasitədir, söz mətləb. Bax, bu lap düz oldu... *("Nənəmin xalçası" hekayəsindən)*

# MƏŞHUR ADAM

Şərq fakültəsində dekan idim. O biri dillərə baxanda ərəb dili daha çətin olsa da, tələbələr bu dili yaxşı mənimsəyirdi. Fakültənin bütün müəllimləri bunun səbəbini çox yaxşı bilirdi. Səbəb yaşı yetmişi ötmüş Muxtar müəllimin dərs üsulu idi. Cavan müəllimlər onun üsulu ilə razılaşmasalar da, hətta yeri gələndə onu tənqid atəşinə tutsalar da, həqiqət göz qabağın-da idi. Muxtar müəllim tənqid və hücumlara yalnız gülümsəməklə cavab verər, yenə də öz bildiyini eləyər, ikicə ildə ərəb dilin-də sərbəst danışan və yazan tələbələrini əleyhdarlarının qarşısına çıxarardı.

Bir dəfə dərs ilinə yekun iclasın-da yenə düşdülər Muxtar müəllimin üstünə. Gözlərini yumub ağızlarını açdılar. Hamı bir sözü tək-rar edirdi: Muxtar müəllimin dərs üsulu çoxdan köhnəlib. Müasir gəncliyə bu üsulla dərs demək gerilik əlamətidir. Muxtar müəllim birini dinlədi, ikincisinə güldü, üçüncüsünə dözmədi, qalxdı ayağa. Dedi:

- Bala, mənim bir sualıma cavab ver. De görüm, sənə alma lazımdır, yoxsa saplağı? Cavan müəllim kəkələdi:

- Alma nədir, saplaq nə?

- Alma saplağı ilə qidalanır. Alma məqsəddir. Saplaq məqsədə gedən yol. İndi sənə hansı lazımdır?

- Həm alma, həm də saplağı.

- Onda yeyəndə alma qarışıq saplığı da yeməyin məsləhətdir, - deyib Muxtar müəllim əyləşdi.

Söz cavan müəllimi tutdu. Qayıtdı ki, məqsədlə bərabər yol da gözəl olmalıdır. Məqsədə çatmaq üçün əyri yollar da var. Düz yollar da... Biz gərək düz yolla gedək. Muxtar müəllim yerindən:

- Burda sən haqlısan. Amma indi de görək düz yolla gedən kimdir, əyri yolla gedən kim? Cavan müəllim:

- Müasir metodikaya görə sənin yolun dolayıdır, əyridir. Muxtar müəllim:

- Xeyir, əgər mənim yolum əyri və dolayı olsaydı, mən də sənin kimi mənzil başına gec çatardım. Amma hamı bilir ki, sənin beş ilə çatdığın mənzilə mən ikicə ilə çatıram. Nədən ki, mən düz və kəsə gedirəm, sənsə əyri və dolayı gedirsən.

Muxtar müəllimin bu məntiqi cavabı hamını tərksilah elədi. O gündən əleyhdarları onunla açıq döyüşə girməz, yalnız arxasınca deyinərdilər.

Muxtar müəllim hər yerdə, hər zaman yalnız düşündüyünü deyər, hamıdan da bunu tələb edərdi. Yalana dözümsüz, yalançıya amansız idi.

Onun “güzəşt sözündən zəhləsi gedirdi. Bəzən əlaçı bir tələbənin qiymətini aşağı salanda bütün fakültə ayağa qalxar, çəkinə-çəkinə güzəşt eləməsini xahiş edərdi. Bu zaman o, “elmdə güzəşt olmaz - deyə hamını yerində oturdardı. Ümumiyyətlə, qiymət barədə söhbət gedəndə Muxtar müəllim həmişə əsəbləşər, dekanlığm bu məsələyə qarışmasma dözməzdi. Əslində mən bir müəllim kimi onun haqlı olduğunu bilirdim. Bir tələbənin qiymətini süni olaraq qaldıranda ədalət naminə gərək o biri tələbələrin də qiymətinə yenidən baxasan. O isə ədaləti tapdalamaq, bununla da tələbələrin gözündən düşmək istəmirdi.

Muxtar müəllimin qızı da bizim fakültəmizdə oxuyurdu. Qızına ərəb dilini o özü öyrətmişdi...

Deyirlər, muxtar müəllimin avara bir bacısı oğlu varmış. Bu oğlan heç yerdə işləməz, vəzifəli atasının kölgəsində dolanarmış. Muxtar müəllim bacısı oğlunu dəfələrlə avaraçılıqdan uzaqlaşdırmaq istəmiş, amma bir nəticə hasil olmayıbmış.

Bu oğlan abırlı bir ailənin qızını sevirmiş. Bu ailənin də Muxtar müəllimə çox böyük hörməti varmış. Bir gün bacısı Muxtar müəllimdən xahiş edir ki, qızgilə elçi getsin. Muxtar müəllim rədd edir. Bacısı yalvarır, yaxarır, onda Muxtar müəllim bir şərtlə getməyə razı olur ki, orda susacaq, söh-bətə qarışmayacaq.

Şərti qəbul edirlər. Muxtar müəllim dediyi kimi susur. Oğlanın atası

qız atasına o ki var, oğlunu tərifləyir, sonda nə diləyə gəldiklərini bildirir... O biri elçilər də oğlanın tərifini göyə qaldırır. Muxtar müəllim isə ağzını da açmır.

Muxtar müəllimi çox yaxşı tanıyan qız atası bu susmağın əlamətini başa düşür. Üzünü ona tutub deyir:

- Muxtar müəllim el ağsaqqalıdır. Odur ki, qızımın ixtiyarını verirəm ona. O nə desə mən ona razı.

Kişi bu sözün qabağında çıxılmaz vəziyyətdə qalır. Bilmir nə cavab versin. Onun əzab çəkdiyini görən qız atası mətləbi bir az da dərinləşdirir:

- Muxtar müəllim, elə hesab elə ki, mənim qızım sənin öz qızındır. Qızını bacıoğluna verərsənmi? Muxtar müəllim ayağa qalxır, asılqandan papağını götürüb, üzünü tutur qız atasına:

- Eləsinə itimi də vermərəm, - deyib qapıdan çıxır. Deyilənə görə o gündən bacısı Muxtar müəllimi danışdırmır.

Kabinetdə oturmuşdum. Telefon zəng çaldı. Rektor idi. Məni yanına çağırırdı. Getdim. Gözləmə otağında tanınmış və hörmətli bir sənətkarla qarşılaşdım. Onun rektorun qəbuluna niyə gəldiyini bilirdim. O, dünən axşam bizə zəng çalmış, oğlunun siyasi iqtisaddan kəsildiyini demiş və məndən xahiş etmişdi ki, müəllimlə danışım, oğlunun qiyməti düzəlsin. Mən siyasi iqtisad müəllimini yaxşı tanımadığımı demiş, bu işi boynuma götürməmişdim.

Məşhur adam məni görən kimi həmin xahişə görə rektorun qəbuluna düşmək istədiyini bildirib əlavə etdi ki, rektor onun məktəb yoldaşı olub.

Mən onun qolundan tutub kabinetə saldım. Rektor onu görən kimi ayağa qalxıb qarşısına gəldi, səmimi qarşıladı.

Bir də baxdım ki, Muxtar müəllim də burdadır. Rektor məşhur adamdan üzr istəyib üzünü mənə tutdu:

- Sən niyə Muxtar müəllimin qızını təqaüddən kəsmisən? Fikirləşdim, yadıma düşdü:

- Bir dənə kəsiri var, - dedim. Rektor:

Hansı fəndəndir, - deyə xəbər aldı.

- Elə Muxtar müəllimin özündən. Bunu demişdim ki, rektor uğunub getdi.

- Dəstgahın olsun, ay Muxtar müəllim, - deyib bir də uğundu.

Muxtar müəllim ağappaq ağarmışdı. Rektorun istehzalı qəhqəhəsi onu yaman əsəbiləşdirirdi. Bunu hiss edən rektor dərhal özünü yığışdırıb mülayim bir səslə dedi:

-Muxtar müəllim, hələ gec deyil. Biz hamımız xahiş edirik, qızının qiymətini düzəlt, sənin xatirinə onu təqaüdə salaq.

Bu sözlə kişiyə elə bil od vurdular. Əlini stola çırpıb:

- Ölsə də qiymət verməyəm ona! - dedi.

- Yəni heç bilmir? - deyə rektor xəbər aldı.

- Əvvəllər pis deyildi. İndi oxumur itin balası! Rektor gülümsünüb:

- Sən deyirsən bütövü kəsmə, yarıma dəymə, bəs indi biz neyləyək? Muxtar müəllim əlləri əsə-əsə alnının tərini silib ayağa qalxdı:

- Mən bura gəlməmişəm ki, siz məndən qiymət xahiş edəsiniz. Mən bura gəlmişəm ki, o itin balasına təqaüd verəsiniz. Ona görə ki, qiyməti beş də olsa, iki də olsa, o yaşamalıdır. İndi özünüz bilərsiniz, deyib getdi.

Rektor onun arxasınca baxıb başını yellədi.

Mənim gözlərim isə bayaqdan bəri məşhur adamda idi. Mən bu əhvalatın xahişə gəlmiş məşhur adama necə təsir edəcəyini bilmək istəyirdim. Ürəyimdə fikirləşirdim ki, bu maraqlı hadisənin, bu ədalətin şahidi olandan sonra məşhur adam yəqin ki, xahişindən vaz keçər, onu dilinə də gətirməz. Amma elə olmadı. Muxtar müəllimin arxasınca bir xeyli baxandan sonra:

- Zamana adamı deyil, - deyib keçdi mətləbə.

Rektor mənə baxdı, mən ona.

# ALABƏZƏK ÇAMADAN

*Mən sizə 4 pərdəli bir komediya danışacağam. Amma bu komediyanın çölü gülməlidir, içi ağlamalı:*

İdarənin direktorunu daha yüksək vəzifəyə apardıqlarından müavin direktor əvəzi işləyirdi. O, tamam-kamal direktor olmaq üçün döymədiyi qapı qalmadı. Amma kişinin zəhməti hədər getdi, başqa bir yerdən təzə direktor gətirdilər. Elə birinci gündən müavin tutuşdu bu təzə direktorla. Amma gözünə döndüyüm təzə direktor Hüseyn Xalidoviç ona bir həng gəldi ki, yazıq bir də ayılıb gördü, cibində pensiya kitabçası, bulvarda əyləşib qoca təqaüdçülərlə domino oynayır özü üçün.

Elə burdan da tamaşanın ikinci pərdəsi başlanır. Bu da ondan ibarət olsun ki, idarənin bütün işçiləri təzə direktorun nə qədər böyük gücə və qüdrətə malik olduğunu başa düşüb bildilər ki, bu cavan oğlanla zarafat eləmək olmaz. Bunu biləndən sonra vəziyyətlər və münasibətlər dəyişdi, ikinci pərdənin ikinci şəkli başlandı. Bu şəkildən sonrakı bütün şəkillərin və pərdələrin baş qəhrəmanı oldu yaltaqlıq! Deyəsən, hörmətli oxucunun ürəyindən keçdi ki, bəyəm, yaltaqlıq adamdır ki, hələ bir baş qəhrəman da ola? Yox, əlbəttə, adam deyil, amma adama oxşayan bir para adamcığazların özündən yuxarıda durana göstərdiyi sifət və münasibətdir ki, mənim nəql elədiyim tamaşanın aparıcısı olacaq... Bəli, həmin gündən başlaya-raq, gündə 5 dəfə, yerinə görə bəzən 6-7 dəfə Hüseyn Xalidoviçin və əhli-əyalının kefi və səhhəti soruşuldu, yeddi arxa dönəninin ad günləri öyrənildi, paltosu tutuldu. Ona "sədaqət" oyunu oynanıldı. Bu oyunu oynayanlar əsasən 3 şöbə müdiri idi. Nədən ki, onların üçü də boş olan müavin yerinə göz dikmişdi. Hüseyn Xalidoviçdən hələlik səs çıxmır, ürəyində seçib sanalayır, bu üçündən hansının daha çox uyğun olduğunu öyrənirdi. "Uyğun" deyəndə, ürəyinizə "qabiliyyət" gəlməsin. Qabiliyyət - ikinci dərəcəli məsələdir. Əsas məsələ bunlardan hansının ona daha çox sadiq olacağı-

nı bilməkdən ibarət idi. Bunun üçün isə vaxt lazım idi. Məsələnin belə olduğunu şöbə müdirləri də bildiyindən onların arasında direktora qulluq və qulluğun içində "sədaqət" yarışı başlanmışdı. Bu yarışda onlar bir-birinə aman vermir, biri digərini üstələməyə çalışır, bu çalışmalarda isə Hüseyn Xalidoviç qazanırdı.

Bu 3 şöbə müdirinin - Kərimin, Rəhimin və Səlimin hər birinin öz qulluğu və öz xidməti var idi şefin yanında... Məsələn, Kərim direktorun qohum-qardaşına şəhərdə tapılmayan dərmanlar; bir göz qırpımında tapar, sahibinə çatdırardı. Nədən ki, qaynı Baş Apteklər İdarəsində mühüm vəzifədə çalışırdı... Rəhim isə şefin ailəsinə defisit "importnı" mallar tapmaqda mahir idi. Onun da qardaşı şəhər ticarətinin böyüklərindən idi... Bəs Səlim? Onun vəzifəsi başqa idi. Səlim şəhərdə dolaşan, xoruz səsi eşitməmiş lətifələri çinədanına yığar, ertəsi gün gülə-gülə kabinetə girər, üyüdüb tökər, şefin məzəsini açardı... İndi direktor qalmışdı məəttəl. Hansına üstünlük versin?

Əslində, bunların içində diribaşlığına və çevikliyinə görə Səlimin tayı yox idi. Amma... elə bu çeviklikdən şefin dalağı sancırdı. Qorxurdu ki, müavin keçəndən sonra Səlim daha çox əl-qol aça və günlərin bir günü onun yerinə də göz dikib, aranı qarışdıra. Kərim xoruz-beçə, bir az da gopçu, Rəhim isə quzu bala idi. Başından vur, əlindən çörəyini al, odur ki, direktor bir balaca Rəhimə meylli idi.

Bir gün işə gələn kimi direktor Rəhimi çağırdı yanına. Bacanağı xəstə idi. Cibindən nüsxəni çıxardıb uzatdı ona.

- Bütün aptekləri gəziblər, tapa bilməyiblər, gör neynirsən...

Rəhim nüsxəyə baxıb:

- Kimdi xəstə? Allah eləməmiş sizinkilərdən... Hə... Rufikin atası... Rufik bizim Aliklə bir sinifdə oxuyur. Zəkalı uşaqdır, "Krasnı şapoçka"nı əzbər bilir.

- Gərək bu gün saat 11-ə qədər çatdırasan... Baldızımgili tanıyırsan?

- Niyə tanımıram... Rufikin ad günündə bir yerdə deyildik...

- Di, tərpən!

Rəhim getdi, Kərimi çağırdı. Kərim ikiqat içəri girdi:

- Sabahi-şərifiniz xeyir olsun, Hüsü Xalidoviç. Şef cavab vermədi.

- Qanınız qara deyil ki?

- Necə bəyəm?
- Heç, gözümə birtəhər dəydiniz... Kostyumunuz da mübarək.
- Ə, nə danışırsan? Az geymişəm bunu?
- Mənə təzə gəldi... yaman yaraşır sizə. Sağlığınıza qismət olsun.
- Moskvada tikdirmişəm.
- Deyirəm axı... Bizdə belə ustalar nə gəzir? Qutu kimi durur əyninizdə. Yaxşı yadıma düşdü, dünən orada idim.
- Harda ə?..
- Orda da... Bizim qohumgildə.
- Kimdi ə... Sizin qohum?
- Çəpgözü deyirəm də...
- Yuxarıdakı?
- Bə nə?
- Ə... o sizin qohumdu?
- Bə deməmişəm?
- Sən öl, birinci dəfədir eşidirəm.
- Doğrusu, bir-iki dəfə əvvəllər istəmişəm deyəm, utanmışam.
- Utanası yerdə utanmırsan... Ə... O sizə nə təhər qohumdu?
- Arvad tərəfdən.
- Kür məsələsi?
- Yox, Kürdən bir az bu tərəfə.
- Ə... Kərim, o lazımlı adamdı...
- Bə nə... Dünən o ki, var, sizdən danışmışam ona.
- Nə demisən ə?..
- Nə deyəcəyəm, olanı.
- Yəqin demisən, məni müavin qoymur.
- Mən ölüm, yox! Dedim, bizim idarə hələ belə bir kişi görməyib.
- Yaxşı, bu barədə sonra danışarıq. Sən gör mənə bir-iki dənə fransız ətri tapa bilərsən?
- Niyə tapmıram?!
- Di, tərpən!

Kərim gedən kimi fikir götürdü Hüsü Xalidoviçi... "Sonra birdən bunun dediyi düz olar... İşləri korlayaram... Bəlkə gop eləyir?.. Bu işin düz olub-olmadığını kim bilər, görəsən?" - deyə xeyli fikrə getdi... Elə bu zaman Naza xanım yanlarını basa-basa içəri girib şefə çay gətirdi.

Naza xanım bu idarədə çoxdan işləyir, hamını tanıyır, tərcümeyi-hallarına qədər bilirdi. Şef:

- Naza xanım, sən bizim bu Kərimi yaxşı tanıyırsanmı?

- Şöbə müdirini deyirsiniz?

- Bəli.

- Dabbaqda gönünə də bələdəm. Elə siz də pis tanımırsınız.

- Söhbətim onda deyil... Bunun yuxarılarda bir qohumuzadı var-mı?

Naza xanım xeyli fikirləşib dedi:

- O barədə bir söz deyə bilmərəm. Amma onu bilirəm ki, ağızdan yırtıqdır, oralarda bir adamı-zadı olsaydı, bunu çoxdan faş eləmişdi.

- Yaxşı, get, amma söhbət öz aramızda qalsın.

Şöbə müdirlərinin ikisinin də direktorun hüzuruna çağırılmaları, aradan yarım saatdan çox keçməsinə baxmayaraq, onun çağırılmaması Səlimi çox narahat elədi. Yerində otura bilmədi, dərhal imza atılası kağızları götürüb üz qoydu kabinetə tərəf. Qapını balaca araladı:

- Əssalam-əleyküm, mənim sevimli şefım. Gəlmək olar?

- Daha gəlmisən, soruşmaq neyçün?

- Sevimli direktorun bizə olan böyük məhəbbətindən sui-istifadə etmək cinayət olar. Etikanı gözləmək borcumuzdur.

- Etika gözləyənə bax! Yaxşı, buyur görək, eşidirəm. Səlim qovluğu açdı direktorun qabağında.

- Mübarək imzanız lazımdır bura. Hüsü Xalidoviç qol çəkib qalxdı ayağa.

Səndən bir söz soruşacağam, düzünü desən, səni sevindi-rəcəyəm.

Səlimin ürəyi “gup” elədi. Ürəyində yəqin elədi ki, hərif müavinliyə eyham vurur.

- Əvvəla, mən sizə heç vaxt yalan deməmişəm. Bu idarədə bir gop-çu var, o da...

Yaxşı, de görək, o yuxarıdakı çəpgözün bizim Kərimlə qohumluğu var, ya yox?

Səlim əlini-əlinə vurub qəhqəhə çəkdi.

- Bu da onun növbəti gopudur, mən ölüm. Əşi, nə qohum, nə zad. Çəpgöz onun birinci arvadının yerlisi idi, vəssalam!

- De sən öl!

- Mən ölüm! Direktor sakit oldu.

- Yaxşı, de görək, işlərin necə gedir?

- Mənim işlərim asılıdır şefimdən. Yapışmışam ətəyindən, hara aparsan, ora da gedəcəyəm.

Hüsü Xalidoviç Səlimin nəyə işarə vurduğunu bilsə də, özünü o yerə qoymadı:

- Xırdala, - dedi, - nə demək istəyirsən?

- Burada bir duzlu lətifə ilə necədir mənim şefim? Şef yerində əyləşib dedi:

- Döşə gəlsin.

- Bir dəvə uzanıb özünü günə verirdi. Tülkü elə bildi dəvə ölüb. Amma bərayi-ehtiyat yenə yoxlamaq üçün onu təpiklədi, dəvə tərpənmədi. Üstünə çıxdı, dəvə yenə qımıldanmadı. Tülkü dəvənin öldüyünü yəqinləşdirib ürəyində dedi, işim düzəlib, apararam yuvama, bala-bala yeyib qışı başa vuraram. Tülkü quyruğunu dəvənin quyruğuna bağlayıb, başladı dartmağa. Bu vaxt dəvə ayılıb qalxdı ayağa, tülkü dəvənin quyruğundan sallandı üzü aşağı. Dəvə yeridikcə tülkü onun o yanına - bu yanına dəyə-dəyə qaldı. Onu bu vəziyyətdə görən qarğa "bu nə gündü düşmüsən" - deyə tülküdən xəbər aldı. Tülkü özünü sındırmadan dedi: "Nə olsun, böyük kişidir, yapışmışam ətəyindən, hara aparır, aparsın".

Hüsü Xalidoviç eyhamın açıqlığına uğunub özündən getdi. Gözlərinin yaşını silib:

- Get, - dedi, - bu, mənə bugünlük bəsdi.

- Bəs, axı, məni sevindirmədin, Hüsü Xalidoviç?

- Amma sən məni sevindirib güldürdün. Mənim sevinməyim sənə bəs deyil?

Səlim bir söz deyə bilmədi.

Bu əhvalatdan bir neçə gün sonra katibə səhər-səhər şöbə müdirlərini yanına çağırıb dedi ki, dünən gecə şefin bacanağı rəhmətə gedib, Hüsü Xalidoviç indi yas yerində sizi gözləyir. Rəhim Kərimə, Kərim Səlimə baxıb əvvəlcə bilmədilər neyləsinlər. Birdən Kərim əllərini üzünə aparıb hönkürdü və nədənsə, çıxıb getdi. Ona baxıb Rəhim dəsmalını çıxartdı. Üzünü yana tutub olmayan göz yaşını silə-silə:

- Dörd balası yetim qaldı - deyib, o da otaqdan çıxdı. Katibə

təəccüblə Səlimə baxdı. Elə bil bu baxışla demək istəyirdi: "Bəs, sən nə durmusan, niyə ağlamırsan, belə bir gündə?". Səlim çox yaxşı bilirdi ki, Naza xanım Hüsü Xalidoviçin sağ əlidir, idarədə baş verən bütün hadisələri bitdən birəsinə qədər qoyur onun ovcuna. Buna görə də yəqin idi ki, bacanağın ölüm xəbərini şöbə müdirlərinə təsir dərəcəsini də ona çatdıracaqdı. Bu həriflər işin içindən yaxşı çıxdılar. Bəs, Səlim neyləməlidir? Duruxdu. Xeyli fikrə getdi. Gördü, nə qədər məharətlə oynasa da, əvvəlkilərə çata bilməyəcək, ürəyində "qoy, mənimki də qalsın direktorun yanına" deyib üzünü tutdu Naza xanıma:

- Ölən ölür, mən şefi düşünürəm. İndi bacanağın da külfəti düşəcək yazığın boynuna - deyə otaqdan çıxdı.

Katibə:

- Külbaşların elə bil dədələri ölüb, - deyə onların arxasınca şaqqanaq çəkib güldü.

* * *

İyirmi dəqiqədən sonra şöbə müdirləri bacanağın qapısı ağzında idilər. İçəri girən kimi Kərimlə Rəhim Səlimə macal verməyib, Hüsü Xalidoviçin boynuna sarıldılar.

- Bu nə müsibətdir gəldi başımıza, - deyib, öküz kimi bö-yürdülər.

Səlim gördü ki, bu lotular burda da onu üstələdi. O, uduzurdu... Bu məqamda o, elə bir pəstəha çıxarmalıydı ki, onun həşiri o birilərinin şivənini kölgədə qoysun. Səlim birdən geri çəkilib, kəlləsini tutuzdurdu qapının çərçivəsinə... Kəllənin zərbəsindən qapı titrədi. Hamı dönüb ona baxdı. Səlim baxışların havasından bir az da cuşa gəldi. İkinci dəfə başını qapıya yamamaq istəyirdi ki, şefin arvadı Gülya xanım özünü atdı Səlimin üstünə. Kəlləni sinəsi ilə sıxdı:

- Səlim qardaş, eləmə!

Səlim üzünü Gülya xanıma tutub:

- Sizin dərdiniz mənim dərdimdir, - deyə öz sözündən bir az da cuşa gəldi və kəlləsini qapıya nə təhər çaxdısa, alnında qoz boyda şiş göyərdi. Deyəsən, bu zərbə lap bərk oldu. Ağrının şiddətindən Səlim, həqiqətən, ağlamağa başladı. Gözlərindən sel kimi yaş axırdı. Gülya xanım yaylığını çıxarıb Səlimin göz yaşını silir, dostların "sədaqəfinə

bir az da kövrəlirdi.

Kərimlə Rəhim isə ürəklərində Səlimi söyür, onun aktyorluq məharətinə, hər oyunu öz yerində oynaya bilmək qabiliyyətinə həsəd aparır, bu oyunun qabağında özlərinin kölgədə qaldıqlarına hayfsılanırdılar. Bu oyun komediyanın üçüncü pərdəsi, yəni zirvə nöqtəsi idi.

O dəqiqədən sonra şef sadiq nökərlərini yan otağa çəkib məşvərətə başladı:

- Ölənin dalınca ölmək olmaz... İndi gəlin, bu müsibətin ardını fikirləşək. Məsələ belədir ki, baldızım və Gülya xanım mərhumun təzə qəbiristanlıqda dəfn olunmasını istəmir. Ora çökək olduğundan su ağzıdır. İndi deyin görək, köhnə qəbiristanlıqda yer tapa bilərik, ya yox?

Tülkülər bir-birinin üzünə baxdı.

- Dəfn idarəsində hansınızın tanışı var? Gecdən-gecə Rəhim dilləndi:

- Siz düz buyurursunuz, Hüsü Xalidoviç. Təzə qəbiristanlıq subasardır. Amma Patamdartdan düşən yerin ağzında təpədə mən yer düzəldə bilərəm. Keçən il qardaşımı mən orada dəfn eləmişəm.

- Dedim ki, o qəbiristanlıqda dəfn etmək istəmirik. Kərim dilləndi:

- İndi çox adam ölüsünü yaxın kəndlərdə, lap elə Sarayda, yaxud Mərdəkanda dəfn eləyir.

Şef yenə əsəbləşdi:

- Əşi, sən nə danışırsan? Bunun cümə axşamısı var, yeddisi, qırxı, ili, bayram axşamları var. Burdan Mərdəkana kim gedəcək?

Bayaqdan söhbətə qarışmayan Səlim şəstlə özünü verdi qabağa:

- Hüsü Xalidoviç, siz narahat olmayın, mən bu işi istədiyiniz kimi yoluna qoyaram.

Şefin qaşları çatıldı:

- Səlim, nağıl yeri deyil, de görək, necə?

- Bunun necəsi yoxdur ki, indi saat neçədir?

- Düz on tamam.

- Saat 4-də Gülya xanımın dediyi köhnə qəbiristanlıqda qəbir hazır olacaq.

Şef Səlimi bağrına basıb, alnının fırından öpdü:

- Bax, bu oldu söz. Di, tərpən!

Kərimlə Rəhim bir daha məğlub olduqlarını boyunlarına alıb, getdilər həyətdə çadır qurmağa.

* * *

Səlim maşınına oturub oradan birbaş gəldi evlərinə. Keçən ildən mənzilinin təmiri üçün aldığı əla "importnı" kafellərdən tələm-tələsik 5 bağlama götürüb qoydu bir kənara. Bayaqdan onu süzən arvadı:

- Xeyir ola, bunları hara aparırsan? - deyə kişiyə təpindi. Səlim aramla başa saldı ki, şefin bacanağı ölüb, onun qəbrini içəridən hörməyə aparır. Arvad cin atına mindi:

- Dədənin qəbrini niyə kafelləmirdin?

- Artıq-əskik danışma, qoy, işimizi görək. Arvad "işimizi görək"dən başa düşdü ki, kişi nəyə işarə vurur, yumşaldı:

- Yəni, bunun köməyi olacaq? Sonra əlavə elədi:

- Amma inanmıram, tülkü adama oxşayır sənin şefin. Səlim arvadının haqlı olduğunu bilsə də, bir həftə əvvəl şefə danışdığı tülkü və dəvə əhvalatını yadına salıb qımışdı. Arvad hardan biləydi ki, əsl tülkü durub qənşərində və bu tülkü özünün tülkü olduğunu öz dililə izhar eləyib dəvəyə. Səlim özünü o yerə qoymayıb, arvadın yanında xoruzlandı:

- Mən öz mərdliyimi bildirirəm, o da kişidirsə, göstərsin öz mərdliyini.

- Umma, şişərsən.

Söz onu tutdusa da, Səlim dərhal mətləbi dəyişdirdi:

- Mənim bir əziz-xələf çamadanım vardı ha... Nuh əyya-mından qalan, alabəzək.

-Kənddən gətirdiyin?

- Hə... Hanı o?

- Neçə dəfə atmaq istəmişəm, qoymamısan. Odur ey... Zirzəmidə.

- Gətir onu.

- Neynəyirsən? Səlim əsəbləşdi:

- Əşi, lazım olmasa, istəmərəm ki... Arvad köhnə-kürüş şeylərin içindən çamadanı tapıb gətirdi. Səlim üstünü toz basmış çamadanın qapağını açdı. Burnuna kif iyi dəydi... İçindən vaxtilə atasının ona yazdığı saralmış məktubları, köhnə mühazirə dəftərlərini və dərsliklərini çıxarıb qoydu bir tərəfə. Bir istədi desin, at bunları, sonra nə düşündüsə:

- Bunları bağla bir düyünçəyə, at zirzəmiyə, - dedi. Kafelləri çamadana yığıb, birbaş gəldi qəbiristanlığa. Qəbirqazan Qulam dayını tapdı. Hər dəfə qəbiristanlığa gələndə 3 il əvvəl atasını dəfn edərkən tanıdığı Qulam kişi ilə salamlaşar, hal-əhval tutardı.

Çox qəribə adamdı Qulam dayı. Yaşı yetmişi keçsə də, hələ cağ idi. Dünyanın altını da görmüşdü, üstünü də. Adamlarla ünsiyyəti o qədər də sevməzdi, amma... gül-çiçəklə, ağaclarla məşğul olmağı özünə səadət bilərdi. Onu həmişə köhnə qəbirlərin arasında dümələnən görərdilər. Gül əkər, ağacları sulardı. Köhnə qəbiristanlıqdakı meşəni o salmışdı.

Şəhər camaatının çoxu onu tanıyırdı. Niyə də tanımasınlar? Kimin evindən, ya qonşusundan, qohum-qardaşının evindən ölü çıxmamışdı? Həyatla ölüm arasındakı bu sərhəddə ömrünün çoxunu başa vuran Qulam kişi burda həyat və ölüm məktəbi keçmişdi.

O, heç zaman "bu gün filan qədər də adam basdırdım" - deməzdi, evdə uşaqlar xəbər alanda, "bu gün filan qədər adamın ulduzu söndü" - deyərdi.

Qulam kişinin tamahkar olmadığını da bilirdi Səlim. Odur ki, söhbətə çox ehtiyatla başlamalı idi. İki ay əvvəl yaxın adamlarından biri öləndə Səlim yer üçün Qulam kişinin yanına gəlmiş, ona xeyli pul təklif etmiş, bir nəticə hasil olmamış, üstəlik, ağır söz eşitmişdi. Buna görə də ikinci dəfə bu məsələyə qayıtmaq mümkün deyildi. Səlim Qulam kişini dədəsinin qəbri üstünə gətirib başladı mətləbi xırdalamağa:

- Qulam dayı, dədəm mənə vəsiyyət eləmişdi ki, onu kənddə, anasının yanında dəfn eləyim. Kişinin vəsiyyətinə əməl eləməyə imkanım olmadı, burda basdırdım.

Qulam dayı dözə bilmədi:

- Atasının vəsiyyətinə əməl eləməyən oğul... Səlim dərhal onun sözünü kəsdi.

- Düz deyirsən... Amma daha ondan keçib. Qulaq as, indi bir aydır, hər gecə kişi yuxuma girir. Məni itdən alıb, itə verir. Deyir, bir qələtdi eləmisən, indi mənim sümüklərimi də olsa, kəndə aparmasan, yanıma üzüqara gələsən. Qulam dayı, yuxum ərşə çəkilib, daha dözə bilmirəm. Sök atamın qəbrini, çıxart sümüklərini, - deyib maşının baqajını açdı, alabəzək çamadanı çıxarıb dedi: - Yığ sümükləri bu çamadana, günü sabah aparacam kəndə.

Qulam kişi onu diqqətlə dinləyib başını yellətdi:

- Bala, dünyanın heç bir yerində ölünü qəbirdən çıxartmazlar. Bu həm günahdır, həm də insana yaraşan iş deyil... Ölünü gordan çıxaranda ölü gorbagor olar. Eşitmisən bu sözü?

- Eşitmişəm. Amma sən dediyin qaldı keçmiş əyyamda...

-Yox, bala, insanın yaxşısı elə hər əyyamda insandı. Bu işi mən sənə məsləhət bilmirəm.

- Bunu mənə niyə deyirsən? Kişi özü elə istəyir... Xahiş edirəm, qurtar məni bu bəladan.

Qulam kişi əlacsız qalıb:

- Dədə özünündü, özün bilərsən. Allah bu günahı mənim ayağıma yazmasın, - deyə bir siqaret yandırıb sözünə davam elədi: - Amma iki şərtim var, birincisi, təzə ölü kimi bu rəhmətliyi kənddə el adətincə dəfn eləyərsən. Eləməsən, muzd-babalım sənin boynuna.

- Başqa cür ola bilməz. Qulam dayı, ikinci şərtini de.

- İkinci şərtimi, sümükləri bax, bu torbada - əlindəki çamadana qoyandan sonra deyəcəyəm.

- Mən razı!

Qulam kişi qəbri qazmağa başladı. Külüng səslərinin altında Səlim işin ardını fikirləşirdi. O, sümükləri doğrudanmı kəndə aparmaq istəyirdi? Əgər kəndə aparası olsa, Qulam kişinin dediyi kimi, mərasimi təzədən başlamalı, qanun-qayda ilə kişini təzə ölü kimi dəfn etməli idi. Bu da əlavə xərc və vaxt tələb edirdi. Yox, əgər burda, təzə qəbiristanlıqda dəfn eləsə... bu da mümkün deyil, çünki ölüm haqqında şəhadətnamə lazım idi. Bəs neyləmək? Çox fikirləşəndən sonra qərara gəldi ki, hələlik bu barədə düşünməyə dəyməz, bu, sonranın işidir. İndi yalnız başlanan işi başa çatdırmalı, elə eləmək lazımdır ki, bu işin içindən qəmbərqulu çıxmasın. Yalnız ondan sonra dədə barəsində fikirləşmək olar. Fikirləşmək deyəndə ki, bunun bircə yolu var: kənddən dayıoğlunu çağırar, o, bu işi öz istədiyi kimi yoluna qoyar. Dayıoğlu da iş yönü biləndir, onu başa düşər.

Səlim bir vaxt ayıldı ki, qəbir sökülüb qurtarmış, Qulam dayı dodağının altında pıçıltı ilə nəsə deyə-deyə sümükləri salafan torbaya doldurur. Birdən gözü dədəsinin kəlləsinə sataşdı. Dərhal üzünü yana çevirdi, baxmaq istəmədi. Kişinin sifəti gəlib durdu gözlərinin qabağında, ha

çalışdı bu sifəti itirsin, olmadı. Vaxtilə dədəsinin ona qəzəblə dediyi bir söz qulağında cingildəyib kişinin o sözü dediyi andakı sifətini də canlandırdı:

...Səlim 10 yaşında ikən anasını itirmişdi. Atası kənd soveti sədri vəzifəsində işləyir, yeganə oğlunu günlərlə görə bilmirdi. Uşaq başsız böyüdüyündən atını istədiyi yerə çapır, böyüklük iddiası ilə böyüyürdü.

...Son sinfin son imtahanlarını verirdi. O, mütləq Bakıya getmək, ali məktəblərin birinə qəbul olunmaq istəyirdi. Riyaziyyat müəllimi isə ona "3"dən yuxarı qiymət vermək istəmirdi. Əfşər müəllim nəinki kəndin, bütün rayonun ən hörmətli və ağsaqqal müəllimlərindən idi. O, zəif oxuyan şagirdlərlə dərsdən sonra məşğul olar, onlara qiymət yox, bilik verməyə çalışardı. Ali məktəb həvəsində olan şagirdləri isə əlavə dərsdən başqa, evinə çağırar, onları sidq ürəklə, təmənnasız hazırlaşdırardı. Dərs ilinin əvvəlindən Səlimi əlavə dərsə və dəfələrlə evinə çağırsa da, o, bu çağırışlara məhəl qoymamışdı. Nəhayət, Əşrəf müəllim Səlimin atası ilə danışmış, yenə bir mətləb hasil olmamışdı.

Əşrəf müəllim qiymət cədvəlinə "üç" yazanda Səlim qoca müəllimi nalayiq sözlərlə təhqir edib getmişdi. Bu xəbəri eşidən ata axşam Əşrəf müəllimgilə gəlmiş, oğlunun əvəzinə ondan üzr istəmişdi. Amma o gündən sonra oğlunu evə buraxmamış, Səlim bütün yayı dayısıgildə qalıb iyulun axırında Bakıya getməyə hazırlaşanda xəbər atasına çatmışdı.

Sədr rayon avtovağzalında oğlunu tutmuş, salamsız-kəlamsız həmin alabəzək çamadanı maşından düşürüb:

- İçində ayın-oyun var, götür, imtahan dövrünə qədər bəsindi, içində pul da var, - demişdi, maşın tərpənəndə çevrilib, - gedirsən, get, amma adam ol, qayıt, - deyə oğlu ilə görüşmədən, onu ötürmədən çıxıb getmişdi.

"Adam ol" sözü bir də qulaqlarında cingildədi... O, alabəzək çamadanın içinə dədəsinin öz əlilə qoyduğu kənd nemətlərini yedi, imtahanlarını da verdi, qəbul olundu, oxudu, məktəbi bitirdi, işlədi. Atasından gələn məktubları həmin çamadının içinə qoyub saxladı. İndi də dədəsini dürmələyib qoydu həmin çamadanın içinə.

Səlim çamadanı qaldıranda dədəsinin yüngüllüyünə, o boyda

bədənin bu boyda çamadana sığa bildiyinə təəccüb elədi. O zabitəli kişi onun sağ əlində alabəzək çamadana dönmüşdü. İndi o, dədəsini maşının baqajına qoyub, qapağı örtdü, dərindən bir nəfəs aldı.

- Adam ol!

Bu dəfə səs maşının baqajından gəldi... Əti ürpəşdi, maşından uzaqlaşdı. Ürəyində "əsl zəmanə adamı elə mən özüməm" - deyə özünə təsəlli verdi. "Adam ona deyərəm ki, çıxılmaz vəziyyətdən çıxış yolu tapa bilsin...".

O, rütbə başında özünü əsl adam hesab edir, dədəsinin sözünə əməl etdiyini düşünürdü: "Zarafat deyil, 38 yaşında böyük bir idarənin şöbə müdiri, sabah da... müavin olacaqdı... Daha nə istəyirsən? O, gəncliyində biliyi biliksiz qoparılan qiymətdə gördüyü kimi, indi də adamlığı insaniyyətsiz rütbədə görürdü...

Səlim düşüncələrinin dərin qatlarını çözələdiyi bu anda baxdı ki, Qulam dayı ləvazimatını yığışdırıb gedir.

- Hara gedirsən, dayan, hələ işimiz var.

Qulam kişi elə bildi ki, Səlim gördüyü işə görə haqq vermək üçün saxlayır onu:

- Səlim, mən bayaq birinci şərtimi dedim, sən də Allah atana rəhmət eləsin, razılaşdın, indi ikinci şərtimi deyirəm, bu iş üçün səndən haqq almayacağam. Nədən ki, qəbir sökmək üçün haqq alanın goru çatlar... Mən bu qələti eləyə bilmərəm... İndi məni də mindir maşına, apar evimə...

Səlim çox pis vəziyyətə düşdüyünü anladı... Amma ayrı yol yoxdur, mətləbi açmalıdır:

- Qulam dayı, qəbri sökmək üçün haqq almadın, Allah səndən razı olsun, amma tikmək üçün alarsan.

Qulam kişi əvvəl heç nə başa düşmədi. Səlim mətləbi xırdaladı:

- Çox hörmətli bir adam ölüb, Qulam dayı, mənim yaxın dostum idi rəhmətlik... İstəyirik, onu burada dəfn eləyək... Sən ağıllı adamsan, məni başa düşərsən...

Qulam kişini elə bil ildırım vurdu.

- Necə? Dədənin yerində?..

- Nə olar, o rəhmətlik də elə mənim üçün dədə kimi bir adam idi...

- Doğmaca dədəni təzə dədən üçün qəbirdən xortlatdın? Əşi, sən nə

təhər adamsan?

- Qulam dayı, ondan keçib... - deyə kafel bağlamalarını götürüb düzdü qəbirin yanına.

- Mən səndən xahiş edirəm, bu kafelləri qəbrin divarlarına hörəsən... Ömrüm boyu sənə borclu olaram.

- Özün heç, bəs məni niyə günaha batırdın, ay haramzada?

- Əşi, o ölü olmasın, bu ölü olsun, nə fərqi var. Günah bunun harasındadır, başa düşmürəm.

Qulam kişinin matı-qutu qurumuşdu. O, Səlimin yalvarışlarına məhəl qoymadan, karastı torbasını çiyninə atıb düzəldi yola. Səlim onun qabağını kəsdi:

- Məni darda qoyub getmə, yalvarıram. Qulam kişi:

- Çəkil yolumdan, - deyə onu itələyib yoluna davam elədi. Bir xeyli aralanandan sonra çevrilib:

- Bu yaşa çatmışam, hələ bu boyda nadürüstlük görməmişdim, bunu da gördüm. Allah bundan betərindən saxlasın, - dedi.

Səlim Qulam kişinin arxasınca bir xeyli baxıb başını yellətdi. Bəs, indi neyləməli? Bu işi necə başa çatdırmah? Birdən qəbiristanın girəcəyində daş yonan ustalar onun yadına düşdü. Tərpəndi birbaş ora.

...İki saatdan sonra kafellənmiş, gəlin otağı kimi bəzənmiş qəbir hazır idi.

Hə... indi keçirik komediyanın axırıncı şəklinə:

...Dəfndən sonra Hüsü Xalidoviç Səlimi bağrına basıb ona təşəkkürünü bildirdi. Bir həftədən sonra isə... onun müavinlik əmri verildi. Bu əmrdən sonra Kərimlə Rəhim əl-ələ verib, oldular can bir qəlb dost. Nədən ki, eyni dərd düşmənləri belə bir-birilə birləşdirər.

Hər şey Səlimin əvvəlcədən qurduğu plan üzrə gedirdi... Təkcə maşının baqaj yerində mürgü döyən alabəzək çamadan hələ öz həllini gözləyirdi. Dəfnin ertəsi günü Səlim dayıoğlusuna xəbər göndərmişdi ki, onunla vacib işim var, gəlsin şəhərə... Amma dayıoğlusundan səs çıxmırdı. Dünən axşam kəndə zəng elədi, dedilər dayıoğlu kənddə yoxdur, uzaq yerə bir aylığa ezamiyyətə gedib. İndi Səlimin tək bircə dərdi vardı: necə olursa-olsun, tezliklə çamadanı izal eləmək! Bəs nə təhər? Bu sirri dayıoğlundan başqa heç kəsə aça bilməzdi... o da ki, belə...

Uzun illər həsrətində olduğu müavinlik kürsüsündə əməlli-başlı öz

istəyincə oturub vəzifənin ləzzətini çəkə bilmir, getdikcə çamadanın xofu onu basırdı. İndi, həqiqətən, tez-tez dədəsi yuxusuna girir, onu hədələyir, "adam ol" - deyirdi. Dünən gecəki yuxusunda kişi yenə ona "adam ol" deyəndə Səlim dözmədi. Dedi, əşi, məndən nə istəyirsən? Məni evindən qovdun, gəldim şəhərə, öz gücümə oxudum, adam oldum. Sən balaca bir kənddə sovet sədri idin, mən bu boyda şəhərdə, bu boyda vəzifə sahibiykən, yenə səndən əskik oldum? Kişi gülüb dedi: - Bu yaşa çatmısan, hələ bir adamın əlindən tutmamısan. Həmişə odu öz qabağına eşmisən.

Səlim dedi:

- Saxla, nə təhər yəni, bir işə yaramamışam? Bəs, Hüsü Xalidoviçin bacanağına qəbri kim düzəltdi? Kişi dedi: Elə gəlirəm ora. O xeyri də məndən gördün, qəbrim də işinə yaradı... İndi yenə məndən narazısan?

Dünən gecə gördüyü bu yuxu Səlimi gic eləmişdi. Amma yenə özünü sındırmır, beynində ilişib duran çamadanı qovmaq üçün silkələnib yerini kürsüdə rahatladı, qalstukunu düzəldib, katibəni çağırdı:

- Qəbula gələnləri bir-bir burax.

İndi, kim bir dərdinin əlacı üçün bu kabinetə girsə, vəzifə sahibinə baxıb əvvəl-əvvəl fikirləşəcək ki, yəqin bu da bir xidmətin və fəaliyyətin sayəsində gəlib oturub burda. Amma diləyə gələn bu adam hardan bilsin ki, bu naxələf dədəsinin sümükləri üstündə qalxıb bu mərtəbəyə.

Bu komediya qurtarır. Amma bilmirsən, bu tamaşanın harasına gülüb, harasına ağlayasan?!

*Fevral 1986*

# NƏNƏMİN XALÇASI

Mən rəssamam, sənətkaram. Deyəsən, birinci cümləm təmtəraqlı çıxdı. Amma neyləyim, hamı məni belə tanıyır. Daha doğrusu, mən özümü hamıya belə tanıtmışam. Ömrüm boyu qəlbimdə baş qaldırıb məni həyəcana gətirən duyğuları rənglərin sehrli dili ilə deməyə adət eləmişəm. İndi qəlbimdəkiləri sözlə demək mənə çətin gəlir. Doğrudanmı, belədir? Yox, “çətin” sözü yerinə düşmədi. Demək istəyirəm ki, rəng vasitədir, söz mətləb. Bax, bu lap düz oldu... Rənglərlə mətləbi dolayı demişəm, amma sözlə dolayı demək mənə çətin gəlir. Hə, mənə sözünü həmişə rənglərlə deyən bir rəssama... Axı, yazıçılar da mətləbi dolayı deyirlər. Biz rəngləri istədiyimiz şəklə, çalara sala bildiyimiz kimi, yazıçılar da sözlərə istədikləri mənanı və rəngi verməyi bacarırlar. Yaxşı, bəs indi mən nə üçün sözlərə sığınmışam? Nə üçün mətləbimi rənglərlə deyil, sözlərlə demək istəyirəm? İndi məni buna vadar edən nədir? Bəlkə, indi də yazıçılıq eşqinə düşmüşəm? Yox, əsla yox.

Otuz il rənglərin, kölgələrin dili ilə danışan mən indi bir həqiqəti başa düşmüşəm. Heç demə, ürəyimdəkiləri hələ tamam deyə bilməmişəm. Qəlbimdəkilər yeddi rəngin, yetmiş çaların çərçivəsinə sığmayıbmış. Bu da yaman böyük çıxdı. Mikelancelo, Rafael, Qoyya kimi nəhəng sənətkarlara kifayət edən yeddi rəng mənə kifayət deyilmiş? Demək, mənim fikirlərim, duyğularım onlarınkından böyük imiş? Bu, çox böyük olmadımı? Bu, özünəvurğunluq olmadımı? Bəlkə əksinə, bu, acizliyi, fərasətsizliyi başa düşməkdir? Bəli, sənətkar öz zəifliyini başa düşdüyü yerdə sənətinin zirvəsi başlanır.

Amma bir vaxt mənə elə gəlirdi ki, rənglərin hakimiyəm, mən onlarla istədiklərimi deyə bilərəm... Axı, mən hamının bəyəndiyi, hamının sevdiyi rəssamlardan idim. Mənim əsərlərim dünyanın bir çox sərgi

salonlarının bəzəyi olmuşdu. Mənə novator rəssam deyirdilər. Bəs bu novatorluq nə imiş, görəsən?

Amma indi nəsə təzə bir söz demək, qəlbimdəki tufanı rənglərə çevirmək, bu vaxta qədər deyə bilmədiyim bir duyğunu başqa biçimdə, başqa sim üstündə ötmək, nəğmələşmək istəyirdim. Keçmiş əsərlərimə dönə-dönə baxır, keçdiyim yolları göz önünə gətirir, onlarda nəsə axtarırdım. Lakin qəlbimdə yenicə baş qaldırıb narahat gündüzlərimə, yuxusuz gecələrimə səbəb olan o təzə duyğumu köhnə əsərlərimdə görə bilmirdim. Yox, bu duyğu yox idi. Axı, bu duyğunun özü nə, sözü nədir? Lövhələrimə baxıram: Biri ömür yollarıma baxan bir qocanın sönük gözlərindəki təəssüf... başqa birisi sevən bir cavanın gözlərindəki atəş... biri gecə növbəsindən dönən bir fəhlənin yorğun duruşu, bir başqası gənc bir ananın beşik ba-şındakı narahatlığı... Bunlar hamısı özlüyündə pis deyil. Bəziləri lap tapıntıdır, bəs mənə nə lazımdır? Mən bu köhnə əsərlərimdə nə axtarıram? Nəyi demişəm, nəyi deməmişəm? Dediklərim göz qabağındadır. Bəs demədiyim nədir? Deyəsən, mətləb üstünə gəlmişəm. Lövhələrdəki rənglər könlümdəki rənglərlə üz-üzə dayandı. Bu rənglər qohumdur. Başqa cür də ola bilməzdi. Axı, lövhələrdəki rənglər də mənim könlümdən süzülmüşdü. Lakin... onlar eyni idimi? Yox! Lövhələrdəki rənglər könlümdəki rənglərin çalarları idi, özü yox! Bəs mənə nə lazımdır? İndi könlümdə baş qaldıran duyğular qışqırır, öz fəryadlarını eşitmək istəyirdi... Özünü ifadə, yalnız özünü!

Bəs bu vaxta qədər yaratdıqlarım nə imiş? Başqalarının duyğularına qarışıb öz rəngini və öz səsini dəyişən, bir qədər özgələşən duyğular... Axı, bu, belə də olmalıdır. Mən yalnız öz fikir və hisslərimi deyil, başqalarının həyəcan və duyğularını əks etdirməli deyildimmi? Dünyanın ən böyük sənətkarları da belə etməmişlərmi? Cokondanın təbəssümü, Madonnanın gözəlliyi. Məgər o təbəssüm və o gözəllik onu yaradanların özlərininki idimi?

Tapdım. Avtoportret! Mən özümü, öz içimdə baş qaldıran duyğuların şəklini çəkməliyəm.

Aylarla molbert arxasında işlədim. Gecəmi gündüzümə qatdım. Qəlbimdəki tufanı üzümdəki cizgilərdə, baxışlarımdakı sualda, gözlərimdəki alovda verməyə çalışdım. Əslində, mənim sifətim o

qədər də xoşagəlimli deyil. Mən üzümdəki təbii nöqsanları bir qədər düzəltdim. Sifətimdə bir yaraşıq yaratmaq istədim. Bununla da işləri korladım. İçimin tufanını verməkdən çox, sifətimin yaraşığı ilə əlləşib toy günü gəlinlərin üzünü bəzəyən bir məşşatəyə döndüm. Avtoportret alınmadı.

Bəs indi nə etmək? Çox düşündüm. Axırda fırçanı bir kənara atıb qələmə sarıldım... Budur, indi əlimdə qələm yazıram. Özümü - öz qəlbimdəkiləri rənglərə deyil, sözlərə çevirməyə çalışıram... İndi mən sözlərlə özümü çəkmək, avtoportret yaratmaq istəyirəm. Mən özümü hamıya olduğum kimi tanıtmaq, zahirimizin, dayaz duyğularımızın və fikirlərimizin şəklini çəkmək istəyirəm... Həm də heç bir şeyi gizlətmədən, açıq, aydın!.. Rənglərin imkanı nə qədər çox olsa da, onların dili bir az qeyri-müəyyəndir, dəqiq deyil... Mənə isə indi dəqiqlik və aydınlıq lazımdır. Özümü özümə göstərmək üçün! Çətindir. İnsan başqalarını özündən yaxşı tanıyır. Foto və güzgü bizim zahirimizi tam dəqiqliyi ilə göstərir. Ancaq içimizi, həyəcan və duyğularımızı olduğu kimi bizə göstərə bilən aparat hələ icad olunmayıb. Mən bu aparatı əvəz etmək, özümü özümə göstərmək və tanıtmaq istəyirəm... Ey ana dilinin qüdrəti, köməyimə gəl, sən, axı, nəcib ürəkli babalarımızın mənəvi dünyasından süzülüb qanımıza gəlmisən, ana südü kimi halalımız olan, isti kəlmələrində ulu babalarımızın dönməzliyi, iradəsi, mərdanəliyi, ulu nənələrimizin dözümü, qayğı və nəvazişi saxlanır. Sən bizim tariximiz, bizim bu günümüz və gələcəyimizsən. Sən bizim varımız, dövlətimiz, sərvətimizsən. Biz sənin gücünlə nələr yaratmamışıq!.. Sən bizim həsrətimizin və sevincimizin, kədərimizin və iztirablarımızın, xəyal və arzularımızın saxlancısan. Səni duymaq böyük bir xalqı duymaq, onu tanımaq, onu sevmək deməkdir. Rəngarəng daş-qaşlarla süslənmiş bu böyük xəzinənin köməyi ilə mən öz içimdəki tufanı deyə bilməyəcəyəmsə... Heç kəsdən yox, özümdən - öz acizliyimdən küsməliyəm...

Mən bu böyük inamla işə başladım. Birinci sualım: Mən kiməm? Hardan gəlmişəm, hara gedirəm?

Mən ucqar bir kənddə dünyaya gəlmişəm. "Dünyaya gəlmişəm!" yenə çox böyük oldu. "Kəndimizə gəlmişəm" - demək daha düzgün olardı... Hə... gözümü dünyaya açıb gördüm ki, balaca bir kənddəyəm?

Balaca?.. Yox, mən indi ona "balaca" deyirəm. O vaxt isə mənim üçün o, böyüklərin böyüyü - dünyanın özü idi. Axı, mən kəndimizdən başqa haranı görmüşdüm ki, onu başqa yerlərlə tutuşdurub, böyük-kiçikliyini də biləydim? Torpaq daxmamızı isə dünyanın böyük imarəti bilirdim. Mən bu daxmada doğulmuş, burda iməkləmiş, burda da yerimək öyrənmişdim. Mənim üçün dünya bu daxmadan başlanırdı. Hələ körpə ikən anamın laylalarını, nənəmin nağıllarını bu daxmada dinləmişdim.

Xatınlar xatını nənəm kəndin ən birinci xalçatoxuyanı idi. O, rəngbərəng ipləri barmağının arasında oynada-oynada mahnı oxuyar, xalça toxuyardı... Gözümün qabağında oynayan əlvan iplər mahnıya qarışar, çözələnərdi. Mahnı xalları xanada düyümlənən boya xalları ilə tutuşar, qoşalaşardı. Mən bəlkə də mahnı ilə rənglərin uyarlığını hələ o zamandan hiss etmişdim. Sonralar, çox sonralar isə bunu kitablarda oxudum. bildim ki, dünyada yeddi rəng və yeddi səs var. Qalanları isə bu yeddilərin xırdalıqları, çalarlarıdır.

Mənim dünyanı dərk etməyim nənəmin mahnılarından və boyalarından başlandı. Nənəm xalçaların rənglərini güllərdən, çiçəklərdən toplardı. O, dan yeri ağarmamış qalxar, dağlara, güllü-çiçəkli yaylaqlara rəng dalınca gedərdi. Çox zaman məni də özü ilə aparardı. Biz qayadan-qayaya keçər, dağdan-dağa adlayardıq.

Bizim kənd - Kəhrizoba, Aynabulaq dağının ətəyindəki talada yerləşirdi. Talanın sağ yaxası təbii qızılgüllər ilə başqa kəndlərdən seçilirdi... May ayında pardaxlanan güllər oktyabra qədər solmazdı... Əvvəllər mənə elə gəlirdi ki, nənəm xalçalarının güllərini o taladan yığıb gətirir. Sonralar... nənəm məni özü ilə dağlara aparanda gördüm ki, o öz rənglərini çox uzaqlardan - dağların arxasından gətirir. Bu, mənim üçün necə də maraqlı idi... Uşaqlıqdan şəkil çəkməyi sevirdim. Lakin gördüklərimi yox, eşitdiklərimi çəkməyə çalışırdım. Yeddibaşlı divin, dənizdən tapılan sandığın, şahın bağındakı alma ağacının, qızları oğurlayan qara qulların şəklini çəkməkdən xoşum gələrdi...

Bir gün öz aləmimdə bubbu quşunun şəklini çəkmişdim. Amma quş bubbudan çox bayquşa oxşayırdı. Nənəm dedi ki, bu bayquşdur. Mən nənəmi başa salmağa çalışdım ki, o, səhv eləyir, bu bubbudur.

- Bubbunu görmüsən? Dedim:

- Görmüşəm.

Nənəm qəhqəhə çəkib güldü. Əsəbləşdim.

- Niyə gülürsən?

- A bala, hələ bubbu quşunu görən olmayıb.

- Necə görən olmayıb?.. Axı, mən görmüşəm... Əslində, mən də görməmişdim... Sonralar başa düşdüm ki, mən bubbu quşunu hisslərimdə görmüşəm, onun səsindəki hüzndən o mənim xəyalımda bayquş kimi canlanıbmış.

Məni şəkil çəkməyə müəllimim də həvəsləndirirdi. Mina müəllim nənəmin uzaq qohumlarından idi. Əslini axtarsan, kənddə hamı bir-birinə qohum idi. Müəllimim tez-tez nənəmin halını soruşar, ona salam göndərərdi. O, şəhərdən həmişə mənə rəngli qələmlər gətirər, mənə tapşırıqlar verərdi:

- Xan yaylağında olmusanmı?

- Çox!

- Bəs niyə Haça dağın şəklini çəkmirsən?

Mən öz vəzifəmi bilər, növbəti "əsərimi" Haça dağa həsr edərdim.

Nənəm tez-tez məni kəndin girəcəyindəki dükana qənd-çay almağa göndərərdi; Dükançı Şiraslan əmi yaman baməzə kişi idi. Hər sözü zarafata salar, hamıya lağ edərdi. Bir gün qənd almağa gedirdim. Yolda böyürtkənə gedən uşaqlara rast gəldim. Qoşuldum onlara, o kol mənim, bul kol sənin. O ki, var böyürtkən yedim. Birdən üz-gözüm böyürtkən şirəsi içində qaçdım dükana. Məni bu halda görən Şiraslan əmi qəşş edib getdi özündən:

- Ədə... üz-gözünü üç it yalasa doyar.

- Böyürtkəndən gəlirəm, Şiraslan əmi.

- Bəs əminə niyə gətirmədin? Susdum.

- Əyə, a bala, doğrudan mənə mürəbbə üçün böyürtkən la-zımdır. Hansı tərəfdə boldur, de, uşaqları göndərim.

- Daşlı qayada. Amma dərmək çətindir.

- Niyə, a bala?

- Əl çatmır.

- Başını kəsib ayağının altına qoya bilmirdinmi? Şiraslan əmi mənimlə - balaca bir uşaqla da zarafat edirdi. Bu, mənim elə xoşuma gəldi ki... Onun danışığında nə boyda səmimiyyət, mehribanlıq və istilik var idi.

Yadımdadır. Bir dəfə mən nənəmlə Xan yaylağına çıxanda Qanlı qayanın başından diyirləndim. Nənəm həmişə deyərdi ki, qaya ilə yol gedəndə uçuruma baxma, gözün qaralar. Bu dəfə necə oldusa, dərənin dibindən səs eşitdim, səs tərəfə dönməyimlə gözümün qaralması bir oldu. Dərə aşağı yumalandım, qarağaca ilişməsəydim, dərənin dibində idim... Ağacdan tutub qalxdım, amma sağ ayağımı yerə basa bilmirdim.

Dərədəki uşaqlar köməyimə gəldi. Bir təhər sürüyüb məni evə gətirdilər. Bütün kəndə səs düşdü. Həcərin nəvəsi qayadan yumalanıb. Bir saatın içində kənd bizə tökülüşdü. Əski isladıb qoyan kim, təpitmə qoyan kim, sınıqçı dalınca gedən kim...

O saat sınıqçı Kərim baba yetirdi özünü. Kişi qıçımı eşib sınığı saldı yerinə.

Bizim kənd belə kənd idi...

Zaman keçdi, böyüdüm, mən yeddinci sinifdə oxuyanda nənəm öldü, başsız qaldım. Yox, səhv elədim, kəndin bütün gəlinləri mənə ana, qarıları nənə, kişiləri ata oldu.

Yeddinci sinfi bitirən kimi Mina müəllim məni Bakıya gətirdi. Rəssamlıq texnikomuna qəbul olundum... Oranı bitirib Moskvaya getdim, rəssamlıq akademiyasına. Burada mən tanınmış rəssamların əli altında böyük bir məktəb keçdim və başa düşdüm ki, sənət aləmində bir iz qoymaq üçün köhnə qəlibləri vurub dağıtmalı, yenisini yaratmalısan. Novatorluq dəlisi idim. Bu dəlilik o yerə gəlib çatdı ki, bütün klassik sənət məktəblərini danmağa başladım. Onda yadıma bir el misalı düşdü: üç şahını bəyənməyən bir abbası çıxarar. Lakin mənim çıxardığım bu abbasıları özümdən başqa heç kəs bə-yənmirdi. Bu zaman xarici jurnalların birində maraqlı bir şəklə rast gəldim. Bu, sənət aləmində yeni cığır açmış bir fransız rəssamının əsəri idi. Bundan sonra mən həmin rəssamı izləməyə başladım. Onun əsərlərində özünə qədər heç bir rəssamda olmayan son dərəcə orijinal cəhətlər var idi... Mən bu orijinallığın izinə düşdüm. Bu yenilik hardan gəlirdi? Bunu o, necə tapmışdı və ümumiyyətlə, tapanlar necə tapır? Bu sualların cavabını axtarır, heç cür tapa bilmirdim... Nəticəsi bu oldu ki, həmin fransız rəssamın təsiri altında bir neçə əsər yaratdım. Dedilər yenidir, lakin tamaşaçını isitmir. Hiss yoxdur. Yenə əvvəlki yoluma qayıtdım.

Təhsil illərində evləndim, bir qızım da oldu. İllər keçdi, diplomlu rəssam olub geri döndüm. Bundan sonra ağır yaradıcılıq illərim, narahat günlərim başlandı... Az keçməmiş respublikada tanınan bir rəssam oldum... Bu məni qane etmədi. Tanınırdım, amma yenə də başqalarından əməlli-başlı seçilə bilmirdim. Seçilmək üçün orijinallıq lazım idi. Lakin hiss edirdim ki, mən hələ bu orijinallığa nail ola bilməmişəm. Sənət aləmində öz cığırım, öz yolum yoxdur.

Həyat yoldaşım keçirdiyim iztirabları başa düşür, mənə kömək etmək istəyir, lakin bacarmırdı. O, mühəndis olsa da, rəssamlıq aləmindəki yol və cərəyanlardan xəbərdar idi. Lakin əlindən bir şey gəlmirdi. Bu böhranlı günlərimdə həmin fransız rəssamı yenə yadıma düşdü. Yenidən onun təsiri altında bir əsər işlədim. Bu, görkəmli bir yazıçının "Duma qatarı" adlı romanına çəkdiyim illüstrasiya idi. Kitabın titul səhifəsində uçan durnaları elə yerləşdirmişdim ki, açılmış qanadlar arasındakı boşluqlar da qanad şəklində görünürdii. Şəkildə lakonizm var idi. Belə ki, müstəvidə boş yer qalmırdı. Sahədən maksimum istifadə olunmuşdu. Sənət dostlarım zahirən çox adi görünən bu əsərin qarşısında donub qalmışdılar. Şadlığımdan yerə-göyə sığmırdım. Rəssamlar məni təbrik edir, hamısı bir ağızdan afərin deyirdi. Sənətinə çox inandığım böyük bir rəssam əlimi sıxıb dedi:

- Bax, indi öz yolunu tapdın.

"Öz yolunu!"... Nə yaxşı sözdür. Amma o bilməsə də, mən ki, bilirdim, bu mənim öz yolum deyildi. Bu fransız rəssamının yolu idi. Mən bu yolu ondan götürmüşdüm... Həqiqət budur. Lakin mən bunu kimə deyə bilərdim? Zahirdə ünvanıma deyilən tərifnamələrə sevinir, içimdə öz-özümə gülürdüm... Nə etmək? Mənim də taleyim belə imiş. Susdum... və bu yolu tutub getdim... 25 il bu yolda külüng çaldım... İndi mənim də təqlidçilərim yaranmışdı... Mən bu gənclərə içimdə gülür, onları "təqlidçinin təqlidçisi" adlandırırdım. Olsun! Lakin artıq məmləkətimdə hamı məni yeni yol açan bir ustad kimi tanıyırdı... Dövran mənim xeyrimə fırlanırdı. Amma gizlində həmin fransız rəssamını daim izləyir, onun yeni qələbələrindən xəbər tuturdum. O mənim üçün səcdəgah idi.

Bir gün rəssamlardan biri mənə həmin fransızın növbəti bir əsərinin reproduksiyasını göstərib dedi:

- Bir əsərə bax, eynən sənin yolundur... Amma sənin zəif təkrarındır...

Baxdım... Mən bu işi görmüşdüm, amma bunu özümünkülərdən üstün hesab edirdim. Burda vicdan baş qaldırdı. Dedim:

- Yol eynidir. Amma bu iş mənimkindən üstündür.

O razılaşmadı... Dedi bu, təqliddir. Özü də heç kəsi yox, səni.

Mübahisəmiz uzandı. Getdik mənim sənətinə çox inandığım həmin böyük rəssamın yanına. O, fransızın resproduksiyasına çox diqqətlə baxıb güldü. Mənə dönüb:

- Sən səhv eləyirsən, - dedi, - baxan kimi görünür, bu sənin kölgəndir. Bu yol fransızın içindən gəlmir, amma sənin içindən gəlir. Bu, səni təqliddir. Özü də zəif təqlid!

Rəssamların inamla dedikləri bu söz xoşuma gəlsə də, fransız rəssamın ünvanına deyilən bu böhtana, bu haqsızlığa içimdə bir üsyan baş qaldırdı. Amma susdum, etiraf etməyə kişiliyim çatmadı.

Günlər keçdi... Fransızın əsərinin kimə göstərdimsə, eyni sözü təkrar etdilər... Bu, nə demək idi? Bəlkə, milli təəssübkeşlik hissinə görə sənət dostlarım məni əcnəbinin ayağı altına vermirlər? Yox, əksinə, sənət aləmi yarışdır. Bəzən olmayan yerdə səni kiminsə təqlidçisi sayır, səni sənətkar kimi qəbul etmək istəmirlər... Bəs bu nə idi? Niyə o yazığı mənim kölgəm hesab edirlər? O mənim əsərlərimi harda görə bilərdi? Yaradıcılıq əzablarından qurtarıb, indi də vicdan əzabına düşmüşdüm.

Bir gün qərara gəldim ki, həmin rəssama məktub yazım. Onun redaksiya heyəti üzvü olduğu sənət jurnalının ünvanına bir məktub yazdım. Yazdım ki, 25 ildir mən səni izləyir, sənin yolunu ən doğru yol hesab edirəm... Sən çox böyük rəssamsan... Sonra yazmaq istəyirdim ki, mən də sənin yolunu tutmuşam, amma dayandım. Etiraf edimmi? Ürəyimin sözünü deyimmi? Kəsdirə bilmirdim. Əgər deməyəcəkdimsə, bəs bu məktubu niyə yazırdım? Yox, deməliyəm... Yazdım... Etiraf etdim, qəlbimi boşaltdım... Məktubu fransız dilinə çevirtdirib göndərdim və rahatlandım.

İndi cavab gözləyirdim. And içdim ki, cavab almayınca əlimə fırça götürməyəcəyəm. Bir də mən nəyi gözləyirdim? Axı, o mənə təşəkkürdən başqa nə yaza bilərdi?.. Nəyi gözlədiyimi bilməsəm də gözləyirdim...

Nəhayət, cavab gəldi. Cavabı eyni ilə köçürürəm: "Hörmətli həmkarım, ünvanıma göndərdiyiniz xoş sözlərə görə sizə təşəkkür edirəm. Mən çoxdandır sizin ölkəyə gəlmək, sizin dağ kəndlərinizdə, Kəhrizobada olmaq istəyirdim. Bu kənd öz xalçaları ilə dünyada məşhurdur. Hələ gənclik illərimdə həmin kənddə toxunan bir xalçanın surəti əlimə keçdi, orda həkk olunan naxışların lakonik düzülüşü məni valeh elədi... Sizin kənddə savadsız qadınların to-xuduğu o xalçalar böyük sənət nümunələridir. Mən sənətimin əsasını ordan götürdüm. Məktubunuzdan istifadə edərək sizdən artıq dərəcədə xahiş edirəm, həmin kənddə toxunan xalçalardan daha bir neçəsinin surətini mənə göndərəsiniz".

Yerimdəcə donub qaldım. Heç demə fransız mənim nənəmi təqlid edirmiş, mən də fransızı.

Həmkarlarım haqlı imiş, fransızın yolu onun özünün deyil, mənimmiş. O ruh, o yol yada yad olduğu üçün təqlid dərhal görünmüş, lakin o yol mənim öz ruhumda olduğundan onu yaddan götürsəm də, təqlid bilinməmişdir. Mən isə öz yolumu özümdə deyil, kənarda axtarırammış. Yaxşı deyiblər: uzaq yerin döyməçini bəh-bəhlə yeyərlər.

# YALTAQLIQ

Mənim düyünümü yalnız o, aça bilərdi. Bunu mən də bilirdim, yaxınlarım da. Yaxınlarım təkid eləyirdilər ki, çalışım, onun qəbuluna düşüm. Bu mümkün idi... Amma kim deyə bilərdi ki, o, dərdimə mütləq əlac eləyəcək? Buna inanmaq olardımı? Yox! Nədən ki, yaxından tanıyanların heç biri onun barəsində yaxşı söz demirdi... Deyirdilər ki, ürəyində rəhm deyilən şey yoxdur. Bir də deyirdilər ki, onun tərifdən yaman xoşu gəlir. Sən bacardığın qədər təriflə, o da ləzzətini çəksin. Ancaq burda bir məsələ var, gərək ustalıqla tərifləyəsən ki, şit çıxmasın, duzsuz tərifi duzlu tərifdən seçməyi bacarır.

Bütün bunlardan o çıxır ki, mən onun qəbuluna düşsəm, gərək üzünə qənşər duzlu, məzəli sözlərlə, özünə yaraşan oxşatmalarla onu tərifləyəm. Bax, məsələnin ən çətini bu idi. Ona görə ki, mənim nə təriflənməkdən xoşum gəlir, nə də tərifləməkdən.

Lap cavanlığımdan bunu bacarmamışam. Neyləyim, özümü öldürəsi deyiləm ki... Çox məclislərdə olmuşam. Hələ ömrümdə bir dəfə də sağlıq deməmişəm. Heç başa düşə bilmirəm, adamı üzünə necə tərifləmək olar? Bir də, axı, bu nəyə lazımdır? Təriflənən özü bilmir ki, necə adamdır? Bilir. Bəs, onda onun bildiklərini ona niyə deməliyik? Yox, əgər o, sənin dediyin təriflərə layiq deyilsə, bəs, niyə yalan danışırsan? Bəs, niyə o kişini aldadıb, qoltuğuna qarpız verirsən? O da sənin təriflərinə aldanıb, ağı qaradan seçə bilmir, özünü hər yerdə hamıdan üstün bilir. Elə burda da xiyar bitir əyri. Mən həmişə bu barədə düşünmüş, qəlbimdə doğan suallara cavab ta-pa bilməmiş, məclislərdəki bu uyğunsuzluğa məəttəl qalmışam.

Görürsən ki, yekəpər bir kişi qalxıb ayağa, başda əyləşən cırtdan boyda bir eybəcərin şərəfinə ağzı köpüklənə-köpüklənə sağlıq deyir. Onu Napoleonla, Yuli Sezarla qarşılaşdırıb, haşiyəsini keçir və deyir ki, qızıl da balaca olur. Ona görə ki, bütün qiymətli şeylər, o cümlədən mir-

vari balaca olmalıdır. Natiq bu tutuşdurmalardan belə bir nəticə çıxarır ki, boyun balacalığı dahiliyin birinci əlamətidir.

Bu təmtəraqlı sözləri hər dəfə eşidəndə mənə elə gəlirdi ki, indi Cırtdan qalxacaq ayağa, stolun üstündəki şampan butulkasını götürüb çaxacaq bu yekəpər heyvərənin təpəsinə və deyəcək:

- Yəni, sən məni o qədər axmaq hesab edirsən ki, mətləbini başa düşmürəm? Gədə oğlu gədə, mən hara, Napoleon hara? Mən hara, dahilik hara? Kimi bəzəyirsən?

Ancaq elə olmurdu. Təriflər Cırtdanın canına kərə yağı kimi yayılır, layiq olmadığını bilsə də, ünvanına deyilən bu gözəl sözlərin məclisdəkilərə necə təsir bağışladığını öyrənmək üçün gözünü onların üzündə gəzdirirdi. Onda mən əsəbləşir, bayaq yekəpərin başında partladılmasını istədiyim butulkanın indi Cırtdanın başında sındırılmasını istəyirdim.

- Xasiyyəti dəyişmək çətin məsələdir. Neyləyim, özümü öldürməyəcəyəm ki... Mən də belə adamam, - deyə özümə haqq verməyə çalışanda xeyirxahlarım da mənə deyir:

- Nə təhər olursan ol, öz işindir, amma düyününün açılmasını istəyirsənsə, ayrı əlacın yoxdur, gərək kamali-ədəblə gedəsən Cırtdanın hüzuri-şərifinə və ona deyəsən: “Sən Cırtdan deyilsən, divlərin divisən”.

- Əşi, axı, Cırtdandı. Mən nə təhər Cırtdana div deyim?

- A bala, sən qaraya ağ deməklə, qara dönüb ağ olmur ki... Sözdü də... Sözə nə var ki... Döşə getsin.

Bu məntiqə təslim olmaq istəmirdim. Amma hər dəfə kiçik qızım gəlib dururdu gözümün qabağında. Evdə hamı bilirdi ki, mən onu övladlarımın hamısından çox istəyirəm. Bunu o özü də bilirdi. Şeytan qız mənim gəlişimi qapı zəngindən tanıyırdı. Vaxtlı-vaxtsız evə nə zaman gəlsəm, qapını həmişə o açar, boynuma sarılar və bir qayda olaraq, hər dəfə: “məni öp” deyərdi. Mən qapının kandarında onu öpüb, sonra otağa keçərdim. Bütün bunlardan sonra fikirləşirdim, deyək ki, mənim günahım var, bəs, bu uşağın günahı nədir? Mən onu dünyaya gətirmişəm, mən də yaşatmalıyam. İndi ki, belədir, bu günahsız qızcığazın xatirinə Cırtdanı div yox, lap divlərin padşahı adlandırmağa da haqqım var.

Bu mühakimənin təsiri altında bir vaxt ayıldım ki, əli qoynunda

Cırtdanın hüzuri-şərifındəyəm. O, gözünün ucu ilə məni aşağıdan yuxarı süzüb, istehza ilə gülümsədi. Bu gülüşlə elə bil, demək istəyirdi: "Hə... qürurlu oğlan, de görək, necəsən?". Özümü o yerə qoymayıb, əvvəlcədən əzbərləyib hazırladığım ütülü kəlmələri başladım üyüdüb tökməyə:

- Siz... Sizin şəxsiyyətiniz... onun kölgəsi... Bu kölgənin qüdrətinə bütün qəlbimlə əmin olduğumdan...

Cırtdan eşitdiklərinə inanmırmış kimi məni bir də süzüb, qulaqlarını şəklədi. Bu mənalı baxışla elə bil demək istəyirdi: "Axı, mən səni tanıyıram... Sən yalan danışırsan... Amma döşə, dilindəki mənim olsun, qəlbindəkilər öz üstünə...".

- Əmin olduğumdan gəlmişəm yanınıza... Yaxşılıq Sizin fıtrətinizdədir... Siz... Siz...

Səsim elə cır və eybəcər çıxırdı ki, qulaqlarımı cırmaqlayırdı. Özümü itirdim. Səsimi tanıya bilmirdim... Özümdən iyrəndim... Elə bil, bu səs mənim içimdən deyil, çirkab quyusundan gəlirdi.

Nə isə, cümləmi bitirməli idim:

- Siz o qədər adama yaxşılıq eləmisiniz ki...

Elə bunu demişdim ki, içimdən qulağıma bir səs gəldi: -"Yalançının atasına lənət" - "Lənət də olsun. Hələ beş də artıq, cümləni bitir, əzabdan xilas ol!".

-Biri də mən, - deyib, başımı qaldırdım, üzünə baxdım. Cırtdan doğrudan da gözümdə böyüdü, şişdi, lap divə döndü. Bir də gördüm ki, üz-gözünü turşudub, nifrətlə mənə baxır:

- Bura bax, - dedi. - Bu mənasız sözləri qoy bir tərəfə, mətləbini de...

Nə deyim? Kişini başa düşdüm. Başa düşdüm ki, yaxşı oynaya bilməmişəm. Yaltaqlıq özü də bir növ sənətdir. Onu da bacarmaq lazımdır... Oxum hədəfdən yayındı. Məqsədə çatmadım. Amma xoşum gəldi kişidən... O, gözümdə böyüdü. Ağı qaradan, saxtanı gerçəkdən seçə bilirmiş. Tərifli sözlərimin saxtalığını necə də dərhal başa düşdü. Elə bu da böyük işdir.

Bunları fikirləşirdim ki, Çırtdanın başında partladılmasını istədiyim butulka gəlib durdu gözümün önündə... Ax!.. İndi o butulka mənim başıma necə yaraşırdı...

Suyum süzülə-süzülə gəldim evə. Adəti üzrə qapını qızım açdı, boynuma sarılıb: “məni öp” - dedi, üzümü yana çevirdim, uşağı öpə bilmədim. Onu çiynimdən yerə qoyub keçdim otağa. Cırtdanın otağındakı məlul-müşkül halım, dilim dolaşa-dolaşa dediyim iyrənc sözlər, tanıya bilmədiyim cır səsim düşdü yadıma, utandım, uşağın üzünə baxa bilmədim. Ürəyimdə fikirləşdim: “Yazıq balam, sən yəqin ki, dünyada atandan qüvvətli adam tanımırsan... amma atanın yarım saat əvvəlki miskin halını görsəydin, neylərdin?”.

Arvad mənim hara getdiyimi bilirdi. Əhvalımdan işin nə yerdə olduğunu başa düşmüşdü, həndəvərimə hərlənmirdi.

O gündən bu günə Cırtdanın hüzurunda doğrayıb tökdüyüm sözlər qulağımda səslənir, mənə aman vermir, özümü özümdən iyrəndirir:

- Yaxşılıq sizin fitrətinizdədir... Siz o qədər adama yaxşılıq eləmisiniz ki...

Yad səslə dediyim bu sözlər düz 20 il mənə dinclik vermədi. Məni yaşamağa qoymadı, danladı, hədələdi...

Nəhayət, bir gün mən özüm div hüququnda bir Cırtdan oldum.

Eyni sözləri indi də mənim hüzurumda doğrayıb tökməyə başladılar:

- Siz o qədər adama yaxşılıq eləmisiniz ki... Yaxşılıq sizin fitrətinizdədir...

Eşitdim, qoltuğumun altı qarpızlandı, xoşuma gəldi və inandım bu sözlərə. Heç demə, yaxşılıq mənim fitrətimdə imiş... Düşündüm: “Bu iyirmi ildə yaltaqlığın məzmunu bir yana, heç şəkli də dəyişməyibmiş”.

Sonra fikirləşdim ki, əgər mən, mənə deyilən bu xoş sözlərin yaltaqlıq olduğunu başa düşürəmsə, bəs niyə xoşuma gəlir? Əgər, xoşuma gəlirsə, niyə bu yaltaqlıqdan iyrənməliyəm? Məgər, indi mən özüm də məndən yuxarıda duranın qarşısında eyni sözləri demirəmmi? Deməli, mən bu 20 ildə yaltaqlıq məktəbindən keçmiş, onun bütün incəliklərini qavramışam! Əgər, belə olmasaydı, saxta sözü düz sözdən seçə bilməz, onun qarşımda alçaldığını başa düşməzdim. Birdən, ətim ürpəşdi, bayaqdan əlimdə oynatdığım qələmi stolun üstünə diyirlədib:

- Bura bax! - dedim. - Bu mənasız sözləri qoy bir tərəfə, mətləbə keç!

Yazığın rəngi ağardı, əlləri əsdi, dodaqları titrədi... Başa düşdü ki, məndən kömək ummağı yersizdir.

- Elə gəldim deyəm ki... Sizin kimi yaxşı bir adamın... -udqundu, yaylığını çıxarıb, tərini sildi...

Başa düşdüm ki, mən 20 il əvvəl nə idimsə, bu da indi odur... Yaxşı oynaya bilmir... Hələ ustalaşmayıb, naşıdır, öyrəşər, inşallah!

Qalxıb getdi... Bir az ona yazığım gəldi, bir az da özümdən zəhləm getdi. Vəssalam! Amma sonra fikirləşdim ki, indi bu yazıq evə çatanda qızını qucağına alıb öpə biləcəkmi? Arvadının üzünə baxa biləcəkmi?

Bir də onu fikirləşdim ki, qarşımda doğrayıb tökdüyü tərifli sözlər qulaqlarında neçə il səslənib ona aman verməyəcək?

- Vay səni! Bu gecəli-gündüzlü, iki üzlü dünyada hər şey necə təkrar olunurmuş!

# ÜRƏK DÖYÜNTÜLƏRİ

Rübabə poliklinikaya çatan kimi otağına çəkilib əllərini yudu, xalatını geydi, üstbaşını səliqəyə salmaq üçün güzgü qabağına keçdi. Xalatının yaxasını düzəltdi. Əlini ağ birçəklərinə çəkib qıvırcıq saçlarını boynunun dalına yığdı, stolun üstünü səliqəyə salandan sonra qapını açıb:

- Buyurun, - deyə növbə gözləyən xəstələrə müraciət etdi.

Üşüyən adamlar kimi büzüşmüş yaşlı bir qadın içəri girdi. Rübabə xəstəni əyləşdirib diqqətlə süzdü:

- Nədən şikayətlənirsiniz?

Xəstə cavab verməyə hazırlaşırdı ki, birdən qapı açıldı, içəri girən tibb bacısı:

- Doktor, sizi müdir çağırır, - dedi.

Rübabə xəstəsindən üzr istəyib tələsik müdirin kabinetinə getdi. İçəridə müdirdən başqa cavan, gülərüz, qarayanız bir oğlan əyləşmişdi. Rübabəni görən kimi müdir ayağa qalxıb ona yer göstərdi. Əyləşdilər. Araya dərin sükut çökdü. Rübabə intizarla müdirə baxır, onun nə deyəcəyini gözləyirdi. Müdir isə çətinlik çəkirmiş kimi susur, arabir də yanındakı gəncə baxıb udqunurdu. Divardakı saatın tıqqıltıları, koridorda o yan-bu yana gedən tibb bacılarının ayaq səsləri aydın eşidilirdi. Rübabənin darıxdığını hiss edən müdir, nəhayət, dilləndi:

- Rübabə xanım... Nazirlik sizin haqqınızda...

O, sözünü tamamlamadı. Stolun üstündən bir kağız götürüb ona uzatdı. Rübabə gözünü müdirdən çəkmədən kağızı aldı, lakin oxumadı. O, əlindəki kağıza yazılanları məhz müdirin gözlərindən oxumaq istəyirdi. Müdir isə çəkisi bir misqaldan çox olmayan bu kağız parçasını verərək, ağır bir yük altından çıxmış kimi dərindən nəfəs aldı. Müdi-

rin və Rübabənin susduqlarını görüncə gənc sözə başladı:

- Oğlunuz Nadirin xahişi ilə nazirlik məsləhət görmüş ki... siz təqaüdə...

- Necə?

Rübəbənin qaşları çatıldı.

O, bir anlığa iki həftə bundan əvvəl oğlunu yola salarkən Nadirin vağzalda dediyi sözləri xatırladı:

- Ana, daha yorulmusan, işdən çıx, gəl. Mən də təkəm.

O zaman da Rübabə nə edəcəyini bilməmiş, yol boyu bu haqda düşünmüşdü. İşdən çıx! Niyə? Çünki artıq sənin 65 yaşın var, sənə dincəlmək lazımdır.

Bu, əlbəttə, ana qayğısını çəkən yaxşı bir övladın haqlı tələbi idi. Bəs Rübabə niyə bu tələbə etiraz edirdi? Bunu o heç özü də bilmirdi. Ancaq o, bu fikirdə idi ki, nə isə bir iş görmək, zəhmət çəkmək,xeyir vermək lazımdır. Bunsuz həyat mənasız olmazdımı? Həyatda bir iş üçün tələsmədin, bir arzunun yolunda çalışmadın, bəzən kədərlənib, bəzən sevinmədin, onda bu nə həyat oldu?!

Rübabə ömrünün 40 ilini ürəkləri dinləməkdə keçirmişdi. Dinlədiyi hər ürəyin döyüntüsündə təzə bir səs, təzə bir duyğu,, təzə bir arzu eşidən Rübabənin ömrü saat vurğularına bənzəyən bu döyüntülər içərisində ərimişdi. Ürəklərin döyüntüsünü eşitməkdən gözəl, insan dərdinə əlac etməkdən yaxşı, dərdə dərman yazmaqdan şirin, bir sözlə, insana xidmət etməkdən müqəddəs nə ola bilər?

Bütün bunlarla bərabər, o özünün də qocalıqdanmı, işdənmi, nədənsə artıq zəiflədiyini hiss edirdi. Canında əvvəlki qüvvət qalmamışdı. Axır vaxtlar qan təzyiqinin artması onun özünü də qor-xudurdu. Ömrü boyu nə qədər xəstələr sağaldan Rübabə axır özü xəstələnmiş, gücdən düşmüşdü... İndi özünün həkimə ehtiyacı vardı.

O yol boyu düşünmüş, heç bir qərara gələ bilməmişdi. İşdən necə çıxsın? Qırx il əynində daşıdığı ağ xalatdan, insan dərdini qulağa diktə edən trubkadan, kənarı dar möhürlü reseptlərdən necə ayrılsın? Zəhmətsiz necə yaşasın? Bəs bundan sonra onun həyatı kimə lazımdır?

Rübabənin çətin vəziyyətə düşdüyünü görən müdir, mətləbi dəyişdirmək üçün:

- Gərək ki, Nadir rayon səhiyyə şöbəsinin müdiridir, eləmi? - deyə xəbər aldı. Rübabənin cavab vermədiyini görən gənc:

- Bəli, mən onun məktəb yoldaşıyam. Çox gözəl, qayğıkeş oğlandır, - dedi.

- Gərək ki, özü də subaydır.

- Bəli, indi Rübabə xanım rayona gedər, Nadirin toyunu eləyər. Bizi də çağırar, elə deyilmi? Rübabə heç bir cavab vermədən dinməzsöyləməz otaqdan çıxdı. Dəhlizdə tək qaldığını görüncə,

Əmri oxumağa başladı. Əlindəki kağızdan onun ürəyinə elə bir soyuqluq çökdü ki, büzüşdü. Demək bu kağız onun haqqında yazılmış son kağız, son əmr idi. Bu kağız onun ömür yollarına yekun vuran son vəsiqə idi.

Rübabə durduğu yerdə quruyub qalmışdı, nə ətrafdakı xəstələrin söhbətləri, nə tibb bacılarının səsküyü, nə də növbəti xəstəni çağıran zəng səsləri onu xəyaldan ayırmırdı. Yalnız əlində titrəyən kağızın üstündəki sözlər böyüyür, gözləri önünə pərdəçəkir, qulaqlarında səslənirdi. Bu zaman kim isə yanından ötərkən ona toxundu. O ayıldı. Xəstə yadına düşdü. Xəstəni qəbul etmək üçün otağa keçdiyi zaman ikinci növbədə onu əvəz edəcək həkimi orada gördü. Həkim xəstəni müayinə edirdi. Bu, ona daha çox ağır gəldi. Əvvəllər ona elə gəlirdi ki, bir gün poliklinika onsuz işləyə bilməz. Amma indi... İndi gör nə tez onu əvəz etmişlər. O, dinməz-söyləməz xalatını soyundu. Asqıdan asdı. Əl çamadanını götürüb getmək istədi. Lakin ayaq saxlayıb otağı, stolu, əlüzyuyanı, küncə qoyulmuş müxtəlif tibb alətlərini həsrətlə süzdü. O, birinci dəfə idi ki, öz səliqəsi ilə düzdüyü bu şeylərlə özü arasında böyük bir məsafə görürdü. “Bəlkə də buraya - illərlə qapısını açıb-örtdüyüm, minlərlə xəstənin şikayətini dinlədiyim, min cür xəstəliyə dərmanı açıb örtdüyüm minlərlə xəstənin şikayətim dinlədiyim, min cür xəstəliyə dərman yazdığım bu otağa bir daha qayıtmayacağam. Hələ bir dəqiqə bundan əvvəl əynimdən çıxardığım, indi asqıda yellənən o xalatı bir daha geyməyəcəyəm; Bu otaqda çırpınan ürəklərin səsini dinləməyəcəyəm.

Bu fikirlər onu sarsıtdı. Bir daha arxasına baxmadan qapıdan çıxdı.

Rübabə evə çatıb paltosunu soyundu, asmaq üçün dolaba yanaşdıqda özünü aynada görüb dayandı. Ağ birçəklərinə, qırışıq sifətinə, sol-

ğun baxışlarına bir xeyli baxdı, baxdı... Qarşıdakı tualet stolunun üstünə qoyulmuş şəkillər də aynada əks olunmuşdu. Bu şəkillər içərisində ən əvvəl gözünə dəyən Nadirin uşaqlıq şəkli oldu. O zaman!.. Bax bu şəkil çəkilən zaman Nadirin 14 yaşı vardı. Nadir çox dəcəl idi. O, uzun mübahisədən sonra anasına bir velosiped aldırmışdı. Dərsdən gələndən sonra velosipedini götürər, gəzməyə gedərdi. Rübabə evdə olanda onu tək buraxmaz, onunla bərabər gedər, Nadir sürdükcə o da "amandı, bərk sürmə, sözlərini deyə-deyə velosipedin dalınca qaçardı.

Bir gün Nadir anasından xəlvət velosipedi götürüb çıxmış, evlərinin yanındakı asfalt üstündə quş kimi süzmüş, hətta dostları kimi əllərini buraxmış, velosipedin üstündə fokuslar da çıxarmışdı. Bu zaman istiqamətini itirən velosiped burulub divara çırpılmış, Nadir yıxılmış, burnu sivri bir daşa toxunmuş, qanamışdı. Rübabə oğlunu bu halda görüncə sarsılmış, ağlamışdı da...

Həmin günün axşamı, ana-bala gəzməyə çıxmış, Rübabə oğlunun ürəyini ələ almaq üçün onun şəklini çəkdirmişdi. İndi aynada əks olunan şəkil həmin günün yadigarı idi. Odur, hətta burnunun üstündəki çapıq da şəklə düşmüşdü. Birdən-birə elə bil Rübabənin bədənindən qəribə bir gizilti keçdi. Nadir uşaq olanda bir an ondan ayrı düşməyə razı olmazdı. İndi isə aylarla oğlunun üzünü görmür. Belə da analıq olar? Bəlkə uşağın bir dərdi var? Birdən ona elə gəldi ki, divarlar onu sıxır. Rübabə, tənhalığın bütün dəhşətini yalnız indi hiss etdi.

Artıq Nadirin 34 yaşı vardı. Axı, nə vaxta qədər o subay qalacaq? Bəlkə o, on il də beləsinə evlənməyəcək. Bəs mən nəyəm? Bəs ana nə üçündür? Gözümün ağı-qarası bir balamı niyə mən özümdən kənara atmışam? Ailə niyə iki yerə bölünsün? Bir vaxt gecədə üç-dörd dəfə oyanıb onun üstünü örtməkdən həzz alardım. Bəs hanı mənim o analıq hissim? Bəs nə üçün bu gün mən onun yanına getməkdən, bala nəfəsini duymaqdan, əllərimi boynuna salmaqdan, səhərlər onu yuxudan oyatmaqdan boyun qaçırıram?..

Nəhayət, o, məsələni dərindən öyrənmək və şəxsən nazirin özü ilə məsləhətləşmək üçün nazirliyə getmək qərarına gəldi. Paltosunu geymək istəyirdi ki, qapı ağzında poçtalyonla rastlaşdı. O, Rübabəni görüb gülə-gülə:

- Oğlunuzdan teleqram var.

Rübabə teleqramı alıb oxudu: "Ana, tez gəl, səni gözləyirəm. Oğlun Nadir.

Bu gün ona iki kağız parçası vermişdilər. Bu kağızlardakı yazılar ikisi də eyni məzmun daşısa da, birincidən onun qəlbinə buz kimi soyuqluq, ikincidən qəribə bir hərarət çökmüşdü. Bu hərarət cəmi 7 kəlmədən ibarət olan teleqramdakı ikicə sözdən onun ürəyinə axdı: "Ana, oğlun.

- Axı hər şeydən əvvəl mən anayam.

Rübabənin qolları boşaldı. Geyinmək istədiyi palto çiyinlərindən düşdü.

* * *

Rübabənin rayona gəldiyi 4 ay idi. Şəhərin dəb-dəbəli həyatına öyrəndiyindən artıq yavaş-yavaş rayonun sakit həyatından bezməyə başlayırdı. Bütün günü evdə əyləşib oğlunun yolunu gözləməkdə keçirən Rübabə özünə bir əyləncə tapmaq, məşğul olmaq, darıxan ürəyini sakitləşdirmək istəyirdi. Əvvəlcə romanlardan başladı. Gecəli-gündüzlü eynəklə oxuduğundan gözləri yaşardı, kəlmələri seçə bilmədi və kitablardan da ayrıldı. Çox keçmədi ki, Nadir də, bütün qonşular da onun darıxdığını, nə isə bir iş görmək istədiyini hiss etdilər.

O, gündüzlər rayon mərkəzini gəzməyə başladı. Rayon çox kiçik olduğundan bəzən bir küçədən üç-dörd dəfə keçməli olur, bəzən oğlunun yanına gedir, ona nahar aparırdı. Özü burda olsa da, qəlbi Bakı ilə, iş yeri, iş otağı və yoldaşları ilə söhbət edirdi. "Bax, indi ikinci növbə işə başlamışdır. Bütün həkimlər - Gülnar, Rüstəm, Lətafət, Qumru, Xumar, Cabir bir-birini əvəz edir, gülə-gülə xudahafizləşir-ər. Yaxud indi məsləhət otağında bir adamın ağır xəstəliyini müəyyən etmək barəsində mübahisə başlanmışdır. Yenə də doktor Lətafət heç kəslə razılaşmır. Özü yeni bir təklif irəli sürür. Bu zaman mən qalxıram. Eh, mən hardayam?! Mən indi artıq heç kəsə lazım olmayan, təkərləri paslanmış köhnə bir kotan kimi muzeylər küncünə atılmışam.

Bu gün Rübabə bekarçılıqdan əyləşib köhnə dür-düyünçəsinə baxır, ötənləri yad edirdi. Birdən mücrünün küncünə atdığı trubkası onun gözlərinə sataşdı. Bir anlığa özünü itirdi, əlləri əsə-əsə trubkanı götürdü. Özü də hiss etmədən qəhərləndi. Ağ fil sümüyündən olan bu trubkanı

ona hələ nişanlı olduğu zaman sevgilisi Zülfüqar Moskvadan gətirmişdi. O, trubkanın üstünə belə bir söz də yazdırmışdı: “Ürək döyüntülərini dinləmək səadətdir. Zülfüqar bu hədiyyəni sevgilisinə verərkən demişdi: “Al, bu sənin ömürlük yoldaşın olsun.

Qırx il, Rübabə həmin bu trubka ilə ürəkləri dinləmiş və onu ərindən əziz bir xatirə kimi saxlamışdı. Bu gün isə canlı döyüntüləri qulağa çatdıran bu cansız alət, gərəksiz bir əşya - Rübabə üçün yalnız ötənləri xatırladan bir sümük parçasına çevrilmişdi. Bəs bu gün, bu yalnız xatirəmi olaraq qalsın? Rübabənin özü kimi arxivəmi atılsın?

- Yox, nə mən arxivə atılmalıyam, nə də o! - deyə o, hövlnak ayağa qalxdı. Sanki otağın havası ona azlıq edirdi. Qapını bağlayıb küçəyə çıxdı. Rayon mərkəzini xeyli dolandı. Qarşısına çıxan adamların küçə aşağı, küçə yuxarı haraya isə tələsdiklərinə baxdı, düşündü: “Gör ha, heç işsiz adam yoxdur, hələ sən bu yeddi yaşlı balaca uşağa bax, gör necə sürətlə gedir, heç arxasına da baxmır. Axı, nə üçün də baxsın? Onu beşcə dəqiqədən sonra vurulacaq zəng gözləmirmi? Bəs bu qoca hara belə tələsir? Yəqin ki, o da işə. Bəs mən hara gedirəm? Məni harada gözləyirlər? Heç yerdə! Bəs bu adamlar görəsən mənim həkim olduğumu bilirlərmi? Gör heç mənə əhəmiyyət vermədən yanımdan necə də laqeyd ötürlər! Heç mənə salam da vermirlər.

Bu zaman Rübabə möhkəm çığırmaq, həkim olduğunu hamıya bildirmək istəyirdi.

Özü də hiss etmədən, Rübabə bu gün üç dəfə rayon poliklinikasının yanından ötmüş, pəncərədən içəridəki ağ xalatlı həkimləri xeyli süzmüşdü. Gör necə də işləyirlər. Heç kəsə də baxmırlar. Birdən Rübabəyə elə gəldi ki, o danışır:

- Ey, cavan həkim, salam! Sən bilirsənmi mən də həkiməm? Əgər xəstəliyi təyin etməkdə çətinlik çəkirsənsə, sənə kömək edə bilərəm... Necə? Ehtiyacın yoxdur? Nə olar.

Birdən hardansa onun ağlına gəldi ki, içəri girsin, heç olmasa poliklinikanı gəzsin. Görsün, burda xəstələrə necə xidmət edirlər. İçəri girdi, növbə gözləyən yaşlı bir qadının yanında əyləşdi. O, ömründə birinci dəfə idi ki, müalicəxanada “xəstə sifətilə növbə gözləyənlərin yanında əyləşirdi. Axı, o, qəbul olunmağı gözləməmiş, həmişə qəbul etməyə adət etmişdi. Yanındakı qadın onu, o da qadını diqqətlə süzdü. Bir qədər

əyləşdilər, nəhayət, qadın:

- Sizin haranız ağrıyır, ay bacı? - deyə xəbər aldı.

Bir an Rübabə nə cavab verəcəyini bilmədi. Nəhayət, özünü ələ alıb:

- Mənim... Mənim ürəyim ağrıyır.

- Heç demə. Ürək ağrısı çox pis dərddir.

- Sənin də ürəyin ağrıyır?

- Hə. Düz iki ildir mənə aman vermir. Həkimlər də salıb get-gələ.

Rübabə axtardığını tapan adamlar kimi tez soruşdu:

- Sinəndə ağrı olurmu?

- Olur, elə bil boğuluram. Rübabə daha bir neçə sual verdi.

Xəstəliyinə aid olan bütün əlamətləri xəbər aldığından qadına elə gəldi ki, onda da bu əlamətlər var, onun üçün yerliyataqlı bilir.

Bütün bu əlamətlərdən Rübabə qadının ürək astmasına tutulduğunu təxmin etdi. Elə bu zaman qadının növbəsi çatdı. Qalxıb getdi.

Rübabə başqaları ilə söhbətə başladı. O, içəri girən qadının reseptinə baxmaq, təxmininin düz olub-olmadığını yoxlamaq istəyirdi. Bunun üçün də hələ oturmaq, gözləmək qərarına gəldi. Bir azdan həmin qadın çıxdı. Rübabə onun reseptinə baxmaq istəyirdi ki, başqa bir xəstə ona müraciətlə:

- Buyurun, növbə sizindir, - dedi. Rübabə:

- Nə növbə? - deyə xəbər aldı.

- Necə nə növbə? Bəs siz niyə gəlmisiniz?

O, yalnız indi pis vəziyyətə düşdüyünü hiss etdi. Doğrudan da, o, bura niyə gəlmişdi? Əgər o desə ki, elə-belə gəlmişdim, ona gülməzlərmi?

- Hə, mənim növbəmdir, - deyə içəri girməyə məcbur oldu.

Onu otaqda orta boylu, uzun saçlı, zərif, qaraqaş, qaragöz, cavan bir həkim qarşıladı. Həkim mehriban bir səslə:

-Buyurun, ana, nədən şikayətlənirsiniz? - deyə Rübabəyə yanaşdı.

Bu sual ildırım kimi onun ürəyini vur-du. Həmişə başqalarına ver-diyi bu sualı ömründə birinci dəfə idi ki, ona verirdilər. Nə cavab verəcəyini bilmədi. Nəhayət:

- Mən... Mən... mənim ürəyim ağrıyır.

- Soyunun.

Rübabə dinməz-söyləməz əmrə tabe oldu.

Həkim fonendoskopu onun sinəsinə dayayıb qulaq asmağa başladı. Bu gənc qız onu müayinə etdikcə, o da onu müayinə edirdi. Müayinə üsulundan, verdiyi suallardan və hətta fonendoskopu tutmağından həkimin o qədər də təcrübəli olmadığını müəyyən edən Rübabə xəfifcə gülümsündü.

- Özünüzü çoxmu narahat hiss edirsiniz?

Rübabə başa düşdü ki, həkim xəstəliyi müəyyən etməkdə çətinlik çəkir. Çünki, axı, əslində onun ürəyində heç bir ağrı yox idi. Lakin həkim qızın son dərəcə mehriban rəftarı, “ana deyə müraciət etməsi ona çox xoş gəlmişdi. Buna görə də həkimə kömək etmək üçün:

- Məndə qan təzyiqi də yüksəkdir, doktor, - dedi.

Həkim bu qadının savadlı olduğunu kəsdirdi. “Görəsən bu kimdir? deyə düşünməyə başladı. Axı, o, rayonun bütün ziyalılarını tanıyırdı. Bunu niyə tanımır? Bəlkə də yaxın kəndlərdən birində müəllimdir? Həkim qız əyləşib resept yazmağa başlayanda, Rübabə ondan xəbər aldı:

- Qızım, institutu haçan qurtarmısan?

- Keçən il.

- O vaxtdan burdamı işləyirsən?

- Bəli.

- Adın nədir?

- Sevil.

- Həkimlik böyük və şərəfli sənətdir. Elə mən də həkiməm. Heyrətdən Sevilin gözləri böyüdü.

- Ancaq indi işləmirəm. Elə darıxdığımdan bura gəldim. Sevil xeyli maraqlandı:

- Bəs niyə işləmirsiniz?

- Oğlum qoymur. Deyir dincəl.

- Oğlunuz kimdir?

- Nadir, sizin səhiyyə şöbəsinin müdiri.

Sevil artıq sual vermədi. Gözlərini yerə dikdi. Bir xeyli susdu. Bu, doğrudan da o idi. Axı, Nadir də anasının həkim olduğunu demişdi.

Nəhayət, Rübabə:

- Qəribədir, bəzən insanlar ilk baxışdan bir-birlərini bəyənir. Çox zaman insanı sövqi-təbii aldatmır da. Sevil qıp-qırmızı qızardı. Yox-

sa, oğlu ilə sevişdiklərini ana da bilirdi? Yoxsa, onun xəstəliyi bir bəhanədir? Bəlkə onu görmək üçün o, bura gəlmişdi? Rübabənin sözü Sevili fikrindən ayırdı.

- İcazə versəydin, bir qədər sənə kömək edərdim. Evdə tək-tənha darıxıram.

- Buyurun, ana. Əgər bu sizin üçün xoşdursa...

* * *

İşdən sonra Sevil əhvalatı müdirə danışıb əlavə etdi:

- Bilirsiniz, mənə necə kömək elədi? Bir-iki əlamətlə xəstəliyi dərhal müəyyən edir.

- Zarafat deyil, neçə ilin həkimidir.

- Deyir, evdə tək darıxıram. Əgər müdiriniz icazə versə, hər gün gəlib sizə bir-iki saat kömək edərəm. Müdirin fikrə getdiyini görən Sevil:

- Poliklinikamızın belə təcrübəli həkimə ehtiyacı var. Amma nə edəsən ki, oğlu işləməyə qoymur. Müdir hələ fikirləşirdi. Nəhayət:

- O bizə hər an lazım ola bilər. Qorxuram razı olaq, Nadir bizdən incisin. Bu sözlə müdirin nəyə işarə etdiyini dərhal başa düşən Sevil:

- Ancaq məsələ bundadır ki, Rübabə xanım onun bura gəldiyini Nadirdən gizlətməyimizi xahiş edir. Buna görə də bu barədə onunla danışmaq olmaz.

- O, sabah gələcəkmi?

- Dedi gələcəyəm.

- Onda qoy əvvəlcə mənim yanıma gəlsin.

Ertəsi Rübabə lap erkən gəldi. Müdirlə xeyli söhbət etdikdən sonra Sevilin otağına keçdi. O, işlədikcə gözaltı Sevili süzür, onun hər bir hərəkətinə fikir verir, axtardığını tapdığından fərəhlə gülümsünürdü. Bu əsl Nadirə yaraşan qız idi. O, tezliklə bu barədə oğlu ilə söhbət etmək qərarına gəldi.

Həmin günün axşamı, şam vaxtı oğluna dedi:

- Nadir, sənə bir qız tapmışam.

- Qız tapmısan?

- Hə, özü də lap sənə yaraşan.

Söhbət Nadiri maraqlandırdı. Elə o da çoxdan bunu gözləyirdi. O

istəyirdi ki, bu barədə söhbəti, birinci anası salsın. İndi fürsət düşmüşdü.

- O qız kimdir, ana?

- Özüm sənə göstərəcəyəm.

Nadir onun poliklinikaya getdiyini bilər, - deyə qızın adını vermədi.

- Onda, ana, mən də sənə bir qız göstərəcəyəm.

- Olsun.

Bu əhvalatdan bir həftə keçdi. Rübabə gündə iki-üç saat poliklinikaya gedir, xalatını geyir, fonendoskopunu əlinə alıb Sevilə kömək edirdi. O sevinirdi.

Sevil də sevinirdi. O, qayınanası olacaq bu adamla indidən tanış olduğuna, bu qədər səmimi və mehriban bir adamla bir yerdə işlədiyinə sevinirdi. Rübabə ilə tanış olandan bəri Nadirlə bir-iki dəfə görüşdüklərinə baxmayaraq, anası haqqında ona heç bir söz deməmişdi. Nadir dünən ona "anam mənə qız tapmışdır -dediyi zaman Sevil gülümsəmişdi...

# SAAT

Səhər idarəyə çatmışdım ki, orta məktəb yoldaşım Əkbər telefonla xəbər verdi ki, dostumuz Arif gecə qəflətən keçinib. Qulaqlarıma inanmadım. Çünki dünən axşam Ariflə bir yerdə olmuş, xeyli dərdləşmişdik. Bir də dostumuz Əkbərin hərdən çox eybəcər zarafatları olardı... Lakin bu heç zarafata oxşamırdı.

Əkbərin telefonda hönkürtüsünü eşitdim, bədənimə soyuq tər gəldi. Dərhal işçilərimə tapşırıq verib Arifgilə gəldim. Küçə qapısına qoyulmuş qara örtüklü cənazəni görüncə ayaq saxladım... Bəli, hər şey aydın idi... Bir gecənin içində nələr baş verə bilərmiş...

Həyətdə dəfn tədarükü görülürdü. Kimi çadır qurur, kimi stol, stul daşıyırdı...

Biz - Əkbər, Arif və mən birinci sinifdən axıra qədər bir sinifdə oxumuşduq. Ali təhsil üçün hərəmiz bir sənəti seçsək də, yoldaşlığımız davam etmiş, həmişə bir-birimizin işgücü ilə maraqlanmış, ailə qurandan sonra da bu yaxınlıq ailələrimizə keçmişdi. Əslində bu dostluq Arifin səmimiyyəti və mehribanlığı hesabına gündən-günə möhkəmlənirdi. Arif ikimizdən də istiqanlı idi. Həmişə o bizi arayıb axtara, istər yaman, istərsə də yaxşı günlərimizdə bizim qapımızı birin-ci o döyərdi... Keçən il atam öləndə Arif yas sahibi kimi qollarını çırmayıb ortaya atıldı, əlimi ağdan qaraya vurmağa qoymadı, mərasimin əvvəlindən axırına kimi işə getmədi, bu ağır günlərimdə mənə havadar oldu...

Mənim uşaqlarımın təhsil və tərbiyəsində də Arifin böyük zəhməti vardı. Uşaqlarım mənimlə açıq deyildi. Ona görə də çox zaman ürək sözlərini Arifə deyər, ilk yardımı ondan umardılar. Evdə xəstə oldumu, bundan birinci xəbər tutan da, kömək əli uzadan da Arif olardı. Hərdən biz Əkbərlə bu barədə danışar, eyni münasibəti Arifə göstərə

bilmədiyimizə görə özümüzü danlardıq.

Bax, biz belə bir dost itirmişdik. Mən həyətə girəndə Əkbər çadırın qapısını düzəldirdi. Məni görən kimi əlindəki kəndiri kənara atıb boynuma sarıldı. Göz yaşı yanağımı islatdı.

- Arxasız qaldıq, - deyib hönkürdü...

Bir azdan sonra vəzifə bölgüsü başlandı. Mən dəfnə lazım olan sənədləri düzəltmək üçün dəfn bürosuna yollandım. Heç demə o dünyaya getmək üçün də sənəd-sübut lazımmış!.. Bütün günü bu işlə məşğul olub saat 4-də hüzr yerinə gəldim.

Məni gözləyirdilər...

Qəbri üstündə bir çovğun var idi ki, gəl görəsən. Toz-dumandan göz açmaq mümkün deyildi. Soyuq külək adamın iliklərinə işləyirdi...

Dəfn mərasimini Arifin direktoru açdı.

O, Arifin bizə məlum olan bütün gözəl cəhətlərini - xeyirxahlığını, əliaçıqlığını, alicənablığını, rəhmdilliyini, üzüyolalığını, təvazökarlığını və s... bir-bir sayıb, sonra bunların hər birini sübuta yetirən bir hadisəni danışır-dı. Onu kəsib bunu calayır, təzədən əvvəlki mətləbə qayıdır, qurtarmaq bilmirdi.

Kü-ləyin zərbindən və yorğunluqdan ayaq üstə dura bilmir, mərasimin qurtarmasını gözləyirdim. Nəhayət, direktor nitqini sona yetirib sözü başqasına verdi. Bu da başladı, nə başladı, direktorun dediklərini bir də başdan təkrar edib qalxdı zənguləyə... Zənguledə hönkürdü. Göz yaşlarını silib təzədən bəmə düşdü...

Mərhum haqqında deyilən bütün sözlərdə bir dənə də olsa, şişirtmə, ya bəzək-düzək yox idi. Hamısı ürəkdən gələn həqiqi sözlər idi. Lakin bu məqamda bu sözlər mənə artıq və şit görünürdü. Ayaqlarımın birini götürür, birini qoyur, əsəbiləşməyə başlayır, danışmaq üçün yenicə söz alan adamın nə zaman qurtaracağını gözləyirdim.

Bir də ayıldım ki, oğlum yanımdadır, diqqətlə üzümə baxır.

- Rəngin yaman ağarıb.

- Yorğunam.

Yalnız indi yadıma düşdü ki, həm də acam.

- Bəlkə gedib maşında oturasan, - deyə oğlum qolumdan tutub məni maşına sarı apardı.

- Qorxuram soyuqlayasan.

- Saat neçədir?

Oğlum əlini döş cibinə aparıb saatını çıxartdı.

- Altı!

Elə bil məni ildırım vurdu. Ayaq saxladım.

- Nə oldu?

Oğlum maşının qapısını açmışdı. Mən qapını örtüb oğluma tərəf döndüm:

- Saatın arxasını oxu!

O, dərhal məni başa düşdü. Bu saatı 3 il əvvəl orta məktəbi bitirməsi münasibətilə oğluma Arif gətirmişdi. Arxasına da yazdırmışdı: "Əmisi Arifdən.

İndi mən onun dəfn mərasimində çovğundan gileylənir, aclıqdan sustalır, mərasimin uzanmasından narahat olur, soyuqdan qorunmaq üçün maşına tələsir, onun hədiyyə verdiyi saatdan vaxtı öyrənirdim...

# RƏQABƏT

Nadir eşidəndə ki, çolaq Səttar onun dükanının düz qənşərində təzə foto dükanı açır, cin atına mindi. Onun Bakıda fotoqraf kursunda oxuduğunu eşitmiş və bundan bir balaca dalağı sancmışdı, amma heç güman eləməzdi ki, bir balaca rayonda ikinci foto dükanının açılmasına idarə izn verə.

Bir də ağlına gətirmirdi ki, Səttar onunla tərəziyə girə, onun qəsdinə dura. Nədən ki, Nadir həmişə Səttara pərəstarlıq eləmiş, bərk ayaqda onun əlindən tutmuşdu. 10-15 il əvvəlin söhbətidir. Onda Nadir daş karxanasında briqadir, Səttar isə sürücü işləyirdi. Atası qəflətən öldüyündən, bütün ailə özündən kiçik 6 bacısı Səttarın öhdəsinə düşmüşdü. Dolana bilmirdi. Nadir Səttarı öz briqadasına gətirmiş, mənzil növbəsini də ona vermiş, öz əlilə onu evləndirmiş, hər dərdinə, qayğısına qalmışdı.

İndi Nadir eşitdiyi xəbərə inana bilmir,bu nankorluğu heç cürə başa düşmürdü.

Elə ki, köşkü gətirib qurdular, Nadir başı alovlu cumdu direktorun üstünə.

- Balam, bu nə işdi, mən planı güclə doldururam, ikinci fotoqraf nəyə lazımdı?

Direktor onu sakitləşdirib dedi ki, bütün rayon səni birinci fotoqraf sayır, onsuz da hamı sənin yanına gələcək.

Bu yerdə Nadir lap özündən çıxdı:

- İndi ki, belədir, təzəsi nəyə lazım?

Direktor stolun yeşiyindən Səttarın qovluğunu çıxarıb, üzünü tutdu Nadirə:

- Yaxın gəl.

Nadir direktorla üzbəüz əyləşdi.

Direktor qovluğun içindən Səttarın diplomunu çıxarıb dedi:

- Bundan səndə var?
- O nədir elə?
- Bu, qırmızı diplomdur.
- Onunkudur?
- Yox, səninkidir.

Nadir direktorun nəyə işarə elədiyini başa düşdü. Axı, o, heç bir məktəb bitirməmişdi, fotoqrafçılığı uşaqlıqdan özü öyrənmişdi.

- Sən həvəskar fotoqrafsan, o diplomlu. Hələ sən Allahına şükür elə ki, onu sənə ortaq göndərməmişəm.

- Ortağın buynuzu olur bəyəm? Küçənin bu tayında mənim dükanımdır, o tayında onunku...

- Sən indi elə işlə ki, camaat səni tanısın, onu yox...

Nadirin daha bir sözü qalmadı. Suyu süzülə-süzülə otaqdan çıxdı. Dükana çatmışdı ki, gördü, yaşlı bir arvad yapışıb şəyirdin xirtdəyindən:

- Ədə, belə də şəkil olar? Bu heç mənə oxşayır?

Bayaqkı əhvalatdan bərk tutulmuş Nadiri elə bil göydən yerə vurdular. Arvada yaxınlaşıb, diqqətlə onu süzdü. Arvadın üzündə qara-qara xallar, xalların üstündə uzun tüklər qıvrılmışdı. Nadir özünü saxlaya bilmədi:

- Mən şəkil çəkənəm, xala, qaş alan, üz düzəldən deyiləm. Özün nə təhərsənsə, o da düşüb kağıza. Mən səni gözəlləşdirə bilməzdim ki...

- Sən get, adama oxşamaz arvadını gözəlləşdir. Şəkil çəkməyi bacarmırsan, yerini ver özgəsinə. Ayrı müştərilərdən də eynən bu sözü çox eşitmişdi, fikir verməmişdi. Amma bu gün bu söz onun yarasına duz basdı. Bir istədi arvadın qolundan tutub yola salsın, birdən gözləri çöldə təzə foto dükanı tikən ustalara sataşdı, dayandı, özünü ələ aldı. Təzədən şəklini çəkmək üçün arvadı əyləşdirdi. Güzgü və daraq gətirdi:

- Götür, özünü sahmana sal, - dedi.

Nadir aparatı tuşladı. Gördü ki, əlləri əsir, özünü yığışdırıb, birtəhər fokusu tapdı. Fokusda arvadın əvəzinə çolaq Səttar oturmuşdu. "Lənət şeytana deyib, təzədən baxdı... Deyəsən, onu qara basırdı. Birtəhər şəkli çəkib arvadı yola saldı.

* * *

Səttarın dükanı işə başlayanı, Nadirə şəkil çəkdirənlərin sayı azaldı. Nədən ki, Səttar Bakıda foto sənətinin incəliklərini yaxşı öyrənmişdi. O, rayonda rəngli foto sənətinin qaranquşu oldu. Bundan əlavə o, şəkil çəkdirənləri müxtəlif və münasib pozalarda əyləşdirməyi bacarırdı. Məsələn, o, ər-arvadı bir pozada, hələ evlənməmiş nişanlıları isə tamam başqa pozada çəkməyi məsləhət bilirdi.

Bir ay keçməmiş, Nadir planı heç qırxca faiz də ödəyə bilməyib, tamam iflasa uğradı.

Səhərdən axşama kimi Nadir dükanda əyləşib Səttarın dükanına gələn müştəriləri sayır, papirosu papirosa calayırdı.

Bir gün rayonun kefcil cavanlarından Mustafa adlı biri küçələrdə dolaşan səllim bir iti qucağına alıb girdi Nadirin dükanına.

- Bekar oturmaqdansa, çək bunun şəklini, - dedi.

Nadir özünü itirmədi. O, qalxıb kamali-ehtiramla keçdi aparatın arxasına:

- Buyurun, əyləşin, - dedi. Mustafa:

- Baş üstə, hansı ölçüdə?

- 3 x 4.

Nadir kətilin üstündə iti əyləşdirib şəklini çəkdi. Sonra qəbz dəftərini çıxarıb yazmağa başladı:

- Demək, adın Mustafa, familin Şabanov.

Qəbzi dəftərdən cırıb, sapa keçirdi, asdı itin boynuna. İtə müraciətlə:

- Şəkli 3 gündən sonra gəlib apararsan, yoldaş Şabanov.

Yarım saatdan sonra bu əhvalat bütün rayona yayıldı. Həmin gün Nadir direktorun yanına gəlib, xahiş elədi ki, onu göndərsin oxumağa.

- Bəs dükan?

- Dükan onsuz da işləmir,bağla. Gedərəm, əgər diplomla qayıtsam və lazım bilsən, açarsan, qayıtmasam, o çolaq Səttar, o də sən.

Üç gündən sonra Nadir Bakıya yola düşdü. Bununla da fotoqraflar haqqında rayonda gedən gülməli söhbətlərə son qoyuldu. Ancaq hərdən curları Səttara sataşmaq üçün köhnə söhbətləri xatırlayır, Nadirin işgüzarlığından, dostluqda da, düşmənçilikdə də möhkəm olmasından söhbət salır, onun bu hayfı yerdə qoymayacağına əmin olduqlarını bildirirdilər. Yarı hənək, yarı gerçək, bu söhbətlər Səttarı əsəbiləşdirsə

də, üzə vurmur, amma qəlbinin dərinliyində Nadirin ondan alacağı qisasın necə ola biləcəyi barədə düşünürdü. Səttar elə bilirdi ki, o, ən kamil fotoqrafdır. Nadir bu işdə onu üstələyə bilməyəcək, lap üstələsə də, daha ikinci dükanın açılmasına lüzum qalmayacaq. O, əlindəki əl ağacını hərləyib, divardan asılan rəngli uşaq şəklini dostlarına göstərib dedi:

- Nadir yüz il də oxusa, bu cür bədii şəkil çəkə bilməz. O, rayon səviyyəli fotoqrafdır. Mustafa güldü:

- Nə təhər olur, sən bacardığını o bacarmasın?

- Bu işdə rəssam istedadı lazımdır.

- Onda istedad olub-olmadığını bilmirəm, amma onu bilirəm ki, Nadir öz işinə can yandıran adamdır. Həm də çox mərddir.

"Mərd sözü ilə Səttarın namərdliyinə işarə vurulduğunu hamı başa düşsədə, bu eyhamı Səttar üzə vurmadı.

Aylar, illər ötdü. Bir gün rayon camaatı "Kommunist qəzetində Nadirin bir reproduk-siyasını gördü. Bu, qəzetin elan etdiyi foto müsabiqəsində ikinci yer almış bir şəkil idi. Qapalı kamera ilə çəkilmiş bu şəkildə iki şahin təsvir olunurdu. Şahinin biri buludların üstündə uçur, ikincisi isə ona baxıb qayanın başından uçuşa hazırlaşırdı.

Bu rəmzi şəkil hamının xoşuna gəldi. Səttar isə şəklə baxıb:

- Yerdəki şahin göydəki şahinə çata bilməz, - dedi.

Bu əhvalatdan bir qədər keçmiş rayona səs düşdü ki, Nadir Ali fotoqraflar məktəbindən qayıdıb gəlir. Bu xəbər rayon əhli üçün maraqlı, Səttar üçün isə gözlənilməz oldu. Köhnə söhbətlər təzələndi. Nadirin köhnə sınıqsalxaq dükanında təmir başlandı. Hamı gözləyirdi ki, görək Nadir qırmızı diplomlu Səttarın qabağına nə ilə çıxacaq.

Təmirdən sonra Nadirin dükanının pəncərələri süjetli bədii reproduksiya və gözəl şəkillərdlə bəzədildi. Az keçməmiş, müştərilər küçənin o tayından bu tayına axışmağa başladılar.

Nadir dükanda az olur, kabinet şəkillərini köhnə şəyirdinə tapşırıb, çiynində aparat, başlayır rayonu dolaşmağa, gözəl təbiət mənzərələrini və ələlxüsus adamların həyatındakı ən maraqlı anları, vəziyyətləri gizli kamera ilə çəkir və sonra sahiblərinə göstərir. Əlbəttə, şəkil çəkdirmək məqsədilə aparat qabağında donan adamların şəklində iç dünyasının ifadəsi çox zəif, gizli kamera ilə çəkildiyini bilmədən müəyyən ovqatı

və halı ifadə edən şəkillərdə çəkilənin mənəvi dünyası çox gözəl əks olunur. Bu adamlarda maraq doğururdu. Bəzən elə olurdu ki, bir məsələ barəsində qızğın mübahisə edənlər Nadirin aparatından qorxaraq yan-yörəsinə baxır, əsəbini saxlamağa çalışırdı.

Nadirin əl-əl gəzən şəkillərindən biri "Muğamat adlanırdı. Bu şəkildə "Segah muğamını dinləyən ağ saçlı nurani bir qoca təsvir olunmuşdu. Bu qocanın üzündəki heyrət və ləzzət ifadəsindən muğam zəngulələri süzülürdü. Baxan üz ifadəsindən muğam hikmətini oxuya bilirdi. Bu, foto şəklindən çox, usta bir rəssamın yaratdığı bədii bir əsərə bənzəyirdi. Buna görə də qocanın kimliyindən asılı olmayaraq, hamı bu şəkli sənət əsəri kimi alır, çərçivəyə salıb, evindən asırdı.

Rayon camaatı iki sənətkar arasında baş verən rəqabətin axırını gözləyir, Nadirin rayona gətirdiyi bu foto yeniliyinə Səttarın münasibətini öyrənmək istəyirdi.

İndi Səttar Nadirin dükanına gələn müştəriləri sayır, hirsindən papirosu papirosa calayırdı. Səttarın bu vəziyyətini uzaqdan seyr edən Nadir bir tərəfdən ləzzət çəkir, o biri tərəfdən hardasa qəlbinin dərinliyində ona acıyırdı. Ona görə ki, Səttarın düşdüyü bu hal, bu ovqat ona çox yaxşı tanış idi. Bu balaca şəhərdə indi Səttarın nələr keçirdiyini, oyum-oyum oyulduğunu Nadir qədər başa düşən ikinci bir adam ola bilməzdi. Nadir artıq məqsədinə çatmışdı. Daha ona heç nə lazım deyildi. O, qəlbində bu qərara gəlmişdi ki, Səttarı çağırıb onunla barışsın, dükanları birləşdirsinlər. Yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır. Nadir barışmaq üçün fikrində yollar aradığı günlərin birində qəflətən Səttar onun qabağında peyda oldu:

- Bu rayonda ya sən qalacaqsan, ya mən - deyə onun yaxasından yapışıb silkələdi. Nadir təmkinlə:

- Sən də qalacaqsan, mən də, - deyə ona oturmaq üçün yer göstərdi.

Nadir onun gəlişinə qəlbində sevinir, ürəyində tutduğu niyyəti deməyə hazırlaşırdı ki, Səttar udquna-udquna:

- Mən səninlə üzbəüz oturmağa gəlməmişəm, ayırd eləməyə gəlmişəm, - dedi.

- Bizim ortaq heç bir şeyimiz yoxdur ki, ayırd eləyək, - deyə Nadir onu sakitləşdirməyə çalışdıqca, Səttarın ayağı yer alır, daha da

əsəbiləşirdi.

Nadir yenə əvvəlki təmkinlə:

- Ortaq olan sənətimizdir. Biz yarışdıq. Mən sənə baxıb sənətimi təkmilləşdirdim, indi sən də gərək mənə baxıb...

Bu yerdə Səttar qəh-qəhə çəkib dükanın vitrininə tərəf döndü. Barmağının ucunu şəkillərin üstündə gəzdirib:

- Sən bunlara sənət deyirsən? Rayon camaatının gözünə kül üfürmə, sənət başqa şeydir.

Birdən Səttarın gözünə arxa divardan asılmış öz şəkli dəydi. Bu, onun dükanda əyləşib papirosu papirosa caladığı vəziyyətinin təsviri idi. Şəkildə Səttar Nadirin dükanına tərəf boylanır,gözlərindən həsəd qığılcımı yağırdı. Bu şəkli Nadir bir həftə əvvəl, gizli kamera ilə çəkmişdi.

Şəkli görüncə Səttarın başına elə bil qaynar qazan endirdilər. O, əlindəki ağacı hərləyib, vitrindəki şəkil çərçivələrini qırmağa başladı. Nadir ona mane olmaq üçün ayağa qalxınca, Səttar ikinci zərbəni onun başına endirdi.

Nadir alnından fışqıran qanı dəsmalı ilə silib dərhal içəridən dükanın qapısını bağladı. Açarı cibinə qoyub, Səttarın qolundan yapışdı:

- İçəri otağa keçək. Səttarın rəngi ağardı.

- Nədən ötrü?

- Ayırd eləməyə gəlməmisən? Keçək o biri otaqda ortaq malımızı ayıraq. Səttarın bütün vücudu titrəyirdi.

- Mən ora keçmirəm, nə sözün var, burda de.

- İstəyirəm, ayırd eləyəndə bizi görən olmasın. Qorxub eləmə, mən səninlə sənin kimi rəftar eləməyəcəyəm.

Səttar qorxa-qorxa arxa otağa keçdi.

Nadir şəkil çıxardığı qaranlıq otağın işığını yandırıb Səttarı əyləşdirdi. Özü də gəlib oturdu düz onun qənşərində.

- İndi gəl, sakitcə danışaq.

Bayaqdan başını aşağı salıb işin axırını gözləyən Səttar başını qaldırarkən, Nadirin kəkilindən üzü aşağı axan qanı görüb cibindən yaylığını çıxartdı:

- Sil qanını... yodun yoxdur?

Nadir taxçadakı odekolonla yaylığını isladıb,yarasının üstünə qoydu.

- Şəkillərimi sındırdın, özümü də vurdun. Nə olar... Amma bu yarış deyil, namərdlikdir. Sən 3 il əvvəl əlində diplom gəlib mənim dükanımın qabağında dükan açanda mən niyə sənin elədiyini eləmədim? Hə? Susma, cavab ver.

Səttarın nitqi kəsilmişdi.

- Sualıma cavab verməyə söz tapmırsansa, dalına qulaq as. Özün görürsən ki, mən səndən cüs-səli, həm də qüvvətliyəm. Bu saat bu dar otaqda bizdən başqa heç kəs yoxdur. İndi sənin boğazını cücə boğazı kimi üzməyə gücüm çatar. Elədir, ya yox?

Səttar susurdu.

- Amma qorxma, bunu eləməyəcəyəm. Bu saat milis çağırıb, akt bağladıb, səni damlaya da bilərəm. Amma bunu da eləməyəcəyəm. İndi sənin ağlın çatırsa, de görək niyə? Heç olmasa, buna cavab ver. Niyə mən səndən hayıf almıram?

Səttar yenə susur, heç yerindən qımıldanmırdı da...

- Niyə susursan, cavab versənə!

Səttar papiros çıxarıb yandırdı. Bir qüllab vurub handan-hana dilləndi:

- Şəklimi divarda görəndə özümü saxlaya bilmədim. Dedim, məni ələ salırsan, bir xatadır çıxdı əlimdən.

- Sən mənim sualıma cavab ver. Niyə mən səndən hayıf almıram?

- Deyə bilmərəm, amma gərək sən də məni vuraydın.

- Onda olardım sənin tayın. Amma əsl məsələ bunda deyil. Əsl məsələ bundadır ki, mən sənə əl qaldıra bilməzdim. Bilirsən niyə?

- Yox!

- Əlbəttə, bilməzsən. Bunu bilmək üçün bilik lazımdır. Mən səndən ona görə hayıf almıram ki, səni özümə dost bilirəm, düşmən yox.

"Dost sözü Səttarı dikəltdi. O bu sözdən onu başa düşdü ki, söhbətin səmti xeyirliyə dönür. Dərhal sevincək:

- Əlbəttə, biz həmişə dost olmuşuq. Sən mənə qardaşlıq eləmisən, - dedi. Nadir:

- Xeyr, sən yenə məni başa düşmədin. Səni ona görə dost bilirəm ki, sən olmasaydın, mən yerimdə sayacaq, həvəskar fotoqraf səviyyəsində qalacaqdım. Mən bu səviyyəmə görə sənə borcluyam. Borclu olduğum adamdan hayıf almağı isə günah sayıram.

- Mən? Mən sənə neyləmişəm ki? Nə borc?

- Bunu da başa düşmədinsə, daha səninlə nə danışım? Gedə bilərsən, - deyə Nadir onun qolundan tutub qapıya tərəf apardı.

Səttar canavarın ağzından qurtaran quzu kimi arxasına baxmadan getdi. Amma nə qədər fikirləşdisə, Nadirin ona verdiyi dərsi heç cürə başa düşə bilmədi.



# ŞÜBHƏ

***(Nağıl-hekayə)***

*Böyük nağıl ustası*
*Andersenin xatirəsinə*

Biri varmış, biri yoxmuş, Əndəhar ölkəsində bir qəribə şah varmış, bu şahın doğru sözdən zəhləsi gedir, yalan sözdən xoşu gəlirmiş... Nədən ki, şah yalanlardan gördüyü xeyiri heç bir həqiqətdən görməmişdi. O, bu səltənətə də yalanın əlləri üstündə qalxmışdı. Şah da avam şah deyildi, yaman bic idi. Bicliyini özü də bilirdi. Bilirdi ki, dədəsi şah olmayıb, o, özgədən olub.

Şahın yalan danışmaqdan başqa ayrı əlacı yoxdu. Rəiyyətin doğru danışmağı ona sərf eləməzdi, ayıbı açılardı. Yalan saraydan baş alıb kəndlərə, kəndlərdən baş alıb saraya gedirdi. Buna görə də saray camaatı, camaat da sarayı yaxşı başa düşür, yalanın vacibül-əməl olduğunu hər iki tərəf bilirdi. Şah öz yalanları ilə ölkədəki biabırçılıqların üstünə rəng çəkir, qara həqiqəti ağ yalanlarla boyayırdı. Hamı bunun boyaq olduğunu bilir, amma həqiqət kimi qəbul edirdi.

Bütün şahlar kimi bu şahın da bir alabəzək təlxəyi varmış. Boyun-boğazından və topuqlarından asdığı zınqırovların səsinə qol götürüb oynar, şahı həm rəqsi, həm də xoruz səsi eşitməyən yalanları ilə əyləndirərmiş. Təlxək oynadığı zaman həmişə bir mahnı oxuyarmış:

*Mən xoşbaxtam, xoşbaxtam,*
*Mənim belə şahım var.*
*Şahım var, pənahım var.*

Yalanlarının böyüklüyünə görə şah öz təlxəyini ölkənin ən ağıllı adamı elan etmiş və əmr eləmişdi ki, bu səltənətə sədaqətini bildirmək istəyən hər kəs gərək təlxəyi yamsılaya. Bu əmrdən bir az keçmiş

ölkənin bütün camaatı şaha sədaqətlərini bildirmək üçün qorxularından təlxəyin mahnısını təkrar eləməyə başladı, "Mən xoşbaxtam, xoşbaxtam". Evsiz-eşiksiz, lüt camaatın acqarına "mən xoşbaxtam" deyib təlxək kimi qol götürüb oynaması şahı yaman əyləndirirdi. Şah qəhqəhə çəkib gülür və fikirləşirdi: "Pah atonnan! Yalanın yekəliyinə bax, ey..."

Az müddətdə ölkədə hamı yalançı oldu, hamı bir-birini aldatdığından yalan adiləşdi, heç kəs yalan deməkdon utanmadı, əksinə, yalanı gerçək kimi xəcalət çəkmədən deyə bilməsi ilə öyündü. Oğru oğrudan, əyri əyridən, yalançı yalançıdan niyə utansın ki?... Ölkədə yalan yarışı başladı. Kim daha böyük yalan deyə bildisə, yalanın dərəcəsinə görə hörmət qazandı, mövqe tutdu, mükafatlandırıldı. Getgedə adamlar bir-birini çətin anlamağa başladı. Ona görə ki, sözlər hərfı mənasını itirib tərs mənalar qazandı. Məsələn, ağ-qara, yaxşı-pis, uzun-gödək mənasında anlaşıldı. Köhnə padşahın zəmanəsində dünyaya gələnlərlə təzə padşahın zəmanəsində dünyaya gələnlər bir-birini anlamadı. Köhnələr təzələri başa düşmür, çaşbaş qalırdılar. Odur ki, onlar gördüklərini görməməzliyə vurub, eşitdiklərini tərsinə çevirəndə onlara hər şey aydın olurdu.

Mədrəsələrdə uşaqlara ən böyük həqiqət adına yalnız yalançılıq və onun növləri, ən böyük düzgünlük adına oğurluq və fırıldaq tədris edilir, bir cür düşünüb başqa cür danışmaq öyrədilirdi. Müəllim öyrədirdi ki, əgər bizim şahımız desə ki, göydə günəş yoxdur, demək...

Uşaqlar yer-yerdən qışqırışırdılar:

- Demək yoxdur.

Sonra müəllim davam edirdi:

- Biz gördüklərimizə yox, eşitdiklərimizə inanmalıyıq.

Uşaqlar qışqırışırdı:

- Nə təhər, müəllim?

Müəllim:

- O təhər ki, məsələtün, görürsən ki, bir şah adamı bir kəndlini döyür. Amma şah adamı desə ki, mən bu kəndlini çox istədiyimdən sığallayıram... Sən onda nə deməlisən?

Müəllim barmağını qabaqda əyləşən arıq bir uşağa tuşladı.

Uşaq ayağa qalxıb:

- Mən onda deyərəm ki, bu kişi düz deyir...

Müəllim:

- Hansı kişi?

Uşaq:

- Şahın adamı.

- Niyə? Kim deyər, niyə?

Uşaqlardan səs çıxmadı. Müəllim:

- Ona görə ki, şah adamının səhvini çıxartmaq olmaz. Şahın suallarına “yox” cavabı vermək rəsmi şəkildə yasaq edilmişdi. Məsələn, şah “Bu, Məmmədin evidir?” - deyə soruşsa, əgər bu ev Məmmədin deyil, Həsənin evidirsə, “yox, Məmmədin evi deyil” şəklində cavab vermək yasaq edildiyindən gərək belə cavab verəsən:

- Bəli, bu, Həsənin evidir.

Tarix hələ bu ustalıqda mahir şah görməmişdi. O, quruca sözlə hamını aldatmağı bacarırdı. Ac-yalavac təbəələrini zurna-balabansız elə oynadırdı ki, səsi-küyü qonşu xanlıqları da bürüyürdü. Qonşu kəndlərin, şəhərlərin camaatı uzaqdan dayanıb bu dəstgaha tamaşa eləyir, ağızlarının suyu axırdı. Qonşu kənd və şəhərlərin xanları, bəyləri bu şahın toruna nə vaxt düşdüklərindən xəbərləri də olmurdu. Bir də ayılırdılar ki, burunları tilovda, bədənləri çapalamaqdadır. Çapalaya-çapalaya şahın qarşısında boyun büküb ona öz minnətdarlıqlarını bildirirlər:

- Əlahəzrət, Allah sənin kölgəni başımızın üstündən əskik eləməsin. Sən olmasaydın, biz öz dövlətimizə, sərvətimizə sahib dura bilməyəcəkdik, yaxşı ki, siz durdunuz.

* * *

Şah hərdən bir başında vəzir-vəkili zindana gələr, cəsarət edib doğru danışdıqlarına görə dustaq elətdirdiyi adamların müsibətinə baxıb ləzzət çəkərmiş...

Bir dəfə şah yenə zindana səfər eləmişdi. Ən köhnə dustaqları görmək istədi. Zindanban onu gətirdi balaca bir hücrəyə və şahın qulağına pıçıldadı ki, bəs şahım, bu dustaqlar nuh əyyamından qalıb. Şah dedi:

- Onlara da öyrədin təlxəyin mahnısını.

Dərhal təlxəyi çağırıb ona bildirdilər şahın əmrini. Təlxək qoca dustaqlarla 7 gün, 7 gecə məşğul oldu. Elə ki, mahnını öyrəndilər, şahı

çağırdılar zindana. Bir dəri, bir sümük dustaqlar qol götürüb başladılar oynamağa və oxumağa: "Mən xoşbaxtam, mən xoşbaxtam".

Şah uğunub getdi özündən... O, ömründə belə dəstgah görməmişdi. O gün qarnını tutub o qədər gülmüşdü ki, axırda sancılanıb üzü üstə yıxılmışdı. Hər şeydən məhrum, yarımcan dustaqların "mən xoşbaxtam" deyə atdanıb-düşməsi doğrudan gülməli idi.

Şah əl çalır, "a gözünə dönüm, bir də" deyə onları oyuna həvəsləndirirdi. Siz şahı axmaq hesab eləməyin, o çox bic və ağıllı idi. O bilirdi ki, ölkədəki bütün çatışmazlıqların - aclığın, səfalətin, nəhayət, haqsızlıqların üstünü yalnız belə oyunlarla ört-basdır eləmək mümkündür.

- A gözünə dönüm, fırlan! Bax, belə...

Bütün ölkə acqarına, lüt-üryan qol götürüb oynayır, bayram əhval-ruhiyyəsi keçirir, şah da özünün fərasətinə, rəiyyətinin nadanlığına əl çalıb məzələnirdi...

Padşah camaat qabağında nitqlər deməyi çox sevərdi. O öz nitqlərində özünün ədalətli şah olmasından, həmişə xalqı düşünməsindən, ölkədəki ucuzluqdan, güzəranın gündən-günə yaxşılaşmasından bəhs edər, öz yalançı ulu babasından misallar gətirər, fikrini dəlillə yox, sözlə təsdiqləyərdi. O biri ölkələrdəki haqsızlıqlardan, bahalıqdan və bədbəxtliklərdən söhbət açardı. Camaat bu nitqləri böyük həvəslə dinlər və tez-tez şahın nitqlər söyləməsini istərdi. Niyə də istəməsin? Bəs bu nitqlər olmasaydı, camaat öz xoşbaxtlığını, ölkədəki ucuzluğu və ədaləti hardan bilərdi?

Şah nitqlərini deməyində olsun, indi sizə kimdən deyim, şahın arvadından və vəzirin oğlundan. Şahın arvadı elə bil ay parçası idi. Bu gözəllər gözəli vurulmuşdu vəzirin sonbeşiyinə, sonbeşik də ona... Şahın başı öz nitqlərinə məşğul ikən şah arvadı ilə vəzir oğlu baş vururdu eşqin dəryasına...

Vaxtı-müəyyəndə şah arvadı bir oğlan doğdu. Şah sevindi və ölkəyə car çəkdirdi ki, bəs vəliəhd doğulub. Amma uşağı görən kimi şahın matı-qutu qurudu. Arvadı xəlvətləyib soruşdu ki, bəs ay arvad, bu oğlan nədi belə? Sarıya çalır. Arvadı da qayıdıb dedi ki, bəs oğlan sənindi, ürəyinə ayrı şey gəlməsin. Sarılığı da dədənə çəkib.

Şahın ürəyi gup elədi. Yoxsa, arvad da bilir onun bic olduğunu?..

* * *

Bu minvalla illər keçdi. Ay ayı qovdu, il ili. Yalanlar böyüdü, şişdi, köhnə yalanlardan təzə yalanlar doğdu, onlar da böyüdü, köhnəldi, qulaqları dırmaqladı, ləzzəti qaçdı. Bir gün şah carçılarına əmr elədi ki, camaata desinlər, kim şaha ən böyük ağ yalanı desə, onun ənamı çox böyük olacaq. Yəni, ona bir qızıl əsa bağışlayacaq.

Mahir yalançılar yığılıb gəldilər şah qapısına. Meydan qızışdı. Zınqırovlu alabəzək təlxək meydanın ortasında mahnısını oxuya-oxuya atılıb-düşdü.

Ustad yalançılardan biri əvvəl-əvvəl ikiqat oldu və sonra irəli yeriyib söz aldı:

- Qibleyi-aləm, mənim ağ yalanım budur ki, sən dünyanın ən böyük həqiqətpərəstisən.

Şah bu sözə xeyli gülüb etirazını bildirdi:

- Həqiqətən, sənin dediyin böyük yalandır. Burası xoşuma gəlir. Ancaq rəiyyətim hər mətləbi tərsinə deməyə və eşitməyə öyrəşib, indi sənin yalanını tərsinə çevirəndə belə çıxır ki, mən dünyanın ən böyük yalançısıyam. Nə olsun? Bunu kim bilmir ki? Yalan danış, yalan!

O biri yalançı irəli atıldı:

- Qibleyi-aləm, mənim yalanım budur ki, şahın səltənəti təlxəyin mahnısından asılıdır.

Şah əvvəlcə qəhqəhə çəkib güldü. Sonra birdən nə düşündüsə, yalançının üstünə cumdu:

- Necə dedin? Mənim səltənətim təlxəyin mahnısından asılıdır?

- Bəli, qibleyi-aləm.

Şah:

- Səncə bu həqiqətdir, yoxsa, yalan?

- Mən sizin qulluğunuza yalan deməyə gəlmişəm.

- Demək yalandır? Demək mənim səltənətim... Aha, anladım. Üzünü təlxəyə tutub:

- Ey təlxək, bu nə deyir? — dedi.

Təlxək də qayıdıb dedi ki:

- Başdan xarabdı, şahım, fikir vermə.

Şah təlxəyin eyhamını başa düşüb dedi: — Onu salın dəlixanaya.

Beləliklə, yalançıların heç biri şahı razı sala bilmədi. Yalançılar qurtarırdı. Nəhayət, bir kəndli gəlib dedi:

- Qibleyi-aləm, əgər sözlərimdən incisəz, əmr eləyin boynum vurulsun. Belə ki, mənim yalanım çox ağdı...

Şah əmr elədi ki, desin, kəndli dedi:

- Şahım, övrətiniz vəzirin oğluna göz vurub, samanlıqda izi qalıb.

Şah dik atıldı:

- Necə?

- Bəli, şahım, belə-belə işlər.

Padşah fikrə getdi. İndi buna necə etiraz eləsin? Desin ki, mənim arvadım elə iş tutmaz, sən yalan deyirsən... Onda kəndli qazanır. Çünki şaha yalan lazım idi, onu da kəndli dedi. Yox, desin ki, yalan deyə bilmədin, onda belə çıxır ki, şahın arvadı o söz... Şah qaldı içindən qırıla-qırıla. Ona görə əmr etdi ki, qızıl əsanı gətirsinlər.

Amma, sən demə, bu heç şahın ürəyindən deyildi. Əli əsə-əsə əsanı kəndliyə uzadıb dedi:

- Ey mənim ağıllı rəiyyətim, mən sənə qızıl əsa verirəm. Bəs sən öz padşahına nə verə bilərsən?

Kəndli:

- Mən verəcəyimi verdim. Məndən yalan istəmişdin, onu da aldın.

Şah:

- O yalan qulaqlarım üçün idi, bəs gözlərim, bəs əllərim? Onlar da sevinmək istəyir. Sən mənə elə bir hədiyyə ver ki, mənim sənə verəcəyim bu əsa kimi onu gözlərimlə görüm, əllərimlə tutum.

Kəndli:

Onu da eləyərəm, qibleyi-aləm. Amma şərtim var.

Şah:

- Buyur. Kəndli:

- Mən elə bir xalça toxuyaram ki, dünyada onun misli-bərabəri olmaz.

Şah:

- Çox gözəl. İndi de görək, o xalçanın üstünlüyü nədədir? Kəndli:

- Qibleyi-aləm, o xalçanın üstünlüyü orasında olacaq ki, ona sağdan baxan atasını, soldan baxan anasını görəcək. Amma o xalça atasından

xəbərsiz - bic, vələdüzzina adamların gözünə görünə bilməz.
Şah əvvəl diksindi, sonra xoşuna gəldi:
- De görək, bu xalçanı toxumaq üçün sənə nə lazımdır?
Kəndli:
- Əlli min dinar pul və 3 il vaxt.
Şah razılaşdı.

* * *

O gündən sonra şah xalça eşqilə alışıb yanır, hər gün vaxtın başa catmasını gözləyirdi. Bu maraqlı xalçanın onu çox gizli mətləblərdən agah edəcəyinə inanır, saray adamlarını daha yaxşı tanıyacağına ümid bəsləyirdi.

Verilən vaxta hələ 3 ay qalmış şah saray qasidlərini işin gedişindən hali olmaq üçün kəndlinin evinə göndərir. Bundan xəbər tutan kəndli adi bir döşəkağını mancanağın üstündən asıb, mahnı oxuya-oxuya ona "ilgək vurmağa" başlayır. O özünü elə göstərir ki, guya xanadakı xalçanın son naxışlarını vurur. Şahın buyurmuşları içəri girib ağ xanadan başqa heç nə görmür, təəccüblə gözlərini döyür, sual dolu baxışlarla bir-birini seyr edir və susurlar.

Kəndli gözlərini xalçadan ayırıb ayağa qalxır. Gələnlərdən səs çıxmadığını görüb özü xalçanın kəramətini izah eləməyə başlayır.

- Bax, bu qönçələri görürsünüz, bunlar...

Boynu güclə dönən şah adamı irəli gəldi, kəndlinin ağın üstündə gəzdirdiyi barmağına diqqətlə baxıb:

- Nə? Nə... nəyi deyirsən? - deyə kəkələdi, Kəndli onun cəsarətsizliyini hiss edincə:

- Necə yəni nəyi?.. Bu boyda qırmızı qönçələri görmürsən? - deyə onun üstünə qışqırıb ikinci əyana müraciətlə:

- Buna bax, deyəsən, bu hərifin ayıbı açılır, axı... – deyincə, ikinci yuxudan ayılmış kimi, kəndlinin nəyə işarə elədiyini başa düşüb gülümsündü.

Bu gülüşü onun atasından xəbərsiz olduğuna işarə kimi qəbul edən qasid dərhal özünü yığışdırdı:

- Bunu deyirsən? Hə... Belə de... Bu, mənim heç bir xalçada görmədiyim əla bir butadır.

Kəndli:

- Atan oldu rəhmətlik... İndi bu tərəfdəki butalara baxın, bunlar hind butalarıdır. Qasidlər diqqətlə baxır, ağdan başqa heç nə görmür, susur, hər biri ürəyində öz bicliyindən şübhələnir, bir-birinə macal vermədən "qönçələri" və "butaları" tərifləməyə başlayırlar.

- Afərin!

- Əhsən! Əsl butadan seçilmir.

- Hələ sən rənginə bax!

- Qiyamətdir!

- Şaha layiqdir.

Tərif göydən yağır. Qasidlər saraya qayıdıb bir-birinə aman vermədən eyni təmtəraqlı sözlərlə şaha xalçanı tərifləyirlər. Şah sevincindən yerə-göyə sığmır; həftəbaşı kəndlinin evinə adam göndərir, vəziyyətdən xəbər tutur, hər gələn eyni halı keçirir, əvvəlcə özündən qabaq gələnlərin korluğuna təəccüblənir, sonra özündən şübhələnir və qayıdıb şaha xalçanı tərifləyir.

Saraya çaxnaşma düşür, hamı xalçadan danışır, şahın yanında onu tərifləyir, gecə yorğanın altında isə qəhqəhə çəkib gülür, amma həqiqəti hər kəs o birinə deməkdən çəkinir,çünki burda məsələ dədə məsələsi idi...

Vaxt tamama yetdi. Sizə kimdən deyim, kəndlidən. Kəndli bir gün qoltuğunda "xalça", əyanların müşayiəti ilə saraya daxil olur, bir parça ağı şahın taxtı önündə yerə sərir, əllərini göyə qaldırır, bir dua oxuyub, üzünü şaha tutur:

- Budur o möcüzəkar xalça, qibleyi-aləm. Bundan sonra siz atasından xəbərsiz vələdüzzinaları bu xalçanın köməyi ilə tapacaq və bu səltənətə yaxın qoymayacaqsınız, inşallah.

Əyanlar:

- Əlbəttə, nə işi var bic-vələdüzzinaların bu səltənətdə? - deyə ağa yaxınlaşır, onu sığallayır və əyilib öpür. Əyanlar bir-bir butaların üstündən "boylanan" kişiləri nişan verir. Biri deyir: ordan baxan mənim dədəmdir, o biri deyir, yox, mənim dədəmdir. Əyanlar hər biri bic olmadığını, səltənətə sadiq olduğunu bildirmək üçün xalçada dədəsinin şəklini gördüyünü şahın qarşısında nümayiş etdirir və bu çəkişmədə dədələr qarışıq düşür. Padşahın gözü kəlləsinə çıxmışdı. Hamı xalçanı

tərifləyir, hamı "qönçələrin" içindən boylanan dədəsindən, naxışların əlvanlığından danışır, yalnız o - bu taxtı-tacın sahibi tərifi göyə qaldırılan xalçanı görə bilmir... Şah xalçanın kəramətinə lap inanır. Nədən ki, axı, o, özünün bicliyindən xəbərdar idi.

Şah susur. Başını aşağı salıb düşünür. Birdən ayılıb görür ki, hamının diqqəti ona yönəlib. Deyəsən, saray əhli ondan şübhələnib? O, bu şübhəli nəzərləri özündən yayındırmaq üçün dərhal ayağa qalxıb taxtdan düşdü. Yerə sərilmiş ağa diqqətlə baxıb əlini kəndlinin çiyninə qoydu:

- Afərin! Halal olsun!

Kəndli eyhamı dərhal başa düşdü.

Şah xalçanı deyil, kəndlini tərifləyirdi. O, "halal olsun" sözü ilə kəndliyə demək istəyirdi ki, məni ikinci dəfə çox məharətlə doladın barmağına, elə doladın ki, etiraz da edə bilmirəm.

Şahla kəndli xeyli baxışdılar. Kəndli şahın eyhamını düz başa düşüb-düşmədiyini yoxlamaq qəsdilə onu döşəmənin sag tərəfinə çəkib barmağı ilə xalçanı göstərdi:

- Bu tərəfdən baxanda kimi görürsünüz, qibleyi-aləm?

Şah tərəddüd etmədən:

- Rəhmətlik dədəmi.

- Başında nə var?

Şah bu suala qəzəbləndi:

- Məndən niyə soruşursan? Özün görmürsən?

Kəndli:

- Qibleyi-aləm, mən öz dədəmi görürəm, mənim dədəmin başında papaq var. Bə sənin dədənin başında nə var?

Şah artıq dözə bilmədi:

- Axmaq oğlu axmaq, sənin dədən gədə idi, mənim dədəm şah. Şahın başında nə olar? Bir də məni bu röyadan hali elə görüm, bəs indi bu, mənim dədəmin başı sarıdır, saçı, saqqalı hakəza...

Kəndli də astadan pıçıldadı:

- Şahım, mən sizin dədənizi tanımıram ki... Nə bilim, bu sarılıq hardandı?..

Bu eyham şahı lap cin atına mindirdi. İçində bir qəzəb hissi baş qaldırdı. Əlindən yığdığı bu lotu kəndlidən hayıf çıxmaq fikrinə düşdü. Bir

də gördü ki, əyanların da gözündə bir qəzəb işığı parlayır. Şah anladı ki, kəndlini tərifləməsi əyanları təşvişə salıb. Yəqin, onlar qorxur ki, birdən şah onlardan birinin yerinə kəndlini gətirə bilər. Şah bir xeyli fikirləşib üzünü tutdu kəndliyə:

- Sən ki, belə ağıllı adamsan, sənə bir sualım var, ona cavab verə bilsən, səni saraya böyük bir vəzifəyə gətirəcəyəm.

Əyanların üstünə su ələndi.

- Buyur, əlahəzrət!

- De görək, bu məclisdəkilərin hamısı indi nə düşünür? Kəndli də əyanların gözündəki qəzəbi oxumusdu. Amma bunu deyə bilməzdi. Çünki hamısı qarıldaşıb deyərdi ki, bizə böhtan atırsan!

Kəndli dedi:

- Hamının nə fikirləşdiyini ayrı-ayrı deyim, yoxsa, birdən?

- Hamı haqda birdən de!

- Hamının bircə fikri var: şahımızın ömrü uzun olsun... Əgər inanmırsınızsa, hamıdan soruşun. Görün, düzmü dedim?

Əyanlar qışqırışdı:

- Düzdür, düzdür, hamımız indi onu fikirləşirdik.

Şah gördü ki, kəndli onu burda da üstələdi.

Bu zaman şahın qulağına alabəzək, zınqırovlu təlxəyin səsi gəldi. Oxuyurdu özüyçün: "Ay camaat, xoşbaxtam... Ay camaat, xoşbaxtam..." Şah da istər-istəməz dodağının altında mızıldadı: "Yalançının dədəsinə lənət... Köpək oğlunda yalana bax, ey...".

Hə, göydən üç alma düşdü. Biri Əndəhar camaatının, biri kəndlinin, o biri də nağıla qulaq asanların.

# BAŞQASI ÜÇÜN YAŞAYANDA

On il idi ki, evlənmişdim. Ömür yoldaşımdan çox razı idim. Bir-birimizi yaxşı başa düşür, yeri gələndə bir-birimizə güzəştə getməyi də bacarırdıq. Heç bir şeydən kəsirimiz yox idi... Amma.. Bax elə bütün məsələ də bu "ammanın başında idi... Yaxşı deyirlər ki, iki xoşbəxtlik bir yerdə mümkün deyil. Övladımız olmurdu, heç demə, ailə üçün övlad əsas məsələ imiş... Əslində, bunu mən o qədər də böyük dərd hesab eləmirdim... Amma anam... Hər gün bu barədə söhbət salır, qanımızı qaraldırdı. Yoldaşımı aparmadığı həkim qalmamışdı... Əlac olmurdu ki, olmurdu...

Mən maşın xəstəsi idim. İşdən sonra maşınımı yuyub təmizləyir, çox zaman tək, bəzən də dostlarımla şəhəri 3-4 dəfə dolanırdım. Maşınımın aynalarını "göz vuran qızların şəkilləri və müxtəlif emblemlərlə bəzəmişdim. Gözəl bir yapon maqnitofonum da var idi. Arxa aynanın qabağına hər bucaqdan bir kalonka qoymuş, çaldırdığım xarici caz havalarına oradan qulaq asırdım. Bir sözlə, maşını gəlin otağı kimi bəzəmişdim. İki göz istəyirdi ki, baxsın, ləzzət alsın. Bu, bir növ mənim üçün əyləncə idi. Sükan arxasına keçəndə elə bil dünya mənə verilirdi. Uçurdum... Mənə elə gəlirdi ki, haradasa uzaqlarda gizlənən arzuma, xəyalıma doğru uçur, ona çatmağa tələsirəm... Mən sürət dəlisi idim... Əslində mənzil başına tez çat-maq, arzuya tez qovuşmaq, onun üçün tələsmək insanın təbiətin-dədir. Mən yeni çıxan maşın-ların əvvəlcə spidometrinə baxardım. Avtomaşınlardakı ən böyük sürət - saatda 160 məni qane etməz, ürəyimdə maşın ixtiraçılarını danlardım.

Maşına olan hərisliyim hamıdan çox yoldaşımı acıqlandırardı. Belə vaxtlarda anam:

- Neyləsin, yazıq uşaq özünü nə ilə aldatsın, - deyə yaralı simə toxunardı.

Uzaq şəhərlərə maşınla getməyi çox sevirdim. Evdə darıxmasın deyə bəzən arvadımı da özümlə aparırdım. Hansı şəhərə gedirdiksə, o özünü həkimə göstərərdi. Qınamırdım. Yazıq arvad körpə uşaq görəndə özünü itirər, onun arxasınca matdım-matdım baxardı. Uşağı qucağına götürmək, onu oxşamaq istərdi. Lakin anasından çəkinər, özünü güclə saxlardı. Sonsuz qadınlar haqqında dillərdə dolaşan rəvayətlərdən çəkinərdi: “Sonsuz qadınların gözü dəyməli olur.

Yaxın tanışlarımızdan birinin yaraşıqlı bir qızı vardı. Yoldaşım bu uşaqdan ötrü dəli-divanə idi. Hər dəfə onlara gedəndə uşağa hədiyyə aparardıq.

Bir istirahət günü yoldaşımla onlara getmişdik. Uşaq bizi görən kimi yoldaşımın boynuna atıldı. Hədiyyələri alıb yanımızda əyləşdi. Bu zaman o biri otaqdan nənə qapını aralayıb işarə ilə uşağı yanına çağırdı. Uşaq nənənin nə demək istədiyini başa düşsə də, bizdən əl çəkmirdi. Bu zaman nənə gəlib uşağı zorla o biri otağa apardı. Bir qədər keçmiş qayıtdı. Uşağın yaxasından gözmuncuğu asılmışdı. Nə qədər oturduğumuzu bilmirəm, yoldaşım bir kəlmə də danışmadı. Göy kimi tutulmuşdu. Gənc ər-arvad da nənənin bu hərəkətinin peşimançılığını çəkib, nə qədər canfəşanlıq göstərdilərsə də, məclisi isidə bilmədilər. Qalxıb getdik. Bu bizim onlara son gedişimiz oldu.

Yoldaşımın bir dəftərçəsi vardı. Bütün tanış-bilişin uşaqlarının ad günləri həmin dəftərçəyə yazılmışdı. Bir tanış,ya qohum uşağının ad gününə 2-3 gün qalmış o məni xəbərdar edərdi:

- Ayın filanında filankəsin ad günüdür...

Getməyə bilməzdik... Getməsəydik, ürəklərinə ayrı şey gələrdi. Gedəndə də... həm biz sıxılırdıq, həm də məclisdəkilər.

Yazıq tamada biz olan yerdə övlad haqqında istədiyi kimi danışa bilməz, sağlığı qısaldardı. Bəzən belə olurdu ki, bizi tanımayan, bizim övladsız olduğumuzu bilməyən bir nəfər övladı ailə səadətinin əsası sayar və nitqini belə qurtarardı:

- Övlad nəslin davamı, bizim gələcəyimizdir... İçək burda əyləşənlərin hamısının övladlarının sağlığına!

O zaman mən istər-istəməz düşünərdim: “Övladım yoxdur, demək mənim gələcəyim yoxdur. Bu zaman oğrun nəzərlə yoldaşımı süzər, onun qəlbindən qara qanlar axdığını hiss edərdim. Belə məclislərin

birindən qayıdandan sonra o, bir dəfə məni bərk dilə tutdu ki, gəl, qardaşımın qızını övladlığa götürək. Mən bu təklifi gözləyirdim... Amma nədənsə qəlbimcə deyildi. Mənə elə gəlirdi ki, havaxtsa bizim övladımız olmalıdır... Nə isə... ürəyim rahat idi...

Bir dəfə də o mənə qəribə bir əhvalat danışdı... Guya, onun ulu babasının da övladı olmurmuş. Nənəsi onu dilə tutmuş, ərini öz əli ilə evləndiribmiş.

Əlbəttə, o, bu söhbətlə məni sınamaq istəyirdi. Əslində bu çox mənasız sınaq idi. Ona görə ki, o özü də çox bilirdi ki, mən onu yüz övlada dəyişməzdim... Mən heç bu barədə düşünmürdüm də... Məni bu barədə düşünməyə yalnız o, onun iztirabları məcbur edirdi.

Bir dəfə mən işdən qayıdarkən yoldaşımın "Uşaq aləmi mağazasının vitrini qarşısında dayanıb yaraşıqlı uşaq ayaqqabılarına və uşaq əyləncələrinə baxdığını gördüm. Uzaqdan onu seyr edirdim. O, xeyli tamaşadan sonra içəri girdi. Növbəyə durdu və bir dəst uşaq ayaqqabısı alıb sum-kasına qoy-du. O, bu ayaqqabıları neyləyirdi, görəsən? Mən ona yanaşmadım. Evə gəldim. Bir qədərdən sonra o da gəldi. Bu barədə o, bir söz demədi. Mən-də soruş-madım. Gözucu ona baxırdım. Ayaqqabıları sumkasından çıxarıb cehiz gətirdiyi sandığın içərisində gizlətdi. Bir gün o evdə olmadığı vaxt sandığı açdım. Burada nə qədər uşaq paltarları, ayaqqabıları və oyuncaqları var idi. Dəhşət məni götürdü.

Bu əhvalatdan bir neçə gün sonra istirahat günü dostlarımla uzaq bir rayona gedirdik. Adətim üzrə yenə də quş kimi uçurdum. Dostlarım bir-birilə zarafat edir, lətifələr danışır, qəh-qəhə çəkib gülürdü. Birdən yanımda əyləşən dostum:

- Ay bala, bir az yavaş sür, evdə bizim arvad-uşağımız var, - deyə böyrümü dümsüklədi.

Onun bu sözü üzümə şillə kimi dəydi. Bu sözü deyən mənim ən yaxın dostum idi. Xətrimi çox istəyirdi. Onun bu sözü qəsdən demədiyini başa düşürdüm, lakin söz məni bərk tutmuşdu. Dinmədim. Acığımı nə ilə soyudacağımı bilmirdim. Sürəti bir az da artırdım.

Bu vaxt arxada əyləşən mühəndis dostum:

- Yoldaş, biz təyyarədə uçmuruq, nə olub, bir az asta sürsənə, - deyə birincinin sözünə qüvvət verdi. Sonra: - Bilmirəm, hardasa oxumu-

şam ki, Amerikada maşını satmamışdan əvvəl alıcıdan ailəsinin şəklini istəyirlər, - deyə əlavə etdi.

- O nə üçün? - deyə yanımda əyləşən dostum mühəndisin üzünə baxdı. Mühəndis:

- Həmin şəkli spidometrin arxasına qoyub, sonra satırlar. Sürət yüzdən keçəndə uşaqların şəkli aynada əks olunur. Sürücü şəkli görüncə uşaqları yadına düşür və sürəti azaldır.

Burada dözə bilmədim. Dərhal maşını saxlayıb, mühəndis dostuma döndüm:

- Mənim uşaqlarım olmadığına görə bərk sürürəm. Amma sənin uşaqların var. Buyur,gəl sən sür, - deyib maşından düşdüm.

Dostlarımın üstünə elə bil su ələndi. Axı, o,bu sözü qəsdən, mənə toxunmaq üçün deməmişdi. O, dərhal səhvini anladı və dönə-dönə məndən üzr istədi. Lakin olan olmuş - ox yaydan çıxmış, düz ürəyimə dəymişdi.

Təzədən yola düzəldik. Ancaq nə yolda, nə də rayonda olduğumuz iki gün ərzində pərtliyimiz keçmədi...

Bu əhvalatdan sonra dostlarım mənim yanımda heç vaxt uşaqdan söhbət salmaz, öz övladlarının da adını çəkməzdilər. Mən bunu hiss edər və buna görə də daha çox əzab çəkərdim.

Zaman keçdi, tale üzümüzə güldü. Günlərin bir günündə bizim ailəmizə də səadət bəxş eləyən Sevincimiz dünyaya gəldi. Bizdən artıq dostlarımız sevinirdi. Evimizə gözaydınlığına gələnlərin ardıarası kəsilmirdi. Sevincin dünyaya gəlməsi ilə dostlarımız da əzabdan, ehtiyatlı söhbətlərdən xilas olmuşdu. Həmin il yoldaşım Sevincimizlə bərabər uzaq kəndlərin birinə istirahətə getdi. Mən Bakıda qalmışdım.

Bir gün yoldaşımdan teleqram aldım. “Uşaq xəstədir, durma gəl”.

Bir anın içində dünya mənim üçün zindana döndü. Teleqrafçı qapının ağzında donub qalmışdı. Nə edəcəyimi bilmirdim. Teleqrafçını yola salıb maşının açarını götürdüyümü bildim. Bir zaman ayıldım ki, yoldayam.

Maşının təkərləri yerə dəymirdi, uçurdu. Saatda neçə ilə getdiyimi də bilmirdim. Spidometrə baxmağa da macalım yox idi. Əlim sükanda, gözüm yolda, fikrim isə kənddə, Sevincimin yanında idi. Kəndə nə zaman çatdığımdan xəbərim olmadı. Yoldaşım məni görüb təəccübləndi.

- Ay balam, bu boyda yolu nə tez gəldin?
- Uşaq necədir?
- Qorxma, heç nə yoxdur. İçəri girdim. Uşaq yatırdı.
- Həkimlər elə qabağınca getdi. Qorxulu bir şey yoxdur, - dəyə bacım mənə təskinlik verdi. -Deyirlər skarlatinadır.

“Skarlatin sözü başımda şimşək kimi çaxdı.

- Bu saat Bakıya çatdırmaq lazımdır, - deyə uşağı qucağıma götürdüm. Yoldaşım:
- Dayan, hara?
- Başqa yolumuz yoxdur, min maşına.

Yoldaşım qucağımdan uşağı alıb dinməz-söyləməz maşına tərəf getdi. Hava qaralırdı. Bacımgil nə qədər israr etdilərsə də, “yolçu yolda gərək - deyib maşına əyləşdim. Yeznəm mənə yaxınlaşıb:

- Kişi,belə olmaz... Gecəyə düşəcəksən, xəstə uşaqla bu vaxt hara gedirsən, özün də yorğun? Axşamın xeyrindən gündüzün şəri yaxşıdır. Qal, səhər gedərsən, - deyə qolumdan tutdu.

Dedim: yox ki, yox!

Tərpəndim. Bir azdan hava qaraldı. Ömrüm boyu maşını quş kimi uçuran mən indisə sürəti saatda 50-60-dan yuxarı qaldırmırdım. Qarşıdan gələn maşınların işığı ömrümdə birinci dəfə idi ki, məni qorxudurdu. Əllərim əsir, ürəyim titrəyirdi. Maşını elə sürürdüm ki, uşağın ruhu da inciməsin. Yolun çala-çuxur yerlərindən kənara çıxır,yolun yaxşısını seçməyə çalışırdım. Maşın bir balaca çuxura düşən kimi dönüb geriyə baxırdım:

- Uşaq ayılmadı ki?
- Yox, işində ol!

Getdikcə sürəti azaldırdım. Sürəti 50-dən yuxarı qaldıra bilmirdim. Bu, yoldaşımı əsəbiləşdirdi:

- Nə olub, niyə sürmürsən?
- Qorxuram.
- Nədən.
- Uşaq var, axı.
- Bəs niyə öz canın üçün qorxmurdun? Sənə “asta sür deməkdən dilim qabar bağlamışdı.
- Mən heç.

- Onu da dünyaya gətirən sən deyilsən?

Doğrudan, bu necə olan işdir? Niyə mən maşını quş kimi uçuranda təhlükə hiss etmir, qəzaya düşə biləcəyimdən ehtiyat etmirdim? Məgər mənim öz canım mənə övladımın canından az qiymətlidir? Görünür belə imiş... Görünür, maşının spidometrinə övladlarının şəklini qoyanlar doğru iş görürlər. Axı, indi mən özüm üçün yox, övladım üçün yaşayıram.

İnsan başqası üçün yaşamayanda insan olmurmuş sən demə. İnsanın insanlığı elə bunda imiş.

*Avqust 1974*

# KÖNÜL SEVƏN GÖYÇƏK OLAR

Rəfiqəm Firəngizi mən gerçəkdən çox istəyirdim. Nəinki mən, ailəmiz-də anamdan tutmuş balaca qardaşıma qədər hamı onun xatirini əziz tuturdu. Əslin-də bu sevgini o özü qazanmışdı. Firəngiz uşaqla uşaq, böyüklə böyük idi. O qədər şən, o qədər zarafatcıl idi ki, bizə hər gələndə evimizdə toy-bayram olurdu. Hərəni bir dillə danış-dırır, hamının zəif tərəfini bilir və çox incə zarafatla hamıya sataşır-dı. Onun zarafatlarından heç kəs inciməz, əksinə, hamı ondan bir atmaca, bir eyham gözlərdi.

Universiteti 3 il idi ki, qurtarmışdıq. Hərəmizin bir idarədə işləməyimizə baxmayaraq, yenə də tez-tez görüşür, dərdimizi bölüşürdük. Firəngiz bizim sinifdə oxuyan Qaratay adlı bir oğlanla hələ tələbə ikən görüşürdü. Qaratay zahirən çox yaraşıqlı olsa da mənim ondan heç xoşum gəlməzdi. Fakültədə hamı onu ədəbaz, xudbin, özündən razı bir adam kimi tanıyır, heç kəs onunla ünsiyyət bağlamazdı. Amma neyləmək olardı, oğlan Firəngizin ürəyinə hakim kəsilmişdi. Mən Qaratayı rəfiqəmdən çox yaxşı tanıyır, onun bütün çatışmazlıqlarını bilir, lakin Firəngizin yanında bu barədə danışmır, susurdum. Ona görə ki, el demişkən, “könül sevən göyçək olar. Mən Qa-ratayın Firəngizin başına gətirdiyi oyunlardan da xəbərdar idim. Axır vaxtlar yazıq qız dözə bilmir, onun yaramaz əməllərindən danışır, hey gileylənirdi. Mən yenə də susurdum. Neyləyə bilərdim? Bu gün küsür, sabah yenə də barışırdı. Bunu bilə-bilə mən ona nə deyə bilərdim?

Mən belə təhqirlərə dözə bilməzdim. Lakin bu, mən idim. O isə... Qaratayın təhqirlərini udur, ondan ayrıla bilmirdi. O, hər dəfə baş verən hadisəni olduğu kimi mənə danışır, sonra hönkürüb ağlayır, məndən bir məsləhət gözləyirdi. Mən isə təsəlli verməklə kifayətlənir, ona bir yol

göstərib, bir məsləhət verə bilmirdim.

Firəngiz gedəndən sonra əhvalatı anama danışardım. Anam təəssüflə başını yellədər, qızın düşdüyü bu vəziyyətə acımaqla kifayətlənərdi. Bir gün anamdan xəbər aldım:

- Bəlkə biz ona kömək eləyək? Anam:

- Neyləyə bilərik? - deyə xəbər aldı.

- Deyirəm, bəlkə bir yol göstərək, bəlkə... Açıqca deyək, ondan əl çəksin? Anam üzünü turşudub, dəhşətlə qışqırdı:

- Nəbadə!!.. Nəbadə belə iş tutasan, - dedi, - unutma ki, ətlə dırnaq arasına girən iylənib çıxar. Onun pis adam olduğunu söhbətlərinizdən başa düşmüşəm. Amma qızım, könül sevən göyçək olar. Sən bu işə qarışma.

Anam haqlı idi. Bir də mən Firəngizi yaxşı tanıyırdım, bilirdim ki, onun Qarataydan ayrılan halı yoxdur. Qaratayın bəzi qüsurları belə Firəngizin gözünə xoş görünür. Oğlan onun ürəyinə elə girib ki, Firəngiz onun çəkib yerə atdığı papiros kötüklərini də yığıb təbərrük kimi saxlayır. Mən onun bu hərəkətinə həmişə gülür və təəccüblənirdim. Buna görə də o danışır, mən isə elə susur, susurdum...

Bir il də bu minvalla keçdi... Yenə də dalaşır, ertəsi barışırdılar...

Bir gün balaca qardaşımın ad günü idi. Firəngiz də əziz qonağımız kimi, yenə başda əyləşmişdi,deyirdik, gülürdük... Tamadamız Firəngiz idi. Kimin sağlığına içirdisə, adının yanına gülməli bir ayama qoşur, zarafat edir, sözünü lətifə ilə bitirirdi. Onun hər sağlığı gurultulu bir qəhqəhə ilə qurtarırdı. Məclisin şirin yerində qapının zəngi çalındı. Anam qapıya getdi. Bir qədər sonra Qaratayla qayıtdı... Firəngiz əlindəki badəni yerə qoyub, səsini xırp kəsdi. Rəngi ağarmış Qaratay məclisə ötəri bir nəzər salıb üzünü Firəngizə tutdu:

- Yoxsa, tamadalıq eləyirsən? Əhsən!.. Atam qalxıb öz yerini Qarataya təklif etdi:

- Buyurun, əyləşin. Firəngiz bizim ev uşağımızdır... O, bizim balamızdır... Siz də həmçinin. Qaratay atama acıqlı bir nəzər salıb:

- Mən belə məclisdə əyləşmərəm, - deyib getdi... Məclisə elə bil su ələndi... Hamı yerində donub qalmışdı. Firəngiz paltosunu belə geyməyə macal tapmayıb, onun arxasınca götürüldü...

Bu əhvalatdan bir həftə sonra Firəngiz bizə gəldi. Atamdan, anam-

dan üzr istəyib məni otağıma çəkdi. Ba-şını sinəmə qısıb hönkürtüylə ağladı... Məlum oldu ki, bu bir həftədə nə qədər yalvarmışsa da

Qaratay barışmamış, daha onunla qurtardığını bildirmişdi. Sonra əlavə etdi ki, o da artıq bezmiş, səbr kasası dolmuşdur. Bu işə daha son qoyulsa yaxşıdır. Mən buna sevindim və ona haqq qazandırdım. Ürəyimdə çoxdan qövr eləyən sözümü ona bildirdim:

-Sən bunu çoxdan başa düşməli və o alçaqla çoxdan qurtarmalıydın.

Firəngiz yenidən ağlamağa başladı. Göz yaşını silmək üçün sumkasını açdı, yaylığını çıxaranda bir dənə papiros kötüyü dığırlanıb yerə düşdü. Məni dəhşət götürdü. Bütün bu əhvalatlardan sonra qız yenə də onu sevirmiş.

Firəngiz əyilib kötüyü yerdən götürdü, sumkasına qoyub qalxdı ayağa:

- O mənə nə eləsə də bunun heç kəsə dəxli yoxdur. Sən nə haqla ona alçaq deyirsən? - deyə qapını çırpıb getdi.

Yerimdəcə donub qaldım... Ax, sevgi!.. Sənin nə anlaşılmaz, nə qəribə, nə sirli halların varmış!..

*Oktyabr, 1974*

# KÖLGƏDƏ

Təzə mənzilə köçmüşdüm. Sevincimin həddi-hüdudu yox idi. Hələ bağlamaları açmamış fərəh dolu baxışlarla otaqları nəzərdən keçirib eyvana çıx-dım. Sinədolusu nəfəs alıb ətrafa boylandım. Yanaşı eyvanda yaşlı bir kişi gördüm. O, da mənim kimi bu gün təzə mənzilə köçənlərdən idi. Məni görən kimi:

- Mənziliniz mübarək, qonşu, - deyib irişdi. Mən də onu təbrik elədim.

Kişi:

- Üstü yoxdur, əla tikiblər... Amma bir nöqsanı var, - deyə bizim eyvanla onun eyvanı arasında dama doğru dikələn nəhəng boruya işarə elədi.

- Əlini vur gör, nə görərsən. Əlimi boruya toxundurdum, isti idi.

- Qazanxananın tüstüsü burdan çıxır.

- Elədir, - dedim.

Amma bu istilikdəki nöqsanı başa düşə bilmədim. Onun nə demək istədiyini dərk etmədiyimi baxışlarımdan oxudu, keçdi izahata:

- Qanun deyir ki, soba boruları eyvanlardan azı 30 santimetr uzaq olmalıdır. İndi ölç, gör bu boru sənin eyvanından nə qədər aralıdır.

Gözəyarı ölçdüm. Elə 30 santimetr olardı. Kişi razılaşmadı. Dedi 25 santimetr ola, ya olmaya... Əlavə elədi ki, yanğın çox dəhşətli şeydir, mən görmüşəm, Allah heç kəsə göstərməsin. Gərək bu əhvalatı biz mütləq yanğınsöndürən idarəyə xəbər eliyək, borunu ordan götürsünlər. Yox, əgər götürməsələr, onda bizim mənzillərin bir qəpiklik dəyəri yoxdur.

Bu gün qanadım yox idi ki, uçam, mərdimazar oğlu ovqatıma soğan doğradı. Amma diqqətlə baxıb xeyli fikirləşəndən sonra gördüm boş

sözdür. Borunun yanğına heç dəxli yoxdur. Ancaq üstünü vurmadım. Kişi mənim bu yanğın söhbətinə o qədər də əhəmiyyət vermədiyimi hiss elədi. Dedi, bu gündən olduq gor qonşusu, mən ölüm, bizə gəl. Həm əməlli-başlı tanış olaq. Həm də səni başa salım ki, boru burdan götürülməlidir.

Nə qədər boyun qaçırdımsa da mümkün olmadı. Kişi qırsaqqız olub yapışdı ətəyimdən. Naəlac qalıb keçdim onlara.

Təzəcə daşınmış xalça-palaz, yorğan-döşək, qab-qacaq otaqlara səpələnmişdi. Külfət təzəcə köç-düyü mənzilinin çəmini tapmamış,yan-yörəsinə bələd olub rahatlanmamış evə qonaq gəlmək dürüst deyil-di. Ev əhlindən üzrxahlıq eləmək istəyirdim ki, kişi başladı:

- Ay sağ olmuş, gərək axı, qapıbir qonşunu tanıyasan. Nədən ki, bu gündən biz olduq birevli, özü də yaman xoşuma gəldin, - deyib, məni böyürdəki balaca otağa keçirdi. Hələ açılmamış bağlamalardan birini altıma çəkib "otur dedi.

- Mən Dadaş Qədimovam! - deyib dik-dik üzümə baxdı.

"Dadaş Qədimov? - ürəyimdə bu ad-famili bir neçə dəfə vərəvürd eləyib kişini altdan-yuxarı bir də diqqətlə süzdüm. Tanıya bilmədim. Yalnız indi çənəsinin altından sinəsinə doğru uzanan yanıq yerini gördüm. O da mənə, deyəsən, elə bu yanıq yerini göstərirdi... Ancaq kişinin nə ad-famili, nə sifəti, nə də boğazındakı nişanə mənə bir söz demirdi. Ürəyimdə yaddaşımın kütlüyünə lənət oxuyub dedim:

- Çox gözəl.

Kişi bir də təkrar elədi:

- Dadaş Qədimov!

Mənim onu tanıya bilməməyim, deyəsən, kişinin xətrinə dəydi. Gülə-gülə dedi:

- Hə, əmioğlu, acığına gəlməsin, deyəsən, qəzet-zad oxumursan?

Əmək qəhrəmanlarının, müharibə veteranlarının, məşhur alim və yazıçıların adlarını ürəyimdə sadalamağa başladım. Eşitdiyim, bildiyim məşhur adlar içərisində "Dadaş adı yox idi. Ancaq kişini sındırmamaq üçün günahı yaddaşımın boynuna yüklədim:

- Gözümə tanış gəlirsiniz, amma yaddaşım məni xəcalətli eləyir. Kişi balaca bir çamadanın üstündə əyləşib bir papiros yandırdı:

- Gözünə tanış gəlirəm? Əlbəttə, yəqin, şək-limi qəzetdə görmüsən. Dedim:

- Ola bilər.

Papirosuna dərin bir qullab vurub dedi:

- Qonşu, mən o Dadaş Qədimovam ki, Xəzərdəki "Hünər gəmisini yanğından xilas eləmişdim. Hə, yadına düşdü?

Bu sözlə Dadaş əmi yaddaşıma çıraq tutdu. Alatoran yadıma düşdü. Çoxdan, lap çoxdan qəzetdə belə bir əhvalat oxumuşdum. Kişi əhvalatı danışmağa başlayırdı ki, yan otaqdan doqquz-on yaşlarında bir oğlan uşağı gəldi. O, əlindəki topu bir kənara atıb kişinin yanında əyləşdi.

- Nəvəmdir. - Dadaş əmi uşağa tərəf döndü:

- Balası, əmi ilə vacib söhbətim var. Sən get nənənin yanına. Sonra gəlib sənə gecəyə kimi nağıl danışacağam.

- Mən div nağılını istəmirəm.

- Yaxşı, ayrı nağıl danışaram.

- Elə bu nağılı istəyirəm.

- Hansını?

- İndi danışdığını.

- Bu nağıl deyil, bala, olan əhvalatdır.

- Mən də elə onu istəyirəm.

Dadaş kişi nə qədər dilə tutdusa, uşaq iki ayağını bir başmağa dirəyib getmədi ki, getmədi. Naəlac qalıb Dadaş əmi söhbətini davam elətdirdi. Məlum oldu ki, iyirmi səkkiz il bundan əvvəl Krasnovodskiyə neft daşıyan gəmi gecə vaxtı qazanxananın borusundan od alıbmış, o zaman kapitan köməkçisi işləyən iyirmi üç yaşlı Dadaş əmi gəmini yanğından xilas edibmiş.

Söhbət boyu uşaq tez-tez babasının sözünü kəsir, "filan şeyi niyə demədin? deyə əhvalatın o yerini bir də danışmağı tələb edirdi. Məlum oldu ki, kişi bu əhvalatı o qədər danışıb ki, evdəkilərin hamısı o yanğın əhvalatının hər nöqtəsini əzbərdən bilir.

- Gecənin yarısı... Matroslar hamısı yatır. Bir də baxdım ki, alov qazanxananı bürüyür. Dedim, əlhökmülla, əgər od bu tərəfə keçsə, daha

bunun əlacı Allaha qalır. Dərhal əl atdım şlanqa.

Uşaq ayaqlarını yerə vurub qışqırdı:

- Şlanqa yox, baba, şlanqa sonra. Əvvəl fitə qaçdın.

- Ədə, qoy görək.

- Nəyi qoyum ey... Özün düz danışmırsan. Əvvəl fiti ver, matroslar ayılsın, sonra şlanqdan yapış. Kişi özünü saxlaya bilmədi:

- Ədə, orda mən olmuşam, yoxsa sən?

- Axı, o gün danışanda əvvəl fitə qaçmışdın.

- A bala, əl çək. Qoy söhbətimizi eliyək! - deyə uşağın qolundan tutub yan otağa itələdi. Uşaq incik halda getdi. Dadaş əmi yanğınsöndürmə əməliyyatını tamamlayıb çənəsinin altından sinəsinə doğru uzanan yanıq yerini göstərdi:

- Bax, bu da o əhvalatın nişanəsidir.

Əlavə etdi ki, o vaxt bütün qəzetlər bu əhvalatı yazmış, Onu "Yanğınsöndürmədə igidliyə görə döş nişanı ilə təltif etmişdilər.

Söhbətini tamamlayıb qürurla üzümə baxdı. Bu baxışla elə bil deyirdi: "Hə, necə görürsən ləläşini? Mən kişinin qəhrəmanlığını təqdir edib bu əhvalatın böyük dastanlara layiq olduğunu dedim. Bu yerdə elə bil kişinin yarasına toxundum: Dadaş əmi dedi:

- Yazmırlar, kişi... İndi söhbətimin canı ondadır ki, yanğın çox pis şeydir. Gərək biz bu borunu buradan götürdək.

Razılaşdım. Amma mənə də, özünə də gün kimi aydın idi ki, söhbətin canı borunu götürtmək deyil, özünü mənə nişan vermək idi. Buna görə də Dadaş əminin təzə mənzilindən çıxan kimi boru əhvalatını bilmərrə unutdum.

İndi düz on beş ildi ki, Dadaş əmi ilə mehriban qonşuluq eləyirik, tez-tez görüşür, bir-birimizin xeyir-şərində oluruq. Bu boru əhvalatına bir dəfə də olsun nə o qayıdıb, nə də mən. Amma o gündən sonra kişi mənim boynuma bir ağır yük qoyub. Hansı məclisdə, harda oluruqsa olaq, mən onu qohum-əqrabama, tanış-bilişimə təqdim edəndə, yaxud onun sağlığına badə qaldıranda gərək gəmidəki yanğın əhvalatını başdan-ayağa danışam. Axırda da deyəm ki, "bu həmin qəhrəmandır ki, vaxtilə adı qəzetlərdən düşmürdü.

Əvvəllər mən kişinin bu niyyətini başa düşməyib, sadəcə: "Tanış

olun, qonşumdur - deyə, əlavə edərdim ki, “qonşuluqda tayı yoxdur. Sonralar başa düşdüm ki, onun “qonşum sözündən o qədər də xoşu gəlmir. “Dostum dedim, gördüm bu da onu açmır. Bunlardan sonra mənim kütlüyümü bilən Dadaş kişi məclis başlanar-başlanmaz söhbəti hərləyib müharibənin, fədakarlığın üstünə gətirir, yanğın məsələsinə işarə vurardı. Sözünü belə qurtarardı: “Müharibə, elə bir növ od-alov deməkdir. Allah bizi bu afətdan saxlasın. Elə bu zaman mən öz fitimi başa düşərdim.

Bu əhvalat, əlbəttə, cavanların yaşından çox-çox əvvəl idi. Mənim kimi yaşlıların da yadından çoxdan çıxmışdı. Buna görə də öz zəmanəsinin “qəhrəmanını bu gün heç kəs tanımazdı. Bunu bilən qonşum ilk tanışlığımızda mənə verdiyi sualı məclisə də verərdi:

- Qəzet-zad oxumursunuz, deyəsən?

Ancaq bu sualı heç onun özünə verən yox idi. Nədən ki, Dadaş əmi gündəlik qəzetləri oxusaydı, görərdi ki, hər günün, hər zamanın öz qəhrəmanı olur. Amma neyləyəsən, qoca kişidir, xətrinə dəyə bilmirdim.

Adət üzrə, yenə də mən qonşumun köhnə qəhrəmanlığını nağıl etməyə başlardım. Söhbət tamamlanan kimi o, ətrafa göz gəzdirər, bu əhvalatın camaata nə cür təsir buraxdığını yox-lamaq istərdi. Göstərdiyi qəhrəmanlığın təəccüb və heyrət doğurmadığını hiss edəndə o özü bu laqeydliyə təəccüblənər və dərhal müasir gənclikdən şikayətə başlardı:

- Vallah, biz belə olmamışıq. Biz xalq malını göz bəbəyimiz kimi qorumuş, canımızı oda atmışıq.

“Od, “alov sözünü qonşumun dilindən eşidən kimi mən də başlardım əzbərlədiyim nağılı danışmağa. Bəzən qəsdən əhvalatın çox da mühüm olmayan bir yerini ixtisar edərdim. Nəvələri orada olardısa onlardan biri, ya da özü dərhal söhbətə qarışar, əhvalatın o yerini aramla danışardı.

Dünən Dadaş əminin nəvəsinin toyu idi. Bilirsiniz hansı nəvəsinin? Təzə mənzilə köçdüyümüz gün Dadaş əmigildə tanış olduğum o dəcəl nəvəsini deyirəm.

Bəyin, gəlinin, ata və analarının şərəfinə sağlıqlar deyildi. Baba növbəsinin çatdığını bilən kimi mülayim baxışlarla gözünü üzümə

zillədi. İşarəni anladım. Masabəyidən söz istəyib qalxdım ayağa və başladım həmin əhvalatı on min yeddi yüz qırxıncı dəfə təkrar eləməyə. Şlanq məsələsinə çatmışdım ki, mənimlə üzbəüz əyləşən "bəy astadan:

- Fiti buraxdın! - deyə üzümə baxıb gülümsündü. Elə bil bu gülüşlə demək istəyirdi: "Yazıq babam, nəvəsi yaşında bir cavanın kölgəsində nə qədər yaşayacaq?.

# ƏQİDƏ

*Bir dəfə mən yaxşı bir kişinin hüzr yerinə getdim. Getməmək olmazdı. O, od parçası idi. Şimşək kimi çaxdı və tez də söndü. Nekroloqda iki kəlmə ona nə qədər yaraşırdı: elm fədaisi... O, elm aləmində yüz illərdən bəri qəbul edilmiş ehkamları vurub dağıdır, tamam təzə yolla gedirdi. Heç kəsin getmədiyi yolla... İstirahət nədir, kurort nədir, bilməzdi... yaradardı. Hər yeni ixtirası bir hadisəyə çevrilərdi. O xəstələnmədi, birdən-birə söndü... İkinci, üçüncü dəfə infarkt keçirən qoca alimlərə böyük hörmətlə yanaşar, həmişə onların qayğısına qalardı. Ancaq bu gün... nə deyəsən?!*

* * *

Bu gün onun yeddisi idi. İnstitutun bütün işçiləri evinə toplanmışdı. Mən də getdim. Gördüm ki, oturub danışırlar. Nədən? Can sağlığından.

Bizim laboratoriya müdirimiz Əlmurad bu gün elə bil dilotu yemişdi:

- Bu yazığa mən elə həmişə deyərdim, bala, elm qaçmır, canına fikir ver. Kimə deyirsən? Sözə baxırdı bəyəm?..

Müdirimiz Əlmurad danışdıqca mən onun yağlı sifətinə, qıyıq gözlərinə baxır, fikirləşirdim: nə olaydı, bu adam danışdıqca öz ürəyinə baxa biləydi. Bunun ürəyi ilə dili arasındakı məsafəni ölçmək üçün təzə bir ölçü vahidi lazımdır... Ancaq məni düşündürən bu da deyil-di. Mən ona təəccüb edirdim ki, Əlmurad burada əyləşənlərin hamısının onu çox yaxşı tanıdığını bilsə də, yenə danışırdı.

Birdən üzünü mənə tutdu:

- Sən bilərsən, bu deyəsən heç həkimə-zada da getməzdi hə? - dedi və mərhumun vaxtsız ölümünə təəssüflənirmiş kimi başını yellətdi. Bayaqdan təpəsində dik dayanmış bir çəngə tük sürətlə gicgahına tərəf endi, mənə elə gəldi ki, tük onun başına qapaz salıb qulağına pıçıldadı: "Abrın olsun, heç olmasa danışma.

Mənim əvəzimə direktorumuz cavab verdi:

- Ay sağ olmuş, həkim, dava-dərman yalan söhbətdir. Mən həkimxanaya ana-liz daşımaq-dan yorulmuşam. Gərək əvvəldən canını əldən verməyəsən, xəstələndin - qurtardı!

Mənim uzaqdan-uzağa tanıdığım qoca bir alim də söhbətə müdaxilə eləyib yorğun-yorğun dilləndi.

- Bax, əsl söz elə budur. Mən bu əqidədəyəm ki, gərək canının qədrini biləsən. Adam cavanlığında elə bilir can elə həmişə belə qalacaq... yox, hər gün üstündən gedir... Bu dünyanın faniliyini heç kəs, hətta dahilər də vaxtında dərk eləmirlər. Odur ki, nə olur? Can gedir, quru ad qalır! Xalq deyir...

Xalqın nə dediyi məlum olmadı. Çünki Əlmurad bu qocanın da sözünü kəsdi.

- Bəli, bəli, xalq təbabətində böyük bir hikmət var, - dedi. - Mənim qan təzyiqim iki yüzə qalxırdı... Direktor mənalı tərzdə qımışdı. Əlmurad bu dəfə özü öz sözünü kəsib, şübhə ilə direktora baxdı.

- Nə var?

- Heç, Əlmurad, sözünü de. Əlmurad qızardı.

- Yox, de görüm niyə bir cür, mənalı gülümsədin? Direktor hirsləndi:

- Əşi, bu yaşda təzyiq iki yüzə qalxmasın, bəs neyləsin?

Direktorun sözü Əlmuradın üzünə şillə kimi dəydi, ancaq təslim olmadı:

- Nə yaş? Altmış iki yaş kişi üçün nəmənədir! Mənim qaynanam doxsanı haqlayıb, qırğı kimidir.

- Qayınanan sənnən olur?

- Yox, Buzovnada olur.

- Belə de də.

Əlmurad yenə şübhə ilə dikəldi.

- Necə məgər?

Direktor köksünü ötürdü və deyəsən yaxasını qurtarmaq üçün:

- Havadandır də. Əlmurad sakitləşdi.

- Dalına qulaq asın. Zəlidən tutmuş, dava-dərman nə var, hamısını elədim, xeyri olmadı. Bir gün Buzovnaya getmişdim. Baş ağrısından ölürdüm. Bildim ki, təzyiq şoqərib yenə qalxıb. Necə ki, qaynanam bunu bildi, dedi, bala, dərmanın məndə. Düşdü həyətə, meynənin zoğunu kəsib əzdi, suyunu içirtdi mənə. Hə, sizin canınız üçün, ağrı elə oradaca xırp kəsdi. Odu, budu, olmuşam anadangəlmə!

Söhbətə mərhumun dayısı da qarışdı:

- Elə mən də türkəçaraya inanıram. Sözünün qüvvəti, Əlmurad, mənim baldızımın əli-ayağı şilə kimi qızarardı. Daha həkim qalmadı bacanağım onu aparmasın. Biri dedi il yarasıdır, biri dedi nervdəndir, biri dedi eqzemadır. Əlqərəz, nə başınızı ağrıdım, axır bir gün dedilər, Şamaxıda bir qoca arvad var, belə yaraları otlarla müalicə eləyir. Bacanağım arvadı götürüb getdi Şamaxıya. Bir həftənin içində arvadın əl-ayağı oldu gül kimi.

Burada Əlmuradın özü ilə birgə başında bir çəngə boz tük də elə bil maraqdan dik qalxdı.

- Əşi, sən Allah, o arvadın adresini mənə ver! Direktor gözlərini bərəltdi:

- Bıy, neynirsən onu, Əlmurad?

- Əşi, sən mənim xirtdəyimdən nə yapışmısan? - deyə Əlmurad fısıldadı. - Bərayi ehtiyat! Bərayi ehtiyat! Qan təzyiqini mən məgər gözləyirdim? Birdəncə yaxamdan yapışdı?.. Allahın ver günü əsəbiləşirik, deyirəm birdən gəldi eqzema da tutdu, neynərəm? Hə, istəyirəm arvadın adresi əlimin altında olsun!..

Söhbət getdikcə qızışırdı. Bütün danışıqların mərkəzində xəstəlik və ona qarşı mübarizə yolları dururdu. Hər kəs öz xəstəliyindən, xəstəliyin gedişindən, əzablardan, həkimlərlə üzləşmələrdən, dava-dərmandan danışırdı. Danışan adama da elə gəlirdi ki, onun xəstəliyindən əzablısı və ona rast gələn hakimlərdən qanmazı yoxdur.

Əlmuradla direktorun arasında bir stulluq yer boş idi. Onlar danışanda başları bir-birinə yaxınlaşır, sonra aralanırdı. Bu iki tüksüz, boz baş arasından hərdən-bir ağarmış bir baş görünürdü. O, iki evin arasındakı açıq qapının dalında əyləşmişdi. Onun üzünü görmək müm-

kün olmur-du. Hərdən söhbət ara verəndə qapının dalından pıçıltı gəlirdi. Sözünü eşitmirdim, amma deyəsən atmaca atırdı. Mən davam gətirməyib, o adamı görmək üçün əyildim. Tanıdım. O bizim ən qabil həmkarlarımızdandı. Saçını vaxtından çox qabaq ağartmışdı, eyhamla danışmaq adəti idi.

Əlmurad qarşısındakı tər-halvadan bir qaşıq götürüb iştahla ağzını marçıldatdı. Mərhumun divardakı qara haşiyəli şəklinə baxdı:

- Ay bədbəxt, özünü yandırdın, külfəti də ağlar qoydun! Yanıram, yanıram haluva, qardaşım! Boş başlar arasında yenə ağ baş göründü:

- Halva, halluva... Qalua.

Təbiətən pıçıltılara həssas Əlmurad dözməyib geriyə çevrildi:

- Nə dedin?

- Heç, haluva dedin, Qalua teoremi yadıma düşdü. Əl-murad əsəbiləşdi:

- Heç Qalua teoreminin yeridir? Abala, idarədə də elm, hüzr yerində də? Qoysana yaşayaq!

- Yox, teorem yox, Qaluanın özü yadıma düşdü. İyirmi iki yaşında öldü, - deyə o ağ başını qaldırıb mərhumun şəklinə baxdı.

Eyhamı hamı başa düşdü. Əlmurad isə özünü o yerə qoymayıb söhbəti dəyişmək üçün evin aşağı tərəfində dinməzcə oturmuş Xəlilə üzünü tutdu:

- Hə... Elə biri də bu Xəlil! Gecə-gündüz özünü öldürür. Bir sümükdür, bir dəri. Axı nə olub? Nə qaça-qaçdır! Bir canına da fikir versənə! Axı onsuz da alim çətin yetişir, yetişənlər də əlimizdən gedir. Açığı, sənin də haluva yanıram, qardaşım!

Xəlil dinmədi.

Əslində bu onun adəti idi. O, həmişə xəyalda olur, öz-özü ilə danışmağı çox sevirdi. Əlmurad qırğı qanadlarını bir az da geniş açdı:

- Ay uşaq, - deyə çaypaylayanı çağırdı, - dəyişdirin o kişinin çayını. Bayaqdan fikirdədi, çayı soyuyub. Çaypaylayan Xəlilin çayını təzələdi. Ancaq Xəlil nə köhnə çayın aparılmasından, nə də təzə çayın gətirilməsindən xəbər tutdu. Gözlərini tavana zilləyib düşünürdü.

Bu Xəlil, doğrudan da qəribə adamdı. Heç kəsə qaynayıb-qarışmaz, səhərdən axşama kimi laboratoriyada öz işi ilə məşğul olardı. Onlarla dəyərli əsərin müəllifi olan bu adam, hələ dissertasiya müdafiə

eləməmişdi. Dissertasiya sözündən xoşu gəlmirdi. Bəzən elmi şuralarda onu danlayır, müdafiə eləməsini tələb edirdilər. Xəlil isə bütün bunlara bir cümlə ilə cavab verərdi: "Elm yalnız dissertasiyalardan ibarət deyil.

Əlmurad burada da həmin məsələyə toxundu:

- Xəlil, yaşın qırxdan ötüb, hələ namizəd deyilsən, bu höcətlik nəyə lazımdır? Kimə acıq eləmisən, bilmirik, bu sənə lazım deyilsə, bala, bizə lazımdır. Atçot veririk. Deyirlər elmi dərəcəsi olmayanlar akademiyaya yaramaz. Çox da ki, yaxşı işləyirsən. Ona qiymət verən yoxdu, bala, gərək diplomun ola... Bu heç ey! - deyə Əlmurad başqasının sözünü kəsməyə imkanı olmadığına görə yenə öz sözünü kəsdi. -Bizə yazığın gəlmir gəlməsin, bala, ailənə niyə yazığın gəlmir? Niyə sən ayda filan qədər itirəsən? Balam, müdafiədən kim zərər çəkib, maaşı maaş, hörməti də üstəlik.

Əlmurad qənddandan bir yumru qənd götürüb barmağının ucunda qaldırdı:

- Bu qənd kimi gözüm ağarsın yalan deyirəmsə, həmişə mən onu fikirləşirəm ki, bu yazıq bir çətən külfəti o maaşla necə dolandırır? A bala, sənin balaların apelsin istəmir? İkra istəmir? Vitaminli şeyləri deyirəm ey! Qoz, bal, bəhməz? Zehni əməklə məşğul olanlara bilirsən bunların nə boyda faydası var?! Mən səni tanıyıram, ürəyində mənim bu nəsihətimə bəlkəm də rişxənd eləyirsən, deyirsən: bal, qoz, bəh-bəh!

Arxadan yenə pıçıltı eşidildi:

- Bal - qoz - bəh!.. Ruz - beh... Əlmurad diksinib cəld arxaya çevrildi:

- Nə dedin?

- Heç, deyirəm qoz, bal doğrudan da faydalı şeylərdir.

- Bəs o iranlının adını niyə çəkdin? Ruzbehin...

- Heç, elə-belə yadıma düşdü. Deyirəm o da alim idi. Riyaziyyatçı... Yazığı güllələdilər.

Əlmurad əsəbi halda əlini başına çəkib, tükü yatırtdı, ancaq çəngə tük yenə dik qalxdı. Elə bu zaman Xəlil fikirli-fikirli əlini təzəcə dəyişdirilmiş qaynar stəkana apardı. Əli yandı, kişi dik atıldı. Hamı gülüşdü. Bayaqkı eyham unuduldu.

Əlmurad söhbəti təzələdi:

- Keçən il Qəmər xanımla Truskavesə getmişdik. Axı biz hər il Kislovodskidə dincəlirdik. Ötən il Qəmər xanımın böyrəyindən daş tapdılar, Truskavesə getməli olduq.

Mərhumun dayısı Əlmuradın sözünü kəsdi:

- Balam, o suyun ayrı kəraməti var.

Əlmurad sözünün kəsilməsinə dözməyib qızardı.

- Elə sözüm də onun üstündədir də - dedi. - Sizin əziz canınız üçün, bir aya daş əriyib yox oldu. Ondan sonra mən bu əqidəyə gəldim ki, bütün dərdlərin dərmanı su imiş! Hə...

Qoca alim burada özünü saxlaya bilmədi:

- Truskavesi niyə deyirsən, ay sağ olmuş, elə götür bizim dağların suyunu. Bir stəkan iç, bir qoyunu həzm elə.

Bu söz Əlmuradın ürəyinə kərə yağı kimi yayıldı:

- Demə, Əbdüləli, demə. Oturmuşuq şəhərdə, bu hisli, paslı havada əridirik canımızı vətən naminə!

Hə...

Mən istər-istəməz müdirimin palıd kötüyünə bənzəyən peysərinə baxdım. Fikirləşdim: "Kişilər əridirlər canlarını... vətən naminə

Əlmurad sözünə davam etdi:

- Kişi, Şirəli babanı görmürsən, yaşı 165ə çatır, keçən il Lerikdə ezamiyyətdə olanda getdim düz yanına. Dedim baba, de görək çox yaşamağın hikməti nədir? Nədesə yaxşıdır?

Hamı qulağını şəklədi.

- Dedi, hava, su, bir də ət xörəyini bacardıqca az yemək. Hamı bir ağızdan:

- Pah atonnan!

Direktorun qanı lap qaraldı:

- Arvad qoyur ki... tutub elə bizi yağlı ətə...

- Nahaq, mən odu-budu tutmuşam özümü cücə ətinə, bir də ağartıya.

- Bir iş də var idi ki, mən ət yemədim, elə bilirəm heç nə yeməmişəm, gözüm elə qazanda olur. Bu yerdə mərhumun dayısı boynunu qaz boynu kimi uzadıb başladı, nə başladı:

- Yox, mən inanmıram, qoyun ətinin qabır-ğa kababından kim zərər çəkib? Bunlar söz-dür, əsl mətləb ayrıdır. Bizim ömrümüzü əlimizdən

alan dərddir, kişilər, dərd! Fikir! Sən fikri nə bilmisən?

Burada mən Əlmuradla direktorun başlarının arasından o ağbaşlı alimin qalxıb getdiyini gördüm. Adamlar iki-bir üç-bir, bir-birinə göz eləyir, yavaş-yavaş durub çıxırdılar.

Mən bir daha mərhumun qara haşiyəli şəklinə baxdım, köksümü ötürüb qapıya yönəldim. Arxadan Əlmuradın səsi eşidildi:

- Qardaş, mən bu əqidəyə gəlmişəm ki, insan üçün ən əfsəl şey can-sağlığıdır! Özgə nə var ey?!

- Düz buyurursan, Əlmurad, düz buyurursan, vallah, - deyə bir neçə səs xorla təsdiq etdi. Mən bundan çox məyus oldum.

Evə çatanda gördüm halım pozulub. Girdim yatağıma. Nə qədər çalışdımsa yata bilmədim. Bir söz hey qulağımda səslənirdi: "Mən bu əqidəyə gəlmişəm ki, can sağlığı Amma ürəyimin içindən də kinayəli bir səs eşitdim: "Əhsən əqidənin böyüklüyünə, kəlamın müdrikliyinə.

# PİS ADAM

Urəyimdən bərk ağrı tutdu. Məni xəstəxanaya gətirdilər. Oz paltarlarımı soyundurub xəstəxana paltarı geyindirdilər. Oldum xəstə. Qəribə burasıdır ki, bu gündən yalnız özüm yox, adım da, familyam da, ünvanım da dəyişib oldu “xəstə”!

Xəstə, nəfəs al, nəfəs ver. Xəstə, yemək vaxtıdır.

Xəstə, özünü necə hiss edirsən?

Burda heç kəs başqasının peşəsi, vəzifəsi, işi, gücü ilə maraqlanmır. Hamı bir-birinin xəstəliyini xəbər alır, dərmanların təsirini soruşur. Küçədə-bazarda, idarədə, ya ziyafətdə görüşən tanışların, dostların “necəsən?” deyə bir-birindən hal-əhval tutmaları indi mənə qəribə görünür. Bu sual burda nə qədər yerindədir. Birinci gün bərk darıxırdım. Yatağımda uzanıb fikrimdə vaxtı qovmağa çalışırdım... Elə bil, yerdən-göydən əlim üzülmüşdü. Elə bil, doğma evimdən, isti ocağımdan uzaq, çox uzaq qərib bir ölkəyə düşmüşdüm. Yad adamlar içində adam özünü necə tənha, kimsəsiz, qərib hiss edərmiş.

Şəfqət bacısı gəldi, termometr verib getdi. Ölçdüm. 36 dərəcə. Axı, cansız civə mənim içimdəki tənhalığın soyuqluğunu necə göstərə bilərdi?..

Dözə bilməyib dəhlizə çıxdım. Xəstələr əyləşib söhbət edirdilər. Söhbət havadan başladı, xəstəliklərdən şikayətdə qurtardı. Dağıldılar, bir nəfər qaldı. O mənə baxdı, mən ona. Mən onu tanımırdım, o da məni. Nəhayət, sükutu o pozdu:

- Bacıoğlu, deyəsən, bu gün gəlmisən?..

- Bəli.

- Harandı?

Ayrı vaxt, ayrı yerdə bu sual adama qəribə gələrdi. İndi aydın idi.

- Ürəyimdi, - dedim, - bəs səninki?

- Qan təzyiqi! - deyib bayaqdan əlində oynatdığı zərləri qarşısındakı nərdtaxtanın üstünə atdı.

- Oynayaqmı?

- Oynayaq, - dedim.

Oynadıq. Birinci əl uduzdum. Bərk tutuldum. Deyəsən, kişi pərtliyimi hiss elədi... İkinci oyunda açıq-aydın mənə güzəşt eləməyə başladı. Qəsdən səhv oynayırdı. Bu mənim pərtliyimi bir az da artırdı... Ancaq üzə vurmur, könülsüz oynayırdım, buna baxmayaraq, kişi uduzdu... Durub getdi.

Bir həftə keçdi. Yavaş-yavaş xəstələri tanıyır, onlara isini-şirdim... Hərəsi bir peşənin sahibi, bir yuvanın quşu idi.

Hər kəs öz söhbəti, öz əməli ilə tanınar. Bunlar da belə. Bir əhvalat mənə bu adamlardan bir neçəsini daha yaxşı tanıtdı.

Bir gün yeməkxanada çay içirdik. Vaxtı ilə prokuror işləyən, indi təqaüdə çıxmış bir qoca çayın rənginə baxıb, əvvəl dodaqaltı donquldandı, sonra bərkdən deyinməyə başladı:

- Bu nə çaydır? Gərək, elə həmişə mən dillənəm? Balam, niyə danışmırsınız, niyə demirsiniz ki, bu hökuməti az talayın. Bu nə çaydır? Elə bil, hürkütmüsən, rəngi qaçıb, - deyə üzümüzə baxdı.

Onun sözünə yalnız infarktdan yatan cavan bir oğlan qüvvət verdi:

- Balam, düz deyir də. Biz ağzımıza su alıb oturmuşuq. Bizim yerimizə elə hey bu kişi danışır.

Səsinə səs verildiyini görən sabiq prokuror daha da qəzəbləndi. Yemək paylayan qızın qolundan tutub:

- Bala, o preyskurantı bura gətir, - dedi.

Qəfləti hücumdan qorxuya düşən qız dili-dodağı əsə-əsə bildirdi ki, preyskurant müdirdə olur. Müdir də çıxıb gedib. Prokuror saatına baxdı:

- Saat hələ 4 deyil. İndi də işdən gedərlər? Sən öl, camaat işləmir də... Kim-kimədir? Vallah, bizim vaxtımızda belə deyildi. İndi hər şey dəyişib. Camaatın gözündə qorxu yoxdur.

Onun nəyə işarə elədiyi mənə aydın idi. Fikirləşirdim: "Allah bilir, bu nə evlər yıxıb. İndi də burnunda həmin iy qalıb".

Bu zaman növbətçi həkim ona yanaşdı. Çox nəzakətlə:

- Preyskurantı neyləyirdiniz? - deyə xəbər aldı.

Aldadırsınız bizi. Bizi qanmaz yerinə qoymusunuz. Çayın yanında 5 peçenye verilməlidir. Hər gün birini azaldırsınız. Bir peçenyenin mahiyyəti bir şey deyil, ancaq mən düzlük istəyirəm, - deyə o, daha da bozardı.

Qocanın hirsi soyumurdu. O, nalayiq sözlərlə həkimi aşpaza, müdiri xidmətçilərə qatıb, hamını təhqir edirdi.

- Yeyirlər, dağıdırlar.

Səhəri qoca təqaüdçünün haqsız olduğu aşkara çıxdı. Ancaq o, iftirasına görə heç kəsdən üzr istəməyib bu dəfə də başqa şeyləri bəhanə gətirdi:

- Xörəklər dadsız olur. Bizə yaxşı xidmət eləmirlər və s. Bu haray-həşirdə aşxananın qarşısındakı palatadan dəhşətli bir qışqırıq qopdu. Məlum oldu ki, mən gələn gün nərd-taxta oynadığım kişi qəflətən keçinmişdir. Bir saat əvvəl danışan, gülən, məndən halımı xəbər alan kişi indi cansız daş parçasına dönmüşdü. Xəstələr palatanın qabağına toplandı. Hamı mərhumun nə qədər yaxşı, mülayim adam olduğunu deyir, bu qəfləti ölümə təəssüflənirdi:

- Qəribədir, səhər mənə dedi ki, dava-dərmana çox fikir vermə, yeməyinə bax.

- Vallah, dünyaya etibar yoxdur.

- A kişi, ölüm nə qədər ucuz olub.

- Ölüm ki var, qaşla göz arasındadır.

Matəm yerlərində biz həmişə belə söhbətləri eşidirik. Bütün bu söhbətlərə həmişə eyni fəlsəfi yekun vururlar:

- Ölüm ki, bu qədər asanlaşıb, gərək adamlar bir-birinə pislik eləməsin.

Burda bu fəlsəfi yekunu sabiq prokuror vurdu.

- Bəli, ancaq adamlar yenə də pislikdən əl götürmür.

Üçüncü bu fikri daha da dərinləşdirdi:

- Pis adamlar pislik eləməyə bilməz. Çünki pislik onların təbiətindədir. Sancmaq əqrəbin peşəsidir, adətidir.

Dördüncü, beşinci, altıncı və i. a. Hamı bir-bir pis adamların əlindən dad çəkir, əlhəzər edirdi. Düşünürdüm: "Görəsən, bu pis adam kimdir? Bu adamların söhbətindən belə məlum olurdu ki, pis adam haradasa, bu dəhlizdən uzaqda məchul bir yerdə gizlənib; hərdənbir baş qaldırır, bu yaxşı, xeyirxah adamları sancır, cəmiyyəti, insanlığı ləkələyir, hamı başqasını günahlandırır. Görəsən, nəyə görə heç kəs öz gözündəki tiri görə bilmir?

# FOTOAPARAT

İşin lap qızğın vaxtında telefon səsləndi. Dəstəyi qaldıran kimi qayınanamın nərildəyən səsini eşitdim. O məni hədələyir,bu saat təcili evə gəlməyimi tələb edirdi. O saat başa düşdüm. Yenə anamla arvadım dalaşmış, xəbər qayınanama çatmışdı:

- Bu saat gəl xarabana, gör anan nə mərəkə çıxarır.
- Gələ bilmərəm, işim çoxdur.
- Bura bax, mənim qızım sizin üçün nökər-zaddır?
- Yaxşı, bəsdir!

Dəstəyi asdım... Nə qədər çalışdımsa, özümü ələ alıb işləyə bilmədim. Keçdim direktorun otağına, icazə istədim. Səbəbini soruşmadı. Deyəsən, halımdan başa düşmüşdü. “Get, - dedi.

Gəlib gördüm, qayınanam arvadımın qolundan tutub aparır. Məni görən kimi arvad üstümə bomba kimi açıldı:

- Sən ki, arvadı arvad kimi saxlaya bilməyəcəkdin, almayaydın... Mən sənə hələ onda dedim... qapıma dəxil düşəndə, dedim, bala, mən sənin ananı tanıyıram. O, gəlin saxlayan deyil... Gördün?..
- Axı, nə olub?
- Nə olacaq? Deyir çıx mənim evimdən.
- Mənim anam elə söz deməz.
- Deməz? Onda qoy özü desin, sən də eşit. Anam susurdu...

Gəlin də bir söz demir, hönkür-hönkür ağlayırdı...

Birdən gözüm oğluma sataşdı. Yazıq uşaq bir bucağa qısılıb susur, gözünü üzümə zilləyib məndən kömək istəyirdi.

Qayınanam məsələni çox ciddi qoymuşdu:

- Ya arvadın, ya anan! İkisindən birini tutmalıydım.

İndi mən neyləyim?.. Bir papiros yandırdım. Uşaq dərhal gedib yan otaqdan külqabını gətirdi. Diz çöküb yanımda oturdu. Başını sığalladım. Birdən yadıma düşdü ki, sabah uşağın ad günüdür. Bu, elə bil mənim üçün göydən düşdü. Üzümü qayınanama tutub:

- Sabah uşağın ad günüdür. İş yerimdən bir-iki adama da demişəm. Qoy sabahı yola verək, sonra danışarıq.

Deyəsən, güllə hədəfə dəymişdi. Arvadın köpü yatdı. Ancaq gedəndə üzümə baxmadan:

- Sözümüz sözdür. Ya anan, ya da arvadın, - deyib getdi.

Arvadımla mən bir-birimizi sevirdik. Üstəlik arada uşaq da var. Qayınanamın da xasiyyətinə bələdəm. Külli-aləm yığıla, dediyindən dönməz... Yuxarı tüpürürəm bığ, aşağı tüpürürəm saqqal... Bəs indi bu işi necə həll eləməli, necə yoluna qoymalıyam?

O ki qaldı anamla arvadıma, ikisinin də günahkar olduğu mənə aydındır; anam tündməcaz, arvadım dəymədüşər. Birinin sözü o birinin xirtdəyindən ötmür və ötməyəcək də... Bəs indi nə olsun? O olsun ki, ya gərək arvadımdan keçəm, ya da anamdan...

Arvaddan keçə bilmərəm, uşağımın anasıdır, həm də sevirəm. Bəs anamdan necə? Mənim anam analar anasıdır. 23 yaşından dul qalıb, saçının birini ağ hörüb, birini qara, kirpiyilə od götürüb. Məni böyüdüb, oxudub, evləndirib. Bu gündən ötrü?

* * *

Ertəsi gün işdən evə tez gəldim. Axı, bu gün oğlumun ad günü idi. İçəri girən kimi oğlumun əlində bir fotoaparat üstümə atıldı: - Nənəm alıb.

Elə bil ürəyimə ox batdı... əyləşdim. Bu aparat ötən günlərimin acı bir səhifəsini gözlərimin önünə tutdu... Qonşu otaqda tək oturub dərin fikrə gedən anama baxdım... Arvadım da, oğlum da heyrətlə mənə baxırdılar. Mənim niyə sarsıldığımı yalnız anam bilirdi...

Mən dünyaya gəlməmişdən atam ölmüşdü. Mən onun üzünü görməmişdim. Ancaq gözümü dünyaya açanda çarpayımın üstündə atamın şəklini görmüşdüm.

Mən uşaqlıqdan şəkil çəkmək dəlisi idim. Saatlarla gözlərini

gözlərimə zilləyən atama baxar, onun şəklini çəkmək istərdim, lakin bacarmazdım. Mən böyüdükcə bu arzu da böyüdü. Gördüyüm hər şeyin -dağın, dərənin, gölün, çiçəyin, yenicə tanış olduğum adamların, oxuduğum məktəbin, müəllimlərimin şəklini çəkmək, onları yaddaşıma həkk eləmək istəyirdim. Bir dostumun fotoaparatı vardı. Ad günü münasibətilə əmisi bağışlamışdı. O, şahmat dəlisi idi, fotoaparatı heç əlinə də götürməzdi. Onun aparatı həmişə məndə olardı. Hara getdimsə, təzə nə gördümsə, şəklini çəkər, sonra onlara baxar, gördüyüm yerləri və adamları xatırlardım.

Bir gün dostumla dalaşdıq, mən onun aparatını qaytarmalı oldum. Ancaq o gündən fotoaparat həsrətilə niskilli günlərim başlandı. Anam poliklinikada tibb bacısı işləyirdi. Çətinliklə dolanırdıq. Niskilimi anama deyə bilmirdim. O, bunu bilir, amma üzə vurmurdu. Anamın verdiyi nahar pulunu xərcləməz, məktəbə ac gedib, ac gələr, qəpik-quruşumu yığardım.

Günlər, aylar ötdü, pul kassasına ümidimin, arzumun meyvə verəcəyi ağac kimi baxırdım. Bu qəpiklərin nə zaman arzumu güldürəcəyini ürəyimdə hesablardım... Bir gün dözməyib kassanı açdım. Nə görsəm yaxşıdır? Cəmi 12 manat. Əlim-qolum qırıldı. Mən istədiyim aparatı almaq üçün mənə hələ neçə-neçə manatlar lazım idi.

Qohumlar, tanışlar anamı tez-tez danladıqlarını yaxşı bilirdim. Onlar istəyirdi ki, anam ərə getsin, əzablardan qurtarsın. Anam bu danlaqları sükutla qarşılar, əvvəlki həyatımız davam edərdi.

Lakin bir dəfə xalamla bizə bir əmi gəldi... Nə isə onun bu gəlişi və təhər-tövrü xoşuma gəlmədi... Üç gündən sonra bu əmi yenə peyda oldu. Amma bu dəfə yanında xalam yox idi... Anama elə baxırdı ki... Kişidən lap zəhləm getdi... Anam hiss elədi ki, mənim kişidən acığım gəlir... Susdu, qalxıb qonağa çay gətirdi. Stəkanı qoyanda gördüm əllərim əsir... çölə çıxdım, amma özümü saxlaya bilməyib tez qayıtdım. Gördüm kişi gedir...

Üçüncü dəfə o, bizə yenə xalamla mənim ad günümdə gəldi. O mənə fotoaparat gətirmişdi. Mən aparata gözümün ucuyla da baxmadım. Aparat stolun üstündə qaldı. Günlərlə, həftələrlə... Anam sınayıcı nəzərlərlə mənə baxır, aparatı nə vaxt götürəcəyimi gözləyirdi. Bir

dəfə:

- O sənindir, niyə götürmürsən? - deyə aparatı qutusundan çıxarmağa başladı.

- Lazım deyil, - deyə ona gözümün ucuyla da baxmayıb çarpayıma uzandım. Hər şey aydın idi. O əmi bir də bizə gəlmədi. Bir gün aparat da evdən yox oldu...

Həmin aparat indi oğlumun əlində idi... Yox, bu həmin aparatın özü deyildi, sözü idi... Bu aparatla indi anam mənə nə demək istəyirdi?

# PYESLƏR





*Mən istəmirəm yol aza, haqdan dönə insan,*
*Namus və şərəf mərtəbəsindən enə insan.*
*Mən istəyirəm, uymaya şeytana bir anlıq,*
*Qulluq edə insafına, vicdanına insan.*
*İnsanlığı nadanlığa qurban verəcəkdir,*
*Aldandısa nəfsin dəli şeytanına insan.*

**(“Özümüzü kəsən qılınc“ pyesindən)**





# İKİNCİ SƏS

## (ÜÇ MƏCLİS, DOQQUZ SƏHNƏLİ DRAM)

İŞTİRAK EDƏNLƏR:

**Reşad** – nəbatat institutunun elmi işçisi, 40 yaşında.
**Həyat** – onun arvadı, 36-37 yaşlarında.
**Şükür bəy** – nəbatat institutunun direktoru, 50-55 yaşlarında.
**Məlahət**– onun arvadı, həkim, ginekoloq, 45 yaşında.
**Arzu** – həkim, 30-32 yaşında.
**Fikrət** – Həyatın qardaşı, baş həkim, 38 yaşında.
**Zeynəb** – Həyatın uşaqlıq rəfiqəsi, 40 yaşında.
**İradə** – Reşadın qızı, 12 yaşında.
**İkinci Reşad**
**İkinci Arzu**

# SƏN XOŞBƏXTSƏNMİ

## BİRİNCİ MƏCLİS

### BİRİNCİ SƏHNƏ

**R a d i o** *(ikinci səs)* –

Qışı lənətləyib, yaza "gəl demə.
Qışın dəhşətləri yaz içindədir.
Enişdə yoxuş var, yoxuşda eniş,
Ən böyük atəş də buz içindədir.

Daş da qiymətlənir əldən gedəndə,
Şeytan da səndədir, mələk də səndə.
Kənarda axtarma, dost da, düşmən də
Yaxşı da, yaman da öz içindədir.

Pərdə açılır. Pilləkən başı. Sol tərəfdə M ə l a h ə t i n qapısı, sağ tərəfdə A r z u n u n . Qarşı divara naşı uşaq əli ilə kömürlə bir adam şəkli çəkilmişdir. Pərdə açılarkən sol qapıdan M ə l a h ə t çıxır. Onun döşündə önlük, əlində süpürgə var. M ə l a h ə t şəklə diqqətlə baxıb gülümsünür. Sağ qapıdan A r z u çıxır.

**M ə l a h ə t** –Arzu, salam, hara belə? *(Cavab gözləmədən şəklə işarə edir.)* Bunu kim çəkib, ay qız?

**A r z u** –Uşaqların işidir.

**M ə l a h ə t** –Bayaq yox idi, indi çəkiblər. Ay dəcəllər! *(Pauza.)* Hə... hara belə?

**A r z u** –Bəs xəbərin yoxdur?

**M ə l a h ə t** –Nədən?

**A r z u** –İntizar özünü zəhərləyib.

**M ə l a h ə t** –Hansı İntizar?

**A r z u** –Qonşumuz. Paşazadənin qızı.

**M ə l a h ə t** –Bu nə danışır? Axı, niyə, nədən ötrü?

**A r z u** – Bir nəfəri sevirmiş.

**M ə l a h ə t** –Sonra?

**A r z u** –Anası razı olmur. Oğlanın ali təhsili yoxmuş. Məsələ böyüyür, ana, oğlanı çağırıb deyir ki, qızımdan əl çək, sən onun tayı deyilsən. Oğlan deyir, bu, bizim öz işimizdir... Ana oğlanı təhqir edib qovur. Qız buna dözə bilmir...

**M ə l a h ə t** –Dəhşət! Müsibət!

**A r z u** *(fikirli)*–Görünür, çox əzab çəkib... axırda... Ay bədbəxt!

**M ə l a h ə t** –Sən necə, Arzu, xoşbəxtsənmi?

**A r z u** –Mən? Sənə baxanda hə.

**M ə l a h ə t** –Sən xoşbəxtliyi nədə görürsən?

**A r z u** *(dərin pauza)*–Məhəbbətdə!

**M ə l a h ə t** *(gülür)*–Azmı sevməyib xoşbəxt olanlar var? Mən ki, sevənləri heç vaxt xoşbəxt görməmişəm. Elə biri sən, həmişə ahu-nalə, fəryad!

**A r z u** –Mənim sevgim ağlı-qaralı bir dünyadır. Şadam, çünki o mənimdir, kədərliyəm - çünki o yalnız mənim deyil. Məhəbbətlə dolu bir həyat nə qədər gözəl, nə qədər mənalıdır.

**M ə l a h ə t** –Ancaq bu məhəbbət sənə çox baha oturur.

**A r z u** –Əlbəttə, əzablıdır, amma həyatın gözəlliyi də bundadır.

**M ə l a h ə t** –Düz demirsən, Arzu, əzabın nəyi gözəl ola bilər?

**A r z u** –Bəs sakitliyin, rahatlığın nəyi gözəldir? Eh, Məlahət, həyatdakı bir şeyin əzabını çəkmədin, nəsə bir şeyin həsrəti ilə yanıb yaxılmadın, o nə həyatdır? Düz demirəm? Buyur, elə sənin həyatın, sizdə çatışmayan nədir?

**M ə l a h ə t** –Təkcə bir övlad!

**A r z u** –Xoşbəxtlik üçün övlad çox azdır. Sizdə çatışmayan başqa şeydir, bacım.

**M ə l a h ə t** –Nədir?

**A r z u** –Çırpıntı, həyəcan, kədər, sevinc, başqasının dərdinə qalmaq, siz isə o qədər otaqlarınıza qapanmısınız ki, qapıbir qonşunuzun müsibətindən də xəbəriniz yoxdur. Qulaq dincliyini, rahatlığı hər şeydən üstün tutursunuz. Nə isə... Gedirsən?

**M ə l a h ə t** *(qapını aralayıb)*–Şükür, Şükür, yatdığın bəsdir, dur!..

**Şükür bəy** *(içəridən)* — Nə olub, *(gəlir qapıya)* yanğındır?.. Yoxsa sel gəlir?

**Məlahət** –Paşazadənin qızı özünü zəhərləyib, geyin, keçək onlara.

**Şükür bəy** –Hansı Paşazadə? Qonşumuz?

**Məlahət** –Hə.

**Şükür bəy** –Yox əşşi!.. Niyə zəhərləyib? Vay səni!.. Mən, axı, zökəməm. *(Asqırır, evə keçir.)*

**Arzu** *(istehzalı)*–İşin yoxdur, kişi zökəmdir.

**Məlahət** *(divardakı şəklə baxır)*–Eh, Arzu, necə uşaq olmaq istərdim... Təmiz, pak, şən, dərdsiz, qəmsiz... Saflığıyla bir dünya, şənliyi ilə bir aləm!

**Arzu** –Elədir, Məlahət, uşaqlıqda hamı saf olur, tam olur. Ancaq böyüdükcə haçalanırıq, ikiləşirik. Hiss bir söz deyir, ağıl başqa söz, tamah bir söz deyir, vicdan ayrı söz. Mən olsaydım, bunu *(divardakı şəkli göstərir)* iki rəngli çəkərdim *(Yerdən kömür götürür, şəkli iki yerə bölür, bir tərəfini qaralayır).*

**Məlahət** –Başa düşürəm, Arzu.

**Arzu** –Bu azdır, hiss elə!

**Məlahət** *(tərəddüd keçirir)*–Nə deyim, vallah, mən də çaşmışam. Əyrini düzdən seçə bilmirəm.

**Arzu** –Məni qınama, hələlik. (*Gedir.)*

Məlahət onun arxasınca baxıb düşünür, birdən dəli kimi ev qapısını açıb üzünü otağa tutur.

**Məlahət** –Şükür, Şükür! Bəs durmadın?

Şükür bəy görünür.

**Şükür bəy** –Nə var, nə olub, qapını niyə açıq qoymusan? Küləyə bax a... *(Asqırır.)*

**Məlahət** –Vallah, Kür aşığındandır, Araz topuğundan... Dünya dağıla, vecinə deyil.

**Şükür bəy** *(asqırır)*–Arvadların zəlzələsi olmasa dünya dağıl-

maz... Yenə nə olub cin atına minmisən?

**M ə l a h ə t** –Deyirəm, qonşunun qızı ölür, dur keçək onlara, deyirsən, zökməməm. Bəs belə də soyuqqanlılıq olar?

**Şü k ü r  b ə y** –Əşşi, qız axı, niyə elə iş tutub? Ağıllı adam da bu havada özünü öldürər? Sən Allah qoy yaşayaq özümüz üçün.

Ş ü k ü r  b ə y  otağa keçmək istəyir.

**M ə l a h ə t** –Hara? Yenə yatmağa?!.

**Ş ü k ü r  b ə y** –Ay qız, görmürsən nasazam?

**M ə l a h ə t** –Sənin heç saz vaxtın olub?

**Ş ü k ü r  b ə y** –İndi belə oldu?

**M ə l a h ə t** –Bəs Reşadgilə getməyəcəyik? Qızının ad günüdür axı...

**Ş ü k ü r  b ə y** *(öz-özünə)*–Sən öl, bu rojdenilər də öldürdü bizi. Qoymurlar ki, evimizdə yaşayaq özümüz üçün. Bir də... axır vaxtlar Reşaddan heç xoşum gəlmir.

**M ə l a h ə t** –Yenə nə olub?

**Ş ü k ü r  b ə y** –Mənim yaxşılıqlarımın əvəzində bütün institutu qaldırıb üstümə. Eh, dünya! Qayda belədir.

Ş ü k ü r  b ə y  çəkilir, M ə l a h ə t  divardakı şəklə baxıb düşünür.

**M ə l a h ə t** –Necə uşaq olmaq istərdim!.. İndi neyləyim? Zahirən hər şey öz yerindədir. Ərim professor, özüm həkim, yayları gözəl kurortlarda, qışları geniş otaqlarımızda. Kislovodskdan tutmuş Karlovı Variyə qədər gəzmişik. Evimizdə hər şeyimiz var. İndi nə istəyirəm?.. Bəs iyirmi il əvvəl belə bir cah-calal həsrəti ilə yaşamırdımmı? Bəs indi xoşbəxtəmmi? Yox!.. Arzu düz deyir.

Əlhəzər, bu soyuq bəzək-düzəkdən,
Könül tapşırmasın özünü dərdə,
Xalını, xalçanı neyləyirəm mən,
Gülüşlər gül açsın döşəmələrdə.
Çölü bahar gəzir, otağı şaxta,

Ürəyi qış kəsir, dodağı şaxta.
Otaqda danışan dillər də saxta!..
Güldandan boylanan güllər də saxta
Qışdır, baharda da bizim otaqda.

## İKİNCİ SƏHNƏ

A r z u n u n otağı. R e ş a d musiqiyə qulaq asır, otağın baş divarında R e ş a d ı n böyük portreti asılıb.

**R e ş a d** –İnsan ürəyi sirli bir dünyadır. Onu kəşf eləmək ən uzaq ulduzları kəşf eləməkdən çətindir. (Saatına baxır) Görəsən... *(Arzu görünür, Reşad dərhal dəyişir.)* Arzu!

**A r z u** –Reşad! Çoxdan gözləyirsən?

**R e ş a d** –Bəli, səhərdən.

**A r z u** –Səhərdən niyə? Mən ki, onca dəqiqə gecikmişəm.

**R e ş a d** –Bəli, mən səhərdən gözləyirəm, səhərdən bu dəqiqə ilə yaşayıram.

**A r z u** – A!.. O başqa məsələ...

**R e ş a d** – Arzu, mənə elə gəlir ki, sənin bu balaca otağın dünyanın mərkəzidir, dayaq nöqtəsidir.

**A r z u** –Arximed dayaq nöqtəsini tapa bilməyib a...

**R e ş a d** –Bunun üçün də sevmək lazım deyil... Belə qəribə olmuşam ey, Arzu, özüm özümü tanıya bilmirəm...

**A r z u** –Gözlə ha!.. Bu, çox xatalı işdir.

**R e ş a d** –Hər şey gözümə ayrı cür görünür. Elə bil, dünya da, adamlar da, iqlim də gözəlləşib. Mənə elə gəlir ki, ömrümün baharını indi yaşayıram.

Ömrün payız fəsli sevdim, sevildim
Elə bilirəm ki, ilk baharam mən.
Eşqindir ucaldan məni göylərə,
Bu eşqin gücünə minnətdaram mən.

**A r z u** –Yavaş, qorxuram şair olasan...

**R e ş a d** –Bilirsən, bu son günlərdə bir ilin işini görmüşəm. Qollarıma yeni qüvvət, ürəyimə ilham gəlib. Özümdə elə bir qüvvə hiss edirəm ki...

**A r z u** –Yavaş, Fərhad olub dağ çaparsan, ha!..

**R e ş a d** –Doğrudan elədir. Mən bilirəm ki, sən mənim işlərimlə maraqlanırsan. Ona görə də hər dəfə görüşünə təzə bir kəşf ilə gəlmək istəyirəm.

**A r z u** –A... yaxşı yadıma düşdü. Məqaləni oxudum... "Bitki aləmində qayda və azadlıq. Çox maraqlıdır, amma mənim qeydlərim var.

**R e ş a d** –İndi qeydlərin yeri deyil, bütün günü gözüm elə saatda olub. Deyirəm, gözləmək nə gözəl şeydir. Onda adam nə üçün yaşadığını bilir. Filosoflardan hansısa gözəl deyib:

**A r z u** –Səadət, arzuya çatana qədərki yoldadır.

**R e ş a d** –Bəli.

**A r z u** –Demək, arzu özü bir şey deyil?

**R e ş a d** –Yox, yox! Bütün gözəllik arzudadır...

**A r z u** –Yəni məndə?

**R e ş a d** –Bəli, səndə! Sənin adın da Arzudur, özün də! Mənə elə gəlir ki, mən səni çoxdan, hələ dünyaya gəlməmişdən əvvəl tanıyıram.

**A r z u** –Reşad, bu çox oldu, bir qədər azalt!

**R e ş a d** –Məgər sənə elə gəlmir?

**A r z u** –Elədir, axı, biz eyni adamlarıq.

**R e ş a d** –Ora bax, dəniz də bizim kimi təlatümlüdür.

**A r z u** –Bəlkə sevir?..

**R e ş a d** –Əlbəttə... Ləpələr elə bil danışır.

**A r z u** –Nədən danışır?

**R e ş a d** –Elə bil dəniz dodaqlarıyla sevgilisinə məhəbbətdən nəğmə oxuyur.

**A r z u** –Bu, sənə görə belədir... Bəlkə başqası... (Sükut.) Mən bilmək istəyirəm, dəniz sahili niyə sevdi?

**R e ş a d** –Çünki dəniz öz dərdini, öz qəl-bini, yalnız sahilə danışa bilir... Çünki dənizin təlatümü sahildə qurtarır... Çünki dəniz öz rahatlığını və səadətini yalnız sahildə tapa bilir... çünki...

**A r z u** –Yaxşı, daha bəsdir!

**R e ş a d** –Bir də... Sahil heç zaman dənizə "Məni neçin sevdin? sualını verməz. Gör, şair necə deyib:

Neçin sevdiyimi bilmədən mən də
Sevirəm, sevirəm, insan sevəndə
Yalnız öz könlünün səsini dinlər.
Neçin sevdiyini bilməz sevənlər.

**A r z u** –Bu, doğrudan belədir. Ancaq... hər halda bir səbəb də olur. Tarın simləri qoşa-qoşadır. Bu simlər eyni səs üstündə köklənməsə mahnı yaranmır.

**R e ş a d** –Doğrudan biz necə oldu tapışdıq?

**A r z u** –Mən tez-tez Şükür bəyin zökəmini müalicə üçün onlara keçərdim. Şükür bəy həmişə səndən Məlahətə şikayətlənərdi. Onun söhbətlərindən sən mənim təsəvvürümdə yaranmışdın... çox qəribədir, Reşad ilk dəfə səni görəndə dərhal tanıdım.

**R e ş a d** –Mən isə ilk dəfə səni görəndə... ömrümdə duymadığım hisslər məni təlatümə gətirdi... Ordakı mübahisəmiz yadındadırmı? Elə bil həyatın özü bu şəraiti yaratdı!

**A r z u** –Sənin çılğınlığının qabağında Şükür bəyin sakitliyi məni necə əsəbiləşdirirdi...

**R e ş a d** –Mənim çılğınlığım da bəzilərini əsəbiləşdirir. Amma mən nə edim ki, xasiyyətimi dəyişə bilmirəm.

**A r z u** –Elə bunun üçün də sənə mənim xəyalım, eşqim, həyəcanım, dedim.

Məni qınayanlara, öz hissimi, duyğumu, mən necə danım, dedim?

Çağlamaq istəyirəm dağda şəlalə kimi,
Səpilmək istəyirəm çöllərə lalə kimi.

**R e ş a d** –Bir rəngi yox, göylərin min rəngini sevirəm.

**A r z u** –Bir gülü yox, güllərin çələngini sevirəm.

**R e ş a d** –Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,

**A r z u** –Həyatı, həyat kimi yaşamaq istəyirəm!

**R e ş a d** –Yaşa! Min duyğu ötsün ürəyindən bir anda. Sən qımışma güləndə, inləmə ağlayanda. Ağlasan, hönkür ağla, gülsən, qəh-qəhə çək, gül. Gülsən də, ağlasan da tamam doysun qoy könül.

**A r z u** –Səni necə sevməmək olar, Reşad!

**R e ş a d** –Axı, sənsiz mən nəyəm ki, eşqim, arzumsan mənim.

Əgər mən bir səmayamsa, dan ulduzumsan mənim.
Mən zamanın özüyəmsə onun ayı, ili sən...

**A r z u** –Əgər mən bir dənizəmsə... sən onun sahilisən. Bəs niyə, bəs niyə bizi qınayırlar?

**R e ş a d** –Qınayan qoy qınasın, dünyada kimi qınamırlar ki...

**A r z u** *(saatına baxıb)*–Reşad, vaxtdır, sən getməlisən.

**R e ş a d** –Hara?

**A r z u** –Bəs yadından çıxıb! İradə səni gözləyir.

**R e ş a d** –Yaxşı, gedərəm.

**A r z u** –Yox! Qalx!..

A r z u dolabdan bir uşaq paltarı çıxarır.

**A r z u** –Reşad! İradəni təbrik elə!

**R e ş a d** – Arzu, əzizim!.. Sən neyləyirsən?

**A r z u** –Di yaxşı, get, gecikirsən... hələlik.

R e ş a d görüşüb çıxır, səhnə fırlanır. Pilləkan başı, R e ş a d fikirlidir.

**R e ş a d** –Nə böyük ürəyi var!..

İkinci R e ş a d görünür.

**İ k i n c i R e ş a d** –O səni də, sənin balanı da düşünür. Sən necə, onu, onun gələcəyini düşünürsənmi?

**R e ş a d** –Sən kimsən?

**İ k i n c i R e ş a d** –Özünü tanımırsan? Mən sənin ağlınam, vicdanınam, ikinci səsinəm. Sən məndən qorxma, biz bir adamıq, sən təkcə

hisslərinlə qalsan, bədbəxt olarsan. Mən sənin yanında olanda sənə zaval yoxdur.

**Reşad** –Deməк, mən ikiyəm?

**İkinci Reşad** –Bəli! İnanmırsan? İndi sən sevgilinin yanından hara gedəcəksən?

**Reşad** –Evə.

**İkinci Reşad** –Uşağın ad gününü keçirməyə. Sevgilinlə danışan dodaqların arvadınla danışacaq. Sevgilinlə görüşən əllərin arvadının, qızının sağlığına badə qaldıracaq. Bəs bu, ikilik deyil?

**Reşad** –Bəsdir!

**İkinci Reşad** –Yox! Hələ indi başlayırıq. Sən ikicə dəqiqə əvvəl sevgilinlə deyib-gülürdün. Özünü tamam unutmuşdun. Elə bilirdin ki, dünyada bir sənsən, bir də o. Nə arvadın var, nə də uşağın. Çölə çıxdım, sevgilinin hədiyyəsindən utandım. Bu xəcalət məni çağırdı... Mən gəldim. Mən sənin, sənə uzaqdan baxan gözlərinəm. İndi bu halından qorxma, deyib-gülən, dünyanı, cəmiyyəti, ailəni unutduğun bayaqkı halından qorx! Sən indi həm hakimsən, həm müttəhim, həm xeyirsən, həm şər.

**Reşad** –Demək, mən öz-özümün düşməniyəm? Bunun nəyi yaxşı oldu ki...

**İkinci Reşad** –Düşmən yaxşı şeydir. Adamı həmişə sərvaxt saxlayır. Ancaq vay o gündən ki, düşmənin öz içində ola. Daxili düşmənə qarşı mübarizə aparmaq çox çətin işdir. Amma vacibdir.

**Reşad** –Əl çək, əl çək məndən.

**İkinci Reşad** –Adamlar məndən qaçanda cinayət törədir. Teymurləng insan kəllələrindən saraylar tikmək əmrini verdiyi zaman ikiləşsəydi, o cinayətlər törənməzdi. İlk atom bombasını salmaq əmrini verən o cani də həmin dəqiqə ikiləşsəydi yəqin ki, Xirosima faciəsi də olmazdı.

**Reşad** –İnsan kəllələrindən saraylar, Xirosima faciəsi... *(Qəhqəhə çəkib gülür.)* Mən hansı cinayətin sahibiyəm?

**İkinci Reşad** –Əlbəttə, sən cinayətkar deyilsən. Amma günahkarsan. İnsan, hər işdə addım atmamışdan əvvəl papağını qarşısına

qoyub düşünməli, vicdanı ilə məsləhətləşməlidir.

**Reşad**–Məgər sevib-sevilmək günahdır? Xeyr! Mən sevirəm, sevilirəm. Deməк xoşbəxtəm.

## ÜÇÜNCÜ SƏHNƏ

Reşadgilin mətbəxi. Məlahətlə Həyat söhbət edirlər, o biri otaqdan qonaqların səsi, badələrin cingiltisi eşidilir.

**Məlahət**–Neyləyirəm o qızıl teşti ki, içinə qan qusacağam, kim üçün, nə üçün yaşadığımı da bilmirəm. İndi sən xoşbəxtlik nəyə deyirsən?

**Həyat**–Dünyada hamı üçün nəsə çatmır...

**Məlahət** *(dərin düşüncədən sonra)*–Hara baxırsan, ikilik. Biri mən, həyatım da, sənətim də bu ikilikdən, ziddiyyətdən yaxa qurtara bilmir. Mən ginekoloqam, gündə onlarla uşağı dünyaya gətirirəm, amma özüm uşağa həsrətəm. Mən uşaqları çox sevirəm, amma gündə neçə günahsız körpəni məhv edirəm... qəribə dünyadır...

**Həyat**–Sənin dünya ilə nə işin, de görək indi mən neyləyim? Getdikcə görürəm ki, Reşad ailədən soyuyur... O nə isə qanadlı xəyallarla yaşayır, onun öz aləmi, öz dünyası var.

**Məlahət**–Niyə sən bu barədə Reşadın özü ilə danışmırsan?

**Həyat**–Yox, mən onunla üz açmaq istəmirəm... *(Pauza.)* Məlahət, sən o qızı tanımırsan?

**Məlahət** *(özünü itirir)*–Hə?..

**Həyat**–Onu deyirəm də... Reşadın...

**Məlahət**–Eh... Ay Həyat, onu tanımaqla sən nə qazanacaqsan? *(Qapı zəngi.)* Sən işində ol, mən gedirəm. *(Məlahət gedir, Zeynəblə qayıdır.)* Buyur, burdadır.

**Zeynəb**–Tanımadın?

**Həyat**–Yox!

**Zeynəb**–Yaxşı bax.

**Həyat**–Dayan, dayan... Zeynəb!

**Zeynəb**–Bəli... çox dəyişmişəm?

**H ə y a t** –Çox. Ancaq gözlərindən tanıdım. Yaman kökəlmisən. *(Məlahət o biri otağa çörək aparır.)* Tamam buraxdılar, yoxsa?

**Z e y n ə b** –Tamam. Üç il yatdım. Sənin də deyəsən qonaqların var, amma çarəm yoxdur.

**H ə y a t** –Eybi yoxdur. *(Pauza.)* Nə üstə tutulmuşdunuz?

**Z e y n ə b** –Dolaşdıq, ticarət belədir də. Gəlib görürəm anam ölüb, evimiz əldən çıxıb.

**H ə y a t** –Bəs qardaşın Əbdül?

**Z e y n ə b** –Onu da İraka göndəriblər.

**H ə y a t** –İndi harada yaşayırsan?

**Z e y n ə b** –Əbdülün evində. Nə qazanmışdımsa hamısını vermişdim anama. Anam öləndə onları kimə verib, bilmirəm. Tanış-bilişin hansından soruşuramsa deyir, xəbərim yoxdur. Amma deyirlər ki, anamı müalicə eləyən həkim arvada çox yaxşılıqlar eləyib. Öləndə də yanında olub. Deyirlər, o hamısını bilir. İndi onu axtarıram. Eh... Həyat, srağagün evi yığışdırıram, sənin məktubun keçdi əlimə, o qədər ağlamışam ki...

**H ə y a t** –Nə məktub?

**Z e y n ə b** –Qospitala, Əbdülə yazdığın.

**H ə y a t** –O hələ durur? *(Gülür.)*

**Z e y n ə b** –Bəli. Saxlayır. Burdadır. *(Sumkasını göstərir.)* Baxmaq istəyirsən?

**H ə y a t** –Yox. Axı, bu...

**Z e y n ə b** –Sən onun yanında günahkarsan, Həyat!..

**H ə y a t** –Niyə? Məgər mən Əbdülə söz vermişdim?

**Z e y n ə b** –Bəs ərinin qabağında günahkar deyilsən?

**H ə y a t** –Niyə günahkar olum?

**Z e y n ə b** –Bəs məktub ərinin əlinə keçsə neylərsən?

**H ə y a t** –Sən özün Allah şahidisən, o məktubu sənin xahişinə görə yazmadım?

**Z e y n ə b** –Deyirlər, ərin yaman eşqə düşüb?

**H ə y a t** –Bunun heç kəsə dəxli yoxdur.

**Z e y n ə b** –Axı, biz dostuq. Olmaya daha məni dost hesab eləmirsən? Əlbəttə, elə olar, mən dustaqdan gəlmiş ləkəli adam, sən alim arvadı...

**H ə y a t** –(bir qədər pauzadan sonra)–Sənə nə olub ki... Yenə işlərsən, hər şey düzələr. Amma daha ticarətə getmə.

**Z e y n ə b** *(qəhqəhə çəkib istehza ilə gülür)*–Yox, biz qədimdən elə tacir olmuşuq, başqa bir iş əlimizdən gəlməz. Elə bir sənətimiz yox, savadımız yox...

**H ə y a t** –Yenə yeyinti? Bəs qorxmursan? Axı, ay Zeynəb, halal zəhmətdən niyə qaçırsan?

**Z e y n ə b** –Ağzın isti yerdədir. Sənə nə var ki, duru yerindən ayda beş yüz manatınız var. Əlbəttə, siz halal zəhmətdən ağızdolusu danışarsınız da.

M ə l a h ə t gəlir, söhbətə qulaq asır.

**H ə y a t** –Deyəsən səninki dava-davadır?.. *(Sükut.)* Bir də... Özü yıxılan ağlamaz.

**Z e y n ə b** –Mən neyləmişəm ki?

**H ə y a t** –Əvvəla, təhsili yarımçıq qoydun.

**Z e y n ə b** –Ərə getdim də, sağ getməyəydim, o da gətirmədi.

**H ə y a t** –İndi məndən nə istəyirsən?

**Z e y n ə b** –İş...

**H ə y a t** –Məndən niyə? Get, işlə.

**Z e y n ə b** –Bizim kimiləri adam yerinə qoyan var?

M ə l a h ə t butulkaları götürüb çıxır.

**H ə y a t** –Niyə elə deyirsən, ay Zeynəb, siz də hamı kimi vətəndaşsınız ya yox?

**Z e y n ə b** –Bura bax. Evdə oturmusan,dünyadan xəbərin yoxdur. O qəzet sözlərini mənə demə...

**H ə y a t** –Yaxşı, yaxşı, hirslənmə, mən də istəyirəm sənə kömək eləyim, amma...

**Z e y n ə b** –İstəsən, eliyərsən, ərinin nə çox dost-tanışı.

**H ə y a t** –Zeynəb, səni and verirəm, məndən əl çək, xəstəyəm, sabah, biri gün xəstəxanaya gedirəm. O məktubu...

**Z e y n ə b** –Qoy ovcuma, qoyum ovcuna.

**H ə y a t** –Zeynəb!..

**Z e y n ə b** –Mən getdim, sizə mane olmaq istəmirəm, fikirləş!

Zeynəb gedir, Həyat düşünür, Məlahət gəlir.

**M ə l a h ə t** –Ay Həyat, bu kimdir?..

**H ə y a t** –Keçmişdə qonşumuz olub. Ölmüş bilmirəm mənim bu vaxtımda hardan gəlib çıxdı?

**M ə l a h ə t** –Nə istəyir, axı?

**H ə y a t** –Bu Zeynəbin Əbdül adında bir qardaşı vardı, məni istəyirdi, ancaq utanırdı, deyə bilmirdi.

**M ə l a h ə t** –Sən necə? Meylin vardı, ya yox?

**H ə y a t** –Dava başlandı, bu getdi cəbhəyə. Gedəndən bir-iki ay sonra ondan məktub aldım.

**M ə l a h ə t** –Şanlı məktub, hə?

**H ə y a t** –Hə... Mən cavab yazmadım. Bir gün Zeynəb ağlaya-ağlaya gəlib dedi ki, Əbdül ölümcül yaralanıb, qospitalda yatır. Məndən xahiş etdi ki, ona bir ümidverici məktub yazım. Dedim, yaza bilmərəm, yalvardı, yaxardı, dedi, sevmirsən öz işindir, sevmə, ancaq insanlıq xatirinə bir məktub yazmağa nə var ki... Razı oldum. Özü də o diktə elədi, mən yazdım. Sonra da Əbdül sağalıb təzədən gedir cəbhəyə.

**M ə l a h ə t** –Bəs sən bu əhvalatı o zaman Reşada danışmadın?

**H ə y a t** –Yox, heç ağlıma da gəlməyib. Bir də axı, burda nə var ki...

**M ə l a h ə t** –Bəs indi niyə qorxursan?

**H ə y a t** –Bilirsən niyə? Biz Reşadla evlənəndən bir az sonra zəng çalıb ona deyirlər ki, arvadının Əbdül adlı birisi ilə sevgi macərası olub. Yəqin ki, bu Zeynəbin işi idi. Reşadın da qısqanclığını bilirsən. O məndən təkidlə soruşdu, mən qəti rədd elədim.

**M ə l a h ə t** –Məktub əhvalatını da demədin?

**H ə y a t** –Yox, dedim, milçək bir şey deyil, ürək bulandırar. İndi deyirəm, belə bir vaxtda, kişinin eşqi başına vuran vaxtda bu məktub da...

**M ə l a h ə t** –Bəli, onda bulandırmazdı, amma indi bulandırar. Deyir ən böyük biclik düzlükdür. Ər-Arvad bir-birindən balaca bir şey gizlətsə...

**H ə y a t** –Yaxşı, sən Allah, bəsdir, mənə yol göstərməkdənsə, başlamısan...

R e ş a d gəlir.

Reşad–Həyat, meyvələr hanı? Bunlar zarafat-zarafat, yaman vururlar. Məlahət, gör işin harasıdır, Şükür bəy də içir, bir ora bax.

**M ə l a h ə t** –O, limonad içər.

**H ə y a t** –Buyur.

Vazları R e ş a d a verir.

**R e ş a d** –Bu, lap rəsmi oldu ki...

**M ə l a h ə t** –Ver, mən aparım.

M ə l a h ə t vazları götürüb o biri otağa keçir.

**R e ş a d** –Həyat, sənə nə olub?

**H ə y a t** –Heç nə.

**R e ş a d** –Gözümə birtəhər dəyirsən.

**H ə y a t** –Bəs bilmirsən ki, xəstəyəm? (Həyat ürəyini tutur.) Reşad, mən xəstəxanaya getməliyəm. Özün bilirsən ki...

**R e ş a d** –Bilirəm. Mən bir-iki günə rayona gedirəm.

**H ə y a t** –Xeyir ola?

**R e ş a d** –Təcrübə obyektlərində oa-cağam.

**H ə y a t** –Axı xəstəlik gözləmir.

**R e ş a d** –Beş-altı günə qayıdıram.

**H ə y a t** –Yaxşı, mən özüm gedərəm, Fikrətin klinikasına.

**R e ş a d** –Yox, ora yox! Öz xəstəxanamıza nə gəlib. Ax, sənin qardaşın, mayeyi-fəsad odur.

İ r a d ə qaça-qaça gəlir.

**İ r a d ə** –Ana, Ana! *(Paltarını göstərir.)* Necədir, gör, atam mənə nə gözəl paltar alıb?!

**H ə y a t** –*(uşağı qucaqlayıb öpür)*–Gözəldir, qızım, lap əyninədir!

**İ r a d ə** –Sağ ol, ata! *(Atasını öpür.)*

**R e ş a d** –*(öz-özünə)*–Sağ ol, çox sağ ol!

F i k r ə t gəlir.

**F i k r ə t** –Mübarək!.. *(İradənin saçlarını sığallayır.)* Eynən nənənə oxşayırsan. (Həyata üz tutur.) Həyat, gör, anamıza necə oxşayır.

**H ə y a t** –Ay Fikrət! Elə bunun üçün də mən ona anam deyirəm.

**M ə l a h ə t** *(gəlir)*–Mübarək! Bəh-bəh! Nə gözəldir, necə də yaraşır.

**F i k r ə t** –İndi qalır bir məsələ.

**İ r a d ə** –Bilirəm, bilirəm.

**M ə l a h ə t** –Nə məsələ? Deyin biz də bilək.

**İ r a d ə** –Demə, demə.

**F i k r ə t** –Yox, deyəcəyəm, burda şərt kəsək ki, sonra sən işə ürəklə başlayasan.

**İ r a d ə** –Mən ki, dediyimi eliyənəm.

**F i k r ə t** –Onu bilirəm. Amma burda kim var ki, özümüzük. Demək, məsələ belədir, İradə xəstə olduğuna görə keçən il beşinci sinifdən musiqi məktəbini atmalı oldu. Bu ildən təzədən getmək istəyir, ancaq beşinci sinfə götürmürlər. Gərək imtahan verə.

**İ r a d ə** –Söz vermişəm, eliyəcəyəm.

**R e ş a d** –Ancaq eliyə bilməsən, adını dəyişəcəyik, ha...

**M ə l a h ə t** *(üzünü otağa tutub)*–Şükür, Şükür, bir bura gəl, bir balamıza bax!

**Ş ü k ü r b ə y** –Yenə nə olub, ay xanım arvad?

**M ə l a h ə t** –Di gəl görək.

Ş ü k ü r b ə y gəlir, asqırır.

**Ş ü k ü r b ə y** –Mübarək, qızım! Zökəm məni öldürdü *(Məlahətə)*, görüm o dərmandan!..

**F i k r ə t** –Dərmanı neyləyirsən, əgər mən həkiməm-sə zökəmin dərmanı araqdır.

**Ş ü k ü r b ə y** –Sən Allah, qoy dərmanımızı atıb...

**F i k r ə t** –Yaşayaq özümüzçün, hə?

**M ə l a h ə t** –O elə həmişə zökəmdir.

**R e ş a d** *(Şükür bəyə müraciətlə)*–Bilirsən niyə? Palıdda, qarağacda zökəm olarmı, yoldaş bioloq?

**F i k r ə t** –Yox!

**R e ş a d** –Zökəm parnik xəstəliyidir.

**Şükür bəy**–Deyirsən indi biz parnik tərəvəziyik?

**Fikrət**–Həmişə evdə, kabinetdə. Hava üzü görmürsən. İşə də maşınla gedib gəlirsən. Ömrün qutu-larda keçir, ev qutu, kabinet qutu, maşın qutu.

**Reşad**–Nəhayət, tabut qutu, məzar qutu, qutu, qutu içində.

**Məlahət**–Ay Reşad qardaş, iraq olsun, nə danışırsan?

**Şükür bəy**–Arvad, indi gördün, bu mənə nə arzulayır? Eh, Fikrət, zaman dəyişib, dostla düşməni ayırmaq olmur. İllərlə dost bildiyin adam, bir də görürsən səni qoyub özgəsinə havadar çıxdı. *(Asqırır.)* Bu qədər də gerçək.

**Reşad** *(öz-özünə)*–Özgə... özgəsi... *(Ucadan.)* Görəsən, özgəsi kimdir, özümüz kimik?

**Şükür bəy**–Bilmirsən?

**Reşad** *( gözü qəzetdə)*–Fransa NATO ittifaqından çıxdı...

Şükür bəy Reşadı tərstərs süzür.

**Şükür bəy**–Özünə umac ova bilməyən özgəyə niyə əriştə kəsir, axı?

**Reşad** *(gözü qəzetdə)*–Fransa NATO ittifaqından çıxdı...

Şükür bəy Reşada tərstərs baxır.

**Fikrət**–Başqasına əl tutmaq məgər pis işdir?

**Şükür bəy**–Fikrət, anasını əmən uşaq görmüsənmi?

**Fikrət**–Çox!

**Şükür bəy**–Döşün birini əmir, o birisini də əli ilə tutur, deyir, o da mənimdir.

**Fikrət**–Bu köhnə sözdür...

**Şükür bəy**–Təzə də köhnənin üzərində qurulur.

Fikrət, sənin bu yeznən öz işindən ötrü mənimlə çomaq davasına çıxsa, məni yandırmaz, əşi, özgəsindən ötrü? Kişi qoymur da yaşayaq özümüz üçün.

**Reşad** *(gözü qəzetdə)*–Kennedinin arvadı ərə gedir.

**Şükür bəy**–İndi durub onun dərdini çəkəcəyik?!

Şükür bəy Reşadın əlindən dartıb qəzeti alır.

**R e ş a d** –Şükür bəy, bayaqdan baxıram, saçısaqqalı lap ağartmısan ey...

**Ş ü k ü r b ə y** –Sənin kimilərin dərdini çəkməkdən. Deyirəm, bunu da içək...

**R e ş a d** –Ay qardaş, limonadla da sağlıq deyərlər?

**Ş ü k ü r b ə y** –Sizin mənimlə nə işiniz. Siz arağınızı için. Hə, içək Fikrətin sağlığına, mən Fikrəti çox istəyirəm, ona görə ki, o, ağıllı adamdır, hissə qapılan deyil bəzi adamlar kimi. Fikrət həkimdir, arzu edirəm bizim ona ehtiyacımız olmasın. Ona görə ki, şair demişkən, can sağlığı dünyanın ən böyük nemətidir. Əgər Kamal kimilər qoysa... *(İçirlər.)*

**R e ş a d** –Şükür bəy, yenə deyirəm, əl çək bu Kamaldan. O, çox təmiz adamdır.

**Ş ü k ü r b ə y** –Yəni Kamal, sənə məndən də əziz olub?

**F i k r ə t** –Balam, bu hansı Kamaldir?

**Ş ü k ü r b ə y** *(Reşadı göstərir.)*–Bu cənabın köhnə aspirantı.

**F i k r ə t** –Balam, o ki, qabiliyyətli oğlandır.

**Ş ü k ü r b ə y** –Qabiliyyətinə sözüm yox. Amma iddiasından göy çatlayır. İclaslarda bizi biabır eləyir, susuruq, yerindən atmacalar atır, dinmirik, bizi bəyənmir, dözürük. Dünən də gəlib kabinetə məni biabır eləyib. Əşşi, belə də dərd olar? Biz nə qədər dözək? İndi mən də qoymuşam onun məsələsini, ya o, ya mən.

**F i k r ə t** –Bu Kamal nə deyir, axı?

**Ş ü k ü r b ə y** –Nə deyəcək... Onun sözündən belə çıxır ki, qoca alimləri naftalinləyib verək muzeyə.

**R e ş a d** –Qoca alimləri yox, fikrən qocaları deyir.

**Ş ü k ü r b ə y** –İndi sizin bu qoca dediklərininiz öz zərbidəstini göstərsin, sən də bax.

**R e ş a d** –Xeyr, mən kənardan durub baxanlardan deyiləm.

Ş ü k ü r b ə y qəzet oxuyur.

**Ş ü k ü r b ə y** –Ay ölən var ha... *(Eynəyinin üstündən Məlahətə.)* Bir analgin versənə, atım.

**R e ş a d** –Sən xoşbəxtsən.

**Ş ü k ü r b ə y** –Nədən bildin?

**R e ş a d** –Ağrını analginlə yox eliyə bilirsən.

**Ş ü k ü r  b ə y** –Kamalın ağrısını heç on ton analginlə də yox eləmək olmaz. *(Pauza.)* Ay balam, Kamalı qanadın altına almısan, al, daha bizi niyə tapdalayırsan?

**F i k r ə t** –O həmişə belədir. Birini, başqasının hesabına sevir.

**R e ş a d** –Şükr bəy, gəl, indi əyri oturaq düz danışaq, bu axır bir ildə bizim institut neyləyib? Kamal sərt dedi, amma həqiqəti deyirdi, axı!

**Ş ü k ü r  b ə y** –Ə, bu nə danışır? Bəs bu vaxta qədər elədiklərimiz elm deyildir?

**R e ş a d** –Biz bu vaxta qədər nəyin necə olduğunu öyrənmişik, indi gəl niyə belə olduğunu öyrənək. Bax, bu əsil elm olar.

**Ş ü k ü r  b ə y** –Reşad, sən Allah, qoy yaşayaq özümüz üçün. Uşaq-muşağa dil vermə. Söz gedər çatar böyüklərin qulağına, di gəl bundan sonra baş girlə, görüm necə girləyirsən.

**R e ş a d** –Şəraiti dəyişməklə arpanı buğda eləyirdiniz, nə oldu? Bilmirəm, bu uydurma nağıllardan yaxamızı nə vaxt qurtaracağıq?

**Ş ü k ü r  b ə y** –Əvvələ, hələ ki, akademik Lısenko sağdır, ikincisi də hələ bu barədə bizə yuxarıdan göstəriş yoxdur.

**R e ş a d** –Öz ağlımız da yoxdur?

**Ş ü k ü r  b ə y** –Maşallah, sən ağıl dəryasısan.

**R e ş a d** –Şükür!

**Ş ü k ü r  b ə y** –Sən gəl köhnə bazara təzə nırx qoyma!

**R e ş a d** –Sən də, buyruq quluna dönmə, bir az da öz ağlını işlət!

**F i k r ə t** –Siz deyəsən zarafat-zarafat davaya keçirsiniz, yaxşı, siz Allah, bəsdirin.

**Ş ü k ü r  b ə y** –Fikrət, ağıldan dəm vuranları həmişə ağılsız gördük. Öz gözündə tiri görməyənlər başqasının gözündə qıl axtarır. *(Reşada.)* Sən kimə dərs verirsən? Bir özünə bax, gör Həyat kimi gözəl bir insanın başına nə oyun açırsan?

**R e ş a d** –Sən mənim yarama toxunursan.

**Ş ü k ü r  b ə y** –İstəmirdim, amma məcbur eləyirsən... Sənin üçün heç bir qayda-qanun yoxdur. Öz dərdini çək, kamalların dərdinə qalma!

**R e ş a d** –Yox, mən sən ola bilmərəm.

**Ş ü k ü r  b ə y** –El üçün ağlayan gözsüz qalar, bala!

**R e ş a d** –Kor olsun o gözlər ki, el üçün ağlamır.

**Ş ü k ü r b ə y** –Ağrımayan başına dəsmal bağlama, palaza bürün elnən sürün.

**R e ş a d** –Şükür bəy, bu qoyun fəlsəfəsini hardan belə öyrəndin?

**Ş ü k ü r b ə y** *(ayağa qalxır)*–Necə? İndi qoyun olduq? Çox sağ ol! Afərin sənin tərbiyənə!

M ə l a h ə t l ə H ə y a t gəlir.

**M ə l a h ə t** –Al, dərmanı!

**Ş ü k ü r b ə y** –At o yana, mən dərmanımı içdim, gəlmirdim, məni sən gətirdin.

**M ə l a h ə t** –Nə olub?

**Ş ü k ü r b ə y** –Nə olacaq? Kamal kimdir ki, ondan ötrü qoyun da olduq?

**F i k r ə t** –Şükür bəy, yaxşı, əyləşin!

**Ş ü k ü r b ə y** –Bundan sonra nə əyləşim? Mən bayaqdan dözürdüm.

**H ə y a t** –Şükür qardaş, siz Allah...

**Ş ü k ü r b ə y** –Həyat bacı, sən çox yaxşı adamsan, hayıf səndən!

Ş ü k ü r b ə y l ə M ə l a h ə t gedir.

**F i k r ə t** –Reşad, axı, öz evində qonağı təhqir eləmək yaxşı deyil.

**R e ş a d** –Mən nə elədiyimi yaxşı bilirəm.

**F i k r ə t** –Özün bilərsən. Bacı, mən də getdim. (Fikrət gedir.)

**H ə y a t** –Reşad, sən lap ağ eləmisən. Düz demirlər? Bir uşaqdan ötrü neçə illik dostluğu niyə yerə vurursan?! Neçə ilin peymanını sən kimə dəyişirsən? Sən niyə belə etibarsız oldun?

**R e ş a d** –Mən etibar naminə haqdan keçim? Sən məni hara çağırırsan? Başqaları məndən razı qalsın deyə, mən kor olmalıyam, lal olmalıyam?

**H ə y a t** –Bəs başqaları da adam deyil? Onlar heç nə bilmir, bilən elə bircə sənsən? Belə bilənsənsə bəs öz nöqsanlarını niyə görmürsən, niyə bilmirsən?

**R e ş a d** –Mən bilirəm, sən necə?

**H ə y a t** –Mənim nə nöqsanım var? Ana kimi başına dolanmağım, qulluğunda durmağım mənim nöqsanımdir? Hər şıltağına dözüb dinməməyim, mənim nöqsanımdımı? Çox sağ ol, Reşad, çox sağ ol!

**R e ş a d** –Yaxşı, bəsdir!

İ r a d ə gəlir.

**H ə y a t** –Evə kirayənişin kimi gəlib gedirsən. Evin dərdindən xəbərin yox, çorundan xəbərin yox! Deyirəm, xəstəyəm, deyirsən, rayona gedirəm, gözlə. Mən cəhənnəmə, heç olmasa evini, uşağını düşün.

**R e ş a d** –Ah! Başladı yenə, ev, uşaq, dükan, bazar, nə bilim nə...

**H ə y a t** –Vallah, mən səni başa düşmürəm. Sən necə adamsan?

**R e ş a d** –Sən məni heç vaxt başa düşməmisən. Get stolu yığışdır.

H ə y a t pərişan halda gedir. R e ş a d dönüb İradəni görür.

**İ r a d ə** –Ata. *(Qəzəblə qışqırır. Atasına sığınır.)* Sənə mahnı çalımmı, ata?

**R e ş a d** –Çal, qızım, çal.

**İ r a d ə** –Yenə onumu?

**R e ş a d** –Onu çal, qızım, onu.

R e ş a d araq töküb içir, pərişan halda əyləşib əlləri ilə başını tutur. İ k i n c i R e ş a d görünür.

**İ k i n c i R e ş a d** –Sən niyə hamını özündən incidirsən?

**R e ş a d** – Məgər mən haqlı deyiləm?

**İ k i n c i R e ş a d** –Haqlısan, ancaq bu qədər çılğınlıq nəyə lazım?

**R e ş a d** –Şükür bəy mənim ən təmiz hissimə, məhəbbətimə toxundu.

**İ k i n c i R e ş a d** –Burda o haqlıdır. Yaxşı, o bir yana qalsın, bəs bu yazıq arvadın günahı nədir? Onun məhəbbətini tapdadığın az deyil. Hələ bir...

**R e ş a d** –Biz başqabaşqa adamlarıq. Onun hissləri, fikirləri, bu dar otaqlardan kənara çıxa bilmir, məni də bu çərçivəyə salmaq istəyir. Amma mən ora sığa bilmirəm.

**İkinci Reşad**–Bu, xəyanətinə qazandırdığın uydurma bəraətdir. Əgər doğrudan belədirsə, bu vaxta qədər necə yaşamısınız?

**Reşad**–Bu vaxta qədər o öz aləmində yaşayıb, mən də öz aləmimdə.

**İkinci Reşad**–Sən təmizsən o?

**Reşad** *(xeyli fikirdən sonra)*–Mən Arzunu saf bir məhəbbətlə sevirəm.

**İkinci Reşad**–Bu sözü hamının qarşısında deyə bilərsənmi?

**Reşad**–Bəli, mənim hissimdə bir çirkinlik, bir riyakarlıq yox isə... Niyə onu gizlətməliyəm?

**İkinci Reşad**–Tamamilə düz! Lakin sən bu sözləri arvadının qarşısında da deyə bilərsənmi? *(Sükut.)* Niyə susursan? Susma, onda icazə ver, mən sənin məhəbbətinin tamlığına inanmayım.

**Reşad**–Yox! Elə deyil, mən burda acizəm, cəmiyyət...

**İkinci Reşad**–Sevən heç vaxt özünü düşünməz, sevdiyini düşünər. Sən bir qadının xoşbəxtliyindən oğurlayıb o birisinə verirsən. Nəticədə, ikisi də bədbəxt olur. Bunu bilirsənmi?

**Reşad**–Heç bilmək də istəmirəm, mən sevirəm.

**İkinci Reşad**–Sevirsən, bunu da arvadın bilir. Unutma ki, arvadların intiqamı yaman olur ha!.. Sonra o intiqama dözə bilməzsən.

**Reşad**–Hə... o zənglər? Yox!.. O, mələk qədər təmizdir...

**İkinci Reşad**–Sən odla oynayırsan. Bu oyun hələlik xoşdur, amma bunun arxasında uçurum durur.

**Reşad** *(gülür)*–Nə olsun? Məgər, hər gündüzün sonu gecə, hər enişin sonu yoxuş, hər həyatın sonu ölüm deyilmi? Yaşayırkən bunlar haqqında düşünməyə dəyərmi?

**İkinci Reşad**–Ancaq hisslərə bu qədər də azadlıq vermək olmaz. Hisslərini cilovla, ən böyük pəhləvan özü özünü yıxmağı bacarandır.

**Reşad**–Bəs yaşamaq, yanmaq, hiss etmək, sevmək?..

**İkinci Reşad**–Ancaq məhəbbətin özü də müəyyən qaydalar çərçivəsində olmalıdır.

**Reşad**–Qayda –Məhəbbət! *(Gülür.)* Bunlar ki, tutan şey deyil.

**İkinci Reşad**–Ailə, nikah–qaydadır, qanundur və müqəddəsdir.

**R e ş a d** –Məhəbbət isə azadlıq! Mən azadlıq istəyirəm!

**İ k i n c i  R e ş a d** –Cəmiyyətdə qanundan kənar yaşamaq olmaz.

**R e ş a d** –Əl çək! Sən mənim xoşbəxtliyimi əlimdən almaq istəyirsən.

**İ k i n c i  R e ş a d** –Bu, ötəri xoşbəxtlikdir...

**R e ş a d** – Əl çək! *(İkinci Reşad çəkilir.)* Doğrudan da mən xoşbəxtəmmi?

A r z u ilə bərabər həmişə dinlədikləri mahnı. R e ş a d düşünür.

Ürək parçalandı, ömür gödəldi
Öz arzum cücərdi, bağrımı dəldi.
Hamıya, hamıya yazığım gəldi,
Amma öz-özümə qatil olmuşam.
Dərdə bax, əlimdə qəzəb qamçısı,
Gözümdə qəlbimin atəş damcısı,
Bir yandan özümün ittihamçısı,
Bir yandan özümə vəkil olmuşam.

Səhnə fırlanır. A r z u n u n evi. A r z u tək düşünür. O da eyni mahnını dinləyir.

## YAŞAMAQ NƏDİR

## İKİNCİ MƏCLİS

### DÖRDÜNCÜ SƏHNƏ

A r z u n u n evi. R e ş a d və A r z u.

**R e ş a d** – Belədir də, Arzu, həyat mübarizədir.

**A r z u** – Deyəsən, institutda da işlərin yaxşı getmir?

**R e ş a d** – Bəli, sənin qonşun Şükür bəyə qarşı durmalı olmuşam.

**A r z u** – Səndən yaman gileylənirlər.

**R e ş a d** – Neyləyim ki, istəməsəm də çox vaxt onunla toqquşmalı oluram. İnstitutun direktorudur. Hamıya yol göstərmək əvəzinə buyruq

quluna dönüb, suyu da üfürə-üfürə içir. Bu vaxta kimi bir adama nə xeyri dəyib, nə zərəri.

**A r z u** – Təəssüf ki, belələri az deyil.

**R e ş a d** – Bəli, bu gün səhər işə gedirdim. Bir qadın mənə yanaşıb, iki qəpiklik istədi. Məlum oldu ki, qardaşının ürəyi gedib. Qadın təcili yardima zəng çalmaq istəyir. Bu zaman bir təcili yardım maşını gördük. Əl elədik, saxladı. Əhvalatı həkimə danışdıq. Həkim nə desə yaxşıdır? Bura mənim uçastokum deyil. Öz uçastokunuzun həkiminə zəng çalın. Yerimdəcə donub qaldım.

**A r z u** – Belələrinin təkcə bədəni deyil, vicdanları da piy bağlayıb.

**R e ş a d** – Sabir gözəl deyib:

Daş qəlbli insanları neylərdin, ilahi?!
Bizdə bu soyuq qanları neylərdin, ilahi?!

**A r z u** – Mən səni çox yaxşı başa düşürəm.
Yaşamaq istəmirəm, sürünüb dizindizin,
İstəyirəm ən uca zirvələrə mən qonam.
Xəfif sakitliyini neyləyirəm dənizin
Onun qasırğasına, dalğasına vurğunam!
Qoy döysün yağış məni, boran məni, qar məni.
Həyatın boranları daim yaşadar məni.

**R e ş a d** – Eh, Arzu, ehkamçılıq bizi yordu. O gün iclasda Kamal bir danışdı, gəl görəsən, açdı sandığı, tökdü pambığı. Vaxtilə elədiklərinin kölgəsində gizlənən bəzi qocaları yaman silkələdi. Kamal düz elədi, amma çıxışı çox sərt idi.

**A r z u** – Sərtlik elə səndə də var.

**R e ş a d** – Dünənki iclasda onun institutdan çıxarılmaq məsələsi də qoyulmuşdu. Bacarmadılar, əksəriyyət Kamalın tərəfində oldu.

**A r z u** – Yaxşı. Bəs Fikrəti niyə incitmisən?

**R e ş a d** *(əsəbi)*– O özü sənə şikayət eləyib? Xahiş edirəm onun adını mənim yanımda çəkməyəsən. *(Sükut.)*

**A r z u** *(zarafatla)*– Qısqanırsan?

**R e ş a d** – Mən qısqanmıram, ona qibtə eləyirəm, onun səni sevməyə haqqı var, amma mən...

**A r z u** – Haqsız olsan da sevilirsən.

**R e ş a d** – Yox, daha dözə bilmirəm, əsəblərim korlanıb. Artıq Həyat da üzə durub. Rayona gedirəm, xudahafizləşmək əvəzinə yenə dalaşdıq.

**A r z u** – Nə üçün, niyə?

**R e ş a d** *( gərgin pauzadan sonra)*–Heç özüm də bilmirəm, doğrusu, özüm də özümdən baş açammıram.

**A r z u** – Reşad, başqasını tanımamaq olar, vay o gündən ki, adam öz-özünü tanımaya, öz-özündən baş açmaya.

**R e ş a d** – İnsan qəribə məxluqdur, bilir, amma bilmək istəmir, duyur, duyduğundan keçə bilmir, hissimiz özümüzdən güclü imiş.

**A r z u** – Biz ikimiz də ikiyik. Çünki yol ayrıcında, hisslə fikir ayrıcındayıq.

Reşad–Bu müsibətdir! İçimdə mübarizə, çölümdə mübarizə!

**A r z u** – Tutduğu işin günah olduğunu bilməyən günahkar xoşbəxtdir, amma...

**R e ş a d** – Günahkar olduğunu bilən günahkar isə bədbəxtdir. *(Pauza.)* Bəs yaşamaq nədir? Yeyib yatmaq, işləyib dincəlmək? Eh, cəfəngiyat! Mən yol üstündəyəm. Belə söhbətlərin vaxtı deyil. *(Saatına baxır.)* Gecikirəm, hələlik!

**A r z u** – Çatan kimi zəng elə! Sağlıqla!

R e ş a d gedir. Pilləkən başı. A r z u onu ötürür.
M ə l a h ə t öz evindən çıxır, bunları görür.

**M ə l a h ə t** – Arzu! Bəsdir, bu dərd yazıq Həyatı lap üzdü. Sən özün də batırsan. Su xirtdəyindəndır.

**A r z u** – Dost deyilsən? Xilas elə.

**M ə l a h ə t** – Kənardan olan təkan səni batırar, təkan içəridən olmalıdır. Özün çapala, özün çıx.

**A r z u** – Çıxa bilsəydim...

**M ə l a h ə t** – Bəs bu neçə ildə yorulmadın? Bir düşün, Arzu!

**A r z u** – Düşün demək asandır, beyin düşünə bilir, ürək yox!

**M ə l a h ə t** – Sən başqasını sevməlisən, yoxsa onu unuda bilməyəcəksən.

**A r z u** *(istehzalı gülür)* –Başqası!

**M ə l a h ə t** – Başqası Fikrət, o ki səndən ötrü sinov gedir. Özünüz də bir yerdə işləyirsiniz. Hər xasiyyətinə bələdsən!

**A r z u** – Məlahət, başa düş, mən yalnız Reşad kimisini sevə bilərəm.

**M ə l a h ə t** – Bəli, sevginin gözü kor olur. Bəs onun ailəsi?

**A r z u** – Eşitmirəm, sevginin qulaqları da kar olur. Sevirəm, demək haqlıyam.

**M ə l a h ə t** – Bəs bunun axırı nə olacaq? Axı, ən böyük məhəbbəti belə ZAQS möhürü təsdiq etməlidir.

**A r z u** – Sən möhürsüz məhəbbəti qəbul etmirsən?

**M ə l a h ə t** – Xeyr.

**A r z u** – Mən isə sənin möhür altına düşən məhəbbətinə qibtə etmirəm.

**M ə l a h ə t** – Ancaq bütün bəşəriyyət ordan gəlib keçir... *(Sükut.)* Arzu, babalı qoy mənim boynuma. Get Fikrətə, kişi o boyda klinikanın müdiri, professor, vur qoltuğuna bu kişini, gəz dünyanın gözəl yerlərini, Reşad elə yadından çıxsın ki...

**A r z u** – Yox!.. Mən sevmədiyim adamla yaşaya bilmərəm.

**M ə l a h ə t** – Sən elə bilirsən, bütün bu ər-arvadlar, hamısı bir-birini sevir? Yox! Amma yenə yaşayırlar. Heç kəs bilməsə də mən bilirəm, səni nə qədər istəyən olub.

**A r z u** – Düzdür, neyləyim ki, mən sevə bilməmişəm. Mən arzuladığım adamı yalnız röyalarımda və xəyallarımda görərdim, həyatdasa axtarardim. Nəhayət, tapdım. Bu da belə. İndi mən nə edim? Çətinliklə tapdığımı asanlıqla əlimdən necə verim? Başa düş, Reşadın yanlışı da mənim üçün naxışdır.

**M ə l a h ə t** – Düzdür, başqasına öyüd-nəsihət vermək asandır, ancaq bir dost kimi bunları sənə deməliyəm... indi özün bilərsən.

Məlahət gedir. Arzu tək düşünür. İkinci Arzu görünür.

**A r z u** – Niyə hamı məni danlayır? Niyə heç kəs mənə haqq vermir?

**İ k i n c i  A r z u** – Haqlısan ki, haqq versinlər, Arzu?

**A r z u** – Axı, mən sevirəm!.. Sevirəm!..

**İ k i n c i  A r z u** – Sən sevirsən! Bəs... axı, sən sevdiyini səndən əvvəl başqası sevib! Bəs, onda niyə sən özünü haqlı, o birisini haqsız

bilirsən?

**A r z u** – O da haqlıdır, mən də haqlıyam.

**İ k i n c i  A r z u** – İkinizin haqqı bir qalıba sığmaz. Sənsə... bir yerdə yaşaması mümkün olmayan iki şeyi bir yerə sığışdırmaq istəyirsən. Bax, budur sənin faciən!

**A r z u** – Yox, mən sevirəm, demək yaşayıram.

**İ k i n c i  A r z u** – Amma haqsız məhəbbət, insana xoşbəxtlik yox, bədbəxtlik gətirər. Məhəbbət, doğrudan da insanın ən təmiz, ən müqəddəs hissidir. Ancaq sənin məhəbbətin başqalarının gözündə səni alçaldir, rüsvay edir. Buna nə deyirsən?

**A r z u** – Neyləyim ki, başqaları nifrətində müqəssir olursa, mən bədbəxt məhəbbətimdə müqəssirəm. İşə bax, təmizliyimdə çirkinlik, yüksəkliyimdə alçaqlıq tapmışam.

**İ k i n c i  A r z u** – İndi ki, sən özün bunları bilirsən, niyə başına çarə qılmırsan? Özünü məhv edirsən. Məgər sənə də ailə, uşaq, isti ocaq lazım deyilmi? Nə vaxta qədər yatanda özünü, qalxanda dizini görəcəksən?

**A r z u** – Məhəbbətsiz həyat, həyat deyil. Mən sevərək yaşamaq istəyirəm.

**İ k i n c i  A r z u** – Bu sadəcə arzudur, amma unutma, arzu başqa, imkan başqa, sevgi başqa, haqq başqa!

**A r z u** – Bəs yaşamaq nədir?

## BEŞİNCİ SƏHNƏ

Xəstəxana. Həkim otağı. M ə l a h ə t darıxmış halda telefonla zəng edir.

**M ə l a h ə t** – Allo, allo, hardandır? Arzu! 81-16 ya. Bağışlayın. *(Bir də zəng vurur.)* Cavab vermir, yəqin çıxıb...

F i k r ə t hövlnak daxil olur.

**F i k r ə t** – Məlahət xanım, Arzuya zəng çaldılarmı?

**M ə l a h ə t** – Bəli, dalıyca maşın da göndərdilər. Telefon cavab vermir. Yəqin ki, çıxıb.

**F i k r ə t** – Bəs şəfqət bacısı hanı?

**M ə l a h ə t** – Oksigen balışı üçün getdi... *(Pauza.)* Fikrət, vəziyyəti ağır deyil ki?

**F i k r ə t** – Yaxşı ki, sən yanında olmusan.

**M ə l a h ə t** – Yazıq Həyat! Fikirdən özünü üzdü.

A r z u gəlir. F i k r ə t i çox mənalı süzür.

**A r z u** – Nə olub?

**M ə l a h ə t** – Həyatın ürəyi... *(Arzu xalatını geyib karıxmış halda palataya keçir. Fikrət Məlahətə yol göstərir.)* Yox! Mən dözə bilmərəm, bir az keçsin gələrəm. *(Fikrət də palataya keçir.)* Dəhşət!.. Görəsən insanlar niyə bir-birlərinə bu qədər əziyyət verirlər? Elə bil birinin yaşaması üçün o biri əzilməlidir.

F i k r ə t gəlir.

**F i k r ə t** – Məlahət xanım, Həyat evdən nigarandır. İndicə İradə dərsdən gələcək.

**M ə l a h ə t** – Mən gedərəm.

**F i k r ə t** – Yox, artıq gecdir...

**M ə l a h ə t** – Fikrət, Reşada xəbər eləməyək?

**F i k r ə t** – Yox, lazım deyil.

**M ə l a h ə t** – Reşad buna nə deyəcək? Sən bu barədə fikirləşmisənmi?

**F i k r ə t** – Nə deyəcək desin, başqa əlac yoxdur.

**M ə l a h ə t** – Nə deyim, vallah, özünüz bilən yaxşıdır *(Pauza.)* Hə... indi rahat ola bilərik. Arzu gəldi, özü də xəstənin kim olduğunu bilə-bilə.

**F i k r ə t** – Ayrı cür də ola bilməzdi. Biz ki, Arzunu tanıyırıq.

**M ə l a h ə t** – Ancaq... qorxuram, Fikrət, birdən Həyat Arzunu tanısa...

**F i k r ə t** – Onların bir-birini tanımaları, özü də yaxından tanımaları vacibdir.

M ə l a h ə t palataya keçir, A r z u gəlir.

**F i k r ə t** – Necədir?

A r z u cavab vermir, o, əsəbi hallar keçirir.

**A r z u** – Fikrət, sən bu oyunu mənim üçün qurmusan. Sən bacını qəsdən bizim xəstəxanamıza gətirmisən.

**F i k r ə t** – Hər halda qardaş istər ki, bacısı öz gözləri qabağında müalicə olunsun.

**A r z u** – Kimin əlilə?

**F i k r ə t** – Sənin əlinlə. O sənin xəstəndır.

**A r z u** – Demək istəyirsən ki, yaranı sən vurmusan, sən də sağalt.

**F i k r ə t** – Haqq vermirsən?

**A r z u** – Yox! Bəlkə də... Bunu başqa məqsədlə... mənə əzab vermək... məndən...

**F i k r ə t** – Arzu, sən məni nə hesab eləyirsən?.. Sən mənim ürəyimi bilsəydin...

**A r z u** – Fikrət, bəlkə də... mən səhv edirəm... ancaq... başa düş, mənim üçün çox çətİndir... Onunla rastlaşa bilmərəm...

**F i k r ə t** – Başa düşürəm, əgər burda səndən yaxşı ürək mütəxəssisi olsaydı... Həm də mən sənə inanıram... onu yalnız sən sağalda bilərsən!

İ r a d ə gəlir. O ad günü münasibəti ilə A r z u n u n aldığı paltardadır.

**İ r a d ə** – Dayı, anama nə olub?

**F i k r ə t** – Heç nə, qızım, qorxma.

**İ r a d ə** – Dərsdən gəldim, qonşular dedilər ki, ananı dayın xəstəxanaya apardı... elə qorxdum... dayı...

A r z u oğrun baxışlarla İ r a d ə n i süzür, onun paltarına baxır.

**F i k r ə t** – Nahaq, qızım, indi gedərik görərsən, heç nə yoxdur. Doktorla tanış deyilsən? Tanış ol, ananın həkimidir.

İ r a d ə A r z u ilə görüşür.

**İ r a d ə** – Doktor, anam...

**A r z u** – Qorxma, qızım, anan tez sağalacaq. *(İradəni bağrına basır, onu qəhər tutur üzünü kənara çevirir.)*

**İ r a d ə** – Dayı... axı... *(Əzab çəkir.)* mən...

**F i k r ə t** – Nə var?

**İ r a d ə** – Dayı, mən hamısını bilirəm... mən...

**F i k r ə t** – Sən nə bilirsən?

**İ r a d ə** – Onlar... elə bilir... mən heç nə bilmirəm... amma...

A r z u həyəcan keçirir.

**F i k r ə t** – İradə, qızım.

**İ r a d ə** – Bilirəm, dayı, hamısını... bilirəm...

**F i k r ə t** – Yaxşı, bəsdir!.. Gedək ananla görüş.

İ r a d ə palataya keçir... F i k r ə t l ə A r z u xeyli bir-birini süzür, baxışlarla danışırlar. F i k r ə t gedir. A r z u əlləri ilə başını tutur. Z e y n ə b gəlir.

**Z e y n ə b** – Olar? Mənə doktor Arzu lazımdır.

**A r z u** – Arzu mənəm.

**Z e y n ə b** – Hə, salam.

**A r z u** – Salam.

**Z e y n ə b** – Necəsiniz? Vallah, sizi o qədər axtarmışam, lap əldən düşmüşəm.

**A r z u** – Əyləşin.

**Z e y n ə b** – Deyirlər, siz mənim anamın həkimi olmusunuz, ona övladlıq eləmisiniz. Öləndə də yerdən siz götürmüsünüz.

**A r z u** – Siz Tavat xalanın qızısınız?

**Z e y n ə b** – Bəli.

**A r z u** – Demək, sizi buraxıblar? Mən sizi axtarırdım. Bəli, mən üç aya qədər ananızı müalicə elədim. Xeyri olmadı.

**Z e y n ə b** – Sənə qurban olum, ay həkim, danışın.

**A r z u** – Mən o zaman sahə həkimi işləyirdim. Gündə 2-3 dəfə ananızı yoluxardim. Bəzən gecələr də yanında qalardim. Öləndə də vəsiyyətini mənə elədi.

**Z e y n ə b** – Necə? Hə, nə dedi, nə verdi?

**A r z u** – Mənə bir kağız verdi. Orada ananız sizin varidatınızı kimə tapşırdığınıyazır, notariusda təsdiq etdirmişəm.

**Z e y n ə** – Siz ki, bunu eləmisiniz. Mən sizə ömrüm boyu qul olmağa hazıram.

M ə l a h ə t gəlir.

**M ə l a h ə t** – Arzu, iynəni vursunlar?

**A r z u** – Vursunlar, mən özüm də gəlirəm.

M ə l a h ə t Z e y n ə b i tanıyır.

**M ə l a h ə t** – Arzu, bir dəqiqə olar? *(Kənara çəkilirlər.)* Bu hardan hara?.. Ay qız, bilirsən bu kimdir? Sənə dediyim Zeynəb budur da...

**A r z u** – Necə? Nə danışırsan? Çox yaxşı! *(Məlahət gedir. Zeynəbə yaxınlaşır.)* Sizin ananız çox gözəl adam idi.

**Z e y n ə b** – Hanı indi elə gözəl adamlar? İndi hamı odu öz qabağına eşir.

**A r z u** – Siz ki, pis adamlardan bu qədər şikayətlənirsiniz, bəs özünüz niyə başqasına pislik edirsiniz?

**Z e y n ə b** – Mən kimə pislik eləmişəm?

**A r z u** – Həyat xanıma... Xəstə bir qadını nə hallara saldığınızı bilmirsiniz?

**Z e y n ə b** – Yox, o başqa...

**A r z u** – Zeynəb! İstədiyiniz vaxt o kağızı gəlib apara bilərsiniz, amma bir şərtlə, Həyat xanımın sizdə olan məktubunu mənə qaytarmalısınız.

**Z e y n ə b** – Nə məktub?

**A r z u** – Özünüz çox yaxşı bilirsiniz.

**Z e y n ə b** *(uzun fikirdən sonra)*–Yaxşı.

Z e y n ə b gedir. İ r a d ə ağlaya-ağlaya gəlir.

**A r z u** – Niyə ağlayırsan? Ağlama.

**İ r a d ə** – Doktor!..

**A r z u** – Qızım, sən anandan lap arxayın ol, mən baxmışam, ananda qorxulu bir şey yoxdur.

**İ r a d ə** – Doktor, anam hirslənəndə xəstələnir. Onu hirslənməyə qoymayın.

**A r z u** – Yaxşı, qızım, arxayın ol. Sən ağlama, sən ağlama!

M ə l a h ə t gəlir. İ r a d ə n i n əlindən tutur.

**M ə l a h ə t** – Boy, heç sənə ağlamaq yaraşar? Sən daha böyük qızsan, gedək.

Məlahət İradə ilə gedir. Arzu tək düşünür, İkinci Arzu görünür.

**İkinci Arzu** – Gördünmü? *(Arzu susur.)* O uşağın günahı nədir? *(Arzu susur.)* Bundan sonra sən yenə də vicdanını təmiz hesab edirsən?

**Arzu** – Mənim vicdanım ləkəsizdir.

**İkinci Arzu** – Demək asandır. Bütün günahkarlar öz günahlarına haqq qazandırmağı bacarır. Tutduğun əmələ yaxşı bax!

**Arzu** – Bəs mən neyləyim? Məgər mənim sevməyə haqqım yoxdur?

**İkinci Arzu** – Yox!.. Bu cür sevgiyə heç kəsin haqqı yoxdur.

**Arzu** – Var, var! Axı, mənim sevgim su qədər saf...

**İkinci Arzu** – Sən tərəzinin bir gözünə sevgini, o biri gözünə Həyatla İradənin göz yaşlarını qoy, gör hansı ağır gələr?

**Arzu** – Mənim göz yaşlarım qəlbimə axır, heç kəs onu görmür.

**İkinci Arzu** – Bir anlığa özünü qoy Həyatın yerinə. Ərin başqasını sevsə dözərsənmi?

**Arzu** – Yox! Qətiyyən yox!

**İkinci Arzu** – Bəs özünə rəva bilmədiyini başqasına niyə bilirsən?

**Arzu** – Bəs mənim əzablarım?

**İkinci Arzu** – Bəs onun əzabları? Sən niyə özgəsinin xoşbəxtliyinə göz dikirsən?

**Arzu** – Mən, mən... heç vaxt o fikrə düşməmişəm.

**İkinci Arzu** – Sən axı, həkimsən, başqalarının əzablarına əlac eliyərkən, bu yandan da başqasına əzab verirsən. Sən öz məhəbbətini, bu məsum körpəyə, o xəstə qadına qurban verməlisən.

**Arzu** – Bəs Reşad? Axı, o da sevir.

**İkinci Arzu** – Reşadın iradəsi zəifdir, o özünü ələ ala bilmir. Bəs sən? Sənə nə olub?

**Arzu** – Axı, mən də bacarmıram.

**İkinci Arzu** – Əgər sən onu doğrudan da sevirsənsə... onun ailəsini də düşünməlisən.

**Arzu** – Mən... Mən hamını düşünməliyəm. Bəs mənim özümü də düşünməyə haqqım var, ya yox?

**İkinci Arzu** – Burda yoxdur. Qurbanı sən verməlisən!

**Arzu** – Bacarmıram, çətindir, ağırdır.

**İkinci Arzu** – Ayrı yolun yoxdur, qəti qərara gəl. Eşidirsənmi?

Bu sənin vicdani borcundur. Sən xudbin olmamalısan!

**A r z u** – Mən xudbin olmamalıyam!.. *(Dəhşətlə hönkürüb ağlayır.)*

Niyə qəm gətirsin, niyə bilmirəm
Mənim daşıdığım qəm, özgəsinə?
Dərdim dil yandırır, deyə bilmirəm,
Həm özümə dərdəm, həm özgəsinə...

## ALTINCI SƏHNƏ

Beşinci səhnədəki quruluş. H ə y a t divanda əyləşib kitab oxuyur. İ r a d ə gəlir, arxadan anasının gözlərini tutur.

**İ r a d ə** – Tap görək kimdir?

**H ə y a t** – Məlahət xalan.

**İ r a d ə** – Yox, bilmədin.

**H ə y a t** – Rəna xalan.

**İ r a d ə** – Yox, tapmadın.

**H ə y a t** – Onda özün de.

**İ r a d ə** – Sənin anan İradə! *(Görüşürlər.)*

**H ə y a t** – Ay anama qurban olum!

**İ r a d ə** – Mənim balam necədir?

**H ə y a t** – Ana yaxşı olanda bala da yaxşı olur. Bəs de görüm bu gün anam nə yeyib?

**İ r a d ə** – Ananı Məlahət xala yedirdib. Hə, məndə təzə xəbər var, muştuluğumu ver deyim.

**H ə y a t** – Mənim qaranquş balam, sən həmişə xoş xəbərlər gətirərsən.

**İ r a d ə** – Hə, dünən axşam atam rayondan zəng çalmışdı. Dedim, sən xəstəxanadasan. Dedi, onda səhər gəlirəm. *(Pauza.)* Deyirəm, ay ana, atam səni necə çox istəyir. Telefonda səsi elə titrəyirdi ki...

**H ə y a t** – Dərslərin necə gedir?

**İ r a d ə** – Lap yaxşı, bu gün iki dənə "beş almışam.

Z e y n ə b gəlir.

**Z e y n ə b** – Olar? *(Həyatı görür.)* Olmasın azar, ay Həyat!

Necəsən?

**H ə y a t** – Çox sağ ol. *(İradəyə.)* Qızım, sən get.

İ r a d ə görüşüb gedir.

**Z e y n ə b** – Yenə yaxşı ki, qardaşının yanındasan, yoxsa ayrı həkimlər... *(Həyat susur.)* Bəs doktorun hardadır? Arzunu deyirəm ey, gözümə dəymir.

**H ə y a t** – Sən onu hardan tanıyırsan?

**Z e y n ə b** – A... bilmirsən? Anamın həkimi olub də... Nə əcəb yoxdur?

**H ə y a t** – İndi gələr.

**Z e y n ə b** – Havaxt çıxırsan? *(Həyat susur.)* Niyə cavab vermirsən?

**H ə y a t** – Məndən nə istəyirsən, Zeynəb?

**Z e y n ə b** – Heç nə. Gəldim səni görüm.

**H ə y a t** – Zeynəb, Reşada zəng vurub ona məndən nə isə deyirlər, bunu kim eliyər?

**Z e y n ə b** – Zəng çalanın əli qurusun. Dayandayan, bilirsən bu kimin işi olar, ərinin aşnasının... O, yəqin hardansa Əbdül əhvalatını eşidib kişinin ürəyinə xal salmaq üçün zəng çaldırır.

M ə l a h ə t gəlir.

**M ə l a h ə t** – Salam, hə, indi necəsən?

**H ə y a t** – Ürəyim mənə aman vermir, Məlahət.

**Z e y n ə b** – Ürək neyləsin, o boyda dərdi ki, o götürür, vallah böyük hünərdir.

**M ə l a h ə t** – İndi sən gərək hər şeyi unudub əməlli-başlı müalicə olunasan.

**Z e y n ə b** – Ağız, o boyda dərdi nə təhər unutmaq olar? Deyirəm, vallah, gərək bu kişilərin dal ətəyini kəsib, qabaq ətəyinə yamaq edəsən.

**M ə l a h ə t** – Sən bura xəstə görməyə gəlmisən, yoxsa...

**Z e y n ə b** – Neyniyim, vallah, ürəyim yanır...

**M ə l a h ə t** – Hə, Həyat sənə yaxşı bir kitab gətirmişəm... o birisini oxudunmu?

**H ə y a t** –Yox, Məlahət, oxuya bilmirəm, xahiş edirəm, apar, pala-

tadadır, gedək, verim.

M ə l a h ə t , H ə y a t gedir, A r z u gəlir.

**Z e y n ə b** – Arzu xanım, salam. Neçə gündür gəlirəm aşağıdan buraxmırlar. Bu gün birtəhər elədim buraxdılar. *(Astadan.)* Gətirmişəm, öz aramızdir, öyrəndim bildim, bu məktub niyə səni bu qədər maraqlandırır.

**A r z u** – Nəyi bildin?

**Z e y n ə b** – Mənə yox də... Sən məni tanımırsan, Zeynəb bilməyən şeyə qurd düşər. Əcəb eləyirsən, halalındır.

**A r z u** – Nədir halalım?

**Z e y n ə b** – Reşad! O elə sənə layiqdir. Deyirəm, Allahın da qəribə işləri var, sürməni çəkir paxlaya, noxudu qoyur yana-yana.

**A r z u** – Zeynəb, ayıbdır!

**Z e y n ə b** – Nədir, ayıb? Bu dünyanınkı belədir, bacarana can qurban.

**A r z u** – Zeynəb!..

**Z e y n ə b** – Mən yəni o qədər maymağam ki, bilmirəm bu məktubu niyə alırsan? *(Çantasından məktubu çıxarır).* Al, göstər ərinə, qoy tanısın arvadını.

**A r z u** – Artıq-əskik danışma.

**Z e y n ə b** – Sən məktubun qiymətini aşağı salmaq istəyirsən... əgər bu doğrudan mənasız şeymişsə, niyə bundan ötrü belə əl-ayağa düşmüsünüz?

**A r z u** – Zeynəb!

**Z e y n ə b** – Kağızımı ver. *(Arzu kağızı verib məktubu alır.)*

**A r z u** – Gedə bilərsən!

**Z e y n ə b** – İndi olduq kivid... qaldı bir məsələ, Həyat səni doktor kimi tanıyır. Ancaq bilmir ki, sən...

**A r z u** – Bəli, bilmir.

**Z e y n ə b** – Mən indi ona gedib desəm...

**A r z u** – Bəs vicdan?

**Z e y n ə b** – Vicdan yaxşı şeydir, adamı yaşamağa qoysa *(Pauza.)* Yaxşı, mən Həyata deməræm, bəs əvəzi?

**A r z u** – Nə əvəzi?

**Z e y n ə b** – Mənə bir iş düzəlt. Reşad sənin bir sözünü iki eləməz.

**A r z u** – Qalx ayağa! *(Zeynəb qalxır.)* Gedə bilərsən!

**Z e y n ə b** – Acığın niyə tutur? Bir xahişdi elədik də...

Z e y n ə b gedir. M ə l a h ə t l ə H ə y a t gəlir.

**M ə l a h ə t** – Bizim kişi də gələcəkdi, ləngidi...

**H ə y a t** – Nə zəhmət çəkir.

**M ə l a h ə t** – Nə zəhməti, o sənin xətrini çox istəyir... İradədən də nigaran qalma, gözüm üstündədir.

M ə l a h ə t gedir.

**A r z u** – Həyat xanım sizə çox gəzmək yaramaz.

**H ə y a t** – Bilmirəm sizə necə ....

**A r z u** – Belə sözlər artıqdır.

**H ə y a t** – Doktor yadıma bir bayatı düşdü:

Əzizim min ayə dəyər,
Qaşın min ayə dəyər,
İl var, bir günə dəyməz,
Gün var, min ayə dəyər.

Sizinlə keçirdiyim günlər ömrüm boyu mənim yadımdan çıxmaz. Söhbətləriniz dərmanlarınızdan xeyirlidir. Nəhayət... sizə ürəyimi aça bilərəm.

**A r z u** *(sıxılır)*– Bəlkə... lazım deyil...

**H ə y a t** – Görürəm ki,mənim sağlığım üçün əlinizdən gələni əsirgəmirsiniz. Həkim xəstəsini yaxşı tanısa müalicəsi asan olar.

**A r z u** – Elədir, ancaq...

**H ə y a t** – Doktor, mənə elə gəlir ki, ürək xəstəliyi insanın tərcümeyi-halı ilə bağlıdır. Ərim məşhur alimdir, Reşad Zəkibəyli. Evlənəndən bir az sonra mən işdən çıxıb mətbəxə bağlandım. Ərim gün-gündən böyüdü, yüksəldi. Mən isə yerimdə saydım. Getdikcə mən hiss edirdim ki, ərim ailədə özünü tapa bilmir. O nə isə qanadlı xəyallarla yaşayır, onun öz aləmi, öz dünyası var.

**A r z u** – Bəs siz onun aləminə can atmadınızmı?

**H ə y a t** – Çox gec. Bir vaxt ayılıb gördüm ki, o zirvədə, mən dağın dibindəyəm... Mən əvvəl özümü həmişə onunla bir səviyyədə hesab edərdim. Onun əsərləri, ixtiraları mənə çox adi görünərdi. Çünki o mənim üçün yalnız ər idi. Bir vaxt ayılıb gördüm ki, o artıq mənim deyil.

Ərimin əlimdən çıxmaqda olduğunu biləndən sonra mən onu tanımağa, qısqanmağa başladım. Qısqanclığım artdıqca sevgim də gücləndi.

**A r z u** – İnsan gözəlliyi uzaqdan görür.

**H ə y a t** – Təəssüf ki, belədir, doktor.

**A r z u** – Bəlkə də bütün gözəllik həsrətdədir?

**H ə y a t** – Bəli, mən buna əminəm. Nə qədər ki, evlənməmişdik, Reşad mənim üçün əlçatmaz bir dağ idi. Elə ki, evləndik... o mənim üçün adiləşdi. İndi o qız üçün də Reşad əlçatmaz bir dağdır. Ona çatmağa can atır, elə ki, çatdı... Ax! Nə olaydı mən o qızı tanıyaydım.

**A r z u** – Nədən ötrü?

**H ə y a t** – İstərdim biləm bizim Reşadın gözlərini o nə ilə qamaşdırıb?

**A r z u** – Bunu bilmək üçün ona yox, Həyat xanım, ərinizə yaxşı baxın, onu yaxşı tanımağa çalışın!

**H ə y a t** – On altı il bir yerdə yaşadığım ərimi tanımıram?

**A r z u** – Yaxşı tanısaydınız... o özünü başqasında deyil, sizdə tapardı.

**H ə y a t** – Belə çıxır ki, müqəssir mənəm, doktor?

**A r z u** – Həyat xanım, məndən inciməyin, siz ərinizi yaxşı tanısaydınız, onu da yaxşı tanımış olardınız...

**H ə y a t** – Nə isə... o nə qədər xoşbəxtdir. Mən o qızın yerində olmaq istərdim.

**A r z u** – Bəlkə... o da sizin yerinizdə olmaq istəyir?

**H ə y a t** – Yerlərimizi dəyişməyə mən hazıram.

**A r z u** – Xoşbəxtliyin nə olduğunu yalnız bədbəxtlər bilir. Gündüz çırağın işığı görünməz.

**H ə y a t** – Mənə deyin görüm siz ki... subaysınız bəs bunları hardan bilirsiniz?

**A r z u** – Dərd, əzab, insana hər şeyi öyrədir.

**H ə y a t** – Doktor, xahiş edirəm, danışın, mən də sizin dərdlərinizi bilmək istəyirəm. İstəyirəm, biləm, görüm, siz dərdlə necə güləşir, necə tablaşırsınız...

**A r z u** – Mən də ayrı vaxt danışaram.

**H ə y a t** – Doktor, məni başa düşün, mən sizdən öyrənmək istəyirəm. Siz danışanda mən sizə valeh oluram, özümü unuduram...

R e ş a d gəlir.

**H ə y a t** – Reşad! Xoş gəldin! *(Arzu özünü itirir).* Mənim həkimimdir, tanış ol, Arzu xanım! *(Reşad özünü itirir, əlindəki gülləri hara qoyacağını bilmir.)* Gülləri doktora ver!

R e ş a d gülləri A r z u y a uzadır.

**A r z u** – Sağ olun... *(Alıb güldana qoyur.)* Burda qalsa yaxşıdır.

**H ə y a t** – Reşad, Arzu xanımla yaxşı tanış ol. *(Arzu Reşadla "tanış olub həkim otağına keçir, dərhal geyinib dəli kimi çıxır, qapının ağzında Fikrətlə rastlaşır.)* Bilirsən nə insandır? Qızıl parçasıdır. Nə qədər ağıllı, mədəni qızdır. Allah elə bil bu qızdan heç nə əsirgəməyib.

**R e ş a d** – Özün necəsən?

**H ə y a t** – Sağ ol! Yaxşıyam...Ancaq bu gözəl əxlaq sahibi bilmirəm niyə bu vaxta kimi subay qalıb? Bunu alan xoşbəxtdir!..

R e ş a d həyəcan keçirir, F i k r ə t həkim otağına gəlir.

**R e ş a d** – Axı, sənə birdən-birə nə oldu? Özünü yıxdın yatağa? (Pauza.) Özü də mən burda olmayan vaxtda... Yaxşı, nə vaxt çıxırsan?

**H ə y a t** – Hələ bilmirəm.

**R e ş a d** – Onda, mən bir həkimlə danışım. (Çıxır. Reşad həkim otağına keçir.) Fikrət, yəni bacın evdə müalicə oluna bilməzdi?

**F i k r ə t** – Əvvəla, xoş gəlmisən, ikincisi o, həkim nəzarətində olmalıdır.

**R e ş a d** – Nə vaxta qədər?

**F i k r ə t** – Danışarıq (Getmək istəyir.)

**Re ş a d** – Dayan, hara qaçırsan? Sənə sözüm var.

**F i k r ə t** (ayaq saxlayıb)– Buyur.

**R e ş a d** – Fikrət, təvəqqe edirəm, sən mənim ailə işlərimə qarışmayasan.

**F i k r ə t** – Axı, o mənim bacımdır... onun səhhəti...

Şükür bəy gəlir.

**Ş ü k ü r b ə y** – Salam.

Fikrətlə görüşür, Reşada dalını çevirib əyləşir.

**F i k r ə t** – Bəs Reşadla niyə görüşmürsən?

**Ş ü k ü r b ə y** – Balam, biz o gecə qoyun olmadıq? Qoyun canavarla niyə görüşsün, axı?

**F i k r ə t** – Yaxşı, siz də uşaq deyilsiniz ki, küsü saxlayırsınız.

**Ş ü k ü r b ə y** – Görmən nə qədər sayılmaz olmuşam, ezamiyyətdən

gəlib direktorun xəbəri yoxdur.

**R e ş a d** – Mən elə indicə maşından düşüb birbaşa bura gəlmişəm. *(Üzünü Fikrətə tutur.)* Şükür bəy özgəsi deyil, Fikrət, sən nə məqsədlə bu həngaməni düzəltmisən?

**F i k r ə t** – Mən səninlə açılmaq istəmirdim, ancaq... Görünür, vacib imiş. Arvadını düşünmürsən, heç olmasa onu... Arzunu düşün, ona yazığın gəlsin. Sənin evin, eşiyin, arvadın, uşağın, adın-sanın. Bəs o? Sən heç nə itirmirsən. Ancaq o itirir. Sən heç bir şeyindən keçmirsən. O isə ömrünü və gələcəyini sənə qurban verir.

**R e ş a d** – Aydındır. Sən axı... Sən özün də... ona laqeyd deyilsən...

**F i k r ə t** – Düzdür... lakin...

**Ş ü k ü r b ə y** – Bilmirəm, siz niyə elə Arzuya tərəf danışırsınız? Axı, bu işdə Arzu da günahkardır? Burda günahsızı, həm də ən çox əzabkeşi Həyatdir. Onu fikirləşin!

**R e ş a d** – Məndən nə istəyirsiniz? Qoysanız...

**Ş ü k ü r b ə y** – Deyir, oğru elə qışqırdı, doğru bucağa qısıldı... Bura bax... Elə sən özün də əzab çəkirsən?.. Balam, bir məhəbbət ki, sənə əzab-əziyyətdən başqa heç nə gətirmir, neyləyirsən onu? (Reşad gülür.) Niyə gülürsən? Bu, sənə nə verir? Hörmət? Yox, əksinə hörmətdən salır. Xoşbəxtlik? Yox, əksinə bədbəxt eləyir. Ağıl? Yox, əksinə. Bəs onda dəlisən ki, sevirsən? Bir fikirləşsənə...

**R e ş a d** – Adam məgər fikirləşib sevir?

**Ş ü k ü r b ə y** – Ağıllı adam əvvəl fikirləşir, sonra sevir... *(Asqırır.)*

**R e ş a d** – Sənə qibtə eləyirəm.

**Ş ü k ü r b ə y** – Əlbəttə, gərək eləyəsən.

**R e ş a d** – Məgər siz elə bilirsiniz mən bunları qanmıram? Yox, başa düşün. Başqasını mühakimə eləmək asandır. Məni, yalnız mənim vəziyyətimdə olanlar başa düşər.

**F i k r ə t** – Mən səni başa düşürəm.

**R e ş a d** – Bəs neyləyim?

**F i k r ə t** – Birdəfəlik ya üz, ya düz. İkisi də yazıqdır.

**R e ş a d** – Bacarmıram, hər işdə, hər yerdə həlledici olan mən, burda acizəm. İnamsızlığı dərk etdikcə məhəbbət çoxalır, maneə artdıqca sevgim güclənir.

**F i k r ə t** – Bəli, biz insanlar əlçatmaz şeyləri daha çox sevirik.

**R e ş a d** – Hara baxırsan standart! Düşüncələr standart, hisslər stan-

dart, qaydalar standart, elm standart! Siz elə bilirsiniz mənim dərdim yalnız sevgi dərdidir? Yox, məni başa düşün. Mən heç bir şeydə standarta, çərçivəyə sığa bilmirəm.

**Ş ü k ü r  b ə y** – Yox, deyəsən bu xamır hələ çox su aparacaq... Nə isə... bura bax, akademiyanın rəyasət heyətinə bizim institutun hesabatını qoyublar. Hazırlaş! (Sükut.) Fikrət, məni Həyat xanımın yanına apar.

Ş ü k ü r b ə y palataya keçir.

**R e ş a d** – Fikrət, Arzu hardadır?

**F i k r ə t** – Evə getdi. *(Reşad çırpınır, həyəcanla qapıdan çıxır. Onun arxasınca.)* Çətindir. Çox çətindir! Neyləsin, məgər sevmək adamın özündən asılıdır?

## YEDDİNCİ SƏHNƏ

Pilləkən başı. A r z u əzgin halda pillələri qalxır.
R e ş a d qaça-qaça onun ardınca gəlir.

**R e ş a d** – Arzu! *(Arzu susur.)* Arzu! Axı, sənə nə oldu?

**A r z u** – Bilmirsən?

**R e ş a d** – Nə eləmək olar? Biz bu vəziyyətlə barışmalıyıq.

**A r z u** – Yox, yox, bacarmıram.

**R e ş a d** – Gör, Fikrət nə oyun çıxartdı.

**A r z u** – Fikrət düz elədi *(Pauza.)* Utanıram, xəcalət çəkirəm... Bir qədər əvvəl hər ikimiz sənin arvadının qabağında nə qədər miskin, nə qədər kiçik idik. O özü idi, amma biz oynayırdıq. Gördünmü, biz ikilikdə bir cür, onun qarşısında isə ayrı cür olduq. Sən bu ikiliyə necə dözürsən? Ah, bilsən, bilsən! Axı, vicdanımla məhəbbətim, hissimlə fikrim vuruşur.

**R e ş a d** – İndi gördünmü, sən də ikisən?

**A r z u** – Həyat xəstəxanaya düşəli mən öz dərdimdən çox, onun dərdi ilə yaşadım. Onun nələr çəkdiyini öz gözlərimlə gördüm. Bir də İradə... O məsum körpə... onun ağlar gözləri... titrək səsi... Uşaqlığım yadıma düşür... Atam... Onun cəbhəyə getməsi, çətin günlərim, yetimlik, təklik, təklik. Bilirsən, uşaqlıqda tək qalmaq, özünü idarə etməyi bacar-

maq necə çətindir. Yox, bu belə gedə bilməz... Ha... ha... ha!.. *(Gülür.)* Gördünmü bizim məhəbbətimizin bu dar otaqdan çölə çıxmağa ixtiyarı yoxmuş. Biz özümüzlə bacarmalıyıq... Yox, çətindir... axı, mən sənsiz necə... necə? *(Reşada yaxınlaşır, onun saçını sığallayır.)* Sınıxmısan... Ah, Reşad, sənsiz bu günlərim mənim üçün nə qədər ağır keçib. İndi gəlmisən, gör, səninlə necə danışdım? Yox, mən artıq dözə bilmirəm...

**Reşad** – Arzu!

**Arzu** – Mən insanam. Daha dözə bilmirəm, başa düş, yox, biz ayrılmalıyıq.

Arzu evinə keçir.

**Reşad** – O haqlıdır. Bu, belə davam edə bilməz, çox çətindir. Getdikcə tələblər böyüyür... Bəlkə mən ciddi bir addım atmalıyam? *(Tamaşa zalına üzünü tutur.)* Bəlkə sizə elə gəlir ki, bu çox asandır? Yox, inanın mənə, insan öz arzusundan keçə bilmir...

Mən könül verəli bu şirin dərdə
Bir üzüm qaradır, bir üzüm ağdır.
Bu haqsız eşqimin ömrü qədər də
Mənim əzablarım uzanacaqdır.

Reşad gedir, bir qədərdən Arzunun, qapısı açılır, o dəli kimi çölə çıxır.

**Arzu** – Yox, Reşad, qayıt, qayıt! Axı, mən sənsiz necə... Qayıt!..

İkinci Arzu görünür.

**İkinci Arzu** – Dayan, hara?! Sən neyləyirsən?

**Arzu** – Axı, mən onsuz necə yaşayım?

**İkinci Arzu** – Dözməlisən!..

**Arzu** – Axı, mən də insanam.

**İkinci Arzu** – İndi sən yalnız məni eşitməlisən, çünki baş ürəkdən ucada dayanır.

**Arzu** – Axı, unutmaq üçün nifrət lazımdır, nifrət! Sevə-sevə necə unudum? Necə ayrılım?

**İkinci Arzu** – Unutmalısan, onu unut, unut, unut!

Arzu başını aşağı dikir. İkinci Arzu çəkilir.

**A r z u –**

Unutmaq istərəm, özüm-özümdən
Bir daha ayrılıb haçalanmayım.
Gecələr yatıram bir fikirlə mən
Səni düşünməyim, səni anmayım.
Bu elə qayğı ki, bu elə qəm ki,
Azdırar yüz illik yolundan səni
Səhər də, axşam da, düşünürəm ki,
Gərək düşünməyim heç zaman səni,
Unudar fikirdə, xəyalda təkcə
Unutmaz ürəkdə sevən-sevəni.
Mən özüm-özümə unut dedikcə
Özümü unudub, tapıram səni.

Hönkürtüylə ağlarkən pərdə salınır.

## KİMDİR HAQLI, BORC YA MƏHƏBBƏT?

### ÜÇÜNCÜ MƏCLİS

### SƏKKİZİNCİ SƏHNƏ

R e ş a d ı n evi. İradə şer əzbərləyir.

**İ r a d ə –**

Vətən eşqi, hər eşqdən əzəldir,
Mənim elim, mənim dilim gözəldir,
Öz anamdır, öz canımdir Vətənim!
Azərbaycan, mən səninəm, sən mənim.

F i k r ə t , H ə y a t gəlirlər.

**H ə y a t –** Qızım, İradə!
**İ r a d ə –** Ana, ana!..

**H ə y a t** – Can qızım!

Ana-bala qucaqlaşırlar.

**İ r a d ə** – Ana, bu gün mən salfedciodan da “5 aldım. Beşinci sinfə qəbul olundum.

**H ə y a t** – Afərin, qızım, afərin!

**F i k r ə t** – Bacım, həmişə evində, eşiyində...

**H ə y a t** – Fikrət, çox sağ ol.

Həyat döşünə önlük taxır.

**F i k r ə t** – Bu nədir? Gələn kimi işə başladın?

**H ə y a t** – Deyirəm, bir şey hazırlayım, gələn olacaq. Bir də gör ev nə kökdədir.

**F i k r ə t** – Ay bacım, ay bacım, elə ömrün boyu evi fikirləşdin, özünü düşünmədin. Heç olmasa Məlahəti çağırtdıraydın, sənə kömək eliyəydi.

**H ə y a t** – Qadınınkı evdir, Fikrət. Hə, bura bax, birdən-birə Arzuya nə oldu, xəstələndi, görüşə bilmədim, ünvanını götürmüşəm. Sabah mütləq gedəcəyəm evinə. Mən ona həyatımı borcluyam.

**F i k r ə t** – Həyat, bax, bir də özünü yorğandöşəyə salmamaq üçün gərək dediklərimə baxasan.

**H ə y a t** – Neyləyim?

**F i k r ə t** – Səbirli ol, sən elə bilirsən o, əzab çəkmir? *(İradəyə.)* Qızım, sən get dərslərinə bax.

İ r a d ə g edir.

**H ə y a t** – Məni xəstəxanadan çıxarmağa da gəlmədi, bəs buna nə deyirsən?

**F i k r ə t** – Bu gün institutun hesabat iclası var. Yoxsa...

**H ə y a t** – Yox, Fikrət, o ailəsini tamam unudub, o xudbindir.

**F i k r ə t** – Xudbinlik hamımızda var, birimizdə çox, birimizdə az...

**H ə y a t** – Adamın öz haqqında belə deməsi, özü də xudbinlikdir. Bəs başqası?

**H ə y a t** – Yaxşı, yaxşı! Sən elə həmişə başqalarını düşündün. Bu-

dur, qırxı haqlamısan, hələ özünə bir gün ağlamamısan... Öz yanında o gözəllikdə qız, Arzunu deyirəm ey... niyə görə bilmirsən?

**F i k r ə t** – Birini bilirsən, birini yox. O mənə gəlməz.

**H ə y a t** – Səndən artığına gedəcək?

**F i k r ə t** – O, başqasını sevir!

**H ə y a t** – Bəs niyə bu vaxta kimi sevdiyinə getməyib?

**F i k r ə t** – Sevdiyi adam evlidir.

**H ə y a t** – Vay səni! Bədbəxt qız! *(Düşünür.)* Deyirəm, a Fikrət, Allah eləməmiş, Reşad birdən elə beləsini sevmiş olsa...

**F i k r ə t** – Nə olar?

**H ə y a t** – Beləsindən ayrılmaq müşküldür. Mən qadınlığımla ona vurulmuşam, gör indi buna vurulan o kişi nə çəkir? *(Pauza.)* Bura bax, sən necə?.. Sən Arzunu sevirsən?

**F i k r ə t** *(uzun sıxıntıdan sonra)* – Çox, çox sevirəm!

**H ə y a t** – Onda qorxma, evlən onunla, gör bir-iki aya sənə isnişir, ya yox?

**F i k r ə t** – Əvvəla o, sevmədiyi adama getməz. İkincisi də mən almaram.

**H ə y a t** – Birincisi hələ məlum deyil, özüm onunla danışacağam. İkincisini mənə başa sal, əgər o gəlsə, sən də sevirsənsə, niyə almayasan?

**F i k r ə t** – Niyə? *(Sıxıntı içində.)* Mən sizin faciənizi təkrar eləmək istəmirəm. *(Həyat başını aşağı dikir.)* İncimə, bacım, sən ərinə hörmət eləmisən, qayığısını çəkmisən, sən ona arvad olmusan, yoldaş olmamısan. Gecədə beş dəfə durub üstünü örtmüsən, ancaq ona dəyən soyuğun hardan gəldiyini bilməmisən!

**H ə y a t** – Sən mənimlə lap düşmən kimi danışırsan.

Telefon zəngi. F i k r ə t dəstəyi götürür.

**F i k r ə t** – Allo, bəli, kimdir soruşan? *(Həyata.)* Bacı, Zeynəbdir.

H ə y a t dəstəyi alır.

**H ə y a t** – Bəli, eşidirəm. Başa düşmürəm, nə xəcalət? Nə olub? Hansı məsələ? Tanıdın, Kimdir? Nə, nə Arzu, mənim həkimim? Sən nə

danışırsan? Dəlisən, nəsən? Ola bilməz! Yox, Zeynəb, yəqin ki yenə... hardan danışırsan?.. Avtomatdan? Tez gəl bura!

Dəstəyi asır, rəngi ağarmış halda kresloya əyləşir.

**Fikrət** – Sənə nə oldu? Nə deyirdi?

**Həyat** – Deyir ki, yox, deyir ki, Reşadın sevdiyi qız Arzudur. Fikrət, bu nə sözdür? Deyəsən, axı... bu... bayaq... sən danışdığın əhvalata uyğun gəlir... Bəlkə sən elə bunu demək istəyirdin?.. Hə.. Niyə susursan?

**Fikrət** – Həyat!

**Həyat** – Səni and verirəm...

**Fikrət** – Həyat!..

**Həyat** – Mən bilmək istəyirəm, aldatmaq nə lazım?

**Fikrət** – Bəli, Arzudur!

**Həyat** – Arzu!.. Onda mən doğrudan da bədbəxtəm!..

**Fikrət** – Onlar səndən də bədbəxtdir!..

**Həyat** – Heç inana bilmirəm... Demək, bir ay o mənim qarşımda oynamışdır?..

**Fikrət** – Həyat, gəl biz bacı-qardaş... onları da düşünək. Özün bilirsən o, səndən ötrü nələr etdi.

**Həyat** – Fikrət, mən həyatımı ona borclu ola bilərəm... Ancaq... Reşadı yox!..

**Fikrət** – Bəs deyirdin, məndə bir tikə də xudbinlik yoxdur?

**Həyat** – Bu, elə məsələ deyil, Fikrət, həyatımdan keçə bilərəm, ancaq izzətinəfsimdən, qadınlıq heysiyyətimdən keçmərəm! Yox, keçmərəm!

Həyat yan otağa keçir.

**Fikrət** – Bəli, biz insanlar, başqalarına aid olan məsələləri düzgün həll edir, haqqı nahaq-dan seçə bilirik. Özümüzə aid olan məsələlərdə isə xudbinliyimiz baş qaldırır, məsələni öz xeyrimizə həll etməyə çalışırıq. *(Pauza.)* Doğrudan çətindir, ağırdır... kimi qınayasan? *(Üzünü yan otağa tutub.)* Həyat, Həyat, dözümlü ol, başqa əlacın yoxdur.

Reşad və Şükür bəy gəlir.

**Reşad** – Gördün? Daha danışma!.. Yox, Şükür, daha təslim bayrağını qaldır!

**Şükür bəy** – Əşşi, bir bizə də macal ver də...
**Reşad** – Yox, daha davan qurtarıb. Bu gün hər şey aydın oldu. *(Şükür bəyə.)* Düz demirəm? Özün danış.
**Şükür bəy** – Bu gün hesabat idi. Prezident də ordaydı. Mənim müavinim...
**Reşad** – O müavin ki, Şükür bəy həmişə ona arxalanırdı.
**Şükür bəy** – Bəli, düz deyir. Müavinim birdən düşdü üstümə... Demə, məndən yuxarıya yazan da elə bu özüymüş. Az qaldı ki, məni oğru eləsin. Guya nəbatat bağının ağaclarına da daraşmışam. Düzü, o zalım oğlu elə danışdı ki, əvvəlcə özüm də özümdən şübhələnməyə başladım.
**Reşad** – Səni kim müdafiə elədi, onu de.
**Şükür bəy** – Balam, gözləmədiyim halda Kamal! Sonra da bu. *(Reşadı göstərir.)*
**Reşad** – O Kamal ki, bu, onu institutdan çıxarmaq istəyirdi. Bunun stoluna göz dikən demə ayrısıymış... Biz bunu tənqid elədikcə, bu bizdən şübhələnirdi... Daha demirdi ki, bizim davamız stol davası deyil, elm davasıdır.
**Fikrət** – Mən çox şadam ki, nəhayət ulduzlarınız barışdı.

İradə gəlir, Fikrət yan otağa keçir.

**İradə** *(atasının üstünə atılır)*– Ata, mən dediyimi elədim. Bax beşlərə, qəbul olundum. *(Gündəliyini göstərir.)* Daha adımı dəyişmirsiniz ki?
**Reşad** – Yox, qızım, sənin adın da İradədir, özün də. *(İradəni öpür. Öz-özünə.)* Uşaqdakı iradə məndə olaydı...
**Şükür bəy** – Bu mənim balamdır... İndi, gör, Məlahət xalan necə sevinəcək! Gör, indi Şükür əmin sənə nə alacaq.
**Reşad** – Şükür, gedək mənim otağıma.

Reşad, İradə yan otağa keçir.

**Şükür bəy** *(qapının ağzında dayanır)*– Şair nə yaxşı deyib:

Zaman bizə deyir həyata düz bax,
Fikrin bu sürətdən geri qalmasın.

Böyük bir dərd deyil, yaşca qocalmaq.
Fikir qocalmasın, qəlb qocalmasın.

H ə y a t gəlir.

**H ə y a t** – Salam, Şükür qardaş!
**Ş ü k ü r b ə y** – Ay Həyat, həmişə evində-eşiyində!..
**H ə y a t** – Çox sağ ol!

İ r a d ə gəlir.

**İ r a d ə** – Şükür əmi, atam sizi çağırır.
**H ə y a t** – İradə, qızım, get Məlahət xalangilə, de, bizə gəlsın. Özün də orada qal.
**İ r a d ə** – Ana!
**H ə y a t** – Get, qızım, get!

İ r a d ə gedir.

**Ş ü k ü r b ə y** – Niyə qızı göndərirsən? Zəng eləsənə.
**H ə y a t** – Şükür qardaş, Reşadla ciddi söhbətim var, uşağın yanında danışa bilmərəm.
**Ş ü k ü r b ə y** – Ancaq çox da dərinliyə getmə.
**R e ş a d** – Ay Şükür bəy, nə oldu? Niyə ləngidin?
**Ş ü k ü r b ə y** – Gəldim.

Ş ü k ü r b ə y o biri otağa keçir.

**R e ş a d** – Həyat, həmişə ayaq üstə, bəs niyə məni gözləmədin? *(Həyat üzünü yana tutur.)* Bu gün institutda...

R e ş a d qapının ağzında.

**H ə y a t** – Reşad, mən bu vaxta qədər onu tanımırdım, ona görə də sakit idim, amma indi... Artıq bu vəziyyətə dözə bilmərəm.
**R e ş a d** – Yaxşı, sakit ol!
**H ə y a t** – Reşad... Mən bu vaxta qədər dözürdüm, deyirdim, bəlkə özün başa düşərsən, yaşından, başından utanarsan, gördüm yox, məsələ gün-gündən böyüyür, daha bəsdir!
**R e ş a d** – Həyat, axı mən də əzab çəkirəm.
**H ə y a t** – Bunun üçün də əzablara son qoymaq lazımdır! *(Sükut.)*

Susma, danış, söz səníndir! Mənə yazığın gəlir? Yox, gəlməsin!.. Mənə güzəşt lazım deyil, mən məhəbbət istəyirəm. Əgər yoxsa...

**R e ş a d** – Yaxşı, bu gün xəstəxanadan çıxmısan, dincəl, sabah danışarıq!

**H ə y a t** – Yox, indi!.. Ürəyimizlə danışıb onu da çürütdüyümüz yetər. Qoy çürüyüncə açılsın, saçılsın, tökülsün! Hər kəs öz işini bilsin, susma, danış! Qorxursanmı?

**R e ş a d** – Bəsdir!

**H ə y a t** – Evli ola-ola başqasıyla sevişməyə cəsarətin çatır, amma mənimlə açıq danışmaqdan çəkinirsən?

**R e ş a d** – Uşaq eşitməsin, ayıbdır!

**H ə y a t** – Uşaq evdə yoxdur, ancaq sən uşağı düşünsəydin belə eləməzdin. Sən uşağınla heç maraqlanmırsan? Ata!

**R e ş a d** – Yəni deyirsən mən balamı da istəmirəm?

**H ə y a t** – Heyvanlar da balalarını istəyir.

**R e ş a d** – Həyat!

**H ə y a t** – Nə həyat? Qəti qərara gəl, ya mən, ya o pozğun!

**R e ş a d** – Onu təhqir etməyə sənin haqqın yoxdur! *(Əsəbi hallar keçirir.)*

**H ə y a t** – Pozğunun buynuzu olur? Ailəli bir kişiylə sevişənə nə deyərlər?

**R e ş a d** – Həyat! Mən... daha... tab... *(Özünü zorla saxlayır.)*

**H ə y a t** – Onunla birdəfəlik qurtarırsanmı?

**R e ş a d** – Yox!.. Yox!.. Yox!

Ş ü k ü r  b ə y l ə  F i k r ə t  gəlir.

**H ə y a t** – Onda yol açıqdır, gedə bilərsən! *(Qapını göstərir.)*

**R e ş a d** – Çox yaxşı!

**Ş ü k ü r  b ə y** – Reşad, Hara?.. Dayan!..

**H ə y a t** – Şükür qardaş, qoyun getsin!

İ k i n c i  R e ş a d  görünür. O, qapının ağzında dayanıb bu vəziyyəti seyr edir. R e ş a d  getmək istərkən ikinci Reşadla üzləşir, dayanır, bir müddət düşünür, sonra i k i n c i  R e ş a d ı  itələyib qəti addımlarla gedir. İ k i n c i  R e ş a d  onu təqib edir.

**Ş ü k ü r  b ə y** – Mən heç başa düşə bilmirəm, bu neyləyir? Bəs

bu başqaları üçün yaşamağı şüar eləmişdi? İndi nə oldu? İndi özü üçün yaşamalı oldu?

**F i k r ə t** – Bəli, haqqı başqalarından ummaqda ustayıq... amma özümüz...

**Ş ü k ü r  b ə y** – Fikrət, dayanmaq olmaz, gəl görək bu, hara getdi.

F i k r ə t, Ş ü k ü r  b ə y gedirlər, Z e y n ə b gəlir.

**Z e y n ə b** – Həyat, mən sənin yanında...

**H ə y a t** – Artıq mənim üçün... heç bir fərqi yoxdur.

**Z e y n ə b** –Arzu məni çoxdan axtarırmış. Mən səni görmək üçün xəstəxanaya gələn gün o məni tanıyır. Mən evə gedəndə, o, məni saldı otağına, dedi, məndə ananın kağızı var... Onu sənə verim bu şərtlə ki, Həyatın məktubunu verəsən mənə...

**H ə y a t** –Sən də verdin?

**Z e y n ə b** –Düzü mən donub qaldım. Ancaq ürəyimə gəldi ki, bunu ona sən demiş olarsan. Axı, o sənin həkimİndir. Bir də aramızdakı məktub əhvalatını bir sən bilirsən, bir də mən...

**H ə y a t** –Məlahət də bilirdi.

**Z e y n ə b** –Görürsən, bax, sən dostunla düşmənini tanımırsan!

**H ə y a t** –Məktub öz işini gördü...

M ə l a h ə t gəlir.

**M ə l a h ə t** –Həmişə evində-eşiyində, ay Həyat! (Sükut.) Xeyir ola?

**H ə y a t** –Xeyir olmamış nə olacaq, Allaha şükür, Arzu xanımla birləşib yaxşı mənə quyu qazdınız...

Məlahət–Bu nə sözdür?

**H ə y a t** –Bilmirsən? Məndən niyə gizlədirdin, niyə demirdin ki, düşmənin ocaq başındadır?

**M ə l a h ə t** –Axı, bunu mən sənə necə deyə bilərdim, Həyat?

**H ə y a t** –Yaxşı, bu heç, bəs Arzu, hardan bilirdi ki, Zeynəbdə mənim məktubum var?

**M ə l a h ə t** –Mən demişəm.

**H ə y a t** –Yaxşı ki, boynuna alırsan. Niyə, niyə demisən? Bəs sən bilmirsən ki, o məktubu Zeynəbdən alıb, Reşada verib?

**M ə l a h ə t** –Burda dayan! Məktub dünəndən məndədir. Mən onu

sənə dünən çatdırmalı idim, ancaq ləngidim. Sən Arzunu yaxşı tanımırsan, o çox təmiz adamdır. O bunu sənə vermək üçün alıb. Reşadın isə bundan heç xəbəri də yoxdur.

**H ə y a t** –Necə xəbəri yoxdur? Hanı? Baxım! *(Məktubu alıb baxır, dəhşətə gəlir.)*

Z e y n ə b büzüşüb kənara çəkilir.

**Z e y n ə b** –Dünyada nə qəribə adamlar varmış... *(Yavaş-yavaş səhnədən çıxır.)*

**F i k r ə t** –İndi sənə aydın oldumu? İndi sən onun təmizliyinə inandınmı?

**M ə l a h ə t** –O bunu sənə özü də verə bilərdi. Ancaq elə eləmədi, məndən də xahiş eləmişdi ki, sənə deməyim.

**H ə y a t** –Axı, o niyə bu yaxşılığı eləsin?

**M ə l a h ə t** –Yaxşı adamlar, yaxşılığı bir məqsəd üçün eləmirlər, onların təbiəti belədir...

**H ə y a t** –O, hər cəhətdən məndən güclü imiş... Evləndik, mən elə bildim ki, artıq o, həmişəlik mənimdir. Demə, ərin pasportunda yox, ruhunda, qəlbində yaşamaq, orda əbədi yer tutmaq lazımmış.

## DOQQUZUNCU SƏHNƏ

Pilləkən başı. R e ş a d pillələri qalxır. İ k i n c i R e ş a d onun qarşısına çıxır. O, sürəkli qəh-qəhələrlə gülür.

**İ k i n c i R e ş a d** –Hara gəlirsən? Arzuylamı qısılmağa? Heç utanırsan?

**R e ş a d** –Oyun nə qədər olar? Məsələni mən həll etməli idim, mən də elədim. Elə bil çiynimdən dağ götürüldü.

**İ k i n c i R e ş a d** –Yox, sən öz-özünü aldadırsan.

**R e ş a d** –Axı, niyə?

**İ k i n c i R e ş a d** –Sən bu qərarını söyləyərkən səni əhatə edən adamların tənəli baxışlarını görmürsən? Etiraz səslərini eşitmirsən?

**R e ş a d** –Bilmirəm, görmək istəmirəm, eşitmək istəmirəm.

**İ k i n c i R e ş a d** –Qayıt, Reşad, qayıt evinə!

R e ş a d ı n qulaqlarına H ə y a t ı n səsi gəlir.

**H ə y a t ı n  s ə s i** –Reşad, bəsdir, yalnız özünü düşünmə, hisslərini cilovla, artıq cavan deyilsən, mənə də yazığın gəlsın, balana da... Evə təmir lazımdir, bağımızı ot-alaq basıb. Bəsdir, yetər!

**R e ş a d** –Düz deyirsən, Həyat, səbir etdiyin yetər. Mən doğrudan da pis adamam. Sənin bütün üzüntülərinə səbəb mənəm. Doğrudan da evə təmir lazımdir... Bağı da bellətməliyəm...

Qulaqlarına A r z u n u n  səsi gəlir.

**A r z u n u n  s ə s i** –Reşad, sən həyatın dibində dolaşmamalısan. Sən zirvələrə uçmalı, sən yaratmalısan. Sən sevmək və sevilmək üçün yaranmısan.

**R e ş a d** –Düz deyirsən, Arzu, mən uçmalıyam. Mən evimin divarları, bağımın hasarları arasına sığışa bilmərəm! *(Xeyli sükutdan sonra.)* İkisi də düz deyir. Hər ikisi də haqlıdır. Bəs kimdir haqsız?

**İ k i n c i  R e ş a d** –Bilmirsən? Haqsız sənsən, sən! Hər ikisini avara qoyub dərdə salan sənsən, sən!

**R e ş a d** –İçimdə dəhşətli döyüş gedir.

Tək özüm bilirəm, nə çəkirəm mən.
Sinəm ən dəhşətli döyüş meydanı.
Yoxdur bir eşidən, yoxdur bir görən,
Bu döyüş səsini, bu axan qanı.
Neçə "mən yaşayır, tək bircə "məndə,
Öldürən də mənəm, axı, ölən də.
Su da özümdədir, od da özümdə,
Dost da özümdədir, yad da özümdə.
Rəhm də məndədir, zülm də məndə,
Həyat da məndədir, ölüm də məndə.

**İ k i n c i  R e ş a d** –Bu döyüşdə ağlın, iradən, vicdanın hissinə, nəfsinə qələbə çalmalıdır. Çünki borc, məhəbbətdən üstündür.

**R e ş a d** –Yox məni arzularım, xəyallarım çağırır. Əl çək məndən!.. *(Arzunun qapısını döyür. Səhnə fırlanır.)* Arzu, Arzu mən gəldim! Həmişəlik! Arzu nə üçün susursan? Arzu, aç qapını, Arzu, əzizim, axı, niyə belə edirsən?

**A r z u** –bəs sənin məhəbbətin? Bəs sənin əzabların? Demək belə, demək sən məni rədd edirsən! *(İkinci Reşad yenə qəh-qəhələrlə gülür.)*

Niyə gülürsən?

**İkinci Reşad** –Hə, nə oldu? Qaytardı?.. Gördün o qadınlığıyla səndən iradəli çıxdı. Onun borcu məhəbbətinə qələbə çaldı.

**Reşad** –Düz deyirsən! İndi mən neyləyim?

**İkinci Reşad** –İradəni köməyə çağır.

**Reşad** –Doğrudur, məni yalnız sən xilas edə bilərsən. İradə, İradə!

Məlahətin qapısı açılır, İradə çıxır.

**İradə** –Ata, ata, mən burdayan! *(İradəni qucaqlayıb diz çökür.)* Qalx ayağa! Qalx, ata!

Reşad İradənin qolundan tutub pillələri enir. Səhnə fırlanır, bütün surətlər, hər kəs öz evində, öz işi ilə məşğuldur, Reşad səhnənin ətrafı ilə gedir, gedir.

**İkinci səs** *(radio ilə):*

Gah batan ay olur, gah doğan günəş,
Haldan-hala düşür de, nədən insan?
Gah enir, gah qalxır, gah da büdrəyir,
Beşikdən məzara yol gedən insan.

Təməli vicdandır hər ülviyyətin
Ürəyi eşitmək çətindir, çətin.
Yüksəlir, böyüyür öz ürəyinin
İkinci səsini eşidən insan!..

*1968-1969*

*1969-cu il aprelin 19-da Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.*





# YAĞIŞDAN SONRA

## (DOQQUZ ŞƏKİLLİ DRAM)

İŞTİRAK EDƏNLƏR:

**Qədimbəy** — Baba.
**Aslan** — Onun oğlu, zavod direktoru.
**Cığatay** — Aslanın oğlu, təbiətşünas.
**Əmin** — Mühəndis.
**Nihal** — onun arvadı, memar.
**Reyhan** — Nihalın kiçik bacısı.
**Rüstəm** — zavodun baş mühəndisinin müavini.
**Qərənfil** — sex müdiri.
**Prorab** — “İstirahət zonasının prorabı.

## İKİNCİ ŞƏKİL

Zavod. A s l a n ı n kabineti. Kabinetin qarşısında dəhliz. R ü s t ə m gəlir, kabinetin qapısını açır. Görür, direktor yoxdur, dəhlizdə gəzinir. Q ə r ə n f i l gəlir.

**Q ə r ə n f i l** –Yoldaş mühəndis, işin qızmar vaxtında burda nə gəzirsən?

**R ü s t ə m** –Başımızın böyüyünü gözləyirəm.

**Q ə r ə n f i** –Yoxsa məndən şikayətə gəlmisən?

**R ü s t ə m** –Xeyr, kişi özü çağırtdırıb.

**Q ə r ə n f i l** –Bəs, mən niyə bilmirəm. Niyə gəlib demirsən ki, ay yoldaş müdir, mən filan yerə gedirəm?

**R ü s t ə m** –Filin dəvədən böyük olduğunu sübut eləməyə ehtiyac var, yoldaş sex müdiri?

**Q ə r ə n f i l** –İndi filin yanına getmirsən ey... Aslanın yanına gedirsən. Hə... de görək, kefin necədir?

**R ü s t ə m** –Hələ deyə bilmərəm.

**Q ə r ə n f i l** –Niyə? Bilmirsən kefin necədir?

**R ü s t ə m** –Xeyr, hələ Aslanla görüşməmişəm.

**Q ə r ə n f i l** –Əlbəttə, qorxarsan da. Bəs durub iclasda ağzına gələni deyəndə bilmirdin ki, bunun dalı da var?

**R ü s t ə m** – Axırını düşünən qəhrəman olmaz.

**Q ə r ə n f i l** –Pah! Qəhrəmana bax! İndi səni bir xoruza yük eləyər...

**R ü s t ə m** –Qanım qaradır, mən ölüm!

**Q ə r ə n f i l** –Sən niyə ölürsən? Ölsün səni istəməyənlər!

**R ü s t ə m** –Məni istəməyən sən!

**Q ə r ə n f i l** –Yaman da bilirsən. Səni bu zavodda məndən çox istəyən var?

**R ü s t ə m** –Ay qız, müdir olanı işin-gücün ayağımın altını qazmaq deyil?

**Q ə r ə n f i l** –İstədiyimdəndır.

**R ü s t ə m** –Di yaxşı, sən get, kişi gəlib bizi bir yerdə görməsin.

**Q ə r ə n f i l** –Görəndə nə olar?

**R ü s t ə m** –Kişinin məcazı belə şeyləri götürmür.

**Q ə r ə n f i l** –Bizim ki, ürəyimiz təmizdir. *(öz-özünə.)* Elə ürəyimiz təmiz olub, deyə belə qalmışıq da... Bura bax, İsmayıldan xəbərin var?

**R ü s t ə m** –Hə, arvadını boşayır.

**Q ə r ə n f i** –Yazıq boşamasın neyləsin?

**R ü s t ə m** –Niyə?

**Q ə r ə n f i l** –Arvad ona yaraşmır da. Kişini evə bağlamaq üçün gərək ondan yüksəkdə durasan.

**R ü s t ə m** –Onda, uzun kabloklu tufli geymək lazımdır.

**Q ə r ə n f i l** –Qadınlara belə baxmısan ki, subay qalıb ömrünü zay eləyirsən.

**R ü s t ə m** –Subay, evli — fərqi yoxdur, mən ölüm! Subay üçün hər yerdə pis keçir, evli üçün ancaq evində.

**Q ə r ə n f i l** –Hə, bax, bunu düz dedin.

A s l a n gəlir.

**A s l a n** –Burda neyləyirsiniz? *(Qərənfilə.)* Get sexə. *(Qərənfil çıxır.)* Rüstəm, gəl içəri. *(Rüstəmlə Aslan kabinetə keçir. Aslan telefon düyməsini basır.)* Əyləş, bir dəqiqə gözlə. (Telefonla danışır.) İsmayıl, səhər tezdən yanıma gələrsən. Hə, 9-da burda ola-cağam, gələrsən. *(Ayrı düyməni basır.)* İmran, salam, xəbərin var ki, Yaroslav bizim kauçuku qəbul eləmir? İndi təklifin nədir? Deyirəm, adam göndərək. Kimi? Yaxşı, mən razı. Ufadan da sulfat turşusu gəlib çıxmadı. Özün bir ora zəng elə... Dediyim o təliqəni də hazırla. Moskva şin zavoduna, hə... Qurtardıq! *(Dəstəyi asır, Rüstəmə)* Nə var, nə yox?

**R ü s t ə m** –Salamatlıqdır.

**A s l a n** –Görürsən də, Yaroslav kauçuku qəbul eləmir.

**R ü s t ə m** –Eşitmişəm.

**A s l a n** –Yaroslav haradan kauçuk alırsa, yoxlamır, verir maşının ağzına. Bizimkini gərək yüz dəfə keçirələr laboratoriyadan. Olmayan şeyi də tapırlar.

**R ü s t ə m** –Keyfiyyət sarıdan biz axsayırıq. Səbəbi də 4-cü sexdir. Spirt sexi. Trubalar, xətlər təmir olunmasa, qaz da axacaq, zəhər də. Mən sizdən xahiş edirəm, o sex müdirini...

**A s l a n** –Qadındır, kömək edin.

**R ü s t ə m** – Tüstü, qaz...

**A s l a n** –Dayan, dayan, o günkü çıxışından xoşum gəldi. Kişi kimi danışdın, düz danışdın, ancaq sən bu zavodda tüstüdən, qazdan başqa ayrı şey görmürsən.

**R ü s t ə m** –Axı, bu, vacib məsələdir.

**A s l a n** –Təzə qurğu işə düşəndən sonra tüstünün atasını elə yandıraq ki, Rüstəm, mən bu zavodda yaşayıram. Onun tüstüsü də mənə xoşdur, zəhəri də. Bax, indi, gecə növbəsidir. Mən gəlməyə də bilərdim, amma bacarmıram. Kauçukun ətri burnuma dəyməyəndə elə bilirəm yaşamıram. Mənə elə gəlir, bu nəhəng, mənim ciyərlərimlə nəfəs alır. Mən burda olmasam, onda nəfəsim kəsilər. Rüstəm, əgər lazım gəlsə, mən bax, burda da *(öz başını göstərir)* sex tikərəm. Təki iş getsin, üzümüz qara olmasın. Kəsirlərimizi bir-birimizə deməklə iş düzəlmir. Gərək qollarımızı çırmalayıb...

**R ü s t ə m** –Məndən asılı nə varsa, göz üstə.

**A s l a n** –Onda qulaq as, baş mühəndislə danışmışam, olursan onun müavini.

**R ü s t ə m** –Necə? Bəs İsmayıl?

**A s l a n** –O bizim zavoda layiq deyil. Bu gün əmrini verirəm getsin.

**R ü s t ə** m–Axı, o yaxşı işçidir.

**A s l a n** –Əmrini verirəm, getsin, ailəsini atan adam, qoy getsin!

**R ü s t ə m** –O kimi isə sevir.

**A s l a n** –Çox qələt eləyir, ailəsinə xor baxan, cəmiyyətə də xor baxar.

**R ü s t ə m** –Axı, ailə məsələsi şəxsi işdir.

**A s l a n** –Səhv eləyirsən, bu zavod bir ailədir. Birimizin namusu hamımızındır. Götürək Əmini... Göndərmişik Əlcəzairə. Getdiyi bir neçə aydır, gör nə yaxşı xəbərlər alırıq ondan. Fərəhdən adamın ürəyi dağa dönür. *(Ona məktub verir.)* Al, oxu. Oradakı zavodun direktoru yazır. Bizə təşəkkür eləyir *(Rüstəm məktubu oxuyur).* Bu şərəf kimindir?

Hamımızın. Əmin uzaq bir ölkədə respublikamızın şərəfini qaldirır. Bizim vəzifəmiz nədir? Burda onun ailəsinə göz olmaq, onun qayğısına qalmaq!

**R ü s t ə m** –Əlbəttə, Əmin çox yaxşı adamdır.

**A s l a n** –Maaşını vaxtlı-vaxtında aparırsanmı? Necə dolanırlar?

**R ü s t ə m** –Yaxşı.

**A s l a n** –Bir şeydən korluqları yoxdur ki?

**R ü s t ə m** –Xeyr. Həmişə razılıq eləyir.

**A s l a n** –Mənim adımdan arvadına tapşır... Nədir onun adı?

**R ü s t ə m** –Nihal.

**A s l a n** –Hə... Tapşır, nə lazım olsa, utanmasın, sənə desin.

**R ü s t ə m** –Baş üstə.

**A s l a n** –Yaxşı! Sənə təzə işində müvəffəqiyyət!

**R ü s t ə m** –Bu, yaxşı olmur.

**A s l a n** –Qurtardıq! Siz hərəniz zavodun bir sahəsini görürsünüz. Mən isə zavodu tam görürəm *(Aslan ayağa qalxır. Pəncərənin pərdələrini aralayır. Çölü göstərir.)* Görürsən bu əjdahanı? Hələ iməkləyir. O ayağa qalxanda bilirsən nə olacaq? Biz indi zavod içində zavod tikirik. *(Pauza.)* Sən bilirsənmi, butil kauçuku nə deyən sözdür?

**R ü s t ə m** –Niyə bilmirəm? Kimyaçı deyiləm?

**A s l a n** –Sən onun kimya tərəfini bilirsən... İttifaqda butil kauçukunu birinci dəfə biz istehsal edəcəyik.

**R ü s t ə m** –Əlbəttə, böyük məsələdir.

**A s l a n** –Qapılmısınız özünüzə. Nə bilim, sex müdiri burdan gəldi, İsmayıl ordan getdi.

**R ü s t ə m** –Axı, mən elə işlərə qoşulmuram.

**A s l a n** –Səni demirəm ey... Ümumiyyətlə deyirəm. Gəlin, xırdalanmayaq. Hisslərimizi, fikirlərimizi evimizin divarları arasına sığdırmayaq. Mən istəyirəm ki, Azər-bay-can markası dünyanın hər yerində tanınsın. Butil kauçukunu alimlərimiz laboratoriyadan zavoda gətirdilər. Bu sahədə biz indi Amerika, Yaponiya kimi ölkələrlə yarışırıq.

**R ü s t ə m** –Siz elə danışırsınız ki, adam valeh olur. Amma yoldaş

direktor, kəsirlərimiz də var axı...

**A s l a n** –Var, yox, çoxdur. *(Pauza.)* Bir bax, gör, nələr almışıq, nələr gətirmişik, amma inşaatçılar bizi ləngidir.

Sözsüz səhnə. Danışırlar.

## İKİNCİ ŞƏKİL

Şəhər parkı. **R e y h a n l a  N i h a l** gəlir.

**N i h a l** –İşim ki, yarımçıq oldu, heç gözümə yuxu da getmir. Təzə tikinti başlamışıq. İstirahət zonası... Gecə də yuxuda onu görürəm. Buna bütün ürəyimi qoymuşam.

**R e y h a n** –Onda qorxma, istədiyini eləyəcəksən.

**N i h a l** –Ürəksiz işdən nə fayda! Adam gərək ağlayanda da ürəklə ağlaya, güləndə də.

**R e y h a n** –Sən orta yol tanımırsan!

**N i h a l** –Mənim hələ belə layihəm olmayıb. Çox çətin işdir, cəncəllidir. Bircə bunu başa vura bilsəm... Elə qorxuram ki.

**R e y h a n** –Nədən?

**N i h a l** –Mən bir işə başlayanda həmişə qorxuram... qorxuram ki, qurtara bilməyim...

**R e y h a n** –Sənin üçün çətin iş yoxdur. *(Pauza.)* Səhərə qədər yatmamışam.

**N i h a l** –Bəs nə eləmisən?

**R e y h a n** –Ulduzları saymışam.

**N i h a l** –Neçə dənə oldu?

**R e y h a n** –Fikirlərim qədər.

**N i h a l** –Paho!.. Nə çox fikri var mənim bacımın... *(Pauza.)* Bəlkə imtahanlardan işləri korlamısan?

**R e y h a n** –Yox.

**N i h a l** –Onda yəqin... o söz...

**R e y h a n** –Nə söz?

**N i h a l** –Bütün qızların tutulduğu dərdi deyirəm.

**R e y h a n** –Yenə sənə nə olub, aşıb-daşırsan sel kimi...

**N i h a l** –Adam gərək bir az sel ola, yan-yörəsinə əl-qol ata, qışqıra, səsinə səs axtara... Yoxsa trolleybus kimi? Əvvəlcədən təyin olunmuş yolla gedə, o da yaşamaqdır? Niyə dinmirsən, ay sirr dağarcığı?

**R e y h a n** –Nə deyim?

**N i h a l** –Sənin indi məndən nə gizli dərdin? De görüm, nə olub? Niyə yatmamısan? Bacım canı, mən deyəndir, gözlərindən oxuyuram – sən vurulmusan! Vurulmusan! Sən mənim canım elədir, ya yox? *(Reyhan başı ilə təsdiq edir.)* Amma ehtiyatlı ol ha!

**R e y h a n** –Yox... bu...

**N i h a l** –Birdən avaranın birinə...

**R e y h a n** –Yoox... Elə demə, o elə təmiz, elə sadə... elə...

**N i h a l** –Yaxşı, yaxşı! Qıza bax a! Oğlandan ötrü dilidodağı çatlayır. Böyük bacısından da utanmır, kimdir, nəçidir?

**R e h y a n** –Nə deyim, ağıllikamallı...

**N i h a l** –Ağlını hələ sonra biləcəyik. Sirsifətdən necədir?

**R e y h a n** –Oğlandır da...

**N i h a l** –Boyu nə təhərdir? *(Sükut.)* Kişinin uca boylusu!..

**R e y h a n** –Elə qadının da...

**N i h a l** –Qamət, vüqar kişiyə daha çox yaraşır. Səninki də elədir?

**R e y h a n** –Yaxşı, utandırma da...

**N i h a l** –Sevəndə utanmırsan? *(Kürsünün üstünə çıxır.)* Bu boyda olar?

**R e y h a n** –A... lap uzundıraz oldu ki...

**N i h a l** *(bir az boyunu alçaldir)*–Hə... belə necə?

**R e y h a n** –Bir az da aşağı.

**N i h a l** –Onda denən işbankədir də...

**R e y h a n** –İşbankə nədir?

**N i h a l** –Gödək, pota, yumru! Yaxşı, nəçidir?

**R e y h a n** –Təbiətşünas!

**N i h a l** –Sən ədəbiyyatçı, o təbiətçi, yaxşı tapışmısınız, tutar. Yaxşı, ona inanırsan?

**R e y h a n** –Çox, lap çox!

**N i h a l** –Özünə necə?

**R e y h a n** –Necə yəni özünə?

**N i h a l** –Sevginə deyirəm. İnanırsanmı ki, bu, həqiqi sevgidir?

**R e y h a n** –Nihal, indi ki, soruşursan...

**N i h a l** –Eh, Reyhan, adam cavanlıqda rəğbəti məhəbbətdən ayira bilmir. Birinin sifəti, birinin imkanları, birinin danışığı, başqa birisinin də tutduğu mövqe, adamın xoşuna gələ bilər. Amma zaman keçir, görürsən, bunların heç biri məhəbbət deyilmiş... Məhəbbət ayrı şeydir, bacım. Məhəbbət!.. Bilirsənmi, özün də başqalaşırsan, dünya da... Mən istəyirəm ki, sən sevəsən, sevginə də inanasan. Ərə getmək xatirinə qəlbini ağlar qoymayasan... Sonra o qəlb, ömrünü sənə zindan eləyəcək.

**R e y h a n** –Sən elə danışırsan ki, elə bil öz başına gəlib.

**N i h a l** –Yox, mən bir beləsini tanıyıram. Rəfiqəm idi. Bir vaxt ayıldı ki, yoldaşlarının hamısı ərə gedib, o isə heç kəsi bəyənə bilmir. Axırda birinin ağlı, onun xoşuna gəldi. Əvvəlkilərlə tutuşdurdu, gördü ki, bu onlardan üstündür. Ona ərə getdi. Sevib getmədi, seçib getdi.

**R e y h a n** –Seçib getdi?..

**N i h a l** –Əsil məhəbbət sonra gəldi... Gec gəldi, amma yaman gəldi.

**R e y h a n** –Vay, vay, bu ki cəhənnəmdir!

**N i h a l** –Hə, Reyhan, sevməyib getsən, dar bir otaqda özünlə ərin arasında həmişə bir uçurum görəcəksən, uçurumun dibinə baxanda başın gicəllənəcək, gözlərin axacaq.

**R e y h a n** –Bəsdir, danışma! Bəsdir... Bəsdir!

**N i h a l** –Hə, bacım, həyatla zarafat eləmək olmaz! Hara baxsan, sevdiyin adamı görəcəksən... evdə də, eşikdə də, çöldə də... Onun iki gözü milyon olacaq. Sənə baxacaq, səni danlayacaq. Sən ondan qaça bilməyəcəksən. Axı, o səndədir, sən özündən necə qaçasan?

**R e y h a n** –Bu dəhşətdir!

**N i h a l** –Belələri öz-özünü aldada-aldada yaşayır.

**R e y h a n** –Bu necə ola bilər?

**N i h a l** –Olur... Bacım, heç yuxuda uçmusanmı?

**R e y h a n** –Çox.

**N i h a l** –Ayılanda necə olmusan?

**R e y h a n** –Çox pis.

**N i h a l** –Niyə?

**R e y h a n** –Ayılmağıma peşman olmuşam.

**N i h a l** –Bax, gördün? Bəzən adam həyatda da ayılmaq istəmir, özü uydurduğu xəyalların qanadlarında uçur, özünə bir nağıl dünyası yaradır. Orada yaşamaq istəyir. Mən sənə belə həyat arzulamıram, Reyhan.

**R e y h a n** –Sən çox dəhşətli sözlər danışdın. Mən səni başa düşmürəm. *(Pauza.)* Bəs sən? Sən necə? Sevib getmisən?

**N i h a l** –Mən? Sən özün görürsən də. Yaxşı, sizin bu əhvalat çoxdandır?

**R e y h a n** –Bəli.

**N i h a l** –Bəs, niyə biz bilmirik. Elçi-zad?

**R e y h a n** –Atası bir az.

**N i h a l** –Razı deyil?

**R e y h a n** –Yox, o da bir söz demir, məsələ uzanır.

**N i h a l** –Tələsirsən?

**R e y h a n** –Yox, bilirsən, bu oğlan atasına Allah kimi səcdə eləyir. Dediyinə görə kişi yaman zabitəli adamdır.

**N i h a l** –Kişi elə olar da. Arvadın əl-ayağına suvaşan kişidən zəhləm gedir. *(Fikirli.)* Sən bilmirsən elə zabitəli kişilərdə necə ürək olur?

**R e y h a n** –Yaxşı, öz kişindən niyə danışmırsan?.. Deyirəm, bura belə isti olanda, gör indi Əlcəzair necədir, yazıq Əmin indi o istidə...

**N i h a l** –Kişi xeylağıdır, nə olacaq, dözər.

**R e y h a n** –Uşağı da göndərdin. Bəs indi sənsiz orda neyləyəcək?

**N i h a l** –Axşam nənəsi zəng çalmışdı. Deyir, kefi kökdür. Heç darıxmır. Kəndi götürüb başına. *(Saatına baxır.)* Yaxşı, daha bəsdir, gedək.

**R e y h a n** –Bir az da oturaq.

**N i h a l** –Mən tələsirəm.

**R e y h a n** –Xeyir ola?

**N i h a l** –Vacib bir yerə dəyməliyəm.

**R e y h a n** –Mən istəyirdim ki, səni... onunla tanış eləyim.

**N i h a l** –Bura gələcək?

**R e y h a n** –Hə...

**N i h a l** –Ay səni, gör məni çəkə-çəkə hara gətirib!

**R e y h a n** *(saatına baxır.)*–Bir azdan bura gələcək.

**N i h a l** –Yox, mən getməliyəm, ayrı vaxt tanış olarıq.

**R e y h a n** –Onda gedək ötürüm səni...

**N i h a l** –Lazım deyil.

**R e y h a n** –Hələ vaxta var.

**N i h a l** –Ay qız, oğlanlar görüşə həmişə tez gəlirlər.

**R e y h a n** –Gələr, gözləyər.

Gedirlər, R ü s t ə m gəlir. Bir qədər keçir, C ı ğ a t a y görünür. R ü s t ə m gizlənilir. C ı ğ a t a y siqar çəkə-çəkə düşünür.

**R ü s t ə m** –Bəh-bəh! Yazıq ata indi elə bilir ki, oğlu akademiyanın elmi şurasında torpaqşünaslıqdan məruzə oxuyur.

**C ı ğ a t a y** –Gələn kimi sancdın.

**R ü s t ə m** –De görək, indi burda kimi gözləyirsən?

**C ı ğ a t a y** –Sənə nə!.. Anket doldurursan! Özüm-özümlə görüşə çıxmışam. Mane olma.

**R ü s t ə m** –Deyəsən, gecikib?

**C ı ğ a t a y** –Sən öl, peşman olursan, birinə salam verməyə...

**R ü s t ə m** –Gedən deyiləm burdan, mən ölüm. Görüm, seçdiyin kimdir?

**C ı ğ a t a y** –Ə, Fatmadır, Səkinədir, hər kimdir, bunun sənə isti-soyuqluğu var?

**R ü s t ə m** –Axırı ki, sən də bu kitablardan ayrılıb dünyaya baxdın?

**C ı ğ a t a y** –İndi nə kəsdirmisən başımın üstünü? İşin, gücün yoxdur? Deyirsən, mən səni sorğu-suala tutum? Baş üstə! Rüstəm, hara gedirsən?

**R ü s t ə m** –Həkimə...

**C ı ğ a t a y** –Xəstələnmisən?

**R ü s t ə m** –Bəli.

**C ı ğ a t a y** –Ada, İsveç buğasına oxşayırsan, sənin haran xəstədir?

**R ü s t ə m** –Deyəsən, böyrəyimdir.

**C ı ğ a t a y** –Heç fikir eləmə, daha bu dünyadan yaxanı qurtara bilməyəcəksən. Maşın hissələrini avtomağazada satmırlar? İnşallah, bir azdan sonra apteklərdə burun, qulaq, göz, qol hamısını satacaqlar. Zapças kimi. Haran xarab oldu, get, təzəsini al, puluna minnət!

**R ü s t ə m** –De sən öl?

**C ı ğ a t a y** –Ada, görmürsən, sintetika alıb dünyanı ağzına. Neylon şubalar, lavsan kostyumlar, kapron köynəklər...

**R ü s t ə m** –Dayan, mən də keçirəm içimizə. Kapron beyinlər, kapron böyrəklər, kapron ürəklər.

**C ı ğ a t a y** –Yox, Rüstəm, köynəklərimiz kapron oldu, ürəklərimiz olmasın.

**R ü s t ə m** –Eh!.. Ürəklər elə saxtalaşıb ki...

**C ı ğ a t a y** –Xeyr, o baxır adamına...

**R ü s t ə m** –Heç kəs öz ayranına turş deməz. Düz adamsansa, burda nə gizirsən? Hə? Gəzirsən, öz işindir, bəs məndən niyə gizlədirsən?

**C ı ğ a t a y** –Əgər sən düz adamsansa, burnunu mənim ürəyimə niyə soxursan?

**R ü s t ə m** –Deməк, hamı nəyisə bir-birindən gizlətməlidir. Hamı o birisinə bir balaca badalaq gəlməlidir, yoxsa iş getməz, hə? Demək, bu, təbiətin qanunudur?

**C ı ğ a t a y** –Təbiəti belə bic-bic işlərə qarışdırma. Onun sözüylə özü birdir.

**R ü s t ə m** –Ən böyük bic elə təbiətin özüdür. Görürsən, sirrini nə çətin verir bizə?

**C ı ğ a t a y** –Bununla belə, insan, onun sirrini açır.

**R ü s t ə m** –Demək, insan ondan da bicdir.

**C ı ğ a t a y** –İnsan da təbiətin bir parçası deyil? Görürsən, biz ondan ayrı yaşaya bilmirik. İstirahət günləri hamı bağa qaçır. Yadına gəlir, yazbaşı getmişdik, Buzovnaya. Asfaltdan torpağa çıxanda necə sevinir-

dik! Qumda necə eşələnirdik!

**R ü s t ə m** –Hə, demə, adamın ayağı torpağa dəyəndə elə bil ona qüvvə gəlir.

**C ı ğ a t a y** –Sinəni ki, verirsən Xəzərin küləyinə, elə bil, on boy ucalırsan, böyüyürsən!.. İndi şəhər evlərində dibçək saxlamaq dəb olub. Otaqların divaralından sarmaşıq asırlar. Meynə zoğlarını balkonlara çıxarırlar. Bilirsən niyə? Adam özünü təbiətin qoynunda hiss eləmək istəyir. Belə bəzək-düzəklə İnsan öz-özünü aldadır.

**R ü s t ə m** –Görünür, bu da lazımdir.

**C ı ğ a t a y** –İnsan təbiətdən uzaqlaşanda saxtalaşır.

**R ü s t ə m** –Bunu mənə niyə deyirsən, atana de də.

**C ı ğ a t a y** –Atama niyə?

**R ü s t ə m** –Kişinin havaya, təbiətə bir tikə də yazığı gəlmir, mən ölüm.

**C ı ğ a t a y** –Görünür, o da elə olmalıdır.

**R ü s t ə m** –İşlərim yaman dolaşıb, Cığatay.

**C ı ğ a t a y** –Nə olub ki?

**R ü s t ə m** –Yazıq İsmayıl!

**C ı ğ a t a y** –Nə? Nə dedin?

**R ü s t ə m** –Deyirəm, İsmayıl yazıq oldu. Atan danışmayıb?

**C ı ğ a t a y** –Yox, amma onu bilirəm ki, atam sənin xətrini çox istəyir.

**R ü s t ə m** –Mən srağagün iclasda zavod rəhbərlərini bərk tənqid elədim. Atanı da qatdım onlara.

**C ı ğ a t a y** –Hə, onu bacararsan. Yaxşı iş deyil ki, əlindən gəlməyə.

**R ü s t ə m** –Mən ölüm, bir qan elədim ki, gəl görəsən. Düşdüm atanın üstünə.

**C ı ğ a t a y** –Nə üstdə?

**R ü s t ə m** –Bu, uzun məsələdir. Dözmək olmur.

**C ı ğ a t a y** –Yox, düzünü demirsən, düzü odur ki, axır vaxtlar gözün ayağının altını görmür.

**R ü s t ə m** –Sözümü kəsmə. Mən fikirləşirdim ki, o hücumdan

sonra atan daha məni danışdırmaz. Elə olmadı, mən ölüm! Kişi dünən səhər məni çağırdı yanına. Dedi, çıxışın xoşuma gəldi. Sonra, bilmirəm nə fikirləşdisə, dedi, səni böyüdürəm. Bu gün də əmrimi verdi. Mən ölüm!

**C ı ğ a t a y** –İndi nə oldun?

**R ü s t ə m** –Baş mühəndisin müavini.

**C ı ğ a t a y** –Deyirəm, axı, havalanmısan. Söhbətinin tərzi də dəyişib, ədaların da... Yerişin də, duruşun da... Bəh-bəh! Bir buna bax ey... Bəybabam demişkən, xudaya, sən bizi aşağı enənlərin davasından, yuxarı qalxanların havasından saxla!

**R ü s t ə m** –Mən ölüm, elə deyil, dilxoram...

**C ı ğ a t a y** –Şadlığından şitlik eləmə...

**R ü s t ə m** –Ə... bir başa düş ey... İsmayılın yerinə keçmişəm.

**C ı ğ a t a y** –İsmayılın?

**R ü s t ə m** –Bəs, nə? Yazıq İsmayıl!..

**C ı ğ a t a y** –Hayıf ondan, yazıq İsmayıl! Ancaq özü özünə elədi.

**R ü s t ə m** –Hə, gördü işi şuluqdur, özü ərizə verdi.

**C ı ğ a t a y** –Bilirsən, atam üçün təmizlik hər şeydir, mən də çox yalvardım ki, İsmayıla toxunmasın! Dedi, olmaz!

**R ü s t ə m** –Amma İsmayıl da sözünün üstündə bərk durdu. Balam, kişi sevgi yolunda qurban verdi də hər şeyi... indi, atan da qoydu bu kişinin vəzifəsini mənim boynuma, amma heç ürəyimcə deyil... Mən ölüm!

**C ı ğ a t a y** –Hə. Yazıq İsmayıl! Amma bir yana baxanda atam da yaxşı eləyib, səni utandırıb, bəybabam demişkən, düşmən səni daşnan, sən düşməni aşnan.

**R ü s t ə m** –Sağ ol. İndi düşmən olduq sizə?

**C ı ğ a t a y** –Vurub dədəmi uzatmısan böyrü üstə, sənə dost deyək?

**R ü s t ə m** –Amma mənim babam demişkən, slujba-slujba, drujba-drujba!..

**C ı ğ a t a y** –Bərəkallah, babanın kəlamına!

**R ü s t ə m** –Deyirsən, düz eləməmişəm? Deyirsən, nöqsan-zad

gördük göz yumaq?

**C ı ğ a t a y** –Yəni o boyda zavodda səndən ağıllısı yoxmuş? Denən vəzifəyə ağzım sulanırdı...

**R ü s t ə m** –Sən məni lap dəli elədin, mən ölüm.

**C ı ğ a t a y** –Xeyr, dəli ağıllıdan olar. Bilirsən nə var, Rüstəm? Elə-belə baxanda mənim atam çox zəhmli görünür, amma bilirsən, necə nazik ürəyi var?

**R ü s t ə m** –Yox, kişinin ağlına, bacarığına söz ola bilməz!

R e y h a n gəlir. Geri çəkilmək istərkən, C ı ğ a t a y onu görür.

**C ı ğ a t a y** –Reyhan, utanma, yaxın gəl. Tanış ol, baş mühəndisin müavini Rüstəm, üzr istəyirəm, yoldaş Rüstəm Rzayev!

R ü s t ə m l ə R e y h a n görüşür.

**R ü s t ə m** –Deyirəm, yazıq sizin halınıza!

**R e y h a n** –Niyə?

**R ü s t ə m** –Bunu sən tanımırsan! Anadan olandan bu günə kimi, hələ bunun ağzından bir dənə düz söz çıxmayıb, mən ölüm!

**C ı ğ a t a y** –Reyhan, bənd olma, adamla tanış olanda bunun öz tərcümeyi-halını danışmaq şakəri var.

**R ü s t ə m** –Biz elə dostuq ki, o mənim tərcümeyi-halımı danışır, mən onunkunu.

**C ı ğ a t a y** –Bir az da qalsan, lap korlayacaqsan, gördün ki, di get.

**R ü s t ə m** –Gedim? Yaxşı, gedirəm, amma... Yazıq İsmayıl?

**C ı ğ a t a y** –Yazıq İsmayıl! *(Rüstəm gedir.)* Heç bilirsən nə yaxşı oğlandır?!

**R e y h a n** –Ola bilər... Amma adamları tanımaq çətindir!

**C ı ğ a t a y** –Mən tanıyıram... Görən kimi. Bəybabam demişkən, adamı başdan, ağacı yaşdan.

**R e y h a n** –Məsələn, məni ilk dəfə görəndə nə fikirdə olmusan?

**C ı ğ a t a y** –Görən kimi ürəyimdə dedim ki, bu qız gördüyüm qızların ən... ən...

**R e y h a n** –Yaxşı, yaxşı, söz pəhləvanlığı eləmə.

**C ı ğ a t a y** –Mənə inanmırsan?

**R e y h a n** –Cığatay, sənə bir sualım var.

**C ı ğ a t a y** –Buyur.

**R e y h a n** –Amma düzünü de.

**C ı ğ a t a y** –Mən heç yalan danışmışam?

**R e y h a n** –Yox, Cığatay, mən sənə inanıram, özüm də bilmirəm niyə?

**C ı ğ a t a y** –Çox yaxşı, indi sualını ver.

**R e y h a n** –Sualımı verdim, cavabını aldım.

**C ı ğ a t a y** –Nə sualdan başım çıxdı, nə də cavabdan.

**R e y h a n** –Mən sənə inanmıram. Sən necə? Sən özün-özünə inanırsanmı?

**C ı ğ a t a y** –Necə yəni özün-özünə?

**R e y h a n** –Mənə deyirlər ki, hiss bəzən aldadıcı da olur. Qığılcım kimi yanıb-sönür.

**C ı ğ a t a y** –Hə, elə şey olur.

**R e y h a n** –Olur?

**C ı ğ a t a y** –Əlbəttə, yanıb-sönən qığılcım görməmisən?

**R e y h a n** –Bunun bizə nə dəxli var?

**C ı ğ a t a y** –Onu özündən soruş. Hə, indi başa düşürəm. Sən mənə inanmırsan, onda qulaq as. *(Diz çökür, köhnə romanlarda təsvir olunan aşiqin pozasını alır.)* Ey mənim *(Söz axtarır, tapa bilmir)...* Nədir o, hə, ruhum... varlığım. Qığılcım nədir? Mənim məhəbbətim... Vulkan, qayalar...

**R e y h a n** –Yaxşı, yaxşı, yamsılamağı da bacarmirsan. Ətimizi tökmə.

**C ı ğ a t a y** –İndi, de görüm, məndən nə istəyirsən?

**R e y h a n** –Sən, belə, qəribə oğlansan ey...

**C ı ğ a t a y** –Necə?

**R e y h a n** –Sən heç bir dəfə də olsa mənə deməmisən ki...

**C ı ğ a t a y** –Mən səni sevirəm, hə? Belə... dilə gəlmir ey... necə deyim...

**R e y h a n** –Qoy mən deyim, günəşin varlığına sübut, yalnız günəşin özü ola bilər.

**C ı ğ a t a y** –Əla! Burda neylərdilər, gülüm? *(Qıza tərəf gedir.)*
**R e y h a n** –Yaxşı, şitlik eləmə.
**C ı ğ a t a y** –Ürəyinə ayrı şey gəlməsin, qız.
**R e y h a n** –Cığatay!
**C ı ğ a t a y** –Bəli!
**R e y h a n** –Həmişə belə olacaqsan?
**C ı ğ a t a y** –Necə?
**R e y h a n** –Mehriban, mülayim...
**C ı ğ a t a y** –Bundan da yaxşı olacağam. Hələ bu nədir ki?
**R e y h a n** –İnanım?
**C ı ğ a t a y** –Yox, inanma!
**R e y h a n** –Cığatay, bilirsən necə mehriban kişilər var?
**C ı ğ a t a y** –Sən onları hardan tanıyırsan, əzizim?
**R e y h a n** –Elə biri mənim yeznəm... Bilirsən bacımı necə istəyir?
**C ı ğ a t a y** –Lap sinov gedir, hə?
**R e y h a n** –Sinov nədir ey, lap ölür onun üçün.
**C ı ğ a t a y** –Deyirsən, indi, mən də uzanıb ölüm sənin üçün?
**R e y h a n** –Yox, amma istəyirəm ki, hər dəqiqə sənin ürəyindən keçənləri bilim. Arxayın olum ki, sən ancaq mənim haqqımda fikirləşirsən.
**C ı ğ a t a y** –Qısqanırsan?
**R e y h a n** –Qısqanclıq məhəbbətlə əkiz qardaşdır.
**C ı ğ a t a y** –Yazıq İsmayıl!
**R e y h a n** –O kimdir?
**C ı ğ a t a y** –Bizim dostumuzdur... Heç, yadıma düşdü.
**R e y h a n** –Nə olub ki, ona?
**C ı ğ a t a y** –Heç işi düyün düşüb, nə isə... *(Siqaret qutusunu çıxarır. Reyhan alışqan çıxarıb yandırır.)* Ay sağ ol! Nə gözəl alışqandır! Bu, satışda olan şey deyil.
**R e y h a n** –Bacımın əri göndərib, xaricdən. Götür.
**C ı ğ a t a y** –Əntiqə şeydir. Deməli, sən, bunu mənə verirsən ki, həmişə çəkim?
**R e y h a n** –Yoxsa çəkmirdin?

**C ı ğ a t a y** –Tərgitmək istəyirəm.

**R e y h a n** –Tərgitmə!

**C ı ğ a t a y** –Tərgidəcəyəm.

**R e y h a n** –Kişinin çiyinləri üstündən tüstü qalxanda mənim xoşuma gəlir.

**C ı ğ a t a y** –Sağ ol, səni. Mən kənddə olanda bəybabam sözarası mənə işarə vurdu ki, çəkməyim.

**R e y h a n** –Bəyəm, sən onun yanında çəkirdin?

**C ı ğ a t a y** –Yox, meşədə od qalamaq istəyirdik. Kibrik tapılmadı. Məcbur oldum kibritimi çıxara. Kişi onda başa düşdü. Bilirsən, necə kişidir? Səksənə yaxın yaşı var, Qoşqar dağına oxşayır.

**R e y h a n** –Babanı yaman çox istəyirsən.

**C ı ğ a t a y** –İstəniləsi qocadır. Mən institutu qurtaran il anam öldü. Bəybabam məni apardı yanına. 3 il kənddə işlədim.

**R e y h a n** –Nə əcəb atan razı olub?

**C ı ğ a t a y** –Razı deyildi. İstəyirdi aspiranturada qalım. Babamın üzündən keçə bilmədi. Mən özüm də kənddə olmaq istəyirdim.

**R e y h a n** –Bəs, orda darıxmırdın?

**C ı ğ a t a y** –Heç darıxmağa vaxt tapılırdı? Bilirsən, Reyhan, mənim işim kəndlə, torpaqla bağlıdır. Axı, mən gübrələrin torpağa təsirini öyrənirəm. Elə maraqlı məsələlər var ki, adam işlədikcə işləmək istəyir. Biz hələ torpağı yaxşı öyrənməmişik. Bizi göyün dərinliklərinə qaldiran da torpağın öz sərvəti deyilmi?

**R e y h a n** –Mənim Cığatayım torpağın dəlisidir!

**C ı ğ a t a y** –Ayağı torpaqdan üzülənin başı göyə dəyməz, yerə dəyər.

**R e y h a n** –Bunu da bəy deyib?

**C ı ğ a t a y** –Bəybabam... O, torpağın dilini bilirsən, necə bilir? Mən onun dediklərini kitablarla tutuşdurdum. Məsələn, kitab deyir ki, torpaq möhkəm şumlansa, yaxşı məhsul verər. Bəybabam deyir ki, bala, torpaq deyir, öldür məni, dirildim səni.

**R e y h a n** –Baban kitabdan yaxşı deyir.

**C ı ğ a t a y** –Babamın dediyi sözlərdən iki dəftər yazmışam. Siz

ədəbiyyatçıların işini də biz torpaqşünaslar görürük.

**R e y h a n** –Yaşasın torpaqşünaslar! *(Cığatay saatına baxır.)* Tələsirsən? Gedək.

**C ı ğ a t a y** –Nə deyirəm, amma...yazıq İsmayıl!

**R e y h a n** –De görüm, bu nə sözdür?

**C ı ğ a t a y** –Gedək, danışım. *(Danışa-danışa gedirlər).*

## ÜÇÜNCÜ ŞƏKİL

A s l a n ı n evi. A s l a n kağızları qarşısına töküb, ciddi məşğuldur. Qalxır, maqnitofonu açır. Bethovenin "Ay sonatası"na qulaq asır. C ı ğ a t a y gəlir.

**A s l a n** *(əsəbi)*–Hardaydın?

Cığatay–Bağışla, ağa, gecikdim.

**A s l a n** –Saata bir bax...

**C ı ğ a t a y** –Üzr istəyirəm.

**A s l a n** –Saatla qadının oxşarlığı çoxdur. Saat vaxtı bildirir, qadın unutdurur.

**C ı ğ a t a y** –Rüstəm səndən razılıq edirdi. *(Pauza, astadan.)* Nahar eləmisən?

**A s l a n** –Yox!

**C ı ğ a t a y** –Onda gedim hazırlayım.

**A s l a n** –Lazım deyil! *(Siqaret yandırır.)* Çoxdandır səninlə danışmaq istəyirdim. *(Pauza.)* Bilmirəm, sən, niyə başa düşə bilmirsən ki, bizim bu evdə nəsə çatmır.

**C ı ğ a t a y** –Başa düşürəm.

**A s l a n** –Görürsənmi, evdə hər şey soyuqdur. Evdə qadın nəfəsi çatışmır.

**C ı ğ a t a y** –Elədir. *(Pauza.)*

**A s l a n** –Bir qız zəng çalmışdı.

**C ı ğ a t a y** –Hə... yəqin... elə mən də istəyirdim...

**A s l a n** –Dünən Xosrovgildəydim. Qızı yaman böyüyüb. Yaxşı qıza oxşayır. Anan rəhmətliyin də ondan xoşu gəlirdi. Ağıllı, savadlı qızdir. Bilirsən, ingilis dilini necə bilir. O gün görürəm "Deyli Ueorker

qəzetini oxuyur?

**C ı ğ a t a y** –"Azərbaycan gəncləri qəzetini necə, oxuya bilir? *(Aslan onu tərstərs süzür.)* Pis qız deyil, amma...

**A s l a n** –Xoşuna gəlmir?

**C ı ğ a t a y** –Gözləri elə bil, baxmaq üçün deyil, yatmaq üçündür.

**A s l a n** –Necə yəni? Yəqin gözləri parıldamır, pişik gözü kimi, hə? *(Pauza.)* İyirmi beş yaşın var, az deyil... Özün bil, bu məsələdə heç kəs sənə yol göstərə bilməz. Amma məsləhət lazımdır.

**C ı ğ a t a y** –Bəybabam demişkən, məsləhətli don gen olar. Yüz ölç, bir biç.

**A s l a n** –İstəyirəm ki, sən... ayrı cür olasan. Hə, ayrı cür... Hər işdə ayrı cür. Sən yaşda olanda mənim elə böyük arzularım vardı ki... Nə oldu, çata bildim?

**C ı ğ a t a y** –Nə danışırsan, ağa, o boyda zavodun direktoru olmaq balaca işdir? Hamı sənə qibtə eləyir.

**A s l a n** –Mənə? *(Gülür.)* Mən nəyəm ki?.. Mən sizin gözünüzdə elə böyük görünürəm. Ürəyimdə çox söz var, amma özümün özümdən zəhləm gedir.

**C ı ğ a t a y** –Niyə axı?

**A s l a n** –Sənə necə deyim? Bax... bir yolu tutub gedirsən... Arxana baxmayıb elə gedirsən... Öyrəşirsən yolun yoxuşuna da, enişinə də. Elə bilirsən ki, bu yolun axırında səni nə isə gözəl bir möcüzə gözləyir. Bir vaxt görürsən, ömür yarıdan ötüb, möcüzə də gəlmir ki, gəlmir. Onda, baxırsan dala. Deyirsən, bəlkə səhv eləmisən, bəlkə, ayrı cığırla getmək lazımmış, amma yox. Görürsən bu cığır da gedib o yola çıxır.

**C ı ğ a t a y** –Bəlkə yolu özün açasan? Açılmışla getməyəsən?

**A s l a n** –O da tapdanıb köhnələcək. Ondan da zəhlən gedəcək. Dünənki işin bu gün xoşuna gəlir? Yox! Ona görə ki, pillədən pillə doğur. Nə isə... Özüm də bilmirəm. İstəyirəm, sən özün baxasan bu dünyaya. Öz gözünlə. Özgənin çeşməyini taxma, gözünə düşə bilər, amma könlünə düşməz. Eh, Cığatay, deyir, qurbağa çox söz bilir, quruldamağa qorxur. *(Pauza.)*

**C ı ğ a t a y** –Ağa, deyəsən, sən məndən narazısan, axı?

**A s l a n** –Yox, elə bir narazılığım yoxdur, amma istəyirəm, sən özün-özünə yol açasan, çarpışasan, vuruşasan. Mənə güvənməyəsən.

**C ı ğ a t a y** –Əlbəttə, Bəybabam demişkən, kölgədə bitənin kölgəsi olmaz.

**A s l a n** –Adam ki, bir böyük məqsədə, arzuya can atmadı... Heç. Niyyət böyük olmalıdır! Ağabəy demişkən... Hə, bu barədə baban nə demişdi?

**C ı ğ a t a y** –Niyyətin hara, mənzilin də ora. *(Pauza.)* Ağa, məgər mənim arzum, niyyətim yoxdur?

**A s l a n** –Amma arzu da var, arzu da. Bir var çiyninə milçək qanadı taxasan, bir də var qartal qanadı. Qartal qanadı ilə zirvədən-zirvəyə uçmaq hara, milçək qanadı ilə dörd divar arasında vızıldamaq hara?

**Cı ğ a t a y** –Hamı qartal olmaq istəyir.

**A s l a n** –İstəmək azdır. Bilirsən, mən səni o qədər də qınamıram. Sən, axı, gözünü açıb hər şeyi hazır görmüsən.

**C ı ğ a t a y** –Başa düşmədim.

**A s l a n** –Sən öz atanla mənim atamı tutuşdursan, nə görərsən?

**C ı ğ a t a y** –Sənin atan elə olmalıydı, mənim atam da belə.

**A s l a n** –Orası düzdür, hər şey zamana görə. İndi, gəl, burasını fikirləş görək, mənim atam mənə nə verib, sənin atan sənə nə?

**C ı ğ a t a y** –Mən istəməzdim ki, bu məsələyə toxunaq...

**A s l a n** –Bilirsən, onu demək istəyirəm ki, mən o kökdən bura gəldim, sən bu kökdən daha qabağa getməlisən. Mən bilirəm, sənin qabiliyyətin də var, istedadın da. Amma bunlar azdır. Gərək cəmiyyətdəki yerini tapasan. Tapa bilməsən, istedadın da gözə görünməyəcək. Su gəminin çölündə gözəldir, amma içində fəlakətdir.

**C ı ğ a t a y** *(fikirli)*–Doğrudur, yaxşı sözlərdir.

**A s l a n** –Zəmi görmüsən də?.. Taxıl zəmisi. Bir də görürsən, taxılın içində bir çiçək yerinə düşməyib. Nəyə lazımdır? Alaq kimi biçiləcək. Eh, odur ki, gərək, əvvəlcə yerini tapasan bu cəmiyyətdə. *(Qapı zəngi. Qədimbəy gəlir.)* Ağabəy! *(Görüşürlər.).* Sən hara, bura hara?

**C ı ğ a t a y** –Bəybabam, nə yaxşı iş görmüsən! Səndən nə əcəb!

**A s l a n** –Bəs niyə belə xəbərsiz-ətərsiz?

**Q ə d i m b ə y** –Belə yaxşıdır. Hə, nə var, nə yox?

**C ı ğ a t a y** –Gəlirdin, nənəmi də gətirəydin də...

**Q ə d i m b ə y** –Nənən özünü sürüyə bilir ki... *(Öskürür.)* Nə tüfəngə çaxmaqdı, nə sümbəyə toxmaq.

**A s l a n** –Kimdir günahkar?

**Q ə d i m b ə y** –Demək istəyirsən ki, pis baxıram anana? Nə olar, bir az da gəl, sən bax. *(Öskürür.)* Deyəsən, yolda soyuqlamışam.

**C ı ğ a t a y** –Süd gətirim iç, sinən yumşalsın. *(Mətbəxə keçir.)*

**A s l a n** –Kənddə nə var, nə yox?

**Q ə d i m b ə y** –Kənddir də, qışqırır övladlarının dalınca.

**A s l a n** –Niyə?

**Q ə d i m b ə y**– Necə niyə. Böyüyən qaçır şəhərə. Heç bilmirsən bunun axırı nə olacaq.

**A s l a n** –Belədir də... Maşallah, gümrahsan.

**Q ə d i m b ə y** –Amma sən, deyəsən, nazik əyirirsən. Üç ildir görmürəm. Yaman dəyişmisən. *(Cığatay süd gətirir. Baba bir qurtum içib üzünü turşudur.)* Bu nədir? Rəngindən südə oxşayır, bu o süddəndır? Nədir onun adı?

**C ı ğ a t a y** –Poroşok südü.

**Q ə d i m b ə y** –Necə də oxşadıblar ey... İçməsən, elə bilərsən süddür. İndi, gəl safı çürükdən ayır. vallah, belə ki, qalmısınız böyük hünərdir. *(Pauza.)* Yaxşı, ay oğul, kəndə niyə gəlmirsən? Axı, el-gün var.

**A s l a n** –Düzü, Ağabəy, işdən göz açmaq olmur.

**C ı ğ a t a y** –Ağa, gəl, bu yay gedək kəndə.

**A s l a n** –Bilirsən ki, mən Yesentukiyə getməliyəm.

**Q ə d i m b ə y** –Bu il ora getmə.

**A s l a n** –Yesentukidə müalicə götürürəm. Bir il getməsəm...

**Q ə d i m b ə y** –Deyirəm, vallah, bilmirəm nə görmüsünüz bu bəzək-düzəkli kurortlarda, mən də vaxtında o qədər olmuşam, amma nə xeyri. Elə götür, bu Bakını. Bayaq gələ-gələ baxırdım bağlara, bulvara. Vallah, ağaclara yazığım gəldi.

**C ı ğ a t a y** –Niyə, bəybaba?

**Q ə d i m b ə y** –Görmüşük ağac istədiyi yerə qol-budaq atar. Burda ağacların başını kəsib eləyiblər qırxıq dayça. Olub kulturnı.

**C ı ğ a t a y** *(qəh-qəhə çəkib gülür)*–Deyirəm, Bəybabam, bu ağacların boynuna qalstuk necə yaraşar?

**Q ə d i m b ə y** –Qalstuklu ağaclar az görmüsən?

**C ı ğ a t a y** –O qədər...

Qapı zəngi. R ü s t ə m l ə Q ə r ə n f i l gəlir.

**R ü s t ə m , Q ə r ə n f i l** –Salam!

**A s l a n** –Xeyir ola?

**Q ə r ə n f i l** –Evdə də sizi narahat edirik. Amma nə eləyək? Sexdə boru partlayıb.

**A s l a n** –Çağırın düzəltsinlər.

**Q ə r ə n f i l** –Qoyur bəyəm bu Rüstəm?

**R ü s t ə m** –Yoldaş direktor...

**Q ə r ə n f i l** –Ağalıq eləyir, bağlatdırıb sexi.

**A s l a n** –Necə yəni bağlatdırıb?

**Q ə r ə n f i l** –Özündən soruşun!

**R ü s t ə m** –Bilirsiniz, Aslan Qədimoviç, əvvəl mən buna tabe idim, indi, bu mənə tabe olub... sözümə baxmır.

**A s l a n** –Elə əvvəldən də sözünüz çəp düşürdü...

**Q ə r ə n f i l** –Seximi bağladıb. Deyir, əsaslı təmir olunmalıdır. Qaz belə axdı, tüstü belə getdi...

**A s l a n** –Təmir lazımdir. Amma, Rüstəm, sən dediyin kimi yox.

**R ü s t ə m** –Trubalar, borular hamısı dəyişməlidir. Həm də bu barədə kimya sənaye nazirinin əmri var. Tüstü verən qurğular bağlanmalıdır.

**A s l a n** –İndi nə deyirsən, sexi tamam bağlayaq?

**R ü s t ə m** –Mən deyirəm ki, çalışaq təmir müddətində tüstünü ləğv eləyən qurğu işə düşsün.

**A s l a n** –Yox, qurğunun işi hələ uzundur.

**R ü s t ə m** –Əgər sexi əsaslı təmir eləsək, qurğu da çatar.

**A s l a n** –Yaxşı, siz təmiri ləngitməyin. Qurğunun tikintisini sürətləndirərik.

**Q ə r ə n f i l** –Qurğu o vaxta çatmayacaq.
**A s l a n** –Yaxşı, qurtardıq!
**R ü s t ə m** *(Qərənfilə)*–Hə, nə oldu?
**Q ə r ə n f i l** –Yaxşı, baxarıq.
**R ü s t ə m** *(Aslana)*–Hələlik.

Q ə r ə n f i l l ə R ü s t ə m çıxır.

**Q ə d i m b ə y** –A bala, evdə də zavod?
**A s l a n** –Neyləyək? Belə olmasa, iş getməz. Hə, Ağabəy, gəlişin xeyirdimi?
**Q ə d i m b ə y** –Böyüklərin yanına gəlmişəm, şikayətə. Gərək mənə kömək eləyəsən.
**A s l a n** –Nə barədə?
**Q ə d i m b ə y** –O barədə ki, torpaqlarımız batır. Sənin xəbərin var?
**A s l a n** –Niyə batır?
**Q ə d i m b ə y** –Bəs oğlun deməyib? Cığatay, bəs, yazdığın nə oldu?
**C ı ğ a t a y** –Bəybaba, sözə baxan yoxdu. Amma bu barədə kitab yazıram.
**A s l a n** –O mənə sözünü deyəndi?
**Q ə d i m b ə y** –Selsu bizim torpaqlarımızı yuyub apardı. Torpağın qaymağı getdi. Hər il deyirik: "Bol məhsul götürək! Yaxşı, bu il götürdük, bəs sonra? Bu torpaq bizə dədələrimizdən qalıb. Bəs, nəvələrimizə nə verəcəyik?
**C ı ğ a t a y** –Bəybabam düz deyir. O tərəflərdə meşələr elə qırılıb ki, selin qabağını saxlamaq olmur. Sel də ki, torpağın şirəsini yuyub aparır.
**Q ə d i m b ə y** –Gərək gedim nazirin yanına.
**A s l a n** –Ağabəy, daha qocalmısan. O boyda kəndin dərdini çəkmək daha sənin işin deyil. Deyirəm, biz də burda təkik. Yığışaq bir yerə.
**Q ə d i m b ə y** –Necə yəni, siz kəndə gəlirsiniz, yoxsa biz bura yığışırıq?
**C ı ğ a t a y** –Hə, baba, biz kəndə getsək yaxşıdır.

**Qədimbəy** –Yox, oğlum, mən ocağımdan, torpağımdan ayrıla bilmərəm *(Pauza)*. Neçənci mərtəbədir bura?

**Aslan** –Altıncı.

**Qədimbəy** –Yerdən çox ayrılmısan, bala. Heç olmasa yayları gəl kəndə. Özün də yazıqsan, gəl, o dərələrin suyundan iç, təpələrin göy-göyərtəsindən ye, ol anadangəlmə. Nə tökürsən zəhər kimi dava-dərmanı qarnına? Əlliyə çatmısan?

**Aslan** –Bəli.

**Qədimbəy** –Dünənin uşağısan. Elə deyirsən, oram ağrıyır, buram ağrıyır. Səksəni haqlıyıram, diş ağrısından ayrı azar-bezar tanımıram.

**Aslan** –Ona görə ki...

**Qədimbəy** –Yediyimiz də xalisdir, geydiyimiz də, hələ bir dediyimiz də.

Qədimbəy çamadanı açır.

**Aslan** –Hə, Cığatay, görək indi bəybaban bizə nə gətirib.

**Qədimbəy** –Bunları anan qoyub, kənd sovqatıdır.

**Cığatay** –Bəh-bəh, əvəlik, boymədərən, moruq mürəbbəsi. Təbii dərmanlar.

**Qədimbəy** *(çamadandan bir çal papaq çıxarır)*–Bunu oğluma gətirmişəm.

**Aslan** –Çox sağ ol.

**Qədimbəy** –Sənə yox ey, sən qırağa dur, öz oğluma.

**Aslan** –Ay sağ ol, indi mən çıxdaş oldum?

**Qədimbəy** –Hələ indi bilirsən? *(Cığatayı göstərir.)* Bunu tapan gündən sən çıxdaşsan. Mənə bax, o hansı meyvədir ki, kalı şirin, dəymişi acı olur?

**Aslan** –Kalı şirin, dəymişi acı? Elə meyvə ola bilməz.

**Qədim-bəy** –Hə, o övladdır *(Cığatayı göstərir)*. Kalı şirin, (Aslanı göstərir) dəymişi acı.

**Aslan** –Hə, yaxşı sözdür.

**Cığatay** –Sağ ol, baba, gəl bir səni maç eləyim.

**Qədim-bəy** –Ay zalımoğlunun verimi, görürsən, bayaqdan maç

eləmirdi babasını.

Telefon zəngi. A s l a n dəstəyi götürür.

**A s l a n** –Alo! *(Cığataya)* Səni istəyir.

C ı ğ a t a y dəstəyi götürür.

**C ı ğ a t a y** –Bəli, hə... yaxşı, gəlirəm. *(Dəstəyi asır.)* Mən gedəsi oldum

**A s l a n** –Nahar elə sonra

**C ı ğ a t a y** –Yarım saata gəlirəm

C ı ğ a t a y çıxır.

**A s l a n** –Ağabəy, sən bir bununla əməlli danış.

**Q ə d i m - b ə y** –Nə barədə?

**A s l a n** –Xoşuma gəlmir.

**Q ə d i m - b ə y** –Niyə? Gözüm çıxdıya salma bu uşağı. Anası rəhmətlik ovcunun içində saxlardı onu. Ürəyi sınıqdı, yadından çıxartma, Aslan, övlad üçün ata–çörək, ana–ürəkdir!

## DÖRDÜNCÜ ŞƏKİL

N i h a l ı n evi. N i h a l , R e y h a n modalar jurnalına baxır.

**R e y h a n** –Bax, gör, nə yaxşı fasondur. Kontrast rənglər... Qiyamətdir! O bağlamada bu fasona tutan parçalar var, tikdirsənə. *(Sükut.)* Yaxşı yadıma düşdü, burda, sizin blokda, indicə baldızını gördüm.

**N i h a l** –Hə, Dilbərgilə gəlib-gedir.

**R e y h a n** –Xeyir ola, o hardan hara?

**N i h a l** –Mən də bilmirəm. Axır vaxtlar yaman dadanıb onlara.

**R e y h a n** –Əynində də elə bu parçadan paltar vardı.

**N i h a l** –Yəqin, Əmin ona da göndərib.

**R e y h a n** –Məktub alırsan?

**N i h a l** –Kimdən?

**R e y h a n** –Kimdən olacaq. Sənə nə olub, heç belə deyildin. Elə bil heç kişi yadına düşmür.

**N i h a l** –Eh, sən də! Yadıma düşəndə nə olacaq?

**R e y h a n** –Nə vaxt gəlir?

**N i h a l** –Hələ çox var.

**R e y h a n** –Bəs darıxmırsan?

**N i h a l** –Məni nə sorğu-suala tutmusan? Başına söz qəhətdir?

**R e y h a n** –Hamı ərə gedəndən sonra belə olur?

**N i h a l** –Necə?

**R e y h a n** –Belə də, sənin kimi.

**N i h a l** –Mən hamı deyiləm, bir nəfərəm.

**R e y h a n** –Çox qəribə qızsan.

**N i h a l** –Ayqız, özündən danış. Sevgindən, hissindən, görüşlərindən. Sənə qulaq asmaq istəyirəm. De görüm, görüşəndə nədən danışırsınız? Bacının qulağına pıçıldamazsan? Hissinizi bir-birinizə necə deyirsiniz?

**R e y h a n** –Hissi demirlər ki, hiss eləyirlər.

**N i h a l** –Ah, gənclik! Dünyada gənclikdən, sərbəstlikdən böyük nemət ola bilər?

**R e y h a n** –Yoxsa sən qocasan? Fərqimiz nə qədərdir ki...

**N i h a l** –Reyhan, bu günlərin qədrini bil. Bu saat dünyada səndən xoşbəxt, səndən zəngin adam yoxdur.

**R e y h a n** –Niyə?

**N i h a l** –Sevirsən. Sevgidə sərbəstsən. Sən bu saat gərək vaxta deyəsən: Dayan, tələsmə, mən səni şərbət kimi içmək, nəğmə kimi dinləmək istəyirəm!..

**R e y h a n** –Bu saat qanadım olsaydı, uçardım. Qalxardım buludlardan da yuxarı, var səsimlə qışqırardım: Ey insanlar, uçun, uçun, yüksəlin!

***(Mahnı)***

Bir payız axşamı, yağırdı gur yağış,
Saplandı könlümə alovlu bir baxış,
Qamaşdı gözlərim, baxdıqca mən ona,
Gözlərdə nə əfsun, gözlərdə nə məna!

*Nəqərat*

Dayan, dayan, dayan zaman, dayan,
Zaman dayan, zaman dayan, dayan.
Hicrana olmasın aman!

**N i h a l** –

Bir payız axşamı, iki qəlb bir oldu,
Buludlar dağıldı, dəryalar duruldu.
Nəğmələr pıçıldar göy mənə, yer mənə,
Sevirəm ey həyat, sirrini ver mənə.

*Nəqərat*

Döyündü ürəklər, mən baxdım, o baxdı
Mən ona yaxındım, o məndən uzaqdı.
O susdu dinmədi, danışdı baxışlar
Baxışı könlümdə bağladı naxışlar.

**R e y h a n** –Mən mahnıya qulaq asanda tikan da gözümdə çiçək açır.

**N i h a l** –Yox, o mahnıdan deyil, sevgidəndir. Sevən adam yarpaqların pıçıltısında da mahnı eşidir. Doğrudan da mənim bacımsan. Biz bacı deyilik e... Dostuq, dostuq.

**R e y h a n** –Bəs necə? Bəybabam demişkən, dost dostla tən gərək, tən olmasa gen gərək.

**N i h a l** –Bəybaban kimdir?

**R e y h a n** –Mənim yox ey, onunki.

**N i h a l** –Vay səni! Gör bu gədə qızın ürəyinə necə girib, özü bir yana, babasından sitat gətirir.

Reyhan–Neyləyim... Yazıq İsmayıl!

Telefon zəngi.

**N i h a l** –Alo!.. Hə, evdəyəm... Bir azdan... amma gəl, ha... Mütləq!

**R e y h a n** –Kim idi?

**N i h a l** –Rəfiqəmdir. Deyir, sizə gəlmək istəyirəm. Vacib işim var.

**R e y h a n** –Deyəsən, söhbəti gizlidir?

**N i h a l** –Hə.

**R e y h a n** –Onda mən gedim. Yazıq İsmayıl!

Qapı zəngi. N i h a l özünü itirir. R e y h a n qapıya gedir. Ə m i n gəlir. R e y h a n onun boynuna sarılır.

**R e y h a n** –Əmin!

**N i h a l** –Əmin! Sən... bəs... nə tez?..

**Ə m i n** –Gözləmirdin, hə?

**N i h a l** –Doğrudan... Heç gözümə inana bilmirəm.

**Ə m i n** –Görürsən ki, gəlmişəm.

**R e y h a n** –Xoş gəlmisən, həmişə evində-eşiyində.

**Ə m i n** *(Nihala)* –Nə olub, ay qız, niyə qurumusan?

**N i h a l** –Heç... heç bilmirəm... *(Özünü ələ alır.)* Yaman qaralmısan, bir az da... sınıxmısan.

**Ə m i n** –Sınıxmışam! Amma sən, göz dəyməsin, yaxşısan.

**N i h a l** *(Pauza.)*–Bəs, niyə belə xəbərsiz?

**Ə m i n** –Birdən oldu.

**N i h a l** –Həmişəlik gəlmisən, yoxsa...

**Ə m i n** –Hələ bilmirəm.

Ə m i n otağa keçir.

**N i h a l** –Qurbanım olum, Reyhan, öldüyüm gündür, mənə kömək!

**R e y h a n** –Nə olub?

**N i h a l** –İndi bura bir nəfər gələcək. Bağışla məni, olur həyatdır. İndi məni sorğu-suala tutma. Sonra hamısını danışaram. Mən bir nəfərlə... İndi o bura gələcək.

**R e y h a n** –Sən nə danışırsan?

**N i h a l** –Dedim, sorğu-sualın vaxtı deyil. Çıx, qapının ağzına. İndicə gəlməlidir. De ki, içəri girməsin.

**R e y h a n** –Nihal, axı...

**N i h a** –Yalvarıram, məni xilas elə!

**R e y h a n** –Bəs ayıb deyil, mən ona necə?..

**N i h a l** –Nə deyirsən, de, indi, sənə əl açmışam. Amma tez qa-yıt!..

Ə m i n əlində dəsmal yan otaqdan çıxır. R e y h a n tərəddüd edir, istehzalı nəzərlərlə bacısını süzür, sonra çıxır.

**Ə m i n** –O hara getdi?
**N i h a l** –Gələr.
**Ə m i n** –Bəlkə məndən qaçdı?
**N i h a l** –Səndən niyə?
**Ə m i n** –Bəlkə...
**N i h a l** –Nə bəlkə?

Sözsüz danışıq. Dəhşətli musiqi.

## BEŞİNCİ ŞƏKİL

N i h a l ı n memarlıq emalatxanası. Divarlardan layihələr asılıb.
N i h a l, prorab.

**N i h a l** –Deyirsən, relyef olsun hamar güzgü kimi. Şablon bir bina tikək, hə?

**P r o r a b** –Şablon deyəndə ki, çıxmır da, neyləyək? İnanın mənə, qayaları partlatmasaq mümkün olmayacaq. Dünən Qulamzadə ilə çox götür-qoy elədik. Gördük layihə bir söz deyir, qayalar ayrı söz.

**N i h a l** –Bunlar hamısı hesablanıb. O biri binalara da etiraz eləyirdiniz, nə oldu, tikilmədi?

**P r o r a b** –Özünüz gördünüz ki, nə əziyyətlə başa gəldi.

**N i h a l** –Əziyyətsiz iş yoxdur.

**P r o r a b** –Siz memarlar xoşbəxtsiniz, kağız üzərində bina şəkli çəkməyə nə var ki. Qayadan xəbəriniz yox, daşdan xəbəriniz yox. İndi, gəl, bu dərə-təpənin üstündə tik görüm, necə tikirsən.

**N i h a l** –Ustalıq da elə ordadır.

**P r o r a b** –Memar qız! Bizə bir az güzəştə gedin. O yandakı qaya-nı uçuraq. Relyef hamarlansın, işimiz yüngülləşsin.

**N i h a l** –Heç bilirsən nə danışırsan? Sən bununla mənim əsas

fikrimə balta çalırsan.

**P r o r a b** –Ay sənin fikrinə qurban olum, bina binadır da... Burda nə fikir, nə düşüncə?

**N i h a l** –Sən elə bilirsən, bina elə beləcə daş yığımıdır? Xeyr, yoldaş prorab, yaranan hər şey düşünməli və düşündürməlidir! O, sənət əsəridir. Mən o dəfə Qulamzadəyə izah elədim. Elə bildim ki, o məni başa düşdü... İndi də səni göndərib. Qulaq as, bu ansamblın adı nədir?

**P r o r a b** –İstirahət zonası!

**N i h a l** –Təbabətdə təzə bir istilah yaranıb: iqlim müalicəsi — landşaftoterapiya. Təbiətin bütün maddi sərvətləri ilə yanaşı, mənəvi sərvəti də var: sakitlik! Təbiətin öz ahəngdar nəğməsi: suların şırıltısı, yarpaqların pıçıltısı, quşların cəh-cəhi...

**P r o r a b** –Bəh-bəh-bəh, adam indi orda ola!

**N i h a l** –Yarat, get orda da dincəl! Mənim ansamblım bax, buna xidmət edir. Mən istəyirəm ki, istirahət zonası təbiətin bir parçası olsun. Onun içində ərisin.

**P r o r a b** –Yaxşı arzudur! Axı, imkanı da nəzərə almalıyıq.

**N i h a l** –İmkanımıza nə gəlib...

**P r o r a b** –Qayaların içinə salanda, axı, bu yazıq bina, binalıqdan çıxır, yöndəmsiz bir şey olur.

**N i h a l** –Səni qınamıram, öyrənmisən qutu binalara... Mən layihəmi dəyişməyəcəyəm, bunu birdəfəlik bilin!..

**P r o r a b** –Sizin kimi gözəl qadına belə sərt danışmaq yaraşmır. Gözəlliyinizə uyğun gəlmir.

**N i h a l** –Gözəllik haqqında da təsəvvürün köhnədir, yoldaş prorab, gözəllik — təzaddadır, eyniyyətdə deyil.

**P r o r a b** –Pah atonnan! Bilirsiniz, memar xanım, mən hər dəfə sizə baxanda...

**N i h a l** –Nə hallar keçirdiyinizin mənə dəxli yoxdur.

**P r o r a b** –Onu demirəm, istəyirəm elə sizinlə mübahisə eləyim, sizin qəlbinizə, necə deyim...

**N i h a l** –Yol tapım, hə?

**P r o r a b** –Bəli.

**N i h a l** –O qəlbə gedən yollar da layihəm kimi, dərəli-təpəli, daşlı-qayalıdır.

**P r o r a b** –Nə olar? Cəfasız, səfa yoxdur ki.

**N i h a l** –İndi ki, elədir, get, layihənin cəfasını çək! Qurtardıq.

**P r o r a b** –Memar xanım!

**N i h a l** –Nə deyirsən, prorab ağa?..

**P r o r a b** –Deyirəm, sizin yolunuzda...

Ə m i n gəlir.

**N i h a l** –Tanış olun yoldaşımdır. *(Prorabı göstərir.)* Mənim təzə ansamblımın prorabı.

Prorab özünü itirir.

**P r o r a b** –Yaxşı, Nihal xanım, mən getdim.

**N i h a l** –Buyurun, gələn həftə gələcəyəm. Yerində yoxlarıq.

**P r o r a b** – Gözləyəcəyik, memar qız. *(Gedir.)*

Dərin pauza.

**Ə m i n** –Memar qız! Məni bu adama ərin kimi təqdim eləyəndə özün öz sözündən diksinmədinmi?

**N i h a l** –Əmin, bəsdir, sən gələni mənim başıma nə oyun açırsan?! *(Reyhan gəlir.)* Necə oldu, hansı rayona düşdün?

**R e y h a n** –Hələ bilmirəm...

**N i h a l** –Bəs təyinat olmadı?

**R e y h a n** –Yox! Yaxşı, mən getdim.

**Ə m i n** –Niyə gəlmişdin, indi niyə gedirsən? Yoxsa mənim yanımda danışa bilmirsiniz? İstəyirsiniz mən gedim?

**N i h a l** –Əmin, bəsdir!

**R e y h a n** –Mən gedirəm.

**Ə m i n** –Reyhan, dayan! Sənin yanında bacına sözüm var. Sən də eşit. Mən istəyirəm ki, sən özün deyəsən, bu nə söhbətdir? *(Sükut.)* Niyə cavab vermirsən? Mən bilmək istəyirəm, deyilənlər doğrudurmu?

**N i h a l** –Məndən niyə soruşursan? Deyənlərdən soruş.

**Ə m i n** –Onda sübut elə ki, bu dedi-qodudur. Sən özün mənə kömək eləməlisən, əgər yalansa, elə eləməliyik ki, sənin üstündən bu ləkə gö-

türülsün.

**N i h a l** –Mən neyləməliyəm?

**Ə m i n** –Mən sənin ürəyini görmək istəyirəm, öz ovcum kimi. Qurtar məni şübhədən...

**N i h a l** –Mən heç nə bilmirəm, özün necə istəyirsən, o cür də fikirləş!

**Ə m i n** –Belə olmaz, Nihal, mən bilirəm ki, gözəl qadın haqqında çox söz danışarlar. Nə çoxdur dünyada gözü götürməyən. Bizim balamız var. Niyə bir-birimizi aldadaq?

N i h a l əzab içində qıvrılır, söz tapa bilmir.

**N i h a l** –Mən günahkar deyiləm.

**Ə m i n** *(ona yaxınlaşır)* — Onda bax gözlərimin içinə! *(Nihal ondan uzaqlaşır.)* Niyə qaçırsan?

**R e y h a n** *(qalxır)*–Mən gedirəm.

**Ə m i n** –Bacının əvəzinə sən utanırsan? Yox, getməyəcəksən, otur. Gəldiyim dəqiqədən hiss eləmişəm ki, əvvəlki Nihal deyilsən. Məktubda yazılanlar doğru imiş.

**N i h a l** –İndi ki, belədir, daha məndən niyə soruşursan?

**Ə m i n** –Mən istəyirəm ki, özün boynuna alasan, özün deyəsən. Heç olmasa, burda riyakar olmayasan.

**N i h a l** –Neyçün sən istəyirsən ki, hamısını mən deyim? Başa düş, hissimi, fikrimi sənə çatdıra bilmirəm. Onu sözə çevirib deyə bilmirəm. Ona görə yox ki, mən səndən həqiqətən gizlətmək istəyirəm. Yox, ona görə ki, mənə aydın olan həqiqət sənə aydın ola bilməz.

**Ə m i n** –Sən məni bu qədər cahil hesab edirsən?

**N i h a l** –Yox, məsələ onda deyil, sən çox konkret adamsan. Sən sualı da konkret verirsən, cavabı da elə istəyirsən.

**Ə m i n** –Mən hələ səni başa düşə bilməmişəm. Nə fikrin aydındır, nə özün.

**N i h a l** –Amma sən mənə gün kimi aydınsan.

**Ə m i n** –Bəlkə elə buna görə mən mənim üçün maraqlı, sən sənin üçün maraq-sızam.

**N i h a l** –Başqasını günahlandıranda adam gərək özünə də baxa. Sən

həmişə özünü, öz işlərini, öz planlarını fikirləşmisən, heç deməmisən ki, görək, bu birisi nə fikirləşir. Məni necə varamsa, o cür də görə bilməmisən, görmək istədiyin kimi görmüsən. Özü də elə bilmisən ki, düz görürsən. Yox! Səhv eləmisən! Sən bilməmisən ki, mənim də öz tələblərim var. Mən dünyaya sənin gözünlə baxa bilmərəm.

**Ə m i n** –Mən elə bilmişəm ki, biz bir adamıq. Gözlərimiz də birdir.

**N i h a l** –Yox, sən elə bilmisən ki, mən sən olmalıyam; amma sən mən olmamalısan. Sən xudbinsən, Əmin, görürsən, Əlcəzairə gedəndə məndən soruşmadın, amma bir məktuba görə orada işgücünü atıb gəlmisən. Mənə görə? Yox, yenə özünə görə, öz adina görə.

**Ə m i n** –Necə yəni özümə görə? Bəs sənin namusun mənim deyil? Bəs mən səni sevməmişəm?

**N i h a l** –Sevmisən, amma sənin sevginin əvvəli də məlum olub, axırı da. Buradan bura qədər. Ölçüsü, çəkisi məlum olan sevgi — sevgi deyil, Əmin! Sənin dodaqların mənimlə danışıb, fikrin kimya formulaları açıb. Sən işlədiyin laboratoriyanı dünya hesab eləmisən.

**Ə m i n** –Axı, adam öz peşəsinə vurulmalıdır. Mənim ixtiralarım, mənim aləmimdir, həyatımdir.

**N i h a l** –Məgər mən öz sənətimi sevmirəm? Ancaq, həyat yalnız gördüyüm bu layihələrdən ibarət deyil. Bu layihələr, ölçülərdir, biçilərdir. Prorabı gördünmü? Bilirsən niyə gəlmişdi. Bu ölçülər-biçilər orada... qayaların üstündə ayrı cür alinır. Bəzən düz gəlmir. Həyatı ölçülərin, formulların qalıbına salmaq çətİndir. Axı, həyat heç bir qalıb, heç bir çərçivə tanımır.

**Ə m i n** –Mən səni hansı çərçivəyə salmışam, hansı arzunu gözündə qoymuşam?

**N i h a l** –Bilirsənmi, Əmin, mən hər şeydə gözəllik axtarmışam. İşimdə də, adamlara münasibətimdə də, oxuduğum kitablarda da, hətta çay içdiyim stəkanda da... Niyə mahnılara qulaq asırıq? İstəyirik ki, həyatın dibinə enməyək.

**Ə m i n** –Sən çoxdanın xəyalpərəstisən.

**N i h a l** –Bax, elə fərqimiz də bundadır.

**Ə m i n** –Yaxşı!

Ə m i n gedir.

**R e y h a n** –İlahi, bu nə müsibətdir? Mən bu yaşda nə qədər yalan, nə qədər riya görmüşəm? Axı, o bilmir, biz ki, bilirik... Sən necə deyə bildin ki, mən günahkar deyiləm? Məndən utanmadın, bəs özündən, öz vicdanından necə?

**N i h a l** –Yenə deyirəm, mən günahkar deyiləm.

**R e y h a n** –Necə yəni?

**N i h a l** –Siz məni başa düşməzsiniz!

**R e y h a n** –Ancaq o, bir şeyi başa düşdü.

**N i h a l** –Nəyi?

**R e y h a n** –Sən ona günahsız olduğunu sübut eləmək istəyirkən onu sevmədiyini sübut elədin!

**N i h a l** –Yaxşı, yaxşı!..

**R e y h a n** –Məni yandıran odur ki, sən məni də bu xəyanətə şərik elədin. Mən o gündən özümə gələ bilmirəm. Başa düş, xəcalətimdən ölürəm. Yer ayrılmir ki, yerə girim. O gün mən ona yanaşıb "içəri girmə, əri gəlib - dediyim zaman o mənim haqqımda nə fikirləşib? Yəqin gülüb, ürəyində deyib ki, bu da bacısının tayıdır.

**N i h a l** –Bəsdir. Ömründə bir dəfə mənə yaxşılıq eləmisən, onu da başıma çaxırsan!

**R e y h a n** –Yaxşılıq! *(Gülür.)* Yaxşılığa bax. Xəyanətə arxa duran, yol açan yaxşılıq. Mənim sənə elədiyim birinci yaxşılığın əsil adı bilirsənmi nədir? Alçaqlıq! Sən vadar elədin məni, sən! İlk addımım qiyamətdir, dalı uğurlu olsun!

**N i h a l** –Bəsdir!

**R e y h a n** –Nə bəsdir!? *(Reyhan Nihala hücum çəkir. Onun yaxasından bərk yapışır.)* Utanmırsan? Utanmırsan?

**N i h a l** –Əl çək! Bəsdir!

**R e y h a n** –Sən məndən böyük olmasaydın, mən sənin əsil adını deyərdim. Sən... sən...

R e y h a n N i h a l ı bərk silkələyir, N i h a l onu itələyir.

**N i h a l** –Küçük! Sən məni nə hesab eləyirsən? Mənim qəlbimdəki fırtınadan xəbərin yoxdur! Sən nə haqla məni mühakimə edirsən? Yox, mən heç kəsə icazə vermərəm. Siz kimsiniz? Siz nə bilirsiniz, mən nə çəkirəm. Axı, mən insanam! Mənim də öz hisslərim var. *(Hərəsi bir tərəfdə əyləşir. Ortaya dərin sükut çökür.)* Mən pozğun deyiləm. Məhəbbət sonradan gəldi. Qovmağa çalışdım, mümkün olmadı. Bəlkə də mənim haqqım yox idi. Ərli qadın başqasını sevə bilməz. Ancaq bu, quru bir hökmdür, bu sözün ürəkdən xəbəri yoxdur. Sevdim, onda başa düşdüm ki, həyat nədir?! Yaşamaqdan məqsəd nədir? Əgər sevgimi içimdə boğsaydım, bu xəyanət olmazdımı? Niyə siz xəyanəti birtərəfli başa düşürsünüz, siz başa düşün ki, mən Əmini sevmədən onunla yaşadığım zaman riyakar idim, saxtakar idim. Mən sevib təmizləndim. Riyakarlıqdan xilas oldum. İndi mən Əminə yox, riyakarlığa xəyanət eləmişəm.

**R e y h a n** –Onda evlənin.

**N i h a l** –Olmaz.

**R e y h a n** –Niyə?

**N i h a l** –Bəs uşaq?

**R e y h a n** –Uşaq gec-tez, bilməyəcək ki, sən... *(Sükut.)* Nihal, yalvarıram sənə, əl çək bu oyundan. Nə özünü aldat, nə də ərini. Birdəfəlik bu işə son qoy. Özün boynuna al, hamısını aç de. Get istədiyinə. İstəyirsən o kişi ilə mən danışım?

**N i h a l** –Yox.

**R e y h a n** –İndi ki məhəbbətində özünü haqlı hesab eləyirsən, tamam təmizlən. Ərini aldatma. Riyadan, saxtadan qaçmaq üçün məhəbbətini boğmadın. Çox yaxşı! Burda mən də səni başa düşürəm. Axı, indiki halında da başqa cür saxtakarsan.

**N i h a l** –Bezmişəm, bu yalanlardan. O da sevir, mən də... Üçüncüsü də əzab çəkir. Şübhə içində qıvrıldıqca ona da yazığım gəlir.

**R e y h a n** –Yalvarıram sənə, Nihal, götür telefonu bu saat o kişiylə danış. Qurbanın olum, danış.

N i h a l qalxır. Ə l i əsə-əsə telefon nömrəsini yığır.

**N i h a l** –Alo, mənəm. Yanında adam var? Hə, onda mən danışım,

sən mənim dediklərimi təkrar eləmə. Qulaq as, hamısını ona deyiblər... Yox, sən olduğunu bilmir. Mən daha buna dözə bilmirəm. Bu işə son qoymaq lazımdır. Yazığı nə qədər aldadaq? Biz də yazığıq, o da. Mən hamısını açıb deyəcəyəm ona. Deyəcəyəm ki, bir-birimizi sevirik, bir-birimizsiz yaşaya bilmirik. Yox, biz birləşməliyik. Necə?

Dəstək N i h a l ı n əlindən düşür.

**R e y h a n** –Nə oldu?
**N i h a l** –Asdı.

## ALTINCI ŞƏKİL

A s l a n ı n evi. Q ə d i m b ə y təkdir. Telefon zəngi. Q ə d i m b ə y dəstəyi götürür.

**Q ə d i m b ə y** –Hə... mənəm! Cığatay, sənsən? Hə, səhər yenə getmişdim, ora. O, sarısaç qız - nazirin qapıçısı, telefon nömrəsini aldı məndən, dedi, get otur evdə, çağırarıq səni. İndi oturmuşam qırt toyuq kimi evdə, zəng gözləyirəm. Əlacım nədir? *(Dəstəyi asır. Telefon zəngi. Dəstəyi götürür).* Hə, kimi istəyirsən? Danışan Qədimbəydir, Cığatayın babası. Cığatay evdə yoxdur. Bəs sən kimsən? Gələndə nə deyim? Reyhan? Xosrovun qızı? Ayrısıdır? Nə olar... *(Aslan gəlir.)* Gələndə deyərəm. Baş üstə. *(Dəstəyi asır.)*
**A s l a n** –Kimdir? Nə istəyir?
**Q ə d i m b ə y** –Cığatayı istəyir.
**A s l a n** –Həmin o qız idi danışan. Görürsən?
**Q ə d i m b ə y** –Nəyi?
**A s l a n** –Qız yaman yapışıb, əl çəkmir, uşaq ilışib... *(Pauza.)*
**Q ə d i m b ə y** –*(tərs-tərs onu süzüb)*–Sən özün az ilişirdin?
**A s l a n** –Ağabəy, sən bu uşağa çox dil vermə. *(Pauza).*Bu gün danışdım sizin nazirlə.
**Q ə d i m b ə y** –Yanına getmişdin?
**A s l a n** –Yox, telefonla danışdım.
**Q ə d i m b ə y** –Ona demədin ki, yanına gələnləri niyə qəbul

eləmirsən? Budur, səhərdən onun zəngini gözləyirəm.

**A s l a n** –Sən qəbul günündə getməmisən... Bir də səni tanımayıb. Gərək deyəydin ki, mən filankəsin atasıyam.

**Q ə d i m b ə y** –Niyə? Ayrısı adam deyil?

**A s l a n** –Ağabəy, sən elə bilirsən ki, nazirin ayrı işi, gücü yoxdur?

**Q ə d i m b ə y** –Niyə qışqırırsan, elə bilirsən əmələnzadınam? Əlqərəz, keç mətləbə, nə dedi?

**A s l a n** –Deyir, atanın şikayəti düzdür, arxayın olsun, tədbir tökəcəyik.

**Q ə d i m b ə y** –İnanan daşa dönsün!

**A s l a n** –Niyə inanmırsan?

**Q ə d i m b ə y** –Çox eşitmişik bu sözlərdən. Hər kəndə gələn belə zurnadan birini verir bizə, biz də çala-çala otururuq.

**A s l a n** –Yox, nazirin sözü sözdür!

**Q ə d i m b ə y** –Sözün nəyinə inanım? Bir söz sən deyirsən, bir söz də o... Buna deyərlər, söz alveri. Ortada iş yoxdur. Əslində gərək sözə inanasan. Kişinin sözü olan yerdə özü olmalıdır. Amma neyləyəsən ki, olmur. *(Pauza.)* Gərək məni aparaydın onun yanına.

**A s l a n** –Sən neyləyəcəkdin ki?

**Q ə d i m b ə y** –Mən bilirəm ki, ona nə deyərdim.

**A s l a n** –O da birini deyərdi.

**Q ə d i m b ə y** –Onda mən də deyərdim ki, sözdən toxam. İş gör, iş! Oturmusunuz kabinetdə. İşiniz kağızlara qol çəkməkdir. Oralardan xəbəriniz yoxdur. Gedək, qolu orda, o əriyən torpaqların üstündə çək. *(Pauza.)*

**A s l a n** –Ağabəy, oturmusunuz kənddə, heç bir şeydən xəbəriniz yoxdur. Elə bilirsiniz hər şey öz-özündən yaranır? Bunun üçün smeta tutulmalıdır, pul buraxılmalıdır.

**Q ə d i m b ə y** –Onları mən də bilirəm.

**A s l a n** –Ağabəy, yaxşı, sabah gedərik bərabər.

**Q ə d i m b ə y** –Lazım deyil. Özüm gedirəm. İndi o məni qəbul eləməsin görüm necə eləmir. Görünür, çomağın o biri başını döndərməyəndə iş getmir.

**A s l a n** –Yaxşı, yaxşı, hirslənmə.

**Q ə d i m b ə y** –İş güc tökülüb qalıb, mən burda qəbul gözləyirəm.

**A s l a n** –Sənin burada da işin var, Ağabəy! Cığatayın məsələsini sən özün bir yön üstə qoy, sonra get. *(Pauza.)* Bilirsən, Ağabəy, mən demirəm ki, istəməsin. Əvvəlaxır bu, bir adamı istəməlidir. Amma məsələ bundadır ki, bu uşaq öz babını tapmayıb.

**Q ə d i m b ə y** –Tanıyırsan onu?

**A s l a n** –Tanıyıram, o qızın ailəsi xoşuma gəlmir.

**Q ə d i m b ə y** – Nə təhər yəni?

**A s l a n** –O təhər ki, o qızın bacısı...

**Q ə d i m b ə y** –Necə ki?

**A s l a n** –Məni bağışla. Ağabəy, üzr istəyirəm, əri ola-ola özgəsi ilə... *(Pauza.)* İndi necə bilirsən? Belə bir qız bizə yaraşar?

**Q ə d i m b ə y** –Lap yəqin bilirsən?

**A s l a n** –Lap yəqin.

**Q ə d i m b ə y** –Hə... Bu yaxşı iş olmadı. *(Pauza.)* Amma bir də baxırsan ki, ay mənimlə olsun, ulduzun gözünü pülərəm. Bir də bilirsən, ay oğul, zamana dəyişib, baxırsan ki, bir atanın iki oğlunun hərəsi bir cürdür. Biri şirdir, biri tülkü.

C ı ğ a t a y gəlir. Qapını aralayıb baxır. Geri çəkilir.

**A s l a n** –Ağabəy, sərçə yumurtasını bülbülün altına qoysan sərçə çıxar, ya bülbül?

**Q ə d i m b ə y** *(fikirli)*–Hə... nəsl artırmaq insan işi.

**A s l a n** –Olmaz ki, elə tanıdığımız adamın qızını alaq? Xosrov nə təhər adamdır?

**Q ə d i m b ə y** –Adamlığını deyə bilmərəm. Eşitmişəm ki, böyüklərdəndi.

**A s l a n** –Yaxşı adam olmasaydı, böyüməzdi.

**Q ə d i m b ə y** –Pis adamlar böyümür?

**A s l a n** –Keçək mətləbə.

**Q ə d i m b ə y** –Mətləb odur ki, sənin niyyətini bilirəm. Rəhmətlik anası da bunu mənə demişdi.

**A s l a n** –Pis olar?

**Q ə d i m b ə y** –Özü nə deyir?

**A s l a n** –Yan keçir.

**Q ə d i m b ə y** –Hə, indi gəldin mən deyənə. Könül sevən göyçək olar.

**A s l a n** –Ağabəy, indi biz neyləyək? Bilirəm, onu çox istəyirsən. Amma onu özbaşına qoymaq olmaz.

**Q ə d i m b ə y** –Haqlısan, bala, deyirəm, görəsən, qız özü nə təhərdir?

**A s l a n** –Nə bilək?

**Q ə d i m b ə y** –Cığatayın ki gözü tutub qızı, o da bilməz.

**A s l a n** –Əlbəttə, gözü tutulub da. Əvvəllər kitab əlindən düşməzdi. Bu qızla tapışanı tamam dəyişib. Evdə-eşikdə tapılmir.

**Q ə d i m b ə y** –Bu mərəzə tutulanlar hamısı elə olur.

**A s l a n** –Mən dünyanı tutub durmayacağam. Sabah mənsiz onun halı necə olacaq? Dedim, nə qədər mən sağam, dalını oxusun, alim olsun. Apardın kəndə. Mən də bir söz deyə bilmədim. İndi gəlib, baxıram ki...

**Q ə d i m b ə y** –Dediklərinin çoxuna şərikəm. Bircə o alim sözünə yoxam. Gərək elə alim ola? O qədər köntöy alimlərimiz var ki... Bu da qoy adam olsun.

**A s l a n** –Olsun da.

**Q ə d i m b ə y** –Adamlığına söz ola bilməz, su kimi safdı.

**A s l a n** –Elə mənim də qorxum orasındadır. O sənə inanır. Mənim adım olmasın, sən onu bu yoldan döndər. Mən razı olmaram ki, mənim evimə xəyanət ayaq bassın. Bayaq sən özün dedin, Cığatay çox safdır. O qız onu addım başı aldadır, bu bədbəxtin xəbəri də olmaz.

C ı ğ a t a y hövlnak içəri girir.

**C ı ğ a t a y** –Ağa... sən... sən... tanımadığın adam haqqında... *(Onu qəhər tutur, danışa bilmir.)*

**A s l a n** –*(özünü itirir).* Tanımasam demərəm.

**C ı ğ a t a y** –Tanısaydın onun barəsində...

**A s l a n** –Kəs səsini, uşaq!

**C ı ğ a t a y** –Uşaq, uşaq! Mən nə qədər uşaq olacağam?

**Q ə d i m b ə y** –Bura bax *(Aslanı göstərir),* əlli yaşı var, amma mənim üçün yenə uşaqdır.

**A s l a n** –Ata həmişə övladını düşünür.

**C ı ğ a t a y** –Övladının əvəzinə? Axı, niyə? Ağa, yalvarıram sənə, qoy mən istədiyim kimi düşünüm. Axı, mənim də ağlım var. Bağışla məni, ağa, niyə mən gərək sənin kimi düşünəm?

**A s l a n** –Ona görə ki, sən düz düşünə bilmirsən.

Cığatay–Nə olar, qoy səhv eləyim. Yıxılanda da öz səhvim ucundan yıxılım, məni ağrıtsın. Onda düzü əyridən özüm seçərəm.

**A s l a n** –Gec olar.

**C ı ğ a t a y** –İnsan yıxılayıxıla yerimək öyrənir. Qoy yıxılım, nə olar, həyat özü hamısını öyrədəcək.

**A s l a n** –Həyat, insanı deyil, insan həyatı istədiyi kimi qurmağı bacarmalıdır. Onu da sən bacarmayacaqsan.

**C ı ğ a t a y** –Axı, sən o gün demirdin ki, dünyaya öz gözünlə bax? Demirdin ki, özgənin çeşməyini gözünə taxma? İndi nə oldu?

**A s l a n** –İndi görürəm ki, hələlik, çeşməksiz keçinə bilməyəcəksən... O qız sənin gözünə elə pərdə çəkib ki, sən heç nə görmürsən. De görək, o qızın bacısı var?

**C ı ğ a t a y** –Bəli.

**A s l a n** –Özü də memardır?

**C ı ğ a t a y** –Bəli.

**A s l a n** –Ərinin adı Əmindir?

**C ı ğ a t a y** –Bəli.

**A s l a n** –Əlcəzairdə idi, təzə gəlib.

**C ı ğ a t a y** –Gəlməyini bilmirəm, amma... bəs sən bunları hardan bilirsən?

**A s l a n** –Mən bilirəm, sənsə... çox şey bilmirsən!

**C ı ğ a t a y** –O məndən heç nə gizlətməz.

**A s l a n** –Gizlətməz? Bəs, onda evlərindəki fırtınanı niyə deməyib sənə? Bəs niyə deməyib ki, əri burda olmayanda bacısı... özgəsi ilə...

**C ı ğ a t a y** –Yox, bəlkə... bəlkə... o da heç bilmir?

**A s l a n** –Bilir, səndən gizlədir, mən razı olmaram ki, sən elə bir

adamla qohum olasan. Kişi ol, işdir məsələni açmalı olsan, qıza de, bunları özüm öyrənmişəm. Məni bu işə qatma!

C ı ğ a t a y hövlnak qapıdan çıxır...
Q ə d i m b ə y də onu təqib edir. Qapıda Ə m i n l ə toqquşurlar.

**Ə m i n** –Aslan!

**A s l a n** –Boy, Əmin! Balam, nə tez? *(Pauza.)* Nə vaxt gəlmisən? *(Görüşürlər.)*

**Ə m i n** –Zavoda getmişdim, səni tapa bilmədim. Gəldim evə.

**A s l a n** –Gəlişin xeyirdirmi?

**Ə m i n** –İcazə ilə gəlmişəm.

**A s l a n** –Xeyir ola? *(Əmin əzab çəkir. Cavab verə bilmir.)* Evdə bir şey olmayıb ki, salamatlıqdır? Rüstəm tez-tez baş çəkirdi sizə... Mən də xəbər tuturdum. Korluq çəkməyiblər ki? *(Pauza.)* Ə, sənə nə olub? Niyə cavab vermirsən?

**Ə m i n** –Bilmirəm hardan başlayım.

**A s l a n** –Ordakı işlərindən xəbərim var. Afərin! Yaman ad çıxarmısan, balam! Mən elə belə də bilirdim.

**Ə m i n** –Aslan! Mən bir də ora qayıtmayacağam.

**A s l a n** –Niyə? Yoxsa müvəffəqiyyətdən başın gicəllənib? Yaxşı, bəsdir! *(Pauza.)* Hələ əvvəlcə sənin bu gözlənilməz gəlişini qeyd edək, sonra danışarıq.

Konyak çıxarır, qədəhlərə süzür.

**Ə m i n** –İçəsi halım yoxdur. Sən mənə qulaq as.

**A s l a n** –Axı, nə olub? Niyə getmək istəmirsən?

**Ə m i n** –Bunu soruşma!

**A s l a n** –Yaxşı işləmisən, adın mərkəzi qəzetlərdə çəkilir. Sənə görə təşəkkür almışıq. Başımızı ucaltmısan. Bunların hamısına görə çox sağ ol. Bəs, indi, oradakı işləri necə yarımçıq qoymaq olar? Axı, bu, dövlət işidir, əzizim, orda müqavilə var.

**Ə m i n** –Nə olur-olsun, mən getməyəcəyəm!

**A s l a n** –Səninki oldu tərslik. Elə də iş olar? Sevinə-sevinə getmişdin ki, ora?

**Ə m i n** –İndi vəziyyət ayrı cürdür.

**A s l a n** –Belə olmaz. Sən məni də pis vəziyyətdə qoyursan.

**Ə m i n** –Mən bu işin çətinliyini də bilirəm, müqaviləni də başa düşürəm. Amma nə deyim, Aslan, ayrı əlacım yoxdur. Sən də məni başa düş.

**A s l a n** –Axı, mən nəyi başa düşüm? Açıq danış görək, nə olub.

**Ə m i n** –Bu əlacsız dərddir.

**A s l a n** –Əmin, biz səninlə dostuq. Sən mənə də dərdini deməyib, kimə deyəcəksən?

**Ə m i n** –Mən rüsvay olmuşam.

**A s l a n** –Nə danışırsan? Nə rüsvay?

**Ə m i n** –Mən bu halımda bir də ora qayıda bilmərəm. Qayıtsam da işləyə bilmərəm. Başa düş, mənim namusum ləkələnib.

**A s l a n** –Dəli olmusan, nədir?

**Ə m i n** –Ağlımı itirmişəm. Yuxum ərşə çəkilib. Şübhə məni öldürür.

**A s l a n** –Bu, heç yaxşı olmadı. *(Pauza.)* Bəyəm hər deyilən sözə inanarlar? Ağır dərddir! Amma sən də uşaqlıq eləmə... Adamları da tanıyırsan. Sən indi rəsmi dairələrdə çox böyük hörmət qazanmısan. Axı, bunu gözü götürməyənlər də var. Bəlkə də səni ləkələmək, işdən soyutmaq, ruhdan salmaq üçün bu şayiəni yayırlar.

**Ə m i n** –Yox, yox, deyilənlər bir yana, özüm... Özüm də hiss etmişəm. Orda ürəyimə dammışdı. Gecələr yata bilmirdim. İçimdə bir səs gecə-gündüz qışqırıb mənə aman vermirdi: "Get, get, evə! Çətinliklə icazə alıb gəldim. Gələn kimi də hiss elədim.

**A s l a n** –Bəs özü nə deyir?

**Ə m i n** –Kim?

**A s l a n** –Xanımın...

**Ə m i n** –Elə onun öz hərəkətləri deyilmi məni şübhələndirən?

**A s l a n** –Sən deyilənlərə uyma. Özün yoxla. Məsələnin kökünə get, sonra nəticə çıxart. Bura bax, istəyirsən Moskva ilə danışım, onu da apar özünlə.

**Ə m i n** –Sən nə danışırsan? Məni nə hesab edirsən? Niyə məni başa düşmək istəmirsən?

**A s l a n** –Yaxşı, yaxşı, əsəbiləşmə.

**Ə m i n** –Deyilənlər doğrudursa, mən onun üzünə necə baxa bilərəm? Mən onunla necə...

**A s l a n** –Yaxşı, düz deyirsən. *(Sükut.)* Sözüm yoxdur, qal, öyrən. *(Telefon zəngi.)* Alo! İmran, hə, işlər necədir? Mən başa düşə bilmirəm. Rüstəm nə istəyir bizdən? Sex bu gün işə düşməlidir, vəssalam! Hə lap gecə saat birdə də olsa, heç kəsi evə buraxma, bir azdan gəlirəm. *(dəstəyi asır.)* Dördüncü sexi təmir elətdirmişik. Deyir, yenə qaz axır.

**Ə m i n** –Yaxşı, mən getdim.

**As l a n** –Get, amma özünü ələ al. *(Əmin gedir, Aslan gəzişir, düşünür. Qədimbəy gəlir; çox dilxordur.)* Ağabəy, sən Cığatayla bir də danış, bu işdən əl çəksin!

Q ə d i m b ə y tərstərs onu süzür, bir söz demir,
A s l a n gedir. Q ə d i m b ə y gəzinir.

**Q ə d i m b ə y** –Haqlısan, bala, amma mən onunla necə danışım, axı? İndi nəsihət zamanası, dərs vermək vaxtı deyil. *(Pauza.)* Dəxli yoxdur... yox, dəxli yoxdur.

R ü s t ə m gəlir.

**R ü s t ə m** –Baba, xoş gördük. *(Sükut.)* Aslan Qədimoviç evdədir?

**Q ə d i m b ə y** –Qədimiç?..

**R ü s t ə m** –Hə, baba, Aslan müəllim. *(Qədimbəy başını tərpədir.)* Cığatay necə? *(Qədimbəy yenə başını tərpədir.)* Baba, direktora deyərsiniz ki...

Q ə d i m b ə y işarə eləyir ki, əyləşsin. R ü s t ə m əyləşir, mahnıya qulaq asır. Musiqi bitir. Q o c a bir xeyli musiqinin təsirindən qurtara bilmir, gecdən-gec başını qaldırır.

**Q ə d i m b ə y** –Hə, buyur...

**R ü s t ə m** –Mən Cığatayın dostuyam. Direktor gələndə deyərsən ki, gəlmişdim.

**Q ə d i m b ə y** –Kim gəlmişdi?

**R ü s t ə m** –Hə, mənim adım Rüstəmdir.

**Q ə d i m b ə y** –Çox gözəl. Mənim də adım...

**R ü s t ə m** –Mən sizi tanıyıram.

**Q ə d i m b ə y** –Kiməm?

**R ü s t ə m** –Cığatayın babası!

**Q ə d i m b ə y** –Gördün tanımırsan? Mən Cığatayın babası deyiləm, Cığatay mənim nəvəmdir.

**R ü s t ə m** –Doğrudur, üzr istəyirəm. *(Pauza.)* Yaxşı, baba, hələlik.

**Q ə d i m b ə y** –Dayan görək, hara tələsirsən?

**R ü s t ə m** –Məni gözləyirlər, mən ölüm.

**Q ə d i m b ə y** –Hə, o yaxşıdır ki, səni hardasa gözləyirlər. Sən kiməsə lazımsan. Vay o gündən ki, səni heç yerdə sən heç kəsə lazım deyilsən.

**R ü s t ə m** –Hə, baba, doğrudur... Maşallah, elə sizdə...

**Q ə d i m b ə y** –Deyirsən, Cığatayın dostusan, hə?

**R ü s t ə m** –Bəli!

**Q ə d i m b ə y** –Dostluq gözəl şeydir. Yaxşı, dostunun işlərindən xəbərin var?

**R ü s t ə m** –Hansı işlərindən?

**Q ə d i m b ə y** –Demək istəyirəm ki, sirrinizi necə, bir-birinizə...

**R ü s t ə m** –Bəli, bir-birimizdən gizli bir işimiz yoxdur, mən ölüm!

**Q ə d i m b ə y** –Çox gözəl!.. Sən onun istədiyi qızı tanıyırsan?

**R ü s t ə m** –Bəli, baba, tanıyıram.

**Q ə d i m b ə** y–Nə təhər qızdı?

**R ü s t ə m** –Necə deyim qızdı da... Orta boy, nazik... sol yanağında da bir xalı var, mən ölüm.

**Q ə d i m b ə y** –Onu demirəm. Soruşuram ki, xasiyyəti, adamlığı nə təhərdi?

**R ü s t ə m** –Onu deyə bilmərəm.

**Q ə d i m b ə y** –Sən o qızı mənə göstərə bilərsən?

**R ü s t ə m** –Bax, bu gün saat 6-da sizin evin qabağındakı bağda görüşəcəklər, mən ölüm

**Q ə d i m b ə y** –Mən deyirəm, Cığatay bilməsin.

**R ü s t ə m** –O necə ola bilər?

**Q ə d i m b ə y** –O cür olar ki, sən Cığatayı bir yarım saat ləngidəsən. Mənim onunla söhbətim var. Bacararsan?

**R ü s t ə m** –Bacararam.
**Q ə d i m b ə y** –Ağızdan bütövsən?
**R ü s t ə m** –Bəli... bəli...

Sözsüz danışıq, musiqi.

## YEDDİNCİ ŞƏKİL

Görüş yeri. Q ə d i m b ə y gəlir. Qırmızı kürsünü tapır, əyləşir, təsbeh çevirir. R e y h a n gəlir, əyləşir; təəccüblə Q ə d i m b ə y i süzür.

**Q ə d i m b ə y** –Yaman tutulub hava. *(Sükut.)* Bir az əvvəl qiyamət hava vardı. *(Sükut.)* Bakı belədir də... Bilmək olmur... *(Reyhana tərəf dönür.)* Elə deyil, qızım?

**R e y h a n** –Elədir.

**Q ə d i m b ə y** –Əvvəllər Bakıda bir tozanaq olardı ki... gəl görəsən. Yaxşı ki, bu bağları saldılar. Bu vaxtacan hərə bir ağac əksəydi, buralar cənnət olardı.

**R e y h a n** –Heç olmasa bundan sonra əkələr.

**Q ə d i m b ə y** *(sükut)*–Tələbəsən, qızım?

**R e y h a n** –Bu il qurtardım.

**Q ə d i m b ə y** –Mübarək olsun! Sənətin nədir?

**R e y h a n** –Müəllim!

**Q ə d i m b ə y** –Çox gözəl! Balalarımıza tərbiyə verəcəksən... Müəllimlik - sənətlərin başıdır. Amma müəllim özü gərək elə... ola ki, sözünə inanalar.

**R e y h a n** –Elədir, baba, yoxsa bu oxşayar natəmiz adamın ağzı köpüklənə-köpüklənə təmizlikdən danışmasına.

**Q ə d i m b ə y** –Nə olar, qoy danışsın. Sözünün nə kəsəri olar, nə əsəri. Qızım, sənə bir rəvayət danışım. Qədimdə bir arvadın uşağı xəstələnir, əlac eləyə bilmirlər. Arvad eşidir ki, uzaq bir şəhərdə yaxşı bir həkim var. Uşağını götürüb araba ilə gəlir həmin şəhərə. Görür həkimin qapısında xəstələr dayanıb növbəyə. Axşama yaxın növbə çatır. Həkim uşağı görən kimi anasından soruşur: - Uşaq nə yeyib? Arvad

cavab verir ki, ən çox yediyi xurmadır... Həkim deyir ki, get sabah gəl, əlacını deyərəm... Qərib şəhər, tanış yox, biliş yox. Arvad küçələrdə səhəri açır. Gəlir həkimin yanına. Yenə axşama yaxın növbə çatır Arvada. Arvad içəri girən kimi, həkim uşağı qucağına alıb deyir: - Bala, bir neçə gün xurma yeməyəsən!.. Sonra üzünü anaya tutub deyir: Gedə bilərsən. Arvad deyir - bəs, dərman? Həkim deyir, dərmanı elə odur ki, bir neçə gün xurma yeməsin. Ana əsəbiləşib həkimə deyir: - Sən necə həkimsən? Elə bunu dünən deyə bilməzdin? Həkim deyir: - Bacı, mən özüm dünən xurma yemişdim. Dünən uşağa xurma yemə desəydim, sözümün kəsəri olmazdı. Bu gün, bu uşağın xətrinə xurma yeməmişəm ki, sözümün kəsəri olsun.

**R e y h a n** –Gözəl sözdür, baba! Amma bu nəsihətlər belə birtəhərdir ey...

**Q ə d i m b ə y** –Nə təhər?

**R e y h a n** –Nəsihət faydasız şeydir.

**Q ə d i m b ə y** –Hə, qızım, düz deyirsən. Quyuya su tökməklə quyu sulu olmaz... adamın gərək zatı qırıq olmaya.

**R e y h a n** –Sizə bir sualım var, baba. Bax, bir adam, özü də lap yaxın adamsınız, deyək oğlunuz, yaxud qızınız birdən-birə dəyişə?

**Q ə d i m b ə y** –Necə yəni dəyişə?

**R e y h a n** –Sən o adama hörmət edəsən, onu təmiz bir adam kimi tanıyasan, birdən ayılıb görəsən ki, bu o cür deyilmiş, onda necə olarsınız?

**Q ə d i m b ə y** –Adam birdən-birə dəyişə bilməz. Əgər o adamın pisliyini sən indi görürsənsə günah özündədir.

**R e y h a n** –Yaxşı, əvvəlcədən bilməmişəmsə, günah məndədir! İndi mənim bundan sonrakı halım necə olsun?

**Q ə d i m b ə y** –Mən səni başa düşürəm, qızım.

**R e y h a n** –Baba, deyirəm, görəsən adamlar niyə özlərini gizlədir? Amma uşaqlar elə olmur. Onların ürəkləri dillərindədir. Böyüdükcə, adamlar ürəklərini, fikirlərini dəmir sandığa qoyur, ağzını da kilidləyir. Olmaz ki, elə olduğumuz kimi görünək?..

**Q ə d i m b ə y** –Başa düşürəm. *(Fikrə gedir.)*

**R e y h a n** –Belə şeyləri fikirləşəndə Bəy babam, demişkən, adam qalır odla su arasında.

**Q ə d i m b ə y** –Sənin də bəybaban var, qızım?

**R e y h a n** *(özünü itirir)*–Hə, baba, hələ üzünü görməmişəm. Deyirlər, bir nurani kişidir.

**Q ə d i m b ə y** –Yəqin ki, qaynatandır.

**R e y h a n** –Yox, qayınbabamdır.

**Q ə d i m b ə y** –Qızım, indi mənim sənə bir sualım var.

**R e y h a n** –Buyur, baba.

**Q ə d i m b ə y** –İndi burda əyləşmişik, söhbətdi eləyirik. Sən, düz deyirsən, ürəyini ən yaxın adamlardan gizlədənlər var. Beləsinə mən də pis baxıram, sən də. Amma bəzən görürsən ki, bu elə məndə də olur.

**R e y h a n** –Olmamalıdır, baba.

**Q ə d i m b ə y** –Əlbəttə olmamalıdır. İndi sən də qızım, heç olmayıb ki, yaxın adamından bir sirr gizlədəsən? Ancaq əvvəlcə əməlli fikirləş a...

**R e y h a n** *(fikirləşir, birdən)* –Olub, baba, olub.

**Q ə d i m b ə y** –Olub?

**R e y h a n** –Hə, bir dəfə. Özü də bu yaxınlarda.

**Q ə d i m b ə y** –Görürsən, qızım, biz başqalarının ayıbını görə bilirik, amma özümüzünkünü yox. Sağ ol, qızım, sən ürəyini açıb sənə dedin, bu mərdlikdir. Xoşum gəldi.

**R e y h a n** –Gizlətmişəm, baba, özü də ən yaxın adamımdan.

**Q ə d i m b ə y** –Amma gərək bundan sonra olmaya. *(Pauza.)* Hava açıldı, bulud keçdi, yağmadı. Amma yağsaydı, yaxşı olardı.

Ayağa qalxır.

**R e y h a n** –Niyə, baba?

**Q ə d i m b ə y** –Yağışdan sonra hər şey gözəlləşir, hava təmizlənir. Bu dünyadır, qızım, dağ dağa qovuşmaz, insan insanla qovuşar. Nə bilirsən, bəlkə... Zaman bizi yenə görüşdürdü...

**R e y h a n** –Elədir mən çox şad olaram.

Q ə d i m b ə y gedir. R e y h a n əyləşib gözləyir. C ı ğ a t a y gəlir.

**R e y h a n** –Cığatay, niyə gecikdin? *(Sükut.)* Bir şey olmayıb ki? *(Sükut.)* Yəqin, nəsə olub? *(Sükut.)* Niyə danışmırsan? Sənə nə olub?

**C ı ğ a t a y** –Bilirsən! Yaxşı bilirsən?

**R e y h a n** –Başa düşmürəm. Nə demək istəyirsən?

**C ı ğ a t a y** –Əməlli fikirləş, taparsan?

**R e y h a n** –Cığatay!

**C ı ğ a t a y** –Bacıngildəki fırtına nə məsələdir? *(Sükut.)* Bəs, sən bu əhvalatı niyə mənə deməmisən?

**R e y h a n** –Çox ürəkaçan xəbər idi ki...

**C ı ğ a t a y** –Biz and içmişdik ki, bir-birimizdən gizli heç bir sirrimiz olmayacaq? Sən indidən belə edirsən, bəs, bunun axırı necə olacaq?

**R e y h a n** –Utandım, deyə bilmədim.

**C ı ğ a t a y** –Bəs indi utanmırsan?

**Re y h a n** –Nə desən haqlısan... Amma sənin qanını qaraltmaq istəmədim. Bir də ki...

**C ı ğ a t a y** –Reyhan, sənin bacının günahı öz günahıdır. Bunun sənə bir tikə dəxli yoxdur. Məni yandıran sənin öz günahındır. Sənin bunu məndən gizlətməyindir. Məni başa düş, saxtalıqdır. Bu saxtalıq böyüyüb xəstəliyə çevrilə bilər.

**R e y h a n** –Günahkaram!

**C ı ğ a t a y** –Mən yalana, saxtakarlığa dözə bilmirəm, dözə bilmirəm! Başa düşürsənmi?.. Riyaziyyatdan zəif oxuyardım. Ev tapşırıqlarını eləyə bilməzdim. Uşaqlar bir-birindən köçürərdi. Mən bacarmazdım. Elə bilirsən, müəllimi aldatmaqdan utanardim? Xeyr, özüm-özümdən utanardım. Başqasından utanmamaq olar, vay o gündən ki, özün-özündən utanmayasan. Özün-özünü aldadasan. Götür bacını. Elə bilirsən, o, yalnız ərini aldadıb? Yox, özü özünü aldadıb!

**R e y h a n** –Bacımın vəziyyəti çox mürəkkəbdir. Biz onu başa düşə bilmərik.

**C ı ğ a t a y** –Nəyi başa düşə bilmərik? Bacın nə istəyir bu dünyadan? Ev-eşiyi, əri, yaxşı güzəranı...

**R e y h a n** –Ev-eşik, yaxşı güzəran hələ həyat deyil. Bəs sevgi?

**C ı ğ a t a y** –Bacın sevməyib?

**R e y h a n** –Ərini yox!

**C ı ğ a t a y** –Zorla veriblər?

**R e y h a n** –Xeyr.

**C ı ğ a t a y** –Bəs nə istəyirdi? Getməyəydi.

**R e y h a n** –Cığatay, həyat bizim nazımızı çəkən, qayğıkeş anamız deyil, tələbkar sahibimizdir. O, çox zaman bizim arzumuzca olmur. Bacım... indi sevib.

**C ı ğ a t a y** –Sən yenə məni başa düşmədin. Mən bacını da saxtakarlıqda günahlandırmıram. Yoxsa, əlbəttə, sonradan sevmək olar. Dünyada hər şey mümkündür. Ancaq məni özümdən çıxaran odur ki, sevməyə-sevməyə əri ilə necə yaşaya bilib? Niyə onu aldadıb? Hətta, yadına gəlirmi? Sən mənə bacının ailəsini tərifləyirdin. Ay belə sevirlər bir-birlərini... Məhəbbət burdan gəldi, mehribanlıq ordan getdi. Bu imiş onun məhəbbəti?

**R e y h a n** –Niyə biz insanlar başqalarına amansız oluruq? *(Uzaqdan görünən binanın üstündəki antena çubuqlarını göstərir.)* Ona bax. Görürsənmi o antena çubuqlarını? Onları evlərimizin damına sancıb dünyanın o başında yaşayanların dərdini, qəmini, azarını, bezarını eşidirik, görürük. Amma bir dam altında yaşadığımız qonşumuzun dərdindən, azarından xəbərimiz olmur. Özümüzə qapanmışıq. Nə olaydı, o antena çubuqlarını damların üstünə yox, ürəklərimiin başına sancıb, yaxınlarımızın dərdinə, azarına şərik ola biləydik.

**C ı ğ a t a y** –İnsanın qəlbində antena olmasaydı, sən dediyin antenanı da yarada bilməzdi. Düzdür, yaxınlarımızın dərdinə şərik olaq, amma onları aldatmayaq. Namus oğrusu, vicdan oğrusu olmayaq.

**R e y h a n** –Mən də əvvəl, Nihalı qınadım, danladım, hətta dalaşdıq. Sonra başa düşdüm ki, o da başqa cür bədbəxtdir. Dünyada elə şeylər var ki, biz hələ onları başa düşə bilmərik. Sevmək...

**C ı ğ a t a y** –Mən onun sevgisinə də inanmıram. Sevdiyinə getsə, sabah da onu aldadacaq.

**R e y h a n** –Burda deyiblər, dad yarımçıq əlindən. Biz avropalı kimi düşünüb, asiyalı kimi yaşayırıq.

**C ı ğ a t a y** –Avropanı gözümüzə dürtdüyünüz yetər. Caz beynimi-

zi dumanlandırdı. Bir az da "Uzundərə" oynayaq.

**R e y h a n** –"Uzundərənin axırı Xaçmazda qurtarır ha, cavan oğlan!

**C ı ğ a t a y** –Xeyr, "Uzundərəyə ayağımızı bərk bassaq, o bizi dünyanın o başına aparar.

**R e y h a n** –İndi sən bizdən nə istəyirsən?

**C ı ğ a t a y** –Yaman yerdə axşamladıq. Bizimkilər də eşidib bu əhvalatı. Bilirsən də, sənə demişəm. Namus məsələsində mənim atam adama bir tikə də güzəştə getməz.

**R e y h a n** –Bura bax, mən heç kəsin boğazında qalan artıq tikə deyiləm. Sözünü açıq de, qurtarsin.

**C ı ğ a t a y** –Bu boyda ayıbı ört-basdır eləməyə çalışırsınız. Amma cidanı çuvalda gizlətmək olmaz.

**R e y h a n** –Sevmək ayıb deyil, cavan oğlan! Sevib, sonra qaçmaq ayıbdır! Sən də elə kişinin tayısan. Lənət olsun o sevgiyə ki, yanından balaca yel ötən kimi böyrü üstə düşəcək. İndi mən səni yaxşı tanıdım. Bacım düz deyirmiş, sevgini də bərk ayaqda sınayarlar.

**C ı ğ a t a y** –Reyhan

**R e y h a n** –Artıq söz lazım deyil.

R e y h a n gedir. C ı ğ a t a y onu təqib edir. Q ə d i m b ə y l ə R ü s t ə m gəlir.

**R ü s t ə m** –Dalaşdılar.

**Q ə d i m b ə y** –Hə, bala, yaman dalaşdılar. İki ürəyin arasına girmək bül-bül yuvasını dağıtmaqdan günahdır.

**R ü s t ə m** –Görəsən, bunu kim deyib Cığataya?

**Q ə d i m b ə y** –Atası. O da bilmirəm hardan öyrənib. Deyir, əri Çəzairdə olanda...

**R ü s t ə m** –Harda? Əlcəzairdə?

**Q ə d i m b ə y** –Hə, təzə gəlib. Deyir, evlərində mərəkədədir.

**R ü s t ə m** –Hə, belə de... Bəlkə bu Reyhan Əminin baldızıdır?

**Q ə d i m b ə y** –Hə, Əmin... Sən hardan tanıyırsan?

**R ü s t ə m** –Əmin bizim işçidir də. Əlcəzairdə idi. Təzə gəlib. Çox yaxşı adamdır, mən ölüm.

**Q ə d i m b ə y** –Sən onların evini tanıyırsan?

**R ü s t ə m** –Kimin?

**Q ə d i m b ə y** –Qızın bacısını deyirəm.

**R ü s t ə m** –Hə. Əri burda olmayanda maaşı mən aparırdım evlərinə.

**Q ə d i m b ə y** –Bu qız yaman xoşuma gəldi. Deyəsən, yaman tərsdir, iş pozulsa, neyləyək?

**R ü s t ə m** –Biz neyləyə bilərik ki?

**Q ə d i m b ə y** –Eləyərik, mənə də Qədim bəy deyərlər!

Sözsüz səhnə. Musiqi.

## SƏKKİZİNCİ ŞƏKİL

Ə m i n i n evi. N i h a l, R e y h a n. N i h a l çamadanını yığır.

**R e y h a n** –Axı, hara gedirsən? Sənin burda işin-gücün. O boyda iş başlamısan.

**N i h a l** –Ayrı əlacım yoxdur. Bir neçə aylığa olsa da getməliyəm.

**R e y h a n** –Bəs Əmin?

**N i h a l** –Bu gün hamısını açıb ona deyəcəyəm.

**R e y h a n** –Sonra?

**N i h a l** –Sonrası, sonra... *(Pauza.)*

**R e y h a n** –Nihal, deyirəm, bəlkə...

**N i h a l** –Hə... Nə bəlkə?..

**R e y h a n** –Mən onu bilirəm ki, əgər sən özün açıb deməsən... Əmin...

**N i h a l** –Mən də bilirəm. Amma mən Əminə, onun insanlığına, şəxsiyyətinə həddindən artıq hörmət elədiyimdən onu aldatmayacağam. Hamısını deyəcəyəm. Bir də axı, o uşağımın atasıdır.

**R e y h a n** –Mən səndən elə bu cavabı da gözləyirdim. Bəs, o kişiyə necə, demisənmi?

**N i h a l** –Yox!

**R e y h a n** –Niyə?

**N i h a l** –Ehtiyac görmürəm.

**R e y h a n** –Amma mənə elə gəlir ki, axırıncı dəfə onunla danışmalısan. Qoy bilsın ki, onun namərdliyi bizə çox baha başa gəldi.

**N i h a l** –Yox, bacım, lazım deyil.

**R e y h a n** –Necə lazım deyil? O, ev yıxmadı, könüllər yıxdı. Fikirləşdikcə adamı dəhşət götürür. Bir cür cinayətlər niyə məcəlləyə düşmür? Niyə cəzasız qalır?

**N i h a l** –Ev yıxanların cəzası var, ürək yıxanların cəzası...

**R e y h a n** –Daha müdhiş olmalıdır!

**N i h a l** –Onların cəzasını qoy ürəkləri versin!

**R e y h a n** –Onlarda ürək olsaydı ürək yıxardılarmı? *(Pauza.)* Amma de görüm, unuda biləcəksənmi onu?

**N i h a l** –Bəs, niyə baş götürüb qaçıram? Onunla bir şəhərdə qalmaq, eyni havanı udmaq mənə çətin olacaq. *(Pauza.)* Mən nə qədər kor olmuşam, onu tanımamışam... İndi tanıyıram. Amma insan öz hissinin əlində necə də aciz olurmuş. Nifrət edirəm özümə də, hissimə də, amma ona nifrət edə bilmirəm, bilmirəm bu nə sirdir, bu nə möcüzədir?

**R e y h a n** –Çətin olacaq.

**N i h a l** –Ayrı əlac yoxdur.

B a c ı l a r qucaqlaşır. Hər ikisi doluxsunur.

**R e y h a n** –Amma səni tək buraxmayacağam! Mən də gedəcəyəm səninlə.

**N i h a l** –Tək niyə oluram? Bəs oğlum? Onu da götürəcəyəm.

Qapı zəngi. N i h a l qapını açır, yan otağa keçir. C ı ğ a t a y görünür.

**C ı ğ a t a y** –Reyhan, gördüm yataqxanada yoxsan... Məcbur olub...

**R e y h a n** –Nahaq gəlmisən!

**C ı ğ a t a y** –Reyhan!

**R e y h a n** –Qurtardıq gedə bilərsən!

**C ı ğ a t a y** –Reyhan, mən sərt danışdım, bağışla...

**R e y h a n** –Bu sözlər artıqdır, Cığatay! Mən bacımla gedirəm.

**C ı ğ a t a y** –Hara?

**R e y h a n** –Sənə dəxli yoxdur.

**C ı ğ a t a y** –Reyhan axı... biz...

**R e y h a n** –Sən ki, məni tanıyırsan, dedim, qurtardı! Artıq söz lazım deyil, gedə bilərsən!

C ı ğ a t a y gedir.

**N i h a l** –Sən niyə belə elədin?

**R e y h a n** –Belə də lazımdı.

**N i h a l** –Axı, nə olub? Dalaşmısınız?

**R e y h a n** –Hə...

**N i h a l** –Nə üstdə?

**R e y h a n** –Soruşma!

**N i h a l** –Yox, siz gərək ayrı cür olasınız.

**R e y h a n** *(hönkürüb ağlayır)*–Sən onunla danışmaq istəmirsən, amma mən danışacağam.

**N i h a l** –Kiminlə?

**R e y h a n** –O kişiylə...

**N i h a l** –Qətiyyən!.. Mən sənə qadağan edirəm!

Ə m i n gəlir, çamadanları görüb təəccüb edir.

**Ə m i n** –Getmişdim idarənizə, ərizə vermisən, ayrı şəhərə gedirsən, nə üçün? *(Sükut.)* Reyhan, incimə, bizi tək burax!

**R e y h a n** –Mən kənar adam deyiləm. İstəyirəm...

**N i h a l** –Reyhan, sən qorxma, get, bir azdan gələrsən.

R e y h a n gedir.

**Ə m i n** –Sən doğurdan getmək istəyirsən?

**N i h a l** –Bəli!

**Ə m i n** –Hara?

**N i h a l** –Onun fərqi yoxdur. Biz artıq bir yerdə yaşaya bilmərik.

**Ə m i n** –Nihal, bu sənin qəti qərarındır?

**N i h a l** –Bəli.

**Ə m i n** –Yox sən nə danışırsan? Bizim övladımız var. Bir də mən sənə inanmaq istəyirəm. Bəlkə məni inandırasan. And iç! And iç ki, sən

təmizsən... *(Sükut. Nihal əzab çəkir.)* Heç olmasa, məni aldatmaq üçün and iç! Mən sənə inanıb aldanmaq istəyirəm. Dünyada aldanıb yaşamaq da mümkündür... *(Nihal əlləriylə başını tutur, tərəddüd edir.)*

**N i h a l** –Yox, yox. Əmin, kifayətdir, alçalma, kişiyə alçalmaq yaraşmır.

**Ə m i n** –Sənə bir sualım var: Bəs, sən sevməyə-sevməyə mənimlə necə yaşamısan?

**N i h a l** –Mən ki fikirlərimdə, hisslərimdə onsuz da səndən ayrı idim. Məgər bunun özü xəyanət deyildi? Bəs, niyə sən bu xəyanətə dözürdün?

**Ə m i n** –Mənə desən ki, acıdır, iç bu dərmanı, içərəm; ağzımı da turşutmaram. Sən demisən, iç bunu, şərbətdir. İçmişəm, amma görürəm zəhər kimi acıdır. Tüpürürəm. Onu bil ki, mən acılığa tüpürmürəm, yalana tüpürürəm.

**N i h a l** –Mən də bu yalana son qoymaq istəyirəm. Bu evdə hər şey saxtadır. Bax, o güldandakı kağız güllərdən tutmuş, mənə, sənə qədər.

**Ə m i n** –Məni qatma! Mən səni sevmişəm. Əgər sevməsəydim, açıq deyərdim: "Məni bağışla, səninlə yaşaya bilmirəm". O zaman sənin əlinə belə toxuna bilməzdim.

**N i h a l** –Bax, bu mənim günahımdır. Çətin olub, amma dözmüşəm.

Pauza.

**Ə m i n** –Məni kimə dəyişmisən?

**N i h a l** –Bunu deməyəcəyəm.

**Ə m i n** –Niyə, bəs niyə məni sevə bilmədin?

**N i h a l** –Nə deyim? Niyəsini bilsəydim, nə vardı ki... *(Pauza.)* Sən başa düşə bilmədin ki, sən sərhədi sevirsən, mən sonsuzluğu, sən adiliyi sevirsən, mən müstəsnalığı. Sən ikimizin arasında tarazlıq yaratmağa çalışırdın. Amma bilmirdin ki, tarazlıq durğunluqdur. Mənim durğunluqdan zəhləm gedir.

**Ə m i n** –Mən bunları hiss eləyirdim. Amma güman eləmirdim ki, sən məni başqasına dəyişə bilərsən. Ona görə ki, səndə yalan, saxtakarlıq görməmişdim.

**N i h a l** –Əmin, başa düş. Sən öz məhəbbət mahnını həmişə not üzərində çalmısan. Mən isə əvvəlcədən müəyyən olunmuş not üzərində dolaşmağı sevmirəm. Mən daha çox nota düşə bilməyən xırdalıqları, çalarları sevirəm.

**Ə m i n** –Doğrudan da biz başqa-başqa adamlarıq... Yox, yenə sənə şükür, sən mərdsən, boynuna aldın. Adam da var ki, cinayətin üstünə çıxırsan, deyir, bu mən deyiləm, sən, pis görürsən. Bax, bu, dəhşətdir!

**N i h a l** –Məni səni yaxşı tanıdığıma görə...

**Ə m i n** –Məni sevmirsənsə, bildir, özünü gizlətmə! Sən bu cür adam olmadığına görə, nəhayət, ürəyini açıb dedin. Buna görə də, son dəfə içmək istəyirəm sənin sağlığına. *(Araq şüşəsini alır, qədəhə tökür, şüşəyə baxıb gülümsünür).* Bu da sintetik araqdır, saxtadır! *(Cibindən ərizəni çıxarıb masanın üstünə atır.)* Elə bu gecə yola düşürəm.

**N i h a l** –Yox, sən niyə?

**Ə m i n** –Dedim qurtardı!

Ə m i n gedir. N i h a l tək düşünür, otaqda gəzinir. Q ə d i m b ə y gəlir.

**Q ə d i m b ə y** –Olar?

**N i h a l** –Buyurun... siz...

**Q ə d i m b ə y** –Özgəsi deyiləm. İndi tanıyacaqsan.

**N i h a l** –Buyurun, əyləşin.

**Q ə d i m b ə y** –Görürəm, fikrin dağınıqdır. Bəlkə ayrı vaxt gəlim?

**N i h a l** –Yox, yox, niyə ki?

**Q ə d i m b ə y** –Cığatay mənim nəvəmdir. *(Sükut.)* Tanımadın deyəsən? Necə deyim, bacını istəyən oğlanın...

**N i h a l** –Hə, bilirəm, indicə...

**Q ə d i m b ə y** –Bir az qabaq, mən onu elə halda gördüm ki, bilsəydim ki, məni qapıdan qovacaqsan, yenə gələrdim. Günahdır, qızım, günah! *(Pauza.)* Qızım, sən Reyhanın böyüyü, mən də Cığatayın. Bu uşaqlar gərək arada nakam qalmayalar. Necə bilirsən?

**N i h a l** –Onu kim istər ki?

**Q ə d i m b ə y** –Əlbəttə, heç kim istəməz. Amma görürsən ki, biz istəməsək də olur. İndi biz neyləyək ki, bu uşaqlar arzularına çatsınlar?

**N i h a l** –Mən də istəyirəm, xoşbəxt olsunlar, amma bilmirəm neyləyim?

**Q ə d i m b ə y** –Hərçənd ki, günah bizimkindədir... Bir yana baxanda onu da qınamıram. Cavandır, dəliqanlıdır...

**N i h a l** –Axı, nə üstə dalaşıblar?

**Q ə d i m b ə y** –Bilmirsən?

**N i h a l** –Yox, qızdan soruşdum, demədi.

**Q ə d i m b ə y** –Halal olsun! *(Dərin sükut, Qədimbəy zab çəkir.)* Sən məni bağışla, qızım. Mən sənin qapına diləyə gəlmişəm, gileyə gəlməmişəm. Amma saqqalımın ağlığına arxayın olub, bir-iki söz demək istəyirəm.

**N i h a l** –Buyur, əmi.

**Q ə d i m b ə y** –Dünyada hər şey ola bilər. O qədər görmüşük. Palıd ağacının yıxılmasını görmüsənmi? Yıxılanda yanındakı pöhrələr də əzilir. Hə, çox vaxt böyüklərin xatası kiçiklərin başında çatlayır.

**N i h a l** –İndi, sizi yaxşı başa düşdüm. Mən buna dözə bilmərəm.

**Q ə d i m b ə y** –Hə, onda gəl əl-ələ verək, bu işə əncam çəkək. Bilirsən, qızım, ip ayrı yerdən dolaşıb. Məsələ bundadır ki, bu işdə ayaqlarını yerə bərk dirəyən mənim oğlumdur. Cığatayın atası... O razı deyil. Bilirsən niyə? Axı sənin ərin onun dostudur?

**N i h a l** –Dostudur?

**Q ə d i m b ə y** –Bəli. O mənə açıq demir. Amma mən başa düşürəm. Sabah ərin ona deməz ki, ay dost, mənim boşadığım arvadın bacısını sən oğluna niyə alırsan?

**N i h a l** –Əminin dostu? O kimdir?

**Q ə d i m b ə y** –Ərinin direktorunu deyirəm də... Aslan!

**N i h a l** –Necə? Necə?

**Q ə d i m b ə y** –Mənim oğlum da... Aslan! Cığatayın atası!

**N i h a l** –Ola bilməz, ola bilməz! *(Qaçır.)*

Q ə d i m b ə y təəccüb içində qalır.

**Q ə d i m b ə y** *(telefon nömrəsini yığır)*–Cığatay, sənsən? Hə, gəlirəm. Çıx çölə. Bu saat məni apar Zavoda, atanın yanına!

## DOQQUZUNCU ŞƏKİL

Zavod. **Aslan**, **Rüstəm**, **Qərənfil** söhbət edə-edə gəlirlər.

**Qərənfil** –Zavodda hər kəs öz işini görsə yaxşıdır.

**Rüstəm** –Axı, qoymursunuz. Aslan Qədimoviç, bu vəziyyətdə sexi işə salmaq olmaz. Gözləmişik, bir az da gözləyək. Tüstünü ləğv eləyən qurğu işə düşməyincə...

**Aslan** –Bir az hövsələnizi basın, aramla danışın. Onu da bilin ki, mən ölkəyə kauçuk verməliyəm. Odur ey, sifariş üstündən sifariş alırıq. Moskva, Kuybışev, Leninqrad zavodları bizdən xammal gözləyir. Onlara nə cavab verək, hə?

**Rüstəm** –Bununla belə, qayda-qanunu pozmağa ixtiyarımız yoxdur, Aslan Qədimoviç, bu zəhərli sular nə zaman əmələ gəlir?

**Qərənfil** –Məlumdur, texnologiyaya düzgün əməl olunmayanda.

**Rüstəm** –İndi mənim tələb eləməyə haqqım varmı ki, qaydaya düz-gün əməl olunsun?

**Aslan** –Bəli!

**Rüstəm** –Əməl eləmirsiniz. Sular da zəhərlənir, hava da. Zəhərli suları axıdırsınız dənizə. Axı, dəniz də bizimkidir. Niyə razı olaq ki, Xəzərimiz bu hala düşsün, balıqlarımız məhv olsun? Bəs, bunu kim düşünməlidir? Biz burdakı xeyrimizi fikirləşirik, amma dənizdəki zərərimizi yox. Bəs, hanı bizim Xəzərin min cür balığı, kürüsü?

**Aslan** –Qurtardıq! Sən də dənizi fikirləşirsən, zavodu yox.

**Qərənfil** –Əvvəl evin içi, sonra çölü deyiblər a...

**Rüstəm** –Mən evin içini çölündən ayırmıram. Çünki evin içi də bizimkidir, çölü də.

**Aslan** –Bəli də. İndi də bu bizə ictimaiyyətdən dərs deyəcək. Başa düş, plan kəsirdədir. Qurğunu gözləyə bilmərik. Sex bu gün işləməlidir.

**Rüstəm** –Təbiətin qorunması bu saat hər şeydən vacibdir, Aslan Qədimoviç.

**Aslan** –Əşi, nə gözümüzə soxursunuz bu təbiəti, bu ağac-uğacı. Sintetika əsrində, kimya zəmanəsində nə balıq, nə dəniz, nə ağac-uğac? Dediyiniz o kürünü indi alimlər laboratoriyada alır.

**R ü s t ə m** –Amma siz özünüz o kürünü yeməzsiniz. Özünüzə lazım olanda Xəzərin kürüsünü axtarırsınız.

**Q ə r ə n f i l** –İstəmirik, yemirik o kürünü. Kürü yeyənə bir bax. Elə bil dədə-babası kürü ilə böyüyüb.

**A s l a n** –Qurtardıq! Sex işləyəcək!

A s l a n gedir.

**Q ə r ə n f i l** –Eşitdin? İndi gördün ki, haray-həşirin özünə qaldı?

**R ü s t ə m** –Bunun haqq-hesabını bir gün bizdən istəyəcəklər, mən ölüm!

**Q ə r ə n f i l** –Xeyr a... Buna da Aslan deyərlər. Onun bir sözü hələ iki olmayıb. O, qayadır, bala, sən elə hey qışqır, yel qayadan nə apara bilər?

**R ü s t ə m** –Təpələri şişirib dağ eləmək bizim canımızdadır. Özümüz püləyib şişirdirik, sonra özümüz də əlindən dad çəkirik.

R ü s t ə m, Q ə r ə n f i l gedir. A s l a n gəlir. Kabinetinə keçir. İşığı yandırır. N i h a l ı görüb təəccüblə ona yanaşır.

**A s l a n** –Nihal! Sən... burda neyləyirsən?

**N i h a l** –Qorxma, mən səninlə görüşmək fikrində deyildim... Ancaq indi, səni özünə tanıtmaq üçün gəldim.

**A s l a n** –Nihal!

**N i h a l** –Sən məni bu qədər ləyaqətsiz hesab edirsənmiş?..

**A s l a n** –Nihal, inan ki, mən sənin vəziyyətini yaxşı başa düşürəm.

**N i h a l** –Başa düşmək azdır, hiss elə! Mən sevmişəm. Sevgimlə də fəxr etmişəm. Sən mənim sevgimi nə hesab eləmisən? Yoxsa elə bilirdin ki, mən oynayıram? Yox, Aslan! Mən qəlbimi sənə verəndə əxlaqsızlıq etdiyimi düşünməmişəm. Sənsə bunu belə başa düşmüsən?

**A s l a n** –Axı, sən nə üçün belə güman edirsən?

**N i h a l** –Mənim bacım, sənin oğluna layiq deyil, hə? Ona görə ki, mən... pis adamam, mən sizin "müqəddəs ailənizi" ləkələyə bilərdim?

**A s l a n** –Nihal bir başa düş! Bəlkə də onlar xoşbəxt ola bilərdi. Axı, ortada biz varıq, buna gərək sən də razı olmayasan. Onlar evlənsinlər, bizim vəziyyətimiz nə olar?

**N i h a l** –Deyirsən, bizim günahımızın cəzasını onlar çəksin? O yazıqların təqsiri nədir? Axı, sevirlər...

**A s l a n** –Mən bəlkə də Cığataya çox sərt demişəm. Amma ayrı əlacım yox idi. Bu sevda baş tuta bilməz! Mən bunun qarşısını almalıydım.

**N i h a l** –Sənin xudpəsəndliyinə bir qurban kifayətdir. O da mənəm. Sənsə burda xoşbəxtsən.

**A s l a n** –Nihal, əzizim, gəl bir neçə dəqiqəliyə hissimizi cilovlayaq, ağılla danışaq.

**N i h a l** –Sən mənə məhəbbət elan eləyəndə hissini cilovlamırdın! Onda sənin hissin danışırdı. Bəs, indi niyə ağlını yox, hissini cilovlamaq istəyirsən? Hər şey vəziyyətə və şəraitə görə, hə? Mahirsən!

**A s l a n** –Nihal, sən bu işin axırını fikirləşirsən? Axı, bu bir düşün, bizim aramızda qohum-qudalıq necə ola bilər?

**N i h a l** –Nə qədər dar düşünürsən. O cavanlar, kiçik qohum-qudalıq hissindən çox yüksəkdə dururlar. Əsil sevənlər elə şeyləri görmür. Onu sən görürsən. Çünki sən hər şeyi vaxtın, şəraitin arşınıyla ölçürsən. Çünki sən ağıllı adamsan!

**A s l a n** –Ağıldan ziyan çəkən olmayıb.

**N i h a l** –Sənin kimi ağıllı adamlar məğlub olmur. Amma onların qələbə çaldığını da görən olmayıb.

**A s l a n** –Mənim üçün gülünc olmaqdan ölüm yaxşıdır!

**N i h a l** –Yoxsa indi gülünc deyilsən?

**A s l a n** –İndi sənin qarşında gülüncəm. Sən indi bu vəziyyətində həqiqəti görə bilmirsən, vaxt gələr, mənə haqq verərsən.

**N i h a l** –Amma mən indi daha böyük həqiqəti görürəm.

**A s l a n** –Hansı həqiqəti?

**N i h a l** –Səni. İndi mən səni göründüyün kimi yox, olduğun kimi görürəm. Vəziyyət sənin üzündəki maskanı yırtdı... Mən necə aldanmışammış... Sənin vüqarına, iradənə, kişilik qüruruna...

**A s l a n** –Demək, bunlar da yoxmuş?

**N i h a l** –Təəssüf ki, var!

**A s l a n** –Mən məhəbbəti ayrı cür başa düşürəm. Sənin bütün duyğuların yalnız bir məhvər ətrafında dolanır. Mənə olan məhəbbətin ətrafında! Ancaq mən o cür ola bilmərəm. Mən sənin yalnız qadınlığını

sevməmişdim. Mən səndə elə böyük hisslər, duyğular görmüşdüm ki... amma indi sən yalnız qadın kimi danışırsan.

**N i h a l** –Bu barədə danışmağa dəyməz! İndi mən sənin yox, öz sevgimi sevirəm. Xoşbəxtəm ki, bu cür sevməyi bacarmışam. Mən sevginin nə olduğunu yaxşı bilirəm. Amma sən bilmədiyinə görə, o cavanların sevgısinə qılınc çəkirsən. Mən sevgisiz yaşamağın dəhşətini bildiyimdən, qoymayacağam ki, onların sevgısi ağlar qalsın. Sənə bunu deməyə gəlmişdim. Məni isə bir daha görməyəcəksən!

**A s l a n** –Hara gedəcəksən? *(Ona yaxınlaşır.)*

**N i h a l** –Yaxın gəlmə, səndən plastmas iyi gəlir! *(Nihal qalxır. Aslan ona yaxınlaşır.)* Yaxın gəlmə! Əlvida!

R ü s t ə m dəhlizdə görünür. N i h a l kabinetdən çıxır. A s l a n onun ardınca gəlir.

**A s l a n** –Nihal, dayan, sözüm var...

N i h a l onu saymayıb səhnədən çıxır. A s l a n R ü s t ə m i görüb ayaq saxlayır, kabinetə keçir. R ü s t ə m heyrət içindədir. Ə m i n gəlir.

**Ə m i n** –Salam. Aslan burdadır?

**R ü s t ə m** –Bəli...

Ə m i n kabinetə keçir.

**Ə m i n** –Aslan! Mən xudahafizləşməyə gəldim, gecə uçuram.

**A s l a n** –Hara?

**Ə m i n** –Moskvaya, ordan da birbaşa Əlcəzairə.

**A s l a n** –Yaxşı, evdə vəziyyət necədir?

**Ə m i n** –Mənim evim yoxdur, orda məni iş gözləyir.

**A s l a n** –Uğur olsun!

**Ə m i n** –Sağlıqla

Ə m i n çıxır. R ü s t ə m onun arxasınca baxır. Heyrət içində çiyinlərini çəkir.

**R ü s t ə m** –Heç nə başa düşə bilmirəm... *(Reyhan gəlir.)* Reyhan, xeyir ola? İndicə Nihal da burdaydı?

**R e y h a n** –Nihal?

**R ü s t ə m** –Hə, elə qabağınca getdi.

**R e y h a n** *(öz-özünə)*–Onda mən nahaq gəlmişəm.

**R ü s t ə m** –Xeyir ola, qaynatanın yanına, nə əcəb?

**R e y h a n** –Qayınatam kimdir? *(Aslan kabinetindən çıxıb sexə keçir.)* Bu... kimdir?

**R ü s t ə m** –Zavodun direktoru... Sənin qaynatan. Bəs tanımırdın?

Q ə d i m b ə y l ə C ı ğ a t a y gəlir.

**C ı ğ a t a y** –Reyhan, sən hara, bura hara?

**Q ə d i m b ə y** –Qızım...

**R e y h a n** –Baba! Siz...

**Q ə d i m b ə y** –Cığatay mənim nəvəmdir, qızım.

**C ı ğ a t a y** –Siz tanışsınız?

**Q ə d i m b ə y** –Sən babanı nə bilmişdin?

**C ı ğ a t a y** *(Reyhana)*–Sən burda nə əcəb?

**R e y h a n** –Atana sözüm vardı.

**C ı ğ a t a y** –Gəl atamı bu işə qarışdırmayaq. Öz işimizi biz özümüz həll etməliyik.

**R e y h a n** –Artıq gecdir.

**C ı ğ a t a y** –Atam razı deyil, biz çıxıb gedərik.

**R e y h a n** –Mümkün deyil.

**C ı ğ a t a y** –Axı niyə?

**R e y h a n** –Atandan soruş! Atan mənim bacımı düz adam hesab eləmir. Ondan soruş, nə üçün?

**C ı ğ a t a y** –O nə bilsın?

**R e y h a n** –Bilir, çünki bacımın evini dağıdan sənin atandır.

**C ı ğ a t a y** –Mənim atam? Ola bilməz!

**R e y h a n** *(istehza ilə)*–Ola bilməz!.. Biz hələ həyat üçün hazır deyilik, Cığatay. Biz çox şeyi bilmirik. Amma niyə belə olmalıdır? Beləlləri harda yetişir, necə yetişir, baba? O sənin oğlundur? Yox, adam inana bilmir. Baba, sənin gözlərindən ürəyin oxunur. Bəs... bəs... o? O niyə belə deyil? Baba, o niyə adamları aldadır? Bu yalan, bu riya, bu saxtakarlıq nəyə lazımdır? Bunsuz yaşamaq olmazmı? Baba, gör, bir nəfərin saxtakarlığı nələr törədə bilərmiş. Dillərlə ürəklər arasındakı məsafə nə zaman yox olacaq, baba, nə zaman?

**C ı ğ a t a y** –Reyhan, sən nə haqla mənim atamı...

A s l a n gəlir, çox diqqətlə R e y h a n ı süzür.

**R e y h a n** *(Aslana.)*–Deyəsən tanıdınız... Axı, biz sizinlə bir dəfə görüşmüşdük.

**C ı ğ a t a y** –Necə? Harda?

**R e y h a n** –İndi gördünmü, Cığatay, gördünmü?

R e y h a n kinayəli nəzərlərlə A s l a n ı süzüb qaçır.

**C ı ğ a t a y** *( onun arxasınca qaçır)*– Reyhan, hara? Dayan!..

Aslanonun qarşısını kəsir.

**A s l a n** –Qoy getsin! *(Cığatay getmək istəyir.)* Dayan! Dedim, dayan!

**C ı ğ a t a y** –Yox, ağa, mən gedəcəyəm? *(Cığatay gedir.)*

**R ü s t ə m** *(Aslan kinayəli baxışlarla süzür)* — Yazıq İsmayıl!

**Q ə d i m b ə y** *(Aslanı nifrət və qəzəblə süzüb qarşısında dayanır)* Bərəkallah! Bu torpağın çörəyi sənə halal olsun!

Gedir. A s l a n kabinetə keçir. Bir müddət düşünür,
ağır-ağır telefon nömrəsini yığır.

**A s l a n** –Alo, sexi işə salın!

Sexin gurultusu altında pərdə düşür.

*1971*
*1971-ci il mayın 9-də Azərbaycan Milli*
*Dram Teatrında tamaşaya qoyulmuşdur.*





# YOLLARA İZ DÜŞÜR...

## (ARTIQ ADAM)

(İKİ HİSSƏLİ DRAM)

İŞTİRAK EDİRLƏR:

**Loğmanlı** –Xəzər Neft Birliyinin baş direktoru.
**Əlixan (Alxan)** –Neft daşlarında baş mühəndis.
**Aynur** –müəllimə.
**Daşqın** –onun oğlu Neft daşlarında sahə rəisi.
**Göyərçin** –laborant.
**Səlim** –Neft daşlarında sahə rəisi.
**Tərlan** –mühəndis.
**Usta Nicat.**
**Katibə.**

## I HİSSƏ

**S ə s** – Uçur, dağıdaraq buludu laylay
Təyyarə göylərin yeddi qatında.
Açılıb önümdə mənim taybatay
Geniş qapıları kainatın da.

Kiçilir gözümdə ucaldıqca mən
Sıldırım dağlar da, gen dərələr də.
Təyyarə elə bil asılıb göydən,
Elə bil dayanıb durduğu yerdə.

Təyyarə şütüyür, şığıyır göyə,
Bu sürət boşluqda bilinmir niyə?

Təyyarə torpağa yaxınlaşdıqca
Bilinir gücümüz, sürətimiz də.
Yerdədir, yerdədir, yerdədir ancaq
Bizim qüdrətimiz, qiymətimiz də.

### BİRİNCİ ŞƏKİL

Aeroport. Restoranın qabağı. G ö y ə r ç i n təngnəfəs gəlir, restorana tərəf boylanır.

**G ö y ə r ç i n** –Səlim! Səlim!

S ə l i m restorandan çıxır.

**S ə l i m** –Sən burada nə gəzirsən?
**G ö y ə r ç i n** –Bəs sən?
**S ə l i m** –Mən adam qarşılamağa gəlmişəm. Sənin burda nə azarın var?
**G ö y ə r ç i n** –Öyrəndım ki, aeroportdasan, kimi qarşılayırsan?
**S ə l i m** *(kinayə ilə)*–Bir hurimələikəni, bir ahu baxışlını, bir qələm qaşlını, sonra?

**G ö y ə r ç i n** – Burda qoyub gözləri yaşlını,
Nə gəzirsən qələm qaşlını?

**S ə l i m** –Paho! Sağ ol səni!
**G ö y ə r ç i n** –Zarafatı burax, düzünü de, kimi qarşılayırsan?
**S ə l i m** –Pah atonnan? Bu lap dəliymiş ki... Kölgəmə dönüb nə düşmüsən dalımca? Qurtarmadıq?
**G ö y ə r ç i n** –Yox! Yox! Yox!..
**S ə l i m** –Xeyr, qurtarmışıq.
**G ö y ə r ç i n** –Qurtara da bilərik, amma... Səlim, axı sən ürəyinin ziddinə gedirsən.
**S ə l i m** –Ürəklə uzağa getmək olmaz, adam gərək ağılla iş görə, ağılla! Zamanın tələbləri başqadır! Əl çək məndən!
**G ö y ə r ç i n** *(restoranı göstərir)*–Deyəsən içmisən?
**S ə l i m** –Hələ yox! Gələn qonaq üçün stol sifariş eləyirdim. Bunların da fərli bir şeyləri yoxdur. Bu necə restorandır, bilmirəm...
**G ö y ə r ç i n** –Sənə nəyi bəyəndirmək olur ki?
**S ə l i m** –Mənə delikates lazımdır, delikates!
**G ö y ə r ç i n** –O nədir?
**S ə l i m** –Yəni az tapılan əla şeylər!
**G ö y ə r ç i n** –Məsələn?
**S ə l i m** –Göyçə gölünün farel balığı!
**G ö y ə r ç i n** –Göyçə gölünün farel balığı! Ayrı balıq yaramır?
**S ə l i m** –Məndən sənə əmanət! Dünyada hər şeyin əlası! Hər şeyin firması! Yeməyin də, geyimin də, maşının da. *(Cibindən amerikan siqareti çıxarır.)* Siqaretin də *(alışqanla siqaretini yandırır),* alışqanın da!
**G ö y ə r ç i n** –Deyəsən, bu gələn qonaq da firmadır?
**S ə l i m** –İyirmi beş il əvvəl...
**G ö y ə r ç i n** –Sonra nə oldu, markası düşdü?
**S ə l i m** –Çox!
**G ö y ə r ç i n** –Denən nimdaşdı ki...
**S ə l i m** –Karın könlündəki, ay qız, arvad deyil, kişidir, kişi!
**G ö y ə r ç i n** –İnanmıram, görməsəm əl çəkən deyiləm
**S ə l i m** –Ay qız! Ufaya getmişdim a!.. Ezamiyyətə. Orda tanış olmuşam bu kişi ilə. Bizim ellidir, burdan gedib.

**G ö y ə r ç i n** –Yaxşı nağıldır. Sən dedin, mən də inandım. El-obasını atıb gedib ki, səni orda qarşılasın?

**S ə l i m** –Əl çəkməz a!.. Mən bir vaxt niyə getmək istəyirdim burdan? Yadına gəlir, başıma nə oyun açdılar? O da elə. Burada onun qədrini bilməyiblər. Orda yaxşı vəzifəsi, maşını, otaqları. Məni mehmanxanaya da qoymadı. Subay adamdır, qaldım yanında.

**G ö y ə r ç i n** –Amma yaman səhv eləmisən, gərək gedəydin. İndi sənin də orda vəzifən, maşının, adın-sanın olardı.

**S ə l i m** –Yox! Onun bura üçün necə həsrət çəkdiyini gördüm. Bir də indi burda işlərim düzəlir.

**G ö y ə r ç i n** –Elə məni də qorxudan odur. İşlərin düzələndən sonra sən də keçmişinin həsrətini çəkəsən, Səlim, sonrakı peşmançılıq fayda verməz.

**S ə l i m** –Çox uzun elədin. Sən getsən yaxşıdır. İndi Loğmanlı da gələcək. Bizi bir yerdə görməsin.

**G ö y ə r ç i n** –Amma mən istəyirəm görsün... (Sükut.) Bəs adam qarşılamağa da gülsüz gələrlər? Bir dəstə gül alsana.

**S ə l i m** –Bilmirsən ki, mənim əlində gül tutan kişilərdən zəhləm gedir?

**D i k t o r** –156 nömrəli reyslə Ufadan gələn təyyarə otuz dəqiqə gecikir.

**S ə l i m** –Vay, nə pis oldu!

**G ö y ə r ç i n** –Lap yaxşı oldu... Doyunca danışarıq...

**S ə l i m** –Bayaqdan danışıqlarını az bilirsən? Göyərçin, bizim danışılası sözümüz qalmayıb.

**G ö y ə r ç i n** –Mən bilmək istəyirəm, sənə nə oldu birdən birə? Niyə dəyişdin? Necə bacardın? Bunu mənə də öyrətsənə!

**S ə l i m** –Göyərçin, özün bilirsən ki... Mən də... başa düş... Sənə necə deyim? Bax, məsələ belədir ki...

L o ğ m a n l ı gəlir.

**L o ğ m a n l ı** –Gün aydın, Səlim. Gecikmişəm ki?

**S ə l i m** –Siz yox, amma təyyarə otuz dəqiqə gecikir!

**L o ğ m a n l ı** –Ziyan yoxdur!

*Loğmanlı Göyərçinə baxır.*

**S ə l i m** –Tanış olun, bizim laborantdır. Anasını ötürürdü.

**L o ğ m a n l ı** –Hara gedirdi anan?

**S ə l i m** –Rayona. Gəlibmiş qızını görməyə... İndi qayıdır evə...

**L o ğ m a n l ı** –Hə, qızım, ananı ötürdün, indi də bizimlə qonağı qarşılayarsan.

**S ə l i m** –O evə tələsir.

**G ö y ə r ç i n** –Eybi yoxdur, qarşılarıq!

**L o ğ m a n l ı** *(Səlimə)* –Sən gərək ki, Ufada onunla görüşmüşdün.

**S ə l i m** –Bəli.

**L o ğ m a n l ı** –Yəqin indi qocalmış olar.

**S ə l i m** –Mən orda olanda xəstəliyinə görə təqaüdə çıxmaq istəyirdi.

**L o ğ m a n l ı** –Yaxşı mütəxəssisdir. Hayıf ki, çıxıb getdi...

**S ə l i m** –Gərək ki, o zaman siz...

**L o ğ m a n l ı** –Neft daşlarında mədən müdiri işləyirdim. O zaman vur-tut iki mədənimiz vardı. Birinin müdiri mən, o birinin müdiri isə həmin bu Əlixan idi.

**S ə l i m** –Əlixan? Onun adı Alxan deyil?

**L o ğ m a n l ı** –Yəqin orda ixtisarla elə deyirlər.

**S ə l i m** –Yoldaş Loğmanlı, Alxan kişini mütəxəssis kimi siz də tərifləyirsiniz. Getdi. Ufada laureat oldu. Məni bağışlayın, yoldaş Loğmanlı... Biz beləyik... öz adamlarımızın qədrini bilmirik.

**L o ğ m a n l ı** –Onu burdan qovan olmayıb, bala, özü gedib.

**S ə l i m** –Saxlamaq olmazdımı? *(Sükut.)* Uzağa niyə gedirik. Elə götürək məni. Əlbəttə, mən onun qədər olmasam da... Bir aydır sənədlərim sizdədir, təsdiq eləmirsiniz...

**L o ğ m a n l ı** –Ona baxarıq!

**S ə l i m** –Baxın. Alxan kişi də elə! Vəzifədən qovulanda, başına min cür həngamə açılanda getməyib neyləyəydi?

**L o ğ m a n l ı** –Yəqin o sənə belə deyib... Qəribədir, bu dünyada heç kəs öz ayranına turş demir.

**S ə l i m** –Hər halda od olmasa tüstü çıxmaz.

**L o ğ m a n l ı** –Kor tutduğunu buraxmayan kimi, elə dediyini deyirsən.

**G ö y ə r ç i n** –Bəs elə isə niyə gedib?

**L o ğ m a n l ı** –Qızım, məsələ belə olub: mən ezamiyyətdə olduğum zaman bizim kəşfiyyat quyusunda aqreqat dağılır. Aqreqatı dəyişmək üçün kran gəmisi lazım olur. Tərs kimi o vaxt gəmi Əlixanın mədənində imiş. Bizim mədənin işçisi Usta Nicat gəlir Əlixanın yanına. Əlixan onu qapı dalında iki saat gözlədəndən sonra qəbul edir. Usta Nicat yalvarır, onu başa salır ki, quyuda açıq fantan qorxusu var. Əlixan gəmini vermir ki, vermir, üstəlik onu kabinetdən qovur!

**G ö y ə r ç i n** –Nə qəribə adammış!

**L o ğ m a n l ı** –Usta Nicat əliboş qayıdıb o vaxt çatır ki, quyu alışıb yanır. Alov yolu tutub. Fəhlələr budka tərəfə keçə bilmir. Dörd tərəf su, qaçmağa yer yox. Usta budka tərəfdən gəlib özünü atır alovun üstünə, siyirtməni bağlayır, fəhlələr xilas olur, amma özü yanır. *(Səlimə)* Usta Nicat öz ölümü ilə beş fəhlənin həyatına nicat verdi. O zaman fəhlələr Əlixanı didib parçalamaq istəyirdi. İndi necə bilirsiniz, belə bir adam günahkar deyildi?

**G ö y ə r ç i n** –Bu ki cinayətdir!

**L o ğ m a n l ı** –O zaman onun yaxşı mütəxəssis olduğunu nəzərə alıb, yalnız vəzifəsini kiçiltməklə kifayətləndilər. O buna da dözmədi...

**S ə l i m** –Bir gün Ufada onun ad gününü keçirirdik. Maqnitafonu qurdu, dönə-dönə segaha qulaq asdı.

**L o ğ m a n l ı** –Özü də tarda gözəl çalırdı.

**S ə l i m** –Bir də baxdım ki, gözləri yaşarıb. Mən də özümü güclə saxladım. Dedim: "Bakıya qayıtmaq istərsənmi? Susdu, sualımı bir də təkrar eləyəndə: "Mən indi orda kimə lazımam ki? - deyib, acı-acı gülümsündü.

**L o ğ m a n l ı** –Görünür, həyat onu silkələyib. Bəlkə də indi o artıq başqa adamdır. Bəlkə də elə buna görə qayıdır...

**D i k t o r** –Diqqət! Diqqət! 5156 nömrəli reyslə Ufadan gələn təyyarə qəbul olunur.

**L o ğ m a n l ı** –Gedək qarşılamağa.

L o ğ m a n l ı, S ə l i m, G ö y ə r ç i n gedir.
Bir qədərdən ağ saçlı əzgin görkəmli Ə l i x a n görünür.

**S ə s** –Ana torpaq, qurban olum adına
Vay halına səndən ayrı düşənin
Uzaqdan da qızınmışam oduna
Ana torpaq, nə möcüzən var sənin.
Həsrətinin acısına dolanda
Küləklərdən çox almışam ətrini.
Doğma ocaq, biz yanında olanda
Görən niyə biləmmirik qədrini?

**S ə l i m** –Ay Alxan əmi, xoş gəlmisiniz. Biz sizi giriş qapısında gözləyirdik.

**L o ğ m a n l ı** –Xoş gəlmisən, Əlixan! *(Onu qucaqlayır.)* Çox şadam!

**A l x a n** –Sağ olun. Sən niyə gəlmisən?

**S ə l i m** –Teleqramanızı alan kimi yoldaş Loğmanlıya zəng vurdum. Dedim qarşılamağa gələcəyəm.

**A l x a n** –Sağ olsun!

**L o ğ m a n l ı** *(Göyərçinə)* –Qızım, yaxın gəl. Tanış ol, bu da bizim laborantdır.

**G ö y ə r ç i n** *(Alxanla görüşür.)* –Göyərçin!

**A l x a n** –Göyərçin? A... yoxsa bu, o Göyərçindir? Səlim Ufada sizdən mənə o qədər danışıb ki... Xoşbəxt olasınız!..

S ə l i m tutulur.

**A l x a n** *(ətrafa acgözlüklə baxır)*–Deyəsən, bu təzə aeroportdur?

**G ö y ə r ç i n** –Bəli.

**A l x a n** –Çox gözəldir.

**S ə l i m** –Hələ şəhəri görsəniz tanımazsınız. Son iyirmi ildə Bakı tamam dəyişib.

**L o ğ m a n l ı** –Əlixan, təzə "İnturistdə yerin hazırdır, hələlik orda qalarsan. Bir-iki aya sənə mənzil də veriləcək.

**S ə l i m** –Nə danışırsınız, yoldaş Loğmanlı, ev verilənə qədər Alxan əmi bizdə qalacaq. İndi isə buyurun restorana.

**L o ğ m a n l ı** –Afərin, Səlim! Hər şeyi əvvəldən düşünmüsən. Qızım, buyurun.

**G ö y ə r ç i n** –Məni bağışlayın, Getməliyəm.

**L o ğ m a n l ı** –Tələsmə, bizimlə gedərsən.

**G ö y ə r ç i n** –Xahiş edirəm, mənə izin verəsiniz gedim.

**L o ğ m a n l ı** –Yaxşı, Səlim, onda mənim maşınımla yola sal.

**G ö y ə r ç i n** –Sağ olun.

S ə l i m l ə G ö y ə r ç i n gedir.

**A l x a n** –Yaxşı, sən indi nə üzlə gəlmisən məni qarşılamağa?

**L o ğ m a n l ı** –Zahirən də, dəyişsən də, deyəsən xasiyyətin heç dəyişməyib.

**A l x a n** –İsti ocağından didərgin salıb, sonra ailəsinə sahib olduğun adamı qarşılamağa gəlmək üçün adamda üz gərək!

**L o ğ m a n l ı** –Düz deyirsən... Bura bax, bu müddətdə bəs uşağınla niyə maraqlanmadın?

**A l x a n** –Hələ bir utanmayıb soruşursan da!.. Bilmirsən? Məktub yazıb məndən boşanma ərizəsini tələb etmədin?

**L o ğ m a n l ı** –Bunun uşağa nə dəxli?

**A l x a n** –Boşanma ərizəsini göndərəndən sonra hələ bir uşaqla da maraqlanmalıydım?

**L o ğ m a n l ı** –Arvad boşananda uşaq da boşanır? *(Uzun pauza.)* Bəs atalıq hissi?

**A l x a n** –O hissləri sən mənim ürəyimdən elə qopartmısan ki!..

**L o ğ m a n l ı** –Bəlkə əvvəldən olmayıb?

**A l x a n** –Mənə meydan oxumağa gəlmisən bura?

**L o ğ m a n l ı** –Səhv eləmirəmsə sən burdan Tümenə getmişdin...

**A l x a n** –Xaricdən qayıdandan sonra Ufada işlədim.

**L o ğ m a n l ı** –Çox gözəl. Burda istədiyin vəzifəyə təyin edərik.

**A l x a n** –Bunun sənə nə dəxli?

**L o ğ m a n l ı** –Mən indi birliyin baş direktoruyam.

**A l x a n** –Belə de... Heç bilmirdim.

**L o ğ m a n l ı** –Bura bax, gəlsənə səni göndərək...

**A l x a n** –Zəhmət çəkmə, Moskvadan təyinat almışam, Neft daşlarında işləyəcəyəm.

**L o ğ m a n l ı** –Bir cavan mədən müdiri var, onun yanında baş mühəndis işlərsən. Ona da köməyin dəyər.

**A l x a n** –Bundan sonra mənim üçün heç bir fərqi yoxdur. *(Gedir.)*

**L o ğ m a n l ı** –Dayan. Hara? Kişi stol sifariş eləyib.

**A l x a n** *(çevrilir)*–Özünüz oturarsınız, nuş olsun. *(Gedir.)*

## İKİNCİ ŞƏKİL

Sahə rəisi D a ş q ı n ı n kabineti. T ə r l a n gəlir.

**T ə r l a n** –Yox, yoldaş rəis, daha bıçaq sümüyə dirənib. Bu vaxta qədər sizə görə dözürdüm. Daha bacarmıram, başa düşürsünüz, bacarmıram.

**D a ş q ı n** –Nə olub?

**T ə r l a n** –Yenə qoymur, qardaş, qoymur işimizi görək.

**D a ş q ı n** –Kim qoymur?

**T ə r l a n** –Alxan kişi. Sənin istəklin, qoymur, deyir olmaz.

**D a ş q ı n** –Bir səbrini bas, əməlli-başlı danış görək nə olub?

**T ə r l a n** –Alxan kişi 1531 nömrəli quyuda işi dayandırıb.

**D a ş q ı n** –Necə?

**T ə r l a n** –Bəli, işi dayandırıb. Layihənin müəllifini çağırtdırır. Deyir, gəlsin məni inandırsın, sonra qazaq. Fəhlələr də oturub müəllifi gözləyirlər. Allah bilir, külək havaxt əsəcək, yelkənimiz havaxt yola düşəcək.

**D a ş q ı n** –Neçə vaxtdır iş dayanıb?

**T ə r l a n** –Üç gündür.

**D a ş q ı n** –Bəs harda yatmısan? Niyə mənə demirdin? Nəyi gözləyirdin?

**T ə r l a n** –Günahkar mən oldum? Düz deyiblər, mamağanlı kef çəkəcək, cəriməsini şağanlı verəcək. Tərsin birini eləmisən başımızın üstündə ağa, sonra da deyirsən gəl cavab ver.

**D a ş q ı n** –Bəs layihəni görmür, bəs demirsiniz ki...

**T ə r l a n** –Göstəririk inanmır, deyirik saymır. İki ayağını dirəyib bir başmağa, dediyindən dönmür ki, dönmür.

**D a ş q ı n** –Yəqin yaxşı başa sala bilməmisən.

**T ə r l a n** –Başa salıram, qəbul eləmir. Məgər iki min metr maili qazıntı təzə işdir? O bilmir, axı biz bilirik.

**D a ş q ı n** –Alxan kişi əla mütəxəssisdir.

**T ə r l a n** –Biz görmədik. Dəniz mədənlərindəki müasir texnologiyadan heç xəbəri də yoxdur. İndi o, əl-ayağa dolaşan kötükdür.

**D a ş q ı n** –Ağzını boşuna qoyma! Tərlan, unutma ki, sən də qocalacaqsan.

**T ə r l a n** –Mən onunla işləyə bilmirəm, vəssalam!

S ə l i m gəlir.

**S ə l i m** –Gün Aydın Rəisin kefi?

**D a ş q ı n** –Bizim rəisliyimiz də köhnəlib, kefimiz də. Təzə rəisin kefi nə təhərdir?

**S ə l i m** –Sənə nə təhər lazımdır?

**D a ş q ı n** –İstəyirəm həmişə indiki kimi olsun.

**S ə l i m** –Bir az da yuxarı. Yerimdə saymaq istəmirəm. Nədən ki, həyat daim inkişafdadır.

**T ə r l a n** –Bəs inkişafın qabağına daş gillədən yoxdur?

**S ə l i m** –Var! Həyat - atlı ilə piyada arasındakı daimi mübarizədir.

**D a ş q ı n** –İndi sən özünü atlı hesab eləyirsən, ya piyada?

**S ə l i m** –Piyada idim... Şükür olsun indi məni də sənin kimi vəzifə atına mindirən tapıldı. İndi olmuşam atlı. Necədir, səninçin!

**D a ş q ı n** –Yıxılmaqdan qorxmursan?

**S ə l i m** –Qorxan gözə çöp düşər, cilov nə qədər əlindədir, çap getsin atını!

**T ə r l a n** –Allah o atdan bizə də qismət eləsin.

**S ə l i m** –Boş-boş duadan nə çıxar? Allah da deyir ki, səndən hərəkət, məndən bərəkət!

**D a ş q ı n** –Tərlan, sən get Alxan kişiyə de gəlsın yanıma. Mən özüm onunla danışaram. Siz işə başlayın! *(Tərlan gedir.)* Xeyir ola bizi

yad eləməkdə?

**S ə l i m** –Ömründə məndən ziyan görməzsən.

**D a ş q ı n** –Xeyir necə?

**S ə l i m** –Xeyir məsələsi belədir ki, o baxır müqabil tərəfin şücaətinə. Xeyir verər, özü də görər. Necədir sənin üçün?

**D a ş q ı n** –Hər şeyi həyatda öyrənirik.

**D a ş q ı n** –Doğrudan, nə əcəb?

**S ə l i m** –Bu gecə rayona gedirəm, anamı gətirməyə. Nişan üçün.

**D a ş q ı n** –Nə nişan?

**S ə l i m** –Buxovlayıram özümü. Sağ əlim başına.

**D a ş q ı n** –Mübarək! Nişanlın kimdir?

**S ə l i m** –Çərkəzin qızı. Naznaz xanım.

**D a ş q ı n** –Bizim sədrin?

**S ə l i m** –Sədr olanda nə olar? Qızı ərə getməsin?

**D a ş q ı n** –Nə deyirəm ki...

**S ə l i m** –Balam, bu Loğmanlı Alxan kişiyə söz verdi ki, bir-iki aya ona mənzil verəcək. Bəs nə oldu? Üç ay keçib, kişi hələ də evsizdir.

**D a ş q ı n** –Bu günlərdə beş təzə mənzil almışıq. Biri yəqin ki, Alxan kişinindir.

**S ə l i m** –Mən olmasaydım, bu üç ayı kişi harda qalacaqdı?

**D a ş q ı n** –Sən özün də Loğmanlıya desən pis olmaz.

**S ə l i m** –Mən deyim? Niyə özün demirsən? Balam gözümüzü açandan Loğmanlı durub sənin dalında dağ kimi. Səni bu mərtəbəyə o çatdırmayıb? Niyə gözümüzə kül üfürürsünüz? *(Telefon zəngi, dəstəyi götürür)*. Bəli, eşidirəm. *(Alxan gəlir, Daşqın ona işarə ilə yer göstərir.)* Sənsən? Nə yaxşı? Səndən nə əcəb?

**S ə l i m** –Elə hamıya deyir səndən nə əcəb...

**D a ş q ı n** –Çox gözəl! Sabah... Mənim üçün darıxırsan?

**S ə l i m** –Cananla danışır e... mən ölüm!

**D a ş q ı n** –Qanun qara deyil ki?

**S ə l i m** –Cananın qanı nə qədər qara olsa, sənin xeyrinədir.

**D a ş q ı n** –Sabah axşam? Mütləq! Hələlik... *(Dəstəyi asır.)*

**S ə l i m** –Bundakı xoşbəxtliyə bax ey!.. Canan özü çağırır görüşə. Alxan əmi, rəisin ayılıb...

**D a ş q ı n** –Yetim əlində qoğal əcaib!..

**S ə l i m** –Məhəbbətdir, yoxsa elə-belə?

**D a ş q ı n** –Elə-belə nədir?

**S ə l i m** –Elə-belə də, muşqulat.

**D a ş q ı n** –Məhəbbətə toxunma, onu hər adam başa düşməz!

**S ə l i m** –Baxır adamına, məsələn, mənim kimi cavan oğlan üçün məhəbbət - ləzzət və səadətdir. Loğmanlı kimi qoca üçün bir daha gənclik və qəbahətdir. Loğmanlının katibəsi kimi nazənin üçün əvvəlcə əyləncə, sonra şikayətdir. O ki qaldı evli adamlara, onlar üçün məhəbbət - məcburi iki-üzlülükdür. Sənin kimisi üçün isə məhəbbət dünyanın ən şirin laylasıdır, xumarlan yat, havaxt oyanacaqsan, onu Allah bilir. Odur ki, sən tez evlənsən yaxşıdır. Elə deyil, Alxan əmi?

**A l x a n** –Elədir. Amma...

**S ə l i m** –Paho!.. evlənməyin də amması çıxdı ki...

**A l x a n** –Ən böyük əmma elə oradadır. Bu işdə yüz ölç, bir biç!

**S ə l i m** –Alxan əmi, siz elə ölçürsünüz, bəs biçin havaxtdır?

**A l x a n** –Mən biçməmiş taxılım yandı, sən öz işini gör!

**S ə l i m** –Mən getdim biçməyə, siz ölçməkdə olun, hələlik.

S ə l i m görüşüb gedir.

**A l x a n** –Daşqın, yenilik naminə, ad çıxarmaq xatirinə bu əmmaməlikdir heç nə verməz. Bunlar gözə kül üfürməkdir. Deyirik, inanmırlar, üstəlik şikayətə gəlirlər. Uşaq-muşaq əlində qalmışıq. Sən ki işçilərinə bu ixtiyarı vermisən, axırda peşman olacaqsan. Mən buna dözə bilmirəm.

**D a ş q ı n** –Üç gündür qazma dayanıb. Bunun bizə nə qiymətə başa gələcəyini bilirsiniz, ya yox?

**A l x a n** –Demək mənim göstəriş verməyə ixtiyarım yoxmuş?

**D a ş q ı n** –Siz mənim sualıma cavab verin, mən mədənə vurulan ziyanı soruşuram.

**A l x a n** –Bəlkə məni məhkəməyə verəsiniz?

**D a ş q ı n** –Alxan əmi, axı...

**A l x a n** –Sən indi işin dayanmasını ziyan hesab eləyirsən, amma iş başa gələndə sonrakı ziyanı görə bilmirsən.

**D a ş q ı n** –Hər şey əvvəlcədən hesablanıb, xahiş edirəm, işə mane olmayasınız.

**A l x a n** –Yox! Görürəm biz bir yerdə işləyə bilməyəcəyik.

**D a ş q ı n** –Bu nə deməkdir? Mən heç başa düşə bilmirəm.

**A l x a n** –Taqsır özümdədir. Mən əsassız göstərişlərə qul kimi itaət edənlərdən deyiləm.

**D a ş q ı n** –İşdən danışmaq əvəzinə siz özünüzdən danışırsınız. Layihəyə nə haqla inanmırsınız? Axı bu layihə Birliyin şurasında təsdiq olunub, ona alimlər qol çəkib.

**A l x a n** –Alimlər istismarı nəzərə almır. Onlar bilmir ki, maillik uzun məsafəyə gedəndə boruları endirmə-qaldırma əməliyyatı çətinləşir, borular tutula bilər. *(Daşqın qəh-qəhə çəkib gülür.)* Mənə gülürsən? Atan yaşında kişiyə? Çox sağ ol!

**D a ş q ı n** –Siz nə danışırsınız, Alxan əmi? Allah eləməsin. Dediyiniz məsələ çox asandır.

**A l x a n** –Asandır? Onda öyrədin də... Buyursun, bu ilki sərçə bildirçinə cib-cib öyrətsin.

**D a ş q ı n** –Nə bu il, nə də bildir. Bu məsələ on il əvvəl həll olunub.

**A l x a n** –Necə?

**D a ş q ı n** –Turbinlə qazma üsulundan istifadə olunur.

**A l x a n** –Turbinlə?

**D a ş q ı n** –Bəli.

**A l x a n** –Rotor əvəzinə?

**D a ş q ı n** –Olmaz?

**A l x a n** *(fikirli)*–On il!..

**D a ş q ı n** –Görürsünüz, Alxan əmi, nahaq əsəbiləşdiniz... Sizə hirslənmək olmaz! Məndə də günah oldu. Bağışlayın.

**A l x a n** –Ziyan yoxdur. Çətindir, çox çətin! Məni azad eləyin.

**D a ş q ı n** –Deyəsən, hirsiniz hələ soyumayıb?

**A l x a n** –Yox, mən ciddi deyirəm. Mən görürəm ki...

**D a ş q ı n** –Hər şey düzələcək.

**A l x a n** –Sizin az da olsa mənə hörmətiniz varmı?

**D a ş q ı n** –Bu nə sözdür, Alxan əmi? Tanış olduğum gündən sizə qanım elə qaynayıb ki...

**A l x a n** –Onda inanın ki, ürək sözümü deyirəm, getsəm yaxşı olar.

**D a ş q ı n** –Getmək məsələsini tamam unudun. Mən sizi başa düşürəm, təzə işə hələ alışa bilməmisiniz. Bir azdan alışacaqsınız. Biz hələ sizdən çox şey öyrənməliyik.

**A l x a n** –Çətindir.

**D a ş q ı n** –Loğmanlı yenə zəng eləmişdi. Sizinlə vacib işi var. Xahiş edirəm, onu görün.

**A l x a n** –Baxarıq.

**D a ş q ı n** –Baxarıq yox. Mütləq onu görün. A... görürəm hirsiniz soyumayıb... Bu saat tapşırım, bizə yaxşı bir çay dəmləsinlər. Çay içə-içə söhbətimizi davam etdirək.

D a ş q ı n çıxır, A l x a n başını aşağı dikib düşünür.
U s t a N i c a t ı n kölgəsi görünür.

**A l x a n** *(öz-özünə)*–Usta Nicat, sən hardan gəldin? Bu illərdə heç yadıma düşmürdün, indi necə oldu ki, səni xatırladım?

**U s t a N i c a t** –Ona görə ki, indi mən sənin qəlbindən baş qaldırıb sənə keçmiş əməllərini xatırladıram.

**A l x a n** –Mənim əməllərim həmişə işin xeyrinə olub.

**U s t a N i c a t** –Sən özünü həmişə əvəzolunmaz hesab edirdin. Amma həyat daimi hərəkət deməkdir. Gördünmü, cavan mütəxəssisləri?

**A l x a n** –Mənə də Əlixan deyərlər.

**U s t a N i c a t** –Amma Alxan Əlixan deyil. İndi cavan Əlixanlar meydana çıxıb. Alxanları geridə qoyub.

**A l x a n** –Bəli, mən getməliyəm.

**U s t a N i c a t** — Sən çox zəif adamsan. Bərkə düşən kimi qaçırsan.

**A l x a n** –Onda mən getməliydim...

**U s t a N i c a t** –Elə isə bəs niyə qayıtdın?

**A l x a n** –Həkimlər xəstəliyimə görə dəniz havasını məsləhət

bildilər.

**U s t a  N i c a t** –Bəhanədir, bəhanədir, bəhanədir!

A l x a n  gedir.

**S ə s** – Açırıq sirrini yerin, göyün də
İdrakın gözüylə görür, duyuruq.
Ancaq qəlbimizin dərinliyində,
Yatan duyğulardan xəbərimiz yox,
Biz kimik; Biz nəyik? -Bilək bir kərə
Gəlin toxunmamış dinən sim olaq.
Ehtiyac qalmasın məhkəmələrə,
Müttəhim olmamış, biz hakim olaq.

## ÜÇÜNCÜ ŞƏKİL

Metronun qarşısı. G ö y ə r ç i n  tələsik gəlir, narahatdır, ətrafa boylanır. D a ş q ı n  əlində kağıza bükülü çiçək, şad əhvaliruhiyyə gəlir. G ö y ə r ç i n i  görüb təəccüblənir, əlindəki bükülünü arxasında gizlədir.

**D a ş q ı n**  *(günahkarcasına)*–Çoxdan gəlmisən?

**G ö y ə r ç i n** –Yox. Elə indicə gəldim.

**D a ş q ı n** –Sən allah bağışla, gələn görüşə bir saat tez gələcəyəm.

**G ö y ə r ç i n** – Narahat olma *(saatını göstərir)*, mən tez gəlmişəm. O nədir? Niyə gizlədirsən?

**D a ş q ı n** –Heç, güldür, sənin üçün...

**G ö y ə r ç i n** –Bəs niyə vermirsən? Gülü də elə büküb əzərlər?

**D a ş q ı n** –Yoldaşlarım deyir ki, kişi əlində gül tutmaz.

**G ö y ə r ç i n** –Hə, elələri var.

Gülləri qoxlayır, fikrə gedir.

**D a ş q ı n** –Hə? Nə oldu? Fikrin hara getdi?

**G ö y ə r ç i n** –Heç.

**D a ş q ı n** –Yenə də olsun.

**G ö y ə r ç i n** –Göyçə gölü hardadır?

**D a ş q ı n** –Ermənistanda, indi ora Sevan deyirlər... Birdən-birə Göyçə gölü hardan yadına düşdü?

**G ö y ə r ç i n** –Deyirlər, orda farel balığı olur.

**D a ş q ı n** –Fareli bilmirəm, amma çox gözəl göldür.

**G ö y ə r ç i n** –Qəribədir.

**D a ş q ı n** –Nədir qəribə?

**G ö y ə r ç i n** –Kimi gölün gözəlliyini görür, kimi də farelini.

**D a ş q ı n** –Hansını görmək yaxşıdır?

**G ö y ə r ç i n** –Xoşbəxt olmaq üçün fareli.

G ö y ə r ç i n yasəmən çiçəyini iyləyir.

**D a ş q ı n** –Yasəmən sənin xoşuna gəlir?

**G ö y ə r ç i n** –Bəs necə?

**D a ş q ı n** –Gözəl olmasaydı xoşuna gələrdimi? *(Göyərçin həsrətlə Daşqına baxıb fikrə gedir.)* Sənə nə oldu? Niyə fikrə getdin?

**G ö y ə r ç i n** –Daşqın, de görək məni neçə vaxtdır tanıyırsan?

**D a ş q ı n** –Lap çoxdan. Hələ uşaq ikən Kərəm kimi səni yuxumda görüb vurulmuşdum. O vaxtdan da Kərəm kimi yanıram.

**G ö y ə r ç i n** *(əsəbi)* –Mən səndən ciddi soruşuram.

**D a ş q ı n** –Nə vaxtdan görüşdüyümüzü özün bilirsən? Bəlkə sevgimizin tarixini yazmaq istəyirsən?

**G ö y ə r ç i n** –Burax zarafatı!..

**D a ş q ı n** –Niyə əsəbiləşirsən?

**G ö y ə r ç i n** –Axı sən gərək hər şeyi biləsən!

**D a ş q ı n** –Mən onu bilirəm ki, sevirəm!

**G ö y ə r ç i n** –Daşqın, mənə qulaq as...

**D a ş q ı n** –Əvvəl sən mənə qulaq as, qoy ürəyimi boşaldım sonra da nə qədər istəyirsən döşə, mən qulaq asım. Sən mənə uçmaq üçün qanad, fərəhlənmək üçün ruh vermisən, Göyərçin. Sənə baxıb fikirləşirəm, adam gözəlliyə baxanda özü də gözəlləşir, təmizlənir, ucalır. Deyirəm, görəsən adamlar niyə bir-biri ilə çəkişir? Niyə ürək sındırır, qan qaraldır? Axı...

Göyərçin *(sözünü kəsərək)* –Daşqın, bir dayan, sənə deməli sözüm var. Elə ona görə də bu gün səni görüşə çağırmışam, elədir?

**D a ş q ı n** –Çünki hər gün görüşmək istəyirsən... Elə mən də onu

istəyirəm ki, bu ayrılığa son qoyaq.

**G ö y ə r ç i n** *(çığırır)* –Bəsdir! Bu gün sənə nə olub?

**D a ş q ı n** –Bilmirəm. Özüm özümdən baş açmıram. Ürəyim işıqla dolub. Özümü dünyanın ən xoşbəxt adamı hesab edirəm. Bütün bunlara görə sənə borcluyam, Göyərçin. Sənə minnətdaram, Göyərçin. Mən bu gün elə sevinirəm ki, istəyirəm sən də mənimlə bərabər sevinəsən.

**G ö y ə r ç i n** –Ancaq özün də bilmədən mənə əzab verirsən.

**D a ş q ı n** –Allah eləməsin! Nə danışırsan? Mən səni həmişə əlçatmaz zirvə bilirəm. Sənin yalnız bircə təbəssümünü, bircə xoş baxışını qazanmaq üçün günlərlə laboratoriyanın başına pərvanə kimi dolanardım. Sən bunları hardan biləsən?

**G ö y ə r ç i n** –Aman allah! Səbrim tükəndi! Başa düş, qorxuram, qorxuram ki...

**D a ş q ı n** –Nədən qorxursan? Məgər sən mənim hisslərimə inanmırsan?

**G ö y ə r ç i n** –İnanıram özümdən də çox!

**D a ş q ı n** –Bəs nədən qorxursan, hə?.. Bildim. Gələcək qayınanandan qorxursan. Qorx, bala, qorx. Qayınanandan qorxmayan gəlin hardaydı? Deyirəm ki, indiki qızlar yetim oğlan axtarır ki, qayınanası olmasın.

**G ö y ə r ç i n** –Çox sağ ol!

**D a ş q ı n** –Narahat olma, gülüm, anam o qayınanalardan olmayacaq. Vallah, anam olduğu üçün demirəm, hamı onu sevir. Qonşular da, şagirdlər də. Həmişə mənə deyir ki, səni onunla görüşdürüm. O gün məndən sənin adresini alıb, yanına gəlmək istəyirdi, qoymadım. Söz vermişəm ki, görüşdürəcəyəm. Özün görəcəksən.

**Gö y ə r ç i n** –Anana da demisən?

**D a ş q ı n** –Bəssəninanananeçəçatdıraq?Özümelçigetməyəcəkdim ki? Bəlkə istəyirsən səni qaçırım? Anam kəndinizə getmək, sizinkilərlə danışmaq istəyir.

G ö y ə r ç i n fikrə gedir.

**S ə s** – Qəlbi də, dili də bircə söz deyir,
Batıb hisslərinin dərinliyində.
Bu bədbəxt, gör necə mənə bənzəyir.

Könlünün, hissinin yetimliyində.
Onu sevməsəm də, necə deyim mən,
Gözüm də, könlüm də özgəsindədir?
Axı mən bilirəm öz faciəmdən,
Sevən bir ürəyi sındırmaq nədir?

**Daşqın** –Bağışla, qanını qaraltdım.

**Göyərçin** –Sən çox yaxşı adamsan Daşqın.

**Daşqın** –Buna görə də qanın qaraldı?

**Göyərçin** –Bəli.

**Daşqın** –Bəs pis adam görsən neylərsən?

**Göyərçin** –İstəyimi üzünə deyərəm, çünki deyəcəyim sözə layiq olar.

**Daşqın** –Axı niyə görə pis söz deyəsən, elə yaxşı söz desənə.

**Göyərçin** –Ona görə ki, özüm-özümlə bacara bilmirəm.

**Daşqın** –Necə yəni?

**Göyərçin** –Dünyada elə şeylər var ki, adamın özündən asılı deyil.

**Daşqın** –Başa düşmürəm.

**Göyərçin** — Bunu başa düşmək üçün gərək mənim yerimdə olasan.

**Daşqın** –Açıq danışa bilməzsən?

**Göyərçin** –Çətindir... Səni elə hiss eləyirəm... Sən böyük sevgiyə layiqsən... Ancaq neyləyim? Mən... Mən... *(Onu qəhər boğur.)*

**Daşqın** –Göyərçin!..

**Göyərçin** –Çətindir. Ayrı vaxt danışarıq.

Qaçır. Daşqın onu tutub saxlayır.

**Daşqın** –Yox, buraxmaram. Oxu atıb, yayı gizlətmə.

**Göyərçin** –Sənin üçün nə qədər ağır olsa da deməliyəm. Mən çox çalışdım ki, səni sevəm. Bacarmadım. Ona görə ki, mən başqasını sevmişəm.

**Daşqın** –Necə? Başqasını? İndiyə qədər bəs mən niyə bunu hiss etməmişəm? *(Pauza.)* Bəs elə isə...

**Göyərçin** –Bilirəm nə soruşacaqsan? Bəs eyləsə sən nə idin? Bəs nə üçün mən sənə sığındım? Bəs nə üçün mən bunu sənə indi

deyirəm? Bunumu soruşacaqdın? O məni atıb, Daşqın, bir vaxt dünyadan tamam əlimi üzmüşdüm. Məni həyata sən qaytardın. Buna görə də çox sağ ol. *(Səhnədən çıxır.)*

**D a ş q ı n** *(fikirli, səhnədə tək)*–Başqasını!

**S ə s** –

Bəxtim, mənə yar ol, deyib çağlaram.
Yar olmasa de bəxtiyar ol, görüm
Gələcəyə ümidimi bağlaram,
Bir an sonra nə olacaq, bil görüm.
Yaz ayları çağıldayan selmisən?
Bu dünyanı oyuncaqmı bilmisən?
Həyat səni güldürəndə gülmüsən,
Hünərin var, ağladanda gül görüm.

## DÖRDÜNCÜ ŞƏKİL

S ə l i m i n evi. Daşqın gəlir. Ora-bura baxır. A l x a n ı axtarır. A l x a n , əlində qəhvə bişirən qabla mətbəxdən çıxır.

**A l x a n** –Daşqın, xoş gördük, Görürsən də... Subaylıqdır. Sən bir hovur əyləş, bu saat gəlirəm.

A l x a n mətbəxə keçir.

**D a ş q ı n** –Alxan əmi, siz Loğmanlının yanına niyə getmirsiniz? Kişi neçə dəfə zəng eləyib, axı yaxşı deyil?

**A l x a n** –Mən onun yanına gedən deyiləm.

**D a ş q ı n** –Axı niyə?

**A l x a n** –Onun adını mənim yanımda çəkmə.

**D a ş q ı n** –Məni bağışlayın, Alxan əmi, niyə siz ona bu qədər qəzəblisiniz?

**A l x a n** –Eyni adamı hərə bir cür görmür.

**D a ş q ı n** –Mən sizinlə razı deyiləm. Nə isə... Alxan əmi, səhər Səlim anası ilə gəlir. Siz burdan köçməlisiniz. Bir neçə gün qalarsınız mehmanxanada. İdarənin hesabına sizə nömrə də tutmuşam. Uzağı bir həftəyə mənzilinizin orderini alarsınız. *(Alxan mətbəxdən çıxır.)* Təzə

"İnturist, otaq nömrəsi 411.

**A l x a n** –Nahaq zəhmət çəkmisən. Mən onsuz da çox vaxt dənizdə qalıram. *(Sükut.)* Niyə əyləşmirsən? *(Sükut.)* Gözümə birtəhər dəyirsən. *(Sükut.)* Nə olub?

**D a ş q ı n** –Heç.

**A l x a n** –De görək nə olub?

**D a ş q ı n** –Heç nə...

**A l x a n** –Yox, aldada bilməzsən. Mənim gözümdən heç nə yayınmaz...

**D a ş q ı n** –Alxan əmi, düz sözümdür, heç nə olmayıb. Gecdir, mən getməliyəm.

D a ş q ı n getmək istəyir, A l x a n onun qabağını kəsir, qucaqlayıb əyləşdirir.

**A l x a n** –Ayıb olsun, məni nigaran qoyub gedirsən? Bəs aradakı səmimiyyət, dostluq?

**D a ş q ı n** –Siz nə danışırsınız?

**A l x a n** –İndi ki, elədir, danış, əl çəkən deyiləm.

**D a ş q ı n** –Alxan əmi... *(Udqunur.)*

**A l x a n** –Eşidirəm.

**D a ş q ı n** –Dünyagörmüş adamsınız... Bərkdən-boşdan çıxmısınız. Sizə inanıram... İstəyirəm...

**A l x a n** –Sən mənə hər sirrini etibar edə bilərsən.

**D a ş q ı n** –Alxan əmi, siz bilirsiniz, Göyərçini necə sevirəm...

**A l x a n** –Bilirəm, yaxşı bilirəm.

**D a ş q ı n** –Heç demə, o başqasını sevirmiş.

**A l x a n** –Hardan bildin?

**D a ş q ı n** –Özü dedi.

**A l x a n** –Özü dedi?..

**D a ş q ı n** *(sükut)*–Sevdiyi oğlan da onu atıb.

**A l x a n** *(fikrə gedir)*–Qəribədir!..

**D a ş q ı n** –Nədir qəribə?

**A l x a n** –Atılandan sonra səndən bərk yapışmaq əvəzinə... Səni niyə rədd eləsin? Mürəkkəb qız imiş...

**D a ş q ı n** –Bəlkə... əksinə, sadəliyindən, təmizliyindən...

**A l x a n** — Sadəliyi sən belə başa düşürsən?

**D a ş q ı n** –Bəs niyə özü desin? Özü boynuna alsın?

**A l x a n** –Sən qadınları tanımırsan...

**D a ş q ı n** –Burda nə ola bilər? *(Sükut.)* Məni qınamayın Alxan əmi, onu tapalı dünya necə gözəlləşmişdi mənim üçün... Amma indi? İndi mən bu itkiyə necə dözüm? Necə yaşayım onsuz?

**A l x a n** –Sən nə danışırsan? Bəs sənin mənliyin, kişiliyin, qeyrətin harda qaldı?.. Mən səni belə bilməzdim.

**D a ş q ı n** –Alxan əmi.. axı... bilirsiniz?

**A l x a n** –Məni bağışla, Daşqın, sən çox təmiz adamsan. Hər şeyə inanırsan. Qorxuram, sən bu zəifliyinlə özünü itirəsən. Bilirsən ki, səni öz doğma övladım kimi istəyirəm.

**D a ş q ı n** –Mən buna inanmasaydım, dərdimi sizə danışmazdım.

**A l x a n** –Onda mənə qulaq as. Çalış ki, həmişə səni sevsinlər.

**D a ş q ı n** –Başqasını sevməyən özü sevilə bilərmi?

**A l x a n** –Sən nə dediyini bilirsən? Bir qız ki, üzünə qənşər səni sevmirəm, başqasını sevirəm deyir, beləsinin dərdini çəkməyə dəyərmi? (Sükut.) Sualıma cavab ver. Niyə susursan? Sən bilirsən o kimi sevir?

**D a ş q ı n** –Yox.

**A l x a n** –Səlimi.

**D a ş q ı n** –Nə? Səlimi?

**A l x a n** –Bəli. Gördün o gün məhəbbət haqqında nə çərənləyirdi? *(Daşqın sarsılır, başını tutub əyləşir.)* Mən bunu çoxdan bilirdim. Bir-iki dəfə işarə vurdum ki, özün öyrənib biləsən. Amma sevgi sənin gözlərini elə pərdələmişdi ki, mənim nə demək istədiyimi də başa düşmürdün.

**D a ş q ı n** –Bəs Səlim onu niyə atıb?

**A l x a n** –Nəyinə gərəkdir? Sevmişdin, sevməmiş ol. Çıxart ürəyindən getsin.

**D a ş q ı n** *(əllərini dizinə vurur)*–Ey sevgi, mənə deyirlər, ürəyimdən çıxmalısan. Mən də sənə əmr eləyirəm: çıx ürəyimdən. *(Alxan yaxınlaşır.)* Ürəyimin döyüntüsünə qulaq as, gör əmrinə nə deyir? *(Alxan əsəbi halda üzünü yana çevirir.)* A... başa düşdüm. Yəqin siz ürəyin dilini bilmirsiniz. Onda özüm nəbzimə qulaq asaram. *(Nəbzini tutur.)* Ürəyim

deyir ki, Alxan əmiyə de ki, bir az möhlət versin, sevgini mütləq qovacağam getsin işinə.

**A l x a n** –Məni ələ salırsan?

**D a ş q ı n** –Sevmisinizmi, Alxan əmi?

**A l x a n** –Bəli.

**D a ş q ı n** –Necə sevmisiniz ki, "çıxart ürəyindən sözünü belə rahat deyə bildiniz? Bu, yəqin sizin ümumiyyətlə qadın tayfasına nifrətinizdən gəlir!

**A l x a n** –Sən nə danışırsan?

**D a ş q ı n** –Onda sizin də sevginiz uğursuz olub ki, bu vaxta qədər subay qalmısınız. Yəqin sonra sevə bilməmisiniz. Əgər belədirsə, siz gərək məni başa düşəydiniz.

D a ş q ı n bilmədən atdığı ox A l x a n ı n ürəyinə sancılır. O, sarsılır, dərin fikrə gedir. Maqnitafonda Segah lentini qurur. Bir müddət susub qulaq asırlar.

**D a ş q ı n** –Mənim atam da sevərmiş segahı. Segah çalanda həmişə anam ağlayır. Soruşuram niyə ağlayırsan, deyir segaha qulaq asanda atanın faciəsi gəlib durur gözümün qabağında.

**A l x a n** –Nə faciə?

**D a ş q ı n** –Atam Neft daşlarında işləyirmiş. Buruqda açıq fantan vaxtı yoldaşlarını xilas edərkən ölüb, ölümü ilə beş nəfərin həyatına nicat verib. Anam deyir ki, o vaxt hamı onun fədakarlığından danışırmış. İndi mən atamla fəxr edirəm...

A l x a n sarsılır.

**A l x a n** –Atan...

**D a ş q ı n** –Bəli.. Necə ki? *(Alxan köynəyinin yaxasını açır.)* Sizə nə oldu?

**A l x a n** –Heç. *(Sükut.)* Xahiş edirəm pəncərəni aç.

D a ş q ı n pəncərəni açır, çöldə külək vıyıldayır.

**D a ş q ı n** –Nə yaman külək başlayıb.

**A l x a n** –Neçənci ildə olub o hadisə?

**D a ş q ı n** –İyirmi altı il əvvəl. Mənim heç adım da olmayıb. İki

həftəlik körpə olmuşam. İndi atamla bir yaşdayam. Amma fərasətim ona çatmaz. *(Alxan qalxıb dərman içir.)* Niyə özünüzə baxmırsınız, Alxan əmi? Yox, belə olmaz. Siz sanatoriyaya getməlisiniz. Mən putyovka taparam.

Telefon zəngi, A l x a n dəstəyi götürür.

**A l x a n** –Bəli, eşidirəm. Səlim hələ gəlməyib. Nə olub ki? Nə danışırsınız? Paho! *(Dəstəyi asır.)* Külək qiyamət eləyib. Səlimin mədənində estakada dağılıb. Borular sıradan çıxıb, neft axır. (Daşqın dərhal telefon nömrəsini yığır.) Sən neyləmək istəyirsən?

**D a ş q ı n** –Alo Tərlan, sənsən? Tez Səlimin mədəninə yardım briqadasını göndər, özün də get, mən də gəlirəm. *(Alxan Daşqını heyrətlə süzür. Daşqın yenidən telefon nömrəsini yığır.)* Alo! Danışan Daşqındır. Mənə təcili maşın lazımdır. Dambaya getməliyəm. Gəlsın Səlimgilə, mən ordayam. *(Dəstəyi asır.)*

**A l x a n** –Oğul, sən nə qəribə adamsan.

**D a ş q ı n** –Necə ki?

**A l x a n** –Heç.

**D a ş q ı n** –Anam nigaran qalacaq. Siz Allah, bizə zəng çalın! Ona xəbər verin ki, mən dənizə getdim. Düşüm qapıda maşını gözləyim. Sağ olun.

D a ş q ı n gedir.

**A l x a n**–Usta Nicatla oğlunun xasiyyətləri necə də oxşayır!.. (Əyləşir, fikrə gedir. İşıq sönür. Usta Nicatın kölgəsi görünür.)

**U s t a N i c a t**–Hə, gördün, Daşqın rəqibinə köməyə getdi.

**A l x a n** –Usta Nicat, sən yenə gəldin?

**U s t a N i c a t**–Yadındadır? Gəldim, yanına, yalvardım, dedim quyuda açıq fontan qorxusu var, gəmini vermədin.

**A l x a n** –Özümə də lazım idi.

**U s t a N i c a t**–Yalan deyirsən! Vaxtilə Loğmana vurduğun şillədən hələ də ürəyin soyumamışdı. Sən onu hər işdə özünə rəqib sayır, ondan hayıf alırdın. Heç olmasa indi keçmişindən utanırsanmı?

**A l x a n**–Niyə utanım? Məgər səni yanan quyunun üstünə mən itələmişdim?

**U s t a  N i c a t** –Sən yox, sənin xudpəsəndliyin.

**A l x a n** –Mən günahkar deyildim.

**U s t a  N i c a t** — Sən gəmini versəydin, quyuda açıq fontan olardımı?

**A l x a n** –Günahkar olsaydım, o vaxt həbs edilərdim.

**U s t a  N i c a t** — Sənin günahın qanun məcəlləsinə düşmədi, bəs vicdan məcəlləsinə necə? Vicdanın da səni incitmədi?

**A l x a n** –Yox!

**U s t a  N i c a t** –Ona görə ki, sən həmişə öz xeyrini düşünmüsən. Amma yalnız öz işinə yarayan, dünyanın ən yaramaz adamıdır. Düşün Alxan, zaman çox amansızdır. Sonra səndən dəhşətli qisas alar.

**S ə s** – Özünü dünyaya borc sayanların
Böyük ürəyinə arxalanmışam.
Yalnız öz işinə yarayanların
Bircə damğası var: Yaramaz adam.
Necə insan deyim, necə mən sənə?
Qoy övlad deməsin bu Vətən sənə.
Demə, daş yayınıb qardaşa dəydi,
Mən elə bildim ki, daş, daşa dəydi.
Yurdun o başında yıxılan kəsin,
Ağrısı qəlbində gərək göynəsin.
Ən böyük dəryanın birdir sahili
Onu hər tərəfdən döyər dalğalar.
Bir böyük Vətən, bir böyük eli,
Tarimar eləyər “mənə nə varlar.

## BEŞİNCİ ŞƏKİL

Xəzər Dəniz Birliyi İdarəsi. Baş direktor L o ğ m a n l ı n ı n kabineti. Dəhlizdə katibə. T ə r l a n gəlir. Çiçəklərikatibəyə təqdim edir.

**T ə r l a n** –Buyurun bu çiçəkləri əsir edib, gətirmişəm sənin hüzurunaş qoy sənin gözəlliyinə baxıb, utansınlar.

**K a t i b ə** –Oho...gün hayandan doğub?

**Tərlan** –Günbatandan

**Katibə** –Münasibət?

**Tərlan** –Münasibəti hiss edərlər deməzdər.

**Katibə** –Bayaqdan direktor səni gözləyir.

**Tərlan** –Bu gözəlliyin qabağında hər şey yaddan çıxır.

Özü gül olan gözəl
Dərilmiş gülü neylər
Sən gülü iyləyirsən
Yoxas,gül səni iylər?

**Katibə** –Aləmdir, özün yazmısan, yoxsa şairlərdən çırpışdırmısan?

**Tərlan** –Sən yazmısan gülüm. Daha doğrusu sən yazdırmısan. Danış səsinə qulaq asım.

**Katibə** –Nə danışım?

**Tərlan** –Nə istəyirsən danış təki səsini eşidim.

**Katibə** –Dəli olub.

**Tərlan** –Bilirsən nə deyib Napoleon səs barəsində? Deyib ki, 3 səsdən xoşum gəlir.

**Katibə** –Elə 3 səs?

**Tərlan** –Bəli birinci at kişnərtisi, ikinci su şırıltısı, üçüncüsünü də sən de, səsinə qurban kəsim.

**Katibə** –Üçüncü qadın səsi.

**Tərlan** –Əhsən burda vurub, kəllə çarxa.

**Katibə** –Indi içəri keçməklə necəsən?

**Alxan** –Salam.

**Katibə** –Salam.

**Tərlan** –Söhbətin şirin yerində Fatma gəldi qaç. *(Kabinetə keçmək istərkən.)*

**Alxan** –Bura bax, rəisə şikayət etməyin bəs olmayıb, indi də direktorun yanına gəlmisən?

**Tərlan** –Biz olanı deyirik. Dedik, qurtardıq.

**Alxan** –Bir bunun ədasına bax!..

**Tərlan** *(katibəyə)*–Mən keçdim direktorun yanına heç kəsi bu-

raxma, vacib işimiz var. (Kabinetə keçir. Alxan da kabinetə keçmək istərkən.)

**K a t i b ə** –Yoldaş, içəri keçmək olmaz, direktor məşğuldur.

A l x a n əhəmiyyət vermir, kabinetə keçir.

**T ə r l a n** –Olar, yoldaş rəis?

**L o ğ m a n l ı** –Bəli. Danış hadisə necə olub?

**T ə r l a n** –Dünən...

A l x a n kabinetə daxil olur.

**L o ğ m a n l ı** –Əlixan, Xoş gördük, niyə görünmürsən?

**A l x a n** –Səninlə vacib işim var.

**L o ğ m a n l ı** –Əyləş, beşcə dəqiqə. *(Tərlana)* Buyur.

**T ə r l a n** –Dünən günortadan sonra başlayan fırtına səhərə yaxın dayandı. On bir bal gücündə. Səlimin mədənindəki meydançadan gələn neft borusu dağıldı. Quyuları bağlamağa gedən fəhlələr, iş qurtarmamış meydança estakadadan ayrılır. Daşqın qazdan xəbər tutan kimi məni briqada ilə köməyə göndərdi, sonra özü də gəldi.

**L o ğ m a n l ı** –O tayda qalan fəhlələr necə oldu?

**T ə r l a n** –Daşqın onları su borusunun köməyi ilə xilas etdi.

**L o ğ m a n l ı** –Səlim hələ gəlməyib?

**T ə r l a n** –Gəlib.

**L o ğ m a n l ı** –Ona kim icazə verib rayona getməyə?

**T ə r l a n** –Bilmirəm.

**A l x a n** –Qayınatası.

**L o ğ m a n l ı** –Qayınatası? O kimdir?

**T ə r l a n** –Çərkəz Səttaroviç.

**L o ğ m a n l ı** –Çərkəzin qızını alır? Bəs o laborant? Nədir onun adı?

**T ə r l a n** –Göyərçin!

**L o ğ m a n l ı** –Hə, bəs o nə oldu?

**A l x a n** –Göyərçin Səlimi sevir, Daşqın da Göyərçini. Səlim sədrin qızına görə Göyərçini atıb.

**L o ğ m a n l ı** –Sən hardan bilirsən?

**A l x a n** –Daşqın mənə danışıb.

**L o ğ m a n l ı** –Bu oğlan niyə belə edir?

**T ə r l a n** –Aydın deyil, yoldaş direktor?

**L o ğ m a n l ı** –Hə, indi aydın oldu. Onda deyin gəlsın yanıma.

**T ə r l a n** –Baş üstə.

**L o ğ m a n l ı** –Daşqın hardadır?

**T ə r l a n** –Səhərə yaxın getdi evə.

**L o ğ m a n l ı** *(diktafona)*–Qəzanın nəticələrini öyrənən komissiyanın tərkibinə Daşqını da salın.

**T ə r l a n** –Gedə bilərəmmi?

**L o ğ m a n l ı** –Buyurun.

T ə r l a n gedir.

**A l x a n** –Mən bilmək istəyirəm ki, niyə məndən əl çəkmirsən?

**L o ğ m a n l ı** –Nə olub?

**A l x a n** –Bu vaxta qədər elədiklərin məgər azdır ki, yenə mənə əzab verirsən?

**L o ğ m a n l ı** –Nə əzab?

**A l x a n** –O boyda Neft daşlarında ayrı yer yox idi? Gərək elə məni Daşqının yanına göndərəydin?

**L o ğ m a n l ı** *( gülür)*–Belə de...

**A l x a n** –Bununla nə demək istəyirsən? Məqsədin nədir? İyirmi yeddi il əvvəl sənə vurduğum şillənin hayıfını alırsan məndən? Qısas nə qədər davam edər?

**L o ğ m a n l ı** –Sən hələ də korsan, Əlixan. Lovğalığından, xudbinliyindən başına gələn bəlaların səbəbini yenə də özgə yerdə axtarırsan.

**A l x a n** –Deməli, sən məni qəsdən Daşqının yanına işə göndərmisən ki, Usta Nicatın ölümünə səbəb oldun, indi də oğlunun əli altında işlə... Sən bununla mənə əzab vermək, məni mənən öldürmək istəyirsən?

**L o ğ m a n l ı** –Sən doğurdan da əzab çəkirsən? *(Sükut.)* Əgər belədirsə, mən buna çox şadam.

**A l x a n** –Mənim əzablarıma şadsan? Başqalarının əzablarından ləzzət alan insana nə ad vermək olar? Sən insan deyilsən, canavarsan, canavar! *(Qapıya yönəlir, getmək istəyir).*

**L o ğ m a n l ı** –Dayan! *(Alxan qapını açır, biri ayağı çöldə, bir*

*içəridə ikən.)* Dayan deyirəm sənə!

**A l x a n** –Nə var?

**L o ğ m a n l ı** –Daşqın özü dedi Nicatın oğluyam?

**A l x a n** –O atasının ölüm hadisəsini, o yanğın əhvalatını danışdı.

**L o ğ m a n l ı** –Necə oğlandı Daşqın?

**A l x a n** –Bunun məsələyə nə dəxli?

**L o ğ m a n l ı** –Dəxli var.

**A l x a n** –Qızıl kimi, tərtəmiz, qabiliyyətli! Sonra?

**L o ğ m a n l ı** –Bəs biləndə ki, Daşqın Usta Nicatın oğludur, səndə ona qarşı kin yaranmadı?

**A l x a n** –Əksinə, kin səndə çoxdur.

**L o ğ m a n l ı** –Onda arxayın ola bilərsən, Daşqın Usta Nicatın oğlu deyil.

**A l x a n** –Necə?

**L o ğ m a n l ı** –Deyirəm Daşqın Usta Nicatın oğlu deyil.

**A l x a n** –Bəs axı, o hadisəni tarixinə qədər dəqiq dedi.

**L o ğ m a n l ı** –Nə olsun?

**A l x a n** –Yəni ikinci belə hadisə olub?

**L o ğ m a n l ı** –Yox!

**A l x a n** *(sükut)*–Yaxşı ki, Usta Nicatın oğlu deyil. Yoxsa dəhşət bu idim!

**L o ğ m a n l ı** –Dəhşətin böyüyü qabaqdadır! *(Qrafindən su töküb ona verir.)* Cibində dərmanın varmı?

**A l x a n** –Var.

**L o ğ m a n l ı** –Çıxart dərmanını. Al bu da su!

**A l x a n** –Nəyə lazımdır bu həngamə?

**L o ğ m a n l ı** –Aynurun qızlıq familyası nədir?

**A l x a n** –Hansı Aynur?

**L o ğ m a n l ı** –İndi gəl məni də tanıma. Keçmiş arvadını deyirəm.

**A l x a n** –Sən niyə məsələyə dəxli olmayan suallar verirsən?

**L o ğ m a n l ı** –Sualıma cavab ver. Aynurun qızlıq familyası nə idi?

**A l x a n** –Gərək ki, Vəlizadə!

**L o ğ m a n l ı** –Elədir. Bəs Daşqının familyası nədir?

**A l x a n** –Vəlizadə... Dayan, dayan! Sən nə demək istəyirsən?

**L o ğ m a n l ı** –Aynur öz familyasını verib oğluna! Olub Vəlizadə Daşqın Əlixan oğlu.

**A l x a n** –Necə? Yox! Ola bilməz!.. *(Dərin fikrə gedir.)* Bəs onun danışdığı o yan-ğın əhvalatı nə idi?

**L o ğ m a n l ı** –Aynur Daşqının gözündə atasını yüksəltmək üçün Usta Nicatın fədakarlığını sənin fədakarlığın kimi qələmə verib. Aynur oğluna demək istəməyib ki, atan bizi atıb, atan nankordur.

**A l x a n** –Daşqın! Mənim oğlum!

A l x a n sarsılır. Uzun pauza.

**L o ğ m a n l ı** –Gəl otur, dərmanını iç, sakit ol. *(Uzun pauza.)* Başa düşürəm, Daşqın Nicatın oğlu olsaydı dərd yarı idi. Lakin sən hər iki oğulun qarşısında günahkarsan. Həm öz oğlunun, həm də Usta Nicatın. Sən hər ikisini yetim qoymusan...

**A l x a n** –Sən yenə məni burdan qaçıracaqsan!

**L o ğ m a n l ı** –Əksinə, mən səni birdəfəlik bura bağlamaq istəyirəm.

**A l x a n** –Lakin... görünür, tale mənimlə çox pis oyun oynayır. Bir də sən... sən...

**L o ğ m a n l ı** –Yenə mən günahkar oldum? *(Telefon nömrəsini yığır.)* Alo kimdir? Aynur xanım? Salam.

**A l x a n** –Sən neyləyirsən?

**L o ğ m a n l ı** –Necəsiniz?

**A l x a n** –Dayan! Dayan deyirəm sənə! *(Qalxıb telefonu basır.)* Əgər desən, özündən küs.

**L o ğ m a n l ı** –Otur yerində!

**A l x a n** –Sən bilirsən neyləyirsən?

**L o ğ m a n l ı** *(telefon nömrəsini yığır)*–Sakit ol, ayrı sözüm var... Alo, Aynur xanım, bağışlayın telefon kəsildi. Necəsiniz? (Alxan heyrətlə onların danışığına qulaq asır.) Daşqın evdədir? Yatır? Yox, yox, oyatmayın. Qalxanda ona deyin birliyə zəng çalsın. Belə gözəl oğul böyütdüyünüzə görə sağ olun. Bəs sizə deməyib? Yaxşı, mənim təşəkkürümü yetirərsiniz ona. Buyurun, eşidirəm... Sevir? Hə, Göyərçin. Bir az xəbərim var. Yaxşı... Mən danışaram... Sağ olun. *(Dəstəyi asır.)*

**A l x a n** –Mən bir şeyi başa düşə bilmədim. Bu nə cür telefon danı-

şığı idi sizin aranızda?

**L o ğ m a n l ı** –Nə dediyini başa düşürəm. Sən elə bilirdin mən Aynurla evlənmişəm... Sən gedəndən bir az sonra mən ona təklif elədim, lakin Aynur mənim sevgimi qəbul etmədi.

**A l x a n** –Necə yəni? Bəs axı...

**L o ğ m a n l ı** –Qulaq as, o, ömrü boyu səni gözləyib.

**A l x a n** –Bəs niyə onlara bu qədər qayğı göstərirsən?

**L o ğ m a n l ı** –Məgər insanlara təmənnasız qayğı göstərmək olmaz? Bu, Aynurun böyük məhəbbətinə mənim hörmətimin əlamətidir. Təəssüf ki, sən onun böyük sevgisinə layiq olmadın. O, ömrünü yeganə balasına qurban verdi. Lakin bu bədbəxtliyin bir xeyri də oldu. Daşqın sənin yox, onun tərbiyəsi ilə böyüdü və Daşqın oldu.

**A l x a n** –Bütün bu dediklərini gəldiyim gün deyə bilməzdin? Niyə başıma bu oyunu açırdın?

**L o ğ m a n l ı** –Mən istədim ki, sən özün oğlunu tanıyasan. Səhvini özün dərk edəsən. Bir də mən Daşqın üçün qorxurdum. Qorxurdum ki, birdən bilsə onun üçün ağır olar. İndi sənə hər şey aydın oldu. Gedə bilərsən.

**A l x a n** –Loğman, sən adam da öldürə bilərsən.

**L o ğ m a n l ı** *(sükut)* –Daşqıngilə keçən il təzə mənzil vermişik. Dədə Qorqud küsəsi, 16.

**A l x a n** –Loğman!..

A l x a n kabinetdən çıxır.

**S ə s** –

Kimdir mənim,
Ən qorxulu düşmənim?
Yaxşımı qoyub
Yamanımı danışanmı?
Yox!
Eyiblərimi deyib.
Arxamca gülənmi?
Yox!
Mənim nöqsanlarımı
Məndən yaxşı bilənmi?
Yox! Yox! Yox!

Özgələrin gözünü
Taxaydım öz gözümə.
Özgələrin gözüylə
Baxaydım öz-özümə.
Onda eyiblərimə
Özüm düşmən olardım.
Onda mən, mən olardım!

**A l x a n** *(katibəyə yanaşır)*–Qızım, xahiş edirəm, mənə bir stəkan su verəsən.

**K a t i b ə** *(qrafindən su töküb ona verir)*–Sizə nə oldu? Bəlkə həkim çağırım?

**A l x a n** *(dərman atır)*–Lazım deyil. Bayaq sizin xətrinizə dəydim, Bağışlayın məni.

**K a t i b ə**–Eybi yoxdur. narahat olmayın! Biz belə şeylərə öyrəşmişik.

S ə l i m gəlir.

**S ə l i m**–Alxan əmi, gün aydın.. Hə... Alxan əmi, səhər-səhər tamam yığışıb getmisən? Niyə belə tələsirdin? (Sükut.) Ancaq sabah axşam bizdə ol ha. Anam-gillə nişana gedəcəksən. Hələlik.

A l x a n asta addımlarla gedir.

**K a t i b ə**–Direktor səni gözləyir.

**S ə l i m**–Kaş sən gözləyəydin, gözəl qız! Hə, necədir sənin üçün?

**K a t i b ə**–Gözləyənlərdən gözün doymayıb?

**S ə l i m** — İştahası çox olanın gözü tox olmaz. *(Səlim kabinetə keçir.)* Olar?

**L o ğ m a n l ı**–İşin-gücün bu vaxtında bu nə rayona getmək idi?

**S ə l i m**–İzn almışdım, yoldaş direktor.

**L o ğ m a n l ı** — Yəqin ki, qəzadan xəbərin var. Axı sən vəzifə başındasan.

**S ə l i m**–Bəli.

**L o ğ m a n l ı**–Yaxşı ki, Daşqın özünü çatdırıb, yoxsa...

**S ə l i m**–Eşitmişəm, sağ olsun.

**L o ğ m a n l ı** –Sabah tezdən orda ol. Komissiya gələcək, qəzanın nəticələrini yerində yoxlamağa.

**S ə l i m** –Baş üstə. *(Getmək istərkən)*

**L o ğ m a n l ı** –Dayan! Kəndə niyə getmişdin?

**S ə l i m** –Anamı gətirməyə. Subaylarınız üçün olsun. Xeyir işimiz var.

**L o ğ m a n l ı** –Mübarək! Nişanlı kimdir, barı biz tanıyırıq?

**S ə l i m** –Bəli, Çərkəz Səttaroviçin qızı.

**L o ğ m a n l ı** –Naznaz? Hə... pis qız deyil. Bura bax, yaxşı yadıma düşdü, Əlixanı qarşılayanda sənin yanında bir qız vardı ha... bizim laborant, nə idi onun adı?

**S ə l i m** –Hə... Göyərçini deyirsiniz?

**L o ğ m a n l ı** –Hə, Göyərçin. O nə təhər qızdır?

**S ə l i m** –Hansı cəhətdən soruşursunuz, yoldaş direktor?

**L o ğ m a n l ı** –Elə hər cəhətdən.

**S ə l i m** –Qızdır da... Özünüz görürsünüz.

**L o ğ m a n l ı** –Gözəlliyinə söz ola bilməz. Təbiət ondan heç nə əsirgəməyib. Boyu, buxunu, duruşu, yerişi, gözü, qaşı. Bunlar hamısı göz qabağındadır. Mən səndən ağlını, xasiyyətini xəbər aliram.

**S ə l i m** –Elə ağlına da söz ola bilməz.

**L o ğ m a n l ı** –Şükür olsun, yaxşı oldu.

**S ə l i m** –Necə bəyəm?

**L o ğ m a n l ı** –Heç.

**S ə l i m** –Bəs niyə şükür dediniz?

**L o ğ m a n l ı** –Elə hamı sən deyəni deyir, yaman tərifləyirlər. İndi yaxşı yerdən bəxti açılıb. Mənim fikrimi bilmək istəyirlər.

**S ə l i m** –Bəxti açılıb?

**L o ğ m a n l ı** –Özünə layiq bir oğlan istəyir onu.

**S ə l i m** –Getməz!

**L o ğ m a n l ı** –Nədən bilirsən?

**S ə l i m** — Bilirəm, getməz!

**L o ğ m a n l ı** –Axı verib razılığını.

**S ə l i m** –Haçan?

**L o ğ m a n l ı** –Bu yaxınlarda.

**S ə l i m** –Kimdir oğlan?

**L o ğ m a n l ı** –Nə borcuna qalıb?

**S ə l i m** –Deyirsiniz, qız özü razılığını verib?

**L o ğ m a n l ı** –Bəli.

**S ə l i m** –O oğlanı mən tanıyıram?

**L o ğ m a n l ı** –Bəli. Özünü tanıyan kimi.

**S ə l i m** –Deməzsiniz kimdir o?

**L o ğ m a n l ı** –Yox!

**S ə l i m** –Bizim aləmdəndir?

**L o ğ m a n l ı** –Bəli.

**S ə l i m** –Neçə yaşı var?

**L o ğ m a n l ı** –Neyləyirsən, Göyərçin sənin bacındır, dayıqızındır, nəyindir, əl-ayağa düşmüsən?

**S ə l i m** –Yəni deyirsiniz qız özü razılıq verib?

**L o ğ m a n l ı** –Səlim, ya sənin başın xarab olub, ya da qulağın ağır eşidir. Karsan?

**S ə l i m** –Siz özünüz qulağınızla eşitdiniz o, razılıq verəndə?

**L o ğ m a n l ı** –Yox! Radioda elan elədilər.

**S ə l i m** –Mən zarafat eləmirəm. Yoldaş direktor müəllim...

**L o ğ m a n l ı** –Bəli.

**S ə l i m** –Mənimlə işiniz yoxdur ki?

**L o ğ m a n l ı** –Yox!

**S ə l i m** –Onda mən getdim.

S ə l i m kabinetdən çıxır. L o ğ m a n l ı onun arxasınca qəh-qəhə çəkib gülür. S ə l i m dəhlizdə dayanır, fikirləşir.

**K a t i b ə** –Hə, necədi sənin üçün? *(Sükut.)* Sözün var mənə? Bəlkə görüş təyin etmək istəyirsən mənimlə?

**S ə l i m** –Hə?

**K a t i b ə** –Karsan? *(Qrafindən su töküb stəkanı ona uzadır.)* Dərmanını çıxart!

**S ə l i m** –Nə dərman?

**K a t i b ə** –Bu gün ordan çıxanlar dərman atır.

**S ə l i m** –Dərmanlıq döyül bu dərd.

**K a t i b ə** –Deyəsən, şillə bərk tutub səni.

**S ə l i m** –Şillə! Yox, güllə!

**K a t i b ə** –Necədi sənin üçün?

## II HİSSƏ

### ALTINCI ŞƏKİL

G ö y ə r ç i n i n otağı. G ö y ə r ç i n tək oturub düşünür.

**S ə s** – Nə yaman, nə çətin günlərə qaldım,
Sevginin düşməni min-min olurmuş,
Gümansız gümandır, qamçız şübhələr
Sevənin qəlbində çin-çin olurmuş.

Mən haqqı itirdim güman içində
Azdım öz yolumu duman içində.
Sevəndə sevirik bir an içində,
Unutmaq nə yaman çətin olurmuş?

A y n u r gəlir.

**A y n u r** –Mən Aynuram. Daşqının anası.
**G ö y ə r ç i n** –Xoş gəlmisiniz!..
**A y n u r** –Gözləmirdin, hə?
**G ö y ə r ç i n** –Əksinə, gözləyirdim.
**A y n u r** –Niyə?
**G ö y ə r ç i n** –Bilirdim ki, gələcəksiniz.
**A y n u r** –Nədən bilirdin?

Sükut.

**G ö y ə r ç i n** –Buyurun, əyləşin.

**A y n u r** –Qızım, mən onsuz da səninlə görüşməli idim. Ancaq belə yox. Nə isə... yaxşı, bu nə məsələdir? Sizə nə olub? (Sükut.) Bəlkə mənim haqqım yoxdur soruşmağa?

**G ö y ə r ç i n** –Xeyr, siz haqlısınız. Siz anasınız.

**A y n u r** –Nə olub? Aranızdan nə yel əsib? Məndən gizlətmə, qızım.

**G ö y ə r ç i n** –Biz qurtarmışıq.

**A y n u r** –Mən də elə bunun səbəbini öyrənməyə gəlmişəm.

**G ö y ə r ç i n** –Bəs özü deməyib?

**A y n u r** –Yox. Oğlan uşaqları anaları ilə açıq olmur, qızım. Sən məni ana hesab elə, de görüm nə olub?

**G ö y ə r ç i n** –O ki deməyib, mən heç deyə bilmərəm. *(Telefon zəngi. Göyərçin dəstəyi götürür, cavab yoxdur.)* Alo, alo, eşidirəm sizi... *(Sükut. Dəstəyi asır).*

**A y n u r** –Yəqin ki, odur.

**G ö y ə r ç i n** –Bəli.

**A y n u r** –Axı nədən ötrü küsmüsünüz?

**G ö y ə r ç i n** –Bütün günahlar məndədir, onun zərrəcə günahı yoxdur.

**A y n u r** –Axı o günah nədən ibarətdir? *(Sükut.)* O da əziyyət çəkir, yəqin ki, sən də... Bəlkə acığa düşmüsünüz? Qızım, məhəbbəti qorumaq lazımdır, onu boş bir acığa qurban vermək olmaz.

**G ö y ə r ç i n** –Məsələ ciddidir, ana.

**A y n u r** –Bu nə deməkdir? Mən başa düşə bilmirəm. Qızım, xahiş edirəm, de görüm bu ciddi məsələ nədir? *(Sükut.)* Əl çəkməyəcəyəm.

**G ö y ə r ç i n** –Mən... *(Onu qəhər boğur.)* Necə deyim, necə eləyim ki, siz məni qınamayasınız. Məni başa düşəsiniz.

**A y n u r** –Dedim ki, məni anan hesab elə.

**G ö y ə r ç i n** –Mən başqasını sevirəm.

**A y n u r** –Necə? *(Sükut.)* Başa düşmədi. *(Sükut.)* Başqasını sevmişdinsə bəs Daşqının qəlbini niyə ovlayırdın?

**G ö y ə r ç i n** –Mən belə olacağını bilmirdim.

**A y n u r** –Necə yəni bilmirdim, sevgi al-verdi ki, sevdalaşandan sonra dəbbələyəsən? Bəlkə ürəklə oynamaq, onu futbol topu kimi ayaqdan-ayağa ötürmək də indinin modasıdır? Sənin bu hərəkətinə nə ad verək?

**G ö y ə r ç i n** –Ana, icazə verin mən...

**A y n u r** –Siz indiki qızlar! Min illərdən qopub gələn ata-baba ənənələrinə tüpürür, dünən meydana çıxan səfeh bir modanın qabağında ağlınızı itirirsiniz. Hanı bizim nənələrin sədaqət, vəfa, dözümlülük ənənəsi? Yenilik adı ilə meydana çıxan bu əyyaşlıq, bu yüngüllük, bu əylənmək ehtirası sizi hara aparır?

**G ö y ə r ç i n** –Bəsdir!.. *(Uzun pauza. Onlar xeyli müddət bir-birinə*

*baxır, sanki bir-birini başa düşür, hirsləri soyuyur. Göyərçin Aynura yaxınlaşır, mehribancasına.)* Mən başa düşürəm, Aynur xanım, Daşqının əzabları sizi təbiətinizdən çıxarıb, mən də hamını yalançı, riyakar, hiyləgər bilirdim. Qışqırmaq, haqsızlığa üsyan etmək, adamlardan qisas almaq istəyirdim. Heç kəsə inanmırdım. Elə bu zaman qarşıma Daşqın çıxdı. Boynuma alıram, mən əvvəllər ona gülmək, sevgisiylə əylənmək, əvəz çıxmaq istəyirdim.

**A y n u r** –Qaydadır, pislərin cərimərini yaxşılardan alarlar.

**G ö y ə r ç i n** –Getdikcə onu tanımağa başladım. Qəsdimdən utandım. Onun saflığı məni düzlüyə çağırdı, adamlara inamımı qaytardı. Mən Daşqının özünə yox, sevgısinə vuruldum.

**A y n u r** –Ancaq o birisinin özünə vurulmuşdun?

**G ö y ə r ç i n** –Bəli, ancaq onu unutmalıydım...

**A y n u r** –Onu unutmaq üçün sənə Daşqın lazım idi, hə?

**G ö y ə r ç i n** –Bəli. Lakin mümkün olmadı.

**A y n u r** –Daşqın ondan yəni bu qədər aşağıdır?

**G ö y ə r ç i n** –Yox! Hər cəhətdən yuxarıdır. Amma bunu ağıl bilir, ürək bilmək istəmir. Bir vaxt ayıldım ki, Daşqın məni düşündüyümdən artıq sevir... *(Qəhər boğur.)*

**A y n u r** –Ürəyinə girəndən sonra, onu dəli eləyəndən sonra dedin ki, evlənə bilmərik, hə? Əcəb işdir.

**G ö y ə r ç i n** –Mən bilmirdim ki, onun sevgisi bu dərəcədə böyüyəcək. (Pauza.) Necə bilirsiniz, bir az da gözləyəydim? Onda daha böyük günah işləmiş olmazdımmı?

**A y n u r** *(kinayə ilə)* –Bəs o oğlan səni niyə atıb? Demək başqasını sevirmiş?

**G ö y ə r ç i n** –Bilmirəm...

**A y n u r** –Bəs onda...

**G ö y ə r ç i n** –O həmişə başqalarından seçilmək, fərqlənmək istəyirdi. Həmişə ona elə gəlirdi ki, onun istedadını görmək istəmirlər. O, yüksəlmək üçün yollar axtarır, tapa bilmir, əzab çəkirdi. Ona görə də burdan baş götürüb getmək istəyirdi. Birdən bu fikrindən əl çəkdi. Mənimlə gec-gec görüşməyə başladı. Bir də eşitdim ki, sədrin qızına nişanlanıb.

**A y n u r** –Aydındır!

**G ö y ə r ç i n** –Siz bilirsiniz atılmaq, sevən qadın üçün nə böyük dərddir? *(Sükut.)* Axı siz hardan biləsiniz ki, atılmaq nə deməkdir?

**A y n u r** *(kinayə ilə gülümsünür)*–Elədir qızım...

**G ö y ə r ç i n** –İndi mənim yalnız bir çarəm qalır, baş götürüb gedəm kəndə, Aynur xanım. *(Aynur fikrə gedir.)* Niyə belə fikrə getdiniz? *(Sükut.)* Sizə nə oldu?

**A y n u r** –Heç.

**G ö y ə r ç i n** –Bəlkə qəlbinizə toxundum? Bağışlayın.

**A y n u r** –Bilirsənmi, qızım, mənim bir rəfiqəm var. Sənin taleyin onunkuna oxşayır.

**G ö y ə r ç i n** –Nə barədə?

**A y n u r** –İyirmi altı il əvvəl əri onu atıb getdi uzaq, çox uzaq bir şəhərə, ad-san dalınca. O, orda adını, şöhrətini böyütdü, rəfiqəm burda övladını.

**G ö y ə r ç i n** –Necə? Övladları da varmış? Onda ailəsini də aparaydı özü ilə.

**A y n u r** –Yox, o aparardı, qadın getmədi.

**G ö y ə r ç i n** *(heyrətlə)*–Nə? Niyə getmədi *(Sükut.)*

**A y n u r** –O gedə bilməzdi.

**G ö y ə r ç i n** –Necə yəni uşağımın atası gedən yerə mən getməyim? Siz o qadına haqq verirsiniz?

**A y n u r** –Əlbəttə.

**G ö y ə r ç i n** –Axı niyə?

**A y n u r** –O dekabristlər kimi əqidə naminə sürgünə getsəydi, qadın da onunla gedərdi. Lakin o, kişi xudpəsəndliyinin ucundan el-obasını tərk eləyirdi. Məgər bu xasiyyət getdiyi yerdə davam etməyəcəkdi?

**G ö y ə r ç i n** –Adam sevdiyini nöqsanları ilə bərabər sevir.

**A y n u r** –Qızım, məsələ belədir ki...

**G ö y ə r ç i n** –Məni bağışlayın, Aynur xanım, mən sevdiyim adamla cəhənnəmə də gedərdim. O qadın ərini sevmirmiş.

**A y n u r** –Necə yəni sevmirmiş?

**G ö y ə r ç i n** –Siz bayaq ənənəmizdən danışdınız, nənələrimizin sədaqətindən, dözümündən söz açdınız. Bəs sevən qadın uçuruma

gedən ərini necə tək qoya bilərdi? *(Aynur sarsılır.)* Düz demirəm? *(Sükut.)* Mən sevgi borcundan böyük borc tanımıram. Sevgi, aylı gecədə yanaşı əyləşib bir-birinə gözəl vədlər vermək deyil, ömrün daşlı-kəsəkli yollarını yanaşı keçməyi bacarmaqdır!

**A y n u r** *(uzun sükutdan sonra.)*–Sən qəribə qızsan!

Uzun sükut. A y n u r g etmək istərkən S ə l i m gəlir. O sərxoşdur. Qapının ağzında dayanır.

**G ö y ə r ç i n** –Salam. *(Aynur diqqətlə onu süzür)* Niyə keçmirsən içəri? *(Sükut.)* Tanış olun. Bu, Səlimdir. Aynur xanım, Daşqının anasıdır. *(Sükut.)* Niyə susursan? Bəlkə bir sözün var? *(Aynur gedir.)* Qapının ağzında niyə durmusan? Keç yuxarı başa. Niyə sıxılırsan? Sən axı utancaq deyildin. Bəlkə toyuna çağırmağa gəlmisən məni? Lazım bilirsənsə gələrəm. Toyunda oynayaram da. Birdən çaşıb mənimlə oynayarsan, ha! Elə şeyi eləməyəsən, yoxsa nişanlın qısqanar.

**S ə l i m** –Bəsdir!

**G ö y ə r ç i n** –Adam toyunda hirslənməz!

**S ə l i m** –Daşqının anası! Elçi gəlmişdi?

**G ö y ə r ç i n** –Elçidən keçib, toydan danış.

**S ə l i m** –Belə de? İndi bildim Loğman niyə gizlədirmiş! Balam nə tez soyuyub təzədən isinə bildin?

**G ö y ə r ç i n** –Səndən öyrəndım.

**S ə l i m** –Sevirsən onu?

**G ö y ə r ç i n** –Pis oğlandır? *(Sükut.)* Kimdən əskikdir?

**S ə l i m** –Sağlığına qismət olsun.

**G ö y ə r ç i n** –Çox sağ ol. Demək, məni təbrik eləməyə gəlmisən. Minnətdaram!

**S ə l i m** –Çərənləmə!

**G ö y ə r ç i n** –Niyə acığına gəlir?

**S ə l i m** –Sən yalan deyirsən.

**G ö y ə r ç i n** –Niyə? Daşqın kimi oğlanı sevmək olmaz? *(Sükut.)* Niyə sən elə fikirləşirsən? Mən axı onu sevirəm.

**S ə l i m** –Sən Daşqın kimi “ana uşağını sevə bilməzsən!

**G ö y ə r ç i n** –Niyə axı? Necə? Bir də axı bunun sənə nə dəxli

var?

**S ə l i m** –Dəxli yoxdur. Amma sən özün-özünü aldadırsan.

**G ö y ə r ç i n** –Özünü aldadan sənsən! Sən... Sən... Sədrin qızı ilə yaşaya bilməyəcəksən...

**S ə l i m** –Pah! Nə yaman inamla danışırsan.

**G ö y ə r ç i n** –İndi nə istəyirsən məndən? Çıxıb getsənə! Burda Daşqınla üzləşmək istəyirsən? Yaxşı yol!

**S ə l i m** –Demək ona deməmisən?

**G ö y ə r ç i n** –Deməmişəm.

**S ə l i m** –Niyə deməmisən ki, bir vaxt Səlimin dəlisi idim?

**G ö y ə r ç i n** –Onda dəli idim. İndi ağıllanmışam.

**S ə l i m** –İndi mən hər şeyi açıb ona danışsam, halın necə olar?

**G ö y ə r ç i n** –Onu elə dəli eləməmişəm ki, məndən əl çəkə.

**S ə l i m** –Sus!

**G ö y ə r ç i n** –Qışqırma! Mən onu sevirəm, başa düşürsən, sevirəm.

**S ə l i m** –Sənin o sevən ürəyini elə parçalardım!..

**G ö y ə r ç i n** –Bacarmazsan. İxtiyarın yoxdur. Mən artıq onunkuyam. *(Gülür.)*

**S ə l i m** –Satqın!.. *(Göyərçinin üzünə şillə çəkir. Göyərçin qəhqəhə çəkir. Səlim dəhşətə gəlir, Səlim sürətli addımlarla qaçır. Göyərçin gülməyində davam edir.)*

**G ö y ə r ç i n** –Xoşbəxtəm! O, yenə məni sevir.

**S ə s** — Məhəbbət! Məhəbbət! Nə hikmətdi bu,
Alovu görünmür, gözü yandırır.
Bizi bizdən alan nə qüvvətdi bu?
Ocaqsız, tüstüsüz bizi yandırır.
Məhəbbət acıdır, məhəbbət şirin,
Onun əlindədir ixtiyarımız.
Sevgiylə oynamaq istəyənlərin,
Özü oyuncağa dönür gec, ya tez.

## YEDDİNCİ ŞƏKİL

*A y n u r u n evi. D a ş q ı n yatıb. A y n u r gəlir. Makentojunu soyunur. Stolun üstündəki araq şüşəsini görüb təəccüblənir. Butulkanı götürüb dolaba qoyur. D a ş q ı n oyanır.*

**D a ş q ı n** –Sabahın xeyir, ana!

**A y n u r** –Axşamın xeyir. *(Pauza.)* Nə çox yatdın? Bəs gedəndə anaya deməzlər? Səhərə qədər gözlərimi yummamışam.

**D a ş q ı n** –Bəs Alxan əmi zəng vurmayıb?

**A y n u r** –Yox!

**D a ş q ı n** –Tələsik oldu deyə xəbər eləyə bilmədim. Amma Alxan əmiyə tapşırmışdım ki, sənə xəbər versin.

**A y n u r** –Yaxşı, səhər gələn kimi niyə mənə demədin dənizdə nə olub?

**D a ş q ı n** –Axı, orda nə olmuşdu ki, sənə deyəydim?

**A y n u r** –Bəs bu zənglər nədir? Loğmanlı da zəng eləmişdi.

**D a ş q ı n** –Nə deyirdi?

**A y n u r** –Sənə təşəkkür eləyirdi. Bir də tapşırdı ki, Birliyə zəng çalasan. Dünən dənizdə nə olmuşdu?

**D a ş q ı n** –Qonşu mədəndə fırtına estakadanı dağıtmışdı, getdik köməyə, vəssalam!

**A y n u r** –Fırtına! Dənizdəki fırtınanı yatırmaq üçün köməyə adam çağırırlar. Amma ürəkdəki fırtınanı sakitləşdirmək üçün araq içirlər, hə? *(Sükut.)*

**D a ş q ı n** –Ana, bağışla, ürəyim istədi içdim.

**A y n u r** –Mən başqa söz deyirəm. Niyə məndən gizlədirsən? Sən dərdini anana da deməyib kimə deyəcəksən?

**D a ş q ı n** –Nə dərd?

**A y n u r** –Nə dediyimi sən yaxşı bilirsən.

**D a ş q ı n** –Gəl bu barədə danışmayaq.

**A y n u r** –Necə danışmayaq? Sənin nə hallara düşdüyünü görmürəm? *(Sükut.)* Sən hara, içki hara? O gündən sən gecələr yata bilmirsən. Yatağına od tökülüb.

**D a ş q ı n** –Ana! Biz onunla qurtarmışıq.

**A y n u r** –Bilirəm.

**D a ş q ı n** –Necə?

**A y n u r** –Bəli, mən hamısını bilirəm.

**D a ş q ı n** –Ana, bəsdir!

**A y n u r** –Hamı istədiyinə çata bilməz ki...

**D a ş q ı n** –Niyə mənim yaramın üstünə duz səpirsən?

**A y n u r** –Mən istəyirəm ki, sən əzab çəkməyəsən. Ürəyindən də çıxardasan.

**D a ş q ı n** –Mən də istəyirəm.

**A y n u r** –Amma bacarmırsan. İradən çatmır.

**D a ş q ı n** –İyirmi altı il əvvəl atamı unutmusanmı, ana? *(Aynur sarsılır.)* Bağışla, ana. *(Sükut.)* Atama qədər bir adamı sevmişdinmi?

**A y n u r** –Bu nə danışır?

**D a ş q ı n** –Sualıma cavab ver. Ana, atamdan əvvəl sevmişdinmi?

**A y n u r** –Mən yalnız atanı sevmişəm.

**D a ş q ı n** –Aranızda inciklik, narazılıq olmuşdu?

**A y n u r** –Bir dəfə. Atanın bir yoldaşı vardı. O da məni istəyirdi.

**D a ş q ı n** –Atam bilirdimi?

**A y n u r** –Elə ona görə də məni yaman qısqanırdı ona. Bir dəfə atan onunla bərk mübahisə eləyirdi. Gördüm atan haqsızdır. O oğlanın tərəfinə keçdim. Oğlan bundan qürrələnib atana güldü. Bu, atanı cin atına mindirdi. Qalxıb oğlana bir şillə çəkdi.

**D a ş q ı n** –Bəs o oğlan neylədi?

**A y n u r** –Heç nə. "Bu şillə sənə baha oturacaq deyib getdi. Atan məndən küsdü.

**D a ş q ı n** –Bəs necə olu barışdınız?

**A y n u r** –O elə tərs idi ki, heç üzümə də baxmırdı. Axırda dözmədim, özüm barışdım.

**D a ş q ı n** –Deyirsən mən atama oxşamamışam, hə?

**A y n u r** –Elə çıxır.

**D a ş q ı n** –Sən həmişə mənə atamdan yaxşı şeylər danışardın. Uşaqlıqda mənə danışdığın nağılların qəhrəmanı həmişə atam olardı.

**A y n u r** –Bir az dəlidolu idi atan.

**D a ş q ı n** –Məni bağışla, ana, bəs atam öləndən sonra səni istəyən olmayıb?

**A y n u r** –Yaxşı bəsdir!
**D a ş q ı n** –Xahiş edirəm, sən mənim canım.
**A y n u r** –Olub.
**D a ş q ı n** –Kim?
**A y n u r** –Biri elə həmin oğlan.
**D a ş q ı n** –Deməli səni istəyənlər çox olub. Həmişə mənə elə gəlib ki, sən yalnız anasan. Bəs niyə sən.. *(Sükut.)* İndi peşiman deyilsən ki?
**A y n u r** –Bu nə sualdır?
**D a ş q ı n** –Deyirəm, atamdan sonra heç kəsi sevə bilmədin, yoxsa? Bəlkə ikinci dəfə sevmək mümkün deyil?
**A y n u r** –Əlbəttə çətindir. Amma... oğul, üzünə görə "Səni sevmirəm, başqasını sevirəm deyən bir qızı...
**D a ş q ı n** –Lap Alxan əmi kimi danışırsan.
**A y n u r** –Yaxşı, dərdini Alxan kişiyə deyirsən, bəs anandan niyə gizlədirsən?

Sükut. D a ş q ı n telefon nömrəsini yığır.

**D a ş q ı n** –Alo, Daşqındır danışan. Buyurun, eşidirəm. Necə? Sağ olun. Mütləq gələrəm. *(Dəstəyi asır.)* Ana, mənə təşəkkür elan eləyiblər. Üstəlik də mükafat! Bu gün mənim şad günümdür. İstəyirəm Alxan əmini bizə çağırım.
**A y n u r** –Xörək hazırdır, çağır.

D a ş q ı n telefon nömrəsini yığır, cavab vermir.

**D a ş q ı n** –Alxan əmi bu gün mehmanxanaya köçüb. İndi mütləq gedib onu tapacağam. Bəs sən niyə məni təbrik eləmirsən? Mənim gözəl anam, göyçək anam. Heç fikir eləmə, Hamısı sən deyən kimi olacaq. De, yaxşı nə olub?
Anama qurban alçalar,
Anam nə vaxt şad olar?
**A y n u r** –Yaxşı, şitlik eləmə.
**D a ş q ı n** –Anama qurban ilanlar
Anam nə vaxt dil anlar?
**A y n u r** –Necə də yadında qalıb.

**D a ş q ı n** –Sən mənə layla çalanda həmişə gözümün qabağında güllər açılardı. O necə idi?

**A y n u r** –Dağda meşəlik.

**D a ş q ı n** –Gül bənövşəlik.

**A y n u r** –Mən həmişəlik

**D a ş q ı n** –Anama qurban.

**A y n u r** –Balama qurban.

**D a ş q ı n** –Dağda darılar

**A y n u r** –Sünbülü sarılar.

**D a ş q ı n** –Qoca qarılar

**A y n u r** –Balama qurban!

**D a ş q ı n** –Anama qurban!

**A y n u r** –Elə demə! *(Aynur doluxsunur.)*

**D a ş q ı n** –Hə, nə oldu? Ağlayırsan?

**A y n u r** –Uşaqlığın yadıma düşdü... Nə gözəldi o günlər!.. Onda dərdin də özün kimi balaca idi. Böyüdükcə dərdin də böyüdü.

**D a ş q ı n** –Demək mən sənə özüm boyda dərd gətirmişəm?

**A y n u r** –Balanın özü kimi dərdi də şirin olur.

**D a ş q ı n** –İndi ki belədir, çək əziyyətimi. Bir yaxşı süfrə aç, harda olsa Alxan əmini tapıb gətirəcəyəm.

D a ş q ı n çıxır, A y n u r onun arxasınca baxır. Telefon zəngi. A y n u r dəstəyi götürür.

**A y n u r** –Bəli, eşidirəm. Salam, kimdir danışan? Alxan? Daşqın elə bu saat sizin dalınızca getdi. Bu saat mən elə haldayam ki, neyləyəcəyimi bilmirəm. Mən mütləq Daşqın barədə bir adamla məslə-hətləşməliyəm. O adam yalnız siz ola bilərsiniz. O sizə inanır. Məsləhətinizə ehtiyacım var. Daşqın sizin barədə mənə o qədər danışıb ki, mən bilirəm ki, ona yalnız sizin köməyiniz dəyə bilər. And verirəm, qəlbinizdəki ən müqəddəs hissə, gəlin, hardan danışırsınız? Lap bizim evin yanındasınız. Demək tanıyırsiniz. Gözləyirəm.

Dəstəyi asır, fikirə gedir. Qapı zəngi. Aynur qapını açır, Əlixan gəlir.

**A y n u r** –Buyurun!

**A l x a n** –Salam. *(Aynur diqqətlə Alxana baxır.)* Tanımadın, görənlər də deyir, çox dəyişmişəm.

**A y n u r** –Əlixan!..

Geri çəkilir, nə edəcəyini bilmir, yan otağa keçir. A l x a n gözləyir, otağa göz gəzdirir. Sonra qapıya yönəlir, dayanır, gözü tumboçkanın üstündəki heykələ sataşır. A y n u r gəlib əyləşir.

**S ə s** — Sən bəxtimin ulduzuydun,
Yanıb-yanıb niyə söndün?
Haçalandı yollarımız
Niyə getdin, niyə döndün?
Dağ adlayıb, dərə keçdik
Hər ağrını, bir yemişdik
Biz ki belə deməmişdik,
Niyə getdin, niyə döndün?

**A y n u r** –Buyurun, eşidirəm.
**A l x a n** –Məni gözləmirdiniz... ancaq...
**A y n u r** –İndi bura bir adam gələcək. Onunla vacib söhbətim var. Siz gedin.
**A l x a n** –Bilirəm, kimi gözləyirsiniz. Alxan əmini, eləmi?
**A y n u r** –Siz hardan bilirsiniz?
**A l x a n** –Alxan əmi mənəm.
**A y n u r** –Necə? Alxan əmi sənsən?
**A l x a n** –Mən qayıdandan sonra Daşqınla bir yerdə işləməli olduq. Sonra bildim ki, bu Loğmanın tədbiri imiş.
**A y n u r** –Yoxsa Daşqın bilir?
**A l x a n** –Yox, mən də bu gün bilmişəm.
**A y n u r** –Hardan?
**A l x a n** –Loğman dedi. Bu gün bu evin başına neçə yol dolanmışam.
**A y n u r** –Bəlkə Daşqına demək istəyirsən?
**A l x a n** –Yox. Mən axı ölüyəm. *(Sükut.)* Mənim yaşamağım səni bu qədər narahat edirdi? Məni öldürmüsən ki, oğul atasını axtarmasın?
**A y n u r** –Necə bilirsən? Deyəydim ki, atan bizi atıb gedib şöhrət dalınca?
**A l x a n** –Hər halda necə rəva bildin?
**A y n u r** *(sükut)*–Sənin ölülüyün diriliyindən çox iş görür. Uydur-

duğum yalana özüm də inanmışdım. Səni gerçəkdən ölmüş sanırdım. Səni öldürüb ölümünə səbəb olduğun Usta Nicatın əməlləri ilə oğlunun qəlbində yaşatdım. İndi o mənim uydurduğum atam ilə fəxr edir. Səncə, diri olub atalıq eləməyən ata yaxşıdır, yoxsa ölüb gözəl xatirəsi ilə atalıq edən ata?

**A l x a n** –Mən elə güman edirdim ki, sən çoxdan həyatını qurmusan. Ona görə də mane olmaq istəmirdim.

**A y n u r** –Sənin əvəzinə övladını başqası böyütməli idi?

**A l x a n** –Loğmandan məktub alan kimi boşanma ərizəsini göndərdim. Dedim, yəqin məktubu birlikdə yazmısınız. Həm də məni istəsəydin, mənimlə gedərdin.

**A y n u r** –Sizə yazılan o məktubdan mənim xəbərim olmayıb. Mən ərizəni alandan sonra bildim. Onu Loğman özü yazıb. *(Qalxıb dolabçadan açar götürür. "Qız qaçıran oğlan heykəlini açır, içindən bir kağız götürüb stolun üstünə qoyur.)* Budur, göndərdiyin ərizə. *(Alxan ərizəyə ötəri nəzər salıb susur. Özünü pis hiss edir. Nəfəsi təngiyir, yaylığını çıxarıb tərini silir.)* Sənə nə oldu?

**A l x a n** –Narahat olmayın. Elə bil hava çatışmır. Boğuluram. Həkimlər dedi, yaşamaq istəyirsənsə qayıt elinə, obana. Səni doğma yurdun abi-havası sağalda bilər. Gəldim. Burda doğurdan da xəstəliyim sağalır. Loğman da qəribə adammış! İndi məni yalnız Daşqın düşündürür. Daşqının xasiyyəti zəifdir, hamıya inanır. Belə adamlar həyatda həmişə uduzur. Ona kömək etmək lazımdır. Telefonda başa düşdüm ki, sən də buna görə gəlməyimi israr edirsən.

**A y n u r** –Mən səni Alxan əmi güman edirdim.

**A l x a n** –Elə yaxşıdır.

**A y n u r** –Siz Daşqına heç nə deməməlisiniz. Onun atası haqqındakı gözəl xülyalarını dağıtmağa ixtiyarınız yoxdur. Bu, sizin daha böyük günahınız və daha böyük cinayətiniz olar.

**A l x a n** –Arxayın olun. O məni Alxan əmi kimi sevir. Mən indi heç olmasa bu sevgini itirmək istəmirəm.

**A y n u r** –O da sizə bağlanıb. Dərdini mənə yox, sizə deyib. Bununla belə...

D a ş q ı n gəlir.

**D a ş q ı n** –O!.. Alxan əmi, xoş gördük. Siz bizim evə xoş

gəlmisiniz! Vallah şair düz deyib: "Ürəkdən ürəyə yollar görünür. Mən elə sizi axtarırdim.

Alxan ata məhəbbəti ilə Daşqını süzür. Onun üzündə öz cizgilərini axtarır, birdən onu bağrına basır, gözləri yaşarır, üzünü ondan gizlədir. Aynur özünü itirir. O, təlaş içindədir.

**Səs** – Deməк nə yoğurub, nə də yapıbdır.
O gərək sevinə, oğul tapıbdır.
Bəs hanı? Bəs niyə sevinə bilmir?
Ürəyi doludur, o dinə bilmir.
Bu gecə sevincdir, bu gülüşündə
Min ağrı acıya, müsibətə bax.
Bu necə sevincdir, sevinc içində
Onun sevinməyə haqqı yox ancaq.

**Daşqın** –Bəs necə oldu evi tapdınız?

**Aynur** –Sən çıxdın, zəng çaldı, mən də dəvət elədim.

**Daşqın** –Nə yaxşı eləmisən, ay ana!.. Getdim mehmanxanaya. Dedilər, səhərdən çıxmısınız. Ana, yeməyi hazırla, biz də gəlirik. *(Alxan divardan asılmış tara diqqətlə baxır.)* O tar, atamın yadigarıdır, Alxan əmi. *(Daşqın tarı götürür, verir Alxana.)* Atamın bir lent yazısı var. "Segah. Hərdən anamla qulaq asırıq.

Sükut. Daşqın maqnitafonu qurur. "Segah" inildəyir. Daşqın mətbəxə keçir.

**Səs** –

Niyə çaşdım, niyə çaşdım,
Dünəşimdən uzaqlaşdım.
Ümidim yox sabahıma
Mən öz ömür sərvətimi
Uduzmuşam günahıma.
Kəpənəklər uçub gedər,
Əlimizdə işıldayan
Toza bənzər xatirələr.
Qalın-qalın meşələrdə
Gah itən, gah üzə çıxan
İzə bənzər xatirələr.
Düşmən olub indi məni

Hədələyir xatirələr...
Öz əlimlə öz başıma
Od ələyir xatirələr.

Alxan tumboçkanın üstündəki heykələ baxır.

**Usta Nicat** *(kölgəsi görünür)*–Yadındadır. Atası Aynuru sənə vermək istəmirdi.

**Alxan**–Məndən zəhləsi gedirdi.

**Usta Nicat**–Sən Aynurun ad gününə həmin bu "Qız qaçıran oğlan heykəlini hədiyyə gətirmişdin. Demək istəyirdin ki, atan verməsə səni qaçırdacağam.

**Alxan**–Yadımdadır.

**Usta Nicat**–Sən burdan gedəndə Aynuru da özünlə aparmaq istəyirdin, o getmədi. Acığından heykəli yerə çaxıb sındırdın. Sən o heykəllə bərabər sevgini də qırıb getdin.

Daşqın gəlir. Alxanı əlində heykəli görür.

**Daşqın**–Bu heykəl anamın ad gününə atamın birinci hədiyyəsidir. Bu evdə anam üçün bu heykəldən əziz şey yoxdur.

**Alxan**–Hayıf ki, sınıb!

Daşqın–Anam deyir ki, uşaqlıqda mən sındırmışam. Sonra anam düzəltdirib. Usta anama deyib ki, bundan bir şey çıxmaz, yaxşısı budur, təzəsini alasan. Amma anam qiymətindən artıq pul verib ki, təki bu düzəlsin. Bilirsiniz niyə? Ona görə ki, bu cansız heykəl anam üçün sevgi rəmzidir. Atam ölüb. Amma anamın sevgisi hələ də yaşayır.

Uzun pauza.

**Alxan**–Niyə insanlar bir-birini vaxtında başa düşmür?

**Usta Nicat**–Ona görə ki, hərə bir cür baxır bu dünyaya... Kimi yaşamaq üçün yaşayır, kimi də məqsəd üçün, amal üçün.

**Alxan**–Məqsəd də, amal da yaşamaq üçün deyil?

**Usta Nicat**–Bəs amal üçün ölənlər? Amal naminə dərisi soyulan Nəsimilər, azadlıq naminə həyatından keçən inqilabçılar, Vətən naminə sinələrini sipər edən Həzilər, Firudinlər? Onlar üçün amal yaşamaq deyil, məqsədə, ideala qovuşmaq yoludur.

**Alxan**–Onlar nadir adamlardır.

**D a ş q ı n** –Bəs mənim atam? Məgər o bilmirdi ki, yanğınla zarafat etmək olmaz? O, yoldaşlarını xilas eləmək üçün özünü alışıb yanan buruğun üstünə atanda bilmirdi ki, ölə bilər? *(Sükut.)* Əgər məndə yaxşı bir cəhət görürsünüzsə, bu atamdan gəlir, Alxan əmi. Ona görə ki, mən həmişə atama oxşamağa çalışmışam. Hərçənd atasız böyümüşəm, lakin kim deyə bilər ki, atam başqalarını xilas eləmək üçün özünü ölümün qucağına atanda səhv eləmişdi? Hə, necə bilirsiniz, atam səhv eləmişdi?

**A y n u r** *(mətbəxdən)* –Daşqın, gəl mənə kömək elə.

**D a ş q ı n** –Bağışlayın.

D a ş q ı n mətbəxə keçir. A l x a n gözünü yerə dikib düşünür.

**U s t a N i c a t** –Hə... Niyə susursan? Niyə oğlunun sualına cavab verə bilmirsən? Artıq oğlun da səni mühakimə edir.

**A l x a n** –Nə istəyirsən məndən?

**U s t a N i c a t** –Yox, sən məni qova bilməz-sən. İndi biz bir adam olmuşuq. Axı sən oğlunun qəlbində mənim əməllərimlə yaşayırsan.

**A l x a n** –Demək mən ölü kölgəsində yaşayıram?

**U s t a N i c a t** –Bəs elə deyil? Elə deyilsə niyə oğluna deyə bilmirsən ki, mən ölməmişəm, mən sağam, mən sənin atanam? Qorxursan? Mən səni başa düşürəm. Oğlun səni ata kimi tapıb, insan kimi itirəcək.

**A l x a n** –Yalandır! Mən həmişə kişi kimi yaşamışam. Başıma gələn bəlalar da mənliyimdən, vüqarımdandır!

**U s t a N i c a t** –Özünü mərd hesab edirsənsə, qorxma, etiraf et. De, oğluna bəlkə səni bağışlayacaq?

**A l x a n** –Bəs sonra? Onun məni bağışlaması mənə daha böyük cəza deyilmi? O, oğulluq borcuna görə məni qəbul etməli olacaq. Bəs mən? Mən ona atalıq eləmişdim ki, onun oğulluq borcunu qəbul edəm?

**U s t a N i c a t** –Onda boynuna al ki, sən diri ikən ölüsən.

**A l x a n** –Ölü sənsən, sən!

**U s t a N i c a t** –Xeyr! Mən nə üçün öldüyümü bilirəm. Amma sən nə üçün yaşadığını bilmirsən. Unutma ki, nə üçün yaşadığını bilməyənlər diri ikən ölü, nə üçün öldüyünü bilənlər isə ölü ikən diridirlər.

**A l x a n** –Cəfəngiyyatdir!

**U s t a N i c a t** –Sən həmişə borcundun çox, haqqını düşdündüyündən cəmiyyət içində tək qalmısan, tək!

**A l x a n** –Tək? Tək? Tək...

**S ə s –** Doğma övladına öz günahından
Nə uzaq kimisən, nə yaxın kimi
Elə ki, özünü gördün, öz balan,
Dayandı önündə günahın kimi.
O nə qışqırtı, o nə şivəndi
Qəlbinin içindən qışqırır:
Dayan! Səpdiyin günahlar cücərib indi
Onları dərməmiş hara qaçırsan?

D a ş q ı n tələsik gəlir ki, A l x a n ı nahara dəvət etsin, lakin onu görmür.

**D a ş q ı n** *(ətrafa baxaraq)*–Bu hara getdi? Ana, ana! *(Aynur daxil olur.)* Alxan əmi, hara getdi? *(Aynur susur.)* Niyə getdi?

**S ə s –** Elə ki, özünü gördü, dərk etdi
Dünənt divana çəkdi o bu gün.
O getdi, getməyə bilməzdi, getdi.
Kim bilir, bəlkə də qayıtmaq üçün.

Səhnənin qabağına çıxaraq.

**U s t a N i c a t** –Daşqın bilmir Əlixan niyə getdi? Amma siz bilirsiniz. Necə bilirsiniz. Əlixan getməkdə haqlı idimi? Sizdən soruşuram, haqlı idimi?

## SƏKKİZİNCİ ŞƏKİL

Təyyarə meydanı. L o ğ m a n l ı tək dayanıb limana baxır.

**D i k t o r** –5157 nömrəli reyslə Ufaya uçan təyyarəyə minik qurtardı. Qaça-qaça Daşqın gəlir. Loğmanlını görüb dayanır.

**D a ş q ı n** –Loğman əmi, o getdimi?

**L o ğ m a n l ı** –Hardan bildin?

**D a ş q ı n** –Mənə idarədə dedilər.

**L o ğ m a n l ı** –O getməliydi, oğul.

**D a ş q ı n** –Axı niyə?

*L o ğ m a n l ı sarsılır.*

**L o ğ m a n l ı** – Necə deyim? Bilirsənmi, oğul!.. Məsələ belədir ki... *(Yaşarmış gözlərini görməsin deyə Loğmanlı Daşqını bağrına basır, göz yaşlarını silir.)* Oğul, sən... Mən sənin möhkəmliyinə inanıram...

**D a ş q ı n** – Sizə nə olub? Loğman əmi, siz həmişə mənə atalıq eləmiş, üzdə sərt olmağa çalışmısınız. Amma indi bu nəvaziş, bu mehribanlıq nədir? Elə bil mənə yazığınız gəlir.

**L o ğ m a n l ı** – Oğul, sənin atan ölməyib. Anan sənə yalan deyib.

**D a ş q ı n** – Necə?!.

**L o ğ m a n l ı** – Lakin bu yalan min həqiqətdən güclü və gözəl yalandır, müqəddəs yalandır. Sən bu təmizliyinə görə ananın uydurduğu həmin yalana borclusan. Al oxu, atanın sənə məktubudur.

**D a ş q ı n** *(məktubu oxuyur)* – "Daşqın, mən sənin atanam. Lakin sənə "oğul deməyə haqqım yoxdur. Anan səni elə böyüdüb ki, mən sənin təmizliyindən utanıb qaçmalı oldum... Mən Vətənə özümü müalicə etməyə gəlmişdim, ruhumu, qəlbimi təmizləyib gedirəm. Əlvida! Sənin atan Əlixan." Mənim atam? Alxan əmi mənim atamdır?

**S ə s** –

Heç nə unudulmur yol gedirik biz.
Yollara iz düşür ləpirimizdən.
Lentə yazılan tək əməllərimiz
Yazılır, iz qalır hardasa bizdən.

Elə addım ataq, ürək qorxmasın,
Torpağın üstündə açılan izdən.
Elə yaşayaq ki, lent səslənəndə
Xəcalət çəkməyək dünənimizdən.

*1971*

*1971-ci il mayın 8-də Azərbaycan Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.*





# CƏZASIZ GÜNAH

## (ON BİR ŞƏKİLDƏN İBARƏT DRAM)

İŞTİRAK EDƏNLƏR:

**Salman Tahirov** –Klinikanın müdiri, professor.
**Toğrul** –həkim.
**Qoşqar** –həkim.
**Aysel** –həkim.
**Qaçay** –xəstə.
**Nüsrət** –xəstə.
**Loğman** –ocaqçı.
**Hüquqçu.**
**Behcətin səsi.**
**Təcili yardım həkimi.**

PROLOQ

(Pərdə açılarkən h ü q u q ç u səhnəyə gəlir, tamaşaçılara müraciət edir.)

**H ü q u q ç u** –Hörmətli tamaşaçılar, ilk növbədə, istəyirəm özümü sizə təqdim edəm. Mən hüquqçuyam. Yəni, qanunlarımızın keşikçisiyəm.

(Bu zaman A y s e l təngnəfəs gəlir.)

**A y s e l** –Bağışlayın, atam pis haldadır. Təcili yardıma zəng eləməliyəm. Binamızın kabelləri qırılıb. Bəlkə, sizdə jeton ola...

(Hüquqçu cibindən jeton çıxarıb verir. Qız getmək istərkən uzaqdan təcili yardım maşınının səsi eşidilir. Hüquqçu özünü maşının üstünə atır. Həkim görünür.)

**H ə k i m** –Nə olub? Pojardı? Maşına dırmaşırsan... Öyüvü Allah yıxmasın, ölseydin, ölümüvə atveçatdun?

(A y s e l həkim yaxınlaşır.)

**A y s e l** –Həkim, bax, o binada bir xəstə... halı xarabdır. Xəstəxanaya çatdırmaq lazımdır.

**H ə k i m** *( laqeydliklə)*–Hansı binada?

**A y s e l** (barmağı ilə göstərir) - Bax, orda.

**H ə k i m** –Hə... bala, o bina mənim uçastokum deyil. Bir də, mənim növbətçilik vaxtım qurtarıb, evə gedirəm... Sən zəhmət çək, başqa skoropomoşa zəng elə.

**H ü q u q ç u** –Ay doktor, axı, insan... ölə bilər.

**H ə k i m** –Hələ onu bilmək olmaz.

**H ü q u q ç u** –Mən sizdən insanlıq naminə rica edirəm.

**H ə k i m** –Mən bütün insanların həkimi deyiləm.

(H ə k i m gedir. A y s e l zəng çalmaq üçün telefona qaçır.)

**H ü q u q ç u** –Gördünüzmü? Yəqin, siz ürəyinizdə fikirləşirdiniz ki, mənə gərək maşının nömrəsini götürəydim və həmin həkimi məsuliyyətə cəlb edəydim. Elədirmi? Lakin qanun onu müqəssir hesab edə bilməz. Gördünüzmü, o, qanun dili ilə danışdı. Dedi ki, xəstə

olan bina onun uçastoku deyil və növbəsi bitmişdir. O, bəlkə də bu gün öz sahəsindəki xəstələrə ləyaqətlə xidmət göstərmiş, öz vəzifə borcunu yerinə yetirmişdir. Bəs, insanlıq borcu? O, insanlıq borcunu rədd etdi.

## BİRİNCİ ŞƏKİL

Həkim otağı. A y s e l həyəcan və təlaş içərisində gəzinir. Q o ş q a r palatadan – xəstənin yanından çıxır. A y s e l diqqətlə ona baxır. Q o ş q a r susur.

**A y s e l** –Nə susursan?

**Q o ş q a r** –Səbirli ol.

**A y s e l** –Yəni, ümid yoxdur?

(Q o ş q a r kənarda əyləşir, siqaret yandırır.)

**Q o ş q a r** –Aysel, bir az gözlə, görək, Toğrul nə deyəcək?

**A y s e l** –Mən xahiş edirəm, sən Toğrulu başa sal, son ümid yeni preparatadır.

**Q o ş q a r** –Bunu sən özün ona deməlisən.

**A y s e l** –Mən dedim, razılaşmadı... Dözmədi, yazıq kişi! Çək-çevirlər, didişmələr, intriqalar!.. Nə qədər dözmək olar?!

**Q o ş q a r** –hamısını bilirik.

**A y s e l** –Axı, niyə belə olmalıdır? Adamlar nə istəyir bir-birindən? Niyə bir-birinə yağı kəsilir?

**Q o ş q a r** –Atanın başına gətirilən oyunlardan hamımızın xəbəri var... Amma əlimizdən nə gəlir?..

**A y s e l** –Niyə belə olmalıdır? Niyə siz haqsızlığa adi bir şey kimi baxırsınız?

(T o ğ r u l xəstənin yanından çıxır.)

**T o ğ r u l** –Aysel, keçə içəri.

**A y s e l** –Doktor!

**T o ğ r u l** –Sən atanın yanında olmalısan.

(A y s e l gedir.)

**Q o ş q a r** –Sən niyə açığını demirsən? Niyə demirsən ki, səhər çıxmaz?!

**T o ğ r u l** –İndi sən öz qərarını de.

**Q o ş q a r** – Qərardan keçib... *(Pauza.)* Ötən dəfəki böhran bundan yüngül idi, çətinliklə qurtardı. İndi daha pisdir... Nitqi də pozulur...

**T o ğ r u l** –Deməк...

**Q o ş q a r** –Böhranlarla keçən üçüncü dərəcəli hipertoniya!

**T o ğ r u l** –Dlac?

**Q o ş q a r** –Yoxdur!

**T o ğ r u l** –Dlimizi üzək?

**Q o ş q a r** –Burda təbabət acizdir. Bəlkə...

**T o ğ r u l** –Nə bəlkə ?

**Q o ş q a r** – Sənin yeni preparatın!

**T o ğ r u l** –Sonra?

**Q o ş q a r** –Ya ölüm, ya da qələbə !..

**T o ğ r u l** –Buna haqqım varmı?

**Q o ş q a r** –Ayrı yol yoxdur.

**T o ğ r u l** –Baş tutmasa?

**Q o ş q a r** –Cinayət!

**T o ğ r u l** –Eləyim, ya yox?

**Q o ş q a r** –Özün bilərsən!

**T o ğ r u l** –Sən neylərədin? *(Pauza)*

**Q o ş q a r** –Deyə bilmərəm.

**T o ğ r u l** –Tərs kimi professor da burda yoxdur.

**Q o ş q a r** –Olmaması yaxşıdır.

**T o ğ r u l** –Nəyi?

**Q o ş q a r** –Sən bilmirsə nə ki, yazıq Behcəti elə bu hala salan Salman Tahirovun özüdür?

**T o ğ r u l** –Mən heç başa düşə bilmirəm, bizim şefə bu xəstə Behcətdən nə istəyir?

**Q o ş q a r** –Sən, doğrudan da, fil qulağında yatmısan. Hələ bilmirsən?

**T o ğ r u l** –Nəyi?

**Q o ş q a r** –Bəs dostun Behcət sənə deməyib?

**T o ğ r u l** –Yox.

**Q o ş q a r** –Şefin oğluna cinayət işinin qaldırılmasını da bilmirsən?

**T o ğ r u l** –Yox, amma eşitmişəm ki, hansı bankınsa müdiridir.

**Q o ş q a r** –Müdir idi. Amma bankın altından girib, üstündən çıxıbmış.

**T o ğ r u l** –Buna Behcət neyləsin?

**Q o ş q a r** –Behcətin qardaşı təftiş komitəsinin sədridir. Şef Behcətdən xahiş edir ki, qardaşı bu işi yoluna qoysun, yəni oğlunu təmiz çıxarsın. Deyilən görə Behcətin qardaşı çox təmiz adamdır. O, qardaşının xahişini qəbul eləmir. Professor da o gündən Behcəti salıb gözümçıxdıya.

**T o ğ r u l** –Yaxşı, keçək mətləbə... Bilirsən, Qoşqar, mən indi qalmışam odla su arasında... Behcət özü mən təklif eləmişdi.

**Q o ş q a r** –Nəyi?

**T o ğ r u l** –Sınağı.

**Q o ş q a r** –Dilind n kağız alaydın... Bir də Aysel xanım özü bu işdə sənin assistentin olub. O, preparata inanmasaydı, sənə sınaq aparmağı təklif etməzdi.

(Uzun sükut. T o ğ r u l fikrə gedir. İşıq sönür,
işıq yalnız T o ğ r u l u n üzünə düşür.)

**B e h c ə t i n s ə s i** –Çox fikirləşmə, ayrı yol yoxdur. Görürsənmi, onsuz da ölürəm.

**T o ğ r u l** –Axı... Bir də gümanım var ki, bəlkə...

**B e h c ə t i n s ə s i** – Bəlkəni əkiblər, bitməyib.

**T o ğ r u l** –Preparatın da "bəlkə" olduğunu sən də mənim qədər bilirsən.

**B e h c ə t i n s ə s i** –Qorxma, onsuz da mən ölümə məhkumam, sınaq yaxşı çıxsa, mən artıq ömür qazanıram.

**T o ğ r u l** –Qanun buna yol vermir.

**B e h c ə t i n s ə s i** –Bernard da birinci dəfə ürək köçürənədə qanun qarşısında nə cavab verəcəyini bilmirdi. Dənizdə batan saman çöpünə əl atar. Mən onsuz da batıram. Niyə mənə əl uzatmırsan?

**T o ğ r u l** –Yox, bacarmıram! Bu, cinayətdir!

**B e h c ə t i n s ə s i** –Məni rədd eləmə! Ölümə məhkum bir ada-

mın dar ağacının uzunundan, yaxud gödəyindən asılmasını fikirləşməsi gülünc deyilmi? Bir də Vaşqanski, yaxud Blayberq ürək köçürmə əməliyyatını həkimdən xahiş edəndə mütləq sağalacaqlarına inanırdılarmı? cavab ver, inanırdılarmı?

**T o ğ r u l** –Yox!

**B e h c ə t i n s ə s i** –Nəhayət, mən mərdanə ölmək istəyirəm. Mən istəyirəm ki, bu xəstə bədənim böyük bir kəşfin açılmasına xidmət etsin...

**T o ğ r u l** –Onsuz da sən bu kəşfə mənimlə şəriksən...

(Səhnə işıqlanır. A y s e l gəlir.)

**A y s e l** –Doktor! Tamam huşunu itirdi... Doktor, atamı səndən istəyirəm... Kömək elə! (Yaxasından tutub onu silkələyir.) Eşidirsənmi, yeganə ümidimiz onadır. Bunu özgəsi demir, onun öz övladı deyir.

**T o ğ r u l** –Aysel, başa düş, axı, sən özün həkimsən, sınaqdan çıxmamış dərmanı xəstəyə verməyə ixtiyarımız yoxdur.

**A y s e l** –Axı, mən o preparatın tərkibinə və təsirinə bələdəm.

**T o ğ r u l** –Amma sən mən gördüyüm başqa cəhəti görə bilmirsən. Mən kəllə daxili təzyiqdən narahatam, Aysel.

**A y s e l** –İstəyirsən mən dilimdən iltizam verim. Qoy cavabdeh sən yox, mən olum.

**T o ğ r u l** –Sən nə danışırsan? Demək, mən səni güdaza verməliyəm?

**A y s e l** –Mən əminəm ki, atam preparatın müalicə üçün tam hazır olduğunu bilsəydi, heç sənə ağız açmaz, sınağı özü aparardı.

(A y s e l palataya keçir.)

**H ü q u q ç u** *(üzünü tamaşaçılara tutur)* – Həkimlərin söhbətindən sizə məlum oldu ki, xəstə ölüm ayağındadır. Yeganə ümid yeni kəşf olunan dərmandır. Bununla belə, sınaqdan çıxmayan dərmanı xəstəyə vermək qanunla yasaqdır. Bəs nə etməli? Göz baxa-baxa xəstə ölməlimi? Sizdən soruşuram, yeganə ümid olan sınağı aparmamaqda Toğrul haqlıdırmı? İnsanlıq deyir ki, haqlı deyil! Amma qanun, onun aliliyi buna yol vermir. Bayaq sizin gördüyünüz təcili yardım həkimi yalnız vəzifə borcunu icra edən, insanlıq borcunu unudan həkim idi. Beləsi qanunla

suçlu sayılmır. Lakin vəzifə borcunun çərçivəsindən kənara çıxıb insanlıq borcunu yerinə yetirmək üçün indi tərəddüd keçirən həkim Toğrul müqəssir ola bilər...

**T o ğ r u l** –Bəlkə, Aysel haqlıdır? Bəlkə, mən bu addımı atmalıyam? Bəlkə, insanlıq qanunun aliliyindən yuxarıdır? Amma düzü budur ki, mən bu addımı atmamağımla Behcəti deyil, özümü düşünürəm. Çünki həbsə məhkum olunmaqdan qorxuram. Ölümə məhkum olunmaq dəhşətlidir, yoxsa, həbsə məhkum olunmaq? Əgər mən, doğrudan da, namuslu adamamsa, həbsə məhkum olunmaqdan qorxmayıb, ölümə məhkum olunmuş gözəl bir insanın ölümdən xilas olmaq şansından imtina etməməliyəm. Bəli, əsl söz budur *(Palataya tərəf çevrilir).* Aysel!

(A y s e l palatadan çıxır.)

**A y s e l** –Doktor, sənə ehtiyac qalmadı. Sınağı özüm apardım.

**T o ğ r u l** –Necə? Sınaq?

**A y s e l** –Bəli.

**T o ğ r u l** –Doğrudan? Sən nə danışırsan? (Sükut.)

**A y s e l** –Bəli.

**T o ğ r u l** –Axı, preparat mənim seyfimdə idi.

**A y s e l** –Seyfin açarını paltonuzun cibindən götürdüm.

(T o ğ r u l xəstənin yatdığı palataya qaçır. A y s e l tək qalır.)

**A y s e l** –Mən düzmü iş gördüm? Allah eləməmiş, atama bir şey olsa mən neylərəm? Axı, mənim başqa əlacım yox idi... İlahi, sən özün kömək ol. *(Hönkürtüylə ağlayır. Toğrul gəlir.)*

**T o ğ r u l** –Mən bacarmadığımı sən bacardın. Amma qorxuram. Axı, bu, cinayətdir.

**A y s e l** –Doktor, mən sənə dedim o, huşunu itirir, sən əhəmiyyt vermədin.

**T o ğ r u l** –Huşunu itirmək hələ ölüm deyil. Biz hələ preparatın təsir mexanizmini bilmədiyimizdən, qorxumuz ikitərəflidir.

Aysel –Doktor, məni qınama. Axı, mən övladam, dözə bilmədim... Onun dostu kimi bunu sən etməli idin.

**T o ğ r u l** – Övlad, dost!.. Gör, biz neylədik?!

**A y s e l** –Biz niyə? Mən eləmişəm.

**T o ğ r u l** –Biz eləmişik! Daha doğrusu, mən eləmişəm! Mən! Aysel, qulaq as, indi bunu məndən başqa bilən yoxdur. Mən deyəcəyəm ki, sınağı mən aparmışam.

**A y s e l** –Niyə?

**To ğ r u l** –Allah eləməmiş, nəticə yaxşı olmasa...

**A y s e l** –Cəzanı sən çəkəcəksən? Yox! Ola bilməz!

**T o ğ r u l** –Mən sənin "ata qatili" kimi ləkələnməyindən qorxuram.

**A y s e l** –Heç kəs mənə o ləkəni vura bilməz.

**T o ğ r u l** - Dedim ki, mən hamıya belə deyəcəyəm. Sən mənim yalanımı çıxarmamalısan.

**A y s e l** –Belə edəcəkdinsə, niyə sınağı sən özün aparmadın?

**T o ğ r u l** –Gəl, bu məsələdən keçək. Olan oldu. İndi xəstə öz nəzarətimdədir. Müalicəni özüm aparacağam.

**A y s e l** –Doktor, sən niyə bu fədakarlığa gedirsən?

**T o ğ r u l** –Verdiyin sualın cavabı hələ sənə aydın deyil?

## İKİNCİ ŞƏKİL

(H ə k i m otağında işıq sönür, palatada yanır. N ü s r ə t , Q a ç a y . )

**N ü s r ə t** *(pəncərədən çölə baxır)*–Yenə hava tutuldu.

**Q a ç a y** –Xeyr!

**N ü s r ə t** –Necə xeyr?

**Q a ç a y** –Hava tutulmayıb.

**N ü s r ə t** –Bəs görmürsən?

**Q a ç a y** –Tutulan sənin ürəyindir, hava yox.

**N ü s r ə t** –Hər sözün qulağına gərək bir zınqırov taxasan.

**Q a ç a y** –Cənab direktor, icazə ver...

**N ü s r ə t** –Bəsdir, Qaçay!.. Adə, indi mən burda direktoram?

**Q a ç a y** –Doqquz il sənə direktor demişəm, dilim öyrəşib. Daha adını deyə bilmirəm.

**N ü s r ə t** –Bu palatada ikimiz də birik. Fərqimiz yoxdur. Burada nə mən direktoram, nə də sən mənim işçim. İkimizi də bir adla çağırırlar:

Xəstə!

**Q a ç a y** –Məni sən xəstə elədin. Amma sən bura gəlməmişdən əvvələdə xəstə idin. Vəzifə xəstəsi!

**N ü s r ə t** *(başını tutur)*–Gicgahlarım partlayır. Yüz dəfə demişəm, məni özümdən çıxartma!

**Q a ç a y** –Özündən çıxmamışdan əvvəl marşrutunu təyin elə, sonra çıx.

**N ü s r ə t** –İkimizin də marşrutu birdir: qəbiristanlıq! Vallah, ölürəm ağrıdan... Ay Allah, indi mən başımı hara qoyum?

**Q a ç a y** –Ürəyimə bir söz gəlir, deməyə qorxuram.

**N ü s r ə t** – Niyə qorxursan? İndi ki, mən sənin direktorun deyiləm, de gəlsin! Göydən nə yağıb ki, yer götürməsin?

**Q a ç a y** –Düzü, hərdən baxıram sənə, gözlərimə inana bilmirəm, deyirəm, yəni bu həmin zabitəli direktordur? Stol səni elə bəzəmişdi ki, elə bilirdim ağıl dəryasısan. İndi görürəm ki... mən səndən ağıllıyam.

**N ü s r ə t** –Bəs sənin ağlın vardısa, bunu o vaxt deyəydin də...

**Q a ç a y** –Ağlım olmasaydı deyərdim...

**N ü s r ə t** –A gidi dünya! Mən onu bilirəm ki, keçən günə gün çatmaz, calasan günü günə.

**Q a ç a y** –İndi direktorluğunu axtarırsan, direktor olanda nazirlik eşqindəydin. İndi də...

**N ü s r ə t** –Gözündən gəlsin mənim sənə elədiklərim. Hər ay mükafat verirdim. Səni kommunist əməyi briqadiri eləmişdim. Adın şərəf lövhəsindən düşmürdü. İndi mən pis kişi oldum?

**Q a ç a y** *(qəhqəhə çəkib gülür)*–Kommunist əməyi briqadiri, şərəf lövhəsi, zərbəçi kimi fıstıringələr bizim kimi axmaqları aldatmaq üçün Sovet hökumətinin uydurduğu nömrələr idi. Siz bu nömrələrlə bizim kimilərin başını piyləyir, özünüz qaz vurub qazan doldururdunuz. Bizim zəhmətimizin bəhrələrini Sibirə bir göndərib, on qazanırdınız. Elə bilirdiniz ki, bizim bu fırıldaqlardan xəbərimiz yoxdur? O dazbaş sex müdiri ilə Urenqoya göndərdiyiniz armaturlardan qazandığınız ölünüzə də bəsdir, dirinizə də... Çoxdandır onu görmürəm, o, durur?

**N ü s r ə t** –Yox, keçən il öldü.

**Q a ç a y** –Allah onun yanında yatan ölülərə rəhmət eləsin.

**N ü s r ə t** –Ə... o bədbəxtə bir rəhməti də qıymırsan?

(A y s e l gəlir.)

**A y s e l** –Nüsrətəmi, siz dərmanlarınızı niyə içmirsiniz?

**N ü s r ə t** –O dərmanlara bir ətək pul verdim. Amma xeyirdən çox zərəri oldu. Heç demə, vaxtı keçən dərmanlarmış. O gün Qoşqar həkim mənə dedi ki, Amerikada təzə bir dərman çıxıb. Oğluma dedim. O da Amerikada yaşayan bir dostuna telefon açıb o dərmanı göndərməsini xahiş edib. İndi o dərmanı gözləyirəm.

**Q a ç a y** –O dərmandan mənə də verərsən?

**N ü s r ə t** –Hələ aş bişməmiş çömçəni uzatma.

**A y s e l** –Yəni, o, dərmanın möcüzəsinə bu qədər inanırsınız?

**N ü s r ə t** –İnandım, ya inanmadım. Hələ özümü aldadıram.

**Q a ç a y** –Düz deyir, bizim kimiləri aldatmaqdan yorulub, indi keçib özünə.

**N ü s r ə t** –Yüz dəfə demişəm, adam yanında mənimlə zarafat eləmə.

(L o ğ m a n gəlir, sobaları yoxlayır.
N ü s r ə t A y s e l ə tərəf dönüb L o ğ m a n ı göstərir.)

**N ü s r ə t**–Bu kimdir?

**A y s e l** – Xəstəxananın ocaqçısı.

**N ü s r ə t** –Dedim, bəlkə bu da həkimdir? Nədən ki, burda həkim xəstədən çoxdur.

**A y s e l** –İndi xəstələr xəstəxanaya gəlmir.

**N ü s r ə t** –Niyə də gəlsinlər? İndi xəstələr dava-dərmanını alıb evində yatır. (Loğmana) Salaməleyküm, ay dayı.

**L o ğ m a n** *(Ayselə)*–Qızım, atan necədir?

**A y s e l** –İndi yaxşıdır.

**L o ğ m a n** –Getmək istəyirdim yanına, Toğrul həkim izn vermədi. Məndən salam de.

(L o ğ m a n sobaları yoxlamaqla məşğuldur.)

**N ü s r ə t** –Ay kişi, bizim salamımızı almırsan, başqasına salam göndərirsən.

**L o ğ m a n** –Otaq qızır?

**Q a ç a y** –Gördüyün kimi...

**L o ğ m a n** –Günah özüldədir. Qazanxanada... motor köhnəlib... təzəsini almaq lazımdır.

**A y s e l** –Loğman əmi, heç palataları təmir eləməyə pul yoxdur, sən motordan danışırsan.

**N ü s r ə t** *(Loğmana)*–Neçə yaşın var?

**L o ğ m a n** –Səninlə bir yaşda olaram.

**N ü s r ə t** –Mənimki altmışdı.

**L o ğ m a n** –Oğlum yaşındasan.

(A y s e l gedir.)

**N ü s r ə t** –Papa, qan təzyiqin necədir?

**L o ğ m a n** –Nə?

**N ü s r ə t** –Qan təzyiqini soruşuram.

**L o ğ m a n** –O nədir?

**N ü s r ə t** –Sağ ol səni... Bunun dünyadan xəbəri yoxdur ki...

**Q a ç a y** –Sənin xəbərin olub, nə qazanmısan ki?

**N ü s r ə t** – Bəs bilmirsən qan təzyiqi nədir? Yəni, davleni!..

**L o ğ m a n** –Mən onu bilirəm ki, dünyada hava boldur, hamıya çatır.

**N ü s r ə t** –Nə olsun? Bunu kim bilmir?

**L o ğ m a n** –Sən! Sən elə bilirsən ki, mən sənin havanı uduram, mən də elə bilirəm ki, sən mənim havamı udursan, eləyirik bir-birimizin gününü qara. Ordan da dediyin davleni vurur kəlləçarxa. Başa düşdün?

(L o ğ m a n gedir.)

**Q a ç a y** –Doğrusunu bu kişi deyir. Bizim xəstəliyimizin səbəbi gözlərimizlə qulaqlarımızın yola getməməsidir.

**N ü s r ə t** –Çox qəliz oldu.

**Q a ç a y** –Göz-qulaq həkimi var?

**N ü s r ə t** –Göz-qulaq həkimi yox, burun-qulaq həkimi var. Göz-

qulaq həkimini neyləyirsən?

**Q a ç a y** –Mən bir şey eşidirəm, amma ayrı şey görürəm.

**N ü s r ə t** –Başa düşdüm, sən özünü ağıl həkiminə göstər.

**Q a ç a y** –O niyə?

**N ü s r ə t** –Bu ölkədə hamı bir şey eşidir, amma ayrı şey görür. Nədən ki, qulaq yalan eşidir. Göz həqiqəti göstərir və yalanı qəbul edə bilmir. Buna görə də gözlə qulaq yola getmir. Sən də qalırsan ikisinin arasında. Mənə bax, sən belə elə. Ancaq eşitməyə çalış, görməyi tərgit. Nədən ki, yaşamaq üçün görmək yox, ancaq eşitmək sərfəlidir. Başa düşdün?

(İşıq sönür.)

## ÜÇÜNCÜ ŞƏKİL

(Bir tərəf həkim otağı, bir tərəf palata. H ə k i m otağında T o ğ r u l telefonla danışır.)

**T o ğ r u l** –Alo, laboratoriyadır? Analiz nə oldu? Çox yaxşı. Dedim ki, üçüncü dərəcəli bədxassəli hipertoniya! Qanda qalıq azot nə qədərdir? Bəs kriotinin nə qədər düşüb? Çox yaxşı. Böyrəklər necə? Çox yaxşı. *(Dəstəyi asır.)* Demək, preparat sınaqdan çıxdı. Behcət xilas oldu.

(A y s e l gəlir.)

**T o ğ r u l** –Aysel, gözümüz aydın, hər şey yaxşıdır.

**A y s e l** –Xəbərim var. Gördünmü, gözlədiyimizdən də yaxşı oldu.

**T o ğ r u l** –İndi mənə qulaq as, hələ buna inanmaq olmaz. Fəsad sonra da özünü göstərə bilər.

(Q o ş q a r gəlir.)

**Q o ş q a r** –Laboratoriyadan gəlirəm. Əla! Afərin! Səni təbrik edirəm. Preparat sınaqdan çıxdı. Aysel xanım, Allaha şükür. Atan xilas oldu, gözün aydın! Eşq olsun zəmanəmizin böyük təbibinə! İndi bütün qəzetlər səndən yazacaq. Sensasiya! Azərbaycanlı alim Toğrul

Günəşli... və ilaxır. Sonra oğul istəyirəm bu şöhrətin qabağında başı gicəllənməyə... *(Aysel palataya keçir.)* Deyirlər şef gəlib?

**T o ğ r u l** –Bir az əvvəl zəng eləmişdi... *(Pauza.)* Görək, nə deyəcək?

**Q o ş q a r** –Bilmirsən nə deyəcək? *(Sükut.)* Bəs sən bilmirsən, o nə hoqqalardan çıxır?

**T o ğ r u l** –Mən hoqqabazam ki, hoqqalardan başım çıxa?!

**Q o ş q a r** –Gərək, indi mən sənə hər şeyi açım? Şefin oğlu o boyda bankı talan eləyib sudan quru çıxdısa, şefin özü... Eh, nə deyim, bir sözlə, onun əli hər yerə çatır, yüz yerdən gəliri var. Həkimlikdən başqa əlindən nə desən gələr.

**T o ğ r u l** –Salman Tahirov öz işinin ustasıdır, ağ eləmə.

**Q o ş q a r** –Mən bildiyimi deyirəm. Təkcə xaricdən gələn humanitar yardımlara əli çatmırdı, indi oranı da qamarlayıb.

**T o ğ r u l** –Sən bunları hardan bilirsən?

**Q o ş q a r** –Axı, bəzilərini mənim əlimlə eləyir...

**T o ğ r u l** –Deməк, əcnəbilər bizim qaçqınlara kömək əli uzadır, sizsə öz millətinizin zavallı bəndələrinin payını bölüşürsünüz... Utanmırsan?

**Q o ş q a r** –Elə dərd ondadır ki, mənə heç tula payı da çatmır.

**T o ğ r u l** –Bura bax, Qoşqar, mən belə çirkin söhbətləri eşitmək istəmirəm. Hesabınızı özünüz çəkin. Quş quşun dilini yaxşı bilər.

**Q o ş q a r** –Yaxşı, bu heç... Mənim əsrim müdafiəyə hazırdır, ya yox?

**T o ğ r u l** –Mən müsbət rəyimi yazmışam.

**Q o ş q a r** –Bəs onda məni müdafiəyə niyə buraxmır? Elə bilirsən, sənin kəşfini qəbul edəcək? Ay elədi ha... Biz bir-birimizin haqqını müdafiə etməsək, o, hamımızın haqqını yeyəcək və hamımızı salacaq Behcətin gününə.

**T o ğ r u l** –Mən Behcətin məsələsində şeflə üzləşəndə, bəs niyə kənara çəkildin? Niyə bizə qahmar çıxmadın? Amma öz məsələn gələndə məni köməyə çağırırsan. Toyuğun uçuşu küllüyə qədərdir?

**Q o ş q a r** –Sən özünü mənimlə müqayisə eləmə. Mən adi bir

həkiməm. Amma sən... Səhiyyə aləmində hamı səni tanıyır. Bu kəşfdən sonra dünya tanıyacaq. Özün də bilirsən ki, klinikada hamı sənin başına and içir. Ona görə də hamı səni bu klinikada rəhbər görmək istəyir.

**T o ğ r u l** –Əvvəla, məndən rəhbər olmaz. Mən sırf elm adamıyam.

**Q o ş q a r** –Elmini əlindən alan var? Sən ol rəhbər, biz də sənin köməkçilərin. Öz əlimiz, öz başımız.

**T o ğ r u l** –Qoşqar, ayıbdır. Salman Tahirov ikimizin də müəllimi olub. İndi də rəhbərimizdir. Mən ona xəyanət edə bilmərəm. Bizim boynumuzda o kişinin haqqı-sayı var. Ağsaqqala hörmət eləmək bizim borcumuzdur.

**Q o ş q a r** –Axı, ağsaqqal özünü ağsaqqal kimi aparmır.

**T o ğ r u l** –Mən sözümü dedim, əl çək!

(İşıq sönür. Palata.)

**N ü s r ə t** (başını tutur)–Vay, öldüm.

(T o ğ r u l gəlir.)

**T o ğ r u l** –Nüsrət əmi, deyirlər, dərmanları içmirsən. Belə olmaz.

**N ü s r ə t** –Axı, o dərmanların heç xeyrini görmürəm.

**T o ğ r u l** –O dərmanlar elmin son nailiyyətləridir.

**N ü s r ə t** *(bir dəstə ot, ələf göstərir)*–Doktor, incimə, bax, bu ot-ələfdən gördüyüm xeyiri sizin elmin son nailiyyətləri dediyiniz o dərmanlardan görmürəm.

**Q a ç a y** –Doktor, özünü incitmə. Bu kişini mən çoxdan tanıyıram. Beyninə bir şey batdısa... onu ordan kəlbətinlə də çıxara bilməzsən.

**T o ğ r u l** *(divardan asılmış şəklə baxır)*–Nə gözəl şəkildir. Bu kimin əsəridir?

**N ü s r ə t** –Burda 21-ci palatada yatan o rəssamın. Mənə hədiyyə eləyib. Onu tanımırsan?

**T o ğ r u l** –Yox, şəxsən tanış deyiləm. Amma adını çox eşitmişəm.

**Q a ç a y** –Kasıb adamdır. Nüsrət kişi ona əl tutub, o da əsərlərindən birini ona bağışlayıb.

**T o ğ r u l** –Gözəl sənət əsəridir!

(İşıq sönür, yenə həkim otağı. **A y s e l** masa arxasında nəsə yazır. **Q o ş q a r** daxil olur.)

**Q o ş q a r** –Atan necədir?

**A y s e l** –Allaha şükür.

**Q o ş q a r** –Dizlərini ört, nə sənə soyuq dəysin, nə də mən titrəyim.

**A y s e l** –Mənə soyuq deyil, amma sən yaman titrəyirsən.

**Q o ş q a r** –Sevgi bir zəlzələdir, ürəyi titrədir, bədəni yıxır.

**A y s e l** –Bu, neçənci sevgindir?

**Q o ş q a r** –Birinci və axırıncı.

**A y s e l** –Yəni, bu vaxta qədər heç sevməmişdin?

**Q o ş q a r** –Yox! Sevgi qızılcaya bənzəyir, nə qədər gec gəlsə, bir o qədər qorxulu olur.

**A y s e l** –Onda saxla, dərinə getmə!

**Q o ş q a r** –Sevgi müharibəyə bənzəyir, onu başlamaq asandır, saxlamaq çətin!

**A y s e l** –Saxla dedim, sənə!

**Q o ş q a r** –Niyə?

**A y s e l** –Ona görə ki, sevgi evlənməyin səhəri, evlənmək sevginin axşamıdır.

**Q o ş q a r** –Onda belə çıxır ki, gərək ömrümüz boyu subay qalaq?

**A y s e l** –Subay qalsan yaxşıdır. Bəlkə, sənin kimi şorgözlərin kökü kəsilə.

**Q o ş q a r** –Çox sağ ol. Vallah, sən mənim arvadım olsaydın, zəhər verib səni öldürərdim.

**A y s e l** –Mən sənin arvadın olsaydım, məmnuniyyətlə özüm zəhər içib, özümü öldürərdim.

**Q o ş q a r** –Təşəkkür edirəm. Heç səndən gözləməzdim.

(**T o ğ r u l** gəlir. **Q o ş q a r** əsəbi halda gedir. **T o ğ r u l** onların arasında nəsə baş verdiyini hiss edib, **A y s e l ə** yaxınlaşır.)

**T o ğ r u l** –N olub?

**A y s e l** –Nə olacaq? Ağzını qoyub Allah yoluna.

**T o ğ r u l** –Sən onun atmacalarına fikir vermə. Bilmirsən ki, o, qeyri-ciddi adamdır?

**A y s e l** –Əvvəllər fikir vermirdim. İndi görürəm ki, həddini aşır.

**T o ğ r u l** –Həddini aşanda cilovunu çək, həddini bilsin. İndisə get, əvvəl atanın təzyiqini ölç, iynənin vaxtıdır, onu vur, mən də gəlirəm.

(S a l m a n  T a h i r o v gəlir.)

**A y s e l** –Xoş gəldiniz, professor.

**T o ğ r u l** –Bütün səfərlərdən salamatlıqla!

(A y s e l gedir.)

**T o ğ r u l** –Necə keçdi simpozium?

**S a l m a n** –Sənin sayəndə çox yaxşı.

**T o ğ r u l** –Çıxış elədinizmi?

**S a l m a n** –Sən qoydun ki, çıxış eləyəm?

**T o ğ r u l** –Başa düşmədim.

**S a l m a n** –Sən hansı ixtiyarla məndən xəbərsiz Londonda məqalə çap elətdirirsən?

**T o ğ r u l** –Londonda? Professor, mən Londona məqalə göndərməmişəm.

**S a l m a n** –Bəs orda çıxış edən, nədir onun adı? *(Cibindən bloknotunu çıxarıb baxır).* Orda Nevrologiya institutunun direktoru Con Drayzer sənin məqaləndən misallar gətirdi.

**T o ğ r u l** –Hə... O, mənə məktub da yazmışdı. O, sizin icazənizlə Moskvada "Kliniki təbabət" jurnalında çap etdirdiyim məqaləyə istinad eləyib.

**S a l m a n** –O havaxt olub?

**T o ğ r u l** –Təxminən bir il, ya il yarım əvvəl.

**S a l m a n** –O da həmin problem üzərində çalışırmış. Sənin məqaləni oxuyandan sonra bu işdən əl çəkib.

**T o ğ r u l** –O mənə bu barədə yazıb. Biz bir neçə dəfə simpoziumlarda görüşmüşük.

**S a l m a n** –Çox yaxşı. İşi tamamlayırsanmı?

**T o ğ r u l** –Elə sizi gözləyirdim. Səfəriniz uzun çəkdi.

**S a l m a n** –Ordan Amerikada oxuyan qızımın yanına getdim. Səfər

uzandı.

**T o ğ r u l** –Mən işi qurtardım. Məsələ bundadır ki, necə deyim... Bilirsiniz ki, bədxassəli hipertoniyanın mexanizmi tamam başqadır. Ən son dərmanlar da ona lazımi təsir göstərə bilmir.

**S a l m a n** –Bəli.

**T o ğ r u l** –Uzun axtarışdan sonra mən pressor amilləri neytrallaşdıran beyin, ürək və böyrək hüceyrələrini yüksək təzyiqdən qoruya bilən yeni preparat-depressor tapmışam.

**S a l m a n** –Nə dedin? Depressor?

**T o ğ r u l** –Mənim tapdığım əks maddələr qanda əmələ gəlmiş pressor maddələri zərərsizlşdirir. Qan təzyiqi azalır. Bədxassəli hipertoniya ölüm qorxusu törətməyən adi hipertoniyaya çevrilir.

**S a l m a n** –Sən nə danışırsan? Bilirsən bu nə deməkdir?

**T o ğ r u l** –Professor, məsələ belədir ki...

**S a l m a n** –Yaxşı, necə yəni, depressor?

**T o ğ r u l** –Çox adi bir üsulla...

**S a l m a n** –Yəni necə? Hansı üsulla? Sınaqdan keçirmisən?

**T o ğ r u l** –Bəli. Heyvanlar üzərindəki təcrübələrim...

**S a l m a n** –Hipertoniyanı heyvanlar üzərində sınaqdan keçirmək! Bu, hələ heç nə demir.

**T o ğ r u l** –Doğru deyirsiniz, ona görə də insan üzərində...

**S a l m a n** –Nə?..

**T o ğ r u l** –Aparmışam!

**S a l m a n** –Aparmısan? Harda? Nə zaman? Adə, sən nə danışırsan? Buna kim icazə verdi?

**T o ğ r u l** –Xəstənin özü.

**S a l m a n** –Hansı xəstə? Sən dəli olmusan?

**T o ğ r u l** –Behcət!

**S a l m a n** –Behcət? Bizim Behcəti deyirsən?

**T o ğ r u l** –Bəli!

**S a l m a n** –Məgər onunku bədxassəli idi?

**T o ğ r u l** –Bəli.

**S a l m a n** –Bəs nəticə?

**T o ğ r u l** – Nəticə çox gözəl! Bu da göstəricilər! *(Analizləri ona göstərir.)* Bu, onun xəstəlikdən əvvəlki vəziyyəti, bu da sonrakı. Sinir

və ürək fəaliyyəti yaxşılaşıb. Böyrəkdəki dəyişikliklər azalıb. Kreotinin düşüb.

**S a l m a n** –Qəribədir. Deyirsən, o özü dedi?

**T o ğ r u l** –Bəli.

**S a l m a n** –Bəs sən qorxmadın?

**T o ğ r u l** –Məsələ belədir ki, mən bu əlacı eləməsəydim, onsuz da öləcəkdi. Mən onu qansızmadan xilas etdim.

**S a l m a n** –Qansızmadan? Balam, bu nə möcüzəli dərmandır? *(Fikrə gedir.)* Tərkibi nədir?

**T o ğ r u l** –Hamısını deyəcəyəm!

**S a l m a n** –Amma belə tezliklə inanmaq olmaz. Bu əhvalat nə vaxt olub?

**T o ğ r u** –Bu gün on birinci gündür.

**S a l m a n** –Hələ gözləmək lazımdır. Bilmək olmaz, bəlkə fəsad özünü sonradan göstərdi. Yoxlamaq, dərindən yoxlamaq lazımdır. *(Sükut.)* Mən özüm yoxlamalıyam.

**T o ğ r u l** –Buyurun!

**S a l m a n** –Çətin olacaq... Mən onunla qarşılaşmaq istəməzdim...

**T o ğ r u l** –Professor, həkim üçün xəstənin kimliyinin nə mənası var?

**S a l m a n** –Mən onu otuz ildir tanıyıram. O, mənə inanmadı... Getdi kənarda müdafiə elədi... Nəticəsi? Buyur, Ali Attestasiya Komissiyasından əsərini veriblər mənə rəy üçün. O, bircə şeyi bilmədi ki, örkən nə qədər uzun olsa, yenə gəlib doğanaqdan keçəcək... Bəli, bunu hamınız bilməlisiniz...

**T o ğ r u l** –Professor, bu ayaqda siz ondan xeyirxahlığınızı əsirgəməməlisiniz...

**S a l m a n** –Xeyirxahlıq elə mənə qalıb?

**T o ğ r u l** –İndi o xəstədir. Vaxtilə çox yaxın olmusunuz.

**S a l m a n** –O, indi hardadır?

**T o ğ r u l** –Burda, xəstəxanada.

**S a l m a n** –Nə etmək, indi ki, sən təkid edirsən, sənin xətrinə onun günahlarından keçirəm, gedək.

(Gedirlər.)

## DÖRDÜNCÜ ŞƏKİL

(Həkim otağı. S a l m a n T a h i r o v kağızlarla məşğuldur. Q o ş q a r gəlir.)

**S a l m a n** –Behcətə dəymişdin bu gün?

Qoşqar–İndi ordan gəlirəm... Analizlərə bir də baxdım. Mənə elə gəlir ki, hər şey qaydasındadır. Bu iyirmi beş gün göstərir ki, preparat öz işini görüb...

**S a l m a n** –Əlbəttə, amma tələsmək olmaz... Dönə-dönə yoxlamaq lazımdır... Hə, necə bilirsən?

**Q o ş q a r** –Toğrul nə deyir?

**S a l m a n** – Mən sənə daha çox inanıram...

**Q o ş q a r** –Çox sağ olun... Amma preparatın tərkibindən xəbərim yoxdur...

**S a l m a n** –Hə... Yaxşı yadıma düşdü. Dissertasiyanı qurtarmışam. Səni təbrik edirəm... Bir-iki xırda qeydim var... Amma buraxmaq olar.

**Q o ş q a r** –Çox sağ olun, minnətdaram.

**S a l m a n** –Özünə minnətdar ol. Bəli, bəli, əslində də belədir.

**Q o ş q a r** –Hər halda sizin rəhbərliyiniz... Sizin...

**S a l m a n** –Yaxşı, bəsdir. Bilirsən ki, mənim tərifdən xoşum gəlmir.

**Q o ş q a r** –Bilirəm...

**S a l m a n** – Deməк, deyirsən ki, preparata inanmaq olar?

**Q o ş q a r** –Bəli...

**S a l m a n** –İndi ki, sən inanırsan, mən də razı... Amma bu iş təkcə məndən asılı deyil. Bizim elmi şuranın qərarını göndərməklə iş bitmir. İşin təsdiqi Farmakopeya komitəsindən asılıdır. Orda da bilirsən də...

**Q o ş q a r** –Başa düşürəm.

**S a l m a n** –Başa düşən adama can qurban! Amma o, yaman kaldır - Toğrulu deyirəm ey... Elə bil, zamanə adamı deyil... Sən gərək onu başa salasan.

**Q o ş q a r** –Əlimdən gələni eliyərəm.

**S a l m a n** –Bura bax, pasportunu götür, sabah səhər tezdən get aeroporta. Sənin adına xaricdən mal gələcək.

**Q o ş q a r** –O dəfəki kişinin yanına, yoxsa...
**S a l m a n** –Bəli. Həmən o yekəpərin yanına.
**Q o ş q a r** –Baş üstə.
**S a l m a n** –Yaxşı, sən get, Toğrulu çağır.

(Q o ş q a r çıxır. Telefon zəngi.)

**S a l m a n** *(dəstəyi götürür)*–Alo, bəli, mənəm. Ali Attestasiya Komissiyasından? Calaşdırın... Eşidirəm. Behcət Rəhimzadənin dissertasiyası? Bəli, oxuyuram. Bəli, hələ qurtarmamışam. Yaxşı, sürətləndirərəm. *(Dəstəyi asır. Aysel gəlir.).*

**A y s e l** –Professor, xəstə Nüsrət Qaraqaşlı sizi görmək istəyir.

**S a l m a n** –İşin axırında gəlsin. *(Aysel getmək istəyərkən)* Bura bax, atan xəstə olduğu üçün mən ona demədim. Əminə de, ömrümdə bir dəfə Behcətin vasitəsilə ona ağız açdım, kömək eləmədi, nə olar, dünyanın quyruğu uzundur, mən oğlumu o cəncəldən qurtardım.

**A y s e l** –Təbrik edirəm.

**S a l m a n** –Atan da, əmin də bilsinlər ki, Salman Tahirovun bacarmadığı iş yoxdur.

**A y s e l** –Onlar sizin qüdrətinizə yaxşı bələd olduqlarına görə oğlunuzun o cəncəldən qurtaracağına əmin idilər.

(A y s e l gedir, T o ğ r u l gəlir.)

**S a l m a n** –Əyləş, axır günlər səni çox fikirli görürəm. Tələsmə, hər şey öz yolu ilə gedəcək.

**T o ğ r u l** –Məsləhət sizindir.

**S a l m a n** –Bir az da gözləsək, necə olar?

**T o ğ r u l** –Yəni nə qədər?

**S a l m a n** –Vaxt qoymaq olmaz. Bu təsir keçici də ola bilər.

**T o ğ r u l** – Hələlik effekt yaxşıdır. Kənar təsir görünmür.

**S a l m a n** –Bəs sonra ola bilməz?

**T o ğ r u l** –Güman etmirəm. Mən bu işin məsuliyyətini yaxşı başa düşürəm. Cavabdeh olduğumu da bilirəm.

**S a l m a n** –Bəs mən nəçiyəm? Direktor kimi burda mənim imzam olmalıdır. Mən də buna başımla cavabdehəm.

**Toğrul** – Şübhəsiz.

**Salman** –Yaxşı, bunu qəbul etdik. İndi keçək əsas məsələyə. Bu gün elmi şuraya və farmakopeya komitəsinə hazırladığın sənədlərə baxdım. Hər şey yerindədir. Amma ikinci müəllif kimi Behcətin adını görüb təəccübləndim. Başa düşə bilmirəm, üstündə sınaq apardığın adam nə vaxtdan müəllif hesab olunub?

**Toğrul** –Elə deyil, professor, bildiyiniz kimi, bu işi tək başlamışdım. Amma istiqamətim düz deyilmiş. Prosesdə, yəni təxminən bir il bundan əvvəl, doktor Behcətlə məsləhətləşdim.

**Salman** –Məsləhətləşməyə burda ondan başqa adam tapmadın? Axı, o kimdir? Hansı böyük əməlin yiyəsidir?

**Toğrul** – Bizim bir-birimizə olan dost münasibətimizi siz ki, bilirsiniz.

**Salman** –Yaxşı, sonra?

**Toğrul** –İşlə yaxından tanış olandan sonra mənə ayrı bir yol təklif elədi.

**Salman** –Nə yol?

**Toğrul** –O mənə toxuma prostoqlandinləri üzərində işləməyi məsləhət gördü.

**Salman** –Məsləhət vermək kəşfin şərikliyinə haqq vermir.

**Toğrul** –Professor, axı, bir vicdan məsələsi də var.

**Salman** –Sən onu ölümdən xilas etməklə vicdanını göstərmisən.

**Toğrul** –Xəstəni ölümdən xilas etmək həkimlik borcudur. O, mənimlə bərabər axıra qədər prosesi izləyib. Mən onun göstərdiyi yolla gedib kəşfə nail olmuşam.

**Salman** –Demək, kəşfin müəllifi də sənsən!

**Toğrul** –Yox, professor, üzr istəyirəm, mənim insafım buna yol verməz.

**Salman** –Onunla dostsan, qohum da ola bilərsən. Bu, sizin öz işinizdir. Amma həqiqət – həqiqətdir. Mən bundan keçə bilmərəm. Mən onu müəllif kimi qəbul etməyəcəyəm. Onun adını sil, sonra keçək ikinci məsələyə.

**Toğrul** –O nədir?

**S a l m a n** –Sabahkı elmi şurada qərarı çıxarmaq mənim boynuma. Amma sən də gərək zamana baxıb iş görəsən. Açıq danışaq. İndi ölkədə hər şey alınıb-satılır. Allahın upravdomu adi arayışı elə belə vermir. Bu boyda kəşfi keçirmək sənə asan gəlməsin. Farmakopeya komitəsində oturanların da öz tələbi var.

**T o ğ r u l** –Nə tələb?

**S a l m a n** –Sənin dünyadan xəbərin yoxdur? Sən görmürsən ki, indi hamı bir-birinin əlinə baxır?

**T o ğ r u l** –Siz nüfuzlu adamsınız. Bu işi klinikanın adından təqdim etsəniz, heç kəs sizin qarşınıza kötük tullaya bilməz.

**S a l m a n** –Əvvəla, sən dediyin nüfuz sovet dövründə keçərdi. İndi elə şeyə baxan yoxdur. Bu kəşf bir yox, iki yox, beş-on filtrdən keçməlidir. İndi elm də müəyyən adamların inhisarındadır. Mən sənə bu günün reallığını deyirəm. Fikirləş və özün qərara gəl. Behcətin də adını ordan çıxart. Əgər Behcət doğrudan da, səni istəyən adamdırsa, gərək özü bu kəşfin müəllifliyini qəbul etməyə.

**T o ğ r u l** –Behcət özü heç bu iddiada deyil. Amma bir həqiqət də var.

**S a l m a n** –Mən səni heç başa düşə bilmədim. Sən niyə öz halal zəhmətini başqası ilə bölüşürsən?

**T o ğ r u l** –Dedim ki, bu təkcə mənim zəhmətim deyil.

**S a l m a n** - Düzü, mənim anladığım budur ki, deyəsən, sən bunu Ayselə görə eləyirsən.

**T o ğ r u l** –Onu bura qarışdırmayın.

**S a l m a n** –Qurtardıq! *(stellerə)* Xəstə Nüsrət Əlibəyliyə deyin, yanıma gəlsin.

**T o ğ r u l** –Nə deyirəm, onda inciməyin, izn verin, preparatı mən özüm lazım olan yerə təqdim edim.

**S a l m a n** –Özün bilərsən. Yol açıqdır.

(T o ğ r u l masanın üstündən sənədləri götürüb çıxır.
N ü s r ə t gəlir.)

**N ü s r ə t** –Salam.

**S a l m a n** –Hə, salam, Nüsrət kişi. Necə gedir işlər?

**N ü s r ə t** –Vallah, bunu məndən yaxşı sən bilərsən. Bu zəhrimar dərmanları içməkdən üzüldük. Xeyri olmadı. Məşədi İbad demişkən, bir ətək pul verdim, it də getdi, ip də.

**S a l m a n** –Nüsrət kişi, iti başa düşdüm. Bəs ip nədi?

**N ü s r ə t** –İp də... İt qaçdı, üstəlik boğazındakı bir ətək pul verdiyim ipi də apardı.

**S a l m a n** –Hə, indi başa düşdüm, deməli, sən itən itinin dərdini yox, ipin dərdini çəkirsən. Ay rəhmətliyin oğlu, bəs sən bilmirsən ki, indi biz pullu müalicəyə keçmişik? Pulsuz müalicə qaldı rəhmətlik sovet dövründə. Sən bu iradlarını mənə yox, bazar iqtisadiyyatına de. Bazar deyə-deyə xəstəxanaları da, hələ üstəlik məktəbləri də döndərdik bazara.

**N ü s r ə t** –Bazar yaxşı şeydir, amma daha burda yox.

**S a l m a n** –Bir də ki, Nüsrət kişi, xəstəlik adamın canına batmanla girər, misqalla çıxar.

**N ü s r ə t** –Heç bir gilə də çıxmır, axı.

**S a l m a n** –Girdiyini görmüşdün ki, çıxdığını da görəsən?

**N ü s r ə t** –Yox, girdiyini görmüşdüm, çıxdığını görmürəm.

(Q o ş q a r gəlir, N ü s r ə t i görüb geri çəkilir. Kənardan dinləyir.)

**S a l m a n** –Bura bax, o Qaraqaşlı vardı ha... Təftiş komitəsinin sədri, o vaxt sənə bərk ilişmişdi. Necə qurtara bildin o işdən?

**N ü s r ə t** –Hə... Yoxlatdı, amma bir şey tapa bilmədi.

**S a l m a n** –Mənə niyə nömrə gəlirsən? Qaraqaşlı ola, bir şey tapmaya?

**N ü s r ə t** –Tapdı, ya tapmadı, bunun məsələyə nə dəxli var?

**S a l m a n** –Olmasa demərəm ki... hipertoniya deyilən bu xəstəlik qorxudan, həyəcandan və birdən-birə vurulan zərbədən əmələ gəlir. Elə ki, elədiklərinin üstü açılır, düşürsən qorxuya, qan vurur beyninə. Biz, axı, köhnə tanışıq. İndi sən mənim gözümə ipi niyə soxursan?

**N ü s r ə t** –O vaxt bağ evin üçün sənə armatur verəndə pislik eləmişdim?

**S a l m a n** –Əvvəla, mənim kimi quru maaşa baxanlara bir verəndə,

yüzünü də dal qapıdan ötürürdün o tərəfə.

**N ü s r ə t** –Elə sənə də dal qapıdan ötürmüşdüm. İndi pis kişi oldum?

**S a l m a n** –Havanın bozarmasından duyuq düşüb, yığdıqlarını xarici banklara ötürən dostlarını gördüm Londonda. Orda yaşayırlar. Sən də vaxtında əkilsəydin, nə xəstələnərdin, nə də ip dərdi çəkərdin.

**N ü s r ə t** –Əvvəla, mən sənin Londonda gördüyün o quldurlarla çoxdan haqq-hesabı çürütmüşəm. Mən onlardan deyiləm. Mənim alnım açıqdır. İkincisi də, sənin kölgən altında oğlunun apardığı əmtəəsiz bank əməliyyatlarından da xəbərimiz var. Quru maaşını gözümüzə soxma. Sən heç vaxt maaşla dolanmamısan. Qaz vurub, qazan doldurmusan.

(Əsəbi halda səhnədən çıxır.)

## BEŞİNCİ ŞƏKİL

(Xəstxananın həyəti. A y s e l l ə T o ğ r u l gəlir.)

**T o ğ r u l** –Professor özü dedi?

**A y s e l** –Bəli. Dünən məni yanına çağırıb dedi, atan müalicəsini evdə davam etdirə bilər.

**T o ğ r u l** – Nə olar, çıxsın. Mən hər gün ona baş çəkərəm.

**A y s e l** –Sənin inadkarlığın Salmanı cin atına mindirib. Atam da onun atmacalarına dözə bilmir. Buna görə də özü çıxmaq istəyir.

**T o ğ r u l** –Nə vaxt çıxır?

**A y s e l** –Yarım saata əmim gəlib aparacaq.

**T o ğ r u l** –Çox yaxşı. İndi gəlib mən də görüşərəm.

**A y s e l** –Nazirliyə getmişdin, nə oldu?

**T o ğ r u l** –Həm nazirlikdə, həm də komitədə eyni sözü dedilər.

**A y s e l** –Yəni, nə?

**T o ğ r u l** - Klinikanın elmi şurasının rəyi olmadan bu məsələyə baxa bilmərik.

**A y s e l** –Gördünmü? Burda çox böyük şərtlər var. Bu şərtlərin

üstündən adlamağa sənin imkanın yoxdur.

**T o ğ r u l** –Haqlısan.

**A y s e** –Doktor, atam könüllü olaraq müəlliflikdən imtina etməkdə haqlıdır. Çünki o, Salman Tahirovun nəyə qadir olduğunu səndən yaxşı bilir. Sən, gəl, daşı ətəyindən tök, atamın sözünə bax. Təki preparat qəbul olunsun.

**T o ğ r u l** –Mən o boyda günaha bata bilmərəm.

**A y s e l** –Mənim əmim də sənin kimi tərsdir. Salman Tahirovun oğlu barədə olan xahişini atam əmimə yetirdi, amma əmim öz əqidəsinə sadiq qalıb dediyindən dönmədi. O, Salmanın bankı talan eliyən oğluna cinayət işi başlatdı. Nəticəsi nə oldu? Salman Tahirov oğlunu xilas etdi. Onun yerinə başqa bir günahsızı həbs elədilər.

**T o ğ r u l** –Əmin bu haqsızlıqla razılaşdımı?

**A y s e l** –Xeyr. Ora-bura əl atdı. Çox çalışdı. Axırda onu dibdəhnədən hədələyib dedilər – yerində oturmasan, özünü ölmüş bil.

**T o ğ r u l** – Hədələrdən qorxub geri çəkildi?

**A y s e l** –Atam da, mən də yalvarırıq ki, dayansın, özünə yazığı gəlsin.

**T o ğ r u l** –Yəni, cəmiyyət bu qədər pozulub?

**A y s e l** –Cəmiyyətin xəstə olduğunu hələ bilməmisən? Bəs həqiqəti deyənlərin ağzından asıldığını görmürsən?

**T o ğ r u l** –Görürəm. Amma neyləyim, özümlə bacara bilmirəm. Axı, mən ədaləti necə ayaqlayım?

**A y s e l** –Loğman əmi demişkən, indi ədalətin qulaqlarını kəsiblər, heç nə eşitmir.

**T o ğ r u l** –Yox, Aysel, mən qələbə çalacağıma inanıram.

**A y s e l** –Mən bilmirəm sən nəyə arxayınsan?

**T o ğ r u l** –Hər halda, arxayın olduğum bir yer var. Mən artıq dərəcədə xahiş edirəm, sən də, atan da məndən nigaran olmayın.

**A y s e l** –Necə nigaran olmayaq?

**T o ğ r u l** –Aysel, mən sənin nə qədər əzab çəkdiyini, mənim üçün necə həyəcan keçirdiyini bilirəm, amma onu da bil ki, mənim fikrimdən dönməməyim, sadəcə, inadkarlıq deyil. Əgər güvəndiyim bir yer olma-

saydı, bəlkə də, atanla razılaşardım.

(T o ğ r u l  A y s e l i n  qolundan tutur, gedirlər. O biri tərəfdən Q a ç a y  gəlir, başını tutub əyləşir. Q o ş q a r  gəlir.)

**Q o ş q a r** – Qızıldır qaşın, ördək,
Yaşıldır başın, ördək.
Həmişə cüt gəzərdin
Hanı yoldaşın, ördək?

**Q a ç a y** –O ördəyin arvad-uşağı gəlmişdi. Mən çıxdım havaya. Başım yaman ağrayır, doktor.

**Q o ş q a r** –Çalış havada çox ol. Amma sənin ördəyin yaman ördəkdi ha...

**Q a ç a y** –Necə bəyəm?

**Q o ş q a r** –Az aşın duzu deyil. Armatur zavodunun altından girib üstündən çıxıb. Yaman tutub özünü.

**Q a ç a y** –Bacarana can qurban!

**Q o ş q a r** –Bəs sənin kimi, mənim kimi bacarmayanlar ölsün?

**Q a ç a y** –Hər kəs öz qismətini yeyir, doktor.

**Q o ş q a r** –Deyirlər, bunun ortaqları yükünü tutub əkiliblər xaricə. Nə əcəb bu əkilmir?

**Q a ç a y** –Nüsrət kişi onların tayı deyil, yaxşı adamdır.

**Q o ş q a r** –Ə... səhər-axşam onun iştəklərini üzünə vuran sən deyildin? İndi necə oldu birdən-birə yaxşı kişi oldu?

**Q a ç a y** –Əvvəla, mən bu şoqərib xəstəliyi unutmaq üçün o kişi ilə zarafat eləyirəm və bunun sənə heç bir dəxli yoxdur. İkincisi də...

**Q o ş q a r** –Mənə dəxli yoxdur, amma sənə var. Yığdıqlarından sənə pay düşmürdü?

**Q a ç a y** –Onun yığdıqlarının da mənə dəxli yoxdur.

**Q o ş q a** r–Bəs bilmirsən ki, o zavodun köhnə paxırı açılıb, indi istintaq gedir? Nüsrətin də adı o qara siyahıdadı? Sən də ki, bu işlərin şahidi...

**Q a ç a y** –Bura bax, doktor, gəlsənə mənim ağrıyan başımı bir az da sən ağrıtmayıb burdan sürükəsən.

(N ü s r ə t gəlir, Q o ş q a r gedir.)

**N ü s r ə t** –Ə... İndi necəsən? Ağrı kəsdi?

**Q a ç a y** - Yox.

**N ü s r ə t** –Ə... mən sənə demədim ki, o dərmanların vaxtı keçib, atma?!

**Q a ç a y** –Atmayım, neyləyim? Mən kasıb adamam. Nə verirlər, onu da atıram.

**N ü s r ə t** –Ə... İnsafın olsun, neçə yol sənə öz dərmanlarımdan vermişəm, sən götürməmisən.

**Q a ç a y** –Sənin dərmanların bəyəm səni sağaldıb? Amma başın ağrıması yaxşı əlamətdi.

**N ü s r ə t** –Onu kim deyir?

**Q a ç a y** –Başın ağrıyır, demək, varmış ki, ağrıyır.

**N ü s r ə t** –Belə başın olmasından olmaması yaxşıdır.

**Q a ç a y** –Düz deyirsən, başım olsaydı, doqquz il sənin kimisinin əli altında işləyib, bu günə düşməzdim.

**N ü s r ə t** –Günahı özündə niyə axtarmırsan? Meydanda o qədər "istefa" deyib çığırdın ki, axırda atdılar səni bayıra. Bəyəm bunun da təqsiri məndə idi? Sizin meydandakı qışqırıqlarınız Sovet hökumətini yıxdı. Sən də gedib su budkası açdın, oldun su satan. İndi səndən soruşuram, bəyəm Sovet hökuməti səni su satmağa qoymurdu?

**Q a ç a y** –Onda çörəkdən su çıxırdı. İndi sudan çörək çıxmır. İkincisi də, Sovet hökuməti yıxılandan sonra heç şey dəyişməyib. O vaxtın raykom katibi indi olub icra başçısı, kolxoz sədri olub ferma müdiri. Mərkəzi Komitənin işçiləri olub aparat işçiləri. Direktorlar da olub sənin kimi şirkət sahibi. Dəyişən ancaq addır. Həmən tas, həmən hamam.

**N ü s r ə t** –Qaçay, səni and verirəm inandığına, əl çək məndən. Dünən səhərə qədər baş ağrısından bir günə düşdüm ki, vallah, o dünyaya gedib qayıtdım.

**Q a ç a y** –A kişi, gül kimi getmişdin, əziyyət çəkib daha bir də niyə qayıdırdın?

**N ü s r ə t** - Vallah, bunu düz deyirsən. Hər gün ölüm qorxusunu

çəkməkdənsə... Bura bax, yəni sən ölümdən qorxmursan?

**Q a ç a y** –M n ölümdən qorxmuram, ölümün qorxusundan qorxuram.

**N ü s r ə t** –Bəs o dünya yoxdu? Cənnət, cəhənnəm?

**Q a ç a y** –Yoxsa, sən indidən yerini cənnətdə sazlamısan? Direktor olanda bizə elədiyin zülmü yadına sal, sonra gözünü cənnətə dik.

**N ü s r ə t** –Ə... bura bax, bəlkə deyim, boynunun ardına zəli qoysunlar.

**Q a ç a y** –O qədər zəli qoymuşam ki, olan-qalan ağlımı da sorub çıxarıb.

**N ü s r ə t** –Əlli il ağıl sənə lazım olmayıb, bundan sonra neyləyirsən?

**Q a ç a y** –Burda səni yola verməyə.

**N ü s r ə t** –S n özünü yola ver! *(Sükut.)* Gicgahların atır?

**Q a ç a y** –Deyiləsi döyül, atamı yandırır.

**N ü s r ə t** –...Balam, fikir verən yoxdu da... Professorun yanında oldum. Deyirəm ona ki, burda qayda-qanun yoxdur. Mənə nə desə yaxşıdır? Deyir, hələ indiyə qədər mənim xəstəxanamdan şikayət eləyən olmayıb.

**Q a ç a y** –Sən də ona deyəydin, düz deyirsən, sağalıb duranı olmuşdu ki, səndən şikayət də edəydilər?

**N ü s r ə t** –Mən elə demədim. Dedim ki, mən ki, şikayət eləyirəm. (Gülür.)

**Q a ç a y** –Nəyə gülürsən?

**N ü s r ə t** –Öz sözümə. Mən həmişə axmaq söz danışanda əvvəlcə özüm gülürəm.

**Q a ç a y** –Onda bütün ömrün boyu gülmüsən ki...

**N ü s r ə t** –Sənin bu gic zarafatlarına mən dözürəm... Heç kəs dözməzdi...

**Q a ç a y** –Nüsrət kişi, birdən yanında ölüb-eləsəm, qorxma, hha...

**N ü s r ə t** –Ə, başına söz qəhətdi?

**Q a ç a y** –Sən meyitdən qorxursan?

**N ü s r ə t** –Kim qorxmur?

**Q a ç a y** –Mən!.. İstəyirsən, öl, bax gör qorxuram, ya yox?

**N ü s r ə t** –Özün öl, mən baxım.

**Q a ç a y** –Mən ölümdən qorxmuram, amma vicdan haqqı, sənin kimi dirilərdən qorxuram.

**N ü s r ə** –Vicdana and içirsən. Səndə vicdan var?

**Q a ç a y** –Mən səndəki vicdana and içdim.

( T o ğ r u l sürətli addımlarla gəlib keçmək istərkən)

**N ü s r ə t** –Ay doktor! Bu yazıq, o toz dərmanını içəndən sonra halı dəyişdi.

**T o ğ r u l** *(Qaçayın nəbzini tutur)*–Səhər təzyiqin neçə idi?

**Q a ç a y** –Aşağısı - 120, yuxarısı - 220.

**T o ğ r u l** –Bəs dərmanı atandan sonra?

**Q a ç a y** –Ölçdürməmişəm, amma gicgahlarım yaman atır.

(A y s e l gəlir.)

**T o ğ r u** –Gedin palataya. (Aysələ) Aysel, xəstənin təzyiqini ölç, yuxarıdırsa, venasından qan buraxmaq lazımdır.

(N ü s r ə t , Q a ç a y , A y s e l gedir. Q o ş q a r gəlir.)

**Q o ş q a** *(Toğrula)*–Sözüm var, dayan.

**T o ğ r u l** –Buyur.

**Q o ş q a r** –Sabir demişkən, mən deyən oldu, olmadı? Respublikada bu sahədə Salman Tahirovdan böyük avtoritetin olmadığını, hamının onunla hesablaşdığını bilmirdin? Mən istəyirəm ki, sən Don Kixot kimi yel dəyirmanı ilə güləşməyəsən. Sən professoru eşit, başqa yolun yoxdur.

**T o ğ r u l** –Bu sənsən? Bəs bir vaxt məni vuruşa çağıran sən deyildin? Şef dissertasiyanı buraxan kimi daha mübarizən qurtardı? Demək, toyuğun uçuşu küllüyə qədər imiş?

**Q o ş q a r** –Mənim sənə ürəyim yanır, mən sənin yerində olsaydım, razılaşardım.

**T o ğ r u l** –Özgə ağzından diş çıxarmağa nə var ki... Uşaq idim. Dayımın "Haçadil" adında qaçağan bir atı vardı. Bir gün cıdırda dayımın "Haçadil"i bütün atları geridə qoydu. Sədrimiz atını çəkdi cıdıra. "Ha-

çadil" bir sıçrayışla sədrin də yabısını vurub keçdi. Dayım dərhal atın cilovunu çəkdi. At nərildədi, guruldadı, dayım cilovu daha bərk çəkdi ki, sədrin atını keçməsin. Sədrin yabısı onu ötəndə "Haçadil" dal ayaqları üstə qalxıb dayımı yerə çırpdı. Hamı gülüşdü. Elə bil ürəyimdən tikan çıxdı. Dayım haqqın cilovunu çəkərkən, at haqqın ayaqlanmasına dözməyib haqsızlığı çiynindən yerə çırpdı. O gündən dayım gözümdən düşdü.

**Q o ş q a r** –Dayın düz eləyib. O, çalınan havaya dəm tutub.

(H ü q u q ç u gəlir. Onları kənardan seyr edir.)

**T o ğ r u l** –Niyə biz sümüyümüzə düşən havaya deyil, çalınan havaya görə oynamalıyıq? Mən hələ o zaman - dayımın o hərəkətindən sonra başa düşdüm ki, yaltaq adam, əhliləşmiş heyvanların ən qorxulusudur.

**Q o ş q a r** –Bu əhliləşmiş heyvan sənə deyir ki, şefin çaldığı havayla oyna.

**T o ğ r u l** –Sən məni heç cürə başa düşə bilməzsən. Çünki sənin vicdanında həqiqət və ədalət deyilən məfhumlar yoxdur.

**Q o ş q a r** *(gülür)*–Həqiqətin, ədalətin addımbaşı tapdandığı, rüşvətin, korrupsiyanın ən adi bir normaya çevrildiyi bir zamanda vicdanın, ədalətin, həqiqətin quyruğundan yapışmağın səni gülünc hədəfinə çevirib.

**T o ğ r u l** –Şef mənim qarşıma iki şərt qoyur. Birincisinə vicdan mane olur. İkincisinə imkanım yoxdur.

**Q o ş q a r** –Vicdandan keç. Vicdan əjdaha deyil ki, səni uda... Bura bax, deyir bir imam üçün ağlayanda, gərk bir də yezid üçün ağlayasan. Burda şefi qınamaq olmaz. Şef sənə kömək eləmək istəyir, amma bu iş təkcə ondan asılı deyil.

**T o ğ r u l** –İndi aradan nə keçdi, sən şefi mələyə döndərdin? Yoxsa, səni mənim yanıma elçi göndərib? Yox, Qoşqar, canfəşanlıq eləmə, xeyri yoxdur.

**Q o ş q a r** –Yaman sərt olmusan. Əvvəllər belə deyildin.

**T o ğ r u l** –İkimiz də dəyişmişik. Mən zərərimə, sən xeyrinə.

**Q o ş q a r** –Elə sən də öz xeyrini pis bilmirsən.

**T o ğ r u l** –Mən indi iki xəstəliyə qarşı vuruşuram. Bir hipertoni-

yaya qarşı, bir də həmən xəstəliyi törədən haqsızlığa, zorakılığa qarşı! İndi bu iki xəstəlik durub üz-üzə. Görünür, ikinci xəstəlik birincidən daha dəhşətli imiş. Mən birini yıxdım. O birisinin qarşısında acizəm.

Qoşqar - Hamı öz əməlinə haqq qazandırmağı bacarır.

Toğrul - Bu hadisə sənin başına gəlsəydi, mən səni də müdafiə edərdim.

**Q o ş q a r** –İnanmıram!

**T o ğ r u l** –Başa düş, mən onun dediyi ilə razılaşsam, zorakılıqla barışmış oluram. Hipertoniyaya qarşı vuruşarkən hipertoniyanı yaradan səbəblərə imkan vermiş oluram. Deməк, yenə uduzuram. Demək, haqq haqsızlığa təslim olur. Haqqın məğlubiyyəti yenə hipertoniyanın qələbəsidir. Mən isə bunu istəmirəm!

**H ü q u q ç u** –Bax, bu adi məntiq deyil, böyük həqiqətdir. Toğrul haqqın müdafiəsinə qalxmışdır. Həm də hansı haqqın? O haqqın ki, onun tapdanması, vuruşduğu xəstəliyin yaranmasına səbəb olur. Mən hüquqşünas kimi bu mübarizəni təqdir edirəm. *(Üzünü tamaşaçılara tutub)* Siz necə? Bəlkə, siz təkcə bizim ölkədə minlərlə insanın bu qorxulu xəstəlikdən xilas olması xatirinə onun zamanla ayaqlaşmasını istəyirsiniz?

**T o ğ r u l** –Salman Tahirov kimilər olub, olacaq. Onların yolu da birdir, sifətləri də... Məni dəhşətə gətirən o deyil, sənsən və sənin kimi ürəyi bir, sifəti min olanlardır! Niyə anlaya bilmirsən ki!..

**H ü q u q ç u** – Daşqın böyrü üstə yıxsa bir dağı,
Yanındakı dağ da əyiləcəkdir.
Bu gün yeyilərsə birinin haqqı,
Sabah da səninki yeyiləcəkdir.

**Q o ş q a r** –Mən sənə görə deyirəm.

**T o ğ r u l** *(Qoşqarın yaxasından yapışır)*–Niyə, niyə sən adi bir həqiqəti anlaya bilmirsən? Sənin kimi qanqallar hardan göyərir? Nəticədə, sənin kimilərin yaltaqlığı Salman kimilərin haqsızlığını doğurur. Sən məni başa sal görüm, sən... sən!.. *(Ürəyini tutur, yıxılır.)*

**Q o ş q a r** –Toğrul! Toğrul! Sənə nə oldu?

**H ü q u q ç u** –Bilmirsən nə oldu? Onu yıxan başqasının haqqının oğurlanması, zorakılıq və haqsızlıqdır.

## ALTINCI ŞƏKİL

(Səhnənin sağ tərəfi palata, sol tərəfi həkim otağı.
Həkim otağında Salman Tahirovla Qoşqar söhbət edir.)

**Salman** –Əlbəttə, bəs ona demədin ki, ustadına kəc baxanın gözlərinə qan damar?

**Qoşqar** –Deməsəydim, o hala düşərdi? Müayinə elədik, bədxassəli hipertoniyadır.

**Salman** –Öz cəzasıdır, qoy çəksin.

**Qoşqar** –Amma əvvəlki Toğrul deyil, süstləşib. Əsəb pozğunluğundan psixi dəyişikliklər hiss olunur.

**Salman** –O elə əvvəldən də psix idi. Sizi yetirdim, əlinizə fonendeskop verdim. Ürəklərə qulaq asmağı öyrətdim. Bəs siz niyə mənim ürəyimə qulaq asmaq istəmirsiniz? Bəs mənim zəhmətimin əvəzini belə qaytararlar? Həkim hər şeydən əvvəl namuslu olmalıdır.

**Qoşqar** –İndi sizin kimi namuslu adam hardaydı?

(Telefon zəngi. Salman dəstəyi götürür.)

**Salman** –Bəli, eşidirəm, mənəm... Necə? Əşi, nə danışırsan? Bu saat gəlirə m! Şoferə xəbər elə. *(Dəstəyi asır.)* Getdik.

**Qoşqar** –Hara?

**Salman** –Bilərsən.

(Tələsik otaqdan çıxırlar. Palatada işıq yanır.
Toğrul çarpayının üstündə oturub düşünür. Loğman gəlir.)

**Loğman** –Salam! Deyirlər ki, bu sobalar yenə yaxşı qızmır.

**Toğrul** –Demək istəyirsən ki, məni görməyə gəlməmisən, hə?

**Loğman** –Eşitdim ki, gönü bir balaca suya vermisən... Olan işdir.

**Toğrul** –Əşi, bir yaxın gəl, halımı xəbər al, biz, axı, dostuq.

**Loğman** –Şit-şit danışma. Sənə nə olub ki?

(Loğman soba ilə məşğuldur.)

**Toğrul** –Div yıxdı məni, Loğman əmi.

**L o ğ m a n** –Uşaq-muşağı, əlbttə, yıxar, amma Məlikməmmədi...

**T o ğ r u l** –Hamıdan Məlikməmməd olmaz ki!

**L o ğ m a n** –Niyyətin hara, mənzilin də ora.

**T o ğ r u l** –Niyyətim böyük idi.

**L o ğ m a n** –Dözümün necə?

**T o ğ r u l** –Görürsən də...

**L o ğ m a n** –Oğul, görürəm, mərdliyinin, dəyanətinin əzabını çəkirsən. Amma çox nahaq! Sən düz elədin. Nədən ki, zalıma üsyan etmək, Tanrıya itaətdir.

**T o ğ r u l** –Necə? Zalıma üsyan etmək Tanrıya itaətdir?

**L o ğ m a n** –Üsyanın da təhərini gərək biləsən. İlləti yarpaqlarda yox, kökdə axtarasan. Budur, mən elə deyirəm illət qazanxanadadır, deyirlər yox, sobalara bir də bax. Buyur, baxdım. Tərtəmiz...

**T o ğ r u l** –Həmişə elə olub. Həmişə günahı ayrı yerdə axtarırıq.

**L o ğ m a n** –Binanın ki, özülü möhkəm oldu, qorxma, üstündə nə tiksən durar. Evin divarlarına mala çəkməynən özüldən gələn əyriliyi düzəldə bilməzsən. Dünən getmişdim Behcətgilə.

**T o ğ r u l** –Mənim xəstə olduğumu ona dedin?

**L o ğ m a n** –Demədim, amma bilir.

**T o ğ r u l** – Mən, axı, Ayselə tapşırmışdım ki, deməsin.

**L o ğ m a n** –Aysel deyib ki, səni xaricə göndəriblər. Amma hansı mərdiməzarsa telefonla ona çatdırıb.

**T o ğ r u l** –Yəqin, bu zənglərlə əsəbiləşdirib onu stressə salmaq istəyirlər.

**L o ğ m a n** –Bu yaşa çatmışam, mən hələ insanın öz həmcinsinə bu boyda amansız olduğunu görməmişəm. Bu, nə təhər adamdır?

**T o ğ r u l** –Salmanın qəzəbi əvvəl yalnız Behcətə qarşı yönəlmişdi, indi Behcəti sancmaqla məni hədəfə götürüb. Daha dözə bilmirəm, Loğman əmi.

**L o ğ m a n** –Özünü ələ al, sən, axı, əvvəllər belə deyildin... Nə olub sən? Kişinin başına iş gələr. Əsl adam odur ki, bərk ayaqda özünü itirməsin.

**T o ğ r u l** –Daha bıçaq sümüyə dirənib, əsəblərimi ələ ala

bilmirəm.

**L o ğ m a n** –Hövsələni bas! Hirs gəlir, göz qaralır, hirs gedir, üz qaralır. *(Cibindən bir limon çıxarıb qoyur tumboçkanın üstünə.)* Öz bağımın limonudur. Hərdən iylə, fikrin dağılsın. Doğru büdrər, amma yıxılmaz. Ağıllı adam dağ çayı kimi öz-özünə yol tapar.

**T o ğ r u l** –Mən tapa bilmirəm.

**L o ğ m a n** –Bir şey qoxuyanda ona duz vurarlar. Bəs duz özü qoxuyanda neyləm k? Bax, mən istəyirəm sən onu tapasan.

(L o ğ m a n çıxır. T o ğ r u l çarpayıya uzanıb fikrə gedir.)

**T o ğ r u l** –Duz özü qoxuyanda neyləməli?

(İşıq sönür. Həzin musiqi. İşıq yanır. Q a ç a y l a N ü s r ə t gəlir. N ü s r ə t i n əlində bağlama. İçində də ot-ələf var.)

**N ü s r ə t** –Deyəsən, yatır.

**Q a ç a y** –Onda səs eləm , gedək, ayılanda gələrik.

**N ü s r ə t** –Xeyr a!.. Bir də o mərtəbələri qalxmağa heyim yoxdur. Gəlmişik, gözləyək. *(Əyilib Toğrula bir də baxır.)* Bərk yatıb. Deyirəm, biz bundan ümid gözləyirdik, bu da oldu bizim tayımız. O saqqallı var ey... 14-cü palatada yatan. O deyir ki, Toğrul həkim bu dərdin dərmanını tapıb.

**Q a ç a y** –Tapıbsa, bəs özünə niyə əlac eləmir?

**N ü s r ə t** –Mən də ona elə dedim. Dedim, keçəl dərman bilsə, əvvəlcə öz başına yaxar.

**Q a ç a y** –Yavaş, eşidər.

**N ü s r ə t** –Qaçay, iki gündür cib telefonumu itirmişdim. Palatanın altını üstünə çevirdim, tapmadım. Sənə də demədim ki, elə bilərsən, səndən şübhələnirəm.

**Q a ç a y** –Yəqin elə şübhələnmişdin.

**N ü s r ə t** –Dalına qulaq as. Bu gün vannadan gəlib görürəm ki, telefon çarpayımın üstündədir. Başa düşə bilmədim, bu oğrudursa, niyə qaytarıb? Oğru deyilsə, bu telefon 2 günlüyə onun nəyinə lazım olub?

**Q a ç a y** –Belə qəliz işlərdən mənim başım çıxmaz.

**N ü s r ə t** –Bu xəstəxana var ha, bu dünya ilə o dünya arasında bir

körpüdür. Biz oyanlığıq.

**Q a ç a y** –Hələ ki, o yana keçməmişik. Kül olsun o başa ki, yağış yağmamış islana. Qorxan gözə çöp düşər.

**N ü s r ə t** –Qorxmuram, amma vaxtsız ölüm...

**Q a ç a y** –Kişi, ölüm heç vaxt vaxtında gəlmir. Lap yüz yaşında da.

**N ü s r ə t** –Elədi, qardaş. *(Pauza.)* Vəsiyyətini yazmısan?

**Q a ç a y** –Nə vəsiyyət?

**N ü s r ə t** –Belə də... Bura gələn günü mənciyəz vəsiyyətimi yazıb verdim böyük oğluma. Nədən ki, biz birdən öləcəyik. Nə qədər əlin qələm tuta bilir, sən də yaz.

**Q a ç a y** –Nə yazım? Nə alacağım var, nə verəcəyim...

**N ü s r ə t** –Neçə uşağın var?

**Q a ç a y** –Altı. Hamısı da körpə...

**N ü s r ə t** –A kasıb, nəyinə gərəkdi o altı uşaq?

**Q a ç a y** –Mən yuxuya inanan deyiləm. Amma dünən gecə bir yuxu gördüm. Gördüm ki, nəfəsim qaralıb, ölürəm. Toğrul həkim də məndən 7-8 addım aralıda durub baxır mənə. Birdən cumdu üstümə. Baxıram ki, yüyürür, amma mənə çata bilmir. Yüyürdüyünü görürəm, amma yol niyə bu qədər uzanır, bilmirəm... Elə onda silkələnib ayıldım...

**N ü s r ə t** –Eşitməmisən ki, yuxunu tərsinə yozarlar?

(T o ğ r u l qalxır.)

**T o ğ r u l** –Nüsrət əmi düz deyir. Yuxunu tərsinə yozarlar.

**N ü s r ə t** –Bağışla, səni oyatdıq. Gəldik bir sənə baş çəkək... Necəsən?

**T o ğ r u l** –Sağ olun.

**N ü s r ə t** –Hə, oğul, sən doktor olsan da, bu dərdin xasiyyətini, ağrı-acısını biz səndən yaxşı bilirik. Nə qədər ağır dərdin, fikrin olsa, gərək atasan bir tərəfə. Nədən ki...

**T o ğ r u l** –İndi mən də bilirəm, Nüsrət əmi...

**N ü s r ə t** –İkincisi, o dərmanlar var ha, bizə yazmısınız, biz də alıb içirik, boş şeydir, içmə, zərər eliyər. Bax, bunu görürsən? *(Cürbəcür ot, ələf göstərir.)* Bunlar əla dərmanlardır. Bizim dağlardan gətirtmişəm.

Qoy babalı mənim boynuma, bunların suyunu dəmlə, iç. Səninki hələ yüngülündəndi, bunlar kömək eyləyər, mən on il özümü bu ot-ələflə saxlamışam. İndi vurub kəlləçarxa, daha bir elə kömək eləmir.

**T o ğ r u l** –Sağ ol, Nüsrət əmi.

**Q a ç a y** –Doktor, deyirəm...

**T o ğ r u l** –Ay Qaçay, axı, mən indi burda doktor deyiləm, sizin kimi xəstəyəm...

**N ü s r ə t** –Bunun adətidir, adamı köhnə vəzifəsi ilə çağırır.

**Q a ç a y** –Nüsrət kişi, sən direktorluqdan çıxarılan kimi o ad üstündən götürüldü, amma bu kişi, Allah eləməmiş, yüz il də xəstə olsa, həkimliyi üstündən götürülməz.

**N ü s r ə t** –Doktor, neçə vaxtdır Qaçayla sənə göz qoyuruq, çox fikirlisən. Eləmə, ona görə ki, yüz fikir bir borcu ödəmir. Bir də bizim bu naxoşluq fikir götürmür. Bax, elə fikir eləyirəm, görürəm gicgahlarım atır.

**T o ğ r u l** –Yaxşı, gicgahlar atanda zəli kömək eləmir?

**Q a ç a y** –Zəli olmasa, mən ölərəm.

**T o ğ r u l** –Amma mənə o da kömək eləmir. Bəs sənə necə, Nüsrət əmi?

**N ü s r ə t** –Bir elə yox!

**T o ğ r u l** –O həb necə? Kaptopril?

**N ü s r ə t** –Yox, daha da pis oluram...

**T o ğ r u l** –Qəribədir, eynən mənim kimi. *(Fikrə gedir. Öz-özünə.)* Amma mən elə bilirdim ki, kaptoprilin, rezerpinin köməyi çox olur. Sizin nələr çəkdiyinizi həkim kimi bilirdim, indi xəstə kimi başa düşürəm.

**N ü s r ə t** –Elədir... Mən elə qanıram ki, xəstəni yaxşı müalicə eləmək üçün gərək əvvəlcə həkimlər özləri xəstə ola.

**Q a ç a y** –Kəlamına qurban kəsim, ay Nüsrət kişi. Sözündən belə çıxır ki, həkimlik dərsini qurtaranları əvvəlcə xəstələndirib, sonra həkimxanaya göndərməlidirlər?

**T o ğ r u l** –Nüsrət əminin sözündə həqiqət var. Başqasının dərdini öz dərdin kimi yaşamadan, o dərdin ağrı-acısını anlaya bilməzsən.

**N ü s r ə t** –Yaxşı, başınızı ağrıtdıq. Biz gedək.

(Qaçayla Nüsrət gedirlər.)

**Radiodan**
*(nəğmə):–* Axtarırıq günəşi dumanda biz, çəndə biz,
Anlayırıq həyatı, ölümü görəndə biz.
Göz bərəldir ilanlar, önümdə dar dalanlar,
Ayılırıq, yalanlar haqqı devirəndə biz.
Bir bütövdür bu Vətən, bunu bilməz hər yetən.
Yaşanmazsa bizdə mən, yaşayammaz məndə biz.

**Toğrul**–Yaşanmazsa bizdə mən, yaşayammaz məndə biz. *(Gözlərində xəstə rəssamın Nüsrətə bağışladığı tablo canlanır.)* Aysel, Aysel! Hardasan? Aysel, professoru tap. *(Salmanla Qoşqar gəlir).* Professor, mən elə sizi axtarırdım.

**Salman**–Məndə elə səni axtarıram.

**Toğrul**–Siz necə istəsəniz, elə də eləyək. Şərtlərinizə razıyam. Hər şeyə. Deyirəm, yubatmayaq, preparatı göndərək təsdiqə...

**Salman** *(qəhqəhə çəkib gülür)*–Əlbəttə, indi razı olarsan.

**Toğrul**–Necə məgər?

**Salman**–Qoşqar, bu bizi nə yerinə qoyub?.. Yoxsa, bizi cinayətinə şərik eləmək istəyirsən?

**Toğrul**–Anlamıram, nə cinayət?

**Salman**–Bilmirsən ki, Behcətin halı dəyişib?

**Toğrul**–Nə danışırsınız?!

**Salman**–Dili tutulub. Huşunu itirib. Bu da sənin möcüzəkar dərmanının kəraməti!

**Toğrul**–Ola bilməz! Ola bilməz! Mən bu saat!

(Qaçmaq istərkən...)

**Salman**–Dayan! Tapşırdım bura gətirsinlər!.. İndi sən...

(Telefon zəngi.)

**Qoşqar** (dəstəyi götürür)–Bəli, Aysel? Necə? *(Dəstək əlində, quruyur, bir müddət susur).* Behcət keçindi.

## YEDDİNCİ ŞƏKİL

**H ü q u q ç u** –Behcətin qəfləti ölümü professor Salman Tahirovun əlində Toğrulu yıxmaq üçün dəstəvuza çevrildi. İstintaq orqanları bu işi mənə tapşırdı. Mən dərhal preparatı farmakologiya komitəsinə, Behcətin meyitini isə təşrih üçün patoloq-anatoma göndərdim. İndi farmakoloqlar preparatın tədqiqi ilə məşğuldurlar.

(Q o ş q a r gəlir.)

**Q o ş q a r** –Patoloq-anatomun cavabı gəldi. *(Ona kağız verir.)*

**H ü q u q ç u** *(oxuyur)*–"Daxili orqanların təşrihi zamanı bədxassəli hipertoniyaya məxsus dərin dəyişikliklər bütün toxuma və orqanlara işlədiyindən, bu fonda anatomların bilmədiyi və tanımadığı yeni preparatın hansı dəyişikliklər törətdiyini təyin etmək mümkün deyil".

**Q o ş q a r** –Mən cavabın elə belə olacağını bilirdim.

**H ü q u q ç u** –Nədən bilirdiniz?

**Q o ş q a r** –Behcət uzun illərdir bu xəstəlikdən əzab çəkirdi. Uzun müddətli xəstəlik və qəbul etdiyi müxtəlif dərmanlar o arayışda yazıldığı kimi, onun bütün toxuma və orqanlarına işləmişdi. Belə hallarda yeni preparatın mənfi, ya müsəbt təsirini təyin etmək çətinləşir.

**H ü q u q ç u** –Toğrulun kəşf etdiyi dərmandan sizin xəbəriniz vardımı?

**Q o ş q a r** –Bəli.

**H ü q u q ç u** –Behcətin üzərində sınaq aparmamışdan əvvəl Toğrul bu barədə sizinlə məsləhətləşib, yoxsa?..

**Q o ş q a r** –Preparatdan xəbərim vardı, amma sınaqdan yox.

**H ü q u q ç u** –Əgər sizinlə məsləhətləşsəydi, siz sınaq aparmağı məslhət bilərdinizmi?

**Q o ş q a r** –Xeyr.

**H ü q u q ç u** –Kəşf olunan preparatın müəllifi yalnız Toğruldur, yoxsa şəriki də var?

**Q o ş q a r** –Məndən niyə soruşursunuz?

**H ü q u q ç u** –Siz buranın işçisi deyilsiniz?

**Q o ş q a r** –Kəşflər hər yerdə gizli aparılır. Siz bunu onlardan soruşun.

**H ü q u q ç u** –Siz "onlar" dediniz. Deməli, müəllif bir nəfər deyil.

*(Sükut.)* Eləmi?

**Q o ş q a r** –Bura baxın, cənab müstəntiq, siz, gəlin, ilanı Seyidəhməd əli ilə tutmağa çalışmayın. Mən, mənə aid olmayan suallara cavab verməyə borclu deyiləm.

**H ü q u q ç u** –Yaxşı, onda sizə aid olan bir sualıma cavab verin. Sizin Ayselə olan münasibətinizi açıqlaya bilərsinizmi?

**Q o ş q a r** –Həmkarlıq münasibətindən başqa, ayrı münasibətimiz olmayıb.

**H ü q u q ç u** –Bəs Salman Tahirovla münasibətiniz?

**Q o ş q a r** –Siz bu yersiz suallarınızla məni hövsələdən çıxarmayın. Sizin bir müstəntiq kimi öz idarə rəisinizə münasibətiniz necədirsə, mənim də öz direktoruma münasibətim elə onun eynidir.

**H ü q u q ç u** –Axı, bir zaman sizin direktorunuza münasibətiniz bir cür idi, indi isə başqa cürdür. Bunu necə başa düşək?

**Q o ş q a r** –Siz bunu nəyə əsasən deyirsiniz? Əlbəttə, cəhənnəmə gedən özü ilə yoldaş aparmağa çalışar. Siz Toğrulu düşdüyü zibildən çıxarmaq üçün, onun dediklərini əsas götürüb bizi də cəhənnəmə vasil eləmək istəyirsiniz. Baş tutmaz.

**H ü q u q ç u** –Əvvəla, mən hələ Toğrul həkimi dindirməmişəm. İkincisi də, mən həqiqəti üzə çıxarmağa çalışıram.

**Q o ş q a r** –Görünür.

**H ü q u q ç u** –Yaxşı, Aysel niyə Toğrul həkimdən şikayətçi deyil?

**Q o ş q a r** –Bu ki, hamıya məlumdur. Klinikada hamı bilir ki, Aysel Toğrul həkimə vurulub.

**H ü q u q ç u** –Demək atasını... sevgisinə qurban verir, eləmi?

**Q o ş q a r** –Bunu daha başqa cür necə yozmaq olar?

**H ü q u q ç u** –Aydındır, gedə bilərsiniz.

(Q o ş q a r gedir, hüquqçu səhnənin önünə gəlir.)

Allah yaradıb hamını bir yöndə, biçimdə,
Batindəki çirkab niyə üzlərdə görünməz?
Dillərdən asılmış o qıfıllar da pas atmış,
Beynin səsi, qəlbin odu sözlərdə görünməz.
Haqq oğrusunun keçdiyi yollar da hamardır,
Məqsəd və məram, qoyduğu izlərdə görünməz.
Qəlbin, dedilər, aynasıdır gözlər, inandım,

Bədniyyətin iç niyyəti gözlərdə görünməz.
Sən məqsədə bax, ənliyə, kirşana bürünmüş,
İnsanın əsl fikri qərəzlərdə görünməz.

## SƏKKİZİNCİ ŞƏKİL

(T o ğ r u l u n yatdığı palata)

**H ü q u q ç u** –Gün aydın, doktor, necəsiniz?

**T o ğ r u l** –Sağ olun.

**H ü q u q ç u** –Doktor, onu bilin ki, ekspertdən gələn cavabdakı qeyri-müəyyənlik məni bir o qədər də narahat eləmir. İndi mən farmakopiya komitəsinin fikrini gözləyirəm. Əgər preparatınız faydalı bir dərman kimi qəbul olunarsa...

**T o ğ r u l** –Qəbul olunmayacaq.

**H ü q u q ç u** –Nədən bilirsiniz?

**T o ğ r u l** –Patoloq-anatomların yazdığı cavabdan.

**H ü q u q ç u** –Behcətin üstündə sınaq keçirməyinizi o özü təklif etmişdi, yoxsa siz?

**T o ğ r u l** –Mən razı deyildim. O, məni məcbur elədi.

**H ü q u q ç u** –Buna şahid varmı? (Sükut.) Aysel təsdiq edə bilərmi?

**T o ğ r u l** –Əlbəttə.

**H ü q u q ç u** –Behcətin öz dilindən kağız almaq sizin ağlınıza gəlmədimi?

**T o ğ r u l** –Xeyr.

**H ü q u q ç u** –Deməк, siz özünüzü günahkar sayırsınız?

**T o ğ r u l** –Hələlik günahkar hesab olunuram.

**H ü q u q ç u** –Behcətin kəşfə ikinci müəllif olmasına Salman Tahirovun etirazının səbəbini deyə bilərsinizmi?

**T o ğ r u l** –Professorun Behcəti sevmədiyini bilirəm. Ancaq səbəbini hərə bir yerə yozur.

**H ü q u q ç u** –O yozumlardan xəbərim var.

**T o ğ r u l** – Mən bütün bunları əvvəlcədən bildiyim üçün preparatı kapsulun içində Londondakı həmkarıma göndərdim. Bir həftə əvvəl o,

mənə faksla preparatı analizə verdiyini bildirdi.

**H ü q u q ç u** –Bunu yaxşı eləmisiniz. Ancaq cavab mənfi gəlsə, sizi cəza gözlədiyini bilirsinizmi?

**T o ğ r u l** –Əvvəla, cavabın mənfi olacağına inanmıram. İkincisi, siz narahat olmayın. Mən cəzadan qorxmuram.

**H ü q u q ç u** –Cəzadan qorxmamağı başa düşmədim.

**T o ğ r u l** –Qorxmuram, ona görə ki, mən özüm öz cəzamı vermişəm.

**H ü q u q ç u** –Başa düşmədim, necə yəni?

**T o ğ r u l** –Behcətin üzərində sınaq aparmamışdan əvvəl deyirdim ki, kaş mən özüm xəstə olaydım, onda heç kəsə minnətim olmazdı.

**H ü q u q ç u** –Öz üzərində sınaq aparan həkimlər olub?

**T o ğ r u l** –Olub. Biri də mən! Nəhayət, özüm də eyni xəstəliklə xəstələndim.

**H ü q u q ç u** –Sonra?

**T o ğ r u l** –İkinci sınağı öz üzərimdə apardım.

**H ü q u q ç u** –Siz nə danışırsınız?

**T o ğ r u l** –Ən doğru yol budur. Əgər öz üzərimdə apardığım sınaqdan mən ölməyəcəyəmsə, Behcətin ölüm səbəbini ayrı yerdə axtarmaq lazımdır. Əgər Behcət preparatdan ölübsə, demək, mən də öləcəyəm. Onda inzibati orqanların bu məsələyə qarışmasına ehtiyac qalmayacaq. Mən öz cəzamı özüm vermiş oluram. Elə güman edirəm, vicdanı olan hər bir kəs öz günahını dərk edirsə... Öz cəzasını da özü verməlidir. Axı, vicdanın mühakiməsi hər hansı rəsmi orqanın mühakiməsindən daha betərdir. Mən öz vicdanımın mühakiməsindən xilas olmağı daha vacib bildim.

**H ü q u q ç u** –Bu düşüncənin qarşısında mənim sizə verəcək başqa sualım yoxdur. *(Hüquqçu səhnənin önünə gəlir.)* - Eşitdinizmi onun dediklərini? Siz onun haqq naminə ölümdən belə çəkinmədən öz üzərində sınaq aparmasına necə baxırsınız? Gördünüzmü, mən onun bu fədakarlığı və böyüklüyü qarşısında susdum. Bəli, dünya belə şəxsiyyətlərin çiyni üstündə durur.

(H ü q u q ç u çəkilir. N ü s r ə t l ə Q a ç a y gəlir.)

**N ü s r ə t** –Salam, doktor.

**Q a ç a y** –Maşallah, daha yaxşısan.

**T o ğ r u l** –Nədən bildin?

**N ü s r ə t** –Burda yatan cəmi xəstələrin ki, xeyir-duası sənin üstündədir, sən sağalmalısan.

**Q a ç a y** –Axı, sənin sağalmağın, elə bizim sağalmağımızdır.

**T o ğ r u l** –Mən də sizin kimi xəstəyəm. Mənim sağalmağımın sizə nə dəxli?

**N ü s r ə t** –Elə demə. Həkim sağlam olanda, xəstəsi də sağlam olar. Məsələ belədir ki, 21-ci palatada yatan o rəssam...

**T o ğ r u l** –Hə... Tanıyıram. Sizdə onun əsərini görəndən sonra tanış oldum. Sonra əsərlərinin kataloquna baxdım. Həqiqətən gözəl rəssammış... Nə olub ki?

**Q a ç a y** –Bu gün onu iflic vurdu.

**N ü s r ə t** –Sağ qolunu qaldıra bilmir.

**Q a ç a y** –Vallah, onun rəssamlığı bir yana, çox gözəl insandır.

**N ü s r ə t** –Bilirsiniz, burda söhbət gəzir ki, onu siz xilas edə bilərsiniz. Nə bilim Vallah, deyirlər ki, siz bir təzə dərman tapmısınız.

**T o ğ r u l** *(əsəbi)*–Nə dərman? Kim deyir? Mən heç bir dərmanzad tapmamışam. Yalandır. Eşidirsinizmi, yalandır!

**Q a ç a y** –Ay doktor, başına dönüm, hirslənmə, biz də qulaq günahkarıyıq.

**T o ğ r u l** –Dərman! Keçəl dərman bilsə, öz başına yaxar. Nə boş-boş danışırsınız? Nə istəyirsiniz oturub ölümünü gözləyən bir bədbəxtdən? Mən başımı götürüb hara qaçım?

(N ü s r ə t l ə  Q a ç a y  qorxub çəkilirlər. T o ğ r u l  əsəbi vəziyyətdə gəzinir.)

**T o ğ r u l** –İlahi, mənim əzablarıma son ver. Ya o yanlıq olsun, ya bu yanlıq...

(Həzin musiqi... A y s e l  gəlir.)

**A y s e l** –Doktor, deyilənlər doğrudurmu? *(Sükut.)* Sən... Niyə bu addımı atdın? Niyə özünə yazığın gəlmədi?

**T o ğ r u l** –Deməк, sən də başqaları kimi preparata inanmırsan?

**A y s e l** –İnandım, ya inanmadım, axı, bu riskdir!

**T o ğ r u l** –Bu əzablara son qoymaq üçün mən də riskə getdim.

**A y s e l** –Axı, sən atam üçün bu riskə getmədin, mən getdim. Gü-

nahkar da mənəm. Sən mənim də günahımı öz boynuna götürdün. Doktor, mən bunu qəbul edə bilmərəm. Mən həqiqəti deyəcəyəm.

**T o ğ r u l** –Hansı həqiqəti? Həqiqət hardadır, mənə göstər onu.

**A y s e l** –Sən qanunun aliliyini üstün tutub atamın üstündə sınaq aparmaqdan çəkindin. Mən isə qanunu pozub bunu elədim. Qanunu hər şeydən üstün tutan sən, bəs burda niyə qanun qarşısında yalan danışır, mənim günahımı öz boynuna götürürsən?

**T o ğ r u l** –Mənim dediyim yalan öz xeyrimə olsaydı, bunu özümə bağışlamazdım, başqasının xeyrinə deyilən yalanı Allah bağışlayar.

**A y s e l** –Başqası dediyiniz adam əgər bu xeyirxahlığı qəbul etmirsə, necə?

**T o ğ r u l** –Başqası deyilən o adam əgər mənim üçün özümdən də əzizdirsə, onda necə?

**A y s e l** –Doktor, sən... sən yəni... *(qəhərlənir.)*

**T o ğ r u l** –Bəli... Amma doktor yox, Toğrul. Mənim adım Toğruldur.

**A y s e l** –Toğrul!.. Toğrul!..

## DOQQUZUNCU ŞƏKİL

(L o ğ m a n gəlir.)

**H ü q u q ç u** –Buyurun.

**L o ğ m a n** –Mən buranın ocaqçısıyam, adım da Loğmandı.

**H ü q u q ç u** –Çox gözəl. Mənə nə qulluğun, Loğman əmi?

**L o ğ m a n** –Rəhmətlik çox yaxşı adam idi. Behcəti deyirəm ey... Aysel həkim gəldi mənim yanıma ki, atam səni görmək istəyir. Getdim. Ondan iki gün əvvəl də yanında olmuşdum. Onda keyfi çağ idi. Deyib gülürdü. Amma bu dəfə gördüm kişi ələkdən saca gedir. Çırtma vursan qanı damar. O gün ona nəsə olmuşdu. Dedim, sənə nə olub? Dedi, Loğman kişi, ölüm ki, var, qaşla-göz arasındadır. Sonra mənə bu kağızı verdi.

(H ü q u q ç u kağızı alıb oxuyur.)

**H ü q u q ç u** –Bəs bu kağızı verəndə sizə bir söz demədi?

**L o ğ m a n** –Dedi ki, bu kağız səndə qalsın, lazım olar. Dönə-dönə

tapşırdı ki, heç kəs bilməsin.

**H ü q u q ç u** –Elə mən də sizdən xahiş edirəm, bu kağız barədə heç kəsə bir söz deməyəsiniz.

**L o ğ m a n** –Arxayın ol, oğul, yük əyiləndə daş qəribliyə düşər. İndi yük əyilib. Səndən bir təvəqqəm var: istəyirəm sən bu işin lap kökünə gedəsən. Nədən ki, balıq başdan iylənər.

**H ü q u q ç u** –Mən də elə o iylənən başı axtarıram.

**L o ğ m a n** –Axtaran tapar.

(L o ğ m a n gedir, A y s e l gəlir.)

**H ü q u q ç u** –Buyurun, Aysel xanım. Yaslı olduğunuza görə mən sizi narahat eləmək istəmirdim. Yaxşı oldu ki, özünüz gəldiniz.

**A y s e l** –Ekspertdən gələn cavab məni sarsıtdı. Ona görə də yanınıza gəldim ki, sizi bir məsələdən agah edim.

**H ü q u q ç u** - Buyurun.

**A y s e l** –Atamın üzərində sınağı Toğrul aparmayıb, mən aparmışam. Atam və mən dəfələrlə xahiş etsək də, Toğrul həkim buna qanunun yol vermədiyini deyib, sınaqdan boyun qaçırtdı.

**H ü q u q ç u** –Bəs siz niyə bu addımı atdınız?

**A y s e l** - Çünki bu, son ümid idi... Mən bu işdə doktora assistentlik etdiyimdən preparatın tərkibindən xəbərim vardı... Heyvanlar üzərində aparılan sınaqlardan müalicə üsulunu da bilirdim.

**H ü q u q ç u** –Aysel xanım, öz üzərində sınaq apardığına görə Toğrulun heç bir müdafiəyə ehtiyacı yoxdur.

**A y s e l** –Demək, siz mənim etirafıma inanmırsınız?

**H ü q u q ç u** –Məsələ ondadır ki, mən bildiyimi də siz bilmirsiniz.

**A y s e l** –Ola bilər.

**H ü q u q ç u** – Gəlin siz mənim bu sualıma cavab verin: Bir günün içində birdən-birə mərhumun halı nədən dəyişə bilər?

**A y s e l** –Qəfil verilən bəd xəbərlərdən, təhqirlərdən! Əmimi işdən çıxarıb, ona cinayət işi qaldırıblarmış. Əmim bunu bizdən gizlədib. Mən işdə olanda kimsə atamın cib telefonuna zəng edib bu xəbəri ona çatdırmış və ona artıq-əskik sözlər demişdir. Mən işdən gəlib atamı elə vəziyyətdə gördüm ki... *(qəhərlənir.)*

**H ü q u q ç u** –Sizcə, bu bəd xəbəri kim verə bilər?

**A y s e l** –Əmimdən və atamdan qisas almaq üçün onu işdən qovdurub, ona cinayət işi qaldırtdıran...

**Hüquqçu** –Atanızın cib telefonunun nömrəsini bilirsinizmi?
**Aysel** –Bəli.
**Hüquqçu** –Onu yazın verin mənə.

(Aysel nömrəni verir.)

**Aysel** –Amma mən əminəm ki, istintaqın gedişində siz də o adamı tanıyacaqsınız. Əlbəttə, heç kəs öz ayranına turş deməz. O cümlədən də mən. Lakin əmim həqiqətən büllur kimi təmiz, qərəzsiz adamdır. Amma çox qüvvətli bir əl bülluru da ləkələməyi bacardı.

**Hüquqçu** –Bu barədə eşitmişəm. Salman Tahirovun oğluna cinayət işinin qaldırılmasından, əminizə xahişdən, xahişin qəbul olunmamasından və bunlardan törəyən ədavətdən xəbərim var.

**Aysel** –Onda mənim əlavə heç bir sözüm yoxdur. Amma sizin mənə inanmamağınıza çox təəssüflənirəm. Bununla belə, əminəm ki, istintaq mənim yalan danışmadığımı sübuta yetirəcək.

## ONUNCU ŞƏKİL

(Loğman səhnənin sol küncündə oturub qazanxana motorunun hissələrini yığır. Qoşqarla Salman gəlir.)

**Salman** –Bəs sən nə dedin o ağzından süd iyi gələn müstəntiqə?
**Qoşqar** –Dedim, sınaqdan klinikanın xəbəri olmayıb.
**Salman** –Yaxşı demisən. Balam, elə əslində də belədir də.
**Qoşqar** –Sonra məndən soruşdu ki, bəs şefiniz də bilmirdi?
**Salman** –Sən nə dedin?
**Qoşqar** –Dedim ki, o, sınaq aparanda şef xaricdə olub.
**Salman** –Afərin! Balam, elə əslində də belə olub da...
**Qoşqar** –Sonra mən sizi təriflədim. Dedim, şefimiz bizə həmişə atalıq qayğısı göstərib. Bizim qolumuzdan tutub, yolumuz üstündə həmişə qırmızı... yox ey, yaşıl işıq yandırıb.
**Salman** –Ə... birdən çaşıb orda da qırmızı işıq demiş olarsan...
**Qoşqar** –Yox, vallah, yaşıl demişəm...
**Salman** –Balam, əslində də belədir də... Bilirsən, Qoşqar bala, məndən sənə əmanət, işin ki, düşdü çək-çevirə, "bilmirəm"dən yaxşısı yoxdur. Bu bir, ikincisi, balam, bunun sənə, mənə nə dəxli? Bəyəm biz

ona dedik yazıq Behcətin üstündə sınaq aparsın? Biri sənin yanında vurub o birisini öldürəcək, buna sən neyləyəsən? *(Birdən Loğmanı görür.)* Sən burda neyləyirsən?

**L o ğ m a n** –Qazanxananı düzəldirik. Sənə dedim ki, taxsır sobalarda deyil, burdadır, özüldə.

**S a l m a n** –Nə olub ki, qazanxanaya?

**L o ğ m a n** –Motor əldən düşüb, borular kirəc tutub, nədən ki, qocalıb.

**S a l m a n** –Qocalıb?..

**L o ğ m a n** –Hə... bizim kimi *(özü ilə Salmanı göstərir.)* Mən əvvəl elə bilirdim, günah borulardadır. Sən demə, motorda imiş, şəyirdim, sütülcə oğlan məni başa saldı, dərsimi aldım.

**S a l m a** n–Nə dərsi?

**L o ğ m a n** –O dərsi ki, öyrətdiklərimiz indi bizi öyrədir.

**S a l m a n** –Bərəkallah!

**L o ğ m a n** –Hə... Taqsır burda, özüldədir.

**S a l m a n** –İndi təmir eləyirsən?

**L o ğ m a n** –Çalışdım, amma olmadı. Usta lazımdır.

**S a l m a n** –Onda yaxşı bir usta tap.

**L o ğ m a n** –Baş üstə. Motor ki, mamır tutdu, kirəcləşdi, əlacı yoxdur, yaxşı olar ki, dəyişəsən.

**S a l m a n** –Rəhmətliyin oğlu, dəyişmək üçün bir ətək pul lazımdır. Görmürsən xəstəxana nə gündədir? Təmir elətdirə bilmirik.

**L o ğ m a n** –Maşın da adam kimidir, onun da beyni-başı kirəclşdi, qurtardı.

**S a l m a n** –Gərək atasan çölə?

**L o ğ m a n** –Üzü sulu çəkiləsən meydandan. Gərək, kötük olmayasan qabaqda...

(L o ğ m a n qazanxanaya keçir.)

**S a l m a n** –A, bərəkallah!

(S a l m a n l a Q o ş q a r baş-başa verib söhbət edir. N ü s r ə t l ə Q a ç a y əllərində çamadan və rəssamın N ü s r ə t ə bağışladığı portret, öz kostyumlarında gəlirlər.)

**N ü s r ə t** –Bura bax, Qaçay, deyirəm əslinə baxsan xəstə biz deyi-

lik. Əsl xəstə bu həkimcıyəzlərdir.

**Q a ç a y** –Bəri dur, yaxına getmə, yoluxarsan.

(S a l m a n onları görür.)

**S a l m a n** –Nüsrət kişi, gedirsiniz? Sizi kim buraxdı xəstəxanadan?

**N ü s r ə t** –Özümüz. Daha nə qədər yataq? Necə gəlmişdik, elə də gedirik.

**Sa l m a n** –Əşi, hələ müalicənin ikinci etapına başlamamışıq.

**N ü s r ə t** –Belə ki, görürəm, ikinci etap bizi o dünyaya yola salmaqdır. Yox, professor, mənim hələ bu dünyada işim çoxdu. Rəhmətliyin oğlu, burda gündə biri gözünüz baxa-baxa ölür, əlinizdən bir şey gəlmir. Bu gün də o yazıq rəssam oldu o dünyalıq. Bəyəm camaat bura ölmək üçün gəlir?

**S a l m a n** –Gedirsən, sözüm yox, amma gərək buranın yiyəsi də bilə, xəstəlik tarixinə nöqtə qoya. Axı, xəstəxananın da öz qanunları var.

**N ü s r ə t** –Bura xəstəxana döyül, meyitxanadır. Xudahafiz.

(Gedirlər.)

## ON BİRİNCİ ŞƏKİL

(Xəstəxanada hüquqçunun otağı. S a l m a n T a h i r o v gəlir.)

**H ü q u q ç u** –Buyurun, professor, sizi narahat etdiyimə görə məni bağışlayın.

**S a l m a n** –İstintaqa kömək etmək hamımızın borcudur. Sizin göndərdiyiniz məktuba bu gün farmakopiya komissiyasından cavab gəldi. Buyurun.

(H ü q u q ç u kağızı alıb oxuyur.)

**H ü q u q ç u** –"Təqdim etdiyiniz dərman preparatı mütəxəssislərin nəzarəti altında kifayət qədər kliniki sınaqdan keçmədiyi üçün üzvlər arasında müxtəlif rəylər yaranmışdır. Komitə üzvlərinin bir qismi

dərmanın müsbət nəticə verəcəyinə nəzəri cəhətdən inanır, bir qismi isə əks fikirdədir. Buna görə də bu preparatın kütləvi şəkildə tətbiqinə izn vermək hələlik mümkün deyil". Siz nə fikirdəsiniz?

**S a l m a n** –Toğrul mənim sevimli tələbələrimdəndir. Savadlıdır, istedadlıdır. Amma o, məndən və nazirlikdən iznsiz bu sınağı aparmaqda xəta eləyib, yəqin ki, bilirsiniz, o, sınağı aparanda mən Bakıda olmamışam. Mən burda olsaydım, qoymazdım.

**H ü q u q ç u** –Lakin sınağı Toğrul aparmayıb.

**S a l m a n** –Bəs kim aparıb?

**H ü q u q ç u** –Behcətin özü.

**S a l m a n** - Bunu kim deyir?

**H ü q u q ç u** –Buyurun, oxu¬yun, Behcətin öz əli ilə yazdığı məktubdur.

(S a l m a n məktuba baxıb gülür.)

**H ü q u q ç u** –Nəyə gülürsünüz?

**S a l m a n** –Gülməyim, neyləyim? Əvvəla, sınaq aparılanda Behcət huşsuz olub. O, öz üzərində necə sınaq apara bilərdi? İkincisi, məgər o, preparatın müəllifi idi ki, onun sirrini və müalicə üsulunu da biləydi?

**H ü q u q ç u** –Behcət bu məktubu sınaqdan əvvəl yazıb, həmən günün təqvim vərəqini məktuba əlavə edib və həmən vərəqin üstündə imza atıb. Buyurun, baxın. İmzanın ona məxsus olduğunu ekspert də təsdiq edir.

**S a l m a n** –O, öləcəyini bildiyinə görə gələcək kürəkənini və qızını məsuliyyətdən xilas etmək üçün bu hiyləyə əl atıb.

**H ü q u q ç u** –Mən də elə sizdən bunu soruşmaq istəyirəm: o, öləcəyini hardan bilibmiş?

**S a l m a n** –Hər halda həkimdir, hiss edə bilər.

**H ü q u q ç u** –Professor, burda çox qəribə bir paradoks var: Biz hüquq işçiləri cani olduğuna tam inandığımız cinayətkarın boynuna onun cinayətini qoya bilmirik. Amma bu gün baş vermiş "cinayəti" araşdırarkən fitrətən təmiz olan 3 nəfərin hər biri bunu öz boynuna götürür: Toğrul deyir - sınağı mən aparmışam, Aysel deyir - yox, mən aparmışam, axırda məlum olur ki, xəstənin özü aparıb.

**S a l m a n** –Mən bu işin professoru kimi sizi əmin edirəm ki, Behcət o halda sınaq apara bilməzdi.

**H ü q u q ç u** –Hər halda mərhumun etirafı əsasdır.

Salman – Əlbəttə, siz hüquq işçiləri məsələyə istədiyiniz donu geydirə bilərsiniz.

**H ü q u q ç u** –Bizim vəzifəmiz geyindirmək yox, əksinə, hər cür yalanı soyundurmaqdır.

**S a l m a n** –Mən yalanı soyundurub sizə göstərdim. Siz onu geyindirməyə çalışmayın.

**H ü q u q ç u** –Çox gözəl. Onda deyin görək, siz kəşfə Behcətin ortaq müəllif olmasına nəyə görə etiraz edirsiniz?

**S a l m a n** –Çünki o, müəllif deyil. Toğrul gələcək qaynatasını öz zəhmətinə ortaq etməklə, cızmaqaraları bir quruşa dəyməyən istedadsız bir adamı üzə çıxarmaq istəyirdi.

**H ü q u q ç u** –Tutaq ki, siz deyəndir, burda nə pis şey var? Toğrul başqasının zəhmətinə ortaq olmur, əksinə, başqasını öz zəhmətinə ortaq edirsə, bu onun naqisliyi deyil, üstünlüyüdür.

(A y s e l gəlir).

**S a l m a n** –Söhbət naqislikdən, üstünlükdən getmir, həqiqətdən gedir.

**H ü q u q ç u** –Həqiqət budur ki, Behcət ölümündən bir gün əvvəl dəhşətli stress keçirib. Kimsə ona zəng edib qardaşının işdən qovulduğunu və cinayətə cəlb olunduğunu xəbər verib.

**S a l m a n** –Yəni siz bununla Behcətin ölüm səbəbini keçirdiyi stressə bağlamaq istəyirsiniz, eləmi?

**A y s e l** –Bəli! Bu kağızı bu gün atamın ev xalatının cibindən tapmışam. Atamın dissertasiyasına yazdığınız mənfi rəyə görə Ali Attestasiya Komissiyası işi ləğv edib. Zavallı kişi bir gündə iki mənəvi zərbə alıb.

**S a l m a n** –Ali Attestasiya Komissiyası mənə inanıb, məni üzv seçib. Mən zəif əsərə müsbət rəy verib, ali orqanları aldada bilməzdim.

**H ü q u q ç u** –Yaxşı, tutaq ki, burda siz haqlısınız. Bəs həyatı bir tükdən asılı olan, həyatla ölüm arasında çırpınan, üstündə sınaq aparılan, 30 il bir yerdə işlədiyiniz həmkarınıza bu ölümcül zərbəni endirəndə vicdanınız sizi ağrıtmadı?

**S a l m a n** –Mənim vicdanım təmizdir.

**H ü q u q ç u** –Siz alim yaraşmayan işlərlə məşğulsunuz. Əlimizdə olan məlumata görə Behcətə verilən bəd xəbərləri Siz təşkil etmisiniz.

**S a l m a n** –Necə? Siz məni nə hesab edirsiniz? Yəni mən bu qədər alçalmışam?

**H ü q u q ç u** –Mənim əlimdə sübutum var. Siz bəd xəbərləri Behcətə xəstə Nüsrətin cib telefonu ilə çatdırmısınız. Həmən gün də Nüsrətin cib telefonu itibmiş. Buyur, bu da onun cib telefonunun nömrəsi.

**S a l m a n** –Biri-birinə telefonla nə deyibsə, bunun mənə nə dəxli var?

**H ü q u q ç u** –Əvvəla, Nüsrətin Qaraqaşlı qardaşları ilə nə əlaqəsi? İkincisi, verilən bəd xəbərləri xəstəxanada yatan Nüsrət hardan bilə bilərdi? Amma sizinsə Qaraqaşlı qardaşları ilə ədavətdə olduğunuzu hamı bilir.

**S a l m a n** –Amma siz təftiş komissiyasının köhnə sədri Qaraqaşlı ilə Nüsrət arasında olan köhnə ədavətdən xəbərsizsiniz... Qaraqaşlı vaxtilə onu yoxlatmışdı. Bunu öyrənə də bilərsiniz, cənab müstəntiq. Bilmədiyin şeyi danışdığına görə dilini ənsəndən çıxararlar.

**H ü q u q ç u** –Bu, əlinizdən gələr.

**S a l m a n** –Mən sizə həqiqəti dedim.

**H ü q u q ç u** –Siz hansı həqiqətdən danışırsınız? Axı, Behcətin əsərinə sizin rəyinizdən başqa, verilən bütün rəylər müsbətdir. Siz öz şöhrətinizin kölgəsində həqiqəti boğdurmusunuz. İkincisi, ən böyük elm də, ən böyük həqiqət də insafdır, insanlıqdır, vicdandır.

**S a l m a n** –Dünyanın hansı qanun kitabında insafın ən böyük həqiqət olduğu yazılıb?

**H ü q u q ç u** –İnsanın öz vicdanının kitabında və Allahın göndərdiyi bütün müqəddəs kitablarda.

**S a l m a n** –Mən mollayam, yoxsa, alim? Bəlkə, burda mənim üçün bir şəriət məhkəməsi qurasınız?

**H ü q u q ç u** –Şəriət məhəkəməsi yox, vicdan məhkəməsi!

**A y s e l** –Verdiyiniz zəhər öz işini gördü.

(Q o ş q a r gəlir, əlindəki kağızı S a l m a n a göstərir.)

**Q o ş q a r** –Faksdır, Londondan elə indi gəldi. İngiliscədir, mən başa düşmədim.

(S a l m a n faksı oxuyur, rəngi ağarır, kağızı cibinə qoymaq istərkən).

**H ü q u q ç u** –Zəhmət olmasa o kağızı mənə verin.

**S a l m a n** –Bunun sizə aidiyyəti yoxdur. Elmi məktubdur.

**H ü q u q ç u** –Elə mənə də o lazımdır. *(Kağızı onun əlindən alır, Aysələ)* İngiliscə bilirsiniz?

**A y s e l** –Yox.

**H ü q u q ç u** *( stellerə)*–Toğrul həkimi bura çağırın.

(L o ğ m a n gəlir.)

**L o ğ m a n** –Müdir burdadır?

**H ü q u q ç u** –Gəl içəri. Loğman əmi.

**S a l m a n** –Məni neyləyirsən?

**L o ğ m a n** –Usta demişdin, motor üçün. Gətirmişəm. Əla ustadı.

**S a l m a n** –Əşi, heç hənanın yeridi?

(T o ğ r u l gəlir.)

**H ü q u q ç u** –Zəhmət olmasa, bu faksı oxuyun.

(T o ğ r u l faksı oxuyur.)

**T o ğ r u l** –Preparat Londonda sınaqdan keçib. Bəd xassəli hipertoniyanın müalicəsi üçün yararlı hesab olunur və əlavə edilir ki, bu preparat bu dozada ölümə səbəb ola bilməz.

**H ü q u q ç u** (Salmana) - Gördünüzmü? Demək, Behcət aldığı müalicədən deyil, aldığı mənəvi zərbələrdən ölüb.

**L o ğ m a n** –İşə bax ey…

**S a l m a n** –Londonun rəyi bizim üçün əsas ola bilməz. Bizim öz dövlətimiz, öz elmimiz, öz laboratoriyamız var. Nəzərinizə çatdırım ki, bizim elmimiz Avropa elmindən geri deyil.

**A y s e l** –Bəs onda qızınızı təhsil üçün niyə Amerikaya göndərmisiniz?

**H ü q u q ç u** –Yaxşı, Londonun rəyini qoyaq bir tərəfə. Bəs Toğrul həkimin öz üzərində apardığı sınağa nə deyirsiniz? O vaxtdan artıq 1 ay keçib. Preparatın mənfi təsiri olsaydı, indi o da o dünyalıq idi.

**S a l m a n** –Düzünü bilmək istəyirsinizsə, mən Toğrulun bəd xassəli hipertoniyaya tutulduğuna inanmadığım kimi, onun öz üzərində sınaq aparmasına da inanmıram.

**T o ğ r u l** –Siz yalnız özünüzə inanırsınız.

**S a l m a n** –Hipertoniyanı yaradan səbəblərə müharibə elan eləmişdin, nə oldu, o səbəbləri yıxa bildin? *(Sükut).* Niyə susursan?

**T o ğ r u l** –Susmayım, neyləyim? Durmusan qarşımda kötük kimi. Nə qədər ki, cəmiyyətdə hipertoniyanı yaradan mənəvi xəstələr var, bu cismani xəstəliyin kökünü kəsmək mümkün deyil.

**S a l m a n** –Onda bəs özünə əziyyət verib hipertoniyanı müalicə edən preparatı niyə kəşf edirdin?

**T o ğ r u l** –Demək, xəstəlik vacib imiş?

**S a l m a n** –Onu mən demədim, sən dedin. Amma sən o dərmanı kəşf etməklə hipertoniya xəstəliyinin vacib olduğunu təsdiq etdin!

**H ü q u q ç u** –İngiltərə kimi bir ölkə preparatın gərəkli olduğunu təsdiq edirsə...

**S a l m a n** –Dayan! O məktubda preparatın sınaqdan çıxması və müalicə üçün yararlı olmasından söhbət gedir. Qanuna görə preparatın istifadəyə buraxılması üçün bizim səlahiyyətli orqanlar Toğrula müəllif kimi patent verməlidir. Demək, iş yenə bizdən asılı oldu. Demək, örkən nə qədər uzun olsa, yenə gəlib doğanaqdan keçməlidir. Vot!

(S a l m a n, arxasınca da Q o ş q a r gedir.)

**A y s e l** –Sən bunlarla bacarmazsan, Toğrul.

**T o ğ r u l** –Həyatda 3 dəfə sarsılmışam. Behcətin üzərində sınağı mən özüm aparmalı idim. Qanundan qorxub çəkindim. Bu şansı zəif məxluq cəsarəti ilə mənim əlimdən aldı və mən sarsıldım. Mən Ayselin günahını boynuma götürməklə qorxaqlığımın üstünü örtüb kişilik eləmək istədim, alınmadı. Salman Tahirovun məharətlə oynadığı oyun preparatın təsdiqinə əngəl oldu. Yenə sarsıldım. Sonra Salman Tahirov verdiyi stresslərlə Behcəti öldürüb, bu bəd xəbərlə məni üçüncü dəfə sarsıtdı. Preparatım Londonda sınaqdan çıxsa da, örkən yenə doğanaqdan keçməli oldu. Və mən çox yaxşı bilirəm ki, qarşımdakı bu böyük maneə o qədər güclüdür ki, onu adlayıb keçə bilməyəcəyəm. İndicə bir anlığa ürəyimdən keçdi ki, günü sabah gedim Londona, preparatın tərkibini və sirrini verim ingilislərə... Amma bunu da vətəndaşlıq qüruruma sığışdıra bilməyib yenidən sarsıldım. *(Əlindəki faksı cırır və qəhqəhəylə gülür).*

**A y s e l** –Toğrul, özünü ələ al.

**T o ğ r u l** –Ələ salınmış özünü necə ələ alsın? İndi deyin görək xəstə kimdir? Xəstəxananın müalicəsindən heç bir xeyir görə bilməyəcəklərini başa düşüb xəstəxananı tərk edən nüsrətlər, qaçaylar, onları müalicə

etmək vəzifəsini boynuna götürüb, lakin müalicə əvəzinə sağlamları da xəstələndirən professor Salman Tahirov, yoxsa, ona qarşı mübarizə aparan mən? O, məni də xəstələndirdi. İndi isə yavaş-yavaş hipertoniya xəstəliyindən ruhi xəstəliyə keçirəm. Dəlixanaya marş!

(Qəhqəhə çəkir və səhnəni tərk edir. Aysel də "Toğrul, Toğrul" – deyə onu təqib edir.)

**Loğman** – Yaxşı baxın bu dünyaya. Hava boldur. Hamıya çatar, amma sən elə bilirsən - mən sənin havanı uduram, mən elə bilirəm – sən mənim havamı udursan. Eləyirik bir-birimizin gününü qara. Burdan da başlayır bütün fəsadlar. *(Gedir).*

(Səhnədə tək qalan hüquqçu elə bil boğulur. Mundirini çıxarıb atır və səhnənin önünə gəlir).

**Hüquqçu** – Toğrul günahsız cəzaya, Salman Tahirovsa cəzasız günaha məhkumdur. Cəmiyyətdə günahlar cəzasız qaldıqca günahsız cəzalar da gündən-günə artacaq. Bu ağrılı problemi həll etmək isə mənim səlahiyyətimdən çox yuxarıdır. Burda mən acizəm.

Düzlərin köksünü yarıb əyrilər,
Özünə ən qısa, kəsə yol açdı.
Doğru çəkməsini geyənə qədər
Yalan bu dünyanı gəzdi, dolaşdı.
Qorxuram dünyada bir zaman gələ,
İnsanlar yaşaya, insanlıq ölə.

SON

*1973*
*Yenidən işləndi: 1999-2000*
*2000-ci il iyunun 11-də Azərbaycan Milli*





*C.Cabbarlının əziz xatirəsinə*

# DAR AĞACI

## (ON ÜÇ ŞƏKİLDƏN İBARƏT FACİƏ)

*(2000-ci ildə işlənmiş variant)*

İŞTİRAK EDƏNLƏR:

**Akşin** –xilafətin Azərbaycanda valisi.
**Sabutay** –Babəkin oğlu, Akşinin qardaşı oğlu.
**Babəkin teyfi.**
**Ana** –Akşin və Babəkin anası.
**Çılğın** – xürrəmi, Akşinin qızı.
**İbn Zeyd** –xilafət nümayəndəsi.
**İbn Tahir** –Akşinin vəziri.
**İbn Süheyl** –Azərbaycanda ərb ordusunun sərkərdəsi.
**Altay** –xürrəmi.
**Ağsaqqal** –xalq nümayəndəsi.
**Xala** –Çılğının xalası.
**Gözətçi.**
**Yarqıtay** –zabit.
**Çapar.**
**Rəhman** –qapıçı.
**Əsgərlər.**

## BİRİNCİ ŞƏKİL

Mavi gecə. Arxada dağıdılmış qalaların və dar ağacından asılmış xürrəmilərin silueti görünür. Sol tərəfdən görünən ayın yarısını buludlar örtmüşdür. Uçulmuş qalalar arxasından əvvəl **A ğ s a q q a l** və **A l t a y**, sonra tək-tək xürrəmilər görünməyə başlayır. Onlar əllərini qaşlarının üstünə qoyub uzaqlara baxır, kimi isə gözləyirlər.

**A ğ s a q q a l** –Odur, gəlir.

**A l t a y** *(sevinclə)*–Özüdür.

**Q a r ı** - Hanı? Mən görmürəm.

**A ğ s a q q a l** –Dedim sizə , yalandır, o, ölə bilməz!

**Ç ı l ğ ı n** –Yox, onu öldürüblər. Bizim gördüyümüz Babəkin ruhudur.

**A ğ s a q q a l** –O ölübsə, onun ruhu bizim içimizdədir. Ona görə də gözümüzə görünür.

**H a m ı** –Babək, köməyimizə gəl, Babək, Babək!

B a b ə k i n t e y f i ağır addımlarla gəlir, onların içindən keçib gedir... Hər tərəfi duman bürüyür... A k ş i n, İ b n S ü h e y l, İ b n Z e y d, S a b u t a y, İ b n T a h i r və zabit dumanın içindən çıxıb önə gəlir. camaat diqqətlə onları süzür.

**İ b n S ü h e y l** –Ey dinlər dini olan müqəddəs İslamı qəbul etmiş müsəlman qardaşlar. Mən, Cəfər İbn Süheyl Azərbaycanda olan ərəbə qoşunlarının sərkərdəsi, İbn Zeyd isə əmir əl-möminin xəlifə əl-Mötəsimin səlahiyyətli elçisidir. Əvvəla, mən xəlifənin sizə bəslədiyi etimadı hüzurunuza çatdırıram. Saniyən, sizi bu haqq yolunu qəbul etməyiniz münasibətilə təbrik edirəm. Salisən, sizi bu mərtəbəyə çatdıran, bu yolda neçə illər qılınc vuran öz qan qardaşınız Akşini sizə təqdim edirəm. Xəlifə onu Azərbaycanda özünün valisi, sizin padşahınız təyin edir. Bu da xəlifənin fərmanı. Xəlifənin Akşinə verdiyi mükafatlar, hədiyyələr barədə yəqin xəbəriniz var. Xəlifə Akşinin Babəkə qarşı müharibəyə başladığı gündən onun edamına qədər olan müddətdə hər il üçün ona on beş min dirhəm miqdarında pul hədiyyəsi vermişdir. Bir də yaqut qaşlı boyunbağı. Bunlar Akşinin bu vaxta qədər etdikləri üçündür. Bundan sonra edəcəyi işlərin öz mükafatı olacaq.

**İ b n Z e y d** *(İbn Tahirə)*–Abdulla ibn Tahir, sən apardığın

döyüşlərdə Akşininə ən yaxın silahdaşı olmusan. Buna görə də xəlifə həzrətləri səni Akşinə vəzir təyin etmişdir.

**İbn Tahir**–Xəlifə həzrətlərinə mütəşəkkirəm!

**İbn Zeyd**–Sabutay ibn Babək! Xəlifə, ona göstərdiyin böyük sayğıya görə səni orduya baş sərkərdə təyin edir.

**Sabutay**–Minnətdaram!

**İbn Zeyd**–Abdulla ibn Tahir və Sabutay Əmir əl-mömininin dərin hörmətini qazanmış adamlardır. Böyük xidmətlərini nəzərə alıb xəlifə onları da mükafatlandırmışdır. *(İki qılınc gətirirlər. İbn Zeyd qılıncları Sabutayla İbn Tahirə verir).* Bu qızıl qəbzəli qılınclar sizing əlinizdə heç zaman titrəməsin.

**Akşin**–İbn Tahir, hörmətli qonaqlar üçün iqamətgah hazırdırmı?

**İbn Tahir**–Hər şey hazırdır.

**Akşin** *(İbn Süheylə və İbn Zeydə)* –Dincələ bilərsiniz.

**Yarqıtay** *(öz-özünə)*–Bu bayramda mənim də payım olmalı idi.

**İbn Zeyd** (*fərman çıxarır)*–Bu da xəlifənin vergilər haqqında fərmanı.

**Akşin**–Vergi?

**İbn Zeyd**–Bəli. Xəzinə boşalmışdır. Müharibə xəlifəyə çox baha başa gəldi.

**Akşin**–Aydındır...

(İbn Zeyd, İbn Tahir gedir. Yarqıtay Akşinin işarəsini gözləyir. Sabutay da getmək istərkən)

**Akşin** *(Sabutaya)*–Sən dayan!

**Sabutay** *(Akşinin qarşısında əyilir)*–Məni bu yaşımda belə bir rütbəyə çatdıran əmimə minnətdaram.

**Akşin**–Qalx, oğul! Sən mənə yox, öz ağlına, öz düşüncənə minnətdar ol. Sən Babəkin deyil, mənim oğlumsan. Sən həm zahirən, həm də daxilən mənə çəkmisən... *(Yarqıtayı yanına çağırır)* - Sabutay, bu Yarqıtay mənim mübarizə yoldaşım olub. İndi onu sənə tapşırıram. Bu sənin sağ əlin olmalıdır.

**Sabutay**–Gözüm üstə.

(Y a r q ı t a y gedir)

**A k ş i n** –Babək bizim nəslimizə ləkə gətirdi. Lakin mən qılıncımla, sən də ağlınla bu ləkəni yuduq... Əmir əl-mömininin etimadını qazandıq. Bundan sonra bir vəzifəmiz qalır - qazandığımız etimadı qoruyub saxlamaq!..

**S a b u t a y** –Əmim ayağını qoyduğu yerə başımı qoymağa hazıram.

**A k ş i n** –Sənin böyük gələcəyin var, oğul!.. Səni ikinci xoş xəbərlə sevindirim: sən xəlifənin kürəkənisən...

**S a b u t a y** –Necə?

**A k ş i n** –Xəlifənin qardaşı qızı Fatiməni sənə adaxladım...

**S a b u t a y** –Ola bilməz!.. *(Sabutay tutulur.)*

**A k ş i n** –Akşinin bacarmadığı şey yoxdur.

**S a b u t a y** –Əmi... Bu, əlbttə, böyük xoşbəxtlikdir, amma...

**A k ş i n** –Nə amma?..

**S a b u t a y** –Fatiməni tanıyıram... Mən Samirədə olanda onu görmüşəm. Üzr istəyirəm, o...

**A k ş i n** –Nə olub ona?

**S a b u t a y** - Əmi, o topaldır.

**A k ş i n** –Dağa arxalanan üçün dağın qoturluğunun mənası yoxdur. Allahına yüz dəfə şükr elə ki, onu sənə veriblər... O ki qaldı topallığa, arvad topal olsa yaxşıdır, dizlərini qatlayıb oturar xarabasında... İndi suallarıma cavab ver: Xürrəmabadda işlər necədir?

**S a b u t a y** –Çox pis.

**A k ş i n** –Yəni?

**S a b u t a y** –Camaat sakitləşmir. Dəli Domrul üsyançıların başındadır.

**A k ş i n** –O bizə Babəkdən artıq olmayacaq.

**S a b u t a y** –Babəkin ruhu yaşayır.

**A k ş i n** –Necə yəni?

**S a b u t a y** –Adı dildən düşmür. Onun ruhu cismindən güclü imiş. Dəli Domrul da Babək eşqinə vuruşur. Heç kəs onu ölü bilmir... Nənəm

də... deyir Akşin xəlifədən aman istəyəcək Babəkə.

**A k ş i n** –İstədim. Xəlifə verdi. Babək şərtlərlə razılaşmadı. O, əsl qəhrəman kimi savaşdı və qəhrəman kimi də öldü.

**S a b u t a y** –Son dəfə nə dedi?

**A k ş i n** – Qəhqəhə çəkib güldü.

(İşıq sönür. Səhnənin dibində dar ağacı görünür. Dar ağacının altında B a b ə k əzəmətlə dayanmışdır.)

**A k ş i n** –Babək, zavallı qardaşım, sən igidsən. Bu halın məni acıdır. Heç olmasa mənə, mənə acı. Mən gəlirkən qılıncımı əmir əl-möminin xəlifənin ayaqlarının altına sərib səninçin aman dilədim. O, səni bağışlayır. Yalnız, gəl, qardaşım, doğru yola.

**B a b ə k** –Sənə yazığım gəlir, Akşin. Nə qədər miskinsən. *(Qəhqəhə çəkir.)*

**A k ş i n** –Nəyə gülürsən?

**B a b ə k** –Yadellinin təşəkkürünü qazanmaq üçün öz xalqına düşmən kəsilən sən bədbəxtin aqibətinə gülürəm.

**A k ş i n** –Onda qarşında iki yol var: ya mənim qəbul etdiyim yol, yaxud bayrağının altında görünən ölüm, uçurum, dar ağacı. İntixab et.

**B a b ə k** –Mənim gözlərimdə artıq azad bəşəriyyət və azad diləkli yeni bir aləmə rəqs edir. Bu geniş, azad sevgilər dünyasının yolu isə ancaq bu qırıq bayrağın altındakı açıqlıqdan keçir. Mən onu intixab edirəm.

(Boğazını kəndirə keçirir. İşıq sönür, yenidən yanır. Əvvəlki səhnə.)

**S a b u t a y** –Demək, o, son nəfəsinə qədər öz əqidəsindən dönməmiş. Bu cəsarət hansı inamdan, hansı əqidədən doğur, əmi?

**A k ş i n** –Onun əqidəsi içi çürük, fit qozdur.

**S a b u t a y** –Hər halda insanı qəhrəmanlıq mərtəbəsinə ucaldan əqidə...

**A k ş i n** –Kifayətdir!

**S a b u t a y** –Bəs onun ölümünü nənəmə necə deyəcəksən? Axı, o, hələ də oğlunu gözləyir.

**A k ş i n** –Sən mənim əmrimi dinlə. İbn Zeyd hələ bir müddət burda

qalacaq. O, keçən il Muğana köçürülmüş ərəblərə baş çəkmək, onların güzəranı ilə tanış olmaq istəyir... Sən ona bələdçilik eləməlisən... Çalış ki, ərəblər şikayət eləməsin. Əgər narazılıqları varsa, elə oradaca yoluna qoyarsan. *(İkinci fərmanı ona verir).* Bu fərmanda yazılanlara əməl edərsən.

**S a b u t a y** –O nədir?

**A k ş i n** –Vergi fərmanı. Orda yazılanları artıqlaması ilə toplamalısan!

**S a b u t a y** –Əmi!

**A k ş i n** –Sənə əmr etdiyim zaman mən artıq əmi deyiləm, şaham. Sən də əmrin icraçısı.

**S a b u t a y** –Axı... Məsələ belədir ki, sən Samirəyə gedəndə sonuncu vergini topladıq. Apardın. Ondan altı ay keçməyib... yenidən hardan toplamaq olar? İndi nə məhsul vaxtıdır, nə də...

**A k ş i n** –Sən bu xalqı mənə tanıtma, nə deyirəm ona bax! Burda yazılanlar hamısı yığılmalıdır. Əmrdən çıxanları qılıncdan keçirərsən. İnsan zülmə tabedir, anladınmı?

**S a b u t a y** –İnsan zülmə tabedir... Anladım!

## İKİNCİ ŞƏKİL

(Saray. A k ş i n, İ b n  T a h i r)

**İ b n  T a h i r** –Üç gün, üç gecədir Muğandan gələn şikayətçilər əl çəkmir.

**A k ş i n** –Nə istəyirlər?

**İ b n  T a h i r** –Muğanın ağsaqqalı səni görmək istəyir.

**A k ş i n** –Özün qəbul et.

İbn Tahir–Mən dinləmişəm, cavabını da vermişəm. Ağsaqqal əl çəkmir. Əlahəzrət, deyirəm, bəlkə... özün dinləyəsən... Bu ağsaqqalın el içində böyük nüfuzu var. El adətinə hörmət üçün.

**A k ş i n** –Mən elə çoxdan tüpürmüşəm, həmin el deyildimi məni lənətləyib icmadan qovan? Mənə rüsvayçılıq damğası vuran? Bəs indi niyə mənim qapıma dəxil düşüblə r? Yoxsa, indi mənim gücümü

görüblər? Mən də onlara bax, bunu sübut eləmək istəyirdim. Güc haqda deyil, haqq gücdədir.

**İ b n  T a h i r** –Ancaq, deyirəm, bəlkə, işimizin xatirinə... Siyasət tükdən incədir... Əlahəzrət, həmişə zor işlətmək xeyrimizə olmaz... Sabutay Muğanda camaata elə divan tutub ki... Hamı Xürrəmabada qaçır, Dəli Domrula pənah aparır. Məsləhətim budur ki, sən özün ağsaqqalı qəbul edəs n. Bəlkə, onu inandırıb köçün qarşısını ala bildik.

**A k ş i n** –Çağır gəlsin.

(İ b n  T a h i r çıxır və ağsaqqalla gəlir.)

**A ğ s a q q a l** –Doxsan il ömür sürmüşəm. Hələ görməmişdim ki, qılınc öz qınını kəsə, adam öz yediyi qaba tüpürə, öz ocağını dağıda...

**A k ş i n** –İndi gördünmü?

**A ğ s a q q a l** –Gördüm...

**A k ş i n** –Bəs niyə yanıma gəlmisən?

**A ğ s a q q a l** –Yalvarmağa gəlməmişəm. Gəlmişəm səni bəzi mətləblərdən agah edim.

**A k ş i n** –Buyur.

**A ğ s a q q a l** –Özün bu elin içindən çıxmısan. Xalqın dərdini də bilirsən, azarını da...

**A k ş i n** –Mən də istəyirəm onu bu dərddən, bu azardan xilas eləyəm. Amma siz məni başa düşmək istəmirsiniz.

**A ğ s a q q a l** –Akşin, xalqı dərddən xilas eləmək üçün onun dərisini soymaq, onu talan etmək lazımmış? Xəbərin varmı Sabutay camaata nə divan biçir?

**A k ş i n** –Vergi dövlət qanunudur!

**A ğ s a q q a l** –Bəs qız-gəlinlərimizi...

**A k ş i n** –Qoca, biz başqa-başqa simlərdə çalırıq. Çətin bir-birimizi başa düşək!

**A ğ s a q q a l** –Amma sən gərək bu xalqı başa düşəydin.

**A k ş i n** –Mən xalqımın xoşbəxtliyini bu haqq yolunda görürəm.

**A ğ s a q q a l** –Xalqı qılıncdan keçirərkən sən hansı haqq yolundan, hansı insafdan danışırsan?

**A k ş i n** –Din yolunda nə eləsək haqq yoludur, ədalətdir.

**A ğ s a q q a l** –Atəşpərəstdə, xaçpərəstdə, musəvidə öz dinini dinlər dini hesab edir. Lakin həqiqət bunların üstündədir.

**A k ş i n** –Nə imiş o həqiqət?

**A ğ s a q q a l** –İnsan və ona xidmət!

**A k ş i n** –İslamın ən böyük amalı elə insana xidmətdir. Amma belə görünür, sən qəbul etdiyin dindən də imtina edirsən?

**A ğ s a q q a l** –Yox, mən İslamı sidq ürəklə qəbul etmişəm. Çünki həqiqətən Qurani-Kərim insana hörmət, həqiqət və ədalət üzərində yazılmış Allah kəlamıdır. Ancaq İslam bayrağı altında xalqı soyan, talayan, adət-ənənəsini, dilini əlindən almaq istəyən, min cürə hiylə və kələklə xalqı əzən qəsbkarlığa qarşıyam.

**A k ş i n** –Əgər, doğrudan da, İslamı sidq ürəklə qəbul etmisənsə, onun əmrlərinə də sözsüz əməl etməlisən.

**A ğ s a q q a l** –Sizin verdiyiniz əmrlər Qurandan gəlmir. Mən ehkamlaşan, ağıllara qıfıl vuran, insanı düşünməyə qoymayan hər şeyin əleyhinəyəm!

**A k ş i n** –Sən küfr danışırsan, qoca!

**A ğ s a q q a l** –Sözümü axıra qədər dinlə! Mən sənin yanına gəlmişəm ki, sənə anladım: mənim qəbul etdiyim İslam insana, onun zəhmətinə, ədalətə və həqiqətə hörmət dinidir. Amma siz onu...

**A k ş i n** –Rədd ol burdan!

**A ğ s a q q a l** – Mən gedirəm, lakin öz qınını kəsən qılıncın aqibətini indidən görürəm.

(A ğ s a q q a l gedir. Uzaqdan B a b ə k i n qəhqəhə səsi eşidilir.)

**A k ş i n** –Sən bir qoca köpəyin iddiasına bax! İbn Tahir, sən niyə məni məcbur elədin onun cəfəngiyatına qulaq asım?

**İ b n T a h i r** –Əlahəzrət, bəzən sözün yara bildiyi cəbhəni qılınc yara bilmir.

**A k ş i n** –Bu xalqı mənə tanıtma.

**İ b n T a h i r** –Əfv buyurun, əlahəzrət, qılıncı hamının başında oynatmaq olmaz.

**A k ş i n** –Olar!

**İ b n T a h i r** –Ananın başında necə? Oynada bilərsənmi? *(Sükut).*

Məni bağışla, əlahəzrət, sən bilirsənmi ki, bunlara dil verənlərin biri də öz doğmaca anandır? *(Sükut)* Bu gün üsküdür. Anan səhər tezdən saraydan çıxmış, camaatla bayramlaşmağa getmişdir.

**A k ş i n** –Necə?

**İ b n T a h i r** –Bəli, indicə gəldi...

**A k ş i n** –Mən sizə tapşırmamışdım ki, onu saraydan buraxmayın?

**İ b n T a h i r** –Onun qabağında kim dayana bilər?

**A k ş i n** –Eşidibmi Babəkin ölümünü?

**İ b n T a h i r** –Bilmirəm.

**A k ş i n** *(əllərini göyə qaldırır)* - İlahi, sən özün mənə kömək ol! Öz xeyrini bilməyən bu nadan, bu kor camaatı müqəddəs yola gətirməkdə mən necə böyük əngəllərə rast gəlirəm... Mən anamı saraya gətirdim ki...

**İ b n T a h i r** –Sən düz elədin. O, Xürrəmabadda qalsaydı daha pis olardı... Əlahəzrət, sən ananın nüfuzunu, bəlkə, mənim qədər bilmirsən. El-oba ona "Babək anası" deyir. Biz onun bu nüfuzundan istifadə etməliyik.

**A k ş i n** –Elə mən də bu məqsədlə...

**İ b n T a h i r** –Onun sarayda yaşaması xalqın üzünü bizə tərəf çevirə bilər, amma...

**Q a p ı ç ı** *(gəlir)*–İbn Zeyd səfərdən qayıtdı.

**A k ş i n** –Necə? İbn Zeyd?.. Xeyir ola, nə tez?.. O qoca ağsaqqal köpək məni təbdən çıxartdı. İbn Tahir, mən bu halda onu qarşılaya bilməyəcəyəm. Sən qarşıla, mən də gəlirəm.

(Sol qapıdan gedir. İ b n T a h i r pişvaza çıxır, sağdan İ b n Z e y d l ə qayıdır).

**İ b n T a h i r** –Bütün səfərlərdən salamətliklə! *(Sükut)* Razı qaldınmı səfərdən?

**İ b n Z e y d** –Həm razı, həm narazı. Akşin hardadır?

**İ b n T a h i r** –İndi gələr...

**İ b n Z e y d** –Niyə məni qarşılamadı? Bu nə deməkdir?..

**İ b n T a h i r** –Narahat olma... bir qədər... O...

**İ b n Z e y d** –Yox, bu heç mənim xoşuma gəlmədi... İbn Tahir, sən mənimlə açıq olmalısan. Xilafət Akşinin qılıncına, səninsə siyasətinə

arxalanır. Azərbaycanda xilafətin valisi yalnız Akşin olmalı idi... Lakin... unutma, sən xəlifənin şəxsi göstərişi ilə burda baş vəzir olmusan. Buna görə də sən xilafətdən heç nə gizlətməməlisən.

**İbn Tahir**–Əlbəttə... Ancaq... Mən belə başa düşürəm ki, sərkərdəlik bir şeydir, ölkə idarə eləmək başqa şey.

**İbn Zeyd**–Mən səni başa düşürəm... Akşin yalnız qüdrətli sərkərdədir... ancaq...

**İbn Tahir**–Əlbəttə... ancaq... Məsələ belədir ki... hələlik bu ölkəyə yalnız xəlifənin ordusu daxil olub, nüfuzu və təsiri yox.

**İbn Zeyd**–Mən bunu Muğan səfərində öz gözlərimlə gördüm, lakin səbəbi nədir? Onu de!

**İbn Tahir**–Səbəbi odur ki, Akşin xalq arasında nüfuzunu itirib. Özü də indi yox, lap gəncliyindən.

**İbn Zeyd**–Niyə?

**İbn Tahir**–Biz türklər üçün namus hər şeydir. Xalq qadın namusunu din kimi, məzhəb kimi başa düşür. Akşin gəncliyində nüfuzlu bir kişinin qızını ləkələdi... Qız hamilə oldu. El-oba onu lənətlədi. Uşaq doğulandan sonra bədbəxt qız başını götürüb Qəbələdə yaşayan xalasının yanına getdi və orda özünü qayadan atıb öldürdü. Uşaq yetim qaldı, xalası böyütdü.

**İbn Zeyd**–Bəs Akşin?

**İbn Tahir**–El-oba Akşini lənətlədi. Babək camaatın qarşısında qardaşını öldürəcəyinə and içdi. Bunu eşidən Akşin Güneyə qaçdı.

**İbn Zeyd**–Orda da İslamı qəbul etdi. Eləmi?

**İbn Tahir**–Bəli, o zaman m n onunla orada görüşdüm. Akşin onu lənətləyən xalqa öz qüdrət və bacarığını sübut etmək üçün nüfuz qazanmağa çalışırdı...

**İbn Zeyd**–Aha, belə de... Demək, o, bu məqsədlə də İslamı qəbul etmiş, bizə qoşulmuşdur. Demək, İslam Akşin üçün məqsəd deyil, vasitə imiş. Demək, Akşin qəlbən müsəlman deyil. O, öz arzularını yerinə yetirmək üçün İslam dininə söykənib... Xəlifə bunu bilməlidir!.. Nə qədə r ki, Babək məğlub olmamışdı, Akşin bizə lazım idi... İndi də Xürrəmabad! Onu da təslim etmək üçün hələ bizə Akşin qılıncı lazım-

dır.

**İbn Tahir**–Lakin dövləti qılıncla yox, siyasətlə idarə edərlər. Dövlət başçısı siyasətlə suya da düyün vurmağı bacarmalıdır. Bu isə Akşində yoxdur.

**İbn Zeyd**–Doğru deyirsən... mən səni başa düşürəm... Gələcək sənindir, İbn Tahir! İbn Süheyl hələlik Ərəbobalıdadır. Bir neçə gündən sonra İran sərhədinə gedir. O, xilafətlə Azərbaycan arasında körpü olacaq. Mən burdan gedəndən sonra burda baş verən bütün hadisələri sən İbn Süheylə çatdırmalısan. İbn Süheyl də xəlifəyə çatdıracaq.

**İbn Tahir**–Baş üst ... Amma olmazmı ki, mən özüm elə birbaşa xəlifəyə yazım?

**İbn Zeyd**–Yox, bu mümkün deyil. Bu ölkədə olan İbn Süheylin başı üstündən xəlifə ilə əlaqə saxlamağa sənin səlahiyyətin çatmaz.

**İbn Tahir**–Anladım.

**İbn Zeyd**–Sabutay haqqında nə deyə bilərsən?

**İbn Tahir**–Onu yaxşı tanımıram. Əsir düşəndən sonra Samirədə - xəlifə sarayında olub.

**İbn Zeyd**–Xəlifə onu çox istəyir. Amma hər halda ilan əbalasıdır. Damarlarından Babəkin qanı axır.

**İbn Tahir**–Atasına - Babəkə yazdığı məktubu mən aparmışdım.

**İbn Zeyd**–Deyirlər, Babək məktuba çox qəzəblənibmiş.

**İbn Tahir**–Qəzəblənmək azdır. Zərfin üstündə ərəb hürufatını görüncə Babək bir hala düşdü ki... Dedi, mən bu şərəfsizə ərəb dili öyrətməmişdim. İkinci cümlədə məktubu əlimdən alıb, üzümə çırpdı.

**İbn Zeyd**–Deyirlər, Babək oğlunun məktubu barədə ən yaxın adamlarına da heç nə demirmiş.

(Akşin gəlir)

**Akşin**–İbn Zeyd, salam... Məni əfv buyur. Özümü yaxşı hiss etmirdim deyə pişvaza çıxa bilmədim. Səfərin necə keçdi? Nə tez qayıtdın? Bəs Sabutay hanı?

(Yarqıtay gəlir)

**Y a r q ı t a y** –Əlahəzrət! Mən... *(İbn Zeydi görüb dayanır.)*

**A k ş i n** –Buyur!

**Y a r q ı t a y** –Əgər mümkünsə... mənə tapşırdılar ki, gizli...

**A k ş i n** –Burda kənar adam yoxdur.

**Y a r q ı t a y** –Əlahəzrət... Mən əmr quluyam...

**İ b n  Z e y d** –Sabutayın zabitlərindəndir. Məktubu aç, ucadan oxu.

**Y a r q ı t a y** *(məktubu oxuyur)*–"Mən belə hesab edirəm ki, xilafətin fərmanı Azərbaycanda yaşayan bütün xalqlara və tayfalara aiddir. Buna görə də verginin hamıdan toplanması barədə əmr verdim. Xilafətin nümayəndəsi cənab İbn Zeyd buna etiraz edərək əmr etdi ki, ərəblərdən vergi toplanmasın. Mən bu göstərişi düzgün hesab etmir, əmrini gözləyirəm".

**İ b n  Z e y d** –Akşin, indi de görək, sən necə hesab edirsən?

**A k ş i n** –Xilafət necə bilirsə, elə də olmalıdır.

**İ b n  Z e y d** –Lakin ağzından süd iyi gələn bir uşağın mənə - xəlifənin nümayəndəsiənə etiraz etməsini mən özümə təhqir hesab edirəm. Ona görə qayıtmışam.

**A k ş i n** –Məsələni mən həll edirəm, o yox! İbn Tahir, Sabutaya məktub gö ndər. Birinci, ərəblər üç il bütün vergilərdən azad edilir, ikinci, yeni il bayramı - Novruz yasaq edilir, əmrdən boyun qaçıranlar həbs edilməlidir.

**İ b n  Z e y d** –Üçüncü, o, Babəkin oğlu kimi Xürrəmabada getməli, camaatı başa salmalı, onları haqq yoluna dəvət etməlidir. *(Sükut.)* Mən bu səfərimdə bir şeyi yəqin etdim ki, Muğana da dil verən Xürrəmabaddır. Xürrəmabad dağılmayınca Muğan da sakit olmayacaq. Buna görə də... Sabutayın arxasınca *(zabitə)* sənin adın nədir?

**Y a r q ı t a y** –Yarqıtay.

**İ b n  Z e y d** –Sabutayın ardınca bu Yarqıtay otuz minlik qoşunla Xürrəmabada qəfil basqın etməlidir.

**A k ş i n** –İbn Tahir, onda məktuba bunu da əlavə elə. Ordunun gəldiyini qoy Sabutay əvvəlcədən bilsin.

**İ b n  Z e y d** –Yox, Sabutay bilməsə də olar.

**A k ş i n** - İbn Zeyd, unutma ki, Sabutay ordunun sərkərdəsidir.

**İ b n  Z e y d** – Əlbəttə, hökmdar sənsən. Lakin... Mən bunu məsləhət bilmirəm.

**A k ş i n** - Onda bir şərtlə, Yarqıtay, sən qoşunu Xürrəmabad meşəsində gizlət. Qoy əvvəl Sabutay getsin, xürrəmilərlə danışıq aparsın. Əgər razılığa gəlsələr - heç, razılaşmasalar - qoşun şəhərə daxil olsun. Amma qırğına çox getmək olmaz.

**İ b n  Z e y d** - Etirazım yoxdur. İbn Tahir, fərmanı möhürlə, ver Yarqıtaya.

**A k ş i n** - Xeyr. Fərmanı İbn Tahir aparmalıdır.

**İ b n  Z e y d** - Onda İbn Tahirlə mən də getməli və bu işləri öz gözlərimlə izləməliyəm.

**A k ş i n** - Özün bilərsən. Amma mən bunu sənə məsləhət bilmirəm.

(Uzaqdan ananın səsi gəlir. H a m ı heyrətlə o tərəfə çevrilir.)

**A n a n ı n  s ə s i :** Gecə-gündüz tənləşir
Bir-birinə düz gəlir.
Ay ellər, bayramlaşın,
Ölkəyə Novruz gəlir.
Canımıza can gələr,
Babəkim haçan gələr?

Dağlardan avaz gəlir,
Bahar gəlir, yaz gəlir.
Yarpaqların dilində,
Nəğmə gəlir, söz gəlir.
Gecəmizə dan gələr,
Babəkim haçan gələr?

(Bir əlində yanan şamlar, bir əlində səməni xonçası ana daxil olur.)

**A n a** – Gəldim şah oğlumla bayramlaşım. Bu gün üsküdür. Bayramın mübarək!.. Səmənini və xonçanı taxtın üstünə qoyur. *(Akşinə)* Niyə ananı öpmədin? *(Akşin anasını öpür.)* Bəs Babək niyə gəlib çıxmadı?

Sən demədin ki, bayrama qədər gələcək?

**A k ş i n** –Darıxma, ana!

**A n a** *(İbn Zeydə)*–Xəlifə mənim Babəkimə aman veribmi, ey ərəb oğlu?

(İ b n Z e y d üzünü yana çevirir.)

**A k ş i n** –Ana, arxayın ol. O... And içirəm ki...

**A n a** –Nəyə and içirsən? *(Sükut.)* And iç oda, ocağa! Ey, ocaq qalayın! Bəs niyə bu gün şəhərdə tonqallar yanmır?

**A k ş i n** –Ana!

**A n a** –Ocaq qalayın! Bu gün axır çərşənbədir! Ocaq qalayın!

**İ b n Z e y d** –Bu, lap ağ oldu!

**A n a** –Eşitmirsiniz? *(Üzünü qapıya tutur.)* Ey, manqal gətirin, ocaq qalayın! *(İbn Zeydə)* Xoşuna gəlmir?

**A k ş i n** *(ananın önündə diz çökür)*–Ana, yalvarıram! Ocaq qalanmasın!

**A n a** –Niyə!

**A k ş i n** –Axı... ocaq keçmişdə qaldı.

**A n a** –İndi sən keçmişə tüpürəsi oldun? Ey, ocaq qalayın, mən Babək anasıyam, ocaq qalayın.

(A k ş i n qulaqlarını tutur. Q a r a v a ş manqalla gəlir.)

**A n a** *(bayıra tərəf)*–Ay camaat, yallı gedin, yallı gedin! And iç! Hamının qabağında and iç bu ocağa! De ki, Babək sağdır! Qaçırsan? Oddan qorxursan? Axı, səni böyüdən bu ocaqdır. Mən sənə bu ocağın qırağında süd vermişəm, sənə layla çalmışam!.. Sənin qulaqlarına bu ocağın duasını oxumuşam! Sən ona arxa çevirə bilməzsən! Buna sənin haqqın yoxdur!.. İndi de görüm Babəkim hanı?

**A k ş i n** –Ana!

**A n a** –Səni qınamıram, sən hardan biləsən ki, bala nəfəsi nədir, bala nə deməkdir? Axı, sən doğma balandan da üz çevirdin. Sən hardan biləsən ki, mən nə çəkirəm.

(A k ş i n qulaqlarını tutur.)

**A k ş i n** – Bəsdir, deyirəm sənə!

**A n a** –Qışqırma! Nankor övlad! Mən səni bu ölkəyə bala doğmadım, bəla doğdum. Mən südümü sənə haram bilirəm! Haram olsun! *(Ocağın qarşısında diz çökür.)* Ey müqəddəs ocaq! Ey ulu Hörmüzd!.. Səndən istəyirəm Babəkimin intiqamını!.. Görün, mən nə bədbəxt anayam, ey camaat, müqəddəs ruhlara yalvarıram ki, bir oğlumun qisasını o birindən alsın!..

## ÜÇÜNCÜ ŞƏKİL

Xürrəmabad. Yeni gün bayramı. Tonqallar yanır. cavanlar yallı gedir. Ç ı l ğ ı n görünür. Tonqal üstündən tullanırlar.

**Ç ı l ğ ı n** – Çoxdan səni görmürəm,
Görmürəm, görmürəm.
Dərdin nədir, bilmirəm,
Bilmirəm, bilmirəm.
Çəhrəbəyim, çəhrəbəyim,
Bir oğlanı sevmişəm.
Sevmişəm, sevmişəm.
**H a m ı** – Dost sevinib yad ölsün,
Ağırlığım, uğurluğum tökülsün.

(Tonqalın üstündən tullanırlar.)

**Ç ı l ğ ı n** – İnancım od, andım od,
Sənlə cilalandım od.
Yolunda qurban gedəm
Söyləmərəm yandım od.
Çəhrəbəyim, çəhrəbəyim.
**H a m ı** – Dost sevinib, yad ölsün,
Ağırlığım, uğurluğum tökülsün!

Tonqalın üstündən tullanırlar. Rəqs başlanır. Bayaqdan bəri onları seyr edən, qiyafəsini dəyişmiş S a b u t a y meydana atılıb Ç ı l ğ ı n l a oynamağa başlayır.

**S a b u t a y** –Bayramınız mübarək! Kimin qızısan, gözəl?
**Ç ı l ğ ı n** –Bu dağların qızıyam.
**S a b u t a** –Adın nədir?
**Ç ı l ğ ı n** –Anadan belə çılğın doğuldum.
**S a b u t a y** –Sənin çılğınlığına
Gözəl, mən heyran oldum.
**Ç ı l ğ ı n** –Gözəl görmək savabdır.
**S a b u t a y** –Bu, mənim istəyimə cavab deyil.
**Ç ı l ğ ı n** –Cavabdır.

(Qaçmaq istəyir. S a b u t a y onun qarşısını kəsir.)

**A l t a y** –Eh...ey... Sən kimsən?
**S a b u t a y** –Mən elçiyəm.
**A l t a y** –Kimdən kimə elçisən?
**S a b u t a y** –Hökmdardan sizə.
**A ğ s a q q a l** –Elçiyə hörmət borcumuzdur. Altay, elçini oddan keçirt, alazla!
**S a b u t a y** –Yox, yox, lazım deyil.
**A ğ s a q q a l** –Sənə lazım deyil, bizə lazımdır. Biz pis ruhları atəşdə yandırmalıyıq.
**S a b u t a y** –Mən sizin yanınıza pis niyyətlə gəlməmişəm, ağsaqqal.
**A ğ s a q q a l** –Elə buna görə də oddan keçməlisən. *(Altay "alas, alas" deyə-deyə Sabutayı tonqalların arasından keçirir.)* Təmizləndin, indi buyur.
**S a b u t a y** –Camaat, birinci onu deməliyəm ki, mən də sizinlə bir ulusdanam. Bizim soyumuz bir, qanımız bir, dilimiz birdir. Mən istəyirəm ki, siz davasız-şavasız, xoşluqla haqq yoluna gələsiniz. Qardaşlar, bacılar, papağımızı qabağımıza qoyub əməlli-başlı fikirləşək, görək siz bu haqq yoluna gəlməməklə nə qazanırsınız?
**A l t a y** –Necəsən, qanmayım atan yansın?!
**S a b u t a y** –Mən də istəyirəm qanasınız. Tərslik nəyə lazımdır? Axı, onsuz da İslam bayrağı bütün dünyanı gəzir. Millətimizin də çox hissəsi artıq bu dini qəbul etmişdir. Təkcə siz qalmısınız. Siz o boyda selin qabağında neyləyəcəksiniz?

**A l t a y** –İslam bayrağı, selin qabağı! Dayan-dayan! Bu sözlər mənə tanışdır.

**A ğ s a q q a l** –Mənə də tanışdır. Bu sözlər Babəkin oğlundan aldığı məktubda yazılmışdı.

**S a b u t a y** –Düz deyirsən, ağsaqqal, o məktubu atama mən yazmışdım. Mən Babəkin oğluyam.

**H a m ı** –Sabutay!

**Ç ı l ğ ı n** –Sabutay! *(Diqqətlə onu süzür.)*

**A l t a y** –Sən, axı, sərkərdəsən. Bəs bu paltarda niyə gəlmisən?

**S a b u t a y** –Mən sizin qarşınızda elçiyəm.

**Ç ı l ğ ı n** –Elçisən? Yox! Sən qan içən, rəzil bir yırtıcısan. İndi nə cürətlə ceyran cildinə girib bura gəlmisən?

**X a l a** –Çılğın!

**Ç ı l ğ ı n** –Dayan, xala! Onun Muğanda etdikləri vəhşilikləri biləbilə indi biz onunla elçi kimi danışmalı deyilik.

**S a b u t a y** –Mən, sadəcə, hökmdarın tapşırığını yerinə yetirmişəm...

**Ç ı l ğ ı n** –Yüzlərlə evləri xaraba qoyan, gəlinlərin boyunbağısından tutmuş sırğalarına qədər, evlərdəki kilimlərdən tutmuş yorğan-döşəyə qədər çalıb talan etdiyin bir ulusa sən nə haqla "mən də sizin ulusunuzdanam" deyirsən? Özgə nizələrinin ucunda bu məmləkətə vali təyin olunan qardaş qatili Akşin, doğmaca atasına xain çıxıb əmi qucağına atılan sən, hələ bilmirsiniz ki, bu xalq sizə nifrət edir?

**X a l a** –Qızım, Çılğın!

**Ç ı l ğ ı n** –Xala, mən anlaya bilmirəm, yəni bu, doğrudan Babəkin belindən gəlib? Yəni, bunun damarlarından Babəkin qanı axır? Özünü xalqının yolunda qurban verən bir qəhrəmanın oğlu beləmi olar?

**A l t a y** –Eşitdinmi Çılğının dediklərini? Bundan sonra sən nə üzlə elçi sifətilə yanımıza gəlmisən?

**S a b u t a y** –Onları mən eləməmişəm. Əsgərlər...

**A l t a y** –O əsgərlərin sərkərdəsi sən deyildinmi? Sən bu hərəkətinlə öz xalqını təhqir etdiyini də bilmirsən? *(Sükut)* Cavab ver, öz xalqını satan xain! *(Sükut)* Niyə susursan?

**S a b u t a y** –Sizi ondan da böyük bəla gözləyir. Buna görə də mən sizin yanınıza xahişə gəlmişəm, savaşa yox.

**Ç ı l ğ ı n** –Onda de görək xahişin nədir?

**S a b u t a y** –Qəbul edin İslamı, o haqq yolunu.

**A l t a y** –Bizim bütün dinlər , o sıradan İslama da böyük hörmətimiz var. Amma sizin Muğanda törətdiyiniz cinayətlər İslamın qanunlarına sığmır. Bizim ölkəmizi işğal edən İbn Zeydlər, İbn Süheyllər və onların əl tulası olan bizim Akşinimiz bu zavallı xalqı talan etməklə İslama deyil, öz kisələrinə qulluq edirlər. Bax, buna görə də biz sizin xahişinizi qəbul etmirik. Bizim öz inamımız var.

**S a b u t a y** –Nədir o inam?

**A l t a y** –Qaranlıq gecələrimizi işıqlandıran, bizi isidən, xörəyimizi, çörəyimizi bişirən, ulusumuzun gözətçisi, könlümüzün atəşi, andımız, şərəfimiz od! Bu ki, sənə məlumdur.

**S a b u t a y** –O əqidə köhnəlib.

**Ç ı l ğ ı n** –Vətənimiz də köhnədir, dilimiz də. Bəlkə, onları da dəyişək?

**X a l a** –Biz öz ölümüzə istədiyimiz kimi ağlamaq istəyirik.

**S a b u t a y** –Mən sizin üçün deyirəm. Qoymayın sizi qılıncdan keçirtsinlər. Əl çəkin bu cansız od-ocaqdan, gəlin həqiqət yoluna.

**A ğ s a q q a l** –Bayaq dedim, biz İslam dininin də böyüklüyünə, Allah tərəfindən göndərildiyinə inanırıq. Sənin atan Babək də İslama qarşı yox, qəsbkarlığa qarşı vuruşurdu. Lakin sənin ağan bu dindən ölkələri qəsb və qarət etmək üçün istifadə edəndə mən səndən soruşuram: Öz evimdə məni qul eləmək, özgə dini mənə zorla qəbul etdirmək, varımı, dövlətimi daşımaq nə vaxtdan ədalət, həqiqət sayılıb?

**A l t a y** –Bütün dinlər Allaha çatmaq yoludur. Biz İslamın müqəddəsliyinə, onu yaradan Peyğəmbərin də böyüklüyünə şəkk etmirik. Lakin din silah gücünə ürəklərə yol tapa bilməz. Din öz təmizliyi və müqəddəsliyi ilə öz-özünə yol açmalıdır.

**S a b u t a y** –Qardaşlar, bacılar, yalvarıram sizə, gəlin haqq yoluna.

**A ğ s a q q a l** –Yoldan çıxmaq üçün min yol var, amma həqiqətin yolu birdir.

**S a b u t a y** –Vallah, əziləcəksiniz! Billah, sizi məhv edəcəklər. Mən sizin qarşınızda diz çökürəm. Yazığınız gəlsin özünüzə. *(Diz çökür.)*

(İşıq sönür, şeypurlar gurlayır.
Uzaqdan atların ayaq səsləri eşidilir. İşıq yanır.)

**Altay** –Qoşun gəlir, qoşun gəlir.

**Çılğın** –Necə?!

**Altay** –Yarqıtay siyirmə qılıncla gəlir.

**Sabutay** –Ola bilməz!

(Hamı çəkilir. Səhnə arxasında döyüş gedir. Sabutay tək döyüşür.
Yarqıtay əlində qılınc daxil olur.)

**Sabutay** –Yarqıtay, bu nə deməkdir?

**Yarqıtay** –Sərkərdə, bu sənsən?

**Sabutay** –Sualıma cavab ver! Bu nə deməkdir?

**Yarqıtay** –Sən onlara yalvardın, qarşılarında diz çökdün, təklifini qəbul etmədilər. Demək, qılıncsız mümkün deyil.

**Sabutay** –Sənə kim bu səlahiyyəti verib.

**Yarqıtay** –Akşin!

**Sabutay** –Ola bilməz! Sərkərdə mənəm, ya sən?

**Yarqıtay** –Bunu İbn Zeyddən soruş... İbn Tahir də burdadır.

(Çıxır, ərəb əsgərləri gəlir, tonqalları, atəşgədələri dağıdır. Sabutay
onları saxlamaq istəyir. Vuruşa-vuruşa gəlib keçn əsgərlərin içində
Sabutay yox olur. Çılğın gəlir, dağıdılmış atəşgədələrə baxır,
odun qarşısında diz çökür.)

**Çılğın** –Ulu Hörmüz, yoxsa, od qurban istəyir? İntiqam, intiqam!

(Çılğın ocaqdan bir parça od götürüb yüyürərək çıxır.
Sabutay onun yolunu kəsmək, əlindəki məşəli almaq istəyir. Arxadan səslər gəlir.)

**Ağsaqqal** –Camaat! Bəzz qalasına!

(Sabutay Çılğının ardınca qaçır. Müxtəlif tərəfərdən çıxan
Altayla İbn Tahir qarşılaşırlar.)

**Altay** –Paho, gün aydın, tülkü bəy!

**İbn Tahir** –Kimsən?

**Altay** –Məni tanımırsan?

**İbn Tahir** –Yox!

**Altay** –Özünü tülkülüyə qoyma, de görək bu nə cah-cəlaldır, bu

nə dəstgahdır? Ədə, sən tülkü Taybuğa deyilsən?

**İbn Tahir**–Mən Abdulla ibn Tahirəm!

**Altay**–Ədə, Taybuğa dönüb Abdulla oldu? Sən öl, adını dəyişmisən, özünü dəyişə bilməyəcəksən, həmən tülküsən.

**İbn Tahir**–Mən vəzirəm.

**Altay**–Vəzirsən? Bəs burda nə gəzirsən? Maşallah, ədə, kimin vəzirisən?

**İbn Tahir**–Akşinin!

**Altay**–Belə de! Axsaq atın kor nalbəndi olar!

**İbn Tahir**–Məni xəlifə özü təyin edib.

**Altay**–Pah atonnan! Nə tez böyüdün?.. Qılıncı at yerə, bişərəf! Satqına qılınc yaraşmaz *(Qılıncı onun əlindən alır.)*

**İbn Tahir**–Altay, qurbanın olum, qılınca dəymə.

**Altay**–Niy? *(Qılınca diqqətlə baxır.)* Ə, bu qiyamət şeydir ki! Oxu görüm burda nə yazılıb?

**İbn Tahir**–"Xəlifə Əlmötə"simdən Abdulla İbn Tahirə".

**Altay**–Səni öldürəcəkdim. Xəlifənin xətrinə dəymirəm. İndi oldun mənim qulum. Sən öl, nə desəm, de baş üstə. Elə ki, dediklərimi elədin, qılıncını qaytaracağam. Di get!

**İbn Tahir**–Altay, başına dönüm, qaytar qılıncımı! Səni and verirəm müqəddəs atəşə!

**Altay**–Kəs səsini, it oğlu! Atəşi murdarlama!

**İbn Tahir** *(Altayın qulağına astadan)*–Ürəyim sizinlədir.

**Altay**–Ədə, adamda neçə sifət olar? Anan səni atəşpərəst doğdu. İki xaçpərəst oğruya qoşulandan sonra xristian oldun. Sonra qızıl alverinə başlayıb musəvi oldun. Qaçdın Güneyə. Orda da müsəlman oldun. İndi yeni dostların səni vəzir eyləyib. Şah olmaq istəsən, hansı dini qəbul edəcəksən?

**İbn Tahir**–Qılıncı alırsansa, öldür məni. canım sənə qurbandır.

**Altay**–O qədər də qiymətli hədiyyə deyil. Sən öl, dediklərimi eləməsən, o birisi işlərini də Akşinə çatdıracağam.

**İbn Tahir**–Hansı işlərimi?

**Altay**–Akşini Babəkə satmağını.

**İbn Tahir**–O havaxt olub?

**A l t a y** –Sabutayın məktubunu Babkə gətirəndə altı ay bizə casusluq eləmədin? Akşinin Arpa dərəsindəki qoşunlarının yerini bizə göstərən sən deyildin?

(Ərəb əsgərləri görünür. A l t a y onlarla vuruşmağa başlayır, İ b n T a h i r aradan çıxır.)

## DÖRDÜNCÜ ŞƏKİL

(Şəhər kənarı. Uzaqda yanmış ərəb çadırlarının tüstüsü görünür. Y a r q ı t a y bir əsgərlə Ç ı l ğ ı n ı gətirir.)

**Y a r q ı t a y** –Şərəfsiz qız! Xəlifə elçisinin çadırını yandırmaqla sən Allaha qarşı çıxdın.

**Ç ı l ğ ı n** –Bəs dağıtdığınız atəşgədələr Allah evi deyildi?

(Ç ı l ğ ı n ı n qollarına qandal vururlar. S a b u t a y gəlir.)

**Ç ı l ğ ı n** –Bax, Babəkin oğlu, bax, ləzzət apar! Budur sənin tərifədiyin yol! Qolumuza zəncir, dilimizə qıfıl gətirib... Bax, ləzzət apar!

**S a b u t a y** –Çılğın!

**Ç ı l ğ ı n** –Satqın! Vətən xaini!

**S a b u t a y** –Açın onun qollarını!

**Y a r q ı t a y** –Sərkərdə...

**S a b u t a y** –Deyirəm, açın onun qollarını!

(S a b u t a y Ç ı l ğ ı n ı n qollarını açmaq istəyərkən İ b n T a h i r və İ b n Z e y d gəlir.)

**İ b n T a h i r** –Nə olub? Bu kimdir?

**Y a r q ı t a y** –Vəziri-ali, bu qız İbn Zeydin çadırını yandırdı.

**İ b n Z e y d** –Necə?

**İ b n T a h i r** –Bəs çadırın gözətçiləri harda idi?

**Ə r ə b ə s g ə r i** –Öldürüblər...

**İ b n Z e y d** –Çadır tamam yanıb?

**Y a r q ı t a y** –Bəli.

**İbn Zeyd** –Bəs içindəkilər?

**Yarqıtay** –Çadırdan heç nə qalmayıb.

**İbn Zeyd** *(Çılğına yaxınlaşır, onu diqqətlə süzüb)*–Yox, könüllər yandıran afət çadır yandıra bilməz. Bir qız üç gözətçini necə öldürə bilər? Amma yəqin ki, bu cinayəti törədənləri görüb, tanyır. Elə deyilmi, qız? Hamınız çəkilin, mən özüm onu dindirəcəyəm. *(Sabutaydan başqa hamı çəkilir.)* Sabutay, zəhmət olmasa, sən də get.

(Sabutay da gedir.)

**İbn Zeyd** –Sən ağıllı qıza oxşayırsan.

**Çılğın** – Mənim ağıllı olduğumu hardan bildin?

**İbn Zeyd** –Hər kəsin içi onun üzündən oxunur. Bu gözəllikdə qız nə çadır yandıra bilər, nə də adam öldürə bilər.

**Çılğın** –Amma o çadırı mən yandırmışam.

**İbn Zeyd** –Bəs gözətçiləri kim öldürüb?

**Çılğın** –Bizimkilər.

**İbn Zeyd** –Yəni kim? Adlarını de.

**Çılğın** –Adları - Xürrəmi. Bizdə hamı xürrəmi adlanır.

**İbn Zeyd** –Çadırın yandığını bildik. Bəs içindəkilər?

**Çılğın** –Hə... Başa düşdüm. Səni maraqlandıran içi qızılla dolu dəmir sandıqdır. O yanmadı.

**İbn Zeyd** –Orda qızıl nə gəzir? İçində mənim pal-paltarlarım, silahlarım var idi.

**Çılğın** –O sandıq çox etibarlı bir yerdə gizlədilib. İçində doğrudan da sən dediyin şeylər olsa, özünə qaytarılacaq.

**İbn Zeyd** –Onu elə indi qaytarın, mən də səni azad edim.

**Çılğın** –Aldatdım deməzsən ki?

**İbn Zeyd** –Qız, sən xəlifənin elçisi ilə danışırsan.

**Çılğın** –Kiminlə danışdığımı bilirəm. O sandıqdakılar xalqın malıdır, xalqa da qaytarılacaq.

**İbn Zeyd** –Qız, özünə yazığın gəlsin. Artıq burda sizinkilərdən bir nəfər də qalmayıb. Hamı qalaya çəkildi. Mənim əsgərlərimlə get, sandığı ver onlara, özünsə hara istəyirsən gedə bilərsən.

**Çılğın** –Sandıq qayıtmayacaq!

**İbn Zeyd** –İndi ki, belə oldu, zindanda çürüyərsən, ağlın başına

gələr. *(Əl çalır, əsgərlər gəlir.)* Aparın bu ləçəri zindana!

(Sabutay gəlir. Çılğını aparan əsgərlərin qabağını kəsir.)

**Sabutay** –İbn Zeyd, sənin bu ölkədə əmr verməyə ixtiyarın yoxdur. Bu ölkənin öz hökmdarı var.

**İbn Zeyd** –Mən onu günahına görə zindana saldırıram. Hökmü isə sizin hökmdarınız verəcək. *(Əsgərlərə)* Aparın!

**Sabutay** –Dayanın! İbn Zeyd, sən hansı ixtiyarla mənim əvəzimə orduya əmr verir, Xürrəmabada basqın etdirirsən?

**İbn Zeyd** –Əvvəla, sənin məndən hesabat istəməyə səlahiyyətin çatmır. İkincisi də, bu sualları mənə yox, əmin Akşinə verərsən.

**Sabutay** –Bir yerdə ki, ölkə sərkərdəsinin xəbəri olmadan orduya başqası hücum əmri verir, mən belə sərkərdəlikdən imtina edir və mənə gətirdiyin qılıncı özünə qaytarıram.

(Qılıncı belindən açıb yerə atır. Çılğın xoş nəzərlərlə Sabutaya baxır. Əsgərlər onu aparırlar.)

**Xala** –Çılğın, qızım, hara aparırlar onu? (Çılğının dalınca gedir.)

**Sabutay** –Ata, ata... Ey mənim Babək atam! Sən haqlısanmış!

## BEŞİNCİ ŞƏKİL

(Pərdənin qarşısı. Xala görünür. İbn Tahir kənardan onu izləyir. İbn Tahir qarıya yaxınlaşır.)

**İbn Tahir** –Ay bacı, ay ana.

**Xala** –Buyur.

**İbn Tahir** –Sən, axı, mənə tanış gəlirsən.

**Xala** –Adam adama oxşayar, burada nə var ki...

**İbn Tahir** –Sən oxşamırsan, axı, sən onun özüsən.

**Xala** –Yəni kim? *(Sükut.)*

**İbn Tahir** –Banuçiçək rəhmətliyin Qəbələdə yaşayan bacısı. *(Sükut.)*

**Xala** –Sənin nə borcuna mən kimin bacısıyam, ya xalasıyam?

(Gedir. Pərdə açılır. Saray. Birinci və ikinci şəkillərdəki səhnə.

Akşin və Sabutay.)

**Akşin** –Bu nə deməkdir, Sabutay, mən səni başa düşə bilmirəm. Sən neylədiyini bilirsənmi? Sən nə haqla mənim əmrimdən boyun qaçırıb, xəlifənin sənə göndərdiyi qılıncı yerə atır, bir mürtəd qızdan ötrü bizi xəlifə qarşısında gözü kölgəli, özünü isə rüsvay edirsən? Qulaqlarıma inana bilmirəm.

**Sabutay** –İnan, əmi. Mən özüm də bir müddət elədiklərimə inana bilmədim. Sonra gördüm içimdə nə isə bir səs qımıldanır, inandıqlarımın səsini boğur, məni inanmadıqlarıma çağırır.

**Akşin** –Bu nə deməkdir?

**Sabutay** –Əmi, aldığım sərkərdəlik rütbəsi gözlərimi dumanlandırdı. Muğanda camaata divan tutdum, yoxsulların altından xalçapalazını çəkdim. Qadınların barmağından üzüyünü, qulaqlarından sırğalarını, boyunlarından daş-qaşlarını dartıb qopardım, uf demədim. Həm də özümü İbn Zeydə göstərirdim... Demək istəyirdim ki, bax, gör, mən özümə düşmən, özgəyə sadiqəm, sizin qulunuzam.

**Akşin** –Sus! Danışma!

**Sabutay** –Mən danışmıram, qəlbim danışır, əmi.

(İşıq sönür, arxada Babəkin teyfi görünür. Babək qəhqəhə çəkib gülür.)

**Akşin** –Nəyə gülürsən?

**Babək** –Özgənin təşəkkürünü qazanmaq üçün özünə düşmən kəsilən siz bədbəxtlərin aqibətinə gülürəm.

(İşıq yanır. Akşin, Sabutay.)

**Akşin** –Sus! Sus! Bəsdir!

**Sabutay** –İçimdəki o səs, heç demə, atamın səsi imiş. O mənə, mənim qəddarlığıma gülür, məni başqa bir dünyaya çağırırdı... O səsi boğmağa çalışdım... Lakin İbn Zeyd "ərəblərdən vergi almamalısan" - dediyi zaman içimdəki həqiqət səsini boğmağa mane oldu... Tərəddüd başlandı. Sənin fərmanını alanda həqiqətin səsinə inandım... İnandım ki, biz aldanmışıq.

**Akşin** –Yalan deyirsən! Sən aldanmamısan, əksinə , məni aldatmısan. Sən öz atanın oğlu olaraq qalırsan.

**Sabutay** –Mən öz el-obamı indi tanımağa başlayıram. İlahi,

onlar nə qədər mərddir. Sözləri bütövdür. Özləri kimi. Ürəkləri açıqdır, süfrələri kimi. Onların bir üzü var, onlar biclik bilmir. Onlar yalnız haqqın dilində danışır. Mən başa düşdüm ki, bu gəlmələr torpağımızı talamaq üçün gəlib.

**A k ş i n** –Sabutay, onu bil ki, səbrin də həddi var. Sən mənə qardaşımdan əziz olmayacaqsan. Babəki dar ağacına aparan bu əllər səni də yox etməyi bacarar.

**S a b u t a y** –Bax, buna inanıram!

**A k ş i n** –Onda qorx mənim qəzəbimdən! Səni İslamın haqq yolundan döndərən o mürtəd qızıdır. Düz deyiblər, məhəbbət insanın dinini də əlindən alar, imanını da. Nankor! Səni Samirədə oxutdum, xəlifəyə qohum, orduya sərkərdə elədim, indi üzümə ağ olursan?

**S a b u t a y** –Sərkərdə! *(Gülür.)* Doğrudan mən sərkərdəyəm?

**A k ş i n** –Atan mürtədin yanında qalsaydın, indi sən də onun kimi ya qurd-quşa yem olmuşdun, ya da hansı dərənin dibindəsə qoyun otarırdın...

**S a b u t a y** –Qoyun otarardım, amma qoyun olmazdım!

**A k ş i n** –Mən səni adam eləmişəm, adamlar cərgəsinə çıxartmışam.

**S a b u t a y** –Arıq bir it kök, boynu xaltalı bir itə rast gəlir, kök itdən xəbər alır: - Səni kim belə bəsləyib? Kök it cavab verir: - Sahibim. Mən onun ov tulasıyam. O, məni hara qısqırdır, ora cumuram, o da məni bəsləyir. Arıq it ah çəkib deyir: - Sənin kimi boynu xaltalı olub, onun-bunun üstünə qısqırdılmaqdansa, mənim kimi yarıac, yarıtox, azad yaşamaq gözəldir.

**A k ş i n** –Bəsdir, namərd, nəməkbəharam! Axı, sənə nə lazımdır? Niyə Tanrına təpik atırsan? Gör, biz kim idik, indi kim olmuşuq.

**S a b u t a y** –Sən hökmsüz şah, mən ordusuz sərkərdə!

**A k ş i n** –Rədd ol burdan!

**S a b u t a y** –Çılğını azad eləməlisən.

**A k ş i n** –O, edam olunacaq. Rədd ol, yoxsa, səni də ona qataram.

**S a b u t a y** –Hiddətlənmə! Gəl, sakit danışaq! Hiddət, qəzəb şahlara şahlıq edəndə, şahın aqibəti nökər olar. Əmi, mənə sənin sərkərdəliyin lazım deyil. Mən burdan baş götürüb gedəcəyəm. Amma səni and verirəm inandığına, Çılğını azad elə. Mənə bu dünyada yalnız o lazımdır.

(İ b n  Z e y d  və İ b n  T a h i r  gəlirlər.)

**S a b u t a y** –İbn Zeyd, eşitdiyimə görə, sən o günahsızı asmağı tələb etmisən.

**A k ş i n** –Sabutay!

**S a b u t a y** –Çadırı o yandırmayıb. Çadırın gözətçilərini öldürənlər yandırıb.

**İ b n  Z e y d** –Sənə inanaq, yoxsa, günahkarın özünə? Mən o qızı dindirdim, özü dedi ki, mən yandırmışam.

**A k ş i n** –Edam hökmünü mən vermişəm.

**S a b u t a y** –Çadırdan ötrü? *(Sükut.)* Bəs onda o boyda atəşgədələri dağıdanlara hansı cəza düşür?

**A k ş i n** –Sabutay, sən müsəlmansan.

**İ b n  Z e y d** –Xeyr, görünür, o da nəyinsə xatirinə müsəlman olub.

(S a b u t a y  gedir.)

**A k ş i n** – Mən bu məmləkəti bu qədər azğın bilmirdim! Yox, sən ciddi tədbir tökməsən, sonrası pis olacaq.

**İ b n  T a h i r** –Muğandan, Şirvandan qaçanlar Dəli Domrula pənah aparır. Onun qüvvəsi gün-gündən artır.

**İ b n  Z e y d** –Məni qorxudan odur ki, bütün xalq sənin əleyhinədir. Hətta öz evin, anan, qardaşın, qardaşın oğlu. Babək kimi nəhəngi məğlub edən, elə bil, sən deyilsən. Qoca ananın qabağında tir-tir əsməyinə məəttəl qaldım.

**A k ş i n** –İbn Zeyd, o anadır. Bizlərdə ana haqqı Tanrı haqqına bərabər tutulur. Elə peyğəmbərimiz də buyurmuş ki, cənnət ananın ayağı altındadır.

**İ b n  Z e y d** –Özünə sərfəli ayələri yaxşı əzbərləmisən.

**A k ş i n** –Mənə eyham vurma, İbn Zeyd, mən İslamı sevərək qəbul etmişəm...

**İ b n  Z e y d** –Amma qardaşın oğlu bir bazar qızının eşqinə dinini qurban verir.

**A k ş i n** –Mən Dəli Domrula xəbər göndərmişəm. Çadırın gözətçilərini öldürənləri təslim etməsə, o qız edam olunacaq.

**İ b n  T a h i r** –Bəs, Sabutay niyə belə elədi?

**İ b n  Z e y d** –Artıq Sabutay Babəkin oğlu olduğunu bildirdi, onun haqqında tədbirin nə olacaq?

**A k ş i n** –Bir şeyi unutmaq lazım deyil ki, o, hələlik xəlifənin kürəkənidir.

**İ b n  Z e y d** –Bu qohumluq daha baş tuta bilməz. Sabutay saray dustağı olmalıdır, onu özbaşına buraxmaq olmaz.

**İ b n  T a h i r** –İbn Zeyd haqlıdır. Biz onu özbaşına buraxsaq, o, xürrəmilərə qoşula bilər. Babəkin oğlu xürrəmilərə qoşuldusa, xalq üçün Babək təzədən doğulacaq.

**A k ş i n** –Bax, elə buna görə də gərək tələsməyək.

**İ b n  Z e y d** –Bunlar hamısı onun qanından gəlir.

**A k ş i n** –İbn Zeyd, mənim də damarlarımdan həmin qan axır.

**İ b n  Z e y d** –Akşin, sən mənim deyil, xəlifənin qarşısında sınaqdan çıxmısan. Ancaq mən öz fikrimi dedim.

**A k ş i n** *(İbn Tahirə)* –Şirvandan taxıl gəlib çıxdımı?

**İ b n  T a h i r** –Bəli.

**A k ş i n** –Bərdədən qırmız boyası necə?

**İ b n  T a h i r** –Bu gün səhər gəldi.

**A k ş i n** –Bəs xalı-xalça?

**İ b n  T a h i r** –Hər şey hazırdır.

**A k ş i n** *(İbn Zeydə)*–Əgər sən özün getmək istəyirsənsə, buyura bilərsən. İbn Tahir, İbn Zeyd nə zaman desə, əmr elə karvanlar yüklənsin!

**İ b n  Z e y d** –Mən, hələlik Samirəyə getmək məsələmi təxirə salıram.

**A k ş i n** –İxtiyar sahibisən.

**İ b n  Z e y d** –Çadırı yandırılmış elçiyə dincəlmək üçün bir yer ayırmaq mümkünmü?

**A k ş i n** –Buyura bilərsən.

(İ b n  Z e y d, İ b n  T a h i r gedir. R ə h m a n gəlir.)

**R ə h m a n** –Əlahəzrət, Xürrəmabaddan bir qadın gəlib, deyir Əlahəzrətə bir sirr açacağam.

**A k ş i n** –Sirr? Nə sirr?

**R ə h m a n** –Bilmirəm.

**A k ş i n** –Sirr açacaq? Yaxşı, çağır gəlsin. *(Rəhman çıxır, Sabutay*

*gəlir.)* Sirr, sirr! Bu gün mənim üçün çox sirlər açıldı, bu da olsun biri.

**S a b u t a y** –Biz özümüz özümüzə sirrik.

**A k ş i n** –Elə güman edirdim sənin ürəyin ovcumun içi kimi mənə aydındır. Heç demə, sən də bir sirsənmiş.

(**X a l a** daxil olur.)

**X a l a** –Mən Xürrəmabaddan gəlmişəm.

**A k ş i n** –Buyur.

**X a l a** –Banuçiçəyin bacısıyam.

**A k ş i n** –Hansı Banuçiçək?

**X a l a** –Dəmirdaşın qızı. Sənin tanıdığın o bədbəxt! Banuçiçək on yeddi il əvvəl özünü qayadan atdı... *(Sükut.)* Gərək ki, eşitmisən, qızı durur.

**A k ş i n** –Nə dedin?

**X a l a** –Deyirəm, qızı sağdır.

**A k ş i n** –Sağdır?

**X a l a** –Bəli. Çılğını azad elə. O, sənin qızındır.

**S a b u t a y** –Necə?

**X a l a** –Dedim ki, Çılğın Akşinin qızıdır.

**A k ş i n** –Çılğın? O dustaq qız?

**X a l a** –Bəli. Bu sirri mən on yeddi il sinəmdə saxlamışam. Heç ona da deməmişəm.

**A k ş i n** –Çılğın? O çadırı yandıran?

**X a l a** –Bəli!

**A k ş i n** –Sübut elə, qarı, sübut!

(**A n a** daxil olur.)

**A n a** –Sübut, mən! Bu qadın, sənin bədbəxt elədiyin Banuçiçəyin bacısıdır.

**A k ş i n** –İnana bilmirəm.

**X a l a** –Biz sənə inanmamaqda haqlıyıq. Sən bizə niyə inanmırsan?

**A k ş i n** –Dayan, dayan, sən o zaman harda yaşayırdın?

**X a l a** –Qəbələdə.

**A k ş i n** –Banuçiçək Qəbələyə qaçmışdı?

**X a l a** –Bəli, mənim yanıma.

**A k ş i n** –İlahi, bu nə cəzadır, sən mənə verirsən?

**X a l a** –Ulu Hörmüz cəzasını hələ indi başlayır.

**A k ş i n** –Sabutay, o qızı bura gətir. Yox, dayan, lazım deyil. Əgər bu həqiqətdirsə, necə gəlsin? Mən onunla nə danışım? Necə danışım? Çəkilin, gedin! Mən tək qalmaq istəyirəm. Bəlkə... Bura bax, qarı, bəlkə, uydurursan? Bəlkə... onu xilas eləmək üçün...

**S a b u t a y** –Yox, mən onu çağıracağam.

**A k ş i n** –Dayan, qoy qapıçı çağırsın.

(Sabutay çıxır. A k ş i n fikirli-fikirli gəzişir. Qulağına B a n u ç i ç ə y i n səsi gəlir: "Səni lənətə gələsən, A k ş i n , lənətə, lənətə!". Burda B a b ə k i n də səsi eşidilir: "Mən o şərəfsizi öldürəcəyəm, öldürəcəyəm". ılğın daxil olur. A k ş i n uzun müddət heyrətlə onu süzür.)

**A k ş i n** *(öz-özünə)*–Özüdür. Banuçiçəyin də alnında xal vardı.

**Ç ı l ğ ı n** –Xala, sən burda neyləyirsən? *(Xalanın üstünə atılır.)*

**X a l a** – Gəlmişəm, qızım, gəlmişəm səni görməyə.

**Ç ı l ğ ı n** *(Sabutayı görür)*–Qəribədir. Qılıncını atan sərkərdənin yenidən qardaş qatilinin yanında olması qəribə deyilmi?

**A n a** *(Akşinə)*–On yeddi il əvvəl elədiyin xətanın günahını bu gün də yumasan, nə vaxt yuyacaqsan?

**A k ş i n** *(Çılğına yaxınlaşıb saçlarını sığallamaq istəyir, özünü saxlayır. Geri çəkilir, bir də yaxınlaşır.)*–Çadırı sən yandırmamısan.

**Ç ı l ğ ı n** –Necə?

**A k ş i n** –Deyirəm, sən yandırmamısan!

**Ç ı l ğ ı n** –Axı, mən yandırmışam.

**S a b u t a y** –Biz də bilirik, amma sən elə deməməlisən.

**Ç ı l ğ ı n** –Niyə?

**A k ş i n** –İstəyirik ki, səni xilas edək.

**Ç ı l ğ ı n** –İstəyirsən, elə. Sən ki, padşahsan. Sən kimdən qorxursan.

**A k ş i n** –Sən de ki, mən acığa düşüb çadırın yandırılmasını boynuma götürdüm. Əslində, mənim bu işdən xəbərim yoxdur.

**Ç ı l ğ ı n** –Yalan deyim? *(Sükut.)* Yalana inanarlar? Yalana inanarlarsa, bəs həqiqətə niyə inanmırlar?

*Birinci hissənin sonu*

## İKİNCİ HİSSƏ

### ALTINCI ŞƏKİL

(Ə r ə b əsgərlərinin düşərgəsi. İ b n S ü h e y l i n çadırı. İ b n S ü h e y l və İ b n T a h i r)

**İ b n S ü h e y l** –İbn Tahir, vəziri-ali olandan bəri daha bizi saymırsan? Bəs hanı vəd elədiyin dağlar?

**İ b n T a h i r** –Əmirəlmömininin xəlifə həzrətlərinin sərkərdəsini mən nə karəyəm saymayım?

**İ b n S ü h e y l** –Mən ordumun təchizatından narazı deyiləm. Bəs mənim özümə qulluq nə oldu?

**İ b n T a h i r** –Əliboş gəlməmişəm.

**İ b n S ü h e y l** –Biz bu qədər əziyyət çəkirik, əvəzini görmürük, mən öz payımı istəyirəm.

**İ b n T a h i r** –Akşin şah olan torpaqda ot da cücərməz.

**İ b n S ü h e y l** –Biz, axı, Akşindən çox sənə inanırıq. Biz dost söhbəti eləmişdik.

**İ b n T a h i r** –Əli-qolu bağlı dost nə eləyə bilər, axı?

**İ b n S ü h e y l** –Səni vəzir eləyən, yəni əl-qolunu bağlayana bir əncam çəkə bilməz?

**İ b n T a h i r** –Hüzuruna gəlişimin elə əsas məqsədi budur. *(Məktub çıxarır.)* Bu məktubu dərhal çaparla xəlifəyə çatdırarsan. Çox vacib məktubdur.

**İ b n S ü h e y l** *(alıb məktuba baxır)*–Nə barədə?

**İ b n T a h i r** –Səndən gizli işim yoxdur. Çünki İbn Zeyd də mənə tapşırıb ki, mən birbaşa xəlifə ilə əlaqə saxlamayım, nə sözüm olsa, sənə deyim. Akşin işləri korlayıb... Xürrəmabada son hücumda Sabutay xəlifəyə düşmən olduğunu açıqca bildirdi. Akşinin qızı İbn Zeydin çadırını yandırıb, ata qızının üstündən ölüm hökmünü götürmək istəyir. Ən vacib məsələ - mən camaatdan yığılan ziynət şeylərinin siyahısını əldə eləmişəm. Bunu nə Akşin bilir, nə Sabutay, nə də İbn Zeyd... Məni çaşdıran odur ki, mənim əldə elədiyim siyahıda onların bir qismi Samirəyə gedəsi şeylərin siyahısında yoxdur.

**İ b n S ü h e y l** –Bəs bunu İbn Zeydə demədin?

**İ b n T a h i r** –Yox...

**İ b n S ü h e y l** –Niyə?

**İ b n  T a h i r** –Mən bütün bu işlər barədə birbaşa xəlifəyə yazmağı vacib bildim.

**İ b n  S ü h e y l** –Deməк, yığılan ziynət şeylərinin bir qismi xəzinədən gizlədilib?

**İ b n  T a h i r** –Burada günahkar üçündən biridir: ya Sabutay, ya Akşin, ya da... inana bilməsəm də - İbn Zeyd...

**İ b n  S ü h e y l** –Sən bu məsələnin izinə düşmüsən, axıra qədər get, qorxma.

**İ b n  T a h i r** –Səninlə dostluğum, xəlifəyə sədaqətim mənə cürət verir.

**İ b n  S ü h e y l** –Mən günü sabah bu məktubu xəlifəyə göndərərəm. Allah qoysa, uzağı 10 günə Samirədə olar. Sənin bu xidmətlərin əvəzsiz qalmayacaq, İbn Tahir... *(Gülür.)* Deyirsən, əliboş gəlməmisən? Söz verdiklərini gətirmisən?

**İ b n  T a h i r** *(iki mənalı)*–Onu da, o birisini də... Hələ desən, başqasını da...

(İ b n  T a h i r  əl çalır. Y a r q ı t a y  bir mücrü və bir xürrəmi qızı gətirir. Qız hirsindən dəlicəsinə rəqs edir. Hər ikisi qəhqəhə çəkib gülür.)

## YEDDİNCİ ŞƏKİL

(Zindan. Sağ tərəf dəhliz, sol tərəf zindan, arasında dəmir hasar. G ö z ə t ç i  gəzişir. Ç ı l ğ ı n  əyləşib, fikir içindədir.)

**S a b u t a y** *(gəlir)*–Aç qapını!

**G ö z ə t ç i** –Baş üstə!

(S a b u t a y  zindana keçir.)

**Ç ı l ğ ı n** – Nəyə gəlmisən?

**S a b u t a y** –Hamımız sənin xilasın üçün çalışırıq, Çılğın!

**Ç ı l ğ ı n** –Hiylənin, yalanın, riyanın əlləri üstündə gələn azadlıq mənə lazım deyil.

**S a b u t a y** –Səni anlaya bilmirəm, Çılğın.

**Ç ı l ğ ı n** –Yox, sən Babəkin oğlu deyilsən... Onun oğlu yalançı ola bilməz. Demək, sən mələk sifətinə girib bizim yanımıza gəldin, başımızı qatdın, o yandan da işarə elədin, qoşunlar qəflətən bizim üstümüzə

hücuma keçsin?

**S a b u t a y** –Mənim o qəfləti hücumdan xəbərim olmayıb, Çılğın... Bunu sənin yanında İbn Zeydə də dedim. Bu barədə sonra söhbət edərik, indi səni ölümdən qurtarmaq lazımdır. Axı, bircə kəlmə "mən yandırmamışam" deməyə nə var ki?

**Ç ı l ğ ı n** –Başımı da kəssələr, mən yalan danışmayacağam. Bir də... mən anlaya bilmirəm, qardaş qatilinə nə düşüb ki, məni xilas etmək istəyir?

**S a b u t a y** –O, deyə bilmir. Amma sən bu həqiqəti bilməlisən, Akşin sənin atandır.

**Ç ı l ğ ı n** –Necə? Atam?

**S a b u t a y** –Bəli, atan! O gün bu xəbəri çatdırmaq üçün xalan Akşinin yanına gəlmişdi.

**Ç ı l ğ ı n** –Bəs xalam niyə bu vaxta qədər bunu mənə deməyib?

**S a b u t a y** - Onun da səbəbi var. Ancaq, gəl, indi biz bir zaman olmuş hadisələrin xırdalığına getməyək. Həqiqət budur ki, Akşin sənin atandır.

**Ç ı l ğ ı n** –Kaş, bilməyəydim... Demək...

**S a b u t a y** –Biz qohumuq, Çılğın... Əmimdən əvvəl mən yol vermərəm səni edam etsinlər.

**Ç ı l ğ ı n** –Ulu Hörmüz! Biz nə bədbəxt nəslin övladlarıyıq. İki qardaş bir-birinə düşmən. Biri satqın, o biri sadiq. Sadiq qardaşdan olan övlad satqın, satqın qardaşdan olan övlad - sadiq, məhbus...

**S a b u t a y** –Zəmanə belə gətirib. Mən səni görən kimi sifətində bir doğmalıq duydum. Amma sən həm zahirən, həm daxilən öz atana deyil, mənim atama bənzəyirsən, Babəkə! İndi nə fikirdəsən?

**Ç ı l ğ ı n** –Babəki gözləyirəm.

**S a b u t a y** –Babək gələnə qədər səni sağ saxlamalıyıq. Sənin yemək-içmək məsələlərinlə özüm məşğul olacağam. *(Çılğın susur.)* Yeni gün bayramında necə oxuyurdular?

Çoxdan səni görmürəm,
Görmürəm, görmürəm.
Çəhrıbeyim, çəhribeyim!
Dərdin nədir, bilmirəm,
Bilmirəm, bilmirəm.
Çəhrıbeyim, çəhribeyim.

(Çılğını ağlamaq tutur. Sabutay zindandan çıxır.)

**Çılğın** *(dərdli-dərdli oxuyur)*–

Hər bir kəsin ürəyində
Min arzusu, diləyi var.
Qartallara dəyən oxun
Ucunda öz lələyi var.

Ələnirik sən də, mən də
Xeyrin-şərin ələyində.
Hər insanın ürəyində
Şeytanı var, mələyi var.

## SƏKKİZİNCİ ŞƏKİL

(İbn Zeydin çadırı. İbn Zeyd tək. Qapıçı gəlir.)

**Qapıçı**–Üzü örtüklü bir adam səni görmək istəyir.
**İbn Zeyd**–Silahını götür, burax.
**Qapıçı**– Silahsızdır.
**İbn Zeyd**–Yenə yoxla.

(Qapıçı çıxır. Bir qədərdən Altay daxil olur.)

**Altay**–Mən xürrəmiyəm. Səninlə açıq söhbətə gəlmişəm.
**İbn Zeyd**–Buyur.
**Altay**–Çadırında gizlətdiyin qızıl sandıq məndədir. Bundan hələ heç kəsin xəbəri yoxdur. Akşin də bilmir. Sən ona sandıqda əlbisələrin və əsləhələrin olduğunu demisən. Elədir, ya yox?
**İbn Zeyd**–Elədir.
**Altay**–İndi mən sandığını qaytarıram. Əvəzində Çılğını istəyirik.
**İbn Zeyd**–Necə və harda?
**Altay**–Sən günü bu gün Çılğını azad edirsən, üç gün sonra sənin sandığın öz ayağı ilə sənin çadırına gələcək.
**İbn Zeyd**–Birdən gəlməsə?
**Altay**–Vədinizə əməl etməyən sizsiniz. Bizimsə sözümüzlə

əməlimiz həmişə bir olub.

**İ b n  Z e y d** –Əvvəl sandığı gətirin, sonra.

**A l t a y** –Xeyir, razı deyilsənsə, biz sənin xəlifədən qızıl gizlətdiyini hamıya, o cümlədən Akşinə bildirəcəyik.

**İ b n  Z e y d** –Hədəni qoy bir tərəfə. Kişi kimi alverimizi eləyək. Alverdə nağd lazımdır. Sandığı gətir, qızı apar. Mənim nisyədən xoşum gəlmir.

**A l t a y** –Köhnə alverçi olduğunu eşitmişəm.

**İ b n  Z e y d** –İndi sən alverin vaxtını de.

**A l t a y** –Sandıq uzaqdadır. O, yalnız 3 günə gəlib çata bilər.

**İ b n  Z e y d** –Təhvil-təslimin vaxtını və yerini mən təyin edəcəyəm.

**A l t a y** –Onda birisi gün gecə yarısı mənim bir döyüşçüm sənin çadırına gələcək, orda vaxtını və yerini danışarsınız.

**İ b n  Z e y d** –Bu, başqa məsələ!

(A l t a y gedir.)

## DOQQUZUNCU ŞƏKİL

Zindan. A k ş i n gəlir.

**A k ş i n** *(gözətçiyə)*–Aç qapını. Mənim bura gəldiyimi kimsə bilməməlidir.

**G ö z ə t ç i** –Baş üstə, Əlahəzrət!

(A k ş i n zindana keçir.)

**A k ş i n** –Qızım!

**Ç ı l ğ ı n** –Ata! Mənim də dilimdən ata sözü çıxarmış! *(Akşin ona yaxınlaşmaq istəyir.)* Yox, yaxın gəlmə!

**A k ş i n** –Yaxşı! *(Sükut.)* O nədir?

**Ç ı l ğ ı n** –Gəlincik! Yox, bunu öldürə bilməzlər, axı, o, danışa bilmir. O, çadırı da yandıra bilməz. Əli-qolu var, amma hərəkət edə bilmir. *(Akşin yenə ona yaxınlaşmaq istəyir)* Yaxın gəlmə, yuxudan oyanar.

**A k ş i n** –Qızım!

**Ç ı l ğ ı n** –Qızım! Necə də ürəkdən deyirsən... Gözümü açandan deyiblər anam ölüb, inanmamışam. Atamı soruşmuşam, deyiblər itkin

düşüb, inanmamışam. Atalı körplərə həsəd aparmışam. Həmişə atamı axtarmışam. Mənə elə gəlirdi ki, mənim atam Babəkə bənzəyən bir qəhrəmandır. O, hardasa düşmənlərimizlə vuruşur. Bir gün o gələcək, qollarımızdakı zəncirləri qıracaq, bizi azad edəcək. İndi məlum olur ki, mənim atam bizə azadlıq yox, əsarət gətirənin özüymüş...

**A k ş i n** –Qızım, bu barədə yetər. İndi səni xilas etmək lazımdır.

**Ç ı l ğ ı n** –Bəs nəyi gözləyirsən?

**A k ş i n** –Yalnız bircə söz: de ki, çadırı mən yandırmamışam.

**Ç ı l ğ ı n** –Axı, mən hamının gözləri qarşısında yandırdım. Bunu hamı bilir. Mən öz günahımı başqasının boynuna necə ata bilərəm?

**A k ş i n** –Başa düş, bu şərtə İbn Zeydi razı saldıraram. Sənin günahın heç kəsin boynuna qoyulmayacaq. Qızım, hər şeyin qaydası var. Biz qanunla iş görməliyik. Axı, gərək heç kəs bilməyə ki, sən mənim qızımsan.

**Ç ı l ğ ı n** –Niyə? Niyə mənə başqalarının yanında "qızımdır" deməkdən qorxursan?

**A k ş i n** –Mən səni necə başa salım?

**Ç ı l ğ ı n** –Mənim gəlinciyim deyir ki, nə qədər ki, atamı tapmamışdım, onu tapmaq üçün yaşamaq istəyirdim. Tapandan sonra gördüm ki, atam mənim axtarışıma dəyməzmiş... Bax, istəyirsən özün soruş, gəlincik deyir ki, daha mən bu zindandan xilas olmaq istəmirəm.

**A k ş i n** –Onlar bilsələr ki, sən mənim qızımsan ... onda...

**Ç ı l ğ ı n** –Başa düşürəm, sən yadelli elçinin çadırını yandıran bir dəlinin doğmaca qızın olduğunu deyə bilmirsən. Deməkdən qorxursan. İndi mənim sənə yazığım gəlir.

**A k ş i n** –Bəsdir, qızım, bəsdir! Atanı tapmısan, sevinmək əvəzinə bu nə ittihamlardır?

**Ç ı l ğ ı n** –Atamı tapanda itirmişəm. Qaytar mənə xəyallarımdakı igid, fədakar atamı, qaytar!

**A k ş i n** –Qızım, atanı rədd eləmə!

**Ç ı l ğ ı n** –Mənim azad olmağımı istəyirsənmi? *(Sükut.)* İstəyirsənsə, təmizlən! Əl çək bu səltənətdən!

**A k ş i n** –Çılğın!

**Ç ı l ğ ı n** –Mən satqın atanın qızı olmaq istəmirəm. *(Akşin ona yaxınlaşmaq, saçlarını tumarlamaq istəyir.)* Əllərin mənə toxunmasın. Qorxuram, mən səndən qorxuram. O əllər öz millətinin qanına boyanıb.

**A k ş i n** –Qılınc vuranda titrəməyən bu əllər, gör, necə titrəyir.

**Ç ı l ğ ı n** –Sənin qılıncın öz millətini kəsib. Özünü öldürənlər qəhrəman olmur, ata.

**A k ş i n** –Qızım, dəlilik eləmə...

**Ç ı l ğ ı n** –Adımı deməkdən qorxma, mən, doğrudan da, dəliyəm.

**A k ş i n** –Dəli! *(fikirləşir).* Dəli! *(Nəsə tapmış kimi).* Elədir, dəli!

**Ç ı l ğ ı n** – Mən sənin üçün gizlində bala, aşkarda "dustaq" olmaq istəmirəm. Mənə ata lazımdır, hökmdar yox!.. Sən yurduna yurddaş, qardaşına qardaş, anana oğul olmadın, barı, balana ata ol! Mən səni təmizliyə çağırıram, ata, məni burdan xilas eləmək üçün yalançı yollar axtarma, düz yolla get!.. Yalvarıram sənə, aç, həqiqəti de. De ki, bu mənim balamdır. Bax, onda mən sənin atalığını qəbul edərəm.

(İ b n Z e y d bir nəfərlə zindanın dəhlizində görünür.
A k ş i n barmaqlıqdan onları görür.)

**A k ş i n** –İbn Zeyd! *(Gizlənmək üçün yer axtarır.)*

**Ç ı l ğ ı n** –Gizlən, gizlən, səni görməsinlər! *(Akşin zindanın küncündə qaranlıqda qeyb olur. Çılğın qəhqəhəylə gülür)* Hökmdar gizlənir, hökmdar qorxur!..

**İ b n Z e y d** (gözətçiyə)–Aç qapını.

**G ö z ə t ç i** –Aça bilməyəcəyəm.

**İ b n Z e y d** –Sən məni tanımırsan?

**G ö z ə t ç i** –Tanıyıram. Amma mən bildiyimi sən bilmirsən.

**İ b n Z e y d** –Məgər mən səndən az bilirəm?

**G ö z ə t ç i** –Sən birini bilirsən, birini yox.

**İ b n Z e y d** –Aç qapını, uzatma.

**G ö z ə t ç i** –Axı, qısalda bilmirəm.

**İ b n Z e y d** –Xataya düşmədik? *(Gözətçinin əlindən açarı alır.)*

**G ö z ə t ç i** – Xataya içəridə düşəcəksən, burada yox.

**İ b n Z e y d** –*(zindana keçir, yorğan-döşəyi, gümüş qab-qacağı diqqətlə süzüb)* Sən bu zindanda şahanə həyat sürürsənmiş ki... Bəh-bəh, gümüş qab-qacaq, atlas yorğan-döşək!

**Ç ı l ğ ı n** –Xoşuna gəlirsə, gəl, yerimizi dəyişək.

**İ b n Z e y d** –Sən tərsliyindən dönmədin. Amma mən mömin bir müsəlman kimi...

**Ç ı l ğ ı n** –Xalqdan yığılan qızılları oğurlayanda, müsəlman olduğunu unutmuşdun?

**İ b n   Z e y d** –Mən sənə onda da dedim. O sandıqda mənim pal-paltarım və dövlət əhəmiyyətli fərmanlar saxlanırdı. Özünə heyfin gəlsin, neçə gündür ki, yata bilmirəm.

**Ç ı l ğ ı n** –Niyə?

**İ b n   Z e y d** –Vicdanım məni yatmağa qoymur. Bilirsən, yazığım gəlir sənə. Mən, axı, sənə ötən dəfə də dedim, səni zindandan azad eləmək istəyirəm. Ancaq şərtim var.

**Ç ı l ğ ı n** –Şərti hələlik qoyaq bir tərəfə. Bəs sən özün verdiyin ölüm hökmünü necə, götürə bilərsən?

**İ b n   Z e y d** –Ölüm hökmünü mən yox, Akşin vermişdi.

**Ç ı l ğ ı n** –Onda azad olmaq hökmünü də gərək Akşin verə.

**İ b n   Z e y d** –Akşin kimdir? O, bizim buyruq qulumuzdur.

**Ç ı l ğ ı n** *(sükutdan sonra)*–İndi şərtini de.

**İ b n   Z e y d** –Dünən səni dəyişmək üçün yanıma adamlar gəlmişdi. Bilmək istərdim görək onlara inanmaq olarmı?

**Ç ı l ğ ı n** –Mən bilmirəm onlar kimlərdir.

**İ b n   Z e y d** –Xürrəmilərdəndir. Qulaq as. *(Üzüyünü göstərir.)* Bu üzüyə diqqətlə bax, üç gündən sonra bura adamlar gələcək. Bu üzüyü sənə göstərən ərəblə getməlisən.

**Ç ı l ğ ı n** –Hara?

(A n a gəlir.)

**A n a** *( gözətçiyə)* –Aç qapını!

**G ö z ə t ç i** –Ana, başına dönüm, məni bağışla, ixtiyarım yoxdur.

**A n a** – Aç deyirəm sənə!

**G ö z ə t ç i** –Birinin birindən xəbəri var, birindən yoxdur. Amma sənin ikisindən də xəbərin yoxdur.

**A n a** –Çərənləmə, aç qapını! *(Gözətçi qapını açıb gedir. Ana zindana keçir. Çılğını qucaqlayır.)* Nənən qurban sənə... *(Əlindəki bağlamanı açır.)* Sənə yaz göyərtisinin qutabını gətirmişəm. Gözümün qabağında ye, mən arxayın olum.

**Ç ı l ğ ı n** –Xala, sən narahat olma. Bir də nahaq bura gəlirsən. Görürsən, yeməyə hər şeyim var.

**A n a** –Mənə xala demə, nənənəm sənin, nənən qurban olsun sənə.

**Ç ı l ğ ı n** –Nənəm?

**A n a** –Bəs bilmirsən ki, sən Akşinin qızısan? Atan sənə baş çəkirmi? *(Sükut.)* Onda ata ürəyi hardaydı ki, sənə də baş çəkəydi. Mənəm gü-

nahkar ki, balalarımı birləşdirə bilmədim. İndi istəyirəm, heç olmasa nəvələrimi birləşdirim. Mən istəyirəm ki, sən Sabutaydan ayrılmayasan. *(Boğçadan gəlinlik paltarını çıxarıb Çılğına verir.)*

**Ç ı l ğ ı n** –Bu nədir, nənə?

**A n a** –Sənin gəlinlik paltarın.

(A n a çevriləndə İ b n Z e y d i görür.)

**A n a** –Sənin burda nə itin azıb, ey ərəb oğlu?

**İ b n Z e y d** –Arvad, abırlı danış.

**A n a** –Abırından bir az da bizə versən, biz də abırlı olarıq. Rədd ol burdan, dələduz!

(Onu itələyir.)

**İ b n Z e y d** –Babək kimi alçağı doğmağın bəs deyilmiş, sən hələ xəlifə elçisinə də əl qaldırırsan? Özün rədd ol burdan!

(A n a n ı itələyir, ana yıxılır. A k ş i n çıxır. Əlindəki bıçaqla İ b n Z e y d i n üstünə cumur. İ b n Z e y d də qılıncını çıxarır. A n a araya girir. A k ş i n i n əlindən bıçağı alıb kənara atır.)

**A n a** –Sən it öldürənsən?

**A k ş i n** –Kişiliyini qoca bir qadına əl qaldırmaqla sınayırsan? Qurban olasan, bu ağbirçək anama. Demək, mən sizin buyruq qulunuzam?

**A n a** –Bəs bunu sən hələ indi bildin?

**İ b n Z e y d** –Mənə əl qaldıran alçağa bax.

**A n a** –Sən ondan çox da ucada deyilsən... İkiniz də bir yuvanın quşusunuz. *(Gedir.)*

**İ b n Z e y d** –Xürrəmilərə qulluq edən bir kafirin qızı olduğunu xəlifədən gizlədən xain!

**A k ş i n** –Amma mən sənin kimi xəlifədən qızıl gizlətməmişəm.

**İ b n Z e y d** –Yaxşı sənin günahını mən bildim, mənimkini də sən. Mən də susuram, sən də...

**A k ş i n** –Nə demək istəyirsən?

**İ b n Z e y d** –Sənin gənclik illərindəki bəd əməllərinə görə camaatın nifrətini qazandığını və camaatdan qisas almaq üçün islamı qərəzlə qəbul etdiyini, xəlifəyə xəyanət edən Sabutay Babək oğlunu qanadın altına aldığını, mənim çadırımı yandıran bu qızın sənin doğmaca qızın olduğunu mən xəlifəyə çatdırmayacağam. Sən də mənim oğurlanan

sandığımın üstünü vurmayacaqsan. Əl əli yuyacaq, əl də qayıdıb üzü.

**A k ş i n** –Çılğının, həqiqətən, mənim qızım olduğunu mən o, zindana düşəndən sonra bilmişəm. Mən bu gənclik xətamı islamı qəbul etməmişdən əvvəl törətmişdim. Mənim əqidəmə və etiqadıma bunun heç bir dəxli yoxdur. Mən millətimi zəlil günə qoyub, ondan yığdırdığım 2-3 qatartıq vergi ilə xilafətə sədaqətimi sübut etdim. Sən isə onu xəlifədən gizlətməklə ona xəyanət etmisən. İndi de görək, hansımızın xəyanəti daha böyükdür?

**İ b n  Z e y d** –Böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, hər ikisi xəlifəyə xəyanətdir. Gəl, əl-ələ verib yollaşaq.

**A k ş i n** –Onda, gəl, açıq danışaq. Mənə aydındır ki, İbn Tahiri mənim üstümə nəzarətçi qoymusunuz. Çılğının mənim qızım olduğunu İbn Tahir sənə deyibmi?

**İ b n  Z e y d** –Yox, mən indi, burda bildim.

**A k ş i n** –Deməyibsə, demək bilmir. Bu, çox yaxşı.

**İ b n  Z e y d** –O bilsəydi, dərhal mənə çatdırardı. Sən əmin ol ki, İbn Tahirin xəlifə ilə birbaşa əlaqəsi yoxdur. O, mənə və İbn Süheylə tabedir. İkincisi, mənim burda olduğum müddətdə baş verənləri o, heç kəsə çatdıra bilməz. O, yalnız mən burdan gedəndən sonra məlumat göndərə bilər. Bundan da qorxma. Çünki İbn Süheyllə bizim aramız açıqdır. Gizlətdiyim qızıldan ona da pay düşməli idi. İbn Süheyllə hər şeyi yoluna qoyaram.

**A k ş i n** –İndi de görüm, nəyə görə Çılğını azad eləmək istəyirdin?

**İ b n  Z e y d** –İstəyirdim ki, sandığı geri qaytarım.

**Ç ı l ğ ı n** - Çıxın burdan, xainlər. İbn Zeyd, sən səni bu mərtəbəyə qaldıran xəlifənə xəyanət etdin, Akşin isə öz doğma millətinə. Bu zindan xainlər və natəmizlər üçün deyil, sadiqlər və təmizlər üçündür. Siz bura yaraşmırsınız. Çıxın burdan. *(Onları itələyib zindandan çıxarır).*

**A k ş i n** *(çöldə)*–Sən özün görürsən ki, o havalıdır. Onunla danışmaq mümkün deyil. Amma mən sənin oğurlanmış qızıllarının əvəzini ödəyərəm. Birinci karvanın sarvanına elə bu axşam 20 qızıl külçə çatdırılacaq.

**İ b n  Z e y d** –Atan oldu rəhmətlik. Mən də onun bir hissəsini İbn Süheylə verəcəyəm. Mən gedəndən sonra İbn Tahirin göndərəcəyi xəbərlərin üstünü örtdürəcəyəm.

**A k ş i n** –Nə vaxt getmək istəyirsən?

**İ b n  Z e y d** –Səninlə söhbətimizi qurtaran kimi gedəcəyəm. Qızını - Çılğını mən sənə xəbər göndərəndən sonra azad edərsən.

(Gedirlər. Ç ı l ğ ı n ananın A k ş i n i n əlindən alıb yerə atdığı bıçağını yerdən götürüb, balışının altında gizlədir.)

**Ç ı l ğ ı n** –Atamın bıçağı!

## ONUNCU ŞƏKİL

(Saray. İ b n  T a h i r gəlir.)

**İ b n  T a h i r** –İbn Zeyd, İbn Süheyldən çapar gəlib.
**İ b n  Z e y d** –De, gəlsin.

(İ b n  T a h i r çıxır.)

**A k ş i n** *(Mücrüdən məktub çıxarıb İbn Zeydə verir)*–Bu, mənim Əmirəlmöminin xəlifə həzrətlərinə məktubum.

(S a b u t a y gəlir.)

**S a b u t a y** *(İbn Zeydə)*–Eşitdim gedirsən?
**İ b n  Z e y d** –Bəli.
**S a b u t a y** –Çılğına verdiyin ölüm hökmü öz qüvvəsində qalırmı?
**A k ş i n** –Sabutay, sən mənim işimə qarışma!

(İ b n  T a h i r çaparla gəlir.)

**Ç a p a r** –İbn Süheyl, İbn Zeyd cənablarının pişvazına çıxacaq. O bilmək istəyir ki, karvanları harda qarşılasın?
**A k ş i n** –Mənim əsgərlərim İbn Zeydi Beyləqana qədər ötürəcək. İbn Süheyl karvanları elə orda da qarşılasın. *(Çapar gedir.)* İbn Tahir, siyahı hazırdırmı?
**İ b n  T a h i r** –Hazırdır. Möhürü vura bilərsən.

(A k ş i n siyahıya baxır.)

**A k ş i n** –Neçə karvan olacaq?

**İ b n  T a h** ir–Üç karvan. Hər karvanda qırx dəvə.

**A k ş i n** –İbn Zeyd, get çadırına, mən siyahını möhürləyib gətirəcəyəm. *(İbn Zeyd, İbn Tahir çıxır. Sabutaya)* – Sən də ağlını başına yığ.

**S a b u t a y** –Əmi, mən sənə demişəm, yenə deyirəm, mənə nə sərkərdəlik lazımdır, nə də başqa rütbə. Çılğını ver, mən burdan rədd olum gedim.

**A k ş i n** –Xürrəmabadamı?

**S a b u t a y** –Onu özüm bilərəm.

**A k ş i n** –Akşinin qızının və sənin Xürrəmabadda olması mənim məhvimdir. Sən bunu anlayırsan, ya yox? *(Babəkin qəhqəhəsi eşidilir. Akşin qulaqlarını tutur.)* Bəsdir, bəsdir, mən hara qaçım bu qəhqəhələrin əlindən?

(İşıq sönür, B a b ə k i n  t e y f i  görünür.)

**B a b ə k** –Qaça bilməyəcəksən. Bəs indi niyə soruşmursan ki, mən niyə gülürəm. Ona görə ki, niyə güldüyümü artıq görürsən, bilirsən.

**A k ş i n** –Mən heç nə görmürəm, heç nə bilmirəm.

**B a b ə k** –Gəlmələrin hörmətini qazanmaq üçün doğma xalqının hörmətini itirdin... Bu hörməti də artıq əlində saxlaya bilmirsən... Sənin aqibətin nə olacaq?

**A k ş i n** –Sənsən günahkar, sənin ruhundur günahkar, sən ölülüyünlə daha çox dirisən. Sən hər yerdə qarşıma çıxır, mənə mane olursan.

**B a b ə k** –Nə qədər ki, öz əqidənə inanır, öz əqidən yolunda mənimlə çarpışırdın, sən qorxmaz bir igid idin, indi isə miskinsən, yazıqsan.

**A k ş i n** –Mən heç zaman öz yoluma şübhə eləməmişəm. İbn Zeyd kimilər mənim inamımı sarsıda bilməz. Mən xəlifənin vuran qoluyam.

**B a b ə k** –Sən öz işini görüb qurtardın. Artıq o qol xəlifəyə lazım deyil, indi ona ayrı qol lazımdır. Dünənki qəhrəman Akşin bu gün İbn Zeyd kimi əqidəsiz pulgir ilə alverə girir. Amma belə alverlərin ömrü çox gödək olur. Sən burda da uduzmusan. Sən qızını eşit. Yalanlardan əl çək. Ya yalanlar üzərində qurulan bu taxt-tac, ya da həqiqət.

(B a b ə k i n  t e y f i  çəkilir.)

**S a b u t a y** – Sən bircə kəlmə ilə de görək, Çılğın zindandan azad olacaq, ya yox? *(Sükut.)* Eşitdiyimə görə sən ona dəli damğası vurursan? *(Sükut.)* Düz yolla get, əmi, əyri yollar axtarma!

**A k ş i n** – Mənə yol göstərmə!

(*S i y a h ı y a* möhür vurub çıxır.)

**S a b u t a y** (tək) – Ölkə talandı, xalq dilənçi kökünə düşdü. 3 karvan, hər karvanda qırx dəvə... yüz iyirmi dəvə yükü Samirəyə yola düşür... İnsan – gözəlliyindən, tovuz quşu - əlvan qanadlarından, ahu – göbəyindəki ətirdən, ölkə də sərvətindən bədbəxt olur. *(Üzünü səhnənin arxasına çevirib)* Rəhman!

(*R ə h m a n* gəlir.)

Altaya xəbər elə, Beyləqanın üç ağaclığındakı kollu dərəsini tutsun. Karvan ordan keçəcək.

## ON BİRİNCİ ŞƏKİL

(Akşin fikirli əyləşib. Sabutay gəlir.)

**S a b u t a y** –Əmi, Dəli Domrulun dəstəsi karvanları yağmalayıb.
**A k ş i n** –Necə?
**S a b u t a y** –İbn Zeydi əsir alıblar.
**A k ş i n** –Bəs mühafizə dəstəsi?
**S a b u t a y** –Hamısını qılıncdan keçiriblər.
**A k ş i n** –Demək, İbn Zeyd İbn Süheylə çata bilməyib?
**S a b u t a y** –Yox. İbn Süheyl Beyləqanda oturub İbn Zeydi gözləyir... Bu, ulu Tanrının işidir, əmi, o, xalqın ah-naləsini eşitdi. Xalqın malı özünə qayıtdı.
**A k ş i n** –İlahi!.. Onlar bunu hardan bilib? Necə bilib? Biz batdıq, Sabutay! Sən bilmirsən, İbn Zeyd mənim əlimdəydi. O, artıq bizə işləyirdi. Bundan sonra biz Çılğını da azad edə bilməyəcəyik.
**S a b u t a y** –Sən Çılğından arxayın ol.
**A k ş i n** –Necə yəni?
**S a b u t a y** –İndi Dəli Domrul adam göndərəcək. İbn Zeydi sənə qaytarmaq şərtilə Çılğını istəyəcəklər!
**A k ş i n** –Sən bunu hardan bilirsən? Yoxsa...
**S a b u t a y** –Hardan bildiyimi sonra biləcəksən. İndiysə bizə Çılğını azad eləmək lazımdır.
**A k ş i n** –Tutaq ki, biz bu alverə getdik. Bəs karvanlar nə olsun?

Biz təzədən xəlifəyə nə göndərək?

(Sükut. **İbn Tahir** gəlir.)

**İbn Tahir**–Əlahəzrət, bu nə xəbərdir? *(Sükut.)* Bunu onlara kim çatdıra bilər?

**Akşin**–Sənin bələdçilərin.

**İbn Tahir**–Mənim bələdçilərim yola çıxana qədər bilmirdilər ki, havaxt, hansı yolla gedəcəklər.

**Akşin**–Sənin bələdçilərin səndən və məndən ayıqdır. Biz yatmışıq, vəziri-ali!

**İbn Tahir**–Mən yatmamışam, əlahəzrət. Mən hər şeyi yaxşı görürəm.

**Akşin**–Nə demək istəyirsən?

**İbn Tahir**–Nə demək istədiyimi sən yaxşı bilirsən. *(Sükut.)*

**Akşin**–De görək, mənim tərcümeyi-halımı İbn Zeydə kim çatdırıb?

(**Yarqıtay** daxil olur.)

**Yarqıtay**–Altay Əlahəzrəti görmək istəyir.

**İbn Tahir**–Məlumdur! Alverə gəlib!

**Akşin**–Burax gəlsin!

(**Yarqıtay** çıxır, **Altay** gəlir.)

**Altay**–Akşin! Bu günə qədər mən səni bir əqidə sahibi kimi tanıyır, əqidənə nifrət etsəm də, özünə nifrət edə bilmirdim. Çünki əqidə sahibi başqasının da əqidəsinə hörmət etməyə borcludur. Bu gün gördüm ki, sən əqidənə də sadiq deyilsən!

**Akşin**–Sus!.. *(Yarqıtaya)* Yum onun ağzını!

**Altay**–Dayan! Mənim başımdan bir tük əskik olsa, onda İbn Zeydin halını düşün. İkincisi, İbn Zeydə bir şapalaq vuran kimi hər şeyi danışdı. Siz ikiniz də xainsiniz.

**İbn Tahir**–Belə de.

**Altay**–İbn Tahir, Akşinin iki sifəti var, amma sənin min sifətin.

**İbn Tahir**–Mənim?

**Altay**–Bəli!.. Sənin!.. Səninkiləri də açım?.. Akşin! Bu alçaq, vaxtilə Babəkə qulluq göstərirdi. Arpa dərəsindəki sənin məğlubiyyətin bunun casusluğu ilə olmuşdu...

**İbn Tahir**–Yalandır!
**Altay**–Babəkə yazdığın məktubu məndədir.

(Məktubu göstərir. Akşin məktubu oxuyur.)

**Akşin**–İbn Tahir, deməli sən iki tərəfə işləmisən?
**Altay**–İndi ondan soruş, xəlifənin ona bağışladığı qılınc hanı?
**İbn Tahir**–Sən aldın, sən.
**Altay**–Mən sizi bir-birinizə tanıtmaq üçün gəldim! Tanıdınız! İndi özünüzü tanımaq sizə asan olar! Yazıqlar! Miskinlər! Bir-birinizin üstündə nəzarətçisiniz! Bir-birinizdən qorxursunuz! Nə sən şah kimi şahsan, nə o vəzir kimi vəzir! Özgəyə yamaq olan şah olsa belə, azadlığa damaq olar! Bədbəxtlər! Ayılın! Gəlin, əl-ələ verək, məmləkətimizi bu rəzalətdən, sizi də bu miskinlikdən qurtaraq!
**İbn Tahir**–Rədd ol!
**Altay**–Akşin! Səni başqasına nökər edən bu taxt-tacda nə görmüsən?
**Sabutay**–Əmi, fikirləş! Ya şahlıq, ya atalıq, insanlıq!
**Akşin**–Artıq fikirdən keçib.
**Altay**–Mən öz borcumu yerinə yetirdim! İkinci təklifimə qulaq as, Çılğını verin, İbn Zeydi qaytaraq.
**İbn Tahir**–İki şərtimiz var.
**Altay**–Buyur.
**İbn Tahir**–Sənin burda dediklərin burda da qalmalıdır! İkinci, mənim qılıncımı qaytar!
**Altay**–Arxayın ola bilərsən, İbn Tülkü, biz sizin qədər alçalmamışıq ki, özümüzünküləri gəlməyə sataq...
**İbn Tahir**–Bəs alverimiz nə vaxt olacaq?
**Altay**–Biz sizə xəbə r göndərərik. Hələlik, mən getdim, siz isə öz aranızda dil tapmağa çalışın. Şərəfsizliyin bir dili olduğundan siz bir-birinizlə tez dil tapa bilərsiniz.

(Altay gedir.)

**Sabutay**–Xilafət geci-tezi hamısını biləcək, yenə fikirləşin!
**İbn Tahir**–Biz bir-birimizin üzünə durmasaq, heç kəs bizə heçnəyi sübut eləyə bilməz!
**Akşin**–Biz bir-birimizin üzünə durmasaq!.. Gör, biz nə qədər rəzilik!.. Niyə biz bu qədər alçaldıq?! Mən Altaya qibtə elədim, qar-

şısında qılıncımız kəsərsiz, dilimiz gödək oldu!.. Ölüm, ölüm fərzdir bizə! *(Çöldən şeypur səsləri gəlir.)* Bu nədir?

(**Yarqıtay** gəlir.)

**Yarqıtay** –Xilafət ordusu şəhərə daxil oldu.

**Akşin** *(qəhqəhə çəkib gülür)*–Aydındır. Sabutay, qaç qurtar.

**Sabutay** –Hara?

**Akşin** – Məndən niyə soruşursan? Qaç, Çılğını da qaçırt.

(**Sabutay** gedir. **İbn Süheyl** bir neçə zabitlə daxil olur.)

**İbn Süheyl** –Əmirəlmömininindən salamlar!

**Akşin** –Qədəmləriniz mübarək!

**İbn Süheyl** –Azərbaycanda vəziyyətin gün-gündən ağırlaşdığını bilən xəlifə həzrətləri məni yenidən sizin köməyinizə göndərdi. Əmirəlmömininin burada baş verən hadisələri yoxlamaq üçün məni özünün səlahiyyətli elçisi kimi sizə təqdim edir.

(Fərmanı **Akşinə** verir.)

**Akşin** –Çox gözəl!..

**İbn Süheyl** –Biz şəhərə daxil olduğumuz zaman Samirəyə gedən karvanların quldurlar tərəfindən soyulduğunu və İbn Zeydin əsir alındığını eşitdik. İndi bizim birinci vəzifəmiz İbn Zeydi azad etməkdir.

**İbn Tahir** –O, bu axşam azad olacaq.

**İbn Süheyl** –Necə?

**İbn Tahir** –Biz İbn Zeydin çadırını yandıran dustaq qızı azad edəcək, onlar da İbn Zeydi bizə qaytaracaqlar.

**İbn Süheyl** –O qız azad ola bilməz. Onun boynu vurulmalıdır!

(Uzun sürən sükut.)

**Akşin** – Cənab İbn Süheyl! Çadırı o qız deyil, çadırın gözətçilərini öldürənlər yandırıb. Əsl günahkarları ələ keçirmək üçün biz o qızı girov saxlamışıq. İkincisi, o qız ruhi xəstədir.

**İbn Süheyl** –Sənə verilən ittihamlardan biri də budur ki, sən xilafətin düşmənlərini qohum olduqlarına görə himayə edirsən. Bəs Sabutay hanı?

**İbn Tahir** –İndicə burdaydı...

**İbn Süheyl** –O tapılmalıdır! *(Əsgərlərdən birinə)* Zindanın ətrafına keşikçilər qoy, o, mütləq ora getməlidir. (Əsgər çıxır.)

**İbn Süheyl** –Sən çox şeyi xilafətdən gizlətmisən.

**Akşin** –Külli-aləm bilir ki, mən xilafət yolunda...

**İbn Süheyl** –Keçmiş keçmişdə qaldı. O məhbus sənin qızındır, ya yox? *(Sükut.)*

**Akşin** –Sizə düz məlumat verməyiblər!

**İbn Süheyl** –Deməк, danırsan? Çox yaxşı! Biz bunu sübuta yetirərik. Xəlifənin səlahiyyətli elçisinin çadırını yandıran o mürtəd niyə bu vaxta qədər edam olunmayıb?

**Akşin** –Zati-ali, şəriətə görə, başına hava gələn adamı edam etmək olmaz.

**İbn Süheyl** –O dəli deyil və ölməlidir! Bu, Əmirəlmöminin əmridir! Akşin! Bu, sənin xilasın üçün yeganə yoldur... İndiysə, xahiş edirəm, bizi İbn Tahirlə tək buraxasan. *(Akşin çıxır.)* İbn Tahir, sən göndərdiyin xəbərlərə görə xəlifənin böyük etimadını qazanmısan. İndi sənin dövranın başlayır! Səncə, mənim Beyləqanda İbn Zeydi qarşılayacağımı xürrəmilərə kim xəbər vermiş olar?

**İbn Tahir** –Yalnız Sabutay!

## ON İKİNCİ ŞƏKİL

(Zindan. Çılğın gəlinciklə oynayır.)

**Gözətçi** –Deyirlər, Akşin səni boynuna götürmür.

**Çılğın** –Düz eləyir... Axı, mən ağıram *(gülür.)* Məni necə boynuna götürsün... Bəs, yazığın boynu qırılmaz? Yaxşı eləyir götürmür... Məndən ona qız olar? *(Zindanın küncünə çəkilir. Xısın-xısın ağlayır. Öz-özünə)* Ata! Sən bir zaman mənim anamı da boynundan atdın, indi də məni!.. Sən niyə bizə düşmən kəsildin?.. Biri var idi, biri yox idi... Bir qartal var idi.

**Gözətçi** –Nə?

**Çılğın** –Qartal! Qartal uçdu, buludlardan yuxarı qalxdı. Elə bu vaxt sinəsinə bir ox sancıldı. Qartal baxıb gördü ki, oxun ucunda qartal lələyi var. Dedi, ox göyün üzündə gəlib məni tapa bilməzdi, əgər ucun-

da öz lələyim olmasaydı...

(Uzaqdan qara yapıncıya bürünmüş **Sabutay** görünür. **Gözətçi** ona yaxınlaşır.)

**Gözətçi** –Kimsən? Nə istəyirsən?

**Sabutay** –Mənəm, Sabutay. Mən onunla görüşməliyəm.

**Gözətçi** –Sabutay? Çıx, çıx get burdan. Səni axtarırlar.

**Sabutay** –Bilirəm.

(Kənarda gizlənmiş gözətçiər **Sabutaya** yaxınlaşır, onu əhatə edirlər. **Sabutay** qılıncını çıxarmağa məcbur olur. Döyüş başlayır. **İbn Tahirlə İbn Süheyl** görünür.)

**İbn Süheyl** –Diri, diri tutmaq lazımdır onu. Gör, nə gözəl döyüşür. İbn Tahir, ona qılınc vurmağı mən öyrətmişdim.

(Keşikçilərin bir-ikisi yıxılır. Tutulacağını hiss edən **Sabutay** özünü vurur.)

**İbn Süheyl** –Satqının aqibəti belədir.

**Sabutay** –Satıb sonra ayılanın desəydin, daha düz olardı.

(**Sabutay** ölür. **Keşikçilər** onun cənazəsini aparırlar.)

**İbn Tahir** *(gözətçiyə)*–Aç qapını! *(Zindanın qapısı açılır. İbn Süheyl, İbn Tahir daxil olur.)* Bax, bu yorğan-döşəyi görürsənmi? Bunlar Akşinin əmriylə gətirilib. *(Çılğının başındakı örpəyi göstərir.)* Bu örpək də Akşinin anasınındır. Bu da onun gəlinlik paltarı. Amma bu paltar daha sənə yaraşmır. Qara geyinməyin məsləhətdir...

**İbn Süheyl** –Nişanlın gəbərdi... Sən kimin qızısan?

**Çılğın** –Atamın.

**İbn Süheyl** –Kimdir atan?

**Çılğın** –Od.

**İbn Süheyl** –Nə?

**Çılğın** –Od, ocaq.

**İbn Süheyl** –Anan kimdir?

**Çılğın** –Torpaq!

**İbn Süheyl** –Sabah atan səni öldürəcək, anan da üstündə ağlayacaq.

**Çılğın** –Torpaq namusla ölən övladına ağlamır.

**İbn Süheyl** –Bunun nəyi dəlidir? Dəli sizsiniz. Bu sizi ələ salıb.

(Ərəb zabiti daxil olur.)

**Zabit**–Zati-ali, Xürrəmabadı tutduq. Şəhər bomboşdur, qalaya girə bilmədik.

**İbn Süheyl**–Ərəb dağlarda vuruşa bilmir.

**Zabit**–Elçi göndərdik. Üç yüz min təklif etdik, razılaşmadılar.

**İbn Süheyl**–Artıraydınız.

**Zabit**–Artırdıq. Dedilər, neyləsəniz qaytarmayacağıq. Çılğını verin, İbn Zeydi qaytaraq.

**İbn Süheyl**–Bəs necə olsun? Biz məhkəməni yubada bilmərik.

**İbn Tahir**–Xəlifənin fərmanı kifayət deyilmi?

**İbn Süheyl**–Gedək başlayaq. *(Çılğına)* Qız, sabah atan sənin boynunu vuracaq. Sən bu gün tövbə eləməlisən. Sənə molla çağıraq, yoxsa?..

**Çılğın**–Molla hansı dildə dua oxuyacaq?

**İbn Süheyl**–Ərəb dilində.

**Çılğın**–Allah bizim dilimizi bilmir?

**İbn Tahir**–Gördün?

(Gedirlər.)

**Çılğın**–Əmi, bunlar nə deyirdi?

**Gözətçi**–Qızım, bunlar şərt qoyub. Akşin öz əli ilə sənin boynunu vurmalıdır. Əgər vurmasa, demək, sən onun qızısan.

**Çılğın**–Bəs vursa?

**Gözətçi**–Onda xilas olur.

**Çılğın**–Xilas olur? *(Qəhqəhə çəkib gülür.)* Xilas olur... Həm məndən, həm onların əlindən. Yaxşı təklifdir. *(Balışının altında gizlətdiyi, atasının İbn Zeydi vurmaq istədiyi bıçağı çıxarıb ona diqqətlə baxır.)* Atamın bıçağı!

Gəldim, daşdan daşa dəydim,
Ana bətnində öləydim.
Bu dünyanın nə biləydim
Min hiyləsi, kələyi var.

Alışdırıb qəlbimizi
Yandırdı bu dünya bizi.

Yaşayanın geci-tezi
Axır bir gün ölməyi var.

## ON ÜÇÜNCÜ ŞƏKİL

(Məhkəmə. Kənarda dar ağacı, o biri kənarda isə köhnə dar ağacı görünür. Başda İbn Süheyl, ətrafda əyanlar. Saçı-saqqalı ağarmış Akşin müttəhim kürsüsündə. İbn Süheyl ayağa qalxır.)

**İbn Süheyl** –Həzərat, hər şey aydın oldu. Xəlifəyə göndərilən xəbərlər sübuta yetir. Akşin xilafətin ona bəslədiyi etimaddan sui-istifadə etmiş, camaatı soymuş, talamış, öz arzularının həyata keçməsinə çalışmışdır. O, öz millətinin və xilafətin düşmənidir. O, islam dinini də qərəzlə qəbul etmiş, üzdə müsəlman, həqiqətdə isə atəşpərəst olaraq qalmış, müxtəlif bəhanələrlə din düşməni olan qohumlarını himayə etmişdir. Lakin o, günahlarını boynuna götürmür. Buna görə də Əmirəlmöminin xəlifə əl-Mötəsimin səlahiyyətli məhkəməsi onun keçmiş xidmətlərini nəzərə alıb qərara gəlir: Akşin xəlifə elçisinin çadırını yandırmaqda günahlandırılan Çılğının boynunu öz əli ilə vurmalıdır. Bacarmasa, məhkəmənin ona verdiyi son ittiham da sübuta yetmiş olur. Dustağı gətirin!

(Keşikçilər gedir.)

**Akşin** –Yox, yox, gəlməsin. Gətirməyin onu! Mən ömrümdə qadına əl qaldırmamışam.

**İbn Süheyl** –Müttəhim Akşin, o zaman səni dar ağacı gözləyir. Özünü təmizə çıxarmaq üçün sən onu öz əllərinlə öldürməlisən.

**Akşin** –Təmizə çıxarmaq üçün... *(İstehzalı gülüşlərlə gülür.)* Mən xilafətə düşmən olmamışam!

**İbn Süheyl** –Bəs əməllərin?

**Akşin** –Hökm sizdədir. Əməlləri hara istəsəniz, yoza bilərsiniz. Rica edirəm, nə cəza istəyirsinizsə, verin, amma onu gətirməyin! *(Sükut.)* Bəs siz necə müsəlmansınız? Bəs hanı sizin insafınız? Mürvətiniz?

**İbn Süheyl** –Nə yaman sarsılmısan, Akşin, sən, axı, Babək kimi bir qəhrəmanı məğlub edən qəhrəman idin?

**Akşin** –Mən sizə , xilaftə inanmışdım. İndi məni ölüm qorxutmur, neçə-neçə illər qəlbimdə daşıdığım inamımın ölməsi elə mənim

ölməyim deməkdir.

**İbn Süheyl** –Sən Çılğına qılınc qaldıra bilməsən də, o, sənin gözlərin qarşısında öldürüləcək. Biz sənə baxacağıq! Balasının qanını görən, fəryadını eşidən atanın əzablarına baxmaq bizə ləzzət verəcək!..

(Keşikçi gəlir.)

**Keşikçi** –Çılğın özünü öldürdü. *(Bıçağı ortaya atır.)*

**İbn Süheyl** –Necə?

**Keşikçi** –Biz ona yaxınlaşınca bıçağı ürəyinə sapladı...

(Akşin heykəl kimi dayanıb susur. Bıçağı yerdən götürür, diqqətlə baxır.)

**Akşin** –Mənim balam!.. *(Birdən hönkürtüylə ağlayır.)* Mənim balam! Özünü öldürüb, atanı bu rəzalətdən xilas etmək istədin! Mənim balam, özünü atanın bıçağı ilə öldürdün...

**İbn Süheyl** –Akşin! Müsəlman özünü öldürməz! Bu da bir sübut!

**Akşin** –Lənət, lənət olsun!

**İbn Süheyl** –Kimə?

**Akşin** –Özümə!.. Öz taleyimə!..

**İbn Süheyl** –Akşin, artıq sənin son günahın da sübuta yetdi. Cəllad!.. Hökmü yerinə yetir!

(Akşini dar ağacının altına gətirirlər.)

**İbn Süheyl** –Əgər özünü doğrudan da qərəzsiz mömin hesab edirsənsə, kəlmeyi-şəhadətini de!

**Akşin** –Mən atəşpərəst kimi doğuldum, müsəlman kimi ölürəm. Əşhədü ən la ilahə illəllah və Əşhədü ənna Mühəmmədən rəsulullah.

(Altay gəlir.)

**Altay** –Mən xürrəmilərin elçisiyəm. Təklifimiz var.

**İbn Süheyl** –Buyurun!

**Altay** –İbn Zeydi qaytarırıq. Akşini və Çılğını verin bizə.

**İbn Süheyl** *(Akşinə)*–Hə, gördün, xürrəmilər səni xilas eləməyə gəlib. Sənin xəyanətinə bu da bir sübut.

**Altay** –Xeyr, bu zavallı həmişə sizə xidmət, bizə xəyanət eləyib. Biz onu əqidə qardaşımız kimi deyil, qan qardaşımız kimi xilas eləmək

istəyirik. Onun ruhu sizindir, cismi bizim. O, ömrünü sizə verdi, qisməti dar ağacı oldu. Bizim ona yalnız yazığımız gəlir.

**İbn Süheyl**–O, ölməlidir!

**Altay**–O ölərsə, İbn Zeyd də öləcək.

**Akşin**–Altay, bundan sonra mənim ayrı yolum yoxdur. Mən ölməliyəm.

(Saçları dağınıq halda, sürəkli qəhqəhələrlə ana gəlir.)

**Ana**–Hanı, hanı mənim balam?.. Necə? Siz onu öldürmək istəyirsiniz? Yox! Buna sizin haqqınız yoxdur... Onu mən öldürməliyəm!.. *(Akşinə)* Razısan, oğul?.. *(Əsgərlər ananı itələyirlər.)* Dayanın! Mən, axı, şah anasıyam. Siz nə cəsarətlə məni itələyirsiniz?

**Akşin**–Ana!

**Ana**–Can bala! Bəs sən niyə susursan? Qardaşını köməyə çağırsana, Babəki!.. Onu da bunlar asdılar, səni də *(qəhqəhə çəkib gülür.)* Bəs, bunların təfavütü yoxmuş?

**Akşin**–Ana!..

**Ana** *(İbn Süheylə)*–Hə, bəs bunların təfavütü yoxmuş? Ey... camaat, nə gözünüzü döyüb baxırsınız? Babəki çağırın, Babəki!.. *(Səhnənin dibində dar ağacından asılmış Babəkin teyfi görünür. Ana Akşin üçün qurulan dar ağacı ilə Babəkin asıldığı dar ağacının arasında dayanıb. Gah ona baxır, gah buna.)* - Ərəblər Babək balamı onlara düşmən olduğu üçün asdılar. Akşin balamı isə yenə ərəblər, onlara qulluq göstərdiyinə görə asmaq istəyirlər. Ey gəlmələr, bəs dostluqla düşmənliyin fərqi yox imiş?.. Məni başa salın, fərqi yox imiş?..

**Akşin**–Ana!.. Bağışla!..

**İbn Süheyl**–Məhkəmənin çıxardığı hökmü deməklə mən öz vəzifəmi bitirdim. Hökmün təsdiqi və icra hökmü isə xəlifənin fərmanı ilə İbn Tahirə tapşırılır.

**Altay**–Belə de... Demək, ölkənin hökmdarlığı da İbn Tahirə tapşırılır. Əhsən! Gözəl təyinatdır! İbn Süheyl, siz bu min sifətli İbn Tülkünün, heç olmasa, sizə daim sadiq olduğunu bilirsinizmi? Axı, o, bir vaxt...

**Akşin**–Altay, çuğulluq eləmək sənə yaraşmaz. Qoy, istədiklərini eləsinlər. Amma mənim İbn Tahirə bir tövsiyəm var: İbn Tahir, mənə bax, öz aqibətini gör.

**İbn Tahir** *(Akşinə)*–Akşin, bunun sənə dəxli yoxdur. Sən son

sözünü de.

**A k ş i n** –Mən öz vətənimə qarşı vuruşanda ölü olmuşam... Hökmdar oldum, yenə ölü idim. Ölüm qarşısında dirildim. İndi mən ruhən dirilib, cismən ölümə gedirəm!..

**İ b n  S ü h e y l** –Son sözünü de.

**A k ş i n** - Rica edirəm, bu cəlladı dəyişdirəsiniz.

**İ b n  S ü h e y l** –Niyə?

**A k ş i n** – Çünki o ərəbdir. İstəyirəm ki, məni özümünkü öldürsün.

**A n a** –Haqlısan, oğul. Onların səni öldürməyə haqqı yoxdur.

**İ b n  S ü h e y l** –Ölüm ölümdür. Nə fərqi var səni kim öldürür?

**A k ş i n** –Var! Anam düz dedi. Sizin məni öldürməyə haqqınız yoxdur. Çünki mən ömrüm boyu sizə qulluq göstərmişəm. Özümünkülərə isə qənim kəsilmişəm. Qoyun, məni qulluq göstərdiklərim yox, düşmən kəsildiklərim öldürsünlər!

**İ b n  S ü h e y l** –Səni ərəb asmalıdır.

**A k ş i n** *(boğazına kəndiri keçirərkən üzünü Babəkin teyfinə tutur)* – Bəs, indi niyə gülmürsən?

**B a b ə k** – İndi ağlayıram. *(Hönkürtü ilə ağlayır.)* Uf demədən öz doğma millətini zəlil günə salıb, bu dünyadan gedənin halına ağlamamaq olarmı?

(Hönkürtülər altında pərdə enir.)

*1971-1978*
*Yenidən işləndi: 1999-2000.*
*2000-ci il dekabrın 9-da Azərbaycan Milli*
*Dram Teatrında tamaşaya qoyulmuşdur.*





# HARA GEDİR
# BU DÜNYA?

## (ALTI ŞƏKİLDƏN İBARƏT DRAM)

İŞTİRAK EDƏNLƏR:

**Laçın** –30-32 yaşlarında alim, bioloq.
**Nərgiz** –onun bacısı, 50-53 yaşlarında.
**Şahbaz** –ədliyyə naziri, 50 yaşında.
**Ayla** – onun qızı, 25 yaşında.
**Ulu əcdad** –Laçının ikinci səsi.
**I kişi.**
**II kişi.**
**III kişi.**
**Qoca** –şikayətçi.
**Katib-robot.**
**Vəlizadə.**

## BİRİNCİ ŞƏKIL

Pərdə açılır... Böyük bir otaq. Otağın baş divarında xalça, xalçanın üstündən isə qara haşiyəli kişi şəkli asılmışdır. Stolun arxasında üç kişi oturmuşdur.

**II kişi**–Hə...

**III kişi**–Nə?

**II kişi**–Heç nə...

**I kişi**–Dünya belə qurulub. heç kəs əcəldən yaxasını qurtara bilməz.

**II kişi**–Bu əcəl deyil, əcəli-mayallaqdır.

**III kişi**–Durduğun yerdə səni vurub öldürələr, bunun harası əcəl oldu?

**II kişi**–Rəhmətlik bu mərtəbəyə əl üstündə çatmamışdı. Can qoymuşdu. Axırı da belə. Ağzı aşa çatanda başı daşa çatdı.

**I kişi**–Fikirləşdikcə adamı hövlə götürür. Bu boyda da qəddarlıq olar?

**III kişi**–Dünyada elə zalım, elə qəddar adamlar meydana gəlib ki, bircə manatlıq xeyrindən ötrü bir nədir, yüzünün başını kəsər, uf deməz.

**II kişi**–Dünya yaman korlanıb.

**I kişi**–Dünya elə əvvəldən belədir.

**II kişi**–Keçmişdə belə namərdlik var idi?

**I kişi**–Keçmişdə adam adamı öldürmürdü?

**II kişi**–Keçmişdə namərdlik yox idi. Mərdi-mərdanə, üzbəüz vuruşurdular...

**III kişi**–A kişilər, keçmişdə adama xəlvəti quyu qazmaq var idi? İmzasız məktub yazıb dostu güdaza vermək var idi?

**I kişi**–Adamlar indi vəhşiləşib.

**III kişi**–Vəhşi heyvan da bu qələti eləməz. Kişi, əyyami-qədimdən bu günə kimi heç görmüsən ki, heyvan öz həmcinsini öldürə? *(Sükut...)* Hə, soruşuram da... cavab ver, görmüsən ki ya... şir-şiri, qurd-qurdu öldürə?

**I kişi**–Amma insan insanı öldürür.

**II kişi**–İndi buna nə deyəsən? Biz dünyanın lap quyruğuna düş-

dük.

(*Şahbaz* gəlir, kişilər ayağa qalxır).

**Şahbaz** - Salam.

**I kişi** - Şahbaz müəllim, keçin yuxarı.

**II-III kişi** - Buyurun, buyurun.

**Şahbaz** *(əyləşir)* - Allah rəhmət eləsin, başınız sağ olsun. Bu rəhmətlik yalnız sizdən getmədi, hamımızın kisəsindən getdi.

**I-II kişi** - Doğrudur.

**III kişi** - Şahbaz müəllim, siz Allah, elə eləyin, bu qan yerdə qalmasın.

**Şahbaz** - Arxayın ola bilərsiniz. Amma işin çətinliyi var. Çünki, bu, sifarişli qətldir.

**I kişi** – Necə yəni sifarişli?

**Şahbaz** - Əsl günahkar öldürən deyil, öldürtdürəndir. Öldürən pulunu alıb, işini görüb, aradan çıxıb. Biz öldürəni tapmasaq, sifariş verəni tapa bilmərik.

**I kişi** - İnsan gör nə qədər xərifləyib ki,pulla adam öldürür?

**Şahbaz** - Bu rəhmətlik mənim köhnə dostum idi. Onun qanını yerdə qoymayacağam.

**III kişi** - Dünya məhvərindən çıxıb.

**I kişi** - Dünya bina olandan ölən də olub, öldürən də.

**II kişi** – Yenə başladın? Kor tutduğunu buraxmayan kimi sən də dediyini deyirsən. Bir belə azğınlıq havaxt olmuşdu?

**III kişi** – Keçmişdə atom var idi? İndi adamları bir-bir qırmaqla göz doymur, atomla bir ölkəni birdən batırmaq istəyirlər.

**Şahbaz** - Atomu qoy bir tərəfə. Baxaq, Adəm-Həvva dövrünə. Onda qardaş-qardaşı öldürmədi? Şər insanın təbiətindədir.

**I kişi** - Allah atana rəhmət eləsin. Müqəddəs kitablar da bunu deyir. Deyir ki, insanın bir çiyninə mələk qonub, bir çiyninə şeytan.

**II kişi** - Adam ona deyərəm ki, mələyə qulaq assın, şeytana yox.

**Şahbaz** – Bəli, hər adam ikidir. Xeyir də onun içindədir, şər də. Biz yaxşı adam o adama deyirik ki, xeyiri şərdən çoxdur.

**I I k i ş i** –Mən buna razı deyiləm. Kişi, indi elmin yaratdığı bicliklər Adəm dövründə var idi? İndi Allahın işinə əl aparırlar. Bağışlayın Şahbaz müəllim, dünən "Azadlıq"a qulaq asırdım. Nə desə yaxşıdır? Bizim bir eloğlu, adını da dedi, Laçın, bilmirəm nəmənəov bir kəşf eləyib. Londonda alimlərin iclasında deyib ki, adamın yaddaşını birindən o birinə köçürmək olar.

**Ş a h b a z** –Necə? O alimin familiyası nə idi?

**I I k i ş i** –Vallah, famili qəribə idi...

**I I I k i ş i** –Hə... Mən də eşitmişəm. Şəhər indi ondan danışır.

**Ş a h b a z** –Famili Qayabaşlı deyildi ki?

**I I k i ş i** –Özüdür ki, var. Necə bəyəm? Yoxsa, tanıyırsınız? (Sükut). Siz Allah, tanıyırsınızsa, ona deyin ki, a bala, işin-gücün qurtarıb? Allahla niyə bəhsə girmisən? Qoysana hər kəsin yaddaşı özündə qala.

**I k i ş i** –Nə təhər yəni yaddaşı köçürüb?

**I I k i ş i** –Təhərini bilmirəm, amma səninkini mənə köçürür, mənimkini sənə.

**I k i ş i** –Onda nə olur?

**I I k i ş i** –Onda sən olursan mən, mən oluram sən.

**I I I k i ş i** –Yox, elə deyil... Düzü mən də əməlli-başlı anlamadım... Amma başqa cürdür. Mən belə başa düşdüm ki, adamın xasiyyətini idarə eləyir, istədiyi xasiyyəti verə bilir adama.

**I k i ş i** –Başa düşmürəm, mənim xasiyyətimdə onun nə işi var?.. Olmaz ki, ya... Allah mənə nə xasiyyət veribsə, o da qalsın?

**I I k i ş i** – Mən onu bilirəm ki, elm Allahlıq iddiasına düşəli, yaşamağın da dadı qaçıb. Yediyimiz, içdiyimiz başdan-ayağa olub süni.

**I k i ş i** –Geydiklərimiz də üstəlik. Hamısı kimya deyil? Qaşınma tutub bizi.

**Ş a h b a z** –Bununla belə indi elm zəmanəsidir. Elmsiz millət bir addım irəli gedə bilməz.

(V ə l i z a d ə gəlir. Ş a h b a z a ...)

**V ə l i z a d ə** –Əşi, hardasınız, bayaqdan sizi axtarıram. Getmədiyim yas yeri qalmayıb. Xəbəriniz var, Laçın...

**Ş a h b a z** - Allah rəhmət eləsin...

**V ə l i z a d ə** –Hə, Allah rəhmət eləsin...

**I k i ş i** (Şahbaza)–İcazə versəydiniz sabah dəyərdim sizə...

**Ş a h b a z** *(Vəlizadəni kənara çəkir)*–Nə istəyirsən?

**V ə l i z a d ə** –Laçının kəşfi baş tutub.

**Ş a h b a z** –Dedilər... Bura bax, Vəlizadə, bu, doğrudan böyük kəşfdir?

**V ə l i z a d ə** –Əlbəttə! Bu kəşf biologiyada inqilabdır. Ancaq burda böyük bir anlaşılmazlıq var. Mən heç cürə başa düşə bilmirəm ki, niyə kəşfdə mənim adım çəkilmir? Eşidənlər yalnız Laçının adını çəkir.

**Ş a h b a z** –Anlamadım. Məgər sən bu kəşfə şəriksən?

**V ə l i z a d ə** –Bə nə... Bunu bütün institut bilir.

**Ş a h b a z** –Bəs Laçın özü hardadır?

**V ə l i z a d ə** –Nə bilim? Hamı Laçını məndən soruşur. Dedim, bəlkə siz...

**Ş a h b a z** –Vəlizadə, o çoxdan mənim kürəkənim deyil.

**V ə l i z a d ə** –Bunu bilirəm... Amma yenə də...

**Ş a h b a z** –Yenə nə?

**V ə l i z a d ə** –Heç nə.

## İKİNCİ ŞƏKİL

Şahbazın evi. Qapı zəngi. A y l a yan otaqdan gəlib qapını açır. Ş a h b a z gəlir.

**A y l a** –Ata, niyə belə gec gəldin?

**Ş a h b a z** –Yas yerinə getmişdim. Uşaq yatıb?

**A y l a** –Hə... Gözümə birtəhər dəyirsən?

**Ş a h b a z** –Nə təhər?

**A y l a** –Dilxor.

**Ş a h b a z** –Elə bir dilxorçuluq yoxdur. Çay gətir. Yas yerində bir xəbər eşitdim. Laçının kəşfi baş tutub.

**A y l a** –Nə danışırsan? Səni xeyir xəbər olasan, ay ata. Nə yaxşı... Şükür Allaha. Axırı ki, yazığın zəhməti itmədi.

**Ş a h b a z** –Vəlizadə deyir ki, bu, həqiqətən, böyük kəşfdir. Bir az

müəmmalı danışdı, sözündən belə çıxır ki, o, Vəlizadə kəşfə şərikdir. Sən buna necə baxırsan?

**A y l a** –İnana bilmirəm. Amma...

**Ş a h b a z** –Laçın sənə bu barədə bir söz deməyib ki?

**A y l a** –Yox... ata, Laçın çox qapalı adamdır. Düşündüyünü heç kəsə deməz...

**Ş a h b a z** –Məsələnin müəmmalı tərəfi orasıdır ki, kəşf elan olunandan sonra Laçın tapılmır.

**A y l a** –Necə yəni tapılmır?

**Ş a h b a z** –Bəli, dünyanın bir çox ölkələrinin laboratoriyaları, universitetləri Vəlizadəyə zəng vurur, işin elmi nəticəsini istəyirlər. Deyilənə görə, Laçın Londondan Moskvaya gedib. Amma Moskvada da yerini bilən yoxdur. Vəlizadə indi şam-çıraqla Laçını axtarır.

**A y l a** –O, hara gedə bilər? Axı, o niyə belə eləsin?

**Ş a h b a z** –Vəlizadə də qalıb məəttəl.

**A y l a** –Ata, bəlkə... İndi neyləyək?

**Ş a h b a z** –Bəlkə, bacısına zəng eləyəsən?

**A y l a** –Utanıram... Axı, biz barışığa üz qoymadıq. Yadındadır, axırıncı dəfə sən onu burdan necə qovdun?

**Ş a h b a z** –Bununla belə, o, sənin uşağının atasıdır.

**A y l a** –Bunu gərək o vaxt biləydik.

**Ş a h b a z** –Qızım, özün də bilirsən ki, mən sənin üçün deyirdim. Yeddi yaşından səni anasız böyütmüşəm. Sənin xatirinə evlənməmişəm. Səni yağ içində böyrək kimi böyütmüşəm. Amma sən onunla ailə quralı bir xoş günə həsrət qaldın. Mən də sənin zillətinə dözə bilmədim.

**A y l a** –Ata, o, həqiqi alim idi. Elm isə həmişə qurban tələb edir.

**Ş a h b a z** –Heç bir ata yeganə balasının qurbanlıq olmasına dözə bilməzdi. O, bunu başa düşmədi. Səni elminə qurban eləmək istədi... Bir də, düzünü deyim ki, mən onun elminə də inanmırdım.

**A y l a** –Niyə?

**Ş a h b a z** –Xasiyyətindəki qəribəliklər məni çaşdırırdı.

**A y l a** –Bütün istedadlı adamlar qəribə olur.

**Ş a h b a z** –Axı, sən özün də onun kəşfinə şübhə eləyirdin...

**A y l a** –Düzdür, o, elə böyük məsələdən yapışmışdı ki, bir mən yox, laboratoriyada heç kəs bu işin başa çatacağına inanmırdı.

**Ş a h b a z** –İndi sən bu kəşfin incəliklərini mənə başa sal, görüm bu nə olan şeydir?

**A y l a** –Bu iş gen mühəndisliyi adlanır. O, kəsəyənlər üzərində təcrübə aparırdı. Yəni, bir kəsəyənin yaddaşını o birinə köçürürdü. O, beyni öyrənmək məqsədilə əvvəlcə uzun müddət eksperimental psixologiya ilə məşğul oldu. Heyvanların psixologiyasını dərindən öyrənəndən sonra bir kəsəyənə qaranlıqda işgəncə verməyə başladı.

**Ş a h b a z** –Necə işgəncə?

**A y l a** –Kəsəyəni qaranlıq otağa salan kimi onu incidir, döyür, bəzən də onun bədəninə az miqdarda tok buraxırdı. Beləliklə, də şərti refleks kimi kəsəyənə qaranlıqdan qorxmağı öyrətdi. Bu zaman kəsəyənin yaddaş daşıyan hüceyrələrində kimyəvi maddələr əmələ gəlir. Qorxu məlumatı artdıqca kəsəyənin beynində kimyəvi birləşmələr çoxalır. Həmin kimyəvi birləşmələri başqa kəsəyənə köçürəndə, o da qaranlıqdan qorxmağa başlayır.

**Ş a h b a z** –Deməli, bir kəsəyənin yaddaşı o birisinə köçür.

**A y l a** –Bəli, həmin kimyəvi birləşmənin yaranma mexanizmini biləndən sonra onu laboratoriyada almaq mümkündür. Mən işin buraqədərki hissəsini bilirəm. Əsas məsələ qorxu hissini oyadan kimyəvi birləşmənin yaranma mexanizmini öyrənmək idi. Bax, buna heç kəs inanmırdı. Görünür o, bunu tapa bilmişdir.

**Ş a h b a z** –Dediyindən belə çıxır ki, qorxu hissini yaradan kimyəvi birləşməni laboratoriyada süni yolla alıb, istədiyimiz adamda həmin hissi yarada bilərik.

**A y l a** –Bəli.

**Ş a h b a z** –Bu ki, dəhşətdir.

**A y l a** –Həm də biologiyada inqilabdır. Bundan sonra irsiyyəti də dəyişmək, idarə etmək, istədiyimiz istiqamətə yönəltmək mümkün olur.

**Ş a h b a z** –Afərin Laçın! Bəs, bunu mənə vaxtında niyə demirdin?

**A y l a** –Qoyurdun bəyəm? Elə əvvəldən sənin ondan zəhlən gedirdi. “Mehralı” ləqəbi qoymuşdun ona. İndi, gör, “Mehralı” dediyin nə qiyamət eləyib.

**Ş a h b a z** –O, mənim üçün indi də Mehralı olaraq qalır.

**A y l a** –Elə, ikimiz də günahkarıq. *(Sükut).*

**Ş a h b a z** –Yəni, institutda onun bir yaxın sirdaşı yoxdur?

**A y l a** –Əslində, institutda onu istəyən adam azdır. İstedad adama dostdan çox düşmən qazandırır. *(Sükut)*

**Ş a h b a z** – İndi sən mənim sözümə bax, götür, bacısına zəng elə. Utanma...

( A y l a tərəddüd edir, sonra nömrəni yığır)

**A y l a** –Alo, Nərgiz bacı, sənsən?

**N ə r g i z** –Bəli, kimdir?

**A y l a** –Ayladır danışan. Xoş gördük, Nərgiz bacı.

**N ə r g i z** –Ayla? Gün hardan doğub? Səndən nə əcəb?

**A y l a** –Dedim görək nə var, nə yox?

**N ə r g i z** –Sağ ol, uşaq necədir?

**A y l a** –Əllərinizi öpür... *(Sükut.)* Laçından nə xəbər?

**N ə r g i z** –Yəqin ki, eşitmisən?

**A y l a** –Ucundan-qulağından eşitmişəm. Amma təfsilatını bilmirəm. Onu bilirəm ki, institutdan onu axtarırlar.

**N ə r g i z** –İndi axtararlar.

**A y l a** –Yəni, salamatdımı?

**N ə r g i z** –Ona nə olacaq, Allaha şükür...

**A y l a** – Təki salamat olsun. Qalan şeylər düzələr. *(Sükut.)* Bəs indi özü hardadır?

**N ə r g i z** –Moskvada.

**A y l a** – Niyə gəlmir?

**N ə r g i z** –Hələ işini tamamlamayıb.

**A y l a** –Telefonunu mənə verərsinizmi? *(Sükut).* Təbrik eləmək istəyirəm.

**N ə r g i z** –Nömrəsini bilmirəm. Lazım olanda o özü zəng eləyir.

**A y l a** –Nərgiz bacı, bilirsiniz, həyatdır da... Eniş-yoxuşuynan,

səhvi, büdrəməsiynən. Hər halda uşağımın atasıdır. Belə bir gündə onu təbrik etməmək olmaz.

**N ə r g i z** –Ayla, atalar demiş, daldan atılan daş topuğa dəyər.

**A y l a** –Atalar bir söz də deyir. Səhv yolun yarısından qayıtmaq da hünərdir.

**N ə r g i z** –Atalar onu da deyir ki, günortadan sonra çıxan gün adamı isitməz.

**A y l a** –Amma atalar bunu da deyir ki, ərlə-arvadın savaşı, yaz gününün yağışı. Bir də onu deyir ki...

(N ə r g i z dəstəyi asır, A y l a n ı n sözü ağzında qalır. A y l a pərt olub dəstəyi asır).

**Ş a h b a z** –O, sənə nə dedi?

**A y l a** –O, haqlıdır. Dünən onları bəyənmirdik, bu gün özümüz yalvarırıq. İnsan insanı öz xeyrinə görə istəyirmiş.

**Ş a h b a z** –Əvvəla, öz xeyrini bilməyənə axmaq deyərlər. İkincisi: de görüm, o, sənə nə dedi?

**A y l a** –Heç nə, sadəcə dəstəyi asdı.

**Ş a h b a z** –Heç eybi yoxdur. O yenə fabrikin direktorudur?

**A y l a** –Məncə hə... Necə bəyəm?

**Ş a h b a z** –Mən onu elə mələdim ki, özü sənin yanına minnətə gəlsin.

**A y l a** –Yox, ata, xahiş edirəm...

**Ş a h b a z** – Sən öz işinlə məşğul ol.. *(Katibinə zəng vurur).* Tez yanıma gəl. Vacib işim var. *(Dəstəyi asır.)* Nə tez qudurdular? Yaxşı, heç eybi yoxdur. Siz hələ Şahbazın kim olduğunu bilmirsiniz. İndi mən sizə özümü tanıdaram.

**A y l a** –Ata, xahiş edirəm, lazım deyil.

**Ş a h b a z** –Dedim, sən işinlə məşğul ol.

(K a t i b - r o b o t daxil olur.)

**K a t i b - r o b o t** –Mən hazır.

**Ş a h b a z** –Laçın...

**K a t i b - r o b o t** –Hamısını bilirəm. Laçın kəşfdən sonra gizlənib.

Hamı onu axtarır. Vəlizadə də... Amma tapa bilmirlər...

**Ş a h b a z** –Sən onu tapa bilərsənmi?

**K a t i b - r o b o t** –Bu işdə çox incə tədbir lazımdır. Mənə bir az vaxt verin.

**Ş a h b a z** –O, mütləq tapılmalı və...

**K a t i b - r o b o t** –Sizinlə barışmaq üçün mələyə-mələyə özü hüzurunuza gəlməlidir.

**Ş a h b a z** –Əhsən! Sən mənim yalnız katibim deyilsən, həm də düşünən beynimsən. Bu işi həll edə bilsən...

**K a t i b -r o b o t** –Mən sizin hansı işinizi həll edə bilməmişəm ki... Buna şübhə ilə yanaşdınız?

**Ş a h b a z** –Haqlısan!..

(Ş a h b a z radionu açır, radioda həzin bir melodiya. Hər ikisi düşünür... A y l a gəlir.)

**A y l a** –Ata, mən çox fikirləşdim. Vəlizadə yalan danışır.

**Ş a h b a z** –Nə barədə?

**A y l a** –Vəlizadə Laçının kəşfinə şərik ola bilməz.

**Ş a h b a z** –Nəyə əsasən belə deyirsən?

**A y l a** –Birinci ona görə ki, Laçın təcrübələrini hamıdan gizlin aparırdı. O, sirrini heç kəsə bildirən adam deyil. Həm də indi yadıma düşür. Vəlizadə həmişə onun işinə pəl qatırdı.

**K a t i b - r o b o t** –Vəlizadə! Tapdım!

**Ş a h b a z** – Nə tapdın?

**K a t i b - r o b o t** - Tapşırdığınıza əlac. Zəhmət olmasa, bir dəqiqə keçək xəlvətə. *(Qulağına nəsə pıçıldayır.)*

**Ş a h b a z** – Afərin, mənim düşünən beynim, afərin!

**K a t i b - r o b o t** –Qulluğunuzda həmişə hazıram. Başqa tapşırığınız yoxdursa, mən gedim.

**Ş a h b a z** –Get. *(Katib-robot gedir. Şahbaz telefon nömrəsini yığır.)* Alo, mənə professor Vəlizadə lazımdır.

**V ə l i z a d ə** –Özüdür danışan.

**Ş a h b a z** –Səsindən tanımadım, dövlətli olacaqsan.

**V ə l i z a d ə** –Mən onsuz da dövlətliyəm. Əsərlərimin hər biri...

**Ş a h b a z** –Yaxşı, özündən az de.

**V ə l i z a d ə** –Görürəm sən demirsən, özüm deyirəm.

**Ş a h b a z** –Bayaq danışdığımız məsələ barədə ağlıma bir fikir gəlib. Daha doğrusu, bir tədbir. Telefon söhbəti deyil, gərək görüşək.

**V ə l i z a d ə** –Nə vaxt?

**Ş a h b a z** –Sabah vacib işim var, birisi gün.

**V ə l i z a d ə** –Saat neçədə?

**Ş a h b a z** –Sən neçədə istəyirsənsə de, maşın göndərim, gəl bizim idarəyə.

**V ə l i z a d ə** –Səhər saat 10-da.

**Ş a h b a z** –Oldu. Gecən xeyrə qalsın.

**V ə l i z a d ə** –Sağ ol.

## ÜÇÜNCÜ ŞƏKIL

Pərdə açılır. Ş a h b a z ı n kabineti. Şahbaz masa arxasında əyləşib. V ə l i z a d ə əynində cins şalvar, ayağında sabo, gözlərində rəngli eynək daxil olur.

**V ə l i z a d ə** –Nazirə eşq olsun!

**Ş a h b a z** *(onu yuxarıdan aşağı diqqətlə süzüb)*–Ə, bu nə vid-fasondur?

**V ə l i z a d ə** –Nə olub?

**Ş a h b a z** –Yoxsa, özünü cavanlaşdırıb bu yaşında yorğalıq eləmək istəyirsən?

**V ə l i z a d ə** –Balam, hamı geyinən paltardır da.

**Ş a h b a z** –Hamı yox. Oğlun yaşında cavanlar belə geyinər.

**V ə l i z a d ə** –Biz cavan olanda belə geyimlər yox idi. Heç olmasa indi qurdumuzu öldürək.

**Ş a h b a z** –İnşallah! Amma özünü nə qədər boyayıb remontdan çıxartsan da, xeyri yoxdur. Yaş özünü göstərir.

**V ə l i z a d ə** –Yaxşı, yaşımı gözümə soxma. De görək, məni niyə çağırmısan?

**Şa h b a z** –Elə o məsələdən ötrü. Təzə nə var, nə yox?

**V ə l i z a d ə** –Hələ bir xəbər yoxdur. Amma telefon dağılır. Xa-

rici institutlar Laçını axtarır. Bu gün eşitdiyimə görə bu dəli qəsdən gizlənir.

**Ş a h b a z** –Axı, niyə?

**V ə l i z a d ə** –Allah da ondan baş açmaz.

**Ş a h b a z** –Bacısı deyir ki, Moskvadadır.

**V ə l i z a d ə** –Bəs bacısı bilmir onun qaldığı yeri, ya telefon nömrəsini?

**Ş a h b a z** –İstədik, vermədi.

**V ə l i z a d ə** –Moskvadakı dostlarımdan öyrəndiyimə görə onun ağlı çaşıb.

**Ş a h b a z** –Necə yəni?

**V ə l i z a d ə** –Deyilənə görə, Moskvada qalmaq, ixtisasını dəyişmək istəyir.

**Ş a h b a z** –Bura bax, kəşfdə doğrudan sənin əlin var?

**V ə l i z a d ə** –Necə yəni əlin var? Bəs onun elmi rəhbəri kimdir? Mən ona kömək etməsəydim, şərait yaratmasaydım, ona yol göstərməsəydim, o neyləyə bilərdi? Niyə soruşdun?

**Ş a h b a z** –Adamın ürəyinə çox şey gəlir. Axı, bu niyə gizlənsin? Bəlkə, səndən qorxur?

**V ə l i z a d ə** –Məndən niyə qorxsun? Mən xortdanam?

**Ş a h b a z** –Mən belə düşünürəm ki, biz o dəlini bacısının əli ilə cilovlaya bilərik.

**V ə l i z a d ə** –Düz deyirsən. *(Sükut.)* Bura bax, mən Laçının bacısını yaxşı tanıyıram.

**Ş a h b a z** –Hardan?

**V ə l i z a d** –Onun fabrikində bir-iki dəfə uşaqlara ayaqqabı sifariş vermişəm. Deyirsən, mən ona zəng eləyim?

**Ş a h b a z** –Yox, elə eləmək lazımdır ki, o özü sənə zəng eləsin.

**V ə l i z a d ə** –Başa düşmədim, necə?

**Ş a h b a z** –Sənin bacın oğlu var?

**V ə l i z a d ə** –Var..

**Ş a h b a z** –O yenə orada işləyir?

**V ə l i z a d ə** –Hə, şöbə müdiridir.

**Ş a h b a z** –Vəssalam. Bacıoğlu vasitəsilə.
**V ə l i z a d ə** –Bacıoğlunun bu işə nə dəxli?
**Ş a h b a z** –Başa düşmədin?
**V ə l i z a d ə** –Açıq de görək nə deyirsən?
**Ş a h b a z** –Yəni, fabrikdə Nərgizin zir-zibili, artıq-əskiyi yoxdur?
**V ə l i z a d ə** –İndiki zamanda fabrik ola, əyər-əskiyi olmaya?
**Ş a h b a z** –Vəssalam. Deməк Nərgizin quyruğu sənin əlində.
**V ə l i z a d ə** –İndi başa düşdüm.
**Ş a h b a z** –Allaha şükür!

## DÖRDÜNCÜ ŞƏKİL

L a ç ı n masa arxasında əyləşib kitab oxuyur. Masanın üstündə qalaq-qalaq kitablar cərgələnib. Telefon zəngi.

**L a ç ı n** –Eşidirəm.
**A y l a n ı n s ə s i** –Laçın, sənsən?
**L a ç ı n** –Kimdir?
**A y l a n ı n s ə s i** –Səsimi də yadından çıxartmısan?
**L a ç ı n** –Ayla? Bu, doğrudan sənsən?
**A y l a n ı n s ə s i** –Mən olmamış kim olmalı idi?
**L a ç ı n** –Heç inana bilmirəm.
**A y l a n ı n s ə s i** –Səfərin niyə belə uzandı? Səni təbrik edirəm. Böyük nailiyyətdir.
**L a ç ı n** –Mənim telefonumu hardan bilirsən?
**A y l a n ı n s ə s i** –Nərgizdən aldım.
**L a ç ı n** –Nərgizdən?
**A y l a n ı n s ə s i** –Qələbəni eşidən kimi, səni təbrik eləmək üçün Nərgizdən telefon nömrəni istədim, vermədi. Dünən özü zəng vurub nömrəni verdi. Həm də dedi ki, bəlkə, getdim Moskvaya, qardaşımın yanına. Dünəndən 3-4 dəfə zəng vurmuşam, telefonun cavab vermədi. (Sükut.) Yaxşı, nə oturmusan Moskvada? Niyə gəlmirsən?
**L a ç ı n** –İşim uzanır.
**A y l a n ı n s ə s i** –Bəs, qurtarmadın? *(Sükut.)* İndi hamı səndən

danışır, hamı səni təbrik eləmək istəyir.

**L a ç ı n** –Uşaq necədir?

**A y l a n ı n s ə s i** –Maşallah, yekə oğlan olub. Görsən, tanımazsan. Gələn il məktəbə gedəcək.

**L a ç ı n** –Bəs atasını soruşmur? *(Sükut.)* Onda nə cavab verirsən?

**A y l a n ı n s ə s i** –Bunu atasından soruşmaq lazımdır.

**L a ç ı n** –Məndən niyə?

**A y l a n ı n s ə s i** –Yaxşı, havaxt gəlirsən?

**L a ç ı n** –Hələ deyə bilmərəm.

**A y l a n ı n s ə s i** –Laçın, məndə də günah olub, səndə də. Gəl, olub-keçənlərə qələm çəkək, hamısını unudaq. Həyatımızı yenidən başlayaq.

**L a ç ı n** –Bunu mən sənə iki il əvvəl demişdim. Sən məni eşitmədin, atanı məndən üstün tutdun.

**A y l a n ı n s ə s i** –Dedim ki, hamısını unudaq... yaxşımı?

**L a ç ı n** –Mən nə deyirəm...

**A y l a n ı n s ə s i** –Onda tez gəl.

**L a ç ı n** –Çalışaram.

**A y l a n ı n s ə s** –Mənə zəng elə... Hələlik.

**L a ç ı n** –Hələlik. *(Dəstəyi asır, dərin fikrə gedir.)* Bu nədir? Nə tez təslim oldum? İnsan necə də öz-özünü bilməzmiş... Səsini eşidən kimi qəlbimə işıq doldu... Həyat işığı, başqaları kimi yaşamaq, həyatın sevincini dadmaq həvəsi... Axı, mən də insanam! Mən də insan kimi yaşamaq, rədd edilmiş məhəbbətimə, dağılmış ailəmə qovuşmaq istəyirəm... Kitablar içində nə qədər eşələnmək, düsturları, sınaqları, təcrübələri nə qədər izləmək olar? Aylanın atası düz deyir. Mən ailəmi də elmə qurban verdim. Bir insan ömrünü insan kimi yaşamadım. Bezmişəm, daha bəsdir! Bəs mən nə vaxt yaşayacağam?

(Külək qopur, pəncərənin pərdəsini oynadır. Kosmik musiqi altında U l u ə c d a d peyda olur.)

**U l u ə c d a d** –Nə tez döndün fikrindən?

**L a ç ı n** –Nə?

**U l u ə c d a d** –Bəs hanı sənin iradən?

**L a ç ı n** –Sən kimsən?

**U l u ə c d a d** –Sən məni tanıyırsan.

**L a ç ı n** –Tanımıram.

**U l u ə c d a d** –Yaxşı bax.

**L a ç ı n** –Dedim, tanımıram!

**U l u ə c d a d** –Mən tarixəm, mən sənin qan yaddaşınam, ulu əcdadınam. Mən sənin vicdanının səsiyəm.

**L a ç ı n** –A... yadıma düşdü. Ulu əcdad! Bir dəfə səni yuxuda görmüşdüm. Simpoziumda çıxış etdiyim gün.

**U l u ə c d a d** –Həmin günün gecəsi.

**L a ç ı n** –Elə o gündən sonra rahatlığımı əlimdən almısan.

**U l u ə c d a d** –Bilirəm, buna görə sağ ol!

**L a ç ı n** –Öz əzablarım bəs deyildi? Üstəlik sən də bir yandan mənə aman vermirsən. Bir o kitablara bax. *(Masanı göstərir.)* O gecəki hücumundan sonra o kitablardan sənin keçib gəldiyin yolları izləyirəm.. Ortada çaşmışam.

**U l u ə c d a d** –Səbr elə, tapacaqsan.

**L a ç ı n** –Axı, mənim nəyimə lazım idi bunlar?

**U l u ə c d a d** –Yenə tərəddüd?

**L a ç ı n** – Kəşfimi başa vurdum. Dünya alimlərinin təqdirini qazandım. Mənə daha nə lazım idi? Məni ayrı yola salıb isti aşıma zəhər qatdın.

**U l u ə c d a d** –Mən səni həqiqət yoluna çağırdım.

**L a ç ı n** –Mənim kəşfim həqiqət deyildi?

**U l u ə c d a d** –Axı, mən sənə yuxunda hər şeyi başa saldım. Deyirsən, indi yenidən başlayaq? *(Sükut.)* Əl çək o kəşfdən! İnsanlığı fəlakətə aparacaq həqiqət insana lazım deyil.

**L a ç ı n** –Bəs mənim uzun illər çəkdiyim zəhmətə hayıfın gəlmir?

**U l u ə c d a d** –Yox! Sən gərək yola çıxmamışdan əvvəl hara gedəcəyini biləydin.

**L a ç ı n** –Mən bu işə başlayanda, yəni, irsiyyəti dəyişməyə, onu idarə etməyə nail olmaq istəyəndə bəşəriyyətə xidmət edəcəyimi güman edirdim, bununla da bəşəriyyətə xeyir verəcəyimi düşünürdüm.

**U l u ə c d a d** –Amma...

**L a ç ı n** –Amma o gecə, səni yuxuda gördüyüm o dəhşətli gecə birdən ayıldım ki, bu işin xeyirli tərəfindən başqa zərərli tərəfi də var. Yəni, insan beynində xeyirxahlıq hissi ilə yanaşı, bədxahlıq hissini də yaratmaq mümkündür.

**U l u  ə c d a d** –Bəli, bu kəşf bir zalımın əlində qəddarlıq silahına da çevrilə bilər.

**L a ç ı n** –Haqlısan! Amma *(Bir qovluq göstərir.)* bu, mənim on illik gecəli-gündüzlü axtarışlarımın, dözülməz əzablarımın yekunudur. Hamısı burdadır. Sınaqlar, göstəricilər, nəticələr. Doğrusu, bundan da ayrıla bilmirəm.

**U l u  ə c d a d** –Elə buna görə də tərəddüdlərini görüb yanına bir daha gəlməli oldum. Yandır o qovluğu, birdəfəlik ondan canın qurtarsın!

**L a ç ı n** - Bacarmıram!

**U l u  ə c d a d** –Yandır deyirəm sənə ... O qovluq nə qədər ki, salamatdır, sən bu tərəddüdlərdən yaxa qurtara bilməyəcəksən.

**L a ç ı n** –Əl çək. Məndən nə istəyirsən?

**U l u  ə c d a d** –Özünü! Mən səni özünə qaytarmaq istəyirəm. Təbiətin işinə qarışma!

**L a ç ı n** –Bizə verilən ağıl bizi rahat buraxmır. İnsan daim bilmədiyini bilməyə, görmədiyini görməyə, eşitmədiyini eşitməyə çalışır.

**U l u  ə c d a d** –Bilsin, görsün, eşitsin! Amma özündən, öz təbiətindən, insanlığından əl çəkməsin, insan olduğunu unutmasın. Siz ana təbiətlə üzbəüz oturub onunla məsləhətləşmək əvəzinə, böyük iştahanız, dibsiz nəfsiniz, sonsuz tamahınızla məsləhətləşir, onları doyuzdurmağa çalışırsınız.

**L a ç ı n** –Təbiət öz sirrini insana məsləhətlə vermir. Biz onu zorla alırıq.

**U l u  ə c d a d** –Elə zorda çaşmısınız! Zorakılıqla qazanılan səadət sonda bədbəxtliyə çevrilir. Sənin kəşfin də təbiəti zorlamaqdır! Öz şöhrətin naminə insanlığı bədbəxtliyə aparma. Düşün, düşün, nəfsinlə, tamahınla deyil, ağlınla və qəlbinlə düşün!

**L a ç ı n** –Düşündüm və buna görə də məktublara, dəvətlərə, teleq-

ramlara cavab vermir, susuram.

**U l u ə c d a d** –Sənin susmağın hardasa razılıq əlamətidir. Nə qədər susub cavab verməyəcəksən? Olmazmı ki, birdəfəlik məsələni kəsəsən? Açıq-aydın, mərdi-mərdanə kəşfindən imtina etdiyini bildirəsən? Əgər mənə verdiyin sözdən qaçsan, atomu kəşf edənlər kimi sonradan peşiman olacaqsan.

**L a ç ı n** –Axı, mən elmin açılmamış bir səhifəsini açmışam, hər bir açılış bir tərəqqidir.

**U l u ə c d a d** –Lazım deyil bəşəriyyətə onu fəlakətə aparan bir tərəqqi. Tərəqqiyə bax! Bu tərəqqi vəhşilikdir!

**L a ç ı n** –Axı, bəşəriyyətin min illərdən bəri qazandığı nailiyyətləri, açılmış sirləri, məchulların məluma dönməsini necə inkar etmək olar?

**U l u ə c d a d** –Atomun kəşfi sizi hara apardı?

**L a ç ı n** –Sən niyə o tərəfi götürürsən? Elmin və sənətin yaratdığı xariqələr... Təyyarə, qatar, telefon, teleskop, televizor, zavod, fabrik və sairə elmin yaratdığı bu mədəniyyət də vəhşilikdir?

**U l u ə c d a d** –Xeyir, bunlar mədəniyyətdir. Siz indi bu tərəqqi zirvəsindən geriyə qayıdırsınız. Təkamülünüz artıq geriyə dönür.

**L a ç ı n** –Bəsdir! Mən səni eşitmək istəmirəm.

(L a ç ı n televizorun düyməsini basır. Ekranda saçları pırtlaşmış, üz-gözünə tökülmüş yarıçılpaq müğənni eybəcər hərəkətlərlə tullanıb düşür, eybəcər səslər çıxarıb böyürür. Bir xeyli dinləyirlər. U l u ə c d a d qəhqəhə çəkib gülür).

**U l u ə c d a d** –Budurmu müasir mədəniyyət? *(Ekrandakı müğənnini göstərir)* Bu ki, meymunçuluqdur! Bu, bizdən çox-çox əvvəlki yarımvəhşi insan nəslinin sənətidir. Bayaq saydığın böyük tərəqqidən sonra siz yenidən ibtidai insanın sənətinə qayıtmısınızsa, boynuna al ki, tərəqqiniz və təkamülünüz geriyə dönür. İndi siz insanlıqdan vəhşiliyə, alilikdən ibtidaiyə doğru gedirsiniz. Bu isə tərəqqi deyil, tənəzzüldür! Tərəqqi isə vəhşilikdən insanlığa doğru gedən yola deyilir.

**L a ç ı n** –Bilmirəm, mən heç nə bilmirəm. Çaşmışam. *(Televizoru söndürür.)*

**U l u ə c d a d** –Sizi "insan meymundan əmələ gəlib" – deyən o

alim çaşdırıb. Sənin ulu əcdadın mənəmsə, bilirəm ki, mənim dədəm meymun deyil. Sən mənim törəməmsən, mən isə meymunun törəməsi deyiləm. *(Televizoru göstərir.)* O bədbəxt elə bilir ki, meymundan əmələ gəlib. Ona görə də meymunu təqlid edir.

**L a ç ı n** –İndi neyləyək?

**U l u ə c d a d** –İki aydır məni eşidirsən. Yenə də eşit. Amma sən indi arvadının səsini eşidən kimi tamam dəyişdin. Uyma ona.

**L a ç ı n** –Axı, o mənim ailəmdir, mən onu sevirəm.

**U l u ə c d a d** –Sevirsən?

**L a ç ı n** –Bəli... Sən sevginin nə olduğunu bilirsən?

**U l u ə c d a d** –Sevginin nə olduğunu biz bilirik, siz yox. Heç olmasa Leyli və Məcnunu xatırla. Siz bu gün sevir, sabah boşayırsınız. Biz isə əgər sevdiksə, qəbir evinə də birlikdə gedirik. Biz sevdiyimiz qadının özünü sevirik, siz isə ondan umduğunuz xeyiri, mənfəəti sevirsiniz.

**L a ç ı n** –Əlbəttə, beləlari var.

**U l u ə c d a d** –Bəs sən? Sən özün? Bacı himayəsində yaşayan yoxsul bir tələbə idin... Aylanı tapandan sonra sən də meydana çıxdın... Qaynata kölgəsində ev-eşik sahibi oldun. İmkanların böyüdü. Qol-qanad açdın, ali məqamlarda dolaşdın.

**L a ç ı n** –Bəs mən özüm heç nəydim? Sən mənim qabiliyyətimi, zəhmətimi danırsan?

**U l u ə c d a d** –Danmıram, amma sizin zəmanədə təkcə qabiliyyət azdır, onu üzə çıxartmaq üçün imkan lazımdır. O imkanı da sənə Aylanın atası verdi.

**L a ç ı n** –Xeyr, mən Aylanı sevmişəm.

**U l u ə c d a d** –Sən Ayladan əvvəl atasının imkanlarını sevmisən. Görürsən, açıq danışmaq nə gözəl şeydir. Adama həqiqəti göstərir. Amma siz bu açıqlıqdan qorxursunuz. Üzünüzə maska taxıb, əməlinizə başqa don geyindirirsiniz. Bir cür düşünüb, ayrı cür danışırsınız.

**L a ç ı n** –Mən belələrinə nifrət eləyirəm.

**U l u ə c d a d** –İndi eləyə bilərsən.

**L a ç ı n** –Niyə indi?

**U l u ə c d a d** –Çünki, indi sən də imkan sahibisən.

**L a ç ı n** –Yaxşı, tutaq ki, mən Aylanı atasına görə sevmişəm. Bəs Ayla? Mən ki, yoxsul bir tələbə idim. Niyə məni sevdi?

**U l u  ə c d a d** –O, sənin gənclik xəyallarına, gələcək haqqındakı şirin vədlərinə inandı. Amma bu inam uzun sürmədi. Əgər o, səni, sənin özünü qərəzsiz sevirdisə, niyə axıra qədər davam gətirmədi? Sənin elm naminə ailəyə biganəliyinə dözmədi? Atasının təkidilə niyə səndən üz döndərdi? O, səni indi "sevməyə" başlayıb. Çünki indi sənin şöhrətin atasının imkanlarını üstələyib. Amma indi də o, sənin özünü deyil, sənin şöhrətini sevir. Buna isə məhəbbət deməzlər. Ticarət deyərlər.

**L a ç ı n** –Sən dəhşətli sözlər danışırsan.

**U l u  ə c d a d** –Mən sənə həqiqəti deyirəm. Üç ildir ayrıldığınız. Niyə səni arayıb-axtarmırdı? İndi axtarır? Sən də məhəbbət donu geydirilmiş bu ticarəti qəbul etməməlisən.

**L a ç ı n** –Əgər o, səhvini başa düşüb barışmaq istəyirsə, niyə mən onu rədd etməliyəm?

**U l u  ə c d a d** –O, indi səhvini başa düşməyib, xeyrini başa düşüb. O, səni atanda sən adi bir adam idin. İndi qeyri-adisən. İndi sənin qeyri-adiliyin onun gözlərini qamaşdırıb. Amma o, bilmir ki, sən qeyri-adiliyindən vaz keçəcəksən.

**L a ç ı n** –Qeyri-adilikdən vaz keçmək! Axı, mən də insanam. Mənim də öz arzularım, qanadlı xəyallarım var. Mən hələ uşaqlıqdan adamlar içində sevilmək, barmaqla göstərilmək, üstünlüyümü hamıya təsdiq etdirmək istəmişəm.

**U l u  ə c d a d** –Gördünmü? Sən də öz çağdaşların kimi öz məninin əsirisən. Sən qeyri-adiliyini insanları fəlakətə aparan kəşfdə deyil, öz mənini öldürüb insanlara xidmətdə tapmalısan.

**L a ç ı n** –Başqalarından seçilmək məgər təbii və insani arzu deyil?

**U l u  ə c d a d** –Əgər seçilmə arzusu insana qarşıdırsa, o, təbii və insani ola bilməz. Qırılan milyonların, tarimar edilən şəhərlərin hesabına Hitlerin başqalarından seçilməsini təbii və insani adlandırmaq olarmı?

**L a ç ı n** –Bu başqa məsələdir.

**U l u  ə c d a d** –Zülmün, qəddarlığın adi qayda olduğu bir cəmiyyətdə əgər sən cəmiyyətin xeyrinə öz şəxsi xeyrindən və qeyri-

adiliyindən keçə bilsən, insanlığın gözündə sən daha artıq qeyri-adi olarsan. Mən səni, bax, belə seçilməyə, belə qeyri-adiliyə çağırıram.

(**Laçın** birdən ürəyini tutur, cibindən dərman çıxarıb atır.)

**Ulu əcdad** –Nə oldu?

**Laçın** –Ürəyim məni yaman incidir. *(Uzanır.)* Sizin zəmanədə də adamların ürəyi ağrayırdı?

**Ulu əcdad** –Biz heç ürəyimizin harada olduğunu bilməmişik.

**Laçın** –Xoşbəxt yaşamısınız.

(Qapı zəngi. **Laçın** qapını açır. **Nərgiz** gəlir. **Ulu əcdad** dərhal çəkilir.)

**Nərgiz** - Qardaş, gözümün işığı!

(**Laçının** boynuna sarılır.)

**Laçın** –Xoş gördük. Xeyir ola? Niyə belə xəbərsiz-ətərsiz?

**Nərgiz** –Qardaşım gəlmədi, mən gəldim onu görməyə. Üzbəüz təbrik eləməyə... Hələ bir dayan görüm, niyə belə sınıxmısan? *(Sükut.)* Nə təhər sınıxmayasan? Bəs o boyda işi kim görüb? Bu cavan canıyla o boyda alimlərə kim cavab verib?

**Laçın** –Nə var, nə yox? Uşaqlar necədir?

**Nərgiz** –Hamı sənə duaçıdır. Adı dünyaya sığmayan dayılarının yolunu gözləyirlər. Vallah, gözümüzün kökü saraldı, daha bəsdir burda oturdun.

**Laçın** –Elə bilirsən mənim çox xoşum gəlir?

**Nərgiz** –Bəs xoşun gəlmirsə, nə üçün oturmusan burda? İşini də başa çatdırmısan... Mən o yan-bu yan bilmirəm, gəlmişəm səni aparmağa.

**Laçın** –İndicə Ayla zəng eləmişdi.

**Nərgiz** –Bilirəm, mən vermişdim nömrəni...

**Laçın** –Ay bacı, xeyir ola? Bu nə məsələdir? Sən, axı...

**Nərgiz** –İstəyirəm barışasınız.

**Laçın** –Bircə ay əvvəl sən mənə telefonda demədin ki, ondan sənə arvad olmaz? Aradan nə keçdi, ay bacı?

**N ə r g i z** –Çox fikirləşdim, bu qərara gəldim ki, yenə pis-yaxşı, öz ailəndir. Ortada uşaq var.

**L a ç ı n** –Elə mən də buna görə dözürdüm.

**N ə r g i z** –Onun da başı daşdan-daşa dəyib. Hər halda əvvəlki şıltaqlığını daha eləməz. Bir də... Ona dil verən atası idi... İndi gördü ki, papaq altında oğlanlar varmış.

**L a ç ı n** –Mən kiməm ki?

**N ə r g i z** –Sən... Sən kim olduğunu hələ bilmirsən?! *(Sükut.)* Yaxşı, sən burda hələ nə qədər qalmalısan?

**L a ç ı n** –İşimi buraya dəyişmişəm.

**N ə r g i z** –Niyə? Daha Vətənini bəyənəsi olmadın?

**L a ç ı n** –Yox... Hələ bir müddət burda işləməliyəm.

**N ə r g i z** –Sən mənimlə getməlisən.

**L a ç ı n** –Hara?

**N ə r g i z** –Hara olacaq? Bakıya.

**L a ç ı n** –Xeyir ola?

**N ə r g i z** –Məni dolaşdırıblar, qardaş.

**L a ç ı n** –Necə? Dolaşdırıblar?

**N ə r g i z** –Bəli. Fabriki yoxlayıblar, əskiyim çıxıb.

**L a ç ı n** –Əgər sən düzsənsə, əskiyin necə çıxa bilər?

**N ə r g i z** –Mühasibə inanmışam... O da istədiyini eləyib.

**L a ç ı n** –Əgər günah mühasibdədirsə, niyə qorxursan?.. Həqiqət nazilər, amma qırılmaz.

**N ə r g i z** –Həqiqət! İndi həqiqətə baxan kimdir?

**L a ç ı n** –Yaxşı, mən gedib orda neyləyə bilərəm? Axı, mənim elə yerlərdə dostum, tanışım yoxdur.

**N ə r g i z** –İndi bütün Azərbaycan səni tanıyır... Bir sözün iki ola bilməz.

**L a ç ı n** –Vallah bacı, birini bilirsən, birini yox.

**N ə r g i z** –Nəyi bilmirəm? *(Sükut.)* Hə? *(Sükut.)* Dağ kimi qaynatan var... Onun bir zəngi bu məsələni yoluna qoyar.

**L a ç ı n** –Hə... İndi başa düşdüm... Çox şeyi başa düşdüm.

**N ə r g i z** –Şükür Allaha!

**L a ç ı n** –Düzünü de, sənin günahın var, ya yox?

**N ə r g i z** –Direktor kimdirsə, cavabdeh də odur.

**L a ç ı n** –Bəs sən düz işləyə bilmirdin?

**N ə r g i z** –Bu yaşa çatmısan, o boyda biliyin var, hələ çox şeyi bilmirsən. Sən nə yapışmısan düzlüyün, həqiqətin quyruğundan? Düzlük axtaranların nə günə düşdüyünü sən nə vaxt biləcəksən? Hamımız bir parça çörəyin əsiriyik. Çörək də düzlüklə çıxmır. De görək, mən də sənin kimi həqiqətin quyruğundan yapışıb hər işimdə düz olsaydım, dörd balamı atasız necə böyüdərdim? Hə...cavab ver. Dörd bala, üstəlik də sən! Səni də mən ərsəyə çatdırmışam... Atadan yetim qalan balalarım indi də anadan yetim qalsın? Məni tutsalar, dörd balama sən baxmalı olacaqsan.

**L a ç ı n** –Yəni, həbs olunmaq qorxusu var?

**N ə r g i z** –Mən gedirəm sabaha bilet almağa. Sən də hazırlaş.

(N ə r g i z gedir. İşıq sönür, işıq yalnız L a ç ı n ı n üzünü işıqlandırır. Bu zaman qaranlıqdan U l u ə c d a d peyda olur. O qəhqəhə ilə gülür.)

**L a ç ı n** –Nəyə gülürsən?

**U l u ə c d a d** –Sizə! Dildə xeyirxahlıqdan, ədalətdən, həqiqətdən dəm vuran, həqiqətdə isə həqiqəti tapdayan, ədalətə arxa çevirən, öz xeyrindən ötrü doğma qardaşının xeyrinə belə tüpürən bugünkü insanlara! Gördünmü doğma bacını? Bir vaxt arvadına nifrət eləyirdi. İndi isə səni onunla barışmağa çağırır. Hansı odda yandığını düşünmədən səni öz xeyrinə qurban verir... Sizin dünyanız şəxsi mənafe oxu ətrafında fırlanır... Sən isə öz acizliyindən bu axara qarşı çıxa bilmirsən.

**L a ç ı n** –Neyləyim?

**U l u ə c d a d** –Getmə!

**L a ç ı n** –Mümkün deyil. Həyatın da öz axarı, öz qanunları var. Sən, axı, bizim həyatdan xəbərsizsən.

**U l u ə c d a d** –Bu düzdür.

**L a ç ı n** –Düz olmayan nədir?

**U l u ə c d a d** –Həyatınızın bünövrəsi. Əyri bünövrənin üstündə qurulan hər şey əyri olmalıdır.

**L a ç ı n** –Mən səni eşitmək istəmirəm, bəsdir, bəsdir, bəsdir!

## BEŞİNCİ ŞƏKİL

Pərdə açılır. Ş a h b a z ı n kabineti. O, masa arxasında nə iləsə ciddi məşğuldur. K a t i b - r o b o t daxil olur.

**K a t i b - r o b o t** –Qəbula gələnlər gözləsinmi?

**Ş a h b a z** –De, gözləsinlər.

(K a t i b - r o b o t çıxır, L a ç ı n gəlir.)

**L a ç ı n** –Salam.

**Ş a h b a z** *(başını qaldırır.)* - Laçın? Salam, salam. Xoş gəlmisən. Axırı ki, gəlib çıxdın. Əşi, hamı səni axtarır, sənsə qeybə çəkilmisən. Səni ürəkdən təbrik edirəm. *(Görüşürlər.)* Böyük müvəffəqiyyətdir, əhsən. Eşitdiklərimdən belə məlum olur ki, çox böyük kəşfdir. Professor Vəlizadə iki gündən bir mənə zəng eləyir. Deyir, balam, bu harda qaldı? Görüşmüsən onunla?

**L a ç ı n** –Hələ yox.

**Ş a h b a z** –Nahaq. O, sənin işin üçün səndən çox həyəcan keçirir. *(Sükut.)* Yaxşı, de görüm o boyda qələbədən sonra sən niyə qeybə çəkildin? *(Sükut.)* Oxu atıb yayı gizlətməyi necə başa düşək?

**L a ç ı n** - Düz deyirsiniz. Mən hədəfi yaxşı görmədən ox atmışam. Ona görə də yayı gizlətməli oldum.

Şahbaz–Necə yəni?

**L a ç ı n** –Mən sizin yanınıza ayrı bir iş üçün gəlmişəm. Ucundan-qulağından Aylaya telefonla dedim. Yəqin ki, sizə çatdırıb.

**Ş a h b a z** –Bir az xəbərim var. Danışarıq. Amma əvvəlcə sən öz məsələni mənə başa sal görüm, "ox", "hədəf" deyəndə sən nəyi nəzərdə tutursan? *(Sükut.)*

**L a ç ı n** –Bilirsiniz, bu çox mürəkkəb məsələdir. Bunu atüstü izah eləmək olmaz. Qəbulda xeyli adam oturub. Başqa vaxt...

**Ş a h b a z** –Onun ziyanı yoxdur. Dedim gözləsinlər. Məni daha çox sənin işin maraqlandırır. Təkcə məni yox, indi şəhərdə hamı bu məsələdən danışır, hərə bir cür başa düşür. Hərə bir cür yozur.

**L a ç ı n** –Hərənin bir cür yozması təbiidir. Çünki bu kəşfin iki ucu

var. Xeyir və şər ucu. Bu kəşfdən xeyirə də istifadə etmək olar, şərə də.

**Ş a h b a z** –Atom kimi.

**L a ç ı n** –Bəli, irsiyyəti dəyişmək özü-özlüyündə böyük kəşfdir, amma...

**Ş a h b a z** –Demək, məsələn, oğruya qorxu hissini aşılayıb, onu bu yoldan çəkindirmək olar, eləmi?

**L a ç ı n** –Bəli.

**Ş a h b a z** –Bu ki, yaxşı işdir.

**L a ç ı n** – Bəs əksini götürsəniz necə? Məsələn, qəddarlıq əlamətini daşıyan kimyəvi birləşməni alıb, istədiyimiz adama köçürər, onu qəddar və zülmkar edə bilərik. Yaxud da bu üsulla sürülərlə mütilər, itaətkarlar, kölələr hazırlamaq olar.

**Ş a h b a z** –Məgər indi belələri azdır?

**L a ç ı n** –Elələrinin üstələməsi qorxuludur.

**Ş a h b a z** –Sən məsələnin xeyir tərəfini niyə götürmürsən?

**L a ç ı n** –Atom, hidrogen silahlarının Allahlıq elədiyi bir əsrdə insanlar hər şeyin xeyirli tərəfindən çox mənfisindən yapışır.

**Ş a h b a z** –Atomdan yaxşı məqsədlər üçün də istifadə olunmurmu?

**L a ç ı n** –Bəli. Xirosimada, Çernobılda olduğu kimi.

**Ş a h b a z** –İndi səncə neyləmək lazımdır?

**L a ç ı n** –Mən kəşfi dayandırmaq, üzə çıxartmamaq qərarına gəldim.

**Ş a h b a z** –Bəs sonra?

**L a ç ı n** –İndi antropologiya ilə məşğul oluram.

**Ş a h b a z** –Niyə məhz antropologiya ilə?

**L a ç ı n** –İnsanlığın tarixini öyrənmək üçün. Mən ibtidai insanı öyrənib görürəm - o zamankı insan az bilib, amma çox xoşbəxt olub.

**Ş a h b a z** –İndi deyirsən, biz kahaya qayıdaq?

**L a ç ı n** –Yox, amma təbiətdən uzaqlaşmayaq. Təəssüf ki, o qədər uzaqlaşmış, onunla əlaqəmizi o qədər itirmişik ki, özümüz təbiətə yaxınlaşmaq əvəzinə, onun ətrini otaqlarımıza gətirməyə çalışırıq. Bu məqsədlə odorologiya adlı elm yaratmışıq.

**Ş a h b a z** –O nədir?

**L a ç ı n** –Təbiəti insana yaxınlaşdırmaq elmi. Bir alim var, Krasnov familiyalı. Onun icad etdiyi "odofon" cihazı çiçək və otların ətrini ifraz edir. Bu yolla təbiəti özümüzə yaxınlaşdırırıq. Bu, gülünc deyilmi?

**Ş a h b a z** –Amma maraqlıdır. Elmi nailiyyətdir.

**L a ç ı n** –İnsan təbiətə uyğunlaşa bilmir, ona zor göstərir, onu özünə uyğunlaşdırmağa çalışır. Heyvanlar isə əksinə, instinktlə təbiətin şıltaqlığını əvvəlcədən hiss edir, özünü ona uyğunlaşdırır...

**Ş a h b a z** –Məsələn...

**L a ç ı n** –Qarşıdakı ilin quraqlıq olacağını hiss edən qurd quyruğunu qaldırıb ulayır, öz həmcinslərini aclığa hazır olmağa çağırır. Başa salır ki, quraqlıq olacaq, bu il doğum olmamalıdır.

**Ş a h b a z** –İt zəlzələni əvvəlcədən hiss etdiyi kimi.

**L a ç ı n** –Bəli.

**Ş a h b a z** –Bəs, bundan çıxan nəticə nədir?

**L a ç ı n** –Bir ehtimala görə insan yerin, torpağın məhsulu deyil, kosmosdan gəlmədir. Buna görə də insan həmişə gözlərini göyə dikir, əllərini göyə açır. Göy bizi özünə çəkir, çətinliyə düşəndə imdadı göylərdən umuruq. Amma torpağa, təbiətə qənim kəsilir, onu insafsızcasına məhv edirik.

**Ş a h b a z** –Amma bizi yaşadan da torpaqdır. Sən deyən ehtimal həqiqətdirsə, biz niyə torpağa "ana torpaq" deyirik?

**L a ç ı n** –Çünki qidamız ondadır.

**Ş a h b a z** –Bir də elmi-texniki tərəqqidə.

**L a ç ı n** –Əlbəttə, təyyarə arabadan daha üstündür. Araba ilə beş günə getdiyimiz yolu, indi təyyarə ilə bir saata gedirik. Qazandığımız sürət bizə bolluca vaxt qazandırır. İndi mən bilmək istəyirəm, qazandığımız o vaxt hardadır? Biz onu nəyə sərf edirik? Sürətdən əldə etdiyimiz o vaxt nə üçün bizi xoşbəxt edə bilmir? Axı, araba ilə gedən əcdadımız bizdən daha rahat yaşayırdı...

**Ş a h b a z** –Sən öz tədqiqatlarından əl çəkməklə o kəşfin qarşısını ala biləcəksənmi? Yox. Başqası davam etdirəcək.

**L a ç ı n** –Kim nə istəyir, eləsin. Mən insana qarşı çevrilən elmin əleyhinəyəm.

**Ş a h b a z** –Özün bilərsən, amma sənin dəlillərin məni inandırmır. Sən nəzəri cəhətdən nə qədər hazırlıqlı olsan da, həyatı bilmirsən. Burada əyləş, indi mənim qəbuluma gələnləri dinlə. Sonra söhbətimizi davam etdirərik.

**L a ç ı n** –Onlar yəqin ki, xahişə gəlib?

**Ş a h b a z** –Şübhəsiz.

**L a ç ı n** –Onda əvvəlcə mənim xahişimi dinləyin.

**Ş a h b a z** –Buyur.

**L a ç ı n** –Mənim Moskvada hələ işim çox idi. Bacıma görə işlərimi atıb gəlmişəm.

**Ş a h b a z** –Hə... Ayla mənə demişdi. İşdən bir az xəbərim var. Bilirsən, Laçın, fabriki yoxlayıblar, yeyinti çox böyükdür. Yoxlama işindəki bütün sənədlər Nərgizin əleyhinədir. O, niyə belə ehtiyatsız iş tutub?

**L a ç ı n** –Nə deyim? İndi mən nə etməliyəm? Bilirsinizmi, mən körpəlikdən yetim qalmışam. Nərgiz mənə tək bacı olmayıb, həm ata olub, həm də ana...

**Ş a h b a z** –Bilirəm...

**L a ç ı n** –O, həbs olunsa, mən onun balalarının üzünə baxa bilmərəm.

**Ş a h b a z** –Sən öz işinlə məşğul ol. Mən əlimdən gələni eləyərəm.

**L a ç ı n** –Ömrüm boyu düzgünlükdən dəm vuran mən, bu gün belə bir məsələnin xahişini eləyəndə, vallah, qat-qat ət tökürəm, xəcalət çəkirəm.

**Ş a h b a z** –Bu da sənin ən böyük səhvindir. Sən dünyanı yalnız bir rəngdə - həqiqət rəngində görmək istəyirsən. Lakin bu mümkün deyil. Çünki gecə və gündüzü ilə dünya iki rəngdədir. Sənin kəşfin də elə... Sən onun yalnız xeyirli tərəfini qəbul etmək istəyirsən. Amma bu mümkün deyil. Hər xeyrin içində bir şərin olması labüddür. Və bundan qorxmaq lazım deyil... Nə isə... Sən narahat olma, bu işlə mən məşğul olaram. Amma sən bilməlisən ki, şər də, xeyir də bizim içimizdədir. *(Düyməni basır.)* Qəbulda olanlar gəlsinlər.

(Pauza. Q o c a daxil olur.)

**Q o c a** –Salam... *(Sükut.)* Tanımadın?

**Ş a h b a z** –Yox.

**Q o c a** –Mən Abdullanın atasıyam.

**Şa h b a z** –Hansı Abdulla?

**Q o c a** –Dostun... Bəyəm bizə az gəlmisən?

**Ş a h b a z** –Hə... yadıma düşdü... Canı-başı necədir?

**Q o c a** –Əşi, nə can, nə baş? Öldürmədilər? Sən də bizə yasa gəlməmişdin?

**Ş a h b a z** –Hə... o Abdulla...

**Q o c a** –Nə oldu?

**Ş a h b a z** –Nə, nə oldu?

**Q o c a** –Axı, qatil tapılmadı.

**Ş a h b a z** –Tapılacaq, darıxma...

**Q o c a** –Havaxt tapacaqsınız?

**Ş a h b a z** –Axtarırıq day-day, bir az da gözlə...

**Q o c a** –Nə qədər gözləmək olar?

**Ş a h b a z** –Qatil elə məxluqdur ki, bir də görürsən, özü gəlib düşdü tora.

**Q o c a** –İndi biz gözləyək ki, nə vaxt gəlib düşəcək tora?

**Ş a h b a z** –Yox, biz də axtarırıq...

**Q o c a** –Mənim bir günüm bir il kimi keçir. Döymədiyim qapı, yazmadığım idarə qalmayıb. cavab da vermirlər.

**Ş a h b a z** –Bax, indi gəldin mən deyənə. Gözləməkdən başqa əlacımız yoxdur.

**Q o c a** *(qışqırır)*–Nə vaxtacan?

**Ş a h b a z** –Yox, daha bu olmadı. Qışqırmaqla tapılsaydı, mən səndən bərk qışqırardım.

**Q o c a** –Bəs sən yasda demədin ki, tezliklə tapacaqsan. Bəs sən demədin ki, mərhum sənin dostundur.

**Ş a h b a z** –Mən bəyəm indi deyirəm dostum deyil? Darıxma, day-day.

**Q o c a** –Artıq mənə hər şey aydındır. Allah bizim fəryadımıza çatsın.

(Q o c a gedir.)

**Ş a h b a z** –Bu kişinin oğlu zavod direktoru təyin olunan kimi, əliəyrilərin əl-ayağını yığışdırdı. Buna dözməyən əliəyrilər muzdla qatil tutub yazığı öldürtdülər. İndi mən sənə başqa bir ərizə göstərim *(Ərizəni masanın üstündən götürüb Laçına göstərir).* Bu, bir ananın ərizəsidir. Ana öz doğma qardaşını öldürmüş qatil oğlunun bağışlanmasını xahiş edir. Atadan qalma həyəti bölüşdürəndə böyük qardaş çəpəri bir qarış özünə tərəf çəkir. Bir qarış yer üstündə qardaşlar savaşır, kiçik qardaş böyük qardaşı öldürür. İndi mən səndən soruşuram: sifarişlə zavod direktorunu öldürən , yaxud bir qarış torpaqdan ötrü doğmaca qardaşını qətlə yetirənə məgər sənin kəşf etdiyin o kimyəvi birləşmədən vurublar ki, o boyda cinayətə əl atıblar?

**L a ç ı n** –Demək, şər bizim içimizdədir!

**Ş a h b a z** –Ay sağ ol, bunu mən demədim, sən özün dedin.

**L a ç ı n** – Mən də bunu demək istəyirəm. Nə qədər ki, bəşəriyyət bu əyri yolla gedir, yaddaşı köçürmək onu daha böyük fəlakətlərə apara bilər.

**Ş a h b a z** –Atomdan böyük təhlükə? Biz artıq uçurumun qarşısındayıq.

**L a ç ı n** –İrsiyyəti dəyişmək atomdan daha böyük təhlükədir. Mənim imkanım olsaydı, alimlərin qarşısında diz çökər, onlara yalvarardım: Saxlayın bu sahədəki tədqiqatları. Çox sürətlə irəli getdik, dayanın, bir az nəfəsimizi dərək, keçdiyimiz yollara baxaq, əcdadımızı xatırlayaq.

**Ş a h b a z** –Deyirsən, arxaya baxaq?

**L a ç ı n** –Bəli.

**Ş a h b a z** –Təbiət arxaya baxmağı vacib bilsəydi, gözlərimizi qabaqda deyil, arxada - boynumuzun ardında yaradardı.

**L a ç ı n** –İnsanı məhvə aparan tərəqqi tərəqqi deyil, gerilikdir. Belə tərəqqinin qarşısı alınmalıdır.

**Ş a h b a z** –Ay aldın ha...

## ALTINCI ŞƏKİL

Pərdə açılır
Ş a h b a z ı n evi. A y l a piano çalıb oxuyur.

**A y l a** – Sənsiz bir cəllad kimi dünya durur üzümə,
Sənsiz mənim öz evim qürbət olub özümə,
Sənsiz mənim özüm də özüm üçün sirr olub,
Min-min fikrim, xəyalım sənsiz mənə bir olub.
Sən də mənsiz bu dərdi mənim qədər çəkənsən,
Mənim ilkim də sənsən, mənim sonum da sənsən.
(Qapı zəngi , L a ç ı n gəlir.)

**A y l a** –Oho... Laçın bəy. Xoş gördük. Keç içəri. *(Sükut.)* Sənə nə olub?

**L a ç ı n** –Özüm də bilmirəm...

**A y l a** –Bacının işindən ötrü darıxırsansa, nahaq! Atam kömək eləyəcək. Özün bilirsən ki, onun bir zəngi kifayətdir.

**L a ç ı n** –Mən doğrudan bədbəxt adamam.

**A y l a** –Niyə? Niyə bədbəxtsən? Allaha şükür, nəyin çatmır? Bununla belə sən öz qədrini bilmirsən. Öz-özünü bədbəxt eləyirsən. *(Sükut.)* Bu gün bir həftədir gəlmisən. Mən heç, deyək ki, məndən inciksən, bəs oğlun? Onu da görmək istəmirsən? Bəs sən necə atasan, necə insansan?

**L a ç ı n** –Nə desən, haqlısan.

**A y l a** –Sən həmişə belə olmusan. Vallah, bunu heç bir qadın götürməzdi. Amma mən dözdüm. Dedim, bir gün ayılar, atalıq və ərlik vəzifəsini başa düşər. *(Sükut.)* Niyə susursan? Danışsana... Düz demirəm? *(Sükut.)* Atam mənə kəşfin barədəki qərarını dedi. Bağışla məni, Laçın, ağlı başında olan adam, sənin tutduğun işi tutmaz. Sən ki, neçə illik zəhmətini, yuxusuz gecələrinin bəhrəsini, ailənin əzabları bahasına qazandığın hörməti bir anda yerə vuracaqdın, onda bu əzab-əziyyətlər nəyə lazım idi? Elə əvvəlcədən sən də bu boyda əzab-əziyyətə qatlaşmaz, başqaları kimi 100 səhifəlik bir dissertasiya yazıb elmi dərəcə alardın. Biz də səninlə bərabər rahat yaşayardıq.

**L a ç ı n** –Yenə deyirəm, haqlısan, məni danlama, mən də nəticəni əvvəlcədən bilsəydim, bu işə girişməzdim. Sizi də özümlə bərabər incitməzdim. *(Ulu əcdad onun gözünə görünür.)* Əl çək məndən, əl çək!

**A y l a** –Sənə nə oldu?

**L a ç ı n** *(yavaş-yavaş sakitləşir)*–Zarafat eləyirdim.

**A y l a** –İndi ki, kəşfindən əl çəkirsən, bəs Moskvanı neyləyirdin? Antropologiyanın sənin kəşfinə nə dəxli?

**L a ç ı n** –Mən, insan təbiətindəki qəddarlıq və mütiliyin, nəciblik və xudbinliyin tarixini, mənbəyini öyrənmək istəyirəm.

**A y l a** –Bu, fəlsəfənin işidir.

**L a ç ı n** –Hər elmin zirvəsi fəlsəfədə yekunlaşır. Bir də sənə məlumdur ki, insan təkamülündə bütün mərhələlər bizə bəlli deyil. Bacarıqlı insanla şüurlu insan arasında, nəsə, bir körpü olmalıdır. Biz onu tapmalıyıq. Məncə qəddarlıq və mütilik bu mərhələdən başlanıb.

**A y l a** –Özünü çox dərin bir uçuruma salmısan.

**L a ç ı n** –O gün atan şikayətçiləri qəbul edəndə mənə çox şey aydın oldu. Və bu qənaətə gəldim ki, həqiqətən, tərəqqi geriyədir.

**A y l a** –Düz deyirsən, incimə. Laçın, çəkdiyin əmək sənin ağlını da yerindən oynadıb, geriyə dönürsən.

**L a ç ı n** –Ola bilər.

**A y l a** –Şübhə eləmə. Sən normal adam deyilsən. İndiki zamanda kim öz xeyrindən, öz zəhmətindən keçər? Sən neylədiyini bilirsən? Öz xeyrini bilməyən adamın bəşəriyyətə xidmətindən danışması gülünc deyil? Sən sözdə xudbinliyin əleyhinə gedirsən, xudbinliyin, qəddarlığın mənbəyini öyrənmək istəyirsən. Bunun üçün kitabları, məxəzləri araşdırmaq lazım deyil, özünə bax, özünü öyrən. Öz uğurların naminə ailəni əzab-əziyyətə salan sən özün deyilsən? Sən, axı, məni sevirdin? Hanı o sevgi? Sevən də sevəni zillətə salarmı? Evlənəndən bəri sən məni bir dəfə də olsun xoş dindirməmisən. Həmişə öz fikirlərinlə yaşamış, Allahın quruca "sevirəm" sözünü də deməmisən.

**L a ç ı n** –Sözə nə ehtiyac var?

**A y l a** –Niyə yoxdur?

**L a ç ı n** –Ulu əcdadımız danışmağa başlayanda öz sevgisini necə bildirib?

**A y l a** –Nə bilim?

**L a ç ı n** –Onlar bir-birinə olan sevgilərini də, nifrətlərini də fəhmlə, gözdən oxuyublar. İkincisi də onlarda inam olub. Söz yaranandan sonra fəhm, intuisiya itib, inamsızlıq başlayıb. Sən mənə inanmadığın kimi...

**A y l a** –Deyirsən indi dilimiz ola-ola, biz də vəhşi əcdadımız kimi gözümüzlə danışaq?

**L a ç ı n** –Nə olar? Çünki gözün dilində yalan, riya yoxdur.

**A y l a** –Deyirsən, yəni dədə-babamız yalansız yaşayıb?

**L a ç ı n** –Dünən gecə ulu babam yuxuma girmişdi. Mən elə bu sualı ona verdim. Dedi ki...

**A y l a** –Babanı qoy qəbirdə rahat yatsın.

**L a ç ı n** –Bura bax, ulu babanın adını bilirsən?

**A y l a** –Babamın babası ulu babam hesab olunursa, bilirəm: Əlibəy.

**L a ç ı n** –Əlibəyin atasının adı nə olub?

**A y l a** –Nə bilim, sən özününkünü bilirsən?

**L a ç ı n** –Mn beşinci babamın da adını bilirəm.

**A y l a** –Vacibdir? Bu nəyə lazımdır?

**L a ç ı n** –Dünya ki, belə gedir, heç nəyə. Amma Lüdmila adlı bir rus qadını 7 ilə Hindistanın şimalında yerləşən yarımvəhşi tod qəbiləsinin içində yaşayıb. Bir gün qəbilə üzvlərindən biri mənim sənə verdiyim sualı Lüdmilaya verib. Lüdmila birinci babasının adından o yananı bilməyib. Qəbilə onu dəli zənn edib. Heç demə, bu yarımvəhşi qəbilənin bütün üzvləri 10 arxa o yana babalarının adını bilirmişlər.

**A y l a** –Nə olsun?

**L a ç ı n** –Heç, elə–belə sözdü də danışdım.

(Ş a h b a z gəlir.)

**Ş a h b a z** –Salam, Laçın. Mən elə səni axtarırdım.

**L a ç ı n** –Xeyirdimi?

**Ş a h b a z** –Xeyir olmamış nə olacaq. Nərgizin işi düzəldi. Fabriki yoxlamağa gələn komissiyanın sədri kim olsa yaxşıdır? Sənin direkto-

run, professor Vəlizadənin bacısı oğlu. Sədr əvvəlcə nəm-nüm elədi. Əslində onu da qınamıram. Fabriki qoyublar böyrü üstə. Nərgiz çox başısoyuqluq eləyib. Sədrin danışığından bir şey anlamadım. Götürüb zəng elədim Vəlizadəyə. Dedi, o qələt eləyir. Mən işi qoyaram yoluna. Kişi kimi də elədi. Heç bircə saat keçməmiş zəng vurub dedi ki, düzəldi.

**A y l a** –Nə yaxşı, gözün aydın, Laçın.

**Ş a h b a z** –İndi sən götür Vəlizadəyə zəng elə, ona bir "sağ ol" de. *(Sükut.)*

**L a ç ı n** –Mən ona zəng eləyə bilmərəm.

**Ş a h b a z** –Kişi sənə o boyda yaxşılıq eləyib. Sən adi bir zəngi ona çox görürsən? *(Sükut.)* Bir də... axı, onsuz da onunla görüşməlisən. Sən onun işçisi deyilsən?

**L a ç ı n** –Onun belə əl-ayağa düşüb məni niyə axtardığını siz də bilirsiniz, mən də.

**Ş a h b a z** –Çox yaxşı, burda nə pis şey var? Bunları qoyaq bir tərəfə. Neçə müddətdir burda yoxsan. İndi sən ona hesabat verməlisən, ya yox?

**L a ç ı n** –Mən o institutdan çıxmışam. Mən indi Moskva Antropologiya institutunda işləyirəm.

**A y l a** –Sən başdan-ayağa sirr dağarcığısan.

**Ş a h b a z** –Yaxşı, bundan da keçdik. Sən heç olmasa etika xatirinə, həm də bacının xatirinə indi o kişiyə təşəkkür də eləmək istəmirsən?

**L a ç ı n** –Yox.

**Ş a h b a z** –Səncə düz eləyirsən?

**L a ç ı n** –Axı, siz niyə məni məcbur edirsiniz ki, hər şeyi sizə danışım? Vəlizadə əvvəlcə mənə mane olurdu. Görəndə ki, mən işi başa çatdırmaq üzrəyəm, başladı böyrümə, başıma keçməyə... Bundan əvvəl də o, mənim bir neçə məqaləmə şərik çıxmışdı, çap olunmaq xatirinə dinməmişdim. Amma bu dəfə qəti etirazımı bildirdim. Mənim kəşfdən əl çəkdiyimi bilincə, başqa bir hiyləyə əl atır. O, bacımın ayaqqabı fabrikində direktor olduğunu bilirdi. Buna görə də nəzarət komitəsində işləyən bacısı oğlunun əli ilə fabriki yoxlatdırıb. Yoxlatdırıb və qüsur-

ları qəsdən şişirdib. Heç demə, bacım mənim güdazıma gedirmiş. İndi sizdən soruşuram, hörmətli nazir, bu alçaqlıq deyilmi? Bu boyda nadürüstlük kimin ağlına gələ bilərdi? *(Sükut.)* Bu hiylə, bu kələk nədən ötrüdür? Məni tələyə salmaqdan ötrü? Bəs ayıb deyil?

**Ş a h b a z** – Mən səni anlamıram. Bu sualları mənə niyə verirsən?

**L a ç ı n** - Birincisi ona görə ki, o, sizin dostunuzdur. İkincisi, ona görə ki, siz ədalətin keşikçisi hesab olunursunuz.

**Ş a h b a z** - Hesab olunuram, yoxsa... doğrudan ədalət keşikçisiyəm?

**L a ç ı n** - Onu siz özünüz ayırın.

(Qapı zəngi. Bir əlində çemodan, bir əlində diplomat N ə r g i z gəlir.)

**N ə r g i z** –Salam. Nə yaxşı, hamı evdədir. Çemodanlarını gətirdim, qardaş. Səni həmişə ailənlə birlikdə görüm.

**A y l a** –Çox sağ ol, Nərgiz bacı.

**N ə r g i z** –Şahbaz qardaş, bilmirəm, sizə necə təşəkkür edim.

**Ş a h b a z** –Qardaşınız təşəkkür elədi.

**N ə r g i z** *(Şahbaza)*–Allah sizdən razı olsun. Siz məni yeddi arşın quyunun dibindən çıxartdınız.

**A y l a** –Onun borcudur.

**N ə r g i z** –Səhər getdim bir baş Vəlizadənin yanına. Ona da razılığımı bildirdim... Amma birtəhər idi...

**A y l a** –Nə təhər?

**N ə r g i z** –Dilxor... Mənə Laçından şikayət elədi. Deyir, bir həftədir Bakıdadır, məni sayıb axtarmır. Sonra... O nə deməkdir, ay Laçın, deyir, guya sən o yazdığın kitabı üzə çıxartmaq istəmirsən? Yazdığının dalından qaçırsan. Düz deyir?

**A y l a** –Bəli, Nərgiz bacı. Biz elə o barədə danışırdıq. Sözümüzə baxmır.

**Ş a h b a z** –Yaxşı, deyək ki, biz hamımız heç nə bilmirik. Dünyanın hardan gəlib, hara getdiyini sənin kimi qana bilmirik. Biz hamımız düz yaşamırıq, bürokratıq, həqiqəti tapdayırıq, sənin qədər ağıllı deyilik, çünki sənin kimi kəşflər eləyə bilmirik... Yox, vallah, sözlərim tam

ciddidir, heç bir istehza yoxdur. İndi mən səndən soruşuram: Sən bir azərbaycanlı kimi düz hərəkət edirsən?

**L a ç ı n** –O kəşfin dəhşətini başa düşən hər bir adam, istər ingilis olsun, istər azərbaycanlı...

**Ş a h b a z** –Yox, yox... kəşf barədə sonra. Moskvada işləməyini deyirəm. Bir azərbaycanlı kimi düz eləyirsən? Xalqın belə vaxtında ağıllı başlar öz xalqını atıb getməlidir, yoxsa, biliyini, istedadını öz xalqına verməlidir? Soruşuram, millətinin səninlə fəxr etməyə haqqı yoxdurmu? İçimizdən fərli bir adam çıxan kimi vətəni qoyub qaçır. Biri Sibirə gedib neft tapır, biri bu boyda dövlətin kosmosunu alıb əlinə, öz xalqına bir qəpiklik xeyri dəymir. Hələ mən rəssamları, cərrahları demirəm. Yaxşı, belə istedadlısınız, niyə xeyri özgəyə verirsiniz? İsti yer axtarırsınız, hə? Bəs hanı sizin milli qeyrətiniz?

**L a ç ı n** –Qəribədi. Yəni, siz doğrudan fikirləşirsiniz ki, onlar keflərindən qaçıblar ora? Füzuli dərd əlindən dağa qalxdı, dedilər – bəxtəvər yaylağa çıxdı... Milli qeyrət!.. Saydığınız o məşhur adamlar sizə aldanıb milli qeyrətlə hərəkət eləsəydilər, indi çoxdan hamısı ya Vəlizadə olmuşdu, ya da hamısının ürəyi çoxdan partlamışdı...

**Ş a h b a z** –Vəlizadə heç. O elə doğulub...

**L a ç ı n** –Vəlizadəni də siz o cür tərbiyə etmisiniz. Milli qeyrət! Belə çıxır ki, qeyrətli olmaq üçün mütləq burda qalmaq lazımdı. Çıxdınsa, deməli, milli qeyrətin yoxdur? Bəlkə, şikayətə gələn ağbirçək anaları, ağsaqqal ataları bu idarədən o idarəyə süründürmək, ələ salmaq milli qeyrətdir?

**Ş a h b a z** –Baho, deyir, oğru elə bağırdı ki...

**A y l a** –Burda ayrı məsələ var. Məni bağışla, ata, yanında biədəblik eləyirəm, daha keçib... Bunun orda tamam başqa işi var. Özü də çoxdandı. Uyub orda kiməsə... Hansısa böyük adamın qızına. O, Antropologiya institutunun direktorunun qızı var?

**L a ç ı n** –Hə, var. Düz tapmısan. Mən başqa cür bacarmıram. Sən pis öyrətdin məni... Amma balaca səhv elədin, direktorun yox, Ədliyyə nazirinin qızına uydum.

**A y l a** –Yox, elə direktorun... Yoxsa, birdən-birə sahəni

dəyişməzdin.

**L a ç ı n** –Bu söhbətdən kəllə-paça iyi gəldi...

**A y l a** –İndi daha xörəklərimizi də bəyənməzsən...

**N ə r g i z** –Yaxşı, qoy mən axırıncı sözümü deyim.

**L a ç ı n** *(təəccüblə)*–Axırıncı? Niyə? Sən mənim axırımın yaxınlaşmasını nə tez hiss elədin?

**N ə r g i z** –Zarafat yeri deyil. Qardaş, özün dediyin kimi, səni ərsəyə mən çatdırmışam. İndi, şükür Allaha, böyük adam olmusan. Mənim də balalarım var. İstəyirəm, onlar da bir gün görsün. Heç bacın kimi demirəm, yad adam kimi deyirəm. Sən indi gərək mənim əziyyətlərimin borcunu mənim balalarıma qaytarasan. Düzdü, ya yox... Niyə dinmirsən? Borcunu vermək üçün sən burda qalmalısan... Niyə elə baxırsan mənə?

**L a ç ı n** –Heç. Doğrudan da, yad adam kimi danışdın.

**N ə r g i z** –Gül kimi arvadını düşünmürsən, oğlunu düşünmürsən, xalqını düşünmürsən... dağ boyda qaynatanı fikirləşmirsən... Bəs onda nəyə lazımdı sənin alimliyin? *(Sükut.)* Mən başa düşmürəm. Mən başa düşmürəm, bu nə deməkdir? Laçın niyə belə eləyirsən? *(Sükut).* Şahbaz qardaş, o niyə belə eləyir?

**Ş a h b a z** –Özündən soruşun.

**N ə r g i z** *(Laçına)*–Sən özünə düşmənsən?

**L a ç ı n** –Bacı, sən mənim işimə qarışma.

**N ə r g i z** –Necə yəni qarışmayım? Sən niyə bu qədər camaatı eşitmək istəmirsən? Yəni, bunlar sənin düşmənindir? (Sükut.) Eləmə, qardaş, eləmə. Sənin yaxınların bir yana, bəs Vəlizadəni niyə özündən incidirsən? Axı, bacının bəd günündə o, bizə dayaq oldu... Məni də fikirləş.

**Ş a h b a z** –Tale sənin üzünə o boyda səadət qapısı açıb. Niyə öz səadətinə göz yumursan? El demişkən, peyğəmbər də odu öz qabağına eşib.

**L a ç ı n** –Bəli, peyğəmbərdən tutmuş, adi bəndəyə qədər hamı odu öz qabağına eşdiyinə görə cəmiyyətdə ahəng pozulur.

**Ş a h b a z** –Yuli Sezarların, Teymurlənglərin, Napoleonların, Marks və Engelslərin düzəldə bilmədiyi ahəngi sən düzəldəcəksən?

**L a ç ı n** –Nə qədər ki, hər kəs öz mənini irəli çəkib şəxsi xeyrini hamının xeyrindən üstün tutur, cəmiyyətdə ahəng – yəni düzgünlük və ədalət ola bilməyəcək.

**Ş a h b a z** –Amma insan təbiəti belə qurulub. Hamı başqasını ötmək, başqasını üstələmək istəyir. Cəmiyyət yarış meydanıdır.

**L a ç ı n** – Cəmiyyətdə öz mənliyini öldürüb, başqalarını düşünənlər də var.

**Ş a h b a z** –Belələri tə k-tük olar.

**L a ç ı n** –Niyə biz o tək-tüklərdən biri olmayaq?

**N ə r g i z** –Vallah, mən bu söhbətlərdən heç nə başa düşmədim... *(Laçına.)* Bir məni başa sal görüm, neçə illik zəhmətini niyə yerə vurursan? *(Sükut.)*

**L a ç ı n** –Mən hamıya yaxşılıq, təkcə özümə pislik eləmək istəyirəm.

**N ə r g i z** –Çox nahaq. Özünə pislik eləyənə bilirsən nə deyərlər?

**L a ç ı n** –Axmaq, yaxud dəli!

**N ə r g i z** –Yaxşı ki, boynuna alırsan... Bəs niyə o adı üstünə götürürsən?

**L a ç ı n** –Sən deyirsən, yəni bu qədər ağıllının içində bir nəfər dəli olmasın?

**Ş a h b a** –Sovet quruluşunun 70 illik tarixi göstərdi ki, insan təbiətinin ziddinə getmək mümkün deyil. Stalin min adamı kolxozda birləşdirib dedi ki, öz xeyrini düşünmə, hamının xeyrini düşün. Nəticədə nə oldu? Torpağa öz əmlakı kimi baxmayan kolxozçu ona can yandırmadı... və bu boyda torpağa sahib olan Sovet hökuməti kənardan ərzaq almalı oldu. Çünki odu öz qabağına çəkmək insanın təbiətindədir. Yuxarıdan verilən əmrlə bu təbiətin ziddinə getmək olmaz.

**L a ç ı n** –Bu, tamam başqa məsələdir.

**Ş a h b a z** –Yaxşı, onda götürək sənin özünü. Əgər sən öz şəxsi xeyrini düşünmürsənsə, səndə xudbinlik yoxdursa, niyə Vəlizadənin sənin kəşfinə ortaq olmasına etiraz elədin?

**L a ç ı n** –Çünki onun belə bir təmənnada olması ədalətsizlik idi. *(Sükut.)*

**Ş a h b a z** –Filosoflardan biri gözəl deyib. Məni yaşadan yalan,

məni öldürən həqiqətdən gözəldir. Nərgiz bacıya bir sualım var. Nərgiz bacı, burda kənar adam yoxdur. Ev bizim, sirr bizim. Sizə and verirəm, bu qardaşınızın canına, düzünü deyin. Fabrikinizdə əyintilər vardımı? *(Sükut.)* Demək istəyirəm ki, sizi dolaşdıra bilərdilərmi?

**N ə r g i z** –Göydə. Ona görə ki, indiki zamanda bu ölkədə kimi istəsələr, dolaşdıra bilərlər. Ona görə ki, hamı əyridir, hamının gözü kölgəlidir. Axı, maaşla dolanmaq olur ki, sən də düz dolanasan? Ölkədə 5-6 faiz düz adam ola, ya olmaya? O, 5-6 faiz dediyim düz adam da düzlüyünü sübut eləyə bilməz. Nədən ki, tülkü tülkülüyünü sübut eləyincə dərisi boğazından çıxar.

**Ş a h b a z** *(Laçına)*–Eşitdin, bacın özü etiraf etdi ki, fabrikdə əyintilər var və bu əyintilərə görə onu dolaşdıra bilərdilər. İndi sənə sualım var. Amma xahiş edirəm, incimıəyəsən. Sən ki, bu qədər həqiqət aşiqisən, bacını xilas etməyi məndən xahiş edəndə, bəs məni həqiqəti tapdamağa çağırmırdınmı? *(Sükut.)* Görürsənmi, oğul, cəmiyyətin də öz qanunları, öz tələbləri var. Bəli, bacın da, onun başsız qalmaq qorxusu altında olan balaları da həqiqətdir, qanun da. Amma qarşı-qarşıya duran bu həqiqətlərdən birini tapdamağa məcburuq. Demək, bu həqiqəti o birinə qurban verməliyik. Burada daş-tərəzi meydana gəlir. Qoy və çək. Hansı ağır gəlsə, onu götür. Sən də öz mücərrəd həqiqətinlə bacının həqiqətini tərəziyə qoyub çəkdin. Gördün ki, bacının həqiqəti ağır gəlir və özün dediyin kimi xəcalət çəkə-çəkə məndən xahiş elədin və düz də elədin... Bundan sonra yenə də başlamısan – həqiqət belə gəldi, ədalət elə getdi...

**N ə r g i z** –Düz demir? *(Sükut.)* Sən niyə iki ayağını bir başmağa dirəmisən? Niyə özündən böyüklərin sözünü eşitmək istəmirsən? Niyə özünü hamıdan ağıllı hesab edirsən? Hə? cavab versənə. *(Sükut.)* Eləmə qardaş, eləmə!

**A y l a** –Eləmə!

**Ş a h b a z** –Eləmə, oğul!

(Ş a h b a z ı n, A y l a n ı n, N ə r g i z i n əlləri üç tərəfdən Laçına tərəf uzanır. İşıq sönür, səhnədə 6 əl və L a ç ı n ı n üzü görünür. Bu vəziyyət xeyli davam edir).

**L a ç ı n** –Vallah, billah, mən düz yoldayam. Siz məni çaşdırıb yo-

lumdan azdırırsınız.

**Ş a h b a z** –Biz səni həyata çağırırıq. Gəl, biz deyənə!

**A y l a** –Gəl, biz deyənə!

**N ə r g i z** –Gəl, biz deyənə!

**Ş a h b a z** –Qarşıda səni gözəl həyat gözləyir. Dəli olma!

**A y l a** –Ağlını başına topla, dəli olma!

(Qaranlıqda işıqlanmış əllər ona doğru uzanır. L a ç ı n diplomatını açıb içindən qovluğu çıxarıb onlara uzadır.)

**L a ç ı n** –Alın, aparın verin Vəlizadəyə. Bacımın əyri işlərinin üstünü örtsün. Mən isə kəşfin müəllifliyindən əl çəkirəm.

(Əllər qovluğu qapıb yan otağa çəkilir. U l u ə c d a d peyda olur)

**U l u ə c d a d** –İradən çatmadı, axır ki, təslim oldun.

**L a ç ı n** –Neyləyim, həyat həqiqətdən güclü imiş.

**U l u ə c d a d** –Sənə yazığım gəlir.

**L a ç ı n** –Mənim də özümə yazığım gəlir.

**U l u ə c d a d** –Bununla iş bitir?

**L a ç ı n** –Çəki, daş-tərəzi. Görəsən, belə bir məsələdə siz əcdadlar mizan-tərəzi qursaydınız, hansı tərəf ağır gələrdi?

**U l u ə c d a d** –Sizin mizan-tərəzi ilə bizimki düz gəlməz. Nədən ki, bizim çəki daşımız başqa, sizinki başqa.

**L a ç ı n** –Axı, niyə başqa olmalıdır? Biz ki, sizdən törənmişik?

**U l u ə c d a d** –Amma bizdən - ulu əcdaddan çox uzaq düşmüsünüz.

**L a ç ı n** –Elədir, biz ibtidailikdən çıxıb ali insan olmuşuq...

**U l u ə c d a d** *(Gülür)* - Ali insan belə olur?

**L a ç ı n** –Necə?

**U l u ə c d a d** –Sizin kimi. Hələ ən yaxşısı sənsən... Amma sən də ... onların tayısanmış. Həqiqətdən dəm vurursan, amma başqasını həqiqəti əyməyə məcbur edirsən... Siz niyə beləsiniz?

**L a ç ı n** –Necə?

**U l u ə c d a d** –Ürəyinizdə həqiqət, dilinizdə yalan.

**L a ç ı n** –Sizdə yalan olmayıb?

**U l u ə c d a d** –Biz düşündüyümüzü demişik.

**L a ç ı n** –"Doğru danışanın papağı yırtıq olar" atalar sözünü siz yaratmamısınız?

**U l u ə c d a d** –Bu, ataların sözü deyil. Bunu ataların adına siz uydurmusunuz.

**L a ç ı n** –Yox, elə biz də düzünü deyirik. Amma bir yerə yığışanda yalan danışırıq.

**U l u ə c d a d** –Niyə?

**L a ç ı n** –Çünki, doğru bizi yaşamağa qoymur. Yaşamaq üçün yalan danışmaq, əyri olmaq lazımdır.

**U l u ə c d a d** –Düz danışanda yaşaya bilmirsinizsə, siz ağıllı deyil, dəlisiniz. Mən sizi anlamıram. Əlbəttə, biz bir-birimizi anlaya bilmərik. Ona görə ki, biz doyana qədər yeyirik, siz doyduqca acırsınız. Biz qonşunun aclığına acımış, özümüz yeməyib, ona vermişik. Siz isə qonşunun toxluğuna acırsınız. Biz şükürlə yaşamış, siz fikirlə yaşayırsınız. Çünki sizin qarnınızdan çox gözünüz acdır. Biz tamahımızın ağası olmuş, siz qulusunuz. Buna görə biz öz xeyrimizi, qəbilənin xeyrində görürük. Siz isə öz xeyrinizə görə cəmiyyətin xeyrinə tüpürürsünüz. Burdan da fəlakətiniz başlanır.

**L a ç ı n** –Nə deyirsən? İndi qayıdaq ibtidai icma quruluşuna?

**U l u ə c d a d** –Yox. Çox şişmisiniz. Ora sığmazsınız. Yalan bizdə işə keçmir. Öz yerinizdə qalsanız yaxşıdır.

**L a ç ı n** –Sən mənə yol göstər.

**U l u ə c d a d** –Sən mənim göstərdiyim yolla getmədin. Mən başqa yol tanımıram.

**L a ç ı n** –Əvvəlcədən sənə dedim, mən adi və zəif adamam.

**U l u ə c d a d** –Sən başqa cür də ola bilərdin. Lakin içində yaşadığın cəmiyyət o qədər pozulub ki, sənin kimi uçmaq üçün doğulanların qanadını qırıb, səni gündəlik həyatın tələblərinə bağladı. Sən də kölə müasirlərin kimi, ağ qarğa olmaqdan qorxdun. Amma zamanın təkəri geri dönür. Sən mənim sözümə baxsaydın, bu gün sənin qanadını qıran qara qarğalar yığılıb sənə heykəl qoya bilərdi. Çünki sənin Allah qarşısında ucalmaq, onu dərk etmək imkanın var idi. Amma sən bundan qaçdın. Özün-özünü kiçiltdin.

**L a ç ı n** –Haqlısan...Adamlar səni görənlərə, səni eşidənlərə dəli deyirlər.

**U l u  ə c d a d** –Onunçun da sən məni eşitmədin. Amma hələ bilinmir, əsl dəli içini eşidəndir, yoxsa, çölünü eşidən. Dahiləriniz demiş ki, dünya böyük bir dəlixana, cəmiyyət isə "dəli yığıncağı"dır. Sizə köməyə gələnlərə isə siz ya cin, şeytan deyirsiniz, ya da uçan boşqab.

**L a ç ı n** *(uzun pauzadan sonra)*–Deyəsən, mən səni indi anlamağa başlayıram.

**U l u  ə c d a d** –Daha gecdir. Səninki bitdi... Sən ölümə gedirsən... Bəlkə. Oğlun...

**L a ç ı n** –Yox, toxunma ona.

**U l u  ə c d a d** –O, səndən, məndən asılı deyil. Oğul atanın səhvini düzəltməlidir.

**L a ç ı n** –Bəlkə, daha da genişləndirdi...

**U l u  ə c d a d** –Dedim, təkər artıq geriyə fırlanır. İndi cəmiyyət Allaha tərəf dönür.

**L a ç ı n** –Mən də bu yola qoşulmaq istəyirəm.

**U l u  ə c d a d** –Mümkün deyil. Sənin ölümünə az qalıb. Amma qorxma. İnsan ən böyük ağrını dünyaya gələndə, ən böyük həzzi dünyadan gedəndə dadır. Qorxma, dünyaya son sözünü de. *(Gedir.)*

**L a ç ı n** –O, haqlıdır, biz elmi tərəqqimizlə yarımvəhşi əcdadımızdan ayrılıb bu gün ali insan olmuşuq. İlahi, yalnız özünü düşünüb, başqasını tapdalayan, nəfsinin qulu olan insana necə ali insan demək olar? Tərəqqimi bizi bura gətirdi? Bu gün həm qorxaq, həm qəddar, həm də yalnız özünü düşünən insanın içində ağlından törəyən bir xudbinlik vəhşisi yatır. Bu xudbinlik, bu mənafe hissi dövlət səviyyəsinə qalxanda, vay dünyanın halına. Bəs bugünkü şüurlu insan daha da yüksəlmək əvəzinə niyə əxlaqı unudub bu qədər aşağı enmişdir? Demək, insan bu tərəqqinin hansı pilləsindəsə çaşıb. İndiyəcən dünyada 15 min dəfə müharibə aparılıb. İlahi, gör əxlaq nə qədər pozulub ki, hamı özünü cəmiyyətə qarşı qoyub. Mən qarşıma qoyduğum məqsədi başa çatdıra bilsəydim, elmin əxlaqi prinsipinə qələbə qazandırar, bu yolun ilk yolçusu olardım. Lakin bacarmadım. Həyat və onun tələbləri mənim idealımı susdurdu… Bunun nəticəsində insan göydəki ulduzların əlifbasını oxuya bilir, amma biri o birisinin qəlbini oxuya bilmir. Beləliklə, insan cəmiyyətini anlaşılmazlıq və qaranlıq bürüyüb. Bu qaranlıqda oğrular istədiyini edir, doğrular isə gözə görünmür. Qardaşlar, bacılar, atalar,

analar! Mən əsl kəşfimi, deyəsən, indi elədim. Mən indi başa düşdüm ki, biz niyə bir-birimizi anlaya bilmirik. Sən demə, çox adi səbəblər var. Biz heç vaxt şüurla yaşamırıq, fikirlə yaşayırıq. Bizim qarnımız yox, gözümüz acdır. Ac olduğuna görə kiməsə möhtacıq, kimdənsə qorxuruq. Biz öz xeyrimiz üçün cəmiyyəti fəlakətə salmağa hazırıq. Mən bacımın həbs olunmaması, 4 nəfərlik kiçik bir ailənin xoşbəxtliyi naminə böyük əməldən əl çəkməli, özümü xırda duyğulara təslim etməliyəm. Elə baxmayın mənə, mən sizin övladınızam. Biz belə olmalı idik. Günah bizdə deyil, əxlaqımız və inamımız pozulub. Əyrilik, yalan, riya, oğurluq, rüşvət ən adi normaya çevrilib. Bunları bacarmayanlara, başqa sözlə, əxlaqı pozulmamış adamlara əfəl, fərsiz, bacarıqsız deməkdən də çəkinmirik. Müqəddəs heç nə qalmayıb bizim üçün. Ürəyimizdə Allah xofu yox. Qanunlarımızla yaşamaq mümkün deyil. Heç bir vəhşi canlı öz həmcinsini parçalamır. Amma biz 15 min dəfə rəsmi olaraq bir-birimizi parçalayıb məhv etmişik. Biz hara gedirik? Siz hara gedirsiniz? Dünya dediyimiz bu gəmi hara gedir? Gəlin fikirləşək. Bir dəqiqə hər şeyi unudaq. Görək bu gedişlə biz hara gedib çıxa bilərik? Sakitcə, özümüzə qapılaraq gözümüzü yumub fikirləşək. *(Birdən ürəyini tutub yerə yıxılır.)* Validol! *(Yaxasını açır, ürəyini ovuşdurur).* Validol!

(Nərgiz gəlir.)

**Nərgiz**–Yaxşı, qardaş, mən gedirəm. Mənə bir sözün varmı? *(Laçın cavab vermir. Nərgiz ona yaxınlaşır.)* Niyə cavab vermirsən? *(Laçını silkələyir.)* Ayla! Ayla!

(Qonşu otaqdan Şahbaz və Ayla gəlir. Şahbaz Laçının nəbzini tutur.)

**Şahbaz**–Açın pəncərəni.

(Nərgiz pəncərəni açır.)

**Nərgiz**–Ayla! Təcili yardıma zəng elə.
**Ayla** *(telefonu yığır.)*–Alo, alo!
**Şahbaz**–Nəbzi tamam dayandı. Onunku da bura qədərmiş!

(Ayla və Nərgiz hönkürür.)

## YEDDİNCİ ŞƏKIL

Ş a h b a z ı n evi, L a ç ı n ı n yas məclisi. I məclisdəki 3 kişi. V ə l i z a d ə və Ş a h b a z masa arxasında əyləşmişlər.

**I k i ş i** –Neçə yaşı vardı bu bədbəxtin?

**Ş a h b a z** –Otuz üç.

**I I k i ş i** –Bəs buna nə oldu birdən-birə?

**Ş a h b a z** –Ürəyi xəstə idi.

**I I k i ş i** –Ürək neyləsin? Bu boyda çək-çevirə ürək necə dözsün?

**I I I k i ş i** –Hayıf ondan! Bu yaşda o boyda ad çıxaran adam gərək yaşayaydı.

**V ə l i z a d ə** *(masanın üstündəki teleqramlara baxır.)*–Başsağlığı teleqramlarıdır, deyəsən?

**Ş a h b a z** –Bəli! Xarici ölkə institutlarından tutmuş bizim elmi idarələrə qədər hamısı heyfsilənir.

**V ə l i z a d ə** –Bizim birincinin də teleqramı var.

**I k i ş i** –Nekroloqda imzası da var idi.

**I I I k i ş i** –Ə... bəs olmaz? O boyda adam ölüb.

**I k i ş i** –Yas sahibi də balaca adam döyül, a...

**I I I k i ş i** –Əlbəttə, o da var.

**I I k i ş i** *(III kişinin qulağına)*–Amma bu rəhmətlik gərək Allahın işinə əl aparmayaydı...

**I I I k i ş i** –Yavaş eşidərlər.

**I I k i ş i** – Mən ölüm, Allahın qəzəbinə gəldi o...

**I k i ş i** –Mən belə bilmirdim, rəhmətlik çox böyük alim imiş...

**I I k i ş i** –Deyirəm, vallah, çatdırmaq olmur.

**I k i ş i** –Nəyi?

**I I k i ş i** –Yasları deyirəm də... O qədər ölən var ki... Adamlar tut kimi tökülür. Cümə axşamları işimiz yaslara getmək olur.

**I I I k i ş i** –Heç demə. İndi burdan gərək Baloğlangilə gedək. Oğlu ölüb.

**I k i ş i** –Əşi, qoy oturaq. Əşi, o ki, dünənki uşaqdır, nədən ölüb?

**I I I k i ş i** –Qarpızdan zəhərlənib.

**I I k i ş i** –Pah atonnan! Keçmişdə xəstəyə sağalmaq üçün qarpız

verərdilər, indi qarpız yeyən ölür.

**I kişi**–Vallah, camaat bir-birinə yağı kəsilib. 5 manatlıq xeyri üçün qarpıza gübrə vuran insafsız bəs fikirləşmir ki, özgəsinə quyu qazır? Vallah, bu cür qazanılan pul haramdır.

**II kişi**–A kişi, sən nə danışırsan? İndi halal-haram axtaran kimdir?

**III kişi**–Hə... Söz elə budur. Halal-haram ortadan çıxalı bu kökə düşdük.

**Vəlizadə**–Halal-haram nisbi şeydir.

**I kişi**–O nə deyən sözdür?

**Şahbaz**–Yəni, sənə haram görünən şey bu kişiyə halaldır.

(Vəlizadənin üzünə baxırlar)

**Vəlizadə**–Nazir məni demir, a kişi, məsələtün deyir. *(Şahbaza)* Xahiş edirəm, mənim adımdan Ayla xanıma da başsağlığı verəsiniz. *(Qalxır, Şahbazla əl tuturlar. Şahbazın qulağına)* Bir dəqiqə, sözüm var.

(Şahbazla Vəlizadə kənara çəkilir)

**Şahbaz**–Buyur.

**Vəlizadə**– Qovluğu tapa bildin?

**Şahbaz** *(özünü bilməməzliyə qoyur)*–Nə qovluq?

**Vəlizadə**–Laçının qovluğunu deyirəm, kəşfimizi.

**Şahbaz**–Ay rəhmətliyin oğlu, indi bu söhbətin yeridir? Bizim gözümüzə qovluq görünür? Keçi can hayında, qəssab piy hayında.

**Vəlizadə**–Yox, elə qəssab kimi, sən də piy hayındasan.

**Şahbaz**–Bu nə deməkdir?

**Vəlizadə**–O deməkdir ki, meyit heç soyumamış qovluğun hayına düşən mən idim, ya sən?

**Şahbaz**–Demək, Nərgiz zibildən xilas olmaq üçün səni qardaşının halalca zəhmətinə şərik eləmək istəyir.

**Vəlizadə**–Nərgiz istəyir ki, həqiqət batmasın. Laçın Moskvada bacısına deyib ki, kəşfi Vəlizadə ilə bərabər eləmişik. İstəyirsən, çağır özündən soruş. *(Vəlizadə yan otağa boylanıb, Nərgizi səsləyir.)* Nərgiz

bacı, zəhmət olmasa, bura bax.

(**Nərgiz**, arxasınca da **Ayla** gəlir.)

**Vəlizadə**–Nərgiz bacı, Moskvada Laçının sənə dediyini xahiş edirəm təkrar edəsən. *(Sükut.)* Dedimi ki, Vəlizadə də kəşfin müəllifidi?

**Nərgiz**–Bəli, dedi.

**Vəlizadə**–Başqa cür ola bilməzdi. Rəhmətlik düz adam idi. Həm də, hər şeydən əvvəl, mən onun elmi rəhbəriyəm. Ona ideyanı mən vermişəm. İkinci tərəfdən, Allah şahiddir ki, bu işdə mən ona necə kömək etmişəm. Buna bütün institut şahiddir.

**Ayla**–İnstitut ona da şahiddir ki, siz əvvəllər addım başı Laçının işinə mane olur, əngəl törədirdiniz.

**Vəlizadə**–İndi belə oldu? Günah sizdə deyil, məndədir ki, niyə mən öz yerimə Londona onu göndərdim.

**Ayla**–Bağışlayın, professor, axı, Sizin kəşfdən, onun elmi əsaslarından xəbəriniz yox idi. Siz Londonda kəşf barədə nə deyə bilərdiniz? *(Sükut.)* Əgər kəşfin elmi əsaslarını bilirsinizsə, bizdən qovluq tələb etməyinizə lüzum yoxdur. Gedin, dünyaya göstərin.

**Şahbaz**–Sən kəşfə şərik olduğunu mənə deyəndən sonra, mən Laçından soruşdum. O, qəti surətdə rədd elədi.

**Vəlizadə**–Əgər o, həqiqəti inkar edibsə, ona rəhmət deyil, lənət düşür.

**Ayla**–Necə?

(**Oturanlar** onlara tərəf çevrilir.)

**II kişi**–5 dəqiqə əvvəl bu mərhuma rəhmət oxuyan indi lənət oxuyur. İlahi, rəhmətlə lənət arasında məsafənin bu qədər az olduğunu da bizə göstərdin.

**Şahbaz** *(Nərgizə)*–Utanmırsan? Öz xeyrin üçün qardaşının halal zəhmətinə başqasını şərik etməklə sən mərhumun ruhunu təhqir elədin.

**Nərgiz**–Əvvəla, utanmaq lazımsa, əvvəlcə mənim qarşımda gərək sən utanasan. Çünki sən Nəzarət Komitəsinin əli ilə məni do-

laşdırmaq istəyirdin... İkincisi də mənim bədbəxt qardaşımın ölümünə səbəb sizsiniz. Sən və qızın...

**V ə l i z a d ə** –Biz bu işi belə qoymayacağıq. Qovluğu qaytarmasanız, biz sizi məhkəməyə verəcəyik.

**Ş a h b a z** –Biz, yəni kim?

**V ə l i z a d ə** –Mən və Nərgiz xanım.

(K a t i b - r o b o t peyda olur.)

**K a t i b - r o b o t** –Yoldaş nazir, izin verin mənin "bizə" çevrilməsini sizə aydınlaşdırım.

**Ş a h b a z** –Buyur.

**K a t i b - r o b o t** –Məsələ belədir ki, professor Vəlizadə arvadını boşayıb.

**Ş a h b a z** –Nə olsun? Onun əlindən nə vaxt yaxşılıq gəlmişdi ki?

**K a t i b - r o b o t** –Axı, mətləbin dalına mültəfit olmadınız. Arvadını boşayıb, Laçının qovluğuna sahib olmaq üçün mənini bizə çevirib. Yəni, Nərgiz xanımla nigah kəsdirib.

**Ş a h b a z** –Ə... Vəlizadə, sən nə alçaq adamsanmış?

**V ə l i z a d ə** –Düz deyirsən. Mən ömrüm boyu adamlardan bu sözü gözləyirdim. Gözləyirdim ki, kimsə bir gün bu sözü mənə deyəcək. Amma bir həqiqət də var. Mən görürdüm ki, bizim zəmanədə həmişə düzlər alçalır, amma sənin kimi əyrilər ucalır. Məni sənin kimilər öz çirkin əməllərilə başa saldılar ki, yüksəlişin yolu alçalmaqdır... Mən də sənin kimi bu yolu seçdim. Amma yüksəldikcə hərdən-bir vicdanım oyanıb ətəklərimdən çəkirdi. Mən isə onu susmağa məcbur edirdim. İndi məni dəhşətə gətirən sənin təhqirin deyil, məni dəhşətə gətirən odur ki, alçaq sözünü mənə sənin kimi alçaq deyir. Bu sözü mənə həqiqətən namuslu bir adam desəydi, məni bu qədər incitməzdi. Lakin hardadır o namuslu adam? Bax, budur məni ağrıdan! Məgər bu boyda dünyada bir nəfər namuslu adam tapılmadı? Əgər dünyanın özü alçaqlaşıbsa, tüpürüm bu dünyaya!

(V ə l i z a d ə çıxır. N ə r g i z də onun arxasınca gedir.)

**I k i ş i** –Görəsən bu gedişlə hara gedir bu dünya?

**III kişi** –Dağılmağa!

**Ayla** *(atasına yaxınlaşır.)* –Ata. *(Sükut.)* Ata!

**Şahbaz** –Nə var?

**Ayla** –O, dəhşətli sözlər dedi, ata.

**Şahbaz** –Onun özü nə idi ki, sözü də nə ola?

**Ayla** –Bəs o sözlər səni silkələmədi? Axı... o da haqlı idi. Axı, biz də başqa cür alçaqlıq edirik.

**Şahbaz** –Sən nə danışırsan? Biz indi uşağın halalca atasının halalca zəhmətini ona bağışlayaq?

**Ayla** –Yox ata, ona yox, Allaha bağışlayaq.

**Şahbaz** –Bu nə deməkdir?

**Ayla** –Bilirsən ata, rəhmətlik Laçın öləndən sonra hər gecə mən də onun kimi qəribə yuxular görürəm. Yuxuma ulu əcdad girir. Məndən qovluğu tələb edir. Deyir, yandır onu.

**Şahbaz** –O, havalanmışdı, sənə nə olub?

**Ayla** –Yox ata, onun ağlı yerində idi. O ləkəni biz ona vurduq.

**Şahbaz** –Sarsaqlama!

**Ayla** –Ata!

**Şahbaz** –Mən heç nə eşitmək istəmirəm. Allah rəhmət eləsin.

(Səhnə qaranlıqlaşır. Ulu əcdad peyda olur.)

**Ulu əcdad** –Gördünüz bu davanı? Hamı özünü, öz xeyrini qabağa çəkdi, hamını düşünən olmadı. Laçın bəşəriyyətin gələcəyi naminə öz xeyrindən əl çəkdi, bu adamcığazlar isə... öz xeyrini bəşəriyyətin xeyrindən üstün tutub bir-birilə didişdi. Gördünüzmü? Mərhumun zəhmətini hərraca qoydular. Onun ruhundan, xatirəsindən də utanmadılar... Ey insanlar, siz bu günlə yaşayıb axirətinizi unutdunuz. Çünki qiblənizi itirmisiniz. Buna görə də dərd-bəla sizdən əskik olmayacaq. Ölən Laçının cismidir, həyat tərəfidir. Ruhu və mənəvi dünyası isə məndədir. O, mənəvi dünyasını və ruhunu həyatın fırtınasından keçirə bilmədi. Mən onun məndən baş alıb gələn, qanında dövr eləyən yaddaşıyam, gözəl duyğuları, mənəvi dünyası və ruhunun səsiyəm! Ey bu günün insanları! Əcdadınızdan gələn və bu gün qanınızda yaşayan işıqlı duyğuları tərpədin, dilə gətirin. Onda siz mənən təmizləşəcək və

gözəlləşəcəksiniz... Gələcək keçmişdən başlanır. Odur ki, irəli getmək üçün geriyə baxın, əcdadınızın keçib gəldiyi yollara nəzər salın. Çevrilin, arxanıza baxın!

(İşıq sönür.Pərdə)

S O N

*1990.*
*1991-ci il sentyabrın 31-də Azərbaycan Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.*





*Böyük türk yazarı Nihal Atsızın xatirəsinə*

# ÖZÜMÜZÜ KƏSƏN QILINC

## (GÖYTÜRKLƏR)

## (ÜÇ PƏRDƏDƏ, ON İKİ ŞƏKILDƏ DRAM)

*Bu pyes eramızın 630-cu ilində Çinin dağıtdığı birinci Göytürk xaqanlığının istiqlal uğrunda apardığı mübarizə tarixindən bəhs edir. Əsər tarixi sənədlər əsasında yazılmışdır.*

İŞTİRAK EDƏNLƏR:

**Qara xan, Qara xaqan** - Göytürk xaqanı
**Yaşar-Şad, Dulu xan, Dulu xaqan** – Qara xaqanın qardaşı oğlu
**Şu-Tekin, Gur-Şad** – Dulu xanın kiçik qardaşı
**Erkin** – Dulu xanın yaxın dostu, vəziri
**İçgen xatun** – Çin xaqanının qızı, Qara xaqanın arvadı
**Yan-Çunq** – Çin şahzadəsi, İçgen xatunun qardaşı
**Mubi-Tərxan** – Qara xaqanın dostu və vəziri
**Selcan** – Gur-Şadın arvadı
**Salur xan** – Qara xaqanın xəzinədarı
**Arslan** – Gur-Şadın yavəri
**Siyan-Şi** – çinli qadın
**Banuçiçək** – Dulu xanın arvadı

**Şeytan**
**Mələk**
**İltəriş** - Gur-Şadın oğlu
**Çin zabiti**
**Gözətçi**
**1-ci carçı, həm də çapar**
**2-ci carçı, həm də çapar**
**1-ci çalğıçı**
**2-ci çalğıçı**
**Əsgərlər, kənizlər**

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

(Pərdənin qarşısı... Zəfər boruları çalınır. Sağdan və soldan carçılar çıxır.)

**I carçı** – Ötükən əhli, eşidin və bilin! Şahzadə Şu-Tekin Juan-juanlarla müharibədən zəfərlə qayıdır.

**II carçı** – Qara xaqan bu günü bütün Türkelində bayram elan edir.

(Pərdə açılır. Meydan. Zəfər boruları, litavrlar çalınır. Mühafizəçilərin müşayiəti ilə Qara xaqan, İçgen xatun gəlir. Hamı xaqanın önündə dizlərini yerə vurur. Xaqan İçgen xatunla çadır qarşısında qurulmuş hündürlüyə qalxır.)

**Qara xaqan** – Yaşar-Şad! Türkelinə zəfər qazandırmış şanlı ordumuzun başbuğunu bu səltənətin şahzadəsi kimi ilk öncə sən qarşılamalısan. Keç irəli!

(Təntənəli musiqi sədaları altında Şu-Tekin və onun əsgərləri daxil olur. Qızlar onun ayaqları altına çiçək dəstələri atır. Xaqan və İçgen xatun Şu-Tekinin alnından öpür. Yaşar-Şad qardaşı Şu-Tekini qucaqlayır).

**Şu-Tekin** *(Yaşar-Şadın qulağına)*–Xaqanlıq qılıncı əmimin belində?!

**Yaşar-Şad** – Gözlə, biləcəksən.

**Qara xaqan** – Şu-Tekin, Türkelinin suyu, havası və əkməyi

sənə halal olsun! Əyilməyən başları əydirmiş, bükülməyən dizləri bükdürmüş atalarımız Metenin, Buminin, İsteminin xeyir-duası həmişə sənə yar olsun! Sən qorxulu düşmənimiz juan-juanları diz çökdürməklə, onların üzərində zəfər çalmaqla atalarımızın ruhunu şad etdin! Mən Ötükənə qələbə qazandırmış ordunun başbuğunu mükafatlandırıram. Qardaşım oğlu Şu-Tekini Gur-Şad, dəmirçilərimizə rəhbərlik edib, ordunu hər cür silahla təmin etmiş qardaşım oğlu Yaşar-Şadı Dulu xan adlandırır, Minbulaq torpağının xaqanlığını ona tapşırıram. Silah ustası dəmirçi Erkini xələtlə mükafatlandırıram.

**Yerbəyerdən səslər** – Eşq olsun, eşq olsun!

(Qucağında qundaq **Banuçiçək** daxil olur.)

**Banuçiçək** – Mən də qaynım Şu-Tekini aldığı yeni adla - Gur-Şad rütbəsi ilə kutlayır və onu ulu Tanrının ona bəxş etdiyi övlad payı ilə təbrik edirəm. *(Gur-Şada yaxınlaşıb qundağı ona verir.)* Sən yeni aldığın ad günündə oğul övladına özün ad verməlisən. Qoy bu gün hər ikinizin ad günü olsun.

**Gur-Şad** – Mənim övladıma mən yox, böyük qardaşım Dulu xan ad versin.

**Dulu xan** *(uşağı alıb.)*–Mən qardaşımın ilkinə Kutluq-İltəriş adı verdim, yaşını Tanrı versin!

**Səslər** – Mübarək, mübarək!

**Gur-Şad** – Bəs xaqan atam hanı? O xəstədir, ya?.. *(Sükut.)* Bizə verilən bu yüksək adı xaqanın rəyi iləmi verdiniz? *(Sükut.)* Niyə bizimlə görüşmür?

**Qara xaqan** – Biz bu bayram günündə səni bəd xəbərlə qarşılamaq istəmədik. Oğul, tanrının əmrindən qaçmaq mümkün deyil. Bizim əlimizdən nə gələ bilərdi? Mənim böyük qardaşım – Sənin atan Çulo xaqan bir ay bundan əvvəl dünyasını dəyişdi. Başımız sağ olsun!

**Gur-Şad** – Savaşdamı öldü, ya xəstələndimi?

**Qara xaqan** *(Gur-Şadın qolundan tutur.)*–Gedək mənim çadırıma. Səbrli ol, mən sənə hər şeyi başa salım.

(Camaat dağılır. **Qara xaqan**, **Gur-Şad** və **İçgen xatun** çəkilir).

**Arslan** – Xaqanları qarşısında diz çökdürən, aləmə meydan

oxuyan Çulo xaqan çadırında birdən-birə ölmüş. Neçə-neçə savaşdan zəfərlə çıxan, ölümün özünü belə öldürən qəhrəman da belə ölər? Yox! Belə kişilər çadırda doğular, çayırda ölər!

Öldü Çulo xaqanım, yetim qaldı bu millət,
Göy Tanrı, bəs deyilmi çəkdiyimiz məşəqqət?

## İKİNCİ ŞƏKİL

(Qara xaqanın çadırı. Çadırın üstünə Göytürk xaqanlığının bayrağı sancılmışdır. Çadırda Gur-Şad, Qara xaqan və İçgen xatun.)

**Qara xaqan** – Oğul, sənin kimi elə mənə də bu qəfləti ölüm qəribə gəldi. Gecənin yarısı İçgen xatun məni çağırtdırdı. Mən dərhal həkimbaşıya xəbər göndərdim. Həkimbaşı çox diqqətlə baxıb, qəflətən ürəyinin dayandığını dedi. Bu, beynimə batdı. Nədən ki, axır günlər tez-tez sinəsində sancı olduğunu deyərdi.

**İçgen xatun** – Ölümündən 3 gün əvvəl də sancıdan yata bilməmişdi. Gecə həkimbaşını çağırtdırdı. Həkim kürəyini bir xeyli ovxaladı, səhərə yaxın dincəldi.

**Qara xaqan** – İndi arada-bərədə, boş-boş şayiələr eşidə bilərsən. Bunlar hamısı araqızışdıranların mənasız söz-söhbətidir. Mən sənin ağlına və qabiliyyətinə bələdəm. Sənin haqqında mənim fikrim başqadır. Böyük oğul kimi varislik Dulu xana düşür. Amma Çulo xaqan qəflətən öldüyünə görə vəsiyyətnamə yazmayıb. Törəmizə görə belə hallarda qərarı qurultay verməlidir. İkincisi, düzünü bilmək istəsən, mən xaqanlığa Dulu xanı məsləhət bilmirəm.

**İçgen xatun** – Mən də bu səltənətin xatunu kimi bu fikirdəyəm.

**Qara xaqan** – Sən cəbhədə olduğuna görə müharibə aparan ölkəni başsız qoymamaq üçün Divanın məsləhəti ilə xaqanlığı qəbul etdim.

**Gur-Şad** – Biz indi xaqan və onun təbəəsi kimi danışırıq, yoxsa əmi-qardaşoğlu kimi?

**Qara xaqan** – Sən necə istəsən, elə.

**Gur-Şad** – Onda təklikdə danışmalıyıq. *(İçgen xatun çadırı tərk edir.)* Mən belə başa düşdüm ki, atam öləndən sonra siz ögey anamla evlənmisiniz?

**Qara xaqan** – Bəli. Törəmizə görə belə olmalıdır.

**Gur-Şad** - Atamın Çin xaqanının qızı ilə evlənməsində siyasi məqsəd var idi. Sən özün də bilirsən ki, atam xaqanlığa keçən zaman Çin Ötükənə tez-tez basqın edir, ölkəni talayırdı. Atam məmləkəti bu bəladan qurtarmaq üçün İçgen xatunla evləndi.

**Qara xaqan** – Elə mən də Çin xaqanı ilə aranı vurmamaq üçün İçgen xatunu atasının üstünə göndərməyi rəva bilmədim.

**Gur-Şad** – Elə buna görə Çin bizim güney otlaqlarımızı işğal edib?

**Qara xaqan** – Bunu nə tez bildin?

**Gur-Şad** - Biz gələndə güney torpaqlarımızdan keçmək istədik. Çin çobanları qabağımızı kəsdi, - bura indi bizimdir, - dedilər.

**Qara xaqan** – Bizim kəşfiyyatçılar xəbər gətirdi ki, Çulo xaqanın ölümündən xəbər tutan kimi Çin bizə hücuma hazırlaşır. Mən həm də bu hücumun qarşısını almaq üçün İçgen xatunla evlənməli oldum.

**Gur-Şad** – Amma faydası olmadı.

**Qara xaqan** – Hər halda hücumun qarşısı alındı. Sənin juan-juanlar üzərindəki qələbən isə əldən çıxan otlaqlarımız barədə tədbir tökməyə bizə imkan verir. İndi isə biz əvvəlcə sənin vəliəhdlik məsələni...

**Gur-Şad** – Bu, mümkün deyil.

**Qara xaqan** – Niyə?

**Gur-Şad** – Dulu xan böyük qardaşdır. Xaqan da o, olmalıdır. İkinci, ona görə ki, mən həm də sənin kürəkəninəm.

**Qara xaqan** – Bəs onda sən nə üçün övladına ad verməyi onun babasına deyil, əmisinə həvalə etdin? *(Sükut.)* Susursan... Görürsənmi, hamının bir-birinə iddiası tapılar. Amma insanlıq odur ki, öz iddialarını bir tərəfə qoyub, bir-birimizə güzəşt etməyi bacaraq.

İndi keçək əsas məsələyə: sən özün də çox yaxşı bilirsən ki, Dulu xan kimi dəmdəməki adamdan xaqan olmaz. O ki qaldı İçgen xatundan olan sənin ögey qardaşın Yağmura, anası türk əsilli olmadığına görə o da xaqanlığa yaramaz. Demək, meydanda təkcə sən qalırsan.

**G u r - Ş a d** – Mənim üçün dövlətin başında kimin durması vacib deyil. Dövlətin özü vacibdir...

**Q a r a  x a q a n** – Bu məsələni sən həll etmirsən, qurultay həll edəcək.

**G u r - Ş a d** – Mən də böyük qardaşımın haqqına sahib çıxmayacağam.

(Sükut. G u r - Ş a d qalxır.)

**Q a r a  x a q a n** – Yaxşı, tələsmə, bir şeyi bilmək istəyirəm: juan-juanlardan götürdüyünüz qənimət bu il bizi quraqlıqdan çıxarda biləcəkmi?

**G u r - Ş a d** – Mən qılınc vuran əsgərəm. Qənimətin dəyərindən başım çıxmaz. Minbaşı Ayxan hamısının siyahısını tutub.

**Q a r a  x a q a n** – Möhürünü vur, ver Salur xana.

**G u r - Ş a d** – Ona niyə? *(Sükut.)* Məgər o xəzinədardır?

**Q a r a  x a q a n** – İş elə gətirdi ki, onu yenidən xəzinədar eləyəsi oldum.

**G u r - Ş a d** – Axı, natəmizliyinə görə atam onu xəzinədarlıqdan qovmuşdu...

**Q a r a  x a q a n** – Mənə inan, Gur-Şad, xəzinə işini ondan yaxşı biləmimiz yoxdur.

(G u r - Ş a d gedir. Q a r a  x a q a n dərin fikrə dalır. İçində baş qaldıran vicdan, mələk şəklində gözlərinə görünür.)

**M ə l ə k** – Eşitdinmi Gur-Şadın dediklərini? O, qardaşının qarşısına keçmədi. Bəs sən neylədin? Sən məni dinləmədin. Qəlbini şeytana verdin. Oturduğun taxta sahib olmaq üçün doğmaca qardaşını zəhərlədib öldürtdün.

**Q a r a  x a q a n** – Mən böyük qardaş idim. Xaqanlıq mənim haqqım idi. Onu atam mənə vermədi.

**M ə l ə k** – İnsafla danış. Sən ölkəni qardaşın Çulo xaqan kimi idarə edə bilərdinmi? Susursan. Onda ikinci sualıma cavab ver. Sən doğrudanmı xaqanlığı Gur-Şada vermək istəyirsən? *(Sükut.)* Yox. Sən qardaşlar arasına nifaq salıb, onları bir-birinin üstünə qaldırmaq və ömrünün sonuna qədər hakimiyyətdə qalmaq eşqindəsən. Amma Gur-Şad sənin fitnənə uymadı. Düz demirəm?

Mən istəmirəm yol aza, haqdan dönə insan,
Namus və şərəf mərtəbəsindən enə insan.
Mən istəyirəm, uymaya şeytana bir anlıq,
Qulluq edə insafına, vicdanına insan.
İnsanlığı nadanlığa qurban verəcəkdir,
Aldandısa nəfsin dəli şeytanına insan.
Mən bir mələyəm, bəllidir aləmdə məramım:
Heç qıymasın ömründə şərəf-şanına insan.
Allah dedi: "Yalnız ona bəxş etdiyim ağlın
Yüksəlməli son həddinə, imkanına insan."

(İçgen xatun və Yan-Çunq gəlir.)

**İçgen xatun** *(Yan-Çunqu təqdim edir.)*– Qardaşım, Çin şahzadəsi Yan-Çunq. *(Yan-Çunq xaqanın qarşısında baş əyir.)* Bizim bayramımızı qutlamağa gəlib.

**Qara xaqan** – Xoş gəlib. Sən, deyəsən, Çin xaqanının ortancıl oğlusan.

**Yan-Çunq** – Bəli.

Qara xaqan – Mən səni uşaqlığında görmüşdüm. Gəlişin xeyirdimi?

**Yan-Çunq** – Sizləri ziyarət etmək istədim. Sizin zəfər sevincinizə Çin dövləti də qoşulur. Juan-juanların məğlubiyyəti bizi də sevindirir.

**Qara xaqan** – Vəliəhd necədir?

**Yan-Çunq** – Sağ olun. Qardaşlarım içərisində ən çox sevdiyim vəliəhddir. Biz həm qardaş, həm də dostuq.

**Qara xaqan** – Bəs bizim Yağmur nə ilə məşğuldur?

**İçgen xatun** – Mənim Yağmurum indi böyük oğlan olub.

**Yan-Çunq** - Yağmurdan əmisinə məktub gətirmişəm. *(Əlindəki bükülü məktubu xaqana verir.)*

**Qara xaqan** – Bu ki, Çin dilindədir. Bəs ana dilini bilmir?

**İçgen xatun** *( gülür)*–Çin dili elə onun ana dilidir də...

**Qara xaqan** – Hə... doğru deyirsən, mən çaşdım. Yəqin Yağmur Şan-Yan, Konfusi kimi Çin filosoflarını, Şi-Xuandi, Lyu-Ban, Ban-Çau kimi Çin xaqanlarını tanıyır, amma Atilla, Mete, cici, Bumin və İstəmi kimi türk böyüklərindən xəbəri yoxdur.

**İçgen xatun** – Bura qayıdandan sonra onları da tanıyar. Yan-Çunq uzaq yoldan gəlib, izn ver, gedib dincəlsin.

(Yan-Çunqla İçgen xatun gedir. Oynaya-oynaya Şeytan gəlir.)

**Qara xaqan** – Yenə gəldin? Əl çəksənə məndən, a şeytan.

**Şeytan** – Adam heç köhnə dostunu qovar?

**Qara xaqan** – Rədd ol!

**Şeytan** – Səni bu taxta mən mindirdim, yoxsa, bayaq şirin-şirin danışdığın mələk?

**Qara xaqan** – Daha bəsdir. Məni rahat burax.

**Şeytan** – Ay yazıq, mən hara gedirəm? Mən, axı, sənin içindəyəm. Hələ bundan sonra mən sənə daha çox lazım olacağam. Çulo xaqanın başını əkdin, bəs övladları? Dulu xanı aldatmaq olar. Amma gördünmü, Gur-Şad aldanmadı.

**Qara xaqan** – Bəs indi mən neyləyim?

**Şeytan** – Bax belə... İndi oldun adam balası... İndi mən deyim, sən eşit...

(Uzaqdan İçgen xatunun səsi gəlir: "Siyan-Şiyə de, mənim yanıma gəlsin". Şeytan getmək istəyir).

**Qara xaqan** – Hara gedirsən, Şeytan qardaş, sözünü de.

**Şeytan** - İçgen xatun olan yerdə mən artığam. Ona görə ki, o, mənim kimi şeytanın yüzünü çaya susuz aparıb-susuz gətirər.

(İçgen xatun gəlir.)

**Qara xaqan** – Mən sənin qardaşının bu gəlişindən bir şey anlamadım. Bu gəliş şahzadə gəlişinə bənzəmədi. Xaqanlar arasında qayda-qanun var: bir ölkənin şahzadəsi başqa ölkəyə gələrsə, o, xaqandan-xaqana rəsmi salam, yaxud məktub gətirməlidir.

**İçgen xatun** – Doğru deyirsən. Amma mən onun danışığından belə anladım ki, o, atamdan xəbərsiz gəlib. Deyəsən, atamdan incikdir. Atam əldən düşüb, amma səltənətindən əl çəkmək istəmir. Övladların da hər birinin öz iddiası var.

**Qara xaqan** – Hər yerdə olduğu kimi...

**İçgen xatun** – Gur-Şad səninlə tək qalıb nə demək istəyirdi?

**Qara xaqan** – Mən ona varisliyi təklif etdim.

**İçgen xatun** – Necə?

**Qara xaqan** – Göytürk xaqanı mənəm, İçgen xatun!

**İçgen xatun** – Hə, indi elədir. Amma vaxtilə, böyük qardaş kimi xaqanlıq sənin haqqın idi. Onu atan sənə vermədi. Mən verdim...

**Qara xaqan** – İndi məndən nə istəyirsən?

**İçgen xatun** – Yağmurun haqqını...

**Qara xaqan** – Sənin oğlun?

**İçgen xatun** – Mənim və Çulo xaqanın oğlu! *(Qara xaqan gülür.)* Nəyə gülürsən?

**Qara xaqan** – Əvvəla, mən hələ ölməmişəm. Nə qədər sağam, bu səltənətin sahibi mən olacağam. İkincisi, nə divan, nə də qurultay Çin qızından olan övladı Göytürk səltənətinə yaxın buraxmaz,

**İçgen xatun** – Birincisi, Göytürk səltənətinin minnəti olsun ki, onun xaqanının damarlarından Çin qanı axır. İkincisi, sən mənə vəd verməmişdin ki, Yağmur böyüyəndən sonra bu taxtı ona verəcəksən?! İndi niyə sözündən qaçırsan? Xaqanlığı öz kürəkəninə... vermək istəyirsən?

**Qara xaqan** – Sən elə bilirsən, xalq bizim əməllərimizdən xəbərsizdir?

**İçgen xatun** – Xaqan olan yerdə xalq nəçidir? Xalqın borcu xaqana itaətdir. Bizim böyük filosofumuz Konfusi çox gözəl deyib "hökmdar küləyə, xalq ota bənzər. Külək hardan əssə, xalq ot kimi başını o tərəfə əyməlidir."

**Qara xaqan** – Amma hökmdar - külək onu üfləyəndə, ot ona tərəfə yilmir, əksinə, ona arxasını çevirir. Bu cür əyilmə isə hökmdara hörmət deyil, nifrətdir... İçgen, unutma, biz bu iki qardaşın ürəyindəki şübhəni dağıda bilməyəcəyik. Mən hələlik quru vədlə ikisindən birinin qəlbini ələ almaq istəyirəm.

**İçgen xatun** – Sən narahat olma, mən onların ikisinin də öhdəsindən gələrəm. Səbr elə və mənim işimə qarışma...

**Qara xaqan** *(tərəddüdlə)*–Şeytansan, əsl şeytan!

## ÜÇÜNCÜ ŞƏKİL

(Meydan. **Dulu xanla Erkin** gəlir.)

**Erkin** – İndi neyləmək istəyirsən?

**Dulu xan** – Mənim nə etməli olduğumu məgər sən bilmirsən? Atasının qatilindən qisas almayan oğula oğul demək olarmı? Amma mən böyük qardaş olsam da, Gur-Şadı gözləməli idim. Çünki o da oğul kimi qisasa şərik olmalıdır.

**Erkin** – Dulu xan, biz uşaqlıqdan dostuq, qan qardaşıyıq. *(Biləyini onun biləyinə toxundurur.)* Bu biləklərdən bir-birinə qan keçib. Buna görə də mən səndə gördüyüm qüsurları həmişə üzünə demişəm. Bu gün də deyirəm: Sən çılğınsan. Yüz ölçüb, bir biçməyi bacarmırsan. Buna görə də bu məsələdə çox ehtiyatlı olmalı, Gur-Şadı da qızışdırmamalısan.

(**Siyan-Şi** nazlana-nazlana onlara tərəf gəlir.)

**Siyan-Şi** – Erkin, dostun yaman bikefdir. Niyə onu yasdan çıxartmırsan.

**Erkin** – Yaxşı olar ki, sən bir Çin rəqsi oynayasan, bəlkə kefi açıla.

**Siyan-Şi** – Əgər bilsəm ki, rəqslə onun kefi açılar, səhərə qədər oynayaram.

**Erkin** – Bəs ərin buna nə deyər?

**Siyan-Şi** - Ərim onun xatirini məndən çox istəyir.

(**Siyan-Şi** rəqs edir.)

**Erkin** – Zalım qızı çox şirin qadındır.

**Dulu xan** – Doğrudan da, Çin gözəlləri qənirsiz olur.

**Erkin** – Gözlə, ilişərsən. Törəmizi unutma... Bura bax, Yan-Çunqun gəlişindən xəbərin var?

**Dulu xan** – O kimdir?

**Erkin** – Dayını tanımırsan?

**Dulu xan** – Yan-Çunq? Çinlidən mənə nə dayı?

**Erkin** – İçgen xatunun qardaşı sənə dayı olmur?

(**Gur-Şad** gəlir. **Dulu xan Gur-Şadı** qarşılamağa gedir.

**Erkin Siyan** – Şiyə işarə verir ki, getsin.

(**Dulu xanla Gur-Şad** danışa-danışa gəlir. **Erkin** çəkilir.)

**Gur-Şad** – O, mənə sübut etməyə çalışdı ki, Çulo xaqan ürək sancısından öz əcəli ilə ölüb.

**Dulu xan** – Sən də inandın?

**Gur-Şad** – Mən onun yanından birbaş həkimbaşının evinə getdim. O da onların dediklərini eynən təkrar elədi.

**Dulu xan** – Ölümündən bir qədər əvvəl mən atamın yanında olmuşam. O, cəbhədən yaxşı xəbərlər aldığına uşaq kimi sevinirdi. Mən onda heç bir xəstəlik əlaməti görmədim. Evə gəldim. Gecənin yarısı Erkin məni oyadıb kişinin ölüm xəbərini verdi. Gəldim. Meyitin üzü gömgöy idi. Bu, zəhərlənmək əlaməti deyil?

**Gur-Şad** – Ola bilər.

**Dulu xan** – Ola bilər yox, belədir...

**Gur-Şad** – Səbirli ol.

**Dulu xan** – Mən səbirli olmasaydım, səni gözləməzdim. De görək, biz nə etməliyik? *(Sükut.)* Niyə cavab vermirsən? Atamızın intiqamı yerdəmi qalacaq?

**Gur-Şad** – De görək, sən nə etmək istəyirsən?

**Dulu xan** – Mən səndən soruşuram.

**Gur-Şad** – Böyük qardaş sənsən!

**Dulu xan** – İntiqam!

**Gur-Şad** – Öldürən kimdir?

**Dulu xan** – Mən! Gecə onun yanında kim yatır?

**Gur-Şad** – Deməli, İçgen xatun.

**Dulu xan** – Tək o yox! Əmimizlə birlikdə.

**Gur-Şad** – Şahidin-sübutun varmı?

**Dulu xan** – Sən məni ələ salmısan? Öldürən şahid-sübutla öldürür?

**Gur-Şad** – Amma intiqam alan intiqamında tam haqlı olduğuna inanmalıdır.

**Dulu xan** – Demək, sən hələ inanmırsan? *(Sükut.)*

**Gur-Şad** – Əgər bu, qətldirsə, bir atanın qeyrətli oğlu kimi biz buna dözməməliyik. Amma bir elin qeyrətli oğlu kimi, bir atanı deyil,

bütün millәti düşünmәyә borcluyuq. Juan-juanlarla savaşda 3 tümәn ordu itirdik. Quraqlıqdan ölkәdә qıtlıq vә aclıq başlayıb. Güney otlaqlarımızın bir qismi әldәn gedib.

**D u l u  x a n** – Bunların intiqama nә dәxli var?

**G u r - Ş a d** – Mәni axıra qәdәr dinlә! Sәn elә bilirsәn ki, Qara xaqan yatıb? O, bizdәn zәrbә gözlәmir?

**D u l u  x a n** – Әlbәttә, o bilir ki, biz bu qanı yerdә qoymayacağıq.

**G u r - Ş a d** – Buna görә dә, birinci növbәdә, biz bu ölümün qәtl olduğunu tam yәqinlәşdirmәliyik.

**D u l u  x a n** – Atamızın ölümündәn sonra vәliәhd dura-dura, onun dәrhal xaqanlığı qamarlaması nә demәkdir?

**G u r - Ş a d** – Ata-oğul qohumluğu әn yaxın qohumluqdur. Lakin taxt-tac vәrәsәliyindә onun heç bir әhәmiyyәti yoxdur.

**D u l u  x a n** – Necә?

**G u r - Ş a d** – Sәndәn bir neçә xahişim var: Birinci, mәnә bir neçә gün vaxt ver, bu mәsәlәni yerli-yataqlı öyrәnim. İkinci, ehtiyatlı ol, hәr deyilәn sözә inanma! Onlar aramıza әdavәt toxumu sәpmәk, bizi biri-birimizdәn ayırmaq fikrinә dә düşә bilәrlәr. Üçüncü isә, güney otlaqlarımızın işğalı bizi ayıq olmağa çağırır. Mәncә, Çin bizә hücuma hazırlaşır.

**D u l u  x a n** – Bilirәm. Ölkә Çin casusları ilә dolub. Biri dә yenicә gәlib. İçgen xatunun qardaşı Yan-Çunq.

**G u r - Ş a d** – Yan-Çunq?.. Mәn onun haqqında çox eşitmişәm. Çin şahzadәlәrinin әn dәlәduzu olan bu vücud sehrbazdır... vә bura yaxşı niyyәtlә gәlә bilmәz. Ölkәnin belә bir vәziyyәtindә Göytürk elinin xaqanından şәxsi qisasımızı alıb, xalqı başsız qoymağa bizim haqqımız yoxdur.

**D u l u  x a n** – Başsız niyә? Bәs mәn bu sәltәnәtin varisi deyilәm?

**G u r - Ş a d** – Sәni qurultay seçmәlidir.

**D u l u  x a n** – Düz demirsәn. Varis mübahisәli olanda qurultay çağrılır.

**G u r - Ş a d** – Әgәr әlimizdә atamızın vәsiyyәti olsaydı, qurultayın çağırılmasına ehtiyac qalmazdı. İkinci tәrәfdәn, Qara xaqanın qәtli bizә

hücum etmək üçün Çinin əlində dəstəvuz ola bilər. Biz bu imkanı Çinə verməməliyik.

**D u l u  x a n** – Atamızın qətli Çinin hücumuna səbəb olmadığı halda, niyə Qara xaqanın qətli səbəb olmalı imiş?

**G u r - Ş a d** – Bu qətl təbii ölüm kimi qələmə verilib, qətldən sonra Qara xaqanla İçgen xatun dərhal evlənib. Demək, Çin heç nə itirməyib. Çünki Göytürk dövlətinin başında Çulo xaqan kimi qüdrətli bir adamın durması Çinə sərfəli deyilmiş və bu, qətldirsə, heç şübhəsiz, Çinin əli ilə törədilib. Çin juan-juanlarla savaşda bizim uduzacağımızı gözləyirdi. Yəqin, cəbhədəki üstünlüyümüzü eşidən kimi, bu işi görüb. İndi bizim yeni savaşa gücümüz yoxdur. Xaqanlığı da içəridən parçalasaq, fəal xarici siyasət apara bilməyəcəyik!

**D u l u  x a n** – Sən mənim fikrimi ora-bura yayındırma!

**G u r - Ş a d** – Mən sənə bugünkü vəziyyətimizi açıqladım.

**D u l u  x a n** – Sən, gəl, mənim ağzımı boza vermə. Mənə hər şey aydındır. Sənə dil dəydi. Mən xaqanın nitqindən də bəzi mətləbləri anlamışdım. O, hər ikimizi şahzadə adlandırdı. Məgər o bilmir ki, mən qanuni vəliəhdəm? Əgər ikimiz də şahzadəyiksə, bəs vəliəhd kimdir?

(E r k i n görünür. Bir müddət dinləyir və çəkilir).

**D u l u  x a n** - Bu barədə aranızda söhbət olmadı? *(Sükut.)* Niyə cavab vermirs n? *(Sükut.)* Sənin susmağın məni şübhələndirir... *(Gülür.)* Bəlkə, kürəkən qaynatanın sirrini vermək istəmir?! Siz varislik barədə danışmaya bilməzdiniz. Məndən heç nə gizlətmirsənsə, onda qılıncına and iç ki, bu barədə danışmamısınız.

**G u r - Ş a d** – Mən and içməyəcəyəm.

**D u l u  x a n** – Söhbətə məni çağırmamağınızdan mənə hər şey aydın olmuşdu. Qaynatan xaqanlığı yəqin sənə vermək istəyir.

**G u r - Ş a d** – Tutaq ki, sən deyəndir. Bəs mən qəbul edərəmmi?

**D u l u  x a n** – İnsan çiy süd əmib.

**G u r - Ş a d** – Dulu xan! Bu qara fikirlərdən əl çək! *(Qılıncını çıxarır.)* Qılıncıma and içirəm, mənim xaqanlıqda gözüm yoxdur. O, sənin halal haqqındır. Yalan deyirəmsə, bu qılınc sinəmə göy girib, qırmızı çıxsın!

**D u l u  x a n** – Gur-Şad! Söz başqa, əməl başqa! Mən əmələ ina-

nıram, sözə yox. Yəqin o sənə səltənəti vəd etmiş, sən də onun vədinə aldanıb atanın intiqamından vaz keçirsən.

**Gur-Şad** – Dulu xan, gec-tez səltənət sənindir. Amma indi bu dar macalda biz şəxsi arzumuzu bir kənara qoyub ölkəni düşünməliyik.

**Dulu xan** *(gülür)*–Gülməlidir. Atasının qeyrətini çəkməyən, ölkənin qeyrətini çəkir.

**Gur-Şad** – Bəsdir!

**Dulu xan** – Xeyr, bəs deyil. Mən namussuzluğu boynuma götürə bilmirəm. Sən götürürsənsə, kənara dur, mən bildiyimi edim.

**Gur-Şad** – Dulu xan, içinə diqqətlə bax! İndi sənin davan intiqam davası deyil, hakimiyyət davasıdır.

(Salur xan görünür. O, qardaşların tutaşdığını görüb geri çəkilir, kənardan onları seyr edir).

**Dulu xan** – Namussuz, alçaq! Mən o qoca iblisdən əvvəl səni gəbərtməliyəm. *(Qılıncını çıxarır).* Hazırlaş! Biz döyüşməliyik. Sən məni atanın qatillərinə satdın.

**Gur-Şad** – Özünü ələ al, Dulu xan.

**Dulu xan** – Uzun danışma! Qılıncını çıxart! Ya sən, ya mən!

**Gur-Şad** – Mən qardaşıma qılınc qaldırmaram. Məni aradan götürmək istəyirsənsə, vur! Tök qardaşının qanını!

**Dulu xan** – Mən dalda-bucaqda arvad kimi qeybət qırmağa deyil, üzbəüz vuruşmağa adət etmişəm. Çıxart qılıncını, namərd!

(Erkinlə Banuçiçək gəlir. Qardaşları bu vəziyyətdə görən Banuçiçək ləçəyini yerə çırpır.)

**Banuçiçək** – Sən nə edirsən, Dulu xan? Ayıb deyil?

(Dulu xan qılıncını qınına qoyur, Banuçiçəyin ləçəyini götürüb ona verir.)

**Banuçiçək** – Dulu xan! Sən nə vaxt xeyrinlə şərini, dostunla düşmənini ayıra biləcəksən?

(Salur xan onlara yaxınlaşır).

**Salur xan** – Siz taxt üstündə nahaq bir-birinizin qanına yerikləyirsiniz. Xaqan hələ sağdır.

Pərdə

## II PƏRDƏ

### DÖRDÜNCÜ ŞƏKİL

(Qara xaqanın çadırı. Xaqan ov paltarını geyinir. Selcan daxil olur.)

**Selcan** – Hara belə, ata?

**Qara xaqan** – Ürəyim sıxıldı, ova gedirəm. *(Sükut.)* Nə əcəb gəlmisən? *(Sükut.)* Sözlü adama oxşayırsan.

**Selcan** – İstəyirəm, ata-bala ikilikdə dərdləşək.

**Qara xaqan** – Buyur.

**Selcan** – Dərd məni öldürür, ata.

**Qara xaqan** – Sənin nə dərdin, Selcan bala, mənim kimi atan, Gur-Şad kimi ərin... Uzun illər övladın olmurdu, şükür olsun, Tanrı sənə nur topu kimi bir oğul bəxş elədi.

**Selcan** – Kaş, dərdim elə övlad dərdi olaydı...

**Qara xaqan** – Bəs nədir dərdin?

**Selcan** *(susur)*–Üzə vurmurdum, daha bacarmıram. Səninlə açıq danışmaq istəyirəm. Mən hər şeyi bilirəm... Kaş, bilməyəydim... Ata, səni and verirəm göy Tanrıya, qarşında diz çöküb yalvarıram *(Diz çökür)*, daha bəsdir! İstədiyinə çatdın, burda dayan!

**Qara xaqan** – Sən nə səfehləyirsən?.. Mən səni başa düşmürəm.

**Selcan** – Y axşı başa düşürsən... Deyirəm, elədiklərin yetər!

**Qara xaqan** – Mən neyləmişəm?

**Selcan** – Ata, mən səninlə üz açmaq istəmirəm. Nə demək istədiyimi başa düşürsən.

**Qara xaqan** – Açıq de görüm, nə deyirsən?

**Selcan** - Onu deyirəm ki, sən qardaşların arasına ədavət salma.

**Qara xaqan** – Gur-Şadla Dulu xanı deyirsən? *(Sükut)* Ay dəli, əgər mən öz kürəkənimi xaqan eləmək istəyirəmsə, məgər bu sənə görə deyil?

**Selcan** – Yox, ata, yox! Əvvəla, Gur-Şada xaqanlıq lazım deyil. Heç, sən də bunu istəmirsən... Bu sözü ortaya atmaqla sən qardaşları bir-birinin üstünə qaldırırsan.

**Qara xaqan** – Yəni, sən atanı belə tanıyırsan? Mən

fitnəkaram?

**S e l c a n** – Ata, üzünə ağ olmağa məni vadar eləmə. Dulu xana vəliəhdlik haqqını ver, biz də sözü burda bitirək. *(Getmək istəyir.)*

**Q a r a  x a q a n** – Dayan! Oxu atıb, yayı gizlətmə. İndi ki, başlamısan, sözünü axıra çatdır.

**S e l c a n** – Sən niyə başa düşmək istəmirsən ki, mən atamla ərimin, yəni yaradanımla yaşadanımın arasında qalmışam. *(İçken xatun gəlir.)*

**Q a r a  x a q a n** – Yaxşı, məni gözləyirlər, indi get, ayrı vaxt danışarıq. *(Qara xaqan gedir, Selcan da qalxır.)*

**İ ç k e n  x a t u n** – Deyəsən, sizə mane oldum. Xeyirdimi gəlişin?

**S e l c a n** – Sən bu xanədanın xatunu olduqca, gördüyün kimi, xeyir içində üzəcəyik. *(Gedirkən qapıda Salur xanla qarşılaşır.)*

**S a l u r  x a n** – Gün aydın, xatun. Dediklərini gətirdim. İki göz istəyir tamaşa eləsin. Amma başına dönüm, gərək heç xaqan da bilməsin.

**İ ç g e n  x a t u n** – Arxayın ol.

(S a l u r  x a n bir ədəd daş-qaşlı boyunbağı, bir də boyunbağının dəsti-tayı olan qolbağı ona verir.)

**İ ç g e n  x a t u n** – Quşu gözündən vurmusan, Salur xan. Mənə belə bir dəst lazım idi.

**S a l u r  x a n** – Juan-juanlardan götürülən qənimətlərdəndir. Minbaşı Ayxanı tanıyırsanmı?

**İ ç g e n  x a t u n** – Yaxşı tanıyıram.

**S a l u r  x a n** – Ləl-cəvahiratı bu ölkədə ondan yaxşı tanıyan yoxdur. Gur Şad da bunu bildiyindən qənimət ləl-cəvahiratın siyahısını tutmağı həmən Ayxana tapşırıbmış. Ayxan bu qolbaqla boyunbağını siyahıya salmayıb. Bir bax, üstündə Juan-juan xaqanının damğası da var.

**İ ç g e n  x a t u n** – Bu məmləkətdə xətrini istədiyim iki adam varsa, birincisi sənsən.

**S a l u r  x a n** – Mən bunu yaxşı bilirəm. Çox sağ ol! Mənə elədiyin yaxşılıqları ömrüm boyu unutmaram.

**İ ç g e n  x a t u n** – Mən də sənin elədiyini heç vaxt unuda bilmərəm. O vaxt işin üstü açılanda sən məni ələ vermədin. O vaxt mən qorxurdum ki, sən Çulo xaqana hər şeyi açıb deyəcəksən. Sən işdən qovuldun,

amma demədin və mənim etibarımı qazandın.

**S a l u r x a n** – Məni yenidən xəzinədarlığa da sən gətirdin.

**İ ç g e n x a t u n** – O zaman səni güdaza verənin kim olduğunu bilmişdinmi?

**S a l u r x a n** – Əlbəttə, Gur-Şad! Mənə göz verib, işıq vermirdi. İldə bir neçə dəfə mədaxil-məxaricimi yoxlatdırırdı.

**İ ç g e n x a t u n** – İndi sən bilirsənmi ki, Gur-Şad bu taxta varis olmaq fikrinə düşüb?

**S a l u r x a n** – Bəs Dulu xan?

**İ ç g e n x a t u n** – Elə məsələ də bundadır... Amma yazıq Dulu xan buna inanmaq istəmir.

**S a l u r x a n** – Bilir. Elə bunun üstündə o gün az qalmışdı bir-birini tələf etsinlər.

**İ ç g e n x a t u n** – Belə de! Bizim Dulu xanın tərəfində olduğumuzu ona çatdırmalıyıq.

**S a l u r x a n** – O məndə. Elə bu gün ona başa salaram.

**İ ç g e n x a t u n** – Afərin, indi gedə bilərsən. *(Siyan-Şi gəlir.)*

**S i y a n - Ş i** – Dedilər, məni çağırmısan.

**İ ç g e n x a t u n** – Bir az gözlə, çağıracağam,

(S i y a n - Ş i çıxır. S a l u r x a n gedir. S i y a n - Ş i gəlir.)

**İ ç g e n x a t u n** – Gəl içəri... Nə xəbər var?

**S i y a n - Ş i** – Yavaş-yavaş hər şey qaydasına düşür. Mən əvvəllər Dulu xanı ipə-sapa yatmayan dəlisov bir adam bilirdim. Yaxınlaşdıqca gördüm, uşaq kimi sadədir. Nə deyirəmsə, inanır. Amma... Banuçiçək onu gözdən qoymur. O da arvadından yaman çəkinir... Amma axır günlər özü mənə yaxınlaşır.

**İ ç g e n x a t u n** – Demək, tora düşüb. Sən onu çadırına aparmalısan. Amma bir gün əvvəl mənim xəbərim olmalıdır. Başa düşdün, ya yox?

**S i y a n - Ş i** – Başa düşdüm, amma... qorxuram, camaat məni daşqalaq edə.

**İ ç g e n x a t u n** – Çin xaqanı isə səni mükafatlandıracaq. Üstəlik də mən... Sən də, ərin də burda Çinə qulluq edirsiniz. Anladın, ya yox.

**S i y a n - Ş i** – Müqəddəs Buddadan qorxuram. O, mənə bu xəyanəti bağışlamaz.

**İ ç g e n x a t u n** – Kəs səsini! Çinə qulluq etdiyinə görə Budda da sənin günahından keçər. *(Salur xanın gətirdiyi boyunbağını, qolbağı və bir ovuc axçanı ona verir.)* Bu axçalar sənin! Boyunbağı axırda Divanda sənə lazım olacaq. Bu qolbağı isə tacir Sin-Quya verərsən.

**S i y a n - Ş i** *(qolbağa diqqətlə baxıb)*–Qolbaqla boyunbağı deyəsən, dəstdir.

**İ ç g e n x a t u n** – Naxışları da eynidir. Sin-Qu bunu ucuz qiymətə Gur-Şadın arvadına satmalıdır!

**S i y a n - Ş i** – Selcana?

(İ ç g e n x a t u n başı ilə təsdiq edir).

**S i y a n - Ş i** – İçgen xatun, nə eləmək istədiyini bilirəm. Gur-Şad heç, amma Dulu xana yazığım gəlir.

**İ ç g e n x a t u n** – Yoxsa, sevməyə başlamısan onu? Çinin mənafeyi olan yerdə sevgi-mevgi ola bilməz.

**B a y ı r d a n s ə s** – Dulu xan gəlmək istəyir.

**İ ç g e n x a t u n** – Get, o səni burada görməsin. *(Siyan-Şi çıxır.)* Gəlsin!

**D u l u x a n** – Əmim evdədirmi?

**İ ç g e n x a t u n** – Elə indicə getdi...

**D u l u x a n** – Aydındır... Xatun ana, bu səltənətin varisi kimdir?

**İ ç g e n x a t u n** – Mən səndən başqasını tanımıram.

**D u l u x a n** – Bəs bu nə söhbətdir?

**İç g e n x a t u n** – Nə eşitmisən?

**D u l u x a n** –Salur xan məni bəzi mətləblərdən agah elədi.

**İ ç g e n x a t u n** – Gərək səni başqası agah edəydi ki, sən də ayılaydın? Göy Tanrı şahiddir ki, mən həmişə sənin haqqını güdmüşəm. Amma sən həmişə məndən şübhəli olmusan.

**D u l u x a n** – O gün nə sən, nə də əmim məni çadıra dəvət etmədiniz.

**İ ç g e n x a t u n** – Xaqan olan yerdə mən nəçiyəm? Bəs bilmədin ki, Gur-Şad məni çadırdan qovdu?

**D u l u x a n** – Gördüm.

**İ ç g e n x a t u n** – Bəs onda məni niyə günahlandırırsan? Kürəkən qaynata ilə təklikdə danışmaq istədiyi üçün mən artıq idim. Gizli olan

söhbətdə isə mütləq qərəz var.

**D u l u  x a n** – Mən o qərəzi çox yaxşı başa düşürəm. Atamın ölümündən sonra bunlar mənə quyu qazır.

**İ ç g e n  x a t u n** – Burda saxla! Dulu xan, bil və agah ol, sənə quyu qazan birinci öz doğma atan Çulo xaqan idi.

**D u l u  x a n** - Ola bilməz!

**İ ç g e n  x a t u n** *(vəsiyyətnaməni çıxarıb Dulu xana verir)*–Buyur, oxu atanın öz əli ilə yazdığı vəsiyyətnaməni...

(D u l u  x a n vəsiyyətnaməni alıb oxuyur).

**D u l u  x a n** – " Türkelinin xaqanı mən Çulo xan Ötükənə zəfər qazandırmış kiçik oğlum Şu-Tekini Gur-Şad adı ilə mükafatlandırır, onu öz yerimə vəliəhd-varis elan edirəm". *(Uzun sükutdan sonra)* Bəs deyirdilər, atamın vəsiyyətnaməsi yoxdur?

**İ ç g e n  x a t u n** – Gur-Şadın juan-juanlar üzərindəki qələbəsini eşidən kimi atan bu vəsiyyətnaməni yazıb qoydu xaqanlıq mücrüsünə. Öləndən sonra mən götürüb gizlətdim ki, sənə göstərim.

**D u l u  x a n** – İndi hər şey aydın oldu. Çox sağ ol, Xatun ana! *(İçgen xatun vəsiyyətnaməni götürür.)* Bəs mənə vermirsən onu?

**İ ç g e n  x a t u n** – Hələ yox! Sən xaqan taxtına oturandan sonra səndən bir təvəqqem olacaq. Onu qəbul etsən, bu səfeh kağızı birlikdə yandırarıq.

**D u l u  x a n** – Təki sən deyən olsun. Yaxşı, mən öz qanuni haqqımı necə qaytara bilərəm, Xatun ana?

**İ ç g e n  x a t u n** – Böyük Çin xaqanlığı sənin arxandadır!

**D u l u  x a n** – İndi mən doğma atamın mənə elədiyi pisliklə ögey anamın elədiyi yaxşılığı hansı ölçü ilə ölçüm? Səni lənətə gələsən, ata! Mən sənə nə yamanlıq eləmişdim ki, sən mənim haqqımı Gur-Şada verdin? Mən nə qədər kor olmuş, öz doğmaca atamın mənə düşmən olduğunu bilməmişəm. *(İçgen xatunun qarşısında diz çökür.)* İndi mən sənə minnətdarlığımı necə bildirim, Xatun ana? Ömrüm boyu sənə qul olmağa hazıram.

**Y a n - Ç u n q** (gəlir)–Sən qul yox, xaqan olmağa layiqsən. Bu işdə böyük Çin xaqanına güvənə bilərsən.

**İ ç g e n  x a t u n** – Qardaş, atamızın göndərdiyi qızıl qurd başlı

bayrağı ver sahibinə.

(Yan-Çunq bayrağı gətirib Dulu xana verir. Dulu xan bayrağın dəstəyindəki yazını oxuyur).

**Dulu xan** – “Dulu xana!”

**Yan-Çunq** – Məmləkətinizin rəmzi olan qızıl qurd başlı bayrağın sənə göndərilməsinin mənasını yəqin ki, bilirsən. Çin xaqanı təkcə səni Göytürk səltənətinin varisi bilir. Amma bir şərtimiz var - bu bayrağın sənə verilməsini hələlik bizim üçümüzdən başqa kimsə bilməməlidir.

**Dulu xan** – Çin xaqanına mənim təşəkkürümü yetirin. *(Çıxır.)*

**Yan-Çunq** – Sən Yağmur üçün narahat olma. Bu taxtda hələlik öz xalqını iflic vəziyyətinə salan bir hakim oturmalıdır. Atamızın hökmü belədir.

**İçgen xatun** – Pələngləri üz-üzə qoyduq.

## BEŞİNCİ ŞƏKİL

(Dulu xan çadırdan çıxır. İşıq sönür. Sağ tərəfdə Mələk, sol tərəfdə Şeytan görünür).

**Dulu xan** – Yenə gəldiniz? Mən sizin əlinizdən hara qaçım?

**Mələk** – Hə, nə oldu? Bəs, axı sən Gur-Şadı atanızın qisasını almağa çağırırdın? İndi unutdun?

**Dulu xan** - Kim deyir mən atamı unutmuşam?

**Mələk** - Unutmasaydın, İçgen xatuna indi havadarın kimi baxıb qarşısında diz çökərdinmi?

(Göy gurultusu, şimşək çaxışı içində Şeytan qəhqəhə çəkir).

**Dulu xan** – Rədd ol! Sən nə istəyirsən məndən, ay Şeytan?

Şeytan - Düz deyirsən, mən Şeytanam, amma mən Mələk kimi siz insanlara o qayibanə dünyanın xoşbəxtliyini vəd etmirəm. Mən insanı bu dünyada xoşbəxt eləmək qüdrətinə sahibəm. *(Şeytan qəhqəhə çəkir)*.

**Dulu xan** – Nəyə gülürsən?

**Ş e y t a n** – Sənin kimi axmaqların nəğdi qoyub, nisyə dalınca qaçmasına necə gülməyim?

(Göy gurultusu.)

**D u l u  x a n** – Bu nə səsdir?

**M ə l ə k** – O səs sənin içində xeyirlə şərin toqquşan qılınclarının səsidir.

(Ş e y t a n l a  M ə l ə k qılınclaşırlar. Onların çarpışmasına kənardan baxan D u l u  x a n çaşıb nə edəcəyini bilmir. Nəhayət, qılıncını sıyırıb onları ayırır.)

**D u l u  x a n** – İkiniz də rədd olun! Qərarı mən verəcəyəm. Mən olan yerdə siz kimsiniz?

**Ş e y t a n** – Biz elə sənik. Bizim sən olduğumuzu bilməyincə, sən bir qərara gələ bilməyəcəksən.

**M ə l ə k** – Sənin varlığın bizim ikimizin vəhdətindədir. Bizim birimizin olmaması sənin yarımçılığındır.

**Ş e y t a n** – Sən ikimizdən birimizi seçməlisən.

(D u l u  x a n düşünür, M ə l ə k l ə  Ş e y t a n onun qarşısında rəqs edir. O, gah M ə l ə y ə, gah da Ş e y t a n a tərəf yönəlir.)

**D u l u  x a n** *(əllərini göyə açıb)*–Göy Tanrı, mənə yol göstər.

**Ş e y t a n** – Ordan imdad diləyənlərin əlləri havada qalar.

**D u l u  x a n** – Əlimi xəyanətəmi uzadım?

**Ş e y t a n** – Xəyanət-sədaqət, düz-əyri, yalan-həqiqət! Bunlar hamısı insanın uydurduğu şərti şeylərdir. Sənin üçün düz olan şey, başqası üçün əyri sayıla bilər. Uzağa niyə gedirsən, əmin Qara xan, Qara xaqan olmaq üçün mənim həmməsləkim İçgen xatunla əl-ələ verib doğmaca qardaşını zəhərləmədimi? Bu, Mələyə xəyanətdirsə, mənə sədaqətdir. O da məxluqdur, mən də. Niyə onun əməli yaxşı, mənimki pis adlanmalıdır? Çulo xaqanın ölümü bu gözəlçəyə görə şərdir, *(Mələyi göstərir)* amma bu ölüm Qara xana xeyir gətirdi, xaqan oldu.

**D u l u  x a n** – Yoxsa, Qara xaqanı da sən yoldan çıxartmısan?

**Ş e y t a n** *(Arxa pərdəni qaldırır. Zər-zibalı xaqan taxtı görünür)* – Mən onu taxt sahibi eləmişəm. Bu taxt dünyanın ən axmaq adamını dünyanın ən ağıllısına, dünyanın ən zəif adamını ən qüdrətli adamına, ən hörmətsiz adamı ən hörmətli adama çevirmək qüdrətinə malikdir.

Bu taxt insanı o qədər yüksəldir ki, sən burda oturan kimi, dünən sənə yuxarıdan baxanlar bu gün sənə aşağıdan yuxarı baxmalı olur. İndi sən bu böyük fəzilətdən imtina edə bilərsənmi?

(D u l u x a n başını aşağı dikir.)

## ALTINCI ŞƏKİL

(Meydan. Musiqi səslənir. Cariyyə yerə qımız səpə-səpə keçir. Arxasınca S i y a n - Ş i rəqs edə-edə gəlir. Bu bayram G u r - Ş a d ı n oğlu olması münasibətilə təşkil edilmişdir. Qucağında uşaq S e l c a n , kənizlər və G u r - Ş a d görünür.)

**Q ı z l a r ı n " D ü n y a y a t ə z ə g ə l m i ş b a l a m ı z y a ş a d o l s u n " m a h n ı s ı –**

– Sevindirsin nəslini, gəlişi mutlu olsun.
–Gözün aydın Türkeli, yurd üstünə yurd gəlir,
–Keşiyinə bu yurdun təzə bir boz qurd gəlir.
–Göy Tanrı, bu köhpəyə uzun, uzun ömür ver,
–Onu yaşatmaq üçün bizə atəş, dəmir ver.

(S i y a n - Ş i körpənin başına dolanıb süzür. G u r - Ş a d S i y a n - Ş i y ə bir ovuc axça verir. Təntənəli keçid yavaş-yavaş səhnədən çıxır.)

## YEDDİNCİ ŞƏKİL

(Xanlığın Divan məclisi. Sağ və sol tərəflərdə M u b i - T ə r x a n , E r k i n , S a - l u r x a n , Y a n - Ç u n q , G u r - Ş a d , D u l u x a n əyləşmiş, Q a r a x a q a n İ ç g e n x a t u n l a gəlib başda əyləşirlər).

**Q a r a x a q a n** – Gün aydın, Divan əhli! Bugünkü Divanda 3 məsələmiz var:

Birinci məsələmiz Çindən gələn elçilərlə əhdnamə bağlamaqdır. Çin xaqanı bizə barışıq təklif edir. Buna necə baxırsınız? Mubi-Tərxan, söz sənindir.

**M u b i - T ə r x a n** – İndi barışığı qəbul etmək, şübhəsiz, bizə sərfəlidir. Amma əvvəlcə onların təklif etdiyi şərtləri bilməliyik. Ona görə ki, Çulo xaqanın ölümündən sonra Çin bizim güney otlaqlarımızın

bir hissəsini zəbt edib. Bu gün Ötükəndəki qıtlığın səbəbi həmin otlaqların əlimizdən çıxmasıdır.

**Salur xan** – Həm də, juan-juanlardan aldığımız qənimətlə ölkəni qışdan çıxara bilməyəcəyik.

**Qara xaqan** – Təklifiniz nədir?

**Gur-Şad** – Mən Çinə inanmıram, tarix boyu Çin bizimlə barışıq müqaviləsi bağlayıb, bizi aldadıb arxayınlaşdırmış, sonra basqın etmişdir. Bir də mən Divan məclisində başqa ölkənin şahzadəsinin iştirakını düz hesab etmirəm.

**Qara xaqan** – O, mnim qaynımdır. Mən çox istərdim ki, sizin hər biriniz Yan-Çunqun bu ölkəyə elədiyi xidmətin yarısı qədər xidmət edə bilsin.

**Gur-Şad** – Nədir o xidmət?

**Qara xaqan** – Bizim çox işlərimizə yarayır Yan-Çunq. Yalnız bircəsini xəzinədarımız Salur xan desin.

**Salur xan** – Yan-Çunq Çin tacirləri ilə danışıq aparıb, qənimət aldığımız 4 kisə qızılı taxıla dəyişəcəyik.

**Gur-Şad** – Qızıl olandan sonra onu dəyişmək nə çətin şeymiş?

**Qara xaqan** – Boynumuza alaq ki, biz türklər ticarətin qanun-qaydasını, bicliklərini bilmirik. Bizi həmişə aldadırlar. Yan-Çunqu isə aldada bilməzlər.

**Salur xan** – Lap elə bu yaxınlarda satmaq üçün Çinə üç min at aparıb, əvəzində on min çərək ipək alıb gətirib.

**Gur-Şad** – Üç min at?

**Salur xan** – Bəli, atların müqabilində bu çox böyük qiymətdir.

**Gur-Şad** – Əgər Çin, doğrudan da saf ürəklə bizimlə dost olmaq istəyirsə, ölkəmizə göndərdiyi bu qədər casus nədən ötrüdür? Məncə bütün bunlar qəfləti basqın üçün tələdir.

**Qara xaqan** – Təklifin nədir?

**Gur-Şad** – Çinə inanmamaq. Qırğız xaqanının təklif etdiyi birliyə qoşulmaq!

**Qara xaqan** – Aydındır. Sənin məqsədin bizi dayının quyruğuna calamaqdır.

**Gur-Şad** – Qırğız ulusu təkcə mənə yox, bütün Türkelinə qohumdur. Çinliyə dayı deyincə, elə özümüzünkünə dayı desək pis olar?

**M u b i - T ə r x a n –** Mən də bu fikirdəyəm.

**D u l u x a n –** Mən Çinlə barışıq tərəfdarıyam.

**S a l u r x a n –** Mən də.

**İ ç g e n x a t u n –** Mən də.

**E r k i n –** Mən də.

**Q a r a x a q a n –** Mən də! İki səsə qarşı beş səs. Axşam hamınız, Çinlə bağlayacağımız əhdnamə mərasiminə dəvət olunursunuz. Divan üzvlərinin nəzərinə çatdırım ki, imzalayacağımız əhdnamənin səbəbkarı Yan-Çunqdur. Yan-Çunqun atası ilə arası sərin olsa da, Çin vəliəhdi ona çox inanır. Xaqan xarici ölkələrlə əlaqəni vəliəhdə tapşırıb. İndi biz dostluq əlaqəsinin yaranmasında bizə yardımçı olan Yan-Çunqun bu xidmətini qiymətləndirməliyik. Mən ona bizim orduda tümənbaşı rütbəsinin verilməsini təklif edirəm. Buna necə baxırsınız?

**E r k i n –** Başqa millətin oğlu bizim orduda yüksək rütbə tuta bilərmi?

**M u b i - T ə r x a n –** Ana yasamız buna yol vermir.

**İ ç g e n x a t u n –** Göytürk Ana yasası nə vaxt yazılıb?

**M u b i - T ə r x a n –** Bumin xaqanın vaxtında.

**Q a r a x a q a n –** Gör, neçə yüz il keçib. Zaman dəyişib.

**M u b i - T ə r x a n –** Qara xaqan, biz səninlə 30 ilin dostuyuq. Sənə olan sədaqətimə şübhən yoxdur ki?

**Q a r a x a q a n –** Yox!

**M u b i - T ə r x a n –** Onda məni eşit! Bu kitab bizim hamımızdan ucada durur. Çünki onu atalarımız yazıb. Hər sözünə özləri əməl edib, bizə də bu yolla getməyi tapşırıblar. Onlar bizə nəyi tövsiyə etdiklərini çox yaxşı biliblər. Biz nə Bumin, nə İstəmi, nə də onlardan sonra gələn ulu xaqanlardan çox bilmirik. Buna görə də bu kitabın bir bəndini belə dəyişməyə haqqımız yoxdur.

**Q a r a x a q a n –** Onda mən Yan-Çunqu mühafizə dəstəsinin başçısı təyin edirəm. Nə sözünüz?

**M u b i - T ə r x a n –** Ona inanırsansa, bu sənin öz işindir.

**Q a r a x a q a n –** Keçək üçüncü məsələyə. Mubi-Tərxan, buyur, sözünü de.

**M u b i - T ə r x a n –**Sırağa gün şahzadə Dulu xan çinli qadın Siyan-Şinin çadırında olubdur. Deyilənə görə, Dulu xan onunla yaşa-

yırmış. Göytürk törəsinə görə evli qadına ilişmək böyük cinayət hesab olunur...

**Qara xaqan** –İndi qərar sizindir.

**Mubi-Tərxan** –Siyan-Şini çağırın.

(Gözətçi Siyan-Şini çağırır. Siyan-Şi gəlir).

**Mubi-Tərxan** –Siyan-Şi, Dulu xan sənin çadırında olubmu?

**Siyan-Şi** –Bəli.

**Mubi-Tərxan** –Siyan-Şi, bizim qanunlara görə, evli kişi ilə yaxınlığın cinayət olduğunu bilirdinmi?

**Siyan-Şi** –Yox, bilmirdim.

**Mubi-Tərxan** –Sən, yaşadığın məmləkətin qanunlarını bilməli idin.

**Siyan-Şi** –Bilməmişəm.

**Mubi-Tərxan** –Sən onu yoldan çıxarmısan, yoxsa, o səni?

**Siyan-Şi** –Biz bir-birimizi istəmişik!

**Mubi-Tərxan** –Bəs deyirdin, sənə təcavüz ediblər?

**Siyan-Şi** - Ərimin qorxusundan mən özümü itirmişdim. Mən Dulu xanı sevirəm.

**Mubi-Tərxan** - Dulu xan, bu qadın düzmü deyir?

**Dulu xan** - Düz deyir.

**Mubi-Tərxan** –Sən, axı, bu məmləkətin oğlusan. Sən bu işin nə demək olduğunu bilməmiş deyilsən. Eləmi?

**Dulu xan** –Bəli.

**Mubi-Tərxan** –İndi cinayətini boynuna alırsanmı?

**Dulu xan** –Bəli.

**Mubi-Tərxan** – Mənim daha sualım yoxdur.

**Qara xaqan** –Kimin sözü və sualı var?

**Gur-Şad** –Mən istəyirəm ki, törəmizin bu cinayətə aid olan bəndi oxunsun.

**Mubi-Tərxan** *(kitabdan oxuyur)*–"Ərli qadını yoldan çıxarmaq Göytürk əxlaqına ziddir..."

**Gur-Şad** –Çox gözəl! Gördüyünüz kimi, törədə söhbət, "yaşamaqdan", "əlaqəyə girməkdən" getmir, "yoldan çıxarmaqdan" gedir. Nədir "yoldan çıxarmaq"? Yəni, onu məcbur etmək! Halbuki, hər iki

müqəssirin dediyindən aydın oldu ki, burda heç bir məcburiyyət olmayıb, bu işə könüllü gediblər. Bununla belə, camaat ayrı söz də danışır. Erkinin dediyi kimi, Siyan-Şi çoxdan bəri Dulu xanı bu işə təhrik edirmiş. Deyilənlər həqiqətdirsə, demək, Dulu xan Siyan-Şini deyil, Siyan-Şi Dulu xanı yoldan çıxarıb.

**Siyan-Şi** *(qəzəblə özünü irəli verir)*–Gur-Şad, sən doğru deyirsən. Dulu xan məni yoldan çıxarmayıb, amma... məni sən yoldan çıxarmısan. İndi ki, belədir, mən həqiqəti deyəcəyəm. Dulu xan, bil və agah ol! Qardaşın Gur-Şad xaqanlığı sənin əlindən çıxarmaq üçün bu oyunu düzəldib.

**Mubi-Tərxan**–Sübutun varmı əlində?

**Siyan-Şi**–Var! Xidmətimin mükafatı olaraq, o, mənə cəvahir qaşlı boyunbağını bağışlayıb.

(Qara xaqan boyunbağıya diqqətlə baxır).

**Qara xaqan**–Üstündə Juan-juan xaqanının damğası var. Demək, bu, juan-juanlardan alınmış qənimətdəndir. Salur xan, buna bax. Sənə təhvil verilən qənimətin içində bu boyunbağı vardımı?

**Salur xan**–Xeyr, mən bunu birinci dəfədir görürəm. Amma Gur-Şad oğlu İltərişin doğum mərasimində boyunbağını Siyan-Şiyə verdiyini gördüm.

**Qara xaqan**–Gur-Şad, bunu necə başa düşək?

**Gur-Şad** *(boyunbağını götürüb diqqətlə baxır)*–Minbaşı Ayxanı tapmaq olarmı?

**Salur xan**–Neyləyirsən Ayxanı?

**Gur-Şad**–Cəvahir qənimətlərinin siyahısını tutmağı mən ona tapşırmışdım. Düzünü o bilər.

**Salur xan**–Sənin imzalayıb möhürlədiyin siyahı mənim çantamdadır. *(Çantasını açır, siyahını çıxarır.)* Buyurun, oxuyun: 540 girvənkə külçə qızıl, 36 almaz daş, 78 cürbəcür cəvahirat, 14 daş-qaşla bəzənmiş qılınc, 17 qızıl saplı qəmə, 2 cəvahirlə süslənmiş tac... Bir neçə üzük, 26 qızıl zəncir... və bilərzik... vəssalam! Bu siyahıda boyunbağı deyilən şey yoxdur. Altında da öz imzan, öz möhürün. Buyur, bax!

(Gur-Şad siyahıya baxıb, başını bulayır.)

**Qara xaqan** –Gur-Şad, deməsk, sən həm də dövlət xəzinəsindən qənimət gizlətmisən!

**Gur-Şad** –Göy Tanrı şahiddir ki, bu, mənə böhtandır.

**İçgen xatun** –Onun evi yoxlanılsın. Onda başqa şeyləri də xəzinədən gizlətdiyi aşkar olar.

**Salur xan** –Doğrudur.

**Mubi-Tərxan** –Xaqan qızının evini yoxlamaq?

**İçgen xatun** –Biz Siyan-Şinin dediklərinin gerçək olub-olmadığını yoxlayırıq. Salur xan, 2 nəfər götür, get bunun evini yoxla.

(Salur xan çıxır.)

**Gur-Şad** –Siyan-Şi, bircə anlıq vicdanınla baş-başa qal, onu qovma, onu dinlə, sonra sualıma cavab ver: Dulu xanı tora salmağa səni mənmi vadar eləmişəm, ya başqası? O boyunbağını sənə mənmi vermişəm, ya başqası? *(Sükut.)* Səni Buddaya and verirəm, düzünü de, vicdanını boğma! *(Sükut.)*

**Siyan-Şi** –Sən... Sən nə istəyirsən məndən?

**Gur-Şad** –nsanlıq istəyirəm səndən! İnsaf, vicdan istəyirəm səndən!

**Dulu xan** –Gur-Şad, elədiyini eləmisən, heç olmasa kişi ol, günahını mənim kimi boynuna al! Nə qısnamısan bu yazığı bucağa?

**Siyan-Şi** –Bəli, sən öyrətdin məni!

**Gur-Şad** –Artıq sözüm yoxdur!

**Qara xaqan** –Mubi-Tərxan, hökmünü ver.

**Mubi-Tərxan** –Dulu xanın tək bircə günahı var: ərli qadınla zina. Törəmizə görə cəzası ölümdür.

**İçgen xatun** –Dulu xanın vəliəhd olduğunu nəzərə alıb ölüm cəzasının həbslə əvəz olunmasını təklif edirəm.

**Erkin** –Mən də.

**Qara xaqan** –Mən də razıyam. Amma Mubi-Tərxan, hökmə bir şey də əlavə olunmalıdır ki, həbsə düşdüyünə görə vəliəhdlik hüququ əlindən alınır.

**İçgen xatun** – Mən bu təklifə razı deyiləm.

**Qara xaqan**–Bəs ikinci müqəssirin cəzası nədir?

**Mubi-Tərxan**–Salur xanı gözləmirik?

**İçgen xatun**–Sən de görək, başqasına tələ qurmağın cəzası nədir?

**Mubi-Tərxan**–Ölüm...

**İçgen xatun**–Bəs xəzinədən qənimət gizlətməyin cəzası nədir?

**Mubi-Tərxan**–Bir boyunbağıya görə Ötükənə qələbə və bu qədər qənimət gətirən bir şahzadəni...

**İçgen xatun**–Yox, sən de görək, qəniməti dövlətdən gizlətməyin cəzası nədir?

**Gur-Şad**–O da ölümdür! İçgen xatun, axı mənim bir canım var. Əgər mümkünsə, bir ölümlə əvəz edilməsinə razılıq verəsən.

**Mubi-Tərxan**–Xaqan, sözüm sənədir. Törəmizə və yasamıza görə hər bir müqəssirin mühakiməsi öncə məhkəmədə olmalı, yarğıçı öz hökmünü verməli, sonra həmən hökmü Divan təsdiq etməlidir. Biz isə mühakiməni birbaşa Divana çıxartdıq. Axı, Divan məhkəmə deyil, yarğıçının hökmünü təsdiq edən Ali Məclisdir.

**Qara xaqan**–Bunu hamı bilir. Amma müqəssirlərin hər ikisinin xaqan nəslindən olmasını da unutmamalıyıq.

**Mubi-Tərxan**–Bəs, hər iki müqəssirin Divan üzvü olmasına necə baxırsan? Divan üzvlərini mühakimə etməyə Divanın səlahiyyəti çatmaz. Divan yalnız yarğıçının çıxartdığı hökmü təsdiq, ya da rədd edə bilər.

**Qara xaqan**–Sən, gəl, sübut olunmuş günaha qulp qoyma! Anayasaya görə mən xaqan kimi bu işə əl qoya bilərəm.

**Mubi-Tərxan**–Bu da sənin haqqındır.

(Selcanla Salur xan gəlir.)

**Selcan**–Ata, axırı ki, istədiyini elədin.

**Qara xaqan**–Mən burda ata deyiləm, xaqanam. Bunu kim buraxdı bura?

**Selcan**–Mən sənə keçən dəfə dedim, daha bəsdir! Amma sən dayanmadın. İblis arvadının fitnəsinə uyub şahzadələri güdaza verdin.

Göy Tanrıdan qorx, ata!

**İ ç g e n x a t u n** –Onlar özləri özlərini güdaza verib, Selcan... Məgər sənin istəkli ərinə atan deyib ki, bir ləçərin əli ilə qardaşını tora salsın?

**Q a r a x a q a n** –Məgər Dulu xana atan deyib ki, ərli arvadın yatağına girsin? İndi onların əvəzinə xaqanmı günahkar olmalıdır?

**S e l c a n** –Yəni, sən Gur-Şadın öz qardaşına tələ qurduğuna inanırsan, ata?

**Q a r a x a q a n** –Şahidin, sübutun qabağında mən nə karəyəm? Salur xan, nə oldu? Əlindəki nədir?

**S a l u r x a n** –Gur-Şadın Siyan-Şiyə bağışladığı boyunbağının tayı-dəsti qolbaq... Evi axtarmağa ehtiyac qalmadı. Qolundaydı. Bir baxın, ikisini də eyni usta düzəltmiş, naxışlar eyni, almaz qaşlar eyni, damğalar eyni.

**Q a r a x a q a n** (*Gur-Şada)*–İndi buna nə sözün? Demək, boyunbağını zəhmət haqqı kimi Siyan-Şiyə, qolbağı da arvadına bağışlamısan.

**S e l c a n** –Yalandır! Bu qolbaqdan heç onun xəbəri də yoxdur. Onu mən çinli tacirdən almışam.

**Y a n - Ç u n q** –Nə qiymətə?

**S e l c a n** - İki pələng dərisinə.

**Q a r a x a q a n** –Yan-Çunq, bax gör, onun qiyməti neçə ola bilər?

**Y a n - Ç u n q** *(qolbağa diqqətlə baxıb)*–Bu, ən yüksək əyarlı altun, qaşları isə aşılanmış almazdır. Dəri ilə hesablasaq, aşağı qiyməti 30-35 pələng dərisi ola bilər.

**M u b i - T ə r x a n** – Qızım, bəlkə, sən o Çin tacirini tanıyırsan?

**S e l c a n** –Xeyr, tanımıram, qapımıza gəlmişdi.

**M u b i - T ə r x a n** –Demək, o, bu qolbağı sənin üçün gətirib, elə sənə satmaq istəyirmiş. Məsələ aydındır. Qızım, tacirin nişanələrini deyə bilərsənmi?

**S e l c a n** – Balaca boy, qırmızı sifət, kosa saqqal.

**M u b i - T ə r x a n** –Özüdür. O, fitnəkar Sin-Qu olacaq. Xaqan,

rica edirəm, onu bura çağırtdırasan.

**Gur-Şad** –Özünə əziyyət vermə, Mubi-Tərxan. Bu oyunu quran elə qurub ki, Sin-Qu Selcanın üzünə dirənib deyəcək: "Mən satmamışam".

**Qara xaqan** –Amma tacir olan bəndə 30-35 dəriyə dəyən qolbağı 2 dəriyə satmaz. Bu, uydurmadır. Yalanı da gərək elə deyəsən ki, gülünc olmasın.

**Selcan** –Deməк, mən uydurmuşam?.. Demək, mən yalançıyam?

**Qara xaqan** –Buna daha nə ad vermək olar?

**Selcan** –Mən keçən dəfə atam olduğuna görə səninlə üz açmaq istəmədim. Daha bıçaq sümüyə dirənib. Aramızdakı ata-övladlıq pərdəsini götürüb deyirəm: Yalançı və fitnəkar mən deyiləm, sən və sənin arvadındır.

**Gur-Şad** –Selcan!

**Qara xaqan** –Sənin və ərinin fitnəkarlığı və yalanı artıq Divanda sübuta yetdi. Amma bizimkinin hələ sübutu yoxdur. Sən xaqanı təhqir etməyin cəzasının nə olduğunu bilirsənmi?

**Selcan** –Bilirəm, ölümə də hazıram. Əgər Gur-Şad ölümə məhkum olunacaqsa, birinci məni öldürməlisən. Mən Gur-Şadsız dünyaya tüpürürəm.

**Qara xaqan** –Onda bil, eşit: Gur-Şad öldürülməlidir. Qandallayın onların qollarını!

(Gözətçilər **Gur-Şadın** və **Dulu xanın** qollarına qandal vururlar.)

**Selcan** –Onda sən də bil və eşit! (Xaqana yaxınlaşıb onun qılıncını qından çıxarır.) Buyur. Əvvəlcə öz əlinlə səni təhqir etmiş övladını öldür!.. *(Sükut.)* Bacarmırsan?!

**Qara xaqan** –Qılıncı mənə ver, rədd ol burdan!

**Selcan** –Yaxın gəlmə!

**Gur-Şad** –Selcan! Get burdan.

**Selcan** –Əgər dediyimi edəcəksənsə, qılıncını verim. Onsuz da kimliyindən asılı olmadan, bu qədər şahid qarşısında xaqanı təhqir edən adam ölümə məhkumdur. Al qılıncı, vur məni. Deyərsən, özüm yaratmışdım, özüm də öldürdüm.

**Qara xaqan** –Çıxarın onu çölə!

Selcan - Övlad qatili olmaq istəmirsən? Gülməlidir *(Qəhqəhə çəkir.)* Qardaş qatili üçün övlad qatili olmaq nə çətin şeydir?

**Qara xaqan** –Necə? Mən... qardaşımın qatili?

**İçgen xatun** –Sən nə danışdığını bilirsən?

**Selcan** –Mənim bildiyimi hamı bilir. Ata, övlad-ata pərdəsi aradan götürüldü. Bundan sonra mənim ölməkdən başqa yolum qalmadı. Vur məni! Bacarmırsan?.. Onda mən özüm öz cəzamı verərəm. *(Xaqanın qılıncı ilə özünü vurub yıxılır.)*

## III PƏRDƏ

### SƏKKİZİNCİ ŞƏKİL

(Meydan. Qışqırıq və ağlaşma səsləri eşidilir. Adamlar yanan çadırı kənardan seyr edir. Gur-Şad qucağında uşaq alovun qarşısında diz çöküb. Qara xaqan və İçgen xatun gəlir. Banuçiçək Gur-Şada yaxınlaşır.)

**Gur-Şad** - Öz əllərimlə dəfn edib, Selcan qarşısında son borcumu yerinə yetirdim.

**Banuçiçək** –Bəs yurdunu niyə yandırdın?

**Gur-Şad** –Bundan sonra o kimə lazımdır?

**Banuçiçək** –Oğluna... İltərişə...

**Gur-Şad** (*uşağı ona uzadıb)* - Al... bu sənə əmanətdir. Səni də, bu cocuğu da Göy Tanrıya tapşırıram. *(Əllərini göyə qaldırıb nəsə deyir).*

(Kənarda durmuş Yan-Çunq Siyan-Şinin çalğıçıları ilə söhbət edir.)

**Yan-Çunq** –Camaat arasında nə söhbət gedir?

**I çalğıçı** –Selcana görə hamı yasa batıb.

**Yan-Çunq** –Bəs orduda nə var?

**II çalğıçı**–Gur-Şadın zindana atılması ordunu çaş-baş salıb.

**Gur-Şad** *(İltərişi və Banuçiçəyi öpüb, gözətçilərə)* - Haydı, getdik!

**Banuçiçək** –İltərişdən arxayın ol! Mənim bir yox, iki oğlum

var. *(Üzünü göyə tutur.)* Göy Tanrı, sən neylədin? O, bu cəzaya layiq idimi? Niyə sən ona bunu rəva bildin, niyə?

(İçgen xatunla Qara xaqan Banuçiçəyə yaxınlaşır).

**Banuçiçək** –Gözünüz aydın. Göytürkün iki çinarını birdən yıxdınız. Burda sizə rəqs etmək düşür. Elə Çin gözəlinin çalğıçıları da burdadır. Çalın, bu gün bunların bayramıdır. *(Qara xaqan əsəbiləşib gedir.)* casusluqla xatunluğu çox böyük məharətlə bağlayan Çin mələkəsinin qarşısında səcdəyə gəlmək də mənə düşür.

**İçgen xatun** –Banuçiçək, sən çox ağıllı qadınsan, amma sözlərinə fikir ver. Mənim, sənin ərini ölümdən xilas etdiyimi unutma.

**Banuçiçək** –Sən doğrudan da, elə güman edirsən, biz türklərin hamısı sadəlövhdür?

**İçgen xatun** –Sən, ərinə tor quran Gur-Şada və onun küçüyünə havadarlıq etməklə sadəlövhdən beş betərsən. Camaat sənin barəndə nə fikirləşər?

**Banuçiçək** –Bizlərdə qayın qardaş, sizlərdə isə oynaşdır. Bunun ən gözəl örnəyini sizlər ərini öldürüb qaynına ərə getməklə göstərdiniz.

**İçgen xatun** –Mənim günahım sizin törənizə əməl etməyimdir? Qəribədir, sizin törənizə əməl edənlərin hamısına belə damğa vurursunuz? Bərk saxla o qucağındakı küçüyü, böyüyər gələr dediyin o qardaş-qayın məsələsini qaydasına salar.

**Banuçiçək** –Əlbəttə. Axı, bu Yağmur deyil. Bunun damarlarında əsl türk qanı axır.

## DOQQUZUNCU ŞƏKİL

(Xaqanın çadırı. Xaqan və Mubi-Tərxan. Gözətçi gəlir.)

**Gözətçi** –Zindan gözətçisinin sözü var.

(Kaftanı qan içində gözətçi gəlir, yerə diz vurur).

**Zindan gözətçisi** –Ulu xaqan, əfv et, yanında üzü qarayıq.

**Qara xaqan**–Bu nədir? Nə olub?

**Zindan gözətçisi**–Dünən gecə yarısı üzləri yaşmaqlı 5-6 adam zindanın qapısını açıb girdi içəri.

**Qara xaqan**–Bəs çöldə gözətçilər yox idi?

**Zindan gözətçisi**–Onları öldürüblərmiş. İçəri girən kimi Dulu xanın yatdığı zindanı axtardılar. Mən onlardan birini yaraladım. Üçü birdən üstümə atıldı. Başıma toppuzu elə vurdular ki, yerimdəc qaldım... Bir vaxt ayılıb baxdım ki, Dulu xan yoxdur.

**Qara xaqan** – Bəs Gur-Şad?

**Zindan gözətçisi** - Onun da yatdığı zindanın qapısını açıblar.

**Qara xaqan**–Onu da aparıblar?

**Zindan gözətçisi**–Yox... O öz yerindədir.

**Qara xaqan** - Qapısı açıqdırsa, niyə getməyib?

**Zindan gözətçisi**–Bilmirəm. Oturub öz yerində.

**Qara xaqan** - Ay axmaq, dustağı gözətçisiz qoyub bura niyə gəlmisən?

**Zindan gözətçisi**–Arxayınam, qaçmaz.

**Qara xaqan** – Niyə qaçmaz?

**Zindan gözətçisi**–Qaçsaydı, gecədən, mən huşsuz olanda qaçardı.

**Qara xaqan**–Get, bu saat onu gətir. *(Gözətçi gedir.)* Gör, bizim başımıza nə oyun açırlar? Kim olar, görəsən, onu qaçıran? *(Sükut.)* Niyə susursan? *(Sükut.)* Mubi-Tərxan, gözlərimin içinə dik bax!

**Mubi-Tərxan**–Yoxsa, məndən şübhələnirsən?

**Qara xaqan**–Təkcə səndən yox, hamıdan! Nə baxırsan? Mubi-Tərxan, o günkü Divanda onları qanadın altına alan sən deyildin?

**Mubi-Tərxan**–Əvvəla, qaçan bir nəfərdir. İkincisi, Divana qanunu xatırlatmaq nə vaxtdan müqəssiri müdafiə hesab olunub?

(Gözətçi Gur-Şadı gətirir. Gur Şad yerə diz vurur.
Qara xaqan qalxıb Gur-Şada tərəf gedir, onu qaldırır.)

**Qara xaqan**–Gur-Şad, əvvəla başımız sağ olsun. Mən Selcanın belə bir iş tutacağını gözləmirdim... *(Sükut.)* Gecəki əhvalata sən necə baxırsan? Kim ola bilər Dulu xanı qaçıranlar? Sən o adamları ta-

nımadın?

**Gur-Şad** –Yox! Başlarında örtük var idi. Amma çinli olduqlarına şübhəm yoxdur.

**Qara xaqan** –Nədən bilirsən?

**Gur-Şad** –İki şeydən: birincisi, boyları qısa idi, ikincisi heç danışmadılar. Danışsaydılar, ləhcələrindən çinli olduqları bilinərdi.

**Mubi-Tərxan** –Mən bir şeyə təəccüblənirəm. Dulu xan 2 gecə zindanda tək olub. Əgər onlar yalnız Dulu xanı qaçırtmaq istəyirdilərsə, nə üçün o, zindanda tək olanda deyil, Gur-Şad zindana qayıdandan sonra bu əməliyyata başlayıblar?

**Gur-Şad** –Çünki onlar Dulu xanı qaçırmaq, məni isə öldürmək istəyirdilər. Onlar əvvəlcə Dulu xanı azad edib, sonra mənim hücrəmə hücum etdilər. Bunu görən Dulu xan onların qarşısını kəsib məni öldürməyə qoymadı... və mənə "Bizimki qalsın sonraya", - deyib getdi.

**Mubi-Tərxan** –Yaxşı, zindanın qapıları açılmış, gözətçilər də yox... Bəs sən niyə qaçmadın?

**Gur-Şad** –Özünü günahkar sayan cəzadan qaçar.

(Qara xaqan dərin fikrə gedir.)

**Qara xaqan** *(Gur-Şada)*–Varislik haqqın əlindən alınmaq şərtilə mərdliyinə görə səni bağışlasam necə olar?

**Gur-Şad** –Bir halda ki, mən özümü günahkar hesab etmirəm, siz olmayan şeyin nəyini bağışlayırsınız?

**Qara xaqan** – Gəl, bu məsələyə təzədən qayıtmayaq.

**Gur-Şad**–Siz mənim günahkar olduğumu bütün Türk elinə bəyan etmisiniz. İndi Divanın hökmü ilə mənim günahkar olmadığımı millətə bildirməyincə mən zindandan çıxan deyiləm. Mən sizdən mərhəmət deyil, qanuna riayət tələb edirəm.

**Qara xaqan**–Qanunla günahkarsan. Bizim mərhəmətimizi qəbul etmirsənsə, buyurub gedə bilərsən.

(Gur-Şad gedir. İşıq sönür, yenə yanır. Arxadan Arslanın harayı eşidilir.)

**Arslan** –Böyük xaqan! *(Daxil olur)* Ulu xaqan, bu gün səhər Çin ordusu ölkəmizə basqın etmişdir.

(Yan-Çunq daxil olur.)

**Qara xaqan**–Əhdnamə bağlanandan sonra bu nə hücumdur, Yan-Çunq?

**Mubi-Tərxan**–Burada başa düşülməyəsi bir şey yoxdur. Müharibələrin tarixində bu, çox adi məsələdir.

**Qara xaqan**–Hunlardan üzü bəri dədələrimiz nə zaman bir ölkə ilə müqavilə bağlayıb, sonra o ölkəyə hücum edib?

**Mubi-Tərxan** - O, bizik, ona görə bizə türkəsaya deyirlər. Amma tarix boyu qonşularımız çox vaxt bizi aldadıb müqavilə bağlamış, sonra da... belə...

**Yan-Çunq**–Bu, təxribatdır, yalandır. Atam buna yol verməz. (Gedir.)

**Qara xaqan**–Arslan, Çin ordusu hara qədər gəlib?

**Arslan** – Ötükənin 7 ağaclığına qədər.

**Qara xaqan**–Müdafiə necədir?

**Arslan**–Kutlu dağının ətəyində hücumun qarşısı alınıb. Amma başqa cinahdan da hücum gözlənilir.

**Qara xaqan**–Əmrimi dinləyin: Əli silah tutanlar atlansın, hamı Orxun çayının sahilinə toplansın. Ötükənin bütün dəmirçiləri səfərbər olsun.

**Arslan**–Xaqan! Biz qəfləti yaxalanmışıq. Həm də ordunun maddi təchizatı çox zəifdir. Atlarımız çatmır. Nizələr, qalxanlar təmir olunmalıdır. Əlavə toplaşanlar üçün 3 tümənbaşı lazımdır. İkisi var: biri Buğra, o biri Erkin... izn versəniz, üçüncüsünə mən başçılıq edərdim.

**Qara xaqan**–Qardaşımın da arzusu səni tümənbaşı görmək idi.

**Mubi-Tərxan**–Bu üç tüməni döyüşə aparmaq üçün bizə təcrübəli Başbuğ lazımdır.

**Qara xaqan**–Tümənbaşılardan birini seçmək olmazmı?

**Arslan** - Yox!

**Qara xaqan**–Bəs kim?

(Erkin gəlir.)

**Arslan**–Mən sol cinahın hücumunu dəf etməyi boynuma götürürəm. Amma belə düşünürəm ki, bizim başımızı qatıb əsas

qüvvələrini sağ cinaha yönəldəcəklər. Bu cinahda bizə müharibə elminin bütün incəliklərini bilən qüdrətli bir Başbuğ lazımdır.

**Q a r a  x a q a n** –O kim ola bilər?

**A r s l a n** –Yalnız və yalnız Gur-Şad!

**E r k i n** –Mən də o fikirdəyəm.

**M u b i - T ə r x a n** –Elə bu Divan məclisində biz Gur-Şadın günahsız olduğunu elan etməliyik.

**Q a r a  x a q a n** –Günah sübut olunub. Biz qərarımızı necə dəyişə bilərik?

**M u b i - T ə r x a n** –Sübutun doğru, yaxud uydurma olduğunu məhkəmə müəyyənləşdirəcək.

**E r k i n** –Heç buna ehtiyac yoxdur. Biz Gur-Şadı yaxşı tanıyırıq. Vətən təhlükə qarşısında olanda, o heç vaxt özünü düşünməmişdir. Bunu mənə tapşırın.

## ONUNCU ŞƏKİL

(Q a r a  x a q a n ı n çadırı. Ətrafında silahlı gözətçilər. Çadırın qarşısında Q a r a  x a q a n, Y a n - Ç u n q  v ə  M u b i - T ə r x a n. I çapar gəlir, yerə diz vurur.)

**I  ç a p a r** –Sol cinahda Erkinin tüməni Çin ordusunu mühasirəyə aldı. Düşmən mühasirədən çıxmağa can atsa da, faydası olmadı. Erkinin zərbələrinə dözməyən düşmən geri çəkilir. *(Gedir.)*

**Q a r a  x a q a n** –Bu çox yaxşı.

**M u b i - T ə r x a n** –Səhərə az qalır. Kəşfiyyatçıların gətirdiyi xəbərə görə, çinlilər sağ cinaha ordu toplayır. Belə olsa, Gur-Şad davam gətirə bilməyəcək.

**Y a n - Ç u n q** –Doğrudur. Sağ cinahı möhkəmlətmək lazımdır.

**Q a r a  x a q a n** –Nə ilə?

**I I  ç a p a r** *(gəlir)*–Erkin dedi ki, bu cinahdan arxayın olsunlar. Amma əgər ehtiyat qüvvəniz varsa, sağ cinaha - Gur-Şada göndərin.

**Q a r a  x a q a n** - Bizim ehtiyat gücümüz hardaydı?

**I I  ç a p a r** –Çinlilər sağ cinaha əlavə qoşun gətirdilər. Bu qoşun bölmələri Gur-Şada arxadan zərbə vura bilər. *(Gedir.)*

**Q a r a  x a q a n** - Mubi-Tərxan, tədbirin nədir?

**M u b i - T ə r x a n** –Sol cinahdan bir tümən ayırıb Gur-Şada göndərməkdən başqa ayrı əlac görmürəm.

**Y a n - Ç u n q** –Başqa yol yoxdur.

**Q a r a x a q a n** –Erkinin zəifləməsini hiss edən düşmən sol cinahdan hücuma keçə bilməzmi?

**Y a n - Ç u n q** –İnanmıram. Çünki sol cinahda bizimkilər onların gözünün odunu alıb.

**Q a r a x a q a n** *(Yan-Çunqa)*–Onda Erkinə xəbər göndər, bir tümən ayırıb Gur-Şada köməyə göndərsin.

**Y a n - Ç u n q** –Buyruq sənindir *(Gedir.)*

**Q a r a x a q a n** –Mən bir şeyi başa düşə bilmirəm. Bizim bu dağ keçidlərini çinlilər hardan tanıyır? Bu ayaqdəyməz yerlərdən necə ustalıqla keçib gələ biliblər? Elə bil bu dağlarda doğulublar.

**A r s l a n** *(Qışqıra-qışqıra gəlir)* – Bəd xəbər gətirmişəm, Böyük xaqan! Sağ cinahda Gur-Şada qarşı döyüşən Çin ordusunun başında Dulu xan durur.

**Q a r a x a q a n** –Necə? Dulu xan? Mən qulaqlarıma inana bilmirəm. Bu necə ola bilər? Adam öz vətənini düşmənə necə sata bilər?

**M u b i - T ə r x a n** –Adamın gözlərini hakimiyyət ehtirası tutanda doğmaca qardaşının da başını kəsə bilər.

(Söz Q a r a x a q a n a sillə kimi dəyir).

**Q a r a x a q a n** –Doğru deyirsən. Habildən, Qabildən üzü bəri niyə belə olur, Mubi-Tərxan? Niyə?

**A r s l a n** *(işarə ilə)*–Onu bura gətirin!

(I çapar təpədən-dırnağa qədər silahlanmış B a n u ç i ç ə y i çəkə-çəkə gətirir.)

**Q a r a x a q a n** –Bu nədir? Sən kimsən?

**A r s l a n** –Gur-Şad tapşırdı ki, bunu döyüşdən çıxarım. Bu isə əmrə tabe olmaq istəmir. Özü də yaralıdır.

**Q a r a x a q a n** *(Banuçiçəyə)*–Kimsən?

**A r s l a n** – Banuçiçəkdir. Dulu xanın arvadı.

**Q a r a x a q a n** –Belə de... Deməli, sən qaynınla çiyin-çiyinə verib ərinə qarşı vuruşursan.

**B a n u ç i ç ə k** –Necə? Dulu xan düşmən tərəfdədir? *(Sükut.)* Mənim o adda ərim yoxdur.

**Q a r a  x a q a n** –Halal olsun sənə, Türkelinin əkməyi! Bəs oğlun Urku Tekin hardadır?

**B a n u ç i ç ə k** –Əmisi ilə birlikdə düşmənə qarşı vuruşur.

**Q a r a  x a q a n** –Afərin! Çulo xaqanın nəvəsi elə belə də olmalı idi.

**A r s l a n** –Xaqan, mənə izn ver, gedim.

**Q a r a  x a q a n** –Gur-Şada xəbər göndər, arxayın olsun. Ona kömək gələcək. *(Arslan gedir. Gözətçiyə.)* Banuçiçəyi apar, yarasını bağlasınlar.

**B a n u ç i ç ə k** –Xaqan, mənə izn ver, qayıdım öz yerimə.

**Q a r a  x a q a n** –Yaranı bağla, sonra get, qızım.

(G ö z ə t ç i  B a n u ç i ç ə y i  aparır, I I  ç a p a r gəlir.)

**I I  ç a p a r** –Xaqan, Qobu təpəsinin üstündə kimsə tonqal qalayıb. Sol cinahdakı Çin tərəfə odla nəsə işarələr verir.

**Q a r a  x a q a n** –Bu nə deməkdir, Mubi-Tərxan?

(M u b i - T ə r x a n  soldakı müşahidə təpəsinə qalxır.)

**I I  ç a p a r** –Tonqalı söndürmək üçün ora adam göndərdik.

**M u b i - T ə r x a n** *(təpənin üstündən)*–Çapar düz deyir. Kimsə işıqla Çin tərəfə işarələr verir... Bizimkilərin gəldiyindən duyuq düşüb odu söndürdülər.

**Q a r a  x a q a n** –O xain kim ola bilər?

**M u b i - T ə r x a n** –Ölkədə nə çoxdur Çin casusu...

**Q a r a  x a q a n** –O casus dediyin Çin tərəfə nə xəbər göndərə bilər?

**M u b i - T ə r x a n** –Erkin tərəfdən bir tümən qoşunun sağ cinaha keçməsi xəbərini... Bu yolla Ardıncın ətəyindən onların qabağını kəsib mühasirəyə ala bilərlər.

**Q a r a  x a q a n** –İndi nə edə bilərik?

**M u b i - T ə r x a n** –Burda başqa bir təhlükə də var: Erkin tərəfdən bir tümən ordunun sağ cinaha yönəldiyini bilən düşmən son cinahdan yenidən hücuma keçə bilər.

**Q a r a   x a q a n** –Ora çapar göndərmək lazımdır!

**M u b i - T ə r x a n** –Gecdir.

(Y a n - Ç u n q  gəlir).

**Y a n - Ç u n q** –Əmri yerinə yetirdim.

**Q a r a   x a q a n** –Yan-Çunq, Qobu təpəsindən sol cinahdakı Çin ordusuna verilən işıq işarələrini gördünmü?

**Y a n - Ç u n q** –Xeyir, görmədim.

**Q a r a   x a q a n** –Amma biz gördük.

**M u b i - T ə r x a n** –Yan-Çunq, Çin heroqlifində bir dairə, yanında da uzun xətt nə deməkdir?

**Y a n - Ç u n q** –Çin heroqlifində elə hərf yoxdur.

**M u b i - T ə r x a n** –Aydındır, amma mən sizin heroqlifi çox yaxşı bilirəm. Xaqan, izn ver, özüm bildiyimi eləyim.

**Q a r a   x a q a n** –Get.

(M u b i - T ə r x a n  gedir. I çapar gəlir).

**I   ç a p a r** –Xaqan, Erkinin göndərdiyi tümən Ardınc dağından ayrılan kimi, Çin ordusu meşədən çıxıb onları mühasirəyə aldı.

(I I  ç a p a r  gəlir).

**I I   ç a p a r** –Gur-Şadın ordusu pərən-pərən düşüb geri çəkilir. *(Gedir.)*

**Q a r a   x a q a n** –Bəs bu xəbərlərə necə baxırsan, Yan-Çunq?

**Y a n - Ç u n q** –Erkinin qələbə çalmasına, Gur-Şadın məğlub olmasına necə baxır bəs xaqanın özü?

**Q a r a   x a q a n** –Demək, Çin ordusu bütün gücünü Gur-Şada tərəf yönəldib.

**Y a n - Ç u n q** –Sənə bu qədər düşmən olan bir adama inanmağın qəribədir.

**Q a r a   x a q a n** –Hər halda, Gur-Şad vətən torpağını satmaz.

**Y a n - Ç u n q** –Amma səni satar. Sən onu zindana salmısan, zövcəsini öldürmüsən. O səndən atasının qisasını almaq üçün fürsət axtarırdı. İndi əlinə düşüb... Bir də unutma ki, bütün Türkeli ona vəliəhd kimi baxır. Dulu xansa vətəni satıb, o tərəfə keçib.

**Qara xaqan**–Əgər düşmən tərəfə keçib öz millətinə qarşı vuruşmağı sən də xəyanət sayırsansa, bəs sənin bu tərəfə keçib öz millətinə qarşı vuruşmağına nə ad verək?

**Mubi-Tərxan** *(gəlir)*–Dediyim oldu. Erkinin göndərdiyi tüməni çinlilər dövrəyə aldı. Sol cinahdan da Çin süvariləri hücuma keçdi.

**Qara xaqan**–Vəssalam! Çin bizi tələyə saldı.

(Yaxınlıqda döyüş səsləri və Gur-Şadın - "Arslan, qərargaha yürü! Xaqanı xilas et!" – sözləri eşidilir. İşıq sönür, uzaqdan döyüş səsləri eşidilir. Bir azdan işıq yanır. Mubi-Tərxan və Qara xaqan əllərində qılınc heykəl kimi dayanmışlar. Çöldə at kişnəyir, yanında iki döyüşçü Arslan gəlir).

**Arslan**–Xaqanı ata mindirin, qaçırın, o, ələ keçməməlidir.

(Döyüşçülər Xaqanı və Mubi-Tərxanı aparır. Arslan çadırın başına sancılmış dövlət tuğunu və bayrağını çıxarıb gedirkən arxa tərəfdən Çin əsgərləri gəlir. Arslan qılıncını sıyırır. Əsgərlərin birini vurub yıxır, üç əsgərə qarşı tək vuruşur. Çin zabitinin qarşısında Qara xaqan və Mubi-Tərxan gəlir. Arslanı dövrəyə alıb tuturlar).

**Çin zabiti**–Daha məğlubsunuz. Təslim olun! Silahlarınızı atın! (Yan-Çunqu görüb təzim edir). Şahzadə!

**Yan-Çunq**–Ey, Çin bayrağını gətirin! Asın burdan!

(Çin əsgəri Çinin dövlət bayrağını çadırın başına sancır. Kaftanı cırıq-cırıq, üzündə qan ləkələri Gur-Şad, Banuçiçək və başqa döyüşçülər Çin əsgərlərinin qarşısında səhnəyə gəlir).

**Yan-Çunq**–Xaqandan başqa hamısının silahını alın! (Silahları yığırlar. Əlində qılınc, qalib ədasilə Dulu xan gəlir,

Yan-Çunqa tərəf gedib, onu qucaqlayır).

**Arslan**–Düşmən ordusunun başında öz ölkəsini işğal edən qəhrəmana eşq olsun! Doğmalarına düşmən olub, düşməni qucaqlayan Vətən oğluna eşq olsun!

**Gur-Şad**–Arslan, namərddən mərdlikmi umurdun?

**Dulu xan**–Gur-Şad, axı, mərdlikdən danışmağa sənin haqqın yoxdur. Sən mənimlə mərd-mərdanə savaşmaqdan çəkinib atamızın qatili ilə mənim əleyhimə sazişə girdin. Mən də səndən öyrənib sənin

xəyanət silahına əl atdım və səni xəyanətlə yıxdım. İndi sənə qalib kimi əmr edirəm: Diz çök mənim qarşımda!

**G u r - Ş a d** –Qardaş qanı tökməmək üçün mən o zaman səninlə döyüşməkdən çəkindim. İndi görürəm ki, səhv eləmişəm. Əgər o zaman gələcəkdə Vətən xaini olacaq bir namussuzun qanını töksəydim, bu gün Vətən torpağı düşmən tapdağına çevrilməzdi. İndi isə əgər zərrəcə kişiliyin qalıbsa, qılıncımı qaytar, mərd-mərdanə vuruşaq.

**D u l u x a n** –Mərd sən deyilsən, yenə mənəm. Səni zindanda ölümdən xilas etdiyimi unutdunmu? O zaman səni bu gün üçün qorumuşdum ki, səninlə haqq-hesabı çürüdüm.

**G u r - Ş a d** –Əgər doğrudan da mərdsənsə, silahımı ver, haqq-hesabı kişi kimi çürüdək.

**D u l u x a n** –Qalib sərkərdə məğlub sərkərdə ilə eyni hüquqda deyil. İndi mən məğlub etdiyimlə eyni hüquqda savaşsam, alçalmış qarşısında alçalmış olaram. Məğlub, qalib qarşısında diz çökməyə məcburdur. Əgər könüllü diz çökməsən, bu qılıncla ayaqlarını doğrayıb səni diz çökdürəcəyəm.

**G u r - Ş a d** –Silahsız əsgərin üstünə qılınc qaldırmaq hələ tarixdə kişilik sayılmayıb. Nakişiliyi boynuna götürürsənsə, vur!

(G u r - Ş a d irəli gəlir. D u l u x a n qılıncını qaldırarkən, E r k i n özünü irəli atır. D u l u x a n qılıncını havada saxlayır).

**E r k i n** –Sən neyləyirsən?

**D u l u x a n** –Erkin! Sən də burdasan?

**E r k i n** –Bəs mən harda olmalıydım?

**D u l u x a n** –Sus! *(Gur-Şada)* Qurban olasan Erkinə. İndi get, əsirliyini çək!.. *(Erkini Çin əsgərlərinə göstərir.)* Onu azad edin!

**E r k i n** –Xeyr, onlar hara, mən də ora.

(Y a n - Ç u n q D u l u x a n ı kənara çəkir. Bu məqamdan faydalanan G u r - Ş a d dərhal E r k i n ə yanaşır.)

**G u r - Ş a d** –Erkin, o, sənə inanır, sən onunla qalmalısan.

**E r k i n** - Bu, mümkün deyil. Mən sizinlə gedəcəyəm.

(G u r - Ş a d E r k i n i n qulağına nəsə deyir, onu razı salmağa çalışır. D u l u x a n Çin zabitinə yaxınlaşır, nəsə məsləhətləşirlər. Y a n - Ç u n q M u b i - T ə r x a n a yaxınlaşır).

**Yan-Çunq**–Mubi-Tərxan, sən alim adamsan. De görək, bu dünya nəyin üstündə bərqərardır?

**Mubi-Tərxan**–Sən de görək, Çin heroqlifində bir xətt və bir dairə nə deyən sözdür? Yəni, sol cinah zəiflədi, bu cinahdan hücuma keçsəniz, düşməni mühasirəyə ala bilərsiniz? Eləmi? Həmən bu işarə ilə də bizi mühasirəyə alıb məğlub etdiniz.

**Yan-Çunq**–Axı, bu mənim sualımın cavabı olmadı.

**Mubi-Tərxan** - Başa düşmədin? Siz bizi hiylə ilə, namərdliklə məğlub etdiniz. Deməli, sənin üçün bu dünya hiylə və namərdlik üzərində qurulub. Biz türklər üçün isə bu dünya mərdlik və kişilik üzərində bərqərardır.

**Yan-Çunq**–Bizim qələbənin səbəblərini indi araşdırmağa ehtiyac yoxdur. *(Ucadan.)* Ey dəmir əridən kölələr! Siz hamınız möhtəşəm Çin dövlətinin əsirlərisiniz. Özünüzü əsir kimi aparın. İndi sizi qoyun sürüsü kimi qabağa qatıb aparacaqlar.

**Arslan**–Soruşmaq ayıb olmasın, hara aparacaqlar bizi?

**Çin zabiti**–Birbaşa Gündoğar ölkəsinə - Siqanfuya!

**Arslan**–Demək, qarğalar qartalları əsir aparır.

**Yan-Çunq**–Yumun onun ağzını!

(Çin əsgərləri Arslanı vurmaq istəyir. Banuçiçək onlara hücum çəkir. Dulu xan onu görüb tanıyır.)

**Dulu xan**–Dayanın!

**Banuçiçək**–Bizə ürəyi yanana bax! Ay zavallı, sən indi anasını öldürən namərd bir oğula bənzədiyini bilmirsən?

**Dulu xan**–Banuçiçək, mən... sənin oğlunun atasıyam... Bəs hanı Urku-Tekin?

**Banuçiçək**–Vətən xaini mənim oğluma ata ola bilməz.

**Dulu xan** – Mən indi xaqanam, o da mənim vəliəhdim.

**Qara xaqan**–Çin xaqanının əl tulası! Sən hansı məmləkətin xaqanısan? *(Çadırın başına sancılmış Çin bayrağını göstərir.)* Ay yazıq! Özgə bayrağın kölgəsində də xaqanlıq olar?

**Dulu xan**–Ey qardaş qatili, sən nə doğrayıb-tökürsən? Sənin mənimlə danışmağa üzün də var? Gur-Şad səninlə əlbir olduğundan

atamın qisasını səndən almaq istəmədi. O zaman mən səndən təkbaşına qisas alacağıma and içmişdim. O gün gəlib çatdı. Sən xaqanlığı atamın əlindən xəyanətlə almışdın. Mən də başqa cür xəyanətlə xaqanlığı sənin əlindən aldım.

**Q a r a x a q a n** –Haqlısan! Nə tökərsən aşına, o da çıxar qaşığına! İkimiz də xainik. Amma sən bu iki xəyanətin arasındakı fərqi görə bilmirsən: mən qardaşıma xəyanət etmişəm, sənsə ulu dədələrimizin bizə əmanət verdiyi torpağa. Soruşuram: hansı daha böyük xəyanətdir?

**Y a n - Ç u n q** –Dulu xan Vətəninə xəyanət etməyib. O, Vətənini sənin kimi qardaş qatilindən xilas edib. Sənin xaqanlığın bitdi. Xaqan qılıncını Dulu xana təslim et!

**Q a r a x a q a n** *(qılıncı belindən açır)*–Bu qılınc Göytürk dövlətinin qurucusu Bumin xaqanın qılıncıdır. İki yüz ildir ki, bu, Türk dövlətinin xaqanlıq rəmzidir. Bu qılınca sahib olan xaqandır, xaqan olan bu qılınca sahibdir. Bu qılınc heç mənə də yaraşmırdı. Onun rəmzliyi qardaşım Çulo xaqanda bitmişdi.

İndi mən bu rəmzi başqa dövlətin qulu olan bir şərəfsizə təslim etmərəm. İndi mən bu qılıncla məndən başlanan xəyanətin başını kəsməliyəm. Bax, belə!

(Qılıncı öz başına endirib yıxılır, qılınc yerə düşür. Hamı onun ətrafına toplaşarkən, D u l u x a n qılıncı qınına qoyub götürür.)

**B a n u ç i ç ə k** –Öz qılıncımız niyə özümüzü kəsir, Göy Tanrı?

**G u r - Ş a d** –Niyə belə elədin, əmi?

**M u b i - T ə r x a n** –O, düz elədi, Göytürk xaqanının əsir yaşamasından ölməsi yaxşıdır. O, özü öz cəzasını verdi... Odur ki, yerə düşmüş Göytürk bayrağını çəkin onun üstünə. Doğma adamlar zəhərli həşəratlar kimi bir-birini qıranda, xeyirxahlıq edib onların günahından keçmək lazımdır.

(G u r - Ş a d bayrağı Q a r a x a q a n ı n üstünə çəkir.)

**A r s l a n** –Çulo xaqan, biz bir zaman çinar idik, kol olduq, Babamızın qul etdiyi bir millətə qul olduq.

## ON BİRİNCİ ŞƏKİL

(Pərdənin qarşısı. Sol və sağ tərəfdən carçılar çıxır, borular çalınır.)

**I carçı** –Ötükən əhli, eşidin və agah olun. Bu gün Dulu xaqanın hakimiyyətə gəlməsinin beşinci ili tamam olur.

**II carçı** –Dulu xaqan Ötükən əhlini baş meydana bayram şənliklərinə çağırır.

(Pərdə açılır. Dulu xaqan var-gəl edir. Arxadan kişi xorunun səsi eşidilir).

**Xor** –Düşdün tora, çıxmaq üçün ordan hünərin yox,
–Vicdanını yıxdın yerə, amma zəfərin yox.
–Xaqanlığa çatdın, buna sən çox da öyünmə,
–İnsan kimi alçaldın, özündən xəbərin yox.

**Erkin** *(gəlir)*–Xaqan razı qaldımı bayramımızdan? Heç bir xaqan öz gəlişinin beş illiyini belə təntənəli qeyd eləməmişdi. Hədiyyələri verdim xəzinəyə. Qırğız xaqanının hədiyyəsini isə götürdüm. Bu, həmişə sənin yanında olmalıdır. Bu oxqabının qiyməti daş-qaşında deyil, üstündəki yazıdadır... "Ey türk, sənin gücün birliyindədir". Babamız Metenin sözləridir.

**Dulu xaqan** –Çinin namərdliyini gördünmü? Saymadı bizim bayramımızı!

**Erkin** –Mən sənin qanını qaraltmaq istəmədim. Səhərə yaxın Yan-Çunq gəlib, keçən ay köçürülən çinlilərin düşərgəsində dayanıb, onların durumu ilə məşğuldur. Yəqin ki, bayramımızı kutlama məclisində qonşu türk dövlətlərinin elçiləri olduğunu eşidib, şənliyə gəlmədi.

**Dulu xaqan** –Sən ki, bunu bilirdin, gərək mənə deyəydin. Dalınca elçi göndərərdik. *(Sükut.)* Qonaqların hamısı getdimi?

**Erkin** –Səninlə görüşəndən sonra Uyğur, Tabqaç, bir də 9 oğuz xaqanlığının elçilərini yola saldım. Qırğız elçisi hələ bir həftə bizim qonağımızdır.

(Çöldən qadın səsi eşidilir.)

**Dulu xaqan** –Bu, nə səsdir?

**Erkin** –Siyan-Şidir. Üç gündür gəlib, səni görmək istəyir.

**Dulu xaqan** –Siyan-Şi? Xeyir ola? Qoy gəlsin!

**Erkin** (bayıra) –Xaqan əmr edir, o qadını buraxın!

(**S i y a n - Ş i** gəlir və baş əyir.)

**S i y a n - Ş i** –Dünənki sevgilimə, bugünkü xaqana salamlar olsun!

**D u l u  x a q a n** –Sözünü de! Nəyə gəlmisən?

**S i y a n - Ş i** –Mən sənin yanında günahkaram, Dulu xan. Mən səni həqiqətən sevmişdim. Mən indi sənin yanına gəlmişəm ki, səndən əfv diləyəm *(Sükut.)* Günahlarımı yumaq üçün məbədə getdim. Budda qarşısında diz çökdüm!... Günahlarımı boynuma aldım. Səs gəldi qulağıma. Budda dedi get, elədiyin xəyanət üçün Türk elində əfv dilə...

**D u l u  x a q a n** –Erkin, bunu yola sal!

**S i y a n - Ş i** –O ləçər İçgen xatun mənim əlimlə səni Gur-Şada düşmən elədi. O gündən bəri Gur-Şadın məni vicdana çağıran o yanıqlı sözləri qulağımda səslənir. Məni yaşamağa qoymur.

**E r k i n** –Bəlkə, bu da sənin növbəti tələndir?

(Gözətçilərə **S i y a n - Ş i n i** bayıra atmaq işarəsi verir).

**S i y a n - Ş i** –Dayanın! Mən xaqana qurulan təzə tələdən onu xəbərdar etmək istəyirəm. Gur-Şadın Siqanfuda qırx məsləkdaşının sənin oğlun Urku Tekinlə birlikdə üsyan qaldırdığından xəbərin varmı?

**D u l u  x a q a n** –Yox... Nə üsyan?

**S i y a n - Ş i** –Çin xaqanının həftənin salı günləri paltarını dəyişib təkbaşına gəzməyə çıxdığını Gur-Şad bilirmiş. O, dostları ilə bərabər xaqanı əsir götürmək qərarına gəlir. O, Ötükənə tam müstəqillik vermək şərtilə xaqanı azad edəcəyini bildirəcəymiş. Amma həmin salı günü Siqanfuda bərk tufan qopur, xaqan gəzməyə çıxa bilmir. Onda Gur-Şad İçgen xatunun evinə hücum çəkir, oğlu Yağmuru əsir götürüb Qırğızıstana, dayısının yanına gedir.

**D u l u  x a q a n** –Sonra?

**S i y a n - Ş i** –Sonra Gur-Şad Qırğız xaqanı ilə bərabər Çin xaqanına məktub göndərib Ötükənə müstəqillik vermək şərti ilə Yağmuru azad edəcəyini bildirir... İndi Çin sarayında hamı bir-birinə dəyib, Yağmuru xilas etmək üçün yollar axtarırlar.

**D u l u  x a q a n** *(Erkinə)*–Erkin, nec bilirsən, bunun dedikləri həqiqətə bənzəyirmi?

**E r k i n** –Hər halda Gur-Şad orda - Çin əsarətində sakit dura bilməzdi.

**D u l u  x a q a n** –Afərin, Gur-Şad, afərin! Bu çox yaxşı.

**E r k i n** *(Çadırdan bayıra baxır.)* - Yan-Çunq gəlir.

**D u l u  x a q a n** –Siyan-Şi, get, o səni görməsin.

**S i y a n - Ş i** –Axı, mən sözümü bitirmədim.

**D u l u  x a q a n** –Mən səni çağırtdıraram.

(S i y a n - Ş i arxa qapıdan çıxır. Y a n - Ç u n q gəlir, D u l u x a q a n qalxıb onu qucaqlamaq istəyir).

**Y a n - Ç u n q** –Dayan!

**D u l u  x a q a n** –Yan-Çunq, qardaşım, xoş gəldin. Sizi çox gözlədik. Bəs niyə gecikdiniz? *(Sükut.)*

**Y a n - Ç u n q** –Mən böyük Çin xaqanının elçisiyəm. Sən məni sərhəddə qarşılamalı idin

**D u l u  x a q a n** –Dövlət törəsinə görə xaqan, yalnız xaqanın pişvazına çıxar, elçinin yox!

**Y a n - Ç u n q** –Hanı sənin çadırının başında Çin bayrağı? Sən, axı, 5 il əvvəl Çinin himayəsini qəbul etmisən!

**D u l u  x a q a n** –Çinlə bağlanmış əhdnamədə Ötükənin müstəqilliyi təsdiq olunub.

**Y a n - Ç u n q** –Sən hələ bilməmisən ki, kölgəyə girənin... öz kölgəsi olmaz?

**D u l u  x a q a n** –Bilməmişdim, indi bildim.

**Y a n - Ç u n q** –Mən böyük Çin xaqanı Van-Xo-Çunqdan məktub gətirmişəm.

**D u l u  x a q a n** –Necə? Vəliəhd Van-Xo-Çunq artıq xaqandır? Çox gözəl, təbrik edirəm. Bəs bizi niyə tacqoyma mərasiminə dəvət etmədiniz?

**Y a n - Ç u n q** –Çünki sən çox böyük dövlət işləri ilə məşğul idin.

**D u l u  x a q a n** –Bu nə deməkdir?

**Y a n - Ç u n q** –Bu o deməkdir ki, sən Çin xaqanlığından iznsiz sərhədləri möhkəmləndirir, ordunu artırır, qonşu dövlətlərlə dostluq əlaqələri yaradırsan.

**D u l u  x a q a n** –Bəs bu məmləkətin sərhəddi, ordusu olmamalıdır? Mən qonşu dövlətlərlə düşmən olmalıyam?

**Y a n - Ç u n q** –Dulu xan, söz güləşdirmə!

**D u l u  x a q a n** –Əvvəla, mən Dulu xan deyil, Dulu xaqanam, ikincisi də sən xaqan qarşısında adi bir elçi olduğunu da unutma!

**Yan-Çunq** –Sən də böyük Çin dövlətinin himayəsində olduğunu unutma! Səni bu taxtda biz oturtmuşuq. Mən çadırımda məktubun cavabını gözləyirəm. *(Getmək istəyir.)*

**Dulu xaqan** –Məktubun cavabını elə indi də verə bilərik. (Erkinə.) Al, oxu!

**Erkin** *(Məktubu alıb oxuyur.)* - "Göytürk xaqanlığının beşinci ildönümü münasibətilə Dulu xaqanı salamlayır, ona bu səltənətin varisi haqqında düşünməsini məsləhət bilirəm. Çulo xaqanın oğlu, sənin kiçik qardaşın, mənim bacım oğlu Yağmur artıq Çində bütün elmlərə yiyələnmiş 15 yaşlı bir cəngavərdir. Bu bayram günündə onun Göytürk səltənətinə varis elan olunmasını səndən tələb edirəm".

**Dulu xaqan** –Tələb... edir... Bəs Çin xaqanı bilmir ki, mənim öz övladım, öz varisim var? Ən mühümü də odur ki, dövlətimizin Ana yasasına görə, türk qızından olmayan şahzadə bu səltənətə varis ola bilməz! Bizim cavabımız budur!

**Yan-Çunq** –Aydındır... Dulu xan... *(Çıxıb gedir.)*

**Erkin** –Yaxşı verdin cavabını. Mən düz beş ildir bu cavabı səndən gözləyirdim.

**Dulu xaqan** –Bunlar bizi axmaq yerinə qoyublar. Yağmur girovdur, bu da gəlib onun vəliəhdliyini tələb edir. Amma bu cavabımızdan qan iyi gəlir. Çin xaqanı ya üstümüzə qoşun çəkib Yağmuru burada oturdacaq...

**Erkin** –Yağmurun xaqanlığa yaşı çatmır.

**Dulu xaqan** –Onda atamın vəsiyyətnaməsini gözümə dürtüb, Gur-Şadı oturdacaqlar bu taxtda.

**Erkin** –Sən Gur-Şadı belə tanıyırsan?

**Dulu xaqan** –Bəs Çindəki ailəmin, oğlumun taleyi necə olacaq?

**Erkin** –Nigaran olma. Üsyandan qabaq Gur-Şad hər şeyi ölçübbiçibmiş... Üsyan baş tutmasa, onun yaxın adamlarının məhv ediləcəyini düşünüb, Banuçiçəyi, Urku Tekini və oğlu İltərişi Çindən çıxarmışlar. İndi onlar Ötükəndə Mubi-Tərxanın evindədir.

**Dulu xaqan** –Sən hardan bilirsən bunları?

**Erkin** –Sən taxta çıxandan bu yerə mən həmişə Gur-Şadla əlaqə saxlamışam.

**Dulu xaqan** –Düşmən ocaq başında imiş ki... Demək belə... Afərin Gur-Şada... Yaxşı... İndi biz neyləyək?

**E r k i n** - Bunu xaqan bilər.

**D u l u  x a q a n** –Bəs sən burda nəçisən?

**E r k i n** –Xaqan vəziri eşitməyəndə zavallı vəzir başına haranın külünü töksün? Üç il əvvəl Çin xaqanı xəracı artıranda mən dedim etiraz edək, sən qoymadın. Sonra qırx min Çin ailəsini Ötükəndə yerləşdirəndə dedim, buna yol vermək olmaz. Yenə məni eşitmədin. Hələ Qara xaqan dövründə qırğızlar bizə Çinə qarşı hərbi saziş təklif edəndə sən buna güldün. Amma Qırğız xaqanı Çinin məqsədini vaxtında başa düşüb, doqquz oğuzlarla birləşdi. İndi Çin bu iki türk xaqanlığına gözün üstə qaşın var deyə bilmir.

**D u l u  x a q a n** –Mən bu 5 ildə Çinin bütün əmrlərinə boyun əydim. Amma daha dözmək olmaz. Haqlısan, Erkin. Türk xaqanlarıyla sazişə girməkdən başqa yolumuz qalmayıb.

**E r k i n** –Hə, indi gəldin mətləb üstünə. Nə qədər ki, hakimiyyətdə deyildin, sən yalnız hakimiyyət uğrunda mübarizə aparırdın. Vətən və millətin istiqlalı heç yadına da düşmürdü. Çünki sən o vaxt nəyin bahasına olur-olsun, yalnız hakimiyyəti ələ keçirmək istəyirdin. Elə ki, hakimiyyəti qazandın, gördün ki, bu sən istədiyin hakimiyyət deyil. İndi sən tam hakim olmaq, heç kəsə tabe olmamaq üçün ölkənin istiqlalını düşünməyə başladın! İndi mənə izn ver, sabah Qırğız elçiləri ilə səfərə çıxım!

**D u l u  x a q a n** –Get, sənə uğurlar olsun... Mubi-Tərxana da xəbər elə, yanıma gəlsin.

(E r k i n  çıxır. Rəqs edib, mahnı oxuya-oxuya  M ə l ə k  gəlir).

**M ə l ə y i n  n ə ğ m ə s i –**

Düşdün tora, çıxmaq üçün ordan hünərin yox,
Vicdanını yıxdın yerə, amma zəfərin yox.
Xaqanlığa çatdın, buna sən çox da öyünmə,
İnsan kimi alçaldın, özündən xəbərin yox.
Qul millətə xaqan, özü quldan da rəzildir,
Qiymətli qılıncsan, dəyərin çox, kəsərin yox.
Şeytan əgər olmazsa, cəhənnəm boş olardı,
Şeytana inandın, a yazıq, öz qədərin yox.

## ON İKİNCİ ŞƏKİL

(Dulu xaqanın çadırı. Erkin gəlir.)

**Dulu xaqan** –Erkin, nə yaman gecikdin? Üzün gülür, deyəsən, xoş xəbərlə gəlmisən.

**Erkin** - Gözlədiyimdən də xoş. Doqquz oğuz xaqanı da ordaydı. Heç demə, Qırğız xaqanının qızını oğluna almaq üçün elçi gəlibmiş. Məni əhdnaməyə vəkil etdiyini dedim. Buna xaqanlar çox sevindilər və əhdnamə təzələndi.

**Dulu xaqan** –Şərtlər nədir?

**Erkin** -Birinci şərt: 3 türk soylu xaqanlıq bir-birinin müstəqilliyini tanıyır və hörmət edir. İkinci, bu üç dövlətin hansına hücum olarsa, qalan ikisi onun köməyinə gəlir. Üçüncüsü isə ticarət və mədəniyyət əlaqələri. *(Əhdnaməni Dulu xaqana verir.)*

**Dulu xaqan** –Gur-Şad da ordaydı?

**Erkin** –Bəli. Yağmurla da görüşdüm. Siyan-Şinin gətirdiyi xəbərlər doğru imiş. Gur-Şad da mənimlə gəldi, Mubi-Tərxangilə, uşaqları görməyə getdi.

(Çöldən təbil səsləri eşidilir.)

**Dulu xaqan** –Bu nədir?

**Mubi-Tərxan** –Bir sürü cin-coluğu ilə Çin zabiti təşrif gətirir. Təbilləri də özləri çalır. Qabaqda gələn İçgen xatuna oxşayır.

**Dulu xaqan** –Özüdür.

(İçgen xatun daxil olur).

**İçgen xatun** –Gündoğar ölkəsindən Ötükən xaqanına salamlar.

**Dulu xaqan** –Çin şahzadəsi xoş gəlib öz əski məmləkətinə... *(Ona əyləşmək üçün yer göstərir.)*

**İçgen xatun** –Xaqan, beş il əvvəlki şərtimizi xatırlayırsanmı? *(Sükut.)* Mən səni bu taxtda oturdacaq, sonra atanın vəsiyyətnaməsini sənə təhvil verəcək və səndən bir təvəqqem olacaqdı.

**Dulu xaqan** –Yadımdadır.

**İçgen xatun** –Mən dediklərimin ən vacibini elədim. Tanrıya şükür, sən artıq 5 ildir xaqansan. İkincisi, yəni atanın vəsiyyətnaməsini isə budur, sənə təhvil verirəm, o şərtlə ki, Yağmurun vəliəhdliyini elan

edəsən.

**D u l u x a q a n** –Mən bu təklifin cavabını qardaşınla göndərmişəm, yəqin ki, xəbərin var. Mən Ana yasamıza zidd gedə bilmərəm.

**İ ç g e n x a t u n**–Ana yasanıza görə, sən bu taxtda oturmamalı idin. Çünki xaqan atanın vəsiyyətini pozmaq yasaya ziddir. Mən bunu bildiyimdən səni hakimiyyətə gətirmək üçün atanın vəsiyyətnaməsini gizlətdim. Mən qadınlığımla dediyimi elədim. Bəs sən niyə əhdə vəfa qılmırsan?

**D u l u x a q a n**–Sən elə bilirsən ki, Gur-Şadın Yağmuru girov götürüb Qırğızıstana qaçırmasından bizim xəbərimiz yoxdur? Sən elə bilirsən ki, Gur-Şadın Qırğız xaqanı ilə bərabər Çin xaqanına göndərdiyi məktubda Ötükənin müstəqilliyini tələb etməsindən də xəbərimiz yoxdur? İndi sən oğlun Yağmurun vəliəhd elan olunmasını məndən tələb etməklə, Yağmuru girovluqdan xilas etmək istəyirsən. Sən oğlunun vəliəhdlik iddiasını indi, get, onu girov götürən Gur-Şaddan tələb et.

**İ ç g e n x a t u n**–Bu, sənin qəti sözündür? Mən sənə atanın vəsiyyətnaməsini gətirmişəm, Dulu!

**D u l u x a q a n**–İçgen, mənə verdiyiniz bu taxtda mən xalqın nifrətindən başqa heç nə qazanmamışam. Millətim mənim xəyanətimi bağışlamır. Vəsiyyətnaməni apar, sahibinə çatdır.

**İ ç g e n x a t u n**–Ay zavallı, onda məni müşayiət edən zabiti dinlə.

(İ ç g e n x a t u n u n işarəsi ilə Ç i n z a b i t i daxil olur. O, xaqana təzim etmir).

**E r k i n** - Elçi! Sizin mədəni adlandırdığınız Çində məgər xaqan qarşısında təzim etməyi sənə öyrətməyiblər?

**Ç i n z a b i t i**–Dulu xan! Mən sənə böyük Çin xaqanından fərman gətirmişəm.

**M u b i - T ə r x a n**–Ölkənizlə bağladığımız əhdnaməyə görə Çin Ötükənlə yalnız məktub dili ilə danışa bilər, fərmanla yox!

**Ç i n z a b i t i**–Ağsaqqal, 5 il əvvəl sənin Qara xaqana necə qulluq göstərdiyini gördük... Sözüm Dulu xanadır. Xan, sən gündoğar ölkəsinin həşəmətli xaqanı Van-Xo-Çunqun bu fərmanını məlaikənin yanında diz üstə qəbul etməlisən!

**D u l u x a q a n**–Həddini aşdın, tümənbaşı! Sən, dəfələrlə sizin burnunuzu ovan Göytürk xaqanı ilə danışırsan... Özünü elçi kimi aparmasan, gətirdiyin cızmaqaranı qəbul etməyəcəyəm!

**Çin zabiti**–Səninlə bu cür danışmağı mənə xaqanım özü əmr eləyib. Diz çök, fərmanı qəbul elə!

(Dulu xaqanla Mubi-Tərxan və Erkin təəccüblə bir-birinə baxır. Sükut.)

**Çin zabiti** – Əgər sən bu fərmanı diz üstə qəbul etməsn, sənin Çində əsir olan ailən edam olunacaq.

(Dulu xaqan mənalı şəkildə Mubi-Tərxana baxır.)

**Mubi-Tərxan** *(gülümsünür.)*–Yayın gərilməsi onun gücünü azaltmır, xaqan... Nə olar, doğru xəbər gətirən elçinin fərmanını o dediyi kimi də qəbul etmək olar...

**Dulu xaqan**–Mubi-Tərxan düz buyurur. Orda sizdən mədəniyyət və nəzakət öyrənən ailəmin xatirinə... *(Diz çökür, fərmanı elçidən alıb, Mubi-Tərxana verir).*

**Mubi-Tərxan** *(oxuyur.)*–"Böyük Çin xaqanından, bizi həmişə ehtiramla qarşılayan Çulo xaqanın oğlu Dulu xana! Sənin keçmiş arxan, dostun, mənim qardaşım Yan-Çunqa göstərdiyin böyük "hörmətdən" xəbərdar oldum. Verdiyin cavabdan məlum olur ki, sən Ana yasanızı əlində bayraq edib, Yağmurun Göytürk səltənətinə varisliyini qəbul etmirsən. Bil və agah ol: 5 il əvvəl səninlə atam arasında bağlanmış əhdnaməni ləğv edirəm. Çinin xaqanı dəyişdiyi kimi, əhdnamə də dəyişməlidir. Artıq sənin öz Ana yasan və öz törən yoxdur. Sən rəsmən Çin Ana yasasını, törəsini və dilini qəbul etməli, mənimlə yalnız Çin dilində yazışmalısan..." *(Sükut.)*

**Dulu xaqan**–Sonra nə çərənləyir?

**Mubi-Tərxan**–Yenidən 60 min Çin ailəsini Ötükəndə yerləşdirməyi əmr edir.

**Dulu xaqan**–Deməkk, siz bizim torpaqlarımızı yavaş-yavaş işğal edirsiniz?

**Erkin**–Onlar bizim torpaqlarımızı çoxdan işğal edib. İndi isə ruhumuzu, mənəviyyatımızı işğal etmək üçün çinliləri Ötükənə göndərir və bilir ki, Türkelinin əyanları öz övladları ilə Çin dilində qırıldatmağı şərəf bilir... Gənclərimiz çinlilər kimi geyinib-gecinir. Çin dilində danışır, onları yamsılayırlar.

**Dulu xaqan**–"Həşəmətli" gündoğar ölkəsinin bu tələblərini

qəbul etmək Göytürk xaqanlığının ölümü deməkdir. Yox, biz buna dözməyəcəyik. Mubi-Tərxan, cavabımı yaz: "Göytürk xaqanından Çin xaqanına! Bağladığımız əhdnaməni dəyişib Çin yasasını və törəsini qəbul etməyəcək, millətimin dilini dəyişməyəcəyəm. Çünki babalarımızın bizə qoyub getdiyi Ana yasamızın, törəmizin və Ana dilimizin sahibi mən deyiləm, millətdir. Mənim gücüm ona çatmaz. Yenidən 60 min Çin ailəsini Ötükəndə yerləşdirməyə imkanım yoxdur." Mubi-Tərxan, möhürünü vur, ver getsin. *(Elçiyə.)* Tümənbaşı, diz çök, məktubu götür.

**Çin zabiti** –Böyük Çinin şahzadə məlaikəsi, bu, nə deyir?

**İçgen xatun** *(Təəccüblə.)* - Xan...

**Dulu xaqan** –Xan yox, Xaqan! (Zabitə.) Diz çök!

(Çin zabiti diz çöküb məktubu götürərkən Gur-Şad daxil olur.)

**Dulu xaqan** *(Təəccüblə)* - Gur-Şad?!

**Gur-Şad** –Gün aydın!

(Dulu xaqana tərəf gedir. Onun hərəkətsizliyini görüb dayanır).

**Erkin** –Uşaqları görə bildinmi?

**Gur-Şad** –Burdadırlar.

(İşarə ilə Banuçiçək, Arslan və İltəriş daxil olur.)

**Erkin** *(Zabitə.)*–Baho... Deyəsən, sizin bunları edam etmək niyyətiniz gözünüzdə qaldı.

**Dulu xaqan** *(Sevinclə.)*–Banuçiçək?..

**Banuçiçək** –Dulu xan, sənin mənə olan xəyanətini bağışlaya bilərəm, amma vətənə olan xəyanətini yox...

**Dulu xaqan** *(Xeyli sükutdan sonra)* - Gur-Şad! İçgen xatunu görmürsənmi? Yağmurun vəliəhdlik iddiası üçün gəlib. Sən onu girovluqdan azad etməlisən... Mən isə onun bu taxtda vəliəhdliyini elan etməliyəm... Əvəzində isə mənə atamızın sənə yazdığı vəsiyyətnaməni gətirib. Sən necə baxırsan bu alverə?

**Gur-Şad** –Məgər atamızın vəsiyyəti olub?

**İçgen xatun** - Olub. Budur. Atan səni bu səltənətə varis təyin edib. Al, taxtına sahib ol.

**Gur-Şad** *(Vəsiyyətnaməni alıb oxuyur.)* – Mən həmişə demişəm,

yenə deyirəm, bu taxtda kimin oturmasının mənim üçün heç bir fərqi yoxdur. Mənim üçün vacib olan vətənimin müstəqilliyidir. Çindəki beş illik əsirliyim məni Vətənimin istiqlalı uğrunda mübarizədən bir an belə çəkindirə bilmədi. Mən bacardığımı elədim. O ki qaldı Yağmura, əvvəla o bizim qardaşımızdır. İkincisi, onun harda, hansı xalqa xidmət edəcəyini özü bilər. Gedib, soruşa bilərsiniz. Bu vəsiyyətnaməyə gəlincə... (öpür) mənim üçün müqəddəsdir. Amma elədiklərimə kölgə salmamaq üçün mən varislikdən imtina edirəm.

**Mubi-Tərxan** –Halal olsun sənə bu torpağın suyu, əkməyi!

**Gur-Şad** –Vəliəhdliyi isə Çin əsarətində mənimlə mübarizə yoldaşı olmuş qardaşım oğlu Urku-Təkinə təklif edirəm. Bəs hanı Urku-Təkin?

**Banuçiçək** –Atası ilə görüşməmək üçün gəlmədi.

**İçgen xatun** *(Zabitə.)* - Bunlar necə məxluqdur? Nə bizim ulu babalarımız, atalarımız, nə də biz səni başa düşə bilmədik... Atları çəkin. Dulu, sən, axı, mənə qul olacağını vəd etmişdin, bəs nə oldu? Haram olsun mənim sənə elədiklərim.

(Çin zabiti ilə çıxır).

**Mubi-Tərxan** –Bilin, bundan sonra Ötükən heç bir dövlətin əsarətində olmayacaqdır.

**Dulu xaqan** –Mən vətənimin, ömür yoldaşımın, oğlumun və qardaşımın qarşısında günahkaram. Erkin, Mubi-Tərxan, Arslan, Banuçiçək, əzizlərim, indi siz deyin, mən öz günahlarımı nə ilə yuya bilərəm?

**Mubi-Tərxan** –İnsanlığa-insanlıqla!

**Arslan** –Xeyirxahlığa-xeyirxahlıqla!

**Erkin** –Kişiliyə-kişiliklə!

**Banuçiçək** –Mərdliyə-mərdliklə!

**Dulu xaqan** –Onda dinləyin: Atamdan sonra bu qılınca mən sahib olmalıydım. Amma bu qılınc özümüzü kəsməyə başladı. Cinayət yolu ilə ona əmim Qara xan sahib oldu. Mən də xəyanətlə bu qılıncı onun əlindən aldım. Artıq bu cinayətlərə, bu xəyanətlərə son qoymaq üçün indi bu qılıncın sahibi nə mən ola bilərəm, nə də mənim övladım. Çünki xəyanətlə əlimə keçən bu qılınca mən layiq deyiləmsə, mənim övladım da layiq ola bilməz. *(Əlindəki qılıncla özünü vurmaq istəyir, əlini tuturlar.)*

**B a n u ç i ç ə k** –Sənin bu qərarını alqışlayıram. Dulu xan, sən o zaman vətənə elədiyin xəyanətlə Göytürk xaqanlıq sülaləsini ləkələmiş, öz övladını isə millət qarşısında xəcil etmişdin. Sən bu gün bu təklifinlə Göytürk xaqanlıq sülaləsini ləkədən, övladını isə xəcalətdən xilas etdin.

**D u l u x a q a n** –Bu qılınca, əslində, sən layiq idin, Gur-Şad! Ona görə də indi bu qılınc adını mənim qoyduğum sənin övladın Kutluq-İltərişə çatmalıdır.

(Qılıncı İ l t ə r i ş ə verir.)

**E r k i n** –Amma ona qəyyum gərək!

**G u r - Ş a d** –Mən istərdim, müdrik ağsaqqal Mubi-Tərxan qəyyum olsun. Ötükəni yalnız o, əcdadlarımızın qoyduğu qaydalarla idarə edə bilər!

(G u r - Ş a d və başqaları gələcək X a q a n - K u t l u k İ l t ə r i ş i n qarşısında diz çökür M u b i - T ə r x a n əllərində qılınc tutmuş İ l t ə r i ş i bayraq kimi başının üstünə qaldırır).

**S ə h n ə n i n d ə r i n l i y i n d ə n s ə s** - Ey Türk! Silkələn, özünə qayıt! Sən özünə qayıdanda böyük olursan.

SON

*1997*

*1998-ci il aprelin 10-da Azərbaycan Milli Dram Teatrında tamaşaya qoyulmuşdur*





# ATAMIN KİTABI

## (BEŞ ŞƏKILDƏN İBARƏT DRAM)

İŞTİRAK EDƏNLƏR:

**A n a .**
**A t a .**
***Ö v l a d l a r :***
**R ü s t ə m** –33 yaşlı partiya liderlərindən biri.
**V a h i d** –32 yaşında, başqa partiyanın üzvü.
**İ x t i y a r** –30 yaşında, üçüncü partiyanın üzvü.
**M ə m m ə d ə l i** –29 yaşında, dördüncü partiyanın üzvü.
**G ü l b a h a r** –25 yaşında, adları çəkilən qardaşların bacısı.
**A z ə r** –30 yaşında, Gülbaharın sevgilisi, astronom.

## PROLOQ

(*X ə s t ə a t a* yorğana bürünüb kresloda əyləşib. *A n a* gəlir)

**A t a** – Zəhrabəyim, atalar misalıdır, deyir: vəsiyyət yüngüllükdür.

**A n a** – Yaxşı, sən Allah.

**A t a** – Yox, Zəhrabəyim, mənimki də bura qədərmiş. Sənə sözüm var, məni yaxşı dinlə.

**A n a** –Hələ uşaqların körpədir, onları bir yerə çıxartmamış...

**A t a** –Məni ağrıdan da elə odur. Gec evləndim, uşaqlarıma istədiyim təhsili, tərbiyəni verə bilmədim. Amma mən sənə inanıram. Mənim məqsədimi, həyat qayəmi sən çox gözəl bilirsən. Əminəm ki, sən övladlarımıza mənim yarımçıq qoyduğum tərbiyəni verəcəksən.

**A n a** –Rəbbin sənin başladığın tərbiyəni yarımçıq qoymayacaq inşallah. Həm də ot kökü üstə bitər... Sənin balaların sənin yolunu gedəcəklər, mən buna inanıram.

**A t a** –Unutma, Zəhrabəyim, hər zamanın öz hökmü var. Mən gələcəyə həm inanır, həm də qorxuram. İnanıram, ona görə ki, zülm və zor üzərində qurulan bu rejim məhvə labüddür. Geci-tezi dağılmalıdır. Qorxuram, ona görə ki, gələcəyin bizə nə gətirəcəyini ulu tanrıdan başqa kim bilər? Buna görə də sən çox ayıq olmalı, uşaqları haqq yoluna yönəltməlisən.

**A n a** –Sən mənim boynuma çox böyük yük qoyursan, kişi.

**A t a** –Bilirəm. Allaha şükür, müəlliməsən. Verəcəyin tərbiyə səhv ola bilməz. Həm də bir parça çörəyin olacaq. Bu mənfur rejimdə başıma gətirilən bəlaların şahidisən.

**A n a** – Getsin o günlər gəlməsin.

**A t a** *(masanın üstündəki kitabı götürür)* – Ömrümü bu kitaba həsr elədim: "Dədəm Qorqud" kitabını öyrəndim, incələdim. Bu kitabı da həbs elədilər, məni də. Sən bir dəhşətə bax! Millətin milli ruhunu, kimliyini özünə göstərən, milli pasportumuz olan ana kitabını millətdən gizlətdilər.

**A n a** –Yaxşı, bunlar olub-keçən şeylərdir. İndi bundan ötrü əsəbiləşməyə dəyərmi?

**A t a** –Sən məni yaxşı dinlə. Mən bu xəzinənin hər cümləsini, hər sözünü o qədər incələmiş, dərinliyinə o qədər valeh olmuşam ki, oxu-

duğum bütün başqa kitablara, gördüyüm hər şeyə Dədəm Qorqudun gözü ilə baxır, dünyanı onun ölçüsü ilə ölçürəm.

**A n a** –Mən ki, bunu bilirəm.

**A t a** –Yox, bilmədiyin də var. Səndən soruşuram: böyük Mirzə Cəlil gözəl bir əsərini nəyə görə "Anamın kitabı" adlandırıb? O, "Anamın kitabı" deyəndə hansı kitabı nəzərdə tutub?

**A n a** – O əsərdə həmin kitab "Bəyaz" adlanır.

**A t a** –Bəli, amma mənə görə o böyük ədib "Anamın kitabı" deyəndə milli ruhumuzun güzgüsü - ana kitabımız olan "Dədə Qorqud" kitabını nəzərdə tutub.

**A n a** – Sən özün dediyin kimi, Dədə Qorquda o qədər aludə olmusan ki, dünyada hər şeyi o ölçüylə ölçürsən.

**A t a** –Sən əgər "Anamın kitabı"nda Mirzə Cəlilin nə demək istədiyinin dərinliyinə varsan, görərsən ki, mən səhv etmirəm. Böyük ədib "Anamın kitabı"nda Ananın – yəni Vətənin dili ilə vətən övladlarını kökə - birliyə çağırır. Min illik ədəbiyyatımızda hansı kitab bizi milli ruhumuza, milli kimliyimizə, kökümüzə Dədə Qorqud qədər bağlaya bilər?

**A n a** –Haqlısan.

**A t a** –Buna görə də övladlarımız dünyaya gəldikcə mən onların adlarını və doğum günlərinin tarixini "Dədəm Qorqud" kitabının son səhifəsinə yazmışam. Demək istəmişəm ki, övladlarım harda olur-olsun, hansı sənəti seçir-seçsin, onların ruhu, inamı, əqidələri Vətən timsalı olan bu ana kitabın ətrafında dolansın. Sən buna çalışmalısan. Səndən yeganə təvəqqem də bax, budur, vəsiyyətim də.

## BİRİNCİ ŞƏKİL

Geniş otaq. Səhnənin ortasında bir vəzifə kreslosu qoyulmuşdur. Kresloya dörd dorojka gəlir. Salonun hər küncündə bir masa qoyulmuşdur. Birinci masanın üstündə "Yeni Azərbaycan" və "Xalq" qəzetləri, ikinci masanın üstündə "Azadlıq", "Yeni Müsavat", üçüncü masanın üstündə "Komsomolskaya pravda", dördüncü masanın üstündə isə ərəb hərfləri ilə qəzetlər yığılıb. Birinci masanın arxasında iqtidar partiyasının rəhbərinin, ikinci masanın arxasında M.Ə.Rəsulzadənin, üçüncü masanın arxasında V.İ.Leninin, dördüncü masanın arxasında isə Xomeyyninin rəsmi görünür. Baş divardan köynəkdə tar və atanın şəkli asılmışdır. Hər masanın arxasındakı gənc öz qəzetini oxuyur.

**İxtiyar** *(başını qəzetdən qaldırıb)*–Artıq bütün dünya bizimlə hesablaşmağa başlayıb.

**Səməd Vahid**–Nədən bildin?

**İxtiyar** - Budur, burda yazılıb. Amerika senatoru Con Fiderman senatdakı çıxışında deyib ki, Azərbaycanın ərazi bütövlüyünü tanımalıyıq.

**Rüstəm** –Bəs o biri senatorlar nə deyir?

**Vahid** –90 faizi əleyhimizə. Nədən ki, Amerikada senat da, konqres də erməni lobbisinin əlindədir.

**İxtiyar** –İndi gərək biz də orda öz lobbimizi yaradaq.

**Vahid** –Biz hələ burda, öz aramızda bir-birimizlə dil tapaq, sonra orda-burda lobbi yaradarıq.

**Rüstəm** –Ay yaratdın ha!

**Məmmədəli**–Bizim bu İxtiyar həmişə dua eləməmiş "Amin" deyir. Mənə qalırsa, gərək biz əvvəlcə yaxın qonşularımızla aranı düzəldək, sonra Amerikada lobbi-mobbi yaradarıq.

**Rüstəm** – Məmmədəli, sən qonşu deyəndə, hansını nəzərdə tutursan?

**Məmmədəli** –Hər halda sən nəzərdə tutduğunu tutmuram.

**Rüstəm** –Elə orda günaha batırsan. Bunu ves mir bilir ki, bizim bağlanmış qapımızın açarı Rusiyanın əlindədir.

**Vahid**–İndi sən nə deyirsən? Təzədən girək Rusiyanın qoltuğuna?

**Məmmədəli** –Xuda nəkərdə!

**Vahid** –Biz qan bahasına qazandığımız müstəqilliyimizi əlimizdən versək, Allah da bizi bağışlamaz.

**Rüstəm** –Sən hansı qandan danışırsan? Müstəqillik uğrunda biz qan-zad tökməmişik. Onu bizə padarka veriblər.

**Məmmədəli** –Padarka yox, bəxşeyiş.

**Vahid** –Kim padarka verib, ə ... onu bizə? Bəs Azadlıq meydanındakı o haray-həşir nə idi?

**Rüstəm** –Elə haray-həşir idi...

**İxtiyar** –Bəs tankların altında əzilməyimiz nə idi? Bu millətin günahı nə idi ki, sənin sevimli Rusiyan onu qanına bələdi?

**Rüstəm** –Siz onu görürsünüz, amma mən ayrı şey görürəm.

**M ə m m ə d ə l i** –Məsələtün, nəyi?

**R ü s t ə m** –Bəyənməyib altına quyu qazdığınız Sovet dövründə heç olmasa, camaatın qarnı tox idi.

**V a h i d** –Qəfəsdəki tox bülbüldən ağac başındakı ac qarğa yaxşıdır. İkincisi də, a bədbəxt, elə bilirsən indi Rusiya bizdən yaxşı gündədir?

**İ x t i y a r** –Biz niyə ac oluruq, ə... Allaha şükür, hamının evində bir tikə əppəyi var.

**R ü s t ə m** –Qaqaş, fəhlə aylarla zarplatasını ala bilmir.

**M ə m m ə d ə l i** –Zarplata yox, maaş.

**R ü s t ə m** –Yaxşı, maaş olsun.

**V a h i d** –Maaş da ərəbcədi.

**R ü s t ə m** –Sözün zvuçaniyasından bilinir ki, o da ərəbcədi.

**M ə m m ə d ə l i** –Zvuçaniyasından yox, səslənməsindən.

**İ x t i y a r** –Maaşa bizim dildə ya donluq deyirlər, ya da aylıq.

**R ü s t ə m** –Olsun aylıq. İndi soruşuram, fəhlə aylığını niyə ala bilmir?

**M ə m m ə d ə l i** –Ona görə ki, bu ixtiyar sahibləri Allahdan qorxmayıb millətin maaşını həzm-rabedən keçirir, altını doldurur. Vallah, bu məkrufdu, qorxun Allahdan.

**R ü s t ə m** –Mamedali, amma sənin də millətdən danışmağa ixtiyarın çatmaz. Nədən ki, sən dini partiyanın üzvü kimi ancaq hümmətdən danışa bilərsən, millətdən yox.

**M ə m m ə d ə l i** –Ona görə ki, hümmət millətdən irəlidir.

**V a h i d** –Məmmədəli, burda saxla, ağ eləmə. İslam dininin özünə qədərki bütün dinlərdən kamil olduğu hamımıza məlumdur. Mən də sənin kimi, müsəlmanlığımla fəxr edirəm. Amma iki məsələni unutma: Birincisi, biz islamı qəbul etməmişdən çox əvvəllər də var idik və dünyaya öz sözümüzü demişdik. Buna görə də millət hümmətdən irəlidir. İkincisi, bizim böyük dinimizi partiya çərçivəsinə salmaqla onu nə qədər kiçiltdiyinizdən xəbəriniz varmı?

**İ x t i y a r** –Ey müxaliflər, iqtidara gəldiniz, gücünüzü gördük. Sizin vaxtınızda it yiyəsini tanımırdı.

**M ə m m ə d ə l i** –Bunu düz deyir. Amma indi də yiyəsi iti tanımır.

**İ x t i y a r** –İndi bu neçə ildə ölkədə yaranan sabitliyi də danırsınız?

**V a h i d** –Yapışmısınız sabitliyin quyruğundan. Bəyəm təkcə sabitliklə iş bitir? Bəs hanı demokratiya?

**İ x t i y a r** –Senzura ləğv olunub? Olunub. İstədiyinizi yazırsınız? Bəli. İqtidarın daxili və xarici siyasətini ələk-vələk edirsiniz? Bəli. Balam, indi siz demokratiya nəyə deyirsiniz?

**V a h i d** –Qərbdəki demokratiyaya.

**İ x t i y a r** –Qərb sən dediyin o demokratiyaya 300 ilə çatıb. İndi siz deyirsiniz biz o yolu 3 ilə keçək? Bir də, axı, hər millətin öz mentaliteti var. Bizə, hələlik, dediyiniz o demokratiya yaramaz. İndi bizə bu milləti birləşdirməyə qadir olan dəmir yumruq lazımdır.

**M ə m m ə d ə l i** –Siz də o yumruğu endirirsiniz bizim təpəmizə.

**İ x t i y a r** –İnsafla danışın. Axı, siz 10 il əvvəl, yəni sovet dövründə hökumətin əleyhinə belə danışsaydınız, dilinizi ənsənizdən çıxardardılar.

**R ü s t ə m** – Elə indi də polojeniye ondan çox da fərqli deyil.

**M ə m m ə d ə l i** –Vəziyyət demək istəyir.

**İ x t i y a r** *(Vahidin masasının üstündəki qəzeti götürüb ona göstərir)*–Niyə Allahsız danışırsan? Bəs bu məqalədə iqtidarın əleyhinə yazdıqların nədir? İndi iqtidarı söyməyə nə var? Kişiydiniz, onda söyəydiniz... Amma Sovet hökumətinin qılıncının dalı da, qabağı da kəsən vaxtlar, senzuranın hər cümləni, hər sözü mikroskopla oxuduğu zamanlar sözünü deyən oğullar var idi. Siz indi vətənpərvərlikdə özünüzü daha qabarıq göstərmək üçün həmən oğulların üstünə çirkab atır, şəriksiz qəhrəman olduğunuzu sübuta yetirmək istəyirsiniz. Amma unutmayın, sizin bugünkü qəhrəmanlığınız iznli qəhrəmanlıqdır. Keçmiş rejimdə nazir, ya müdir olub sovet şüarlarını cani-dildən bağıranlar, Azadlıq meydanındakı təlatümə dodaq büzənlər, evində balaları ilə yalnız rus dilində qırıldadıb vətənin dilinə xor baxanlar, vəzifəsi əlindən çıxan kimi vətənpərvər cildinə girib müxalif olublar. Bu gün müxalif olan o dünənki nazirləri, müdirləri yenə əvvəlki vəzifələrinə qoysalar, Allaha and olsun, yenidən iqtidarın qarşısında quyruq bulayacaqlar. Elə deyil? *(Əlini açır.)* Vur gəlsin!.. *(Vəzifə kreslosunda əyləşir.)*

**V a h i d** – Əlbəttə, müxalifətdə elələrinin olduğunu biz inkar etmirik. Amma vəzifə düşkünlərinin, tula payı üçün quyruq bulayanların çoxu sizin içinizdədir... Bizim bircə illik hakimiyyətdəki səriştəsizliyimizi

bir toyda, bir yasda başımıza çaxırsınız. Yaxşı, indi deyin görək, siz səriştəlilər bu neçə ildə neyləmisiniz? Xalqın hansı yarasına məlhəm qoymusunuz? Bəlkə, fabrik-zavodları işə salmış, milləti dilənçilikdən xilas etmisiniz? Bəlkə, itirdiyiniz torpaqları geri qaytarmısınız? "Lissabon sammiti", bir də "sabitlik" deyib özünüzü tərifləməkdən başqa nə iş görmüsünüz?

**İ x t i y a r** –Siz bizim yaxşımıza da pis deyirsiniz. Öz gözünüzdə tiri görmür, bizim gözümüzdə qıl axtarırsınız. Soruşmaq ayıb olmasın, bəs siz nə işlə məşğulsunuz? Bizi xaricdə rüsvay eləmək, sirrimizi aləmə faş eləmək! "Ölkəmizdə diktatura hakimdir" deyə o qədər bağırdınız ki, bizi dünyada biabır elədiniz. Budurmu sizin vətənpərvərliyiniz, kişiliyiniz? Amma əsl kişi, əsl vətənpərvər öz evinin sirrini çölə tökməz.

**V a h i d** –Gəlin, siz öz uğursuzluqlarınızı bizim boynumuza yükləməyin. Sizin neylədiyinizi dünya bizdən yaxşı bilir.

**İ x t i y a r** –O da sizin xəyanətinizin nəticəsidir. İşiniz-gücünüz iqtidara böhtan atmaq, xalqın fikrini çaşdırmaq, iclaslar keçirib bloklar yaratmaqdır, SİDSUH burdan gəldi, demblok ordan getdi. DUH burdan getdi, DUBB ordan getdi. Gah birləşir, gah ayrılır, gah savaşır, gah barışırsınız.

**M ə m m ə d ə l i** –Məsələtün, bəs siz neyləmisiniz?

**İ x t i y a r** –Birincisi, azadlıq!

**V a h i d** –O azadlıq bizim üçün deyil, özünüz üçündür. Rüşvət almaq azadlığı, xalqı zəlil günə qoymaq azadlığı, millətin haqqını tapdamaq azadlığı.

**İ x t i y a r** –Bəs sabitliyi, özəlləşdirməni, torpaqların kəndliyə verilməsini niyə görmürsünüz?

**V a h i d** –Amma o torpaqlar müftə verilmir. Kimin pulu çoxdur, torpağın qaymağı da çatır ona, o da öz faizini götürüb qalanını ötürür özündən yuxarıya. O da özündən yuxarıya. Beləliklə, bu boyda ölkə başdan ayağa olub rüşvətxana. Oxudun? Dünənki qəzetdə Dünya bankının hesablamasına görə Azərbaycan korrupsiyada birinci yerə çıxıb.

**R ü s t ə m** –Malades bizim nasionalnı rüşvətxorlarımıza! Heç olmasa, rüşvətdə bizi birinci yerə çıxartdılar.

(G ü l b a h a r görünür, kənardan onları dinləyir.)

**İ x t i y a r** –İqtidar olanda məgər siz rüşvət almırdınız? Bəs altınızdakı mersedeslər, yanınızdakı cangüdənlər nəyin hesabınadır?

**V a h i d** –Hələ bilmirsən? Sizin imkanlı ixtiyar sahiblərinin 2-3 tərəfə işləməsindən xəbərin yoxdur? İndidən gələcəyə gün ağlayıb, həm o tərəfə işləyirlər, həm bu tərəfə. Vur gəlsin!

**R ü s t ə m** *(İxtiyara)*–Bura bax, brat, bizim altımızda mersedes var, sizin altınızda isə mersedesləri sizə padarka verən kreslo. Səni də bülbül kimi dilləndirən həmin o kreslodur, ey qaçkınkomun əməkdaşı. Özgələr bizim qaçqınlara pomaqat eləyir, siz doğmalar isə öz ac qardaşlarınızın payını talan edirsiniz.

**M ə m m ə d ə l i** –Böyük islam alimi İmam Qəzali həzrətləri buyurmuş ki, haram tikə göz çıxardar. Geci-tezi talançının gözü çıxacaq.

**İ x t i y a r** –Talançının atasına lənət!

**R ü s t ə m** –Vo-pervıx, bizim hamımızın atası birdir. Öz payına lənət oxu.

**M ə m m ə d ə l i** –Yəni, birincisi demək istəyir.

**R ü s t ə m** - İkincisi də, siz belə təmizsinizsə, özünüz üçün o dvoresi hansı hesaba tikdirirsiniz? O gün də sizinkilərdən biri qəzetdə yazır ki, mən ailə büdcəsi hesabına məscid tikdirirəm. Siz Allah, o hərif zarplatasının hesabına o boyda məscidi nə təhər tikdirə bilir?

**M ə m m ə d ə l i** –Bir fikir verin "maaşın hesabına." O, ya bizi gic yerinə qoyub, ya da özü gicdir. Bizim qəzet də ona yaxşı cavab verdi. Yazdıq ki, haram pula məscid tikdirməzlər. *(Qəzeti göstərir.)*

**İ x t i y a r** *(Vahidə)*–Əvvəla, dediyin o dvoresdən mənim 3 göz otaq payım var.

**V a h i d** –Bəs ondan bizə niyə pay düşməsin? Biz bu ölkənin vətəndaşı deyilik? Siz bizi ikinci dərəcəli sayırsınız?

**İ x t i y a r** –Siz bir yandan hökumətə güllə atır, o yandan da hökumətdən pay umursunuz?

**R ü s t ə m** –Qaqaş, onsuz da o kreslo gec-tez əlinizdən çıxacaq, sənin bir balaca soznaniyan olsa, indidən keçərsən biz tərəfə.

**İ x t i y a r** –Həqiqət hansı tərəfdədirsə, mən o tərəfdəyəm.

**M ə m m ə d ə l i** –Xub... İndi de görək sən hansı həqiqətdən danışırsan, a külbaş? Məqami-vəzifə uğrunda didişməkdən vaxtınız var ki, həqiqət haqqında da fikirləşəsiniz?

**İ x t i y a r** –Sizdə didişmə yoxdur? Prezident seçkisində 5 partiya bir yerə yığılıb bir namizəd verə bilmədi. O dedi, bu kürsüyə mən daha çox layiqəm, bu dedi, xeyir, mən layiqəm. Aranızdan bir adam seçə bilmədiyinizə görə "demokratiya yoxdur" bəhanəsilə "keçi su bulandırdı" - deyib gül kimi seçkini boykot elədiniz. Mən ölüm, düz demirəm? (Əlini açır.) Vurun gəlsin. Əgər siz öz şəxsi xeyrinizi deyil, bu milləti düşünsəydiniz, biriniz geri çəkilər, yerini o birinə verərdi. Amma bunu eləmədiniz. Ona görə ki, davanız Vətən və millət davası deyil, bax, bu şoğərib kürsünün davasıdır.

**V a h i d** –Burda dayan! Keçən dəfəki deputat seçkisində çıxartdığınız oyunu görmədik? Görmədik ki, xalqın bizim namizədlərə verdiyi səsləri oğurlayıb öz namizədlərinizə verdiniz? Elə buna görə də prezident seçkisinə getmədik.

**İ x t i y a r** –Xeyr, qorxdunuz.

**V a h i d** –Bəli, diktaturanın diktəsindən qorxduq. Çünki, nəyin bahasına olur-olsun, hakimiyyəti qoruyub saxlamaqdan başqa sizin ayrı əqidəniz yoxdur.

**İ x t i y a r** –Əvvəla, sizin heç birinizin əqidədən danışmağa haqqı çatmaz. Çünki əqidə sahibinin bir partiyası, bir proqramı olar. Sizinsə hər biriniz bir ildən, iki ildən partiyanızı dəyişir, gah o proqrama, gah bu proqrama qulluq göstərirsiniz. Bir balaca ölkədə də 68 partiya olar?

**V a h i d** –Sizin iqtidar qəzetləriniz təpədən-dırnağa yalan yazır. Bizdə 68 partiya nə gəzir? Çox olsa, 60-65 partiya olar, ya olmaz.

**R ü s t ə m** –Bəyənmədiyiniz o boyda Sovetski vlastda vur-tut bircə partiya var idi. Bu bircə partiya ilə Soyuz dördcə ilə Berlinə flaq sancdı. İndi görək, siz bu 68 partiya ilə Qarabağa neçə ilə flaq sanca biləcəksiniz?

**V a h i d** –Mən ölüm, düz sözə nə deyəsən? Ə... bu balaca ölkədə hər tayfa bir partiyadır.

(Telefon zəngi. Dəstəyi R ü s t ə m götürür.)

**R ü s t ə m** –Bəli.

**N a t a** *(telefonda)*–Rustam, eto tı?

**R ü s t ə m** –Da, cana.

**N a t a** –Nu, çto mı delaem veçerom?

**R ü s t ə m** –Tı znaeş, u menya veçerom partiynoye sobranie.

**N a t a** –Skolğko mojno zasedatğ? A tı znaeş, çto v Baku priexala şikarnaya amerikanskaya pop-qruppa? Eto je prosto kayf.

**R ü s t ə m** –Da, ya slışal. No...

**N a t a** –Ya dostala dva bileta. Davay da, poydem veçerom.

**R ü s t ə m** – Net, rodnaya. U menya ne poluçaetsya, k sojaleniyu.

**N a t a** –Nu da, ponyatno, eto je ne tvoy iskopaemıy muqam.

(Dəstəyi asır.)

**M ə m m ə d ə l i** –Sağ ol səni, qaqaş. Rusiya deyə-deyə, rus qızına ilişdin?

**R ü s t ə m** –Rus niyə olur? Prosto, russkoyazıçnıdı.

**M ə m m ə d ə l i** –Amma anamın dediyinə görə, baldızın boynuna xaç salıb, olub xristiyanka. Sağlığına qismət olsun, qaqaş.

**R ü s t ə m** –Onun mən nə dəxli?

**İ x t i y a r** –Dəxli odu ki, yəni bu boyda ölkədə bir turkoyazıçnı tapa bilmədin?

**R ü s t ə m** –Barı, sən danışma, səninki də anqloyazıçnıdı.

**İ x t i y a r** –Amma mən onunla ancaq öz dilimdə danışıram.

**V a h i d** –Çünki sən ingilis dilini hələ bilmirsən. Bir neçə gündür ingilis dili kursuna getməyə başlamısan. Öyrənəndən sonra ingilis dilində danışacaqsan, inşallah! Şair yaxşı deyib:

> Zaman dəyişdikcə təzə dəb gəlir
> Anlaya bilməyir nəsil, nəsili.
> Kübar balaları iki dil bilir,
> Məktəbdə ingilis, evdə rus dili.

**M ə m m ə d ə l i** – Əhsən! O şeiri bir də de, yazım. *(Vahid ona tərs-tərs baxır.)* Zəbani-madərini bilməyən bizdən deyil.

**V a h i d** –Məmmədəli, deyilənə görə, sən də Tehranda zəbani-madərini bilməyən bir qıza Hafizdən eşq qəzəlləri oxuyursanmış.

**M ə m m ə d ə l i** –Neyləsinlər? Orda zəbani-türki məktəbləri yoxdur da...

**V a h i d** –Hafizdən qəzəl oxuyunca, Füzulidən oxuyub, dillərini bilməməyi onlara irad tutaydın.

**M ə m m ə d ə l i** –Mən ora elmi-ilahiyyat oxumağa getmişdim,

yoxsa, davaya?

**R ü s t ə m** –Elmi-ilahiyyat yox, ilahiyyat elmi.

(G ü l b a h a r gəlir.)

**V a h i d** –Vətənin torpağından, dilindən və qızından imtina edənin "Bu Vətənin oğluyam" – deməyə haqqı yoxdur. Siz Vətənin çörəyini yeyib, suyunu içib, ona arxa çevirənlərsiniz.

**R ü s t ə m** –Sən üzünü Vətənə çevirib neyləmisən?

**G ü l b a h a r** –Ay mənim əziz qardaşlarım, bayaqdan o biri otaqdan sizi dinləyirəm. Nə qədər didişmək olar? Bəs siz bilmirsiniz ki, anamız xəstədir? 4 oğuldan birinin ağlına gəlmir ki, bu yazıq arvada bir həkim gətirsin?

**M ə m m ə d ə l i** –Gülbahar düz buyurur. Mən belə fikir eyləyirəm ki, gəlin, heç olmasa, burda birləşək, məşğul olaq anamızın tədavüsü ilə. Bəyəm, biz yezidik?

**V a h i d** –Bəs dünən təcili yardımdan həkim gəlmişdi, o nə dedi?

**G ü l b a h a r** – Dünən gələn həkimin nə dediyini indi niyə soruşursan?

**İ x t i y a r** –Dünən başı Demblokla məşğul idi.

**V a h i d** – Mən məşğul idim, sən maraqlanaydın.

**G ü l b a h a r** –Qardaşlarım, anamızın vəziyyəti çox ağırdır. Təcili yardımlıq deyil. Ciddi ürək xəstəliyidir. Dərmanları da çətin tapılır.

**R ü s t ə m** –Ə... İxtiyar, dava-dərman məsələsini sənə tapşırmadıq?

**İ x t i y a r** –Tək mənnən iş düzələr?

**R ü s t ə m** –A bala, qaçqınkoma qumanitarnı pomoş kimi xaricdən gələn dava-dərmanları apteklərdə, ərzağı bazarlarda xırıd eləyən siz deyilsiniz?

**İ x t i y a r** –Qaçqının payına göz dikənin gözü tökülsün.

**V a h i d** –Bu şüar altında bildiyinizi edirsiniz, amma gözlərinizin töküldüyünü görmürük!

**İ x t i y a r** –Siz öz borcunuzu təkcə mənim boynuma yükləməyin. Hər birinizin bir şirkətin, bir neçə restoranın, benzinokolonkanın ortağı olduğunuzu, hərənizin bir mülk tikdirdiyinizi yəni biz bilmirik? Yəni, sizin bir dərman tapmağa da imkanınız yoxdur?

**G ü l b a h a r** –Qardaşlarım, siz bir-birinizi günahlandırınca, heç olmasa, ananızın xətrinə birləşin, o bədbəxt qadının müalicəsini düşünün.

**M ə m m ə d ə l i** –Srağagün ürəyini İranda müalicə elətdirən birisilə görüşdüm. Deyir, İranda təbabət Amerikanı keçib. Biz eliyə bilərux ki...

**V a h i d** –İranda? Məmmədəli, sən, axı, duaya-zada inanan adamsan, sən Allah, get, ağlına dua yazdır. İran özü nədir ki, onun müalicəsi nə ola? Mən təklif edirəm ki, Ankaraya aparaq...

**R ü s t ə m** –Ves mir bilir ki, dünyada ürək xəstəliklərinin sentri Moskvadır. Köməkləşək, aparaq Moskvaya.

**İ x t i y a r** –Mən başa düşə bilmirəm, yəni bizim öz həkimlərimizə nə gəlib? Əvvəl öz həkimlərimizi çağıraq, konsilium eləsinlər, sonrasına baxarıq.

**R ü s t ə m** –Əşi, bizdə həkim var?

**G ü l b a h a r** –Mən də İxtiyar qaqaşım deyəni deyirəm, qonşuya umud olan şamsız yatar.

**R ü s t ə m** –Bunu siz niyə qanmaq istəmirsiniz ki, bizim bütün sahələrdəki ən yaxşı spesialistlərimiz Moskva şkolasından çıxıb.

**M ə m m ə d ə l i** –Əvvəla, qanmaz özünsən, saniyən "spesialist" və "şkola" rus sözləridir. Salisən, dəqiqə başı soxma gözümüzə Rusiyanı. Spesialist yerinə müxəxəssis desən, dilin quruyar?

**R ü s t ə m** –Mamedali, vo-pervıx, mütəxəssis də ərəb sözüdür.

**V a h i d** –Bizim dilimizdə mütəxəssis - uzmandı.

**İ x t i y a r** –Sən də bizi qanmaz yerinə qoyma, "uzman" türkcədir.

**V a h i d** –Bəs sən kimsən? Hələ kimliyini qanmamısan?

**R ü s t ə m** –Diskussiyanı buraxaq. Anamızı Rusiyaya aparaq.

**V a h i d** –Sən öl, bu gədə ölsə də, Rusyadan əl çəkən deyil.

**R ü s t ə m** –Balam, niyə bu Rusiyanı gözümçıxdıya salmısınız? Bizim spekulyantlarımız əzik pamidorlarını, soluxmuş qvozdikalarını, turşumuş çaxırını Rusiyanın bazarlarında xırıd eləmir? İndi bu Rusiya sizin gözünüzə niyə xortdan kimi görünür?

**G ü l b a h a r** –A mənim savadlı, bilikli qardaşlarım. Siz hər biriniz özünü o birisindən ağıllı hesab edirsiniz. Amma ağıllı o adamdır ki, başqasının da fikrin hörm t qoymağı bacara. Sizin birinizin sözü o biri-

nizin boğazından keçmir. Niyə? Soruşuram – niyə? Əgər sizin davanız, həqiqətən, Vətəni və bu zavallı xalqı xoşbəxt eləmək davası olsaydı, siz bir-birinizi səbrlə dinlər, bir məxrəcə gələ bilərdiniz. Gələ bilmirsiniz. Çünki kürsü birdir.

**V a h i d** *(saatına baxır.)*–Vay, tamam yadımdan çıxmışdı, indi televiziyada mənim çıxışım olmalıdır.

(Televiziyanı açır. Ekranda V a h i d görünür.)

**V a h i d** *(televizorda)*–Vətən və millət birdir. Onu regionlara bölmək, parçalamaq nə deməkdir. Mənim üçün, güneyli-quzeyli, vahid Azərbaycan var. Onun bakılısına da qurban olum, təbrizlisinə də, lənkəranlısına da, şirvanlısına da, qarabağlısına da, naxçıvanlısına da! Lap elə qaçqınına da. Qaçqın kimdir? Bizim doğma qardaşımız. Mən anlaya bilmirəm, qaçqınlara bu soyuq münasibət hardandır? İndi bizim birinci vəzifəmiz onları çadırlardan çıxartmaq, itirdikləri torpaqlara qaytarmaqdır!

**G ü l b a h a r** –Vahid qaqaş düz deyir.

**İ x t i y a r** –Siz müxaliflər, söz pəhləvanlarısınız. Qarabağı düşmən tapdağından xilas etməmiş, hay-küylə Təbrizə bayraq sancırsınız.

**V a h i d** –Təbriz bizim gələcək planımızdır. Amma siz bir ovucluq Quzey Azərbaycanı 10-15 yerə bölürsünüz.

**İ x t i y a r** –Yəni, sən deyirsən, sizin müxalifət partiyaları regionlara bölünməyib? İstəyirsən bir-bir sayım, bax gör, hansı müxalifət partiyası hansı regionun adamlarını yığıb ətrafına.

**R ü s t ə m** –Pravilno! Amma biz də sizdən öyrənmişik.

**İ x t i y a r** –Bizdən yaxşı şeyi öyrənin də...

**M ə m m ə d ə l i** –Məgər sizdə yaxşı şey var?

**V a h i d** –Yaxşı şeyləri odur ki, yumruq kimi birləşiblər. Danışanın təpəsinə endirirlər.

**İ x t i y a r** –Ay sağ ol! Çünki bizi əqidə birləşdirib, sizin dediyiniz regionçuluq yox.

**M ə m m ə d ə l i** –Bəs niyə vəzifələrə ancaq bir torpağın adamlarını qoyursunuz?

**İ x t i y a r** –Balam, bu hamıya məlumdur ki, bizim hər bölgəmizin öz xüsusiyyəti var. Məsələn, Qarabağdan – musiqiçilərimiz, Şəki-

Şirvandan - ipəkçilərimiz, Mil-Muğandan - pambıqçılarımız, Masallı-Astaradan - mollalarımız çıxdığı kimi, balaca torpaqdan da dövlət xadimlərimizin çıxması niyə sizə təəccüblü görünür?

**R ü s t ə m** –Siz bunun apravdaniyasına baxın. *(Gülür.)*

**M ə m m ə d ə l i** *(qəzetdən göstərir)*–Bir buna bax, ey... Gözəllik müsabiqəsi! Mən başa düşə bilmirəm, Avropa ölkələri neyləyirsə, gərək biz də onu tutuquşu kimi təkrar edək? Şəklə bax, sən allah, qızlarımızı lüt-ətcəbala eləyib buraxırblar səhnəyə. Özü də nə vaxt? Əhyə gecəsində. Axı, bu bizim millətə yaraşmır. Olan-qalan namusumuzu da hərraca qoyurlar. Bax, bu anadangəlmə soyunub lüt bədənini camaata göstərən qızın bəs atası yoxdur?

**V a h i d** –Onun atası yox, papası var.

**M ə m m ə d ə l i** –Elə bizim evimizi o papalar yıxır.

**R ü s t ə m** –Mamedali, tı slişkom otstalıy musulmanin.

**M ə m m ə d ə l i** –Bəs sən müsəlman deyilsən? Yoxsa, nişanlının təsiriylə xristianlığı qəbul eləmisən?

(A z ə r və h ə k i m daxil olur.)

**A z ə r** –Salam.

**G ü l b a h a r** –Azər, xoş gəldin. Qardaşlarımla tanış ol. *(Azər qardaşlara əl verir.)* Azər də mənim dostlarımdandır, anama həkim gətirib.

(G ü l b a h a r, A z ə r və həkim yan otağa keçir.)

**R ü s t ə m** –Ə... bacımızın druqu, deyəsən, bizdən qeyrətli çıxıb.

**M ə m m ə d ə l i** –Xam-xam danışma, yeznəmizdi.

**V a h i d** –Nə təhər, yeznə?

**M ə m m ə d ə l i** –Yeznə nə təhər olur? Bacımızın adaxlısı.

**İ x t i y a r** –Biz niyə bilmirik ə... bunu? Sən hardan bilirsən?

**M ə m m ə d ə l i** –O gün anam mənə dedi.

**R ü s t ə m** –Bəs bizə niyə deməyib?

**V a h i d** –Biz savaşmaqdan vaxt tapırıq ki, yazıq arvad bizə söz desin?

**İ x t i y a r** –Nəçidi ə... bu?

**M ə m m ə d ə l i** –Münəccim. Sizin dilinizdə astronom.

**R ü s t ə m** –Münəccim də ərəbcədi.

**İ x t i y a r** –Yerdə iş-güc qurtarıb ki, göyə dırmaşıb?

**M ə m m ə d ə l i** –Anamın deməsinə görə, göydə təzə bir ulduz tapıb.

**V a h i d** –Bəyəm itmişdi o ulduz?

**R ü s t ə m** –Haralıdı ə... bu?

**M ə m m ə d ə l i** –Orasını bilmirəm.

**V a h i d** –Ə... haralı olduğunu neyləyirsən? Əsas odu ki, biləkgörək bu iqtidardı, yoxsa, müxalif?

**İ x t i y a r** –Mənə elə gəlir ki, bu, bizdəndi.

**R ü s t ə m** –Vid-fasonundan müxalifə oxşayır. Amma o ki, göydə ulduz tapıb, lap toçnı desəm, ona ki, ulduz tapmağa razreşeniye veriblər, deməli, iqtidardı.

**İ x t i y a r** –Ə... nə boş-boş danışırsınız? Alimə nə iqtidar, nə müxalif? İqtidarda da, müxalifətdə də nə qədər desən alim var.

**R ü s t ə m** –Bəli, müxalifətdə alim çoxdur. Amma kim ona razreşeniye verər ki, göydə ulduz tapsın?

**İ x t i y a r** –Başın haqqı, ağ eləyirsən. Ulduz kəşf eləməyi bəyəm yasaq eləmişik?..

**V a h i d** –Siz ixtiyar sahibləri alimləri də, şairləri də bölmüsünüz iki qismə. Sizə meyl eləyənlər külli-ixtiyar sahibləridir, nə istəyirlər eləyirlər, amma bizə meyl eləyənləri basmısınız küncə. Əgər bizə meyl eləyənlərdən biri göydə ulduz tapsa, deyərsiniz ulduz deyil, şamdı, yanır göydə özüyçün.

**M ə m m ə d ə l i** –Sən də ağ eləmə.

**V a h i d** –Əlbəttə, sən elə deməlisən.

**M ə m m ə d ə l i** –Niyə?

**V a h i d** –Ona görə ki, bir yandan adınızı müxalifət qoyub, o biri yandan bunların legitimliyini qəbul edirsiniz.

**M ə m m ə d ə l i** –Bunların legitimliyini külli-aləm qəbul edəndən sonra biz nəçiyik?

**R ü s t ə m** –Müxalif müxalif olar, iqtidar da iqtidar.

**M ə m m ə d ə l i** –Amma müxalif düşmən deyil, iqtidarın qarşısında güzgüdür.

**V a h i d** –Məmmədəli, günah səndə deyil, bizdədir ki, niyə sənin

kimi ikiüzlü müxaliflə bir dam altda yaşayırıq.

**Məmmədəli** –Əvvəla, ikiüzlü sizsiniz. Saniyən, bilirəm, mülkünüz hazırdır.

**İxtiyar** –Nəhayət, gəldiniz mətləb üstünə. Dörd fikir, dörd əqidə bir evə sığmaz. Bizim ayrılmaqdan başqa ayrı yolumuz yoxdur.

(Həkim, Gülbahar və Azər yan otaqdan çıxırlar.)

**Həkim** –Ananızın vəziyyəti çox ağırdır, ürəyində təcili əməliyyat aparmaq lazımdır.

**Vahid** –Təcili deyəndə, yəni nə vaxt?

**Həkim** –Nə qədər tez olsa, o qədər yaxşıdır. Günü sabah.

**Rüstəm** –Bizdə o dediyiniz operasiyanı Moskva spesialistləri kimi eliyə bilən xirurq varmı?

**İxtiyar** –Niyə yoxdur?

**Rüstəm** –Səndən soruşmuram.

**Həkim** –Hörmətli cənab, siz niyə özünüzünkünə belə yuxarıdan baxırsınız?

**İxtiyar** –Aldın payını, çağır İvan dayını.

**Həkim** –Mənim məsləhətim budur ki, bu işi gecikdirmək olmaz.

(Həkim və Azər gedir.)

**Vahid** –Aaz... Gülbahar, Məmmədəlinin dediyi düzdür?

**Gülbahar** –Məmmədəli nə deyir?

**Vahid** –Bu oğlan... nədi onun adı?

**Məmmədəli** –Azər.

**Vahid** –Hə... Bu oğlan sənin elə-belə dostundur, yoxsa...

**Gülbahar** –Tutaq ki, Məmmədəli qaqaşın dediyidir, sonra?

**Rüstəm** –Heç nə... Deyirik, yəni yeznəmizi tanıyaq.

**İxtiyar** –Bacı, yeznəni tanımaq günahdı? Bilək-görək kimdi, nəçidi, haralıdı, hansı yuvanın quşudu?

**Məmmədəli** –Ən əsası, bilmək istəyirlər ki, müxalifdi, ya iqtidar?

**Gülbahar** –Nə ondandır, nə bundan. Özü də Ağdam qaçqınıdır.

**Vahid** –Qaçqın? Məlumdur. Özünə yuva axtarır.

**R ü s t ə m** –Sən öl, bircə qaçqınımız çatmırdı?

**G ü l b a h a r** –Əvvəla, ey döşünə döyüb Vətən, millət deyən qardaşlarım, qaçqın da bu Vətənin övladıdır, ya yox? Vahid qaqaş, yarım saat əvvəl televiziyada nitq irad eləyib bu vətənin lənkəranlısına da, naxçıvanlısına da, bakılısına da, şəkilisinə də, lap elə qaçqınına da canını qurban verməyə hazır olduğunu bəyan edən sən deyildin? Bəs əməlin sözünlə niyə düz gəlmir? İkincisi, indi anamızın bu halında yeznənizin kimliyini, nəçiliyini, haralı olmasını bilmək bu qədər vacibdir? Bəs eşitmədiniz həkimin dediyini? Ananızın dərdinə qalmaqdansa, yeznənin kimliyini öyrənmək sizin nəyinizə lazımdır? Bəs ayıb deyil? Utanmırsınız? Dəfələrlə Sizə resept verdim, ananıza lazım olan dərmanları heç biriniz tapa bilmədiniz. Çünki başınız iqtidar-müxalifət savaşına qarışıb. Sizin bəyənmədiyiniz o qaçqın oğlan isə xaricdəki həmkarlarının köməyi ilə o dərmanların hamısını tapıb gətirtdi. İndi tanıdınızmı o oğlanı? Sizin bacınıza isə sevib-seçdiyi adamın kimliyi, nəçiliyi, haralılığı, hansı partiyaya mənsub olması vacib deyil, insanlığı vacibdir.

(G ü l b a h a r yan otağa keçir.)

**M ə m m ə d ə l i** –Kişinin qızı haqlıdır. Şair ana haqqında deyib ki:

Xaki-payi madər bərayi-pəsər
Tutiya əst ta ruzi-məhşər.

Yəni, deyir ki...

**V a h i d** –Əşi, sən də dürtmə gözümüzə farsı. Məmmədəli, sən din partiyasına mənsubsan, yəni yerin cənnətdir... Amma bizimki naməlumdur. İkincisi, mən yenə o fikirdəyəm ki, biz anamızın müalicəsini gərək tapşıraq İxtiyara.

**İ x t i y a r** –Mənə niyə?

**V a h i d** –Ona görə ki, bizim kürəyimizdə müxalifət damğası var. Sənsə ixtiyar sahibisən. Hansı qapını döysən, üzünə taybatay açılacaq.

**İ x t i y a r** –Heç biriniz yaxanızı kənara çəkə bilməzsiniz. Ana hamımızın anasıdır.

(Qoltuğunda kitab zəif addımlarla ana və G ü l b a h a r gəlir.)

**A n a** –Balalarım, sizi and verirəm bu döşlərdən əmdiyiniz südə, atanızın ruhuna və Sizə əmanət qoyub getdiyi bu kitaba, dalaşmayın. Nə qədər körpə idiniz, bir idiniz. Böyüyəndən sonra niyə yola getmirsiniz. Bəyəm siz bilmirsiniz ki, sizin bir-birinizə düşmən kəsilməyiniz məni saldı yatağa? Əgər mənim salamat olmağımı istəyirsinizsə, dilbir olun, əlbir olun. İndi mənə həkim, dava-dərman axtarırsınız. Mənə sizin nə həkiminiz lazımdır, nə dava-dərmanınız... Mənim həkimim də, dava-dərmanım da sizin əlbir, dilbir olmağınızdır. Siz əgər bunu hələ başa düşməmisinizsə, vay mənim halıma!

**İ x t i y a r** –Ana, sən bizim dalaşmağımıza baxma. Biz səni çox istəyirik.

**A n a** –İnanmıram!

**R ü s t ə m** –Ana, İxtiyar düz deyir. Ananı istəməmək olarmı?

**M ə m m ə d ə l i** –Peyğəmbərimiz buyurur ki, cənnət ananın ayağı altındadır.

**V a h i d** –Ana, qoltuğundakı o kitab da deyir ki, Ana haqqı Tanrı haqqıdır.

**G ü l b a h a r** –Vahid, bax, sənin o başın üstündə şəklini asdığın böyük Məmməd Əmin Rəsulzadə də deyir ki, Ana xəstədirsə, övladlarının bir-biri ilə dalaşmağa haqqı yoxdur.

**A n a** –Böyüklərin, müqəddəslərin sözlərini çox yaxşı əzbərləmisiniz. Bəs əməliniz hanı?

(O ğ u l l a r və G ü l b a h a r başlarını aşağı dikib bir-bir gedir. A n a ərinin - A t a n ı n evin baş divarından asılmış şəkli qarşısında diz çökür.)

**A n a** –Ey bu övladları mənə əmanət qoyub gedən böyük kişi! Sənin mənə dediyin sözlər, elədiyin vəsiyyət o gündən bu günə qədər qulaqlarımdadır. Mən sənin əmanətlərini böyütdüm. Hər birinə təhsil verdim. Onları sənin ruhunla, sənin əqidənlə tərbiyə etməyə çalışdım. Amma indi görürəm ki, bunlar sənin ruhunun rənginə deyil, zəmanənin rənginə boyanıblar. Düz deyirlərmiş, hər kəs öz atasından çox, zəmanənin övladıdır. Ey böyük kişi, mən əlimdən gələni elədim, amma görünür, zaman məndən güclü imiş. Sənin istədiyini yerinə yetirə bilmədim, bacarmadım. İndi şəklinin qarşısında üzü qarayam, bağışla məni. Əfv elə məni. Eşidirsənmi, səndən əfv istəyirəm.

## İKİNCİ ŞƏKİL

(Xəstəxana. İçəridə əməliyyat gedir. G ü l b a h a r həyəcan keçirir. Qardaşlar onu sakitləşdirməyə çalışırlar.)

**G ü l b a h a r** –Yaman uzanır. *(Saatına baxır.)* Düz 1 saat 45 dəqiqədir.

**İ x t i y a r** –Sən açıq ürək əməliyyatını zarafat bilirsən? Belə əməliyyatlar adətən 4-5 saatdan çox çəkir.

**G ü l b a h a r** –Çox zəifdir, qorxuram davam gətirməyə.

**M ə m m ə d ə l i** –Biz eliyə bilərux ki, Allah da bizim duamızı dərəceyi-qəbula yetirə. Dünən gecə səhərə qədər Allahdan anamıza şəfa diləmişəm. İnşallah, eşidər səsimizi o gözə görünməz!

**V a h i d** *(kənarda dayanmış Azərə gözü sataşır)*–Yeznə, kənarda niyə dayanmısan? Dünən televiziyadan eşitdik. Balam, böyük kəşf eləmisənmiş. Təbrik edirik.

**R ü s t ə m** –Pozdravlyayu *(Görüşürlər.)*

**İ x t i y a r** – İndi o tapdığın ulduzun adını nə qoyacaqsan?

**A z ə r** –Hələ bilmirəm.

**V a h i d** –Mən sənin yerinə olsam, "Azərbaycan" qoyaram.

**M ə m m ə d ə l i** –Yeznə, onu nə təhər tapmısan? O ulduzu deyirəm ey...

(Əməliyyat otağından şəfqət bacısı çıxır. G ü l b a h a r o n a yaxınlaşır.)

**G ü l b a h a r** –Necədir? Xatalı bir şey yoxdur ki?

**Ş ə f q ə t b a c ı s ı** –Hələlik hər şey öz qaydası ilə gedir.

**G ü l b a h a r** –Bəs niyə belə gecikir?

(Ş ə f q ə t bacısı gedir).

**R ü s t ə m** –Ay bacı, operasiya semiçka çırtlamaqdı bəyəm?

**V a h i d** –Bunun danışdığı sözə bax: Semiçka çırtlamaq! Bıçaq altındakı ana haqqında, gör, nə zəvzəyir.

**M ə m m ə d ə l i** –O, nə vaxt ağıllı söz danışıb ki, indi də danışa?

**R ü s t ə m** –Nə olar, sən danış, bizi də feyziyab elə.

**V a h i d** –O gün SİDSUH-un iclasında danışdı, gördük.

**R ü s t ə m** –Ağzından dürr tökülürdü.

**İ x t i y a r** –Nə deyirdi?

**R ü s t ə m** –Naftalin iyi verən İran şairlərindən şeir döşəyirdi.

**M ə m m ə d ə l i** –Hər halda, mən sənin kimi, Lenindən sitat oxuyuram...

**V a h i d** –Ay Məmmədəli, nə olar, on dəfə İran şairlərindən deyəndə, bir dəfə də öz şairlərimizdən, lap elə Rəsulzadəmizdən deyəsən.

**M ə m m ə d ə l i** –Hər halda, elə Rəsulzadənin özü də müsəlman idi, islamçı idi. İndi siz onun yaratdığı bayraqdakı yaşıl rəngi inkar eləmək istəyirsiniz?

**V a h i d** –Allah eləməsin, amma o bayraqda yaşıl rəng üçüncüdür. Birinci rəng göydür –yəni türkçülük.

**R ü s t ə m** –Amma hilal ikincinin – yəni qırmızının üstündədir. Rəsulzadə üçün osnovnoy müasirləşmə idi.

**İ x t i y a r** –Hilal müsəlman ölkələrinin çoxunun bayrağında var. Müasirləşmək üçün, birinci növbədə, dövlətçiliyi qorumaq lazımdır. Sizin kimi dövlətin altına quyu qazmaq müasirləşmək demək deyil.

(Şəfqət bacısı əməliyyat otağına keçir.)

**V a h i d** –Amma gərək, dövlət də dövlət ola. Diktatura üzərində qurulan dövlət müasir dövlət sistemini – yəni demokratiyanı qəbul etməyəndə, o dövlətin altını eşib onu aşırmaq lazımdır. (Əlini uzadır) Vur gəlsin!

**İ x t i y a r** –Ay aşırdın a... Ölüb Xankişi...

**R ü s t ə m** –Düz deyir, qoburu əldən verməz.

**G ü l b a h a r** –Biz Vətənə Ana Vətən deyirik. Bu gün anamız həm mənəvi və həm də cismani xəstədir (əməliyyat otağını göstərir.) M.Ə.Rəsulzadənin sözlərini yenə Sizə xatırladıram: Əgər Vətəni siz də ana hesab edirsinizsə, xəstə ananın başı üstə övladların dalaşması günahdır.

**İ x t i y a r** –Gülbaharın sözünə mən bir balaca əlavə eləmək istəyirəm. Ana həm Vətən, həm də o Vətəndə qurulan dövlətdir.

**V a h i d** –Əvvəla, ana adlandırdığın o dövlət də gərək öz övladlarına eyni gözlə baxa, ona yaltaqlanan övladının başını sığallayıb, onun qüsurlarını deyənin başına qapaz salmamalıdır. İkincisi də, korrupsiya və rüşvət dövlət səviyyəsinə qalxanda buna dövlətçilik yox, tayfaçılıq

deyərlər.

**R ü s t ə m** –Malades! Bravo!

**M ə m m ə d ə l i** –Gülbahar düz deyir. Gəlin, söhbəti dəyişək. Biz də adımızı kişi qoymuşuq, amma o, zənən xeylağı olmasına baxmayaraq, bizdən ağıllıdır.

**R ü s t ə m** –Mamedali, kişi-zənən dedin, yadıma düşdü. De görək, cənnətdə kişi ilə qadınlar bir yerdə olacaq, yoxsa, ayrı?

**M ə m m ə d ə l** –XI əsrin böyük din alimi Şeyx Ənsari həzrətləri “Müqəddəsati-nizam” kitabının 211-ci səhifəsində buyurur ki, cənnətdə kişi ilə qadın ayrı olacaq.

**R ü s t ə m** –Bə niyə ayrı?

**M ə m m ə d ə l i** –Abdulla Übeyd həzrətləri buyurur ki, cənnətdə kişi ilə arvad bir yerdə olsalar, daha ora cənnət olmaz ki.

**V a h i d** –Amma bu əməliyyat yaman uzun çəkdi. Saat 1-də Demblokun iclasına çata bilməsək...

**İ x t i y a r** –Nə olar? Qiyamət qopar? Saat 2-də də bizim partiyanın iclası var.

**M ə m m ə d ə l i** –Sizin partiyanın iclası bütün ölkəni bürüyüb. Sən getməsən, dünya dağılar?

**İ x t i y a r** –Sən dediyin o iclaslarda biz bu boyda ölkəni idarə edirik. Sizsə boşboğazlıqla məşğulsunuz.

**R ü s t ə m** –Bu gün Demblokda hansı məsələ qoyulub?

**V a h i d** –Qarabağ məsələsi.

**İ x t i y a r** *(gülür)*–Mən ölüm, bunlara bax ey, dövlət qalıb bir tərəfdə, bunlar Qarabağ məsələsi həll eləyir! Ə... axı, siz kimsiniz?

**R ü s t ə m** –Dövlətin yadına Qarabağ düşür?

**İ x t i y a r** –Ə... bəs bu boyda danışıqları kim aparır?

**M ə m m ə d ə l i** – Elə danışıq aparılır, sən əməldən danış.

**R ü s t ə m** –İqtidar da, müxalifət də birdəfəlik başa düşməlidir ki, Qarabağın açarı Rusiyanın əlindədir.

**M ə m m ə d ə l i** –Bir də İranın.

**V a h i d** –Bəs, Türkiyə?

**R ü s t ə m** –Türkiyə hələ öz içindəki PPK-nın öhdəsindən gəlsin, sonra Qarabağla məşğul olar.

**İ x t i y a r** –Siz hamınız xarici ölkələrin agentlərisiniz.

**M ə m m ə d ə l i** –Sən də DTK-nın agentisən.

**İ x t i y a r** –Öz ölkəsinin agenti olmaq insana şərəf gətirər.

**R ü s t ə m** –Sən ölkəyə deyil, vlasta qulluq edirsən.

**İ x t i y a r** –Vlasta qulluq eləmək, elə millətə qulluq eləməkdir.

**G ü l b a h a r** –Bəsdirin, kifayətdir! Siz bura dava-dalaşa gəlmisiniz, yoxsa, ananızın dərdinə qalmağa? Ayıb deyil? Utanmırsınız? Rədd olun burdan! Rədd olun, deyirəm, sizə. Onsuz da tələsirsiniz. Gedin iclasınıza.

**R ü s t ə m** –Gülbahar, sən... çerezçur eləyirsən ha...

(Azər Gülbahara yaxınlaşıb, onu kənara çəkmək istəyir.)

**G ü l b a h a r** –Mən bilmirəm siz, necə oğulsunuz? Ana orda narkoz altında doğranıb tökülür, burda sizin ürəyiniz ağrımır. Vətəndən danışır, onun dərdinə qalır, onu hər biriniz öz bildiyiniz yolla xilas etməkdən dəm vurursunuz, amma burda ananızın ağrısını öz ürəyinizdə hiss edə bilmirsiniz. Anasının ağrısını çəkməyənlərin Vətənin dərdini çəkəcəyinə kim inanar? Çəkilin burdan! Mən sizi görmək istəmirəm. Rədd olun iclasınıza! Orda, ölümlə-həyat arasında qalan anamın canına and içirəm, burdan rədd olub getməsəniz, qışqırıb bütün həkimləri, xəstələri bura tökəcək, onların gözü qabağında sizi rüsvay edəcəyəm!

(Onları itələyir.)

**İ x t i y a r** –Ay qız, nə olub sənə? Bir səbrin olsun.

**G ü l b a h a r** - Siz məni boğaza yığdınız *(Bərkdən qışqırır.)* Rədd olun! Rədd olun!

(Həkimlər, xəstələr görünür, qardaşlar bir-bir çəkilib gedir, G ü l b a h a r kənarda əyləşib hönkürtü ilə ağlayır. Həkim G ü l b a h a r a yaxınlaşıb onu sakitləşdirməyə çalışır.)

**H ə k i m** –Gülbahar xanım, özünüzü ələ alın.

**G ü l b a h a r** –Daha bacarmıram, doktor, bacarmıram.

**A z ə r** –Hər halda, onlar səndən böyükdür. Sən səbirli olmalıydın...

**G ü l b a h a r** –Neyləyim? Hirsimi boğa bilmədim.

**A z ə r** –Hirsli başda ağıl olmaz, əzizim.

**G ü l b a h a r** –Əslinə baxsan, onlar getməyə bəhanə axtarırdılar. Mən də o bəhanəni verdim onlara.

**A z ə r** –Amansız olma, məgər onlar da övlad deyil? Elə adam var, yanğısı görünür, elə adam var ki, içində çəkir.

**G ü l b a h a r** –Niyə sən pisdə də yaxşılıq görmək istəyirsən?

**A z ə r** –Çünki dünyada mütləq pislik yoxdur.

**G ü l b a h a r** –Sənin sözündən belə çıxır ki, 57 milyon insanın qanına bais olan Hitlerdə də, millətimizin fəxri olan minlərlə ziyalımızı Sibirin şaxtasında məhv edən Stalində də, insan kəllələrindən qalalar tikdirən Teymurləngdə də yaxşılıq axtaraq?

**A z ə r** –Dediyin Əmir Teymur çadırında yuva quran qaranquşun xatirinə çadırını sökdürməmiş, öləndə müəlliminin ayağı altında dəfn olunmasını əmr etmişdir. Mən bununla müstəbidlərin vəhşiliklərinə haqq qazandırmaq fikrində deyiləm. Amma Loğmandan soruşdular: - Dünyada pis adam çoxdur, yoxsa, yaxşı? cavab verdi: - Yaxşılar çox olmasaydı, dünya çoxdan dağıdılmışdı.

**G ü l b a h a r** –Sən ulduz axtarışında o qədər göylərə baxmısan ki, ayağın yerdən üzülüb. Yerdəki pislik zülmətində də işıq və ulduz axtarırsan.

**A z ə r** –Yox, Gülbahar, əgər biri mənə pislik eləyirsə, mən onun səbəbini özümdə axtarmalıyam. Şair deyir ki:

Özgədə axtarsaq hər naqisliyi
Hamı yaxşılıqdan gərək əl çəkə.
Pis adam var isə... onun pisliyi
Mənim pisliyimdən göyərmiş, bəlkə?

**G ü l b a h a r** –Bu, şair təxəyyülündən doğmuş şairanə sözdür.

(Ş ə f q ə t b a c ı s ı gəlir.)

**Ş ə f q ə t b a c ı s ı** *(Gülbahara)*–Xəstə xeyli qan itirib, qan vurmaq lazımdır. Qan qrupunuz neçədir?

**G ü l b a h a r** – İki.

**Ş ə f q ə t b a c ı s ı** –Yox, üçüncü qrup lazımdır.

**A z ə r** –Mənim qanım üçüncü qrupdur.

**Ş ə f q ə t b a c ı s ı** –Onda keçin içəri.

(A z ə r əməliyyat otağına keçir.)

## ÜÇÜNCÜ ŞƏKİL

(Birinci şəkildəki səhnə. Hər masanın yanında bir çemodan. Pərdə açılarkən Ana, Gülbahar və Azər gəlirlər.)

**Gülbahar** –Həmişə evində, eşiyində, ana. Səni görüm heç vaxt bu evdən əskik olmayasan.

**Ana** –Övladlarımla bir yerdə. Amma sən mənə övlad yox, ana oldun. Azərlə xoşbəxt olasan, qızım.

**Gülbahar** –Azər də sənin bir övladın.

**Ana** –Yaxşı kürəkən elə övladdır. Hələ mən onu demirəm ki, o, məni ölümdən xilas elədi. Bu gün mənim damarlarımdan onun qanı axır. *(Azəri qucaqlayır.)* Qanını mənə halal elə, oğul.

**Azər** - Halal xoşun olsun, ana.

**Ana** - Bizim qan qrupumuz da eyni imiş.

**Gülbahar** - Dünyada təsadüfi heç nə yoxdur. Sənin yanında bir qədər açıq danışdığıma görə məni bağışla, ana. Əgər Azərlə qanımız qaynamasaydı, biz bir-birimizi necə tapardıq?

(Vahid, Məmmədəli, Rüstəm gəlir.)

**Vahid** –Xoş gördük, ana, həmişə ayaq üstə.

**Məmmədəli** –Həmişə evində. Allah mənim dualarımı eşitdi. Anamızı təzədən bizə verdi.

**Rüstəm** –Anamızın şərəfinə bu gün banket düzəltməli, bu günü otmeçat eləməliyik.

**Məmmədəli** –Otmeçat yox, qeyd.

**Vahid** –Gülbahar, nəyin var, gətir qoy ortaya.

**Gülbahar** –Mən dünəndən hazırlığımı görmüşəm.

(Ana ilə mətbəxə keçir, masanı bəzəyir.)

**Rüstəm** –Yeznə, sən də burdasan? Xoş gördük.

**Vahid** –Yeznə, nədənsə, bizə bığ vermir.

**Məmmədəli** –O, sizin tayınız deyil.

**Rüstəm** –O, göydə yeni ulduzlar axtarır, biz də yerdə millətimizin xilasına yollar axtarırıq.

**Məmmədəli** –Tapdığın yola quzu kəsim, ay Rüstəm. O yol bizi

uçuruma dirəmir ki?

**R ü s t ə m** –Mənim yolumun uçuruma dirənib-dirənməməsi hələ məlum deyil. Amma sənin yolun...

**M ə m m ə d ə l i** –Mənim yolum İslamın müqəddəs yoludur. Allaha şükür, 1300 ildən çoxdur yaşayır. Sənin yolun Allahsızlıq, imansızlıq yoludur ki, 70 ilə künfeyi-kün oldu.

**V a h i d** –Məmmədəli düz deyir, Allahı inkar edən bir ölkə məhvə getməli idi və getdi. Mən bugünkü iqtidarın Allahı tanımasını onun ən yaxşı cəhəti sayıram.

**G ü l b a h a r** –Buyurun süfrəyə.

(Masa ətrafına otururlar.)

**V a h i d** –Ana, sən başda əyləş.

(A n a masanın başında əyləşir.)

**V a h i d** –Badələri doldurun.

(R ü s t ə m badələri doldurur, M ə m m ə d ə l i stəkanı götürüb kənara qoyur.)

**M ə m m ə d ə l i** –Mən pəs! Məkrufdur.

**V a h i d** –Anamızın sağlığına içsən, Allah sənin günahından keçər.

**R ü s t ə m** - Heç olmasa, bu gün iç.

**M ə m m ə d ə l i** –Siz ananıza olan məhəbbətinizi araqla izhar edin, mən də onun ömrünün uzadılması üçün dua oxuyum. Oğul duası müstəcəb olar.

**A n a** –Məmmədəli ilə işiniz olmasın, necə bilir, elə də eləsin.

(İ x t i y a r gəlir.)

**İ x t i y a r** –Paho!.. Mən kimi görürəm? Sənə canım qurban olsun ay ana, həmişə ayaq üstə, həmişə evində.

(A n a s ı n ı qucaqlayıb oturur.)

**R ü s t ə m** –Lap vaxtında gəlmisən. Hələ içməmişik. Bakalını doldur. Starşı brat kimi birinci söz mənimdir.

**M ə m m ə d ə l i** –Allah, sən bizi təzə starşı bratın boyunduruğundan saxla!

**İ x t i y a r** –Eşidirik səni, böyük qardaş! Döşə gəlsin.

**R ü s t ə m** –İçək bu bakalları...

**M ə m m ə d ə l i** –Bakal yox, qədəh de. Bakal rus sözüdür.

**İ x t i y a r** –Qədəh də ərəb sözüdür.

**R ü s t ə m** –Nu, xoroşo, badə olsun.

**M ə m m ə d ə l i** –Badə də fars sözüdür.

**V a h i d** –Əşi, yaxşı da. Piyalə de, fincan de.

**İ x t i y a r** –Onlar da bizim sözlərimiz deyil.

**R ü s t ə m** –Bəs buna *(qədəhi göstərir)* bizim dilimizdə nə deyirlər?

**M ə m m ə d ə l i** –Bizim mübarək dinimiz içkini haram buyurduğundan, içinə tökülən o zəhrimarın da adını yaratmayıb.

**R ü s t ə m** –Vo-pervıx, qədəh sözü ərəbcədirsə, islam dinini yaradan, içkini zapreşat eləyən ərəb gərək "qədəh" sözünü də yaratmayaydı. Vo-vtorıx da, bütün qədim ərəb, fars şairləri içkidən dəm vurub.

**G ü l b a h a r** –Yaxşı, qabın adını çəkməyin, deyin, içək bu içkini...

**R ü s t ə m** –Otliçno! İçək bu içkini ürəyini bizə yedirib bizim yolumuzda pastelə düşən, bu gün isə zdoroviyası düzələn Zəhrabəyim anamızın sağlığına.

**M ə m m ə d ə l i** –Namxuda, səhhəti düzələn de.

**V a h i d** –Səhhət də ərəb sözüdür.

**R ü s t ə m** *(başını yellədib sözünə davam edir.)*–O ana ki, bizə jizn verib.

**M ə m m ə d ə l i** –Həyat verib.

**R ü s t ə m** –Biz hələ şkolnik olanda atamızı itirdiyimizdən, bizə həm ata olub, həm ana. Bizi böyüdüb, bu ölkəyə 5 gözəl övlad bağışlayıb. O ana ki, lülkamızın başında laylamızı çalıb, hər cəfamızı çəkib, əllərimizdən tutub bizi şkola aparıb, bizə obrazovaniye verib, bizi həyata hazırlayıb. *(Məmmədəli başını yellədir.)*

**A n a** –Oğul, bəsdi, bu sözlərlə məni utandırma. Dediklərin hamısı mənim analıq borcum idi.

**R ü s t ə m** –Yox, ana elə demə, məgər bütün analar öz analıq dolqunu sənin qədər yerinə yetirə bilib? Yetirdiyin bu övladlara bax, fəxr elə, bu övladların hər biri bu gün vətənimiz üçün nə qədər gərəklidir.

**M ə m m ə d ə l i** *(Vahidin qulağına)*–Bu, özünü də qatır bizə!

**İ x t i y a r** –Araqlar soyuyur.

**R ü s t ə m** –Nə olub, kuda speşim?.. Hələ mən sözümü bitirməmişəm. Zəhrabəyim anamız o anadır ki, özü yeməyib bizə yedirib, özü geyməyib bizi geyindirib. Bizim dişimiz ağrıyanda onun ürəyi ağrıyıb. Pərvanə kimi başımıza dolanıb, bizi dünyanın bütün dərd-bəlalarından zaşişat eləyib.

**G ü l b a h a r** –Amma boynumuza alaq ki, biz onun başına, o dolandığı kimi dolana bilməmişik.

**A n a** –Balalarım, daha bəsdir!

**V a h i d** - Bir sözlə, içək anamızın sağlığına.

**G ü l b a h a r** –İçin, sonra mənim bir təklifim olacaq.

(Qardaşlar içir.)

**R ü s t ə m** *(Azərə)*–Bəs sən niyə içmədin? Yoxsa, sən də Məmmədəli kimi mollasan?

**G ü l b a h a r** –O içən deyil.

**V a h i d** - Buyur, bacım, sən təklifini de.

**G ü l b a h a r** –Anamızdan eşitmişik ki, atamız "Dədə Qorqud"un böyük tədqiqatçısı olmaqdan başqa, həm də gözəl tar çalarmış. O divardan asılan tar atamız öləndən sonra köynəyindən çıxarılmayıb. Mən istəyirəm ki, anamızın şəfa tapdığı bu gün o tar köynəyindən çıxarılsın və anamızın şərəfinə atamızın çox sevdiyi "Ana" mahnısı çalınsın.

**M ə m m ə d ə l i** – Musiqi haqqında məşhur şair mövlana Cəlaləddin Rumi buyurub ki,

Nə quyəm səma ey bəradərə ke çist
Məgər mostəmə ra bedanəm kist.

**R ü s t ə m** –Məmmədəli, vallah, sənin sitatlarından yorulduq.

**V a h i d** –Gülbahar, o "Ana" mahnısını kim çalacaq?

**G ü l b a h a r** –Əgər anam izn verərsə... Azər çala bilir.

**A n a** - Çala bilirsə... mən nə deyirəm.

**G ü l b a h a r** –Onda dur, tarı götür, köynəyindən çıxart və özün ver Azərə.

(A n a t a r ı köynəyindən çıxarıb A z ə r ə verir. Azər C.Cahangirovun "Ana" mahnısını çalır. Hamı başını aşağı dikib mahnını dinləyir. Mahnı bitincə övladlar göz yaşlarını silə-silə gəlib analarını öpürlər. A n a da ağlayır.)

**A n a** –Atanız bu mahnını çox sevər, hər dəfə çalanda ağlayardı.

**V a h i d** - Çox sağ ol, Azər. Sən bizi ağlatdın. Bu mahnı bizim hamımızı anamızın başına dolanmağa çağırır.

(A n a göz yaşlarını silə-silə yan otağa keçir.)

**G ü l b a h a r** –Mənim əziz qardaşlarım, istəyirəm sizi bir mətləbdən agah eləyim. Əməliyyat aparan həkim bu gün mənə dedi ki, anamızın bundan sonrakı həyatı bir tükdən asılıdır. Biz onunla çox mülayim rəftar etməli, onun xətrinə dəyməməli, onu ovcumuzun içində saxlamalıyıq. Əgər belə etməsək, anamız əlimizdən gedəcək. Onsuz da xəstə ürəyi əməliyyatdan sonra çox zəifləyib. Odur ki, sizi and verirəm indi eşitdiyimiz "Ana" mahnısında dilə gətirilən ana ruhuna, atamızın müqəddəs məzarına və onun qulluq etdiyi müqəddəs yola, anamızı qoruyaq, onun istədiyi kimi əlbir, dilbir olaq.

## DÖRDÜNCÜ ŞƏKİL

(Həmin otaq: Qaranlıqda qardaşların hay-küyü eşidilir.)

- Deyirəm, bunu da içək...
- Əşi, bəsdir də... elə bütün sağlıqları gərək sən deyəsən. Bizə də bir macal ver.
- Yox, daha bu olmadı, gəlin, oçeredlə danışaq.
- Mən oçered-zad bilmirəm, sözümü kəsməyin.
- Sənin nə deyəcəyini bilirik!
- Bir səbrini bas, gör, nə deyirəm.

(İşıq yanır, 3 qardaş masa arxasında sərxoş vəziyyətdədir. M ə m m ə d ə l i və A z ə r isə kənarda oturub onları seyr edir.)

**M ə m m ə d ə l i** –Sahibi-Atiyy ibn İrvə əs Sədi həzrətləri buyurub ki, keflənib ağlını itirənə baxmağın özü də məkrufdur. Burdan əkilsək yaxşıdır.

**G ü l b a h a r** –Bu dəliləri bizim umudumuza qoyub, hara əkilirsən?

**M ə m m ə d ə l i** –Bacım, Həzrət Əli hədisi-şərəfində buyurur ki,

şərab içən məst olar. Məst olan ağlını itirər, ağlını itirən isə yalan danışar, şər atar. Mən bunların şərindən qorxuram.

**G ü l b a h a r** –Bəlkə, köməkləşib onları o biri otağa aparıb yatırdaq?

**M ə m m ə d ə l i** –Mənim kimi mömin adamın onlara yaxınlaşması da müstəhəq deyil.

**G ü l b a h a r** *(sərxoşlara müraciətlə)* –İçdiyiniz bəsdir, durun dağılışın.

**İ x t i y a r** –Məclis hələ indi qızışır.

**M ə m m ə d ə l i** *(Azərə)*–Yeznə, münəccimlərin göydə ulduz tapmasını başa düşürəm. Bəs o ulduza adı hardan tapırlar?

**G ü l b a h a r** –Elə ona görə də Azər üçün tapdığı ulduza ad tapmaq, ulduz tapmaqdan çətin olub.

**V a h i d** –Doğulmamışdan əvvəl uşağa ad verilməz. Nədən ki, axı, əvvəlcədən hardan bilsinlər ki, bu arvad oğlan doğacaq, yoxsa, qız? Bizim bu yeznə də doğmağına doğub, mən belə anlayıram ki, bu ulduzun oğlan, ya qızlığı hələ məlum deyil.

**İ x t i y a r** –Necə yəni, oğlan-qızlığı hələ məlum deyil. Doğulub, axı.

**V a h i d** –Bəs doğubsa, niyə adını qoymur?

**M ə m m ə d ə l i** –O qədər içmisiniz, olan-qalan ağlınız da təbəxxür eləyib.

**İ x t i y a r** –Sən öl, içimizdə bircə ağıllı sənsən.

**R ü s t ə m** –Ə... o nə anlayır içkinin kayfını.

**V a h i d** –Sən o mollaya baş qoşma. Süz, o badələri. Ayılmaq təhlükəsi var.

**M ə m m ə d ə l i** –Ayılmaq təhlükə deyil, bala, sizin kimi qəflətdə yatmaq təhlükədir.

**V a h i d** –İnsafən, Məmmədəli qaqaşım düz deyir. Əgər ağlımız varsa, gəlin, Demblokun bugünkü vəziyyətini müzakirə edək. Bəs, bugünkü iclasdan da dərs götürmədiniz? Görmədiniz ki, Demblokun dağılmaq təhlükəsi var?

**M ə m m ə d ə l i** –Demblokun dağılması müstəhəqdir. Amma dağıldısa, evimiz yıxıldı.

**İ x t i y a r** –Ə... Siz hansı evi tikmişdiniz ki, indi yıxılmağının

dərdini çəkirsiniz?

**R ü s t ə m** *(Məmmədəliyə)*–Qaqaş, sən Demblok barədə düz deyirsən. Amma indi yeri deyil, qoy bu gün kayfımızı çəkək, sabah ayıq başla bu məsələni razbirat eliyərik.

**V a h i d** –Yox, mən sizinlə razı deyiləm. Bu məsələ çox vacib məsələdir.

**R ü s t ə m** –Vahid, vo-pervıx, səni and verirəm atovun goruna, kefimizə soğan doğrama, qoy arağımızı içək, vo-vtorıx da, siz unudursunuz ki, aramızda bizə düşmən olan iqtidar çleni var.

**İ x t i y a r** –Qaqaş, qorxma bu gün siz Demblokda bir-birinizin xirtdəyini üzəndə, biz orda baş verən bütün həngamələrdən xəbərdar olurduq.

**R ü s t ə m** –Demək, bizim içimizdə sizin şpionunuz var?

**İ x t i y a r** –Sən bizi hələ tanımamısan? İstəyirsən orda kim nə deyib bir-bir qoyum ovcuna. *(Əlini uzadır.)* Fıştırığın gəlsin.

**V a h i d** –Sən öl, ayıldıq, xərcimiz batdı.

**İ x t i y a r** –İnşallah, özünüz də batacaqsınız.

**R ü s t ə m** –Arzun gözündə qalsın. *(İxtiyara)* Qaqaş, amma sən də unutma, sizin də içinizdə bizim adamımız var.

**İ x t i y a r** –Nə təhər olur ki, sizin içinizdəki bizim adamımızı şpion, amma bizim içimizdəki sizin şipionu adam adlandırırsınız?

**V a h i d** –Ona görə ki, biz millətə qulluq edirik, sizsə dövlətə. Özü də o dövlətə ki, xalqı ən adi haqlardan məhrum eləyib. Qaz yox, işıq yox, iş yox, itirdiyimiz torpaqları qaytarmağa ümid də yox. Bircə səsimiz vardı, onu da hər seçkidə göz görəsi oğurlayırsınız.

**İ x t i y a r** –Bizim seçkilər həmişə olduğu kimi, bu il də xarici müşahidəçilərin gözü qarşısında demokratik keçib.

**M ə m m ə d ə l i** –Ə... Sizin üzünüz padoşdu? Utanıb qızarmadan ağ yalanı üzümüzə qənşər elə deyirsiniz ki, adamın matı-qutu quruyur.

**V a h i d** - Qoy desinlər. Onsuz da axırları çatıb.

**İ x t i y a** r–A bala, səbriniz olsun, axı, bu, keçid dövrüdür.

**V a h i d** –Ə... Sənin də insafın olsun. Bu keçid dövrü nə qədər olar? Ötən illərdə millətin hansı dərdinə əlac etmişdiniz ki, bundan sonra neyləyəsiniz?

**R ü s t ə m** –Bravo! Gəlin, diskussiyanı kəsək. Ya predlaqayu bunu

içək demokratiya uğrunda hərəkatın sağlığına! *(İçirlər.)*

**Məmmədəli**–Əhsən! Bu sağlıqla da DUH-un məsələsi düzəldi.

**Vahid**–Amma bir məsələni sizin yadınıza salmaq istəyirəm. Demblok yaranandan bir qədər sonra bizim partiyanın lideri qəzetdə bu məsələyə işarə etmişdi *(Masanın üstündən bir qəzet götürüb oxuyur):* "Demblokun yaranmasını alqışlamalıyıq. Amma yaratmaq asan, qoruyub saxlamaq çətindir. Aramıza girib bizi parçalaya bilərlər". Gör, o kişi nə boyda uzaqgörənlik eləmiş, hələ o vaxt bu günü görmüşdü. Ona görə də mən təklif edirəm ki, gələcəyə belə proqnoz verən o kişinin yaratdığı partiyanın sağlığına içək. *(İçir.)*

**Məmmədəl**–Amma dağılmaq qorxusunu hələ Demblok yaranmamışdan əvvəl bizim partiya bəyan etmişdi. *(Masanın üstündən qəzeti götürüb hamıya göstərir.)*

**Vahid**–Düz deyirsən, Məmmədəli. Onda mən ölüm, bir kişilik elə, sən də iç bu badəni öz partiyanızın sağlığına!

**Məmmədəli**–Əgər sənin kişiliyin çatırsa, sən mənim əvəzimə iç o badəni bizim liderin sağlığına.

**Vahid** - Nakişi özünsən!

**Məmmədəli**–Yeznə, deyir su girdi qaba, oldu içməli. Demək sən daha özgəsi deyilsən. Bu ailənin üzvüsən, özün də maşallah, alim adamsan. Sən de görək, bizim bu didişməmizə necə baxırsan?

**Azər**–Çox adi.

**Məmmədəli**–Necə yəni - çox adi?

**Azər**–Ona görə adi baxıram ki, ailə cəmiyyətin kiçik bir modelidir.

**Məmmədəli**–Başa düşmədim.

**Vahid**–Başa düşmək üçün baş lazımdır. Yeznə demək istəyir ki, bir ailədə ki, bu boyda çəkişmə və didişmə gedir, ailələrin cəmi olan bir cəmiyyət bir qara qəpiyə dəyməz.

**İxtiyar**–Yəni, demək istəyir ki, sizin didişmələrinizin heç bir faydası yoxdur. Dəyirman bildiyini eləyir, çak-çuk başını ağrıdır.

**Məmmədəli**–Demək, dəyirman deyəndə iqtidarı nəzərdə tutur?

**Rüstəm**–Bəli, demək istəyir ki, müxalifət çox atdanıb-düşməsin.

İqtidar həmişə iqtidar olaraq qalacaq.

**İxtiyar**–Bax, indi başa düşdünüz! Belə ağıllı yeznəyə can qurban!

**Məmmədəli**–Yeznə, sən doğrudan bu fikirdəsən?

**Azər**–Mən siyasət adamı deyiləm və xahiş edirəm məni bu işlərə qatmayasınız.

**Vahid** *(Azərə)*–Bura bax, oxu atıb yayı gizlətmə. Qaçqınsan, qaçqın qələtini elə və bizim işlərə burnunu soxma!

**İxtiyar**–Ona görə ki, həqiqət sizin xoşunuza gəlmir.

(Gülbahar gəlir.)

**Rüstəm** *(Vahidə)*–Mən başa düşə bilmədim yeznənin sözü niyə səni belə özündən çıxartdı? Axı, elə o da biz deyəni deyir. Bir krışanın altında nə qədər didişə–didişə yaşamaq olar? Məgər biz anamızın bolnitsadan çıxmasını gözləmirdik? Çamadanlarımız da hazır. İndi Allaha şükür, anamız sağalıb, daha ayrılmalıyıq. Bu dədə mülkünü də verək yeznəyə.

**Gülbahar**–Yeznənin sizin dədə mülkünüzə ehtiyacı yoxdur. Onun öz evi var. Əgər ayrılmaq istəyirsinizsə...

(Ana gəlir.)

**Ana**–Necə? Ayrılmaq? Sən nə danışırsan, Gülbahar?

**Gülbahar**–Ana, mən sənə demirdim. Amma indi deməyə məcburam. Oğlanların sənin xəstəxanadan çıxmağını gözləyirdi. İndi hər biri öz yuvasına çəkilmək istəyir.

**Ana**–Bəs bu boyda dədə mülkündə kim qalacaq? Mən kirayənişinlərin hamısını çıxartmışam ki, balalarıma bir-bir bu dədə ocağında toy eləyim. İndi bunlar hara gedir?

**Rüstəm**–Ana, sən özün də görürsən ki, biz bir yerdə yaşaya bilmirik, dalaşırıq, sən də bundan bespokoitsya olursan. Həm də biz ailə qurmalıyıq. Axı, el elə sığışar, ev evə sığışmaz. Ana, sən razreşat elə, ayrılaq.

**Ana**–Siz mənim meyidimin üstündən keçib gedə bilərsiniz. Mən nə qədər sağam, siz bir yerdə olmalısınız. Mən bu xəstə ürəyimi 5 yerə necə bölüm?

**G ü l b a h a r** –Ana, indi zəmanə başqa zəmanədir. Sən dediyin qaldı keçmişdə.

**A n a** –Onsuz da mənim ömrümə çox qalmayıb. Onda gözləsinlər, məni o dünyaya yola salandan sonra bildiklərini eləsinlər.

**R ü s t ə m** –Sən nə danışırsan, ana? Bizim toyumuzu eləməmiş, nəvə görməmiş hara gedirsən? Söhbət səndən getmir, biz dolana bilmirik.

**A n a** *(Vahidə)*–Qardaşın nə deyir? Sən də onunla razısan? *(O birilərinə üzünü tutur.)* Siz də ayrılmaq istəyirsiniz?

**V a h i d** –Ayrı əlacımız yoxdur, ana, biz ayrılmalıyıq.

**A n a** –Qoymaram. Siz əvvəl məni bu dünyadan köçürün, sonra dədənizin ruhu yaşayan bu ocaqdan köçərsiniz. (Qoltuğundan "Dədə Qorqud" kitabını çıxarıb tutur uşaqlarının qabağına.) Olmaz, bu ocaqdan getmək olmaz, dədənizin ruhu sizdən inciyər.

**R ü s t ə m** –Əşi, sən də bu kitabı saatda bir soxma gözümüzə. *(Ananı itələyir. Kitab yerə düşür. Ana səndirləyib yıxılır. Gülbahar onu tutub taxtda uzandırır.)*

## BEŞİNCİ ŞƏKİL

**R ü s t ə m** *(anasına yaxınlaşır)* - Ana, ay ana! (Zəhrabəyim dinmir). Ana!

**A n a** *(zəif səslə)*–Nə deyirsən, ay bala?

**R ü s t ə m** –Ana, mən sənin yanında günahkaram. Mənim günahımdan keç. Dünən səni incitdim.

**A n a** –Sənin qadanı alım, ay bala. Sənin nə günahın var ki, mən ondan keçim?

**R ü s t ə m** –Yox, ana, biz hamımız sənin yanında günahkarıq.

**İ x t i y a r** –Təkcə indi yox, ey... Lap elə uşaqlıqdan biz səni çox incitmişik. *(Üzünü qardaşlara tutub.)* Öz aramızdır, biz yaman dəcəl, dalaşqan olmuşuq. *(Vahidə)* Yadına gəlir, qonşudakı zırpı erməni gədəsi ilə dalaşmışdım. Zalım oğlu məni necə basmarladısa, bir vaxt gördüm yerdə çapalayıram. Vahid köməyimə gəlməsəydi, işim bitmişdi.

**V a h i d** –Hardansa bundan xəbər tutan anamız başı alovlu

köməyimizə gələndə, pilləkəndən üzü aşağı necə yıxıldısa, qolunu sındırdı.

**R ü s t ə m** *(Gülbahara)*–Sən onda uşaq idin. Yadına gəlməz. Yazıq arvadın qolu 6 ay gipsdə qaldı.

**M ə m m ə d ə l i** –Amma bir gün də yatmadı. Maaşı kəsilməsin deyə, işə də getdi.

**V a h i d** –Tək qolu ilə xörəyimizi bişirdi, çörəyimizi verdi.

**G ü l b a h a r** –Nənəm deyərdi ki, atamız öləndən sonra anamızı istəyənlər çox olub, amma getməyib.

**R ü s t ə m** –Deyib ki, mən övladlarımı ögey ataya qapazaltı eləyə bilmərəm.

**İ x t i y a r** –Nənəm də deyib ki, uşaqlara mən baxaram, sən ömrünü puç eləmə.

**V a h i d** –Anam da nənəmə deyib ki, mən öz analıq borcumu heç kəsin boynuna yükləyə bilmərəm.

**R ü s t ə m** –Bəs onda bizim övladlıq dolqumuz yoxdur?

**M ə m m ə d ə l i** –İmam Cəfər Sadiqi hədisi-şərifində buyurub ki, övlad öz anasını çiynində payi-piyada 7 dəfə Kəbəyə aparıb gətirsə, yenə onun borcundan çıxa bilməz.

**İ x t i y a r** –Sizi bilmirəm, amma mən xəcalət çəkirəm.

**V a h i d** –Elə hamımız içimizdə çəkirik. Amma xəcalətlə iş bitirmi?

**İ x t i y a r** –Bəs, indi neyləyək? Onu bu vaxtında tək qoyub getməyə haqqımız varmı?

**R ü s t ə m** –Məsələnin bu tərəfi düz. Amma o tərəfdən də fikirləşirsən ki, tək niyə? Axı, Gülbahar onun yanında olacaq. Biz də tez-tez baş çəkərik.

**G ü l b a h a r** –4 bığıburma oğlanları olduğu halda, ananın kürəkən çörəyi yeməsi düzdürmü? El nə deyər?

**R ü s t ə m** –El qələt eləyər. Qız ola-ola, xəstə anaya gəlin yox, qızı baxar.

**M ə m m ə d ə l i** –Əlbəttə, sənin ənlik-kirşana bürünmüş modnitsa, russkoyazıçnı arvadın qaynanaya baxa bilməz.

**R ü s t ə m** –Onda qoy qaynanasına sənin ənlik-kirşana bürünməyən,

örpəyə bürünən nişanlın baxsın.

**G ü l b a h a r** –Bəsdir, ayıbdır, hələ mən ölməmişəm. "Ana oğul çörəyi yeməlidir" deyəndə, mən sizin dəyanətinizi sınayırdım. Çürük çıxdınız.

**A n a** –Balalarım, Allah məni sizin arvadlarınıza möhtac eləməsin. Mən hələ çulumu sudan çıxara bilərəm. Mənim sizdən təvəqqem ayrı şeydir: didişməyin bir-birinizlə, ayrılmayın bir-birinizdən. Əgər mənim bu təvəqqemi yerinə yetirsəniz, qəbrimdə də sizə duaçı olaram.

**R ü s t ə m** –Ana, biz hamımız sənə borcluyuq, sənə minnətdarıq. Sən bir şeyi bilməlisən ki, biz dördümüz də ana kimi sənə haqq verir, səni başa düşürük. Amma gərək sən də bizi başa düşəsən. Axı, sən də bilirsən ki, bizim davamız ev davası, mal-mülk davası deyil, əqidə davasıdır, fikir davasıdır. Ona görə də bizim yolumuz bir ola bilməz.

**A n a** –Siz əqidəni kənarda niyə axtarırsınız? Ən böyük əqidə elə bu kitabdadır. Bu kitab milləti yumruq kimi birləşməyə, adətimizi-ənənəmizi, dilimizi, dinimizi qorumağa çağırır. Bu kitab bismillahla başlayıb, Aminlə bitir.

**M ə m m ə d ə l i** –Anamız haqlıdır.

**V a h i d** –Bizim hamımızın əqidəsi Vətəndir, millətdir, onun xoşbəxtliyi, onun gələcəyidir. Amma fərqimiz ondadır ki, Vətənin xoşbəxtliyi üçün getdiyimiz yollar başqa-başqadır.

**G ü l b a h a r** –Vətən birdirsə, onun xoşbəxtliyinə gedən yol da bir olmalıdır. Yollar müxtəlifdirsə, deməк, burda mənafe də müxtəlifdir. Demək, sizin davanız kürsü davasıdır.

**İ x t i y a r** –Afərin, bacım! Vətən bir, kürsü də birdir. O kürsü tutulubsa, bizim hamımızın borcu kürsüdə oturmaq yox, ona dəstək vermək, onu çiynimizdə göyə qaldırmaq olmalıdır. Bu gün bu kürsüdə mən oturuİram, sabah siz oturacaqsınız. Dövlətin başında oturanlar gedir, dövlət qalır, Vətən qalır, millət qalır.

**V a h i d** –Əgər kürsüdə oturan Vətən və millət üçün bir iş görə bilmirsə?

**M ə m m ə d ə l i** –Əgər kürsüdə oturan dini dövlətdən ayırırsa, necə?

**V a h i d** –Yoxsa, sən bizi İranın quyruğuna calamaq istəyirsən? Bi-

zim dinimizə böyük hörmətimiz var. Amma din bizim əxlaqımızı və mənəviyyatımızı qorumaqla məşğul olmalıdır. Vəssalam!

**G ü l b a h a r** –Bəsdirin! Sizin evinizi yıxan o çamadanlara yığdığınız kitablar, masanızın üstünə qat-qat yığdığınız riya dolu, yalan dolu, çirkab dolu bu qəzetlərdir. *(Qəzetləri masanın üstündən götürüb çölə fırladır.)* Ana bizi birliyə çağırır, siz yenə daşı ətəyinizdən tökmür, dediyinizi deyirsiniz. Anamız orda inildəyir, siz onun başı üstündə yarasına məlhəm qoymaq əvəzinə, o yaranı neştərləyirsiniz.

**A n a** –Balalarım, yaxın gəlin. Mən daha o dünyalığam, sizə son sözümü deyəcəyəm: 14 il əvvəl dədəniz 61 yaşında dünyasını dəyişdi. Onda siz hələ dediyiniz fikir, əqidə sahibi deyildiniz. Ölümündən 1 gün əvvəl *(balışın altından "Dədə Qorqud" kitabını götürür)* o, bu kitabı mənə verib vəsiyyətini elədi. Dədəniz bütün ömrünü bu kitabı öyrənməyə həsr eləyib. Bunu bütün Azərbaycan bilir. O, bu kitaba görə həbsxanaya düşdü. Uzun illər "millətçi" damğası ilə yaşadı. "Dədə Qorqud" yasaq ediləndə də "Bu kitab dədəmizin kitabıdır" - deyə ondan əl çəkmədi. Onun hər cümləsini, hər sözünü bir-bir çözələdi, öyrəndi. Bu kitab onun üçün o qədər əziz və müqəddəs idi ki, siz doğulduqca doğum tarixinizi bir-bir bura yazıb. Siz hamınız bu kitabda bir yerdəsiniz. İndi siz bir-birinizdən ayrılsanız, onun ruhunu incidər, mənim ana ürəyimi parçalayıb bölmüş olarsınız. Atanızın da vəsiyyəti budur. *(Dərin sükut.)* Mən yenə sizdən təvəqqe edirəm: ayrılmayın!

**G ü l b a h a r** –Sizin o çamadanlara yığdığınız kitabların hamısını tərəzinin bir gözünə, "Dədə Qorqud"u da o biri gözünə qoysaq, bu kitab hamısından ağır gələr. Budur dədəmizin öz əli ilə yazdığı vəsiyyət: "Bu gün oktyabr ayının 2-də ömür-gün yoldaşım Zəhrabəyimin cismindən bir parça ayrıldı ki, adını qoyduq Qorqud balam." *(Rüstəm atasının yazdığı səhifəyə baxıb xəttini tanıyır və yaylığı ilə göz yaşlarını silir.)*

**A n a** –Atanızın ruhu məni bağışlasın. Mən o vaxt zəmanədən qorxub sizin hamınızın adlarını dəyişdirmişəm.

**G ü l b a h a r** –"Filan tarixdə Zəhrabəyimin cismindən bir parça da ayrıldı, onun da adını qoyduq Beyrək." *(Vahid də yaxın gəlib atasının xəttini görür və yaylığını basır gözünə.)* "Filan tarixdə Zəhrabəyimin cismindən bir parça da ayrıldı, onun da adını qoyduq Bayandur." *(İxti-*

*yar da yaylığını üzünə tutur.)* "Filan tarixdə o zəif bədəndən bir parça da ayrıldı, onun da adını qoyduq Salur." *(Məmmədəli də gözlərinin yaşını silir.)* "Filan tarixdə yazıq Zəhrabəyimin qalan bədənindən bir parça da ayrıldı ki, onun da adını qoyduq Banuçiçək." Ana, indi izn ver, atamızın qoyduğu adları qaytaraq.

**A n a** –Yox, qızım, atanızın verdiyi Dədəm Qorqud adlarını özünüzə o vaxt qaytara bilərsiniz ki, siz o adlara layiq olasınız.

**G ü l b a h a r** *(Atanın yazısını oxumağa davam edir)*–"Yer, göy, ay və ulduzlar göylərdə seyr edib gəzə-gəzə əvvəl-axır günəşin başına dolanırlar. Çünki ay və ulduzlar hamısı çox-çox əvvəllər günəşdən qopub ayrılan parçalardır.

Mən etiqad edirəm ki, mənim balalarım dünyada hər yeri gəzib-dolansalar da, yenə də əvvəl-axır anaları Zəhrabəyimin ətrafında dolanmalıdırlar. Çünki ay və ulduzlar günəşin parçaları olduqları kimi, mənim balalarım da analarının ay və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin bu əzəli qanununu pozmaq istəyə."

**A z ə r** –Sizi ağladan bu ibrətamiz sözlər mənim də çoxdan axtardığım bir müşkülü açdı. Tapdığım ulduza ad tapa bilmirdim. Ay və ulduzların günəşdən ayrıldığına və buna görə də günəşə öz minnətdarlıqlarını bildirmək üçün onun başına dolanmalarından dərs götürməyi sizə tövsiyə edən atanızın bu sözləri məhz Dədə Qorqud haqqında yazdığı bu kitaba əlavə etməsi təsadüfi deyil. Çünki "Dədə Qorqud" bizim Oğuz dədəmizin bizə kimliyimizi tanıdan müqəddəs kitabıdır. Buna görə də mən sizin müdrik atanızın bu müdrik sözlərindən dərs götürüb, tapdığım ulduzun adını "Dədə Qorqud" qoyuram.

**A n a** –Allah səndən razı olsun, Azər balam. Tapdığın ulduza ulu dədəmizin adını verməklə, sən ana Vətənimizə səssiz-küysüz, haray-həşirsiz, dava-dalaşsız xidmət eləmiş oldun. Vətənə və dədə ruhuna əsl xidmət belə olar. Mən indi dünyadan rahat köçə bilərəm. (Ana başını yastığa qoyur.)

**G ü l b a h a r** *(Ananın əlindən kitabı alıb kürsünün üstünə qoyur.)* –Bu vəzifə kürsüsündə yalnız Dədə Qorqud ruhundan çıxan, öz kökünə qanı və canı ilə bağlı adamın oturmağa haqqı var. Sizin kimi öz ata və anasına arxa çevirən, onların ruhuna biganə olan, kökündən ayrılmış

adamların bu kürsüdə oturmağa haqqı yoxdur.

**A n a** –Qızım... Səni çox incitdim... mənə halallıq ver.

**G ü l b a h a r** –Ana, mən sənə neylədim ki...

**A n a** –Qızım... *(Gözlərini yumur.)*

**G ü l b a h a r** –Ana, ana! Eşitmirsən məni? *(Anasına doğru əyilir, onu silkələyir.)* Ana! Ay ana! Ana! *(Ağlayır.)* Quş kimi uçub getdi *(hönkürür.)*

(Övladlar ananın ətrafına toplanırkən)

**Pərdə**

*May-iyun, 1999.*
*2000-ci il oktyabrın 6-da Gənclərə*
*Teatrında tamaşaya qoyulmuşdur.*





# FƏRYAD

## (YEDDİ ŞƏKİLDƏN İBARƏT MƏNZUM DRAM)

İŞTİRAK EDƏNLƏR:

**Əmir** – Hələb əmiri.
**Vəliəhd** – Əmirin oğlu.
**Zahid** – ölkənin din xadimi.
**Dəyanət** – onun oğlu.
**Loğman** – saray alimi.
**Aypara** – onun qızı.
**I Nəsimi.**
**II Nəsimi.**
**Vəzir.**
**Çalpapaq** – Loğmanın gənclik dostu.
**Qoca şair.**
**Gənc şair.**
**Rəhman** – məhbus.
**Sübhan** – məhbus.
**Kəramət** – məhbus.
**Şəkkak.**
**Gözətçi** – zindan keşikçisi.
**Lal.**
**Mərvan.**

## PROLOQ

M ə h b u s l a r dar ağacı qururlar.
G ö z ə t ç i kənarda gəzinir.

**R ə h m a n**

Ordan o baltanı bəri ver görək.

**K ə r a m ə t**

Buyur.

**S ü b h a n**

Taxtalar da çürükdür.

**R ə h m a n**

Neynək?!
Əsl dar ağacı - bu ki, bəllidir -
Çürük taxtalardan düzəlməlidir.
Bütün ağacların kökü var ikən,
Köklü dar ağacı heç gördünmü sən?

**G ö z ə t ç i**

Dilə güc verməyin, ələ güc verin,
Qisməti zindandır zəvzəyənlərin.

**K ə r a m ə t**

Əlim bərk gicişir, vurummu?

**R ə h m a n**

Dayan!
Sən də çox banlama belə obaşdan.

**S ü b h a n**

Asılan asılır, bunlar nağıldı,
Həllaci dəstəsi yaman dağıldı.

**R ə h m a n**

Bəs Musa?

(G ö z ə t ç i kənardan onları dinləyir.)

**K ə r a m ə t**

Hələlik o, tutulmayıb.

**R ə h m a n**

Demək, hələ Musa məğlub olmayıb.
Onun ağlı iti, yolu da haqdır.

**G ö z ə t ç i**

O da sizin kimi tutulacaqdır.

**S ü b h a n**

De, sən öl!

**K ə r a m ə t**

Mən ölüm!

**S ü b h a n**

Bəs hələ sağsan?

**K ə r a m ə t**

Vurummu?

**R ə h m a n**

Dayan!

**G ö z ə t ç i**

Zahid fitva verib: özü gəlməsə,
Nəslini qıracaq... Sözüm gerçəkdir.
Musanın başını gətirən kəsə
Yetmiş min mükafat veriləcəkdir.
Kaş, mənim əlimə keçəydi Musa.

**K ə r a m ə t**

Gücün çatardımı ona, ay kosa?

**G ö z ə t ç i**

Sən pulun gücünü bilmirsən hələ!
Pul elə bıçaq ki, onun gücüylə
Bir nədir, yüz başı kəsən görmüşəm.

Mən də gördüyümdən dərs götürmüşəm.

**Sübhan**

Dərsin yaman dərsdir.

**Gözətçi**

İşləyin, görək.
Bu gün bu həngamə qurtarsın gərək.

*Gözətçi gedir, işıq sönür, sağdan Loğman, soldan Zahid çıxır.*

**Loğman**

Yalanla gerçəyin çarpışmasından
Nələr... nələr çəkir bu yazıq insan.
Gerçəkdir ən böyük dinim, kitabım,
Odur həm sevincim, həm iztirabım.

**Zahid**

Ölüm də gerçəkdir... Kim onu istər?
Hər gerçək olan şey sevilir məgər?

**Loğman**

Yalan gerçək kimi deyilən zaman
Haqqın da tüstüdən gözü yaşarmış.
Yalan halva kimi yeyilən zaman
Həqiqət zəhərtək acılaşarmış.

**Zahid**

Bəzən ən doğru söz – həqiqət olmur,
Həqiqət hər yerdə zərurət olmur,
Həyat üzə durar, bizi yamanlar,
Uymasaq dünyanın öz gərdişinə.

**Loğman**

Yaşamaq xətrinə haqqı dananlar,
Qazana-qazana uduzur yenə.

## BİRİNCİ ŞƏKİL

XV əsrin əvvəli. Hələb. Sarayda V ə l i ə h d i n
yataq otağı. V ə l i ə h d yatır. Kosmik musiqi.
V ə l i ə h d yuxu görür...
D ə y a n ə t i n kölgəsi görünür.

**V ə l i ə h d**

Dəyanət? Bu sənmisən? Yenə gəldin sən, yenə.
Niyə öz həyatını qurban verdin sən mənə?

(sükut)

Heç unuda bilmirəm o dəhşətli günü mən.
Gecələr qovammıram yuxumdan da səni mən.
Gündüzlər hara getsəm, hərlənirsən yanımda,
Sən bir qara xal kimi durmusan vicdanımda.
Ölüb mənim yerimə, məni saldın zülümə.
Söylə, mənim yolumda niyə getdin ölümə?
Niyə? Cavab ver, niyə?

(sükut)

Niyə öz həyatını qurban verdin özgəyə?
Dinmirsən... Onda rədd ol, nə durmusan, getsənə!
Eşitmirsən?.. Ah, işıq! İşıq verin tez mənə!
Məndən ötrü sən neçin qıydın öz həyatına?

**D ə y a n ə t**

Sənin bircə yolun var: məni salma yadına?

(getmək istəyir)

**V ə l i ə h d**

Məni cavabsız qoyub hara gedirsən? Dayan!

**D ə y a n ə t**

Bilmək üçün o sirri dönüb mən olmalısan.

**V ə l i ə h d**

Mən də sənin bildiyin hikmətlərdən halıyam,

Sənin bacardığını mən də bacarmalıyam!

**D ə y a n ə t**

Nə deyirəm, de, bacar, bax, bu meydan, bu da sən.
Məsəl var: vuran oğul soruşmaz bir kimsədən.

(sükut)

İgid dilə gətirməz hər qəlbindən keçəni.

**V ə l i ə h d**

Niyə aciz görürsən, axı, niyə sən məni?

(D ə y a n ə t qəhqəhə çəkib gülür).

**D ə y a n ə t**

Daldan atılan daşın topuğa dəydiyini
Özün yaxşı bilirsən.
Təlaşların əbəsdir, polad sınar, əyilməz,
Öz boyundan yuxarı heç kəs tullana bilməz.
Sənə yaxşı bələdəm, gözəlsə də xislətin,
Acizlik xəmrəsiylə yoğrulubdur fitrətin.

**V ə l i ə h d**

Sübut elə, sən sübut!

**D ə y a n ə t**

Bu gün, sabah, ya dünən,
Mərdanə bir ölümü səndən heç ummuram mən,
Olanı olduğu tək demək necə? Çətindi?
Sən ondan da çəkindin...
Bax, burdadır xəyanət!
Niyə sən demədin ki, öldü mənim yerimə
Zahid oğlu Dəyanət?

**V ə l i ə h d**

Yetər, dedin, nəhayət, ürəyindən keçəni,
Mən bunu gözləyirdim, istəyirdim sən məni
Danlayasan, söyəsən,

Mənə haqq verməyəsən...
Bulanıq dağ seliyəm, istədim ki, durulum,
Sənin töhmətlərindən özümçün aydın olum.

**D ə y a n ə t**

Nə qədər ki, həyatda tapmamısan qayəni,
Mən səni söyməsəm də, döyəcək həyat səni.
Bir amalın yolunda iztirab çək, əzab çək!
Arzu çiçəklərindən ürəyində gülab çək!
Nəşə, sevinc ürəyi hər gün dayazlaşdırar,
İdrakın zirvəsinə kədər qapı açdırar.
Yar olsun əzab sənə, dərd sənə, kədər sənə,
İnsantək yaşamağı əzab öyrədər sənə.
Heç olmasa sev, barı,
Səni yaşada bilsin sevginin əzabları.

D ə y a n ə t i n kölgəsi çəkilir, işıq yanır.
V ə l i ə h d yuxudan oyanır.
Çarpayıdan düşüb gəzinir.
Birdən nəsə yadına düşür, içini çəkir.

**V ə l i ə h d**

Axı, o da sevirdi, sevirdi Ayparanı,
Özüm ağırlığında günah sahibiyəm mən.
Allah, yol göstər mənə,
Allah, qüdrət ver mənə!
(Uzaqdan Ayparanın mahnısı eşidilir).

***Mahnı***

O zamandan ki, sən ulduz kimi söndün,
Səni xatırlayıram hər gecə, hər gün.
Yuxulardan umuram vəslini hərdən,
Demə, imdad yox imiş xatirələrdən.
Səhərim gəlsin, ötüşsün, gecə keçsin,
Suyu anmaqla susuzluq necə keçsin?

Görürəm, yoxmuş həyat, heç demə, sənsiz,
Bu günün ünvanı mümkünmü dünənsiz?
Nə deməkdir, nə demək, bir belə yanmaq?

Səni andıqca anır, doymuram ancaq.
Səhərim gəlsin, ötüşsün, gecə keçsin?
Suyu anmaqla susuzluq necə keçsin?

## İKİNCİ ŞƏKİL

Ayparanın otağı. A y p a r a mahnı oxuyur.
V ə l i ə h d gəlir.

**A y p a r a**

Vəliəhd, xeyir ola, nə əcəb səndən?
Gəlişin xeyirmi?

**V ə l i ə h d**

Lap çaşmışam mən.
Üzümə dayanıb daha vicdanım.
Sənsən ümid yerim, sənsən gümanım.

**A y p a r a**

Nə olub?

**V ə l i ə h d**

Səbrlə sən məni dinlə.
Gəldim ki, dərdimi bölüm səninlə.
Yalan danışmışam, sizə ağ yalan!
İndi asılmışam günahlarımdan.
Dünya sirrə dönüb indi mənimçün.
Yazıq Dəyanəti itirdiyim gün
Elə özümü də itirmişəm mən,
Didərgin düşmüşəm özüm-özümdən.

**A y p a r a**

Səni anlayıram...

**V ə l i ə h d**

O gündən bəri

Mənə dəhşət ilə baxan gözləri
Unuda bilmirəm... Ah o baxışlar!..
Onun ölümündə mənəm günahkar:
Həllaci dəstəsi çıxıb meşədən
Bizim üstümüzə cumdu qəflətən.
Arxamız uçurumdu, qarşımız yoxuş,
Quldur dəstəsi də çevikdən çevik.
Bizim döyüşçülər heç göz açmamış
Gördük hər tərəfdən dövrələnmişik.
Tərpənə bilmədik... Tutdular bizi,
Zəncirə saldılar əllərimizi.
Sonra Vəliəhdi xəbər aldılar,
Susdum... Zahid oğlu Dəyanət bu dəm
Dedi: Vəliəhdəm, nə sözünüz var?
Dedilər: - Yalandır, o dedi: - Mənəm:
Bir də soruşdular: Vəliəhd kimdir?
Qorxudan bədənim əsirdi tir-tir.
Baxışlar ox kimi sancıldı mənə,
Dilim tutulmuşdu, susurdum yenə.
Dəyanət qışqırdı bir də: Karsınız?
Niyə Vəliəhdə inanmırsınız?
Onların başçısı...

**A y p a r a**

Musa?

**V ə l i ə h d**

Hə, Musa!
Bilmirəm bu anda necə oldusa
Məni yana çəkdi, üzümə baxdı,
Elə bil gözləri danışacaqdı.
Bir kəlmə astadan "get" dedi, oğlan,
Arxama baxmadan mən qaçdım ordan.
Dəyanət, beləcə, mərdü-mərdanə
Mənim əvəzimə getdi qurbana.

**A y p a r a**

Nəhayət, nəhayət, qəlbini açdın,
Yaxşı ki, hər şeyi özün danışdın.

Etiraf savabdır, günah deyil ki...
Qoydun öz yerinə qaranı, ağı.

**V ə l i ə h d**

Bununla bərabər, onu da bil ki,
Mən səndən ummuram bağışlanmağı,
Sənin gözlərinə yalnız mən bu gün
Görünmək istədim olduğum kimi.
Lakin bir ricam var: Atan bilməsin,
Mənim Dəyanətə xəyanətimi.
Loğman ustadımdır, ilkin ustadım.
Mən ona layiqli şagird olmadım.

**A y p a r a**

Atam sevir səni öz oğlu kimi.

**V ə l i ə h d**

Amma vicdanımda ləkə var, ləkə.
Qorxuram eşidib xəyanətimi
Atan, əvəzimə xəcalət çəkə.

**A y p a r a**

Aydındır.

**V ə l i ə h d**

Sirrimi açıb mən sənə
Verdim günahımı mühakimənə.
Özüm çox çalışdım, bacarmadım mən,
Səndən istəyirəm cəzamı, səndən!

**A y p a r a**

Özün öz cəzanı sən verməsəydin,
Mənim də yanıma gəlməzdin yəqin.
Qayıdaq keçmişə... Dəyanət, sən, mən
Birlikdə böyüdük lap körpəlikdən,
Bir yerdə dərs aldıq mənim atamdan.
Yaxşı xəbərdarıq bir-birimizdən.
Üstün tutmamısan özünü bizdən.
Vəliəhd olsan da, sən ki, heç zaman.

Cəza məqbul olar, günahkar özü
Pis iş tutduğunu əgər bilməsə.
Ancaq cəza düşmür, öz günahını
Çəkdiyi əzabla ödəyən kəsə.

**V ə l i ə h d**

Belə deyəcəksən, bilirdim yəqin,
Ağlına, hissinə bələdəm sənin.
Bununla bərabər, bunlar sözdü, söz!
Mən əzab çəkirəm gecəbəgündüz.

**A y p a r a**

Dostunu qəlbində yaşatmaqla sən
Qurtara bilərsən işgəncələrdən.
Gəl, hər işimizdə, diləyimizdə
Ona layiq olaq, deyirəm, biz də.
Onun heykəlini xeyir rəmzitək
Ucaldıb, yaşadaq ürəyimizdə.
Onun amalıyla, gəl, yaşayaq biz.

**V ə l i ə h d**

Ancaq Dəyanətlə fikirlərimiz
Bəzən toqquşurdu...

**A y p a r a**

De görək, niyə?

**V ə l i ə h d**

Onun meyli vardı hürufiliyə!

**A y p a r a**

Nə olar, qoy olsun, nə deyir onlar?

**V ə l i ə h d**

Deyirlər, insanda Allah əzmi var.

**A y p a r a**

Qəbahət axtarma sən sufilikdə
Vəhdəti dərk edən günahkar deyil.
Dərindən baxsanız, hürufilik də

Allahı təsdiqdir, o, inkar deyil.

**V ə l i ə h d**

İnanmıram mən,
Həqiqət ummuram hürufilikdən.

**A y p a r a**

Ağlımız buz tutub, ürəyimiz boş,
Ehkam əqlimizi qalıba saldı.
Mənəvi paklığa yüksəliş, uçuş
Özün de, nə üçün günah sayıldı?

**V ə l i ə h d**

İnsan ki, Allaha yetişə bilməz,
Sənin "Ənəlhəq"ə sözün nədir bəs?

**A y p a r a**

Bu kəlam insana inamdır, inam!

**V ə l i ə h d**

İnsanın gücünə mən inanmıram!

**A y p a r a**

Özündə o gücü görmədiyindən
İnsan qüdrətinə şəkk elədin sən.

**V ə l i ə h d**

O qüdrət hardadır? O qüdrət nədir?

**A y p a r a**

İnsanın qüdrəti öz içindədir,
Yaxşı da bizdədir, yaman da bizdə,
Gerçək də bizdədir, yalan da bizdə.

**V ə l i ə h d**

Yalanı güclüdür həqiqətindən.

**A y p a r a**

Amandır, insana böhtan atma sən,

Qüvvətli olsaydı gerçəkdən yalan,
Tərsinə dönərdi bu çərxi-dövran.
Vicdan bəxş eləyib insana tanrı,
Ülviyyət yolunu göstərib ona.
Hər kəs içindəki yamanlıqları
Öldürüb, ucalar kamal taxtına.

**Vəliəhd**

Ucalar, nəfsini öldürə bilsə...
İnsan doğulandan qadir deyilsə,
Öldürə bilərmi yamanlıqları?
Qadir olan təkdir, o da ki, - Tanrı!

**Aypara**

Bəs insan?

**Vəliəhd**

Acizdir yaranışından.

**Aypara**

Bir iman yolunda candan keçənlər
Azmıdır məgər?

(Vəliəhdin gözlərinə
Dəyanətin kölgəsi görünür)

**Vəliəhd**

(öz-özünə)

Zahid oğlutək!
Yox, məndə nə gəzir o böyük ürək?
O, məni tikməkçün özünü yıxdı,
Bəli, bu, böyüklük, bu, ucalıqdı.

**Dəyanət**

Bunu ki, bilirsən, onda sən niyə
İnana bilmirsən bu böyüklüyə?

(İşıq yanır, kölgə çəkilir).

**Vəliəhd**

Sus! Sus! Eşitmirəm!

(Qulaqlarını tutur)

Yox, daha bəsdir!
Hamının söhbəti, sözü qərəzdir.
Gəldim, ovudasan bir qədər məni,
Gəlmədim, dinləyəm öyüdnaməni.

**A y p a r a**

Vəliəhd, qardaşım!

**V ə l i ə h d**

Artıq yoxam mən.
Qaçıram, qaçıram özüm-özümdən.
Kaş, rast gəlməyəydim Zahid oğluna!

(gedir)

**A y p a r a**

Yazıq əzib çəkir... Bəlkə, mən ona
Açım həqiqəti...
(Qapıya tərəf gedir, sonra dayanır).

Yox, tezdir hələ.
Amma ürəyinin təmizliyilə
Böyükdür, ucadır, eşq olsun ona!
Kimdir kiçik deyən insan oğluna?

## ÜÇÜNCÜ ŞƏKİL

Əmir tək əyləşib rəqqasələrin oyununa baxır... V ə z i r g əlir.

**Ə m i r**

Demişəm, deyirəm, deyəcəyəm mən:
Axmaqdır dünyanın dərdini çəkən!

**V ə z i r**

Doğrudur, dünyada nə qədər sağsan,
Zənn et ki, əbədi yaşayacaqsan.

Həyat bir qamçıdır, insan fırfıra,
Fırlana-fırlana gedirik gora.

**Ə m i r**

Yox, gordan danışma, dünyadan danış,
Özünü islatma yağış yağmamış,
Vəzir, dərinə get, üzmə dayazda!

(L o ğ m a n l a  V ə l i ə h d  gəlir).

Çəkilin, bəsimdir!

(Rəqqasələr çəkilir).

Gəlin, bir az da
Dövlət işləriylə məşğul olaq biz.

**V ə z i r**

Doğrudur.

**Ə m i r**

(V ə l i ə h d l ə  L o ğ m a n a)

Yaxşı ki, siz də gəldiniz
Başlayaq.

**V ə z i r**

Hökmdar, keşikçi Mərvan
Zindanda dustaqdır... Elə o vaxtdan
Dinib danışmayır, susur o yalnız,
Sizin o nankora nədir cəzanız?

**Ə m i r**

Çağırın, hüzura gəlsin!

**V ə z i r**

Bu saat!

(Keşikçiyə işarə edir)

Yamanca qudurub düzü camaat.

**L o ğ m a n**

Günahı nədir ki?

(M ə r v a n ı gətirirlər.)

**V ə z i r**

Bu Mərvan ağa
Vəzifə başında yatıb.

**L o ğ m a n**

Elə bu?

**V ə z i r**

Yuxuda başlayıb sayıqlamağa.

**L o ğ m a n**

Nə deyib?

**V ə z i r**

Deyib ki... Yox, bacarmıram,
Əmirin çörəyi qoy olsun haram
Belə nankorlara... Deyib ki...

**Ə m i r**

Denən!

**V ə z i r**

O boyda yalanı necə deyim mən?

**L o ğ m a n**

Oğul, nə demisən?

(Sükut)

**Ə m i r**

De danış, de din!

**L o ğ m a n**

İnsafı böyükdür bizim Əmirin.

(Sükut)

**V ə z i r**

Deyib, zülmkardır bizim hökmdar.

**V ə l i ə h d**

Bəlkə, bu bədbəxtə böhtan atırlar?

**L o ğ m a n**

Vəliəhd düz deyir!

(Sükut)

**V ə z i r**

Yox, ola bilməz!
Böhtandırsa desin, niyə susur bəs?

**L o ğ m a n**

O yazıq nə desin? Axı, yatırkən
Nə danışdığını bilərmi insan?
Yox, bu haqsızlığı götürməz xuda.

**Ə m i r**

Qəlbini danışır insan yuxuda.
Cəza verməliyik indi biz buna,
Cəzamız dərs olsun başqalarına.
Buyurun, söyləyin.

**V ə z i r**

Məncə, bu alçaq
Ölümə layiqdir, ölümə ancaq!

**L o ğ m a n**

Eyni cür düşünməz hamı ölkədə,
"Əmir zülmkardır" - bu söz, bəlkə də,
Bunun öz fikridir, düşüncəsidir.
Yuxuda danışan könül səsidir.
Amma fikrə görə dünyada heç kəs
Qanunla günahkar sayıla bilməz.
İnsan öz fikrində deyil, hökmdar,
Yalnız əməlində günahkar olar.
Bu da günahkardır.

**Ə m i r**

O günah nədir?

**L o ğ m a n**

Mərvanın günahı əməlindədir.
Yatıb iş başında... Buna da uyğun
Verin cəzasını, hər şey düz olsun!

**Ə m i r**

Mən razı deyiləm, Loğman, səninlə,
Kimə zülm etmişəm, sən onu söylə!

**L o ğ m a n**

Yuxuda "zülmkar" deyib bu sənə,
Sən bunun sözünü inkar etsənə!
Ədalətinlə!
Aciz qullarına məhəbbətinlə!
Hökmdar, öldürsən bunu əgər sən
Zalım olduğunu təsdiq edərsən.

**Ə m i r**

(Xeyli fikirləşir)

Aparın, yoruldum... Başqa bir zaman
Baxarıq bu işə...

(V ə l i ə h d ə müraciətlə)

Ey cavan oğlan,
Görürsən nə çəkir atan binəva,
Hər gün bir məhkəmə, hər gün bir dava,
Bunları bilməsən, müsibətindir.
Hökumət işləri yaman çətindir.

**V ə l i ə h d**

(istehza ilə)

Gördüm, çox çətindir.

**Ə m i r**

Bəs nə bilmisən?
Elə öz qınına sən çəkilmisən.

Başımdan aşsa da mənim dərd-sərim,
Sərraf gözləridir amma gözlərim.
Bir təhər olmusan axır zamanlar,
Bəlkə, gizli dərdin, ya istəyin var?

**V ə l i ə h d**

Elə bir şey yoxdur.

**Ə m i r**

Yenə də...

**V ə l i ə h d**

Ata,
Doğrusu, küsgünəm mən bu həyata.

**Ə m i r**

Nə həyat, nə qorxu, nə umu-küsü?
Varmı bu ölkədə səndən güclüsü?

**V ə l i ə h d**

Sən dediyin gücü qazanmadım mən,
O mənə bəxşişdir bu səltənətdən.

**V ə z i r**

(Ə m i r ə)

Siz heç qəmlənməyin, hələ uşaqdır,
Gec-tez hər mətləbi anlayacaqdır.

**Ə m i r**

(L o ğ m a n a)

Bəs nə öyrətmisən sən buna, Loğman?
İtirib özünü bu ki, qorxudan.

**L o ğ m a n**

Hikmət öyrətmişəm, mən ona hikmət.

**Ə m i r**

Hikmətdən şahlığa nədir mənfəət?
Sən ona bu təxtin, bu səltənətin

Gücünü, sirrini öyrətməliydin.

**L o ğ m a n**

Müəllim həyatdır, bir də ki, vərdiş,
Ey dövran sahibi, ata minməmiş
Cilovu tutmağı necə öyrədək?
Şahlığı şahlıqdan öyrənsin gərək!

**V ə z i r**

(Mətləbi dəyişmək üçün)

Hökmdar, şairlər gəlsin məclisə,
Hər kəs sevgisini bildirsin sizə.

**Ə m i r**

Gəlsin!

(2 şair daxil olur)

**V ə z i r**

Buyurun,
Başlasın əvvəlcə ustad.

Əynində qara əba Z a h i d gəlir. V ə z i r i n qulağına nəsə deyir. V ə z i r işarə ilə başa salır ki, gözləsin. Z a h i d kənara çəkilir. Q o c a şair təzim edib şeirini oxuyur.

**Q o c a ş a i r**

Sözdən umuram fikrimə imdad.
Ancaq yox imiş qüdrəti ecaz yaratsın.
Qüdrətli Əmirin ucalıq təxtinə çatsın.
Ustadi - əzim Şeyx Nizami
Görsəydi əgər sizdəki əzmi,
Xosrovların amalına əyləncə deyərdi,
İsgəndəri qarşında sənin qul eləyərdi.

**V ə z i r**

Bəh-bəh! Sözə bax!

**Z a h i d**

Sözdəki hikmətlərə bir bax.

**G ə n c  ş a i r**

(L o ğ m a n ı n  qulağına)

Hikmətdə bir Allahdı Nizami,
Allaha atılmış şərə bir bax!

**L o ğ m a n**

Vallah, bu nəzm çox ucadır adi nəzmdən.
Bir cüzi ricam var fəqət ustadi-əzimdən,
Mümkünsə əgər dəyməsin İsgəndərə ustad.
Tərpətməsin heç Şeyxi də bica yerə ustad.
Bir eşqlə coşsun, özü ilhama tor atsın,
Varsın, Əmirin şəninə bir "Xəmsə" yaratsın.

**V ə z i r**

Çox doğru fikirdir, bəyənilsin!

**Ə m i r**

Bacararsan?

**Q o c a  ş a i r**

Vallah, nə deyim? Olsa əgər azca bir imkan
Evdən çölə çıxmaz, oturub evdə sərasər
Hər gün yazaram...

**Ə m i r**

Yoxmuş o imkan?

**Q o c a  ş a i r**

Ulu göylər
Yoxsulluğumun şahididir, zordu dolanmaq!

**L o ğ m a n**

(Kənara)

Varlanmağa çox meyli var ancaq.

**Ə m i r**

Olsun, baxarıq!

**Q o c a   ş a i r**

(Ə m i r i n  qarşısında ikiqat əyilir)

Ən ali şərəfdir bizə ancaq
Qarşında sənin qul kimi durmaq.

(G ə n c   ş a i r  dərhal Ə m i r i n
qarşısına gəlib bədahətən şeir deyir)

**G ə n c   ş a i r**

Quldursa əgər şair olan, yox qəmi xalqın.
Qəhqəhlə keçər hər dəmi xalqın.
Alçalmaq - ucalmaqdı, bu dövranə təşəkkür,
İnsanə verilmiş bu şərəf-şanə təşəkkür!

**V ə z i r**

Əhsən!

**Q o c a   ş a i r**

Nəyə əhsən? Niyə əhsən?
Gizlində olan mətləbə, ya pərdəyə əhsən?
Ey hakimi-dövran, bunun hər cümləsi qandır.
Zahirdə göyərçindisə, batində ilandır.

**Ə m i r**

( V ə z i r ə )

Bunlar nə deyir?

(V ə z i r  susur)

**L o ğ m a n**

Qibleyi-aləm,
Şahiddi bu aləm, bilir hər kəs
Şair dediyin şairi sevməz.
Böhtan deyilir şairə, böhtan.
Şeirində nə var? Adi təşəkkür öz adından!

**Z a h i d**

Qoy bir də desin şeirini.

**G ə n c   ş a i r**

Amma...
Mən... Mən sinədən gəldi, dedim şeiri və sonra

Dərhal da unutdum...

**Q o c a ş a i r**

Heç utanmır yalanından.

**G ə n c ş a i r**

Tutmuş yalanı gör ki, bu gün kim kimə nöqsan?

**Ə m i r**

Zindan yaraşır, bax, buna, ancaq.

**L o ğ m a n**

Hakimlərə, vallahi, yaraşmaz
Bir kəlmə üçün şairi zindanlara atmaq!

**G ə n c ş a i r**

Bir kəlmə həqiqətdisə, qorxar yalan ondan.
Çox güclüdü bir kəlmə həqiqət
Yüz kəlmə yalandan.
Bir kəlməni susdurmağın ancaq
Zalimlər üçün bir yolu vardır: O da zindan!

**Ə m i r**

Mən hakim olandan bəri, söylə,
Görmüşmü heç aclıq bu ac ölkə?

**G ə n c ş a i r**

Bir xalqa bəlanın biri bəsdir – deyə Allah
Yalnız səni göndərdi bizim ölkəyə, vallah!

**Ə m i r**

Göydən əl üzüb yerdə həqiqət gəzən oğlan,
Tək bircə yolun var: o da üsyan,
Tək bircə yerin var: qara zindan!

(G ə n c ş a i r i zindana aparırlar)

**V ə z i r**

(Ə m i r ə)

Zahid əfəndinin sözü var sizə.

**Ə m i r**

Buyursun.

**Z a h i d**

Hökmdar, məclisinizə
Gəlişim yersizdir, bilirəm özüm,
Ancaq çox vacibdir deyəcək sözüm.

**Ə m i r**

Zahid, bu ölkədə dinə dayaqsan,
Ancaq söylə görək, sən övladının
Yasını nə qədər saxlayacaqsan?

**Z a h i d**

Hökmdar, haqlısan... Din xadimitək
Bu yas paltarını soyunam gərək.
İslamın yolunda şəhid olmuşa
Günahdır yas tutub qara geyinmək!
Ancaq... Neynəyim ki, bir ata kimi
Unuda bilmirəm Dəyanətimi.
Bir də... İstəmirəm matəmdən çıxam
Oğlumun qatili o kafirlərin
Kökünü dünyadan kəsməmiş tamam.

**Ə m i r**

Yaxşı, sözünü de.

**Z a h i d**

Hökmdar, dünən
Nəsimi şeirini əzbərdən deyən
Bir cavan tutmuşuq.

**Ə m i r**

Nəçidir, kimdir?

**Z a h i d**

Deyir, bu şeirlər mənim şeirimdir.

**Əmir**

Demək, Nəsimidir o cavan oğlan?

**Zahid**

Özü elə deyir.

**Əmir**

Bəs nə durmusan?

**Zahid**

Sözümün ardını dinləyin hələ,
Bu xəbər şəhərə saldı vəlvələ.
Camaat axışıb doldu meydana,
Ölüm fitvasını verdim mən ona.
Cəllad qılıncını çəkdi, bu zaman
Bir nəfər arxadan bağırdı: - Dayan -
Cəllad əl saxladı... O, taxta çıxdı.
Bir cəllada baxdı, bir mənə baxdı.
Dedi: Günahsızdır bu cavan oğlan,
Onun oxuduğu o şeiri yazan
Durub qarşınızda, verin cəzamı.
Dondu heykəl kimi heyrətdən hamı.
Nəsimi o deyil, - dedi, - mənəm, mən,
Qaçmaq istəmirəm öz taleyimdən.

**Əmir**

Sən bir cürətə bax!.. Çox qəribədir.

**Zahid**

Ardını dinləyin, hələ bu nədir?
Bu biri sözünü qurtaran kimi
O biri qışqırdı: - Mənəm Nəsimi!
O, yalan danışır... Ara qarışdı.

**Vəliəhd**

Ah!.. Ölüm uğrunda bu ki, yarışdı,
Yaşamaq bu qədər ucuzmuş, görən?

**Ə m i r**

Bəs sonra?

**Z a h i d**

Başımı itirmişəm mən.
O, buna "sus" deyir, bu ona, qibləm.
Düşmüşük yamanca oyuna, qibləm.
O deyir "məni as", bu deyir, məni
Heç başa düşmürəm bu həngaməni.

**Ə m i r**

Zahid, o bədbəxtlər, bəlkə, dəlidir?

**Z a h i d**

Xeyir, ikisi də dərrakəlidir.
O bundan dərindir, bu ondan dərin,
Onlar sahibidir çox hikmətlərin.

**V ə l i ə h d**

(Ə m i r ə)

Anlamaq çətindir, ağlı olan da
Özünü atarmı belə bir oda?

**Ə m i r**

Onların məqsədi nədir?

**Z a h i d**

Hökmdar,
Onlarçın nə məzhəb, nə də ki, din var.

**L o ğ m a n**

Hər kəsin inamı dinidir onun.
Baxışı min-mindir insan oğlunun.

**Ə m i r**

Bizə gərək deyil başqa inamlar,
İslamın bir yolu, bir məzhəbi var.

**Z a h i d**

Biz də yolçusuyuq bu yolun!

**Ə m i r**

Yetər!
Bu boyda şəhərdə, yəni bir nəfər
Yoxmu Nəsimini tanıyan, görən?

**Z a h i d**

O Şirvan əhlidir, öyrənmişəm mən.
Şeytan yuvasından köçən tayfalar
Qəribə məxluqdur, ulu hökmdar,
Onlardan söz almaq müşküldür, düzü.
Onlar kor qoydular şəhərimizi.
Görüm, Fəzlullahı gəlsin lənətə!
Onun müridləri bu məmləkətə
Bir bəla gətirdi hürufiliyi.
Alt-üst elədilər burda hər şeyi.

**Ə m i r**

Zahid, dediyini yaxşı düşün bir,
Bizim bu Loğman da Şirvan əhlidir.

**L o ğ m a n**

Zahid düz buyurur... incimirəm mən.
Bilənə dərs verir indi bilməyən!

**Ə m i r**

Çaşdırıb, gör necə, bir şair bizi.

(L o ğ m a n a)

Sən də tanımırsan o məzhəbsizi?

**L o ğ m a n**

Xeyir, tanımıram, axı, vətəndən
Lap cavan yaşımdan ayrılmışam mən.

**Ə m i r**

Bəs indi neyləyək?

**V ə z i r**

Ulu hökmdar,
Əgər bəyənsəniz, bir təklifim var.

(Əyilib Ə m i r i n qulağına nəsə deyir).

**V ə l i ə h d**

Şah babam, mümkünsə, mənə izn ver,
Mən də bir yaxından görüm onları-
Haqqa nahaq deyən o şeytanları.

**Ə m i r**

Nə olar, razıyam bu təklifə mən.
Mütləq Nəsimidir onlardan biri.
Onu tapmalıyıq...

**Z a h i d**

Ancaq digəri
Daha qorxuludur, əminəm ki, mən,
Nəsimi adıyla ölümə gedən
Ondan amansızdır.

**V ə z i r**

Zahid düz deyir.

**Ə m i r**

Sözüm yox. Di gedin!

(Hamı gedir. V ə z i r l ə Ə m i r qalır)

Rəqqasə gəsin!
Vəzir, ikimizçün məclis düzəlsin.
Əl çəkib dünyanın hər möhnətindən
Yaşamaq istərəm bu dünyada mən.

## DÖRDÜNCÜ ŞƏKİL

Zindan. Dustaqlar hərəsi bir tərəfdə
oturub mahnı oxuyurlar.

**X o r**

Allah adlı ülviyyəti
Öz qəlbində, gör, deyirik.
O qüdrəti, o hikməti
Görməyənə kor deyirik.

**T ə k**

Haqq yolunun cəfasına
Dözənlərə ər deyirik.
"Allahü-əkbər" deyəndə,
"İnsanü-əkbər" deyirik.
Qəlbimizdən bu dünyaya
Biz yol açaq, düz yol açaq.
İdrakında yol gedənə,
Vərdişini tərgidənə,
Öz-özünü dərk edənə
Pir deyirik, pir deyirik.

Gözətçilərin qabağında I və
II N ə s i m i l ə r gəlir.
Z i n d a n g ö z ə t ç i s i onları zindana salır.

**G ö z ə t ç i**

Kəsin, bu nə mahnıdır?

**S ü b h a n**

Mahnı deyil, duadır.

**R ə h m a n**

Yerdən əl üzüləndə güman tək Allahadır.

**S ü b h a n**

Bu nə bəzək-düzəkdir, bəs bu nə çil-çıraqdır.

**G ö z ə t ç i**

Əlahəzrət Vəliəhd özü bu gün zindana

Təşrif buyuracaqdır.

(I və II Nəsimiləri gətirirlər)

**II Nəsimi**

Gün aydın!

**Rəhman**

Salam olsun iki təzə sirdaşa!

**Sübhan**

(Nəsimiləri təpədən-dırnağa süzür)

Deyən, elm əhlisiniz, keçin yuxarı başa.

**I Nəsimi**

Hamı bərabər deyil?
İnsana zinət verən idrakıdır, yer deyil.

**Kəramət**

Sən öl, bizim adamdır.

**Rəhman**

Burda nə ölümü var başqasının, a maymaq?

(üzünü I Nəsimiyə tutur)

Sizi niyə tutublar?

**I Nəsimi**

Düşünmüşük.

**Rəhman**

Düşün də... Düşünmək də yasaqdır?

**I Nəsimi**

Özün kimi düşünmək, deyirlər ki, nahaqdır.

**Sübhan**

Bəs necə düşünməli?

**I I  N ə s i m i**

Öz idrakın sönməli, öz fikrindən dönməli,
Hakimiyyət sahibi hər necə düşünürsə,
Bax, elə düşünməli!

**R ə h m a n**

Sizsə özünüz kimi duydunuz, düşündünüz,
Tora düşüb ağıldan, günahkara döndünüz?

**G ə n c  ş a i r**

Bizimkindən böyükdür onda sənin günahın,
Sizi xilas etməyə gücü çatmaz Allahın.
Özü kimi düşünən seçə bilir hər zaman
Həqiqəti yalandan,
Bu da xoşuna gəlməz həqiqətdən çəkinən
Böyük yalançıların.
Ölkəni öz içindən sökən talançıların.

**R ə h m a n**

(küncə qısılıb, heç danışmayan dustağı göstərir)

Bu oğlan yaxşı tapıb onda haqqın yolunu,
Danışdıra bilmədik bu müddətdə biz onu.
Deyirəm, adın nədir?
Elə susur, danışmır.
Adını da unudub, ləqəbi Sükutidir.

**G ə n c  ş a i r**

Danışmaq öyrənər bir ilə insan,
Amma ömrü boyu susmaq öyrənər.
Yuxuda danışıb, qisməti zindan,
Aşkarda danışmaz, dəlidir məgər?

**K ə r a m ə t**

(S ü k u t i n i göstərir)

Bu qəsdən danışmır, dili var ancaq,

(L a l ı göstərir)

Bu isə anadan lal doğulubdur.
Dünyaya gəlməmiş bədbəxt olubdur.

**R ə h m a n**

Bədbəxt? Dediyini düşündünmü sən?
O xoşbəxt yaranıb hər birimizdən.
Sənin dilin olub, hansı dərdini
Demisən?.. Susmusan sən də lal kimi.
Dilin olub dinə bilməməyindən
Lal olub susmağın yaxşı deyilmi?

**K ə r a m ə t**

(L a l ı göstərir. R ə h m a n a)

Gözüm su içməyir, doğrusu, bundan,
Əlim də gicişir, vurummu?

**R ə h m a n**

Dayan!
Günahı nədir ki?

**K ə r a m ə t**

Günahsızlığı.

**R ə h m a n**

Elə biz hamımız günahsızlarıq.

**S ü b h a n**

Zindanlar küncündə daim sızlarıq.

**R ə h m a n**

Zamanın dolaşıq keşməkeşində
Kim bilir, şər harda, xeyir hardadır.
Böyük günahkarlar işrət içində,
Kiçik günahkarlar zindanlardadır.

**I I N ə s i m i**

(I N ə s i m i y ə)

Eşitdin? Ayıqmı idrakın sənin?

Nəsimi yolunda bir özgəsinin
Ölümə getməsi bil ki, nahaqdır,
Bu yolu xalq özü yaşadacaqdır.

**I Nəsimi**

Görürəm, qardaşım, amalımız bir,
Ancaq gəl kəsdirək, Nəsimi kimdir?
Sənsən, yoxsa, mənə m?

**II Nəsimi**

Qəsdindən daşın!
Ey mənim əqidə, fikir qardaşım,
Axı, nəyə gərək bu çəkişmələr?
Özün həqiqəti bilmirsən məgər?

**I Nəsimi**

Bildiyim budur ki, Nəsimiyəm mən.

**II Nəsimi**

Bəs onda mən kiməm?

**I Nəsimi**

Soruş özündən.

**Gənc şair**

Nəsimi? İnanmaq çətindir.

**Kəramət**

Niyə?

**Gənc şair**

Əl çatmaz, ün yetməz o böyüklüyə.

**I Nəsimi**

Qardaş, oynamayaq, gəl, siçan-pişik.

**Rəhman**

Şeir oğrusunu çox eşitmişik,

Şair oğrusunu gördüm gözümlə.

**Kəramət**

Səncə hansı oğru, hansı doğrudur?
Göstər, ilişdirim!

**Rəhman**

(Öz-özünə)

Odur, ya budur?

**I Nəsimi**

(II Nəsimiyə)

De görək, hardansan?

**II Nəsimi**

Bilmirsən məgər?

**Nəsimi**

Nəsimi Şirvani hardandır?

**I Nəsimi**

Yetər!

**II Nəsimi**

Qardaşım, məqsədin məni ölümdən
Xilas eləməkdir, anlayıram mən.
Ancaq onu bil ki, bəxşiş bir həyat
Mənə ağır gələr ölümdən yüz qat.

**I Nəsimi**

Yalvarıram mən,
Gəl, inad daşını tök ətəyindən.

**II Nəsimi**

İgid, onu bil ki, dolan boşalar
Nə qədər hökm etsə zülm dünyada,
Nəsimi yolunda ölənlər ki, var

Yoxdur Nəsimiyə ölüm dünyada.

**Sübhan**

Ölüm uğrundakı bu çəkişmədən
Doğrusu, ağlımı itirmişəm mən.

**Rəhman**

Ağıl var idimi bir tikə səndə-
Ki, onu hələ bir itirəsən də?..

**I Nəsimi**

Mən öz Allahıma çoxdan çatmışam,
İdrakdan o yana əl uzatmışam,
Sən isə...

**II Nəsimi**

Davam et.

**I Nəsimi**

Səninçin hələ
Görürəm, məchuldur yüksəliş yolu.

**II Nəsimi**

Onda cavan oğlan, de görək mənə
Allaha çatmağın nə imiş yolu?

**I Nəsimi**

İdrakda yol açmış gecədən gündüzə Allah,
Güldürməsən öz könlünü, gülməz üzə Allah.
Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş,
Qəlbin gözü yanmazsa, görünməz gözə Allah.

**II Nəsimi**

Allah! Bilirik, cism deyil, bəs nədir Allah?

**I Nəsimi**

Ən yüksəkə olan haqda, həqiqətdədir Allah.
Dondunsa təkamül və gözəllik qabağında,

Dərk et, bu təəccübdə, bu heyrətdədir Allah.

**II Nəsimi**

İnsan nə imiş?

**I Nəsimi**

Gizlidir insandakı qüdrət,
Hər kəs onu fəhm etməsə, acizdir o, əlbət.
İnsanın əzəl borcudur insanlığa hörmət
İnsanlığa hörmətdə, ləyaqətdədir Allah.

**II Nəsimi**

Vəhdət nə demək?

**I Nəsimi**

Gizlidir hər zərrədə vəhdət.
Bir zərrə ikən küllə qovuşmaq ulu niyyət!
Gördüklərimiz zahiridir, bətnə nüfuz et!
Batindəki, cövhərdəki fitrətdədir Allah.

**II Nəsimi**

Bəs söz nə demək?

**I Nəsimi**

Hər sözün amal yükü fikrim.
Seçmiş, seçəcək daima tükdən tükü fikrim.
Mən bir ağacam, yarpağı – sözlər, kökü - fikrim,
Sözlərdə deyil, sözdəki hikmətdədir Allah.

**II Nəsimi**

Bəs zülmə sözün?

**I Nəsimi**

Sən yaranışdan hələ təksən,
Gec-tez özün öz qüdrətini dərk edəcəksən.
Zülmün üzünə haqq deyilən silləni çəksən,
Sillədə möhürlənmiş o qeyrətdədir Allah.

Cahil enər alçaqlığa, öz qəlbinə yenməz,
Vicdandan əgər dönsə də, xeyrindən o dönməz.
Zülmətdə, cəhalətdə, ədavətdə görünməz,
İlqarda, sədaqətdə, məhəbbətdədir Allah.

**II Nəsimi**

Son məqsəd "Ənəlhəqmi?"

**I Nəsimi**

Dilək sözdən umulmaz.
Ən yüksək olan zirvəyə mütləq demək olmaz.
Bir pillədə durdunsa, "Ənəlhəq" demək olmaz.
Ülviyyətə çatmaqdakı niyyətdədir Allah.

**Rəhman**

(Başını tutur)

Vallah, bu sözlərdən çatlayır beyin.

**Sübhan**

Nəyi çatlayacaq olmayan şeyin?

**Şəkkak**

Sağ casus, sol casus, qardaş da casus.

**Rəhman**

Yaşamaq istəsən, sən danışma, sus.

**I Nəsimi**

Qardaş, görürəm, cəngi-fikir xoşdu səninlə,
İndisə mənim sorğumu dinlə:
İdrak özü bir pillədir, ülviyyətin, eşqin,
Hər arzunun, hər məqsədin, hər niyyətin, eşqin,
Son həddi, axır nöqtəsi yoxmu?
Uçduqca uçaq, zirvələrin zirvəsi yoxmu?

**II Nəsimi**

İdrakdan əzəl qəlbini dindir.
Qəlbin özü göydən də dərindir.
Göylər görünür, orda da yoxdursa əgər son,

Ruhun ki, görünmür, sonu ruhdan niyə umdun?
Öz qəlbinə dal,
bir xəbər al,
gör, nədir insan?
Öz qəlbinə dalmazsa, cəhalətdədir insan.

**I Nəsimi**

Qəlbin səsi bir, niyyəti mindir.

**II Nəsimi**

Yalnız bu səbəbdən də səmadan o, dərindir.

**I Nəsimi**

Öz nəfsinə uyduqda nədir, bəs nədir insan?

**II Nəsimi**

Dünyasına dünyada xəyanətdədir insan.
Məst olmalı, qəsd olmamalı haqq şərabında.
Yoxdur qərəzin xətti həqiqət kitabında,
Öz nəfsinə qul olsa, cəhənnəm əzabında,
Öz nəfsinə qul olmasa, cənnətdədir insan.
Dünyaya uyan uyğudadır, ömür özü birkən,
Hər kəs ucalır qəlbinə meydan diləyirkən,
Ruhundan ötüb cisminə qulluq eləyirkən,
İnsana deyil, şeytana minnətdədir insan.

**I Nəsimi**

Bəs eşqə sözün?

**II Nəsimi**

Yoxdu sözüm, eşq yenilməz,
Vəslində gülən aşiqə aşiq ki, deyilməz.
İnsan dediyin vəsl ilə insan ola bilməz.
Çırpıntıda, sarsıntıda, həsrətdədir insan.
Dərdiylə güləşdikcə fəzilətdədir insan.
Ziddiylə də, əksiylə də vəhdətdədir insan.

**Rəhman**

Bəs bir belə kamil ikən insan.

Alçaqlığı, yaltaqlığı hardan?

**I I N ə s i m i**

İnsanı ucaldan ulu bir eşq, dəyanət,
Alçaldan isə... Qorxu, xəyanət.
Qorxduqsa ölümdən və əcəldən,
İnsanlığı verdik, demək, əldən.
Qorxduqsa əgər zülmdən, haqdan keçər olduq.
Qorxduqsa əgər, zülmə qul olduq, nökər olduq.

**I N ə s i m i**

Tam eyni gəlir fikrinə fikrim,
Ancaq yenə zənn etmə ki, bir an dönə fikrim.

(V ə l i ə h d gəlir. O, diqqətlə I və
I I N ə s i m i n i süzür.)

**Ş ə k k a k**

Sizə az danışın demədimmi mən?
Buyur, Vəliəhd də çıxdı böyürdən.

**V ə l i ə h d**

Həllaci Musaymış bu cavan, taleyə əfsus!
Bir vaxt bizə meydan oxuyan, indisə məhbus!

(V ə l i ə h d dustaqlara yaxınlaşır,
I N ə s i m i üzünü kənara tutur.)

**V ə l i ə h d**

(R ə h m a n a)

Bura bax, cavan oğlan,
Nə üstə tutulmusan?

**R ə h m a n**

Rüşvət almışam.

**V ə l i ə h d**

Niyə?

**R ə h m a n**

Birinci dəfədir ki, niyəsini sorurlar.

Niyə rüşvət almışam? Əlbət, buna səbəb var.

**V ə l i ə h d**

O səbəbi desənə?

**R ə h m a n**

Axı, yaraşmaz mənə.

**V ə l i ə h d**

Yaraşdı, yaraşmadı, bilməliyəm, axı, mən.

**S ü b h a n**

Özün hakim olanda hər şeyi biləcəksən.

**V ə l i ə h d**

Mən indi bilməliyəm.

**R ə h m a n**

Açıq danışaq?

**V ə l i ə h d**

Açıq!

**R ə h m a n**

Balıq görmüsən? Balıq!
O da başdan iylənir.
Quyruğundan soyurlar, amma yazıq balığı.
Elə burdan başlanır həyatın xırdalığı.
Günahkardır dünyada vurulan da, vuran da,
Məndən rüşvət istəyir məndən başda duran da.
O rüşvəti ödəməz mənim azca gəlirim.
Mən almasam nə verim?

**V ə l i ə h d**

Sən də nə al, nə də ver.

**R ə h m a n**

Olmaz!

**V ə l i ə h d**

Niyə?

**R ə h m a n**

Ver, deyir!
Ondan başda duran da, axı, ondan istəyir
Məni ora qoyub ki, alım verim mən ona.
O da alıb ötürsün ondan başda durana.
Ötür-ötür oyunu... Bizə qalır şaxşaxı.
Əgər alan olmasa, verən olmaz, vallahı!

(V ə l i ə h d fikrə gedir,
üzünü R ə h m a n a tutur)

**V ə l i ə h d**

Belə çıxır sözündən, yaşamağın yoludur
Dyrilik də, rüşvət də.
Demək, yoxmuş düz adam bu boyda məmləkətdə?!

(K ə r a m ə t ə yaxınlaşır)

Səni nəyə tutublar?

**K ə r a m ə t**

Yaşamaqdan bezmişəm,

(Sükut)

Mən bizim kəndxudanın qulağını kəsmişəm.

**V ə l i ə h d**

Niyə kəsirdin, niyə?

**K ə r a m ə t**

Məhsulumun çoxunu o çıxanda töycüyə,
Mən yalvarıb "rəhm elə", - dedim, - Allah eşqinə,
Arvad-uşaq yanında əl qaldırdı o, mənə.

**V ə l i ə h d**

Şikayət eləyəydin.

**K ə r a m ə t**

Kimə?

**V ə l i ə h d**

Ondan böyüyü
Bu ölkədə yoxmu bəs?

**K ə r a m ə t**

Var! Ancaq bir məsəldir, qılınc özünü kəsməz.

(V ə l i ə h d  Ş ə k k a k a  yaxınlaşır)

**V ə l i ə h d**

Sənin günahın nədir?

**Ş ə k k a k**

Məndən şübhələniblər,
Guya ki, mən dəliyəm,
Əslində, mən özüm də
Hamıdan şübhəliyəm.

**V ə l i ə h d**

(G ə n c  ş a i r ə  yaxınlaşır)

Sənin günahın...

(V ə l i ə h d  g ə n c  ş a i r i  tanıyır)

Şair?
Sən də burdasan?

**G ə n c  ş a i r**

Bəs harda olmalıydım?

**S ü b h a n**

Vallah, düz deyir kişi.

**G ə n c  ş a i r**

Təəccüblü odur ki, bu zindan hücrəsində
Vəliəhdin nə işi?

**V ə l i ə h d**

Mən... Mən...

**G ə n c  ş a i r**

Bəlkə, gəlmisən bizə nicat verməyə?..
Yox, gəlmisən sən bizə hökmünü göstərməyə.
Biz onsuz da bilirik, tanıyırıq hər kəsi,
Xoşbəxtlərə yetişməz bədbəxtlərin naləsi.

**R ə h m a n**

(G ə n c  ş a i r ə)

Ölülər elə bilir halva yeyir dirilər:
Çöldə azad gəzənlər azadmıdır, de, məgər?

**G ə n c  ş a i r**

Bəli, sən də haqlısan, qınamıram mən səni,
Geç olmasa, deyirik biz könüldən keçəni.
Çöldə "azad" gəzənlər bundan da məhrum olmuş,
Zülm əlində mum olmuş.
Bu zindan bucağında biz zülmə göz dağıyıq.
Zindan dustağı deyil, biz fikir dustağıyıq.

V ə l i ə h d yenidən dərin fikrə gedir.
İşıq sönür, işıq yalnız
V ə l i ə h d i n üzünü işıqlandırır.
Onun gözlərinə Z a h i d i n  o ğ l u
D ə y a n ə t görünür.

**V ə l i ə h d**

Demək, belə...

**D ə y a n ə t**

Nə belə? Eşitdinmi? Eşitdin,
(sükut)

Yaman fikrə getdin.
Yuxarıdan baxmısan sən həyata həmişə,
Bu zindanda indi sən
Həyatın dibindəsən.
Gördün, qandın və bildin.
Ölü idin... hələlik demirəm ki, dirildin.

**V ə l i ə h d**

Bilməyəydim, kaş, yenə
İçimdə savaş edir, bir dəli savaş yenə.

**D ə y a n ə t**

Görürəm ki, qanırsan
Amma neyləyəsən ki, qandığını danırsan.
Zamana bax, zamana,
İndi bilib, qanmağın əzabı var insana.

(Z a h i d  o ğ l u  çəkilir)

**V ə l i ə h d**

(g ö z ə t ç i n i  çağırır)

**G ö z ə t ç i !**

(I  N ə s i m i n i  göstərir)

Bax, bu qalsın,
O biri məhbusları keçir başqa hücrəyə,

(I I  N ə s i m i n i  göstərir)

Bunu isə ayrıca hücrəyə sal.

**G ö z ə t ç i**

Baş üstə.

**I I  N ə s i m i**

Yox, yox, bir durun.
Məni də dinləyin, axı...

**V ə l i ə h d**

Buyurun.

**I I  N ə s i m i**

Nəsimi o deyil.

**V ə l i ə h d**

Bilirik bunu.
Bilirik onun da kim olduğunu.

*II Nəsimi və məhbuslar çölə çıxırlar. Lal gözdən yayınıb özünü kənardakı hücrəyə salır. Rəhman bunu görür, o da başqa hücrədə gizlənir.*

Gəl, açıq danışaq, sən Həllacisən,
O da Nəsimidir.

**I Nəsimi**

Çox gözəl.

**Vəliəhd**

Neçin
Onun əvəzinə ölmək istədin?

**I Nəsimi**

Sənin əvəzinə Zahidin oğlu
Ölümə gedəndə qəsdi nə oldu?
Dostluq xatirinə ölümə gedən
Bir Zahid oğluca deyiləmmi mən?

**Vəliəhd**

Sənin əlində ikən
Söylə, məni o zaman sən niyə öldürmədin?
Yoxsa, sən ölümə də məni layiq görmədin?

**I Nəsimi**

Bəlkə, sən ondan bəri bir qəhrəman olmusan?
Onda ölməməyinə indi peşman olmusan?

**Vəliəhd**

Xeyir, minnətdaram mən,
Sənin qulluğundayam, nə qədər ki, varam mən.
Taleyimə min şükür!
Borcumu qaytarmağa
İndi mənim əlimə girəvə də düşübdür.

**I Nəsimi**

Fikrin nədir?

**V ə l i ə h d**

Ölümdən aşağı bildiyindən
Öldürmədin məni sən.
Mənsə səni ölümdən çox yuxarı sanıram,
Sənin böyüklüyünü ölümə qısqanıram,
Həllaci olduğunu mən bilirəm, təkcə mən!
Mən də bunu gizlədib qanına təşnələrdən
Səni xilas etməyə hazıram.

**I N ə s i m i**

İnanmıram.

**V ə l i ə h d**

Niyə?

**I N ə s i m i**

Əmir oğlunu buna qadir sanmıram.

**V ə l i ə h d**

Buyur, gedə bilərsən...

(Qolundan tutub irəli aparır)

Di get! Get!

(I N ə s i m i yerindən tərpənmir)

**I N ə s i m i**

Bəs o şair?

**V ə l i ə h d**

O, mütləq ölməlidir.
Sənsə yox... yaxşılığa yaxşılığın özüylə
Cavab verilməlidir.

(I N ə s i m i gülür)

Nəyə gülürsən?

**I N ə s i m i**

Sənə gülməyim, neyləyim mən?
Ölüm səltənətinə
Əl açmış bir insana

Sən hansı yaxşılıqdan belə dil-dil ötürsən?
Mənə əvəz vermə, gəl.
Mən ucalıq təxtinə əl açmışam, sən məni
O təxtdən endirm , gəl.

**V ə l i ə h d**

Onda söylə, dünyaya sən özünmü gəlmisən
Ki, istədiyin zaman -
Gedəsən bu dünyadan?

**I N ə s i m i**

Yox! O böyük insanın yaşaması naminə
Ölüm – həyatdır mənə!

**V ə l i ə h d**

Öz həyatı özüyçün qiymətli olmayan kəs
Heç vaxt özgəsinə də bir gün ağlaya bilməz.

**I N ə s i m i**

Həyat amal üçündür, sənsə bu həqiqəti
Dərk etmədən danırsan.

**V ə l i ə h d**

Sən ki, ölümü belə uca rütbə sanırsan,
Məhkum ikən ölümə onsuz da Həllacitək,
Nəsiminin adıyla ölmək nəyinə gərək?
Öz adınla ölsənə?

**I N ə s i m i**

Bu çox müşkül təlimi necə açım mən sənə?
Ucalıq ola bilməz bu dünyada hər ölüm.
Həqiqətə qovuşan bir ölüm var, bir ölüm:
Mütləq əbədiyyətdir-
"Mütləq eşqin" yolunda adilikdən seçilmək -
Nəsimitək qüdrətin yolunda ölə bilmək!
Həm də bacara bilsəm əgər bunu, onda mən,
Onu xilas edirəm, axı, vaxtsız ölümdən!

**V ə l i ə h d**

Həqiqətə çatmağın əgər yolu bir isə,
Nəsiminin adıyla bu dünyadan əl üzmək
uca mərtəbədirsə,
Anlamıram səni mən,
Niyə məhrum edirsən Nəsiminin özünü
Sən o böyük şərəfdən?
Bu xudbinlik deyilsə, onda söylə, bəs nədir?

**I N ə s i m i**

Nəsimitək ölməkdən onun yolunda ölmək
Çox uca mərtəbədir!

**V ə l i ə h d**

Yaxşı, tutaq ki, indi biz sənə təslim olduq.
Sənin kim olduğunu bu dünyada bu saat
Məndən başqa bilən yox.
O biri dünyadasa səni tanıyacaqlar.
İndi bir sualım var:
Aldatmaq fikrindəsən
Allahı da, bəlkə, sən?

**I N ə s i m i**

Gülünc danışma, Allah mənim özümdə ikən
Özümü aldatmağa ehtiyac yox, lüzum yox.
Aldatmaq istəyirəm bu dünyanı mən ancaq!

**V ə l i ə h d**

Baş tutmasa?

**I N ə s i m i**

Kömək et!

**V ə l i ə h d**

Aldatmaq məqsədimi güdür sizin təriqət?

**I N ə s i m i**

Nəsimini öldürən həqiqətdən, doğrudan

Min-min dəfə gözəldir onu yaşadan yalan.
Dəstəmiz dağılandan
Nəsimi şeirləri
Olub dilim əzbəri
Oba-oba gəzmişəm ölkələri, elləri,
Onun kəlamlarıyla
Ruhən işıqlatmışam qaranlıq könülləri.
Həm sözlə, həm qılıncla vuruşmuşam dəmadəm,
Amalıma, eşqimə öz borcumu vermişəm.
Artıq bitmiş bilirəm vəzifəmi dünyada,
Bundan sonra mənimçün yaşamaqdan nə fayda?

**V ə l i ə h d**

Bunları dərk elədim, indi isə sən mənə
Ölümdən qorxmamağın sirrini öyrətsənə!

**I N ə s i m i**

Bu dünyada həyatdan çox əziz şeylər də var.
O məqama çatmayan məni necə anlayar?

**V ə l i ə h d**

Nədir o məqam, nədir?

**I N ə s i m i**

Eşqi dərk etməyənçin məqam da əfsanədir!

**V ə l i ə h d**

Həyatdan əziz olan bir şey tanımıram mən

**I N ə s i m i**

Neçin yaşadığını hələ bilmədiyindən
Ölümün də yerində zərurət olduğunu
Bilmək sənə çətindir.
Həyatı dərk edənçin öz həyatı, öz ömrü
Özününkü deyildir
Həyatda qazandığı eşqin, məhəbbətindir.
Mən də bu məhəbbətin, bu amalın quluyam,
Ölsəm onun yolunda, ululardan uluyam.

**V ə l i ə h d**

Bir məni də başa sal, daş deyil ki, ürəyim.
Mənə həyat bəxş edən bir adamın qətlinə
Söylə, necə yol verim?

**I N ə s i m i**

Onda ikimizə də, həm ona, həm də mənə
Xilas yolu var isə, razıyam sən deyənə.

**V ə l i ə h d**

Yox, yalnız birinizi.

**I N ə s i m i**

Onda onu, tək onu!
Bununla ödəyərsən mənə olan borcunu.

**V ə l i ə h d**

Yalvarıram mən sənə!
And verirəm mən sənin eşqinə, əqidənə
Əllərimi batırma
Mənim xilaskarımın qanına, qanın olsun.
Sən ki, insan oğlusan, bir az vicdanın olsun.

**I N ə s i m i**

Yox!

**V ə l i ə h d**

Sən insan cildində bir iblissən, bir iblis.
Sən qüvvətli, mən aciz.
İnandığın bir fikir qəlbini buxovladı.
İnsafını ovladı.
Mən Allahın balası, sən iblisin övladı!

(Diz çökür, əllərini göyə qaldırır).

Niyə aciz yaratdın məni, yarəb, sən niyə?
Gözlərimi qapadın həqiqətə, gerçəyə?!
Mənə qüvvət vermədin.
Saray qapılarından o tərəfi sən mənə
Bəs niyə göstərmədin?
Dünya bildim sarayı, demə, dünya gen imiş.

Dünyanın özü qədər mürəkkəb övladını
Anlamaq çətin imiş!
Özün kömək ol mənə, gözlərimi yaxşı aç
Yaxşıya, pisə, yarəb.
Necə ölüm bəxş edim mənə həyat bəxş edən
Belə iblisə, yarəb?

**I Nəsimi**

Ay yazıq, bəd ayaqda Allahdan kömək ummaq
Bilirsən, nə deməkdir?
Özünə, öz gücünə inana bilməməkdir.
Səni xilas edəndə mən düşündüm o zaman
İbrət götürəcəksən sən o müdhiş qorxudan.
Hayıf mənim zənnimə! Olduğuntək qalmısan.
İndi mən dayanmışam ölüm astanasında
Sən yenə sarsılmısan!

**Vəliəhd**

O vaxt mənim yerimə qurban getdi Dəyanət,
Mən susdum... Bu xəyanət
Hələ unudulmamış,
Köhnə əzablarımdan hələ xilas olmamış
Təzə dərdə can verim?
Nəsiminin yerinə söylə, sənin qətlinə
Mən necə fərman verim?
Çətindir. Qorxuram mən
Allahın qəzəbindən!

**I Nəsimi**

Neylərsən Zahid oğlu əgər bir də doğulsa?

**Vəliəhd**

Bu ki, mümkün deyildir.

**I Nəsimi**

Birdən ölməmiş olsa?

**Vəliəhd**

Mən ona həsr edirəm öz ömrümü, mən ona!

**I Nəsimi**

And iç!

**Vəliəhd**

(Quran çıxarır)

Mən and içirəm bu Allah kəlamına!

**I Nəsimi**

De yaxşı!
Bir də and iç,
Məni tanıdacaqsan Zahidə Nəsimitək!

(sükut)

Susma, and iç, and iç ki, Nəsimi ölməyəcək!

**Vəliəhd**

Andsız keçinməzmi?

**I Nəsimi**

Yox!
Şair yaşasın deyə
Mən məcburam hər şeyə.

**Vəliəhd**

Yaxşı, mən and içirəm!

**I Nəsimi**

Qoy səni qorxutmasın nə şərtlərim, nə andım,
Sənin əzablarına inandım mən, inandım!
Daha bircə ricam var, əgər qəbul eləsən,
Görüşmək istəyirəm Loğmanla təklikdə mən.

**Vəliəhd**

Yoxsa, o da...

**I Nəsimi**

Xeyir a... özgə bir niyyətim var,
O, el ağsaqqalıdır, ona vəsiyyətim var.

**V ə l i ə h d**

Səni görüşdürərəm, indi buyur.

(V ə l i ə h d l ə I N ə s i m i gedir.
L a l gizləndiyi yerdən çıxır)

**L a l**

Getdilər.
Bu Həllaci - yetmiş min, o da Nəsimi - yüz min
Sağ ol səni, lal kişi, daha sənin nə dərdin?
Gözətçi! Ey gözətçi!

(G ö z ə t ç i gəlir)

**G ö z ə t ç i**

Mən hazıram, ər kimi.

**L a l**

Get, Zahidə xəbər ver.

**G ö z ə t ç i**

Hansı idi Nəsimi?

**L a l**

Bu xəbərə müştəri sənsən, ya Zahid ağam?
Qazancından kim keçər? Yəni, belə axmağam?

**G ö z ə t ç i**

Yox, onda mən dəliyəm?
Sənin xeyirin üçün mən təpik döyməliyəm.
Zahidgilə... özzün öl!
İndi heç kəs gic deyil!

**L a l**

Ə... Zahiddən alarsan.

**G ö z ə t ç i**

Zahiddən sən alarsan.

**L a l**

(bir dənə axça verir)

Götür, haramın olsun.

**G ö z ə t ç i**

Bu azdır.

**L a l**

Ax! A qansız.

(bir axça da verir)

**G ö z ə t ç i**

Dinsizin öhdəsindən gələr ancaq imansız.

(Gözətçi gedir. R ə h m a n gizləndiyi yerdən çıxır)

**R ə h m a n**

Ay lotular lotusu, bəs sən, axı, lal idin.
Bizi nə zənn elədin?

(hücrələrin qapısını açır)

Gəlin! Gəlin!

**S ü b h a n**

Nə olub?

**R ə h m a n**

Bir buna bax.
Casus imiş bu alçaq!

**Ş ə k k a k**

Mən sizə demədim dağ-daş da casus,
Yaşamaq istəsən, lal ol, dinmə, sus.

**K ə r a m ə t**

Vurum?

**R ə h m a n**

İndi vur bunu.
Öldür, köpək oğlunu.

(“İnsanü-əkbər” xoru altında
dustaqlar L a l ı boğur)

**G ə n c ş a i r**

Baş açmaq çətindir bu dolaşıqdan.
Yaxşılıq-yamanlıq! Bir oddan törər.
Ulu Nəsimitək ucalan insan
Bəs necə alçaldı bu casus qədər?!

(D u s t a q l a r gözətçinin əllərini
bağlayıb zindandan qaçırlar.)

## BEŞİNCİ ŞƏKİL

Loğmanın evi. A y p a r a ilə
D ə y a n ə t bağçadan gəlirlər.

**A y p a r a**

Demə, həsrətin də olarmış sonu.
Əslində, bilsəm də sağ olduğunu
Yenə ürəyimdə bir ağrı vardı...
Mənə bildiyimi unutdurardı...

**D ə y a n ə t**

İndi inandınmı?

**A y p a r a**

İnandım.

**D ə y a n ə t**

Dayan!
Qoy baxım, elə bil başqalaşmısan.
Sənə çox yaraşır bu mavi paltar,
Axı, mavilikdə səma rəngi var.

**A y p a r a**

Qoy görək, səmanın, axı, mənimlə

Nədir uyarlığı?

**D ə y a n ə t**

Bilmirsən hələ?
Dərinsən, sirlisən sən də göy kimi,
Sənin bu əsrarın çaldı qəlbimi.

**A y p a r a**

Dəyanət, bilirsən, böyük sevginin
Qəlbi açıq olur, gözləri bağlı.
Gərək dərin ola, göylərdən dərin,
Qadının ürəyi, kişinin ağlı.
Sənin idrakına bağlanmışam mən.

**D ə y a n ə t**

Sənsən bu idrakı mənə bəxş edən.
Bu sevgi od vermiş, köz vermiş mənə,
Dünyanı görməyə göz vermiş mənə.
Eşqlə dolanır lap ay da, gün də,
Xilqət maya tutur ancaq eşqdən.
İdrakım üçün də, hissim üçün də
Bil, sənin eşqinə minnətdaram mən.

**A y p a r a**

Ancaq unutma ki, üzünə qənşər
Qadını heç zaman tərifləməzlər.

**D ə y a n ə t**

Ayağı yer tutar?

**A y p a r a**

Bəlkə də...

**D ə y a n ə t**

Əgər
Qəlbi dərindirsə səmalar qədər,
Çatmaz topuğuna tariflər onun.

**A y p a r a**

Hər sözü qızıldır Zahid oğlunun.

(Rəhman gəlir.)

**Rəhman**

Gün aydın!

**Aypara**

Gün aydın!

**Rəhman**

Aypara, sən olmasaydın
Biz kimin üstünə qaçardıq? Zahid
Vaxtı dəyişdirib... Bu it oğlu it...

**Dəyanət**

Nə dedin?

**Rəhman**

Bağışla, çaş-baş olmuşam,
Dədən olduğunu unutdum tamam.

**Dəyanət**

Yaxşı!

**Rəhman**

Musa sabah asılmalıydı.
Dünən yuxusunda, bilmirəm, nədən
Fikrini dəyişib o ceyran dədən
Bu gün asacaqlar.

**Dəyanət**

Uduzduq demək.

**Rəhman**

Hələ bilmək olmaz, tez ol, tərpənək.

(Gedirlər)

**Aypara**

Gedin, taleyiniz yar olsun sizə,

Tanrı özü çatsın köməyinizə;

(L o ğ m a n gəlir)

**L o ğ m a n**

Gün aydın, a qızım.

**A y p a r a**

Ata, gün aydın!
Görüşə bildinmi?

**L o ğ m a n**

Gözlərin aydın!
Zindandan gəlirəm elə indicə,
Xəbər gətirmişəm, xoş xəbər...

**A y p a r a**

Necə?

**L o ğ m a n**

Bizim üzüntümüz, demə, nahaqmış,
Dəyanət ölməyib, Dəyanət sağmış,

(sükut)

Həllaci dedi ki, Dəyanət çoxdan
Bizim əqidəyə iman gətirmiş,
Hələ Vəliəhdi bu məqsəd üçün
Dəyanət o gün
Döyüş meydanına qəsdən gətirmiş
Niyə sevinmədin?

(sükut)

Nə olub sənə?
Bir dillənsənə!

**A y p a r a**

Mən çoxdan bilirdim...

**L o ğ m a n**

Necə? Bilirdin?

**A y p a r a**

Bəli.

**L o ğ m a n**

Bəs neçin
Susurdun? Bəs mənə niyə demirdin?

(sükut)

Bəs Zahid? Atası bilirmi bunu?
Bilirmi oğlunun sağ olduğunu?

**A y p a r a**

Yox, bilmir.

**L o ğ m a n**

Açılır bir-bir düyünlər.

**A y p a r a**

Ata, istəyirdik elə bu günlər,
Sənlə bu barədə məsləhətləşək.
Desək, necə olar? O, bir atatək
Kömək eləyərmi oğluna?

**L o ğ m a n**

Xeyr!
"Şəhid atasıyam", - deyə fəxr edir,
O, qəbul edərmi bu qəbahəti?
Həm də onun buna çatmaz cürəti.

**A y p a r a**

Qoy onun yerinə özünü bir an,
Keçə bilərsənmi öz övladından?

**L o ğ m a n**

Hərə bir cür baxır, qızım, həyata.

**A y p a r a**

O, övlad itirmiş atadır, ata!

**L o ğ m a n**

Dəyanətin özü, anlamıram mən
Niyə atasıyla görüşmür, görən?

**A y p a r a**

O deyir, atamda o inam ki var,
Bilsə Həllaciyə qoşulduğumu
Hirsindən yazığın ürəyi partlar.
Bilməsə yaxşıdır sağ olduğumu.

**L o ğ m a n**

Gördünmü, a qızım, gördünmü heç kəs
Onu balasıtək tanıya bilməz.

(sükut)

**A y p a r a**

Ata, Həllacidən danış bir az da.

**L o ğ m a n**

Qızım, o üzmədi heç vaxt dayazda,
Düşdü bu dünyanın qeylü-qalına,
Ömrünü xərclədi öz amalına.
Bu gün də vüqarla o böyük insan
Nəsimi yolunda keçir canından.

(Ç a l p a p a q gəlir)

**Ç a l p a p a q**

Gün aydın, el oğlu!

**L o ğ m a n**

Xoş gördük səni.

(görüşürlər)

**Ç a l p a p a q**

Deyən, tanımadın?

**L o ğ m a n**

Lüzum yox buna,
Bu qapı açıqdır hər el oğluna.

**Ç a l p a p a q**

Məlhəm kəndindənəm - adım Çalpapaq.

**L o ğ m a n**

Özüdür, tanıdım, sən dünyaya bax!
Verdiyi nə varsa, geri alarmış,
Dünyanın qəribə oyunu varmış.

(L o ğ m a n Ç a l p a p a ğ ı bağrına basır)

Yaman dəyişmisən, tanımadım mən,

**Ç a l p a p a q**

Varmı bu dünyada bir dəyişməyən?

**L o ğ m a n**

Bu qartal qocaya, qızım, yaxşı bax,
Cavanlıq dostumdur mənim Çalpapaq.
Qardaşım, bu evə sən xoş gəlmisən.
Gəldiyin yollara qurban olum mən.
Yaxşı, nə var, nə yox? Vətəndən danış!

**Ç a l p a p a q**

Fəzlullah gedəli, qoca Şirvanın
Əvvəlki şöhrəti, şanı qalmamış.

**L o ğ m a n**

Dözməyib o günə, o müsibətə,
O vaxtdan çəkildim mən də qürbətə.
Gəlişin xeyirmi?

**Ç a l p a p a q**

Bir oğlum vardı.

Başını birtəhər dolandırardı.
Əkərdi, biçərdi... O, birdən-birə
Dəyişdi, qoşuldu hürufilərə.
Nəsimi sevdası doldu başına,
Biganə kəsildi yar-yoldaşına.
Atıb kəndimizi illərdən bəri
Nəsimi eşqiylə gəzir elləri.

**L o ğ m a n**

Lap sənə oxşayıb.

**Ç a l p a p a q**

Elədir ki, var.
Onu qınamıram, bir vaxt xəyallar
Məni də uçurtdu belədən-belə.
Həqiqət eşqiylə, haqq istəyiylə...
İndi "oğul" deyə mən başı batmış
Gəzirəm dünyanı hey qarış-qarış.
Bursada rast gəldim bir el oğluna,
Başımdan keçəni danışdım ona.
Mənə bu şəhəri o nişan verdi,
Məni oğul dərdi bura gətirdi.
Təkcə Tural olsa bu dərdə düşən,
Dəli olduğuna inanaram mən.
O vaxtdan bu yerdə gəzdim hər yanı,
Bu sevda bürüyüb Azərbaycanı.
Çoxalır günbəgün, artır ilbəil.

**L o ğ m a n**

Elə bu dərddədir indi Hələb də.
Deməк, bu tələbdir, boş sevda deyil.
Həqiqət yaşayır hər bir tələbdə!

**Ç a l p a p a q**

Görünür, belədir.

**L o ğ m a n**

Dəyişib zaman.

**Ç a l p a p a q**

Kömək et, balamı tapım.

**L o ğ m a n**

Sabahdan
Bir adam qoşaram sənə!

**Ç a l p a p a q**

Çox gözəl.

**L o ğ m a n**

Mənim qonağımsan, buyur, keç dincəl.

(L o ğ m a n l a Ç a l p a p a q yan otağa keçir,
V ə l i ə h d gəlir)

**A y p a r a**

Vəliəhd, nə oldu?

**V ə l i ə h d**

Nə olacaqmış?
Mənim ciddi-cəhdim tamam nahaqmış.
Nə qədər çalışdım, bir şey çıxmadı,
Ölüm qorxusundan o, karıxmadı.
O, özü-özünə bir düşmən ikən
Neyləyə bilərdim yalvarmaqla mən?
Dua oxudular, qəbul etmədi.
Üç dəfə dalbadal "Ənəlhəq" dedi.
Sonra razılıqla süzdü o, məni,
Saldı boğazına özü ilməni.
Bir anda bir ömrə nöqtə qoyuldu,
Düşünən bir insan birdən yox oldu.

**A y p a r a**

Xeyr, yox olmadı, "yox" nə, "var" nədir,
"Yoxluq" da, "varlıq" da fikrimizdədir.
Əslində, nə "yox" var, nə "var" dünyada,
İnsan öz-özünü arar dünyada.

**V ə l i ə h d**

Zahid fitva verdi qanun adından:
Asılı qalacaq dar ağacından
Kafərin meyiti üç gün, üç gecə.

**A y p a r a**

Anlaya bilmirəm, adamlar necə
Dözür bu dözülməz zülmə, zillətə?
Məəttəl qalmışam bu cəhalətə!

**V ə l i ə h d**

Sus, sus, eşitmirəm, danışma, karam.
Musanın qətlində mən günahkaram!
Yağışdan qurtarıb yağmura düşdüm,
O tordan çıxmamış, bu tora düşdüm.

(sükut, düşünür)

O necə insandır, anlamıram mən,
Necə keçmək olar tək bir ömürdən?
Onun da bizim tək ürəyi varmı?
İnsanda bu boyda qüdrət olarmı?
Deyirəm, beləsi bir də doğulmaz,
Vallah, doğulmuşda bu qüdrət olmaz.
Təpədən-dırnağa bir amaldı o.
Mənim də qəlbimə kölgə saldı o.

(Düşünür, birdən A y p a r a y a tərəf çevrilib)

Yox, yox, inanmıram "Ənəlhəqqə" mən!
Allaha asidir "Ənəlhəq" deyən!

(yenə sükut, düşünür)

Amma onlardakı eşqə, cürətə,
Mənəvi qüdrətə və dəyanətə
Mən heyran qalmışam... Bu, nə deməkdir?

**A y p a r a**

Allahı özündə dərk eləməkdir!

**V ə l i ə h d**

"Ənəlhəq" sözünü təkrar dedikcə
Mənə elə gəldi o, dağa döndü...
Danıb öz boyunu, o böyüdükcə
Böyüklər kiçilib yumağa döndü.
Mən onda bildim ki, nədir cəsarət!
Mənəvi böyüklük, mənəvi qüdrət
Böyüdə bilərmiş insan oğlunu...

**A y p a r a**

Elə bu qüdrətdir ucaldan onu!

**V ə l i ə h d**

İnsana heç cürə, anlamıram mən,
Bu sonsuz qüdrəti Allahmı vermiş,
Ya insanın özü öz qüdrətindən
Neçə boy yuxarı qalxa bilərmiş?..

(L o ğ m a n gəlir)

**L o ğ m a n**

Vəliəhd, gün aydın.

**V ə l i ə h d**

Ustad, gün aydın.
Bəs sən hardaydın?

**L o ğ m a n**

Musayla görüşdük, ancaq nə edim,
Mən o müsibətə baxa bilmədim.

(D ə y a n ə t l ə R ə h m a n gəlir.
V ə l i ə h d D ə y a n ə t ə diqqətlə baxır)

**L o ğ m a n**

Dəyanət!

**D ə y a n ə t**

Ustadım!

**L o ğ m a n**

Xoşbəxtəm, şükür!
Taleyim yenə də üzümə gülür.

**V ə l i ə h d**

Bu nədir? Yuxumu, ya həqiqətmi?
Bu Dəyanətmi?
Yenə qara basır, deyəsən, məni.

**D ə y a n ə t**

Xeyr, mən özüməm...

(V ə l i ə h d ə yaxınlaşır)

Əfv et sən məni...
Sirrimi o zaman bildirmədim mən!
Agah eləmədim səni bu işdən.
Axı, demək olmaz vaxtsız hər sözü.

**V ə l i ə h d**

İnana bilmirəm... Özüdür, özü!

**D ə y a n ə t**

Mən o vaxt doğrusu...

**V ə l i ə h d**

Hələ bir dayan!
Şükür eləyək ki, sağ-salamatsan.

(qucaqlaşırlar)

İndi aydın olur çox şeylər mənə,
Amma çox mətləblər sirrdir yenə.

**D ə y a n ə t**

Nədir sirr?..

(sükut)

Düşünən bir insan kimi

Hürufi məsləkə mənim meylimi
Əvvəldən bilmirdin?

**V ə l i ə h d**

Bilirdim, bəli!
Tək bunu bilmirəm, bu vəziyyətə
İndi ağlamalı, yoxsa, gülməli?
Hürufi olubsa, Zahid oğlu da
Biz hara gedirik, hara, ey xuda?

**D ə y a n ə t**

Hürufi qayəsi danmır xudanı.

**V ə l i ə h d**

Bəs sizin xudaya sevginiz hanı?

**D ə y a n ə t**

İnsana məhəbbət olmayan yerdə
Allahı axtarma düşüncələrdə.
Allaha çatmağın yolu, nəhayət,
İnsan ürəyindən keçir duyğutək.
Allaha məhəbbət, ona itaət
İnsana sevgidən başlasın gərək!

**L o ğ m a n**

İnsan qüdrətinə şəkk eləmə sən,
Heç kəs anasından igid doğulmur.
Bəzən göstərdiyi şücaətindən
İnsanın özünün xəbəri olmur.

**A y p a r a**

Götür Nəsimini... Onun hər sözü
Aşıb keçəcəkdir min-min çağları.
Çarəsiz ölümə məhkumkən özü,
Ancaq ölümsüzdür yaratdıqları.
Allah yaratdığı insanla birdən
Durur üzbəüz.
Allahın əsəri - insan ölürkən,

İnsanın əsəri – sənət ölümsüz!

**V ə l i ə h d**

Ölümsüz sənəti yaradan insan,
Özünü Allaha borcludur!

**D ə y a n ə t**

Dayan!
Bu qadir insana varmı, özün de,
Adicə bir hörmət bu məmləkətdə?

**V ə l i ə h d**

Nə deyim?.. Sən burda haqlısan, ancaq
Taleyin hökmündən mümkünmü qaçmaq?

**D ə y a n ə t**

Bəli, yüksəlişə qanadlanırkən
Yenidən yaradır özünü insan.

**V ə l i ə h d**

Demək, həm xaliqdir, həm məxluq insan?

**D ə y a n ə t**

Bəli, həm varlıqdır, həm yoxluq insan.

**V ə l i ə h d**

Qəliz məsələdir bunlar, çox qəliz,
Yox, allah yolundan ayrılmayaq biz.

**D ə y a n ə t**

Allahın yolu da elə bu yoldur.

**V ə l i ə h d**

Xeyr, insan oğlu Allaha quldur,
Onun şərəfidir Allaha qulluq.

**D ə y a n ə t**

Allahın qulluğa ehtiyacı yox!

**L o ğ m a n**

Allah insanlara fəhm, ağıl təki
Bir qüdrət verib ki, hiss edək, bilək.
Allah insanları yaradıbdı ki,
Biz onu dərk edib, ona yüksələk.
Rəhman gəlir, onlara qulaq asır.

**V ə l i ə h d**

Ey ustad, vaxtında söylə, bəs neçin
Bu gizli hikməti mənə demirdin?

**L o ğ m a n**

Çox şeyi demişəm, çatmayıb sənə.
Demişəm, ay oğul, deyirəm yenə:
Mən nə hürufiyəm, nə də dindaram,
Harda həqiqət var, orda mən varam.
Yalandır, riyadır qatı düşmənim,
Mütləq həqiqətdir Allahım mənim.
Bu idrak yolunda biz insan olduq,
Sən idraka söykən, etiqada yox!

**V ə l i ə h d**

Sizin hamınızın fikri bir imiş!
Saray da ölkədən bixəbər imiş!

**L o ğ m a n**

Yenə də bir yerdə görürəm sizi,
Sevin, başa düşün bir-birinizi.

**D ə y a n ə t**

Başa düşməyimiz çətindir bir az.

**A y p a r a**

Niyə?

**D ə y a n ə t**

Sularımız bir arxdan axmaz

R ə h m a n

Vəliəhd arxını balaca əysə,
Qarışar bizə.

V ə l i ə h d

Hələ öz yolumu əyməmişəm mən.

D ə y a n ə t

O da vüqarını əymədiyindən
Düşdü bəlalara. Belədir zaman.

V ə l i ə h d

Dayan, tanış gəlir mənə bu oğlan.
Söylə, biz səninlə harda görüşdük?

R ə h m a n

Əcəb, dilimizdən bəlaya düşdük,
Bir kəndli babayam, əslinə baxsan.

V ə l i ə h d

Hə... Rüşvət almaqda amma qoçaqsan...

R ə h m a n

Vəliəhd, bağışla, əvvəlcədən biz
Bilirdik, zindana gələcəksiniz
İstədik öyrənək, Vəliəhd təki,
Varmı xəbəriniz ölkənizdəki
Eybəcər işlərdən... Odur ki, qəsdən,
Yalandan dedim ki, rüşvətxoram mən.

V ə l i ə h d

Nə oldu?

R ə h m a n

Gördük ki, bixəbərsiniz,
Hələ başlanmayıb həyat dərsiniz.

V ə l i ə h d

Başlanır... Tələsmə... Baxıram önə,

Baxıram arxaya...

**L o ğ m a n**

Mətləb üstünə
Gəlsək yaxşı olar.

**V ə l i ə h d**

Buyurun.

**L o ğ m a n**

Oğul!

**V ə l i ə h d**

Ağlım da çaşıbdır.

**L o ğ m a n**

Bir az sakit ol!
Musanın önündə sən and içmisən.

**V ə l i ə h d**

Bəli, söz vermişəm Həllaciyə mən
Nəsimi zindandan azad olacaq.

**D ə y a n ə t**

Bunu istəyirdik biz səndən.

**R ə h m a n**

Ancaq...
Başqa bir xəbər də eşitdim indi.

**A y p a r a**

Nə xəbər?

**R ə h m a n**

(D ə y a n ə t i göstərir)

Dədəsi Zahid əfəndi
Bu gün saldı bizi başqa bir oda.
Həllaci Musanın anasını da
Tutdurub, saldırıb zindana dünən

Belə cüvəllağı görməmişəm mən.

**L o ğ m a n**

Bu pis oldu.

**R ə h m a n**

İndi girovdur ana,
Bu gün car çəkdirib Zahid hər yana:
Deyib ki, Musanın varsa qeyrəti,
Gərək götürməyə bu qəbahəti.
Gərək təslim edə özünü, şəksiz.

**A y p a r a**

Gör, nə yaman yerdə axşamladıq biz.

**D ə y a n ə t**

Onlar elə bilir Həllaci sağdır,
Mütləq bu fənd ilə tutulacaqdır.

**A y p a r a**

Xilas etməsəniz əgər siz onu,
Zindanda qalacaq ömrü uzunu.

**L o ğ m a n**

İndi varmı buna bir tədbiriniz?

**D ə y a n ə t**

Yenə Vəliəhddir güman yerimiz.

**V ə l i ə h d**

İndi mənim sizə bir sualım var:
Musanın nəşini kim oğurlayar?

**R ə h m a n**

Mən!

**D ə y a n ə t**

Dayan! Düşündüm bunu mən bayaq,
Meyit lap bu gecə oğurlanacaq.

**L o ğ m a n**

Onu dəfn eləmək vacibdir bizə.
Di gedin, eşq olsun iradənizə!

ALTINCI ŞƏKİL

Zindan. Başı sarıqlı g ö z ə t ç i
I I N ə s i m i n i gətirir.

**G ö z ə t ç i**

Keç görək, səndən də su içmir gözüm.

(I I N ə s i m i n i itələyir)

**I I N ə s i m i**

Dayan, görürsən ki, keçirəm özüm,
Daha itələmək nə üçün?

**G ö z ə t ç i**

Saxla!
Mən də bu dünyada öz kamalımla
Bir iş görməliyəm, ya yox?

**I I N ə s i m i**

Öz ağlın
İşləyir demək
Dustağı zindana itələyəndə?

**G ö z ə t ç i**

Bura bax, sən də
Mənə lağ eləmə, ay ağlı "daşqın",
Ağlım olmasaydı, ağıllıların
Ağlına gözətçi olardımmı mən?

**I I N ə s i m i**

Əlbəttə, görünür hərəkətindən.
Başına nə olub?

**G ö z ə t ç i**

Bilmirsən məgər
Ağıllı başları əzişdirirlər?
Bəs xəbərin yoxdur? Dustaqlar o gün
Məni də döydülər.

**I I N ə s i m i**

Axı, nə üçün?

**G ö z ə t ç i**

Qaydadır, həmişə qoç savaşında...

**I I N ə s i m i**

Çomaq sınmalıdır itin başında.

**G ö z ə t ç i**

Döydülər, qaçdılar.

**I I N ə s i m i**

Bəs o, nə oldu?

**G ö z ə t ç i**

Kim?

**I I N ə s i m i**

Mənim yoldaşım.

**G ö z ə t ç i**

Divan quruldu...

(birdən nə fikirləşirsə, dayanır)

Əşşi, mən nə bilim sonra nə oldu.
Əgər bunu bilmək gərəyindisə,
Cibindən özünü göstərsin kisə.
Üç axça bəsimdir.

**I I N ə s i m i**

Alçaq, di itil!

**G ö z ə t ç i**

Ey, pulsuz ucalıq, gərəyim deyil,
Pullu alçaqlığı mənə ver amma.

(V ə l i ə h d gəlir.
G ö z ə t ç i onu görüb özünü itirir)

Mən ağzı bütövəm, məndən söz alma!
Bayaqdan utanmır, qızarmır, elə
Məndən sirr soruşur...

**V ə l i ə h d**

Yaxşı, çıx çölə!

(G ö z ə t ç i gedir)

**I I N ə s i m i**

Doğrudan, o, nə oldu?..

(sükut)

O, Nəsimi deyil ha...
Nəsimi önündədir.

**V ə l i ə h d**

Bilirəm.

**I I N ə s i m i**

Bəs o hanı? Susma, de danışsana!

**V ə l i ə h d**

Ölümüylə, elə bil, o, hər arzuya çatdı,
Özünü qurban verib, Nəsimini yaşatdı.

**I I N ə s i m i**

Bəs, əslində, kim idi?

**V ə l i ə h d**

O Həllaci Musaydı... O, onsuz da gec, ya tez
Ölümə məhkum idi.

**I I   N ə s i m i**

Musa? Yox, həqiqəti ya siz gizlədirsiniz,
Ya da sizi aldadıb.

**V ə l i ə h d**

Axı, onu, ey ustad, yaxşı tanıyıram mən.
Bir zaman o, məni də xilas edib ölümdən.

**I I   N ə s i m i**

Bəs beləysə, budurmu yaxşılığın əvəzi?
Söylə, səni ölümdən xilas edən bir kəsi
Niyə xilas etmədin?

**V ə l i ə h d**

Çox yalvarıb-yaxardım, dediyindən dönmədi.
“Siz Nəsimi adıyla məni öldürün, - dedi.
Təki şair yaşasın!”

**I I   N ə s i m i**

Bəsdir, bəsdir, sus daha!
Budur sədaqətiniz uyduğunuz Allaha?
Kaş, mən, kaş, mən öləydim o bədbəxtin yerinə.

**V ə l i ə h d**

Bunun sizə xeyri nə?
Bu etiraz nahaqdır.
Vicdanınız önündə sizin üzünüz ağdır.

**I I   N ə s i m i**

Mən uduzdum, mən yenə,
Qalib gəldi o mənə!

**V ə l i ə h d**

(heyrət içində)

Ölümlə qalibiyyət, axı, sığmır bir yerə!

**I I   N ə s i m i**

Qalib gəlir özündən min dəfə güclülərə

Ölümdən çəkinməyən -
Ölümüylə iş görüb, ölümüylə söz deyən!

**V ə l i ə h d**

Sizin yolun, deməli, ölümmüş son qayəsi?

**I I  N ə s i m i**

Yox, əksinə, həyatdır bizim yolun qayəsi!
Qayə - bir ehtiyacın, bir tələbin oğludur.
Göydən düşmür qayə də, qayə - həyatdan doğur.
Bizim təriqətimiz axıdılan günahsız
O qanlardan yaranmış.
İnsan ləyaqətini alçaldıb təhqir edən
Zindanlardan yaranmış.
Şərəfini, şanını qaytarmaqçın insana
"Özünü insan kimi dərk et", - dedik biz ona!
Fikir də, arzular da ürəkdə dustaq ikən,
Düşünməyin özü də insana yasaq ikən,
Bizim ləyaqətimiz, eşqimiz tapdanırkən,
Yalanlar da qudurub həqiqəti danırkən,
Allah necə götürür yaratdığı insanın
Bir qula dönməsini?
Göylərdə uçmalıykən yerdə sürünməsini?
Azad insan fitrəti zülm əlində qul olmuş,
İnsan ləyaqətinin üzərində qurulmuş
Bizim təriqətimiz, hər duamız, ayəmiz,
Sənə aydın oldumu indi bizim qayəmiz?

**V ə l i ə h d**

Bircə şeyi bilirəm:
Vaxt tərsinə dolandı.
Həllaciyə verdiyim sözü, içdiyim andı
Yerinə yetirməli!
İndi məni dinləyin:
Ölən Musa deyildi.

**I I  N ə s i m i**

Bəs kim idi?

**V ə l i ə h d**

Nəsimi!
Sənsə varlı bir qızı sevən bir aşiq kimi
Bu məhəbbət namına
Ürəkdən vurulmusan Nəsimi kəlamına.
Atama dünən axşam
Mən səni, ey Nəsimi, bax belə tanıtmışam.

(sükut)

Hə, nə oldu? Buna da bir sözün var?

**II N ə s i m i**

Sözüm yox!
Amma...Amma...

**V ə l i ə h d**

Dayanın! Ammalara lüzum yox!

(Z a h i d gəlir)

**Z a h i d**

(II N ə s i m i y ə)

Hə... Yenə Nəsimisən?
Yoxsa, adın dəyişdi?
Sən allah, bu nə işdi?

**II N ə s i m i**

Nəsimiyəm yenə də.
Bu dünyanın dərdini daşıyıram sinədə.

**Z a h i d**

Bu dünyanın dərdləri necə sığır sinənə?
Bu dünyadan sənə nə?
Öz dərdinə ağla sən.
Gülməlidir... Özünə umac ova bilməyən,
Bu boyda dünyamıza əriştəmi kəsəcək?
Hələ, gör, öz başından hansı yellər əsəcək.

**I I N ə s i m i**

Hədələmə sən məni, mən qorxmuram ölümdən.
Barmağını kəssələr, dözəmməzsən amma sən.
Zahid, tapındığına inansaydın sən əgər
Çəkinməzdin ölümdən sən özün də tük qədər.

**Z a h i d**

Bunlar iblis insanın uydurduğu hiylədir,
Sənin dediklərin də Allahın hökmüylədir.
Yaradanın öz hökmü, bu hökmün nizamı var,
Bir tərəfdən yaranan o tərəfdən yox olar.
İnsanın iradəsi bu qədər qadirdirsə,
Onda buyur, hökm elə
Bahar dönüb qış olsun,
Axı, insan nədir ki, onun iradəsiylə
Allahın yaratdığı nizam dağılmış olsun?

**I I N ə s i m i**

Dünyanın nizamını qurmaq üçün yenidən
İnsan doğulmuşam mən.
Ulduz kəhkəşanında mən də göyə nur saçan
Bir ulduzam, bir ayam,
Ucalardan ucayam!

**Z a h i d**

Təpəyə dağ deməklə təpə necə ucalar?
Əgər insan ucaysa, ona uca deməyin
Axı, nə mənası var?

**I I N ə s i m i**

İnsan alçaldılanda ona ucalığını
Xatırlatmaq gərəkdir.
İnsan öz idrakıyla, elə uca deməkdir!

**Z a h i d**

Sən ki, öz kamalınla belə lovğalanırsan,
Söylə, kimi dünyada ən ağıllı sanırsan?

**II Nəsimi**

Öz ağlıyla düşünüb, eşqlə yol gedəni.

**Zahid**

Mən ağıllı sanıram ağlını gizlədəni.

**Vəliəhd**

Kəsin mübahisəni, işə keçək nəhayət.

(II Nəsiminin azad olması
barədə fərmanı Zahidə təqdim edir.)

**II Nəsimi**

Lakin zülm üzərində qurulan bir səltənət
İnsanı alçatmasa, özü ucala bilməz.

**Zahid**

Kimdir o alçalan kəs?

**II Nəsimi**

(Zahidə)

İslam şəraitində həbs varmı qadına?

**Zahid**

Var!

**II Nəsimi**

Yalanı uydurma sən şəriət adına.

**Zahid**

Sözün nədir?

**II Nəsimi**

Musanın anası zindandadır?

**Zahid**

Bəli, Həllaci gəlsə, anası amandadır.

**V ə l i ə h d**

Azad elə sən onu!

**Z a h i d**

Azad olacaq... Əvvəl gərək tapaq oğlunu.

**I I N ə s i m i**

Onu tapmayacaqsan.

**Z a h i d**

Niyə?

**I I N ə s i m i**

Yaman oyaqsan!

**Z a h i d**

Nə demək istəyirsən?

(V ə l i ə h d həyəcan keçirir.
I I N ə s i m i y ə işarə edir ki, sussun).

**I I N ə s i m i**

Musa ölüdür artıq.

**Z a h i d**

Bunu çoxdan deyəydin, yasını saxlayaydıq.

**V ə l i ə h d**

Hə... Mənə də dedilər, öldürüblər Musanı.

**Z a h i d**

Öldürüblər? Bəs onda onun meyidi hanı?
Hanı onu öldürən? Gəlsin, onu ucaldaq.
Bəs yetmiş min dinardan niyə keçir o qoçaq?
Bunlar quru sözdü, söz!

**I I N ə s i m i**

Bil, Nəsimi deyildi o gün öldürdüyünüz.

**Z a h i d**

Necə?

**V ə l i ə h d**

(I I N ə s i m i y ə yavaşca)

Düzələn işə pəl qatmayın, axı... Siz...

**Z a h i d**

Nə dedin?

**I I N ə s i m i**

Dediyimi dedim mən.

(Vəliəhd Zahidi kənara çəkir)

**V ə l i ə h d**

Vallah, o, dəli olub eşqinin şiddətindən.

**Z a h i d**

Yaxşı, kimdi de görək bu dəlini sevən qız?

**V ə l i ə h d**

Biri var.

(Z a h i d şübhəli nəzərlərlə onları süzür, I I N ə s i m i y ə)

**Z a h i d**

De, kim idi o gün bəs asdığımız?

**I I N ə s i m i**

Həllaci Musa!

**Z a h i d**

Necə? Onda kimdir Nəsimi

**I I N ə s i m i**

M ə n !

**V ə l i ə h d**

(Z a h i d i kənara çəkir)

Görmürsən? Oynadır o, bizi uşaq kimi...

**Z a h i d**

Yox! Yox! Burda nə is ... bir sirr var, düyün var
Demək, sənsən Nəsimi?

**I I   N ə s i m i**

Bəli, mənəm!

**Z a h i d**

Nə olar,
Artıq dərdi-sərim yox.
Demək, dünən Musadan
Oğlumun qisasını almışam, xəbərim yox.
Dünən asdıq Musanı,
Sabah da Nəsimini.

**V ə l i ə h d**

Bəs sübut?

**Z a h i d**

Sübut... Ana!

(Z a h i d fikrə gedir. Birdən nəsə tapmış kimi I I N ə s i m i y ə tərəf dönür)

Tapdım! İndi qarını apararam meydana,
Həllacinin nəşini göstərərəm mən ona.
O tanısa oğlunu görən kimi əlbəəl,
Demək, o Həllacidir, sən Nəsimi, çox gözəl!

Z a h i d gedir.
V ə l i ə h d I I N ə s i m i n i n yaxasından tutub silkələyir.

**V ə l i ə h d**

Sən neylədin? Neylədin? Nəyə gərək, de bunlar?
Sənin xilasın üçün qurulan bu oyunlar
Hədər oldu... Sən özün bu qurğunu uçurdun.
Sənə ömür bəxş edən o böyük insanın da
Qəsdini yerə vurdun!

Təhqir etdin sən onu.
Sən incitdin bununla onun o pak ruhunu.

**II Nəsimi**

Polad idim...
O, mənim əvəzimə ölürkən
Mən sındım, mən əyildim.
Bu yerdə bəs mən onun
Ağbirçək anasını düşünməli deyildim?

**Vəliəhd**

(Vəliəhd tərk-silah olur)

Ax! Sən necə güclüsən! Bu gücü yendirməyə
Daha məndə dözüm yox!
Səndəki bu məntiqə, səndəki bu ürəyə
Artıq mənim sözüm yox.

(Vəliəhd diz çökür)

Məni ərşə ucaltdın, mən həmişə fərş idim,
Qəbul et müridliyə, sən məni, ey mürşidim.
Apar sirr dünyasına tutub əlimdən məni,
Xaliqimsən, yenidən sən yaratdın, sən məni!

**II Nəsimi**

Qalx, əməl çarpınmalı hər kəlmədə, hər sözdə.
Ey sabahın əmiri, bizim nəzərimizdə
Şahlıq - alçalmadısa, müridlik - ucalmadı.

**Vəliəhd**

Mənimçün şahlığın da bir mənası qalmadı.

**II Nəsimi**

Bax, indi bir anlığa
Zəfər çaldı içində yaxşılıq yamanlığa.
Dünyəvi sultanlığı mənəvi sultanlığa
Dəyişmək istəyənlər,
"Haqqa qulam" – deyənlər,
Bil ki, sözündən əvvəl özünü dəyişməli.

İztirablar odunda yana-yana bişməli!
Sənsə oddan keçməmiş bişdiyini deyirsən,
Təriqəti bilməmiş müridlik istəyirsən?

**V ə l i ə h d**

Mən adi bir insanam bütün insanlar kimi.
Ancaq bu neçə gündə mənim gördüklərimi
Əgər danışsaydılar inanmazdım mən buna.
And içərdim bunların uydurma olduğuna.
Lakin... öz gözlərimlə gördüm bütün bunları,
Dinlədim haqlı ikən haqsız sayılanları.
Böyük hesab etdiyim rütbəli güclülərin
Gördüm kiçikliyini, mənən çürüklüyünü.
Amma kiçik sandığım sizintək gücsüzlərin
Gördüm dəyanətini, gördüm böyüklüyünü.
Yuxudaydım, ey ustad, indi oyanmışam mən.
Qanmadığım çox şeyi yaxşıca qanmışam mən.
Demə, mən ömrüm boyu heçə səcdə qılmışam.
Axı, sən nə biləsən, mən necə sarsılmışam.

**I I N ə s i m i**

Yaxşı, onda bir neçə sualıma cavab ver.

**V ə l i ə h d**

Buyur, mürid qul kimi mürşidini dinləyir.

**I I N ə s i m i**

İndi ana meydanda meyiti görən kimi
Tanıyacaq, deyilmi?
Bilinəcək Zahidi aldatmağın... İndi sən
Bunu düşün, Əmirə nə cavab verəcəksən?

**V ə l i ə h d**

Öz arzusu, məqsədi düşündürür hər kəsi,
Onlar üçün dərdmidir
Nəsiminin yerinə Həllacinin ölməsi?
Saray üçün onların ikisi də qorxulu!
Bu qorxudan xilasın tək çarəsi, tək yolu -

Ölümüdür onların, Zahid üçün fərqi nə -
Hansı düşüb axıra, hansı düşüb əvvələ.

**II Nəsimi**

Desələr, bəs nə üçün sən bizi aldatmısan,
Nəsiminin yerinə Həllacini satmısan?
Buna nədir cavabın?

**Vəliəhd**

Bildim kim olduğunu deyərəm ki, mən onun,
Aldım intiqamını ondan Zahid oğlunun.

**II Nəsimi**

Umacağın böyükmüş sənin bu boş həyatdan.
Qorxun ölümdən imiş, qorxun yoxmuş həyatdan.
Könül adamlarısa keçir dərddən, zülümdən,
Qorxur bu boş həyatdan, ancaq qorxmur ölümdən.

**Vəliəhd**

Ey mürşidim!

**II Nəsimi**

Bir dayan!
Söylə, məni sən neçin
Xilas etmək istədin?

**Vəliəhd**

Bayaq dedim, yox idi az arzum, öz məqsədim,
Ona verdiyim sözə əməl etmək istədim.
Sonra... Səni görüncə ona haqq verdim, ustad,
Mən də sənin eşqinə iman gətirdim, ustad.
İndi səni ölümdən xilas etməliyəm mən.
Ustad, Həllaci Musa
Nəsiminin yolunda öz canından keçdisə
Düz elədi... Sən isə
Ömrünü başa vurmuş bir qarıdan ötəri
Aldığına dəyərmi verdiyinin dəyəri?

**I I  N ə s i m i**

O anadır, xaliqdir, o torpaqdır, o yerdir.
Bütün yaranmışlara o ən uca dəyərdir.
Musa getdi ölümə,
Mənim kimi yaranmış bir insanın yolunda,
Mən gedirəm ölümə
Səni, məni, Musanı yaradanın yolunda.

**V ə l i ə h d**

Mən iki zidd istəyin arasında çaşmışam,
Həm sənə, həm də ona xeyir arzulayırkən
Şərlə qarşılaşmışam.
O, məni düşünmədi, heç olmasa sən düşün.
Axı, mən də insanam, çox ağırdır mənimçün
Sənə "haqlı" deməyim,
Ona olan borcumu sənin xilasınla da
Ödəyə bilməməyim...

**I I  N ə s i m i**

Bu yaxşılıq deyildir, yaxşılığa əvəzdir.
Borc ödəmək – qərəzdir.
Qərəzsiz yaxşılıqdan uzaqdasan sən hələ,
Doğulmağın gerçəkdir, qundaqdasan sən hələ.

**V ə l i ə h d**

(diz çökür)

Hazıram müridliyə, mən hazıram, qəbul et!

**I I  N ə s i m i**

Hazırlıqsız, ey yolçu, yola çıxmaq qəbahət!
Qalx ayağa!

(Z a h i d gəlir)

**Z a h i d**

Bu nədir?
Nələr görür gözlərim?

Şükürlər! Günü-gündən çoxalır dinsizlərim.
Vəliəhd öz təxtini mürtədlərə satırkən
Allaha sədaqəti kimdən umum indi mən?
Görən kimi tanıdı Həllacini anası,
Ərşə çıxdı naləsi.

(pauza)

O, Nəsimi deyilmiş, gör, necə rüsvay olduq!
Camaatın gözündə heçə dönüb zay olduq.

(V ə l i ə h d ə)

Yeganə balamı da qurban verdim sənə mən.
Biz sənin xeyrin üçün xeyrimizdən keçirkən
Sən niyə su tökürsən özgə dəyirmanına?
Niyə düşmən kəsildin sən öz xanimanına?
Öz isticə aşına sən niyə su qatmısan?
Sən bizi aldadırkən özünü aldatmısan.
Yaxşı mən getdim, görək,
Allahın yazdığından bəndə necə dönəcək?!

(Z a h i d çıxır, başqa hücrədə gizlənib onlara qulaq asır)

**V ə l i ə h d**

Xilas oldu ana da,
Sözün varmı buna da?

(sükut)

Hazır olun, bu axşam Sizi qaçıracağam.

(V ə l i ə h d gedir. I I N ə s i m i fikirli gəzinir.
Z a h i d gizləndiyi yerdən çıxıb gözətçiyə)

**Z a h i d**

Bunu elə bu saat sal o məxfi zindana,
Açarı da ver mənə!

(Z a h i d zindana keçir)

Demək, sənsən Nəsimi?

**I I  N ə s i m i**

Bəli, mənəm!

**Z a h i d**

Çox gözəl,
Allah idin sən əvvəl,
Laməkandın, ruh idin,
Nəfəs idin, səs idin,
Gözə görünməz idin,
Niyə gözə görünüb ələ keçdin sən, niyə?
Allaha bax, sən Allah, Allah düşüb tələyə.
Elə güman etmə ki, sən xilas olacaqsan,
Sabah asılacaqsan,
Su daşar qab dolanda,
Sən günəş batacaqsan, o günəş doğulanda!

## YEDDİNCİ ŞƏKİL

Meydan. Baş tərəfdə dar ağacı.
Sağdan L o ğ m a n l a  A y p a r a ,
soldan V ə l i ə h d  görünür.

**A y p a r a**

Vəliəhd, nə xəbər?

(sükut)

Nə olub sənə?

(sükut)

**L o ğ m a n**

Oğul, desənə!

**V ə l i ə h d**

Zəhmətim zay oldu, bacarmadım mən.
Zahid qabaqlayıb məni dünəndən.

Salıb Nəsimini məxfi zindana.

**L o ğ m a n**

Bəlkə, gözətçiylə...

**V ə l i ə h d**

Dünən mən ona
Çox şey vəd elədim, o, gülüb dedi:
Açar məndə deyil, Zahid bəydədi.

**A y p a r a**

Bəs indi neyləyək?

**V ə l i ə h d**

Çox acizəm mən.
Zahid fitvasını verib dünəndən.
Bu gün asılacaq.

**A y p a r a**

Nə danışırsan?

**V ə l i ə h d**

Budur, dar ağacı...

**L o ğ m a n**

Başqa bir güman
Yoxmudur?

**V ə l i ə h d**

Düz işi o, özü əydi,
Əgər kimliyini bildirməsəydi
Hər şey qurtarmışdı... yaman inaddı
Bilərək özünü o, oda atdı.

(K ə n d l i l ə r görünür)

**L o ğ m a n**

Gələn var, çəkilək!

(Vəliəhd, Aypara və Loğman gedir)

**Sübhan**

Mat qalmışam mən.
Deyirəm görən
Necə qaçırıblar meyidi burdan?
Gözətçi yox imiş?

**Rəhman**

Gözətçilərdən
Deyirlər, birinə rüşvət veriblər.
Sonra üçünü də kefləndiriblər.
Odur gətirirlər.

**Kəramət**

Özüdür, görən?

**Sübhan**

Onu Allah bilər.

**Kəramət**

İnanmıram mən.

Qabaqda Zahid dua oxuya-oxuya gəlir.
Arxasınca II Nəsimi
sağ-solunda gözətçilər gəlir.

**Zahid**

Ey mömin bəndələr, ey müsəlmanlar,
Qətldən əvvəlcə sizə sözüm var.
Peyğəmbər eşqinə, imam eşqinə
Salavat zikr edin!

(Hamı salavat çevirir)

Qurana, dinə
Şəkk edən alacaq öz cəzasını.
Həm də itirəcək o dünyasını...
Qətlə yetirildi neçə il əvvəl

Fəzlullah - o mürtəd, alim – biəməl.

**Gənc şair**

Fəzlullah heç zaman mürtəd olmayıb.

**Rəhman**

Bizim qəlbimizdə yeri var onun.

**Sübhan**

Unudulmayıb!

**Şəkkak**

Unudulmayıb!

**Zahid**

Nəsimi adıyla o gün Musanı
Qətl etdik...

**Rəhman**

Bəs burda həqiqət hanı?

**Zahid**

Bizi aldadıblar.

**Kəramət**

Kim aldadıb, kim?

**Zahid**

Həmən Həllacinin özü.

**Rəhman**

Bəs hakim,
Nədən ötrü imiş? Niyə aldanıb?

**Kəramət**

Bəlkə, həqiqəti o, qəsdən danıb?

**Sübhan**

Hardaydı bəs sizin öz düşüncəniz?

**Z a h i d**

Camaat, səbr edin, aldansaq da biz
Bir şey itirmədik, haqq ki, bizdədir.
Budur, Nəsimi də önünüzdədir.

**R ə h m a n**

Görəsən, neçənci Nəsimidir bu?

**K ə r a m ə t**

On üçüncüsüdür.

**S ü b h a n**

Bu ki, nəs oldu.

**Z a h i d**

Elə Nəsimi də nəsdə pəs oldu?

(Ə m i r, V ə l i ə h d, V ə z i r, ə y a n l a r
və L o ğ m a n gəlir.Camaat
Ə m i r i n önündə baş əyir)

Bu gün bu meydana əlahəzrətin
Təşrif buyurması şərəfdir bizə.
Camaat, bilin ki, bu şərafətin
İşığı nur verir gözlərimizə.

**R ə h m a n**

(K ə r a m ə t i n qulağına)

Şərəfin yükündən sındı belimiz,
Nə qədər daşıyaq bu minnəti biz?

**Z a h i d**

Bizim alimlərin maymaqlığından
Kafirlər əlində mür-müc olmuşuq.
Camaat, bilin ki, ehkamdır Quran,
Onun bir təfsirə ehtiyacı yox!
Təfsir arxasında ehkamı danıb
Quranı-Kərimi təftiş başlanıb.

**G ə n c  ş a i r**

Verib ürəyini haqqa, gerçəyə,
Axtarır, axtarır həmişə insan.
Niyə qorxursunuz, bilmirəm niyə,
İnsanın həqiqət axtarışından?

(Ç a l p a p a q gəlir. I I N ə s i m i n i diqqətlə süzür)

**Z a h i d**

Bilin, agah olun, islam da birdir,
Şəriət də birdir, Quran da birdir,
Şəriətdən başqa yoxdur təriqət,
Buna nə hacət?
İslamda vahid var, bir, iki yoxdur,
Allah yeganədir, şəriki yoxdur.
Allah kəlamıdır müqəddəs Quran,
Onu təfsir edən, ona qulp qoyan,
Dinin düşmənidir, yalnız bu qədər!
Dinsizdir Quranı təftiş edənlər.

**I I N ə s i m i**

Zahid, sən özün yaxşı bilirsən, yaranışdan
Allahın öz övladıdır insan.
Övladı danırkən atanı sən necə sevdin?
Yaxdın kitabı, bəs yazanı sən necə sevdin?
Məxluqu danıb, xaliqə qulluq nə deməkdir?
Haqdan yan ötüb, zülmə oğulluq nə deməkdir?
Bəs öz balasından
Allaha çuğulluq nə deməkdir?

**Z a h i d**

Ölümə məhkumdur şəkk edib göyə
Yerdə zir-zibili eşən qarğalar,
"Mənəm Allah" – deyə, "Ənəlhəq" – deyə
Allahlıq eşqinə düşən qarğalar.
Onlardan biri də budur dayanmış.
O, Quranı danmış, o, dini danmış,
Şəriət adından, Quran adından
Dardan asılacaq bu gün bu nadan

Nəsimi Şirvani.

**II Nəsimi**

Görün, kim kimi
Nadan adlandırır.

**Çalpapaq**

(Loğmana)

Budur Nəsimi?

(Loğman başı ilə təsdiqləyir. Çalpapaq Loğmanın qulağına nəsə pıçıldayır. Loğman II Nəsimini diqqətlə süzür)

**Loğman**

Sən nə danışırsan?

**Çalpapaq**

Bəli!

**Loğman**

(Çalpapağa)

Bəri dur!
Hökmdar, sözüm var, izn ver.

**Əmir**

Buyur.

**Loğman**

A bala, doğrudan sən Nəsimisən?

**II Nəsimi**

Demişəm, deyirəm, Nəsimiyəm mən.

**Loğman**

Ay oğul, bir düşün, inad göstərmə,
Gəl, öz həyatını güdaza vermə.

(Zahidə müraciətlə)

Məqsəd bu adamı öldürməkdirsə,
Öldürün, sözüm yox! Nə deyim sizə.
Ancaq bu oğlanı tanıyıram mən,
Bu Nəsimi deyil! And olsun göyə!

**Sübhan**

Necə?

**Kəramət**

Bəs niyə?

(Vəliəhd ayağa qalxır, heyrətlə
II Nəsimini süzür)

**Loğman**

Sübut tələb edir həmişə qanun.

**Zahid**

Axı, sən indicə özündən sordun.
Nə dedi?

**Loğman**

Məhkumun sözü nə vaxtdan
Sübut sayılıbdır, Zahid? Heç zaman!
Hələ cani deyil, caniyəm deyən.
Getdiyim Kəbəyə and içirəm mən.
Bu adam Nəsimi deyil, hökmdar,
Bəlkə, əlinizdə başqa sübut var?

**Zahid**

Kişi təqsirini alır boynuna,
Əlavə bir sübut nə gərək buna?
Loğman, gəl, əl götür bu inadından.

**Loğman**

Mən tələb edirəm qanun adından.

**Zahid**

Mənəm din xadimi, qarışma, Loğman,

Budur, hökmdar da susur bayaqdan.
Dinin fitvasına qarışmaq olmaz.

**L o ğ m a n**

Biz də bu işləri qanırıq az-maz,
Dəlilsiz keçinmir qanun da, din də,
Əvvəl, sübut elə!

**I I N ə s i m i**

Ölmək üçün də
Adamın əlində sübut gərəkmiş.
Elə bil, yerimə bu, öləcəkmiş!

**Z a h i d**

Ay sağ ol! Deginən, axı, sənə nə?

**R ə h m a n**

İşə bax! Öldürmək istədiyinə
Hələ bir "sağ ol" da sıxır.

**Z a h i d**

(L o ğ m a n a)

Bəri dur!

**V ə l i ə h d**

(Ə m i r ə)

Şah babam, sən Allah, sən onu susdur!
Nəsimi deyilsə bu şəxs, hökmdar,
Onu öldürməyin nə mənası var?

**Z a h i d**

Nəsimi adıyla ölümə gedən
Yüz qat qorxuludur bir Nəsimidən.
Bu adam Nəsimi olmasa belə,
Ölümə layiqdir hərəkətiylə.

**L o ğ m a n**

Amma şəxsiyyəti bilinməyən kəs
Şəriətə görə asıla bilməz.

*Z a h i d  tamam tərk-silah olur.*
*Ortaya dərin sükut sökür.*
*İzdihamın içərisindən Ç a l p a p a q  çıxır,*
*h ö k m d a r ı n  qarşısına gəlir.*

**Ç a l p a p a q**

Məni də dinləyin, böyük hökmdar,
Şirvandan gəlmişəm, sizə sözüm var.

**Ə m i r**

Yaxın gəl.

**Ç a l p a p a q**

Hökmdar, düz deyir Loğman.
Mənim övladımdır bu cavan oğlan.
Adı da Turaldır, sorun özündən.
O, Nəsimi deyil, yalvarıram mən,
Onu azad edin.

(Dərin sükut)

Oğul, dinsənə!
Hökmdar, bağışla onu sən mənə.
Onu öldürməklə bir şey düzəlmir.

( Ə m i r i n  ayaqlarına döşənir)

**I I  N ə s i m i**

Qalx, ata!

**Ç a l p a p a q**

Özünə yazığın gəlmir,
Barı məni düşün.

**I I  N ə s i m i**

Ata, qalx, ata
Sənə yaraşarmı alçalmaq, ata?

**Z a h i d**

Siz nə deyirsiniz indi hökmdar?

**Əmir**

Mənim bu adama suallarım var:
Ölümü həyatdan uca tutursan.
Yaşamaq bu qədər ucuzmuş, oğlan?

**II Nəsimi**

Zülmlə həmişə üz-üzə gəldim,
Usanıb yoruldum, düzü, mən daha.
Görürəm, yamanca üstələnmişəm,
Yoxdur umacağım zülmdən daha.

**Əmir**

Amalın nə imiş, de görək sənin?
Kimdir bu dünyada dostun, düşmənin?

**II Nəsimi**

Yoxdur bir sərvətim sözümdən özgə,
Əlacım qalmadı dözümdən özgə,
Düşmənim özüməm, özümdən özgə
İndi qorxmalıyam, de, kimdən daha?

**Əmir**

Düzü, heyran qaldım şücaətinə,
Ölümdən qorxmursan, bunun sirri nə?

**II Nəsimi**

Addadım Arazdan, keçdim Fəratdan,
İndi piyadayam, düşmüşəm atdan.
O qədər qorxmuşam mən bu həyatdan,
Zərrəcə qorxmuram ölümdən daha.

**Əmir**

Zahid, bu adamın kini, nifrəti
Başqadır,
düşməni ehkam, din deyil.
Mənim zülmümdəndir hər şikayəti,
Mənim məhbusummuş o, sənin deyil!

**II Nəsimi**

Sənin zülmünə də haqq qazandıran
Zahidin dinidir.

**Zahid**

Gördünmü, sultan?
İlan qanından da qanı soyuqdur,
Ölümdən ayrı bir əlacı yoxdur.

**Əmir**

Doğru buyurursan, Zahid əfəndi,
Asılsın!

**Çalpapaq**

Əlimi mən indi ancaq
Ataya açmışam, hökmdara yox.
Üç ildir dünyanı mən dolaşmışam,
Bala həsrətilə dağlar aşmışam.
Nə günüm gün olub, nə gecəm gecə,
Nəhayət, tapmışam, indi mən necə
Balamı itirim tapdığım günü?
Göylər də, yerlər də götürməz bunu.

**II Nəsimi**

Yalvarma!

**Çalpapaq**

Ay oğul, ayrı çarə yox!

(Hökmdara əl açır)

Sən də bir atasan!

**Zahid**

Biz sənin necə
Ata olduğunu gördük indicə.
Sənin tərbiyəndən kafir göyərmiş.

**Ç a l p a p a q**

Onu da göyərtdi bu vaxt, bu gərdiş!

**Z a h i d**

( H ö k m d a r a )

Günahı yıxırlar dara düşəndə
Gərdişin boynuna...

( Ç a l p a p a ğ a )

Atayam mən də...
Balama düz yolu mən göstərmişəm,
Onu din yolunda qurban vermişəm.

**Ç a l p a p a q**

( Ə m i r ə )

Bu ağ saçlarımın hər birilə mən
Duaçın olaram sənə bu gündən
Əfv elə, yada sal vicdanı, dini,
Göstər, burda göstər ədalətini.

Gözətçilər qolları bağlı halda
Z a h i d o ğ l u D ə y a n ə t i gətirirlər.

**Z a h i d**

( D ə y a n ə t ə diqqətlə baxır)

İlahi, bu sənsən?.. Şükür Allaha!
Yox dərdim daha!

( Z a h i d D ə y a n ə t i n boynuna sarılır)

Qolların bağlıdır?

( V ə z i r ə )

Bu nə deməkdir?

**V ə z i r**

Zahid, bu sualın nəyə gərəkdir?

Onun özündən sor.

**Ə m i r**

Vəzir, kimdi bu?

**V ə z i r**

Qibləm, Dəyanətdir, Zahidin oğlu.

**Ə m i r**

Bəs bu ki, ölmüşdü?

**V ə z i r**

Yox, sağmış hələ.
O gündən satılıb həllacılərə,
Budur oğurlayan meyidi, qibləm.

**Z a h i d**

Ey mənim pənahım, arxam, yeganəm,
Vəzir düzmü deyir?

(sükut)

Yox, ola bilməz,
Zahidin balası satıla bilməz.
Yalandır, böhtandır bu deyilənlər.
Eləmi, ay oğul, eləmi?

(sükut)

**Ə m i r**

Yetər!
İşə bax! Gözlərim kor imiş mənim,
Ocaq başındaymış, demə, düşmənim.

**V ə z i r**

Oğlun ürəyini şeytana vermiş.

**Z a h i d**

Xəyala gəlməyən başa gələrmiş!

K ə r a m ə t

Zahid əfəndinin tərbiyəsindən
Kafir göyərməyib.

R ə h m a n

Bəs nə göyərmiş?

Ş ə k k a k

Oğul atasının tərbiyəsini
Küləyə vermiş.

G ə n c ş a i r

Zahid göyərməmiş, insan göyərmiş!

Ə m i r

Zahid, yenədəmi inanaq sözə?
Bir toyda, bir yasda dürtürdün gözə
Şəhid olduğunu sən bu yönsüzün.
Demə, xain imiş, görürsən özün.
İndi də cavab ver xəyanətinə.

Z a h i d

Məzuram, hökmdar, nə deyim sənə.

A y p a r a

Vəliəhd, dar gündür, kömək et ona,
Qıyma aman günü xilaskarına.

D ə y a n ə t

Ata, mənimki də bura qədərdi.
Mərdanə qarşıla sən, gəl, bu dərdi.
Sənin öz yolun var, mənim öz yolum.
Gəl, məni bağışla, qurbanın olum.

Z a h i d

Rədd ol, sən bundakı cəsarətə bax!
Ata şərəfini tapdayan alçaq!

Müqəddəs islamı təftiş eləyən
Hürufi məsləkə, o yola lənət!
Ata vüqarını sındıran, əyən
Belə bir övlada, oğula lənət!

**Əmir**

İndi sən de görək, ey din atası,
Dinə tüpürənin nədir cəzası?

**Zahid**

Onun dinimizə xəyanətində
Mən də günahkaram, hökmdar, mən də!
Bununçün əvvəlcə öldürün məni,
Gözlərim görməsin bu faciəni.
(Hamı heyrət içində Əmirin qərarını gözləyir)

**Əmir**

Özün asmalısan, onu, sən özün!

**Loğman**

Böyük olmamalı cəza günahdan.

**Vəliəhd**

Ata, qorxun yoxmu sənin Allahdan?

**Əmir**

Allahın əmridir Əmirin əmri.

**Loğman**

Amandır hökmdar, ata əlləri
Övladın qanına bulaşa bilməz.

**Əmir**

Qan niyə? Asacaq!

**Vəliəhd**

Əfv elə!

**Əmir**

Sən kəs!

Hamıya örnəksən əməllərinlə
İndi as oğlunu öz əllərinlə!

**Z a h i d**

Düz qırx il bu təxtə qul olmuşam mən.
Əmrinə, hökmünə yol olmuşam mən.
Sənə xor baxana divan tutmuşam,
Sənin səhvini də mən doğrultmuşam.
İndi özün söylə, bumu günahım?
Alçaltma sən məni, ey qibləgahım!

**Ə m i r**

Mən elə oğulu öz əllərimlə
Doğrar, tikələri bir-bir sayardım.
Onun ölümünə deyil, mən ancaq
Nankor olduğuna yas saxlayardım.

**Ç a l p a p a q**

Hökmdar, tutmuşuq biz ətəyindən,
Nolar, övladların günahını sən,
Əfv et ataların atalığına,
Allah əvəzini qaytarar sənə.

**Ə m i r**

(Z a h i d ə)
Əmrə əməl et!

**Z a h i d**

Bu nə müsibətdir, pərvərdigara,
Mən hara, verdiyin bu cəza hara?
Əyilməz başları əydim qiblənə.
Bəs bu nə zülmdür, göstərdin mənə?
Sən sındırdın məni, sən qırdın məni,
Cəhənnəm oduna yandırdın məni,
Qoy aləm bürünsün mənim tüstümə,
Dünyanın lənəti yağsın üstümə.
Cəfakeş quluna bumu şəfqətin?
Allah, hanı sənin bəs ədalətin?

G ə n c  ş a i r

Özün yıxılanda ey din atası,
Nə tez dönüb oldun Allaha asi?

D ə y a n ə t

Ata, qalx ayağa!

(Ə m i r ə)

Övlad önündə
Atanı bu qədər alçaltmaq olmaz.
Əgər bacarırsan, məni özün as!

Ə m i r

Atan asmalıdır, öz atan səni,
Yaramaz yaradıb yaradan səni,
Hökmdar əlləri pak və müqəddəs!
Murdarın nəşinə toxuna bilməz.
Övlad atasını satıbsa, fəryad!
Ata öz quluna qul olmalıdır.
Ata qayəsini tapdayan övlad
Atanın əlilə boğulmalıdır!

V ə l i ə h d

Şah babam, bu yerdə üzrüm var, dayan,
Çoxmu arxayınsan öz övladından?

Ə m i r

Nə dedin?

V ə l i ə h d

Məni də yaxşı gör, ata,
Ən böyük günahkar oğlundur, ata.

Ə m i r

Anlaya bilmirəm, dəlisən, nəsən?

V ə l i ə h d

Yox, indi hər şeyi dərk edirəm mən.

Sənə hökmdar tək ağır olsa da,
Dinlə insan kimi, məni sən, ata.

**Ə m i r**

Zahid, başla görək!

**Z a h i d**

Yalvarıram mən.
Ricamı qəbul et, keç bu əmrdən.

(A y p a r a camaatın içindən çıxıb
hökmdarın qarşısına gəlir,
üzünü Z a h i d ə tutur)

**A y p a r a**

Ata! Ataya bax, ricasına bax!
Dövran bədxahlığa dolanmır ancaq.
Danışan dil deyil, yox-yox, könüldür.
Dəyanət ölürsə, məni də öldür!

**V ə l i ə h d**

İlahi!

**Ə m i r**

Nə deyir, nə üyüdür bu?
Vəzir, söylə, kimin küçüyüdür bu?

**L o ğ m a n**

Hər kəsin öz adı, öz ünvanı var,
Mən it olmamışam heç vaxt, hökmdar.
Amma it qudurub dalayan zaman
İpini çəkmişəm onun astadan.

**Ə m i r**

Səllim köpək idin, aldım kölgəmə,
Sən bu ləxləxəni saldın ölkəmə.
Vəzir düz deyirmiş, qatı düşmənim
Həllaci deyilmiş, sənsənmiş mənim.
Vəzir, hanı cəllad, de hazır olsun!

**V ə z i r**

Hazırdır, hökmdar!

**Ə m i r**

Boynu vurulsun.
Əvvəl bu küçüyün, sonra bu itin.
Cəzası ölümdür hər xəyanətin!

**V ə l i ə h d**

Ata, məni dinlə.

**Ə m i r**

Eşitmirəm mən!

**V ə l i ə h d**

Bıçaq boğazdadır, eşidəcəksən.
Dünyada hər şeyə, axı, səbəb var.
Dəyanətlə məni əsir aldılar.
Bir soruş, bəs ordan mən necə qaçdım?
O zaman düzünü danışmamışdım.

**Ə m i r**

Hər şeyi bilirəm.

**V ə l i ə h d**

İzn ver.

**Ə m i r**

Dayan!
Səni xilas edib onda igid tək.
Vəliəhd yolunda ölümə getmək
Onunçün əbədi bir gələcəkdi...
Məzhəbdən dönməsi bəs nə deməkdi?
Musanın nəşini oğurlaması,
Məzara gömməsi bəs nə deməkdir?

**V ə l i ə h d**

Ata, günahsızdı o, burda tamam,
Nəşi dəfn etməyi mən tapşırmışam.

**Ə m i r**

Necə? Sən nəçisən? Axı, sən kimsən?

**V ə l i ə h d**

İnsana cəzanı eşitmişəm mən,
Meyidə cəzanı məqbul saymıram.

**Ə m i r**

Cavab ver, sən kimsən? Nəməkbəharam!
Onda biz nəçiyik? Məgər ölmüşük?
Niyə danışırsan başından böyük?

**V ə l i ə h d**

Çünki mən gecədən gündüzə gəldim,
Böyük başlar ilə üz-üzə gəldim.
Həyat onlar üçün bir ağır yükdür,
Gördüm, özlərindən çox-çox böyükdür,
Onların inanıb tapındıqları.
Təriqət nə imiş? Sinə dağları!
Fikir sahibidir onlar, hökmdar,
Siz deyin, fikirdə qəbahətmi var?
Mən qulam, nökərəm, uşağam, nəyəm?
Niyə sənin kimi düşünməliyəm?
Niyə məni məndən alırsınız siz,
Niyə çərçivəyə salırsınız siz
Mənim düşüncəmi, mənim fikrimi?
Düşünmək istərəm mən özüm kimi!..
Nədir bu ehkamlar, nədir qanunlar?
Axı, öz fikrinə inanır onlar.
Elə bununçün də fikir yolunda
Ölümə hazırdır bu qəhrəmanlar.
Bəs siz? Din yolunda bax, bunlar kimi
Ölümə mərdanə gedərdinizmi?
Yox!..

**D ə y a n ə t**

Çünki qulsunuz öz kamınıza,

Bir amal eşqinə siz yanmırsınız.
Çünki dininizə, inamınıza
Sizlər bizim kimi inanmırsınız.
Ey zahid, ölümə gedərsənmi sən
Əqidən yolunda, eşqin yolunda
Amma biz hazırıq ölümə cismən
Həm Allah yolunda, həm din yolunda.

(C a m a a t təlatümə gəlir)

**V ə l i ə h d**

Hökmdar, ömründə yalnız bir kərə
Bax, əli qabarlı bu bədbəxtlərə.
Yaxşı bax, yaxşı bax, gör, nə gündədir.
Onların Allahı öz içindədir.
Sizin Allahınız hardadır, görən?
Sizin Allahınız yoxmuş əzəldən.

**Z a h i d**

Dinlə, ey hökmdar, bu təhqirləri.
Tapdandı məzhəb də, tapdandı din də,
Bunu gözləyirdim bayaqdan bəri.
Mən çoxdan bilirdim Vəliəhdin də
Həqiqət yolundan imtinasını.
Bu da sənin oğlun, ver cəzasını!

(C a m a a t təlatümə gəlir)

**C a m a a t ı n x o r u**

Allah adlı ülviyyəti
Öz qəlbində, gör, deyirik.
O qüdrəti, o hikməti
Görməyinə kor deyirik.
Haqq yolunun cəfasına
Dözənlərə ər deyirik.
"Allahü-əkbər" deyəndə,
"İnsanü-əkbər" deyirik.

**Ə m i r**

Susdurun onları!

(*K e ş i k ç i l ə r* əl-ayağa düşür,
*c a m a a t* onları geri itələyir)

**I I N ə s i m i**

Bunlar nahaqdır.
Fikir oyandısa, susmayacaqdır.
Fikir - ölümü də mat qoyacaqdır.
Həqiqət adlanan iman yolunda
Qurbanlar görmüşük qədərsiz qədər.
Amma şər yolunda, yalan yolunda
Ölən görməmişik hələ bir nəfər.

**Ə m i r**

Heç demə, saray da Nəsimiləşmiş,
Bəs hara aparır bizi bu gərdiş?
Hürufi məsləki tutub ölkəni,
Tərki-silah etdi öz balam məni!

**R ə h m a n**

Dörd ata, dörd övlad! Durmuş yan-yana,
Ey Əmir, ey Zahid, insan-insana
Yanaşa bilməzmi bir insan kimi?
Siz bala dağının ağırlığını
İndi bunlar kimi hiss etdinizmi?
Bəli, hiss etdiniz! Niyə çatmadı
Bəs bu camaatın dərdi, fəryadı
Sizin o kar olmuş qulağınıza?
Amma dözmədiniz öz dağınıza.
İndi dərdinizdən siz doğuldunuz,
Rütbədən sıyrılıb insan oldunuz!

(Saray əhli heyrət içində bir-birinin üzünə baxır.
Heç kəs nə edəcəyini bilmir,
gərgin vəziyyətdə pərdə qapanırkən)

**L o ğ m a n**

Yalanla gerçəyin çarpışmasından
Əsrlər yaşadı ili dünyanın.

Həqiqət incələr, amma qırılmaz,
Fəryadla açıldı dili dünyanın.

**G ə n c  ş a i r**

Həyatın nəşəsi bizi çaşdırar,
Fikir – həqiqətə qapı açdırar.
Bizi zaman-zaman ululaşdırar
Möhnəti, zilləti ulu dünyanın.

**I I  N ə s i m i**

Mərdliyə çağırır bu gün hər kəsi
Dərisi soyulan şairin səsi.
Uzaq əsrlərdən gəlir nəfəsi
Diri dünyamıza ölü dünyanın.

*1981-1984*
*1984-cü il martın 24-də Azərbaycan Milli*
*Dram Teatrında tamaşaya qoyulmuşdur.*





# RƏQABƏT

## (İKİ HİSSƏLİ, ON ÜÇ ŞƏKİLDƏN İBARƏT DRAM)

### İŞTİRAK EDƏNLƏR

1. **Şahin** –Şirkət sahibi.
2. **Ceyhun** –Onun oğlu.
3. **Səbinə** –Onun qızı.
4. **Nadir** –Şahinin şirkət ortağı.
5. **Məlahət** –Şahinin sevgilisi.
6. **Kəmalə** –Onun qızı.
7. **Aslan** –Vəkil, Şahinin dostu.
8. **Oqtay** –Vəkil.
9. **Səttar** –Şirkət sahibi.
10. **Gülağa** –Səttarın dostu və havadarı.
11. **Əkbər** –Şahinin sürücüsü.
12. **Rizvan** –Onun oğlu.
13. **Səlim** –Şirkətin mühasibi.
14. **Qaçay** (Yetim)–Qatil (killer).
15. **Yazgül** –Restoranda rəqqasə.

## BİRİNCİ HİSSƏ

### BİRİNCİ ŞƏKİL

(Sahibkarlar bağı. Skamyaların birində K ə m a l ə ilə C e y h u n oturub.)

**K ə m a l ə** –Sən əminsən ki, o gələcək?

**C e y h u n** –Hə...

**K ə m a l ə** –Hanı bəs? 10 dəqiqə keçib.

**C e y h u n** –Mən onu necə aldadacağam, Kəmalə? Bundan sonra onun üzü-nə necə baxacağam?

**K ə m a l ə** –Görürəm sən tərəddüd edirsən. Onu bil, nə qədər ki, biz bu xaraba şəhərdəyik, xoşbəxt ola bilməyəcəyik. Biz mütləq burdan getməliyik.

**C e y h u n** –Ona yalan demək mənim üçün çox çətİndir.

**K ə m a l ə** –Başqa çarəmiz var?

**C e y h u n** –*(Nadir görünür.)* Gəlir, sən bir az kənara çəkil. *(Kəmalə uzaqlaşır.)* Xoş gördük, Nadir əmi.

**N a d i r** –İstədiyini gətirdim (Kağıza bükülü pulu ona verir.) 40 min dollar!

**C e y h u n** –Çox sağ olun. Şərtimizi pozmayacaqsınız ha! Atam bilməməlidir.

**N a d i r** –Mən sənə əmi sözü vermişəm. Şahin bilməyəcək. Amma mənə de görüm bu pul sənin nəyinə gərəkdir?

**C e y h u n** –Dostlarım təzə iş açır. Mən də onlara ortaq olmaq istəyirəm.

**N a d i r** –Çox gözəl, alqışlayıram. Amma sənə bir söz demək istəyirəm. Ceyhun, oğul, ata ilə övlad arasında anlaşılmazlıq hər ailədə ola bilər. Düzdür, Allah mənə övlad payı verməyib...

**C e y h u n** –Nadir əmi, bu nə sözdür? Məni özünüzə oğul bilin!

**N a d i r** –Çox sağ ol, Ceyhun. İnan ki, sənə baxanda qanadlanıram. Amma mən övladın acıq edib evdən getməsinə haqq vermirəm. Mənim 20 illik dostum Şahin necə oldu ki, birdən-birə pis adam oldu?

**C e y h u n** –Mən ona pis adam desəm, Allah başıma daş tökər.

**N a d i r** –Mən səni son dərəcə ağıllı, savadlı, irəlini görməyi bacaran bir cavan kimi tanıyıram. Buna görə də mənim məsləhətim budur

ki, qayıdasan evə.

**C e y h u n** –Yox, Nadir əmi, aramızdakı körpülər yanıb, geriyə yol yoxdur.

**N a d i r** –Ata ilə oğul arasında körpülər heç zaman həmişəlik yana bilməz.

S ə t t a r gəlir.

**S ə t t a r** –Salam, Nadir.

**N a d i r** –Salam, Səttar. Tanış ol, Şahinin oğlu Ceyhun.

**S ə t t a r** –(*Görüşür.*) Çox gözəl. Eşitdiyimə görə Türkiyədə oxuyurdun?!

**N a d i r** –İstanbul Universitetinin iqtisadiyyat fakültəsini bitirib.

**S ə t t a r** –İndi nə ilə məşğulsan?

**N a d i r** –Öz yanımızda işləyir.

**S ə t t a r** –Uğurlar olsun! Nadir, Böyükağanın yanına az get-gəl, bildin, az get-gəl!

S ə t t a r gedir.

**C e y h u n** –Bu həmin Səttardır?

**N a d i r** –Bəli, bizim rəqibimiz.

**C e y h u n** –Deyilənə görə çox arxalıdır.

**N a d i r** –İdi...

**C e y h u n** –İndi izn verin, ürəyimi deşən bir mətləbi də deyim. Bizim bizneslərimiz rəqabəti düşmənçilik kimi başa düşür. Bax, mən bundan qorxuram. Odur ki, atamı sizə, sizi də Allaha tapşırıram. Rəqiblərinizlə münasibəti bir qədər yumşaldın.

**N a d i r** –İnşallah, özün görəcəksən ki, rəqabət yumşaqlıqla bir yerə sığ-mır.

**C e y h u n** –Mən biznes yoldaşlarımdan eşitdiklərimi sizə çatdırmalıyam. İki rəqibinizi sıxışdırıb meydandan çıxartdınız. İndi üçüncü qalıb. O, isə təhlükəli adamdır.

**N a d i r** –Səttarı deyirsən? Onun nadürüst olduğunu və kimə güvəndiyini bilirik.

N a d i r l ə C e y h u n söhbət edə-edə uzaqlaşırlar.

## İKİNCİ ŞƏKİL

Şahin Ko şirkəti. **Ş a h i n** mobil telefonla danışa-danışa öz kabinetinə gəlir.

**Ş a h i n** –Qardaş, mən sənə o dəfə də dedim. Əgər məndən məsləhət istəyirsənsə, onda məni eşit. Dedim ki, kənd təsərrüfatı texnikası əlavə dəyər vergısindən azaddır. Bəli (Nadir gəlir.) Sən bu işə girişsən, həm ölkəyə xeyri olar, həm də özünə. (Telefonu qapayır. Nadirə.) Salam.

**N a d i r** –Xoş gəlmisən. Əvvəl sən de görək Ukraynadan necə gəlmisən?

**Ş a h i n** –Bu 20 gündə Ukraynada sahibkarlıq işində çox şeylər gördüm. Dünya gör-götür dünyasidır. Biz də istehsalla istehlakı birləşdirməyə daha çox fikir verməliyik. İki ədəd ən yeni markalı kombayn aldım. Bu gün-sabah gələr. Sarıcadan götürəcəyimiz bu ilki məhsul biz düşündüyümüzdən qat-qat artıq taxıl verəcək. Buna görə vaxt itirmədən icarəyə götürdüyümüz yeni dəmyə torpaqların suvarılması üçün kanal çəkilişini sürətləndırməliyik.

**N a d i r** –Yavaş get, Şahin, onsuz da bizi gözü götürməyənlər çoxdur.

**Ş a h i n** –Olsun. Biz heç nədən çəkinmədən istehsalla istehlakı birləşdirməyi davam etdirməliyik. İndi sən de görək təzə dəyirman nə vəziyyətdədir.

**N a d i r** –Uzağı on günə tamamlanma işləri qurtarır.

**Ş a h i n** –İndi sən Sarıcaya getməli, kanal çəkilişinə özün nəzarət etməlisən. Bu məsələni gələn mövsümə qədər qurtarmalıyıq. Belə ki, yeni mövsümdə bütün dəmyə torpaqlarımız suvarılmalıdır. Onda biz hektardan 25-30 sentner yox, 45-50 sentner məhsul götürə bilərik. Sən get, işi tamam qaydaya salmayınca qayıtma, lap bir ay da çəksə.

**N a d i r** –Onsuz da gü-naşırı əlaqə saxlayıram. Deyirsən get, gedərəm. Təzə sürücü xoşuna gəldimi? Əkbəri deyirəm.

**Ş a h i n** –Yaxşı adama oxşayır.

**N a d i r** –Sənə demişdim, mənim yaxın qohumumdur.

**Ş a h i n** –Aeroportdan bura söhbət eləyə-eləyə gəldik. Balam, keçmiş orqan işçisi olub. İdman üzrə də deyir, çoxlu mükafatları var.

**N a d i r** –O şoferlikdən başqa sənə yaxşı cangüdən olacaq.

**Ş a h i n** –Pekarnilər ilə müqavilə necə oldu?

**N a d i r** –Məsələni xırdalıqlarına qədər həll etmişik. Hələlik, təkcə

Böyükağa bizdən ayda 300 ton taxıl alacağına söz verir.

**Ş a h i** n–Balam, bu Böyükağa Səttarın müştərisi deyildi?

**N a d i r** –İndi yox, çünki o, bizdən baha satır. Səttar axır vaxtlar iflasa gedir. Gömrükdə istədiyini eləyə bilmir.

**Ş a h i n** –Havadarı altıbarmaq Gülağa da bir şey eləyə bilmir?

**N a d i r** –Gülağa çoxdandır Rostovarazborkaya gedib. Deyəsən, orda ilışib. Dib dəhnədəki Dazbaşın da əli orta çatmır.

**Ş a h i n** –O hardan hara?

**N a d i r** –Mən də bu yaxında bilmişəm. Dazbaş altıbarmaq Gülağanın qaynı imiş. Böyükağadan əli üzüləndən sonra Səttar bizim qiymətlərin qabağında duruş gətirə bilməyəcək.

**Ş a h i n** –Yadındadır, altıbarmaq bizə də ilişmək istəyirdi. Dışi batmadı. Sənin qohumun Dazbaşın cilovunu çəkdi.

**N a d i r** –Bununla belə yenə ehtiyatlı olmalıyıq.

S ə t t a r gəlir.

**S ə t t a r** –Salam.

**Ş a h i n** –Salam, Səttar. Xoş gördük. Əyləş. Səndən nə əcəb?

**S ə t t a r** –Deyir, yük əyilməsə, daş qəribliyə düşməz.

**Ş a h i n** –Yük əyilə bilər. Amma bizi qərib hesab etməyini başa düşmədim.

**S ə t t a r** –Mısal bir az yerinə düşmədi. Buranı qəriblik hesab etsəydim, yanınıza gəlməzdim.

**Ş a h i n** –Onda buyur:

**S ə t t a r** –Ə..., bəs heç insafınız yoxdur? Balam, mənim bazarımı niyə əlimdən alırsınız?

**Ş a h i n** –Hansı bazardan danışırsan?

**S ə t t a r** –Nadir yaxşı bilir. O bazardan ki, siz ucuz satırsınız, mən o qiymətə sata bilmirəm, malım qalıb qurtduyur. İndi sizin yanınıza təvəqqeyə gəlmişəm. Böyükağaya dəyməsəniz, qiyməti bir az da qaldırsanız, həm siz çox qazanarsınız, həm də mənim malım yerdə qalmaz.

**N a d i r** –Üz vurma, Səttar, indi camaatda alıcılıq qabiliyyəti zəifdir.

**S ə t t a r** –Camaatın dərdi sənə, mənə qalıb?

**N a d i r** –Əvvəla, biz də o camaatın zərrələriyik... İkincisi, axı, biz

ziyan eləsək, ucuz satmarıq.

**S ə t t a r** –Atan oldu rəhmətlik. Sizə ucuz başa gəldiyindən ucuz da sata bilərsiniz. Amma mənə ucuz başa gəlməyib, axı.

**N a d i r** –Demək, əvvəldən işini düz qura bilmədiyindən qazancın mayanı yeyir. Özün də bilirsən ki, biznesdə güzəşt yoxdur.

**S ə t t a r** – Amma biznesdə bazar qiymətini sabit saxlamaq qanunu da var. Onu pozmağa həmkar xəyanəti deyilir.

**N a d i r** –Bu, rəqabətdir, Səttar.

**S ə t t a r** –Xeyr, əksinə, bu rəqabəti məhdudlaşdırmaq deməkdir. Siz taxıl biznesi ilə məşğul olanların hamısını bazardan çıxarmaqla inhisarlaşmaya gedirsiniz.

**N a d i r** –Düzünü bilmək istəsən, biz istehlakçıları aldadan, onlara baha və keyfiyyətsiz məhsul satanlara qarşıyıq.

**S ə t t a r** –Bu, kişilikdən deyil, Nadir.

**N a d i r** –Sən deyəsən bizimlə davaya gəlmisən.

**S ə t t a r** –Mən bura davaya yox, mənim vəziyyətimi düşünməyi sizdən xahişə gəlmişəm.

**Ş a h i n** –Burdan sənin düşmən kimi getməyini istəmirik. Amma biz bir cibin xatirinə min cibi kəsə bilmərik. İncimə, Səttar.

**S ə t t a r** –Nə deyirəm... Allah bazarınıza rəvac versin. Sağ olun! *(Gedir.)*

**Ş a h i n** –Sən nahaq onunla sərt danışdın, təhqir elədin.

**N a d i r** –Görmədin, üstümüzə necə xoruzlanırdı! Nə isə... Keçək öz dərdimizə. Şahin, çoxdandır sənə bir söz demək istəyirəm.

**Ş a h i n** –Bəs, niyə demirsən?

**N a d i r** –Mən belə hesab edirəm ki, bizim bir-birimizdən gizli sirrimiz yoxdur. *(Dayanır, düşünür.)* Yox, əstəğfürullah! Səni bilmirəm. Amma mən səndən bir şeyi gizlətmişəm.

**Ş a h i n** –O nədir elə?

**N a d i r** –İndi deyə bilmərəm. Vaxtı çatanda onsuz da sənə deməliyəm.

**Ş a h i n** –Yaxşı, sözünü de.

**N a d i r** –İncimə, Ceyhunu evindən qovmaqda düz iş görməmisən.

**Ş a h i n** –Əvvəla, mən qovmamışam, özü gedib. Bəs oğul atanın üzünə ağ olmaqda haqlıdırmı?

**N a d i r** –Üzr istəyirəm, Şahin, övlad 20 yaşdan ötəndən sonra onun şəxsi işinə atanın qarışmağa haqqı yoxdur.

**Ş a h i n** –Lakin elə məsələ var ki, ata övladının şəxsi işinə qarışmağa məcburdur. Amma mən nəyə görə məcbur olduğumu heç kəsə, hətta ən yaxın dostum olan sənə də aça bilmirəm.

**N a d i r** –Burda gizli nə var ki?.. Əgər iyirmi birinci əsrdə yaşayan ata on birinci əsrin havası ilə yaşayırsa, burda günahkar oğul deyil, atadır. İndi hansı ata oğlunu məcbur edə bilər ki, sən uzun illər sevib seçdiyin qızla deyil, başqası ilə evlən?

**Ş a h i n** –Sən də, birini bilirsən, birini yox.

**N a d i r** –Mən nəyi bilmirəm?

S ə l i m gəlir. Qapının ağzında dayanır.

**Ş a h i n** –*(Arxası onlara.)* "Mən nəyi bilmirəm sualına sən mənim ürəyimin ən yararlı yerinə toxunursan. Bəli, Ceyhun o qızla evlənməməlidir.

**N a d i r** –Səbəbini sən mənə də deyə bilmirsənsə, incimə, demək günah səndədir.

**Ş a h i n** –Məgər mən ata deyiləm? Mənim ürəyim yoxdur? O, evdən gedəndən sonra mən özümə gələ bilmirəm. Gecələr də yuxuda onunla danışır, onu yola gətirməyə çalışıram. Bir dəfə çağırdım yanıma, yalvardım, yaxardım. Sözümə baxmadı. Ayrı bir fəndə əl atdım. "Əgər evə dönməsə, onu vərəsəlikdən məhrum etməyim! barədə yalançı bir vəsiyyətnamə yazıb göstərdim ona. Bunun da köməyi olmadı.

**N a d i r** –Bax, bunu düz eləməmisən. Onu evə qaytarmaq üçün o yalançı vəsiyyətnamənin əvəzinə, sevgısinə mane olmayacağını bildirəydin. *(Şahin qəflətən dönüb Səlimi görür.)*

**S ə l i m** –İndicə vağzaldan zəng eləmişdilər. Kombaynlar 3 günə gəlir.

**Ş a h i n** –Sarıcaya xəbər verərsən, gəlib aparsınlar.

**S ə l i m** –Baş üstə. *(Gedir.)*

**Ş a h i n** –*(Nadirə.)* Xahiş edirəm bu söhbəti kəsək.

**N a d i r** –Biz hələ indi başlayırıq. Bəlkə o qızın anasının bir günahı var?

**Ş a h i n** –Yox, o qadın aydan arı, sudan durudu.

**N a d i r** –Bəs onda səbəb?..

**Ş a h i n** –Nadir, mən səndən xahiş edirəm, bu söhbəti kəsək.

**N a d i r** –Sənin xahişin məni qane eləmir. Çünki elə şey də var ki, sən bilmirsən.

**Ş a h i n** –Nəyi bilmirəm? *(Sükut.)*

**N a d i r** –Ceyhunu Kəmalədən ayıra bilməyəcəyini.

**Ş a h i n** –Hardan bilirsən?

**N a d i r** –Sevginin bütün qanunlarından üstün olmasından. Sevginin 70 yaşlı qocanı 20 yaşlı cavana, sevgısi daşa dəyən 20 yaşlı gənci isə 70 yaşlı qocaya döndərdiyini sən hələ bilmirsən?

**Ş a h i n** –*(Siqar yandırır. Dərin sükutdan sonra.)* Haqlısan. İndi ki, söhbət bura dirəndi, məni dinlə: Tələbə idim. Qonşuluqda yaşayan Məlahət adlı abırlı-həyalı bir qızı sevirdim... Atası çox hökmlü, zabitəli və imkanlı adamdı. Mənim atamsa kasıb və fağır bir kişi idi. Dərdimi anama dedim. Anam atamla məsləhətləşib elçi getdi və suyu süzülə-süzülə qayıtdı. O vaxt nələr çəkdiyimi bir Allah bilir.

**N a d i r** –Ona görə də indi sevən oğlunun qabağına kötük atırsan?

**Ş a h i n** –Səbrin olsun. Ardına qulaq as. Nə illah elədiksə, qızı mənə vermədilər. Bir gün qızın qarşısını kəsib dedim: — Səni qaçıracağam. Ağladı. "Bu mümkün deyil. Mən atamın üzünə ağ ola bilmərəm deyib qaçdı və bir müddətdən sonra onu qohumlarından birinə verdilər... Zaman keçdi. Yaram qaysaq bağladı. Mən də evləndim. Ceyhun, Səbinə dünyaya gələndən sonra taleyimlə barışdım. Amma Məlahəti unuda bilmirdim. O, mənim içimdə üstünü köz bağlamış yara kimi gizildəyirdi. Ceyhun 7, Səbinə 5 yaşında olanda, ömür-gün yoldaşımı itirdim. Onun vaxtsız ölümü mənim onsuz da yaralı könlümə dağ üstündən dağ çəkdi. Zaman mənə bu dağı unutdursa da, Məlahət dağını unutdura bilmirdi. Qohum-əqrəba yığışıb məni yenidən evləndirmək istədi. Mən körpə balalarımı ögey anaya etibar etmədim və evlənmədim. Uşaqları nənələri böyütdü.

**N a d i r** –Allaha şükür, indi də sən öz həyatından dərs götürüb uşaqlarını öz istədikləri ilə evləndirməlisən.

**Ş a h i n** –Dedim, səbrini bas. Keçən il köhnə qonşulardan eşitdim ki, bədbəxt Məlahət də həyat yoldaşını itirib. Adresini tapıb getdim başsağlığına. Məlahəti görüncə, ağlım başımdan çıxdı. Elə bil heç dəyişməyib. Həmin təravət, həmin cazibə. Heç demə eşq həmişə tər

təzə qalan köhnə nağılmış.

**N a d i r** –Hə, indi başa düşdüm. Nə olar, əvvəlcə Ceyhunu evləndır, sonra özün.

**Ş a h i n** –A kişi, sənin heç hövsələnzadın yoxdur? Axıracan dinlə, qoy bir sözümü qurtarım, sonra bizi evləndırərsən.

**N a d i r** –Yaxşı, bağışla.

**Ş a h i n** –Mərhumun ölümündən bir il sonra biz Məlahətlə bir neçə dəfə görüşdük. Və bu qərara gəldik ki, evlənək. Bu müddətdə mən uşaqları hazırlamaq və fikrimi onlara bildirmək istəyirdim. Bu ərəfədə də Ceyhun nənəsi ilə mənə xəbər göndərdi ki, bir qızı sevir və evlənmək istəyir.

**N a d i r** –Demək oğul atadan qabağa düşmək istəyir.

**Ş a h i n** –Mən buna çox sevİndim. Nədən ki, evlənmək istəyimi boyum bərabəri oğluma və qızıma deməyə utanırdım. Ceyhunu yanıma çağırdim. Razılığımı bildirdim. Lakin söhbətdən məlum oldu ki, onun sevdiyi qız kimin qızı olsa yaxşıdır? Mənim illərlə həsrətini çəkdiyim Məlahətin qızı.

**N a d i r** –Necə? Vay səni! Bəs bu sirri Ceyhuna açdınmı?

**Ş a h i n** –Yalnız onu dedim ki, mən sənə başqasının qızını almaq istəyirəm. O da qapını çaxıb getdi.

**N a d i r** –Mən son zamanlar sənin gizli romanın olduğunu hiss eləmişdim. Amma onun Ceyhunun sevdiyi qızın anası olduğu ağlıma hardan gələ bilərdi?

**Ş a h i n** –İndi bildin, sözü burda kəsək.

**N a d i r** –Yaxşı, bəs buna qızın anası necə baxır?

**Ş a h i n** –Necə baxacaq? O da mənim kimi — razı deyildi. Daş atıb başını tutur.

**N a d i r** –Bəs uşaqlar bunu bilirmi?

**Ş a h i n** –Yox, nə mən Ceyhuna demişəm, nə də Məlahət qızı Kəmaləyə.

**N a d i r** –Olmazmı ki, siz yaşlılar öz övladlarınızın xatirinə sevginizdən keçəsiniz?

**Ş a h i n** –Niyə tərsinə demirsən? Olmazmı ki, onlar öz valideynlərinin 28 illik məhəbbəti naminə özlərinin 2 illik məhəbbətlərindən keçsinlər?

**N a d i r** –Onda cəsarətiniz çatırsa, mərd-mərdanə açın bu sirri övladlarınıza.

**Ş a h i n** –Onların buna necə baxacaqlarını qoyaq bir tərəfə. Biz, 28 il içimizdə yatan sevdamızdan yenə keçə bilərdik. Amma dərd bundadır ki, axı, biz bir neçə dəfə üzr istəyirəm, ər-arvad kimi görüşmüşük. Məlahətlə mən bundan sonra bir-birimizin üzünə quda kimi necə baxa bilərdik? Yaxud da gəlinim mənim üzümə, oğlum qaynanasının üzünə necə baxa bilər? Sən bunu fikirləşirsən, ya yox? Bundan sonra bu qohumluq mümkündürmü? Sən təsəvvür edirsən, gəlinim-arvadımın qızı, arvadım-oğlumun qayınanası, oğlum-arvadımın kürəkəni. Mən-arvadımın qudası... Bu, mümkündürmü? İndi de görüm, mən haqlıyam ya yox?

**N a d i r** –Bir halda ki, sevgi həddini aşaraq sizin aranızda müəyyən münasibət yaranıb, burada söz demək, məsləhət vermək çətindir.

Telefon zəngi. Ş a h i n dəstəyi götürür. Başqa bir məkanda M ə l a h ə t görünür.

**M ə l a h ə t** –Şahin!

**Ş a h i n** –Alo, Məlahət?

**M ə l a h ə t** –*(Ağlar səslə)* itirdik, Şahin uşaqları itirdik. Bizimki başdan bulanmışdı. Gərək biz onlara mane olmayaydıq.

**Ş a h i n** –İndi nə olub axı?

**M ə l a h ə t** –Bundan artıq nə olacaq? Kəmalə evdən gedib. Telefon açmışdı. Ceyhunla xaricə gediblər.

**Ş a h i n** –Bəs Kəmalənin hansı şəhərdən zəng elədiyini bilmədin?

**M ə l a h ə t** –Nə qədər yalvarıb-yaxardım, harda olduğunu demədi. Onlar hər şeyi biliblər. Kəmalə dedi ki, olan olub, indi nə siz bizi axtarın, nə də biz sizi. Dedi ki, biz başa düşdük ki, nəyə görə bizim evlənməyimizə razı deyildiniz. Buna görə də sizə mane olmamaq üçün biz harda olduğumuzu sizə bildirməyəcəyik. Biz sizin uzun sürən əzabınıza son qoymaq üçün bu qərara gəldik. *(Ağlayır.)*

**Ş a h i n** –Yaxşı, özünü ələ al. *(Dəstəyi asır.)* Qız da evlərindən qaçıb, Ceyhunun yanındadır.

**N a d i r** –Başqa cür də ola bilməzdi.

**Ş a h i n** –Bəs o pulu kimdən alıb? Sən vermisən?

**N a d i r** –*(Tərəddüdlə.)* Yo..ox.

**Ş a h i n** –Bəs kimdən alıb? (Sükut.) Mən axı, uşaqlarımın xatirinə

evlənmədim. Gəncliyimi onlara qurban verdim. Mən bir tərəfdən sevginin nə olduğunu, hansı iztirablardan keçdiyini bildiyimdən qəlbimin dərinliyində Ceyhuna haqq verir, o biri tərəfdən ömrünün yarısından çoxunu yaşamış, sevgisi yetim qalmış bir adam kimi özümə haqq verir, qurbanı doğma övladımdan umurdum. Bir tərəfdən öz haqqım, o biri tərəfdən gəncliyimi qurban verdiyim övladlarımın haqqı dayanıb üz-üzə. Mən heç Birindən keçə bilməsəm də, tale bu məsələni oğlumun xeyrinə həll etdi.

S ə b i n ə gəlir. Qapının ağzında dayanır.

**Ş a h i n** –Səbinə, gəl qızım, Xeyir ola?

**S ə b i n ə** –Sözüm var, ata.

**Ş a h i n** –Otur görüm, *(Sükut.)* buyur.

**N a d i r** –Ata-bala söhbətinizi eləyin. Mən sonra gələrəm. (Gedir.)

**S ə b i n ə** –Ata, mənimlə bir qrupda Rizvan adında çox tərbiyəli və istedadlı bir oğlan oxuyur. Çox kasıb ailədəndir. İndi onu universitetdən çıxarırlar.

**Ş a h i n** –Nə?

**S ə b i n ə** –Deyirəm, universitetdən çıxarırlar.

**Ş a h i n** –Niyə?

**S ə b i n ə** –Təhsil haqqını verə bilmir. Biz bir neçə az-çox imkanlı uşaqlarla belə qərara gəlmişik ki, pul toplayıb onun təhsil haqqını ödəyək.

**Ş a h i n** –Buna o özü necə baxır?

**S ə b i n ə** –Onun xəbəri yoxdur. O bilsə, razı olmaz.

**Ş a h i n** –Nədən bilirsən?

**S ə b i n ə** –Həm xasiyyətinə bələdəm, həm də öyrəndik ki, o, qiyabiyə keçmək üçün ərizə verib.

**Ş a h i n** –Neçə nəfərsiniz və sənə nə qədər düşür?

**S ə b i n ə** –150 dollar.

**Ş a h i n** *(Cibindən pul çıxarır)*–Sən iki yüz dollar ver.

**S ə b i n ə** –Sağ ol, ata.

**Ş a h i n** –Mən sizin ürəyinizdən keçənləri gözlərinizdən oxumuş, hər dərdinizə ortaq olmuşam. Amma qardaşın mənə meydan oxudu.

Mənə düzünü de görüm, qardaşınla əlaqən varmı?

**S ə b i n ə** –Yox.

**Ş a h i n** –Niyə?

**S ə b i n ə** –Axı, necə ola bilər? Mən onun harda olduğunu da bilmirəm.

**Ş a h i n** –Bəs biz onun adresini kimdən öyrənə bilərik?

**S ə b i n ə** –Ancaq sevdiyi qızdan - Kəmalədən.

**Ş a h i n** –Dürtmə o qızı mənim gözümə. Elə o aparıb onu burdan.

**S ə b i n ə** –Kəmalə də gedib? *(Sükut.)* Ata, xahiş edirəm əsəbiləşməyəsən. Mən eşitdiyimə görə o qız tərbiyəli, ziyalı bir ailədəndir. Xüsusilə anası son dərəcədə ləyaqətli və ziyalı bir qadındır. İndi elə bir qadının qızı pis ola bilərmi?

**Ş a h i n** –*(Əcəbi halda.)* Bəsdir!

**S ə b i n ə** –Niyə hirslənirsən? Atabala söhbət edirik. Mən axı, sənin Ceyhun üçün bəyəndiyin qızı da tanıyıram. O qızın nəyi artıqdır, Kəmalədən? Yaxud ailəsinin nəyi artıqdır Kəmalənin ailəsindən? Bir də axı, biz hansı zəmanədə yaşayırıq? Axı, indi valideynlər deyil, övladlar özləri seçir öz namizədlərini.

**Ş a h i n** –Bura bax, yoxsa sən də özünə yol arıtlayırsan?

**S ə b i n ə** –Məni bağışla, ata, mən düşündüyümü dedim.

**Ş a h i n** –İlahi! Mənim öz dərdim özümə bəs deyilmi ki, övladlarım da yanan ürəyimin üstünə köz basır? Axı, mən də insanam. Sizin həyatınız qabaqdadır. Mən isə artıq dağdan aşan günəm. Siz yalnız öz haqqınızı düşünür, borcunuzu unudursunuz. Mən öz atalıq borcumu namusla ödəsəm də, sizdən öz haqqımı tələb etməyə haqqım yoxdur. Budur mənim faciəm!

## ÜÇÜNCÜ ŞƏKİL

Küçə. Səttar görünür. Səlim gəlir.

**S ə t t a r** –Bu gecikməyi tərgidmədin də, Səlim!

**S ə l i m** –Sən Allah, bağışla, borcun fikrini çəkirəm.

**S ə t t a r** –O borcun dərdini çəkmə. De görək təzə nə var, nə yox?

**S ə l i m** –Nə olacaq, Şahinin şəriki Nadir onun ocağı başında düşməni imiş.

**S ə t t a r** –Necə beyəm?

**S ə l i m** –Addım başı ona kələk gəlir. Elə bu günlərdə Şahinin burda olmamasını girəvələyib, hesabdan 40 min dollar çıxartdı. O biri tərəfdən də Ceyhun məsələsi.

**S ə t t a r** –Oğlu Ceyhunu deyirsən?

**S ə l i m** –Bəli, oğlunu qovub evdən.

**S ə t t a r** –Niyə?

**S ə l i m** –Niyəsini bilmirəm. Amma ata-oğul bir-birinə güllə atır. Bu fürsətdən yararlanan Nadir, Ceyhunu alıb qoltuğunun altına. Mən havadan belə anlayıram ki, Nadirlə Ceyhun Şahinin əleyhinə birləşib.

**S ə t t a r** –Bəs, oğul ataya niyə düşmən kəsilib?

**S ə l i m** –Düşmən olmasın, neyləsin? Şahinin 4 yerdə göz deşən villası var. Xarici ölkələrin səfirlərinə kirayə verib, hərəsindən ayda 7-8 min dollar haqq alır. Doğma oğlu isə kirayədə yaşayır. Əlavə, Şahinin banklarda üç milyondan çox pulu da var. Ata oğulu vərəsəlikdən də məhrum edib. Bu boyda haqsızlığı oğul necə götürsün?!

**S ə t t a r** –*(Saatına baxır.)* Səlim, mən indi tələsirəm... Sabah axşam gələrsən mənim ofisimə... *(Gedir.)*

S ə b i n ə ilə R i z v a n gəlir.

**S ə b i n ə** –Heç vaxt ötürməmisən məni, indi xeyir ola?

**R i z v a n** –Çünki bilirəm ki, şoferiniz bu gün sizin dalınızca gəlməyəcək.

**S ə b i n ə** –Maraqlıdır, hardan bilirsən?

**R i z v a n** –Səbəbini desəm, şoferinizin bu gün sizin dalınızca niyə gələ bilmədiyini də hardan bildiyimi deməli olacağam. Ona görə bunu məndən soruşmayın.

**S ə b i n ə** –Sən sirr dağarcığısanmış!..

**R i z v a n** –Həm də sənə deyiləsi sözüm var...

**S ə b i n ə** –Eşidirəm.

**R i z v a n** –Biz sizinlə xeyli vaxtdır bir qrupda oxuyuruq, sizə özüm haqqında, ailəm haqqında, dolanışığımız haqda bir söz deməmişəm. Sizin heç bir işinizə, söhbətinizə qarışmamışam, düzdür? Bəs siz Niyə məni tələbə dostlarımın yanında alçaldırsınız, biabır edirsiniz? Kim

sizdən xahiş edib ki, mənə yetim payı yığırsınız. Mənim heç kəsin yardımına ehtiyacım yoxdur. Mənim qiyabiyə keçməyimin də heç kəsə dəxli yoxdur.

**S ə b i n ə** –Axı... üçüncü kursdan qiyabiyə keçməyi anlamaq çətindir.

**R i z v a n** –Dünyada anlaşılan şeylər anlaşılmayanlardan qat-qat çoxdur.

**S ə b i n ə** –Bu oldu fəlsəfə. Mən real həyatdan danışıram.

**R i z v a n** –Eniş-yoxuşsuz həyat yoxdur. Alın pullarınızı. *(Pulları çıxarır.)* Rəfiqən verdi mənə. Mənim əyanidə qalmaq fikrim yoxdur. İstəmirəm. *(Pulu ona verir.)* Zəhmət çəkib yığmısınız, sağ olun... Amma... *(Qaçay görünür.)*

**Q a ç a y** –Salam Rizvan.

**R i z v a n** –Salam. Hara belə?

**Q a ç a y** –Vacib işim var. Üzr istəyirəm. *(Gedir.)*

**S ə b i n ə** –Sən bunu haradan tanıyırsan?

**R i z v a n** –İdmana gedirik. Gitara çalandır.

**S ə b i n ə** –Düz üç aydır bu məni izləyir.

**R i z v a n** –Yəqin biganə deyil də.

**S ə b i n ə** –Əvvəla xahiş edirəm, məni təhqir eləməyəsən. O kimdir ki... Demək oxumaq istəmirsən bizimlə?

**R i z v a n** –Mən heç kəsə icazə vermərəm mənim qürurumu tapdasın...

**S ə b i n ə** –Heç kəs sizin qürurunuza toxunmaq istəməyib... Oxumaq istəmirsən, oxuma.

**R i z v a n** –Birdə ki, əgər mənim sizi ötürməyim, sizə narahatlıq gətirirsə, söz verirəm bu birinci və axırıncı dəfə olar.

**S ə b i n ə** –Bir narahatlığı yoxdur. Daha ardımca gəlmə, xahiş edirəm. Tinin o başı evimizdir. Sağ ol! *(Gedir.)*

R i z v a n diqqətlə onun ardınca baxır. Ə k b ə r tələsik halda daxil olur.

**Ə k b ə r** –Getdi?

**R i z v a n** –Bəs sən dedin, gələ bilməyəcəksən?

**Ə k b ə r** –Özümü güclə çatdırdım. Bəs niyə onu evə qədər ötürmədin? *(sükut.)* Sənin o dərs məsələn nə yerdə qaldı, o bala?

**R i z v a n** –Dediyim kimi...

**Ə k b ə r** –Pis oxuyurdun?

**R i z v a n** –Oxumağa kimdir baxan, ata! Pulunu ver, qiymətini al. Dünən sonuncu dəfə xəbərdarlıq etdilər. 3 günə təhsil haqqını verməsəm, qovularam.

**Ə k b ə r** –Kim dedi bunu?

**R i z v a n** –Dekan. Deyirəm, bir illik möhlət görürüm, gedim xarici firmaların birində işləyim, təhsil haqqını yığım, ya da qiyabiyə keçim. Başqa əlac yoxdur.

**Ə k b ə r** –Uşaqsan, indiki zamanda iş tapmaq üçün adamın ya gərək adamı ola, ya da yaxşı pulu. Adamımız yox, pul da olsa, elə aparıb təhsil haqqını verərsən də. Bir həftədir işə girişmişəm. *(Sükut.)* Sənin məndən gizli bir işin yoxdur ki?

**R i z v a n** –Nə mənada?

**Ə k b ə r** –Ötürdüyün bu qız haqqında deyirəm ey... Səbinə ilə aranızda heç nə yoxdur ki?

**R i z v a n** –Yox.

**Ə k b ə r** –Bəs o, sənin mənim oğlum olduğunu bilirmi?

**R i z v a n** –Yox.

**Ə k b ə r** –Deməmisən?

**R i z v a n** –Yox.

**Ə k b ə r** –Niyə?

**R i z v a n** –Sən deməmisənsə, mən niyə deməliydim?

**Ə k b ə r** –Afərin! *(Sükut.)* Amma çox ağıllı, kamallı qızdır. Atasına çəkib. Mənə “siz - deyə müraciət edir... Deyirəm, ay oğul, halvaçı qızı daha şirin olar.

**R i z v a n** –Hə... başa düşdüm... Bağışla, ata... Bilirsən nə var, şair Osman Sarıvəlli deyir ki, “Cırıq paltarımdan eşqim utandı”. Əgər o, mənim kimi yoxsul bir ailənin övladı olsaydı, mən hissimi ondan gizlətməzdim. Amma bu vəziyyətdə mən ölərəm, ona bir söz demərəm. Çünki onun ürəyinə gələr ki, mən onu yox, atasının imkanlarını sevirəm.

**Ə k b ə r** –Mən səndən elə bu cavabı da gözləyirdim. Çünki sən mənim oğlumsan. Halal olsun sənə ananın südü!

**R i z v a n** –Gəl bu barədə daha bir kəlmə də danışmayaq! *(Gedirlər.)*

## DÖRDÜNCÜ ŞƏKİL

Məlahətin evi.

**M ə l a h ə t** –*(Diz çöküb əllərini açır.)* Məni niyə bu boyda sınağa çəkirsən, ilahi? İki arzu, iki istək, iki doğmam ürəyimdə qarşı-qarşıya gəlib. Biri - ciyərparam, o birisi uzun illik həsrətim. Hansından keçim?

Məlahət maqnitofonu işə salır. Bülbülün ifasında "Girdim yarın bağçasına" mahnısı səslənir.

Əzab adlı daş daşıdım, gəmim dolmadı,
Gəncliyimdə bir yar sevdim, mənim olmadı.

**M ə l a h ə t** *(Ağlayır)*–Qızım... qızım... Kəmalə... niyə belə elədin, niyə?... indi haradasan, haradasan bala?! *(Gözünə Kəmalə görünür.)*

**K ə m a l ə** –Buradayam, ana... Mən hələ körpə ikən layla əvəzinə sən bu mahnını oxu-yardın. Mən bu mahnı ilə böyümüşəm. Nə mənalı sözləri var ana...

**M ə l a h ə t** –Sözlərinə fikir verme, melodiyası xoşuma gəlirdi.

**K ə m a l ə** –Melodiya da mahnının sözlərindən doğur. Atam öləndən bir müddət sonra isə sən bu mahnını dəyişdin. "Sevgim qınağım" oldu mahnısına keçdin.

Ələnsə də ələyim,
Yox dünyadan gileyim,
Eşqim, hissim, diləyim
Könlümdə dustaq oldu.

Bu mahnı sadəcə mahnı deyil, burda mən bir könül hıçqırığı eşidirəm, ana.

**M ə l a h ə t** –Qızım, mənim könül mahnım çoxdan qırılıb. İndi mənim mahnım sənsən, sən!

**K ə m a l ə** –Övlad mahnı ola bilməz! Övlad sadəcə həyatın davamıdır.

**M ə l a h ə t** –Yox, qızım, indi mənim mahnım yalnız sənsən. Qayıt, qızım, qayıt, qayıt! Başına dönüm, qayıt! *(Qapının zəngi. Kəmalə yox olur. Məlahət qapını açır. Səttar görünür.)* Səttar?! Siz hara, bura hara?

**S ə t t a r** –Yəni məni özünə bu qədər yad hesab edirsən, ay qohum? Olar içəri keçim?

M ə l a h ə t əli ilə keçməyi təklif edir.

**S ə t t a r** –Bir yana baxanda, vallah sən haqlısan. Əşşi, gözümüz açılır bəyəm? Deyir yadlar bir-birinin evinə gedib-gəldikcə qohum olur, qohumlar bir-birindən uzaqlaşdıqca yadlaşır. Məni qınama...

**M ə l a h ə t** –Şakir rəhmətə gedəndən sonra bir dəfə gəlib elə o gedən oldum...

**S ə t t a r** –Şakir bibioğlunun goru haqqı, o vaxtdan başım elə bir cəncələ düşüb ki, heç evdəkilərin də üzü-nə doyunca baxa bilmirəm. Bağışla, sən Allah. Nə var, nə yox? Kəmalə necədir?

**M ə l a h ə t** –Sağ olun...

**S ə t t a r** –Evdən gedib, hə? Ucundan-qulağından eşitmişəm. Çox narahat oldum. Heç inana bilmirəm. Şakir bibioğlu sağ olsaydı, görüm o nə cürət edib evdən qaça bilərdi. Bu, bizim nəslə böyük ləkədir, qohum. Əslinə qalsa, mənəm günahkar. Gərək sizi gözdən qoymayaydım. *(Sükut.)* Yaxşı, indi nə eləmək istəyrsən?

**M ə l a h ə t** –Yəni bu, doğrudan sizi belə narahat eləyir?

**S ə t t a r** –Yadıq bəyəm? Ölməmişik ki... Nə lazımdir, de, eləyək!

**M ə l a h ə t** –Nə eləmək lazım olduğunu qız özü eləyib... Narahat olma...

**S ə t t a r** –Razılıq vermisən? *(Sükut.)* Balam, bəs bu qızın ata tərəfi yoxdur? Qınamazlar bizi? Kəmaləni aldadıblar. Biz o ailəyə yaxşı bələdik. Rəhmətlik dədən Şahinin nə yuvanın quşu olduğunu bildiyinə görə elə səni ona vermədi də. Atası nə zibildir ki, oğlu Ceyhun da bir matah ola? *(Sükut.)* Düz demirəm?

**M ə l a h ə t** –Xeyir düz demirsən. Şahinə zibil demək günahdır.

**S ə t t a r** –Sən belə deməlisən də...

**M ə l a h ə t** –Başqa sözünüz yoxdur ki?

**S ə t t a r** –Nə "siz, siz salmısan? Yadıq bəyəm? İnək öləndən sonra sərnici də sındırarlar? Sən qızını Şahinin oğluna verməklə o nəsildən zəhləsi gedən atan rəhmətliyin də ruhunu incitmisən. Deməк istəyirsən ki, ay ata, məni Şahinə vermədin, mən sənin acığına qızımı onun oğluna

verdim?

**M ə l a h ə t** –Bu taleyin işidir. Bir də ki, sən niyə Şahinə qarşı bu qədər amansızsan? Axı, o, sənə nə eləyib?

**S ə t t a r** –Ə, bə mən bayaqdan sənə nə deyirəm? Şahin mənim başıma oyun açır da...

**M ə l a h ə t** –Heç inana bilmirəm. *(Sükut.)*

**S ə t t a r** –Məlahət xanım, necə yəni inana bilmirəm? Hər yerdə qabağıma kötük atır, malımı satmağa qoymur. Bunu bütün şəhər danışır. Bu bir yana, hələ sənin Şahinlə münasibətini də bütün şəhər bilir. Mən səni qınamıram ha, cavan qadınsan, dul olub qalmayacaqsan ki... bu, öz işindir. Amma qızının qaynatasının, atasının dayısı oğlu olan mənə elədiyi yamanlıqlara sən necə baxırsan?

**M ə l a h ə t** –İndi məndən nə istəyirsən, Səttar?

**S ə t t a r** –Qohum kimi xahiş edirəm, tapşır, mənim müştərilərimə dəyməsin. Bir parça çörəyimə mane olmasın.

**M ə l a h ə t** –Yaxşı. Mən onunla danışaram. Buna görə gəlmişdin?

S ə t t a r susur.

## BEŞİNCİ ŞƏKİL

Ş a h i n i n ofisi.

**Ş a h i n** –*(Selektron düyməni basır.)* Səlim, yanıma gəl. (Telefon zəngi.) Bəli. Axşam saat 6-da? Vallah məmnuniyyətlə gedərdim. Amma bu gün yoldaşımın vəfatının 15 ili tamam olur. Bir azdan qızım gələcək. Onunla qəbir üstünə getməliyik. Məni üzürlü hesab edin. *(Qalxıb bir stəkan su içir. Qapının ağzında Səlim görünür.) — Anbarda dünəndən yoxlama başlayıb, niyə mənə deməmisən?*

**S ə l i m** –Sizi tapa bilmədim.

**Ş a h i n** –Ə, sən nə cür adamsan? Necə olur sənə lazım olanda məni bir dəqiqəyə yerin deşiyindən tapırsan, dünən göyə uçmuşdum?

**S ə l i m** –Vallah mobil telefonunuz da söndürülmüşdü...

**Ş a h i n** –Səncə, bu kimdir bizə belə daş atan?

**S ə l i m** –Nə deyim, vallah...

**Ş a h i n** –Zalım uşağı, elə bil televizora baxmır, qəzet oxumurlar.

Bu qanunsuz yoxlamalar, vallah sahibkarlığa zərbədir... Anbarda görünüb eləmə, qoy istədikləri qədər eşələnsinlər. Bir köçürmə yaz 160 min dollarlıq, gətir qol çəkim. Kiyevə göndərmək lazımdır.

**S ə l i m** –Hesabımızda gərək ki, o qədər xarici valyuta olmasın...

**Ş a h i n** –Mən ezamiyyətə gedəndə ora-da 185 min var idi. 5-ni mən götürdüm... Qalanı nə oldu bəs?

**S ə l i m** –40 min dolları Nadir götürdü.

**Ş a h i n** –Sarıcaya gedəndə?

**S ə l i m** –Xeyir, ondan xeyli əvvəl. Siz Ukraynada olanda...

**Ş a h i n** –Qəribədir? Bəs niyə mənə deməyib? Ortaqlığımız müddətində mən Nadirdən heç vaxt belə şey görməmişdim. Gəlsin görək bu nə məsələdir. Yaxşı, sən köçürməni yaz gətir, 20 mini mən qoyaram üstünə... Sən ömründə sahibkar münasibi ola bilməyəcəksən, Səlim, sən sovet hesabdarısan, elə belə də qalacaqsan. Sənədlərin hüquqi cəhətdən düz tərtib olunmasını vəkil Aslanla məsləhətləş...

S ə l i m çıxır. S ə t t a r gəlir.

**S ə t t a r** –Məni çağırmaqda xeyir ola?

**Ş a h i n** –Özün bilmirsən? *(Sükut).* Bizdən ancaq xeyir görərsən.

**S ə t t a r** –Gördüm o gün xeyrinizi.

**Ş a h i n** –Dəymə-düşər olma. O gün sən burdan gedəndən sonra mən çox dilxor oldum.

**S ə t t a r** –Şükür Allaha.

**Ş a h i n** –Bilirsən, Səttar, gəl əyri oturub düz danışaq. Rəqabət şoğərib elə şeydir ki, adam atasına da güzəş-tə gedə bilmir. Sən də qazanmaq istəyirsən, biz də. Burda da mənafelər toqquşur. Deyirəm, gəl indi elə eyləyək ki, nə şiş yansın, nə kabab.

**S ə t t a r** –Yaxşı, təklifin nədir?

**Ş a h i n** –Təklifim odur ki, nə sən bizə mane ol, nə də biz sənə.

**S ə t t a r** –Necə?

**Ş a h i n** –Sən əvvəllər şəkər ticarəti ilə məşğul olurdun. Əlin də yaxşı gətirirdi. Hətta mən eşitmişdim ki, balaca bir şəkər fabriki açmaq istəyirsən.

**S ə t t a r** –Elə fikrim yenə var. Amma ilişmişəm.

**Ş a h i n** –İlişmisən, düyününü açaq.

**S ə t t a r** –Ukraynada Sultan adlı bir dostum yaşayır. Çoxdan kö-

çüb burdan. Orda özünün şəkər fakbriki var. Mən şəkər biznesini onunla eləyirdim. O, mənə təklif elədi ki, gəl Bakıda bir balaca şəkər fabriki açaq.

**Ş a h i n** –Çox gözəl fikirdir.

**S ə t t a r** –Bilirsən ki, Baksovetdən yer almaq nə müşkül məsələdir. Amma Ukraynadakı dostumun Bakıda iki mərtəbəli mülkü var. Dostum dedi ki, çalış, onu al, qalan işlər mənim boynuma. Girişdim bu işə. Alınmadı. Nədən ki, əslində qaçqın olmayan, amma pul gücünə saxta sənədlə qaçqın statusu alan 3 arxalı ailə oturub binanın I mərtəbəsində. II mərtəbədə isə Sultanın qohumları yaşayır.

**Ş a h i n** –Sən ona əminsən ki, onlar yalançı qaçqınlardır?

**S ə t t a r** –Əmin olmasaydım bu işə girişərdim? Buna baxmayaraq onlar üçün qaçqınlara məxsus yataqxanada yer də düzəltdim. Getmədilər.

**Ş a h i n** –Bu, bir qədər qəliz məsələdir. Çünki onlar qaçqın hesab olunursa, bu barədə Dövlətin qərarı var: qaçqını məskunlaşdığı yerdən çıxartmaq olmaz.

**S ə t t a r** –Axı, qaçqınlığa dair sənədləri sonradan düzəlmədir.

**Ş a h i n** –Bunu sübut etmək lazımdir.

**S ə t t a r** –Əlbəttə. Bunun üçün də mən qüvvətli və cürətli bir vəkil tutmalıyam. O da sənin dostun Aslan. Şəhərdə ondan qüvvətli və arxalı vəkil yoxdur.

**Ş a h i n** –Aslanın arxalı olduğuna inanmıram. Amma güclü vəkil olduğu hamıya məlumdur.

**S ə t t a r** –Yalnız sən bu işi onun boynuna qoya bilərsən.

**Ş a h i n** –Mən Aslanla danışaram. *(Sükut.)* İstehsala giriş. İstehsalsız alış-verişin ömrü gödəkdir. Biznesdə qiymət məsələsi oyuncaq deyil. Müvəqqəti udmağın dalınca uduzmaq da gələ bilər.

**S ə t t a r** –Mən indi udmaq, qazanmaq haqqında heç fikirləşmirəm, təki ziyana düşməyim.

**Ş a h i n** –Taxılını biz satdığımız qiymətə satsan nə qədər ziyana düşərsən?

**S ə t t a r** –51 min dollar.

**Ş a h i n** –51 minlik ziyanını biz ödəmək şərtilə taxılını bizim şirkətin satdığı qiymətə alırıq.

**S ə t t a r** –Bəs onda sən ziyana düşmürsən?

**Ş a h i n** –O mənim işimdir. Mən səninlə açıq danışmaq istəyirəm,

**S ə t t a r** –Tutaq ki, bu dəfə 51 minlik ziyandan biz səni qurtardıq. Bəs sabahı fikirləşmirsən? Sən bilirsən ki, bu yaxın zamanda gömrük rüsumu artacaq? Bəs onda neyləyəcəksən? Rüsumun indiki dəyərində qazanmaq bir yana, 51 min dollar ziyana düşmüsən. Rüsum qalxandan sonra sənin halın nə olacaq?

**S ə t t a r** –Rüsumun qalxması hələ sözdür.

**Ş a h i n** –Bu gün sözdür, sabah iş.

**S ə t t a r** –Sabahın məsələsinə sabah baxarıq.

**Ş a h i n** –İncimə məndən, Səttar, elə biznesmen kimi sənin ən böyük səhvin də ordadır ki, bu gündən sabahı görə bilmirsən.

**S ə t t a r** –İndi məsləhətin nədir?

**Ş a h i n** –Məsləhətim budur ki, sabaha baxıb sən hər üzünə bələd olduğun şəkər istehsalına qayıdasan. Ölkənin də buna ehtiyacı var. Taxıl biznesini isə buraxasan.

**S ə t t a r** –Deyəsən elə bu şərtlə də Ağacəfəri, Musanı taxıl bazarından çıxarmısınız. Mən də çıxandan sonra taxıl inhisarı tamamilə keçir əlinizə.

**Ş a h i n** –Onları mən çıxartmamışam. Səriştəsizlik çıxarıb. İncimə, Səttar, boynuna al ki, sən də naşı-lığından iflasa gedirsən.

**S ə t t a r** –Mən naşı deyiləm. 3 ildir bu işlə məşğul oluram.

**Ş a h i n** –İki balamın canına and içirəm, mən bunu sənin üçün deyirəm. Gələcəkdə rüsumun artması mənim üçün o qədər də qorxulu deyil. Çünki mən həm də istehsalçıyam, amma sən gömrükdən asılısan. Bunu düşün və özün qərara gəl. Fabrik məsələsində də mən sənə əlimdən gələni eləyərəm. Aslanla da danışaram. Razısan, ya yox? İstəyirsən malını özün sat, zərərini biz ödəyək, buna razı deyilsənsə, bizə sat, yenə ziyanını ödəyək. Amma əməlli fikirləş ki, sonra dəbbələmiyəsən.

**S ə t t a r** –Fikirdən keçib. Razıyam. Siz satsanız yaxşıdır.

**Ş a h i n** –Ancaq incimə, dost arası pak gərək. Xüsusən ticarətdə. Gərək bir-birimizə iltizam verək.

Ona kağız-qələm verir

**S ə t t a r** –Etirazım yoxdur.

**Ş a h i n** –Onda yaz ki, bu gündən etibarən taxıl biznesindən əl

çəkirəm. (Səttar yazır.)

**S ə t t a r** –Mənə dəyən ziyanı bu başdan verirsən, yoxsa?

**Ş a h i n** –Necə istəsən?

**S ə t t a r** *(Fikrə gedir.)*–Satış qurtarandan sonra verərsən.

**Ş a h i n** — Mən də yazıram ki, bir aydan sonra Səttar Şaban oğluna 51 min dollarlıq ziyanını ödəməyə söz verirəm.

**S ə t t a r** –Yox, elə yazma, sadəcə yaz ki, sən məndən borc aldığın 51 min dolları filan müddətdən sonra qaytaracağına söz verirsən.

**Ş a h i n** –Borc sözünü yaza bilmərəm. Yazım ki, sənə 51 min dollar verməliyəm. *(Yazır. İltizamları bir-birinə verir və görüşürlər).* Allah xeyir versin.

**S ə t t a r** –Aslana zəng eləməyi unutma.

S ə t t a r gedir. S ə b i n ə əlində bir dəstə çiçək qapıda görünür.

**Ş a h i n** –Gəl qızım. *(Saata baxır.)* Gəl, sən hazır gəlmisən ki... Bir az otur, gedərik. De görüm qardaşından bir xəbər öyrənə bilmisən?

**S ə b i n ə** –Yox!

**Ş a h i n** –Məndən inciyib. Bəs, səninlə əlaqəni niyə kəsib?

**S ə b i n ə** –Çünki o umurdu ki, biz ortaya girib səni bu işə razı salaq. İncimə, ata, sənə də o barədə söz demək olmurdu axı.

**Ş a h i n** –Yaxşı, bəsdir.

**S ə b i n ə** –Bu 200 dolları da götür.

**Ş a h i n** –Hansı 200 dollar?

**S ə b i n ə** –Yadından çıxıb? Qrupumuzda oxuyan kasıb tələbənin təhsil haqqını vermək üçün səndən almışdım.

**Ş a h i n** –Hə, yadıma düşdü. Bəs vermədin?

**S ə b i n ə** –800 dollar topladıq. O, götürmədi. Keçdi qiyabiyə.

**Ş a h i n** –Niyə götürmədi?

**S ə b i n ə** –Qüruruna sığışdırmadı.

**Ş a h i n** –Afərin! Eşq olsun elə namuslu cavana! Qiyabiyə keçibsə, gərək bir yerdə işləyə. Ona de, qoy gəlsin mənim yanıma. Mən onu işə götürürəm.

**S ə b i n ə** –Amma deyəsən haradasa ona söz veriblər.

**Ş a h i n** –Mən söz vermirəm, iş verirəm.

**S ə b i n ə** –Yaxşı, deyirəm *(200 dolları atasına verir.)*

**Ş a h i n** –Pulu saxla, özünə lazım olar.

**S ə b i n ə** –Ata, bilirsən o oğlan kimdir?

**Ş a h i n** –Hansı oğlan?

**S ə b i n ə** –Təhsil haqqını verə bilməyən mənim qrup yoldaşım.

**Ş a h i n** –Mən hardan bilim?

**S ə b i n ə** –Sənin sürücün Əkbər əminin oğlu.

**Ş a h i n** –Bizim Əkbərin?

**S ə b i n ə** –Bəli.

**Ş a h i n** –Bəs o, özü mənə niyə deməyib? *(Stellerə.)* Əkbəri yanıma çağırın. Sən bir işə bax, bu kasıb ata-oğuldakı mərdliyə bax. Qızım, mən bu dünyada oldum, ya olmadım, ərə gedəndə, var-dövlət axtarma, şəxsiyyət axtar. Var-dövlət gəldi-gedərdir. Şəxsiyyət, mərdlik isə onun özündədir. Bir də qarşılıqlı sevgi.

**S ə b i n ə** –Ata, bəs sən necə, sevib evlənmisən?

**Ş a h i n** –Qızım, bunu soruşma. Olan olub, keçən keçib. Biz indi ananın məzarını ziyarətə gedirik.

**S ə b i n ə** –Sözündən belə anladım ki, sevgi ailənin təməlidir. Elə isə sən niyə Ceyhunun sevgısinə mane oldun?

**Ş a h i n** –Nə olsun, o ki bildiyini elədi.

**S ə b i n ə** –Deməк, bizim Ceyhun da şəxsiyyətdir.

Ə k b ə r gəlir.

**Ş a h i n** –Əkbər, yaxın gəl, otur. Sənin oğlunu universitetdən çıxarıblar?

**Ə k b ə r** –Xeyir. Özü qiyabiyə keçib.

**Ş a h i n** –Niyə?

**Ə k b ə r** *(Utana-utana)*–Elə məsləhət oldu.

**Ş a h i n** –Təhsil haqqını verə bilməyib, eləmi? (Sükut.) Bəs sən bunu mənə niyə deməmisən? *(Sükut.)* Bəs sən görmürsən ki, mən sənə adi sürücü kimi yox, ailə üzvü kimi baxıram?

**Ə k b ə r** –Allah sizdən razı olsun.

**Ş a h i n** –Amma unutma, qiyabiyə keçən kimi əsgər aparacaqlar.

**Ə k b ə r** –Əsgərliyini çəkib...

**Ş a h i n** –*(Yeşikdən pul çıxarıb Əkbərə)* Apar bu gün bu pulu ver, uşağın təhsili yarımçıq qalmasın.

**Ə k b ə r** –Sağ olun, çox sağ olun. Amma məsələ bitib. Uşaq işə də düzəlib. İşləyib təhsil haqqına da özü öz zəhmətiylə qazanıb versə yax-

şıdır. Kişi heç nədən qorxmadan gələcəyinə gedən yolu özü açmalıdır. Onda əsl kişi olar.

ALTINCI ŞƏKİL

M ə l a h ə t i n evi, telefon zəngi. M ə l a h ə t dəstəyi götürür.

**M ə l a h ə t** –Bəli, eşidirəm.

**K ə m a l ə** –Ana?

**M ə l a h ə t** –Kəmalə, sənsən?..

**K ə m a l ə** *(Başqa məkanda görünür.)*–Salam, ana, necəsən?

**M ə l a h ə t** –Ay gözümün işığı, bəs anaya belə zülm eləyərlər. Hardan danışırsan.

**K ə m a l ə** –Sənə demişəm, ana, olub-keçənlərə qayıtmayaq. Darıxma, məsləhət beləymiş. Sən özündən muğayat ol.

**M ə l a h ə t** –Necə yəni belə məsləhətdir. De görüm hansı şəhərdəsən.

**K ə m a l ə** –Onu deməyəcəyəm. İncimə, ana, bizim başqa yolumuz yox idi. Biz sizi anlayırıq. Siz uzun illər bir-birinizi sevmisiniz...

**M ə l a h ə t** –Yox, qızım, biz sizin xatirinizə hər şeydən əl çəkə bilərik... Xahiş edirəm, qayıdın evinizə.

**K ə m a l ə** –Yox, ana, artıq bu, mümkün deyil.

**M ə l a h ə t** –Elə demə, qızım. Sən bu sözünlə ananın qəlbinə dağ çəkirsən. Sən necə rəva bilirsən ki, mən yeganə balamı itirim.

**K ə m a l ə** –Niyə belə deyirsən, ana, mən itməmişəm. Sadəcə olaraq səndən uzaqdayam... Özü də səni çox sevirəm. Səndən ötrü burnumun ucu göynəyir. *(kövrəlir, doluxsunur, amma ağladığını anasına bildirməmək üçün pauza verir)*

**M ə l a h ə t** –Nə oldu, niyə susdun. Yoxsa... (o da doluxsunur) Qızım, ananı ağlar qoyma... Hiss edirəm, sən də ağlayırsan... niyə sən özünə də, mənə də zülm edirsən.

**K ə m a l ə** *(özünü zorla ələ alıb)*–Mən ağlamıram, ana. Allaha şükür, nə olub ki?

**M ə l a h ə t** –Başına dönüm, heç olmasa yerini de.

**K ə m a l ə** –Türkiyənin sahil şəhərlərindən birindəyik. Ceyhun

məşhur bir şirkətin ortağıdır. Mən də bir qəzetdə işə düzəlmişəm. Vəziyyətimizdən də nigaran olma. Özüm sənə tez-tez zəng vuracağam. İndi sənin çox sevdiyin bəstəkar Cavanşir Quliyevin yazdığı, son zamanlar sənin züm-zümə etdiyin mahnını oxuyacağam. Qulaq as:

Onsuz keçən günlərim,
Ömrümə yamaq oldu.
Kədər mənim üzümə,
Yenidənmi ağ oldu?

Ələnsə də ələyim,
Yox dünyadan gileyim.
Eşqim, hissim, diləyim
Könlümdə dustaq oldu.

İndi arxasını sən oxu.

**M ə l a h ə t** –İndi mənim mahnı oxuyan vaxtımdır?

**K ə m a l ə** –Sən mənim canım, oxu.

**M ə l a h ə t** –Üz vurma, qızım, mənim mahnım artıq qırılıb.

**K ə m a l ə** –Xeyr, qırılmamalıdır. Yenidən başlanmalıdır. (Sükut.) Əgər oxumasan, dəstəyi asacağam.

**M ə l a h ə t** –

Su axdı, durulmadı,
Səbəbi sorulmadı,
Həyat, həyat olmadı,
Mənə bir sınaq oldu.

Eşq ilkinə can atdı,
Ürəyimi qanatdı.
Getmiş idi, qayıtdı,
Beş günlük qonaq oldu.

**K ə m a l ə** –Bax biz də istəyirik ki, sizin sevginiz beş günlük qonaq olmasın.

**M ə l a h ə t** –Yox, qızım, artıq keçmiş ola.

**K ə m a l ə** –Keçmişinizi qaytarın. Əgər qaytarmasanız, bizim qürbətə düşməyimiz də mənasını itirir.

Ş a h i n gəlir. Telefon söhbətinə qulaq asır.

**M ə l a h ə t** –Yox, qızım, siz hər ikiniz niyə anlaya bilmirsiniz ki, bizim səadətimizin sizin qürbətiniz üzərində qurulması bizim üçün faciədir?!

**K ə m a l ə** –Ana, zaman hər dərdin dərmanıdır. Qoy bir az keçsin, vaxt özü hər şeyi öz yerinə qoyacaq. Darıxma, hələlik, ana. Öpürəm səni. *(Telefonda adboy səsi eşidilir. Uzun sükutdan sonra.)*

**Ş a h i n** –Kəmalə idi? *(sükut)* Adresini demədi?

**M ə l a h ə t** –Xeyir. *(ağlayır).*

**Ş a h i n** –Yaxşı, özünü ələ al.

**M ə l a h ə t** –Biz böyüklərin eləməsi lazım olan böyüklüyü kiçiklərimiz elədi. Bax, budur məni yandiran, Şahin. Düşündükcə, məni dəhşət götürür.

**Ş a h i n** –Haqlısan. Mən oğluma rəqib oldum, sən qızına. Sən bir vaxt atanın xatirinə mənə olan məhəbbətini qurban verdin. İndi də görünür, övladlarımızın xatirinə biz öz məhəbbətimizi qurban verməliyik. Sən düz dedin, övladlarımızın bizdən ötrü vətəndən didərgin düşməsi hesabına qurulan ailə bizi xoşbəxt edə bilməz. Çünki bu ailə övladların qür-bət ellərdə çürüməsi hesabına qurulmuş olacaq.

**M ə l a h ə t** –Necə olur-olsun, biz onları qaytarmalıyıq. Mən yeganə balamı itirə bilmərəm, eşidirsənmi, Şahin, itirə bilmərəm.

**Ş a h i n** –Elə bilirsən mənim üçün asandır? Bəli, biz onları qaytarmalıyıq. Bunun üçün də öz sevgimizdən keçməliyik.

**M ə l a h ə t** –Elədir. Biz çox nahaq yerə alın yazımıza qarşı çıxdıq. Nahaq yerə biz ismət pərdəsini aradan götürdük, Şahin. Böyük günaha batmışıq... Bunu yalnız tövbə ilə yuya bilərik...

**Ş a h i n** –Haqlısan. Tövbə eləməsək, biz məhəbbətimizə övladlarımızın faciəsi kimi baxmalı olacayıq.

**M ə l a h ə t** –Mən tövbəyə hazıram. Təki balalarımız qayıtsın.

**Ş a h i n** –Mən əvvəlcə onların yerini-yurdunu öyrənməliyəm. *(saatına baxır)* Deməк Kəmalə sənə 9-a qalmış telefon açıb; Mən şəhər rabitə qovşağından bu gün, bu saatda sizin telefona hardan, hansı nömrədən zəng olduğunu öyrənərəm. Gərək mən bunu Kəmalə sənə birinci dəfə zəng vuranda öyrənəydim.

**M ə l a h ə t** –Sən bunu edə bilsən, ömrüm boyu sənə minnətdar

olaram.

**Ş a h i n** –Minnətdarlığı qoy bir tərəfə. Bu nöqtədə bizim aramızda olan bütün münasibətlərə son qoyulur, Məlahət!

**M ə l a h ə t** –*(kövrək)* haqlısan. Bundan sonra bizimki daha bitdi. Sevgimizə də əlvida, görüşümüzə də əlvida!

**Ş a h i n** –Yox, bu, bizim son görüşümüz deyil. İzn versən, onların yerini öyrənəndən sonra, gəlib sənə xəbər eləyərəm. Gəlməmişdən əvvəl sənə zəng edəcəyəm. Bütün işıqları yandırarsan. Maqnitafonda "Vağzalı" çaldırarsan. Axı, evinə mənim gəlinim, sənin qızın qayıdacaq!

**M ə l a h ə t** –*(Diz çöküb ağlayır.)* Şahin!

**Ş a h i n** –Yox, gül, Məlahət, gülə-gülə... *(gedir).*

## İKİNCİ HİSSƏ

### YEDDİNCİ ŞƏKİL

Ş a h i n i n ofisi. A s l a n daxil olur.

**A s l a n** –Salam, Şahin.

**Ş a h i n** –Salam, Aslan. Görünmürsən? Səndən xahiş elədiyim Səttarın məsələsi nə oldu?

**A s l a n** –Şahin, sən dediyin o Səttar düz adam deyilmiş.

**Ş a h i n** –Necə bəyəm?

**A s l a n** –3 qaçqın ailəsini çölə tökdüyündən xəbərin yoxdur?

**Ş a h i n** –O mənə dedi ki, Ukraynada yaşayan bir dostunun mülkünü zorla tutublar.

**A s l a n** –Xeyir, düzəltdiyi saxta sənədlərlə qaçqınların sığınağacına sahib olmaq istəyirdi.

**Ş a h i n** –Axı, o, mənə dedi ki, əslində onlar qaçqın deyil.

**A s l a n** –Xeyir, Kəlbəcər qaçqınlarıdır. Səttar arayış düzəldib ki, guya bu bədbəxtlərə vaxtilə filan saylı yataqxanada yer ayrılıb. Yataqxana müdirinə rüşvət verib onlar üçün yaramaz bir yerdə otaq alıb.

**Ş a h i n** –Ay insafsız, məni də aldadıb. Bəs bunu mənə indiyə qədər

niyə deməmisən?

**A s l a n** –Vallah işim başımdan aşır, yanına gələ bilmirdim.

**Ş a h i n** –Buna unutqanlıq yox, saymazlıq deyərlər.

**A s l a n** –Düzdür. Gərək sənə xəbər eləyəydim. Amma Səttarın həyasızlığı məni cin atına elə mindirdi ki, hər şeyi unutdum. Və mən səni yaxşı tanıdığımdan başa düşdüm ki, o, səni də aldadıb. Bununla belə, evin kupçusu da saxtadır.

**Ş a h i n** –Axırı nə oldu?

**A s l a n** –Mən də Səttara yox, müftə-müsəlləm qaçqınlara vəkillik elədim və qələbə çaldım.

**Ş a h i n** –Bu yaxşı olmadı.

**A s l a n** –Necə bəyəm? Mən qaçqınların çölə atılmasına göz yumaydım?

**Ş a h i n** –İndi Səttar elə biləcək ki, mən onu yox, qaç-qınları müdafiə etməyi səndən xahiş etmişəm. Qaçqınlara görə Səttarın təklifini rədd etməyini başa düşür və sənə haqq verirəm. Amma sən gərək qaç-qınlara köməyi heç olmasa başqa vəkilə tap-şırAydın Bu işi özün götürməyəydin.

**A s l a n** –Səttarın qaşısında səni pis vəziyyətdə qoymamaq üçün çox güclü vəkil olan uni-versitet yoldaşım Oqtayı bu işə cəlb etmək istədim. Amma bir vaxt ayıldım ki, Səttar özü Oqtayla artıq müqavilə bağlayıb. Ondan sonra özüm qaçqınlara vəkilliyi boynuma götürməyə məcbur oldum. Nədən ki, Oqtayın öhdəsindən başqa vəkil gələ bilməzdi.

**Ş a h i n** –Sənin haqqı, ədaləti müdafiə etməyinə sözüm yoxdur. Amma sən Səttar kimi nadürüstü mənə düşmən etdiyini başa düşürsənmi?

**A s l a n** –Sən Allah, məni bağışla, mən məsələnin bu yerə dirənəcəyini bilmirdim.

**Ş a h i n** –Gərək biləydin! Sən həmişə mənim işlərimi can-başla yola verirdin. İndi nə olub? Bəzi adamlar kimi sən də naxələf çıxdın? Sağ ol.

**A s l a n** –Vallah məsələnin bu tərəfi heç ağlıma gəlməmişdi.

**Ş a h i n** –Gərək gələydi

N a d i r gəlir.

**N a d i r** –Gün Aydın

**Ş a h i n** –Salam.

**A s l a n** –Yaxşı, mən getdim, sağ olun.

**Ş a h i n** –Sağ ol. *(Aslan gedir.)* Sarıcada nə var, nə yox?

**N a d i r** –Təzə kombaynlar gəldi. Köhnələri qoyduq təmirə. Telefonda dediyim kimi, sahəyə təxminən 1 km qalmış dirəndik qayaya. Çox çətinliklə onun da öhdəsindən gəldik. İndi sahəyə təxminən 200 metr qalıb. Nasoslar elə həmən yerdə quraşdırılır. Çünki yolun ardı yoxuşdur.

**Ş a h i n** –Deməк, gələn mövsümdə 7 min hektar dəmyələr suvarılacaq.

**N a d i r** –Sizdə nə var, nə yox?

**Ş a h i n** –Sənə telefonda dediyim kimi, Səttarı bazardan çıxmağa razılaşdırdim. Amma...

Nadir–Bunları bilirəm. Aslanın işləri korladığını da bilirəm. Səttar cib telefonuma zəng vurmuşdu. Çox gileyləndi.

**Ş a h i n** –İndi gör Səttar məndən nə qədər inciyib ki, o vaxtdan mənə zəng də eləmir.

**N a d i r** –O sənə zəng eləməyib, sən eləyəydin.

**Ş a h i n** *(Əl telefonunu yığır. Başqa bir məkanda Səttar görünür.)* -Səttar?

**S ə t t a r** *(Pıçıltı ilə.)* –Bəli...

**Ş a h i n** –Bu nə əhvalatdır?

**S ə t t a r** –Nə əhvalat?

**Ş a h i n** –Sizin məhkəmə məsələsini Aslan mənə dedi. Çox pərt oldum. Sən rayonda olan Nadirə zəng edib əhvalatı danışırsan, amma burdan-bura mənə demirsən...

**S ə t t a r** –Bir şey deyil. Səndən zərrə qədər inciməmişəm. Nadir gəlib?

**Ş a h i n** –Hə, yanımdadır.

**S ə t t a r** –Salam söylə.

**Ş a h i n** –Mən səndən xahiş edirəm, görüşək, bu məsələni bəlkə başqa cür yoluna qoyduq.

**S ə t t a r** –Yaxşı, baxarıq.

**Ş a h i n** –Baxarıq demə. Mən sənin zəngini gözləyəcəyəm. Hələlik. *(Telefonu qapayır.)*

**N a d i r** –Nə deyir?

**Ş a h i n** –Balam, deyir səndən incimәmişəm.

**N a d i r** –Elə deyirsə, daha pis. Səninlə görüşməyə söz verdi?

**Ş a h i n** –Dedi baxarıq.

**N a d i r** –Görüşməyəcək.

**Ş a h i n** –Nədən bilirsən?

**N a d i r** –Himayədarı altıbarmaq Gülağa gəlib. O, məsələni yoluna qoyacaq. O biri tərəfdən də Dazbaş... Hələ üstəlik bu gün eşitdim ki, Səttar bazardan çıxardığımız Musa və Ağacəfərlə birləşib. Biz bu barədə düşünməliyik.

**Ş a h i n** –Bəlkə Səttara başqa yerdə fabrik tikmək üçün yer almağa kömək edək?

**N a d i r** –Əgər bacarsan, çox yaxşı olar.

**Ş a h i n** –Mən bu barədə dib dəhnədəki dostlarıma ağız açaram. Sənin ordakı qohumun necə, bizə kömək edə bilərmi?

**N a d i r** –Mən də onunla danışaram.

**Ş a h i n** –Yaxşı, başqa nə var, nə yox?

**N a d i r** –Yadına gəlirmi, Şahin, bir dəfə söhbət əsnasında mən sənə dedim ki, bizim aramızda gizli heç nə yoxdur. Bu sözün üstündən dərhal əlavə etdim ki, əstəğfürullah, səndən bir şeyi gizlətmişəm.

**Ş a h i n** –Bəli, yadımdadır.

**N a d i r** *(Çantasından bir bağlama pul çıxarıb qoyur masanın üstünə.)*–Bu, şirkətin halal puludur. 40 min dollar. Sən Ukraynada olanda hesabımızdan götürmüşdüm.

**Ş a h i n** –Mən bugünkü ilk görüşümüzdə səninlə bu barədə danışmaq istəmirdim. Söhbəti özün açdın. Amma mənim bu işdən xəbərim vardı. İndi sən mənə başa sal görüm, 40 min dollar sənə nədən ötrü lazım idi? *(Selestrə.)* Səlim, bura gəl.

**N a d i r** –Səlimi çağırmağa lüzum yoxdur.

**Ş a h i n** –Var. Sənə pul lazım idısə, mən onu səndən əsirgəyəcəkdim? De görüm, o pul nəyinə lazım idi?

**N a d i r** –Xahiş edirəm, bunu indi məndən soruşma.

**Ş a h i n** –Niyə?

**N a d i r** –Vaxt gələndə özüm deyəcəyəm.

S ə l i m gəlir.

**Ş a h i n** –Sən gələndən sonra Səlimlə görüşmüsən?
**N a d i r** –Yox, bir-başa sənin yanına gəlmişəm.
**Ş a h i n** –Səlim, bu düz deyir?
**S ə l i m** –Düz deyir. Görüşməmişik.
**N a d i r** –Axı, Səlimlə nə üçün görüşməli idim?
**S ə l i m** –Görüşməyinə görüşməmişik. Amma Səttar iki gün bundan əvvəl zəng çalmışdı. Nadiri soruşdu, dedim hələ gəlməyib. O da cavab verdi ki, necə yəni gəlməyib, Nadir iki gündür şəhərdədir.
**Ş a h i n** –Sarıcadan mənə, guya təsadüfən Ceyhunla görüşdüyünü və onun bizdən narahat olduğunu deyirsən, mən burdan gedən kimi hesabımızdan 40 min dollar götürürsən, mənə nə Ukraynadan gələndən sonra, nə də Sarıcadan telefon açanda, demirsən. Bu nə deməkdir?
**N a d i r** *(Gülür.)*–Məndən şübhələnirsən?
**Ş a h i n** –Şübhələnməyim, neyləyim? Nə üçün Ceyhun səninlə əlaqə saxlayır, mənimlə yox? Səttar rəqibimiz ola-ola Sarıcaya zəng çalıb, səninlə məsləhətləşir, sənə məndən şikayət eləyir, elə bu saat da sənin gəlməyinlə maraqlanır, salam göndərir. Bu qədər dolaşıq, qəribə işlərin arxasında nə dayanır?
**N a d i r** –Bu nə münasibətdir? Olmaya məni xəyanət-kar hesab edirsən?
**Ş a h i n** –Bunun başqa adı da var? Niyə demirsən pul nəyinə lazım idi?
**N a d i r** –Dedim soruşma, onu sənə hələ deyə bilmərəm.
**Ş a h i n** –Bunlar namərdlikdir, Nadir. Bundan sonra bizimki tutmaz. *(Səlimə.)* Sən gedə bilərsən. *(Səlim gedir.)*
**N a d i r** –Mən səninlə mübahisə eləmək istəmirəm. Amma...
**Ş a h i n** –Mənimlə mübahisə etməyə nə var ki?.. Sən həqiqətlə mübahisə etməkdən çəkinirsən.
**N a d i r** –Həqiqət? Onda qulaq as. Ceyhun səninlə sözləşəndən sonra, mənə qəti bildirdi ki, bizdə işləməyəcək. Dedi təzə iş açırıq, şəriklərim var, mənə pul lazımdır. Məndən xahiş elədi ki, atam bilməmək şərtilə mənə kömək elə. Mən o 40 min dolları Ceyhuna vermişəm.
**Ş a h i n** –Ceyhuna?
**N a d i r** –Bəli.
**Ş a h i n** –Bəs sən niyə Ceyhundan soruşmadın ki, kiminlə iş açır-

san? Mən sənə etibar edib öz evimin, ailəmin, hətta qəlbimin sirrini açıb demişəm, sənsə mənim övladıma məndən gizli pul verib evdən qaçmasına şərait yaratmısan? İndi mən buna nə ad verim? Amma öz oğlun olsaydı, ona belə yol göstərərdin?

Ş a h i n birdən susur və N a d i r i n üzünə baxır. Sükut.

**N a d i r** –Mən özümü heç vaxt övladsız saymamışam. Ceyhunun varlığı mənimçün bəsdir. O mənə əmi kimi ərk eləmişdi. Mən bu ərkin qabağında onu sındıra bilərdimmi? Bir də o, məni inandırdı ki, dostları ilə iş açır. Bu iş üçün ona maya lazımdir.

**Ş a h i n** –O, heç bir iş-zad açıb eləməyib. Sevdiyi qızı vurub qoltuğuna, Türkiyədə kefdədir.

**N a d i r** –Necə? Harda?

**Ş a h i n** –Türkiyədə. Kəmalə birinci dəfə zəng vuranda deyib Türkiyədəyik, ikinci dəfə telefon açanda, yerlərini deməyib. Rabitə qovşağından öyrəndım ki, son zəng İzmirdən olub. Sən bunları bilirdin?

**N a d i r** –Yox, Şahin. Onun xaricə getməsindən heç mənim xəbərim olmayıb. Deməк, Ceyhun məni aldadıb? O vaxt mən Ceyhun söhbətini salanda, məqsədim o idi ki, siz atabalanı barışdırım. Sonra da Ceyhuna verdiyim pul barədə sənə xəbər verim. Ancaq bu, mümkün olmadı. Sənin artıq qanuniləşmiş gəlininin anası ilə sevgi macəranı biləndən sonra mən susmağa məcbur oldum. Səni onunla barışdırmaq fikrindən də vaz keçdim. Və pul söhbətini də açmadım. Həqiqət budur. Bir də ki, Ceyhun onun sevgisinə sənin mane olmağının səbəbini artıq bilirdi. Nənəsi ona məktubla bildirib. Sən isə sevginin nə olduğunu bilə-bilə öz faciəni oğlunun həyatında davam etdirmək istəyirsən . Məgər bu, düzdürmü?

**Ş a h i n** –*(Dərin fikrə gedir.)* Biz insanlar ikiyik. Bir görünən tərəfimiz var, bir də görünməyən tərəfimiz. Görünən tərəfim sənə və Ceyhunun sevgisinə, görünməyən tərəfim isə özümə, öz iztirablarıma və sevgimə haqq verir. *(Dərin sükutdan sonra.)* Sən indi bu pulu mənə niyə verirsən?

**N a d i r** –Ver Səlimə, köçürsün hesaba. Bankda özümə məxsus pulumu bir illiyə faizə qoymuşdum. Onu yalnız bir aydan sonra götürə bilərdim. Faizi və şərti pozmamaq üçün o vaxt bankdakı pulumdan

götürə bilmədim. Vaxt bitdi. Bu gün səhər götürdüm. Ceyhuna verdiyim pulu sən mənim ona əmi payım hesab elə.

**Ş a h i n** –Yox, qardaş, bu boyda pay olmaz. Götür pulunu... Küsdün məndən? Eybi yoxdur, bu gün götürmürsən, sabah götürərsən. Bax, bu pulu seyfə qoyub üstünə də yazıram: "Nadirin pulu *(Pulun büküldüyü kağızın üstünü yazıb seyfə qoyur.)*

**N a d i r** –Amma mən Ceyhunu axtaracağam, yerin deşiyində də olsa onu tapacağam. Təkcə ona görə yox ki, onu qaytarım... Mən onun gözlərinin içinə baxmaq istəyirəm. Onu utandırmaq üçün yox, özümü qınamaq üçün. Mən onu ilk dəfə görəndə onun 3 ya 4 yaşı olardı. Mən onu əlindən tutub gəzməyə aparmış, karuselə mindirmiş, bütün ad günlərində iştirak etmiş, ona doğmaca qardaşoğlu kimi baxmışam. Bu müddət ərzində mən onun gözlərində həmişə saflıq, təmizlik, böyüyə hörmət, nəcabət və ləyaqət işığı görmüşəm. İndi mən onun gözlərinin içinə yenidən baxmaq və bu gözlərin arxasında gizlənən o riyanı niyə bu vaxta qədər görə bilmədiyimi anlamaq istəyirəm. O, mənə yalan yox, həqiqəti desəydi, mən onun bu addımına razı olardımmı?

## SƏKKİZİNCİ ŞƏKİL

Restoranın zirzəmisi. Müxtəlif rəngli şüşələrlə dolu içki yeşikləri. Üstünə yeməklər düzülmüş masa. Ətrafında iki stul görünür. Q a ç a y divanda oturub gitara çalır. Y a z g ü l pilləkənlərdən aşağı enir.

**Y a z g ü l** –Gəldi! Gülağa qardaş gəldi!

İçki yeşiklərinin arxasından G ü l a ğ a görünür. Y a z g ü l rəqs edə-edə ona tərəf gedir.

**Q a ç a y** –Ax-şamın xeyir, boss! Xoş gəldin.

**G ü l a ğ a** –*(Yazgülə)* Poşla proç!.. Lazım olsan, çağıraram. (Yazgül çəkilir). A tı prodoljay! Nə gözü-nü bərəltmisən? Nenaviju jenşin! Ne vidiş, bu yaşa çatmışam, hələ bir dəfə də evlənməmişəm? Bunun iki priçinası var: vo pervıx, kişilər arvadlara istədiyini deyə bilir, a tolko deyə bilir, arvadlarsa kişilərə istədiyini eliyə bilir. A vo vtorıx, ağlamaq istəmirəm.

**Q a ç a y** –Başa düşmədim.

**G ü l a ğ a** –Onda obisnit eləyim də sənin üçün: arvadlar evlənənə qədər ağlayır, kişilərsə evlənəndən sonra.

**Q a ç a y** *(Çalmağı davam etdirir).*–Bu dəfə yaman gecikdin, boss. İşləri yoluna qoya bildinmi?

**G ü l a ğ a** –Rostovda yaxşı oldu. Ryazandan gələn avtoritetlərlə türmədən təzə çıxan abşakların razborkasını qoyduq yoluna. Rostovdakı abşakı neprav elədik. Sonra bir yerdə getdik Moskvaya, mujik bir turemşiki imenovat eləməyə. Burda raznoqlasiya oldu. Gördüm, arada mutilşik var. Mən qayıtdım ki, mujiki qoyub, Baklanı imenovat eləmək vor-zakonluğun ustavına düz gəlmir.

**Q a ç a y** –Orda mestnı vor-zakonlar gündə filan qədər adamı o söz...

**G ü l a ğ a** –Burda qatıqladın. Nöşün ki, vo-pervıx, pomoyemu sən hələ mənim kim olduğumu bilmirsən. Vo-vtorıx, ordakıların hamısı köhnə bratvalardı. Bratva olan kişi bezpredelə getməz.

**Q a ç a y** –Bağışla...

**G ü l a ğ a** –Amma bezpredel oldu. Məsələ böyüdü. Əl atdıq piştoya. Biri yaralandı. İlişdik. Saldılar bizi içəri. 300 min dollar oxudular köpək uşağı. Məni elədilər lüt ətcəbala.

**Q a ç a y** –Mən də balığı tuta bilmədim.

**G ü l a ğ a** –Sənin əfəlliyini mən çoxdan bilirəm. Alə... Ağzından süd iyi gələn bir qızı çırpışdırmaq nəmənə şeydi? Yüz eləsini eləmişik...

**Q a ç a y** –Siz tapşırıb gedəndən düşmüşdüm dalınca... Məsələnin çətinliyi ondadır ki, onu papasının maşını ilə aparıb gətirirlər məktəbə. Bir-iki dəfə onu tək yaxalaya bildim, dedim, gəl səni ötürüm... razılıq vermədi. Axırıncı dəfə də sinif yoldaşı Rizvanla gedən gördüm. O da tərs kimi mənim idmançı yoldaşımdı. Bundan sonra başa düşdüm ki, Səbinəni oğurlayıb atasından pul qopara bilməyəcəyik. Şahin özü də məni tanıyır axı... Bir neçə dəfə xarici qonaqları ilə burada, bizim restoranda olub...

**G ü l a ğ a** –Əndrabadi sözlər qırıldatma, Qaçay! Mən qaynımdan borc alıb getmişdim. Ümidim də bu işə idi.

**Q a ç a y** –Alınmadı da, neyləyim... Qaçıra bilmədim.

**G ü l a ğ a** *(lağ ilə)*–Alınmadı da, neyləyim? Necə yəni alınmadı? Mən səni neçə-neçə zibillərdən qurtarmışam. Yetimxanadan səni götürəndən düz 10 il keçir. İndiyə qədər sənə çəkdiyim xərcləri hələ demirəm. Axırıncı dəfə ilişəndə neçə istəyirdilər səndən? 10 min dollar.

Səni o... zaddan qurtardım? *(Sükut.)* Yox, soruşuram da, qurtardım?

**Q a ç a y** –Bəli.

**G ü l a ğ a** –Axı mən sənə arxayın olub getmişdim... İndi nə deyirsən, tapşırım öpsünlər alnından?

**Q a ç a y** — (öz-özünə).–Onsuz da gec-tez öpəcəklər.

**G ü l a ğ a** — Axmaq, biz bratvayıq! Bezpredelə kraynı hallarda gedirik, bildin?! Fikirləş, gör günahın nəylə yuyursan. Mənə pul lazımdir. (Sükut.) Eşidirsən, mənə pul lazımdir.

**Y a z g ü l** *(Gəlir.)*–Səttar müəllim gəlib.

**G ü l a ğ a** –Ötür bəri... *(Yazgül çıxır. Qaçaya). Vesyolıy bir şey çal.*

**S ə t t a r** *(Pilləllərdən düşür).*–Xoş gördük, ey bu şəhərin yaraşığı... Ömrün yolu hər dəm Umduq ki, gen olsun.

**G ü l a ğ a** –Mən nəğdə əl açdım, Nisyə sənin olsun.

**S ə t t a r** –Düşmənlər önündə Daim üz ağ olsun.

**G ü l a ğ a** –Dərd, qüssə, kədər, qəm bizdən uzaq olsun.

**S ə t t a r** –Əhsən! Ürəyimiz partladı ki, sənsiz... Gəl çıx də... *(Öpüşürlər. Səttar stola nəzər salır).* Qrafsan, Qraf! Yamanca acmışam. *(Yeməyə başlayır).*

**G ü l a ğ a** –Neyləyirdin məni?

**S ə t t a r** –Mən taxıl bazarından çıxıram.

**G ü l a ğ a** –Necə? Sənin başına at təpib?

**S ə t t a r** –Neyləyim? Onsuz da batırdim. Hələlik ziyanımı Şahindən qoparıram. Sonrasına baxarıq.

**G ü l a ğ a** –Sən onun puşkasına nahaq getmisən! Ağacəfərlə Musa mənə ucundan-qulağından deyiblər. Demək, sən o vələdizna Şahinin üçüncü jertvasısan... Adə... Hara qaçırsınız onun qabağından? Kimdir o? Hacı Zeynalabdin Tağıyevdir, yoxsa Musa Nağıyev? Nöşün o sizi belə afsayta salıb?

**S ə t t a r** –Min yaşa, Gülağacan. Düzü, mən sənin fikrini bilmək istəyirdim. Şahin mənim sinəmə dağ çəkib, dağ! A kişi, burdan mənimlə şərt kəsir, o yandan vəkil Aslanı mənim əleyhimə göndərib mülkü əlimizdən aldı. Sənin burda olmamağın...

**G ü l a ğ a** *(Sözünü kəsir.)*–Dedim də, indi bilərsiniz qədrimi. De görüm, fikriniz nədir?

**S ə t t a r** –Ağacəfərgil deməyib?

**G ü l a ğ a** –Mən səndən soruşuram. *(Səttar gitara çalana tərəf ba-*

*xır. Gülağa Qaçaya.)* Poşol... von... *(Qaçay çıxır.)*

**S ə t t a r** –Şahin it oğlu məni aldadıb. Şəkər fabriki üçün nəzərdə tutduğumuz mülkü əlimdən aldı. Bu bir, ikincisi, bizi bazardan qovdu, bu iki, üçüncüsü...

**G ü l a ğ a** –İndi siz də onu dünyadan qovmaq istəyirsiniz?

**S ə t t a r** –Sən ayrı yol görürsən?

**G ü l a ğ a** –Koneçno, bu, razborkalıq iş döyül.

**S ə t t a r** –Atan oldu rəhmətlik! Gərək onu ilim-ilim itirəsən ki, əl-ayağımıza dolaşmasın.

**G ü l a ğ a** –Bəyəm bu hal-vadı? Bəs bunun zavtrası? Ves şəhər bilir ki, bazar məsələsində siz Şahinlə qanlı-bıçaqsınız. Onun başı yeyilsə, hamı bunu sizdən görəcək. Siz bunu obdumıvat eləmisiniz, ya yox?

**S ə t t a r** –Eləmişik. Şahinin düşməni bizdən əvvəl ona xəyanət edən ortağı Nadir, bir də doğmaca oğlu Ceyhundur.

**G ü l a ğ a** –Pah atonnan, hardan bilirsən?

**S ə t t a** r –Bilməsəm deməryəm. Təkcə onu deyim ki, o boyda vardövlət sahibi öz doğmaca oğlunu vərəsəlikdən çıxarıb.

**G ü l a ğ a** –Şahinin svoloçun biri olduğunu mən çoxdan bilirəm. Xəbər göndərmişdim. Mənim dolyamı vermədi. O uçastok mənə baxır axı. Anasını ağladacaqdım. Dib dəhnədən girdilər qanının arasına. İndi hayıfımı almağa əlimə yaxşı moment düşüb. Özün bilirsən ki, bu iş mənim Əlimdə su içmək kimi bir şeydir. Amma... Skala görmüsən? Skala! Qaya də... Qayanı yıxmaq üçün gərək əvvəlcə dövrəsinə dolanıb elə yerini tapasan ki, aşı-randa, özün onun altında xurd-xəşil olmayasan.

**S ə t t a r** –Biz bunların hamısını ölçüb-biçmişik.

**G ü l a ğ a** –Onda sabah axşam saat 10-dan sonra Musa ilə Ağacəfərgilə gələrsən. Sarıqayanın yanı-na... Orda qurduğunuz kletkanın yan yörəsini əməlli-başlı ölçərik. Beynimə batsa, qalan məsələləri də orda danışarıq.

**S ə t t a r** –Allah səndən razı olsun.

**G ü l a ğ a** –Allahdan əvvəl Yetimi razı salmaq lazımdır.

**S ə t t a** r –Yetim kimdir?

**G ü l a ğ a** –Killeri deyirəm də... Kliçkası "Yetimdir. Vor-zakonlar ona verib. Bu səfərimdən başa düşdüm ki, ta biz Ursetdən killer gətirə bilməyəcəyik. Hökumətlər arasında doqovor var, pristupniki tutub bir-birilərinə zdavat eləyirlər. Əlac yetimə qalıb... O da ki, yaman bahacıl-

dır.

**S ə t t a r** –100 min hazırlamışıq...

**G ü l a ğ a** – Həraniz 100 min tərləməlisiniz.

**S ə t t a r** *(Heyrətlə.)*–Həramiz?

**G ü l a ğ a** –Da.

**Y a z g ü l** *(Pillələrdə görünür.)*–Delikatesi gətirsinlər?

**G ü l a ğ a** –Gitaraçı necə oldu?

**Q a ç a y** –Burdayam, Gülağa müəllim. *(Görünür.)*

**G ü l a ğ a** –Şıdırığı bir şey çal... *(Yazgülə)*. Sənsə sındır, sındır, Svoloç... elə sındır ki, sənin yox, mənim sümüklərim şak-şak şakkıldasın! *(Qaçay çalır. Yazgül rəqs eləməyə başlayır, Səttara tərəf gedir. Gülağa Qaçaya yaxınlaşır)*. Sənə təzə zadaniyam olacaq!!! Eşitdin?

## DOQQUZUNCU ŞƏKİL

Ş a h i n i n ofisi. Ş a h i n müxtəlif məkanlarda görünən
S ə t t a r, C e y h u n, N a d i r və M ə l a h ə t l ə danışır.

**Ş a h i n** –Danışdıq, Ramazan! Mən Səttarı tapıram, onunla gəlib baxırıq, hələlik! *(Dəstəyi asır. Cib telefonunu açıb nömrə yığır.)* Səttar, salam...

**S ə t t a r** –Ay həmişə sənin səsini eşidim, qardaş...

**Ş a h i n** –Sənin üçün əla bir yerdə şəkər fabriki üçün yer tapmışam.

**S ə t t a r** –Xoş xəbər olasan, harda?

**Ş a h i n** –Sənin villanın aşağı hissəsində... Ramazanın mülküdür, tanımamış olmazsan, həyətyanı sahəsi hektardan çoxdur. 14 otaqlı, 2 mərtəbəli mənzillərinin ümumi sahəsi 480 kv. metrdir. Əsl fabrika yeridir. Əsas su kəməri də binanın yanından keçir, həyətdə nasosla işləyən quyusu da var...

**S ə t t a r** –Ramazanı tanıyıram. Mülkündə də olmuşam. Əladır... Bilmirəm, heç sənə necə təşəkkür eləyim... Bəs qiyməti?..

**Ş a h i n** –Münasibdir. Sabah saat 5-də səni gözləyirəm. Gedək, birlikdə baxaq.

**S ə t t a r**–Qorxuram, çata bilməyim. Mən, axı, Bakıda deyiləm, Horadizdəyəm. Dostumun oğlunun toyudur... Birisi gün gələrəm... Sən kişi adamsan, Şahin.

**Ş a h i n** –Əzizim, rəqabət hansı sahədə olur-olsun, sağlam olmalıdır, xeyirxah hisslərdən doğmalıdır. Ədavətlə, xudbinliklə yoğrulan rəqabət adamı bədbəxtliyə aparır. Mən əminəm ki, biz hamımız eyni əqidəyə qulluq etsək, xeyir şərə, işıq qaranlığa, əxlaq zinaya, halal harama qələbə çalar və rəqabət düşmənçiliyə çevrilməz. Birisi gün gözləyirəm səni, hələlik. (Telefonu qapayıb, dərindən nəfəs alır. Selektora.) Nailə, çay gətir! *(Mobil telefon zəng çalır. Ceyhun, Kəmalə və Nadir görünür.)*

**C e y h u n** –Məni bağışla, ata...

**Ş a h i n** *(Həyəcanlı.)*–Ceyhun? Sənsən?

**C e y h u n** –Mənəm ata, məni əfv elə.

**Ş a h i n** –Günahkar nə sənsən, nə də mən, bu, taleyin işidir.

**C e y h u n** –Sənin canına and olsun, ata, biz sizin bizim sevgimizə mane olmağınızın səbəbini bilmirdik. Biləndən sonra artıq gec idi.

**Ş a h i n** –Nə Məlahət xanım, nə də mən sizi qınamırıq.

**C e y h u n** –Biz də sizi qınamırıq.

**Ş a h i n** –Biz anladıq ki, bir valideyn kimi bizim sizə mane olmağa haqqımız yoxdur. Qayıdın öz doğma ocağınıza. Mən gəlinimi görmək, onu təbrik etmək, nəhayət, mən sizə toy eləmək istəyirəm. Gəlinim yanındadırsa, telefonu ona ver.

**K ə m a l ə** –Ata...

**Ş a h i n** –Məni bağışla, qızım, mən sizi... (Kövrəlir, danışa bilmir.)

**K ə m a l ə** –Ata... *(yaş boğur.)* Siz bizi bağışlayın. *(Dəstəyi Ceyhun alır.)*

**C e y h u n** –Sevindiyindən ağlayır, ata, danışa bilmir... bağışla!..

**Ş a h i n** –Nadir ordadırmı? *(Ceyhun telefonu Nadirə verir.)*

**N a d i r** –Hər vaxtın xeyir...

**Ş a h i n** –Sağ ol. Allah səni mənə dost yox, şərik yox, mələk göndərib. Məni əzablardan xilas etdin, sağ ol... Hardan danışırsınız?

**N a d i r** –Ankaradan. Gecə reysi ilə gəlirik... Qarşılama, uşaqlar utanırlar səndən. Sabah, Allah qoysa günortadan sonra sənin yanında olacağıq.

**Ş a h i n** *(Kövrəlir.)*–Bir həftədən sonra mənim ad günümdür. Na-

dir, mən artıq toya hazırlaşıram. Ceyhunun toyuna.

**K ə m a l ə** *(Birlikdə.)*–Biz səni çox istəyirik, ata, öpürük səni.

**Ş a h i n** –Mən də sizi öpürəm, balalarım. (*Telefonu qapayır. Selektora.)* Nailə, çay lazım deyil. *(Az müddət düşünə-düşünə gəzişir. Dəstəyi götürüb nömrə yığır.)* Məlahət xanım, axşamın xeyir. Gözün aydın, mənim gəlinim, sənin kürəkənin gəlir. Mənim ad günümə yox, balalarımızın toyuna hazırlaş.

**M ə l a h ə t** –Allah qoysa.

**Ş a h i n** –Təfsilatını axşam gəlib danışaram. Düz saat 10-da... Danışdığımız kimi "Vağzalı musiqisi çaldırırsan, bütün işıqları yandırarsan. *(Dəstəyi asır. Qulağına "Vağzalı" səsi gəlir. Şahin və Məlahət qollarını açıb "Vağzalıya" rəqs edirlər.)*

## ONUNCU ŞƏKİL

Uca binanın bloku görünür. "Vağzalı" musiqisi səslənir.
S ə h n ə n i n dibindən bir nəfər gəlib bloka keçir.
Maşının dayanma səsi eşidilir. Ş a h i n , ardınca Ə k b ə r gəlir.

**Ş a h i n** –10-15 dəqiqəyə qayıdıram. *(Əkbər o tərəf-bu tərəfə baxır. Şahin bloka girir. İki boğuq tapanca səsi eşidilir. Qaçay əlində silah blokdan çıxır. Ardınca sinəsini tutan Şahin görünür.)* Qaçay!.. *(Qaçan adam dayanmır. Əkbər yıxılmaqda olan Şahini tutur.)*

**Ə k b ə r** –Qaçay?

**Ş a h i n** –O idi. *(Yıxılır. Əkbər onu uzandırıb qatilin dalınca qaçır.)*

**Ə k b ə r** –Qaçay, mən səni tanıdım. *(Onun dalınca qaçır. Dalbadal iki güllə səsi eşidilir.)*

Məlahət gəlir.

**M ə l a h ə t** – Şahin, Şahin! Səni kim bu hala saldı? *(Şahinin başını dizi üstə qoyur.)*

**Ş a h i n** –Qaç... *(sözünün dalını deyə bilmir, keçinir.)*

**M ə l a h ə t** –Qaç? Mən hara qaçıram? Səni vuran qoy məni də vur-

sun. Şahin, Şahin!

(Ə k b ə r qayıdır, Ş a h i n i n nəbzini yoxlayıb, cib telefonunu çıxarır.)

**Ə k b ə r** –Alo, təcili yardımdır? Dədə Qorqud küçəsi, 14 saylı binanın blokunda adam vurublar. Özünüzü yetirin.

**M ə l a h ə t** –Kor olaydı gözlərim, səni belə görməyəydim. *(Mobil telefon səslənir. Əkbər telefonu açır.)*

**G ü l a ğ a** –Əkbər, dilini saxlamasan oğlunu ölmüş bil.

**M ə l a h ə t** *("Girdim yarın bağçasına" mahnısı səslənir.)*–Mənə qismət elədiyin səadəti əlimdən almaqla məni yenidənmi imtahana çəkirsən, ilahi! Mən bu imtahanlara dözmüşəm. Bəs indi, bu bədbəxtin yoxluğuna, necə dözüm? Bunun günahı nə idi, ilahi! Şahin, Şahin, qanadları qırılıb al qana boyanan Şa hinim!

Əzab adlı daş daşıdım, gəmim dolmadı.
Gəncliyimdə bir yar sevdim, mənim olmadı.

## ON BİRİNCİ ŞƏKİL

Ş a h i n i n ofisi. N a d i r, arxasınca da O k t a y və S ə l i m gəlir.
N a d i r Ş a h i n i n şəklini masanın üstünə qoyur.

**N a d i r** –Buyur, cənab vəkil. *(Səlimi göstərir.)* Səlim şirkətin baş mühasibidir. Mən də burdayam. Nə sözünüz olsa, buyura bilərsiniz. *(Nadir çıxır.)*

**O q t a y** –*(Səlimə.)* Otur. Sən şahidsən ki, Şahin Nadiri şirkətdən qovub?

**S ə l i m** –Bəli.

(A s l a n gəlir.)

**O q t a y** –O... o... o... Aslan, Pələng, Şir... Bilirik, deyiblər, yenə rinqə çıxmaq istəyirsən mənimlə...

**A s l a n** –Bu, bizim sənətimizdir.

**O q t a y** –Elədir, nə sən müftə vəkillik eləyirsən, nə də mən. Zəhmətimizə görə haqq alırıq. *(Səlimə.)* Siz gedə bilərsiniz... Səlim müəllim... daha sualım yoxdur.

**A s l a n** *(Səlimə.)*–Buralarda olun, Səlim müəllim. Mənim də sizinlə söhbətim var. *(Səlim çıxır.)* Deyirsən zəhmətimizə görə haqq alırıq. Bəs aldığımız haqqın halal, yaxud haram olmasının sənin üçün heç bir önəmi yoxdur?

**O q t a y** –Zəhmətin haqqını almaq halaldir.

**A s l a n** –Yaman dəyişmisən, Oqtay.

**O q t a y** –İndi bir çətən külfətim var... *(Sükut.)* Nə isə, musmus deyincə, sözünün Mustafasını de.

**A s l a n** –Sözümün Mustafası odur ki, bir dost kimi səndən xahiş edirəm, Səttarın və Gülağanın müda-fiəsini rədd elə.

**O q t a y** –Niyə?

**A s l a n** –Mən əminəm ki, sən kimin günahkar olduğunu yaxşı bilirsən. Sən gəl bu cinayəti örtbasdır eləmə, günahdır.

**O q t a y** –Yanmış mağazanın işini götürəndə də qənşərimə daş gillətdin. İndi də tuğilənət olub nə keçmisən boğazıma?

**A s l a n** –O mağazanı qəsdən yandırdıqlarını sən özün də bilirdin.

**O q t a y** –Olsun, lap qəsdən olsun! Sənə nə var? Atanın malı yanmışdı? Mənə pul lazım idi. Gözümü o işə dikmişdim. Sən açıqca düşmən kəsilmisən mənə, Aslan...

**A s l a n** –Sənin həqiqi dostun mənəm, Oqtay...

**O q t a y** –Ə, kiri, kiri! Sən dost qədri bilənsən? Neçə illik dostun Şahin Səttarı sənə tapşırmamışdı? Sən dostuna düşmənçilik eləyib, keçdin qaçqınlar tərəfə.

**A s l a n** –Çünki haqq o tərəfdə idi.

**O q t a y** –Bura bax, əlimizə iki varlikarlı müştəri düşüb. Mənimki Səttar, səninki Nadir. Nə mən sənin işinə qarışım, nə sən mənim. Sənə də, mənə də məlumdur ki, Şahinin qatili bunların ikisindən biridir. Sən öz müdafiəni elə, mən öz müdafiəmi. Ya sənə verən Allah, ya mənə.

**A s l a n** –Axı, tam əminəm ki, Nadir günahsızdır.

**O q t a y** –Lap yaxşı. Onu məhkəmədə sübut elə, ədalət və vicdan

carçısı! Mən də çalışacağam ki, əksini sübut edim. Beləliklə, biz hər ikimiz öz vəzifəmizi namusla icra edirik. Burda nə pis şey var ki?

**A s l a n** –Sən mənə yaxşı bələdsən. Mən həmişə başımın üstündə Allahı gördüyümdən haqsızın müdafiəsinə girişməmişəm... O vaxt Səttar mənə xeyli pul təklif etsə də, onu rədd edib özün dediyin kimi, müftə-müsəlləm qaçqınları müdafiə elədim. Və Səttarı dostum Şahinə düşmən qazandırdım. İndi mən Şahinin ruhu qarşısında günahkaram. Çünki mən onun qətlinə dolayısı ilə səbəbkar oldum. Amma sən Allahdan qorxmayıb günahkar Səttarların cinayətini örtbasdır eləməyə çalışırsan.

**O q t a y** –Bu mənim peşə borcumdur.

**A s l a n** –Cinayəti örtbasdır eləmək peşə borcudur? Bəs vicdan borcun?

**O q t a y** –Sən bu vicdan sözünü kəlməbaşı nə gözümə soxursan? Vicdan və ədalətin sus-durduğu bir məqamda vicdandan danışmaq özü vicdansızlıqdır. Ömrünün 40 ilini elmi kəşflərə sərf edən dayımın müalicəsi üçün pullu, yeni açılan mərkəzi kliniki xəstəxana bizdən elə haqq istədi ki, gücümüz çatmadı. Məni boyabaşa çatdiran dayıma kömək eləməyə imkanım olmadı. Öldü. Sən bunamı vicdan deyirsən?

**A s l a n** –O başqa məsələdir. Onu bura qatma. Gəl daşı ətəyindən tök, günahsız axıdılan qanı batırmağa çalışma.

**O q t a y** –Bura bax, əlimizə düşən bu iki biznesmen milyonların sahibidir. Yəni onlar bu pulları halal qazanıblar? Xeyr! Fırıldaqla, oğurluqla, bir-birini aldatmaqla! Bu müftəxorlar camaatın cibini kəsib, indi əlimizə girəvə düşüb, biz də onların cibindən 5-10 faiz kəsəndə günahkar oluruq?

**A s l a n** –Məsələ 5-10% qazancda deyil. Mən ondan keçə də bilərəm. Mən 30 illik dostum kimi istəyirəm ki, sən qan batırıb, Allah qarşısında günahkar olmayasan.

**O q t a y** –Bu xalqın harın imkanları haramla yaşayır. İndi bu haram onlara halal, bizə haram oldu?

**A s l a n** –Oqtay, sən Şahinlə Səttarları bir tutma. Axı, ortada ölüm var. Bu günahsız ölümün qatilini sudan quru çıxarmağı özünə rəva bilmə!

**O q t a y** –Qatilin sudan quru, ya yaş çıxmağını biz yox, məhkəmə müəyyənləşdirir. Sözü orabura çəkib məndən sirr almaq istəyirsən? Sənə heç nə açan deyiləm. Yalnız bir həqiqəti deyə bilərəm, o da dostluğumuz xatirinə. Aslan, səninlə mənim arxamda nəyin durduğunu, kimin durduğunu demirəm ha, nəyin durduğunu deyirəm, fikirləş. Sən yazılan qanuna söykənirsən, mən yazılmayan. Lakin gücdə olan qanuna söykənirəm. Ma-ğazanın yanmasında, qaçqınların ev məsələsində sən uddun. Çünki o məsələdə qanun güc idi. Amma bu məsələdə sən uduzacaqsan. Çünki arxalı köpəyin qurdu basa bildiyi məqamda qanun güc olmur, güc qanun olur. Bununla da gəl bu mənasız mübahisəni kəsək.

**A s l a n** *(Sarsılmış.)*–Bu məqamda mənim yazılan qanunlara yazığım gəlməkdən başqa əlacım qalmır.

## ON İKİNCİ ŞƏKİL

Küçə. Ə k b ə r l ə R i z v a n gəlir. R i z v a n ı n əl telefonu zəng çalır. Başqa məkanda G ü l a ğ a görünür.

**R i z v a n** –Alo.

**G ü l a ğ a** –Kimdir danışan?

**R i z v a n** –Rizvan.

**G ü l a ğ a** –Əkbərin oğlu?

**R i z v a n** –Bəli.

**G ü l a ğ a** –Atana de, əgər susmasa, səni ölmüş bilsın. *(Telefon qapanır.)*

**Ə k b ə r** –Kim idi?

**R i z v a n** –Bılmədim.

**Ə k b ə r** –Nə deyirdi?

**R i z v a n** –Dünən sənə dediklərini...

**Ə k b ə r** –Səncə zəng hansı telefondan ola bilər?

**R i z v a n** –Nömrə görünmür. Yəqin təzə çıxan "Klass avtomatındandır. İndi mənə gün kimi aydın oldu ki, sən o qatili tanıyırsan... Yoxsa bizi hədələməzdilər. Bildiklərini niyə gizlədirsən, ata? Axı, arada

Səbinə var.

**Ə k b ə r** *(Öz-özünə.)*–Nadir mənə demişdi. Mən ayıq olmalı idim... Ayıq olmalı idim... Rizvan - O kişinin qanı batmamalıdır, ata!

**Ə k b ə r** –O kişinin qanının batmaması üçün sənin qanın tökülməlidir? Elə bilirsən, mən Şahinin bu günahsız qətlinə y*an*mıram? İçimdə döyüş gedir, bala. Nə edim, necə edim bilmirəm.

**R i z v a n** –Fikirləş, mən yas yerinə dəyib qayıdıram. *(Gedir.)*

Ə k b ə r papiros yandırıb düşünür.

**Ə k b ə r** –*(Diz çökür.)* Ya rəbbim, sən özün şahidsən ki, Sənə olan sonsuz inamımın sayəsində ömrüm boyu halalıma haram qatmamış, yalan danışmamışam, doğrunu söyləmişəm. Amma indi gördüyümü gizlətməyə, susmağa məcburam. Keç günahımdan yarəbbim! Əfv elə... əfv elə... *(Gözünə Şahinin köl-gəsi görünür.)*

**Ə k b ə r** –Hə, müdir, nə durmusan? Danlamağa gəlmisən məni? Bəs niyə susursan? Desənə sözünü. Yalvarıram, söy məni, danla məni. Axı, sən mənə qardaşlıq, atalıq, böyüklük eləmisən. Mənə çörək vermisən, hər dərdimə qalmısan. Amma mən... sənə namərdlik edirəm. Bəs niyə danlamırsan məni?

**Ş a h i n** –Mən nə deyim? Onu da deyən sənsən, bunu da deyən sən.

**Ə k b ə r** –Mənə yol göstər.

**Ş a h i n** –Yolu özün seç.

**Ə k b ə r** –Balam üçün qorxuram, müdir, balam üçün. Ceyhun səndən inciyib evdən gedəndə, sənin nələr çəkdiyini yadına sal. Mən axı, sənin əzablarının şahidiyəm. Bəs onda mənim balamın tamam itirilməsini sən mənə necə rəva bilirsən? Balanın başqa şəhərə getməsinə dözməyən Şahin, bəs mən balamın yoxluğuna necə dözə bilərəm?

**Ş a h i n** –Sən də haqlısan.

**Ə k b ə r** –Bəs indi mən neyləyim?

**Ş a h i n** –Mən sənə yalnız onu deyə bilərəm ki, nə məni eşit, nə özgəsini. Vicdanını eşit, yalnız vicdanını... vicdanını... vicdanını... *(Şahinin kölgəsi çəkilir.)*

**Ə k b ə r** – Vicdanını!.. Bəs o vicdan niyə susur? Niyə gördüklərimi,

eşitdiklərimi mənə dedirtmir? Ey hər şeyi görən, bilən, eşidən ulu Tanrı, sən özün mənə kömək ol!

## ON ÜÇÜNCÜ ŞƏKİL

M ə l a h ə t i n evi. O q t a y, M ə l a h ə t, C e y h u n, K ə m a l ə, S ə b i n ə

**O q t a y** –Yox... Məlahət xanım, sizdən üzr istəyirəm, amma işin xeyri üçün bəzi məsələlərə aydınlıq gətirmək lazımdır.

**M ə l a h ə t** –Yaxşı. Buyurun.

**O q t a y** –Sizin polisə verdiyiniz ilkin izahatla tanış oldum. Burdan bəzi suallar doğur. Məsələn, mən bilmək istərdim, Şahinin sizə gəlib-getməsindən qonşuların xəbəri var idimi. Əriniz tərəfdən olan qohumlarınızdan sizin Şahinlə əlaqənizi bilənlər vardımı?

**S ə b i n ə** *(təəccüblə).*–Mən başa düşmürəm, bunlar nə suallardır?

**O q t a y** –Başa düşmürsünüz? Atanızın bu evin blokunda vurulduğu sizə heç nə demir?

**M ə l a h ə t** *(əsəbi)*–Bilirdilər, cənab vəkil, bilirdilər. Qonşularım da, kişi tərəfdən qohumlarım da, hətta Səttar da. Yanıma gəlmişdi. Şahindən şikayət eləməyə. Amma nədənsə, siz Səttardan qətiyyən şübhələnmirsiniz?!

**O q t a y** –Ay xanum, ay anam, ay bacım bu qətldə Səttarın əli necə ola bilər ki, Şahinin ona 51 min dollar borcu olub? Axı, o öldürüləndə verdiyi borc əldən çıxardı. *(Qovluqdan kağız çıxarır.)* Bu da Şahinin öz dəstixət-ti ilə verdiyi iltizam.

**M ə l a h ə t** *(İltizamı nəzərdən keçirir.)* – Qəribədir.

**S ə b i n ə** — Doğrudan da... şirkətin bankda milyonlarla pulu ola-ola atam niyə Səttardan borc almalı imiş?

**C e y h u n** –Cənab vəkil, dayanın, siz bura həqiqəti araşdırmağa gəlmisiniz, yoxsa bizi dolaşdırmağa?

**O q t a y** –Cavan oğlan, unutmayın, axı, bu cinayətdə sizin də iştirakınız istisna olunmur.

**C e y h u n** –Hayıf ki, qonaqsınız.

**O q t a y** –Ey atası tərəfindən vərəsəlikdən məhrum edilib, evdən qovulan oğul, məlumdur. İndi atanın qatilinə qahmar çıxmağının səbəbi bizə aydın oldu.

**C e y h u n** –Aydın oldu, çox yaxşı, indi gedə bilərsən. *(Oqtay gedir.)*

**K ə m a l ə** –*(ağlayır)* Ayağım ağır oldu, Səbinə, sizə düşmədi. Kaş biz Ceyhunla rast gəlməyəydik. Bəlkə onda başımıza bu müsibət də gəlməzdi. Bu, günahlarıma görə Allahın mənə göndərdiyi cəzadır.

**M ə l a h ə t** –Bu evin bünövrəsi dərd-bəla üzərində qurulub, qızım. Bu tale mənim qismətimdir. Mən heç vaxt xoşbəxt ola bilməmişəm. Siz də mənim oduma yandınız.

**K ə m a l ə** –Yox ana, sən öz qismətinlə barışdın. Atanın sözündən çıxmadın. Amma mən sənin sözünə baxmayıb taleyimlə döyüşə girdim. Günaha batdım, ana, günaha...

**S ə b i n ə** –Mən indi başa düşdüm ki, bizik günahkar. Atamızın bizə elədiyi atalığın onda biri qədər biz ona övladlıq edə bilmədik.

**K ə m a l ə** –Ceyhunu mən aparmışam, mən... mən xoşbəxt ola bilmərəm... olmamalıyam... Qaynatam məni toyla qarşılamaq istəyirdi, ölümü ilə qarşıladı. Mən bədbəxtəm... günahkaram...

**C e y h u n** *(Qışqırır.)*–Bəsdirin! Eşitdiniz, vəkil söhbəti hara çəkib aparırdı? Atamızın qanını batırmaq istəyirlər. *(Aslan gəlir.)* Bəs Nadir əmi hanı?

**A s l a n** –Dünən yasdan sonra Nadiri həbs ediblər.

**C e y h u n** –Axı, nəyə əsasən?

**A s l a n** –Bax, bu cəfəngiyyata əsasən. (Oxuyur.) Nadir Şahın Eloğlu ilə şirkət ortağı olandan həmişə ona xəyanət etmiş, onu aldatmışdır. Şahidlərin verdiyi ifadəyə görə şirkətə kənardan gətirilən baha taxılı əslində xeyli ucuz qiymətə almış və beləliklə, əlavə gəliri mənimsəmişdir. Nadir Şahinlə oğlu Ceyhun arasındakı konfliktdən məharətlə istifadə edərək evdən qovulmuş, vərəsəlikdən məhrum edilmiş Ceyhunu öz qanadları altına almış, onu atasına qarşı qaldirılmışdır. Şahinin ezamiyyətdə olmasından istifadə edərək şirkətin hesabından 40 min dollar götürüb Ceyhuna vermiş, onu atasının razı olmadığı bir qızla evləndirib, Türkiyəyə qaçmasına imkan yaratmışdır. Kələyin üstü

açılandan sonra Nadir o pulu qaytarsa da, Şahin Nadirin bu hərəkətini xəyanət adlandırıb, onu şirkətdən qovmuşdur. Nadir Ceyhunu qaytarmaq məqsədilə guya Türkiyəyə getmiş, əslində isə Şahinin qətlini hazırlayaraq şəhərdən uzaqlaşmışdır. Nadir öz qohumu Əkbəri Şahinə sürücü vəzifəsinə götürməklə Şahinə olan qəsdin maneəsiz icrasına imkan yaratmışdır. Beləliklə, Ceyhunun və Əkbərin bu qətldən qabaqcadan xəbərdar olmaları istis-na edilmir. Şahinin məşuqəsi, musiqi müəllimi Məlahət xanımın qohumlarının da bu qətldə iştirakı istisna edilməməlidir.

**C e y h u n** –Gördünüz, onlar işi necə azdırırlar? Siz hər şeyi yaxşı görürsünüz, Aslan əmi.

**A s l a n** –Sən haqlısan. Burda çox incə bir tor qurulub. Biz bu toru açmalıyıq. Bu işdə bizə yalnız Əkbər kömək edə bilər. O da hələlik susur.

**M ə l a h ə t** –Bu gün səhər bizdən üst qatda yaşayan qonşu qadın mənə dedi ki, hadisə vaxtı o balkonda olub. Şahini vuran adamı Əkbər görmüş və “mən səni tanıdım” — deyə arxasınca atəş açmışdır.

**A s l a n** –Mən bu saat onu tapıb, danışaram. Bəs o mənə niyə yalan deyib ki, mən güllə səsinə gələndə qatil ordan uzaqlaşmışdı?

Ə k b ə r hövlnak daxil olur R i z v a n l a .

**Ə k b ə r** –Məni bağışlayın, Ceyhun, Səbinə bala, Aslan, bir olan Allah bilir, bu günlər mən nələr çəkmişəm. Şahini vuranı, onun havadarlarını mən yaxşı tanıyıram.

**R i z v a n** –Kimdir, ata?

**Ə k b ə r** –Onun adı Qaçaydır. O icraçıdır. O yaxalansa, sifarişçilər tapılacaq.

**A s l a n** –O icraçı indi aradan çıxa bilməz ki?

**Ə k b ə r** –Yox, mənim atdığım atəş onu yaralayıb. Mən bilirəm, onu harda tapmaq olar? Evini də tanıyıram.

**C e y h u n** –Ata, bu gün sənin ad günündür. Sən bu gün mənə toy eləmək istəyirdin, olmadı. Amma bu gün qatilinin bilinməsi sənin ad gününün bizə hədiyyəsi oldu.

**M ə l a h ə t** –Sevgisindən, ölkə miqyaslı böyük arzularından nakam

gedən, hamının xoşbəxtliyinə çalışıb, özü xoşbəxt ola bilməyən Şahin şahpərli Şahinim mənim. Həmişə xeyirə, işığa, halala, başqalarının xoşbəxtliyinə can atarkən, niyə sənin qarşına şər, qaranlıq və bədbəxtlik çıxdı, niyə? İlahi, bu əbədi rəqabət dünyasında nə vaxta qədər haram halalı, şər xeyiri, qaranlıq işığı üstələyəcək? Nə vaxta qədər?

**Şahinin ruhu** *(Tamaşa zalında görünür. O, qayibanə səslə.)* – Mən inanıram ki, biz hamımız eyni əqidəyə qulluq etsək, halal harama, xeyir şərə, işıq qaranlığa, əxlaq zinaya qələbə çalar və insanlar arasında hər hansı rəqabət də düşmənçiliyə çevrilməz.

*2003-cü il noyabrın 30-da Azərbaycan Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.*




TELE-RADİO
PYESLƏR
VƏ
SSENARİLƏR



*Məhəbbət - özümü dərk edim - deyə*
*Məni yerdən alıb ucaldır göyə.*
*Ucalmaq istərəm, ancaq zirvədən*
*Seyr edim bu günü, ötən çağları.*
*O qədər ucalım, yüksəlim ki, mən*
*Görməyim yerdəki xırdalıqları.*
*Ucalmaq istərəm, arzu dalınca*
*Özümü səsləyim, hay verin mənə.*
*Xəyaldan o taya mən ucalınca,*
*Yer mənə dar gəlir, göy verin mənə.*

(“Yalan“ telepyesindən)



# DAĞDAN AŞAN GÜN

## *(Telepyes)*

Həkim yan otaqdan çıxır.

**Həkim** –Mən müayinəmi qurtardım.

**Oğul** –Necədir?

**Həkim** –Bu günlərdə əsəbiləşib eləməyib ki?

**Oğul** –Yox!

**Həkim** –Əsəbləri tamam pozulub.

**Oğul** –Təəccüblüdür.

**Həkim** –Nədir təəccüblü?

**Oğul** – Bu, ipək kimi yumşaq, mülayim adamdır. Hələ mən onun özündən çıxdığını görməmişəm.

**Həkim** –Məsələnin pis cəhəti də odur. Özündən dərhal çıxan adamlar sözünü deyib ürəyini boşaldır. Yaxud istədiyini eləyir, sakitləşir. Belə adamlar isə dərdini üzə vurmur, içəridən çəkir. Beləsi daha qorxuludur.

**Gəlin** –Bəlkə xəstəxanaya qoyaq?

**Həkim** –İndi tərpətmək olmaz.

**Oğul** –Düz deyirsiniz, həkim, o həmişə dərdini içində çəkib.

Gəlin çölə çıxır.

**Həkim** –Ona kim qulluq eləyir?

**Oğul** –Biz.

**Həkim** –Yəni?

**O ğ u l** –Mən oğluyam, o da gəlini.

**H ə k i m** –Ananız yoxdur?

**O ğ u l** –Üç ildir rəhmətə gedib. Anamdan sonra gündən-günə zəiflədi, indi də belə.

**H ə k i m** –Belə xəstələrin dərmandan çox, nəvazişə, məhəbbətə, qayğıya ehtiyacı olur.

**O ğ u l** –Əlimizdən gələni eləyirik.

**H ə k i m** –Məni bağışlayın, görünür azdır. Yəqin, siz ya onu lazımi qədər hiss etmir,ya da... arzularını tam yerinə yetirə bilmirsiniz. Ona tam sakitlik və böyük qayğı lazımdır.

**O ğ u l** –Aydındır, həkim.

**H ə k i m** –Hələlik. *(Gedir)*

G ə l i n gəlir.

**G ə l i n** –Nə deyir?

**O ğ u l** –Mənim ürəyimdəkini.

**G ə l i n** –Ürəyindəki nədir?

**O ğ u l** –Mən yaxşı övlad olmadım atama.

**G ə l i n** –Neyləməliydin ki?

**O ğ u l** –Mənim atam həmişə cəfakeş olub. Yaşından tez qocaldı... Onun tayları qırğı kimidir. Elə biri sənin atan.

**G ə l i n** –Maşallah de.

**O ğ u l** –İstədiyi kimi yaşamadı.

**G ə l i n** –Kim istədiyi kimi yaşaya bilir?

**O ğ u l** –Adam çox şeyi gec başa düşür. Vaxtında ona haqq vermədik. İndi qorxuram, elə bu dərd məni yandıra.

**G ə l i n** –Ona haqq vermək olmazdı.

**O ğ u l** –Əlbəttə, biz öz xeyrimizi düşünüb, ona haqq vermədik.

**G ə l i n** –Altmışdan keçən kişiyə nə evlənmək? El-oba adama nə deyər?

**O ğ u l** –Əvvəla, kişiyə elə bu yaşda həmdərd daha çox lazımdır, ikincisi, o qadını dədəm 30 ildir sevirdi... Bizə görə ailəsini dağıtmadı. Anamdan sonra da biz qoymadıq.

**G ə l i n** –Bacını niyə demirsən?

**O ğ u l** –Əsas mən idim... Bilirsən, həm də insan qocalanda uşağa dönür. Ona hər söz toxunur. Səhər qapını aralayıb baxdım, gördüm ağlayır.

**G ə l i n** –Axı, biz ona güldən ağır söz demirik.

**O ğ u l** –Sən və mən ona borc ödəyirik.

**G ə l i n** –Bundan başqa nə lazımdır?

**O ğ u l** –Borc ödəmək ürəkdən gəlmir, ağıldan gəlir.

**G ə l i n** –Hardan gəlir gəlsın, bacardığımızı eləmirik?

**O ğ u l** –Biz özümüzdən əvvəlkinə borc ödəyir, özümüzdən sonrakını isə sevirik.

**G ə l i n** –Bu nə sözdür?

**O ğ u l** –Atamıza hörmət, övladımıza məhəbbət!

**G ə l i n** –Hamı belə deyil?

**O ğ u l** –Mən elə hamını deyirəm.

**G ə l i n** –Amma atasına hörmət etməyənlər də var.

**O ğ u l** –Deyirsən, bizə şükür?

**G ə l i n** –Əlbəttə!

**O ğ u l** –Haqlısan!

**G ə l i n** –Bacın zəng eləmişdi.

**O ğ u l** –Nə deyirdi?

**G ə l i n** –Kişini soruşurdu.

**O ğ u l** –Nə dedin?

**G ə l i n** –Nə deyəcəyəm? Olanı. Qəribə dünyadır, elə bircə sən düşünürsən borcunu, qız olan bəndə demir ki,.. atama bircə ay da mən baxım!

**O ğ u l** –Evləri darısqaldır.

**G ə l i n** –Bizimki meydandır?

**O ğ u l** –Mən oğulam, ata mənə düşür.

**G ə l i n** –Xeyir, xəstə ataya qız baxar, gəlin yox!

**O ğ u l** –Bəsdir!

Xəstə gözlərini açır, inildəyir.

**O ğ u l** –Ata, nə lazımdir?

**A t a** –Pəncərəni aç.

**O ğ u l** –Soyuq olar.

**A t a** –Göyə baxmaq istəyirəm.

**G ə l i n** –Sayıqlayır.

**O ğ u l** *(Pəncərədən göyə baxır).*–Hava buludludur.

**A t a** - Düz deyirsən, keçdi... Gərək vaxtında baxaydım...

Qapı döyülür. Gəlin qapını açır. Əlində bir dəstə gül. Əjdər kişi gəlir.

**Ə j d ə r** –Salam!

**O ğ u l** –Əjdər əmi, xoş gəldin.

**Ə j d ə r** –Xoş günün olsun... Necədir?

**O ğ u l** –Şükür, yaxşıdır.

**Ə j d ə r** –Şükür Allaha. Qızım, o güldana su tök, bəri ver.

**A t a** –Gül gətirmisən, Əjdər, yaxşı eləmisən, ver onu iyləyim. (Gülləri iyləyib kənara qoyur). Gülü də gərək kolun üstündə iyləyəsən.

**Ə j d ə r** –Allah qoysa qalxarsan, apararam səni bağıma. O ki var, iyləyərsən.

**A t a** –Keçdi... Hər şeyin öz vaxtı var. Fürsəti əldən verdinsə... gecikdin... Gedən qayıtmır...

**Ə j d ə r** –Heç vaxt heç bir şey gec deyil. Balığı havaxt tutdunsa, təzədir.

**O ğ u l** –Köhnə dostlara mane olmayaq.

**Ə j d ə r** –Allah sizdən razı olsun.

Oğul, gəlin yan otağa keçir.

**Ə j d ə r** –Gönü suya vermə, kişi. Özünü boş qoysan xəstəlik üstələyər səni. Gərək xəstəliklə vuruşmağı da bacarasan.

**A t a** –Vallah, sənə qibtə eləyirəm.

**Ə j d ə r** –Qibtə eləyincə, öyrənməyə çalış. De görək, necə baxırlar sənə?

**A t a** –Sağ olsunlar, narazılığım yoxdur.

**Ə j d ə r** –Sən də onlardan ötrü can yandırmısan.

**A t a** –Ataların borcudur.

**Ə j d ə r** –Yox, borc onlardadır, məhəbbət bizdə.

**A t a** –Allah atana rəhmət eləsin, quşu gözündən vurdun.

**Ə j d ə r** –Dünən onu yolda gördüm. Bildin kimi deyirəm?

**A t a** –Bildim. Necədir?

**Ə j d ə r** –İki aydır səndən xəbəri yoxdur. Özünü qoymağa yer tapmır.

**A t a** –Bilirəm. Onun qəlbinə bələdəm.

**Ə j d ə r** –Səhv elədin. Bax, bu günündə sənə o lazım idi.

**A t a** –O mənə həmişə lazım idi. Hamını əsirgədim, özümə qıydım.

**Ə j d ə r** –Bir də ona. O, bütün ümidini sənə bağladı. Özü üçün yaşamadı, sənin üçün yaşadı, sən isə...

**A t a** –Mən el tənəsindən qorxdum, uşaqlarla üz açmadım... Ömrüm boyu başımı aşağı dikib işimlə məşğul oldum, başımı qaldırıb göyə baxmağa da macalım olmadı.

**Ə j d ə r** –Sən mənə izn ver, mən...

**A t a** –Yox, qardaş, hər şey öz vaxtında! Mən vaxtı əldən verdim, ötüb keçdi. İndi mən dağdan aşan günəm. Günortadan sonra çıxan gün heç kəsi isitməz. İndi mən ona yük olmaq istəmirəm. Pəncərəni aç!

**Ə j d ə r** –Neyləyirsən?

**A t a** –Batan günəşə baxmaq istəyirəm.





# YALAN

## *(Telepyes)*

Moskva. Aeroport. Gözləmə salonu. **Əli** çamadanlı, portfelli adamlar həyəcanla o tərəf-bu tərəfə gedir, narahat baxışlarla ətrafı süzür. Qarışıq səslər. Reproduktor reysləri elan edir. **Hamı** qulaq kəsilir.

**Reproduktor** –2981-ci reyslə Alma-Ataya uçan təyyarə saat 14-ə qədər təxirə salınır. *(Həyəcanlı səslər, nidalar).* 846-cı reyslə Bakıya uçan təyyarə saat 15-ə qədər təxirə salınır... Təkrar edirəm, 846-cı reyslə Bakıya uçan təyyarə saat 15-ə qədər təxirə salınır.

Şəhərlərarası telefon köşklərinin qarşısında adamlar növbəyə dayanmışlar. 1 köşkdən səs gəlir.

**İmran** *(1 köşkdən)*–Qalıçka, mən aeroportdan danışıram... Hə... Hələ çıxmamışam. Hava istidir. Dünəndən təyyarələr uçmur. Sən evdə ol, mən çatan kimi aeroportdan sənə zəng vuraram. Görürsən də... bəxtimiz belədir... Tapşırdığını almışam. Hə... almışam. Yaxşı, öpürəm.

Köşklərin yanında iki adam qarşılaşır.

**Aydın** –Teymur.
**Teymur** –Aydın!
**Aydın** –İllər boyu bir şəhərdə yaşayırıq, amma...
**Teymur** –Görüşə bilmirik.
**Aydın** –Kimdir günahkar?
**Teymur** –Nə sənsən, nə də mən.

**A y d ı n** –Bəs kimdir?

**T e y m u r** –Vaxt, zaman!

**A y d ı n** –Onda yaşasın təsadüf!

**T e y m u r** –Hələ sənə bir təsadüf də deyim. İndicə bax, ordakı qəzet köşkünün qabağında İmrana oxşayan bir adam gördüm.

**A y d ı n** –Bəs görüşmədin?

**T e y m u r** –Yanımdan ilan vurmuş dana kimi elə ötdü ki...

**A y d ı n** –Niyə? O deyilmiş?

**T e y m u r** –Əksinə... Elə vaz atmağından yəqin etdim ki, odur.

**A y d ı n** - Heç nə başa düşmürəm, axı, o, niyə belə eləsin?

**T e y m u r** –Uzun məsələdir. Əşi, hələ bir sən de görək nə var, nə yox?.. Baba olası vaxtındır, hələ ailə də qurmamısan...

**A y d ı n** *(Əlindəki konteyneri göstərir)*–Bunlar qoyur ki...

**T e y m u r** –O nədir elə?

**A y d ı n** –Mənim həşəratlarım... Bu gün Bakıya çatmasam, tələf olacaqlar, 7 saatlıq yeməkləri var. Hələ bir sən de görüm, İmranla niyə aranız dəyib?

**T e y m u r** –Keçən ilin söhbətidir. İmran məndən xahiş elədi ki, oğlunu mənim laboratoriyama işə götürüm. Başa saldım ki, yerim yoxdur. Bundan bir qədər sonra direktorumuz öz fondundakı ştat hesabına mənim laboratoriyama bir adam göndərdi. Laboratoriyama təzə işçi götürdüyümü eşidəndə İmran zəng edib mənə dişinin dibindən çıxanı dedi. Onu başa sala bilmədim ki, bu işdə mənim günahım yoxdur.

**A y d ı n** –Bəs bunu mənə niyə deməmisən?

**T e y m u r** –O vaxtdan bircə dəfə Düşənbədəki simpoziumda görüşdük, demədim, elə indi də demək istəmirdim.

**A y d ı n** –Əlbəttə, o haqsızdır. Amma hər xırda şey üstündə duz-çörəyi tapdamaq olmaz. Biz İmrangildə batmanla duz-çörək yemişik. Atası yadındadır?

**T e y m u r** –Qüdrət əmini unutmaq olar?

**A y d ı n** –Vəssalam. Onu tapaq, sizi barışdıracağam.

**T e y m u r** –Aydın, özünü əziyyətə salma...

**A y d ı n** –Niyə?

**T e y m u r** –Qoy qalsın ayrı vaxta...

**A y d ı n** –Teymur!

**T e y m u r** –Gəl valı dəyişək. Əvvəla, son illərdə gördüyün işlərə görə səni təbrik edirəm. Akademiyanın bülletenində oxudum. Çox böyük məsələdir. Oğulsan!

**A y d ı n** –Sən özün heç məndən dala qalan oğul deyilsən... Kitabı tamamladın?

**T e y m u r** –Çapdadır.

**A y d ı n** –Son illərdə "Qırmızı kitaba əlavə varmı?

**T e y m u r** –Nə qədər istəsən.

**A y d ı n** –Demək, təbiət məhv olur.

**T e y m u r** –Elədir, qardaş.

**A y d ı n** –Qanımı qaraltdın. Elə bil təbiət dəyişib. Deyəsən axı, biz nəyisə düz eləmirik. Hardasa səhvimiz var. Axır vaxtlar zərərli həşəratlar mühitə elə uyğunlaşıb ki, faydalı həşəratların da onlara gücü çatmır. Əksinə, elə bil qəsdən zərərvericilərə imkan yaradırlar... Biz bu gedişlə hara gedirik?

**T e y m u r** –Mən ondan qorxuram ki, təbiəti qoruya bilməyək. Tərtib etdiyimiz "Qırmızı kitablar keçmişi yada salan bir yaddaş kitabına dönsün.

**R e p r o d u k t o r** –911-ci reyslə Bakıya uçan təyyarə saat 16-ya qədər təxirə salınır

**A y d ı n** –Paho! Ümidimiz tamam qırıldı.

**T e y m u r** –Dünən axşamdan burdayam. Bakıya bir təyyarə də uçmayıb. Başqa vaxt olsa, yenə dözərəm. Bu gün oğlum bir günlüyə əsgərlikdən Bakıya gəlib. Sabah Uzaq Şərqə uçur. İşlərimi yarımçıq qoyub gedirdim uşaqla görüşməyə... Olmadı. Deyir sən saydığını say, gör fələk nə sayır. *(Növbəsini gözlədiyindən tez-tez çevrilib telefon köşkünə baxır).*

**A y d ı n** –Ə... Murad əsgərlikdədir?.. Vay səni!.. Dünənin uşağı bu gün əsgər. Vallah, mən elə bilirəm, Murad yenə də 3 təkərli velosipedini sürən həmin dəcəl uşaqdı... Yadındadır, nə minnətlə yedirdərdik onu... Mən keçi kimi mələyər, sən xoruz kimi banlayardın!..

**T e y m u r** –İnsan yaşının ötdüyünü yalnız uşaqların böyüməsində hiss edə bilir. *(Çevrilib telefon köşkünə baxır).*

**A y d ı n** – Elə bil dünəndır, çiynimdə çanta
Qorğa yeyə-yeyə dərsə getdiyim.
Elə bil dünəndır, o qamış atda
Nəzil qamçı vurub "at səyirtdiyim...
Teymur. - Elə bil dünənin uşağıyam mən.
Bu eşqə, həvəsə bəzən gülürəm.
Ancaq qınamıram özümü bəzən,
Axı, nə yatdım ki, nə yuxu görəm.

**A y d ı n** –Bəs, universiteti qurtarmaq münasibətilə İmran, sən, mən bərabər Moskvaya gəzməyə gəldiyimiz yadındadır?

**T e y m u r**–Amma o gəlişlə bu gəlişin bir fərqi var. Biz onda tələsmirdik. İndi tələsirik.

**A y d ı n** –Çünki onda biz vaxtı qovurduq, indi vaxt bizi qovur.

**T e y m u r** –Elədir, bax indi mən də tələsirəm, sən də... Bax, bu adamların hamısı tələsir. Təbiət isə heç tələsmir... Öz işindədir. Təyyarələrin uçuşuna əngəl törədən bu hava, elə bil bizə tələsməyimizin, atılıb düşməyimizin faydasız olduğunu xatırladır... Deyir, mənimlə əlbəyaxa olduqca,bu vuruşun ziyanı qayıdıb özünə dəyəcək...

**A y d ı n** –Dəyəcək, gələcək zamandır... Ziyanı çoxdan dəyib.

Bu zaman Teymurun növbəsi çatır, o, telefon köşkünə yaxınlaşır. Aydına tərəf çevrilir. - Teymur. Deyirəm, telefonla da olsa, uşaqla danışım. *(Köşkə girir).*

Aydın siqaret yandırıb gəzinir. İmran ona yaxınlaşır.

**İ m r a n** –Salam, a kişi!

**A y d ı n** –İmran, salam. Adını eşit, qulağını bur. Bayaqdan səni axtarırıq.

**İ m r a n** –Deyəsən, qeybətimi qırırdınız.

**A y d ı n** –Vallah, düz deyirsən. Hardan bildin?

**İ m r a n** –Teymuru tanımıram? Eqoist oğlunun sözü-söhbəti mən deyiləm? Gəl bəri.

**A y d ı n** –Hara?

**İ m r a n** –Mən hara, sən də ora.

**A y d ı n** –Mən Teymuru gözləyirəm.

**İ m r a n** –Ə... Nə tapmısan bu Teymurda?

**A y d ı n** –Dostluq.

**İ m r a n** –Ə... bəs mən dost deyiləm?

**A y d ı n** –İmran, saçımız-saqqalımız ağarıb... Bu yaşımızda belə xırda söhbətlər bizə yaraşar?

**İ m r a n** –Bunu mənə niyə deyirsən? Dostuna desənə... Mən ona neyləmişəm? Nə eləyib, o eləyib.

**A y d ı n** –O, haqsız iş görməz.

**İ m r a n** –Demək, mənəm haqsız?

**A y d ı n** –Boşla görək!

**İ m r a n** – ... O əlindəki nədir?

**A y d ı n** –Konteyner.

**İ m r a n** –İçindəki nədir?

**A y d ı n** –Həşərat!

**İ m r a n** –Ə... Bakıda həşərat azdır ki, bu konteyneri də sən aparırsan? *(Sükut).* Teymuru da salaydın bu konteynerə, həmcinsləri ilə görüşəydi.

**A y d ı n** –İmran, bilirsən ki, mənim şit zarafatdan xoşum gəlmir.

**İ m r a n** –İndi mən burda sənin üçün duzu hardan tapım? Gedək restorana, orda həm duz taparıq, həm də vaxtımızı öldürərik.

**A y d ı n** –Onda Teymuru da aparaq.

**İ m r a n** –Bircə Teymurumuz əskik idi.

**A y d ı n** –Ağ eləmə, İmran... Sən elə həmişə qarışqanı fil eləyirsən.

**İ m r a n** –Sən də elə dünyanın kələ-kötürünə mala çəkməkdə mahirsən. Dünya sən gördüyün kimi deyil,bala.

**A y d ı n** –Mən nə təhər görürəm dünyanı?

**İ m r a n** –Özün kimi.

**A y d ı n** –Əlbəttə! Hərə öz qəlbindən baxır dünyaya.

**İ m r a n** –Amma dünyanın eni-uzunu, istisi-soyuğu bizim ona necə

baxmağımızdan asılı deyil. Onun öz çəkisi, öz rəngi, öz havası var. Bunları bir baxışla ölçə bilən göz gərək.

**A y d ı n** –Sən haqlısan.

**İ m r a n** –Sən zarafat elə.

**A y d ı n** –Yox, düz sözümdür. Hər şeyin ki, isti-soyuğunu, gəlir-çıxarını ölçə bildin, dünya sənİndir. İmran. Atan oldu rəhmətlik! Yaşasın rəqəmlər! Di gedək.

**A y d ı n** –Mən sizin ikinizdən də bir yaş böyüyəm. Sizi barışdıracağam, vəssalam! *(Teymurun danışdığı köşkə tərəf dönür, köşkdə ayrı adam görür).* Bəs bu hara getdi?

**İ m r a n** –İndi gördün? O da mənimlə üzləşmək istəmir. O öz haqq-hesabını bilir.

**A y d ı n** –Yox, mən onu tapmalıyam.

**İ m r a n** –Bu basa-basda onu hardan tapacaqsan? Gəl bəri.

A y d ı n gözü ilə axtara-axtara İmranın arxasınca gedir.

* * *

Restoran... İ m r a n A y d ı n üzbəüz əyləşiblər.

**İ m r a n** –Mən səninlə tamamilə razıyam.

**A y d ı n** –İndiki razısan...

**İ m r a n** –Bir dəqiqə... Sağlıq mənimdir... Mən təklif edirəm, içək bu qədəhləri də sənin həşəratlarının sağlığına... Nədən ki, həşərat öz vəzifəsini bizim çoxumuzdan yaxşı bilir.

**A y d ı n** –Yəni gəlir-çıxarını...

**İ m r a n** –Bəli, bəli.

**A y d ı n** –Yaxşı sağlıqdır... Bunların ələlxüsus indiki vəziyyətinə bu sağlıq yaraşır. Çünki yemləri qurtarmaq üzrədir. Tələf olsalar, bütün əziyyətim batacaq... Sağ olun, mənim əzizlərim, sizin sağlığınıza.

**İ m r a n** –Mən ölüm, bizim gün-diriyimizə baxın. Həşəratlarla üzbəüz oturub araq vururuq.

**A y d ı n** –Bunları bilirsən neçəyə almışıq?

**İ m r a n** –Qiymətini bilmirəm, sağlığına qismət olsun.

**A y d ı n** –Bunlar məndən çox sənə lazımdır.

**İ m r a n** –De, sən öl!

**A y d ı n** –Ay yoldaş botanik, bunlar üzüm tənəklərindəki fillokse-ra həşəratlarını təlef edən xeyirli həşəratlardır. Kaliforniyadan almışıq, valyutaya.

**İ m r a n** –Sən öl, sözə bax! Həşərat və valyuta!

**A y d ı n** –Zərərverici həşəratı qıran faydalı həşərat qızıldan qiymətlidir. İndi bunları yerli mühitə uyğunlaşdırıb, buraxacağam sənin üzüm tənəklərinin üstünə, onlar da zərərvericilərin atasına od vuracaq... Bunun üçün birinci növbədə sən mənə sağ ol deməlisən.

**İ m r a n** –Bəs elə bir həşərat növü tapa bilməzsiniz ki, ürəklərdəki paxıllıq mikrobunu, xuabinliyi öldürə?

**A y d ı n** –Mümkündür. Bunun üçün birinci növbədə o növün özü-nün içindəki xudbinlik mikrobunu öldürmək lazımdır. Çünki eyni xasiyyətə malik həşəratlar bir-birinin mühitinə uyğunlaşdığından bir-birini təlef etmir. Qayda üzrə zərərvericilər faydalı növlərin hesabına yaşayır. İndi biz əksinə eləməyə çalışırıq. Yəni, faydalı növ, zərərverici növü təlef etsin!

**İ m r a n** –Afərin!

**A y d ı n** –Amma bu dünya elə qurulub ki, hamı özünü daha çox haqlı və faydalı bilir.

**İ m r a n** –Tamamilə doğrudur. 30 illik dostuna quyu qazan da de-yir, mən haqlıyam.

**A y d ı n** –Dostunu quyuya yıxılmaqdan qoruyan da haqlıdır.

**İ m r a n** –Mənim zarafatlarıma fikir vermə. Özün bilirsən ki, mən zarafatsız dura bilmirəm. Teymura gəlincə... axı, ondan inciməkdə mən haqlıyam. O məni aldadıb. O mənə yalan danışıb.

**A y d ı n** –O sənə yalan deməyib.

**İ m r a n** –Yalanın buynuzu-qulağı olur? Mənim oğlumu işə götür-mür. Burdan yalandan and içir ki... yerim yoxdur... ordan... ayrı adamı işə götürür...

**A y d ı n** –O ştatı direktor öz fondundan verib.

**İ m r a n** –Yalandır, ağ yalan! Mənə kişi kimi desəydi ki, sənin oğlunu işə götürmək istəmirəm, inan ki, ondan bir elə incıməzdim!..

Deyərdim, bəlkə uşağın biliyinə şübhə eləyir... Amma o, yalandan mənim canıma and içdi ki, yerim yoxdur. Bax, bu yalanı mən ona bağışlaya bilmirəm. Aydın, insanların bütün qüsurlarından keçə bilirəm, təkcə yalandan keçə bilmirəm. Yalan danışmaq kişi sifəti deyil.

**A y d ı n** –Axı, kim yalana haqq verir?

**İ m r a n** –Sənin Teymura haqq verməyin, yalana haqq verməkdir... İkinci tərəfdən,yəni Teymurun yanında mən kürən Daşdəmircə də deyiləm?

**A y d ı n** –Daşdəmirin bura nə daxli var?

**İ m r a n** –Mənim oğlumun əvəzinə onu işə götürdü.

**A y d ı n** –Belə de... *(Qəhqəhə çəkib gülür).*

**İ m r a n** –Niyə gülürsən?

**A y d ı n** –Dəsgahın olsun, ay İmran, Teymuru söymə, məni söy!

**İ m r a n** –Səni niyə?

**A y d ı n** –Daşdəmirdən ötrü direktora zəng çalan mənəm. O da mənim xatirimə öz fondundan Daşdəmirə ştat verib.

**İ m r a n** –Sən Allah, Teymurun günahını malalama.

**A y d ı n** –İmran, öz canım üçün, düz sözümdür. Bu işdən onun xəbəri olmayıb. Bayaq Teymur incikliyinizin səbəbini deyəndə heç ağlıma gəlmədi ki, axı, onun laboratoriyasına mən də adam düzəltmişəm... İndi sən Daşdəmirin adını çəkəndə yadıma düşdü.

**İ m r a n** –Yaxşı deyiblər ki, dostdan özünü gözlə.

**A y d ı n** –Mən nə biləydim, sən oğlunu ora düzəltmək istəyirsən... Nə isə... İndi gördünmü ki, Teymur haqlıdır... Bayaq onu görüb nahaq üzünü yana tutmusan.

**İ m r a n** –Mən ona yanaşmadım, o yanaşaydı. Əlqərəz... Mən həmişə sizin ikinizi də sevmiş, ikinizə də kiçiklik eləmişəm. Mən bu qədəhi sənin sağlığına qaldırıram.

**A y d ı n** –Mənim və Teymurun.

**İ m r a n** –Sən deyən olsun. Siz ikiniz də əsl elm adamısınız. Amma sən... sən elm məcnunusan. İnsan ki, öz işinə vurulmadı, öz işinin məcnunu olmadı, onun zəhmətindən nə fayda. Sən yanan alimsən... Mən sənin bu yanğının şərəfinə içirəm.

**A y d ı n** –Sağ ol!..

İçirlər

**İ m r a n** –Biz yaşımıza görə çox az iş görmüşük. Mənə elə gəlir ki, bu vaxta qədər elədiklərimiz görəcəyimiz işlərin müqəddiməsidir. Biz hələ çox böyük işlər görməliyik. Problemlər çoxdur. Azərbaycan elmi qarşısında borcumuzu vermədən dünya ilə vidalaşmağa haqqımız yoxdur.

**A y d ı n** –Bax belə danış, deyim ki, oğulsan. Mən indi qarşımda 30 il əvvəlki İmranı görürəm. Gərək içəydin ki, açilaydın?

**İ m r a n** –Mən həmin adamam, qardaş. Siz məndən uzaqlaşmısınız. Elə bilirsiniz...

**A y d ı n** –Düzü, bayaqkı atmacaların məni incitdi, fikirləşdim ki, bu niyə belə dəyişdi?

**İ m r a n** –Sənin elə fikirləşməyə gərək haqqın olmaya. Sən axı, məni yaxşı tanıyırsan.

**A y d ı n** –Nə isə... Mən çox şadam ki, 30 illik dostumla əvvəlki mehribanlığımız davam edir. Yenə də eyni cür düşünür, xırdalanmamışıq...

**İ m r a n** –Çünki peşəmizə olan məhəbbət bizi qanadlandırır, bizi ucaldır:

Məhəbbət - özümü dərk edim - deyə,
Məni yerdən alıb ucaldır göyə.
Ucalmaq istərəm, ancaq zirvədən
Seyr edim bu günü, ötən çağları.
O qədər ucalım, yüksəlim ki, mən
Görməyim yerdəki xırdalıqları.
Ucalmaq istərəm, arzu dalınca
Özümü səsləyim, hay verin mənə.
Xəyaldan o taya mən ucalınca,
Yer mənə dar gəlir, göy verin mənə.

**A y d ı n** –Afərin, İmran! Bu gözəl duyğularınla sən məni dəli elədin!
Reproduktor. 861-ci reyslə Bakıya uçan təyyarəyə minik başlanır.

**A y d ı n** –Əla! Demək, yol açıldı... Bu, dünən axşamdan qalan reysdir...

**İ m r a n** –Nə yaxşı oldu... Bunu da içək uğurlu yol şərəfinə! *(İçirlər).* - Mən 5-10 dəqiqəyə gəlirəm. *(Restorandan çıxır).*

Musiqi altında divardakı saatın əqrəbləri dönür. A y d ı n saata baxır. Yarım saat keçdiyini görüb,başını yellədir. A y d ı n ayağa qalxır, hesabı verib restorandan çıxır. Aerovağzal. Ə l i ç amadanlı adamlar ora-bura qaçır. Bir dəstə adamın içində İ m r a n görünür. O, vağzal rəisi ilə höcətləşir. İ m r a n ı n arxasında dayanan T e y m u r söhbətə qulaq asır. A y d ı n onlara yaxınlaşır.

**İ m r a n** –Axı, belə olmaz. Siz mənə kömək etməlisiniz.

**R ə i s** –Mümkün deyil. Başa düşün, bir dənə də olsun, boş yer yoxdur.

**İ m r a n** –İstəsəniz, düzəldərsiniz.

**R ə i s** –Camaatın çiynində gedəcəksən?

**İ m r a n** –Lap ayaq üstündə də gedərəm. Sizə dedim ki, atamın dəfninə çatmalıyam. Siz niyə məni anlamaq istəmirsiniz?

**R ə i s** –Mən sizi anlayıram. Müsibətinizi də başa düşürəm. Amma neyləyim... Bircə əlac var, qoy Bakiya uçanlardan biri biletini sizə versin. Mən etiraz eləmirəm. *(Üzünü toplaşanlara tutur).* Ay Bakıya gedən yoldaşlar,bu adamın atası ölüb. Təcili dəfnə çatmalıdır. Xahiş edirəm, biriniz öz yerinizi bu yoldaşa verin. (Hamı bir-birinin üzünə baxıb susur.) Yoldaşlar, bu hər birimizin başına gələ bilər. Bu adamın vəziyyətini başa düşün, atasının dəfninə çatmalıdır.

Sükut. Camaatın içindən bir kişi çıxır.

**K i ş i** –Mən xəstə olmasaydım, öz yerimdən keçərdim.

**I I K i ş i** –Elə hesab elə ki, minik 3 saat da gecikib... Belə ürəyi yanansan, keç öz yerindən. Özgənin ağzından diş çıxartmağa nə var?

**I I I K i ş i** –Yaxşı sözdür.

**R ə i s** –Demək, içinizdə bir fədakar tapılmadı. (İmrana). Gördünmü? Mən sənə bundan başqa heç bir şey eləyə bilmərəm. (Gedir).

Aydın heyrət içində İmrana yaxınlaşır.

**A y d ı n** –A qardaş, bu nə işdi? Bəs, bayağdan bu hadisəni mənə

niyə demirdin?

**İ m r a n** –Qanını qaraltmaq istəmədim.

**A y d ı n** –Sənin səbrinə daha sözüm yoxdur. Allah rəhmət eləsin Qüdrət əmiyə. Gözəl adam idi... Bəyəm xəstə idi?

**İ m r a n** –Hə... Bir aydı yatırdı.

**A y d ı n** –Bir-iki ay əvvəl bulvarda gördüm onu. Xeyli söhbət elədik. Onda cağ idi.

**İ m r a n** –Hə... Yazıq birdən düşdü...

**A y d ı n** –Allah səbr versin... Neyləmək olar. Hamımız o dünyalığıq.

Bu zaman rəis İmrana yaxınlaşır, əlində tutduğu bileti ona verir.

**R ə i s** –Buyur, yerlilərinizdən bir adam öz biletini sənə verdi...

**İ m r a n** –Çox sağ olun... Ancaq... axı... kimdi o adam?

Aydın biletə baxır.

**A y d ı n** –Ə... Bu, Teymurun biletidir. Budur bax, familiyası, adı...

**İ m r a n** *(Dilxor halda)*.–Hə... Özüdür... Bu, yaxşı olmadı.

**A y d ı n** –Nə danışırsan? Bu məqamda bunu elə Teymur eləməliydi... Sağ olsun.

**İ m r a n** –Yox, Aydın, lazım deyil... Axı...

**R ə i s** –Vətəndaş, mən onu növbəti təyyarə ilə yola salaram, arxayın olun, siz gecikirsiniz. Ad, familiyanız...

**A y d ı n** –Səttarov İmran!

R ə i s biletin üstünü yazıb qol çəkir, bileti İmrana qaytarır.

**İ m r a n** –Mənə xəcalət verdi.

**A y d ı n** –Xəcaləti-zadı yoxdur. Mən sənin təşəkkürünü ona çatdıraram. Sənə yaxşı yol, di tərpən!

**İ m r a n** –Sağ ol. *(Gedir).*

A y d ı n gəzinir, T e y m u r ona yaxınlaşır.

**A y d ı n** –Teymur, afərin! Üzün-gözün gülür, mən səni başa düşürəm... Sənin kimi adamlar başqasına əl tutmaqdan aldığı ləzzəti

heç bir şeydən ala bilməz. Amma İmran da oğulmuş, bir saatdan çoxdur restorandayıq, mənə atasının öldüyünü deməyib. İndi soruşuram, deyir, qanını qaraltmaq istəmədim. Bəs, sən hara getdin? Bayaq səni çox axtardıq. İstəyirdik, bərabər gedək restorana.

**T e y m u r** –Mən gördüm ki, o mənimlə danışmaq istəmir. Ona görə də Bakıyla danışıb, gözündən yayındım.

**A y d ı n** –Nahaq, çox nahaq. Oğlun gəlib?

**T e y m u r** –Bu gün səhər gəlib, sabah səhər də gedir.

**A y d ı n** –Yol ki, açıldı, sən də çatacaqsan.

**T e y m u r** –Çatmasam da eybi yoxdur. Telefonla danışdım, uşağın səsini eşitdim, özümə gəldim.

**A y d ı n** –İmranı yaman utandırdın. Səni axtarırdı ki, təşəkkürünü bildirsin.

**T e y m u r** –Elə onun üçün də qaçdım, dedim, qoy utanmasın.

**A y d ı n** –Bərabər gedərik başsağlığına.

**T e y m u r** –Mütləq! Qüdrət əmi gözəl adam idi. Qəbri nurla dolsun!

Bakı... Aerovağzalın gözləmə zalı. Təyyarədən düşən adamlar bir-bir zala toplanır. Sərnişinlərin içində Aydın və Teymur görünür. Qarşılayanların içərisində yaşlı bir kişi Aydıngilə tərəf gəlir.

**Y a ş l ı   K i ş i** –Aydın? Teymur? Sizsiniz? Salam, a mənim əzizlərim.

Onları öpür.

**T e y m u r** –E... e... Salam.

**A y d ı n** *(Təəccüblə)*–Sa... Salam. Siz...

**Y a ş l ı   K i ş i** - Məni tanımadınız? Nə tez yadınızdan çıxdı Qüdrət əminiz?

**A y d ı n** –Yox... tanıdıq...

**T e y m u r** - Niyə ki, tanıdıq...

**Q ü d r ə t** –İmranı gözləyirəm, sizin təyyarədə yox idi ki?

**A y d ı n** –O bizdən əvvəlki təyyarədə uçdu. Hələ gəlməyib? Bəlkə gəlib, sizin xəbəriniz yoxdur?

**Q ü d r ə t** –Yox, mən neçə saatdır, burdayam. Dünəndən bəri gələn birinci təyyarə elə budur. Deyirlər ki, siz uçan təyyarədən əvvəlki 2 təyyarəni Bakı qəbul eləməyib, Tbilisiyə düşüblər. Yəqin, İmran o təyyarələrdən birində olub.

**A y d ı n** –Ola bilər.

**Q ü d r ə t** –Nə təhərsiniz?

**T e y m u r** –Yaxşıyıq.

**A y d ı n** –Sağ ol, Qüdrət əmi. Siz nə təhərsiniz?

**Q ü d r ə t** –Şükür Allaha... Bu dünyada gərək naşükür olmayasan... Qudurub, tanrına təpik atmayasan, qismətinə şükür eləyəsən.

**A y d ı n** –Elədir, Qüdrət əmi.

**Q ü d r ə t** –Mən bir məlumat bürosuna dəyim... Hələlik... *(Gedir).*

A y d ı n l a T e y m u r mat-məəttəl bir-birinin üzünə baxıb başlarını yellədirlər.

**A y d ı n** –Hə... Teymur, gördün?

**T e y m u r** –Gördüm.

**A y d ı n** –Bu hərif insanların bütün qüsurlarını bağışlaya bilir, amma yalanı bağışlaya bilmir...

**T e y m u r** –Yəqin özünə bağışlayır.

**A y d ı n** –Görünür, mühitinin xeyirxahlığından istifadə edib başqalarının haqqını yeyən iki-ayaqlı həşəratları tanımaq daha çətindir.

*1985*





# MƏNİM ATAM

*(Radiopyes)*

İŞTİRAK EDİRLƏR:

1. **Aynur** –ana.
2. **Çolpan** –onun oğlu.
3. **Göyərçin** –Çolpanın nişanlısı.
4. **Həsən.**
5. **Doktor.**
6. **Müğənni.**

BİRİNCİ GÖRÜŞ

Külək ulayır, qapı-pəncərə tıqqıldayır... Balaca Çolpan anasına qısılır.

**Çolpan** –Qorxuram.

**Aynur** –Nədən qorxursan, ay oğul?

**Çolpan** –O nə səsdi?

**Aynur** –Küləyi deyirsən, ay mənim ağcıyar Çolpanım? Adam da küləkdən qorxar?

**Çolpan** –O niyə ağlayır?

**Aynur** –Ağlamır, danışır...

**Çolpan** – Nə deyir o?

**Aynur** –O deyir ki, mən də varam. Sən də gərək ona deyəsən

ki...

**Ç o l p a n** –Mən səndən qorxmuram, hə?

**A y n u r** –Əlbəttə!

**Ç o l p a n** –Axı qorxuram.

**A y n u r** –Bəs sabah sən əsgər gedəndə neyləyəcəksən?

**Ç o l p a n** –Səni də apararam özümlə.

**A y n u r** –Axı, qadınları əsgər aparmırlar.

**Ç o l p a n** –Komandır əmiyə deyərəm ki... deyərəm ki...

**A y n u r** –Sən heç nə demə. Yaxşısı budur ki, özün igid ol, heç nədən qorxma.

**Ç o l p a n** –Sən qorxmursan?

**A y n u r** –Yox!

**Ç o l p a n** –Atam da qorxmurdu?

**A y n u r** –Yox! Sənin atan igidlərin igidi idi. Amma sən... elə bil ki, onun oğlu deyilsən.

**Ç o l p a n** –Mənim atam... yox!.. Mən də, mən də... böyüyəndə elə olacağam...

**A y n u r** –Sənin atan qışın fır-tınasında dənizlə vuruşurdu... Dalğalar ağzını açıb onu udmaq istəyirdi... Amma ...dənizə meydan oxuyurdu... Dənizin dibindən neft çıxarırdı.

**Ç o l p a n** –Mən də elə olacağam, atam kimi...

## İKİNCİ GÖRÜŞ

Dəniz kənarı. Nəhəng dalğaların nəriltisi.

**G ö y ə r ç i n** –Uzağa getmə, Çolpan, burulğana düşərsən... eşitmirsən?

**Ç o l p a n** –Qorxma! Hələ mən istəyirəm, sən də gələsən.

**G ö y ə r ç i n** –Mən üzə bilmirəm... Di yaxşı, bəsdir, daha çıx...

Sükut.

**G ö y ə r ç i n** –Yorulmadın?

**Ç o l p a n** –Yox, sudan doya bilmirəm... Bir az yaxın gəl... Bax

belə... bir az da. Heç olmasa dizə qədər.

**G ö y ə r ç i n** –Yox, yox, gələ bilmərəm.

**Ç o l p a n** –Niyə?

**G ö y ə r ç i n** –Dünən laboratoriyada qıçıma sulfat turşusu dağılıb. Suya girmək olmaz.

**Ç o l p a n** –Sənin bu kimyan da başımıza bəla oldu.

**G ö y ə r ç i n** –İndi hər şey kimyalaşıb.

**Ç o l p a n** –Elə orda işləri korlayırıq. Yaxşı, dəsmalı ver bəri.

**G ö y ə r ç i n** –Gör neçə saatdır dənizdəsən...

**Ç o l p a n** –Dənizə vurğunluq bizdə irsidir. Atam da belə olub. Dənizdə yaşayıb, dənizdə işləyib, dənizdə də...

Dəniz nərildəyir.

**Ç o l p a n** –Eşidirsənmi?

**G ö y ə r ç i n** –Nəyi?

**Ç o l p a n** –Dənizin nəriltisini, gurultusunu, qəzəbini. Ax, nə olaydı mən bu səsləri nəğməyə çevirə bileydim. Mənə elə gəlir ki, Bethovenin beşinci simfoniyası dənizin üsyanıdır.

**G ö y ə r ç i n** –Bu çalxantı, bu kişnərti sənin son mahnında da var.

**Ç o l p a n** –Deyə bilmərəm. Ancaq onu bilirəm ki, mənim iniltidən, sızıltıdan zəhləm gedir. İnsanları ayağa qaldiran, onları nəyəsə, harasa çağıran mahnılar yazmaq istəyirəm.

Qağayıların səsi gəlir.

**G ö y ə r ç i n** –Qağayılara bax.

**Ç o l p a n** –Sən bilirsənmi onlar necə ölür?

**G ö y ə r ç i n** –Yox!

**Ç o l p a n** –Qağayılar ölümlərini hiss eləyən kimi sahildən uzaqlaşır, qanadlarını dənizin dalğalarına vurub özlərini fırtınaya təslim edirlər.

**G ö y ə r ç i n** –Ölümdəki böyüklüyə bax! Yadıma bir əhvalat düşdü.

**Ç o l p a n** –Nə əhvalat?

**G ö y ə r ç i n** –Bizim uşaq evində qoca bir qarovulçu var idi. O, bir

adamı söyəndə deyərdi: "Yorğan-döşəkdə ölənin oğlu!

**Çolpan** –Gözəl söyüşdür! İnsan da qağayı kimi özünü fırtınaya təslim edib ölməlidir. Amma qəribədir. Hamı belə düşünmür.

**Göyərçin** –Hamı bir adam deyil ki, bir cür də düşünə.

**Çolpan** –Şahmat klubunda yaşlı bir adamla tanış olmuşam. Çox istiqanlı adamdır. Ürəyimə yatır. Amma söhbətləri qəribədir. Mən onu öyrənmək istəyirəm. İstəyirəm biləm görəm ki, ondakı bu fikirlərin səbəbi nədir, kökü nədir?

**Göyərçin** –Çətin öyrənə bilərsən.

**Çolpan** –Niyə?

**Göyərçin** –Ona görə ki, hər ürək bir qapalı sandıqdır.

**Çolpan** –Yox, Göyərçin, adam başqalarını özündən tez öyrənir.

**Göyərçin** –Adının mənasını bilirsənmi, Çolpan?

**Çolpan** –Bəs sən bilmirsən?

**Göyərçin** –Yox! Dünən rəfiqəm məndən xəbər aldı, deyə bilmədim.

**Çolpan** –Çolpan, bizim qədim dilimizdə "dan ulduzu deməkdir.

**Göyərçin** –Əməllərin adını doğrulda biləcəkmi?

**Çolpan** –Bilmirəm! Amma çalışacağam. Bəs elə mənim məqsədim bu deyil?

**Göyərçin** –Adamlar sözlərilə yox, əməlləri ilə tanınır. Sən də o adamın əməllərini öyrənməyə çalış. *(Sükut).* Yenə nə oldu, fikir dəryasına qərq oldun?..

**Çolpan** –Dünən gecə dəhşətli bir yuxu görmüşəm. Heç yadımdan çıxmır.

**Göyərçin** –Qorxulu yuxu görəndə suya danışarlar. Sən də üzünü tut dənizə, danış...

**Çolpan** –Yuxunu axar suya danışarlar, dənizə yox!.. Mən sənin gözlərinə danışmaq istəyirəm...

**Göyərçin** –Elə niyə?

**Çolpan** –Sənin gözlərin də su kimi axır...

**Göyərçin** –Demək istəyirsən ki, xumardı, hə?

**Çolpan** –Özün bilirsən... daha mən nə deyim?

**Göyərçin** –Yaxşı, bunu çox demisən, yuxunu danış.

**Çolpan** –Mən hələ uşaq ikən anam mənə atamdan o qədər danı-

şıb ki, onun bütün xasiyyətini, sifətini, hərəkətlərini hər gün gördüyüm, tanıdığım adamlar kimi bilirəm, tanıyıram. Xüsusən ölümü... Gözümün qabağından heç getmir. Gecələr yuxuma girir. O əhvalatı uşaqlıqda anama o qədər danışdırmışam ki, yazan olsaydım, onu olduğu kimi yaza bilərdim.

**G ö y ə r ç i n** –Məgər o hadisədə anan da orda olub?

**Ç o l p a n** –Yox! Anama da danışıblar. Dünən gecə də yuxuda görürəm ki, dənizdə fırtınadır. Mən də atamın yanında, Neft daşlarındayam. Birdən atamı harasa çağırırlar. Bir də görürəm ki, uzaqdakı bir buruq alışıb yanır. Atam buruğun dövrəsində üzür. Suda çabalayan dostlarını xilas eləməyə çalışır, birini çıxarır, ikincisinə tərəf üzərkən, nə görsəm yaxşıdır? Batan adam sənsən!

**G ö y ə r ç i n** –Sonra?

**Ç o l p a n** –Qışqırıb ayıldım.

**G ö y ə r ç i n** –Yaxşı yuxudur.

**Ç o l p a n** –Bunun nəyi yaxşıdır?

**G ö y ə r ç i n** –Yuxunu tərsinə yoz, hər şey öz yerini tutar... Sən bu əhvalatı mənə üçüncü dəfədir danışırsan. Hər dəfə də öz gözlərinlə görmüş əhvalat kimi... Ölülərin xatirəsi əzizdir, amma... bu günlə yaşamaq lazımdır.

**Ç o l p a n** –Bu gün də dünəndən doğulur.

**G ö y ə r ç i n** –Dünən atalarımızınkı idi, bu gün bizimki...

**Ç o l p a n** –Hardan gəldiyini bilməyən, hara gedəcəyini də bilməz.

**G ö y ə r ç i n** –O düzdür, amma...

**Ç o l p a n** –Nə amma?

**G ö y ə r ç i n** –Adamın əlindən çıxan şey onun üçün qiymətli olur.

**Ç o l p a n** –Nə demək istəyirsən?

**G ö y ə r ç i n** –Atan öləndə sənin neçə yaşın olub?

**Ç o l p a n** –Bir!

**G ö y ə r ç i n** –Vəssalam!

**Ç o l p a n** –Başa düşmürəm.

**G ö y ə r ç i n** –Anan sənin gözündə atanı ideallaşdırıb. Bəlkə də onun faciəli ölümü... onu bir qədər də böyüdür, gözəlləşdirir.

**Ç o l p a n** –Əslində o buna layiq deyilmiş?

**G ö y ə r ç i n** –O barədə heç nə deyə bilmərəm. Ancaq mənim

vəziyyətim, mənə bir şeyi öyrədib: həyata və adamlara rəngli şüşə arxasından baxmıram. Dünyanı olduğu kimi görmək istəyirəm.

**Ç o l p a n** –Dünya necədir ki?

**G ö y ə r ç i n** –Olduğu kimi. Rəngsiz, boyasız.

**Ç o l p a n** –Qəribədir, o kişi də belə danışır.

**G ö y ə r ç i n** –Hansı kişi?

**Ç o l p a n** –Şahmat klubunda tanış olduğum.

**G ö y ə r ç i n** –Mənim atam 4 körpəsini arvadının üstünə atıb ayrısıyla evləndi... Onun da adı ata deyilmi?

**Ç o l p a n** –Əlbəttə, elələri də var.

**G ö y ə r ç i n** –Əgər yaşasaydı, sənin atanın necə olacağını kim deyə bilər?

**Ço l p a n** –Sən mənə toxunursan...

**G ö y ə r ç i n** –Mən olanı deyirəm.

**Ç o l p a n** –Ömrünü dostlarının həyatına qurban verən bir adam övladı üçün pis ola bilməzdi...

**G ö y ə r ç i n** –Bəlkə də... Dünyaya hərə öz qəlbinin pəncərəsindən baxır.

**Ç o l p a n** –Mən istəyirəm ki, sən mənim qəlbimin pəncərəsindən baxasan.

**G ö y ə r ç i n** –Onda həyat çox darıxdırıcı olardı.

**Ç o l p a n** –Yaxşı, bəs mənim anam haqqında nə deyə bilərsən? 18 yaşından dul qaldı. Hər əziyyətə dözdü... Gündüzlər işlədi, axşamlar oxudu. Məni böyütdü... Gəncliyini mənə qurban verdi. O da başqaları kimi ərə gedib...

**G ö y ə r ç i n** –Mənim anama işarə eləyirsən?.. Əlbəttə... Ancaq mən onu qınamıram... Kişilər övladlarına nankorluq eləyəndə... arvadlara nə gəlib?.. Götürək səni... Əlbəttə, mən bilirəm ki, sən məni sevirsən... Lakin mən onu da bilirəm ki, hər zamanın öz hökmü var... Sən mənim indimi sevirsən... Sabah haqqında kim nə deyə bilər?

**Ç o l p a n** –Oy... Göyərçin, atamın xatirəsinə toxundun, sənə bəs eləmədi, indi də mənə toxunursan?.. Səndə bu bədbin fikirlər hardandır?..

**G ö y ə r ç i n** –Görə-görə gəlmişik.

**Ç o l p a n** –Hələ çox cavansan. Bir də sənə xəbərdarlıq eləyirəm,

sənin haqqın yoxdur mənim atamın xatirəsinə toxunmağa. Ona görə ki, onun xatirəsi təkcə mənim üçün deyil, bu xalq üçün, o cümlədən sənin üçün də əziz olmalıdır.

## ÜÇÜNCÜ GÖRÜŞ

Sükut.

**A y n u r** –Mən hamısını bilirəm. Hər boş şeyin üstündə adam ürək sındırmaz... Bir də sevən sevənin cəfasını çəkməyi bacarmalıdır. Yoxsa ona sevgi deməzlər.

**Ç o l p a n** –Mən onu sevirəm!

**A y n u r** –Bəs bu nədir? Heç sən bilirsən o, nə haldadır?

**Ç o l p a n** –Ürəyə o toxunub, mən yox!

**A y n u r** –Çolpan, unutma, sevmək fədakarlıqdır. Kim üçün, nə üçün yaşadığını dərk etməkdir, başqasının yolunda qurbana hazır olmaqdır. Bunları bacarmırsansa...

Telefon zəngi, Ç o l p a n dəstəyi götürür.

**Ç o l p a n** –Bəli... Necə? Xəstəxanadan? Kimdir danışan? Bəli, mənəm... Siz nə danışırsınız...

**A y n u r** –Nə olub?

**Ç o l p a n** –Bu saat, bu saat gəlirəm. (Dəstəyi asır). Göyərçin xəstəxanadadır. Laboratoriyada boru partlayıb. (Qaçır).

**A y n u r** –Dayan, mən də gəlirəm!

## DÖRDÜNCÜ GÖRÜŞ

Xəstəxana.

**D o k t o r** –Xəstə nəyinizdir?

**Ay n u r** –Oğlumun nişanlısıdır.

**D o k t o r** –Bəs ata-anası?

**A y n u r** –Uşaq evində böyüyüb.

**D o k t o r** –Deməƙ, xəstənin sahibi sizsiniz?

**A y n u r** –Bəli.

**D o k t o r** –Onda açıq danışaq. Vəziyyəti çox ağırdır.

**A y n u r** –Necə yəni?

**D o k t o r** –Şikəst ola bilər.

**A y n u r** –Necə şikəst?

**D o k t o r** –Nə təhər deyim?.. Sol tərəfdən tamam yanıb... Həm də sol gözü... Yanığa əlac ola bilər... Amma gözü...

**A y n u r** –Doktor!..

**D o k t o r** –Göz xəstəxanasından həkim çağırdıq, baxdı...

**A y n u r** –Nə deyir?

**D o k t o r** –Bilirsiniz... Kimyəvi turşunun yanığı... Çox dəhşətli şeydir.

**A y n u r** –Mən o həkimi görə bilərəmmi?

**D o k t o r** –Buyurun, içəridədir.

## BEŞİNCİ GÖRÜŞ

**A y n u r** –Yaxşı, özünü üzmə. Olacağa çarə yoxdur. Neyləmək olar?

**Ç o l p a n** –Məni üzən ayrı şeydir, ana. Bu işdə mən özümü günahkar bilirəm. Bilirsən ki, hadisədən əvvəl ondan incimişdim. Mənim incikliyim onu sarsıtmışdı,gündə neçə dəfə zəng çalır, barışmaq istəyirdi... Mən də ki, tərsliyimə salıb cavab vermirdim. Mən ona dərs vermək istəyirdim, dərsim çox baha başa gəldi. Rəfiqəsi deyir ki, o günlər o qədər fikirli imiş ki, çörək də yemirmiş... İşdə də nə elədiyini bilmirmiş. O qədər fikirli imiş ki, boruda qaynayan tərkibin üstünə ayrı maddə töküb, o da partlayış verib.

**A y n u r** –Yaxşı, kişi ol, özünü ələ al. Həyatda hər şey olur. Adam o deyil ki, dərdi olmasın, əsl adam odur ki, dərdə dözməyi bacarsın. Saçımın birini qara, birini ağ hörmüşəm, hər cəfayə dözmüşəm. Bəs onda mən gərək çoxdan öləydim!.. *(Sükut).* Dur get, vaxtdır. İndi gözü

qapıdadır.

**Ç o l p a n** –Qoymur, deyir gəlmə.

**A y n u r** –Niyə?

**Ç o l p a n** –Eh, ana, o qəribə adamdır. İstəmir, istəmir ki, mən onu bu halda görəm... Mən onun üçün əzab çəkim. Deyir, sən bura gələndə utanıram.

**Ay n u r** –Yazıq qız!

**Ç o l p a n** –Yalvarır ki, gəlmə!

**A y n u r** –Əlbəttə, o, elə deməlidir. Şikəst oldu, bədbəxt oldu!

**Ç o l p a n** –Şikəst oldu, amma bədbəxt olmayacaq... Mən öz xoşbəxtliyimdən kəsib onun gözünü əvəz edəcəyəm. Mən qoymaram ki, o, bunun dərdini çəksin!..

**A y n u r** –Əməlli fikirləşmisənmi?

**Ç o l p a n** –Nə dedin? *(Sükut).* Başqa cür də ola bilər?

**A y n u r** –Hər halda...

**Ç o l p a n** –Nə demək istəyirsən, ana? *(Sükut).* Mən onun yerində olsaydım, o məni atardımı?

**A y n u r** –Bilmirəm.

**Ç o l p a n** –Sən, sən necə?

**A y n u r** –Mən?.. Mən ayrı...

**Ç o l p a n** –Niyə sən ayrı? O gün mənə dediklərin yadındadır? Sevmək fədakarlıqdır, başqasının yolunda qurbana hazır olmaqdır.

**A y n u r** –Elədir, mənim balam, elədir. Sən mərdsən, mən bir də buna görə xoşbəxtəm!

### ALTINCI GÖRÜŞ

Qapı zəngi.

**A y n u r** –Buyurun, kim lazımdır?

**H ə s ə n** –Tanımadın?

**A y n u r** –Yox.

**H ə s ə n** –Yaxşı bax.

**A y n u r** –Baxıram, amma tanıya bilmirəm.

**H ə s ə n** –Həsənəm.

**A y n u r** –Hansı Həsən?

**H ə s ə n** –Tanımamaqda səni qınamıram... Sənin qarşında çox günahkaram. Günahımı da heç nə ilə yuya bilmərəm. Əl mənim, ətək sənin. Demirəm məni bağışlayasan, amma...

**A y n u r** –Dayan,dayan, sən...

**H ə s ə n** –Bəli, mən sənin oğlunun atasıyam. Olur, həyatdır. Cavan idim, neylədiyimi bilmirdim... Sonra başa düşdüm, amma qayıtmağa üzüm olmadı.

**A y n u r** –Bəs indi nə üzlə gəlmisən?

**H ə s ə n** –Özüm də bilmirəm... amma...

**A y n u r** –Tez gəlmisən, niyə belə tələsirdin?

**H ə s ə n** –Haqlısan... Mən nə deyə bilərəm? Qucağında körpəsi, 18 yaşlı arvadını gözü yaşlı qoyub gedən, 20 ildən sonra qayıdan bir kişini kim bağışlar?.. Qarşında boynum qıldan nazikdir. Yalnız onu deyə bilərəm ki, sənə halal olsun ananın südü!.. Mən Orta Asiyadan qayıdandan sonra hamısını eşitmişəm... Sən namusla yaşayıb övlad böyütmüsən... Çox ağıllı, dəyanətli oğul!

**A y n u r** –Hardan bilirsən?

**H ə s ə n** –Mən 2 aydı qayıt-mışam. Hər gün səhərlər və axşamlar bu evin ətrafında dolanıram. O, qapidan çıxır, onu izləyirəm. Tez-tez şahmat klubuna gedirdi. Orda tanış oldum. Onunla, hətta bir-iki dəfə şahmat da oynadıq.

**A y n u r** –Həsən!..

**H ə s ə n** –Qorxma, o məni tanımır... Sənin icazən olmadan... Mən ona heç nə deyə bilmərəm.

**A y n u r** –Bəlkə demək istəyirsən?

**H ə s ə n** –Gəldim ki, məsləhətləşək. Bu vaxta qədər mən ona atalıq eləməmişəm. Ona görə də indi onun adını tutmağa haqqım yoxdur. Deyirəm bəlkə... İzn verəsən, bundan sonra... Bilirsənmi, indi o gəncdir. Oğlan övladlarına ata bu yaşda daha çox lazım olur... Bəlkə...

**A y n u r** *(Gülür).*–Uşaq olanda ata lazım deyildi?

**H ə s ə n** –Onda da lazım idi. Lakin indi... Bilmirəm ona nə olub?

Axır vaxtlar... Hər gün klubda gözləyirəm, ora da gəlmir... Odur ki, dözə bilmədim, gəldim ki, biləm, bəlkə başında bir qəza var? Bəlkə mənim köməyim dəydi?.. Yalvarıram, Aynur, məndən gizlətmə... Bu yaşda cavanlara kişi məsləhəti daha çox lazım olur...

**A y n u r** –Həsən, sənin ən böyük köməyin o olar ki, bizə yaxın durmayasan... sakit ailəmizə ləx-ləxə salmayasan.

**H ə s ə n** –Hər halda... Nə qədər pis olsam, yenə atayam...

**A y n u r** –Yox! Onun atası ölüb, özü də kişi kimi...

**H ə s ə n** –Sən nə danışırsan?

**A y n u r** –Bəli, mən ona elə demişəm... Mən onun nəzərində atasını elə canlandırmışam... Ölünü canlandırmışam, bilirsən bu nə deməkdir? Yox, sən bunu başa düşməz-sən? Nankor bir atanı öldürüb namuslu ata kimi diriltmişəm. O, mənim uydurduğum yalançı ata ilə fəxr edir. İndi sən onun atası haqqındakı gözəl xəyallarını dağıtsan, özünə ziyan eləmiş olarsan. Axı, indi sənin ölülüyün diriliyindən çox iş görür... Sən bunu başa düşürsən?

**H ə s ə n** –Başa düşürəm, yaxşı eləmisən.

**A y n u r** –Qulaq as, o sevdiyi qızdan küsmüşdü. Mən bunu bilirdim, amma soruşmurdum. Qızdan öyrənmişdim. Tərs kimi onun nişanlısı da özü kimi atalı yetimdir. Qız ataların bəzi etibarsızlığından danışmış...

**H ə s ə n** –Qız həqiqəti bilirmiş?

**A y n u r** –Yox. Bunu heç kəs bilmir... Ancaq o, söz gəlişi deyib ki, sən də atanı çox öymə, sağ olsaydı, kim bilir o neyləyəcəkdi... Çolpan atasının təhqir olunmasına dözməmiş, varlığı qədər sevdiyi qızdan üz döndərmişdir. Bu, qızı sarsıtmış, nəticədə...

**H ə s ə n** –Sonra?..

**A y n u r** –Laboratoriyada işləyərkən səhv eləmiş, boru partlamış, bədəni yanmış, sol gözü zədələnmişdir.

**H ə s ə n** –Bəs əlac yoxdur?

**A y n u r** –Xəstəxanada yatır. Görək nə olur. Hələ ki, ümid verən yoxdur.

**H ə s ə n** –Odessada yaxşı göz mütəxəssisləri var, bəlkə... Mən danışım.

**A y n u r** –Lazım deyil... Elə burda da...

**H ə s ə n** –Mən bir şeyi bacarmasam, deməRəm.

**A y n u r** –Səndən xahiş edirəm, qoy bizi öz dərdimizlə qalaq... Onun qəlbini yaralama, dərdinin üstünə dərd calama. O, bilsə ki, onun atası atalığından belə imtina edən mis-kin bir fərari imiş, onun bundan sonrakı halı nə olar? O bilsə ki, atası onun böyük sevgisinə dəyməzmiş... gözəl xəyalları, idealları puç olmazmı?.. Əvvəlki cinayətlərin bir yana, əgər sən öz atalığını ona bildirsən, əvvəlkilərdən daha böyük cinayət eləmiş olarsan! Yalvarıram sənə, əgər səndə vicdanın qığıl-cımı qalıbsa, ona qıyma, onu sarsıtma!

**H ə s ə n** –Bəs indi o, neyləmək istəyir?

**A y n u r** –Necə yəni?

**H ə s ə** n–Demək istəyirəm ki, şikəst bir qızla?.. Necə olacaq?

**A y n u r** –Yox, elə bilirsən o da sənin kimi... Yox, Həsən, o mənim tərbiyəmi götürüb... Mən də onu sınamaq üçün bərkə çəkdim. Yox, elə oğul deyil, o kişidi, o, sözünün sahibidir... Əgər o, şikəst qızı ağlar qoyub ondan üz döndərsəydi, mən onu öz oğlum yox, sənin oğlun hesab edərdim. Şükür ki, o, mənim oğlumdur!.. Gedə bilərsən. Bizim səninlə ortaq heç bir şeyimiz yoxdur... Yenə deyirəm: əgər səndə vicdan əlaməti qalıbsa, öz xeyrinə və bir də onun xatirinə bizə toxunma. Onsuz da o fikrin, o əqidənin sahibi səni atalığa qəbul etməyəcək! Bundan sən də ziyan çəkəcəksən, o da. Qurtardıq! Sən bu qapını bir də döyməyəcəksən. Eşidirsənmi?

## YEDDİNCİ GÖRÜŞ

Şahmat klubu.

**H ə s ə n** –Cavan oğlan, xoş gördük. Hardaydın, çoxdan görünmürdün?

**Ç o l p a n** –Başım qarışıq idi.

**H ə s ə n** –Nışanlını xəstəxanadan çıxartdınmı?

**Ç o l p a n** –Bəli!

**H ə s ə n** –Necədir?

**Ç o l p a n** –Pis deyil... *(Sükut).* Siz hardan bilirsiniz?

**H ə s ə n** –Burdakı dostların dedi. Gözü sağaldımı?

**Ç o l p a n** –Görmə qabiliyyətini altmış faiz itirib... Amma deyirlər getdikcə düzələcək.

**H ə s ə n** –Təki olsun... Bura bax, mənim Odessada yaxşı həkim dostlarım var. İstəsən...

**Ç o l p a n** –Lazım olsa, deyərəm.

**H ə s ə n** –Mənim telefon nömrəmi götür. Buyur, yazmışam, lazım olsa...

**Ç o l p a n** –Sağ olun.

**H ə s ə n** –İndi şahmatla necəsiniz, bir əl oynayaqmı?

**Ç o l p a n** –Oynayaq.

**H ə s ə n** –Nədən?

**Ç o l p a n** –Bura qumarxanadır?

**H ə s ə n** –Hər halda arada məqsəd olanda, oyun şirinləşir, daha da maraqlı olur.

**Ç o l p a n** –Mənim üçün şahmat həmişə maraqlıdır.

**H ə s ə n** –Cavanlar üçün həyatın özü maraqlıdır. Amma mənim kimilər üçün... Mən gərək olmayan yerdən də özüm üçün maraq düzəldəm.

**Ç o l p a n** –Yaxşı, başlayaq!

**H ə s ə n** –Demədin, axı, nədən oynayırıq?

**Ç o l p a n** –Siz deyin.

**H ə s ə n** –Nahara az qalır. Bir restoran qonaqlığı!

**Ç o l p a n** –Mən evdə nahar eləyirəm.

**H ə s ə n** –Bir dəfə də restoranda eləyin.

**Ç o l p a n** –Oyun pis getmir.

**H ə s ə n** –Bu üçüncü görüşümüzdür. Birinci dəfə sən udmusan. İkinci dəfə mən. Görək bu dəfə nə olur?

**Ç o l p a n** –Yaxşı olar.

**H ə s ə n** –Bu-günkü oyunun xoşuma gəlmir.

**Ç o l p a n** –Niyə?

**H ə s ə n** –Fikirlisən, hədəfə vura bilmirsən.

**Ç o l p a n** –Bu ki, sizin üçün yaxşıdır?

**H ə s ə n** –Əksinə! Çünki müqabil tərəf qüvvətli olanda mən də səfərbər oluram. Aslanın aslanla güləşməsi gözəldir. Zəifi məğlub etməyə nə var ki...

**Ç o l p a n** –Yaman ötkəm danışırsınız?

**H ə s ə n** –Həyat öyrədib.

**Ç o l p a n** –Həyatı da biz yaratmırıq?

**H ə s ə n** –Həyat bizi yaradır.

**Ç o l p a n** –Demək biz ona tabeyik?

**H ə s ə n** –Əlbəttə!

**Ç o l p a n** –Mən əksini deyərdim.

**H ə s ə n** –Ona görə ki, cavansan. İncimə, hələ duza gedirsən.

**Ç o l p a n** –Oho... Atı topa dəyişdirirsiniz?

**H ə s ə n** –Bəli! İndi at zamanası deyil.

**Ç o l p a n** –Atı da, topu da idarə edən insandır.

**H ə s ə n** –Atla yaxını vurarsan, topla uzağı.

**Ç o l p a n** –Hər iki halda vuran yenə insandır.

**H ə s ə n** –Gücsüz, silahsız insanın əlindən nə gələr?

**Ç o l p a n** –İnsanın ən böyük islahı onun özüdür. Öz iradəsi, öz qəlbi, öz vicdanıdır.

**H ə s ə n** –Yerinə görə. Hər yerdə eyni silah yaramır. Ürək, vicdan bəzən adamın ətəklərindən dartıb onu aşağı çəkir.

**Ç o l p a n** –Əksinə! Ürək və vicdan yüksəlişin qanadlarıdır.

**H ə s ə n** –Şah!

**Ç o l p a n** –Heç gözləmirdim!

**H ə s ə n** –Adamı gözləmədiyi yerdən vururlar.

**Ç o l p a n** –Elədir. Bəzən gözləmədiyin hadisələr baş verir.

**H ə s ə n** –Oğul da ona deyərəm ki, hadisədən islanmamış çıxa.

**Ç o l p a n** –Çıxmaq olar. Amma özün islanmasan da, ürəyin, vicdanın islanar.

**H ə s ə n** –Özündən asılıdır. İslatma, islanmasın. Amma bu dəfə vəziyyətdən yaxşı çıxdın. Görək ikinci şahdan necə çıxacaqsan.

**Ç o l p a n** –Yaxşı oynayırsınız.

**H ə s ə n** –Həyatın özü də bir oyundur. Gərək oyu-na əvvəlcədən elə başlayasan ki, yarı yolda peşiman olmayasan. Yolun əvvəlindəki bir səhv, yolun yarısında yüz səhvə çevrilir.

**Ç o l p a n** –İradə möhkəm olsa, yanlışı naxışa döndərmək olar.

**H ə s ə n** –Birinə yazığın gəldisə, bir vaxt həmin yazıq bildiyin ilan olub qıçına sarılacaq.

**Ç o l p a n** –Bəs insaf?

**H ə s ə n** –Bu həyat oyununda heç kəs, heç kəsə güzəştə getmir.

**Ç o l p a n** –Lakin oyunun qaydalarından kənara çıxmaq da olmaz.

**H ə s ə n** –O da nisbidir. Hər qaydada bir qaçaq yolu var.

**Ç o l p a n** –Fikrimi yaman qarışdırdınız. Nə oynadığımı bilmirəm.

**H ə s ə n** –Ona görə də şah!

**Ç o l p a n** –Deyəsən bu dəfə yaxalandım.

**H ə s ə n** –Bu topun işidir. Uzaq vurdu. Buyur, bu da mat!

**Ç o l p a** n –Təslim!

**H ə s ə n** –İndi dur gedək. Amma bir şərtlə.

**Ç o l p a n** –Buyurun.

**H ə s ə n** –Əlinizi cibinizə salmayacaq-sınız. Bu gün mən verərəm, sabah siz.

**Ç o l p a n** –Mən oyunun qaydasını pozmaram. Uduzan verməlidir.

**H ə s ə n** –Lakin bu qaydada bir qaçaq yolu da var. Təklifi mən eləmişəm!

**Ç o l p a n** –Söz danışıqdan keçər!

**H ə s ə n** –Yaxşı, o məsələyə baxarıq. İstəyirəm ki, "Nobahara gedək. Orda sizin mahnılarınızı tez-tez oxuyurlar.

**Ç o l p a n** –Mənim mahnılarım sizin xoşunuza gəlir?

**H ə s ə n** –Çox!

**Ç o l p a n** –Təəccüblüdür!

**H ə s ə n** –Niyə!

**Ç o l p a n** –Çünki biz başqabaşqa düşünən adamlarıq. Mənim mahnılarım - mənim duyğularım, mənim fikirlərimdir.

**H ə s ə n** –Gedək, orda danışarıq.

## SƏKKİZİNCİ GÖRÜŞ

Restoran. Musiqi səsləri.

**H ə s ə n** –Niyə belə ləngidin?

**Ç o l p a n** –Anama zəng çalmağa getmişdim. Yaman gec gəldin.

**H ə s ə n** –Dedim, restorandayam, sən nahar elə. Bayaqdan çənə döyürəm, deyir, tez gəl. Kiminlə olduğunu dedinmi?

**Ç o l p a n** –Dedim, dedim ki, sən tanımazsan. Klubda tanış olduğum bir nəfərlə... Arvadı lap nigaran qoymusan, heç olmazsa, bir dostunun adını çəkəydin.

**H ə s ə n** –Mən heç vaxt yalan danışmamışam. Xüsusən də anama. Elə yalan var ki, doğrudan min pay yaxşıdır.

M ü ğ ə n n i mahnı oxuyur.

**M ü ğ ə n n i** –
Qəlbimizi kitab tək
Açaq varaq-varaq biz.
İşıqlı duyğularla
Qaranlığı yaraq biz.

**H ə s ə n** –Bu, gərək ki, sizin mahnınızdir?

**Ç o l p a n** –Bəli.

**M ü ğ ə n n i** –
Mən səni, sən də məni,
Bir baxışdan duyaq biz.
Mən sənə, sən də mənə
Dayaq olaq, dayaq biz.

Arzulara nur alaq,
Qızaran dan yerindən
İnsan diləklərindən
Kaşanələr quraq biz.

**H ə s ə n** –Yaxşı sözlərdir, əməl eləyən olsa...

**Ç o l p a n** –Siz niyə xeyirxahlığa şübhə eləyirsiniz?

**H ə s ə n** –Çünki adamlardan elə pisliklər görmüşəm ki...

**Ç o l p a n** –Adamlardan yaxşılıq umursansa... Əvvəl özün yaxşı

olmalısan!

**H ə s ə n** –Sənə bir əhvalat danışmaq istəyirəm.

**Ç o l p a n** –Buyurun.

**H ə s ə n** –Necə deyim?.. Bilirsənmi həyat çox qəribədir. O, sənin iradəndən asılı olmayaraq öz yolu ilə gedir. Çalışırsan, çapalayırsan, bir də görürsən ki, sən deyən olmadı... tutduğun yol səni ayrı mən-zilə apardı... Onda başqaları səni günahlandırmağa başlayır... Daha demirlər ki, axı, sən özün də bu yerə gəlib çatmaq istəmirdin... Həyat gətirdi.

**Ç o l p a n** –Mən sizi başa düşürəm. Necə yəni həyat gətirdi?..

**H ə s ə n** –Demək istəyirəm ki, insan robot deyil, maşın deyil, hamı səhv eləyə bilər. Özündən asılı olmayaraq elədiyin bir səhvdən başqa səhvlər doğur. Ancaq adamlar bunu sənə bağışlamır. Buna görə də...

**Ç o l p a n** –Əgər sənin səhvin yalnız özünə ziyan vurubsa, bunu bağışlamaq olar, yox əgər bu səhv ucundan başqaları əzab çəkibsə, bunu nəinki başqaları, heç sənin özün də özünə bağışlamamalısan.

**H ə s ə n** –Orası elədir... amma...

**Ç o l p a n** –Özünü başqası üçün qurban verməyi bacaranlar səhv etmir, amma bu, həyatları bahasına başa gəlir. Mənim atam Neft daşlarında mühəndis imiş. Dənizdə batan həmkarlarını xilas edərkən ölmüş, amma familiyası üçün gözəl bir xatirə qoyub getmişdir. Cavan yaşında dul qalan anam, mənim yolumda öz gəncliyini qurban vermiş, məni böyüt-müşdür. İndi kim deyə bilər ki, onlar səhv etmişlər? Bu fədakarlıqdır, bu, qəhrəmənlıqdır! Mən hamını belə görmək istərdim...

**H ə s ə n** –Sənin atan...

**Ç o l p a n** –Mənim atam niyə öldüyünü bildiyin üçün məndən ötrü həmişə diridir, həmişə yaşayır. O, heç bir sağ atanın eləmədiyini mənim üçün eləyib. Məni gözəl əməllərə səsləyir. Nəyin uğrunda ölməyini bilməyənlərin yaşamasından nə fayda? Mənim atamın yarımçıq qalmış xeyirxah ömrünün davamı olmaq istəyirəm... Onun kimi olmağa çalışıram.

**H ə s ə n** –Onun kimi...

**Ç o l p a n** –Bəli, yalnız onun kimi. Mən başqasının haqqını oğurlayan, yalnız özünü düşünən, öz xoşbaxtlığını başqasının bədbəxtliyində

tapan vicdansızlara, alçaqlara nifrət edirəm!

**H ə s ə n** –Nifrət edirsən?

**M ü ğ ə n n i** –Əziz yoldaşlar, bayaqdan mahnılarını dinlədiyiniz bəstəkar Çolpan burdadır. Ondan xahiş edək, bizə təzə mahnılarından birini çalsın.

**Ç o l p a n** –Mən?.. Axı... Yox, siz nə danışırsınız?

**S ə s l ə r** –Xahiş edirik, xahiş edirik!

**H ə s ə n** –Qalxın!

**Ç o l p a n** –Yox, bacarmaram. *(Ayaq səsi).*

**A y n u r** –Camaatın sözünü yerə salma.

**Ç o l p a n** –Ana! Sən!..

**A y n u r** –Dözmədim, gəldim!

**S ə s l ə r** –Xahiş edirik, xahiş edirik!

**A y n u r** –Get, oğul! *(Çolpan gedir).* Axırı ki, dediyini elədin!

**H ə s ə n** –Yox, mən ona heç nə deyə bilmədim.

**A y n u r** –Niyə?

Gözəl bir mahnı səslənir.

**Ç o l p a n**
*(oxuyur)* -
Mən insanam, mən insanam,
İnsan üçün yanam, yanam!
Qulağıma pıçıldamış
Bu sözləri yurdum - anam.

**A y n u r** –Mən ona belə tərbiyə vermişəm. Mən istəmişəm ki, o, sənə oxşamasın. O, əsl insan olsun! Başqaları üçün də yanmağı bacarsın.

**H ə s ə n** –Mənə oxşasaydı, xoşbəxt olardı.

**A y n u r** –Xoşbaxtlığın göz qabağındadır... Görürəm! Bəs niyə deyə bilmədin? Niyə deyə bilmədin ki, mən sənin atanam, səni atıb getmişdim? Utanırsan? Özün bil, istəyirsən de, amma sən onun yalnız nifrətini qazanacaq-san. Ancaq mən bircə şeydən qorxuram ki, o, bilsə, insanlara olan inamı qırılar.

**Ç o l p a n** –Qorxma... Mən susacağam!..

**A y n u r** –Sən ölü kimi onun tərbiyəsində diriliyindən daha çox iş görmüsən. Ona görə də ölü olaraq qalmağın məsləhətdir!

**H ə s ə n** –Sən məndən yaxşı qisas aldın, əhsən!

Ç o l p a n qayıdır.

**Ç o l p a n** –Üzr istəyirəm. Mən sizi tanış da eləmədim. Anamdır, bu da...

**A y n u r** –Tanış olduq.

**H ə s ə n** –Çolpan, şahmatda sən uduzdun, həyatda mən... İçək bu qədəhləri sənin ananın sağlığına.

**Ç o l p a n** –Mənim anamın sağlığına? Yəni xeyirxahlığın, gözəlliyin, təmizliyin sağlığına!

**H ə s ə n** –Sağ olun, siz qalın, sizə mane olmaq istəmirəm.

**Ç o l p a n** –Hara?

**H ə s ə n** –Belə yaxşıdır.

## DOQQUZUNCU GÖRÜŞ

**A y n u r** –Yenə dağlara bulud gəlib tutulmusan?..

**Ç o l p a n** –Göyərçin heç aram olmur.

**A y n u r** –Axı, nəyin fikrini çəkir?

**Ç o l p a n** –Qorxur ki, gözü belə qalacaq.

**A y n u r** –Həkim dedi ki, qorxmasın.

**Ç o l p a n** –İnanmır.

**A y n u r** –O, sənə də inanmır, neyləsin, yazıq qız!.. Çolpan, deyirəm bəlkə toyu bu yaz başlayaq.

**Ç o l p a n** –Sağlıq olsun!.. Mən də o fikirdəyəm, ana...

**A y n u r** –Di, dur get bir az havaya, eynin açılsın!

**Ç o l p a n** –Kluba getmək istəyirəm... İstəyirəm Həsən kişiylə bir şahmat oynayım.

**A y n u r** –Klubda bircə elə odur?.. Gərək onunla oynayasan?

**Ç o l p a n** –Maraqlı adamdır. Qanım ona elə qaynayır ki...

**A y n u r** –Eh, Çolpan!..

**Ç o l p a n** –Ona zəng çalacağam. *(Telefon nömrəsini yığır)*. Alo, Həsən əmi, sizsiniz?

**H ə s ə n** –*(Telefonda)*. Bəli, mənəm.

**Ç o l p a n** –Salam, Çolpandır danışan...

**H ə s ə n** –Buyur, çox şadam.

**Ç o l p a n** –Bir şahmat oynamaqla necəsiniz?

**H ə s ə n** –Sizinlə məmnuniyyətlə oynardim, ancaq təəssüf edirəm. Mən bir saatdan sonra yola düşürəm...

**Ç o l p a n** –Hara?

**H ə s ə n** –Gəldiyim yerə. Aşqabada...

**Ç o l p a n** –Xeyir ola?

**H ə s ə n** –Həmişəlik gedirəm.

**Ç o l p a n** –Axı, nədən ötrü?

**H ə s ə n** –Belə məsləhətdir. Yaxşı oldu, zəng çaldınız, heç olmasa, sizinlə xudahafizləşə bildim, hələlik, oğ... Çolpan.

**A y n u r** –Gedir?

**Ç o l p a n** –Təəssüf!.. Yaxşı, sizə yaxşı yol...

**A y n u r** –Ver mənə, mən də xudahafizləşim. *(Dəstəyi alır)*. Salam, demək gedirsiniz?..

**H ə s ə n** –Bəli... Sən demişkən, belə yaxşıdır.

**A y n u r** –Buna görə çox sağ ol... Sizə yaxşı yol və uğurlar!

**H ə s ə n** –Sizə də həmçinin! Salamat qalın!

*1975*





# BİR SAAT SONRA

*(Telepyes)*

## BİRİNCİ SƏHNƏ

Məktəbin müəllim otağı... İki müəllim - Dadaş və Xəlil üzbəüz oturub söhbət edir. Dadaş. Kim yazıbsa, düzünü yazıb.

**Xəlil** –Ə... İndi düzə baxan var?

**Dadaş** –Xəlil müəllim, elə demə, dünya dəyişib indi...

Zakir müəllim gəlir.

**Zakir** –Sabahınız xeyir, yenə nə baş-başa vermisiniz?

**Xəlil** –Lap yerində gəlmisən, Zakir müəllim. Bu işləri sən bizdən yaxşı bilərsən. Nədən ki, 10 il bu məktəbin direktoru olmusan...

**Zakir** –Siz də qədrimi yaxşı bildiniz.

**Xəlil** –Biz nəçiyik, balam, səni özləri qoydu, özləri də çıxartdı.

**Dadaş** –Köhnə palan içi eşmə, Zakir müəllim, sən de görək, bu komissiya nə münasibətlə gəlmiş olar?

**Zakir** –Nə komissiya?

**Dadaş** –Bə xəbərin yoxdu?

**Zakir** –Yox!

**Xəlil** –3 gündür məktəbdə vur-havur komissiya işləyir. Sən dəvə qulağında yatmısan?

**Zakir** –Bu günlər dərsim olmayıb, xəbərim yoxdur.

**Dadaş** –Yekə bir komissiya oturub direktorun otağında, jurnallardan tutmuş dəftərlərə qədər töküblər qabaqlarına, vurçatlasın, yoxlayırlar.

**Z a k i r** –Belə yox-lamalardan çox görmüşük.

**X ə l i l** –Bax, elə mən də bunu deyirəm.

**D a d a ş** –Zakir müəllim, indi sən bizə de görək, bu daş hardan atıla bilər?

**Z a k i r** –Daşın hardan atıldığını siz yaxşı bilərsiniz.

**D a d a ş** –Mən şəxsən bilmirəm.

**X ə l i l** –Mən də bilmirəm.

**D a d a ş** –Amma mən daşın hədəfə dəyəcəyinə inanıram.

**X ə l i l** –Mən inanmıram. Dadaş. Niyə inanmırsan?

**X ə l i** –Direktoru kənardan seyr elə, gör, bu hən-gamə onun vecinə gəlir? Bu bir. İkincisi, komissiyanın sədri təpərli adama oxşamır. Nədən ki, əsas məsələlərdən yan keçir, məktəbin fermasını - malqaranı yoxla-yır, üçüncüsü... deyilənə görə direktorun Bakıdakı qaynı bizim katiblə aşnadır.

**Z a k i r** –Hə... bu başqa məsələ! Mən bunu bilmirdim...

Komissiyanın Sədri gəlir.

**S ə d r** –Salam, yoldaş müəllimlər.

M ü ə l l i m l ə r ayağa qalxır. Tanış olaq, mən yoxlama komissiyasının sədriyəm.

**Z a k i r** –Xoş gəlmisiniz, mən Zakir müəlliməm, ədəbiyyat müəllimi.

**X ə l i l** –Mən riyaziyyat müəllimiyəm. Xəlil.

**D a d a ş** –Coğrafiya müəllimi Dadaş.

**S ə d r** –Çox gözəl. Yoxlamanı demək olar ki, qurtarmışıq. İndi müəllimlərlə söhbət eləmək istəyirəm.

**Z a k i r** –Buyurun, biz hazır.

**S ə d r** –İşləriniz necədir?

**Z a k i r** –Siz bizdən yaxşı bilərsiniz.

**S ə d r** –Mən bildiyimi bilirəm. İstəyirəm, siz də öz fikrinizi deyəsiniz. İndi bütün ölkədə köhnə işlərə yenidən baxılır. Siz də yəqin ki, məsələlərə təzə gözlə baxırsınız... İndi deyin görək, nə görürsünüz?

**X ə l i l** –Əvvəldən nə görürdüksə, elə onu görürük.

**S ə d r** –Tamamilə doğrudur. Məktəbinizdə bir dəyişiklik yoxdur. Bağışlayın, müəllim, adınız nə oldu?

**X ə l i l** –Siz məni düz başa düşmədiniz. Mən demək istəyirəm ki... Gözümüz elə əvvəlki gözdür, amma dünya dəyişir.

**S ə d r** –Dünyaya görə göz və fikir dəyişməlidir.

**Z a k i r** –Yoldaş sədr, siz gəlin, ilanı Seyidməmməd Əli ilə tutmağa çalışmayın. Siz deyin görək, məktəbə təzə gözlə baxıb, nə gördünüz?

**S ə d r** –Gördüyüm odur ki, göstəricilərə baxanda məktəbinizdə hər şey yerindədir. Mən məktəbə Birinci növbədə məktəb kimi baxıram. Sizdə demək olar ki, pis oxuyan şagird yoxdur. Qiymətlər də əla və yaxşıdır. Orta qiymət alan çox azdır. İkinci ilə qalan da yoxdur. Buna siz necə baxırsınız?

**D a d a ş** –Daha bunun necəsi yoxdur ki... Yaxşı işə necə baxarlar?

**S ə d r** –Çox yaxşı... Məktəbyanı təsərrüfata, məktəbin nəzdindəki mal və toyuq fermasına necə baxırsınız?

**X ə l i l** –Əla!.. Bilirsiniz, yoldaş sədr, bizim direktor çox təşkilatçı və təsərrüfatçı adamdır.

**Z a k i r** –Kişi anadangəlmə ispolkomdur. Tikib-qurmağına söz ola bilməz.

**D a d a ş** –Məktəb üçün bufet, idman zalı, üzgüçülük hovuzu tikdirib.

**X ə l i l** –Mal və toyuqçuluq fermaları.

**S ə d r** –Bu saydıqlarınız təhsilin keyfiyyətinə xələl gətirir, ya yox?

**Z a k i r** –Göstəricilərin yüksək olduğunu da özünüz dediniz.

**S ə d r** –Bəs imzasız məktub nə deməkdir?

**Z a k i r** –Orda nə yazılıb?

**S ə d r** –Çox şey.

**X ə l i l** –Məsələn.

**S ə d r** –Bir qrup müəllimin imzası ilə yazılıb ki, uşaqlar dərs oxumur, amma jurnallar yazılır.

**D a d a ş** –Böhtandır! Biz dərsimizi keçmişik.

**X ə l i l** –Yəqin yazan müəllimlər özləri dərs keçməyib.

**S ə d r** –Demək, sizin bu məktubdan xəbəriniz yoxdur?

**Z a k i r** –Qətiyyən! Bir də yoldaş sədr, siz, axı, niyə imzasız məktublara inanırsınız? İmzasız məktub yazmaq mənfur keçmişin qa-

lığıdır.

**S ə d r** –Bu lap doğru sözdür. Mən sizi başa düşdüm. Siz direktorunuzdan razısınız. Nə olar, çox yaxşı... Bir azdan yoxlanışın nəticəsini verərik sizin müzakirənizə, özünüz qərar çıxararsınız.

## İKİNCİ SƏHNƏ

Müəllimlər, direktor və komissiya üzvləri.

**S ə d r** –Yoldaş müəllimlər, komissiya işini qurtarmış, nəticəni sizin müzakirənizə verir. Yoxlamadan çıxan nəticə budur ki, imzasız məktubda yazılanların əksəriyyəti doğrudur. Belə ki, direktor məktəbi məktəblikdən çıxarmış, təsərrüfat sahəsinə çevirmiş, məktəb - bilik ocağı simasını itirmişdir. Belə ki, şagirdlərin bilik səviyyəsi son dərəcə aşağı olmasına baxmayaraq, direktorun göstərişi ilə qiymətlər süni surətdə şişirdilmişdir. Şagirdlər dərsdən çox təsərrüfatla məşğul olmuşlar. İndi yoldaş müəllimlər, bu məsələ barədə kimin nə sözü var?

**D i r e k t o r** –Mənə tutduğunuz bu nöqsan yeni məktəb proqramına ziddir.

**S ə d r** –Əmək tərbiyəsi o demək deyil ki, məktəbi kolxozun filialına çevirəsən. Məktəbdə mal və qoyun ferması saxlayasan. Hər şeyin əndazəsi var, yoldaş direktor. Hələ mən bəzi məsələlərdən yan keçir, onları əlaqədar təşkilatların sərəncamına verirəm. Bu gün səhər mən yoxlamanın nəticəsini raykomun katibinə bildirdim. Mənimlə razılaşdı. Bu qərara gəldik ki, direktor öz vəzifəsində qala bilməz. İndi söz sizindir.

**X ə l i l** –Nəhayət, bir düz-gün komissiyaya rast gəldik. Dadaş. Biz bunu çoxdan gözləyirdik.

**I m ü ə l l i m** –Doğrudur.

II müəllim. Ko-missiyanın qərarını alqışlayırıq.

**X ə l i l** –Yoldaş sədr, mən onu bilirəm ki, kolxoz kolxoz olar, məktəb də məktəb. Deyirsiniz, şagirdlərin bilik səviyyəsi aşağıdır. Olar da... Şagirdi dərs oxumağa qoyduq ki, o oxumadı.

**I I m ü ə l l i m** –Bizim məktəbdə şagirdə qiyməti məktəbyanı

sahədə necə işlədiyinə və özfəaliyyət dərnəyindəki çıxışlarına görə verilir.

**Zakir**–Bizim direktordan yaxşı ispolkom, yaxud da kolxoz sədri olar. Nədən ki, kənd təsərrüfatı institutunu bitirib. Zootexnikdir. Məktəbdə biologiyadan dərs deyirdi. Kolxoz sədri olmaq istəyirdi, qoydular məktəbə direktor, o da gözünə döndüyüm, mal-qarasız dayana bilmədi. Məktəbi elədi kolxoz ferması.

**Sədr**–Bunları vaxtında niyə demirdiniz?

**Xəlil**–Onu məktəb direktoru qoyanda bizdən soruşmuşdular ki, bizim sözümüzlə də çıxaralar?

**Direktor**–Çox sağ olun, ay müəllimlər, siz mənim yaxşı işlərimi də yerə vurursunuz. Bəs niyə onu demirsiniz ki, məktəbin gəliri ilə şagirdlər üçün nələr tikmişik. Həmin gəlirdən ehtiyacı olan uşaqlara yemək vermişik, paltar almışıq. Bunu məndən əvvəlki hansı direktor eləmişdi?

**Zakir**–Səndən əvvəlki direktor mən. Mənim dövrümdə şagirdlər kolxoza gəlmirdi, məktəbə gəlirdi. Ona görə də hər il bizim məktəbi qurtaran şagirdlərin azı 60 faizi ali məktəblərə qəbul olunurdu. Bəs indi necə? Son 3-4 ildə bircə şagirdimiz də ali məktəbə qəbul oluna bilməyib. Elə döyül?

**Direktor**–Məndən bu qədər narazı olduğunuz halda, bəs niyə üzümə tərifləyirdiniz?

**Sədr**–Bu düz sualdır. Üzünə deməməyinizi başa düşdük. Bəs niyə lazımi yerlərə çatdırmamısınız?

**Xəlil**–O, bu işləri məgər gizli eləyirdi ki, biz lazımi yerlərə çatdıraydıq?

**Zakir**–Bəs, aldığınız imzasız məktub nədir?

**Sədr**–İmzasız məktubun nə olduğunu bayaq özünüz demədiniz? İmzasız məktub mənfur keçmişin qalığıdır. Dədə-babamız yazı-pozu bilirdi ki, hələ bir imzasız məktub da yazaydı? Niyə bütün mənfi şeyləri keçmişin boynuna yükləyirsiniz? Siz bu günün adamı indi bir saat əvvəl dediyinizin tam əksini dediniz. Əgər imzasız məktub keçmişin mənfur qalığıdırsa, bəs iki-üzlülük nəyin qalığıdır? Xahiş edirəm, mənim bu

sualıma cavab verəsiniz.

**Z a k i r** –Əvvəla, mən bayaqkı söhbətimizdə sizə nə demişdimsə, indi də onu deyirəm. Bayaq demişdim ki, bizim direktor yaxşı təsərrüfatçıdır, yaxşı təşkilatçıdır. Yenə də onu dedim. İndi bircə şeyi əlavə elədim ki, bu təsərrüfatçılığı məktəbdə yox, kolxozda eləsin. (Üzünü Xəlil və Dadaş müəllimə tutur). Ay müəllimlər, belədir, ya yox? İkincisi, deyirsiniz, mən indi bir saat əvvəl dediyimin əksini dedim. Olmaz ki, bir saat əvəzinə 3600 saniyə deyəsiniz? Üçüncüsü, bir saat iki epoxanı bir-birindən ayırır. 24 oktyabr çar Rusiyası idi, 25 oktyabr Sovet Rusiyası oldu. Atalar da yaxşı deyib: Ölüm də qaşla göz arasındadır. Necədir sizinçün? Vəziyyətə və şəraitə görə əvvəlki fikrimə bircə söz də əlavə eləyəndə nə olar? Dediyimizi min yol danmışıq, bu da olsun min bir. Elə deyil?

**S ə d r** –Şəraitə görə rəngini dəyişən bu qələmunluq təəssüf ki, hələ də davam edir. Bu davam etdikcə qarşımızdakı dağları aşmaq çətin olacaq. Odur ki, biz burdan başlamalı, əvvəlcə bu xəstəliyin kökünü kəsməliyik.



# BUYNUZLU POÇTALYON

*(Qısametrajlı film üçün ssenari)*

Səhərdir. Günəş dağlar qoynunda yerləşən kiçik bir kəndə nur çiləyir. Quşlar budaqdan-budağa uçur.

Çiynində poçtalyon çantası cavan bir oğlan velosipedlə hara isə tələsir. Əli adlı bir gənc şən bir əhval-ruhiyyə ilə oxuya-oxuya gedir.

O, dəmir yolunun kənarına çatıb dayanır. Saatına baxır. Elə bu zaman uzaqdan qatar görünür. Teplovozun fiti eşidilir.

Poçt vaqonun arxa meydançasında əlində bağlama tutmuş bələdçi görünür. Qatar sürətini azaldır. Bələdçi qəzet və məktubla dolu selofan kisəni aşağı tullayır. Əli onu havada tutub uzaqlaşan qatarın dalınca bələdçiyə təzim edir. Sonra bağlamanı velosipedin üstünə aşırıb geriyə dönür.

Əli geniş yola çıxanda dağlara tərəf irəliləyən naxırla rastlaşır. Naxırçı Qurban malları elə sürməyə çalışır ki, poçtalyonun yolunu kəsməsinlər.

- Sabahın xeyir, Əli, yenə səhər-səhər bu əcəl dayçasının belində hardan gəlirsən?

- Aqibətin xeyir olsun! Məhəbbət yükúdür, daşıyıram.

O, velosipedlə naxırı yarıb keç-mək istəyəndə Qurban onun qolundan yapışıb dayandırır.

- Ə, nə tələsirsən, yağın daşmır ki? Əli dayanır.

- Ə, məhəbbət dedin, bir şey yadıma düşdü.

**Əli:**

- Nədir elə?

- Gözün aydın, Gülnaz qayıdıb atası evinə.

- Nə Gülnaz?
- Şaban kişinin qızı, dayna.
Əli gözlərini onun ağzına zilləyir.
- Hardan bilirsən?
- Elə indicə təpəl camışı o sürdü naxıra.
- Bəlkə dədəsigilə gəzməyə gəlib?
- Sənin canın üçün yox. Arvadlar öz aralarında danışırdılar ki, boşanıb, tamam-kamal yığışıb gəlib. Gözlərin aydın olsun!
- Daha bunun nəyinə gözaydınlığı verirsən?
- Bə sənin gözün onda döyüldü?
- O vaxtlar keçdi, Qurban, dişlənmiş tikə kimə lazımdır?
- Sarsaqlama, ayə, bir vaxtlar onun dərdindən ölmürdün?
Qurban malları hovlayıb getmək istəyəndə Əli arxadan onu tutur:
- Görəsən, çoxdan qayıdıb atası evinə?
- Bir ay olar. Utandığından üzə çıxmırmış. Ə, bura bax, uşaq olma, elə gözəl qızı əldən buraxmaq olmaz. Sən öl, mənə gəlsəydi, uça-uça alardım. Amma bilirəm ki, onun gözü səndədir.
Əli köksünü ötürür:
- Şaban kişi deyir ki, iti görüm, qurdu görüm, Əlini görməyim.
- Niyə belə öc düşüb səninlə?
- Əşi, bir dəfə onu "dana Şaban adlandırmışdım, kimsə qulağına çatdırıb.
- Sən də dilini dinc saxlaya bilmirsən də. Yaxşı, mal uzaqlaşdı. Mən getdim.
Qurban çomağını çiyninə qoyub gedir. Əli velosipedə söykənib papiros yandırır, bir qüllab vurur, sonra velosipedi itələyə-itələyə yola düzəlir. Bir qapının önündə dayanıb əvvəlcə qapının arasından, sonra isə çəpərin üstündən boylanıb həyətə baxır.
Ev qapısı açılır, yaşlı bir kişi pilləkənlə həyətə enir. Onun arxasınca bir arvad qapıdan boylanır.
**A r v a d :**
- Ay Şaban, gör mağazada bir dənə nağıl kitabı olsa, al gətir. Gülnaz ürəyi darıxanda oxuyar.
**Ş a b a n :**

- Bəs keçən həftə aldığım nə idi?

O balacalar üçün idi. Sən böyüklər üçün nağıl istə.

- Sizə nağıl yox, ağıl lazımdır. Onu da bazarda satmırlar, alam gətirəm. Mən gələnə kimi döşəklərin yununu töküb çırparsınız, analı-balalı həyət-bacanı süpürərsiniz, çəpərin altındakı su yoluna da tikandan-zaddan qoyun. Bədəlin quduz dəymiş iti keçib çolpaları yeməsin.

**A r v a d** *(astadan)*:

- Sənə "dana ləqəbi qoyanın dilinə qurban olum.

**Ş a b a n :**

- Nə dedin?

**A r v a d** *(özünü itirmiş halda):*

- Deyirəm, toyuqdan, qoyundan, danadan bir şey alaydın, qurban demişdim.

- İştahan pis deyil. Pul kəsirəm sizinçün? Gəl qapını bağla!

Əli dərhal velosipedə minib yola düzəlir.

Kadr dəyişir. Əli kənd poçtxanasında oturub məktub və qəzetləri ünvana görə ayırır. Məhluqə də ona kömək eləyir. O, saplanmış iynə ilə hər məktubun ucunda ilgək düzəldir. Əli isə onları alıb iki yerə ayırır. Məktubların bir hissəsini stolun baş tərəfinə, bir hissəsini isə ayaq tərəfinə qoyur.

**M ə h l u q ə :**

- Əfəl Məmmədin oğlundan gələn məktubu hara qoyursan?

**Ə l i :**

- Məmməd Əfəl olsa da, oğlu əsgərdir, Məhluqə, onun məktubu başda getməlidir.

- Donqa Həmidin məktubunu də götür.

- Bu da başda getməlidir. Yaxşı kişidir. Bakıda xəstəxanada yatır.

- Bu məktub da zoğal Abbasındır.

- Bu saat baxım adresinə. Volqoqraddandır. Başı tərəzidən ayrılmir indi. Alvernən məşğuldur. Əsl quyruq məktubudur.

- Zındıq Hüseynin məktubu da hazırdır.

- Ötür bəri. Zalım oğlu, orabura şikayət yazmaqdan yorulmadı. Doğru olsaydı, yenə məni yandırmazdı. Milçəkdən fil düzəldənlərdəndi. Quyruğa bağlanmalıdı belə məktub.

- Törə Salamdan da məktub var.

- Yaxşı adamdır. Kənddə yaşayır, şəhərdə işləyir. Mütləq buynuza bağlanmalıdır.

* * *

Musiqi. Pantomima. Onlar nə isə danışa-danışa işləyirlər. Əli məktubu gah bir qalağın, gah da o biri qalağın üstünə atır. Sonra Əli qoltuq cibindən üstü yazılmamış bir məktub da çıxarar.

**M ə h l u q ə :**

- Bu nədir, sən də anonimşik olmusan?

- Ağluvu başuva yığ, aaz, anonim məktubda göndərənin adı olmasa da, göndərilən adres olur.

- Bəs bu nə məktubdur ki, sən mənə ip bağlatdırırsan?

- Tutalım, mən bir dostuma zarafat məktubu yazıram, olmaz? Niyə hər şeyə qarışırsan?

- Nə deyirəm.

Əli çevrilib məktubu stolun üstünə qoyur, cibindən qələm çıxarıb onun üzərinə: "Məktub çatacaq Gülnaz xanıma sözlərini yazır". Əlinin çiyni üstündən oğrun-oğrun boylanan Məhluqə:

- Bəh, bəh, sənin Gülnaz xanımla zarafatın varmış, bunu əvvəldən niyə demirdin? Bəxtəvər başımıza!

Əli məktubu cəld qoltuq cibində gizlədir.

**M ə h l u q ə :**

- Yoxsa, Gülnazda gözün var? Ay fərsiz, Gülnaz dost-doğmaca xalası oğlunun evini belə tikdi, qurtardı, sənin üçün də mərmər saray ucaldacaq.

**Ə l i :**

- Sən belə işlərə qarışma, məhəbbət məsələsində stajın yoxdur. Heç kimə də ağıl öyrətmə, bildin?

* * *

Axşamüstü. Hava qaralır. Mal naxırdan qayıdır. Kəndin girəcəyində Əli velosipedini ağaca söykəyib boynunda məktub dolu çanta malqaranın yolunu kəsir. Naxırçı Qurban da gəlib ona yetişir.

- Qurban, mənə kömək elə, poçtu vaxtında camaata çatdıraq.

- Sən də bu hoqqadan əl çəkmədin də; Altında velosiped aparıb məktubları paylaya bilmirsən?

- Sənin canın üçün, Qurban, kəndin aşağı başındakı küçələrdən velosiped deyirsən, heç tankla da keçmək olmaz.

Əli bir camışın boynunu qucaqlayır.

- Qurban, kömək elə, dana Şabanın məktubunu camışın buynuzuna keçirim. Ay yiyəsi ölmüş, dayan görək də.

Əli məktubu camışın buynuzuna keçirir, sonra əyilib heyvanın gözlərindən öpür.

- Sənə həsəd aparıram,ay Mərcan camış. Sən Gülnazı məndən qabaq görəcəksən. Əgər dilin olsaydı, tapşırardım, mənim salamımı da ona yetirəsən (camışın qarşısında diz çökür). Əgər şüurun olsaydı, qarşında beləcə diz çöküb yalvarardım ki, həyətə girən kimi bir-başa Gülnazın yanına get, məktubu qoy o götürsün.

Mal qabağına çıxmış Məhluqə arxadan gəlib Əlinin qulağından yapışır:

**M ə h l u q ə :**

- Qalx ayağa ə, səkkiz ildir bir yerdə işləyirik, indiyə kimi qabağımda diz çökməmisən, indi camışın önündə diz çökürsən?

**Ə l i** *(qalxır):*

- Yarın camışına bu canım da qurbandır, Məhluqə.

- Yaxşı deyiblər, mal yiyəsinə oxşayar. Elə sənin yarın da bu camışın tayıdır. Dərisi ondan qalın olar ki, nazik olmaz.

Məhluqə öz inəyini çubuqlaya-çubuqlaya aparır. Əli cəld o biri məktubları inəklərin ya başına, ya da quyruğuna bağlayır.

- Ə, Mərəz Salmanın təkbuynuz inəyi gözümə dəymir.

**Q u r b a n :**

- Qocalmışdı, verdi ət hazırlığına, əvəzinə o boz düyəni alıb.

- Əli məktubu düyənin quyruğuna bağlayır.

- Yoldaş düyə, indi olursan ictimai əsaslarla mənim köməkçim. İtirsən, canını alaram.

Əli məktubları “paylayıb qurtarır. Sonra velosipedə minib uzaqlaşan naxırın arxasınca tərpənir. İnəkləri, camışları arxada qoyub Gülnazgilin çəpərinə yanaşır. Velosipedi yolun o tərəfində qoyub, camışın

gəlişini gözləyir.

Bir oğlan ona yanaşır:

- Əli, qaqaşımdan məktub yoxdur?

- Var, inəyiniz indicə gətirəcək.

**O ğ l a n :**

- "Var - deyən dilinə qurban olum, ay Əli.

Naxır həyət qapısının qarşısından ötüb keçir. Alnında məktub olan Mərcan camış naxırdan ayrılıb Gülnazgilin açıq qapısından həyətə keçir.

**Ə l i :**

- Get, qədəmlərinə qurban olum. Kaş məktub Gülnazın əlinə keçəydi. Dana Şabanın əlinə düşsə, qanım getdi. Sən heyvan olsan da, qanacağın, mərifətin Şabandan artıqdır. Camış olanda nə olar, ürəyin ondan qat-qat nazikdir.

Kadr dəyişir. Yaşlı bir qadın kəndirlə camışın boynunu bağlayır. Bu, Gülnazın anası Fatmadır. O, məktubu görür.

- Gözün aydın, Şaban, Məhəmmədəli barışıq istəyir.

- Hardan bildin, ay Fatma?

- Budur ey, camışın buynuzundan məktub açmışam. Üstündə də yazılıb ki, məktub çatacaq Gülnaz xanıma.

- Gözümün biri xəbərçi, biri də muştuluqçu. Cəhənnəmə məktub yazıb. Yüz il yüz ilə qala, onunla barışan deyiləm.

- Elə demə, ay Şaban, cavandırlar. Küsərlər də, barışarlar da. Səninlə az küsüb barışmışıq? Yadındadırmı, bir dəfə acıq eləyib getmişdim atam evinə, yumurtası tərs gəlmiş toyuq kimi düz bir həftə çəpərimizin gah bir tərəfindən boylanırdın, gah da o biri tərəfindən.

- Ay sənin başın üçün, rəhmətlik dədən minnətçi salmasaydı, sənin daşını həmişəlik atmışdım.

- Bura bax, ay kişi, köhnə palan içi eşmə. Görək hələ Gülnaz özü razı olacaqmı geri qayıtmağa.

Kadr dəyişir. Fatma əli əsə-əsə o tərəf bu tərəfə boylanıb tək otaqda məktubu açır və öz-özünə deyinir:

- Ay köpək oğlu, indi ki, itim kimi yalvaracaqdın, daha bu atdanıb-düşmək nə idi? Məktubu açıb oxuyur:

"Əzizim, canım, ciyərim Gülnaz. Kənara:

- Yalansa dilinə qara yara çıxsın, bunun dil tökməyinə bax!

Yenə oxuyur:

“Səni nə qədər sevdiyimi bircə o başımızın üstündə olan Allah bilir.

**K ə n a r a :**

- Yalansa Allah belindən vursun!

Oxuyur:

“Mən bilirdim səni zorla qohumuna nişanladılar, zorla ərə verdilər

**K ə n a r a :**

- Nə? Nə? Zorla ərə verdilər? Yox, Məmmədəli belə məktub yaza bilməz.

**G ü l n a z** daxil olur:

- Nədir, ay məmə, kimdəndır bu məktub?

**A n a s ı :**

- Nə bilim hansı köpəkoğlundandır, heç imzasına baxmamışam. (baxır). Əli? Bu hansı Əlidir belə?

**G ü l n a z** *(məktubu onun əlindən qapır).*

- Ay məmə, özgəsinin məktubunu oxumazlar, axı...

- Nə? Özgəsinin? Deməli, biz özgə olduq? Ver bəri kağızı görüm.

**Q ı z** *( qonşu otağa qaçır).*

**F a t m a** əlində boş zərf Şabanın üstünə qaçır:

- Mən də deyirəm, əri peşimanlayıb, məktub yazıb. Heç demə kağız başqa adamdan imiş.

- Kimdən, arvad?

- Hər kimdisə, adı Əlidi.

- Bəlkə elə Məhəmmədəlidəndi. Tənbəllik eləyib, adını bütöv yazmağa.

- Yox, ay kişi, Məhəmmədəli deyil. Hər kimdisə, kağıza yazıb ki, “yaxşı eləyib ərindən boşandın.

- Hanı o kağız?

- Gülnaz əlimdən qapıb qaçdı.

- Görəsən hansı Əlidir o? Yoxsa, mənə şəbədə qoşan köpəkoğludur. Ver konvertə baxım *(alıb baxır).* Özüdür ki, var. Görmürsən, üstündə poçtun ştempeli yoxdur. Mən bilirəm onun cavabını necə vermək lazımdir.

- Onun da buynuzu içində imiş ki...

* * *

Kadr dəyişir. Səhərdir. Şaban kişi camışı həyətdən çıxarıb naxıra qoşur. O, boş zərfi camışın buynuzuna keçirir.

- Apar, soxsun gözünə.

Adətən kənddə mal naxırdan evlərə qayıdanda onların buynuzunda, ya da quyruğunda məktub, qəzet olardı. İndi Şabanın təpəl camışı buynuzunda məktub evdən naxıra tərəf addımlayır. Küçələrdən keçən təktək adamlar buynuzu məktublu təpəl camışa baxıb gülümsünürlər. Təpəl camış təpənin üstündən Gülnazgilin həyətinə boylanan Əliyə yaxınlaşır. Sanki buynuzundakı məktubu ona göstərib geri qayıtdığını xəbər verir. Əli məktuba baxıb qüssələnir:

- Bu niyə qayıtdı, ay təpəl? Gülnazın özünə vermişdin məktubu, yoxsa o danaya?

Camış böyürür...

- Başa düşdüm. O dana oğlu danadır bu işlərin baisi. Görürsən, yenə də bəddiyindən əl çəkmir. İndi mən neyləyim?

Bu zaman Gülnaz həyətdən çıxıb təpə yuxarı dırmaşır. Əliyə çatıb dayanır. Bir müddət bir-birlərinə baxıb susurlar.

Təpəl camış lap yaxınlaşıb onlarla yanaşı dayanır.

*Aprel 1987*





# QİSAS

***(Qısametrajlı film üçün ssenari)***

*Ucqar bir dağ kəndi. Axşam düşür. Quşbaşı qar yağır. Panoramla kəndin mənzərəsi canlanır. Evlərin damları, çəpərlər, yollar qar içindədir. Damların bacalarından burum-burum tüstü ucalır. Hava qaraldıqca evlərdə yavaş-yavaş lampalar alışır. Arabir it hürüşməsi, dağlardan canavarların ulaşması eşidilir. Birdən yuxarı başdan - dağlar tərəfdən gurultu eşidilir. Gurultu kəndə tərəf yaxınlaşdıqca güclənir, dəhşətli bir uğultuya çevrilir. Bir neçə anlığa kəndi sükut bürüyür. Sonra kəndin hər tərəfindən hay-küy qopur.*

**S ə s l ə r** – Ay Sadıq baba, nə haydır?

**S a d ı q** – Tükəz qarının evi uçub.

*Camaat əllərində məşəllər evlərdən çıxıb gurultu gələn tərəfə yüyürüşür. Tükəz qarını uçmuş evdən çıxarıb kəndin ağsaqqalı Sadıq kişinin evinə aparırlar.*

*Səhərdir. Tükəz qarının uçmuş evinin ətrafında adamlar qaynaşır. Kimisi arabadan daş boşaldir, kimisi qucağında taxta daşıyır, kimisi şüşə və s. Kəndin ağsaqqalı Sadıq kişi adamların ortasında görünür. Onlara məsləhətlər verir, evin yenidən tikilməsi üçün camaatın gətirdiyi şeyləri nəzərdən keçirir.*

*Üzünü ustaya tutur:*

– Başlaya bilərsən?

– Sement çatmır. Palçıqla da olmaz. Bura seltutandır.

**C a v a n l a r d a n b i r i :**

– Olmaz ki, evi o yanda, seltutmayan yerdə tikək?

**A ğ s a q q a l** – Yox, ay bala. Tükəz qarı öz yurdundan bir addım kənarda razı olmaz. Onun bütün ömrü-günü burda keçib.

*Hamı bir-birinin üzünə baxır. Cavanlardan biri çıxış yolu tapmış kimi sevinərək deyir:*

– Musa kişidə sement var.

– Hardan bilirsən?

– Bilməsəm deməm.

**A ğ s a q q a l** – Get ona deginən ki, Sadıq babam deyir, nə qədər sementi var, versin, işimiz yarımçıq qalmasın. Özü də görür ki, yolları qartar bağlayıb. Şəhərə gedib-gəlmək mümkün deyil. Yazbaşı Allah qoysa, sementini mən özüm əlimlə qaytararam, arxayın olsun.

*Cavan oğlan gedir. Evin ətrafına toplaşmış adamlar hörgüyə hazırlıq görürlər. Kimisi uçmuş divarların daşlarını bir yerə toplayır, kimisi qapı-pəncərə çərçivələrini ölçür.*

**U s t a** *( mişarla taxtanı kəsə-kəsə öz-özünə deyinir):*

– Musa kişi yaralı barmağı sarıyan adam deyil. Yüz bəhanə tapar, bir çöp də verməz.

*Bu vaxt sement üçün getmiş oğlan əliboş qayıdıb gəlir. Sadıq kişi təəccüblə soruşur:*

– Ay oğul, nə oldu?

– Vermədi.

– Necə yəni vermədi?

– Dedi ki, yazbaşı oğluma ev tikdirəcəyəm.

– Bəs sən demədin ki, yazbaşı qaytaracağıq, bu saat görmür ki, yolları qar bağlayıb?!

– Əşi dedim ey! Deyir ki, oğlumun adına almışam, vermirəm, vəssalam.

*Sadıq kişi cibindən tənbəki çıxarıb qəlyanını doldurur. Dərindən bir qüllab vurub deyir:*

– Bu nə danışır ə?! Tüpürüm onun adamlığına. Qoy durum özüm gedim.

*Sadıq kişi oturduğu kötüyün üstündən qalxıb getmək istəyir. Bayaqkı cavan oğlan yaxınlaşıb Sadıq kişinin qolundan yapışır:*

– Ay Sadıq baba: zəhmət çəkmə! O nə adamdır ki, onun ayağına

gedəsən. İndi ki, belə oldu, sementi mən özüm taparam.

*Sadıq kişi ayaq saxlayır:*

– Ay bala, itməyib ha, tapasan. Bu qarda-boranda hardan tapacaqsan?

– Orasını mən özüm bilərəm, sabah tezdən sement burda olacaq. Adamlar dağılışır.

*Tükəzqarının yatdığı otaq. Ortalığa qoyulmuş çıraq ətrafa zəif işıq salır. Qarının ətrafina arvad-uşaq toplaşmışdır. Bir tərəfdə soba qurulmuşdur. Tükəzqarını yoluxmağa gələn kişilər isə bir tərəfdə əyləşmişlər. Sadıq kişi içəri daxil olur. Salamlaşdıqdan sonra çırağın işığını bir az artırıb üzünü Tükəzqarıya tutur.*

– Nə təhərsən, ay qarı?

*Qarı cavab vermir. Sadıq kişi Tükəzqarının ətrafindakı qadınlardan soruşur:*

– Ay uşaq, çaydan-çörəkdən nə yeyib-içib bu qarı? (sükut). Niyə dinmirsən, ay arvad?

– Dinim nə deyim, ay Sadıq, bir daxmam var idi, onu da dəli tanrı vurdu uçurdu.

– Fikir eləmə, sənə elə bir ev tikəcəyik ki, baxan desin, bir də baxım.

* * *

*Gecə... Musa kişinin həyəti. Ala köpək uzun zəncirini sürüyərək, həyətdə o baş-bu başa qaçır, üzünü gah hasara tərəf, gah da həyətdəki iri ağaca tərəf tutub hürür.*

*Qol-budaqlı ağacın iri bir budağı hasarın üstündən bayıra keçmişdir. İt hürdükcə ağacdan bir səbət sallanır. İt səbətə sarı cumur. Səbətin içərisində sümük olduğunu hiss edib özünü səbətə atır. Bu zaman kəndır yuxarıya dartılır, it səbətlə birlikdə yuxarı qalxır. Köpək zingildəyərək səsini kəsir. Qaranlıqda silueti görünən bir adam ağacdan yerə tullanır. Dayanıb ətrafi dinləyir. Sonra pəncəsinin ucunda sinə-sinə tövləyə yaxınlaşır. Bir az keçmiş çiynində ağır bir kisə ilə qayıdır. Kisəni hasardan o yana aşırıb geri dönür. Bu iş bir neçə dəfə təkrar olunduqdan sonra həmin adam qaranlıqda hasardan aşıb gözdən itir.*

*Tükəzqarının uçuq daxmasının yerində adamlar qaynaşır. Qız-*

*ğın iş gedir. Evin divarları ağlı-qaralı daşlarla xeyli ucalmış, qapı-pəncərələrin çərçivələri qoyulmuşdur. Cavanlar sementə su qatıb qarışdırır, ustaya daş verirlər. Usta əlində çömçi daş düzür, hörgünü nizamlayır. Onların arasında işə nəzər yetirən ağsaqqal görünür. Bu vaxt hay-küy qopur.*

– "Vicdansızlar!, "Əclaflar!, "Oğrular! - deyə çığıra-çığıra aralığa bir adam soxulur. Onun üz-gözündən qəzəb yağır. O, dəli kimi hörgünü təpikləyib uçurur, çərçivələri dartıb kənara tullayır. Adamlar onun əl-qolunu tutub sakitləşdirməyə çalışırlar. O, daha da özündən çıxıb indi də sement kisələrinə tərəf cumur. Sementin tozu havaya sovrulur, adamların üst-başını, üz-gözünü bulayır.

*Ağsaqqal üzünü ona tutur:*

– Ay Musa, nə olub? Nə hay-küy salmısan, başına hava gəlməyib ki?

– Əyə, bizi saymırsan, sayma, ağsaqqalı da gözün seçmir?! Başından yekə sözlər danışırsan? - deyə usta onu danlayıb sakitləşdirməyə çalışır.

*Musa daha da özündən çıxır:*

– Ondan ağsaqqal olar? Ay onun saqqalına...

*Bu söyüşü eşidən cavanlar Musanın üstünə yeriyib onu döymək istəyirlər. Bu vaxt qoca əlini atıb yerdən baltanı götürərək qışqırır:*

– Çəkilin belə! Görüm o mənim saqqalıma necə söyür.

*Cavanlar əl saxlayıb, dayanır. Sadıq kişi əlində balta hirsindən əsə-əsə Musanın üstünə yeriyir. Bu vaxt Tükəzqarı qaranəfəs özünü yetirib yaylığını Sadıq kişinin ayağına atır.*

– Qurban olsana Tükəzin ağ birçəyinə. Amma onu bil ki, qanın bahası söz danışdın. Bu qisası səndə qoymayacağam.

Sadıq kişi baltanı kənara atıb aralanır.

***

*Bahardır. Dağlardan sellər axır... Meşələr göyərib. Kol dibində bənövşələr baş-başa verib. Quşların nəğməsi eşidilir. Panorama ilə kənd görünür. Qarının uçuq evinin yerində ağlı-qaralı daşlarla naxışlanmış bir ev tikilmişdir. Qarı nənə həyətdə toyuq-cücələrə dən verir.*

*Kənd yolu ilə sement kisələri dolu bir araba gedir. Arabanın üstündə Musanın tövləsindən sement oğurlayan cavan əyləşmişdir... Araba Musanın darvazası qabağında dayanır. Cavan oğlan arabadan dü-şüb təpiyi ilə darvazanı açır. Kisələri çiyninə götürüb bir-bir darvazadan içəri tullayır. Səsə Musa çıxır:*

– Bu nədir?

**C a v a n :**

– Sənin əmanətİndir, qaytardıq. İndi qaldı söyüşün.

*Cavan oğlan arabaya minib atları haylayır. Araba gəldiyi yolla geri qayıdır.*

*Sadıq kişinin həyəti. Sadıq kişi həyətdə əyləşib fikrə getmişdir. Onun baxışları dağların arxasında qürub edən günəşə dikilmişdir. Birdənbirə onun əhvalı dəyişir.*

*Yolun kənarındakı ağacın altında dayanan Sadıq kəndə tərəf boylanır. Uzaqdan bir araba görünür. Araba yaxınlaşdıqca Sadıq ağacın kötüyü arxasında yerini rahatlayır, tüfən-gini yola tərəf tuşlayır. Sadığın uzandığı yerə beş-altı addım qalmış birdən arabanın təkəri oxdan çıxıb diyirlənir. Araba aşır, üstündəki taylar yerə düşür. Musa "ay zəhrimar deyib yerə" enir, diyirlənən təkərə tərəf qaçır. Sadıq ağacın arxasına keçir. Musa təkəri gətirib oxa tuşlayır. Çiynini oxun altına verib arabanı qaldirmaq istəyir, nə qədər güc gəlirsə, araba qalxmır. Bir də güc verir. Araba yerindən balaca dəbərir, bu zaman təkər yenidən kənara diyirlənir. Musa arabanın altından çıxır. Təkəri gətirib yenidən oxa tuşlayır, əvvəlki vəziyyət yenidən təkrar olunur, yenə təkər kənara diyirlənir. Bir şey çıxmır. Musa əlacsız qaldığını bildirən hərəkətlə başını yel-lədir. Bu zaman Sadıq tüfəngini kənara qoyub ağacın arxasından çıxır. Musaya tərəf gəlir. Sadığı görən Musa diksinib geri çəkilir. Sadıq dinməz-söyləməz arabanın altına girir. Musa heyrətlə Sadığı süzür. Sadıq arabanın altından başını qaldırıb qışqırır:*

**S a d ı q :**

– Nə gözünü döyürsən, təkəri taxsana.

*Musa elə bil birdən yuxudan ayı-lır, təkəri gətirib oxa keçirir. Sadıq arabanın altından çıxır. Musanın üzünə baxmadan bayaq arxasında*

*gizləndiyi ağaca tərəf gedir. Musa yerindəcə donub neyləyəcəyini bilmir. Sadıq tüfəngini çiyninə salıb Musaya tərəf dönür:*

– Adam adama dar ayaqda kömək əlini uzatmalıdır. Ona görə də bu məqamda sənə toxunmadım. Çıx get bazarına. Haqq-hesabımız qalsın sonraya, - deyib düşür yolun ağına. Kəndə tərəf addımlayır.

*Musa Sadığın arxasınca baxa-baxa qalır. Birdən ona tərəf qaçır. Sadıq arxaya çevrilir. Bir müddət dinməzcə dayanıb bir-birinə baxırlar. Birdən Musa Sadığın üstünə atılıb onu qucaqlayır, əlindən öpür.*





# QƏLYAN

***(Radiopyes)***

İŞTİRAK EDƏNLƏR:

**Ə k r ə m** – pək fabrikində fəhlə.
**M ü d i r** –gülləmə sexinin müdiri.
**M ü a v i n** –sex müdirinin müavini.
**Q a d ı n**–sex müdirinin arvadı.
**M i l i s r ə i s i.**

BİRİNCİ ŞƏKİL

M i l i s r ə i s i n i n otağı. Telefon aparatında işıq yanır.
R ə i s d əstəyi götürür.

**R ə i s** –Bəli. eşidirəm.

**N ö v b ə t ç i** –Yoldaş rəis, sizi bir nəfər görmək istəyir. Deyir...

**R ə i s** –Bilmirsən ki, məşğulam?

**N ö v b ə t ç i** –Bilirəm, ancaq bu adam əl çəkmir, həm də qəribə sözlər danışır. Deyir, rəisi indi görməliyəm.

**R ə i s** –Yaxşı, burax gəlsin. *(Əkrəm əlində bir bağlama daxil olur).* Buyurun, eşidirəm.

**Ə k r ə m** –Bilmirəm, hardan başlayım?

**R ə i s** –Qurtardığın yerdən.

**Ə k r ə m** –Elə mən də ordan başlamaq istəyirəm. Amma gərək əvvəlcə tanışlıq verəm ki, sonrakılar aydın olsun.

**R ə i s** –Buyur.

**Ə k r ə m** –Mən fəhləyəm.

**R ə i s** –Çox əcəb, harda?

**Ə k r ə m** –Fabrikdə.

**R ə i s** –Hansı fabrikdə?

**Ə k r ə m** –İpək fabrikində, gülləmə sexində.

**R ə i s** –Sonra?

**Ə k r ə m** –Bizim sexin müdirini yəqin ki, tanıyırsınız?

**R ə i s** –Nədən bilirsən ki, tanıyıram?

**Ə k r ə m** –Bu balaca şəhərdə onu tanımayan yoxdur. Ləqəbi də var, əsginas Məmiş.

**R ə i s** –Hə, tanıyıram.

**Ə k r ə m** –Onun bir yaxşı həyətyanı sahəsi var.

**R ə i s** –At arabası necə?

**Ə k r ə m** –Arabası yoxdur, amma maşını var.

**R ə i s** –Sonra?

**Ə k r ə m** –Sonrası odur ki, bir iş yoldaşım var, yaxşı bağbandır. Onu bağçasında işlətdirir, fabrikin hesabına.

**R ə i s** –Hə... Ondan nə desən çıxar. Fəhlələrdən hansısa gərək ki, onu iclasda yaxşıca islatmışdı.

**Ə k r ə m** –Bəli, bəli, bax, həmən o fəhlə mən idim... Onun üstünə tökdüyüm su. qayıdıb özümü islatdı.

**R ə i s** –Necə?

**Ə k r ə m** – O cür ki, o əhvalatdan heç on gün keçməmiş mənə şər atdı, guya mən oğruyam.

**R ə i s** – Necə şər?

**Ə k r ə m** –Gül vuranda parçanın altına bez salırıq. O bez rəngə bulaşır, heç nəyə yaramır. Ondan bir parça götürmüşdüm, evdə qab dəsmalı eləmək üçün. Məni tutdurdu, töhmət verdirdi.

**R ə i s** – Sonra?

**Ə k r ə m** – Bu gün onun bağçasında işləyən yoldaşımın vacib işi vardı. Mənim də istirahət günümdü. Məndən xahiş elədi ki, onun əvəzində bağçada ağacların dibini yumşaldım. Getdim. Bağçanın qapısını açmışdım ki, gördüm bir nəfər, iki əlində də bağlama durub. Elə bildim müdirin qohumlarındandır. Salam vermişdim ki, kişi bağlamanın birini yerə atıb götürüldü.

**R ə i s** –Bəs evlərində heç kəs yox idi?

**Ə k r ə m** –Yox, evlərində kim var ki? Bir arvaddı, o da ki, işdə... Hə, qaçanın dalınca götürüldüm, amma tuta bilmədim, qayıdıb yerdəki bağlamanı götürdüm, gəldim bura.

**R ə i s** *(bağlamanı göstərir)*–Budur?

**Ə k r ə m** –Bəli.

**R ə i s** –İçində nə var?

**Ə k r ə m** –Bilmirəm.

Bağlamanı açırlar. Xeyli pul, ipək parçalar və bir qızıl qəlyan çıxır.

**R ə i s** –Pulu say.

**Ə k r ə m** –Öyüvəcən, bu qədər pulu neyləyirmiş.

**R ə i s** –De ki, necə yığıb?

**Ə k r ə m** –Necə yığdığı məlumdur. Özü də min-min çinləyib bizi zəhmətə salmamaq üçün. On yeddi min. *(Pulu masanın üstünə atır.)* Adamın əlini yandırır.

**R ə i s** – Niyə?

**Ə k r ə m** – Bu, bizim zəhmətimizdən oğurlanan manatlardır... Amma gərək oğru aparaydı.

**R ə i s** – Niyə?

**Ə k r ə m** – Oğrudan oğruya halaldır.

**R ə i s** –Onda bura gətirməyəydin, aparıb özünə verəydin.

**Ə k r ə m** –Gətirdim ki, mənə oğru ləkəsi vuranın özünün oğru olduğunu ona göstərim.

**R ə i s** – Onu bacarmayacaqsan.

**Ə k r ə m** – Niyə? Bu boyda zırıltını da dana bilər?

**R ə i s** –Lap o yana da keçər.

**Ə k r ə m** – Necə danacaq?

**R ə i s** – Əvvəl sən ona sübut elə ki, bunlar onun evindən oğurlanıb.

**Ə k r ə m** –Bəs hardan oğurlanıb?

**R ə i s** – Bilmirəm.

**Ə k r ə m** – Pah atonnan.

**R ə i s** – Bəli... Bu hüquqi işdir, burda sübut lazımdır. O deyə bilər ki, bunlardan xəbərim yoxdur. Mənə böhtan atırlar.

**Ə k r ə m** – Yəni, ona sübut eləmək olmaz? Bəs bu qədər dövləti

gedən milisə xəbər eləməyəcək?

**R ə i s** – Bu dövlət, məgər özününkü idi ki, haray-həşir qopartsın?

**Ə k r ə m** –Pah atonnan! Daha mənim sözüm yoxdur...

## İKİNCİ ŞƏKİL

Sex müdirinin evi... Evin altı üstünə çevrilib. Dolablar, siyirtmələr açılıb, tökülüb. M ü d i r i n  a r v a d ı otaqda var-gəl edir.

**Q a d ı n** – Bu nə iş idi başımıza gəldi. İndi biz neyləyək?.. Hara xəbər eləyək?..

Müdir hövlnak daxil olur.

**M ü d i r** – Nə olub? Telefonda elə qışqırdın ki, dedim, görəsən, nə var?

**Q a d ı n** – Görmürsən? Görmürsən ki, evin altını üstünə çövürüblər?..

**M ü d i r** – Kim?

**Q a d ı n** – A kişi, bəs görmürsən ki, evi yarıblar?

**M ü d i r** – Yarıblar?

**Q a d ı n** – O fəhləni sən bura göndərəndə...

**M ü d i r** – Fəhlə? Yox, ola bilməz. Nə aparıblar?

**Q a d ı n** – Hamısını.

**M ü d i r** – Onu da?

**Q a d ı n** – Bəs nə? Evimiz yıxıldı.

**M ü d i r** *(divardan asdığı qəlyan kolleksiyasına baxır)*– Qızıl qəlyanı da?

**Q a d ı n** – Bəli...

**M ü d i r** – Evin yıxılsın, evimizi yıxan.

**Q a d ı n** – De dur, belə oturmaq olmaz. Gör, bir, neyləyirsən?

**M ü d i r** – Neyləyəcəyəm?

**Q a d ı n** – Oturub üzümə baxacaqsan?

**M ü d i r** – Arvad, haray salma, bizim evimiz yarılmayıb. Heç nəyimiz də oğurlanmayıb...

**Q a d ı n** – Ə... sən nə danışırsan? O pulun hər manatı üstündə ömrümüz yanıb... Nə əziyyətlə qazanmışıq.

**M ü d i r** – Arvad, özünü qatma...

**Q a d ı n** – Bəs mən qazanmamışam?

**M ü d i r** – Qazandıqların əynində... Sus, danışma, qonşular da bilməsin. Qohum-qardaşa da demə... Dərdimiz içimizdə qalsın. Elə gəlirin belə də gedişi olar...

**Q a d ı n** – Deyirsən, yəni...

**M ü d i r** – Yənisi-mənisi yoxdu... Sus, vəssalam...

## ÜÇÜNCÜ ŞƏKİL

R ə i s i n otağı. R ə i s məşğuldur. Ə k r ə m daxil olur.

**R ə i s** – Hə... İndi gördün ki, mən deyən oldu? Bu gün üçüncü gündür, səs çıxmır. Hərif susur.

**Ə k r ə m** – İşə də gəlmir. Deyirlər, xəstədir.

**R ə i s** – Bəs olmaz? O boyda dövlət əldən gedib, səsini də çıxara bilmir.

**Ə k r ə m** – Bu dərd onu öldürəcək.

**R ə i s** – Bir tüfeyli azalar.

**Ə k r ə m** – Bəs indi neyləyək?

**R ə i s** – Oğrunun izinə düşmüşük. O tutulacaq... Əsas məsələ müdirin boynuna qoymaqdır.

**Ə k r ə m** – Oğru tutulandan sonra asandır.

**R ə i s** – Niyə elə güman edirsən?

**Ə k r ə m** – Oğru öz oğurluğunu boynuna alandan sonra o neyləyəcək?

**R ə i s** – İki cür oğru var, Əkrəm. Sənin müdirin peşəkar oğrudan daha qorxulu oğrudur. Peşəkar oğrunun boynuna qoymaq olur, amma...

**Ə k r ə m** – Elə demə, de ki, mənim müdirim bic oğrudur, o birisi isə gic.

**R ə i s** – Tamamilə doğrudur. Bic deyəcək ki, mənə böhtan atırlar. Axı, bu şeylərin məhz onun evindən oğurlanmasına dair əlimizdə bir sübut yoxdur.

**Ə k r ə m** – Oğru tutulandan sonra?

**R ə i s** – Yeganə sübut onun ifadəsi olacaq... Müdirin də deyəcək

bu, mənim düşmənlərim tərəfindən düzəldilmiş bir kələkdir... Üzümə adam durğuzurlar. Sən elə bilirsən, biz onun oğru olduğunu bilmirik? Bilirik, özü də lap çoxdan. Amma tuta bilmirik. O, izləndiyini yaxşı bilir, quyruq ələ vermir. Çünki o, adi oğru deyil, mahir oğrudur.

**Ə k r ə m** – Bəs onda necə olsun?

**R ə i s** – Sabah səhər gəl, danışaq.

## DÖRDÜNCÜ ŞƏKİL

S e x müdirinin otağı. M ü a v i n , Ə k r ə m daxil olur.

**Ə k r ə m** – Salam, yoldaş müavin, müdir hələ sağalmayıb?

**M ü a v i n** – Görmürsən, yerində mənəm?

**Ə k r ə m** – Həmişə sən olasan.

**M ü a v i n** – Ürək sözündü?

**Ə k r ə m** – O, çətin sağalar.

**M ü a v i n** – Xəstəliyini bilirsən?

**Ə k r ə m** – Bilirəm, sağalan xəstəlik döyül. (Müavin stol arxasında yerini rahatlayır.) Hə, yaxşı eləyirsən, yerində bərk əyləş, o çətin gələr.

**M ü a v i n** – Deynən sən öl!..

**Ə k r ə m** *(əli ilə onun üzünə toxunur)* – Bu sən öl, düz sözümdür!

**M ü a v i n** – Ə, hardan bilirsən?

**Ə k r ə m** – Sən bilmirsən onun xəstəliyini?

**M ü a v i n** – Sən öl, bilmirəm, Əkrəm.

**Ə k r ə m** – Ə... mənim işim-gücüm var, məni öldürmə.

S e x m ü d i r i çox əzgin halda gəlir, müavin dərhal stolun arxasından kənara çəkilir.

**M ü a v i n** – Həmişə ayaq üstə, a müdir.

**Ə k r ə m** – Ə, hələ ayaq üstə döyül, görmürsən kişi əyilib?

M ü d i r tərs-tərs onu süzür.

**M ü a v i n** – Ağzını xeyrə aç, nə olub ona?

**M ü d i r** – Əkrəm, məndən nə istəyirsən?

**Ə k r ə m** – Canına sağlıq.

**M ü d i r** – İndi burda nə durmusan, çıxıb getsənə.

**Ə k r ə m** – İkilikdə səninlə söhbətin var.

**M ü d i r** – Ə, üzümə qənşər dedin, dalımca danışdın, doymadın? İndi yıxılmışam böyrü üstə, yenə məndən əl çəkmirsən? Sənin mənimlə nə gizli söhbətin ola bilər?

**Ə k r ə m** – Var, müdir, var.

**M ü d i r** – Təzə sözdü, yoxsa, o köhnə bayatıları çağıracaqsan?

**Ə k r ə m** – Lap təzə! Heç qatı açılmayıb.

**M ü d i r** – Onda buyur. Amma qoy əvvəlcə bir dənə həb atım, sonra... *(Həb atır)* Hə... buyur.

**Ə k r ə nı** – Dedim, axı, ikilikdə.

**M ü a v i n** – Mən çıxa bilərəm.

**M ü d i r** – Xeyr, çıxma. Qoy sözünü desin.

**Ə k r ə m** – Amma ikilikdə yaxşıdır. Mənimçün təfavütü yoxdur. Sənin xeyrinə olar.

**M ü d i r** – Uzun eləmə, sözünü de.

Ə k r ə m – Qoy onda bir qolyanımı doldurum. *(Əkrəm qızıl başlıqlı qəlyanı çıxarıb tənbəki doldurur, müdir diqqətlə qəlyana baxır, haldan-hala düşür.)*

**M ü d i r** *(müavinə)*– Sən çıx çölə.

**Ə k r ə m** – Gördün. ikilikdə yaxşıdır? İndi məni başa düşdün?

**M ü d i r** – Dedim, qoy ürəyincə olsun.

**Ə k r ə m** – Sənin, ya mənim?

**M ü d i r** – Elə ikimizin də... Qəribə oğlansanmış sən, ay Əkrəm.

**Ə k r ə m** – Neçə ildi bir yerdə işləyirik, bəs hələ indi bilirsən?

**M ü d i r** – Hər işini bilirdim, bunu yox.

**Ə k r ə m** – Nəyi bilmirdin, a müdir?

**M ü d i r** – Nə yaxşı qəlyanın var?

**Ə k r ə m** – Başlığı qızıldır.

**M ü d i r** – De sən öl.

**Ə k r ə m** – Müdirin əziz canı üçün.

**M ü d i r** – Adə... Mənə? Mənə kələk gəlirsən?

**Ə k r ə m** – Mən sənin canına yalandan and içmərəm. Dağdan ağır kişisən, sənin canın üçün qızıldır. Al bax. *(Müdir qəlyana baxır.)* Hə... Nə oldu, qızıl döyül?

**M ü d i r** – Adə. Heç sənin insafın yoxdu?

**Ə k r ə m** – Necə bəyəm? *(Müdir susur.)* Hə.. deyirsən fəhləyə yaraşmır, qızıl qəlyan?

**M ü d i r** – Adə... Mənə?

**Ə k r ə m** – Sənə nə?

**M ü d i r** – Mənə nə deyəcəkdin?

**Ə k r ə m** – Bura bax, görürəm qəlyandan xoşun gəldi, götür, qurbandı sənə. Kasıbın əli açıq olar.

**M ü d i r** – Adə... mənə? Adə... *(Sözünü geri qaytarır, deyə bilmir.)*

**Ə k r ə m** – Adə, verirəm də... Burda özgəsi yoxdur ki...

**M ü d i r** – Əkrəm.

**Ə k r ə m** – Nə var?

**M ü d i r** – Adə, bu sənə hardan?

**Ə k r ə m** – Necə bəyəm? Yetim əlində qoğal əcaib? Canın üçün, müdir, dədəmin qəlyanıdır.

**M ü d i r** – Adə... dədəni tanımırdım?

**Ə k r ə m** – Hə... İndi başa düşdüm. Sən, axı, məni oğru kimi tanıyırsan, amma sən öl, bu, oğurluq döyül.

**M ü d i r** – Adə... sən qəlyan çəkənsən?

**Ə k r ə m** – Həkimlər deyir, papiros çəkmə. Üç gündür qəlyana keçmişəm.

**M ü d i r** – Neçə gündür?

**Ə k r ə m** – Üç gün. Sən xəstələnən gündən...

**M ü d i r** – Adə...

**Ə k r ə m** – Nə olub ey?.. Alə, ada...

**M ü d i r** – Əkrəm... Sən, axı, təmiz oğlansan.

**Ə k r ə m** – Ona görə töhməti yamadın kürəyimə?..

**M ü d i r** – Dedim, lap təmiz olasan.

**Ə k r ə m** – Yəni sənin kimi... *(Pauza.)* Sənə nə oldu bilmirəm, qəlyan çıxan kimi halın dəyişdi. Dedim, götür, peşkəşdir, götürmədin. İndi neyləyək? Deyirsən, fəhlə qəlyan çəkməz, baş üstə, çəkmərəm. *(Qəlyanı cibinə qoyur.)*

**M ü d i r** – Niyə çəkmir? Fəhlə qəlyan da çəkər, üzümə sillə də çəkər, hələ bir başıma qapaz da çəkər... Niyə də çəkməsin?

**Ə k r ə m** – Yox, görürəm, doğrudan xəstəsən, mən gedim, ayrı vaxt

gələrəm, danışarıq.

**M ü d i r** – Getmə, hara gedirsən? Sözünü de. (Sükut.) Müntəzirəm qulluğunda, sözünü de...

**Ə k r ə m** – Sözüm odur ki, o töhməti üstümdən götürə bilməzsən?

**M ü d i r** – Niyə götürmərəm? Bir töhmət nə böyük zibildir, sənə canımı da qurban eləyərəm... Daha nə qulluğun?

**Ə k r ə m** – Oğurluq sözünü də ordan götürəcəksən?

**M ü d i r** – Əlbəttə. Əlbəttə. İstəyirsən hələ o damğanı öz quyruğuma yapışdırım?

**Ə k r ə m** – Yox. Mən razı deyiləm. Ona razı ola bilmərəm.

**M ü d i r** – Adə...

**Ə k r ə m** – Müdir.

**M ü d i r** – Əkrəm, gəl, əyri oturaq, düz danışaq...

**Ə k r ə m** – Xeyr, daha keçəl suya getməz. Bir dəfə düz danışıb töhmət almışam, yaxşısı budur ki, düz oturub əyri danışaq.

**M ü d i r** – Elə indi, düz oturmuşuq, əyri danışırıq.

**Ə k r ə m** – Elə belə də davam eləyək.

**M ü d i r** – Yox, xoruzun quyruğu görünür.

**Ə k r ə m** – Xoruzun, yoxsa, qəlyanın?

**M ü d i r** – Sənin xoruzun elə qəlyandı da... Eləmisən, halalın olsun. Amma kişiliyin varsa, sus.

**Ə k r ə m** – Susmasaydım, sənin yanına niyə gəlirdim, gedərdim ayrı yerə də.

**M ü d i r** – Eşq olsun. Bəs bu neçə günü niyə susurdun?

**Ə k r ə m** – Sən işə çıxmırdın, axı...

**M ü d i r** – Belə işi niyə tutdun, ay insafsız? Pulun yox idi, gəlib deyəydin.

**Ə k r ə m** – Sənə?

**M ü d i r** – Verməzdim?

**Ə k r ə m** – Bilirsən nə var, müdir, mənə pul lazım deyil. Mən sənə sübut eləmək istədim ki, oğru deyiləm.

**M ü d i r** *(qəhqəhə çəkib gülür)* – Oğru olmadığını sübut eləmək üçün oğurluq eləyirsən? Pah atonnan. Sübuta bax.

**Ə k r ə m** – Mən sübut elədim ki, kiçik oğurluq tutulur, böyük oğurluq yox.

**M ü d i r** – Oğurluq oğurluqdur, nə kiçiyi, nə böyüyü... Adə, sən məni talamısan ey!.. Ay insafsız. heç olmasa yarısını götürəydin.

**Ə k r ə m** – Mənə heç yarısı da lazım deyil. Buyur, götür. (Pulları cibindən çıxarır.)

**M ü d i r** – Adə neyləyirsən?.. Qoy cibinə... *(Qapını cəftələyir.)*

**Ə k r ə m** – Cibimi yandırır, götür pullarını.

**M ü d i r** – Adə, ay gic, pul da cib yandırar?.. Pulsuzluq yandırar, özü də cibi yox, ürəyi.

**Ə k r ə m** – Götür, ürəyin yanmasın.

**M ü d i r** – Onda yarısını...

**Ə k r ə m** – Mənə bir qəpiyi də lazım döyül.

**M ü d i r** – Hamısını götürmərəm, sən öl, əziyyət çəkmisən, qapı sındırmısan, bəs mənim insafım yoxdur? Götür. *(Pulu yarı bölür. Əkrəm pəncərədən çölə boylanır.)* Qorxma, götür.

**Ə k r ə m** *(qəlyanı da verir)* – Bu da qəlyanın, parçaları da sabah gətirərəm.

**M ü d i r** – Bura yox, evə gətirərsən. Di, pulu götür, gələn olar.

**Ə k r ə m** – Sən pulu götür, əvəzində parçalardan bir neçəsini götürərəm.

**M ü d i r**– Üç donluq götürdün, bəsindir.

**Ə k r ə m** – Baş üstə.

Ə k r ə m, qapının cəftəsini açır. R ə i s,
yanında da m i l i s daxil olur.

**R ə i s** – Yoldaş müdir, salam.

**M ü d i r** - *(bir Əkrəmə, bir rəisə baxır)* – Aydındır.

**R ə i s** – Yaxşı gedirdin, yenə tamah aldatdı.

*1973*





# DUZ

Gecənin yarısı... Şah sarayı. Gözətçilər və nökərlər yatır. Xorultu səsləri eşidilir. Şahın sərvəti saxlanan xəzinənin qapıları taybatay açıqdır. Qapı ağzında gözətçi xorna çəkib yatır. Xəzinənin içində bir qaraltı görünür, qaraltı tappıltı ilə yıxılır. İnilti səsi gəlir. Sonra qaraltı əyilə-əyilə qapıdan çıxır. Pillələri enir, bağçaya düşür, uca hasardan aşıb gedir. Yavaş-yavaş dan yeri ağarır. Nökərlər və gözətçilər ayılır. Xəzinə gözətçisi ayılıb gərnəşir... Birdən gözü açıq qapıya sataşır.

**Gözətçi** – İlahi, bu nədir? Qapıları kim açıb?

Gözətçi nizəsini xəzinəyə tərəf tuşlayıb, yavaş-yavaş içəri keçir. Geri qayıdıb qışqırır.

**Gözətçi** – Xəzinəni yarıblar! Ey saray əhli, oyanın! Oyanın!..

Nökərlər və gözətçilər xəzinəyə tərəf cumur.

**Gözətçi** – bağçaya cumun. Hələlik oğru uzağa gedə bilməz. O, hardasa buralardadır.

Silahlı keşikçilər bağçanı əhatə edir. Bağçanın və sarayın qapısı ağzındakı gözətçilər də yatır.

**Əsgərlərdən biri** – Yəqin bunlara bihuşdarı veriblər.

On-on beş atlı saraydan çıxıb, hərəsi bir tərəfə çapır.

* * *

Saray... Şah taxtında əyləşib, sağ-solunda əyanlar. Hamı mürmüc boynunu büküb. Şah çox əsəbidir.

**Şah** – Bu da mənim gözətçilərimin sayıqlığı. Bu da mənim nökərlərimin sədaqəti!..

**Vəzir** – Gözətçilərin hamısına bihuşdarı veriblər.

**Şah** – Hanı xəzinədar?

**Əyanlardan biri** – Xəzinədədir, əlahəzrət. Almazı sayıb qurtarıb, indi ləl-cavahiratı sayır.

**Şah** – Almazdan neçəsini aparıb?

**Əyan** – Almaz öz yerindədir. Bircəsi də əskik deyil.

**Şah** – Şükür Allaha!

Atlılar saraya tərəf çapır. Əsgərlərdən biri saraya daxil olur. Şahın hüzurunda baş endirir.

**Əsgər** – Əlahəzrət, tapa bilmədik.

Xəzinədar gəlir.

**Xəzinədar** – Əlahəzrət, çox təəccüblü işdir.

**Şah** – Nədir, təəccüblü?

**Xəzinədar** - Xəzinədən bir çöp belə tərpənməyib, hər şey öz yerindədir.

**Şah** – Necə yəni?

**Xəzinədar** – Bəli, əlahəzrət. Bu sərvətin siyahısı. O da xəzinə. Özünüz yoxlayın.

**Şah** – Qəribədir. Bəs onda xəzinənin qapıları öz-özünə açılıb?

**Xəzinədar** – Xeyr, hökmdar. Qıfılın yeddisi də çox ustalıqla açılıb, açarlar da qıfılların üstündə. Mənim açarlarım da budur özümdə... Bəlkə...

**Şah** – Nə bəlkə?!

**Xəzinədar** – Deyirəm... bəlkə, sizdəki açarlar oğurlanıb...

Şah cibindən açarını çıxarıb taxtın böyründəki mücrünü açır.

**Şah** – Budur. mənim açarlarım da öz yerində.

Ekran dəyişilir. Xəzinənin yeddi qapısı, qapıdakı qıfılların üstündə yeddi açar görünür.

**Şah** – Təəccüblü işdir... Bu necə oğrudur? Qapıları aça bilibsə, bəs niyə bir şey aparmayıb?

**Vəzir** – Bəlkə, bu işdə bir qəsdi var?

**Şah** – Nə qəsd?

**Vəzir** – Hər halda... *(Susur)*

**Şah** – Sözünü tamamla, vəzir!

**V ə z i r** – Sözüm odur ki, çox təəccüblü işdir.

**Ş a h** – Bütün şəhərə car çəkdirin, qoy bu adam üzə çıxsın, qəsdini, məqsədini desin, bir olan Allaha and içirəm ona toxunmaram.

Şəhərin dar küçələri... Uzun arxalıqlı kişilər, çadralı arvadlar, mədrəsəyə tələsən uşaqlar. Küçənin sol tərəfi başdan-başa misgər və dulusçu dükanları. Sağ tərəfı zərgər dükanları. Küçənin başında c a r ç ı görünür. O, var səsi ilə qışqırır:

**C a r ç ı** – Ey Allahın müti bəndələri, padşahımız Qurana əl basıb and içib ki, onun xəzinəsinin qıfıllarını açan adam amandadır. Üzə çıxsın, öz sirrindən padşahı agah eləsin!

Hamı dönüb carçıya baxır. başlarını yellədirlər. C a r ç ı bazara gəlir. Eyni sözləri təkrar edir. Yenə hamı təəccüblə carçıya baxır.

**B i r n ə f ə r** – Nə sirr?

**C a r ç ı** – Qapıları kimsə açıb, amma xəzinədən heç nə aparmayıb.

**B i r n ə f ə r** – Yəqin, o oğru dəli imiş!..

Cavan bir o ğ l a n diqqətlə carçıya baxır. Fikirləşir.

Saray... Ş a h , taxtında çox fikirli əyləşib. Sağ-solunda əyanlar. G ö z ə t ç i daxil olur.

**G ö z ə t ç i** – Əlahəzrət, bir cavan oğlan gəlib, deyir padşahı sirdən agah etməyə gəlmişəm.

**Ş a h** - Bəs nə durmusan, gəlsin!

O ğ l a n içəri keçir. baş endirir:

**O ğ l a n** – Əlahəzrət, xəzinəni açan mənəm.

**Ş a h** – Çox gözəl! Sonra?

**O ğ l a n** – Nə sonra?

**Ş a h** – O qıfılları ki, sən aça bilmisən, böyük ustalıqdır. Bu ustalıqdan sonra bəs niyə heç nə aparmamısan?

**O ğ l a n** – Əlahəzrət, duzundan keçə bilmədim.

**Ş a h** – Nə?

**O ğ l a n** – Duz!.. Yükümü daş-qaşlarla tutdum, xəzinə qa-ranlıq idi, qapıdan çıxmaq istəyirdim ki, ayağım nəyəsə ilişdi, yıxıldım. Əlim

sərt bir şeyə toxundu, ağrıdan əlimi ağzıma apardım. Gördüm, şor dadır, yoxladım, gördüm duz daşına toxunmuşam.

**X ə z i n ə d a r** – Hə... Biz nəmliyi çəkmək üçün xəzinəyə duz daşları qoyuruq.

**O ğ l a n** – Demək, bilmədən mən sizin duzunuzu dadmışdım. Odur ki, ciblərimə doldurduğum ləl-cavahiratı boşaltdım, qaçdım.

**Ş a h** – Aydındır. (*Çox fikirli.*) Halal olsun! İndi ki, sən bu sədaqətin sahibisən, indi get, nə qədər istəyirsən o daş-qaşlardan götür. Xəzinədar, apar onu xəzinəyə!

**O ğ l a n** – Yox, əlahəzrət, götürmərəm.

**Ş a h** – Niyə?

**O ğ l a n** – Mən hədiyyə istəmirəm.

**Ş a h** – Kasıb oğlansan, sənə var-dövlət lazımdır. Hədiyyə, yaxud öz qazancın, nə dəxli var.

**O ğ l a n** – Var, əlahəzrət!

**Ş a h** – Başa düşmürəm.

**O ğ l a n** – Mən sevdiyim bir qızla evlənmək istəyirdim. Kasıbam deyə atası onu mənə vermədi.

**Ş a h** – Lap yaxşı. İndi varlanarsan, qızı alarsan.

**O ğ l a n** – Mən o qızın yolunda çox əziyyət çəkmişəm. İndi onu asan əldə etdiyim var-dövlətlə almaq istəmirəm.

**Ş a h** – Bəs oğurluq dövlətlə necə?

**O ğ l a n** – Oğurluq özü də əziyyətdir, əzabdır. Mən o qıfılları açarkən nə həyəcanlar keçirdiyimi bilməzsiniz. Ürəyimin döyüntüsü qulaqlarımı batırırdı. Apara bilsəydim çəkdiyim əzabı özümə halal bilərdim. Ona görə ki, siz bu var-dövləti halal qazanmamısınız. Amma mən əziyyət çəkdiyim üçün mənə halal olardı...

**Ş a h** – Aydındır... Onda get, tamam halal qazanmağa çalış.

**O ğ l a n** – O zaman alacağım arvadı da özümə tam halal hesab edərəm.





# ATILMAMIŞ GÜLLƏ

Yavaş-yavaş qaş qaralır. Günəş günbatan tərəfdəki uca dağın zirvəsində gizlənir. Həmin dağın ətəyindən başlanan talanın dövrəsi sıx meşəlikdir. Bu dağın qənşərindəki uca təpədə orta yaşlarında bir kişi görünür. Kişinin başında calpapaq, çiynində tüfəng, əlində durbin var. O, təpədəki ağacların arasında yerini rahatlayıb durbini qarşıda görünən iki təpənin arasındakı qobuya tuşlayır. Diqqətlə baxır. Qobuda bir dəstə silahlı adam görünür. Onlar ehtiyatla, döyükə-döyükə talaya doğru gəlirlər. Talanın sağ döşündəki meşədə gizlənirlər. Ç a l p a p a q durbinlə onların hər addımını izləyir. Durbin ağacların arasında alaçıq quran adamları göstərir. Onların içindən şeşəbığlı bir nəfər talaya çıxır, qobu tərəfə əl işarələri ilə nəsə deyir. Bir qədər keçmiş qobudan daha bir dəstə silahlı adam çıxıb talanın aşağı hissəsində qurulmaqda olan alaçığa tərəf gəlir. Bu adamların arasında iri cüssəli, çərkəzi geyimli, kəməri patrondaşlı birisi öz əzəmətli görkəmi ilə yanındakılardan seçilir. Sağ-solundakılar onu böyük hörmət və nəzakətlə taladan keçirib alaçığa ötürürlər. Bütün bunlar təpədə pusquda duran Çalpapağın durbinindən görünür. Adəmlar alaçığın qarşısındakı talada halay vurub əyləşirlər. Şeşəbığ tənbəki kisəsini çıxarıb cığara bükür. Kisə bir-bir hamıya ötürülür. Cığaralar alışır. Elə bu zaman kənd tərəfdən talaya doğru gələn cığırda bir qadın görünür. Uzaqdan qadının gelişini görən kişilər ayağa qalxır, onu qarşılayırlar.

**Q a d ı n** – Axşamınız xeyir.
**H a m ı** – Xoş gördük.
**Ş e ş ə b ı ğ** – Buyurun alaçığa.

Q a d ı n alacığa keçir.

**Ş e ş ə b ı ğ** – Ay İlyas, süfrəni aç!..

Süfrə açılır. Tüfənglər kənara qoyulur. İlyas kuzədən dolçaya su töküb. Ş e ş ə b ı ğ ı n qabağına qoyur.

**İ l y a s** – Nöyül bulağın suyudıır. Dünən gecə doldurmuşam.
**Ş e ş ə b ı ğ** – Qurd ürəyi yemisən? Nə təhər gedə bildin ora?
**İ l y a s** – Allah-Allah deyib getdim. Nədən ki, Nöyül bulağın suyu-

nu dadmasam, ölərəm.

**Ş e ş ə b ı ğ** – Çalpapaq yaman düşüb izimizə... Allah axırımızı xeyir eləsin.

**İ l y a s** – Qorxursan?

**Ş e ş ə b ı ğ** – Can şirindi, İlyas.

**Ç a q q a l Ə d i l** – Çalpapaq təkcə öz məhləsinin kişisidir. O heç bizim gözümüzü də piliyə bilməz.

**Ş e ş ə b ı ğ** – De sən öl!

**Ç a q q a l Ə d i l** – Sən öl!

**Ş e ş ə b ı ğ** - Özün öl! Sən bir bu çaqqala bax. Gör, kimin bostanına daş atır. Ə... Çalpapağın bığının hər tükündən sənin kimi çaqqalın yüzü asılır.

**Ç a q q a l Ə d i l** – Çaqqal sənin dədəndir.

**Ş e ş ə b ı ğ** - A bala, niyə acığın tutur. Öküz kəs, adını üstündən götür.

**Ç a q q a l Ə d i l** – Aslan kişi, bax, axırıncı dəfə deyirəm, mənimlə zarafat eləmə, tayım-tuşum deyilsən.

**Ş e ş ə b ı ğ** – Bunu düz dedin. Mən aslan, sən çaqqal, əlbəttə, sən mənim tayım deyilsən. *(Gülüşmə).*

**Ç a q q a l Ə d i l** – Yaxşı, Aslan kişi, heç eybi yoxdur. Sənə çaqqallığımı bildirərəm.

**İ l y a s** – Ə qışqırma, yavaş, kişi eşidər. *(Alaçığı göstərir.)*

**Ç a q q a l Ə d i l** – Kişi öz kefindədir, vay bizim halımıza.

**İ l y a s** – Kişinin kefi gözünə girir? *(Gülüşmə).*

Hava tamam qaralır... Süfrə yığılır... Hərə bir tərəfdə uzanır... Ş e ş ə b ı ğ tüfəngi çiyninə taxıb tala boyu gəzinir. Bir qədər keçir. Yatanların xorultusu eşidilir. Ç a l p a p a q yavaş-yavaş təpədən enir. Asta addımlarla talaya doğru gəlir. Talaya çatmamış alaçıq olan tərəfdəki meşəyə keçir. Gözünü Ş e ş ə b ı ğ d a n çəkmir. Ş e ş ə b ı ğ talanın yuxarı başına getdiyi zaman Ç a l p a p a q alaçığa yaxınlaşır. Kolun dibində gizlənir. Alaçıqdan xorultu səsi gəlir. Ç a l p a p a q Ş e ş ə b ı ğ a tərəf dönür. Ş e ş ə b ı ğ talanın üst tərəfində dayanıb ətrafa boylanır. Uzaqdan bubbu quşunun səsi. bir də hardasa it ulartısı eşidilir. Ç a l p a p a q alacığın qapısı ağzında dayanıb içəri boylanır. Tüfəngini tuşlayır. Alaçığın içi görünür: bir kişi. bir qadın şirin yuxuda yatırlar. Ç a l p a p a q bir müddət dayanır, tərəddüd edir. Sonra nə düşünürsə, tüfəngini çiyninə aşırır, patrondaşından bir güllə çıxarıb alaçığın qapısı ağzına atır, sakit addımlarla çıxıb gedir. Dan yeri yavaş-yavaş ağarmağa başladır. İri cüssəli, çərkozi geyimli, kəməri patrondaşlı Q a ç a q K ə r ə m alaçıqdan çıxır. Birdən onun gözləri

yerdəki patrona sataşır, patronu götürüb diqqətlə baxır. Patrondaşındakı gülləlləri sayır. Fikrə gedir.

**Qaçaq Kərəm** – Ey, uşaqlar, qalxın, vaxtdır!

Yatanlar qalxır. Gərnəşirlər. Şeşəbığ alaçığa yaxınlaşır.

**Qaçaq Kərəm** – Güllələrinizi sayın!
**İlyas** – Nə olub?
**Qaçaq Kərəm** – Görün, kimin bir gülləsi çatmır.

Hamı patrondaşını çıxarıb gülləlləri sayır.

**Qaçaq Kərəm** – Hə, nə oldu?
**Şeşəbığ** – Hamınınkı yerindədir. Əskiyi yoxdur.
**Qaçaq Kərəm** – Yəqin?
**İlyas** – Yəqin.
**Qacaq Kərəm** – Dünən gecə Çalpapaq burda olub.
**Şeşəbığ** – Ola bilməz!
**Qaçaq Kərəm** – Deyirəm, burda olub.
**İlyas** – Axı, nədən bilirsən?
**Qaçaq Kərəm** – Bax, bu güllədən. *(Əlindəki gülləni göstərir).*
**Şeşəbığ** – Aydındır. Gülləni yerə atıb ki, onun burda olduğunu bilək.
**Çaqqal Ədil** – Bəs niyə vurmayıb otuz illik düşməni Kərəmi?
**Şeşəbığ** – Yenə başa düşmədin? Çalpapaq kişini arvad yanında vurmaz.

Hamı təəccüblə gülləyə baxır.





# YAXŞILIQ

Geniş bir çəmənlik. Taxta hasar içində ilxı. Müxtəlif biçimli kəhər atlar kişnəyir, qabaq ayaqları ilə yeri eşir. Mehtərlər atlara qulluq edir. tumar çəkir. Qarşıdakı birmərtəbəli damdan çərkəzi geyimli, əli qamçılı, ortayaşlı bir kişi çıxıb ilxıya tərəf gəlir. O, mehtərbaşı Ayaza yaxınlaşıb:

**Ağabəy** – Ayaz, göy ürgəni yəhərlə.

**Ayaz** – Xeyirdimi?

**Ağabəy** – Kəndə baş çəkməliyəm.

Ayaz göy ürgəni çəkib gətirir. Birinci mehtər yəhəri gətirir. Qantarğanı atın başına keçirir. Bu zaman çəmənliyin aşağı tərəfində bir at görünür. Atın belində bir uşaq dördnala çapır. Ağabəy səsə başını qaldırır, atın qaçışına və gözəlliyinə heyranlıqla tamaşa edir. At ilxının yanından güllə kimi ötür.

**Ağabəy** – Əyə, bu kimin uşağıdır?

**Ayaz** – Kürən Abbasın.

**Ağabəy** – Hansı Kürən Abbas? O, qayabaşılı?

**Ayaz** – Bəli.

**Ağabəy** – Ə... bu qaşqa köhlən ona hardan?

**İkinci mehtə** *(birinci mehtərin qulağına)* – Yetim əlində qoğal əcaib.

**Ayaz** – Mən bu atın qulunluğunu görmüşəm. Ötən il Daşüzdə bir ləzgidən alıb.

**Birinci mehtər** – At döyül, ceyrandı.

**İkinci mehtər** *(birinci mehtərin qulağına)* – Ağabəyin bütün ilxısına dəyər.

**Ağabəy** – Cındırından cin hürkən Kürən Abbasın baxtına bax, ey!..

**Ayaz** – Ürəyini qısma, Ağabəy, göy ürgə ondan əskik döyül.

**İkinci mehtər** *(birinci mehtərə)* – Ay sən öləsən!

**A ğ a b ə y** – Düz sözündü?

**A y a z** – Mənim saçım bu işlərdə ağarıb.

**A ğ a b ə y** – Onda Kürənə xəbər elə, gələn cümə çəksin qaşqasını cıdıra.

Çıdır düzü... Kənd əhli cıdırın tamaşasına toplanıb. Atlar cərgə ilə cıdıra hazır vəziyyətdə dayanıb. Göy ürgənin üstündə A y a z , qaşqa köhlənin üstündə K ü r ə n A b b a s ... Cıdır başlanır. İlk sıçrayışda göy ürgə bütün atları geridə qoyur. Qaşqa köhlən onu haqlayır. Bir müddət yanaşı gedirlər. Qaşqa köhlən irəli çıxır. K ü r ə n A b b a s atın cilovunu çəkir. Göy ürgə onu ötür. Qaşqa köhlən cilovunu gəmirir. K ü r ə n A b b a s cilovu daha bərk çəkib onu irəli keçməyə qoymur. Qaşqa şahə qalxıb K ü r ə n A b b a s ı belindən yerə çırpır və irəli sıçrayır, bir göz qırpımında göy ürgəni ötür. Qaşqa cıdır başına birinci çatır. C a m a a t üzü üstə yerə çırpılan K ü r ə n A b b a s ı n köməyinə cumur. A ğ a b ə y A y a z a yaxınlaşır.

**A ğ a b ə y** – Haram olsun! Əyə, sən at çapa bilmirsənmiş ki!..

A d a m l a r K ü r ə n A b b a s ı n başına toplanır.
Qoluna girib gətirirlər. O axsayır.

**S ə s l ə r :**

– Qaşqa köhləndən olmaz.
– Əhsən!
– Kürən, bu atı yaxşı saxla!
– Bu mahalda hələ bu atdan olmayıb.
– Göz dəyməsin!
– Ə... başına üzərrik çevir.

**A ğ a b ə y** *(Abbasa yaxınlaşır)* – Ay Abbas, bu at səni şilküt eliyər. Qazancın təpitməyə gedər. Kasıb adamsan, sat getsin!

**K ü r ə n A b b a s** – Dünya malından bir elə qaşqam var, niyə satım ki...

**A ğ a b ə y** – Mən sənin üçün deyirəm, bu harını neyləyirsən?

**K ü r ə n A b b a s** – Atın eləsi yaxşı deyilmi? Sən ki, at sərrafısan, Ağabəy!

**A ğ a b ə y** – Əvəzində üç at verərəm sənə.

**K ü r ə n A b b a s** – Sağ ol.

**A ğ a b ə y** – Mən zarafat eləmirəm.

**K ü r ə n A b b a s** – Bilirəm, Ağabəy.

**A ğ a b ə y** – Di əlini ver!

**K ü r ə n A b b a s** – Sevdamız baş tutmaz.

**A ğ a b ə y** – Ə... beş at verirəm!

**K ü r ə n A b b a s** - Yox, Ağabəy.

**A ğ a b ə y** – Düz deyiblər. kasıb xeyrini bilməz. A bala, atın biri səni örüşə verər, qalanlarını da sat ver dərdinə, azarına. Hə, necədir? *(Sükut)* Vur özünü ilxıya, bəyəndiklərini götür.

**K ü r ə n A b b a s** – Üz vurma, Ağabəy!

**A ğ a b ə y** – Özün bil, amma sonra peşman olacaqsan!..

A ğ a b ə y göy ürgəyə minib uzaqlaşır. Dan yeri ağarır. A ğ a b ə y çarpayısında yatır. O, yuxu görür... Dünənki cıdır eynilə yuxusunda təkrar olunur. Lakin cıdırdan sonrakı əhvalat başqa cür göstərilir. A ğ a b ə y K ü r ə n A b b a s ı n ayaqlarına yıxılıb yalvarır.

**A ğ a b ə y** – Başına dönüm, Abbas, bütün ilxımı götür sənin olsun, ver mənə Qaşqa kürəni...

**Kürən Abbas** - Üz vurma, verə bilmərəm.

**A ğ a b ə y** – Qaşqa məni dəli eləyib, Abbas. Mənə yazığın gəlsin, çevir məni balalarının başına.

**K ü r ə n A b b a s** *(Ağabəyi itələyir)* – İki yüz at bəsin deyil, mənim təkcə atıma niyə göz dikmisən? Gözün doymur?

**A ğ a b ə y** – Mənim iki yüz atım sənin Qaşqanın tək bircə dırnağına dəyməz.

**K ü r ə n A b b a s** – Ona görə də vermirəm.

**A ğ a b ə y** - Mənə yazığın gəlsin, Abbas. Qaşqa girib beynimə, çıxmır ki, çıxmır...

**K ü r ə n A b b a s** – Ölsəm də verməərəm!

Kadr dəyişir. Geniş bir çəmənlikdə A ğ a b ə y Qaşqa köhlənin belində çapır. K ü - r ə n A b b a s sə göy ürgənin belində onu qovur. Q a ş q a k ö h l ə n uçurumlardan tullanıb quş kimi süzür. Göy ürgə də onun dalınca qaçır. Qaşqa bir sıldırımın başına çatır. Arxa tərəf uçurumdur. A t dayanır. Göy ürgə onu haqlayanda Qaşqa özünü uçu-rumdan tullayır. A ğ a b ə y “A y a z , A y a z . tut əlimdən” deyə qışqırır. Hövlnak yuxudan ayılır. O, tər içindədir. A y a z özünü içəri atır.

**A y a z** – Nə olub, Ağabəy?

**A ğ a b ə y** – İndicə Qaşqa köhlənin belində uçurdum.

**A y a z** – Bəs niyə çığırdınız?

**A ğ a b ə y** – Qaşqa beynimdən çıxmır, Ayaz...

**A y a z** – Neyləmək istəyirsiniz?

**A ğ a b ə y** – Bu saat get Kürəngilə, de ki, nə istəyir gəlsin aparsın, Qaşqanı versin mənə;

**A y a z** – Ağabəy!

**A ğ a b ə y** – Nə deyirəm, elə!

A y a z gedir. A ğ a b ə y qalxıb geyinir. Əl-üzünü yuyur... Çıxır çölə. Çəmənlikdə atlar baş-başa verib otlayır. M e h t ə r l ə r atlara qaşov çəkir. A ğ a b ə y birinci mehtərə yaxınlaşır.

**B i r i n c i m e h t ə r** – Sabahın xeyir, Ağabəy.

**A ğ a b ə y** – Necə bilirsən, yəni bu mahalda Qaşqaya çatan at yoxdur?

**B i r i n c i m e h t ə r** – Mən yaşımda ona tay at görməmişəm.

**A ğ a b ə y** – Dədəmi yandırma, kişi!

A y a z görünür. Dilxor vəziyyətdə kənarda dayanır, yaxınlaşmağa cürət etmir.

**A ğ a b ə y** – Hə, nə oldu? *(Ayaz susur.)* Yenə vermir?

**A y a z** – Deyir, Ağabəyə canımı verərəm, amma Qaşqadan keçmərəm.

A ğ a b ə y i n əl-qolu yanına düşür.
Dörd yolun ayrıcı... Axşamçağı... Uca bir palıd ağacının kölgəsində ağsaqqal bir qoca ağacın kötüyünə söykənib uzaqlara baxır. Yolda tək-tük yolçular görünür, birdən Qaşqa köhlənin belində K ü r ə n A b b a s gəlir. A ğ s a q q a l q o c a palıdın kölgəsindəki çəmənliyə uzanıb inildəyir. K ü r ə n A b b a s yol ayrıcına çatır. İnilti səsini eşidən kimi atın başını çəkib dayanır. Atdan düşüb qocaya yaxınlaşır.

**K ü r ə n A b b a s** - Sənə nə olub, ay əmi?

**Q o c a** *(başını qaldırmadan)* - Ölürəm, ay bala.

**K ü r ə n A b b a s** – Xəstəsən?

**Q o c a** – Sancı məni öldürür... Oy... oy!..

**K ü r ə n A b b a s** – Hansı kənddənsən? Hara gedirsən?

**Q o c a** - Kəhrizliyə gedirdim, yolda sancı məni yaxaladı. Oy!..

**K ü r ə n A b b a s** – Qalx səni aparım bizə. Sancın qoyar, gedərsən.

**Q o c a** – Qalxa bilirəm ki...

**K ü r ə n A b b a s** – Səninki bizə çatana qədərdi. Anam sənə elə

bir dərman verər ki, olarsan anadangəlmə.

**Q o c a** – Allah səndən razı olsun.

A b b a s qocanı qaldırır, üzəngini tutub mindirir ata.

**K ü r ə n A b b a s** – Tut cilovu!

Q o c a cilovdan yapışır, at tərpənir. Q o c a üzəngi ilə ata necə təpinirsə, at götürülür. Bir xeyli gedəndon sonra əl atıb saqqalını çıxarır, çevrilir arxaya.

**Q o c a** – Kürən Abbas, Qaşqanı mənə satmadın, qaçırası oldum. İndi get haqq divanına, ala bilsən, al!

**K ü r ə n A b b a s** *(təəccüblə baxır, onu tanıyır)* – Ağabəy, bir sözüm var, onu deyim sonra apar Qaşqanı.

**B ə y** – Buyur, Kürən.

**K ü r ə n A b b a s** – Ağabəy, heç kəsə demə ki, Qaşqanı namərdliklə qaçırmısan. De ki, min dinara almışam.

**B ə y** – At əlindən gedəndən sonra bunun nə mənası var?

**K ü r ə n A b b a s** – Var, Ağabəy, birinci ona görə ki, Qaşqa qiymətdən düşməsin. İkinci ona görə ki, bu əhvalatı eşidən el-oba bundan sonra inamını itirər, zəlilə, köməksizə əl tutmaz. Yaxşılıq dünyadan köçər, Ağabəy! Onda vay adamların halına! Bu sözlərimə əməl elə, Qaşqa köhlən halalın olsun.

K ü r ə n A b b a s sözünü qurtarıb arxaya çevrilir, kəndə tərəf üz tutur. A ğ a b ə y atın belində quruyub qalır. A b b a s ı n getdiyini görüncə atdan düşür, Qaşqanın yönünü A b b a s gedən tərəfə çevirir, özü isə əks tərəfə yan alır. At A b b a s a yaxınlaşır. Ekranda şərid kimi uzanan yolun bir başında A ğ a b ə y , o biri başında A b b a s , ortada isə Q a ş q a k ö h l ə n görünür.

*1979*





# TƏYYARƏ KİMİ

*(Radiopyes)*

İŞTİRAK EDƏNLƏR:

**Zeynallı** – universitetin professoru.
**Dekan** – mexanika-riyaziyyat.
**Əfşan** – Zeynallının arvadı.
**Orxan** – Zeynallının bacısı oğlu.
**Zəhra** – Orxanın anası.
**Cəlil** – Orxanın dostları.
**Habil** – Orxanın dostları.
**Tükəz oğlu Teymur.**
**Şaban** – sürücü.
**Qulamzadə** – həkim.
**Səkinə** – dərzi.
**İbiş əmi.**
**Qadın səsi.**
**Qulamzadənin qardaşı oğlu.**

Dekanın otağı. Professor Zeynallı daxil olur.

**Zeynallı** – Bu biabırçılıqdır. Yox, buna dözmək olmaz!

**Dekan** – Nə olub, professor?

**Zeynallı** – Bundan artıq nə olacaq? Əlli tələbədən on doqquzuna iki vermişəm. Qalanları da alababat. *(Dekan gülür)* Niyə gülürsən?

**D e k a n** – Vallah professor, gülməli danışırsınız! Məgər uşaqlara ikini mən vermişəm? Verməyəydiniz...

**Z e y n a l l ı** – Necə verməyəydim? Bilirlər ki, verməyəydim? Günahkar sizsiniz, bu işdən yaxanızı kənara çəkə bilməzsiniz.

**D e k a n** – Mənim günahım nədir?

**Z e y n a l l ı** – Hələ bilmirsən? Axı, sən dekansan. Bu birinci kursdur. Niyə zəif tələbləri qəbul eləmisiniz? Məgər sən qəbul imtahanında yox idin?

**D e k a n** – Var idim.

**Z e y n a l l ı** – Eşitdiyimə görə bu il bizim fakültəyə altı yüz ərizə olmuşdur. Altı yüz! Zarafat deyil. Axı, burda seçməyə imkan çoxdur.

**D e k a n** – Bəli.

**Z e y n a l l ı** – İndi sənin fikrincə altı yüz nəfərin içindən seçdiyiniz bu əlli nəfər ən yaxşılarıdır?

**D e k a n** – Bəli.

**Z e y n a l l ı** – İnanmıram! Qətiyyən inanmıram!

**D e k a n** – Niyə inanmırsan?

**Z e y n a l l ı** – Ona görə ki, bunlar çox zəifdir. Ona görə ki, düz seçə bilməmisiniz.

**D e k a n** – Onda bu il sən özün qəbul imtahanlarına qalarsan, özün də seçərsən.

**Z e y n a l l ı** – Xeyr, mən yay ayları burda qala bilmərəm.

**D e k a n** – Niyə?

**Z e y n a l l ı** – Bilmirsiniz ki, mən xəstəyəm?

**D e k a n** – Bəs onda necə olsun? Biz düz seçə bilmirik, sən də qəbul imtahanı götürmək istəmirsən.

**Z e y n a l l ı** – Qoy imtahanı götürənlər vicdanı unutmasınlar. Düz işləsinlər.

**D e k a n** – Professor, xahiş edirəm, həmkarlarına böhtan atmayasan. Əgər söhbət vicdandan gedirsə, gərək heç kəs onu unutmasın. Çünki vicdan, namus hamıya aiddir.

**Z e y n a l l ı** – Nə demək istəyirsən?

**D e k a n** – Onu demək istəyirəm ki, otuz ildir bu fakültədə işləyirsən, bir dəfə də istirahətindən qalmamısan. Sən gözəl kurortlarda dincəldiyin zaman həmkarların burda, yayın cırhacırında imtahan götü-

rüb. Bu gün də onları təqsirkar görürsən. Bu gün sən onların vicdanını şübhə altına alanda bəs öz vicdanın ağrımır?

**Z e y n a l l ı** – Mən... Mən xəstəyəm.

**D e k a n** – Axtarsan hərədə bir xəstəlik tapılar.

**Z e y n a l l ı** – Cavan müəllimlər dura-dura biz...

**D e k a n** – Əvvəla, sən cavanlığında da bu işdən boyun qaçırmısan. İkincisi, axı, sən cavan müəllimlərin işini bəyənmirsən. Mən bu saat builki qəbula qalacaq müəllimlərin siyahısını tuturam. Başdan sənin adını yazdım, buyur, bax! Professor Zeynallı!

**Z e y n a l l ı** – Onda gərək putyovkamı geri qaytaram.

**D e k a n** – Özün bilərsən. Hər il sən birinci kurslardan şikayət eləyirsən. Sınaq üçün bu il qal, gör necə olur.

**Z e y n a 11 ı** – Yox! Mümkün deyil.

**D e k a n** – Biz hər il sənə hörmət eləmiş, qəbula saxla-mamışıq. Görünür, səhv eləmişik.

**Z e y n a l l ı** – Axı...

**D e k a n** – Qurtardıq, yoldaş Zeynallı!..

**Z e y n a l l ı** – İnsafən, o haqlıdır. Mən heç qəbul imtahanlarında olmamışam. Heç qaydalarını da bilmirəm. Mən onunla çox sərt danışdım. Gərək elə danışmayaydım. İndi necə olsun? Yayımı zəhərə döndərim? Qışdan putyovka sifariş vermişəm. Yessentukidə dincəlməli idim. Bəlkə, xəstəlik kağızı düzəldim, çıxım gedim istirahətimə? Sonra? Əşi, sonrasından mənə nə? Kim götürəcək götürsün! Cəhənnəmə ki! Necə, cəhənnəmə ki? Doğrudan, axı, mən hər il birinci kurslardan narazılıq eləmişəm. İclaslarda deyirəm, "qəbul imtahanları düz aparılmır, seçə bilmirsiniz..." Bu il də özüm qalım, özüm seçim. Həm də, axı, insaf da yaxşı şeydir. Kişi düz deyir. Bir dəfə də mən qalım, bu sirri öyrənim. Amma...

**Ə f ş a n** – Nə olub yenə qəm dəryasına batmısan?

**Z e y n a l l ı** – Heç demə.

**Ə f ş a n** – Nə olub, axı?

**Z e y n a l l ı** – Bu il dincəlməyə gedə bilməyəcəyəm.

**Ə f ş a n** – Niyə?

**Z e y n a l l ı** – Qəbul imtahanlarına qalıram.

**Ə f ş a n** – Cavanlığında qalmamısan, indi qalırsan?

**Z e y n a l l ı** – Əlac yoxdur.

**Ə f ş a n** – Bu qədər müəllim qırılıb qurtarıb, bircə sən qalmısan? Bu yayın istisində, qoca vaxtında...

**Z e y n a l l ı**– Mənim kimiləri qocalığında ağıllanır.

**Ə f ş a n** – Əllisində ağıllanmayan, altmışında ağıllanacaq?

**Z e y n a l l ı** – Günah özümdədi, arvad, ayrı əlac yoxdur.

**Ə f ş a n** – Bəs indi biz səni qoyub necə gedək?

**Z e y n a 11 ı** – Gedin. Siz gedin. Uşaqları burda saxlamaq olmaz.

**Ə f ş a n** – Bəs sən?

**Z e y n a 11ı** — Mən də on-on beş günlüyə kəndə - bacımın yanına gedərəm.

**Ə f ş a n** – Kənddə nə müalicə?

**Z e y n a l l ı** – Deyirlər, bizim kəndin vaxınlığında yaxşı bir su tapılıb. Yessentuki suyuna oxşayır.

**Ə f ş a n** – Onu kim deyir?

**Z e y n a l l ı** – Qəzetlər.

**Ə f ş a n** – Səni kənddə dincəlməyə qoyacaqlar?

**Z e y n a l l ı**– Neyləyim?

**Ə f ş a n** – Özün bil. Amma sənin üçün çox çətin olacaq.

**Z e y n a l l ı** – Hansı babətdən?

Ə f ş a n – Sən hər il yayda tanış-biliş əlindən Bakıdan qaçmırdın? Ömründə bir dəfə avqust ayında Bakıda olmusan?

**Z e y n a l l ı** – Yox.

**Ə f ş a n** – Beş il əvvəl bacımın qızı gəldi qəbul imtahanına, dedin, mən belə işlərə qarışmıram. Çıxıb getdin müalicəyə. Sonrakı ili kənddən qardaşın uşaqlan gəldi. Yenə boyun olmadın, qaçdın. Bu il də ki, kəndə gedirsən. Bütün qohum-əqrəba yapışacaq xirtdəyindən. O deyəcək mənim oğlumu, bu deyəcək mənim qızımı sənə tapşırıram. İndi de görüm, neyləyəcəksən?

**Z e y n a 11ı** – Mən universitetdə müəllim olduğum gündən bütün qohum-əqrəbama bildirmişəm: əyriliklə mənim işim yoxdur. Bilsin, gəlsin qəbul olunsun!

**Ə f ş a n** – Bunlar sözdür, kişi...

**O r x a n** – Ana, muştuluq!

**Z ə h r a** – Xeyir olsun, a bala?

**O r x a n** – Dayım kəndə gəlir, muştuluq!

**Z ə h r a** – Dayın? Ola bilməz.

**O r x a n** – Bu da teleqram.

**Z ə h r a** – Ay balam, ondan nə əcəb? O ki, on ildən çoxdur kəndə ayağını basmır.

**O r x a n** – Bu gün səhər öz maşınıyla Bakıdan çıxıb. Saat üçə, dördə burdadır.

**Z ə h r a** – Di bəs nə durmusan? Get atana xəbər elə. Özün də yoldaşlarınla onu qarşıla.

**O r x a n** – Hara gedim, harda qarşılayım?

**Z ə h r a** – O, əvvəllər kəndə gələndə həmişə Narlı bulağın qabağında maşından düşər, əl-üzünü yuyar, qoşa çinarın altında uzanardı. Biz onu gedib orda qarşılardıq.

**O r x a n** – Ay ana, ora ki, uzaqdır.

**Z ə h r a** – Maşını çıxart, Cəlili də, Habili də götür, get ora.

**O r x a n** – Bax, bu başqa məsələ. Ayrı vaxt maşına yaxın düşməyə qoymursan. İndi qardaşından ötrü...

**Z ə h r a** – Bəs muştuluq istəmirdin? O da sənə muştuluq.

Maşının təkər səsləri eşidilir. Maşın qıjıltı ilə keçib Narlı bulağın qarşısında dayanır. Suyun şırıltısı, quşların cəh-cəhi eşidilir.

**O r x a n** – Bu da Narlı bulaq. İndi, gəlin, əl-üzümüzü yuyaq. Dayım kimi, çinarın altında uzanaq, gözləyək.

**H a b i l** – Havaxt gələcək?

**O r x a n** – İndilərdə gələr. Anam deyir ki, o həmişə maşını burda əyləyir.

**C ə l i l** – Sən öl, dayının yaman zövqü varmış. Bura lap cənnətdi.

**H a b i l** – Riyaziyyatçılarda belə zövq?

**C ə l i l** – Riyaziyyatçılarda olan zövq, heç şairlərdə də ola bilməz.

**H a b i l** – O niyə?

**C ə l i l** – Ona örə ki, şairlər onsuz da həmişə gözəllik aləmində yaşayır. Amma riyaziyyatçılar quru rəqəmlərlə o qədər əlləşirlər ki, gözəllik üçün darıxırlar.

**O r x a n** – Cəlil hər şeyi əsaslandırmağı bacarır. Amma, əslində, anam deyir ki, dayın elə uşaqlıqdan şeiri, nəğməni çox sevərdi.

**H a b i l** – Dayın nə təhər adamdır, ay Orxan?

**O r x a n** – Necə nə təhər?

**H a b i l** – Deyirəm, yəni el-gün dərdinə qalandır, yoxsa, xeyrə-şərə yaramaz?

**O r x a n** – Necə yəni?

**H a b i l** – Belə də... Özü bu kənddən çıxıb, hələ üzünü görməmişik...

**C ə l i l** – Üzünü görüb neyləyirsən, ay Habil? Sən o kişinin elədiklərinə bax.

**H a b i l**– Elədikləri çox yaxşı. Biz də adını eşidib fərəhlənirik... Amma bunlar azdır.

**O r x a n** – Neyləsə xoşuna gələr?

**H a b i l** – Öz kəndindən hər il beş-altı uşağı alsın qanadının altına, aparsın Bakıya.

**C ə l i l** – Qəbul elətdirsin instituta, hə?

**H a b i l** – Əlbəttə!

**C ə l i l** – Soruşmaq ayıb olmasın, onun özünü kim qəbul elətdirmişdi instituta?

**H a b i l** – Onların vaxtında oxuyan az idi. İnstitutların da qapısı camaatın üzünə açıq. İndi maşallah, yerindən duran oxumaq istəyir.

**C ə l i l** – Oxusun da... Qabağını alan var?

**H a b i l** – Sən də nə boş-boş danışırsan? İki ildir gedirəm, ağzımdan vurub qaytarırlar.

**C ə l i l** – Oğul da ona deyərəm ki, ağzından vurub qaytara bilməyələr. Pişiklə güləşməyə nə var ki, oğulsan, pələnglə güləş.

**H a b i l** – Bu il sən güləşərsən, baxarıq. Hələ ağzın isti yerdədir.

Təyyarə gurultusu eşidilir.

**C ə l i l** – Oğuldur, oğul!

**O r x a n** – Kim?

**C ə l i l** – Təyyarə!

Yerdən alıb öz gücünü
Qalxar göyə təyyarələr.
Məhəl qoymaz nə yağışa,
Nə küləyə təyyarələr.

Uçuşu da əzəmətli.
Duruşu da əzəmətli.
Aşıb-daşar təyyarələr.
Yerdə deyil,
Göydə yaşar
təyyarələr.

**O r x a n** – Yoxsa, pilot olmaq istəyirsən?

**C ə l i l** – Pilot yox, təyyarənin özü olmaq istəyirəm.

**O r x a n** – Ay sağ ol!

**C ə l i l** – Bax, dayın əgər təyyarə ilə gəlsəydi, indi çoxdan çatmışdı. Biz də onu burda gözləməzdik.

**O r x a n** – Gözləməyin də öz ləzzəti var.

**C ə l i l** – Bura baxın, ay uşaqlar, təyyarə mənzil başına niyə tez çatır?

**H a b i l** – Sualını yeyəsən ay Cəlil, onu bilməyə nə var ki?..

**C ə l i l** – Bilirsən de də.

**O r x a n** – Sən, deyəsən, bizi ələ salırsan. Maşının sürəti ilə təyyarənin sürəti birdir?

**C ə l i l** – Bu doğru. Daha?

**O r x a n** – Nə daha?

**C ə l i l** – Təyyarə mənzilbaşına yalnız sürətinə görə tez çatmır. Başqa səbəb də var.

**H a b i l** – Sürətdən başqa ayrı səbəb yoxdur.

**C ə l i l** – Var.

**O r x a n** – Daha başqa nə səbəb ola bilər?

**C ə l i l** – Fikirləşin, tapın.

Maşın təkərlərinin xırıltısı. Z e y n a l l ı maşını əyləyir.

**O r x a n** – Dayı!

**Z e y n a l l ı** – Oho!.. Orxan!.. Burda neyləyirsən?

**O r x a n** – Səni gözləyirik.

**Z e y n a l l ı** – Maşallah, böyük oğlan olmusan!

**O r x a n** – Yoldaşlarımla tanış ol.

**Z e y n a l l ı** – Çox gözəl. *(Zeynallı Cəlil və Habillə tanış olur.)* Evdə-eşikdə nə var, nə yox?

**O r x a n** – Salamatlıqdır. Yolunu gözləyirlər.

**Z e y n a l l ı** – Hə, məktəbi nə vaxt qurtarırsan?

**O r x a n** – Qurtarmışam.

**Z e y n a l l ı** – Qurtarmısan? Nə vaxt?

**O r x a n** – Bu il.

**Z e y n a l l ı** – İllər elə tez gəlib keçir ki... Amma mən elə bilirdim ki, sən gələn il qurtaracaqsan. Təbrik edirəm. Bəs yoldaşların?

**O r x a n** – Cəlil bu il mənimlə bir yerdə qurtarıb, Habil iki il əvvəl. İki ildir gedir qəbula...

**C ə l i l** – Ağzına vurub qaytarırlar geri.

**H a b i l**– Bu il də, inşallah, sizin ağzınızdan vurarlar.

**O r x a n** – Ağzını xeyirliyə aç, ə...

**Z e y n a l l ı** – Yaxşı, Orxan, hara girmək istəyirsən?

**O r x a n** – Dayım hara məsləhət bilsə, ora.

**Z e y n a l l ı** – Yox, Orxan, bu olmadı. Bir evlənməkdə, bir də sənət seçməkdə adama məsləhət görməzlər. Sevgi, sevgi lazımdır!

**C ə l i l** – Orxan deyir ki, mənim əvəzimə dayım sevsin.

**Z e y n a l l ı** – Məqsədə dolayı yollarla deyil, birbaşa getmək lazımdır.

**C ə l i l** – Təyyarə kimi..

**Z e y n a l l ı** – Bəli, təyyarə kimi.

**H a b i l** – Necə, yəni təyyarə kimi?

**Cəlil**– Bu mənim bayaqkı sualımın cavabıdır. Təyyarə mənzilbaşına təkcə sürətinə görə tez çatmır, bir də yolu birbaşa getdiyinə görə, əyilib, burulmadığına görə tez çatır. Maşın, tramvay, yola görə gedir, təyyarə isə öz yolunu özü açır.

**Z e y n a l l ı** *(fikirli)* – "Təyyarə öz yolunu özü açır". Gözəl sözdür.

**C ə l i l** –

Gecə gedir,
gündüz gedir
təyyarələr.
Məqsədinə,
Mənzilinə dümdüz gedir
təyyarələr.
Eniş bilməz,

Yoxuş bilməz,
Dolay bilməz
təyyarələr.
Nə burulmaz,
Nə əyilməz
təyyarələr.

**Z e y n a l l ı** – Cəlil düz deyir. Cavanlar gərək təyyarədən nümunə götürələr. Məqsədə birbaşa getməyi bacaralar. Mən istəyərdim ki, siz maşın kimi yola görə getməyəsiniz, təyyarə kimi yolu özünüz açasınız. *(Cəlilə müraciətlə.)* Xoşum gəldi sənin bu sözündən, Cəlil. Kimin oğlusan?

**O r x a n** – Tükəz oğlu Teymurun nəvəsidir, ay dayı.

**Z e y n a l l ı** – Tükəz oğlu Teymurun? Hə!.. Tanıyıram. O zaman o, kənd soveti sədriydi. *(Öz-özünə.)* Dünya qəribədir, qəribədir.

**O r x a n** – Nə fikrə getdin, dayı?

**Z e y n a l l ı** – Köhnə bir əhvalat yadıma düşdü.

**O r x a n** – Nə ohvalat, dayı?

**Z e y n a l l ı** – Heç. *(Pauza.)* Bu çinarın altında bir qədər uzanmaq istəyirəm.

**O r x a n** – Sən uzan, biz maşını yuyaq.

**Z e y n a l l ı** *(fikrə gedir)* – Tükəz oğlu Teymur! Qəribə adam idi. Camaata divan tutardı. Sovet hökuməti təzəcə qurulmuşdu. Məktəblər açılmış, məişətdə inqilab yaranmışdı. Yeni həyatdan, yeni zamandan hamı dördəlli yapışmışdt. Həyat qaynayırdı. Hamı oxumaq, yeni dünyaya təzə gözlə baxmaq istəyirdi. Cavanlar aşıb-daşırdı. O cavanlardan biri də mən idim. Oxumaq üçün Bakıya getmək istəyirdim. Kənd sovetinin zəmanəti lazım idi. Gəldim Tükəz oğlu Teymurun yanına.

**T ü k ə z  o ğ l u T e y m u r** – Hə, sən nə deyirsən a bala?

**Z e y n a l l ı** – Oxumaq istəyirəm, zəmanət!..

**T e y m u r** – Muzdur balasısan?

**Z e y n a l l ı** – Muzdur deyəndə ki...

**T e y m u r** – Kimin oğlusan?

**Z e y n a l l ı** – Cabbarın.

**T e y m u r** – Şətə Cabbarın?

**Z e y n a l l ı** – Bəli.

**T e y m u r** – Olmaz, olmaz!

**Z e y n a l l ı** – Niyə, Teymur əmi?

**T e y m u r** – Bilmirsən? Bilmirsən, get babandan soruş.

**Z e y n a l l ı** – Hansı babamdan?

**T e y m u r** – Ana babandan, Koxa Əbülfəzdən.

**Z e y n a l l ı** – Onun mənə nə dəxli?

**T e y m u r** – Necə nə dəxli? Baban adamları döyəndə, incidəndə bilmirdi ki, onun da qisasını nəvələrindən alarlar?

**Z e y n a l l ı** – Babam çoxdan ölüb. Onun hayıfını məndən niyə alırsını?

**T e y m u r** – Bala, bu Şura hökumətidi, yəni fəhlə - kəndli hökumətidi. Məktəbləri açıb yoxsul balalarından ötrü.

**Z e y n a l l ı** – Mənim dədəm də yoxsuldu.

**T e y m u r** - Amma ana tərəfin koxa. Sən hələ indidən bilmirsən ki, hökumət kimin hökumətidir, oxuyub səndən nə olacaq? Get, bala, get

**Z e y n a l l ı** – Suyu süzülə-süzülə qapıdan çıxdım. Neyləyə bilərdim? Uşaq ağlımla fikirləşirdim: "Axı, mənim günahım nədir? Babam koxa olanda nə olar? Bəli, o zaman adamları adamlığına görə yox, ictimai kökünə görə qiymətləndirirdilər. Kəndimizdən üç nəfər seçib Bakiya göndərdilər. Mən də qoşuldum onlara. Dünya xali deyilmiş. Məktəbin müdiri nurani bir kişi idi. Məndən zəmanət soruşdu, kövrəldim, dedim yoxumdu... Amma oxumaq istəyirəm. Kişi üzümə baxdı, doluxsundum, dedi - Qorxma, səni də götürərəm, amma bir şərtlə, yaxşı oxuya bilməsən özündən küs... Gecəni gündüzə qatdım. Müəllimlər başıma and içirdi. Bir gün... Müdir məni yanına çağırdı. Dedi - oxumağından razıyam. Amma - Sənin haqqında kənddən pis kağız gəlib. O saat başa düşdüm... Tükəz oğlunun acıqlı siması gəlib durdu gözümün qabağında... Amma müdir, yenə mənə yaxşılıq elədi... Məni qovmadı, oxudum...

**O r x a n** – Dayı, maşın hazırdır...

**Z e y n a l l ı** – Cəlil, hara girmək istəyirsən?

**C ə l i l** – Universitetin riyaziyyat fakültəsinə.

**Z e y n a l l ı** – Bax, bu yaxşı!.. Demək, sən öz yolunu tapmısan.

**C ə l i l** – Altıncı sinifdən demişəm, gərək riyaziyyatçı olam.

**Z e y n a l l ı** – Qiymətlərin necədir?

**O r x a n** – Medal alıb.

**Z e y n a l l ı** *(öz-özünə)* – Müəllimi olacağam... Dünyanın nə qəribə işləri var... Ömrün yollarında qarşına elə şeylər çıxır ki, adamın yuxusuna da girməz.

**O r x a n** – Habil də ora girmək istəyir.

**Z e y n a l l ı** – Habil kimlərdəndir?

**H a b i l** – Şirməmmədin oğluyam.

**Z e y n a l l ı** – Uzun Şinnəmmədin?

**O r x a n** – Hə...

**Z e y n a l l ı** – Maşallah... Şirməmməd çox gözəl adamdır. Özün də atana oxşasan, xoşbəxtsən! Atan bizə çox yaxşılıqlar eləyib. Tək mənə yox, hamıya... Müharibə vaxtı bizim evə atan baxıb. Anam ondan çox razılıq eləyərdi...

**O r x a n** – Özü də yaxşı oğlandır, dayı.

**Z e y n a l l ı** – Təki olsun. Dünyada yaxşılıqdan yaxşı nə ola bilər?..

**Z ə h r a** – Sabahın xeyir, ay qardaş.

**Z e y n a l l ı** – Aqibətin xeyir.

**Z ə h r a** – Maşallah, kəndin havası düşür sənə. Bu neçə gündə əməlli dəyişmisən. Rəngin açılıb.

**Z e y n a l l ı** – Düz deyirsən. Kəndlə şəhərin havası bir deyil. Elə rahat nəfəs alıram ki, “Qaya başı”nın suyu da ki, heç Yessentuki suyundan əskik deyilmiş... Özümü lap yaxşı hiss eləyirəm. Amma getməliyəm.

**Z ə h r a** – Nə tələsirsən? Şəhərdə yağın daşmır ki? Bir az da qal, özünə gəl.

**Z e y n a l l ı** – Üç-dörd günə getməliyəm.

**Z ə h r a** – Axı, tək orda neyləyəcəksən? Uşaqlar da Yessentukidə.

**Z e y n a l l ı** – Yox, Əfşan qayıdacaq. Heç kəsə demə. Bu il qəbul imtahanı götürməliyəm.

**Z ə h r a** – Deyəndə nə olar ki? Onsuz da kənddə hamı bilir.

**Z e y n a l l ı** – Hardan bilirlər?

**Z ə h r a** – Yer qulaqlıdı, qardaş. Bir də sən bundan niyə qorxursan? Nə olar, yaxşılıq elə. Ömründə eləməmisən. Bu kənddə hamı el-gündür. Bu il bu kənddən üç-dörd uşağa əl tutsan pis olar?

**Z e y n a l l ı** – Bacı!..

**Z ə h r a** – Hə, nə var, ay bacı qurban? Xeyrə-şərə yaramaq pis

şeydir? Bu kənd camaatı sənin başına and içir. Adın gələndə ayağa dururlar. Nə olar, sən də onların işinə yarayanda?

**Z e y n a l l ı** – Ay bacı, birini bilirsən, birini yox.

**Z ə h r a** – Bildiyim odur ki, alimsən, universitetdə beş kişinin birisən, hamı sənin sözünü tutur. İndi de görək bilmədiyim nədir?

**Z e y n a l l ı** – Bilmədiyin odur ki, adama əl tutmağı, yaxşılıq eləməyi siz düz başa düşmürsünüz. Bacı, hər yerdə güzəşt eləmək olar, amma elm aləmində güzəşt eləmək, o adamın evini yıxmaqdır.

**Z ə h r a** – Yaxşı, yaxşı, sən Allah. Düzlük elə bir sənə qalıb, bir də bizim kişiyə. Bəs bu camaat bilən biclikdən niyə bilmirsiniz?

**Z e y n a l l ı** – Ən böyük biclik düzlükdür.

**Z ə h r a** – Yaxşı, indi nə deyirsən? Deyirsən, yəni Orxana da kömək eləməyəcəksən?

**Z e y n a l l ı** – Axı, Orxan hələ hara girmək istədiyini bilmir.

**Z ə h r a** – Elə öz fakültənəcə qoy. Gözün də üstündə olar.

**Z e y n a l l ı** – Bəs belə də sənət seçmək olar? Dayısı riyaziyyatçı olduğuna görə bacısı oğlu da istədi, istəmədi riyaziyyatçı olmalıdır?

**Z ə h r a** – Nə olar, olsun!

**Z e y n a l l ı** – Srağagün onu yoxladım. Bilmir, bacı, heç nə bilmir.

**Z ə h r a** – Əşi, bilmir öyrədərsən... Sən ananın qarnında öyrənmişdin?

**Z e y n a l l ı** – Məni heç kəs Bakıya aparmamışdı. Cırıq şalvar-pencəklə özüm getmişdim. Bacı, sən məni başa düş. Qoy, uşaq heç kəsin kölgəsinə sığınmasın. Dayısına güvənən oxumaz, zəhmətə qatlaşmaz.

**Z ə h r a** – Sən qəbul elətdir, gör, necə oxuyur.

**Z e y n a l l ı** – Orta məktəbdə oxuduğu kimi oxuyacaq.

**Z ə h r a** – Vay səni! Necə üzüdönükmüşsən, qardaş? Mən isə həmişə uşağa deyirəm qorxma, dalında dağ kimi dayın dayanıb. Bu, gör, nə deyir?

**Z e y n a l l ı** – Elə orda da uşağın evini yıxmısan!

**Z ə h r a** – Yaxşı, öz uşaqlarını necə? Qoymamısan İnstituta? *(Pauza.)* Niyə susursan? Səninkilər Orxandan yaxşı oxuyub? Hərdən gələndə eşitmirdim evinizdəki həngaməni? Görmürdüm nə zülümnən oxudursan onları? Nə oldu? Öz uşaqlarını instituta düzəltmədin?

**Z e y n a l l ı** – Haqlısan, bacı, haqlısan!

**Z ə h r a** – Hə, indi hazırlaş, bir azdan Şirməmməd kişigilə gedəcəyik.

**Z e y n a l l ı** – Xeyir ola?

**Z ə h r a** – Bu gün nahara səni qonaq çağırıb. O birilərini rədd elədin, getmədin, amma Şirməmməd kişigilə getməmək olmaz. Özün bilirsən ki, o bizə nə yaxşılıqlar eləyib.

**Z e y n a l l ı** – Haqlısan, bacı, haqlısan!

**Z ə h r a** – Mən gedim uşaqlara baş çəkim, sən də yavaş-yavaş yığış.

**Z e y n a l l ı** *(tək)* – Çətindir. O məni yaman yerdə tutdu. Görəsən, niyə belədir? Niyə biz ağır illərdə min cür əzab-əziyyətə qatlaşıb oxuduq, bizimkilər bu firavanlıq içində oxumaq istəmir? Dörd yüz qram çörək, çətinlik, isti xörək üzünə həsrət, ata qayğısından uzaq, ana nəvazişindən məhrum, ağır təhsil illərini mətanətlə başa vurduq. Biz bu aşırımları aşdıq, gecəni gündüzə qatdıq, irəliyə, yüksəlişə can atdıq, oxuduq, yorulmadıq. Kitabları su kimi içdik, bəsdir deınədik. Mən bilmirəm, bizdəki biliyə təşnəlik, uçuşa həvəs, gözlə görünməyən zirvələrə çatmaq eşqi nə idi? Bu hissin qaynağı nə idi? Bəs bu hiss mənim övladlarımda niyə yoxdur? Bəlkə, övladlarım üçün yaratdığım rahatlıq onlarda arxayınçılıq yaradıb? Mənim onlar üçün yaratdığım bu rahatlığı onlar öz övladları üçün yarada biləcəkmi? Niyə onlar bu barədə düşünmür? Bəlkə, bu da təbiidir. Bəlkə, zaman belə gətirib? Yox, zaman neyləsin? Günahkar bizik. Orxanla bərabər Cəlil də yoxdurmu? Cəlildə olan çırpıntı niyə Orxanda yoxdur? Onlar ikisi də eyni vaxtın cavanları deyilmi? Nə isə çətin məsələdir! Bir azdan Şirməmmədgilə gedəcəyəm, minnətli çörək yeməyə. O biriləri kimi niyə bunu da rədd eləyə bilmədim? Mümkün olmur. Bəzən insan özü özünün ziddinə gedir. Bu gün Şirməmmədgildə kəsəcəyim çörək mənim üçün borca çevriləcək, bilirəm. Amma getməyə bilmərəm. Niyə belə olmalıdır? Niyə verilən ziyafətlərin, deyilən sağlıqların arxasında məqsəd, qarşısında borc durmalıdır? Amma, əslində, Şirməmməd bir vaxt bizə təmənnasız, məqsədsiz əl tutmuşdu.

**Ş a b a n** *(Uzaqdan səsi gəlir)* – Ay Zəhra bacı, ay Zəhra bacı!

**Z ə h r a** – Gəldim, gəldim. Kimdi?

**Ş a b a n** – Mənəm, Şaban! Gəlmişəm sizi aparmağa. Şirməmməd

əmi gözləyir.

**Z ə h r a** – Qardaşı apar, mən də gəlirəm.

**Z e y n a l l ı** – Mən burdayam.

**Ş a b a n** – Ay sənin gözünə qurban olum. Məni tanıdın? Şabanam da. Bir yerdə az dirədöymə oynamışıq?

**Z e y n a l l ı** – Vay səni! Kişi, nə yaman qocalmısan?

**Ş a b a n** – Gün axşamdı. Dayı qocalmayım? Elə sən də saçsaqqalı ağartmısan.

**Z e y n a l l ı** – Şaban, bu kənddə mənim ən çox yadımda qalan sənsən. Axı, biz yoldaş olmuşuq. Dəyirman təpəsində güləşdiyimiz yadındadı?

**Ş a b a n** – Bəs mənim başımı yardığın necə? Yadındadı?

**Z e y n a l l ı** – Niyə yadımda olmasın? Axı, sən mənim aşıqlarımı çırpışdırmışdın.

**Ş a b a n** – Vay səni, necə də yadında qalıb ey? *(Gülüşürlər.)*

**Z e y n a l l ı** – Şaban, gedək indi ora.

**Ş a b a n** – Hara?

**Z e y n a l l ı** – Dəyirman təpəsinə. Gedək, bir keçənləri yada salaq.

**Ş a b a n** – Keçən günə gün çatmaz, calasan günü günə. Gedək deyirsən, gedək.

**Z e y n a l l ı** – Harda işləyirsən?

**Ş a b a n** – Şirməmməd kişinin yanında. Onun şoferiyəm.

**Z e y n a l l ı** – Gedək.

Maşının səsi gəlir.

**Z e y n a l l ı** *(düşünür)* – Ey uşaqlıq, uşaqlıq! İndi əlimi nə qədər sənə uzatsam, çata bilmərəm. Bu yerlərin hər qarışında mənim ömrümün bir parçası itib qalıb. Ömrümün o parçalarını axtarmaqla tapmaq olmaz. İllər onların üstünü örtüb, iz itib. İnsan ömrü nə qəribədir. Gələcək gün on ildən sonra olsa da, sənə yaxındır. Gələcəyə çata bilərsən, keçmişə yox. Biz onda nə qədər təmiz, nə qədər gözəl idik. Axırıncı tikəmizi bir-birimizlə bölərdik... Məqsədsiz, qərəzsiz... Bəs indi niyə belə olsun?

**Ş a b a n** – Hə, nə fikrə getmisən? Buranı tanıyırsan? Qurcana çayıdı, ha! Az çimməmişik burda.

**Z e y n a l l ı** – Elədir.

Maşının dayanmaq səsi eşidilir.

**Ş a b a n** – Bu da Dəyirman təpəsi!..

**Z e y n a l l ı** – Burda bir cökə ağacı vardı.

**Ş a b a n** – Hə, çoxdan quruyub.

**Z e y n a l l ı** – Bu təpədə də bir ev var idi.

**Ş a b a n** – Dəmirçi Əlibalanın evi. Kişi öləndon sonra uşaqları Bakıya köçdü. Ev söküldü, dağıldı. İndi bu tərəflərdə yaşayan yoxdur. Camaat ya Bakıya köçür, ya da şəhərin aşağı tərəfinə. *(Pauza.)* Hə nə oldu? Gözümə birtəhər dəyirsən?

**Z e y n a l l ı** – Ürəyim sıxıldı, Şaban. Gedək.

**Ş a b a n** – Gedək. Kişi bizi gözləyir.

Maşın tərpənir.

**Z e y n a l l ı** – Oğuldan, uşaqdan nəyin var?

**Ş a b a n** – Dördü Bakıdadı, üçü institutu qurtarıb, işləyir. Birinə də sən dərs deyirsən. Dördüncü kursda oxuyur.

**Z e y n a l l ı** – Ə, adı nədi?

**Ş a b a n** – Hafiz.

**Z e y n a l l ı** – Hafiz Əlibəyli?

**Ş a b a n** – Özüdü ki, var!

**Z e y n a l l ı** – Ə, bəs mən niyə bilməmişəm? Bəs mənə niyə deməyib? Bilirsən nə ağıllı baladır? Ən yaxşı tələbələrimdəndir. Şaban, səni təbrik edirəm. Gözəl övlad böyütmüsən. Bayaqdan dilxor idim, ürəyim açıldı. Ə, bəs mənə niyə demyib?

**Ş a b a n** – Mən bir-iki dəfə dedim ki, sənə desin. Dedi, bilməsə yaxşıdı, ata.

**Z e y n a l l ı** – Ay afərin, düz deyir. Halal olsun!

**Ş a b a n** – Düzü, mən də demək istəmirdim. Birdən ağzımdan çıxdı.

**Z e y n a l l ı** – Dünya xali deyil, bax, belələri də var.

Professor Z e y n a l l ı n ı n evi. Telefon zəngi.
Ə f ş a n x a n ı m dəstəyi götürür.

**Ə f ş a n** – Bəli, eşidirəm.

**Q u l a m z a d ə** – Professor Zeynallının evidir?
**Ə f ş a n** – Bəli.
**Q u l a m z a d ə** – Professor evdədir?
**Ə f ş a n** – Xeyr, rayondadır. Soruşan kimdir?
**Q u l a m z a d ə** – Həkim Qulamzadə.
**Ə f ş a n** – O, doktor, səsinizi eşidək. Balam, çoxdandır səs-sorağınız yoxdur?
**Q u l a m z a d ə** – Burda yox idim. Göy göldə dincəlirdik. Uşaqları da orda qoyub, özüm gəlmişəm.
**Ə f ş a n** – Xeyir ola, bu yayın istisində?
**Q u l a m z a d ə** – Deyir, yük əyilməsə, daş qəribliyə düşməz, Əfşan xanım. Gör, mən indi nə haldayam ki, istirahəti yarımçıq qoyub gəlməyə məcbur olmuşam.
**Ə f ş a n** – Xeyir ola?
**Q u l a m z a d ə** – Bizim bir qardaş oğlu var. Çox tərbiyəli, mərifətli, savadlı uşaqdır. Bu il orta məktəbi qurtarıb. Gərək, onu düzəldim universitetə. Deyirlər, Zeynallı bu il imtahanda olacaq.
**Ə f ş a n** – Bəli, bəli. Bu il kişi özünü işə salıb. Elə mən də Yessentukidə idim. Uşaqları orda qoyub özüm qayıtmışam ki, kişi burda tək qalmasın.
**Q u l a m z a d ə** – Bəs, nə əcəb bu vaxta kimi gəlməyib?
**Ə f ş a n** – Bu gün harda olsa gəlib çıxar.
**Q u l a m z a d ə** – Deyirəm, Əfşan xanım, yəqin bu qəbul işindən ötrü sizə çox adam zəng eləyir. Deyirəm, bəlkə, kişi qəsdən telefona gəlmir?
**Ə f ş a n** – Yox, siz nə danışırsınız? Kimə, kimə sizə də? Biz sizə ömrümüz boyu borcluyuq. Siz bizim balamızı bizə qaytarmısınız. Sizin şəfalı əlləriniz...
**Q u l a m z a d ə** – O, mənim borcum idi.
**Ə f ş a n** – Sizin qardaşınız oğluna kömək etmək də bizim borcumuzdur. Ömrümüzdə bir dəfə bizə ağız açmısınız, elə şey olar?
**Q u l a m z a d ə** – Onda xahiş edirəm, uşağın imtahan vərəqəsinin nömrəsini yazasınız. 571-ci qrup, nömrəsi 22, kimya fakültəsinə.
**Ə f ş a n** – Oldu, yazdım. Gələn kimi verərəm.
**Q u l a m z a d ə** – Sizə arxayınam, ha. Mənim universitetdə Zey-

nallıdan başqa tanışım, dostum yoxdur.

**Ə f ş a n** — Arxayın olun.

**Q u l a m z a d ə** – Zəhmət olmasa Zeynallı da bir mənə zəng eləsin.

**Ə f ş a n** – Baş üstə, deyərəm. *(Dəstəyi asır.)* Hə, bu oldu on yeddinci adam. Yazıq kişi neyləyəcək, görəsən? *(Telefon zəngi. Əfşan dəstəyi götürür.)* Bəli, eşidirəm.

**S ə k i n ə** – Salam. Əfşan xanımdı danışan?

**Ə f ş a n** – Bəli, kimdi?

**S ə k i n ə** – Səkinədi, sənin partnixan.

**Ə f ş a n** – Salaməleyküm.

**S ə k i n ə** – Ay qız, niyə görünmürsən?

**Ə f ş a n** – Burda yox idim.

**S ə k i n ə** – Deyirəm, axı. On gündü zəng vururam, telefonu götürən yoxdu.

**Ə f ş a n** – Xeyir ola?

**S ə k i n ə** – Xeyir olmamış nə olacaq, ay sağ olmuş? Bilirsən atelyemizə nə cür parçalar gəlib? Vyazannıdan tutmuş, krimplenə qədər. Vallah, adamın ağzının suyu axır.

**Ə f ş a n** – Sən Allah, o krimplendən iki atrezlik saxla, qızımnan özümçün.

**S ə k i n ə** – Saxla da sözdü? Sən məni nə bilirsən? Bir qoluboy, bir kariçnivi qoymuşam şkafa, ağzını da bağlamışam. Neçə gündü səni axtarıram.

**Ə f ş a n** – Ay səni sağ olasan. Deyirəm, sən olmasan mən lüt-üryan qalaram.

**S ə k i n ə** – Mən ölmüşəm məgər sən lüt qalasan? Biz dayı dünənin dostu deyilik ki? Mən demişəm, yenə də deyirəm, səni bəzəmək mənim boynuma.

**Ə f ş a n** – Ömrün uzun olsun. Səkinə xanım. Muradın gözündə qalmasın.

**S ə k i n ə** – Murad deyəndə ki, vallah bilirsən də... Gözümün ağı-qarası bir balam var. Atasız böyütmüşəm onu. Bu il namxuda qurtarıb məktəbi. İndi qalmışam əl-amanda. Bilmirəm necə eləyim? İndi də ali məktəbə uşaq qoymaq Kərbəla müsibətidi. Mənim də oralarda səndən

başqa kimim var? Eşitmişəm, ərün bu il instituta priyom eləyəcək?

**Ə f ş a n** – Kişinin boynuna qoymaq istəyirlər. O da xəstə adam, qalmışıq belə.

**S ə k i n ə** – Mən ömrümdə sənə ağız açmamışam. Gərək mənim sözümü atkaz eləmiyəsən.

**Ə f ş a n** – Vallah, əgər qəbula qalsa, deyərəm kömək eləyər.

**S ə k i n ə** – Qalacaq, bilirəm. Hamısınnan xəbərim var.

**Ə f ş a n** – Vallah, mənim xəbərim yoxdur.

**S ə k i n ə** – Az, yaxşı, özünü bilməməzliyə qoyma. Sən də bilirsən. Bilirsən də, Əfşan xanım, çox da ki, mənim adım arvaddır. Amma mən elə işləri bilən adamam. Dünya gör-götür dünyasıdır. Biz də qanırıq. Xəcalətli qalmarıq.

**Ə f ş a n** – Belə sözlər artıqdır, Səkinə xanım. Xahiş edirəm...

**S ə k i n ə** – Sən bir uşağın listinin nömrəsini yaz. 315. 13-cü qrup. Mexmat. Hə, sən Allah, gözün üstündə olsun.

**Ə f ş a n** – Vallah, bizim kişinin xasiyyətini sən bilmirsən. O, belə şeyləri...

**S ə k i n ə** – Az, yaxşı da. Biz də qanırıq. Kişinin canı arvadın əlindədi. Sən desən, onun nə ixtiyarı var atkaz eləyə?

**Ə f ş a n** – Yaxşı, bacardığımı əsirgəmərəm.

**S ə k i n ə** – Sənə arxayınam, a...

**Ə f ş a n** – Yaxşı, yaxşı! *(Dəstəyi asır.)* Hə, bu da oldu on səkkizinci. Yox, bu daha ağ oldu. Yazıq kişi neyləyəcək. Bu qədər adamı necə keçirə biləcək? *(Telefon zəngi.)* Lap özünü dağıtsa da götürməyəcəyəm.

Telefon ardı-arası kəsilmədən səslənir.
Qapı zəngi. Ə f ş a n qapını açır.

**Ə f ş a n** – Vay, İbiş əmi, xoş gəldin. Sən hara. bura hara?

**İ b i ş** – Xoş günü olsun, qızım. Evinizi gücnən tapmışam.

**Ə f ş a n** – Niyə? Bura ki, məşhur yedir. Hansı taksi şoferinə desən, gətirib çıxarır. Bu kimdir?

**İ b i ş** – Bu da mənim qız nəvəmdir. Xəbirənin ilki.

**Ə f ş a n** – Ay qızım, sən də xoş gəlmisən. Maşallah böyüyüb, mən bunu uşaqlıqda görmüşdüm.

**İ b i ş** – Gəlib-getmirsiniz də. Kasıb əmini saymırsan. Deyir, qohum

gəlmiyə-gəlmiyə yad olar, yad gələ-gələ qohum.

**Ə f ş a n** – Düz deyirsən, əmi. Kənddən çıxanı bir dəfə ora ayaq basmamışam.

**İ b i ş** – Düz eləmirsən də. Qohum-qardaşı yaddan çıxarmaq olmaz.

**Ə f ş a n** – Səndən nə əcəb, ay əmi?

**İ b i ş** – Vallah, qızım, övlad ki var, adamı düşmən qapısına da aparar, dost qapısına da... Amma bura mənim evimdi.

**Ə f ş a n** – Əlbəttə, əmi.

**İ b i ş** – Bu uşaq məktəbi çoxdan qurtarıb. İki ildi gəlir, sizi də burda tapmır. Qəbul oluna bilmir, qayıdır.

**Ə f ş a n** – Bəli, bu da oldu on doqquz.

**İ b i ş** – Nə? Nə dedin?

**Ə f ş a n** – Deyirəm on doqquz.

**İ b i ş** – On doqquz nədi, qızım?

**Ə f ş a n** – Bu qızın nömrəsi.

**İ b i ş** – On doqquz deyil, iyirmi doqquzdur.

**Ə f ş a n** – Hansı fakültəyə girəcək?

**İ b i ş** – Ədəbiyyat fakültəsinə.

**Ə f ş a n** – Bizim kişi riyaziyyat fakültəsində dərs deyir, axı?

**İ b i ş** – Nə olar? Ədəbiyyatda dərs deyənləri tanımır?

**Ə f ş a n** *(dərindən ah çəkir)* – Tanıyır.

**İ b i ş** – Vəssalam da. Qızım, Əfşan, mən onu-bunu bilmirəm. Böyümüsən, maşallah. Ərin alim, özün də ki, belə.

Hələ bu vaxta kimi sənə ağız açmamışam? Yox. Bu mənim birinci xahişimdi. Mən deməsəm də, sən özün gərək bu uşağa kömək eliyəsən. Bəs qohum qohuma nə gündə lazımdı? Quru-quru qurbanın olum?

Telefon zəngi, dəstəyi götürmür.

**Ə f ş a n** – Elədir, əmi, elədir.

**İ b i ş** – Onda danışma, nə deyirəm, ona qulaq as. Biz getdik. Sabah gələcəyəm.

**Ə f ş a n** – Niyə gedirsən, qalın bizdə.

**İ b i ş** – Sən dediyimi eləsən, evində qalmış kimiyəm sağ ol!

İbiş gedir, qapı zəngi, Ə f ş a n qapını açır,

Z e y n a l l ı gəlir.

**Z e y n a l l ı** – Salam!

**Ə f ş a n** – Nə yaman gec gəldin. Səni yaman axtarırlar.

**Z e y n a l l ı** – Elə ona görə də gec gəlmişəm. Sən də nahaq qayıtmısan. Uşaqlar orda tək neyləyəcəklər?

**Ə f ş a n** – Səni uşaqlara sata bilmərəm, kişi. *(Telefon zəngi. Zeynallı telefonu götürmək istəyir.)* Götürmə. Qoy nə qədər qışqırır, qışqırsın.

**Z e y n a l l ı** – Niyə?

**Ə f ş a n** – Xəbərin yoxdu xəbərdən, a kişi? Bir o siyahıya bax.

**Z e y n a l l ı** – Bu nədir ki?

**Ə f ş a n** – Gündə yüz adam zəng eləyir. Daha dəng olmuşaın. Hərə birini tapşırır. Özü də elə adamlardır ki, üzüm gəlmir yox deməyə...

**Z e y n a l l ı** – Məsələn?

**Ə f ş a n** – Məsələn, doktor Qulamzadə!

**Z e y n a l l ı** – Hansı Qulamzadə? Qızı operasiya eləyən?

**Ə f ş a n** – Hə... Uşağı o bizə təzədən qaytardı. Ona necə yox deyəsən?

**Z e y n a l l ı** – Hə... Haqlısan. Heç kəs başa düşmək istəmir. Heç kəs bu işin cinayət olduğunu, xəyanət elədiyini dərk etmir. Bilmirəm, biz nə vaxta qədər bu adi həqiqəti başa düşməyəcəyik? Özümüz öz ayağımıza balta çalacağıq? Biri mən özüm... Mən özüm öz uşaqlarımı... Heç bilmirəm... Deyən də bizik, eləyən də. Mən də kənddən böyük bir siyahı gətirmişəm... Necə eləyəcəyəm, heç bilmirəm... Tapşırmaq olar, birini... ikisini... Bu qədər adama mən neyləyə bilərəm? *(Telefon zəngi.)* Cəhənnəmə ki, götürəcəyəm... *(Dəstəyi götürür.)* Bəli, eşidirəm.

**Q a d ı n  s ə s i** – Danışan professor Zeynallıdır?

**Z e y n a l l ı** – Bəli.

**Q a d ı n** – Salam. Danışan Kamalın yoldaşıdır. Səlimzadə Kamalın.

**Z e y n a l l ı** – Hə... Salam. Necəsiniz? Uşaqlar necədir?

**Q a d ı n** – Sağ olun, əlinizi öpürlər.

**Z e y n a l l ı** – Bağışlayın, üzr istəyirəm, uşaqları gəlib tez-tez yoxlaya bilmirik... İnanın ki, vaxt olmur.

**Q a d ı n** – Bilirəm... Məşğul adamsınız... Çətindir.

**Z e y n a l l ı** – Təqaüd məsələniz düzəldimi?

**Q a d ı n** – Bəli, düzəldib, çox sağ olun. Ancaq ona görə zəng eləməmişəm. Bilirsiniz də... Sizə o vaxt demişdim. Bizim ortancıl bu il universitetə girməlidir.

**Z e y n a l l ı** – Bilirəm... O vaxt mərhumun yasında biz hamımız söz verdik. Onun uşağına kömək eləmək hamımızın borcudur.

**Q a d ı n** – Doğrusu, mən sizdən başqa heç kəsə inanmıram. Axı, bu kişi qırx il universitetdə can qoyub... Minlərlə adam yetişdirib... İndi onun uşağına heç kəs yaxın durmaq istəmir. Bəs bu insafdır?

**Z e y n a l l ı** – Siz arxayın olun, mən rektorla danışaram... hara girmək istəyir?

**Q a d ı n** – Elə atasının sənətinə.

**Z e y n a l l ı** – Çox yaxşı.

**Q a d ı n** – İmtahan vərəqəsinin nömrəsini yazın, xahiş edirəm. 305. 21-ci qrup.

**Z e y n a l l ı** – Əfşan xanım, yaz o siyahıya. Nömrə 305, 21-ci qrup. Mexmat. Səlimzadənin oğlu.

**Q a d ı n** – Çox sağ olun. *(Zeynallı dəstəyi asır, dərindən ah çəkir.)* - Dəhşətdir!.. Bu, müsibətdir!..

Dekanlıq. Z e y n a l l ı, d e k a n.

**Z e y n a l l ı** – Salam!

**D e k a n** – Salam, xoş gəlmisən. Hə, kənddə necə dincəldin? Rəngin əməlli-başlı açılıb.

**Z e y n a l l ı** – Burda tutular.

**D e k a n** – Qorxma, səni çox əziyyətə salmarıq.

**Z e y n a l l ı** – Bir bu siyahıya bax.

**D e k a n** – Bu nədir belə?

**Z e y n a l l ı** – Tanışlarımın, yaxın dostlarımın, qohum-qardaşımın balalarının adları. Düz əlli iki nəfər. Mən bu il bunların hamısını universitetə qəbul elətdirməliyəm.

**D e k a n** – Hə, başa düşürəm, amma bu, hələ harasıdır? Bu əlli iki nəfər sabah yüz əlli iki, birisi gün iki yüz əlli iki olacaq. Bu, belədir, biz bunları çox yaxşı bilirik.

**Z e y n a l l ı** – Bəs necə olsun?

**D e k a n** – Dərd də burasıdır. Necə olsun?

**Z e y n a l l ı** – Bu adamların heç birisinin üzündən keçməli deyil, hamısı ya yaxın qohum, qardaşdır, ya da vaxtilə mənə böyük yaxşılıq eləmiş, dost-tanış, tanış-biliş...

**D e k a n** – Sizi başa düşürəm.

**Z e y n a l l ı** – Başa düşmək azdır. İndi deyin görüm, mən neyləyim?

**D e k a n** – Elə bilirsən, bu vəziyyətdə yalnız sənsən? Belə bir siyahı məndə də var, o birisində də...

**Z e y n a l l ı** – Bəs necə olsun?

**D e k a n**– Onu təkcə məndən yox, hamıdan, bax bu siyahıdakıların ata-analarından soruşmaq lazımdır! Camaat özü eləyir, nəticədə pislə yaxşı, haqla nahaq bir-birinə qarışır. Ədalət tapdanır, həqiqət susur.

**Z e y n a l l ı** – Kim tapdayır ədaləti, kim susdurur həqiqəti?

**D e k a n** – Mən, sən, o... Günahkar bizik, hamımızıq...

**Z e y n a l l ı** – İndi ki, belədir...

**D e k a n** – Nə? Neyləyək?..

**Z e y n a l l ı** – Çətindir! Bu adamların hamısı gəlib durur gözümün qabağında... Gecələr də mənə aman vermir, yuxuma girirlər, kimi yalvarır, kimi xahiş edir, kimi tələb edir... Kimi də... Vaxtilə elədiyi yaxşılığın əvəzini istəyir.

**D e k a n** – Bəli, elədir. Biz də bütün bu xahişləri, yalvarış və tələbləri nəzərə alanda Zeynallı kimi professorların birinci fənn imtahanında həqiqət üzə çıxır. Əlli nəfərdən on doqquzu kəsilir.

**Z e y n a l l ı** – Hələ bu cavanlar cəmiyyətə atılmamışdan, onların qiyməti düzgün verilmirsə, onlar qara ilə ağın seçilmədiyini görürlərsə, bunun sonrası necə ola bilər? Beləliklə, biz cəmiyyətə atılmaq istəyən cavanların ürəyindəki inamı öldürürük. İnamı! Sən bunu başa düşürsən? Bilirsən bu nə deməkdir? Kim bizə bu haqqı verib? Biz cinayət eləyirik, dekan, cinayət! Bir nəfəri öldürən canini güllələyirlər. Biz isə bir nəfəri yox, minlərin inamını, ümidini məhv edirik. Eləsə, bəs bizim cinayətimizin cəzası nə olmalıdır?

**D e k a n** – Keçən tədris ilindən iki borcu qalıb. İndi nə edək?

**Z e y n a l l ı** – Qanun nə tələb edirsə, onu.

**D e k a n** – Qanuna görə kursda qalmalıdır.

**Z e y n a l l ı** – Qalsın!

**D e k a n** – Amma onu sizə görə qəbul eləmişik.

**Z e y n a l l ı** – Doğrudur, günahkar o deyil, mənəm.

**D e k a n** – Əlbəttə.

**Z e y n al l ı** – Mən bu siyahını cırıb imtahana girirəm. Heç kəs də məndən heç bir xahiş edə bilməyəcək.

**D e k a n** – Hamı sizdən üz döndərəcək.

**Z e y n a l l ı** – Amma ədalət tapdanmayacaq.

**D e k a n** – Onu da deyim ki, siz bu siyahını cıranda başqalarının da cibindəki siyahı öz-özünə ölür.

**Z e y n a l l ı** – Mən də bunu istəyirəm!

**Z e y n a l l ı** – İmtahan gedir, mən düşünürəm... Qərarım qətidir! Amma... çox çətindir. Siyahımdakı cavanların heç birini üzdən tanımırdım. Nömrələrini də əzbərdən bilmirdim. Odur ki, heç kəsə fərq qoymadan ədalətlə imtahan gedirdi. Hər kəsin haqqı özünə verilirdi... Ancaq... Bəs tanıdıqlarım? Qızımı ölümdən xilas eləyən həkimin qardaşı oğlu? Mənim bacım oğlu? Bax, burda ilişdim... Həkimin qardaşı oğlunun rəngi kağız kimi ağarmışdı... Dili topuq çalırdı. Hə... nə oldu? Səni gözləyirik... İkinci sualın nədir?

**H ə k i m i n q a r d a ş ı o ğ l u** – Kosinuslar teoremi...

**Z e y n a l l ı** – Hə, danış! Əvvəl teoremi de, düsturu yaz, sonra da düsturu çıxart. *(Sükut.)* Bilmirsən?

**H ə k i m i n q a r d a ş ı o ğ l u** — Üçbucağın bir tərəfinin kvadratı... bərabərdir... bərabərdir...

**Z e y n a l l ı** – Nəyə?

**H ə k i m i n q a r d a ş ı o ğ l u** – Bərabərdir...

**Z e y n a l l ı** – Sözün dalı gəlmədi. Amma həkim, mehriban çöhrəsi ilə gəlib durdu gözümiin qabağında. Birdən çöhrəsi tutuldu. Əllərini ovuşdura-ovuşdura mənə qəzəblə baxırdı. O əllər... Mənim balamı ölümün pəncəsindən xilas edən o əllər, mənim ucbatımdan mürmüc olmuşdu... Titrəyirdi. Mən bir vaxt minnətdarlıqla sıxdığım o əllərə indi baxa bilmirdim. O, mənə bircə kəlmə "çox sağ ol" dedi. Qəribədir, kim haqlıydı, mən, ya o?

* * *

**Z e y n a ll ı** – ...Bir ay keçdi. Bu bir ay mənim həyatımın on tufanlı ayı oldu. Xahişlər rədd olunduqca şəhərdə mənim haqqımda bir söz

gəzirdi. "Sərçənin bəyliyi darı sovuluncaya qədərdir". Ancaq heç bilən yox idi ki, bu bəylik mənə nə qədər ağır başa gəldi. Qohum-qardaş, tanış-biliş hamısı məndən incidi, küsdü. Telefon zəngləri kəsildi. Heç kəs məndən razı qalmadı. Ancaq vicdanım məndən çox razı idi. Vicdanımı tapdamadım. Ədalət gülümsündü. Dünyada vicdanın özündən razı qalmasından böyük xoşbəxtlik yoxdur. Bir gün bacımdan çox ağır bir məktub aldım. Oğlum məndən incimişdi. Atasını danışdırmırdı. Mən ki, öz-özümdən razı idim. Özüm öz hisslərim ilə yaxşıca söhbət edirdim. Hisslərim, fikirlərim mənə "sağ ol" deyirdi. Mənə salam verənlərin də sayı azalmışdı. Arvadım da məndən incimişdi. Səhərlər mən özüm-özümə "sabahın xeyir" deyirdim. Ancaq siz elə güman eləməyin ki, mən tamamilə tək qalmışdım. Mənə tamamilə təzə salam verənlər, ehtiramla qarşımdan keçənlər də tapılmışdı. Bunlar ədalət naminə universitetin tələbə biletini daşıyan, inamını özünə qaytardığım cavanlar idi. Onların birini siz tanıyırsınız. Cəlil, kənddə tanış olduğum Cəlil. Bir gün ona rast gəldim.

**C ə l i l** – Salam, professor.

**Z e y n a l l ı** – Salam, Cəlil, səni təbrik edirəm.

**C ə l i l** – Sağ olun, professor. Sizə minnətdaram.

**Z e y n a l l ı** – Mənə yox, özünə, öz ağlına minnətdar ol.

**C ə l i l** – Sizə haqq naminə minnətdaram!

**Z e y n a l l ı** – Haqq uzanar, amma qırılmaz. Mən səni kənddəki bir sözündən tanıdım. Təyyarə, maşın kimi yola görə getmir, yolu özü açır. Sən yolu özün açdın. Təyyarə kimi. Sən elə də yaşa, oğul.

**C ə l i l** – Çalışıram, professor.

**Z e y n a l l ı** – Təyyarə kimi, eşidirsənmi, oğul, təyyarə kimi. O şeiri bir də desənə.

**C ə l i l** –

Gecə gedir,
Gündüz gedir
təyyarələr.
Məqsədinə,
Mənzilinə dümdüz gedir
təyyarələr.
Eniş bilməz,
Yoxuş bilməz,

Dolay bilməz,
təyyarələr.
Nə burulmaz
Nə əyilməz
təyyarələr.
İçəridən alışmasa
Bu sürətlə,
Bu cürətlə
Gedə bilməz
təyyarələr.
Özü kimi
Ölümü də mərdanədir.
Mənzilinə uça-uça,
qaça-qaça
Öz içindən tez üzülər
təyyarələr.
Yavaş-yavaş enə bilməz,
Öləndə də birdən ölər
təyyarələr.



# KİTABIN İÇİNDƏKİLƏR

**B.Vahabzadə dramaturgiyasında özgələşənlər və doğmalaşanlar** *(Ramazan Qafarlı)* 3

## İNSAN VƏ ZAMAN

Mərsiyə-Rekviem 35

## HEKAYƏLƏR

Məşhur adam 43
Alabəzək çamadan 47
Nənəmin xalçası 61
Yaltaqlıq 70
Ürək döyüntüləri 75
Saat 85
Rəqabət 88
Şübhə 96
Başqası üçün yaşayanda 106
Könül sevən göyçək olar 112
Kölgədə 115
Əqidə 121
Pis adam 128
Fotoqraf 131

## PYESLƏR

İkinci səs 137
Yağışdan sonra 189
Yollara iz düşür 251

Cəzasız günah 301
Dar ağacı 354
Hara gedir bu dünya 406
Özümüzü kəsən qılınc 453
Atamın kitabı 507
Fəryad 545
Rəqabət 657

## TELE-RADİO PYESLƏR, SSENARİLƏR

Dağdan aşan gün 707
Yalan 712
Mənim atam 725
Bir saat sonra 745
Buynuzlu poçtalyon 757
Qisas 759
Qəlyan 765
Duz 775
Atılmamış güllə 779
Yaxşılıq 782
Təyyarə kimi... 787

**BƏXTİYAR VAHABZADƏ**

**ƏSƏRLƏRİ**

**On iki cilddə**

**IX cild**

***(Mərsiyə-Rekviyem, hekayələr, pyeslər, tele-radio pyeslər və ssenarilər)***

*«Qafqaz Plus» MMC-də hazırlanmışdır.*

*Bədii dizayneri*
**Xəyyam Əliyev**

*Texniki redaktorları*
**Adilə Osmanova,**
**Ləman Qafarova**

Çapa imzalanmış 27.01.2009. Kağız formatı 84x108 1/32.
Həcmi 50,88. Tirajı 500. Sifariş 051.
Qiyməti müqavilə ilə.

*Direktor:* **prof. N.B.Məmmədli**
*Nəşrə məsul:* **Əziz Ələkbərli**

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
E-mail: nurlan 1959@yahoo.com
Tel.: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.